# AZƏRBAYCAN

## QƏZETİ

1918-1920

## X CİLD

(İyul 1919)

## TRANSLİTERASİYA EDƏNLƏR

**Mehdi Gəncəli**
Filologiya üzrə fəlsəfə doktoru

**Azad Ağaoğlu**
Filoloq, tərcüməçi

## ELMİ REDAKTOR

**Teymur Kərimli**
Akademik

**ADA Universitetinin**
**təşəbbüsü və dəstəyi ilə nəşr edilir.**

# MÜNDƏRİCAT

**Ön söz**
**Oxucuların diqqətinə**
**Nömrə 215** (3 iyul 1919) ........ **1**
**Nömrə 216** (4 iyul 1919) ........ **21**
**Nömrə 217** (6 iyul 1919) ........ **47**
**Nömrə 218** (7 iyul 1919) ........ **73**
**Nömrə 219** (8 iyul 1919) ........ **99**
**Nömrə 220** (9 iyul 1919) ........ **125**
**Nömrə 221** (10 iyul 1919) ........ **153**
**Nömrə 222** (11 iyul 1919) ........ **179**
**Nömrə 223** (13 iyul 1919) ........ **205**
**Nömrə 224** (14 iyul 1919) ........ **231**
**Nömrə 225** (15 iyul 1919) ........ **259**
**Nömrə 226** (16 iyul 1919) ........ **285**
**Nömrə 227** (17 iyul 1919) ........ **313**
**Nömrə 228** (18 iyul 1919) ........ **339**
**Nömrə 229** (20 iyul 1919) ........ **365**
**Nömrə 230** (21 iyul 1919) ........ **383**
**Nömrə 231** (22 iyul 1919) ........ **403**
**Nömrə 232** (23 iyul 1919) ........ **429**
**Nömrə 233** (24 iyul 1919) ........ **455**
**Nömrə 234** (25 iyul 1919) ........ **481**
**Nömrə 235** (27 iyul 1919) ........ **505**
**Nömrə 236** (28 iyul 1919) ........ **533**
**Nömrə 237** (29 iyul 1919) ........ **559**
**Nömrə 238** (30 iyul 1919) ........ **585**
**Nömrə 239** (31 iyul 1919) ........ **611**
**Adlar göstəricisi** ........ **637**

# ÖN SÖZ

ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin orqanı olan “Azərbaycan” qəzetinin (1918-1920) tam külliyyatı ərəb qrafikalı əlifbadan latın qrafikalı müasir Azərbaycan əlifbasına köçürülərək, lüğət, izahlar, şərhlər və adlar göstəricisi əlavə edilməklə nəşrə hazırlanmaqdadır. Təəssüflə qeyd etmək lazımdır ki, bu istiqamətdə ayrı-ayrı təşəbbüslər olsa da (mərhum professor Şirməmməd Hüseynovun çalışmaları xüsusilə yada salınmalıdır), “Azərbaycan” qəzeti kimi mühüm bir nəşrin müasir oxucu üçün əlçatan olmasını təmin edəcək bu səviyyədə bir iş, 30 illik müstəqillik dövründə həyata keçirilməmişdir.

“Azərbaycan” qəzetindəki materiallar Azərbaycan Cümhuriyyətinin bilavasitə tarixini əks etdirir. Qəzetin səhifələrində Azərbaycan Hökumətinin qərarları, Parlament üzvlərinin çıxışları, paytaxtda və bölgələrdə baş verən hadisələrin təfərrüatları, müxtəlif təhlillər, xatirələr öz əksini tapıb. Günümüzdə xüsusi əhəmiyyət kəsb edən Qarabağ, Zəngəzur bölgələrinə dair materiallar oxucularda böyük maraq doğuracaqdır. Eləcə də, Azərbaycan Cümhuriyyətinin xarici dövlətlərlə münasibətləri, dövrün ab-havası müfəssəl şəkildə qəzetin səhifələrində əks olunub. Ümumiyyətlə bu qəzetin transliterasiyası Azərbaycan Cümhuriyyəti tarixşünaslığında yeni bir səhifə açacaq və gələcək tədqiqatlar üçün mühüm stimul olacaqdır.

İlk dörd nömrəsi Gəncədə, sonrakı nömrələri Bakıda nəşr edilən “Azərbaycan” qəzetinin 15 sentyabr 1918 – 28 aprel 1920 tarixləri arasında 443 nömrəsi çapdan çıxmışdır. Qəzetin redaktorları müxtəlif vaxtlarda Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli və

Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur. Qəzet əksəriyyətlə 4 səhifə həcmində çıxsa da, bəzi nömrələrdə səhifələrin sayı fərqlilik göstərir. Hər səhifədəki sütunların sayı və səhifələrin ölçüsü, qəzetin çap olunduğu 19 ay yarımlıq müddət ərzində bir neçə dəfə dəyişmişdir.

"Azərbaycan" qəzetinin nüsxələri Azərbaycan Respublikasının Milli Arxiv İdarəsində, Azərbaycan Respublikasının Dövlət Arxivində, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Azərbaycan Milli Kitabxanasında pərakəndə halda saxlanmaqdadır.

Qəzetin müasir oxucu üçün əlçatan olması tariximizin Cümhuriyyət dövrü kimi zəngin səhifəsinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Azərbaycan xalqının tarixi mirasını qorumaq və gələcək nəsillərə ötürmək işinə töhfə verməkdən ADA Universiteti qürur duyur.

**Hafiz PAŞAYEV,**
**ADA Universitetinin Rektoru**



## OXUCULARIN DİQQƏTİNƏ

"Azərbaycan" qəzetini transliterasiya edərkən, mətnin orijinallığını qorumaqla birgə, materialların müasir oxucu üçün mümkün qədər anlaşılan olmasına çalışdıq. Bu səbəbdən, bəzi sözlərin imlasını müasirləşdirmək lazım gəldi. Məsələn, "çox" yerinə qəzetdəki kimi "çoq", "yox" yerinə "yoq", "etməyi" yerinə "etməgi", "kimi" yerinə "kibi", "nömrə" yerinə "numero" və s. yazmaq, oxucunun işini çətinləşdirməkdən başqa bir şeyə yaramayacaqdı. Üstəlik, bu sözlərin fərqli yazılışları qəzetdə bəzən eyni səhifədə yanaşı istifadə edilmiş, yəni imla birliyi prinsipi nəzərə alınmamışdı. Bu qəbildən olan sözlərin müasir yazılışına üstünlük verməyin, daha doğru bir addım olacağına inandıq.

Eyni zamanda, "teatro", "qəzetə", "böylə" kimi bəzi sözlərə toxunmadıq. Çünki əvvəla, bu sözlər qəzetdə həmişə eyni cür yazılmışdır; ikincisi də, mütaliəni çətinləşdirmədən dövrün ab-havasını saxlamağa xidmət edir.

Osmanlı türkcəsində və müasir Türkiyə türkcəsində indiki zaman şəkilçisi olan "-yor" qəzetdə qaydasız və pərakəndə bir şəkildə işləndiyi üçün (eyni cümlədə həm "-yor", həm "-ır, -ir, -ur, -ür" şəkilçisindən istifadə edildiyini görmək mümkündür) mətndən çıxarılmışdır. Şeir parçalarında vəznin pozulmasına yol verməmək üçün "-yor" şəkilçisinin saxlandığı istisnalar da var.

Yer adlarını, fərqli versiyaların işlənməsi baxımından (Bolqarıstan – Bolqariya, Lehistan – Polşa, Macarıstan – Venqriya və s.) qəzetdəki kimi saxladıq, fəqət yazılış baxımından müasirləşdirdik ("Bulqarıstan" yerinə "Bolqarıstan", "Kiyef" yerinə "Kiyev" və s.). Eləcə də, "Bakü" yerinə bugünkü kimi "Bakı" yazdıq. Soyadı sonluqlarını da ("-of", "-yef" və s.) müasirləşdirməyi ("-ov", "-yev" və s.) məqsədəuyğun hesab etdik.

Çətin anlaşılan söz və ifadələr üçün cildin sonuna lüğət əlavə etməyi münasib görmədik. Əvvəla, hər dəfə mütaliəni kəsərək lüğətə baxmaq oxucu üçün çətindir, ikincisi, bəzi sözlərin bir çox mənası içindən məhz hansının nəzərdə tutulduğunu təyin etmək barəsində oxucu tərəddüddə qala bilər. Çətin anlaşılan söz və ifadələrin necə başa düşülməli olduğunu mətnin içində kvadrat mötərizədə göstərdik. Bu halda, kvadrat mötərizədəki sözlər normal mətndən daha kiçik şriftlə verilmişdir. Məsələn: “...xəstəliklərin bittamam rəf’inə [tamamilə aradan qaldırılmasına] qədər...” Qəzetdəki mətndə səhvən buraxılan sözləri də kvadrat mötərizə içində əlavə etdik. Bu halda, kvadrat mötərizədəki sözlərlə normal mətnin şrifti eynidir. Məsələn: “...Xarici [İşlər] nazirinin...”

Hər nömrədən sonra əlavə edilən “Qeyd və şərhlər”də, oxucular üçün faydalı məlumatlar yer alır. Qəzetdəki mürəttib xətalarından bəziləri (xüsusilə əhəmiyyətli olanları) də burada göstərilmişdir. Əlbəttə, bütün xətaları göstərmək lazım və mümkün deyildi. Xüsusilə Birinci Dünya müharibəsində Qərb cəbhəsi xəbərlərində keçən toponimlər qəzetdə demək olar ki, həmişə səhv yazılmışdır. Bu toponimlər mümkün qədər bərpa edilmiş, eləcə də “Adlar göstəricisi”nə əlavə edilərkən, toponimin aid olduğu dildəki yazılışı da verilmişdir.

Şeir parçalarında rastlanan çətin anlaşılan söz və ifadələrin lüğəti də “Qeyd və şərhlər” bölməsində verilmişdir.

Cildin sonunda “Adlar göstəricisi” verilmişdir. Mətndəki bütün şəxs, yer, dövlət, xalq, qurum, idarə, təşkilat, şirkət və s. adları, hətta bəzi xüsusi terminlər “Adlar göstəricisi”nə daxil edilmişdir.

**Mehdi Gəncəli** **Azad Ağaoğlu**


آذربایجان

اعلان

آذربایجان حکومتنك قرارلرندن

حکومت امرلری

گنجه

Cümə axşamı, 3 iyul 1919-cu il, nömrə 215

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 4 şəvvalül-mükərrəm sənə 1337. 3 təmmuz 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.

Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.

**MÜSƏLMAN MÜƏLLİMƏ VƏ MÜƏLLİMLƏRİ ÜÇÜN İKİ AYLIQ KURSLAR**

İyulun 5-dən etibarən Bakıda müsəlman müəllimə və müəllimləri üçün 100 nəfərlik kurs açılır. Kursa daxil olanlar: 60 müəllimə və müəllimlər Şamaxı və Göyçay uyezdlərindən, 18 müəllimə və müəllimlər Bakı uyezdindən, 32 sentyabr ayından müəllimə və müəllimlik etmək istəyənlər. Kursda oxuyanlara yövmiyyə və xərci-rahı [gündəlik xərclik və yolpulu] veriləcək, bunlar üçün "Svyataya Nina" məktəbində mənzil hazırlanır. Kursda oxuyanlar bir ildən əskik olmayaraq müəllimlik etməyə məcburdurlar. Xahiş edənlər Bakı və həvalisi [ətrafı] məktəb müdirinin dəftərxanasına rücu [müraciət] etsinlər.

Pozenovski küçə, nömrə 15.

Qeyd: Müəllimələr üçün kurs əlahiddə mənzildə olacaqdır.

*10263*

**HACIAĞA İSGƏNDƏROVUN XALÇA VƏ MANUFAKTURA MAĞAZASINDA**

Təzə alınmış hazır Amerika kişi ayaqqabısı (çəkmələri) məşhur Amerika fabrikası "Helios" malı 150 cift [cüt], 40 nömrədən 44 nömrəyədək. Hər cütünün qiyməti 1200 manat. Mağaza Baryatinski küçə, Lalayevin pasajında (sabiq Kafiyevin) telefon nömrə 19-14.

*10267*

**ZAVOD YOLDAŞLIĞI "AMİZ"**

Hər cür mədən və paroxod işlərini qəbul edir, bu cümlədən slesar [çilingər] işi, tokar [dülgər] işi, kuzneçni [dəmirçi] işi, xarrat işi, çuqun və bürünc işləri. Adres: Bakinski dokun yanında, 3-cü pristanda, Leonovun həyətində, telefon nömrələri: 42-10 və 18-42. Müdir: Süleyman Abdullayev.

*10269*

**ELAN**

Açılıb tənbəki və papiros fabrikası Ağazeynal Zeynalov. Voronsovski küçədə 26 nömrəli evdə, telefon nömrə 20-07.

*10265*

## QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyətinin Maarif Nəzarətindən**

*Əmrnamə sayı 201*

Hökumət qəzetəsi "Azərbaycan" mətbəəsi xəzinədarı Seyid Hüseyn Sadıqov

bu il mayıs ayının 31-dən kəndi ərizəsinə binaən vəzifəsindən kənar edilir.

*Maarif naziri: Qaplanov*
*24 həziran 1919*

*Əmrnamə sayı 199*

Bakı sakini Cavad Quliyev bu həziran ayının 1-dən 1919-cu ildən hökumət qəzetəsi "Azərbaycan" mətbəəsində xəzinədar təyin olunur.

*Maarif naziri: Qaplanov*

**Posta-Teleqraf Nəzarətindən**

*Əmrnamə nömrə 70*

Quba posta-teleqrafxanası 5-ci dərəcəli məmuru Abdulla bəy Axundov həziranın 1-ci günündən həman posta və teleqrafxana müdiri təyin olunur.

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

*Əmrnamə nömrə 71*

Bakı Mərkəzi posta-teleqrafxanası 5-ci dərəcəli məmuru Musa bəy Qaragözov həziranın 28-ci günündən Xaçmaz posta və teleqrafxanasının müdiri təyin olunur.

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

*Əmrnamə nömrə 72*

Qusar posta və teleqrafxanası 5-ci dərəcəli məmuru Nüsrətulla Butayev həziranın 28-ci günündən həman posta və teleqrafxananın müdiri təyin olunur.

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

*Əmrnamə nömrə 74*

Məmuriyyət mövcibincə [səbəbindən] getdiyim Tiflis səfərindən qayıdıb, bu tarixdən Nəzarəti idarə etməyə şüru etdim [başladım]. Bütün təhti-nəzarətimdə [tabeçiliyimdə] bulunan idarələrə elan edirəm.

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*
*Kargüzar: İbrahimbəyli*

**Əxzi-Əsgər İdarəsindən**

Bakı uyezdnı [qəza] Əxzi-Əsgəriyyə [Hərbi Çağırış] İdarəsi təyin edibdir əsgərlik vəzifəsini ifa etməkdən ötrü 1894, 1895, 1896, 1897, 1898, 1899-cu sənələrdə təvəllüd tapan [anadan olan] müsəlman cavanlarından ötrü zeyldə [aşağıda] yazan vaxtları:

Balaxanı və Sabunçu Polis müdiriyyəti üçün

1, 2 və 3-cü polis uçastokları – 2 iyul
4 və 5-ci polis uçastokları – 3 iyul
7-ci polis uçastoku 5 və 6 iyul
6-cı polis uçastoku – 7 iyul

Bakı şəhəri üçün

1, 5, 7, 8, 9 və 10-cu polis uçastokları – 10 iyul

2-ci polis uçastoku
Məhəmmədyar məscidi – 12 iyul
Gilək məscidi – 13 iyul
Cümə məscidi – 14 iyul

3-cü polis uçstoku
Təzəpir məscidi – 15 iyul
Qasımbəy məscidi – 16 və 17 iyul

4-cü polis uçastoku
Hüseynqulu və Hacı Hüseyn və Məhəmmədi məscidləri – 19, 20, 21 iyul

6-cı polis uçastoku





Təzə, Hacı Ağababa və Hacı Pirverdi məscidləri – 22, 23 və 24 iyul

1) Əsgərliyə dəvət olunur yerli əhali və kənar yerlərdən gələn, Bakıda sükunət edən [yaşayan] Azərbaycan vətəndaşları hərçənd siyahıda yazılmamış olsalar da və habelə metrik dəftərində yazılmamış olsalar da. Əsgəriyyə qulluğundan azad olmaq külfət qərarı üzrə və naxoşluğa görə və ya qeyri səbəblərə görə mümkün olar Əxzi-Əsgəriyyə İdarəsinin qəti-təyyinə [qəti qərarına] görə. Ona görə, hərgah bir evdə əsgərlik yaşında bir nəfər və ya neçə nəfər adam varsa, hamısının borclarıdır gəlsinlər.

2) Əxzi-Əsgəriyyə İdarəsinə gəlmək vacibdir, həm çətin padşahlıq qulluğunda olan adamlar üçün də və dəmiryollarında və kanvoynı sotnidə [mühafizə dəstəsində] və ya çastnı [xüsusi] qulluqlarda olan adam üçün biqeyriəz-vayenni qulluqçular [hərbi qulluqçulardan başqa].

3) Qeyri yerlərdə olan əsgərlik yaşında olan adamlara, onların ataları və qeyri əqvamları [qohumları] məlumat verməlidirlər.

4) Çağırılan adamlar borcludurlar gələlər Əxzi-Əsgəriyyə İdarəsinə, Persidski və Qubernski küçələrin küncündə olan Şaqidanovun evində, camaat vəkilləri ilə bərabər, hansı ki, siyahı yazmaqda iştirak edibdirlər, sübh saat 9-un yarısında.

İdarə özünü borclu bilir xəbərdar etməyə ki, bu ikinci prizıvdır [çağırışdır], ona görə hərgah gələcəkdə əsgərliyə düşən adam tapılsa, hansı ki, vaxtında gəlməyiblər, bu gunə [bu cür] adamlar əsgərlikdən qaçan hesab olunacaqdırlar; onların ana və ataları və evlərin böyükləri onların qaçmaqlarına kömək edən hesab olunacaqdırlar.

*İdarənin sədri: Talışxanov*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**Növbədən xaric iclas**
*(keçən nömrədən mabəd)*

**Əbilov İbrahim** - (Sosialist) Möhtərəm məbuslar! Məhəmməd Əmin əfəndi həzrətləri nitqlərində buyurdular ki, "Ədüvv şəvəd səbəbi xeyr, əgər xuda xahəd".

Kənardan bizi təhdid edən, Rusiya hürriyyətini boğmaq istəyən Denikin hamımızın düşməni olduğu halda, iki qonşu milləti birləşdirməyə məcbur etdi və birləşdirməyə bilməzdi. Çünki bu millətlərin hürriyyəti və istiqlalı Rusiya inqilabi-kəbirinin [böyük Rusiya inqilabının] nəticəsi idi. Odur ki, bütün Rusiya və Qafqaziya hürriyyəti[ni] təhlükə altına alan bir qüvvə qarşısında Qafqaziya millətləri birləşmədən qalammazlardı, həm öylə də oldu. Denikin təcavüzü Qafqaziya millətlərini, Qafqaziya demokratiyasını birləşdirdi. Bu iki millətin həyatında öylə vaxtlar olmuşdur ki, ən səmimi dost olan gürcü və Azərbaycan demokratiyası arasında bəzi ixtilafa bais olmuşdur. Hətta bəlkə münaqişə belə çıxarmaq dərəcəsinə varmışdır. Lakin bu iki demokratiya arasında münaqişə olmamışdır. Bu surətlə həman şeir məfhumunca, Allah istədi, düşmən xeyirə səbəb olub demokratiya arasında dostluq əmələ gəldi. Fəqət əfsuslar olsun ki, böylə bir zəmanədə üçüncü demokratiya [xalq] iş başında duran

hökumətin politikası sayəsində qəflətdən hələ ayılmayıb, ona görə də bu gün bu etilafnamənin [razılaşmanın] altında onların imzaları yoxdur. Amma bununla bərabər ümidvarız ki, erməni demokratiyası onların qonşularla birləşməsinə mane olan qüvvəni rədd edərək hökuməti öz əlinə alar və axırda əlimiz bir-birinə çatar. Erməni demokratiyası da bu ittifaqa daxil olar. Bu surətlə də ümum Zaqafqaziya demokratiyası birləşər.

Gürcü demokratiyası ilə Azərbaycan türk demokratiyasını bu gün bir təhlükə birləşdirdi. Bu gün bəziləri bəlkə güman edirlər ki, o təhlükə indi artıq zail olmuşdur [aradan qalxmışdır]. Öylə ümid edənlər ola bilər ki, guya o sərhəd ki, bizə vəd ediblər, həman xətti-hüdud təyini məsələni bitirib qurtarmışdır. Amma əqidəmizcə, o kağız, o vəd əhəmiyyətsiz şeylərdir. Çünki hamımız biliriz ki, Denikinin çalışdığı, Rusiyanı təzədən əvvəlki sərhədi daxilində həyata gətirməkdir. Bu fikrində, bu əməlində müvəffəq olub Rusiya hürriyyətini boğarsa, şübhəsizdir ki, Denikinin axırkı zərbəsi yenə Azərbaycan üzərinə endiriləcəkdir. Ona görə, o vədlərə inanmayıb, gərək şərtnaməmizi daha da möhkəmləşdirərək və nəinki böylə hərbi müdafiə etilafı əqd etmək, bəlkə gələcəkdə qonşu demokratiya ilə bilmərrə birləşək. Əgər bu etilafnamə möhkəmləşməsə, o halda təhlükə daha da artar. Binaənileyh [ona görə], Gürcüstan ilə aramızda bağlanmış əqdnaməni möhkəmləşdirməli və üçüncü demokratiyanın da bu ittifaqa daxil olmasına çalışmalıdır. Bilməlidir ki, bizim istiqlalımız paydar [əbədi] olar ancaq bu cür etilaflar ilə, dünya sülh və etilafı ilə. Şimdi bu iki demokratiyanın birləşməsi gələcəkdə sairləri ilə və bütün dünya demokratiyası ilə etilafa girişmək, birləşmək üçün bir müqəddimədir. Ona görə, yaşasın Azərbaycan demokratiyası! Yaşasın Gürcüstan demokratiyası! Yaşasın gələcəkdə bizimlə birləşəcək olan erməni demokratiyası! *(Alqış)*

**Əfəndizadə H[acı] H[üseyn]** (Əhrar) - Bugünkü günün bizim üçün tarixi əhəmiyyəti var. Çünki xaricdən vətənimizi təhdid edən bir təhlükə qarşısında qonşumuzla etilafa gəldik. Bu etilafnamə bizim daima bəsləməkdə olduğumuz arzunun birinci səmərəsidir. Ümidvaram ki, gələcəkdə aramızda daha geniş, daha böyük etilaflar, ittifaqlar əmələ gələcək və türk milləti ilə gürcü milləti hər bir barədə birləşəcəkdir. Bu etilafnamənin Xariciyyə Nəzarətimiz üçün daha başqa bir əhəmiyyəti də var ki, istiqlalımızı möhkəmləşdirmək, hər hala qarşı müdafiə etmək uğrunda çarələr düşünüldüyünü, tədbirlər görüldüyünü bildirir. Məlumdur ki, istiqlal elan etmiş olan ümum demokratiya və ələlxüsus Azərbaycan demokratiyası bu rəydədir ki, hürriyyət və istiqlalını hər vasitə ilə olur-olsun, hanki qüvvə müqabilinə olur-olsun müdafiə etməlidir. Məlumdur ki, bu da təklikdə çətin mümkün olar. Heç millət özünü təkbaşına müdafiə edə bilməz. Odur ki, istiqlal və hürriyyəti müdafiə edə bilmək üçün qonşularla etilafa girmək, birləşmək lazımdır. Natiqlərdən birisi Azərbaycandan bəhs edərkən "biz zəif bir millətik" dedi. Fəqət mən deyirəm, xayır! Öylə deyil, biz böyük bir millətik! Lakin gənc bir istiqlala malikiz. Bir qədər keçərsə, gələcəkdə istiqlalımız möhkəmləşər və o





vaxt bizim böyük olduğumuz görülər. O gözəl və böyük istiqbala [gələcəyə] və istiqlala ərişmək uğrunda birinci qədəm olmaq üzrə biz bugünkü etilafnaməni səmimi-qəlbdən alqışlayaraq deyiriz: Yaşasın demokratiya birliyi! *(Alqış)*

**Bakradze** (Gürcü) - Xalq nümayəndələri vətəndaşlar! Bu gün təsdiq edilmək üçün bizə böyük tarixi əhəmiyyəti olan bir əqdnamə təqdim edilmişdir.

Tiflisdə Gürcüstan və Azərbaycan cümhuriyyətləri nümayəndələri tərəfindən iyunun 16-da əqd edilmiş olan siyasi-hərbi etilafnamənin hüsn-təsir və nəticələrini və əhəmiyyətini tamamilə təyin etmək hal-hazırda mümkün deyildir. Bu əmrə bəhəqq [layiqli] qiymət qoymaq gələcək nəslin, gələcək müvərrixin [tarixçinin] işidir. Fəqət indi də qəti aydın bir surətdə demək olar ki, iyunun 16-cı günü bundan böylə Zaqafqaziya cümhuriyyətləri tarixində yeni səhifə açan, yeni bab [fəsil] təşkil edən tarixi bir gün, məzkur [deyilən] millətlər həyatında yeni yollar qeyd edici bir tarixi rəhnüma [yol göstərən, rəhbər], Zaqafqaziya demokratiyasını, müqəddəratını qədərləyən yeni bir amil olacaqdır.

Vətəndaşlar! Müahidənamənin [sazişin] bütün maddələrində müşahidə olunan əsasi bir ideyanı məəlməmnuniyyə [məmnuniyyətlə] qeyd etməmək olmaz, o da müahidənamənin hər növ təcavüzkaranə qərəzdən və dövlətlər arasında adətən xalqdan bixəbər və camaat mənafeyi zərərinə olaraq əqd edilən köhnə müahidənamələrin həmişə əhatə edildiyi əsrardan [gizlilikdən] xali olmasıdır.

16 iyun müahidənaməsi isə xalqın gözünün qabağında əqd edilmişdir və nümayəndələri şəxsində xalq onu təsdiq də edə bilər, rədd də. Müahidənamənin böylə dərin demokratikliyi təmin edir ki, nəinki hər iki cümhuriyyətin hökumət başında duran dairələri, bəlkə iki məmləkətin arasında bir əlaqə, bir rabitə təşkil edəcəkdir və hər iki millət həqqi-hakimiyyəti və məsuniyyəti-mülkiyyəsini [torpaq toxunulmazlığını] müdafiə etmək üzrə müahidənamənin əsasına qoyulmuş olan ali prinsiplərin müdafiəsinə idrakla qalxışar. Fəqət bu müahidənamənin üzərində Zaqafqaziya millətlərinin birliyi, həmrəyliyi binası qurula biləcək möhkəm bir özül təşkil edə bilməsi üçün lazımdır ki, kəndi hüquqlarına sui-niyyət bəsləyən düşmənlərdən bu ittifaqı müdafiə etməyi millətlər özləri dərk etsinlər.

Bunun üçün yalnız bir siyasi-hərbi müqavilənamə əqdi kafi deyildir. Öylə şərait hasil etmək lazımdır ki, onun vücudu ilə millətlər təsdiqimizə vəz [təqdim] edilmiş və həman millətlərin mənafeyinin mücəssəməsi olan əqdnaməni müdafiə etmək lüzumunu bittəb [təbii olaraq] tarix və təbiət şövqü ilə dərk etsinlər. Hər iki cümhuriyyətin hökumət dairələrinin nəinki xarici, bəlkə daxili siyasətdə də əlbir olaraq müttəhidən [birgə] çalışması və öylə şərait hasil etməsi lazımdır ki, məzkur cümhuriyyətlərin demokratiyasına iqtisadi, mədəni və siyasi rifahi-halın son dərəcəsi təmin edilmiş olsun. O halda hər iki cümhuriyyətin demokratiyası ümumi bir təhlükə çıxdığı təqdirdə bundan böylə iki qardaş millətin sarsılmaz, möhkəm bünövrəsini təşkil edən mühaidənamənin əsaslarını bilatərəddüd [tərəddüd etmədən] səbatla müdafiə edər.

16 iyun əqdnaməsinin əhəmiyyətin-

dən bəhs edərkən, mən Rəsulzadə Məhəmməd Əmin əfəndinin şimdi burada bəyan etdiyi bir fikri təkrar etmək istərdim.

Burada və Avropada bizim düşmənlərimiz qərəzkaranə bir surətdə şayiə buraxırlar ki, Zaqafqaziya millətləri öz aralarında sülh ilə yaşamağa müstəid [qabil] deyildirlər. Binaənileyh, qəyyuma möhtacdırlar. ("Tayms" qəzetəsinin mütaliələri).

Vətəndaşlar! Məclisi-Məbusanın bugünkü təntənəli iclası bu yalanı təkzib etməzmi? Və barı şimdi yalançılar, iftiraçılar ağızlarını yummağa məcbur olmazlarmı?!..

Azərbaycan Cümhuriyyəti daxilində yaşayan və bu gün onun adından bu Ali Məclis hüzurunda danışmaqla şərəfyab olduğum gürcü demokratiyası bu əqdnaməni təbrik və təhniyət edir [qutlayır] və qardaşlıq ittifaqı sayəsində parlaq istiqbal və şərəfli gələcək ümidi verən yeni təriqə təvəssül etmiş [yeni yola addım atmış] Zaqafqaziya millətləri üçün bu müahidənamədən xeyirli, səmərəli və hüsnnəticələr gözləyir. *(Şiddətli alqış)*

**Qarabəyli Qara bəy** - (İttihad) Əfəndilər! Bu atılan qədəm məncə, elani-istiqlaldan qabaq atılmalı idi. Zira elani-istiqlal edən millətlər qabaqcadan hanki əsaslara istinad edəcəklərini və hanki qüvvə ilə istiqlallarını müdafiə edəcək və yaşadacaq olduqlarını o vaxtdan düşünməli idilər. Zaqafqaziya cümhuriyyətlərinin böyük xətasıdır ki, bunu o vaxt düşünməmişlərdir. Bu gün biz əgər nəzəri-tədqiqdən keçirsək görəriz ki, Zaqafqaziya millətləri o vaxt ittifaq yapmış olsaydılar və həman ittifaqa qonşu millətlərin həpsi iştirak etsəydi, heç indi bizi təlaşa salan və indi birləşməyə vadar edən amillər olmazdı.

Şübhəsiz ki, denikinlər və sairləri Qafqaziyada böylə bir ittifaq görsəydilər, indi başımıza gələn bəlalar heç başımıza gəlməzdi. Bu gün Şimali Qafqaziyanın başına gələn fəlakəti nəzərə alsaq – ki, heç fərqi yoxdur, bizim öz başımıza gəlmiş hesabdır – görəriz ki, əgər bu ittifaqı qabaqda əqd etmiş olsaydıq və Şimali Qafqaziya millətləri də buraya daxil olsaydılar, yəqin ki, Şimali Qafqaziya Cümhuriyyətinin də başına o fəlakət gəlməzdi.

Binaənileyh, biz bu əqdnamənin nə qədər nöqsanı olsa belə bu gün onu maddə-maddə tənqid etməyəcəyiz. Çünki istiqlalı müdafiə məsələsi gəldikdə, cüziyyata [xırdalıqlara] baxılmaz. Hazırda bizim üçün bu ittifaqın varlığı şərtdir. Bu gün bu ittifaqda iqtisadi və maddi mənfəət aramaq xətadır. Zira bizə ancaq o ülvi və müqəddəs məqsəd, bir ittifaq, bir müdafiə yoldaşlığı lazımdır. Bu nöqteyi-nəzərdəndir ki, bağlanmış olan etilafnamə, qüsuru olsa belə, bizcə məqbuldur və onu tənqidə lüzum yoxdur.

Madam ki, əsrlərdən bəri qonşuluq etmiş, mehriban yaşamış, bir-birini tanımış olan iki millət birləşmək istəyir, biz bu fikri, bu təşəbbüsü təbrik ediriz. Hələ aramızda ittifaq olmayan zaman gürcü milləti ilə Azərbaycan türklərinin dostluqla yaşamış olduqları, bu iki millətin yek-digərinə [bir-birinə] qarşı hiss etdiyi rəfaqət [yoldaşlıq, dostluq] və bu üzdən hasil olan möhkəm zəminə bizi inandırır ki, bu iki millət həmişə müvəffəqiyyətlə müttəfiq olub ittifaqı yaşada bilər. Əqd olunmuş ittifaqı bütün qəlbimizlə təbrik ediriz. Ancaq ittifaqa daxil olmayan üçüncü millətə də tövsiyə ediriz, bir an əvvəl daxil olsun, çünki kənarda durmaqla o millət bizə deyil, özünə zərbə vurmuş olur, çünki ümum arasında bəhs edilən ittifaqi-miləl ya Cəmiyyəti-Əqvam [Millətlər İttifaqı] baş tutmaz bir puç şeydir. Avropanın əski çürük siyasəti həmişə başqalarının vətənini istila, xırda millətləri qəhr və məğlub etməkdən ibarət ikən, əmin olsunlar ki, avropalılar öz xoşuna yenə heç kəsə, heç millətə bir şey verməzlər, verməyəcəklərdir də. Bu vaxtadək təcrübə göstərir ki, ancaq elani-hüquq etmiş və onu müdafiəyə çalışmış olan millətlər haqq və hüquq almışlardır. Ümid etmək ki, avropalılar heç kəsə heç zad vermədikləri halda bəzilərinin qara gözünə aşiq olacaq, onların istədiklərini verəcəkdir, buna inanmaq, ümidvar olmaq böyük səhvdir. Avropalılar ancaq öz xeyirlərini, öz mənfəətlərini axtarırlar. Odur ki, onlara ümid bağlayanlar yanılırlar. Binaənileyh, yatanlar ayılmalı, aldananlar anlamalıdırlar. Bu gün Gürcüstan ilə Azərbaycan arasında etilafnamə əqd edilməsi göstərir ki, biz iki millət və bizim hökumətlərimiz öz mənfəətlərini dərk etmiş, dərdlərini və onun çarəsini anlamış, necə əlac etmək lazım gəldiyini bilmişlərdir. Ona görə, biz bu ittifaqı səmimi-qəlbdən təbriklə ümid ediriz ki, ən yaxın zamanda ümum demokratiyanın köməyi ilə Dağıstan dəxi yenidən istirdad [xilas] edilər. Şimdi biz daxili işlərimizi, mübahisələrimizi sonraya buraxalım da ümum cahana elan edəlim ki, Azərbaycan həmişə sülhcu [sülh istəyən] olmuş, asayiş və müsalimət [əmin-amanlıq] axtarmışdır və bu siyasətində də davam edir. Gürcüstan ilə bağlamış olduğumuz ittifaq məhz tədafüyi [müdafiə xarakterli], təcavüzdən uzaq bir demokratik ittifaqdır və buna daxil olmayanlar demokratik üsullara yanaşmaq istəməyənlərdir. *(Alqış)*

Nitqlərdən sonra böylə bir təklif varid [daxil] olur:

*"Azərbaycan Məclisi-Məbusanı Tiflisdə iyun ayının 16-da Azərbaycan Hökuməti nümayəndələri ilə Gürcüstan Hökuməti nümayəndələri arasında bağlanmış olan siyasi və tədafüyi müahidənaməni təsvib [bəyənir] və təsdiq edir."*

Təklif müttəhidül-rəy [yekdilliklə] qəbul olunur. Məclis ayağa qalxaraq nəhayət dərəcə şiddətlə alqışlayır. "Bravo!" sədaları və gurultulu alqış salonu doldurur. Axırda rəis həzrətləri ayağa qalxaraq şu nitqləri ilə məclisə xitam verirlər.

**Ağayev Həsən bəy** - (Rəis) Möhtərəm məbuslar! Bu gün Azərbaycan-Gürcüstan etilafnaməsini bütün firqə və millətlər müttəhidül-rəy qəbul və təsdiq etməklə isbat etdilər ki, ümum Azərbaycan demokratiyası bilafərqi-din, dil və məsləki-siyasiyyə [din, dil və siyasi əqidə fərqi olmadan] Azərbaycanın müqəddəratını və qonşu millətlərin və ümum Mavərayi-Qafqaziyanın [Zaqafqaziyanın] müqəddəratını gürcü və ermənilərlə bərabər təyin və müdafiə etmək istəyirlər.

Burada natiqlərin hamısı söylədilər və mən bütün qəlbimlə bu rəyə iştirak edirəm ki, ümidvar olmalıdır üçüncü millət dəxi tək yaşaya bilməyəcəyini və hürriyyət və istiqlalını təklikdə müdafiə edəmməyəcəyini anlar, bu ittifaqa daxil olar. O vaxt bu millətlər müttəfiqən yaşar, lazım gördükləri müqavilənamə və ittifaqları

əqd edib bu surətlə hürriyyət və istiqlallarını ümumi qüvvə ilə müdafiə edərlər.

Əlbəttə, bu vaxtadək gürcülərlə bizim aramızda ticarəti, iqtisadi əhəmiyyəti haiz [əhəmiyyət daşıyan] müqavilənamələr əqd edilmişdir. Məsələn, bu yaxınlarda əqd etmiş olduğumuz post-teleqraf müqavilənaməsi. Fəqət bu onlara bənzəməz. Biz həmişə öz səadət, hürriyyət və istiqlalımızı düşünərək bir an onları unutmadan, möhkəmləşməsi və müdafiəsi üçün hər tədbirlər görmüşüz, təşəbbüsatda bulunmuşuz. O cümlədən bu gün təsdiqinizə vəz edilən müqavilənamə əqd olunmuşdur. Bundan böylə də biz daima böylə təşəbbüsatda bulunacağız. Şimdi mən gürcü nümayəndələrinin Məclisi-Məbusanımızda isbati-vücud [iştirak] etmələrindən bilistifadə [istifadə edərək] ayağa durub dübarə təbrik etmənizi təklif edirəm.

*(Bütün heyət ayağa qalxır. Diplomasi lojaya mütəvəccihən [üz tutaraq] uzun-uzadı alqışlar gurultusu salonu doldurur. Gürcü nümayəndəsi ayağa qalxaraq kərratla [dəfələrlə] təzim edir. Alqış şiddətlənir və davam edir.)*

**Ağayev H[əsən] b[əy]** - Şimdi iclası qapanmış elan edirəm.

*(Yenə şiddətli alqışlar.)*

## TELEQRAF XƏBƏRLƏRİ

### Dabravol generalı Natiyevin qətli

Batum - General Denikinə müavinət olmaq üzrə Batumda Dabrovol dəstəsi təşkil edən general Natiyev və onun acudanı [adyutantı] naməlum bir şəxs tərəfindən qətl edilmişdir. Qatil gizlənmişdir.

### Bolşevik kruvazerinin qərqi

Novoçerkassk - Şura hökuməti radiosu xəbər verir ki, Tolbuxin dairəsində ingilis sualtı qayığı tərəfindən bolşeviklərin "Oleq" kruvazeri [kreyseri] qərq edilmişdir.

Yekaterinodar - Moskvadan xəbər verilir ki, Şura iclasında Trotski bir nitq irad edərək [söyləyərək], Ukrayna ilə Krımın itirilməsi əhəmiyyətini heçə endirmək istəmişdir. Bir çox matrosların xəyanət etdiyini də bildirmişdir. Belə ki, bunlar ən böhranlı bir zamanda şimal tərəfə getmişlərdir. Matroslardan çoxusu inqilab ordusunu tərk etmişlərdir.

Lenin hərarətli bir nitq iradıyla demişdir ki, hiss edilməkdə olan fəlakətə göz yummaq olmaz. Edilən səhvləri etiraf etməklə bərabər, onları islah üçün tədbirlər aramalıdır. Biz əldən gəldiyi qədər çalışdıq. Təəssüf olsun ki, əhali bizi başa düşmədi. Törəmiş olan əhval barəsində ciddi fikirləşmək lazımdır və ondan çıxmaq üçün vasitə tapmalıdır.

İclasın axırında Rozenfeld də gəlmişdir. Bunun iştirakı ilə axşam saat 6-yadək örtülü iclas vaqe olmuşdur.

Şimali cəbhəyə yaxın dairələrdə söylənir ki, Skandinaviyada Rozenfeld vəzifəsinin ifasında müvəffəqiyyətsizliyə düçar olmuşdur.

- Omskdan xəbər verilir ki, Kolçak ordusunun Perm dəmiryolu şimal tərəfindən Vyatka üzərinə yürüşü müvəffəqiyyətli surətdə davam edir.





### Çində üsyan

Kantonda Yaponiya əleyhinə olan üsyanı yatırtmaqdan ötrü Yaponiya hərbi gəmiləri Kantona əzimət eyləmişdir [yola düşmüşdür]. Orada olan üsyan ümumən əcnəbilərin əleyhinə çevrilmək üzrədir.

- Gündən-günə Kronştadtın süqutu gözlənmək üzrədir.

- Mançesterdə olan İşçilər Konfransı parça fabrikalarında zühuru gözlənilən tətilə qarşı bir şey yapa bilməmişlərdir. Əmələlər [fəhlələr] demişlər ki, işlərin dayandırılması müddəti sabah qurtarır. Bu gün günorta zamanı hamı parça fabrikalarında tətil elan edildi. 60 milyon maşın dayanmışdır. Mançesterdə həyat dayanmışdır. Fabrikaçılar yeni qiymət qoymaqdan imtina edirlər.

## SÜLH ƏTRAFINDA

Almanların sülh müahidənaməsini [sazişini] imza etmək qərarını Versalda fon-Haniel Müttəfiqlərə bildirmişdir. Londonda isə əhvalat axşam məlum olmuşdur. Həman gün orada bayram saxlamaq istəmişlərdir. Fəqət əksəriyyət bayram saxlamağı başlamağı rəsmi hökumətdən gözləmək tərəfdarı olmuşdur.

Vulviç cəbbəxanasından atılan toplar ümuma sülh müahidənaməsi imza edildiyini bildirmişdir. Zənn edilir ki, 1871-ci ildə Fransa tərəfindən imza edilən salonda şimdiki müahidənamə imza ediləcəkdir. Almaniya gəmilərinin qərq edilməsinə əmr verən Almaniya admiralı fon-Royter İnverness yaxınlığında olan Piqə gətirilmişdir. O, Hərbi Bəhri məhkəmə [Hərbi Donanma məhkəməsi] tərəfindən mühakimə ediləcəkdir. Səbəbi mütarikəni xələldar etdiyidir [atəşkəsi pozduğudur]. İngilis Ərkani-Bəhriyyəsi [Donanma Qərargahı] zənn edir ki, bütün günahlar fon-Royterdədir.

Berlindən mütarikənin xələldar edildiyini xəbər verirlər. Sülh maddələrinin birində denilir ki, 1870-ci ildə Alman-Fransız müharibəsində fransızlardan alınmış olan bayraqlar Fransaya qaytarılmalıdır. Dünən səhər bir neçə Almaniya studentləri [tələbələri] Berlin cəbbəxanasına gələrək həman bayraqları odlayıb yandırmışlardır.

### Müttəfiqlərin Rusiya politikası

London – İngiltərə Avam Kamerasında müstəqil liberallar lideri hökumətdən Müttəfiqlərin Rusiya siyasəti barəsində izahat tələb etdiyindən, Vinston Çörçill cavab vermişdir ki, Müttəfiqlərin Rusiya işlərinə müdaxilə etmələri ona əhəmiyyət verildiyi dərəcədə deyildir. Bundan sonra hərbi cəhətdən Rusiya işlərinə Müttəfiqlərin müdaxiləsi tərk ediləcəkdir. Qafqazda və Sibiriyada ingilis qoşunları bolşeviklərlə mübarizə etməyirlər. Admiral Kolçaka yalnız ləvazimi-hərbiyyə [hərbi ləvazimat] verməklə qənaət edilir. Kolçak hökuməti təşkilindən məqsəd Rusiyanın nemeslər əlinə keçməməsidir. Ona görə də, Kolçakı müavinəti-hərbiyyədən məhrum etməyi xəyala belə gətirmək olmaz. İngilislər Rusiyada 7 ayın müddətində 294 nəfər tələfat vermişlərdir. Rusiyada əməliyyat siyasi nöqteyi-nəzərlə icra edilir.

- Rəsmi surətdə xəbər verilir ki, Skapa-Flouda olan bütün Almaniya kruvazeri və zirehliləri, "Baden" zirehlisi müstəsna olmaq üzrə, qərq edilmişdir. Almaniya admiralı və nemeslərin əksəriyyəti ingilis gəmilərində həbsdədirlər. Bir neçə alman lodkaları ingilislərin əmrlərinə itaət etmədiklərindən, onlara atəş açılmışdır. Almanlardan ölən və yaralananların miqdarı azdır. Mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə, bu gəmilərdə bir qədər nemeslər qalmışlar imiş. Qərq edilən paroxodlar 70 milyon ingilis lirəsi qiymətindədir.

**Almaniya mətbuatı və sülh**

Almaniya qəzetələri sülh müahidənaməsinin [sazişinin] imza edilməsini tənqidlə bəyan edirlər ki, Veymarda Rəisivükəla [Baş nazir] [Qustav] Bauer tərəfindən bəyan edilən maddələrə onlar razıdırlar ki, biz köməksizik, lakin şərəfsiz deyilik. Qəzetələr ümumən deyirlər ki, indiki sülh müahidənaməsi gələcək Avropa müvazinəsi üçün çox xətrəlidir [təhlükəlidir].

"Kreysçaytunq" qəzetəsi yazır ki, inqilab, zənn edilirdi ki, Almaniya əhalisinə azadlıq verəcəkdir. Amma həqiqətdə isə Almaniya əhalisini əsarətə saldı.

"Forverts" qəzetəsi yazır: Almaniyanı sülhü imza etməyə vadar edən təcavüz bu əmri qiymətdən salır. Versal sülhü ancaq təcavüz üzərində əsaslanmışdır. Nə qədər ki, təcavüz davam edəcək, o vaxtadək də bu müahidənamə davam edəcəkdir. Heç şübhəsiz, Almaniya üçün nicat saatı yetişəcəkdir. Veymarda olan dünkü qətnamə Almaniya milləti üçün axırıncı bir şey deyildir.

## QƏZETƏLƏRDƏN

**İrlandiyada**

İtaliya qəzetəsinin London müxbiri xəbər verir ki, İrlandiya böyük hadisələr qarşısındadır. Bütün məmləkət mühasireyi-əsgəriyyə altına alınmışdır. Dublində hərbi gəmilər hərəkət etməkdədirlər. İngiltərə hərbi qüvvələri İrlandiya inqilabçıları tərəfindən işğal edilən İrlandiya limanlarına hərəkət edirlər. İrlandiya fəhlələri də bu hərəkata mülhəq olmaqdadırlar [qoşulmaqdadırlar].

**İtaliyada tətil**

İyun ayında çıxan İtaliya qəzetələri İtaliyanın bir çox şəhərlərində tətillər başlandığı xəbərini verirlər.

**İzmir işğalı əleyhinə protesto**

Bandırma şəhərinin müsəlmanları bu şəhərin 80 min müsəlman əhalisi namından İngiltərə kralına və Fransa rəisicümhuruna teleqrafla müraciət edib, İzmirin işğalı əleyhinə ciddi surətdə protesto etmişlərdir. Onlar İzmir şəhərində əhalinin əksəri müsəlman olduğunu göstərib izhar edirlər ki, yunanlılar tərəfindən icra edilən qətllər müsəlmanların narazılığına mövcib olub, bütün islam aləminin zalımlar əleyhinə qalxmasına səbəb olar. Onlar müəzzəm [böyük] dövlətlərə müraciət edib, İzmirin qəti surətdə işğalına imkan verməməyi xahiş edirlər.

**Belqorod alınmışdır**

Alınan xəbərlərə görə, Kursk quberniyasında Belqorod şəhəri Dabravol əsgərləri tərəfindən işğal edilmişdir. Bununla





da, müharibəsiz təslim olan Xarkov şəhərinin müqəddəratı həll edilmişdir.

**Dvinskin alınması**

Kopenhaqdan [Kopenhagendən] xəbər verirlər ki, Dvinsk şəhəri latış və ağ qvardiya əsgərləri tərəfindən işğal edilmişdir.

**Polşa-Litva ittifaqı**

Varşavadan xəbər verirlər ki, Polşa-Litva əsgərləri dostanə ittifaq bağlamışlar ki, bolşeviklər əleyhinə bir yerdə müharibə hərəkatı aparsınlar.

**Albaniyada**

Duraççoda, Beratda, Elbasanda, Şkodrada və qeyri şəhərlərdə Albaniyanın vahid və müstəqil olması ilə Yunanıstan və Serbiya təhti-ixtiyarında [tabeçiliyində] olan milli yerlərin qaytarılması üçün böyük nümayişlər olmuşdur. Nümayişçilər Əsad paşanın hərəkətlərini ləkədar etmişlərdir. Sonninoya, rəisi-cümhur Vilsona və Turhan paşaya teleqraflar göndərilmişdir.

**Sosialistlər ictiması**

Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Amsterdamda bütün cahan beynəlmiləl sosialistlərinin təzə ictiması [yığıncağı] vaqe olacaqdır. Amerikalıların da iştirak edəcəyi gözlənir.

**Bib Dodanın qətli**

Valonidən alınan xəbərlərə görə, Əsad paşanın partizan dəstəsi tərəfindən Mirdit tayfasının məşhur başçısı və Albaniya istiqlaliyyətinin tərəfdarı Bib Doda qətl edilmişdir. Məqtulun [qətlə yetirilənin] axırıncı arzusu vətənin müstəqil və azad olması idi.

**Moskvadan axırıncı xəbərlər**

İyunun 22-də Baxmutdan teleqrafla xəbər verirlər ki, hal-hazırda Moskvada Şura hökumətinin axırıncı günləri olduğunu aşkara söyləyirlər. Şəhərdə əhval ciddidir. Hər yerdə Şura hökuməti hərəkatını tənqid edirlər. Moskva şəhəri bir müharibə meydanına oxşayır. Uca evlər üstünə pulemyotlar qoyulmuşdur ki, nümayiş edənlərə atsınlar. Meydanlarda toplar qoyulmuşdur. Kreml qala halına salınmışdır. Etibarsız əsgəri dəstələr Moskvadan cəbhəyə aparılırlar. Moskvaya etibarlı kommunist dəstələri gətirilir. Xalq Komissarları Şurasında təbəddülat [dəyişiklik] olacağı şayiələri artmışdır. Belə rəvayət edirlər ki, bütün Şura heyəti geniş vəkalətlə diktatura ilə əvəz ediləcəkdir.

## XARİCİ SİYASƏTİMİZ

### - 1-
### Qüvvəli istiqlal

Dünyada hər bir dövləti təşkil edən üç amildir: torpaq, millət və hakimiyyət. Bu gün Azərbaycanda bu üç amil mövcud olduğu üçün Azərbaycan müstəqil bir məmləkətdir. Lakin məmləkətlər arasında fərqlər çoxdur. Məsələn, köhnə Avstriya-Macarıstan dövləti ilə Almaniyanı müqayisə edək. Tərzi-idarəsindən başqa, bu iki dövlətin əsl mahiyyətində böyük fərqlər görünür. Almaniyanın tam əksəriyyətini təşkil edən alman milləti olduğu halda, Avstriya-Macarıstanda cürəbəcürə millətlər yaşayırdı. Onun üçün səlaməti-mülkiyyə Almaniyada Avstriya-Macarıstandan çox idi.

Ola bilər ki, bir məmləkətdə daxili müsalimət [əmin-amanlıq] çox millətlərin vücudu ilə də təmin olunsun. Bu halı Şimali Amerika Cəmahiri-Müttəhidəsində [Birləşmiş Ştatlarında] görürük. Dürlü millətlər vətəni olan bu cümhuriyyət ən sağlam bir idarəyə istinadən xoşbəxt yaşayır və xalqının rahat və istirahətini təmin edərək rəğbətini qazanır. Bunun səbəbi isə uca bir idarə, gözəl bir qanundadır.

Bir tərəfdən ədalətli idarə, o biri tərəfdən qüvvətli bir mədəniyyət məmləkətdəki bütün millətləri yoğurub bir qəlibə salır. Hər kəs ümumi vətənini sevir və onun mədəniyyətini qeyri-məcburi bir halda alır.

Türk idarələrində ən qədimdən bəri istila olunmuş millətlərə qarşı bir ədalət yeridilmişdir. Heç bir millətin daxili işinə qarışılmamış. On ikinci əsrdə qərbə doğru axıb gələn tatar qüvvələrinə nə qədər vəhşilik istinad etmək istəmişlərsə də, bitərəf müvərrixlər [tarixçilər] tatarların da idarəsinin ədalətli olduğunu inkar etməyirlər. Neçə əsr Rusiyanı hökmü altında saxlayan tatar rus millətinin daxili işlərinə qarışmadı. Dini və milli məsələlər tatar hakimiyyətindən kənarda qaldı.

Eyni halı Osmanlı idarəsində də görürük. Ermənilər, bolqarlar, rumlar (qreklər), serblər və başqaları milli və dini məsələlərində asudə idilər. Ancaq Türkiyə Amerika kimi qəvi [güclü] bir mədəniyyətə malik olmadığı üçün əlinin altındakı millətləri yoğurub bir şəklə sala bilmədi. Türkiyədə sakin bütün millətlər ümumi məmləkət mədəniyyətindən ayrılıb, öz milli mədəniyyətinin inkişafına çalışdılar. Türkiyədən faydalanmaq istəyən avropalılar da bu millətləri tutmağa başladılar.

Avropa mədəniyyəti Türkiyəyə ən əvvəl məhkum millətlər vasitəsilə girdi. Müstəbid sultanlar, cahil "alimlər", hürufat müşkülatı [əlifba çətinliyi], Şərq tənbəlliyi Avropa mədəniyyətinə tərəfi-müqabil gəldisə də, yalqız müsəlmanlar bu mədəniyyətdən məhrum qaldılar. Xristianlar isə tərəqqi etdilər. İş bu yerə gəldi ki, xristianlar çürük türk idarəsindən bezməyə üz qoydular. Türkün münəvvər [ziyalı] qismi də bunlara qoşulub inqilab doğurdular.

Əski Rusiya dövləti də çox millətlərdən ibarət idi. Burada əksəriyyət təşkil edən velikoruslardan başqa, finlər, estonlar, latışlar, litvalılar, polyaklar, beloruslar, moldavanlar, ukraynalılar, gürcülər, ermənilər, türk-tatarlar və yəhudilər də var idi. Rusiya ən fəna bir idarəyə malik idi. Velikoruslar hakim millət sanılırdı. Başqalar isə məhkum idilər. Hakim millət öz din və milliyyətini məhkum millətlərə cəbrən [zorla], istibdad təriqi [yolu] ilə qəbul etdirmək istəyirdi. Məhkumlar da bunu duyaraq rus mədəniyyətinə alışmaqdan çəkinirdilər. Rus idarəsi öz mədəniyyətini sərf etməkdə də xəsislik edirdi. Məhkum millətləri həmişə qaranlıqda saxlamağa çalışırdı. Bunun üçün məhkumlarla hakim arasında daimi bir uçurum olduğu hiss olunurdu. Böyük inqilab rəsmi pərdəni qaldırdı və uçurumu bütün aləm gördü.

Uçurumun bir tayında bir Azərbaycan da meydana çıxdı. Bu məmləkət mövhum [xəyali] bir ölkə, süni bir qitə deyil, bura tarixdə ad qoymuş və istiqlaliyyətini neçə əsr əvvəl qaib etmiş bir dövlətdir.





On ikinci əsri-miladidə atabəy Şəmsəddin Eldəniz indiki Qafqaz və İran Azərbaycanını bitişdirdi, bir məmləkət şəklinə saldı. Atabəy Nəsrəddin Əbubəkr bin Cahan Pəhləvan Aranda, yəni indiki Qafqaz Azərbaycanında və əsl Azərbaycanda 20 il səltənət sürübdür.

Bugünkü Azərbaycan ən sağlam vücuda malikdir. Burada tam əksəriyyəti təşkil edən Azərbaycan türküdür. Bu millətin özünəməxsus bir mədəniyyəti var. Mədəniyyətimiz o qədər qüvvətlidir ki, bizdən başqa, qonşularımızı təsiri altında saxlayıb və saxlamadadır. Dilimiz Qafqazda, Xəzər arxasında və Şimali İranda ümumi bir dildir. Bu dildə Dağıstan qövmləri [xalqları], ermənilər, bir çox gürcülər və rus mühacirləri danışırlar. Musiqimizdən və teatromuzdan qonşularımız da faydalanırlar. Milli operalarımız vətəndən dişarıda da şöhrət tapmağa başladı.

Bu hallar mədəniyyətimizin qüvvətliliyinə dəlildir. İndiyə kimi biz məhkum idik, lakin mədəniyyətimiz hakim idi, yəni qeyri-məcburi olaraq qonşularımız arasında yayılırdı. Bundan sonra ehya olunmuş [dirildilmiş] istiqlaliyyətimiz sayəsində mədəniyyətimiz geniş meydan alacaqdır.

Böyük türk irqinə mənsub olduğumuz üçün türk idarəsinin ədalətini saxladıq. Bu gün vətənimizdəki xırda millətlər bizimlə bərabər yaşamadadırlar, bunların hüququ heç bir qanunla təhdid olunmayıb [məhdudlaşdırılmayıb] və olunmayacaqdır. Ədalət hökmranlığını daimi surətdə təmin etməyə çalışılacaqdır.

*(Mabədi var)*

*Yusif Vəzirov*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan sülh heyəti**

İtaliya paytaxtı Romadan mayısın 5-dən Azərbaycan sülh heyəti rəisi Əlimərdan bəy Topçubaşov həzrətlərindən bir məktub alınmışdır. Məktubda heyətin Parisə əzimət etməsi [gedişi] təsvir edilmişdir.

Aprelin 22-də heyət İstanbuldan İtaliya vaporu [gəmisi] ilə Səlanik-Afina-Mesini təriqi [yolu] ilə aprelin 30-da Neapola gəlmişdir. Heyət mayısın 2-də Romanı ziyarət edərək, 4-də Parisə əzimət etmişdir. Heyətin ruhu yüksək olduğu kimi, üzvlər də, ümumiyyətlə salamatdırlar. Heyət uzaq ölkədən sevgili Azərbaycana salam göndərməklə ən yaxın zamanda Avropanın qanuni hüquqlarını təsdiq xəbərini vətənə gətirəcəklərinə itminan [inam] bəsləyirlər.

**Məclisi-Məbusan üzvünün əziməti**

Dünən hökumət tərəfindən erməni qurultayında isbati-vücud [iştirak] etmək üçün Məclisi-Məbusan üzvü Şəfi bəy Rüstəmbəyov Qarabağa azim olmuşdur [yola düşmüşdür].

**Lənkəranda**

Bakıda alınmış xəbərlərə görə, Lənkəranda Muğan əhli və Ramazan dəstəsi ilə bolşeviklər miyanında [arasında] qanlı müharibələr davam etməkdədir. Müharibə şəhərin küçələrində olur. Bolşeviklər şəhərin şimal cəhəti – şəhər bağındadırlar.

**Tağıyev fabrikası**

Ticarət və Sənaye Nəzarəti mühəndis Pekarskiyə tapşırmışdır ki, Tağıyev fabri-

kasının fəaliyyətinin [dayanması] səbəbini məhəllində [yerində] təhqiq və təftiş etsin. Mühəndisə tapşırılmışdır ki, fəaliyyəti qalxızmaq üçün lazım olacaq vəsaitin bulunmasına da çalışsın.

**Sabunçuda "Təməddün" məktəbində**

Yekşənbə [bazar] günü iyun ayının 30-da Sabunçu "Təməddün" məktəbində eydi-fitr [Ramazan bayramı] münasibətilə görüş məclisi tərtib verilmişdi. Məclisə bir çox iranlılardan başqa, Hacı Şeyx Əbdüləhəd cənabları, pristav Qulam bəy cənabları, Ağdamski Əhməd bəy cənabları və bir qədər də sabunçululardan təşrif gətirmişdilər.

Abbas xan cənabları millətimizin istiqbalına [gələcəyinə] ümid bəslədiyini izhar edib, bu kimi təşəbbüsati-xeyriyyənin başlanıb tərəqqi etməsindən böyük faydalar görüləcəyinə əminəm, deyə təəssüsati-xeyriyyəyə camaatı tərğib və təhris buyurdular [xeyirli quruluşlara camaatı rəğbətləndirdi və təşviq etdi] və nifaqın məzərratından [zərərlərindən] və birlik mənafeyindən bəhs edərək, gələcəkdə milli ehtiyacatımıza müavinətdə bulunmağın lüzumundan və həmişə veriləsi ianənin məktəb mənfəətinə məxsus olmaq üzrə müavinət etmələrini təklif etdi.

Hazirun [orada olanlar] kamali-məmnuniyyətlə məzkurun [adı çəkilən şəxsin] təklifini qəbul edib, hər vaxt lazım olarsa ianə verəcəklərini vəd etdilər.

Abbas xan cənabları, dübarə gözlərini yaşla doldurub "Həzərat, sizi Allah, bir insaf edin o balalara ki, ata-anası başının ağrımasına razı olmazdı, indi insafdırmı o əziz olan balalar bir parça çörəkdən ötrü küçə və bazarda səfil-sərgərdan dolanıb buna-ona əl açsınlar" dedi və bizə əvvəlbəəvvəl bir darüləcəzə [möhtaclar evi] açıb fəqir-füqəralarımızı himayət etmək lazım olduğunu bildirdi. Abbas xan cənablarının sözləri məclisdə olanlara öylə bir təsir etdi ki, kəsrəti-təsirdən [təsirin çoxluğundan] bəzilərinin gözlərində sirişk [yaş] zahir idi.

Xülasə, Hacı Şeyx Əbdüləhəd cənabları bir xütbeyi-bəliğ oxuyub [təsirli bir nitq söyləyib] və bir neçə kəlmə ayeyi-Qurani-məciddən tilavət buyurandan [oxuyandan] sonra təfsir [şərh, izah] edib, camaatı elmə tərğib və təhris buyurub, məclis saat 12 tamamda xətm oldu.

*Heyəti-idareyi-"Təməddün"*

## AZƏRBAYCANDA

**Xaxolların hərəkəti**

Cavad qəzası Biləsuvar nahiyəsinin Bəylərbəyi qəryəsi [kəndi] əhli Poladxan Lütfulla oğlu qubernatora bir ərizə verərək xaxollar tərəfindən qarət edilib və qardaşının öldürülməsindən şikayət və xaxolların böylə hərəkatına hədd qoyulmasını ciddən rica və arzu etmişdir.

**Quldur dəstəsi**

Qaziyan kəndi camaatı öz vəkilləri vasitəsi ilə Bakı qubernatoruna bir ərizə verərək Göyçay uyezdində axır vaxtlar qətl-qarət şiddət etməsindən şikayətdə bulunmuşdur. Məzkur uyezddə [deyilən qəzada] Mürsəl Tağı bəy oğlu bir quldur dəstəsi təşkil edib əhaliyə nəhayət dərəcədə əziyyət və azar edir. Qaziyan yüzbaşısı Məhəmmədəli bəy Ələkbər bəy oğlu dəxi quldur dəstəsinə və onun rəisinə kömək edir.

**İvanovka camaatının ricası**

Göyçay uyezdi İvanovka kəndi əhalisi xristianlar Bakı qubernatoruna ərizə ilə müraciətən Dövləti Müdafiə Komitəsinin qərardadı mövcibincə [qərardadına əsasən] onlardan silah alınmasını məlum edərək, məzkur kəndin müsəlman və erməni kəndləri arasında olduğundan daima xof və xətrə [təhlükə] altında olub və özlərinin bu vaxta qədər Azərbaycan Hökumətinə sadiq qalaraq və lazım olarsa kömək edəcəklərini göstərməklə, onlardan silah alınması binagüzarlığının [sərəncamının] ləğv edilməsini rica etmişlərdir. Qubernator məzkur qərardadın bir tək onlara aid olmadığını bəyanla, böylə xahişin qəbul edilməyəcəyini məlum etmişdir.

**Gilandakı azərbaycanlıların nümayəndələri**

Gilanda sükunət edən [yaşayan] Azərbaycan təbəələrinin üç nəfərdən ibarət nümayəndələr heyəti Bakıya varid olub [gəlib], hökumət hüzurunda Gilandakı azərbaycanlıların mülk, əmlak və heysiyyətlərini mühafizə etmək üçün oraya bir nəfər nümayəndə təyin edilməsi xüsusunda iqdamatda [təşəbbüsdə] bulunmuşlardır. Heyətə Rəhim xan Xəlilov, Kərbəlayı Məhəmmədbağır Əliyev və Ağabala Əlizadə daxil olub, azərbaycanlıların ümumi iclası tərəfindən intixab edilmişlərdir [seçilmişlər].

**Gədəbəy əmələlərinin tətili**

Gəncə quberniyasında olan Gədəbəy mis mədənlərinin əmələləri [fəhlələri] iqtisadi tələbatının idarə tərəfindən qəbul edilmədiyindən naşi [ötrü] tətil etmişlərdir. Əmələlər öz tələblərində Bakı mədən dairəsi əmələləri ilə müsavi [bərabər olduqlarını] və onlar qədər məvacib təyin edilməsini təkid edirlər.

## GÜRCÜSTANDA

**Fəhlə Vəkilləri Syezdi**

Tiflisdən teleqrafla xəbər verirlər ki, Zaqafqaziyada Fəhlə Vəkilləri Syezdi dəvət edilməsi məsələsinə baxmaqdan ötrü iyunun 26-da Tiflis Əmələ Vəkilləri Şurasının ictiması [yığıncağı] olmuşdur. İctima dəvət edilməsi fikrini Bakı Fəhlə Konfransı nümayəndələri müdafiə edirmişlər. Uzun müzakiratdan sonra iclas Zaqafqaziya Vəkillər Şurası dəvət etməməyi qərara almışdır.

**Qafqaziya Konfransı**

Ermənistan hökuməti Zaqafqaziya Konfransı məşğuliyyətlərinin yenidən başlanması təklifini etmişdir. Bu münasibətlə Ermənistan Xariciyyə naziri [Sirakan] Tiqranyanın Tiflisə gəlməsi gözlənir. Ümid olunur ki, yaxında Azərbaycanla Gürcüstan arasında əqd edilmiş etilafnaməni ermənilər dəxi qəbul edərək, onlar da ittifaqa daxil olacaqlardır.

**Firqə konfransı**

Tiflisdə iyulun 5-nə Firqə konfransı təyin edilmişdir. Alınan xəbərlərə görə, bu konfransdan məqsəd nasional-demokrat, radikal-demokrat və bitərəflər ittifaqını birləşdirməkdir. Konfransın bi-

rinci işi ümumi məramnamə hazırlamaq olacaqdır.

**Tiflis Darülfünunu və Yekaterinodar**

Yekaterinodar şəhəri öz vəkilləri vasitəsilə xəbər vermişdir ki, Rus Darülfünunu Tiflis şəhərində saxlanarsa, Tiflisə 2 milyon yarım təxsisat [pul] verməyə hazırdır.

**Gürcüstanla Azərbaycan etilafnaməsinin təsdiqi**

İyunun 22-də vaqe olan Gürcüstan Məclisi-Müəssisanının fövqəladə iclası müttəhidül-qövl [yekdilliklə] böylə bir qətnamə qəbul etmişdir:

*"Gürcüstan ilə Azərbaycan arasında əqd edilən etilafnamə təsdiq edilir."*

Qətnamə elan edildiyi zaman sürəkli və şiddətli alqışlar olmuşdur. Azərbaycan və İnquşistan nümayəndələri alqışlarla təbrik edilmişlərdir.

## TEATRO VƏ MUSİQİ

**Suraxanıda teatro**

İyulun 4-də, cümə günü Suraxanı kəndində Benkendorfun şkolasında [məktəbində] Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın nəfinə [xeyrinə] olaraq təntənəli surətdə mövqeyi tamaşaya qoyulacaqdır:

**"Köhnə Türkiyə"**

və

**"Molla Nəsrəddin"**

Biletlər satılır hər gün "Müsavat"ın Suraxanı şöbəsində və oyun günü teatronun kassasında. Tamaşa başlanacaq axşam saat 8 tamamda.

**İtibdir**

Ağ it, belində boz ləkə, qulaqları və quyruğundan başqa hər yeri qırxılmış. Şamaxı yolunun dalında itibdir. Tapan şəxsə 300 manat bəxşiş. Bu adresə gətirməli: Gimnaziçeski küçədə tupik [dalan] nömrə 9, ev nöm-rə 2. İtin adı "Pubsik".

*10266*

**Bəhri-Xəzər dənizində passajir və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**İtibdir**

Mirvat Mustafazadənin 2-ci polis idarəsindən aldığı pasportu, "Vastoçnı" Cəmiyyətinin 22-ci körpüsündən 520 pud 20 girvənkə dəmir kuporos (38 boçkada) üçün verilən 322251 nömrəli qəbzi itibdir. Etibardan saqitdir [etibarsızdır].

*10260*





**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor**
**S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

**Xırda Neft Mədənçiləri İttifaqı İdarəsi**

Bununla İttifaqın üzvlərinə elan edir ki, ittifaqın kontoru Birinci Kannıtepinski və Vorontsovski küçələrinin küncündə (Mərkəzi həbsxana ilə qarşı Atababayevin dəyirmanı ilə bərabər) vaqe olur.

Telefon nömrələri: 9-12 və 28-50.

*10264*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 3. "Ədüvv şəvəd səbəbi xeyr, əgər xuda xahəd": "Əgər Tanrı istəsə, düşmən xeyirə səbəb olar." (Farsca)

**Sülh ətrafında**

səh. 9. "1871-ci ildə Fransa tərəfindən imza edilən salonda": 18 yanvar 1871-ci ildə Versal sarayının Güzgülü qalereyasında imzalanan sənədlə Almaniya imperiyası elan edilmişdi.

"Avam Kamerası": ikipalatalı Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

səh. 10. "Kreysçaytunq" [Kreuzzeitung]: 1848-1939-cu illərdə Prussiya və Almaniyada nəşr edilmiş qəzet.

"Forverts" [Vorwärts] ("İrəli"): Almaniya Sosial-Demokrat Partiyasının orqanı olan qəzet. Əsası 1876-cı ildə qoyulmuşdur. Təqiblərə görə müxtəlif dövrlərdə Leypsiq, Berlin, Praqa və Parisdə nəşr edilmişdir.

**Qəzetələrdən**

səh. 11. "Duraçço": Adriatik dənizi sahilində, Albaniyaya məxsus Duratso (yaxud Durres) şəhəri nəzərdə tutulur.

**Bəhri-Xəzər dənizində pasajjir və yük gəmilərinin yola düşmələri**

səh. 16. "Şahsavar": İranın Mazandaran əyalətində, Xəzər dənizi sahilində şəhər; indiki Tənkəbun şəhəri.

"Məşhədsər": İranın Mazandaran əyalətində, Xəzər dənizi sahilində şəhər; indiki Babülsər şəhəri.

"Bəndər Gəz": İranın Gülüstan ostanında, Xəzər dənizi sahilində şəhər.

"Həsənqulı": Türkmənistanın Balkan vilayətində, Xəzər dənizi sahilində şəhər; indiki Əsənqulı şəhəri.





"Fort-Aleksandrovsk" (yaxud Aleksandrovsk): İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

"Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.



*"Azərbaycan" qəzetinin 216-cı nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 4 iyul 1919-cu il, nömrə 216**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 5 şəvvalül-mükərrəm sənə 1337. 4 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ELAN

Açılıb tənbəki və papiros fabrikası. Ağazeynal Zeynalov. Vorontsovski küçədə 26 nömrəli evdə. Telefon nömrə 30-07.

*10265*

## MÜSƏLMAN MÜƏLLİMƏ VƏ MÜƏLLİMLƏRİ ÜÇÜN İKİ AYLIQ KURSLAR

İyulun 5-dən etibarən Bakıda müsəlman müəllimə və müəllimləri üçün 100 nəfərlik kurs açılır. Kursa daxil olanlar: 60 müəllimə və müəllimlər Şamaxı və Göyçay uyezdlərindən, 18 müəllimə və müəllimlər Bakı uyezdindən, 32 sentyabr ayından müəllimə və müəllimlik etmək istəyənlər. Kursda oxuyanlara yövmiyyə və xərci-rahı [gündəlik xərclik və yolpulu] veriləcək, bunlar üçün "Svyataya Nina" məktəbində mənzil hazırlanır. Kursda oxuyanlar bir ildən əskik olmayaraq müəllimlik etməyə məcburdurlar. Xahiş edənlər Bakı və həvalisi [ətrafı] məktəb müdirinin dəftərxanasına rücu [müraciət] etsinlər.

Pozenovski küçə, nömrə 15.

Qeyd: Müəllimələr üçün kurs əlahiddə mənzildə olacaqdır.

*10263*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, təmmuz ayının 5-də, səhər saat 11-də, Təsərrüfat şöbəsi dəftərxanasında şəhər kioskalarını icarəyə verməkdən ötrü torq olacaqdır. Kioskaların [yerləri]:

1) Bulvarda körpü ilə qarşı;

2) Bulvarda kupalnı [dəniz hamamı] ilə qarşı;

3) Azadlıq meydanında (Bolşoy Morskoy və Birjevoy meydanının küncündə).

Təfsilatı Təsərrüfat şöbəsi dəftərxanasında oxumaq olar.

*T-158*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERA**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Müdiriyyəti

Cümə günü şəvvalül-mükərrəm ayının 5-də 1337 sənəsi (iyul ayının 4-də 1919-cu ildə) mütəntən bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır

**Üzeyir bəyin**
**"Əsli və Kərəm" operası**

Biletlər teatrın kassasında satılmaqdadır.

Tamaşa başlanacaq axşam saat 8 tamamda.

**MƏXSUSİ PALTAR BİÇƏN**

Sabiq Kiyev Zabitlər İqtisad Cəmiyyətində olmuş, zabitlərə məxsus masterskoy açılmışdır. Dumski meydan, Fəhlə Klubu ilə qarşı. Dərzi S. Krutin və D. Nəsirov.

*4956*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinin əmrnamələri:**

*Əmrnamə nömrə 113*

Parlaman kvestoru [təsərrüfat müdiri] müavini Müzəffər Nərimanov mükəlləfiyyəti-əsgəriyyəyə daxil olduğu üçün 1919 sənəsi iyun ayının 1-dən etibarən məmuriyyətindən əzl [kənar] edilir.

*Əmrnamə nömrə 114*

Parlaman Maliyyə və Büdcə komisyonu kargüzarı Hacıağa Nurizadə mükəlləfiyyəti-əsgəriyyəyə daxil olduğu üçün 1919 sənəsi iyun ayının 1-dən etibarən məmuriyyətindən əzl edilir.

*Əmrnamə nömrə 115*

Bakı sakini Mirzə Hüseyn Quluzadə 1919 sənəsi iyun ayının 1-dən etibarən Parlaman kvestoru müavinliyinə təyin edilir.

*Əmrnamə nömrə 116*

Şamaxı əhli Qəzənfər Salmanov 1919 sənəsi iyun ayının 1-dən etibarən Parlaman Maliyyə və Büdcə komisyonu kargüzarlığına təyin edilir.

*Əmrnamə nömrə 117*

Səkinə xanım Əlizadə 1919 sənəsi iyun ayının 17-dən etibarən Parlaman İdarəsinin müvəqqəti makina yazıçılığına təyin edilir.

*Əmrnamə nömrə 118*

Lyudmila Aleksandrovna Rits 1919 sənəsi iyun ayının 17-dən etibarən Parlaman İdarəsinin müvəqqəti makina yazıçılığına təyin edilir.

*Əmrnamə nömrə 119*

Həsən Mustafa oğlu 1919 sənəsi iyun ayının 16-dan etibarən Parlaman İdarəsi mütərcimliyinə təyin edilir.

*Parlaman rəisi: Həsən bəy Ağayev*
*Əslinə mütabiqdir.*
*Kargüzar: C[amal] Paşazadə*

**Əxzi-Əsgər İdarəsindən**

Bakı uyezdnı [qəza] Əxzi-Əsgəriyyə [Hərbi Çağırış] İdarəsi təyin edibdir əsgərlik vəzifəsini ifa etməkdən ötrü 1894, 1895, 1896, 1897, 1898, 1899-cu sənələrdə təvəllüd tapan [anadan olan] müsəlman cavanlarından ötrü zeyldə [aşağıda] yazan vaxtları:

Balaxanı və Sabunçu Polis müdiriyyəti üçün
1, 2 və 3-cü polis uçastokları – 2 iyul
4 və 5-ci polis uçastokları – 3 iyul
7-ci polis uçastoku 5 və 6 iyul
6-cı polis uçastoku – 7 iyul
Bakı şəhəri üçün
1, 5, 7, 8, 9 və 10-cu polis uçastokları – 10 iyul
2-ci polis uçastoku
Məhəmmədyar məscidi – 12 iyul





Gilək məscidi – 13 iyul
Cümə məscidi – 14 iyul
3-cü polis uçstoku
Təzəpir məscidi – 15 iyul
Qasımbəy məscidi – 16 və 17 iyul
4-cü polis uçastoku
Hüseynqulu və Hacı Hüseyn və Məhəmmədi məscidləri – 19, 20, 21 iyul
6-cı polis uçastoku
Təzə, Hacı Ağababa və Hacı Pirverdi məscidləri – 22, 23 və 24 iyul

1) Əsgərliyə dəvət olunur yerli əhali və kənar yerlərdən gələn, Bakıda sükunət edən [yaşayan] Azərbaycan vətəndaşları hərçənd siyahıda yazılmamış olsalar da və habelə metrik dəftərində yazılmamış olsalar da. Əsgəriyyə qulluğundan azad olmaq külfət qərarı üzrə və naxoşluğa görə və ya qeyri səbəblərə görə mümkün olar Əxzi-Əsgəriyyə İdarəsinin qəti-təyyinə [qəti qərarına] görə. Ona görə, hərgah bir evdə əsgərlik yaşında bir nəfər və ya neçə nəfər adam varsa, hamısının borclarıdır gəlsinlər.

2) Əxzi-Əsgəriyyə İdarəsinə gəlmək vacibdir, həm çətin padşahlıq qulluğunda olan adamlar üçün də və dəmiryollarında və kanvoynı sotnidə [mühafizə dəstəsində] və ya çastnı [xüsusi] qulluqlarda olan adam üçün biqeyriəz-vayenni qulluqçular [hərbi qulluqçulardan başqa].

3) Qeyri yerlərdə olan əsgərlik yaşında olan adamlara, onların ataları və qeyri əqvamları [qohumları] məlumat verməlidirlər.

4) Çağırılan adamlar borcludurlar gələlər Əxzi-Əsgəriyyə İdarəsinə, Persidski və Qubernski küçələrin küncündə olan Şaqidanovun evində, camaat vəkilləri ilə bərabər, hansı ki, siyahı yazmaqda iştirak edibdirlər, sübh saat 9-un yarısında.

İdarə özünü borclu bilir xəbərdar etməyə ki, bu ikinci prizıvdır [çağırışdır], ona görə hərgah gələcəkdə əsgərliyə düşən adam tapılsa, hansı ki, vaxtında gəlməyiblər, bu gunə [bu cür] adamlar əsgərlikdən qaçan hesab olunacaqdırlar; onların ana və ataları və evlərin böyükləri onların qaçmaqlarına kömək edən hesab olunacaqdırlar.

*İdarənin sədri: Talışxanov*

**TELEQRAF XƏBƏRLƏRİ**

*Bolşevik məlumatı*

**Denikin ordusunda**

Tsaritsın - Denikin ordusu keyfəmayəşada [özbaşınalıqda] davam edir. Denikin ordusu tərəfindən rəva görülən vəhşətlər əhalini məcbur edir ki, onların cəbhəsindən bizim tərəfə keçsinlər.

Odessa - Xəbər verilir ki, Denikin hökuməti üzvləri arasında çoxdan bəri ixtilaf davam edir. Sol dəstənin nümayəndəsi Bernatski Krivoşeinin irticakaranə siyasətindən narazı qalaraq məmaliki-əcnəbiyyəyə [xarici ölkələrə] getmədən qabaq Denikinə göndərdiyi məktubunda demiş ki, hərgah Krivoşein bu siyasətində davam edərsə, o hökumət əzalığından [üzvlüyündən] istefa verəcəkdir.

Lion - Alınmış olan xəbərlərə görə, Almaniya kronprinsi Hollandadan Almaniyaya qaçmışdır. Bu xəbər Dördlər Şurasında müxtəlif şayiata [şayiələrə] səbəb olmuşdur. Almaniya afiserləri öz sərkərdələrini verməyəcəklərini bəyan etdik-

lərindən, kronprins bu iqdamatda bulunmuşdur [bu addımı atmışdır]. Hərçənd Müttəfiqlər kronprinsi təhti-məsuliyyətə [məsuliyyət altına] cəlb etməyirlər, fəqət hərgah kronprins Müttəfiqlər əleyhinə işləyəcək olarsa, onu Almaniyadan tələb edəcəklərdir. Almaniyada üsyan əmələ gəldiyi təqdirdə, Müttəfiqlər hökumətə müavinət edəcəklərdir.

- İstanbuldan xəbər verilir ki, İstanbulun Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] verilməsi barəsində olan qətnamə əhali arasında Müttəfiqlərə qarşı böyük həyəcan qalxızmışdır. Türklərlə yunanilər arasında qanlı müsadimələr [toqquşmalar] vaqe olmuşdur.

Odessa - İsveçrə ilə Almaniya arasında ticarəti əlaqə başlanmışdır. Müttəfiqlər bu əhvaldan çox narazıdırlar.

- İyunun 24-də Hamburqda dəhşətli iğtişaş əmələ gəlmişdir. Sonra bu iğtişaş şəhərin başqa hissələrinə keçib bir çox ərzaq mağazaları dağıdılmışlardır. Gecə bolşeviklər vağzalı işğal etmişlərdir. Hökumət qoşunları asayişi bərpa etmək istəmişlərdir amma buna müvəffəq olmamışlardır. Müharibə davam edir.

- Alınmış olan xəbərlərdən anlaşılır ki, fransız qoşunları Bessarabiyadan çıxmışlardır. Romaniya qoşunları tərki-silah edib [silahlarını atıb], müharibədə iştirakdan və rəislərinə itaətdən imtina edirlər.

- Bükreşdən [Buxarestdən] xəbər verilir ki, edam edilmiş sosialistlərin ailələri nəfinə [xeyrinə] 293 min rublə pul cəm edilmişdir. Bütün Həmkarlar İttifaqına müsaidə edilmişdir ki, sosialistlərə edilən təcavüzə etiraz olmaq üzrə bir günlük tətil elan etsinlər.

- Xəbər verilir ki, Dobrucada bolqarların əleyhinə göndərilmiş olan fransız saldatları onlarla müharibədən çəkinmişlər və qəti surətdə atəş açmaqdan imtina etmişlərdir.

- Hollandada hal-hazırda ciddi surətdə inqilab hərəkatı müşahidə edilməkdədir. Ümumcahan tətil[i] yolu ilə, irtica ilə mübarizə etməyi fransız sosialistləri təqdir etmişlərdir.

Daşkənd - Kvettanın şərq cəhətinin 150 verstliyində olan Tal şəhərini əfqan qoşunları işğal etmişlər.

Yekaterinodar - Denikin 200 ağac boyu Maniçin cənub tərəfini bolşeviklərdən təmizləyib Maniçdən 40 ağac irəliləmişdir. Bolşeviklərdən 4300 əsir və bir neçə top alınmışdır. Kazaklar Orenburqu işğal edərək Ural kazakları ilə birləşmişlərdir və sonra Novorossiyskdən bolşevikləri qovub çıxarmışlardır.

**Petroqradın halı**

Stokholm - Vıborqdan xəbər verilir ki, bu axırıncı günlərdə Kronştadt və Petroqrad səmtlərindən top səsləri gəlir. Petroqraddan gələn fərarilər xəbər verirlər ki, bolşevik başçıları həyəcana düşmüşlər. Bəziləri dövləti müxəlləfatını [dövlətə məxsus əşyaları] götürüb qaçmışlardır. Şəhər Çin, latış, fin qoşunları və Qırmızı ordu tərəfindən mühafizə edilir. Bolşeviklər şəhər divarlarına elannamələr yapışdıraraq bəyan edirlər ki, bolşeviklər şəhəri tərkə məcbur olsalar, bütün sərmayədarları edam edəcəkdirlər.

**Hindustanda zəlzələ**

Amsterdam - Hollanda Hindustanından verilən xəbərlərə nəzərən, Hindustanda olan zəlzələdən bir çox kəndlər zirzəbər [alt-üst] olub 16000 nəfər də həlak olmuşlardır.

Kopenhagen - Estoniyalılar Kelmarı işğal etdilər. Bolşeviklər təcilən ricət edirlər [tələsik geri çəkilirlər]. Riqanı işğal edən latış qoşunları Livoniyaya tərəf yürüşdə davam edirlər. Onlar məşhur İkskul istehkamını işğal etmişlərdir.

**Kipr müsəlmanlarının xahişi**

London - Avam Kamerasında Emeri bəyan eyləmişdir ki, Kipr müsəlmanlarından aldığı teleqramda o yerin müsəlmanları Britaniya hökmranlığı altında qalmağı xahiş edirlər. Müsəlman təbəələrinin haqqında olan bu məsələ qayət ehtiyatla müzakirə ediləcəkdir.

Paris - Havas agentliyi xəbər verir ki, çinlilərin Parisdə olan beynəlmiləl sülh heyəti xəbər vermişdir ki, Kiao-Çao və Kanton barəsində olan sülh maddələri təbdil edilmədikcə [dəyişdirilmədikcə], Çin sülh murəxxəsləri [nümayəndələri] müahidənaməni [sazişi] imza etməyəcəklərdir.

Berlin - Düsseldorf idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] altında elan edilmişdir.

Lahey - Rəsmi surətdə xəbər verilir ki, Şərqi Hindustanda olan tələfatın miqdarı 5100 nəfərdən ziyadə deyildir.

Paris - Xəbər verilir ki, İsveçiya ilə Daniya Almaniya ablukasında [blokadasında] iştirakdan imtina etmişlərdir.

Kopenhaq - Peştədən rəsmi surətdə xəbər verilir ki, Macarıstan qoşunları çex qoşunlarına qələbə çalmışlardır. Bütün cəbhədə Macarıstan qoşunları çex qoşunlarını təqib edirlər.

## SÜLH ƏTRAFINDA

**Avstriya sülh müahidənaməsi**
**Çex-slav hökuməti**

Avstriya Cənubi Karpatda muxtariyyətli əyalət daxil edilməklə Çex-slav hökumətinin istiqlaliyyətini tamamilə etiraf [qəbul] etməlidir. Avstriya ilə təzə hökumət sərhədi bir nəfər Avstriyadan və bir nəfər çex-slavlardan olmaq üzrə Müttəfiq dövlətlər tərəfindən təyin edilən 7 nəfər nümayəndədən ibarət xüsusi komissiya tərəfindən müəyyən ediləcəkdir. Çex-slavlar razıdırlar Müttəfiq dövlət başçıları ilə bərabər müahidənaməyə [sazişə] öylə şərtlər daxil etsinlər, hansılarını ki, çex-slavlar milli əqəliyyətin [azlığın] müdafiəsindən ötrü, nəqliyyat işlərini və hamı millətlərin müxtəlif ticarət haqlarını təmin etmək üçün lazım görürlər.

**Amerikada anarxiya hərəkatı**

Vaşinqtondan xəbər verirlər ki, müəyyən bir vaxtda 8 şəhərdə bomba atılmışdır. Hökumət məmurları böylə zənn edirlər ki, bu mütəşəkkil bir anarxiya hərəkatıdır ki, bundan məqsəd hökuməti düşürməkdir. Nəşr edilən intibahnamələrdə [vərəqələrdə] deyilir ki, sinfi mübarizə başlanmışdır, ancaq füqərayi-kasibənin [proletariatın] qalibiyyətindən sonra bu mübarizə qurtaracaqdır.

**Əfqanıstanda**

Əfqanıstan əmirinin mütarikə [ataşkəs] haqqındakı xahişinə cavab olaraq Hindustan hökuməti bu şərtləri qoymuşdur:

1) Əfqan əsgərləri 20 mil məsafəsində hind əsgərlərindən kənara çəkilməlidirlər;

2) Əsgərlərin mövqeyi təbdil edilməlidir [dəyişdirilməlidir];

3) Hava dəstəsinə icazə verməlidir ki, əfqan əsgərləri üzərində kəşfiyyat yapsın. Əfqanlılar sərhəddə olan tayfaları məcbur etməlidirlər ki, hərbi hərəkatı qət etsinlər [kəssinlər].

- Şənbə günü saat 3-də Versal sarayının Ayna salonunda Müttəfiq dövlətlərlə Almaniya arasında sülh müahidənaməsi [sazişi] imza edildi. Nemeslərin nümayəndələri nazirlər Herman Müller və [Yohannes] Bell şənbə gecəsi Versala varid olmuşlardır [gəlmişlər]. Düşənbə [bazar ertəsi] günü səhər bunlar vəkalətnamələrini təqdim etmişlərdir. 400 səhifədən ibarət sülh müahidənaməsini oxumaq imkanı bulunmadığından, Klemanso Sülh Konfransı namından [adından] alman vəkillərinə müraciətlə təsdiq eyləmişdir ki, bu müahidənamə [Brokdorf] Rantsauya təqdim edilən müahidənamənin eynidir. Marşal Foş Fransa nümayəndəsi sifəti ilə orada iştirak eyləmişdir. Məclisə dəvət edilənlər arasında hərb zamanında təşkil edilən dörd kabinə sədrləri – [Rene] Viviani, [Aristid] Brian, [Aleksandr] Ribo, [Pol] Penleve və Elzas-Loren nümayəndəsi [Aleksandr] Milyeran da var idi. Şənbə günü axşam Paris qələbə bayramı saxlamışdı. Baş küçələrdə məşəlli nümayiş icra edilmişdir. Şənbə günü bədəzzöhr [günortadan sonra] fransız parlamanı 4.300.000 frank təxsis eyləmişdir [ayırmışdır] ki, bu məbləğlə iyulun 14-də Qələbə bayramı təşkil edilsin. Təntənə məramnaməsində qoşunların rəsmi-keçidi (paradı) əqd edilmişdir. Bu rəsmi-keçiddə Fransa generallarından Foş, Joffr və Peten iştirak edəcəklərdir. Cümə günü Parlaman bir komissiya intixab eyləmişdir [seçmişdir]. Bu komissiya sülh müahidənaməsinə bələd olmalı idi. Bu komissiyaya 9 nəfər sosialistlər də daxil olmuşlar. Yalnız iki nəfər ən sol sosialistlər daxil olmaqdan imtina etmişlərdir.

Lion - Sülh müahidəsi imza edildiyi heyndə [əsnada] 101 ədəd şənlik topu atılmışdır. Vilhelmin və sair alman generallarının təhti-məsuliyyətə [məsuliyyət altına] cəlb edilmələrinə qarşı Almaniya mürəxxəsləri [nümayəndələri] protesto edərək salondan çıxmışlardır. Çin mürəxxəsləri sülh müahidənaməsini imza etməkdən imtina etmişlərdir.

**Almaniya nəyə razıdır?**

İyunun 28-də Londondan verilən məlumata görə, rəsmi surətdə xəbər verilir ki, almanların əks təklifində izhar edilmişdir ki, sülh müahidənaməsində Almaniyaya təklif edilən şəraitin qəbulu qeyri-mümkündür. Bundan əlavə, bu şərait Vilsonun maddələri ilə müvafiq deyildir və yenidən bir cahan ixtilafı törədə bilər. Bununla belə, Almaniya razıdır ki, 1926-cı ildə min milyon ingilis lirəsi qızıl versin. 1927-ci il may ayından başlamış hər il faizsiz müəyyən məbləğ versin. Veriləcək məbləğin miqdarı 5 min milyon ingilis lirəsindən artıq olmamalıdır. Almaniya həmçinin razıdır ki, ordusunu azaldıb yüz minə qədər yetirsin. Bundan əlavə, öz hərbi gəmilərinin silahını da bu şərtlə götürməyə razıdır ki, ticarət gəmilərinin bir hissəsi özünə qaytarılsın. Almaniya müahidənamə mövcibincə [sazişə əsasən] Polşaya verilən Vistulun bitərəf məntəqə olmasına və Vistul nəhrindən Polşanın istifadə etməsini də təmin etməyə razıdır. Lakin əhalinin rəyini bilmədən həman yerin verilməsindən imtina edir. Almaniya Yuxarı Sileziyanı, Şərqi Prussiyanı, Qərbi Prussiyanı və Memeli güzəşt etməkdən ciddi surətdə imtina edib, Dansiqin azad port olmasına razı deyildir. Müstəmləkata gəldikdə, hərgah Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] vücuda gəlsə və Almaniya hüquqa malik bir sifətdə üzvlər heyətinə daxil olarsa, Cəmiyyəti-Əqvam əsaslarına razı olar. Cəmiyyəti-Əqvam mandatı ilə müstəmləkələr idarə olunar.

**Fransa sosialistləri sülh haqqında**

"L. T." Fransa qəzetəsi yazır ki, sülh şəraitinin alman nümayəndələrinə verilməsi münasibətilə Fransa sosialistlərinin iclasları olmuşdur. Sosialistlər belə bir qətnamə qəbul etmişlərdir:

Sosialistlər Şurası belə görür ki, millətləri müharibədə müdafiə edən hökumətlərin vədləri hal-hazırda qəti şərait surətinə düşmüşdür ki, bu şəraitin hər bir sözündə haqq və ixtiyar xələldar edilir [pozulur]. Sosialistlər Şurası sədaqət və qardaşlıq arzularının qarşısı alınması əleyhinə protesto edir. Sosialistlər Şurası bütün füqərayi-kasibə təşkilatına təklif edir ki, imperializm maskasını üzərindən atanlar əleyhinə ciddi hərəkatda bulunsunlar.

**Almaniya donanmasının batırılması haqqında**

Mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, Fransa Bəhriyyə Nəzarəti [Donanma Nazirliyi] Almaniya donanmasının almanlar tərəfindən qərq edilməsi haqqında nəşr etdiyi məlumatda deyir ki, hərçənd batırılan gəmilər 20-40 metrə dərinliyində dayanmışlar, lakin bu 46 gəmini qaldırmaq üçün çox məbləğ sərf etməyə dəyməz. Almanların öz gəmilərini batırmaları Fransaya böyük zərərdir. Çünki Müttəfiqlər bizim itirdiyimiz gəmilər əvəzində alman gəmilərindən bizə verməyi vəd etmişdilər. Hətta İngiltərə hökuməti belə etiraf edir ki, bununla Fransa hamıdan artıq mütəzərrir oldu [zərər çəkdi]. Bizə çatacaq Almaniya gəmiləri kruvazerlərdən [kreyserlərdən], yaxşı hərbi gəmilərindən və son sistem müxriblərdən [destroyerlərdən] ibarət idi. Bunlar bizim donanmanı artırıb 1914-cü ildə malik olduğumuz donanma misalı olardı. Bununla da biz ticarət münasibatımızı mühafizə edə bilərdik. Vaxtı ki, almanlar bizi bizə çatacaq gəmilərdən məhrum etdilər, bizim ixtiyarımız vardır ki, tezliklə zərərlərimizin əvəzini tələb edək. Bu zərərlərin miqdarını asanlıqla müəyyən etmək olar. Çünki batırılan gəmilərin qiyməti bir bilyon 1/22 frank. Almaniyanın bu hərəkəti artıq zərər verdiyinə görə, Fransa gəmilər inşasından ötrü Almaniyadan böyük məbləğ tələb etməlidir.

Almanların öz donanmalarını qəsdən batırmalarına şübhə olmadığına baxmayaraq, İngiltərə-Amerika nümayəndələri bu rəydədirlər ki, almanlar silahın azalması əsasını qoymaqla dünyaya böyük xidmət göstərmiş oldular. Bu iki məm-

ləkət bütün dünyanın 3/4 dəniz qüvvəsinə malikdir. Almanlar əvvəlcədən vücuda gətirilmiş İngiltərə donanması ilə rəqabət edirdilər. Almaniya və ya başqa bir hökumət külli miqdarda donanmaya malik olduqca, donanmanın azalması mümaniətə [maneəyə] düçar olacaqdı. Buna görə arzu olunurdu ki, gəmilər Fransaya və ya İtaliyaya verilsin. Bu bir çətin məsələ idi ki, Almaniya onu indi həll etdi.

**İtaliya sosialistləri İtaliya haqqında**

İtaliya sosialistlərinin mürəvvici-əfkarı [yayın orqanı] olan "Avanti!" qəzetəsi yazır ki, biz öylə bir baziçə [oyun] içrə qalmışıq ki, bir tərəfdən bu baziçə Adriatik dənizində İtaliyaya düşmən ünsürlərin qüvvəsini artırır, digər tərəfdən də İtaliyanın öz qüvvələrini zəif salmağa çalışır. İtaliya əleyhinə olan bu kampaniyaya soxulmuş Fransa və İngiltərənin bir para məsul və siyasi firqələri məlum deyil ki, nə dərəcədə Müttəfiq dövlətlərin və Müttəfiqlərə qoşulan hökumətlərin siyasətinə müəyyən nüfuz yetirməyə nail olacaqlar. Əhval xeyli ağırdır. Ona görə İtaliya hökuməti səbat göstərməlidir. İtaliya Avstriyanı məğlub edib Avstriya amalı ilə mübarizədə bulunmağa özünü məcbur görür.

## QƏZETƏLƏRDƏN

**General Baratov**

"D. V." qəzetəsi iyunun 21-də xəbər verir ki, Yekaterinodarda olan Baratov Cənubi Rusiya ordusu baş komandanı tərəfindən mühüm siyasi sifarişlərlə bu günlərdə Tiflis şəhərinə azim olacaqdır [yola düşəcək]. General Baratovun bu əziməti [gedişi] Gürcüstan[ın] Zaqafqaziyanın başqa cümhuriyyətləri ilə münasibat düzəltmək məsələsi ilə əlaqədardır.

**İrana ilhaq**

"Aşxatavor" "Rə'd" qəzetəsindən iqtibasən yazır:

İran Hərbiyyə naziri Sipəhdar Makuya varid olduqda yanına əhalidən 40 nəfər ağsaqqaldan mürəkkəb [ibarət] bir heyəti-nümayəndə gəlib camaat tərəfindən rica etmişlər ki, ora əhalisini İran təbəiyyətinə qəbul etmək və Maku vilayətini İran hüduduna daxil edilməsini əhali tərəfindən İran hökuməti nəzdində təvəssüt [vasitəçilik] etsin. O cür təvəssütü zorən Ermənistana mülhəq edilmiş [birləşdirilmiş] Naxçıvan və qeyri uyezdlərin əhalisi də [Fətulla xan Əkbər] Sipəhdardan rica etmişdir. Neçə gün bundan əqdəm [qabaq] İranın İrəvan konsulu neçə ingilis zabiti ilə məa [birgə] Təbrizə azim olmuşlar [yola düşmüşlər]. Fövqəlzikr [yuxarıda adı çəkilən] uyezdlərin nümayəndələri indiyədək Təbrizdədirlər.

**İngiltərə Fəhlə Firqəsi və sülh müahidənaməsi**

İngiltərə Fəhlə Firqəsinin Milli İcraiyyə Komitəsi böylə bir dəvətnamə buraxmışdır:

*"Fəhlə Firqəsinin Milli İcraiyyə Komitəsi elan edilən sülh müahidənaməsinin [sazişinin] bir çox maddələrini rəisi-cümhur Vilsonun məruzəsinə və beynəl-müttəfiq [müttəfiqlərarası] Bern Konfransına zidd hesab edir. Bu müahidənamə ümumi sülh nöqteyi-nəzərindən mükəmməl olmayıb, Yevropada hələ hökmfərma olan [hökm sürən] sərmayədar imperializm kompromislərindən ibarətdir. Fəhlə sinfinin ədalətli sülh haqqındakı təsəvvürünə mütabiq olmayan bu müahidənamə hazırlandığı zaman nə qədər ki, mütəşəkkil məsai [əmək] Sülh Konfransına təqdim edilməmişdir, biz müahidənamədə əsasları xələldar edəcək [pozacaq] məsuliyyəti öhdəmizə götürmürük. Buna görə biz əhaliyə və mütəşəkkil demokratiya qüvvələrinə müraciətlə bütün millətlərin yaxınlaşması üçün sülh amalının intişarını [yayılmasını] və müdafiəsini təklif edirik. Ancaq beynəlmiləl təşkilatı olan fəhlə hərəkatının təsiri altında həmin müahidənamənin bütün qüsurları rəf oluna [aradan qaldırıla] bilər. Bu müahidənamə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] vücuda gətirməsi ilə düzələ bilər.*

*Bu müharibə qismən müstəmləkə iddiası nəticəsi olduğundan və müahidənamədə isə hamı tərəfeyn millətlər [hər iki tərəfdəki bütün millətlər] üçün ticarət şəraiti bərabər olmadığından, Almaniyanın Cəmiyyəti-Əqvamdan müstəmləkə üçün mandat almaqdan imtina etməsi rəqabətə və narazılığa bais olacaqdır ki, bu da gələcəkdə beynəlmiləl ixtilaf törədəcəkdir. Eyni zamanda, Müttəfiq dövlətlər kontrolu altında olan müstəmləkələrin genişləndirilməsi müttəfiq millətlər üçün donanmaya, orduya məxaric artması ilə ağır bir yük olacaqdır.*

*Tələb etmək olmaz ki, Almaniya xarabaları bərpa edib quruda, suda və havada müharibə ilə əhaliyə toxunan zərərləri versin. Biz zənn ediriz ki, xəsarətə baxan komissiyada Almaniyanın nümayəndəsi olmalıdır və Almaniyadan tələb edilən məbləğ öz əhalisinin ehtiyacını ödəmək vəzifəsi ilə müvafiq olmalıdır. Biz təəssüf edirik ki, Almaniyanın tərksilah edilməsi üçün qəti tədbirləri havi olan [ehtiva edən] sülh müahidənaməsi ümumi tərksilah qəsdi ilə başqa dövlətlərin silahlarının azalması üçün heç bir ölçü qoymamışdır.*

*Fransanın öz kömür mədənləri bərpa edilənə qədər Almaniyada hasil olan kömürü almağa Fransanın ixtiyarı olduğuna razı olub, Saar nahiyəsinin uzun müddət Almaniyadan ayrılması təşəbbüsatı əleyhinə protesto edirik. Bundan əlavə, müahidənamənin siyasi və iqtisadi kontrol qoyması əleyhinə də etiraz edirik. Biz ümidvar oluruz ki, Fransa Elzas-Lorendə öz iddiasını möhkəmləndirməklə bu uzun mübahisəni Yevropa həyatından rədd edib, Cəmiyyəti-Əqvam kontrolu altında həmin vilayət əhalisinin rəyini xəbər almağa razı olar. Təzə Elzas-Loren vücuda gətirməkdən qaçmaqdan ötrü Almaniya ilə Belçika arasında olan Malmedi və qeyri mübahisəli yerlər məsələsi oralarda Almaniya hakimiyyəti məhv edilmədən qabaq Cəmiyyəti-Əqvam kontrolu altında rəyi-amm [referendum] ilə həll edilməlidir. Nahiyələrin əhalisi Müttəfiq dövlətlərin hərəkatlarından Cəmiyyəti-Əqvama şikayət etməkdənsə, böylə olması gözəldir.*

*Biz Şərqi Prussiyanın cənubi və şərqi nahiyələrində rəyi-amm tətbiq edilməsini təbrik edib, bu üsulun Almaniya, Polşa və Çex-slav sərhədləri bərpasında tətbiq edilmə[mə]sinə təəssüf edirik. Millətlərin istiqlaliyyəti əsasına müvafiq Almaniya avstriyalıları əhalisinə azad və hədsiz ixtiyar verilməlidir ki, Almaniya Hökumətləri Federasiyasına daxil olmalarını və ya*

*müstəqil qalmalarını özləri həll etsinlər. Başqa cür qərar ədalətsizlik və milli amalı sıxmaq olar ki, bu da Yevropa sülhünü təhdid edə bilər.*

*Hər kimin olursa-olsun qalib gəlməsini nəzərdə tutub bütün dünyanın fəhlə sinfi beynəlmiləl toqquşmada artıq üsrət [çətinlik] çəkir. Ciddi surətdə arzu ediriz ki, indilikdə sülh şəraitini Vilsonun məruzəsi ilə geniş bir surətdə müvafiq etməkdən ötrü çalışılsın və hamı müəyyən milli arzular mümkün qədəri tamamı ilə təmin edilsin. Tainki təzə və ya köhnə ixtilaflar çıxmasın. Çünki bu müruri-zamanla [vaxt keçdikcə] Yevropanı, xüsusən ümumi sülhü xələldar edər."*

**Cəmiyyəti-Əqvam əleyhinə**

"Matin" qəzetəsinin Nyu-York müxbiri teleqraf edir ki, Amerika Senatında Cəmiyyəti-Əqvam düşməni olan general Conson Cəmiyyəti-Əqvamı ancaq müdhiş bir hərbi ittifaq hesab edib, atəşin bir nitqi ilə Cəmiyyəti-Əqvam layihəsini rədd etməyə dəvət etmişdir. Natiq öz nitqində Cəmiyyəti-Əqvamın təzə müharibələri rədd edəcəyi təsdiqini yalan hesab edib demişdir ki, Cəmiyyəti-Əqvam layihəsi Müttəfiq dövlətlərə imkan verir ki, Monronun nüsxəsini öz istədikləri kimi təfsir [şərh] etsinlər. Bundan əlavə, Cəmiyyəti-Əqvam layihəsi Amerikanı məcbur edir ki, Cahan müharibəsində qalib gələn dövlətlər tərəfindən alınan yerlərin müdafiəsi üçün müharibəyə daxil olsun. Sonra natiq gizlin müahidənamələri [sazişləri], o cümlədən Şantunqu Yaponiyaya vagüzar edən [tapşıran] əhdnaməni, ələlümdə [başlıca olaraq] İngiltərə ilə Amerikanın Fransanı hərbi qüvvədən təmin edəcəyi müqavilənaməsini şiddətli bir surətdə tənqid etmişdir. General Consonun nitqi dəfələrlə alqışlanmışdır. Bu alqışlarda Məclisi-Əyana [Senata] külli miqdarda cəm olan əhali iştirak etmişdir. General Conson öz nitqində demişdir ki, Monronun nüsxəsinə dəxli olan maddənin müəllifi ya soyuqqanlı bir Amerika vətənpərvəri olmalıdır, yaxud Monronun nüsxəsini (yəni Amerika amerikalılar üçündür sözünü) Cəmiyyəti-Əqvam kontrolu altına salmaq istəyən əcnəbi təbəəsidir.

**Müttəfiqlərin planı**

Məlumatlı dairədən alınmış və son zaman Paris mətbuatında görülən xəbərlərə müvafiq gələn məlumata görə Kolçak, Finlandiya və Müttəfiqlər tərəfindən Petroqradın işğalı təsəvvüründən məqsəd işbudur: Kolçak yaxud Yudeniç Petroqrada daxil olandan sonra Parisdə olan Rus Komitəsinin rizası və London və Parisdə olan köhnə Rusiya səfirlərinin rəsmi müavinətləri ilə Petroqradda yeni hökumətin təşkil ediləcəyi elan olunacaq, Moskva Şura Hökumətinə müqabil, Ümumrusiya Hökuməti adlanacaqdır. Bu hökumət bilatəxir [dərhal] Müttəfiqlər tərəfindən təsdiq ediləcəkdir. Bu hökumətin Avropada və Yaponiyada səfirləri təyin ediləcəkdir. Yeni Kabinə üzvləri Petroqradda qeyd edilmişdir. Knyaz [Georgi Yevgenyeviç] Lvova Rəisi-vükəlalıq [Baş nazirlik] təklif edilmişdir, fəqət hələlik cavab verməmişdir. [Vasili Alekseyeviç] Maklakov bu barədə Savinkov ilə danışığa girişmişdir.

**Kubanda Şura**

İyunun 20-də Yekaterinodarda Cənubi Rusiya Quvayi-Müsəlləhəsi [Silahlı Qüvvələri] Baş komandanı general Denikinlə Don, Kuban və Terek hökumətləri sədri və əsgəri atamanın şurası vaqe olmuşdur. "Utro Rossii" qəzetəsi Şura haqqında böylə xəbər verir:

İclasda ali hökmdar amiral [admiral] Kolçak hökumətinin etiraf [qəbul] edilməsi məsələsi müzakirə edilmişdir. Kazak nümayəndələri ali hökmdar Kolçak hökumətinin etiraf edilməsinə razı olmuşlardır. Kolçakın siyasi hökumətindən isə kazak nümayəndələri boyun qaçırmışlardır. Baş komandan Don, Kuban və Terek nümayəndələrinə xüsusi şura qurmağı təklif etmişdir ki, bəlkə bu qərar üzrə xüsusi şura amiral Kolçakla görüşənə qədər Cənubi Müvəqqəti Rusiya Hökuməti hesab olunsun. Rada dairələrində söyləndiyinə görə, kazak nümayəndələri kazak oblastlarının Cənubi Rus İttifaqı vücuda gətirilməsini qərara aldıqlarına görə, xüsusi şuraya daxil olmayacaqlardır. Xüsusi şura haqqında hələ doğru bir xəbər yoxdur. Çünki orada iştirak edənlər bu əhvalatı gizlin saxlayırlar.

**Simferopol altında**

Krımda Dabrovol ordusu hücumu bir tərəfdən Simferopola, digər tərəfdən Canköyə hücum olur. İyulun 23-də bütün cəbhədə hücum başlanmışdır. Həman gün rəsmi məlumata görə Qarasubazar işğal edilmişdir. Qarasubazar və Simferopol xətti üzrə hücum davam edir. Simferopolun 20 verstliyində olan Zuya istasyonu işğal edilmişdir. Canköy səmtində Çukmarı, Kulay və Nəriman kəndləri alınmışdır.

**Cənubi Rusiyada aclıq**

Odessadan xəbər verirlər ki Cənubi Rusiyada bolşeviklər hökumət etdikləri yerlərdə bu il taxıl əkilməmişdir. Ən yaxşı yerlərin yarısı ancaq əkilmişdir. Cənubi Rusiyanı böyük aclıq təhdid edir. Kəndlilər izhar edirlər ki, onlar şəhəri bədbəxtliklərə bais hesab edib, şəhərə taxıl verməyəcəklərdir.

**Professorun qətli**

Kiyev Fövqəladə Komitəsinin əmrinə görə məşhur professor Florinski və bir çox alimlər qətl edilmişlərdir.

## VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Gürcüstana mal mübadiləsindən ötrü aparmaq üçün iki vaqon arpa unu, iki vaqon sulufun [darının] aparılmasına izin vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Türüq və Məabir Nəzarətinə dəmir yollarına lazım olan mallara mübadilə üçün 2 vaqon suluf, 2 vaqon arpa unu aparılmasına izin verməli.

- Azərbaycan Hökumətinin əmrinin surəti:

Xidmətində yararlıq göstərdiyindən dolayı general-leytenant Hərbiyyə naziri müavini Əlağa Şıxlinski general ot artillerii [artilleriya generalı] mənsəbinə tərfi edilir.

*Rəisi-vükəla [Baş nazir]: Yusifbəyli*

## NƏZARƏTLƏRDƏN [NAZİRLİKLƏRDƏN]

**Nota**

Azərbaycan Xariciyyə Nəzarəti İngiltərə Komandanlığına işbu məzmunda bir nota təqdim etmişdir:

2 iyul 1919-cu sənə.

İşbu sənənin 11 iyununda Azərbaycan Hökuməti general Kori vasitəsilə Britaniya hökumətinin; Könüllü ordusu ilə Zaqafqaziya miyanında [arasında] demarkasiyon xətti çəkiləcəyi haqqında məlumat aldığı üçün inanırdı ki, Könüllü ordusu Britaniya təklifinə itaət edərək Dağıstanı boşaldıb, xətt arxasına çəkiləcəkdir.

Halbuki, Könüllü ordusu o xətt arxasına çəkilməməkdən əlavə, başqa bir iqdamatda bulunmuşdur [addım atmışdır] ki, Zaqafqaziya millətlərinə böyük təsir yetirməklə istənilməyən nəticələr verə biləcəkdir.

Dün bizim Dağıstanda olan nümayəndəmiz Haqverdiyev teleqrafən Xariciyyə Nəzarətinə bildirmişdir ki, general Erdeli təcili surətdə Dağıstandan çıxmağını təklif etmişdir. Teymurxanşura demarkasiyon xəttinin arxasında olduğu üçün general Erdelinin təklifi Britaniya qətnaməsinə müğayir [zidd] olduğu kimi, Azərbaycan Cümhuriyyətinin hüququna da təcavüz etməkdir.

Könüllü ordunun qeyri-qabili-təhəmmül müamiləsindən naşi [dözülməz rəftarına görə] Azərbaycan hökuməti ciddi protesto etməklə inanır ki, Britaniya Komandanlığının bu işə müdaxilə etməsi Könüllü ordunu Azərbaycan hüququ və Britaniya qətnaməsinə ehtiram etməyə məcbur edəcəkdir.

*Xariciyyə naziri:*
*M[əmməd] Y[usif] Cəfərov*
*Dəftərxana müdiri:*
*C[ahangir] b[əy] Qayıbov*

- Keçən sənə dekabr ayının 5-dən işbu sənənin 1 iyununadək Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Dəftərxanası tərəfindən Bakı nahiyə müfəttişliyindən maəda [başqa] işbu müavinətlərdə bulun[ul]muşdur: 643 müsəlmana 98425 rublə, 207 erməniyə 18300 rublə, 404 rusa 12225 rublə, 25 ləhə [polyaka] 2725 rublə, 4 yəhudiyə 750 rublə.

- Şamaxı qəzası nahiyə müfəttişliyi binagüzarlığı [sərəncamı] ilə məhəlli [yerli] qaçqınlar üçün emalatxana güşadından [açılmasından] ötrü əlavətən 70 min rublə təxsis edilmişdir [ayrılmışdır].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən Şamaxı qəzasında qaçqınlar üçün emalatxana güşadı və təşkilindən ötrü bir nəfər məmur göndərilmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Qarabağ müvəkkili Behbudova xəbər vermişdir ki, Zəngəzur qaçqınları üçün təxsis edilmiş [ayrılmış] 18 milyon təsdiq edilənədək onun ixtiyarında olan nəqdiyyəni ancaq Zəngəzur qaçqınlarına xərc etsin. Bundan əlavə, 200 min rublə göndərilmişdir. Hər həftə Behbudov qaçqınlar haqqında məlumat verməlidir.

- Gürcüstan hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəliyinə Tiflisdə yaşayan İrəvan quberniyası müsəlmanları tərəfindən bir böylə kağız gəlmişdir:

Tiflisdə yaşayan İrəvan quberniyası müsəlmanları mütəşəkkil olaraq "İrəvan quberniyası müsəlmanları həmtorpaqlıları" namında bir cəmiyyət təşkil etmişlərdir. Cəmiyyətin məqsədi İrəvan quberniyası müsəlmanlarının siyasi və ərazi hüququnu müdafiə etməklə bərabər, füqəra sinfinə müavinət etməkdir. Cəmiyyətin heyəti-rəyasətinə bunlar intixab edilmişlərdir [seçilmişlər]:

Sədr: Nəsrulla Şeyxov; katib: Zeynal Məhəmmədov, xəzinədar: Həsən Qurbanov.

- Axırıncı məlumata görə Naxçıvan, Şərur, Dərələyəz, Ordubad mahallarında ermənilər tərəfindən təxrib edilmiş [dağıdılmış] köylərin miqdarı 124-dür. Bu günlərdə 45000 nəfərə baliğ [çatan] ünas və zükur məqtul olmuşdur [qadın və kişi qətl edilmişdir].

- Dün Azərbaycan Xariciyyə Nəzarətində Gürcüstan ilə əqd edilmiş hərbi müqavilənamələr mübadilə edilmişdir.

- İrəvandan işbu məzmunda bir teleqram alınmışdır:

Bakı, Azərbaycan Xariciyyə nazirinə.

Daima Azərbaycan ilə Ermənistan miyanında [arasında] dostluq axtaran erməni hökuməti Azərbaycan Hökuməti tərəfindən edilmiş Ermənistan və Azərbaycan nümayəndələri və Müttəfiqlər nümayəndəsindən mürəkkəb [ibarət] Parlaman Komisyonu təşkilindən ibarət təklifə öz razılığını izhar edir.

*Xariciyyə naziri: Tiqranyan*

## XARİCİ SİYASƏTİMİZ

**- 2 -**

**Beynəlmiləl əlaqə**

Avropa mədəniyyəti yer üzünə yayıldıqca, millətlər arasında sırf bir mədəni yavuqluq ehtiyacı duyuldu. Bu yavuqluq insanların bir-birindən asılı olduğuna, qarşı ehtiyac və qarşı fayda məsələsini doğurdu. Millətlər və dövlətlər bir-biri ilə əlaqələrini qanuni şəklə salmağa çalışdılar. Beynəlmiləl hüquq meydana çıxdı. Dövlətlər faydalarını nəzəri-etibara alaraq hər kəs beynəlmiləl qanununu öz xahişi ilə tanımaq istədi. Dövlətlər arasında əlaqə başlandı. Elçilər göndərdilər, müahidələr əqd olundu [sazişlər imzalandı]. Məmləkət qapısı əcnəbilərə açıldı. Mənəvi və maddi məhsullar mübadiləsi başlandı.

Böyləcə, sırf bir fayda və mədəni məsələlərdən doğaraq bir qanun əmələ gəldi və bu qanunu tanımaqla millətlər birbiri ilə əlaqəyə girişdilər.

Lakin beynəlmiləl əlaqəyə girənlərin hamısı hüquqda bərabər olmadılar. Bunun üçün də şərtlər lazım gəldi. Əvvəlcə sırf xristian dövlətlərinə aid olan bu əlaqə və hüquq sonra başqalarının malı olmağa başladı. Paris Konfransının 7-ci maddəsi Osmanlı dövlətini "Avropa konsertinə" qəbul etməklə, hüquqda başqa dövlətlərlə bərabər etməli idi. Lakin bir çox maneələr göründü. Şərq üsulu ilə idarə olunan bir məmləkəti avropalılar öz aralarında həmhüquq olaraq görməyi istəmədilər. Beynəlmiləl əlaqə, rabitəyə tam hüquqla girməyi üçün məmləkətdə islahat lazım idi. Ələlxüsus qanunları və

məhkəməni düzəltməli idi. Şəriət işlərini mülki qanunlardan aralamalı idi. Türkiyə bu barədə ağır tərpəndiyi üçün Avropa Paris əhdnaməsinə əməl eyləmədi və Türkiyənin bütün hüquqlarına təcavüz etməyə başladı.

Yaponiya böylə tərpənmədi. Avropa təcavüzündən qurtarmaq üçün Avropanın fənn və idarəsini əxz etmək lazım gəldiyini anladı. Keçən əsrin ortasından başlayaraq islahat başlandı və bununla bərabər əcnəbilərə qapıları açdı və əhdnamələrlə əlaqələrini təyin etdilər. Qanunlar və məhkəmələr islahı dünyada Yaponiyanın köhnə vəziyyətini dəyişdi. Çin-Yapon müharibəsi yaponların qüvvət və qüdrətini aləmə bildirdi və bundan sonra böyük dövlətlər yaponların haqqını tanımaq istədi və konsoloslar məhkəməsi kimi məmləkətin daxili işinə qarışan şeylər ləğv olundu. Halbuki İranda və Osmanlıda konsoloslar məhkəməsi son vaxta kimi davam etmədədir.

Keçək Azərbaycana.

Azərbaycan birinci islam məmləkətidir ki, qanunlarının və məhkəməsinin islaha ehtiyacı yoxdur. Burada rusun Avropada məşhur qanun və məhkəməsi daha da ədalətli bir şəklə qoyuldu. Millətlər, cinslər və siniflər bərabərliyi bilfeil [əməli olaraq] tanındı.

Azərbaycan birinci islam cümhuriyyətidir. Demokratik bir idarəsi ilə islam tarixinə yeni səhifələr əlavə edir. Əcəba tam mənası ilə bir Avropa tərzi-idarəsində təşəkkül edən bu dövlətin beynəlmiləl münasibatda vəziyyəti nə təhər olacaq? Bu hamımızı maraqlandıran bir məsələdir.

Təbiidir ki, sağlam bir vücuda malik ədalətli bir idarəsi, Məclisi-Məbusanı, gözəl qanun və Avropa üsulunda məhkəməsi olan dövlət beynəlmiləl münasibatda avropalılarla həmhüquq olmalıdır.

Ölkəmizin sərvəti çoxdur. Faydalanmaq istəyən dövlətlər bizə əl uzatsınlar, müahidə [saziş] yapaq. Bizim də bir çox ehtiyacımız var. Bunları da dəf etmək üçün xaricə müraciət edəcəyik.

*(mabədi var)*

*Yusif Vəzirov*

**BƏYANİ-HƏQİQƏT**

Müdiri möhtərəm! Qəzetənizin sütunlarında aşağıdakı sətirlərə yer vermənizi istirham [xahiş] edirəm.

"Azərbaycan" qəzetəsinin 169[-cu] nömrəsində "Möhkəm idarə, möhkəm əxlaq istər" sərlövhəli məqalədə "Ümidvar" əfəndi İrəvan quberniyasının zərərdidə və qaçqınlarına tövzi etmək [paylamaq] üçün mənim vasitəmlə Azərbaycan hökuməti tərəfindən göndərilən paraların mənim nəfimə [xeyrimə] ticarətə buraxılmasını isbat etmək istəyir və bununla məni müttəhim edir.

Əsl mətləbə şürudan [başlamazdan] əvvəl, "Ümidvar"ın məzkur [deyilən] məqaləsinin mənə aid olan nöqtələrinə indiyədək cavab yazmadığıma səbəb mənim İngiltərə Komandanlığı tərəfindən Tiflisdə həbsə alındığım olduğunu qeyd etməyi xali-əz-məna [mənasız] bilməyirəm.

İrəvan quberniyasının möhtac müsəlmanlarına maddi müavinətdə bulunmağı Azərbaycan Hökumətindən istirham və





bir neçə başqa məsələlərə məzkur hökumətin nəzəri-diqqətini cəlb etmək üçün Araz Türk Hökuməti tərəfindən nümayəndə sifəti ilə Badkubəyə [Bakıya] gəldim. Azərbaycan Hökuməti İrəvan quberniyasının müsəlman mühacirlərinə bir milyon para verilməsini təhti-qərara aldı və paraların tövzisini mənə və kəndisi tərəfindən təyin olunmuş bir nümayəndəyə tapşırdı. Paraların Zaqafqaz bonu olacağını nəzərə alaraq, Araz Türk Hökuməti həman paranın başqa bir paraya çevrilməsini mənə əmr etmişdi. Buna şahid əlan [indi] Badkubədə yaşayan Əmir bəy Nərimanbəyov və Bağır Rzayev cənablarıdırlar. Bu[n]lardan əvvəlincisi məzkur [deyilən] hökumətin sabiq sədri, ikincisi isə onun müavini idi.

Həmin əmrə də səbəb İrəvan quberniyasında Zaqafqaz bonlarının işləməməsi idi. Pulları təslim almaqdan əvvəl dəfəatla Azərbaycan Hökumətindən bon əvəzinə Nikolay və ya Kerenski parası verilməsini rica etmişdim. Hökumət isə paraları Mavərayi-Qafqaz [Zaqafqaziya] bonası verib başqa pula çevirməyi bizim öhdəmizə buraxdı.

Böylə olduqda, nümayəndəsi olduğum Araz Türk Hökumətinin əmri mövcibincə [əmrinə əsasən] və Azərbaycan Hökumətinin rizası ilə paraları pozmağa [dəyişdirməyə] başladıq və Tiflisdə bir qədər Osmanlı altun lirası və Kerenski parası aldıq.

O günlərdə Tiflisə varid olan [gələn] Naxçıvan nümayəndəsi Bəhram xan Naxçıvanski cənabları ilə Badkubəyə gəlməyim vacib oldu. Bonların mabəqisini [qalanını], çevrilmiş paraları arxadaşım Azərbaycan Hökuməti nümayəndəsinə təslim edib Tiflisdən Badkubəyə gəldim.

Badkubədə mənimlə Azərbaycan Parlamanının sabiq üzvü Qasım bəy Camalbəyov arasında bir toqquşma nəticəsində Camalbəyov məni müttəhim etmək üçün yolları arayıb, paraların çevrilməsindən istifadə edib, bunu mənim kəndi nəfimə [xeyrimə] ticarət etmək şəklində meydana buraxdı.

Bu əsnada Badkubəyə Naxçıvandan təzə bir heyət gəldi, vəziyyət dəyişildi. Paraların həmin heyətə təslim olunmasını hökumət təhti-qərara aldı. Qızılları, kerenskiləri və bonların mabəqisini tamamilə hökumətə iadə etdim [qaytardım]. Çevrilmiş paraların təfavüt müamiləsi [fərq əməliyyatı] piyasa qərarı ilə hökumət sandığı [xəzinəsi] üçün 200 min rubladən ziyadə mənfəət etdi.

Bu işlərdən mənə heç bir maddi mənfəət olmazdı və olmadı.

Çevrilmiş paralar eynən alınmış qiymətdən hökumətə verildi. Əgər mən paraları çevirməkdə şəxsi qərəzlər təqib etsəydim və ticarət fikrində olsaydım, çevrilmiş paraları eynən hökumətə paraların tamamını bon iadə edib, təfavütünü kəndi nəfimə saxlayardım və bunun üçün qızılları və Kerenski paraları Tiflisdə arxadaşıma təslim etməyib satmağa Badkubəyə gətirərdim.

"Ümidvar" əfəndi sözlərini təsdiq və isbat üçün mənim Batuma və Rəştə getdiyimi yazır.

Fəqət "Ümidvar" cənabları səhv edir.

Mən Batuma getməmişəm. Məni tanıyan irəvanlı və naxçıvanlıların əksəri buna şahiddirlər.

Rəştə getməyim isə para məsələsi ilə əsla mərbut [bağlı] olmayıb, Naxçıvan-

dan gələn xüsusi bir heyətə nümayəndə hüququmu qaytardıqdan sonra vəzifə başında olmadığım bir zaman vaqe olubdur.

Rəştə mən şəxsi işlərim üçün getdim.

"Ümidvar" cənabları paraların uzun bir müddət mənim yanımda qalıb İrəvan möhtaclarına çatdırılmamasını mənə qüsur tutur.

Həqiqətdə paralar mənim ixtiyarımda ancaq 18 gün qalıbdır.

Zənni-acizanəmcə şayani-təəssüf [təəssüf ediləsi] bir hal varsa, o da "Ümidvar" cənablarının söylədiyi əxlaqsızlıq sayəsində milli məfkurə uğrunda fədakaranə çalışdığından dolayı vaxtında vətənindən fərar etməyə məcbur olan, maddi zərərlərə düçar olub bilaxirə [axırda] İngiltərə Komandanlığı tərəfindən qonşularımız ermənilərin fitnəsi ilə Tiflisdə həbsə alınan bir vətən oğlunun haqqında izhari-məhəbbət və həbsə alınmasından dolayı lazımi etiraz əvəzində, zəif və isbatsız bir laqqırtıya təkyə edərək [istinad edərək] əleyhinə çalışmaq olsa gərəkdir.

*Paşa Bayramov*

## MƏTBUAT

### Sülh və Bakı qəzetələri

Versal sülh müahidənaməsinin [sazişinin] almanlar tərəfindən imzalanması kimi böyük, mühüm, tarixi bir hadisəni paytaxtımız necə qarşıladı? Paytaxtımızın rəyini tamamilə bilmək üçün mühitimizdəki ümum cərəyanların mütaliatını [fikirlərini] hər kəsin öz qəzetəsindən öyrənəlim.

Rusca "Azərbaycan" rəfiqimiz bu hadisəni ən mühüm siyasi cahan məsələsi adlandıraraq, əvvəla almanları imzalamağa vadar edən bir çox daxili və xarici səbəblər olduğunu qeydlə deyir ki:

*"Biz güman ediriz ki, heç bir millət özünün böylə münhəzim [məğlub] olmasına yüngül nəzərlə baxıb təhəmmül edəmməz [dözə bilməz]. Ələlxüsus mütəkəbbir və ən yaxın zamanəyədək qüdrətli alman milləti bütün xalqın ruhunda, qəlbində yerləşmiş olan böyük alman milləti qayəsindən asanlıqla vaz keçəmməz və ancaq cahan mədəniyyət meydanında mütəşəkkil və ənud [inadlı] fəaliyyət onun yarasını sağalda bilər."*

Sonra Paris Konfransının bu müvəffəqiyyətinin verəcəyi nəticələrdən bəhslə rəfiqimiz yazır ki:

*"Almaniya ilə sülh əqdi yarınkı günə qarşı bir növ etiqadsızlıq hasil edən amilləri zail edər [aradan qaldırar] və ali-qolu açılmış Müttəfiqlər dünyanın külli miqdarlı siyasi, iqtisadi və milli məsələlərinin həllinə tez və qəti bir surətdə şüru edərlər [başlayarlar]. Bu sülh son zamanlar ifrat sosialistlər tərəfindən təhdid edən müdhiş cahan ictimai inqilabı təhlükəsini də zail edər. Sülh şəraiti-həyatiyyəsinə [sülh şəraitində yaşamağa] və sülhlə istehsala qayıtmaq, ablukanın [blokadanın] götürülməsi və iqtisadi əlaqə və rabitə üsulu dünyanı ehtikar mancanağından qurtarar və sülhlə iqtisadi və mali tərəqqi və nəşvü-nümaya bais olar."*

"Bakinskaya jizn"in zənnincə:

*"Almanlar tərəfindən sülhnamənin imzalanması Avropada mövcud üsuli-idarənin dəyişməsi uğrunda inqilabi mübarizənin qüvvələnməsi əlamətidir."*





Çünki sülhnamə imzalandıqdan sonra abluka götürüləcək, əlaqə başlanacaq, beynəlmiləl təbliğat başlanacaq, yüz minlərlə saldat əvəzinə Avropa məmləkətlərinə on minlərlə mübəlliğlər [təbliğatçılar] göndəriləcəkdir. Bu surətlə:

*"Demokratiya prinsiplərinin vücuda gəlməsi uğurundakı beynəlmiləl mübarizəyə alman millətinin təşkil edici ruhu və beynəlmiləl cahangirlik müqabilinə mübarizə edənlər sırasına sabit əqidə sahibi olan idraklı beynəlmiləl üxüvvət [qardaşlıq] tərəfdarları daxil ediləcəklərdir. Bilxassə ki, Versalda imzalanan sülhnamə alman millətinin mövcudiyyətini təhdid edir."*

İctimaiyyuni-İnqilabiyyun firqəsi naşiri-əfkarı [Sosialist İnqilabçılar partiyasının yayın orqanı] olan "Znamya truda" qəzetəsincə:

*"Sülh imzalanmış, fəqət hərb bitməmişdir. Sülh imzalanmışdır, fəqət Versal rahat olammaz. Çünki Brest-Litovsk sülhpərvərlərinin də başına o iş gələcəkdir."*

Məzkur [adı çəkilən] qəzetə sülhnamənin imzalanması ilə alman millətinin dəhşətli bir təzyiqə düşdüyünü və fəqət bununla bərabər Versala təslim olmaqdan başqa çarəsi bulunmadığını qeydlə yazır ki:

*"Xarici qaba qüvvə təzyiqi ilə imza edilmiş olan vəhşiyanə sülh uzun müddət davam edəmməz. Axırda puç ediləcəkdir. Fəqət bunun üçün qələbə çalmış və irtica ilə müttəfiqən inqilabçı məmləkətlərə iqtisadi məhkumiyyət gətirən cahangirliyi [imperializmi] yox etməlidir. Bunu da 'üçüncü bir qüvvə', yəni qalib gəlmiş məmləkətlərin xalqı qiyam nəticəsində edə bilər. Bu qüvvə nə vaxt xüruc edəcək [meydana atılacaq], onu demək olmaz. Fəqət gələcəkdir və gəlməlidir. Ancaq o vaxt qaliblərin ziyafəti qurtaracaq və mübarizə edən iki koalision birləşərək bir inqilabçı koalisionu əmələ gətirəcəkdir."*

"Bakinskaya jizn" digər bir məqaləsində deyir ki:

*"Müharibə bitdi, fəqət hürriyyət, müsavat, üxüvvət [qardaşlıq] əsasları və günü keçmiş, xırda millətlərin haqqi-istiqlalını tanımayan, millətləri iki qismə ayırıb birisinə hakimlik, ağalıq, digərinə ancaq qulluq, məhkumluq haqqı verən hazırkı beynəlmiləl münasibat xarabazarı üzərində ədalət və bərabərlik bərpası ideyası uğrunda mübarizə hələ qurtarmamışdır."*

Bitərəf "Vesti" qəzetəsi də məzkur cəridələrlə [adı çəkilən qəzetlərlə] həmrəy olaraq deyir ki:

*"Bəlkə də polad qılınclar əvəz edilirlər, fəqət sabiqki açıq vuruşmalı müharibələr əvəzinə müdhiş qanlı müsadimələr [toqquşmalar], yek-digərini [bir-birini] zəif salmaq uğrunda mübarizələr, mühacimələr [həmlələr] başlanacaq, yeni üsullu hərblər gələcəkdir və kim bilməyir, bəlkə öylə bir zaman gələcəkdir ki, bəşəriyyət canını dişinə tutaraq 1914 sənəsi müharibəsinin qurtarması haqqındakı bu cür qətnamə imzalanan günü lənətlərlə yad edəcəkdir."*

Bolşevik "Nabat" qəzetəsi böylə bir sülhü almanlar üçün fəlakət tələqqi edir və bu fəlakətdən qurtarmaq üçün bolşevik rəçətəsi yazır. Onun zənnincə, almanları bu fəlakətdən ancaq füqərayi-kasibə inqilabı, yəni bolşevik xürucu [çıxışı] azad edə bilər. Versal müahidəna-

məsini keçən ilki Brest-Litovsk müsalihəsi [barışığı] ilə müqayisə edərək məzkur qəzetə yazır ki:

*"Həyasızlıqda, quldurluq və qarətgərlik niyyətində Versal müahidənaməsi alman cahangirləri tərəfindən bolşevik Rusiyaya təlqin edilmiş olan Brest-Litovsk sülhnaməsinə nə qədər təvəffüq edirsə [uyğun gəlirsə], o qədər də Versal müahidənaməsinin şərtlərinə əməl olunması boş xəyal, qüvvəsinin müddəti-davamı qısa olub, beynəlmiləl füqərayi-kasibə [proletar] inqilabı da o qədər yaxındır və bu inqilabın xəllaqları [yaradıcıları] böyük inqilabçılar və mübəlliğlər [təbliğatçılar] deyil, çürüməkdə olan cahangirliyin açılan murdarlığı, həyasızlığıdır."*

Amma dəvədən düşüb höt-hötünü əldən qoymayan "Yedinaya Rossiya"çılar başqa dürlü düşünürlər. Qara Nikolayın sadiq nökərləri Versal sülhnaməsini nəinki Müttəfiqlər üçün bir qələbə, hətta istibdad Rusiyasının təcdidi [bərpası] üçün də bir fali-nik [uğurlu əlamət] kimi tələqqi edirlər. Onların zənnincə, Müttəfiqlər qalib gəlmişlərdir, indi də qələbələrinin bəhrəsini yeyirlər. Və çünki bu qələbədə vaxtilə çar Rusiyası dəxi iştirak etmişdir, ona görə, yəqin Rusiya dəxi əkdiyinin məhsulunu yeyəcəkdir. Almanlar nəinki riza qəzaya verəcəklər [başlarına gələnə razı olacaqlar], hətta bəlkə çox da xoşhallıqla sülhü qarşılayacaqlardır. Bundan sonra Müttəfiqlərin əli-qolu açılıb Rusiyanı diriltməyə başlayacaqlar, hətta Almaniya özü də general Denikin və amiral Kolçak qüvvələrinə "ariyentiravatsiya" olaraq [onlarla uyğunlaşaraq] Rusiyanın düşməni olan vahid cəbhə və əyalətlər (yəni inqilab və elani-istiqlal etmiş xırda millətlər) ilə mübarizəyə başlayacaqlardır.

Puç xəyalının şirinliyindən aləmi-xülyada böyük ləzzət apararaq birdənbirə "Yedinaya Rossiya" qəzetəçiləri özlərini Nikolay behiştində hiss edir və böyüklükləri yadına düşərək inqilabçı rus millətini də, elani-istiqlal etmiş xırda millətləri də mühakiməyə çəkir, müqəssir görür və nəhayət istibdad cəlladı hüzurunda bulunduraraq qılınc çəkir və guya tövbə et, vəilla [yoxsa] boynunu vuracağam demək kimi yazır ki:

*"Rusiyanın təcdid və ehyasını təbşir edən [bərpasını və dirilməsini müjdələyən] bu yaxın gələcəyi Rusiya həyatı xaricində qalmaq təhlükəsini istəməyənlər və onunla birgə çalışmaq fikrində olanlar vaxtlı-vaxtında hesaba almalıdırlar. Tez-gec bu işi azğın vahid cəbhə (sosialistlər) də anlamalıdırlar, Rusiya əleyhinə olan, vaxtı keçmiş alman-türk ittifaqının əsərini təşkil edən əyalətlər də."*

Vahid rusiyaçılar nə cür anlayırlar anlasınlar. Amma sabiq ağalarımızın müsaidəsi ilə cəsarət edib deyiriz ki, əvvəla onlarınkı boş xəyaldır və saniyən [ikincisi], vahid cəbhəçilər deyənmi olacaq, vahid rusiyaçılarmı deyən olacaq, hanki olur-olsun, hər halda nə böyük inqilab puç olub hürriyyət boğulacaq, nə də əsarət zəncirindən yenicə qurtarmış millətlər yenidən zənciri-məhkumiyyətə boyun əyəcəklər.

## BAKI XƏBƏRLƏRİ

### Lənkəranlıların nəzəri-diqqətlərinə

Lənkəranın şimdiki fəna əhvalını müzakirə etmək və bir nicat yolu bulmaq qəsdi ilə bir heyəti-mütəşəbbisə [təşəbbüs heyəti] tərəfindən bu gün saat 5-də Birinci Realnı məktəbi salonunda bütün lənkəranlıların ümumi iclasları təyin edilmişdir. Lənkəranlılardan rica olunur, fəlakətdə qalmış qardaşlarının və bacılarının xatirəsi üçün vəqti-müəyyəndə təşrif gətirsinlər.

### Müsəlman tələbələri

İşbu sənədə Bakı edadiyyələrini bitirmiş müsəlmanların siyahısı:

Birinci gimnaziya:
1) Bədəlzadə A.
2) Cabbarzadə A.
3) Məhəmmədzadə Həmid
4) Xudaverdizadə A.

İkinci gimnaziya:
1) Aslanzadə Teymur
2) Hacızadə M.
3) Quluzadə M. Q.
4) Hüzeynzadə A.
5) Hüseynzadə D.
6) Cəfərzadə.
7) Seyidəlizadə M.

Üçüncü gimnaziya:
1) Kərimzadə A.

Ticarət məktəbi:
1) Ağazadə Balaağa
2) Cəbizadə [Bala]
3) Zeynalzadə Kərim.

Politexnik məktəbi:
1) Əlizadə Firidun.

Realnı məktəbi:
1) Babazadə
2) Bağırzadə
3) Hüseynzadə
4) Hüseynzadə B. D.
5) Quluzadə
6) Quluzadə M.
7) Dadaşzadə
8) Tağızadə
9) Tağızadə İbrahim

### Yeni əsər

Almaniya ərkani-hərbi əzasından [Hərbi Qərargahı üzvlərindən] qaimməqam [podpolkovnik] Vaytman tərəfindən qələmə alınmış, ən son olduğu üçün Almaniya ordusunda işlədilməkdə olan əsgəri təlimnamə Məhəmməd Cəmil bəy tərəfindən almancadan türkcəyə tərcümə edilərək Azərbaycan şivəsinə uyğun edilməklə asanlaşdırılmışdır. Əsərin birinci nüsxəsi çapdan çıxıb satışa qonulmuşdur. İkinci nüsxəsi isə sonunda qayət həzin notası ilə bərabər bir Azərbaycan marşı olmaq üzrə ən yaxın zamanda çapdan çıxıb satışa qonulacaqdır. Kitabın oxunulmasını tövsiyə ediriz.

### Gürcüstan ilə mal mübadiləsi

İşbu günlərdə Gürcüstandan iki vaqon qənd gələcəyi gözlənir. Bununla bərabər, Tiflisdən 100 dənə boş vaqon göndərilir ki, Gürcüstana buğda aparsın.

## ERMƏNİSTANDA

### Azərbaycan ermənilərinin köçürülməsi

Nuxu, Ərəş, Göyçay və Şamaxı ermənilərinin həmvətən ittifaqlarının xüsusi nümayəndəsi Vrtanes Papazyan nam iyunun 27-dən İrəvandan "Aşxatavor"a teleqram edir:

Fövqəlzikr uyezdlərin [yuxarıda adı çəkilən qəzaların] ermənilərini Azərbaycandan Ermənistana köçürməyi Ermənistan

Şurayi-Vüzərası [Nazirlər Kabineti] qəbul edib, bu xüsusda Azərbaycan Hökuməti ilə müxabirə [yazışma] başlamağı və işə lazım qədər pul təxsis etməyi [ayırmağı] qərarlaşdırmışdır. Azərbaycan ilə müxabirə etmək düsturül-əməli [təlimatnaməsi] [Tiqran] Bekzadyana həvalə edilmişdir. İşi qaydaya salıb müntəzəmən icra etmək üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] nümayəndəsi Aleksandr Hakopyan təyin edilmişdir. Müşarünileyh [adı çəkilən şəxs] məzkur [deyilən] ittifaqlar tərəfindən intixab edilmiş [seçilmiş] iki vəkil ilə bir yerdə iş görməlidir.

Mühacirləri təzə yerlərə köçürmək və rahat etmək üçün 9 milyon 744 min yüz manat buraxılmışdır. O cümlədən yol məsarifinə 1 milyon, köçərilərin bir aylıq iaşəsi 4 milyon 200 min manat, sonku 2 ay üçün istiqraz ilə 3 milyon 600 min və idarə məsarifi üçün xərc edilmək müqərrər olunmuşdur [qərara alınmışdır].

**Erməni mətbuatı**

Azərbaycan ilə Gürcüstan arasında əqd edilmiş etilaf [razılaşma] bütün erməni firqələrinin xoşuna gəlməyib, onların narazılığını mövcib [narazılığına səbəb] olmuşdur. Vazehdir [aydındır] ki, erməni qəzetələri etilafın lehinə deyildir. Çünki etilafdan məqsəd Denikin təhlükəsi ilə mübarizədir. Bu isə ermənilərə əlverişli məsələ deyildir. Zira üç tərəfdən müsəlmanlarla əhatə olduqlarından, onların ümidgahları bir Rusiya, özü də Denikin Rusiyasıdır.

Kirvələrin özləri etilafdan ictinab etməkləri [qaçmaqları] bəs deyil, çalışırlar gürcüləri də işdən ikrah etsinlər və məqsədlərinə nail olmaq üçün Azərbaycan əleyhinə hər cür böhtan və provokasiya yapmağa başlayırlar.

Erməni Milli firqəsinin mürəvvici-əfkarı [fikirlərini yayan orqanı] "Joxovrdi dzayn" qəzetəsi[nin] "Türkiyə nömrə 2" ünvanlı məqaləsi başdan-ayağa bir provokasiya, böhtan və fitnədir.

İştə məqalənin tərcüməsi:

*Denikin təhlükəsindən naşi [ötrü] gürcü mətbuatı erməni hökumətindən tələb edir ki, həman təhlükəyə müqavimət etmək üçün Gürcüstan-Azərbaycan arasında münəqid [bağlanan] etilafa daxil olsun. Halbuki, Zaqafqaziya cümhuriyyətlərinin, xüsusən Ermənistan və Gürcüstanın mənafeyi Rusiya ilə nəinki dostluq, bəlkə siyasi rabitə sazlamağı tələb edir. Rusiya ilə böylə əlaqədə olmaq tarixi bir həqiqətdir. O cəhətə ki, Gürcüstan ilə Ermənistan özlərinin varlıqlarına möhlik [öldürücü] zərbə yetirməksizin müsəlman təhlükəsinin qabağında davam edə bilməz.*

*Rusiya ilə bu iki mədəni tayfanın arasında dostluq möhkəmləşdirən silah deyil, yaxınlaşmaqdır.*

*Gürcüstan və Ermənistan mabeynlərində [aralarında] nə qədər narazılıqlar və törədilmiş məsələlər olsa da, təbii müttəfiqdirlər və hər ikisi bir qədər səy edərsə, çox asanlıqla yaxınlaşa bilərlər. Azərbaycan isə özü böylə asanlıq ilə həman cümhuriyyətlərlə yaxınlaşa bilərmi?*

*Həman suala biz açıq cavab verə bilərik ki, bu gün ümumi təhlükə qarşısında Azərbaycan Gürcüstan ilə ittifaq yapa bilər. Amma Gürcüstanın səmimi-qəlbliliyinə inanıb, Azərbaycana etibar etməyirik. Gərək hər bir gürcü, gərək erməni bunu aşkar nəzərdə tutsun ki, Zaqafqaziya xüsusunda Türkiyə bəslədiyi arzu Azərbaycana məxsusdur. Çünki müxtəlif ad daşıyan bu iki hökumət əslən birdirlər. Ancaq xarici şərait onları ayırmışdır. Demək olar ki, Azərbaycan ikinci Türkiyədir. Türkiyə kimi, bu da Batumu və həvalisi [ətrafı] ilə Axısxanı, Axalkələyi, Ərdahanı, Borçalını, bütün Rusiya və Türkiyə Ermənistanını müsəlmanların əmlaki-məxsusəsi hesab edir. Dara düşəndə Azərbaycan zahirən Ermənistanın yaşamaq haqqını etiraf edə bilər. Gürcüləri inandırar, hətta şərtnamə ilə təsdiq edər ki, Batum, Axısxa və qeyriləri onlarındır. Amma öylə ki, bu Türkiyə "nömrə 2" əslən nə olduğunu biruz eyləmək imkanı tapdı, fövrən [dərhal] sadədil [sadəlövh] Gürcüstan və Ermənistan Cümhuriyyətlərini[n] özlərinin hesab etdikləri şeyləri iddiaya başlar.*

*Azərbaycanın amalı xüsusunda türklərin Qafqaziyada hökmranlığı zamanında qonşumuz Gürcüstan, ələlxüsus Ermənistan barəsində oynadığı xain və qətliam rolunu yad etmək kifayətdir. Müttəfiqimiz fövrən bizə düşmən olub, arxamızdan bizə xain yaraları yetirməkdən çəkinmədi.*

*Azərbaycan nəinki türkləri bizə qonaq gətirdi, hətta onların zamanında bizim ölkəni qan və zülüm ilə doldurub zəif saldılar. Nuxu, Ərəş, Göyçay və Şamaxı uyezdlərinin sülhpərvər (?) erməniləri qırğınını və Bakı qətliamını yad ediniz.*

*Bunu da yad ediniz ki, fövqəlzikr dörd qəza, hətta türklər çəkildikdən sonra kənar adamlar üçün getməli yer deyildir və orada indiyədək minlərcə erkəklər qul, qadınlar da kənizdirlər. Öz istiqlaliyyətinin yövmi-sənəliyi [ildönümü] günü Ağdaş qəza qaimməqamı [qəza rəisi] keçən ildə öz "kirvələrinin" yanlarında əsir mənziləsində [əsir kimi] yaşayan bütün erməni qaçqınlarını qılınca çəkmək Azərbaycan üçün təbii şeydir. Azərbaycan öz Sultanovları vasitəsilə Qarabağ ermənilərini qana qəltan etmək başladığını da əlavə etməlidir. Xayır, Azərbaycan tünd Türkiyədir, nəinki Türkiyənin özü. Çünki o, özünü erməni qanı ilə məst olmaqdan məhrum edəmməyir, həman Denikin təhlükəsi müqabilində, həman o zaman ki, ümumi düşmənlə mübarizə eyləmək üçün Ermənistanı ittifaqa dəvət edir.*

*Özümüzü aldatmaq bizim üçün ehtiyac yoxdur – o cəhətə ki, Azərbaycan həmişə baxır Türkiyəyə, özü də balaca Türkiyədir ki, az bir vaxtda külli miqdarda canilərlə dolu bir tarixə malik olmağa müvəffəq olmuşdur.*

*Biz inanmayırıq ki, bu cümhuriyyət[lə] əqdi-etilaf edib xəyanətə qurban olmamaq mümkün olsun. Biz inanmayırıq Azərbaycana, ondan ötrü inanmayırıq ki, Türkiyəyə. Türkiyə nömrə əvvəl və Türkiyə nömrə sani [iki] gərək Gürcüstana və gərək Ermənistana bərabərlikdə müzirdirlər [ikisinə də eyni dərəcədə ziyan vururlar]. Xüsusən erməni tayfası barəsində hər iki Türkiyənin də qərardarları aydın və qətidir.*

*Ermənilərin öz qədim yerlərində azad yaşamağa ixtiyarını nəinki tanımırlar, hətta Ermənistanda onların mövcud olmaqlarını da rəva görməyirlər. Odur ki, xah Türkiyə, xah onun layiqli övladı Azərbaycan bəslədikləri arzularına, yəni Ermənistana, hətta mümkün olsaydı bütün kürreyi-ərzi ermənisiz qoymağa əcələ ilə*

*nail olmaq üçün heç bir cinayətkaranə vasitələrdən ictinab etməzdilər* [çəkinməzdilər]*.*

*Biz nəcib gürcü millət xadimlərinə və mətbuatına sual veririk: Cəllad ilə qurban arasında əqdi-müqavilə əqdini onlar necə rəva görürlər?*

**Ermənistana cavab**

Azərbaycan Cümhuriyyəti Xariciyyə naziri, erməni hökuməti nəzdində Azərbaycan siyasi müməssili [nümayəndəsi] [Məhəmməd] xan Təkinskiyə Qarabağ barəsində Ermənistanın verdiyi notasına cavab göndərmişdir. Bu cavabda denilir:

*"Azərbaycan Hökumətinin 1919-cu sənə 15 yanvar tarixli qərarı ilə doktor [Xosrov bəy] Sultanov Azərbaycan Hökuməti tərəfindən general-qubernatorluğa təyin edilib, həman sənə aprelin 3-də Müttəfiqlər Komandanlığı tərəfindən bu xidmətdə rəsmi surətdə təsdiq edilmişdi. General-qubernator daireyi-nüfuzuna keçən yerlər Şişə, Zəngəzur, Cəbrayıl və Cavanşir uyezdləridir. Bu yerlər Azərbaycanın ayrılmaz və mübahisəsiz bir hissəsidir. Ona görə də, erməni hökumətinin Sultanovun hərəkəti və Azərbaycan qoşunlarının bu yerdə durması barəsində olan protestosu Azərbaycanın daxili işlərinə qatışmaqdır. Buna da heç bir zaman imkan verməz olmaz. Və nota da qətiyyən müzakirə edilə bilməz. O ki qaldı Şişə dairəsində olan iğtişaş məsələsinə, general-qubernatorun ciddi tədbirləri sayəsində o iğtişaş yatırılmışdır."*

Bu cavabın Ermənistan Hökumətinə təqdim edilməsi Təkinskiyə mühəvvəl edilmişdir [tapşırılmışdır].

**Ermənistanda böhrani-vüzəra [hökumət böhranı]**

Bakıda alınmış olan xəbərlərə nəzərən, Ermənistan Hökuməti bütün heyəti ilə istefa vermişdir.

**Yeni Zaqafqaziya Konfransı**

Ən mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, yeni Zaqafqaziya Konfransı dəvət etmək istəyirlər. Üç Qafqaz cümhuriyyətlərinin nümayəndələrindən başqa, Kuban Cümhuriyyətinin nümayəndəsi və Dabravol ordunun nümayəndələri də iştirak edəcəklərdir. Konfransın məqsədi bir neçə siyasi və iqtisadi məsələləri həll etməkdir. O cümlədən, Zaqafqaziya ilə Kuban arasında mal mübadiləsi, Denikin ilə Zaqafqaziya cümhuriyyətləri arasında müəyyən xətt təyini məsələləri müzakirə ediləcəkdir.

## TEATRO VƏ MUSİQİ

**"Əsli və Kərəm"**

Bu gün cümə günü iyulun 4-də axşam Hökumət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Üzeyir bəy Hacıbəyovun yazmış olduğu "Əsli və Kərəm" operası mütəntən [təntənəli] surətdə mövqeyi-tamaşaya qoyulacaqdır. Biletlər teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

- Qəzetədə elan edildiyi üzrə Hacıbəyli qardaşları dəstəsi tamaşalar göstərmək üçün Tiflis şəhərinə getməli idi. Lakin müdiriyyətdən asılı olmayan səbəblərə görə Tiflis səfəri hələliyə təxirə salınmışdır.





## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndim! Şu neçə kəlmə ərzimin mübarək qəzetənizdə dərc olunmasını acizanə rica edirəm.

Neçə aylardan bəri mən dəfələrlə Ramanada ikinci uçastok pristavına yazdığım rəsmi məktublarda məzkur [deyilən] pristav vasitəsilə özümün tezliklə qulluqdan azad olmağımı hökumətdən rica etmişəm. Nədənsə, hökumət məmurları mənim qulluqdan azad olmağımı bugün-sabaha salıb bu vaxta qədər nəzəri-etinaya almayırlar.

Kəndxuda maddi cəhətdən təmin edilmədiyi halda, hər gün divanxanada öz vəzifəsini ifa etməyə məcbur olur və böylə olan surətdə də öz xüsusi işlərini tərk etmək lazım gəlir. Hal-hazırda bu bahalıq vaxtda insan nə qədər vətənini sevən, millətpərəst olsa da kəndi ailəsi həm millətinin birər üzvü olduğu üçün onların da zillətdə yaşamağına razı olammaz zənn ediriz.

Yuxarıda yazdığım səbəblərdən dolayı həmin iyul ayının 10-dan etibarən mənim üçün heç vəchlə öz vəzifəmi ifa etmək mümkün olmayacağını həm hökumətə, həm də camaata xəbər verməklə bərabər, məzkur [deyilən] vaxtdan sonra olacaq işlərdə də mən məsul olmayacağımı hamıya elam edirəm [bildirirəm].

*Abutalıb Rəsulov*
*(3 iyul 1919 sənə)*

**Bəhri-Xəzər dənizində passajir və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**İtibdir**

Mürvət Mustafazadənin 2-ci polis idarəsindən aldığı pasportu, "Vastoçnı" Cəmiyyətinin 22-ci körpüsündən 520 pud 20 girvənkə dəmir kuporos (38 boçkada) üçün verilən 322251 nömrəli qəbzi itibdir. Etibardan saqitdir [etibarsızdır].

*10260*

**Satılır**

"Şreder" fabrikası royalı ilə mənzil mayehtacı [əşyaları]. Ünvan Kolyubakinski küçədə, 17 nömrəli evdə, Spasski küçənin tinində, səhər saat 10-dan 12-dək, axşam saat 4-dən 6-dək baxmaq olar.

*10270*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Xırda Neft Mədənçiləri İttifaqı İdarəsi**

Bununla İttifaqın üzvlərinə elan edir ki, ittifaqın kontoru Birinci Kannıtepinski və Vorontsovski küçələrinin küncündə (Mərkəzi həbsxana ilə qarşı Atababayevin dəyirmanı ilə bərabər) vaqe olur.

Telefon nömrələri: 9-12 və 28-50.

*10264*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahimov***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 24. "Dobruca": Balkan yarımadasının şimalında tarixi bölgə. Günümüzdə Ruminiya və Bolqarıstan arasında bölünmüşdür.

"Hollanda Hindustanı": Hollandiyanın Hindustan yarımadasındakı müstəmləkələrinə qeyri-rəsmi olaraq verilən ad.

səh. 25. "Livoniya": Müasir Latviya və Estoniya ərazilərindən bir qismini əhatə edən tarixi bölgə.

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

**Sülh ətrafında**

səh. 26. "Versal sarayının Ayna salonu": Böyük Versal Sarayının ən məşhur daxili məkanlarından biri olan Güzgülü qalereya nəzərdə tutulur. Versal Sülh Müqaviləsi bu qalereyada imzalanmışdır.

**Qəzetələrdən**

səh. 30. "Matin" [Le Matin]: 1882-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

"Monro": ABŞ prezidenti Ceyms Monro tərəfindən 1823-cü ildə elan edilən və ABŞ-ın xarici siyasət prinsiplərini ehtiva edən Monro Doktrini nəzərdə tutulur.

səh. 31. "Qarasubazar": Krımın cənubunda şəhər; indiki Beloqorsk.

**Nəzarətlərdən**

səh. 32. "demarkasiyon": demarkasiya; sərhədin təyin edilməsi və nişanlarla ayrılması.

**Xarici siyasətimiz**

səh. 34. "konsoloslar məhkəməsi": Konsulluq Məhkəməsi; hər hansı bir ölkədə, ölkə

vətəndaşı ilə əcnəbi vətəndaş arasındakı hüquqi anlaşmazlıqlarda əcnəbi ölkə konsulluğunun məhkəmə səlahiyyətinə sahib olması şəklində imtiyaz.

**Bakı xəbərləri**

səh. 39. “edadiyyə” (yaxud “edadi məktəb”): təhsildə universitetdən əvvəlki mərhələ kimi başa düşülməlidir.

**Ermənistanda**

səh. 41. “Öz istiqlaliyyətinin”: qəzetdə “O istiqlaliyyətinin” getmişdir.

“Azərbaycan öz Sultanovları vasitəsilə”: Azərbaycanın Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov nəzərdə tutulur.

**İtibdir**

səh. 43. “Mürvət Mustafazadə”: “Azərbaycan” qəzetinin 214-cü nömrəsində eyni elan yer almış, şəxsin adı “Mirvat” kimi yazılmışdır.

“dəmir kuporos”: kimyəvi maddə; sulfat turşusunun dəmir duzu; mürəkkəb və boyaq istehsalında, kənd təsərrüfatında ağacların qorunmasında istifadə edilir.

**Satılır**

səh. 43. “Şreder”: Sankt-Peterburqda XIX sərin əvvəllərində qurulmuş fortepiano fabriki.





**Bazar, 6 iyul 1919-cu il, nömrə 217**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 7 şəvvalül-mükərrəm sənə 1337. 6 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Məşhədi Mirzağa Haşımov kamali-hüzn və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz sevgili yeznəsi Məhəmmədrza bəy Bakıxanovun həmin iyul ayının 4-də vəfat etdiyini öz qövm-əqrəba və dost-aşnalarına məlum edir. Mərasimi-dəfn bu gün iyul ayının 6-da səhər saat 9-da Spasski küçə 123 nömrəli evdən (4-cü polis idarəsi ilə qarşı) Təzəpir məscidinə aparılacaqdır.

*5403*

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əliəkbər Əliyev kamali-hüzn və təhəssürlə öz sevgili dayısı Məhəmmədrza bəy Bakıxanovun həmin iyul ayının 4-də vəfat etdiyini öz qövm-əqrəba və dost-aşnalarına məlum edir. Mərasimi-dəfn bu gün iyul ayının 6-da səhər saat 9-da Spasski küçə 123 nömrəli evdən (4-cü polis idarəsi ilə qarşı) Təzəpir məscidinə aparılacaqdır.

*5402*

## BAKI BƏHRİ-XƏZƏR İSTEHLAK CƏMİYYƏTİ “KOOPERATSİYA” İDARƏSİ

Bununla elan edir ki, təmmuz ayının 6-da səhər saat 10-da İttifaqın binasında (Bolşoy Morskoy və Kamenisti küçələrin küncündə nömrə 22) Bakı dairəsi kooperativ nümayəndələri ümumi iclası vaqe olacaqdır.

Müzakirə ediləcək məsələlər:

1) Kontrolnı komissiya tərəfindən verilmiş şəhadətnamələr barəsindəki məsələnin müzakirəsi;

2) Tiflis Kooperativ Qurultayı barəsində məruzə.

3) Azərbaycan Kooperativ Qurultayı barəsində məruzə.

4) Axırıncı nümayəndələr iclasında seçilmiş komissiyanın məruzəsi məsələlərinin müzakirəsi.

Təyin olunmuş vaxta qədər kvorum gəlməzsə, bir saatdan sonra hər nə qədər üzv gələrsə iclas qanuni hesab olunur.

*10272*

## İNGİLİS PARÇALARI

Və həmçinin ipək və markizet külli miqdarda satılır. Kostyum üçün parçalar. Əhmədov və kompaniyasının mağazasında, Merkuryevski və Milyutinski küçələrin küncündə, Adamovun evində. Telefon nömrə 24-34.

*5405*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**DRAMA**
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü şəvvalül-
mükərrəm ayının 8-də 1337-ci sənəsi
(iyul ayının 7-də 1919-cu ildə)
bu mövsümdə ikinci dəfə olaraq
mütəntən [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
**"Ədirnə fəthi"**
Bu tamaşada müharibə zamanında
Azərbaycan hərbi musiqi orkestri
iştirakı ilə bərabər, əsgərlər vəzifəsini
"Yardım alayı" əfradı [əsgərləri]
ifa edəcəkdir.
Biletlər teatrın kassasında
satılmaqdadır. Tamaşa başlanacaq
axşam saat 8 tamamda.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Maarif naziri əmrnaməsi**

3 təmmuz 1919-cu ildə, sayı 205

Bu gündən etibarən Hökumət türkcə "Azərbaycan" qəzetəsi müdiri Üzeyir bəy Hacıbəyova iki aylıq məzuniyyət verilir.

*Əslinə qol qoydu Maarif naziri: Qaplanov*
*Əslinə mütabiqdir.*
*Kargüzar müavini: Kondratyev*

## TELEQRAF XƏBƏRLƏRİ

Vladiqafqazdan alınmış olan son xəbərlərə nəzərən, orada Kursk, Sevastopol və Yekaterinoslav şəhərlərinin işğal edildiyi xəbəri alınmışdır. İyun ayının 30-da Vladiqafqazda ordu ştabı Könüllülər tərəfindən Tsaritsın işğal edildiyi xəbər alınmışdır. Əvvəl şəhərin cənub hissəsi işğal edilmişdir. Sonra şəhərdə dəhşətli müharibə başlanıb bir neçə saat davam eyləmişdir. Bolşeviklərin tələfatı çoxdur. Külli qənimət alınmışdır. Xarkov işğal edildiyi zaman 47 nəfər komissarlar tövqif [həbs] edilmişdir. Bolşeviklər Xarkovu tərk edərkən bir çox məşhur şəxsləri rəhn [girov] sifəti ilə aparmışlardır.

**Soçi cəbhəsində**

"Saxalxo sakme" qəzetəsi xəbər verir: Mövsuq [etibarlı] mənbələrdən xəbər verilir ki, general Denikin Soçiyə varid olmuşdur [gəlmişdir]. Gürcü və Dabravol kəşfçiləri arasında müxtəsər müsadimə [toqquşma] vaqe olmuşdur. Hələlik Denikinin yürüşə keçəcəyi məlum deyildir.

Poti - Günorta zamanı Poti iskələsinə bir dənə italyan minanosu daxil olmuşdur.

- Tersk süvari dəstələri Hacı-Tərxan səmtində Yaşkul dairəsində hücuma keçib 90 verst şərqə doğru yürümüşlərdir. Bunlar ricət edən [geri çəkilən] Qırmızı qoşun nəfəratını [əsgərlərini] təqib edirlər.

- Parisdən teleqrafla xəbər verilir ki, Leninin nüfuzu tamamilə düşmüşdür. Könüllülər tərəfindən Petroqradın işğalına qarşı heç bir iş görəmməyəcəkdir. 10-cu bolşevik alayı bütün cəbhədə məğlub olmuşdur. Bu alay 10 min əsirlə 28 pulemyot vermişdir.





- Oneqa sahilində müvəffəqiyyətli surətdə ingilis qoşunu çıxmışdır. Bunlar bolşeviklərə qarşı hərb edirlər.

**Kronştadt**

Kronştadtı bolşeviklər tərk eyləmişlərdir və zənn edilir ki, Könüllülər tərəfindən ora işğal edilmişdir. Hələ təhqiq edilməmiş xəbərlərə görə, Petroqrad general Yudeniç tərəfindən işğal edilmişdir. Ural kazakları Perm-Kazan dəmiryolu boyu ilə Kazan üzərinə yürüş edirlər.

Helsinqfors [Helsinki] - Omskda Kadet firqəsinin qurultayı vaqe olmuşdur. Dövlət Dumasının sabiq üzvlərindən çoxusu iclasda iştirak etmişlərdir. İctimanın [yığıncağın] sədri öz nitqində bəyan eyləmişdir ki, şimdi milli vəzifə odur ki, Rusiyanı bir sinfin ixtiyarına verən ünsürlər məhv edilsin. Bolşevizm əsası məhv edilməlidir. Ancaq bu vəzifəni ifadan sonra Rusiyanı möhkəm əsaslar üzərinə təşkil etmək olar. Hər kəs Rusiyanın ehya edilməsini [dirilməsini] arzu edirsə, Kolçaka qoşulub bolşevizmlə mübarizə etməlidir. Bolşevizm tərk edildikdən sonra Rusiya hökuməti təsis və hürriyyət əsasını intişar [yaymaq] və Kadet firqəsinin məramnaməsi üzərinə və Avropanın müavinəti ilə Rusiyanı yenidən təşkil etmək mümkün olar.

**Aland cəzirələri**

İsveç notasında deyilir ki, Aland cəzirələrinin [adalarının] əhalisi arzu etmişdir ki, İsveçyaya mülhəq olsunlar [birləşsinlər]. Ona görə də İsveç hökuməti tələb edir ki, Aland cəzirələri əhalisinə muxtariyyət verilsin. Lakin məsələni sülh təriqi [yolu] ilə həll etmək mümkün olmadığından, İsveç hökuməti təklif edir ki, bu məsələnin həlli Sülh Konfransına vagüzar edilsin [tapşırılsın].

**Bolşevik məlumatı**

Peterburq - Bequnitsı, Volosova, Koporye dairəsində biz 20 kənd almışıq. Vidlitsada toplardan başqa 27 pulemyot qənimət alınmışdır. Volosova tərəfimizdən işğal edilmişdir. Bequnitsı-Koporye şosesini kəsmişik. Olonets uçastokunda böyük qələbə çalmışıq. Biz 40 verst irəliləmişik. Olonets uçastoku finlərdən təmizlənmişdir. Bir çox ləvazimi-hərbiyyə [hərbi ləvazimat] qənimət alınmışdır. Düşmənlər həyəcan içində ricət edirlər [geri çəkilirlər]. Bizim irəliyə yürüşümüz davam edir.

- N. ordusunun işğalı - Bu gecə N. ordusu qoşunu tərəfindən Perm şəhəri işğal olunmuşdur. Şura qoşunları tərəfindən Kunqur işğal edilmişdir.

## SÜLH ƏTRAFINDA

Versal - Almanlar saat 3:12 dəqiqədə sülh müahidənaməsini [sazişini] imza etmişlərdir. Almanlardan sonra Lloyd Corc və İngiltərə nümayəndələri imzalamışlardır. İmza edənlərdən Balfur, Bonar Lou, Milner də vardır. Sonra Fransa, İtaliya və Yaponiya nümayəndələri imza etmişlərdir. Klemanso, Vilson və Lloyd Corc şənlik toplarının sədası və gurultulu alqış altında saraydan çıxmışlardır.

- Berlində müntəşir [nəşr olunan] "Forverts" qəzetəsi bəyan edir ki, sülh təcavüzkaranə bir təriqlə [yolla] əqd edilmiş-

dir. Ona görə də onun heç bir əhəmiyyəti yoxdur. Almanlar heç vaxt özlərinə edilən təcavüz və həqarəti unutmayacaqlardır. Və sülh o vaxta qədər davam edəcəkdir ki, onu təlqin edən təcavüzkar qüvvət də davam edə.

## QƏZETƏLƏRDƏN

**General Natiyev qətlinin təfsilatı**

İyun ayının 18-də Batumda Dabravol ordusu generalı [Aleksandr] Natiyev qətl edilmişdir. General burada yerlilərdən Denikinə müavinət üçün dəstələr düzəldirmiş. Axşam saat 8 yarımda general öz yavəri və arvadı ilə dərya kənarında olan bulvarın arxa xiyabanında gəzərkən səbilər [uşaqlar] meydançası yaxınlığında naməlum bir nəfər qəflətən sıçrayıb mauzerlə generalı atəşə tutar. 11 ədəd atılan gülllədən 6-sı generala, 3-ü də yavərinə dəymişdir. Güllələr generalın ürəyinə, üzünə və döşünə dəymişdir. 10 güllə atandan sonra hərif tapançanın darağını dəyişmək istəmişdir. Fəqət tapançanı atıb qaçmış. Bir italyan qəflətən güllə ilə əlindən yaralanmışdır. Dərhal məhəlli-hadisəyə [hadisə yerinə] afiserlər və camaat cəmləşib hər ikisini də meyit halında görmüşlərdir. Nə qədər qatili axtarmışlarsa da, tapmaq mümkün olmamışdır.

İyunun 29-na Dabravollar nəfinə [xeyrinə] müəyyən edilən seyri-ümumi [ümumi yürüş] təbdil edilmişdir [dəyişdirilmişdir].

**Yaşıl ordu**

Dabravol ordusu dairəsində təşkil edilən Yaşıl ordu Armavir-Tuapse dəmiryolunda Kuqutı mövqifinə [stansiyasına] hücum etmişlərdir. Teleqraf xətti xarab edilmişdir. Yaşıl ordu dabravollar əleyhinə hərəkət edir.

**Şimali Qafqaziya müsəlman nümayəndələri**

İyunun 30-da Oruc bayramı münasibətilə məsciddə mərasimi-eyd [bayram mərasimi] icra edilmişdir. Namazdan sonra Şimali Qafqaziya müsəlmanları kabardin, balkar, inquş və çeçenlər tərəfindən nümayəndələr nitq söyləmişlərdir. Nümayəndələr öz nitqlərində Şimali Qafqaziya müsəlmanlarının inqilab zamanı müddətində keçirdikləri bədbəxtliklərdən, ələlxüsus Dabravol ordusu gələndən nə cür ağır üsul keçirməkdə olduqlarından bəhs etmişlərdir. Kabardin nümayəndəsi öz nitqində kəndlərin dağılmasını və bolşevizmdə müttəhim edilən onlarca adamların asılmasını nəql etdikdə bir çox adamlar ağlamaqdan özlərini saxlaya bilməmişlərdir. Nümayəndələrdən sonra məhəlli [yerli] müsəlmanlardan olan camaat xadimləri nitqlər söyləmişlərdir.

**Almaniyada yeni Kabinə**

Rostovda çıxan “Jizn” qəzetəsi xəbər verir ki, bu yaxınlarda təşkil olunan Bauer Kabinəsi istefa vermişdir. Sağ sosial-demokratlardan David, Amerikada olan sabiq Almaniya səfiri Bernstrofun iştirakı ilə təzə kabinə təşəkkül etmişdir. Yekaterinodarda çıxan “V. F.” qəzetəsi də bu xəbəri yazıb, hətta təzə nazirlərin adlarını da dərc etmişdir.





**Cəmiyyəti-Əqvamın birinci iclası**

İstanbuldan verilən xəbərlərə görə, Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] İcraiyyə Şurasının birinci iclası, yəqin ki, payızın axır ayında Vaşinqtonda Vilsonun sədarəti ilə Ağ Sarayda vaqe olacaqdır. Təntənəli rəsmi-güşaddan [açılış mərasimindən] sonra Cəmiyyəti-Əqvam daimi olaraq Cenev[r]əyə köçürüləcəkdir.

**İstanbulda**

“Tayms” qəzetəsinin İstanbul müxbiri İstanbul əhvalını təsvir edib müxtəlif hökumətlərin qeyri-müəyyən vəkalətə malik olan hərbi və mülki bir çox ali komissarlarının vücudu nəticəsi olaraq davam edən qarğaşalıq halından şikayət edir. Müxbir fransız və ingilis baş komandanlarının münasibatını xeyli qarışıq təsvir edir. Qarışıq siyasət baziçəsinə [oyununa] adət etmiş və Yevropa dövlətlərinin birini öz əlində digər dövlət əleyhinə alət edən Türkiyə məmurları müvəffəqiyyətli bir surətdə öz işlərində davam edirlər. Qəzetə Müttəfiqlərin hərəkətlərindən bəhslə deyir ki: İnkar etmək olmaz ki, müharibə bitdikdən sonra ayrı-ayrı millətlər arasında milli iştahalar və rəqabət təzələnmişdir. Xırda hökumətlərin keyfəmayəşaları [özbaşınalıqları] müəzzəm [böyük] dövlətlər arasında gizli surətdə inikas etmişdir. İngiltərədə, Fransada və İtaliyada öylə adamlar vardır ki, hər nə olursa-olsun, öz məmləkətləri üçün İstanbulda birinci yer tutmağa çalışırlar. Hətta bunun nə üçün lazım olduğunu, buna vəkil edilib-edilməmələrini və sövqülceyş ehtiyacatı [stratejik ehtiyaclar] üçün müvafiq olub-olmadığını da fikirlərinə gətirməyirlər. Dörd il bundan əqdəm [qabaq] bu adamlar hamısı İstanbulun Rusiya ixtiyarına keçməsini istəyirdilər. Asiyaya olan nüfuz hələ gizlin qalmaqdadır. Amma hərbi sazişlər siyasi bir alət şəklini almışdır. Belə görünür ki, Fransaya və ya bizə Asiyayi-süğrada [Kiçik Asiyada, Anadoluda] nə lazım olduğunu heç kəs özünə təsəvvür etməyir. Yaxın Şərqin hər yerində Müttəfiq əsgərlərinin olduğunu lazım bilirlər. Lakin heç kəs bu əsgərləri tapmaq üçün çalışmır. Hər kəs o fikirdədir ki, müharibədən və qızdırmadan yorulmuş bu saldatları mümkün qədəri tezliklə kənar etsin. Bu saldatlardan bir çoxları Yaxın Şərqdə qırılmışlardır. Hamı hökumətlər çalışırlar ki, başqasının əsgərlərindən istifadə edib eyni zamanda öz xüsusi nüfuzlarını nəşr etsinlər [yaysınlar].

Məqalənin axırında deyilir ki: Gərəkdir bir əsas qoyulsun. O da budur ki, gərək ağırlığa tabı olmayan heç bir hökumət heç yerdə mandat almasın. Hərgah əsgər lazım isə gərək onları tapsınlar. O adamlar ki, əsgər tapırlar, onlara həsəd gözü ilə baxılmamalıdır.

Müxbir İstanbulun özündən bəhs edib deyir ki: Əhval xeyli ciddidir. İstanbulun halı gülünc dərəcədə qarışıq və eyni zamanda Müttəfiqləri gözdən salan və nifrət oyadan bir vəziyyətdədir. Bütün Yevropa və Şərq millətləri ilə əlaqədar olan bu şəhərdə heç bir qəti hökumət yoxdur.

**Mötəliflərin Kolçaka şürutu [Antanta dövlətlərinin Kolçaka şərtləri]**

“J[oxovrdi] dzayn” nam [adlı] erməni qəzetəsinin yazmağına görə, Dördlər Şu-

rası tərəfindən Kolçaka verilən tələbatı Amerika nümayəndəsi Morris Lehistan [Polşa] təriqi [yolu] ilə müşarünileyhə [deyilən şəxsə] aparacaqdır. Mənəvi və maddi köməklərinin müqabilində Etilafiyyunlar [Antanta dövlətləri] admiral Kolçakdan neçə şey tələb edirlər. O cümlədən:

1. Kolçakın hökuməti Moskvanı alıb rahatlaşdıqdan sonra bilatəxir [dərhal] demokratik üsulu üzrə Məclisi-Müəssisan intixabatına [Təsisçilər Məclisi seçkisinə] şüru etməlidir [başlamalıdır]. Təzə intixabat ələn [indi] mümkün olmazsa, 1917 sənəsində intixab olunmuş Məclisi-Müəssisan dəvət edilməlidir.

2. Kolçak və tərəfdarları tərəfindən işğal olunmuş yerlərdə zemstvo [yerli özünüidarəetmə], bələdiyyə və qeyri idarələr təsis edilsin.

3. Öz rəftarı ilə Kolçak gərək büruzə verməsin ki, imtiyazlı sinifləri təcdid [bərpa] eyləmək fikrindədir. Ədyan [dini], siyasi və qeyri hürriyyətlər təmin edilməlidirlər.

4. Finlandiya və Lehistan istiqlaliyyətləri gərək etiraf edilib [tanınıb], hüdudlarının təyini Sülh Konfransına mühəvvəl edilsin [tapşırılsın].

5. Kolçak hökuməti ilə sabiq Rusiya hüdudunda təzə təşkil edilmiş hökumətlər arasında müzakirat bir nəticəbəxş olmazsa, müşkülatı Millətlər İttifaqı həll etməlidir. O vaxtadək Kolçak həman hökumətlərin muxtariyyətlərini müraat edib [gözləyib, onlara riayət edib], Etilafiyyunlarla onların arasında olan qabaqkı müahidələrini [sazişlərini] qəbul etməlidir.

6. Rusiya demokratik üsul ilə bərpa edildikdən sonra Millətlər İttifaqına daxil olur.

7. Rusiyanın bütün borcları xüsusunda Kolçak öz iltizamına əməl etməlidir.

**Avropanın böyük şəhərlərində**

"Jurnal-de-Jenev" Praqanın halını böylə təsvir edir:

Praqa əhalisi Çexistanın [Çexiyanın] ümumi mənzərəsinin dəyişməsindən artıq dərəcədə münfəil olurlar [təsirlənirlər]. Vaxtilə qayət səliqəli olan Praqa şəhəri şimdi qayət fəna haldadır. Birinci zəruri şeylərin olmadığından, əhali çox üsrət [çətinlik] keçirir. Alət-əlbisə tapmaq mümkün deyildir. Uşaqlara böyük süfrələrdən köynək-tuman hazırlayırlar. Paltar hər hanki parçadan olursa, geyirlər. Papaq almamaqdan ötrü ipəkdən papaq hazırlayırlar. Uşaqlara çəkmə almaq mümkün olmadığından, ayaqlarına əsgi sarırlar. Corablar 40 krona satılsa da, heç bir şeyə dəyməz. Heç bir qiymətə mətbəx ləvazimatı tapılmayır.

Birinci məsələ yemək məsələsidir. İnsan bilməyir nə yesin. Polis həftədə üç gündən artıq yeyilməməsi tövsiyə edilsə də, amma həftədə üç gün də ət tapılmayır. Çörək tapmaq çox müşküldür.

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Yeni cümhuriyyət nümayəndələrinin Sülh Konfransına müraciəti**

Lion, 30 iyun

Sabiq Rusiya torpağında təşkil edilmiş olan yeni cümhuriyyət nümayəndələri Sülh Konfransının sədrinə zeyldəki [aşağıdakı] müxtirə [yazılı sənəd] ilə müraciət etmişlərdir:

*"Azərbaycan, Eston, Gürcüstan, Latış, Şimali Qafqaz, Belarus və Ukrayna cümhuriyyətlərinin nümayəndələri Müttəfiq dövlətlərlə admiral Kolçak arasında Omsk hökuməti himayəsi barəsində olan mükatibəni [yazışmanı] bilərək, öz hökumətləri namından bəyan edirlər ki, yuxarıda zikr edilən cümhuriyyətlər öz millətlərinin arzusu ilə təşkil edilib yaşayırlar. Bu cümhuriyyətlərin məşrutəsi [konstitusiyası] – qanuni-əsasları [əsas qanunları] bu yaxınlarda öz Məclisi-Müəssisanlarında tərtib veriləcək və sair dövlətlərlə də əlaqə başlanacaqdır. Heç bir rus hökumətinin bu cümhuriyyətlər haqqında olan qərarları bu azad cümhuriyyətlər üçün icbari olmayacaq. Bu cümhuriyyətlər rus hökumətinin qərarına itaət etməyəcəkdirlər."*

**Gürcüstan və Versal**

Odessadan xəbər verirlər ki, Qafqaziyadan alınan məlumata görə, Gürcüstan əhalisi Versal Sülh Konfransının qətnaməsindən artıq dərəcədə narazıdırlar. Bunlar ehtiyat edir ki, axırda ingilislər Gürcüstanı Dabravollara yedirdəcəklər.

**Vilson**

Rəisi-cümhur Vilson şərəfinə Parisdə Yelisey sarayında böyük bir ziyafət verilmişdir. Puankare orada nitq söyləmişdir. Vilson Parisdən Brestə, oradan da Amerikaya əzimət eyləmişdir [getmişdir].

**İstanbulda**

İstanbuldan xəbər verilir ki, İstanbulun Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] verilməsi barəsində olan qətnamə Müttəfiqlərə qarşı əhali arasında həyəcan əmələ gətirmişdir. Müttəfiqlərin əmri üzərinə İstanbulu işğal edən yunan qoşunları ilə Türkiyə əhalisi arasında qanlı müharibələr vaqe olmuşdur.

**İngilis əmələləri arasında**

Gündən-günə ingilis əmələləri [fəhlələri] arasında inqilab hərəkatı artmaq üzrədir. Yalnız Londonda deyil, Londonun sair şəhərlərində polisin tətili gözlənir. Polis Həmkarlar İttifaqının təşkilini tələb edir. Törəmiş olan əhvalı ingilis hökuməti kəndisi xətrəli [təhlükəli] hesab edir.

**Almaniya donanması**

- Bu günlərdə almanlar tərəfindən paroxodlar qərq edilən Skapa-Flou və Kil kanalını təftiş üçün oraya bir komissiya ezam edilmişdir. Bunlar çox müşkülatla təftişdə bulunmuşlardır.

- Almaniya flotunun qərqindən hasil olan xəsarətin miqdarını təyin etmək üçün Beşlər Şurası bir komissiya təşkil eyləmişdir. Guya bunlar zərəri nə qədər təxmin edərlərsə, onu almanlar verməli imişlər.

**Yeni müharibə**

Novorossiysk - Amerikadan xəbər verilir ki, İstanbulda olan Amerikanın sabiq səfiri Morqentau inanır ki, 20 ildən sonra yenə təzə Avropa müharibəsi başlanacaqdır. Ona görə də Amerika indidən hazır olmalıdır.

**Vilhelmi-Sani [İkinci Vilhelm]**

İstanbul - Laheydən [Haaqadan] çəkilmiş və İstanbul qəzetələrində çap edilmiş olan teleqram xəbərlərinə nəzərən,

həqiqi alman cəmiyyəti Almaniya Milli firqəsinə müraciətlə təvəqqe edir ki, imperator Vilhelmin Almaniyaya qaytarılmasına müsaidə [icazə] verilmək üçün Milli İclasa və Prussiya Seyminə müraciət etsinlər. Seym və Milli Şura Vilhelmi təhti-himayələrinə [himayələri altına] almalıdırlar.

**Ticarət münasibatı**

Odessa – İsveçrə ilə Almaniya arasında ticarəti əlaqə başlanmışdır. Bundan Müttəfiqlər narazıdırlar.

**Fransız saldatları**

Dobrucada üsyan edən bolşevik bolqarlara qarşı hərb açmaqdan fransız saldatları imtina etmişlərdir.

- Xəbər verilir ki, fransızlar Bessarabiyadan çıxmışlardır. Romaniya saldatları müharibə etməkdən vaz keçib rəislərinə itaət etməkdən imtina edirlər.

**Əfqanıstanda**

Kvettanın 150 verstliyində vaqe Tal şəhərini əfqan qoşunları işğal etmişlərdir.

**Fon Sanders**

İstanbul – Atina [Afina] qəzetələri yazırlar ki, [Otto Liman] fon Sanders paşa Malta cəzirəsindən [adasından] bu günlərdə İstanbula gətirilərək mühakimə ediləcəkdir.

Novorossiysk - Türkiyə ordusu tamamən tərksilah edilmişlərdir.

**Macarıstanda**

Kopenhagen - Peştədən nim-rəsmi [yarı-rəsmi] surətdə xəbər verilir ki, Macarıstan şura qoşunları Romaniya qoşunlarına qələbə çalmışlardır. Macarlılar çexləri bütün cəbhə boyu təqib edirlər.

**İnqilab hərəkatı**

Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Hollandada inqilab hərəkətləri vardır.

**Şanxayda həyəcan**

Şanxayda Yaponiya əleyhinə həyəcan başlanmışdır. Bu işə Yaponiyanın müdaxilə eyləməsi gözlənir.

**Peştədə əks-inqilab**

Berndən xəbər verilir ki, Peştədə böyük nizamsızlıq olmuşdur. Vyana müxbiri bu hadisələr haqqında xəbər verir ki, bir neçə əks-inqilabçı zabitlər Tuna nəhrində olan zirehli gəmiləri ələ gətirmişlər. Başqa zabitlər isə kazarma binalarını işğal edib gəmilərə atəş açmışlardır. Bir çox adam nəhr sahilinə cəm olub şad səslərlə padşahı təbrik etmişlərdir. İyulun 26-da verilən teleqrafda əlavə edilir ki, əks-inqilab hərəkatı yatırılmışdır. Bela Kun Mərkəzi İcra Komitəsinə məruzədə bulunub demişdir ki, orta sinifi və əksinqilabı amansız bir surətdə yatırmalıdır. Bizə bərabərlik deyil, füqərayi-kasibənin [proletariatın] diktaturası lazımdır.

**Albaniyada**

İyunun 30-da Liondan xəbər verirlər ki, Albaniya nümayəndələri böylə bir ərzi-hal [ərizə] ilə Vilsona müraciət etmişlərdir:

*"Sülh müahidənaməsinin [sazişinin] imzası ilə albaniyalılar ümidvar olurlar ki, Albaniya millətinin mövcudiyyəti təmin ediləcəkdir və istiqlaliyyəti təsdiq edilməklə bərabər, ayrılan oblastları özünə qaytarılacaqdır. Ədalət asayişini elan edən Müttəfiq dövlət nümayəndələri sülh və asayişlə yaşamaq arzusunda olan millət üçün edam cəzası imza etməzlər."*

**Sülh imzasından sonra**

Nauendən xəbər verirlər ki, İngiltərə fəhlələrinin başçısı məşhur Henderson söhbət əsnasında izhar etmişdir ki, mən indi inanıram ki, sülh müahidənaməsi Almaniya tərəfindən imza edildikdən sonra təşkilatlı füqərayi-kasibə müahidənamənin fəhlə sinfinin mənafeyinə və mütarikə şəraitinə [atəşkəs şərtlərinə] zidd olan hissələrinə baxmağa başlar.

"D. H." qəzetəsi yazır ki, heç kəs özünü aldada bilməz ki, sülh müahidənaməsi əqd edildiyi tərzdə vücuda gətirilə bilməsin. Digər bir qəzetə yazır ki, bütün Almaniya bilir ki, imza edilən sülh müahidənaməsi böylə qala bilməz. Almaniya qanlı mübarizə deyil, gələcəkdə ədalətin hökmfərma [hökmran] olması üçün ruhani mübarizədə davam edəcəkdir.

"B. T." qəzetəsində Montenels yazır ki, Almaniya sədaqətli vasitələrlə düşmən millətləri inandırmalıdır ki, onun haqqında ədalətsizlik olmuşdur. Bununla da Almaniya sülh müahidəsinin təzədən baxılmasına müvəffəq olmalıdır. Qəzetə tələb edir ki, Almaniya və Avstriya müharibəyə bais olacaq hər bir sənədi elan etməlidir, tainki müharibənin bütün məsuliyyətini Almaniya öhdəsinə yıxmaq istəyənlərin yalanı məlum olsun.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən xüsusi bir komisyon göndərilmişdir ki, 44 cift [cüt] öküz alsın. O öküzlər qaçqınlara veriləcəkdir ki, öz ziraət və fəllahət [kənd təsərrüfatı] işlərinə davam edə bilsinlər. Bunlardan 14 cifti Şamaxı qəzasında yaşayan İrəvan qaçqınlarına, mabaqi [qalan] 30 cifti isə Şamaxı nahiyə müfəttişliyinə veriləcəkdir ki, füqəra əhali miyanında [arasında] təqsim etsin [paylasın].

- Yeni taxıl çıxmasından və nizam asayişindən dolayı Bakı qradonaçalstvasında yaşayanlara qaçqın payı verilməsi qət edilmişdir [kəsilmişdir]. Həman köylər əhalisinə 1918-ci sənədə xəsarətdidə olduqlarına [zərər çəkdiklərinə] görə qaçqınlara verilən miqdarda müavinət edilirdi. Bundan sonra Bakı qradonaçalstvası kəndlilərinə fəqət [ancaq] lazımlı vaxtda taxıl veriləbiləcəkdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Qarabağdakı kəndi müvəkkili Behbudova xəbər vermişdir ki, Qaybalı köylülərinə müavinət etmək üçün Məclisi-Məbusan üzvü Şəfi bəy Rüstəmbəyova 50 min rublə buraxsın.

- Baş fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] xəbər vermişdir ki, Tağıyev fabrikası işlərini təhqiq üçün Mühəndis və Texniklər Cəmiyyəti və fabrika Fəhlə Komitəsindən ikişər nümayəndə, Ticarət və Sənaye Nəzarətindən isə bir nəfər nümayəndə dəvət edilmişdir.

- "Neftyanoe toplivo" nam cəmiyyət Məsai Nəzarətinə xəbər vermişdir ki, bütün mədən neft anbarları dolduğun-

dan, neft çəkmək mümkün deyildir. Binaənileyh [ona görə], 48 nəfər fəhləni əzl etmək [işdən çıxarmaq] məcburiyyətində qalmışlardır. Cəmiyyət rica etmişdir ki, fəhlələrlə hesabı bitirmək qəsdi ilə Maliyyə Nəzarətindən məbləğ almaq təşəbbüsatı üçün bir vəsiqə verilməsi barəsində binagüzarlıqda bulunulsun [sərəncam verilsin].

- Məsai Nəzarətinin qərardadı mövcibincə [qərardadına əsasən], Baş fabrika müfəttişi Gədəbəy zavodunun əhvalını tədqiq üçün oraya azim olmuşdur [yola düşmüşdür].

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri, Xatisov zavodunun bir şöbəsinin Azərbaycan dəmir yolları idarəsinə verilməsinə öz razılığını vermişdir. İşbu şöbədə lazımi makina hissələri qayırılacaqdır. Bu surətlə parovoz təmiri işləri xeyli yüngülləşəcəkdir.

## XARİCİ SİYASƏTİMİZ

### - 3 -
### Elçilər göndərməlidir

Beynəlmiləl münasibatda bulunmaq üçün dövlətlər bir-birinə elçilər (səfirlər) göndərirlər. Bu adət qədimdən var idi, Vestfal sülhündən sonra ümumiyyət qazandı. Elçi, onu göndərən məmləkətin bütün hakimiyyətini təmsil etdiyi üçün əhəmiyyəti çox böyükdür. Onun üçün elçinin hörmət və hüququ da böyükdür. Onu tutmaq, axtarmaq kimi həqarətamiz şeylər yasaqdır. Çünki elçiyə qarşı bəslənən hisslər, elçi təmsil etdiyi dövlətə qarşı sanılır. Elçi göndərmək məmləkətin istiqlaliyyətini göstərir. Doğrudur, nim-müstəqil [yarı-müstəqil] məmləkətlərin də elçi göndərməsi tarixdə görülmədədir. Məsələn, köhnə Bolqariya Türkiyədən asılı olduğu halda səfir göndərmək haqqına malik idi. Bugünkü İran, Çin və Siyam dövlətləri də elçi göndərirlər. Deməli, elçi göndərmək mədəni və qeyri-mədəni millətlər arasında da adətdir.

Avropa müharibəsindən sonra meydana çıxan yeni dövlətlər elçilər göndərməklə istiqlaliyyətə birinci addımlar atdılar. Məsələn, Ukrayna ilə Gürcüstan bu yolda çox ciddiyyət göstərdilər. Hətta balaca Krım da Almaniya istilasından özün qurtarmaq üçün İstanbula elçi göndərdi və alman qəsbkarlarını əmri-vaqe [fakt] qarşısında bulundurdu. Türklərlə dostluğu pozmağa cəsarət edə bilməyən almanlar qəsb nəşələrini pozdular.

Yeni vücuda gələn məmləkətlər elçi göndərməklə beynəlmiləl əlaqəyə girişirlər. Özlərinin müstəqil yaşamaq meyillərini və istedadlarını göstərirlər. Bu gün gürcü siyasi müməssilləri [nümayəndələri] hər bir yerdə var. Bunlar Gürcüstanın tam mənası ilə istiqlala müstəhəqq [layiq] olmalarını aləmə bildirirlər. Elçi hökumət yanına göndərilir. Elçidən başqa bir də şəhbəndər (konsul) göndərilir. Konsulun sayı bir məmləkətdə birdən artıq da ola bilər. Konsulun sayı ehtiyaca bağlıdır.

Məsələn, Ukraynada Azərbaycan təbəələrinin ticari və başqa ehtiyaclarını dəf etmək üçün üç konsul kifayət eylər: Kiyevdə, Odessada və Xarkovda. Elçi isə bir nəfər olmalıdır. Bir məmləkətdəki konsullar elçiyə tabedirlər və onun təlimatı ilə iş görürlər.





Azərbaycan hələ bir çox yerlərə elçi və konsul göndərməyib, halbuki ehtiyac çox-çox böyükdür. İndiki zamanda vətənlərindən ayrı düşmüş bir çox təbəələr var ki, konsul köməyinə möhtacdırlar. Yollar xarab, evdən pul gətirtmək mümkün deyil. Sonra himayə lazımdır ki, təbəə etinasızlıq zəhmətini çəkməsin. İndi başqa məmləkətlərdən viza alıb Qafqaza qayıtmaq üçün minlərcə manatlar və aylarca vaxt itirilir. Bu da xalqımızı incidir və ticarətimizi öldürür. Bu gün bir çox təbəələrimiz var ki, İstanbuldan çıxıb vətənlərinə qayıda bilmirlər. Əvvəla, viza ala bilməyirlər. İkinci, pulları yoxdur ki, gəmiyə 2-3 min manat versinlər. İstanbuldakı təbəələrimizin çoxları əcnəbi ölkələrində siyasi qarışıqlardan zərər görmüşlərdirlər.

Xaricdə olan təbəələrimizin çoxu dil bilmir və vətənə qayıtmaq üçün izni bilmir nerədən alsın. Onun üçün xırda məmurlar çəngalına [caynağına] düşüb böyük rüşvətlər vermək məcburiyyətində bulunur. Elçilər və konsullar göndərmək ilə həm vətənimizi tanıdarıq, həm də təbəələrimizin zəhmətlərini azaldarıq. Bundan başqa, bir ticarət məsələsi də var. Konsul təyin olmasa, ticarət genişlənməz, çünki bazarın övzasını [vəziyyətini] xəbər verən, milli ticarəti himayə edən konsul olur. Konsul olmasa, ticarət kor və başsız olar. Məsələn, İstanbul bazarından xəbərsiz bir çox azərbaycanlılar oraya neft götürdülər. Qrek tüccarı [yunan tacirləri] bunu eşidərək sindikat yapdılar və Qafqaz neftini almamağa qərar verdilər. Təbiidir ki, böyləliklə, malı qiymətdən saldılar.

*Yusif Vəzirov*

## KƏNDÇİLƏRİMİZİN YAYLAQ YOLLARI

Göyçə gölünün şərq tərəfində vaqe təpələrə, yaylaq dağlara Gəncə quberniyasından bir neçə ictimaların əhalisi hər il yaylağa getməyə məcburdurlar.

Bunlar Morul, Dəllər, Şəmkir və Eldar ictimalarıdır. Bunların şimal-qərbində Qazax və qeyri köçərilərin halını sonraya buraxmaqla, hələ bu dörd böyük ictimalarımızın müsəlman kəndçilərindən ibarət əhalisi ümumiyyətcə mal-qara sahibləridirlər.

Bunlar yazı mütləq mal-qaralarını mühafizə edə bilmək üçün yaylaqlara aparmalıdırlar. Gedəcək yerləri isə fövqdə [yuxarıda] zikr etdiyimiz Göyçə gölünün Gəncəyə tərəf olan şərq təpələridir. Şimdiyə qədər bu dağlar, təpələr və o tərəflərdə indi erməni cümhuriyyəti daxilində qalan yerli əhali həp müsəlmanların ixtiyarı, hökmü və əlaqəsi altında idi. Fəqət son zamanlar ora müsəlmanları erməni cümhuriyyəti qoşunlarının icbarı ilə dağıdılıb, bir çoxları kəndlərindən çıxarılıb, mühacir olmuşlardır. Qalanı isə az hissədən ibarətdir. Böyləliklə indi fövqdə məzkur [yuxarıda deyilən] ictimalarımızın Azərbaycan kəndçiləri həmişəki yaylaqlarına getdikləri zaman oralarda müsəlmanlar əvəzinə ermənilərlə yanyana durmağa məcbur olacaqlardır.

Hələ özlərinə təslim və tabe olan müsəlmanlarla ermənilərin nə kimi rəftar etdikləri məlum. Hal böylə ikən yanlarına gedə biləcək yaylaqçılarımızın halını düşünməli...

Bundan əlavə, məzkur ictimalarımızın hələ Azərbaycan daxilindən yaylaqla-

rına gedə biləcəkləri yolların keçidləri də indiyə qədər Azərbaycan daxilində silahlı qalmış erməni kəndlərinin təhti-təhəkkümündədir [hökmü altındadır].

Hazırda həmin köçərilərimizin yaylağa getməklərinə mane olan müsəlləh [silahlı] erməni kəndləri bunlardır: Çardaxlı, Bada. Bu kəndlər yol üstündədir ki, köçərilərimiz mütləq mal-qaraları ilə bu kəndlərin içindən gedən yol ilə keçibgetməlidirlər.

Sonra yan tərəfdə olan silahlı erməni kəndləri bunlardır: Cəyir, Barum, Barsum, Qaşkənd və qeyri.

Azərbaycan daxilində bu kimi erməni kəndlərinin indi də silahlı olaraq qalmaları həm köçərilərimizin, həm əkinçi və kəndçilərimizin asayişini, məişətini xələldar etməkdədir [pozmaqdadır].

Keçənlərdə belə Gərgər kəndi əhlindən iki müsəlman yol ilə keçərkən Barum, Barsum erməniləri tərəfindən öldürülüb malları aparılmış və meyitləri də gizlədilmişdi. Tabəhal [bu günə kimi] müsəlləh surətdə qalan erməni kəndləri əvvəldən bəri müsəlmanlara əziyyət edə gəlməkdədirlər.

Bəzi nagüvara [ağır] hallara yol verməmək və camaatımızın asayişinə xələl yetməmək üçün bu kimi erməni kəndlərinin Azərbaycan daxilində hər yerdən artıq asudə yaşadıqları halda böylə işlərə imkan verilməməsi təşəbbüsləri hökumətimizin bilatəxir [dərhal] qəti tədabirindən [tədbirlərindən] olmalıdır. Zira heç bir vaxt yay istilərini görməyən, hər il baharın ikinci ayından başlayıb dağların sərinliklərində pərvərişyab olan [bəslənən] köçəri inəkləri, qoyunları mötadları vəchilə [adət etdikləri kimi] bir neçə erməni müsəlləh kəndlilərinin üzündən yaylaqlara gec də olsa çıxammayıb aranda isti yerlərdə qalarlarsa, həpsinin azarlayıb tələf olacağı bədihi [aşkar], həm də təbiidir.

*Balaca felyeton*

**REMİNQTONİSTKALAR**

Qafqazdan çoxdan çıxdığıma görə, heç zaddan xəbərim yox idi. Elə bilirdim ki, Qafqaz köhnə, həman Qafqazdır. Yəni rus qaradovoyu, rus dili və sairə.

Elə ki, təkrar Qafqaza qayıtdım, onda işlərdən xəbərdar oldum. Məni halı eylədilər ki, Qafqaz Rusiyadan ayrılıbdır və hər millət özü üçün bir cümhuriyyət düzəldibdir.

Bu əhvalat mənim xoşuma gəldi. Birinci cümhuriyyət ki, torpağına ayaq basmışdım, Ermənistan idi.

Buranın dəvairi-rəsmiyyəsindən [rəsmi idarələrdən] birisinə işim düşdü. Rus dili bildiyimə görə bir ərizə yazıb aparıb təqdim etdim. Dedilər ki, cavab üçün sabah gəl. Səhər getdim. Ərizəmi əlimə verdilər. Gördüm ki, üzərində erməni dilincə bir "rezalyutsiya" [dərkənar, qeyd] qoyubdurlar. Bir ermənidən rica etdim ki, bunu oxuyub mənə qandırsın. Erməni "rezalyutsiyanı" oxuyub tərcümə etdi.

Tərcüməsi böylə idi:

"Ərizənizə baxılmadı. Çünki hökumət dilində yazılmayıbdır."

Sordum, nə hökumət dili?!

Dedi, o hökumət ki, adına Ermənistan deyirlər. Ermənistan hökumətinin də hökumət dili, əlbəttə, ermənicə olacaqdır.





Dedim, axı mən ermənicə bilmirəm.

Dedi, sən bilmirsənsə, mən bilirəm. Zəhmət haqqı ver, sənin üçün bir yaxşı ərizə yazım.

* * *

Ermənistan Cümhuriyyətindən adlayıb, Gürcüstan Cümhuriyyətinə varid oldum [gəlib çatdım].

Burada da mənə bir ərizə yazmaq vacib oldu.

İstədim, bir gürcü tapam ki, məndən muzd alıb ərizə yazsın. Sonra fikir eylədim, bu, izafə xərc olacaqdır. Çünki Ermənistan başqa, Gürcüstan başqa. Ermənistan hökuməti daşnaklardan əmələ gəlir və daşnaklar da məlum olduğu üzrə mütəəssib [təəssübkeş] millətpərəstdirlər. Madam ki, "Xatisov"u "Xatisyan" edirlər, o halda təbiidir ki, rus dilini də atıb öz dillərini işlədəcəkdirlər.

Hərçənd ermənilərin ruslara məhəbbəti baqidir [qalmışdır] və daşnaklarla denikinlərin aşiq və məşuqluq əlaqəsində olduğu müsbətdir, [isbat edilmişdir, şübhəsizdir], lakin bunun dilə dəxli yoxdur. Bu, rusca bilməyən müsəlman dövlətlilərinin ruslardan aşna saxladığı kimi fəqərəyə [hadisəyə; məzəli əhvalata] bənzər bir işdir...

Amma gürcü hökuməti sosialist hökumətdir. Və mən də qabaqlarda öz müsəlman sosialistlərimizdən eşitmişdim ki, sosialistlər üçün millət ayrılığı yoxdur. Onlardan ötrü hamı insanlar bərabərdirlər. Bu urusdur, bu ermənidir, bu türkdür, heç təfavüt eyləməz. Bəs, bundan istinbat eylədim [məna çıxardım] ki, bir halda ki millət ayrılığı yoxdur, o halda dil ayrılığı heç ola bilməz. Çünki millətləri biri-birindən ayıran ən əvvəl dilləridir.

Ərizəmi kamali-cəsarətlə rusca yazıb apardım və lazım olan yerinə verdim. İdarə rəisi ərizəmi açıb baxan kimi təkrar qatlayıb əlimə uzatdı və gürcü dilində nə isə dedi. Mən rusca dedim ki, nə deyirsən? Cavab vermədi və qapıya işarə edib anlatdı ki, çıx bayıra. Bayırdakılardan bir nəfəri mənə əhvalatı qandırdı və dedi ki, ərizəni gərək gürcü dilində yazasan. Dedim ki, bəs sosialistlər üçün millət ayrılığı və dil ayrılığı gərək olmasın. Dedi, onu söyləyən, yəqin ki, sizin sosialistlərinizdir. Bizim sosialistlərimiz isə öz millətlərinin sosialistidirlər. Başqalarla işləri yoxdur. Və bir də gürcü kəndlisi və füqərayi-kasibəsi nə bilsin ki, Roxlin kimdir, Çurayev nəçidir? O öz Ramişvilisini, öz Seretelisini tanıyır və dilini də başa düşür...

Xülasə, Gürcüstandan ötüb Azərbaycana daxil oldum. Tərs kimi, burada da mənə ərizə yazmaq vacib oldu. Amma daha xam deyildim. Təcrübə məni öyrətmişdi ki, hər cümhuriyyətin rəsmi kağızları öz dillərində olmalıdır. Ona görə ərizəmi türk dilincə yazıb, lazım olan dairəyə rəvanə oldum. Dedilər, nə istəyirsən? Dedim ki, rəisi görəcəyəm. Dedilər, nə üçün? Dedim, ərizəm vardır. Dedilər, ərizəni ver, özün get. Bunu deyib ərizəni əlimdən aldılar və heç baxmadılar ki, görən nə yazılıb və nə dildə yazılıbdır. Dedim, bəs cavab üçün nə vaxt gəlim? Dedilər, bir-iki gündən sonra.

Bir-iki gündən sonra getdim. Dedilər ki, hələ ərizənə baxılmayıbdır, çünki tərcümə etməyibdirlər. Dedim, siz ərizəyə baxmadınız? Ərizə türkcə yazılıbdır. Tərcüməyə ehtiyacı yoxdur. Dedilər ki, elə türkcə yazıldığına görə də tərcüməyə

ehtiyac vardır. Sənin ərizən gərək ruscaya tərcümə edilə, sonra verilə reminqtonistkaya [makinaçıya]. O da onu çap edib sonra rəis cənablarına pişnihad [təqdim] edə. Dedim, rəis cənabları rusdurmu? Dedi, xeyr, müsəlmandır. Dedim, öylə isə, görünür, onun türkcə savadı yoxdur. Dedi, rəhmətliyin oğlu, nə boşboğazlıq edirsən? Sən bura göydən düşməmisən, yerdən çıxmamısan, qayda belədir. İndi ki, ərizələr türkcə yazılacaqmış, bəs bu bir düjün reminqtonistkalara biz müftə pul verəcəyik? Onsuz da onların dili üstümüzdə bir arşındır. Deyirlər ki, qoy Denikin gəlsin, görün Azərbaycanın başına nə açacayıq! Bəs, bu cürə adamlara müftə pul vermək olar?! Sən ağlını hara veribsən? Və bu adamları nə hesab edirsən? Qoy reminqtonistkaların canı çıxsın, işləsinlər ki, aldıqları məvacib də haramları olmasın.

Dedim, bu qədər reminqtonistka saxlamaq məmləkətin mənafeyi nöqteyinəzərindən vacibatdandırmı?

Dedi, mən görürəm ki, sən çox uzun danışansan, amma səni xəbərdar edirəm ki, mən də bir kəmhövsələ adamam. Qorxuram ki, sözümüz tərs gələ, aramızda inciklik ola. Məsləhət belədir ki, çıxıb gedəsən!

Gördüm ki, məsləhət pis məsləhət deyildir. Ona görə çıxıb getdim.

*Tazə*

## TABAQÇILAR HAQQINDA

Neçə illərdən bəridir ki, biz tabaqçılar Bakı Bələdiyyə İdarəsindən şəhər küçələrində alış-veriş etməkdən ötrü tabaq yeri icarəyə götürüb və bu vaxtadək alışveriş edib külfətimizi dolandırmaqdayıq.

Fəqət çox təəssüf etməli ki, camaatın Bakı şəhər baqqalları, xüsusən yaş meyvə satan dükançıları bizim əleyhimizə çalışıb, bu bahalıq zamanda külfətimizi dolandırmağa mane olurlar. Həman bu tamahxorların çalışdığı budur ki, Olqinski, Velikoknyajeski və Nikolayevski küçədə olan tabaqçıları yığışdırıb yaş meyvə alış-verişini əllərinə salmaqla bərabər, birə-üç qiymətə satsınlar. Odur ki, bizim təşkilatsızlığımızdan və özlərinin “ittifaqlı”lığından istifadə edib Bələdiyyə İdarəsində bizim əleyhimizə çalışmaqdadırlar.

İştə, mən də onların bu çalışmaqlarını yazıb qəzetə vasitəsilə lazımi yerinə bildirməyi, tabaqçı olduğum üçün kəndimə vəzifə ədd [hesab] etdim.

İştə, onlar dövri-istibdaddan bəridir ki, bizim əleyhimizə çalışıb dürlü-dürlü vasitələrdən çəkinməyirlər.

Binaənileyh [odur ki], icazənaməmiz ildə iki dəfə dəyişildiyinə binaən [görə] və bu günlər icazənaməmizin vaxtı qurtarıb yenisini alacağımızdan istifadə edib və Bələdiyyə İdarəsinə neçə illərlə tutub işlətdiyimiz tabaq yerlərini müzayidəyə (torqa) qoyulmağını təklif edirlər. Əks surətdə, yəni torqa qoyulmadığı halda yerlərimizin pullarını Bələdiyyə İdarəsinə iadə edib [verib] və yerlərin boş qalması təklifini də etmişlər. Ax, nə qədər insana yaxışmayan bir iş və nə qədər insaniyyətdən uzaq bir təklif! Bunlar dükançı olduğu halda, bizim alış-verişimizə göz dikib, artıqtamahlıqlarını ümuma bildirmək istəyirlər.

İştə, həman bizim əleyhimizə çalışan baqqallar birdəfəlik bunu düşünüb bilməlidirlər ki, qeyrilərin çörəyini əlindən alanlar özləri tez çörəkvay [çörəyə möhtac] olarlar. Ona binaən öz yerlərində oturub, əbəs xalqın çörəyinə mane olmasınlar. Və bir də onlar bilməlidirlər ki, möhtərəm Duma çlenləri [üzvləri] və sədaqətli agentləri heç vaxt haqqı nahaqqa verib insafını, vicdanını pula satmazlar. Onunçün ki, onlar da bica yerə məəttəl olub Dumun [Dumanın] qapısını səhərdən axşamacan kəsdirməsinlər.

*Məhəmmədəli Əsədullazadə*
*Tabaqçı*

## BAKI MƏHƏLLƏLƏRİNDƏ KÖNÜLLÜ TƏLİMGAHLAR

İcabında müqəddəs vətən və əziz millətimizi müdafiə etmək hər bir müsəlman və əli silah tutanların vəzifəsi olduğu, millətimiz arasında bu xüsusda fövqəladə bir qeyrət görüldüyü üçün hökumətimiz tərəfindən müxtəlif mərkəzlərdə könüllü təlimgahları tərtib edilməsi təhti-qərara alınmışdır və bu vəzifələrlə iştiğal etmək [məşğul olmaq] üçün Bakıda Mərkəzi Komisyon və Ştab təyin olunmuşdur. Könüllülərin təlim və tərbiyələrinin, ümumiyyətlə yeknəsəq olması və əzəmi [maksimum] fayda əldə edilməsi üçün ümum təlimgahlar Mərkəzi Ştabın əmrində bulunacaqlardır.

Şimdilik Ştab Bakıda:
1) İçərişəhər;
2) Çənbərəkənd;
3) Təzəpir;
4) 4-cü uçastok;
5) Məhəmmədli məhəlləsi;
6) Hacı İbrahim məscidi;
7) Hacı Pirverdi məscidi məhəllələrində birər təlimgah güşad edəcəkdir [açacaqdır].

Ona binaən [ona görə] ümum Bakı məhələlərinə elan olunur ki:

1) Hər məhəllədə könüllü əhaliyə təlim və tərbiyə etmək üçün lazım olan zabitlər veriləcəkdir.

2) Hər məhəllədə təlimgahlara nəzarət etmək üçün könüllülər tərəfindən üç kişilik bir komisyon intixab [seçiləcək] və Mərkəzi Ştab tərəfindən təsdiq olunacaqdır.

3) Şimdiyə qədər hər hanki məhəllədə təlim və tərbiyə ilə iştiğal edənlər varsa, onlar da Ştabın nəzarəti altında olacağından, o məhəllənin başçıları və bu xüsusda mövcud isə komisyonları gəlib Ştaba məlumat verməlidirlər.

4) Könüllü təlim və tərbiyəsi ilə iştiğal edəcək olan ümum zabitan Ştabın əmrində bulunacaqlarından və maaşlarını Ştabdan alacaqlarından, yerlərindəki vəsiqələri və yaxud tərcümeyi-əhval vərəqələri ilə bir an əvvəl [mümkün qədər tez] gəlib Ştabda isbati-vücud etməlidirlər.

5) Hər məhəllənin könüllü dəstələri təşkil olunub, təlimgahda nəzarət etmək üçün müntəxəb [seçilmiş] komisyon təşəkkül edincəyə qədər, komisyon mövcud olmayan məhəllələrdə Ştab tərəfindən müvəqqət olaraq müttəhid adamlardan üçər kişilik birər komisyon təyin ediləcəkdir.

6) Komanda türkcə olacağı kimi, Ştabın bütün ümuri-təhririyyəsi [yazı işləri] də türkcədir.

Mərkəzi Ştabın qərargahı Əmələ Klubunun önündə Haşımov mülkündədir.

*Könüllü təşkilatı*
*Mərkəzi Ştab müdiri:*
*Talıbzadə Yusif Ziya*
*Mərkəzi Ştabın baş katibi:*
*yüzbaşı Xəlil*

## BAKI XƏBƏRLƏRİ

**İdarədən**

Qəzetəmizin müvəqqət müdiri Hacıbəyli Üzeyir bəy əfəndi səhhətini düzəltmək qəsdi ilə bir müddətə məzuniyyətlə Bakıdan gedib, müvəqqət müdir vəzifəsi Xəlil İbrahim əfəndi öhdəsinə vagüzar edilmişdir [tapşırılmışdır].

Denikin və Azərbaycan

"Zarya" qəzetəsi yazır:

Bizdə olan məlumata görə, Bakıda İngilis Komandanlığı cənbində [nəzdində] olan Dabravol nümayəndəsi general Lazarev Denikindən bu məzmunda bir teleqraf almışdır:

*"Hərgah Azərbaycan Hökuməti tərəfindən Dabravol ordusu əleyhinə düşmənanə hərəkat başlanmazsa, Denikinin Azərbaycana qarşı heç iqdamatı [təşəbbüsü] olmayacaqdır. Samur çayında təyin etdiyi sərhəddən Könüllü ordu keçməyəcəkdir. Azərbaycanı Rusiyanın ayrılmaz bir hissəsi hesab edərək, bu məsələ Ümumi Rusiya Məclisi-Müəssisanında həll ediləndək Azərbaycanın istiqlaliyyətini təsdiq edir."*

**İclas**

İyul ayının 6-da saat 3 tamamda "İttihad" firqəsinin Bibiheybət şöbəsinin ümumi iclası vaqe olacağı möhtərəm üzvlərə xəbər verilir. İclasda sədr, katib və xəzinədar intixab olunacaqdır [seçiləcəkdir]. Adres: Bayılda, 1-ci polis idarəsi qarşısında Mitrofanov həyətində.

**Qarabağ erməni nümayəndələrinin vürudu**

Dün Azərbaycan Hökuməti tərəfindən nümayəndə sifəti ilə Qarabağ ermənilərinin qurultayına getmiş Parlaman üzvü Şəfi bəy Rüstəmbəyli ilə bərabər Qarabağ erməni əhalisi tərəfindən nümayəndə olaraq Ter-Danielyan və [R.] Şahnazaryan Bakıya varid olmuşlardır [gəlmişlər]. Erməni nümayəndələrinin məqsədi Qarabağda erməni-müsəlman münasibətini gözəlləşdirməkdir.

**Qəzalarda**

"Müsavat" firqəsinin Parlaman fraksiyonu qəzalarda təşkilat yapmaq məqsədilə bayram günlərindən istifadə etməyi qərara almışdır. Bu fikirlə fraksiya əzaları [üzvləri] uyezdlərə getmişlər. Dünən Parlaman üzvü və "Müsavat" firqəsi lideri Məhəmməd Əmin Rəsulzadə ilə Mustafa bəy Vəkilov Gəncəyə və Gəncə vilayətinə yola düşmüşlər. Onlar Gəncə, Qazax, Ağdaş, Şəki və Zaqatalanı ziyarət edib mühazirələr və siyasi məsələlərə dair məruzələr oxuyacaqlar.

**Türk Tələbələri Komitəsində**

Türk Tələbələri İcraiyyə Komitəsi qət etmişdir ki, hökumətə müraciətlə tələbələri[n] öz təhsillərini ikmal [tamamlamaq] üçün Avropaya göndərilmələri haqqında lazımi tədabir ittixaz edilməsi [tədbirlər görülməsi] barəsində təşəbbüsatda bulunsunlar.

**Darülfünun komisyonunda**

Maarif Nəzarəti Darülfünun [universitet] komisyonu sədrinə müraciətən rica etmişdir ki, darülfünun işlərindən ötrü Qərbi Avropaya göndərilən şəxslərin ad, familiya və sənətlərini xəbər versin.

Xüsusi komisyon tərəfindən darülfününa lazım olan tibbi və ictimai-siyasi elmlərə dair kitabların siyahısı tutulmuşdur.

Bir çoxları qəbul olunmaq üçün müraciət etdiklərindən, komisyon müəyyən cavab verməkdən aciz qalır. Zira darülfünun üçün təyin olunmuş Ticarət məktəbini hənuz ingilislər boşaltmamışlar. Maarif Nəzarətinin verdiyi xəbərə görə, Birinci gimnaziya boşalmaq üzrədir. Bir çoxları darülfününda xidmət etməyə ərizə verirlər. Komisyon ərizələri qəbul edib cavab verməyi işləri düzələndən sonraya qoyur.

**Qradonaçalstvada**

- Bakı qradonaçalstvası cənbində [nəzdində] xüsusi paltar və çəkmə emalatxanaları açılmışdır. Bu emalatxanalar[ı] qradonaçalnik polismeyster olarkən təsis etmişdi. İndi tamam qradonaçalstvanı təmin edə bilər.

Axır zamanlarda qradonaçalstva cənbində silah qayıran zavod işə başlamışdır. Bu zavodda bir də şəhəri mühafizə üçün zirehli avtomobil qayırılır.

- Qradonaçalnik tərəfindən milis hazırlayan məktəb açılmışdır. Şəhər polisinə xidmətə daxil olmaq istəyənlər bu məktəbdə nizam və milis vəzifəsini öyrənib imtahan verməlidirlər. Yeni təşkil olunan qorucu [mühafizə] bölüklərində ciddi intizam (disiplina) qoyulmuşdur.

**N[oy] V[issarionoviç] Ramişvili şərəfinə ziyafət**

İyulun 2-də saat 5-də Bakı Camaat Yığıncağı (Obşestvenni Sobraniya) klubunun yay mülkündə Gürcüstan Cümhuriyyətinin Hərbiyyə və Daxiliyyə naziri Ramişvilinin şərəfinə bir ziyafət verilmişdir. Ziyafətdə Gürcüstan Hərbiyyə nazirinin müavini general Odişelidze, Xariciyyə nazirinin müavini N[ikolay] İ[otamoviç] Kartsivadze, Gürcüstan Cümhuriyyətinin Azərbaycandakı siyasi nümayəndəsi doktor [Qriqol] Alşibaya, Azərbaycan Cümhuriyyətinin başda Rəisi-vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli olmaq üzrə Hərbiyyə naziri Mehmandarov, Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov və qeyri nazirlər hazır idilər. Məclisi Hərbiyyə naziri Mehmandarov həzrətləri açaraq gürcü ordusu şərəfinə tost qaldırır. Hərbiyyə nazirinə Ramişvili cavab verir. Ondan sonra general Odişelidze, Parlaman rəisi əvəzinə Parlamanın baş katibi Əhməd Cövdət Pepinov dəxi nitqlər irad edirlər [söyləyirlər]. Ziyafət vaxtı musiqi və sazəndar çalınırdı.

**Müəllimlərə məvacib**

Bakı Bələdiyyə İdarəsinin Maarif şöbəsi axırıncı iclasında qərar qoymuşdur ki, 1 mart 1919-cu ildən bu yana xidmətdə olan müəllimlərə yay vaxtı dəxi məvacib verilməlidir.

**İbtidai məktəb**

Bələdiyyə İdarəsinin Maarif şöbəsi

tərəfindən Mariinski ünas [qızlar] gimnaziyasının 8-ci pedaqoji sinfinin təcrübəsi üçün həman məktəb indində [nəzdində] ibtidai məktəb açılmasını qət etmişdir.

**Birjada**

“Laj” [qiymət artımı] ümidsiz bir halda davam edir.

Bakı bonlarının qiyməti İranda və burada çox yaxşıdır. Ümumi Rusiya pullarının qiyməti isə getdikcə düşür. Birja tamamilə şaşırmış və nəyə qərar verməyi bilməyir. Böyük Kerenskiləri və Nikolay pullarını gözlənməyən dərəcədə aşağı təklif edirlər. “Laj”ın qədərini təyin etmək əsla mümkün deyildir. Minlik 1400-dən 1800-ə kimi gedir. Kerenski 250-liliklər 1600 manata satılır. Xırdalarla maraqlanan yoxdur. Romanov pullarından 500 manatlıqların kursu yaxşıdır. 500 manat 1300-dən 1400-ə kimi qiymətlənir. Xırda Nikolay pulları yoxdur.

**Valyuta**

Valyuta dəyişməksizin durur. İtaliya lirəsi artmadadır. Böylə ki, İtaliya lirəsi 20-21 manata gedir. Başqa pullara, funt və franklara əhəmiyyət verən azdır.

**Ticarət bazarı**

Ticarət bazarında ruh pozulmuş kimidir. Möhtəkirlər nə yapacaqlarını unutmuşlar. Bir tərəfdən də hamının əlində bir qisim mal vardır. Əlan [hal-hazırda] bazarda sabun və şəkər artır. Bu malların qiyməti getdikcə düşməkdədir. Böyləliklə satışda şəkəri 22 manata verirlər.

**Mərdəkanda “Müsavat” şöbəsi**

30 həziran tarixində düşənbə [bazar ertəsi] günü axşam saat 7 radələrində Sabunçu-Balaxanı mədənlər mərkəzi “Müsavat” idarəsi təbliğat əzasından [üzvlərindən]: 1) Yusifzadə Əbdürrəhim, 2) Sultanzadə Məşhədinin dəvətlərinə icabətlə [dəvətini qəbul edərək], Mərdəkan qəryəsi [kəndi] camaatı nümayəndələri Məhəmmədəli Qəhrəmanzadənin mənzilində ictima etdilər [yığışdılar].

Hazirunun [iştirakçıların] xahişi ilə məclis rəsmiyyət peyda etmədən müqəddəm [qabaq] insanlarda yaşamaq yolları aramağa ehtiyac hissi nə zamandan bəri oyanmış olub, məsləki-siyasi nədən ibarət olduğunu şərh və hal-hazırda ziyalı təbəqəmiz müxtəlif firqələrə münşəib [bölünmüş, ayrılmış] olaraq təqib etdikləri məsləki-siyasiyyəni yek-digəri [bir-biri] ilə müqayisə bədində [sonrasında], “Müsavat” firqəsinin şüarından və kəndi şüarında ibraz etdiyi [nümayiş etdirdiyi] fəaliyyət və mətanətindən dolayısı ilə əldə etmiş olduğu məmnuniyyətbəxş nəticələrdən ətrafı ilə məlumat verildikdən sonra, haziruna xitabən “Müsavat” şöbəsi təsisinə lüzum görülərsə, məclisə rəsmiyyət verib heyəti-idarə intixabına şüru etmək [seçkisinə başlamaq] təklifi kamaliməmnuniyyətlə qəbul edildi.

Mütəaqibən [Onun ardınca] Yusifzadə Əbdürrəhimin sədarəti, Qasımzadə Feyzullanın kitabəti [katibliyi] ilə məclis rəsmiyyət peyda edib, heyəti-idarə intixabı məsələsi müzakirə nəticəsində isimləri zeyldə mühərrər əşxas [adları aşağıda yazılmış şəxslər] intixab edildilər:

1) Heydər Məhəmmədzadə (sədr);
2) Məhəmməd Mirzəməhəmmədzadə (müavin);
3) Qasımzadə Mustafa (katib);
4) Rəhman Əlizadə (xəzinədar);
5) Məhəmmədəli Qəhrəmanzadə,
6) Nadir Nurməhəmmədzadə,
7) Hacı İsabala Musazadə,
8) Mirfəttah Ağazadə (idarə üzvü).

Heyəti-idarənin növbəti iclasları hər həftə cümə günləri axşam saat 8-ə qərar verilib, məclis xətm oldu.

**AZƏRBAYCANDA**

**Salyandan**

Şimdiyə qədər fəna bir surətdə gedən əsgəri işlərimiz (əsgər təcəmmösü [yığılması]) bərəkət versin ki, get-gedə qanun təhtinə [qanun altına] daxil olmaqdadır. Keçmişdə olan səhv və xətalar, bir taqım qanunsuzluqlar, rüşvətlər, şükürlər olsun ki, şimdi daha yoxdur.

Əsgər təcəmmösü bu halda yenə davam etməkdə, bir taqım “vasitə”lərlə əsgər getməyərək sərbəst gəzən gənclərimiz indi çağırılmaqda və məqami-aidinə sövq olunmaqdadır [aidiyyətli quruma göndərilməkdədir].

Əgər Əxzi-əsgər şöbəsində qaimməqam Yusifzadə Əliheydər bəy əfəndi bulunmazsa, şübhəsizdir ki, doktor Terletski “sayəsində” heç bir gəncimiz əsgər olammaz. Bu hərif şimdiyə qədər bir çox rollar oynamışdır və bir çox paralar və rüşvətlər almışdır və bir çox bədəncə sağlam olanlara “xəstəliklər” isnad etmişdir. Bir çox yaşlılara yaşsız və bir çox yaşsızlara da “yaş” vermişdir.

Bu gün Azərbaycan xalqı xaricdən gələn denikinlərlə mübarizəyə qalxışır. Halbuki bizim üçün xaricdən ziyadə, daxilimizdə bizimlə bərabər çörəyimizi yeyərək hökuməti-cəliləmizə [uca hökumətimizə] böyük məzərrət iras etdirməyə [ziyan vurmağa] çalışan və denikinləri çarçeşmlə [dördgözlə] gözləyən bu kimi həriflər təhlükəlidir.

Ətrafdan havyarlardır (kürülərdir), balıqlardır ki, gəlir. Əsgəri işlər üçün buraxdığı “şəhadətnamələr” sayəsində nələr almamışdır?

Gərək hökumət dairələrində və gərək başqa müəssisələrdə bu xüsuslar nəzəri-etibara alınmalıdır. Daxili denikinlər rəsmi məqamlardan çıxarılmayınca, biz rahat olmayacağız.

Əxzi-əsgər işində bu doktorun verdiyi şəhadətnaməsinə baxmayaraq, kəndi ağıl və məntiqi dairəsində hökm etdiyindən, qaimməqam [qəza rəisi] Əliheydər bəy şayani-təqdir və təşəkkür [təqdirə və təşəkkürə layiq] nəticələr əldə edə bilir.

*[Rüstəm] İskəndərzadə*

**Ordubad əhvalı**

Məlum olduğu üzrə, Naxçıvan uyezdi ermənilərə təslim olmuşdur. Lakin Naxçıvan uyezdinə daxil olan Ordubad şəhəri erməni hökumətinə təslim olmayıb, Azərbaycan hökumətindən bu barədə nə tövr rəftar etmələri üçün düsturüləməl [təlimat] almaqdan ötrü Bakıya nümayəndə göndərmişdilər.

İndi Tiflisdə olan İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyəti məlumat almışdır ki, Naxçıvan xanlarından Cəfərqulu xan [Kəlbəli xan oğlu Naxçıvanski], Kəlbəli xan [Cəfərqulu xan oğlu Naxçıvanski], Böyük xan və Məhəmmədəli xan (?!) erməni hökuməti tərəfindən nümayəndə sifəti ilə Ordubada

azim olmuşlar [yola düşmüşlər] ki, Ordubad şəhərini Ermənistan hökumətinə tabe olmağa məcbur etsinlər.

**Ermənilərin hazırlığı**

Aldığımız məlumati-mövsuqəyə [mötəbər məlumata] görə, Ermənistan hökuməti kəndi qoşunlarını Zəngəzur qəzası üzərinə sövq etməkdədir. Onların vürudunadək [gəlişinədək] yerli müsəlmanlarla yaxındakı erməni qüvvələri ilə bir neçə müsadimələr [toqquşmalar] olmuşsa da, müsəlmanlar qələbə çalaraq ermənilərin nizami qüvvələrini geriyə püskürtmüşlərdir. Yerli ermənilərin bir para quldurları da müsəlmanları narahat etməkdədirlər.

**Lənkəranda**

Lənkəranda yenə Şura hökuməti təşkil edilmişdir. Əhvalat bu surətlə vaqe olmuşdur:

Lənkəran muğanlılar tərəfindən işğal edildikdən sonra bolşeviklər şəhərin ətrafına çəkilib bir heyət göndərmişlər və muğanlıları inandırmışlar ki, Şura hökuməti onların əleyhində deyildir. Yalnız Sara cəzirəsinə [adasına] keçmək istəyirlər. Bunun üçün muğanlılardan xahiş edirlər ki, şəhərdən çıxsınlar, Forştadta çəkilsinlər. Bu xahişi muğanlılar qəbul etmişlərdir.

Fəqət bolşeviklər şəhərə daxil olduqdan sonra forştadta atəş açmışlardır. Və nəticədə muğanlıları Qumbaşıya çəkilməyə məcbur etmişlərdir.

Lənkəranda bütün evlər qarət edilib, bir çox evlər yandırılmışdır. Bolşeviklər əhali üzərinə 7 milyon manat təzminatihərbiyyə qoymuşlardır. Rəhn [girov] sifəti ilə 35 müsəlman, 9 yəhudi, 16 nəfər rus həbs edilmişlərdir. Əl bombası ilə şəhərin ən möhtərəm şəxslərindən İvanov qətl edilmişdir. Təqsiri də bu imiş ki, onun iki oğlu muğanlılara qoşulmuş imiş. Polkovnik İlyaşeviç həbs edilib, oğlu isə naməlum yerə qaçmışdır.

Muğanlılar iyulun 2-də Prişibdə bir ictima [yığıncaq] dəvət edərək söz vermişlər ki, nə tövr olsa da, bolşevizmi məhv eyləsinlər.

Lənkəran Şura hökumətinə muğanlılar bir ultimatum göndərərək, iyulun 5-dək şəhərin təslimini tələb edirlər. Əks surətdə Lənkərana qarşı hərb açacaqlardır.

**ERMƏNİSTANDA**

**İngiltərə generalı Biç Ermənistanda**

“Sakartvelo” gürcü qəzetəsi yazır ki, polkovnik Sanders ilə Təbrizə gedən general Biç Aleksandropola (Gümrüyə) varid olmuşdur [çatmışdır]. Generalın şərəfinə kəşidə edilən [verilən] ziyafətdə general erməni zabitlərinə xitabən böylə bir nitq irad etmişdir [söyləmişdir]:

Mən çox şadam ki, sizin şəxsinizdə erməni camaatını təbrik edirəm. Erməni camaatını şad edə bilərəm ki, Paris Konfransı Ermənistanın istiqlaliyyətini təsdiq edir. Van şəhəri Ermənistanın paytaxtı olacaqdır. Siz ermənilər Müttəfiqlər üçün və mədəniyyət işlərində böyük xidmətlər göstərmişsiniz. Ermənistanın sərhədləri elan edildiyi zaman bu xəbər qonşularınızın təəccübünə səbəb olacaqdır.

General Rusiya məsələsindən bəhslə demişdir ki, biz general Denikinə Rusiyanı bərpa etməkdən ötrü kömək etməyə söz vermişik. Mən sizin general Denikinə olan hüsn-təvəccöhünüzü bilib, bu işdə sizi bizə kömək etməyə dəvət edirəm.

General Azərbaycan ilə Gürcüstandan bəhs edib demişdir ki, Müttəfiqlər onların istiqlaliyyətini təsdiq etməyəcəklər və onlar vahid Rusiyaya daxil ediləcəklərdir. İşin gedişinə tabe olmayanlar güzəştdə bulunmadıqlarına, təsiredici iqtisadi ablukaya [blokadaya] razı olacaqlardır.

**General Andranik**

“Aşxatavor” yazır: General Andranik Parisə vürudunun ikinci günü general Pişon və Foş tərəfindən hüzura qəbul olunmuşdur. Ondan sonra Poqos Nubar paşa ilə bir yerdə Fransa rəisi-cümhuru Puankareni ziyarət edib, bir neçə məsələ xüsusunda müsahibədə bulunmuşlar.

**Ermənistan xəritəsi**

“Aşxatavor” yazır ki, Sülh Konfransının qətnaməsinə görə, “Marsel coğrafiya şirkəti” Ermənistanın, Suriyanın və qeyri məmləkətlər xəritəsini hazırlayır.

**Vanda**

“Aşxatavor” “İqdam”dan iqtibasən yazır ki, əhaliyə 200 min kilo toxum və 200 min rəs [baş] heyvan paylanmışdır. Əkin çoxdur. Azuqə cəhətincə tam əmniyyətdir. Yüzlərcə erməni və müsəlman yetimlərini saxlamaq və naxoşlara müalicə etmək üçün Bələdiyyə İdarəsi darüleytam [yetimxana] və 200 naxoş üçün xəstəxana hazırlamışdır. Varto və Xınıs dairələrinin əhalisi cəm olub xəlifəyə izhari-itaət edib neçə yerlərə bu xüsusda teleqramlar göndərmişdir.

**Qars-Batum yolu**

Batumdan Ermənistana azuqə və qeyri ləvazimat daşımaq üçün Qars-Batum yolu islah edilmişdir. Əlan [indi] həman yol ilə furqonlarda 500 min pud un göndərilmişdir. Yol [ilə] mal daşımaq üçün yaxın zamanda kifayət qədərdə yük avtomobilləri mühəyya [hazır] ediləcəkdir.

**İDARƏYƏ MƏKTUB**

**- 1 -**

“Azərbaycan” qəzetəsinin müdirindən acizanə rica edirik, biz fəhlələrin bir neçə kəlmə sözünü qəzetədə dərc buyursunlar.

Neçə gündür ki, Əliheydər Qarayev Tağıyev fabrikasına gəlib, vaxt-bivaxt mitinqlər düzəldib hökumət əleyhinə ağzına gələn nalayiq sözlər söyləyir. Məsələn, yoldaşlar, hökumət sizə düyü, un verib sizi öz tərəfinə çəkir, aldanmayın. Bizə öylə hökumət lazım deyil. Bizim yoldaşlarımız, hansı ki Aşqabaddadır, Astraxandadır, bu yaxın zamanda gəlib çıxar. Biz Şura hökumətindən başqa hökumət tanımırıq. Yaşasın Şura hökuməti! Yaşasın Aşqabadda olan yoldaşlarımız! Yaşasın qırmızı bayraqlarımız! – deyə bolşevizmi təbliğ edir. Bunlardan başqa hökumət əleyhinə çox sözlər söyləyirlər ki, yazmaqla bitməz. Təəccüb burasıdır ki, Əliheydər Qarayev özü Parlaman üzvü olduğuna binaən, bu cür nalayiq sözlərlə biz fəhlələri başqa bir hala salır. Qarayevin hər gün fabrikaya gəlməsi, hökumət əleyhinə getməsi və fabrikada yaşayan (.......) iş vaxtı mitinq qurması, özü Parlaman üzvü olması çox təəccübdür.

**İdarədən**: Bu məktub bir neçə gün təxirlə çap edilir.

**- 2 -**

Möhtərəm müdir əfəndi! Sevgili cəridənizin [qəzetinizin] bir guşəsində işbu məktubun dərcini acizanə rica edirəm.

Keçən cümə günü Çənbərəkənd qrajdanski komitənin iclasında mənim barəmdə yazılmışdı ki, guya mən Ağabala Şükür oğlu “Səfa” məktəbinin qıfıllarını çıxarıb aparmışam. Və mənə təklif olunub da, verməmişəm və hətta etina etməyirmişəm. Bu xəbərin həqiqətdən uzaq olduğunu qeydlə, ərz etməliyəm ki, o vaxt ki Ağatağı Nağıyev mənə rücu [müraciət] etmişdi “Səfa” məktəbinin binasını düzəldim, işi tamam edəndən sonra həmin 6 ədəd köhnə zamokları apardım Ağatağı Nağıyevə təhvil verim. O zaman Ağatağı cənabları mənə dedi ki, köhnə zamoklardır, tulla getsin. Mən o zamokları tullamayıb, aparıb vermişəm Yusif Ağakişi oğluna. Və məndə “Səfa” cəmiyyətinin heç bir şeyi yoxdur. Və bundan əlavə, özüm “Səfa”da neçə gün işləmişəm, onun da haqqını almamışam, bağışlamışam cəmiyyətə.

*Ağabala Şükür oğlu*

**[İtibdir]**

Mirməhəmməd Vəzirovun Mərv şəhərindən aldığı 329 nömrəli əbədilik pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*10271*

**İtibdir**

Yusif Azadəli oğlunun İrəvan quberniyasından aldığı pasportu itib. Etibardan saqitdir.

*10273*

**Satılır**

Kinematoqraf aparatı, pianino, elektrik stansiyasının nömrə vuranı (nomerator), dəmir baklar, boçkalar [çəlləklər], taxta və şalbanlar. Telefon nömrəsi: 33-28. Vağzalnı küçə, nömrə 42. Qabirin mənzili.

*5401*

**Satılır**

Mexaniçeski maşinalar, stanoklar. Telefon nömrə: 33-28.

*10275*

**İtibdir**

Rüstəm Nəriman oğlunun 4-cü polis idarəsindən aldığı pasportu itib. Etibardan saqitdir.

*10274*

**İtibdir**

Qüdrət Quliyevin 4-cü Balaxanı polis idarəsindən aldığı pasportu itib. Etibardan saqitdir.

*5404*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*





**Bəhri-Xəzər dənizində passajir**
**və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08.

Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Satılır**

Ucuz qiymətə ingilis malından hər cür hazır kostyumlar, Busloviçin mağazasında. Korçakovski nömrə 12, telefon nömrə 24-70.

*5406*

Ümuri-Xeyriyyə Nəzarətinin Qarabağ nahiyəsində Qusulu kəndində olan ipək toxumaq işinə mükəmməl bələd olan və türk dili bilən övrət lazımdır. Hər gün, bayram günlərindən başqa, Nəzarətin Xeyriyyə şöbəsinə müraciət etməlidir.

*T-166*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**İngilis parçaları**

səh. 47. “markizet”: çox nazik pambıq və ipək parça.

**Hökumət Teatrosunda**

səh. 48. “Ədirnə fəthi” (yaxud “Ənvər bəyin Ədirnə fəthi”): Cəfər Cabbarlının pyesi.

**Teleqraf xəbərləri**

səh. 48. “Saxalxo sakme” (Ümumxalq işi): Tiflisdə nəşr edilən gürcü qəzeti.

**Qəzetələrdən**

səh. 50. “Yaşıl ordu” (yaxud Yaşıllar hərəkəti): Rusiyada Vətəndaş müharibəsi dövründə əcnəbi müdaxiləçilərə, bolşeviklərə və ağqvardiyaçılara qarşı mübarizə aparan, qeyri-nizami silahlı qruplar; əsasən kəndlilərdən və kazaklardan ibarət olurdu.

səh. 51. “müvafiq olub olmadığını”: qəzetdə “müvafiq” yerinə “müvəffəq” getmişdir.

“Dördlər Şurası” (yaxud Böyük Dördlük): Paris Sülh Konfransının gedişində dörd böyük dövlətin liderlərindən əmələ gələn şura (“Böyük Dördlük” yaxud “Dördlər Şurası”); bura ABŞ prezidenti Vudro Vilson, Britaniya, İtaliya və Fransa Baş nazirləri Lloyd Corc, Vittorio Orlando və Jorj Klemanso daxil idi.

səh. 52. “Jurnal-de-Jenev” [Journal de Genève]: 1826-1991-ci illərdə Cenevrədə nəşr edilmiş qəzet.

**Cümə günkü mühüm xəbərlər**

səh. 53. “Beşlər Şurası” (yaxud Böyük Beşlik): ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya.

**Xarici siyasətimiz**

səh. 56. “Siyam”: bugünkü Tailand nəzərdə tutulur.





**Reminqtonistkalar**

səh. 58. “reminqtonistka”: XIX əsrin axırlarından etibarən Amerikada kütləvi şəkildə istehsal edilməyə başlanan yazı maşını əhali arasında “reminqton” adıyla məşhurlaşmışdı; “reminqtonistka” makinaçı qadın mənasında işlədilmişdir.

**Tabaqçılar haqqında**

səh. 60. “Olqinski, Velikoknyajeski və Nikolayevski küçədə”: Bakıda, indiki “Məhəmməd Əmin Rəsulzadə” küçəsi Rusiya imperiyası dövründə əvvəlcə “Velikoknyajeski”, sonra “Olqinski” adlanmışdır. “Nikolayevski” isə indiki “İstiqlaliyyət” küçəsidir.

**Bakı məhəllələrində könüllü təlimgahlar**

səh. 61. “bir an əvvəl”: qəzetdə “bir az əvvəl” getmişdir.

**Bakı xəbərləri**

səh. 62. “Ter-Danielyan”: qəzetdə bu soyadı təhrif edilmişdir.

**Azərbaycanda**

səh. 66. “Sara adası” (yaxud Sarı adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

**İdarəyə məktub**

səh. 67. “fabrikada yaşayan (.......) iş vaxtı mitinq qurması”: qəzetdə belə getmişdir.



*“Azərbaycan” qəzetinin 218-ci nömrəsinin 1-ci səhifəsi*





**Bazar ertəsi, 7 iyul 1919-cu il, nömrə 218**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 8 şəvvalül-mükərrəm sənə 1337. 7 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

### İNGİLİS PARÇALARI

Və həmçinin ipək və markizet külli miqdarda satılır. Kostyum üçün parçalar. Əhmədov və kompaniyasının mağazasında, Merkuryevski və Milyutinski küçələrin küncündə, Adamovun evində. Telefon nömrə 24-34.

*5405*

### Hökumət Teatrosunda
### Axşam tamaşası
### DRAMA

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli
Müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü şəvvalül-mükərrəm ayının 8-də 1337-ci sənəsi
(iyul ayının 7-də 1919-cu ildə)
bu mövsümdə ikinci dəfə olaraq
mütəntən [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
**“Ədirnə fəthi”**
Bu tamaşada müharibə zamanında
Azərbaycan hərbi musiqi orkestri
iştirakı ilə bərabər, əsgərlər vəzifəsini
“Yardım alayı” əfradı [əsgərləri]
ifa edəcəkdir.
Biletlər teatrın kassasında
satılmaqdadır. Tamaşa başlanacaq
axşam saat 8 tamamda.

1919[-cu] il iyul 7 bazar ertəsi günü saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

### QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

**Post-Teleqraf Nəzarətindən**

Əmrnamə nömrə 73

28 həziran [iyun], sənə 1334 [1919]

Qalaqayın posta və teleqrafxanası 5-ci dərəcə məmuru Rəşid bəy Səmədov həziranın 28-dən Ağcaqabul [Hacıqabul] posta və teleqrafxanasına müdir təyin edilir.

*Posta və Teleqraf naziri:*
*Camo Hacınski*
*Dəftərxana baş müdiri: Blajevski*

### TELEQRAF XƏBƏRLƏRİ

*(Bolşevik məlumatı)*

**Tsaritsının işğalı**

Tsaritsın dairəsində qızğın müharibədən sonra bizim qoşunlar Tsaritsını tərk etdilər. Şərq cəbhəsində Sterlitamak dairəsində bizim qitəatımız [hərbi hissələrimiz] Axmetovo və Bezək denilən yerləri

işğal etmişlərdir. Ufa dairəsində Milyar mövqifi [stansiyası] tərəfimizdən işğal edilmişdir. Kolodevka yaxınlığında 200 əsir və bir neçə pulemyot alınmışdır.

Peterburq – Peterburq Şurasına seçkilər başlandı. Şuraya əksəriyyətlə bolşeviklər keçirlər.

Olonets uçastokunda fin qoşunları çıxarılmışlardır. Düşmənlər həyəcan içində qaçırlar.

**"Pravda" yazır**

Müttəfiqlər Kolçakı təsdiq etdilər. Biz Kolçakı pərişan etmişik. Denikin burjuaziyanın son ümidgahıdır. Hər kəs möhkəm sülh istəyirsə, silaha sarılmalıdır.

**Bolşeviklər Tomsk altında**

N. ordusunun ştabı – Kolçak dəstəsindən qaçmış və əsir düşənlər deyirlər ki, Tomsk üzərinə bolşeviklərin partizan və könüllü dəstələri yürüş edirlər. Kolçak ordusu bolşeviklərin yerişini saxlamaq üçün Ob nəhri üzərindən keçən körpünü dağıdıb, 70 verst dəmiryolunu da təxrib [xarab] etmişlərdir.

**Vyanada üsyan**

Vyana – Həbs edilmiş olan bolşeviklər əhali tərəfindən azad edilmişlərdir. Sonra nümayişçilər qışlalara [kazarmalara] tərəf getmişlər ki, saldatları öz tərəflərinə cəlb etsinlər. Nümayiş tam axşamadək davam eyləmişdir. Bu hərəkət getdikcə vüsətlənir. Üsyançılar tərəfindən tövqif edilən [tutulan] zirehli avtomobili hökumət onlardan geri ala bilməyir.

Stokholm – İngiltərədə əmələ arasında ümumi cünbüş gündən-günə artır. Əmələ tətilindən maəda [başqa], yalnız Londonda deyil, bir çox ingilis şəhərlərində də polisin tətili gözlənir. Polis Həmkarlar İttifaqı təşkilini tələb edir. Əhvali-ümumiyyə ingilis hökuməti üçün xətərəli [təhlükəli] hesab edilir. Londondan xəbər verildiyinə görə, Kanadada Vinnipeq şəhəri idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] altında elan edilmişdir.

**Əksinqilab məhv edilməlidir**

Qəzetələr xəbər verirlər ki, əksinqilab məhv ediləcəkdir. Denikin, [Nikifor Aleksandroviç] Qriqoryev və onun tərəfdarları zəhmətkeş ukraynalıların zərbəsini hiss edəcəklərdir. Böyük mitinqdə Kiyev qarnizonu qərar qoymuşdur ki, son damcı qanlarınadək Şura hökumətini müdafiə edəcəkdirlər.

Helsinqfors [Helsinki] – Londonda ingilis əmələlərinin [fəhlələrinin] konfransında Henderson 21 iyunda ingilis, İtaliya və fransız əmələlərinin ümumi nümayiş yapacaqlarını elan etmişlərdir.

**Fransada tətil**

Paris – Tətillər başlandı. Bunların məqsədi 8 saat iş vaxtına nail olmaq, birinci zəruri şeylərin qiymətini əskiltməkdir. 300 min nəfər əmələ tətil etmişlərdir. Marseldə kömür mədənçiləri konfransında qərar qoyulmuşdur ki, hərgah iyulun 12-dək 8 saatlıq iş müddəti kömür mədənlərində də təyin edilməzsə, o zaman iyulun 16-dan etibarən tətil edəcəkdirlər. Bu gün şimalda və Pade-Kaledə kömür mədən əmələləri tətil etmişlərdir.





**Patlayış**

Brüksel [Brüssel] – Xareimdə güllə zavodunda patlayış vaqe olub, 6 nəfər ölmüş, 220 nəfər yaralanmışdır. Bunların 70 nəfərinin yarası çox ağırdır. Patıltıya yanğın səbəb olmuşdur. Xəsarət çox böyükdür. Bir çox evlər dağılıb, külli mal yanmışdır. Dünən Kilvord həbsxanasında yanğın başlamışdır. Xəsarət bir neçə milyon frankdır.

## SÜLH ƏTRAFINDA

**Almaniyada matəm**

Sülh müahidənaməsinin [sazişinin] imza edilməsi münasibətilə Berlində çıxan bir neçə qəzetələr matəm əlaməti ilə nəşr edilmişdir. Eyni mülahizə ilə Almaniya Kiçik Zabitan Heyəti İttifaqı öz üzvlərinə bu məzmunda bir məramnamə göndərmişdir:

*"Almaniya həqarətamiz sülhü imzalamağa məcbur edilmişdir və öz millətinin üzvlərini Müttəfiq millətlərə verməyə məcburdur, tainki Almaniya tamamilə məhv olmaqdan xilas olsun. Yoldaşlar, biz sizə təklif edirik ki, iki həftə matəm saxlayasınız."*

**Təsadüflər**

Paris mətbuatı yazır ki, sülh müahidənaməsinin imza edilməsi günü "Luzitaniya" paroxodunun qərq edilən gününə təsadüf eylədi. Almaniya mətbuatı isə yazır ki, biləks [əksinə] Sarayevoda Avstriya vəliəhdi [Frans] Ferdinandın qətl edilən gününə təsadüf eyləmişdir. İcra edilən bu qətl Serbiya hökumətinin fəaliyyəti ilə olmuşdur. Avstriya, Türkiyə və Almaniyanı dağıtmağa bir ittifaq yapmaq üçün bu bir əlamət idi.

**Almaniya ablukasının artırılması**

Sülh müahidənaməsinin imza edilməsi Almaniya kənarlarının ablukasını [blokadasını] təbdil etmədiyi [dəyişmədiyi] kimi, Müttəfiqlər əlində olan Almaniya əsirlərini də azad etməyir. Almaniya və Müttəfiqlər Parlamanı tərəfindən müahidənamə imzası təsdiq edildikdən sonra bu maddələrə əməl ediləcəkdir.

**İngilis əmələləri və Cəmiyyəti-Əqvam**

28 iyunda Sautportda açılmış Əmələ Konfransında – ki bu da əmələ tarixində ən əhəmiyyətli bir mövqe tutur – böylə qərar qoyulmuşdur: Müttəfiqlərdən tələb edilsin ki, Almaniya da dəxi Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil edilsin.

**Hindenburq və hərb**

Berlin – Almaniya təklifinə qarşı Müttəfiqlərin verdiyi cavablarına nə nəzərlə baxdığı barəsində Almaniya müdafiə nazirinin verdiyi sualına cavabən marşal Hindenburq demiş ki, hərgah hərəkati-hərbiyyə [hərbi hərəkat] başlanarsa, ordumun iqtidarı olacaqdır ki, Poznanı geri alsın. Fəqət qərbdə o müvəffəqiyyətə bir o qədər də ümid ola bilməyiriz. Ona görə də, hərbin Almaniya üçün müvəffəqiyyətli olacağı şübhəlidir. Amma bir saldat olduğu üçün şərəfli məğlubiyyəti həqarətli sülhə tərcih edərdi.

## QƏZETƏLƏRDƏN

**Petroqradda**

Helsinqforsdan [Helsinkidən] Paris qəzetələrinə xəbər verirlər ki, bu axır günlər Petroqradda tətillər olmuşdur. Fəhlələr əleyhinə pulemyotla çıxılmışdır. Bir çox zavodlarda şəhər təxliyə edildiyi zaman makinaların bolşeviklər tərəfindən xarab edilməsinə mümaniət [maneçilik] göstərməkdən ötrü könüllü dəstələr təşkil edilmişdir.

**Kuban Radası sədrinin qətli**

Cənubi Rus İttifaqı təşkil edilməsi işlərində iştirak etməkdən ötrü Rostova gəlmiş olan Kuban Nahiyə Radası sədri və üzvü Ryabovol Rostovda qətl edilmişdir.

**Polşada**

Nauendən xəbər verirlər ki, general [Yozef] Haller Sileziya cəbhəsi komandanı təyin edilir. Yuxarı Sileziya və Qərbi Prussiya sərhədində olan Polşa şəhərləri təxliyə üçün hazırlanırlar. Varşavadan Yuxarı Sileziyaya gedən dəmiryol sərnişin hərəkatı üçün qapalıdır. Çenstoxovda bir çox topxana hazırlanmışdır ki, general Hallerin birinci korpusuna mülhəq olacaqdır [qoşulacaqdır].

**Polşa əsgərləri**

Lodzdan hərəkət edən 7-ci Polşa əsgəri firqəsi [diviziyası] fransızların komandası altında olub, sabiq Almaniya, Polşa hərbi əsirlərindən, Polşa, İngiltərə, Amerika və fransız könüllülərindən ibarətdir. İtaliyadan gətirilmiş topxana Avstriya polyakları tərəfindən idarə olunur.

**Çin əhvalı**

Londondan xəbər verirlər ki, Çindən verilən axırıncı xəbərlər Çin əhvalının xeyli fəna olduğunu göstərirlər.

**Kürdüstanda**

Kürdüstan əhvalı haqqında Bağdaddan böylə xəbər verirlər: Şeyx Mahmud tərəfindən cəlb edilən qüvvələr Pezi keçidi yanında pərişan edilmişdir. Bir çoxları ölüb, min nəfərə qədəri əsir alınmışdır. Şeyx Mahmud özü müharibə meydanında ağır yaralı bir surətdə tapılmışdır.

## TÜRKİYƏDƏ

Türkiyədə fövqəladə tarixi bir Dövləti Şura vaqe olmuşdur. Bu Şurada Türkiyə əhalisinin hər cür sinif nümayəndələri iştirak etmişlərdir. Birinci olaraq Sultan həzrətləri nitq irad edib [söyləyib] demişdir ki, məmləkətin ağır bir vəziyyətdə olduğuna görə, biz bütün məmləkət nümayəndələrini dəvət etdik. Mən arzu edərdim ki, təcili bir surətdə məmləkətin bu ağır halı əleyhinə tədbirlər görülsün. Buna görə də, burada hazır olanların rəyini dinləmək istərdim. Allahdan bizim bu işimizdə bizə kömək istida edirəm [istəyirəm]. Şuranın sədarətini Sədri-əzəmə mühəvvəl edirəm [Baş nazirə tapşırıram].

Sultandan sonra Sədri-əzəm müfəssəl bir nitq söyləmişdir. Türkiyənin müharibəyə daxil olan gündən axırıncı vaxtlara qədər tarixi hadisələri söyləyib demişdir ki, 1919-cu il mayın 14-də İngiltərə fövqəladə komissarı amiral Vebb ona böylə bir nota vermişdir:





1. Müttəfiq dövlətlərin İzmir sularında olan donanma naçalniki vis-admiral Kaltorpun Parisdə iclas edən Ali Şuradan aldığı əmrə müvafiq və amiralın əmrinə görə sizə xəbər verirəm ki, İzmir istehkamatı Müttəfiq dövlətlərin əsgəri dəstələrinə verilməlidir.

2. Bunu xəbər verməklə ümidvar oluram ki, Türkiyə Hökuməti lazımi binagüzarlıq [sərəncam] verməyi təxirə salmaz.

3. Mütarikə şəraiti [atəşkəs şərtləri] və vücuda gələn əhval mövcibincə [vəziyyətə əsasən], bizim tərəfimizdən İzmirin işğalı üçün tədbirlər görülmüşdür. Lazımi təşəbbüsatda bulunmaq üçün sizə xəbər verirəm.

*İmza: R. Vebb*

Bu notaya cavab olaraq Sədri-əzəm mayısın 14-də axşam saat 10-da Müttəfiqlər nümayəndələrinə protesto elan və bəyan eyləmişdir ki, Osmanlı Hökuməti daha iki ay bundan əvvəl Müttəfiqlərə təklif eyləmişdi ki, İzmir vilayətinə 70 min Osmanlı əsgəri daxil edilsin. Hərgah buna əməl edilsəydi, iş bu hala müncər olmazdı [gəlib çatmazdı]. Bunun müqabilində isə 40 min nəfər mütəfərriq [dağınıq, qeyri-nizami] qoşunlar var idi. Bununla bərabər, bəyan ediriz ki, Müttəfiqlərin qətnaməsinə müxalifət etməyəcəyik. Fəqət xəbərdarlıq ediriz ki, İzmir Türkiyənin ayrılmaz bir hissəsidir. Bu yerin gərək qan və gərək etnoqrafi tarixcə Yunanıstana heç bir dəxli yoxdur. Hərgah məsələnin tarixinə keçərsək, o zaman bu maddə Bəhri-Səfid [Ağ dəniz, Aralıq dənizi] sahillərinə də şamil olmalıdır. İşə bu nəzərlə baxmaq, nəinki törəmiş olan əhvalı qarışdırar, dəxi də əhvalı müşkülləşdirər. Türkiyə müharibənin nə qədər vəxim [ağır] nəticələri olduğunu nəzərə alır. Türkiyənin hər bir yerindən İzmirin işğalına qarşı protesto teleqramları gəlir. Əhvali-ümumiyyə cəbrən [zorla] Türkiyəni vadar edir ki, Müttəfiqlərin qətnaməsinə itaət eyləsin, fəqət bu, o demək deyil ki, Türkiyə İzmirdəki haqqından keçir.

Böylə bir təhlükəli zamanda Vüzəra Şurası [Nazirlər Kabineti] məmləkətdə arası kəsilməyən həyəcana görə mayın 10-da istefa vermişdir. Onlar mayın 18-də yenə təzədən hökuməti əllərinə alıb, 1919 sənəsi mayın 22-də Fransa, İngiltərə, Amerika və İtaliya fövqəladə komissarlarına protesto notası göndərmişlərdir. (Notanın mühüm yerləri "İqdam" qəzetəsində sansür [senzura] tərəfindən çıxarılmışdır.)

Eyni zamanda Paris Konfransı Heyəti-Rəyasətinə simsiz teleqrafla böylə bir təklif göndərilmişdir:

*"Ərəbistan məsələsi müqəddəs yerlərə və xəlifə hüququna və bütün islam aləminə aid olduğundan, bu məsələ Paris Konfransının vəzifəsindən kənardır. Bütün Anadolu, Ərəbistan sərhədindən başlayıb Qara dənizə qədər, Rumeli və Frakiya Ədirnə ilə bərabər, bilavasitə sultanın təhti-hakimiyyətində [hakimiyyəti altında] olmalıdır. Əfkari-ümumiyyəni [ictimai rəyi] sakit etməkdən ötrü və mümkün ola biləcək ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün İzmirin yunan əsgərləri tərəfindən təxliyə edilməsi və yuxarıda göstərilən oblastları[n] Ermənistana geniş muxtariyyət verilmək üzrə Türkiyə Hökuməti ixtiyarında olması tələb edilir. Ancaq Sülh Konfransı tərəfindən böylə bir hərəkət əfkari-ümumiyyəni sakit edə bilər."*

**PARLAMAN ƏTRAFINDA**

Ramazan bayramı münasibətilə Parlaman sədri namına [adına] aşağıdakı təbrik teleqrafları alınmışdır:

**Gəncədən**

Bu gün bu ali təntənəli Ramazan bayramında Gəncə qarnizonu hissələri birinci dəfə olaraq öz generalları və zabitləri başda olmaq üzrə namaz qılıb, bununla bu dini bayramı milli bir təntənəyə döndərmişlərdir. Gəncədə olan bütün əsgərlər namından bizim cavan Parlamanımıza salam göndərib, uzun müddət onun davamını və nəşvü-nüma [inkişaf] etməsini səmimiyyətlə arzu edirəm. Yaşasın!

*Generel-leytenant Şıxlinski*

**Qusardan**

Quba alayı eydi-fitr [Oruc bayramı] münasibətilə Azərbaycan millətləri nümayəndələrinin sədrini təbrik edib, əziz vətənin mənfəəti üçün çalışan millət nümayəndələrinə müvəffəqiyyətlər arzu edir.

*Polkovnik [Şirin bəy] Kəsəmənski*

**Petrovskda[n]**

Sizin hamınızı bu ali Ramazan bayramı münasibətilə təbrik edirəm.

*Petrovsk agenti: Qədir Dadaşov*

* * *

İyulun 1-də Şamaxıda olan İrəvan quberniyası qaçqınları tərəfindən Parlaman sədri namına böylə bir teleqraf alınmışdır:

Biz İrəvan quberniyası qaçqınları qeyri-müəyyən bir haldayıq. 10 aydır ki, Şamaxı uyezdində Mədrəsə və Meysər kəndlərində yaşayırıq. İndiyə qədər yerlər bölünməmişdir. Əkin vaxtı yaxınlaşır, yerlər təqsim edilmədiyindən [bölünmədiyindən], iş başlamaq imkanı yoxdur. Cavanların ordu səflərinə [sıralarına] daxil olması elan edilmişdir. Cavanları əsgərliyə verməklə biz köməksiz qalarıq. Qocalar Mədrəsə və Meysər kəndləri xarabalarında bir iş görməyə qadir deyildirlər. Geniş bir dairədə və hökumət müavinət etməlidir ki, evlər təmir edilsin, yerlər əkilsin və əsgərliyə düşənlərə bir il möhlət verilsin. Ailələrimizi aclıqdan və soyuqdan təmin etdikdən sonra biz vətən müdafiəsi üçün Azərbaycan Ordusu səflərinə daxil olmağa hazırız. Qanun və azadəlik naminə bizim xahişimizin təmin edilməsini rica edirik.

*İrəvan Qaçqınları Komitəsi sədri:*
*Məşhədi Hümmət Məhəmməd oğlu*

**XARİCİ SİYASƏTİMİZ**

**- 4 -**
**İstanbul səfarəti**

Beynəlmiləl hüquq tarixi göstərir ki, bir məmləkət yaşamaq üçün özünü yaşatmalıdır və dişarıdan təsdiq gözləməməlidir. Böyləliklə, Bolqariya meydana çıxdı. Türkiyənin muxtariyyətli bir hissəsi olan bu ölkə hər yerə səfirlər və vəkillər göndərə-göndərə özünü aləmə tanıtdırdı. Biz də bu yolu tutmalıyıq.

Paris müzakirəsində davam etsin, biz də məmləkətimizin möhkəmliyinə çalışaq. Daxili nizam və islah ilə bərabər, xarici işləri də yoluna qoymalıyıq. Bu gün bizim elçilərimiz Rusiyadan ayrılan dövlətlərdən başqa qeyri yerlərdə yoxdur. Halbuki bizim istiqlal məsələsi Qərbdə müzakirə olunacaq və Qərbdə də elçilər bulundurmalı idi.

Elçi təyin olunacaq paytaxtlardan bu gün əhəmiyyəti ilə birinciliyi qazanan İstanbuldur.

İstanbul bu gün Müttəfiqlər qüvvələrinin toplandığı bir nöqtədir. Burada bütün yer üzünün mətbuat nümayəndələri mövcuddur. Burada bizdən başqa yeni təşəkkül etmiş dövlətlərin və Müttəfiq məmləkətlərin siyasi müməssilləri [nümayəndələri] də var. Deməli, aləm İstanbuldadır. Siyasi iplərin ucu, əfkari-ümumiyyənin [ictimaiyyətin] gözü, hamısı burada. Bu səbəbdəndir ki, müstəqil yaşamaq istəyən polyaklar, ukraynalılar, gürcülər və başqaları İstanbulda elçilər bulundururlar. Bunun üçün də rumlar (yunanlar), ermənilər və qeyriləri burada firəng dilində qəzetələr çıxardıb, öz milli dərdlərini ümuma bildirirlər. İstanbulda yapılan gurultular Parisə çatıb, təsirsiz olmayır. Sabiq Rusiyada yaşayan millətlər istiqlal imtahanının bir hissəsini burada Avropa qarşısında verməlidirlər. Biz hamıdan çox bağırmalıyız, özümüzü tanı[t]malı, fikrimizi tərvic etməliyiz [yaymalıyız]. Bu yoldakı müvəffəqiyyətimiz bizə milli müvəffəqiyyətlər qazandırar.

İstanbulun başqa cəhətlərdən də bizə əhəmiyyəti böyükdür. Bu gün İstanbul, Bakı mədənləri məhsulu üçün yeganə bir xarici bazardır. Bundan əvvəl Bakı nefti şimala gedirdi. Şimal indi bağlı olduğu üçün nefti bir ayrı nöqtəyə daşımalıdır. İstanbuldan başqa əlverişli bir yer yoxdur. Lakin İstanbul bazarını qazanmaq üçün orada ticarət vəkilləri bulundurmalıdır ki, bazarın övzasını [vəziyyətini] tez-tez Bakıya xəbər versin. Azərbaycan tüccarı [tacirləri] birinci dəfə İstanbula neft gətirdilər, zərər gördülər. Səbəb budur ki, məhəlli [yerli] rumlar toplanıb sindikat yapdılar və Bakı neftinin qiymətini saldılar. Halbuki İstanbulda səfarətimiz [səfirliyimiz] və konsulumuz olsa, məhəlli Azərbaycan tüccarlarından təşkilat yapıb, rum sindikatının qabağına çıxa bilərdi. Sonra ticarətimizi qüvvətləndirmək üçün İstanbulda skladlar [anbarlar] icarə edib tüccarımıza da müftə verər ki, Amerika nefti ilə rəqabət edə bilsinlər. Bizim üçün neftimizin İstanbul bazarında asanlıqla müştəri tapması birinci dövləti məsələdir. Bu məsələnin qolaylıqla həlli gələcəkdəki İstanbul elçimizdən asılı olacaqdır.

Maarif işlərimiz bir nöqtədə duran kimi görünür. Səbəb budur ki, müəllimlər azlığı hiss olunur, sonra kitab yoxluğu da görünür. Maarifi yoluna qoymaq üçün İstanbul elçimiz müəllim və müəllimələr hazırlamalıdır, kitablar çap etdirməlidir.

İstanbula göndərilən bir çox tələbələrimiz geri qayıtdılar. Səbəb bu oldu ki, orada heç bir yerdən kömək görmədilər. İstanbulda leyliyyə (pansion) açmalıdır ki, Azərbaycandan gələn tələbələrimiz istirahətlə yaşayıb təhsil edə bilsinlər. Bunlar hamısı böyük dövləti məsələlərdir. Hökumətimiz pullar təxsis etməlidir [ayırmalıdır] ki, bu işlərin hamısına əncam verilsin.

Bir millət olaraq, müstəqil bir məmləkətə malik olmaq istədikdə, bizə yazılı tariximiz su kimi zəruridir. İstanbul ki-

tabxanalarında bir neçə adamlar bulundurmaqla bizə dair böyük məlumatlar toplamaq olar.

İşlər çoxdur. Adamlar göndərməlidir, çalışmalıdır. Bunlardan başqa, təbəələrimizin [vətəndaşlarımızın] himayəsinə çalışmalıyıq. Azərbaycanın siyasi müməssili olaraq və bolşeviklik qəzasına uğrayaraq İstanbulda çox pulsuzluq müşkülatı çəkdim. Halbuki, səfarət möhürü ilə sənədlər verib pul almaq imkanı var idi. Bu imkanla genə çətinliyə düşdüm, əziyyətlər çəkdim. Halbuki, təbəələrimiz xaricdə 10 qat zəhmətlər çəkirlər. Bolşeviklikdən zərərlər görmüş böyük tüccarlarımız belə İstanbulda qalıb, çox vaxtı yol kirayəsinə möhtac olurlar. Viza müşkülatı daha da çox.

Bu məsələlərin hamısını həll etməli, təbəələrimizin istirahətini lazımınca təmin etməliyik.

*Yusif Vəzirov*

## ERMƏNİ CÜMHURİYYƏTİNDƏ MÜSƏLMANLARIN YAŞAYIŞI

"...Azərbaycandakı ermənilər də kaş ki, Ermənistandakı müsəlmanlar kimi yaşasaydılar..."

*Erməni Rəisi-vükəlası: [Aleksandr İvanoviç] Xatisov*

**- 1 -**

Erməni Cümhuriyyəti daxilində qalaraq, Novo-Bayəzid uyezdinin Göyçə gölü şərq, cənub və cənub-qərbində yaşayan müsəlman kəndliləri, vaxtilə erməni təcavüzləri müqabilinə mərdanə surətdə irz-namuslarını müdafiədə bulunmuşlardı. Sonra Erməni Cümhuriyyəti tərəfindən indiki Hərbiyyə naziri general [Movses] Silikovun komandası altında top, pulemyot dəstələri göndərilib irzlərini təcavüzçülərdən müdafiə edən məzbur [adı çəkilən] uyezdin müsəlman kəndlərini topa-pulemyota tutub, əhalisinin salamat qalanlarını yerlərindən qaçırmışlardı.

Bu zavallı əkinçilər aylar uzunu ətraf müsəlmanların ianəsi ilə ölə-qala yaşayaraq bu zamana çatmışlar. İndi bunlar ortalığı bir az asudə zənn edib öz kəndlərinə qayıtmaq üçün İrəvana gəlmişlər. Cındır paltarlar içində saralmış ac simalardan ibarət bu "süfla [səfillər] sürüsü" binəva müsəlman kəndliləri indi də aylardan bəridir ki, erməni cümhuriyyət hökuməti qapılarını öpüb, kəndlərinə, əkinləri üstünə getməyə izin hasil etmək üçün gözyaşı töküb yalvarırlar.

Bu kəndlilərdən güc-bəla ilə kəndlərinə qayıtmağa vəsiqə ala bilənləri məğmum [qəmli] sevinclə dağıdılmış kəndlərinə, pozulmuş əkinləri üstünə getməyə başlamışlardı. Fəqət bunlar az zaman sonra ağlar gözlə pərişan halda təkrar İrəvana qayıtdılar. Məgər isə, biçarələri, kəndlərini, əkinlərini sahiblənib oturan ermənilər atəşə tutub qovmuşlar və əllərində erməni hökuməti tərəfindən vəsiqə olduğu halda öz yurdlarına buraxmamışlardır.

Öz kəndlərindən məcburən geri qaytarılan bu müsəlman kəndliləri hökumətdən bəlkə bir kömək, bir çarə dilənmək ümidi ilə erməni cümhuriyyəti paytaxtı İrəvanda indi bilirmisiniz nasıl yaşayırlar? Arvad, uşaq, qoca çılpaq dilənçilik dərəcədə, yırtıqlar, əsgilər içində, acından saralmış ölü rəngində, tab-təvanadan [gücdən-qüvvətdən] düşmüş skelet şəklində...

Bu müsəlman kəndlilərindən hələ bildiklərimiz Bezni, Gümüşdü, Zar, Qoylu dağ kəndliləridir ki, şimdi İrəvanda, eynən yuxarıda ərz edilən səfalət içində can çəkişdirirlər. Həm nasıl can çəkişdirmək, bilirmisiniz? Binəvaların hallarını gözlə görməyincə inanmaq olammayır.

Erməni cümhuriyyəti paytaxtı İrəvanda bu zavallı müsəlman kəndliləri, əkinçiləri İrəvanda səfalətlər içində aclarından "qan" yeyirlər. Bunlar aclıqlarından gedib mal kəsilən yerlərdən qanları toplayıb gətirirlər, bişirib yeyirlər və sonra da azarlayıb ölürlər... Zatən ermənilərə də bu lazım ya...

Fəqət demokratlıq əsasını təməlləndirən ingilislərin, amerikanların, gözləri önündə seyr etdirilən bu fəci panoramların tamaşaçısı olduqları halda, insaflarına, mürüvvətlərinə, demokratlıqlarına, insanpərvərliklərinə, mədəniliklərinə nə deməli? Qorxuram ki, bu məqaləmiz erməni cümhuriyyəti hökuməti qulağına ərişə də, zavallı müsəlman kəndlilərini aclıqlarından qan toplamağa da buraxmaya... O zaman büsbütün ağzı quru İrəvan küçələrində aclarından ölələr...

Əvət, həqiqətən də erməni Rəisi-vükəlası [Baş naziri] Xatisov demişkən: "...Azərbaycandakı ermənilər də kaş ki, Ermənistandakı müsəlmanlar kimi yaşasaydılar..."

## BAQQALLAR TABAQÇILAR ƏLEYHİNƏ

Hələ əskidən bəridir ki, tamahkar və nainsaf Bakı şəhər baqqalları, xüsusən sayuzları [ittifaqları] o ki lazımdır biz tabaqçılar əleyhinə çalışıb, bu bahalıq zamanda əhl-əyalımızı dolandırmağa mane olurlar. Bunların fikri odur ki, şəhərin mərkəzi hesab olunan Olqinski və Nikolayevski küçədə olan tabaqçıları (nə tövr olmuş olsa) yığışdırtdırıb, yaş meyvə alış-verişini əllərinə almaqla bərabər, kefləri istədiyi qədər satıb biçarə camaatın qanını zəli kimi sorsunlar.

İştə, həman bu tamahkarlar bizim təşkilatsızlığımızdan istifadə edib Bələdiyyə İdarəsində bizim əleyhimizə çalışıb bir neçə təklifdə bulunmuşlar. Neçə illərlə Dumadan icarəyə tutub alış-veriş etdiyimiz yerləri torq (müzayidə) [hərrac] vasitəsilə istəyirlər əlimizdən alıb, bu bahalıq zamanda dolanmağımıza mane olsunlar. İştə, onlar bu işi Bələdiyyə İdarəsinə təklif etmişlər. Deyilməyə görə, Bələdiyyə İdarəsi də onların bu təklifini qəbul etmişdir. Fəqət biz buna inanmayırıq. Çünki Bələdiyyə vəkillərimiz və agentlərimiz heç vaxt bu işi bizim əleyhimizə yapammazlar. Ümidimiz bərkəmaldır [tamdır]. Fəqət onlar bunu birdəfəlik düşünüb bilməlidir ki, insaflı, vicdanlı və namuslu Azərbaycan məmurları heç vaxt haqqı nahaqqa verib, haqlı tərəfi məyus, haqsız tərəfi şad etməzlər. Ona binaən [ona görə], siz də əbəs yerə bizim əleyhimizə çalışıb artıq tamahlı olmağınızı aləmə bildirməyin. Yaxşı olardı ki, siz baqqallar öz kəsbkarlığınızda olub, qeyrilərin ruzisinə mane olmayaydınız. Siz tamahınızı az edin. Əgər etməzsəniz, yəqin bizi də müdafiə edən tapılar. Ölkəmiz dərəbəylik və köhnəxanlıq deyil.

*Məhəmmədəli Əsədullazadə*
*Tabaqçı*

*Balaca felyeton*

**XAN ELƏ BELƏ OLAR**

Tiflisdə olan İrəvan quberniyası müsəlmanlarının Həmyerlilər İttifaqına xəbər vermişlər ki, Naxçıvanı Ermənistan Hökumətinə təslim edən xanlar Ermənistana tabe olmaq istəməyən Ordubad şəhərinə bir heyət göndərib, ora camaatını da Azərbaycandan ayrılıb Ermənistana tabe olmağa dəvət edirlər. Ordubad camaatının bu xanları qəbul etmələri ilə onlara nə cavab vermələri haqqında hələ bir xəbər yoxdur.

Zarafat bir yana, bu xanların bundan başqa bir əlacı da yoxdur. Çünki, əvvəla, xan elə belə olar. Xanın bir mənası karvansaradır, yəni hər kəs gəlsə qonaq ola bilər. İkinciyə qalan yerdə, ingilis generalı Biçin Aleksandropolda erməni zabitlərinə söylədiyi nitqini adam eşidəndən sonra elə belə də eyləməlidir. İngiltərə generalı deyir ki, Azərbaycan, Gürcüstan olmayacaq, bir tək Ermənistan olacaq. Fəqət əfsus etməlidir ki, general ağa Ermənistanın sərhədlərini o məclisdə söyləməyibdir. O sərhədləri söyləsəydi, hamı arxayın olardı.

Qərəz, əhvalat belədir ki, Naxçıvanda hökumət camaatın əlində olanda xanlar baxıb gördülər ki, xeyr, iş belə getsə, onların işi xarab olacaq, adət etdikləri "malades"dən məhrum olacaqlar. Ona görə, əvvəlcə bir plov bişirib ingilis generallarından bir neçəsini qonaq eyləyiblər. O ki, lazımeyi-əhvalatdır generallara söyləyiblər. Bu qonaqlıqdan sonra da general ağalar da camaatın razılığı ilə (??) Naxçıvan uyezdini ermənilərə veriblər. İndi qalıb bir Ordubad. Xanlar eşidiblər ki, ordubadlılar öz ordubadlığına salıb tərslik eyləyirlər və qorxublar yenə təzədən bir inqilab qopsun. Ona görə, indi bir heyət göndəriblər ki, ordubadlılara nəsihət eyləsin.

Bu əhvalatı bizə xəbər verən, məktubunda yazır ki, "Görəsən, bu xanların xəyanətini tarixin hansı səhifəsində yazacaqlar?" Mən də ona kamali-cəsarətlə deyirəm ki, əvvəla xanları tarixin səhifəsində çoxdan yazıblar. İkinci budur ki, Ordubada uyezdni naçalnik təyin edilən Aşot [Məlik-Movsesyan] ilə həman xanların bir az qohumluğu var. Ona görə, Tiflisdə olan İrəvan Həmyerlilər İttifaqı bu işə çox təəccüb eyləməsin. Elə şey elə belə olar, xan da ki, var elə belə olar. Allah onları Naxçıvan uyezdinə çox görməsin. Amma, qorxuram "ölmək var, erməni hakimiyyətinə boyun əymək yoxdur" deyən inad ordubadlılar bu xanları da Aşot kimi qəbul edəcəklər.

*Zadə*

**MƏTBUAT**

Azərbaycan ilə Gürcüstan arasında əqd edilmiş [bağlanmış] olan hərbi-tədafüyi etilafnamə [hərbi müdafiə müqaviləsi] münasibətilə srağagünkü qəzetəmizdə erməni mətbuatının mütaliatından [fikirlərindən] bir nümunə göstərmişdik. Şimdi gürcü qəzetələrinin də mütaliəsini qareini-kirama [möhtərəm oxuculara] (bittərcümə) [tərcümə edərək] təqdim ediriz.

Gürcü Milli-Demokrat firqəsi naşiriəfkarı [yayın orqanı] olan "Klede" qəzetəsi Azərbaycan-Gürcüstan etilafnaməsinə





"Gürcüstan və Asiya" sərlövhəli bir məqalə təxsis edərək [ayıraraq] yazır ki:

*"1919 sənəsi iyun ayının 16-da Tiflisdə gürcü və Azərbaycan hökumətləri arasında bir ittifaq əhdnaməsi əqd edilmişdir. Bu əqdnamə böyük bir siyasi milli qələbə idi.*

*Bizim menşevik pişrovlarımız [liderlərimiz] tamam bir il zərfində erməni və rus dairələrində nəticəsiz yalvarmalardan sonra ümidlərini qeyb edərək və Denikin təhlükəsindən iztiraba düşərək, nəhayətün-nəhayə [axırdan-axıra] üzlərini islam millətlərinə çevirərək, onlara dost əli uzatmışlardır.*

*Biz həmişə bu rəydə olmuşuz ki, Rusiya təhlükəsini başımızdan dəf və Gürcüstan istiqlaliyyətini müdafiə etmək üçün Gürcüstan mütləqa qonşu müsəlman məmləkətləri ilə əlaqeyi-dostanədə bulunaraq, onların imdadına sığınmalıdır. Biz əminiz ki, Gürcüstanın yeganə vəfalı dostu ancaq Azərbaycan, Dağıstan və Çeçenistan ola bilər.*

*Bizim asiyalılıq sabiqəmiz [keçmişimiz] nə qədər acı günlərimizi xatırlatsa belə, hər halda aydındır ki, bizim ata-babalarımız Gürcüstanın xırdaca çanağını uzun əsrlər müddətində həmişə müsəlman aləminin coşqun sularında gəzdirərək, nəhayət 19-cu əsrə yetirmişlərdir. Şimdi heç kəsdən gizli deyil ki, Gürcüstanın Şah Abbaslar, Ağa Məhəmməd şahlar əli ilə dağıdılması rus hökumətinin hiyləkar siyasəti nəticəsi idi. Rusiyaya lazım idi Gürcüstana hakim olsun. Ona görədir ki, rus hökuməti Moskofda, ya Tiflisdə gürcülərə kömək, imdad vəd edib inandırdığı halda, eyni zamanda Tehranda və İstanbulda provokasiya yolu ilə türkləri və iraniləri xain gürcülər əleyhinə qızdırırdı və hər tərəfdən müharibə alovu ilə əhatə edilmiş gürcülər rus qoşunları tərəfindən kömək gözlədiyi bir zamanda müharibənin ən qızğın dəqiqələrində rus qoşunları qəflətən gürcüləri güclü düşmənlərin qabağında yalnız buraxırlardı. Uzun müddət, bilaaram [aramsız] hərbdən gücsüz düşən Gürcüstan iki tərəfə dava edə bilməyib süqut etdi. Ruslar rahatcasına Gürcüstana daxil olub, burada da müsəlmanlar üzərinə hücum edib iraniləri də, türkləri də sıxışdırdılar. Ancaq indi Cahan müharibəsi əsnasında rus kazakları dalğası bütün Kiçik Asiya təriqi [yolu] ilə Beynənnəhreynə yaxlaşdıqda müsəlmanlar anladılar ki, babalarının müstəqil Gürcüstan əleyhinə işlədikləri siyasət nə qədər xəta imiş. Və Gürcüstan kimi hail [iki şey arasında pərdə, manea təşkil edən] dövlətin yoxluğu onlar üçün nə qədər zərərli imiş.*

*Eyni zamanda gürcülərin özlərində də müəssif sabiqəni [təəssüflü keçmişi] unutmaq hissi oyanmış və rus boyunduruğundan qurtardıqda müsəlmanları yadlarına salmışlardır. Bunlar isə gürcüləri açıq ağuşla qarşılamışlardır.*

*Fəqət Rusiya inqilabı və rus bolşevikləri tərəfindən "Vahid Rusiya Cümhuriyyəti", "Vahid Rusiya cəbhəsi" kimi cahangiranə [imperialist] şüarlı sosialist fırtınası gürcü sosial-demokratların köməyi ilə gürcüləri də bu tora saldı və işi öylə qarışdırdı ki, gürcülərin təbii dostları düşmən, düşmənləri isə dost göründülər. Avropalıların Gürcüstana vürudu [gəlməsi] bu işlərin həpsinə xitam çəkdi. Rus bolşevizmi tərəfindən zəhərlənmiş hava təmizləndi. Rus şüarları və rus bayraqları*

*Gürcüstanın şimali sərhədindən o yana atıldılar və Gürcüstanın həqiqi dostları da, düşmənləri də zahir oldular [meydana çıxdılar].*

*İngilis siyasəti bizə göstərdi ki, gürcülər öz millət və milliyyətlərini müdafiə edərkən kimlərlə əl-ələ verməli imişlər. Bizdən də ziyadə hürriyyətpərvər müsəlmanlarla yaxın və sıxı əlaqədə bulunmaq, ittifaqa girişmək Gürcüstan üçün vacib oldu. Çünki böylə ittifaq sayəsində gürcülər xırda vətənimizi yer üzündən götürmək istəyən avropalılar intriqası ilə nifrət etdiyimiz slavyan cərəyanları müqabilinə möhkəm bir sədd çəkə bilərlər.*

*Bundan əlavə, tutduğumuz və boyun qaçıra bilmədiyimiz coğrafi mövqe dəxi bizi 300 milyonluq müsəlman aləmi ilə əlaqədar edir. Bunlarla bərabər, hal-hazırda uzaq Asiyadan gələn təhlükəni də biz nəzərə alır və onunla hesablaşırız. Hindistan, Əfqanıstan, Misir və İran möhkəmləşir, güclənir, mütəşəkkil bir hala gəlir və Paris Konfransı əli ilə parçalanmış, təxfif [zəiflədilmiş] və təhqir edilmiş olan Türkiyəyə kömək vəd edirlər.*

*Həyəcana gəlmiş, iztiraba düşmüş Asiya şimdi Avropaya meydan oxumağa hazırlanır. Bu cərəyanın bir qolu Qafqaziyaya sövq ediləcəkdir. O vaxt bolşevizm tərəfindən dağılmış Rusiya ilə uzun müharibədən iflasa gəlmiş Avropa bizə kömək edə biləcəklərmidir?*

*Bu səbəblərə görədir ki, gürcü milləti həmişə "Köhnə yolunu və köhnə dostunu itirmə" şüarını özlərinə rəhbər qərar vermişlərdir.*

*Gürcüstanın şimdiki hökuməti həman "köhnə dost və köhnə yoldan" uzaq gedə bilməzdi. Ona binaən [ona görə] də müşkül bir anda üzünü Asiyaya çevirərək, müsəlmanlar uzatdıqları əli tutdu. Bunu etdi və xəta işləmədi. Asiya və müsəlmanlar bir çox əsrlər müddətində Gürcüstanın mövcudiyyətini saxladılar. Amma xristian Avropa altı ay müddətində Gürcüstanın istiqlaliyyətinə təhəmmül etmək [dözmək] istəmədi."*

## AÇIQ MƏKTUB

"Səadət" idarəsinə

Möhtərəm əfəndilər!

1911-ci ilin aprel ayının 16-cı günü Bakı sakini mərhum Hacı Səməd Məhərrəm oğlu Heydərov Bakı notariusu Qureviç idarəsində heyəti-idarəsinə mənsub olduğunuz möhtərəm cəmiyyətin vəkili Ağa Əliəsgər Dadaşov ilə bir sənəd imza etmişlər. Bu sənəd ilə məzkur [deyilən] tarixdən etibarən mərhum Hacı Səməd özünün 4-cü Polis dairəsində Nijni Naqornı küçədə, 59-cu kvartalda vaqe olan [yerləşən] 116 nömrəli evini ki, 2 mərtəbə və 201 mürəbbe sajın [kvadrat sajın] yerdir, məzkur cəmiyyətə ilələbəd [həmişəlik] ianə etmişdir və bu mülkə olan bütün qanuni ixtiyarını da həman cəmiyyətə vermişdir. İndi mərhum Hacı Səmədin vərəsələri həman əmlakın guya mənim tərəfimdən qeyri-qanuni bir surətdə "Səadət" cəmiyyətinə verilməsini iddia və həman mülkün tərəfimdən məzkur vərəsələrə qaytarılmasını tələb edirlər. İş bu məqama çatmışdır ki, mənim bu mülkün "Səadət" cəmiyyəti əlində olduğunu və bunu mərhum Hacı Səməd öz xahişi ilə o cəmiyyətə 1911-ci ildə verdiyini və bu ianə surətində verilən mülkün qanuni bir sənədlə verildiyini isbat üçün göstərdiyim dəlil sənədlərə müarizlərim [qarşı tərəf] iktifa [kifayət] etməyib, hətta məni əgər bu işə bir əncam verməsəm, təhdid edirlər.

"Külli nəfsin zaiqətül-mövti" ayeyi-şərifəsi fəhvasınca [mənasına uyğun olaraq] cəmi maxələqüllah [Allahın yaratdığı hər şey] mövtü [ölümü] dərk edəcək. Lakin nahaq ölməyin də bir o qədər ləzzəti yoxdur.

Binaənileyh [ona görə], həqiqəti aşkar etmək üçün bu ianə işində mənim nə qədər əlim olduğunu elan etməyi cəmiyyət əzasından [üzvlərindən] rica edirəm.

Bəlkə mənə deyəcəklər ki, səni təhdid edirlərsə, hökumətə şaki ol [şikayət et]. Lakin mən, əvvəlcə ümum camaata şaki oluram və "Səadət" cəmiyyətinin bu barədə verdiyi cavab əlimdə olaraq lazimeyi-tədbiri görəcəyəm.

Hər halda "Səadət" cəmiyyəti vaxtında cavab verib tərəfi-müqabili sakit etməlidir.

*Ağaəli Əliyev*

## BAKI XƏBƏRLƏRİ

### Amerika və Bakı cövhəri

Amerikanın "Standart Oyl Kompani" neft sindikatının nümayəndəsi mister Tomas 12 milyon pud cövhər [kerosin] almaq müahidəsi [müqaviləsi] bağlamaqdan ötrü Azərbaycan Hökuməti ilə müzakiratda bulunmaq üçün Bakıya varid olmuşdur [gəlmişdir]. Bu barədə əhdnamə Azərbaycan Hökumətinin nümayəndəsi Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri X[udadad] b[əy] Məlikaslanov ilə mister Tomas tərəfindən bağlanıb, iyun ayının 3-də imza edilmişdir. Müahidənamə mövcibincə [müqaviləyə əsasən], Azərbaycan Hökuməti 1920 sənəsinin 31 yanvarına kimi zeyldəki [aşağıdakı] qiymətlə 100 min ton (təxminən 6 milyon pud) cövhər hazır etməlidir:

İyul, avqust və sentyabr aylarında tonu 34 dollara; oktyabr və noyabr aylarında tonu 33 yarım dollara, dekabr və yanvarda da tonu 32 dollara.

Cövhər hökumət tərəfindən paroxoda təhvil veriləndən sonra pulu Azərbaycan Hökumətinin göstərdiyi yerdə Nyu-York, Roma, London və yainki Parisin valyutası ilə veriləcəkdir. Verilən pullardan hər dəfə 10 faiz saxlanacaqdır ki, müahidənaməyə əməl olunmasa, Amerika sindikatının malı hesab olunur. Vaxt bitəndən sonra "Standart Oyl Kompani" 33 dollardan bir də 100 min ton cövhər almağa razıdır. Bu şərtlə, indiki müahidənaməyə əməl olunsun.

Və iyulun 15-dən etibarən cövhər trubalarla verilməyə başlanacaqdır.

### Mərkəzi Əxzi-Əsgər İdarəsi

26 may qanunu mövcibincə [qanununa əsasən] Maliyyə Nəzarəti Mərkəzi Əxzi-Əsgər İdarəsinə öz nümayəndəsini göndərmişdir. Nümayəndə Kazyonnı Palata [Xəzinə Palatası] müdiri Y. F. Zire və ona namizəd Kazyonnı Palatanın birinci şöbəsi naçalniki L. K. Beze təyin olunmuşdur.

### Camaat işləri təşkili

Bakı şəhər Bələdiyyə İdarəsi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən [Sosial Təminat Nazirliyinə müraciət

edərək] bəyan eyləmişdir ki, hökumət tərəfindən faizsiz və uzun müddətlə borc verilməsi şərti ilə Bələdiyyə İdarəsi işsizlər üçün iş düzəltməyi təhti-qərara almışdır.

Birinci növbədə bu işlər görüləcəkdir:

1) Qəssabxanalara yol yapılması;

2) Şəhər küçələrinin təmiri;

3) Dəniz kənarlarında daş sədlər tikilməsi və lazım yerlərin dəniz sahilində doldurulması.

İkinci növbədə:

1) Verxni-Priyutski küçədəki məktəb imarətini itmam etmək [tamamlamaq];

2) Ağamusa Nağıyev namına [adına] olan xəstəxananı tikib qurtarmaq;

3) Sihhiyyə arabaları üçün bina tikmək.

**Müəllimlərin məvacibini artırmaq**

Maarif Nəzarəti Bakı Bələdiyyə İdarəsinə müraciətən rica etmişdir ki, müəllimlərin məvacibini artırmaq məsələsini Duma müzakirəsinə təqdim etsin. Zira kənd müəllimləri 1600 manat aldıqları halda, şəhər müəllimləri bu vaxta kimi 1075 manat almaqdadırlar.

**Ticarət və Sənaət İttifaqında**

Hökumət valyutasının kursu enmək münasibətilə Əhmədzadə Yusif əfəndinin sədarəti altında Bakı Ticarət və Sənaət [Sənaye] İttifaqının 27 iyunda ümumi iclası vaqe olmuşdur. Bonun qarşısını almaq üçün bu tədbirlər münasib görünmüşdür:

1) Hər növ malın azadəliklə çıxarılıb və gətirilməsi;

2) Müəyyən təminat ilə əsl pulları işlətməyə başlamaq;

3) Bon çap olunması dayandırılsın;

4) Hökumət məxaricinin ödənilməsi üçün daxili istiqraz kimi başqa yollar aransın.

Nəticədə Voyeykov tərəfindən təklif olunan böylə bir formula qəbul olunmuşdur:

*"Mal mübadiləsi məsələsini ancaq azadə ticarət həll edə biləcəyini nəzərə alaraq, İttifaq lazım bilir ki, izin vermək qaydası hər növ mal olur-olsun gətirilmək və çıxarılmaq əleyhinə olan mümaniətlər rəf olunsun [manеələr aradan qaldırılsın]. Ancaq birinci zəruri şeylərə bəzi hüdud qoymaq mümkündür."*

Son cümlədən başqa təklifi 7 səs əleyhinə 28 səslə qəbul etmişdir.

**Qradonaçalstvada**

Bakı Qradonaçalstva İdarəsi şəhərin xarici, təhərri [axtarış] və siyasi polis idarələrinin daireyi-fəaliyyətini müəyyən etmək üçün xüsusi bir layihə düzəltməklə məşğuldur. Layihə bu günlərdə mətbuatda təfsilatı ilə elan olunacaqdır.

**Qubernator idarəsində**

- Sudur kəndinin yüzbaşısı Qayıtmaz İsmayıl oğlu ilə Dostavər kəndinin yüzbaşısı Hakim Atlıxan oğlu və eyni qəryənin [kəndin] ağsaqqalları Rəşid Rəşid oğlu, Hacı Qədir Əsgər oğlu, Əli əfəndi Əlirza oğlu, Məsum Ustar oğlu və Yarəli Sultan oğlu qəsdən əsgərliyə düşən cavanları gizlətdikləri haqqında Mərkəzi Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsi məlumat almış olduğundan, Bakı qubernatorunun əmri ilə zikr olunan şəxslər birər





ay müddətinə həbs edilirlər.

- Konstantin Qriqoryeviç Tornikov icazəsiz silah gəzdirdiyindən, qubernatorun əmri ilə 200 manat cərimə olunmuşdur.

**Bolşeviklərin həbsi**

Cavad uyezdinin Qoltuq dairəsi qaraqolları tərəfindən 29 həziranda [iyunda] Lənkəran bolşeviklərinə köməyə gedən 11 nəfər rus həbs edilmişdir. Həbs olanlardan bir çox sənəd dəxi tapılmışdır.

**Birjada**

"Laj" [qiymət artımı] kursu bərkinməkdədir. Kerenski minliklər 1500 manata alınır. Xırdası ancaq 20 faizə işlənir. Təzə Nikolay yüzlüyü 350 manata, köhnələrlə maraqlanan yoxdur. Xırda Nikolay pullarının 100 manatı 220 manata gedir. Zaqafqaziya bonnası 4 %.

Valyutada bir dəyişiklik yoxdur. İranda manatın qiyməti artmaqdadır. Bu münasibətlə bon ilə 1000 manata 70-75 qran verirlər. Kerenski minliklər 145-150 qrana alınır. 250-lik 115 qrana, xırdalar 80-82 qrana, böyük Nikolay pulları 340-360 qrana, xırdalar 150-200 qrana, qızıl Osmanlı lirəsi 34-35 qrana.

Satıcılar: Şəkər (pesokun) qiyməti düşməkdə davam edir, pudu indi 750 manatadır.

**Rostova birinci posta qatarı**

İyulun 4-də saat 2-də Rostova Bakıdan birinci dəfə posta qatarı hərəkət etmişdir. Qatar Dərbənddə durub o vaxta kimi gəlmiş olan 3 nömrəli qatarla dəyişəcəkdir. O isə Dərbənddən Rostova kimi durmaqsızın hərəkət edəcəkdir.

**BAKIDA YAŞAYAN LƏNKƏRANLILARIN ÜMUMİ İCLASI**

İclas iyul ayının 4-də Birinci Realnı məktəbin salonunda vaqe olub, sədrliyə Ağa xan Talışxanlı, katibliyə Xudaverdi Kələntərli intixab olunurlar [seçilirlər].

Sədr Lənkəran haqqında müfəssəl məlumat verərək şəhərin hazırdakı vəziyyətini təsvirlə deyir ki:

– Mən əvvəldə Lənkəran bolşeviklərini həqiqi bolşevik bilib, onları doğruçu füqərayi-kasıbə tərəfdarı ədd [hesab] edirdim. Fəqət böylə deyilmiş. Onlar həmişə öz mənfəətlərini nəzərə alıb islamiyyət əleyhində olaraq, daima bizlərin ziddinə çalışmaqdadırlar. Binaənileyh [ona görə], onların maska altında işləmələri aşkar olduqda, bizlər də Bakıdakı islam qardaşlarımızla birləşmək arzusu ilə kəndimizi Azərbaycana ilhaq etmək [birləşdirmək] fikrinə düşdüksə də, fəqət müvəffəqiyyət qazana bilmədik. Zira, bolşeviklər bizlərə mane olub, bizləri təhdid və təqib etməyə başladılar. Onlar bolşevizma tərəfdarı deyil, bəlkə Denikin tərəfdarlarıdırlar ki, onun oraya gəlməsini dördgözlə gözləyirlər. Əgər böylə olmasaydı, bizlərin hüququna bunca təcavüzlə, bizləri fərara məcbur etməzdilər. Şimdi, bizim buraya toplaşmağımızdan məqsəd bir heyət intixab etməkdir ki, həmin heyət o təhlükə içərisində ataş daxilində qalmış vətənimizi vərteyi-fəlakətdən [fəlakət girdabından] azad etmək uğrunda hökumət dairələrində təşəbbüsatda bulunsun. Mən Parlamanda Lənkəran vəkili olan [Axundzadə] Hacı Səlim cənablarından rica edərdim ki, hö-

kumət qarşısında Lənkəran haqqında nə kimi təşəbbüsat göstərmişdir, bizlərə izahat versinlər.

Hacı Məhəmməd Qurbanzadə Lənkəran övzasını [vəziyyətini] təsvir edərək deyir ki:

– Bu saat bizə tövzihat [izahat, açıqlama] lazım deyildir. Vətənimiz atəş içərisində yanmaqdadır. Biz başqa söhbətləri bir kənara atıb, ancaq təcili surətdə vətənimizin təxlisi [xilası] haqqında tədabir ittixaz etməliyik [tədbirlər görməliyik].

[Axundzadə] Hacı Molla Səlim fövqəlzikr [yuxarıda adı çəkilən] natiqlərə cavab olaraq deyir ki:

– Həzərat! Məqam mühüm olduğundan, mən də müfəssəl izahatı münasibihal bilməyirəm. Fəqət məlumunuz olsun ki, mən Lənkəran haqqında bir an olsa da qəflət etməyib, lazımi təşəbbüsatda bulunmuşam. Hökumətimiz də bizlərə yardım etməkdən imtina etməyib hər vasitə ilə çalışır.

Xudaverdi Kələntərli hökumətin vəd etdiyi zamanı gözləməyib, lazımi hökumət dairələrində təşəbbüsatda bulunub, hökumətin təcili binagüzarlığını [sərəncamını] istəməyi haziruna [orada olanlara] təklif edib deyir ki:

– Biz vaxt gözləməyə başlasaq, o zaman düşmən fürsətdən istifadə edib qüvvələnəcəkdir. Bizə lazımdır ki, o meydani-mübarizədə vuruşan müsəlman qardaşlarımıza təcili kömək göndərək. Zira, onlar bizlərdən imdad bəkləyirlər. Camaat talandı, irz-namus əldən getdi. Bununla belə, hələ də bizləri gözləməyə məcbur edirlər. Həzərat, biliniz ki, gözləmək vaxtı keçdi! Bu gün vətənini sevən qeyrətli kişilərimiz, cavanlarımız əlinə silah alıb vətən imdadına getməlidirlər.

Əli bəy Bəylərbəyli deyir ki:

– Burada əsgərlikdən danışıldı, məlum olsun ki, biz cavanlar vətənimizi zalım xunxarlar [qaniçənlər] əlindən azad etməyə hazırız və heç bir vaxt da əsgərlikdən zərrəcə xof etməyiriz. Yenə də deyirəm ki, bizim hamımız başımızla, canımızla öz hüququmuzu, irz-namusumuzu, heysiyyətimizi müdafiə etməyə hazırız.

Axund Yusif əfəndi təklif edir ki, hökumətlə rabitə, əsgəri təşkilati, müxabirat [xəbərləşmə] işləri dəxi həmin heyətə vagüzar olunsun [tapşırılsın]. İşbu təklif filməclis [məclisdə] qəbul olunduqda heyət üç komisyona təqsim olunur [bölünür].

Hökumətlə rabitə komisyonuna:
1) Teymur bəy Bayraməlibəyli;
2) Xanoğlan Talışinski;
3) Hacı Məhəmməd Qurbanzadə;
4) Baxış bəy [Rüstəmbəyov].

Təşkilat komisyonuna:
1) Əli bəy Bəylərbəyov;
2) İsgəndər xan Talışxanov;
3) Kərim Kərimov;
4) Əli Əsədullayev;
5) Rza Şabanov.

Müxabirat komisyonunun intixabı [seçkisi] fövqəlzikr əşxasa mühəvvəl olunur [yuxarıda adı çəkilən şəxslərə tapşırılır].

Bədəhu [sonra] könüllülər qeyd olunduqda filməclis 35 adam özünü könüllü yazdırır. Şayani-qeyd [qeyd edilməyə layiq] burasıdır ki, könüllü yazılanlar cümləsində Parlaman əzasından [üzvlərindən] 60 yaşında müəllimlər kimi, bir çoxları var ki, əsgərlik nə yaşına yaraşar, nə də mənsəbinə.

*Müəllim*





## TƏLƏBƏLƏR İCLASI

İyulun 5-də Məclisi-Məbusan salonunda Məsai [Əmək] naziri Aslan bəy Səfikürdlü həzrətlərinin təşəbbüsatı ilə Bakıda yaşayan ümum türk tələbələrinin iclası iniqad etmişdi [baş tutmuşdu]. İclasda 100-dən ziyadə türk tələbəsi iştirak edirdi ki, işbu hal birinci dəfə görülürdü.

Nazir həzrətləri məclisi açaraq Bakıda güşad olacaq darülfünun [açılacaq universitet] barəsində məlumat verərək, bu darülfünunun türk tələbələrindən ötrü xüsusən, bütün Azərbaycandan ötrü filcümlə [ümumiyyətlə] mənfəətsiz bir şey olduğunu aydın dəlillərlə sübut edərək, bütün türk tələbələrinin müvəqqəti olaraq Avropaya gedib təhsil etmələrinin xeyirli olduğunu qeyd etdilər:

*Hökumətin qətnaməsinə görə, Azərbaycan paytaxtı Bakıda bir Azərbaycan Darülfünunu açılmalıdır. Bundan ötrü smeta hazırlanıb, bir sənəlik 10 milyon məxaric göstərilmişdir. Xüsusi komisyon təşkil edilmişdir ki, darülfünun layihəsi tərtiblə məşğuldur. Aldığımız məlumatimövsuqəyə [etibarlı məlumata] görə iki şöbə açılacaqmış: Biri Tibbi, digəri Tarix və Ədəbiyyat şöbəsi.*

*Tibbi şöbəsinə elmi cəhətindən, təbii ki, bir söz deniləmməz. Fəqət yenə bir çox tərəfləri mövcuddur ki, Azərbaycantürk tələbələrini kifayətləndirməyəcəkdir. Layiqli professorların yoxluğu, lazımi vəsaitin əldə edilə bilməyəcəyi və qeyrə.*

*Tarix və Ədəbiyyat şöbəsinə gəldikdə, burası qayət gülünc, hətta bir dərəcə acınacaq bir məsələdir.*

*Əcəba, bu şöbə türk tələbələri üçünmü? Əlbəttə, xayır. Zira, böylə olacaq olardısa, o vaxt Türkiyə, Misir və yaxud başqa yerlərdən türk professorları dəvət edilməli idi. Halbuki, böylə deyildir. Burada rus professorları rusca tarix və ədəbiyyata dair mühazirələr oxuyacaqlarmış. Deməli, yenə əski hamam, əski tas. Biz yenidən rus məktəbinə dönürüz.*

*Hal-hazırda bütün Azərbaycan daxilindəki məktəblər milliləşdirilmək üzrədir. Gələcək tədrisat sənəsindən etibarən Realnı məktəbinin 3-cü şöbələri də milliləşdirilir. Dörd sənədən sonra bu məktəblərdən türkcə təhsil etmiş tələbələr buraxılacaqdır. Həman güşadı ehtimal edilən [açılması nəzərdə tutulan] darülfünuna daxil olmaq üçün bu tələbələr yenidən rus lisanını öyrənməli, darülfünuna daxil olub rusca təhsil etməli imişlər. Doğrudan da gülünc bir vəziyyət!*

*Gürcüstanda darülfünun açılmışdır. Ermənistanda darülfünun güşad edilir. Fəqət Gürcüstanda gürcü darülfünunu, Ermənistanda isə Ermənistan darülfünunu açılır. Azərbaycanda isə rus darülfünunu?!*

*Ərəblərdə bir məsəl vardır: Bir adamı tanımaq istəsən, onun dostunu dinlə.*

*İştə, bizdə bizim "darülfünunumuzun" dostları kimdir? "Yedinaya Rossiya" və xalqının ayılması haqqında paytaxtımızda hər iki gündə bir dəfə leksiya oxuyan "cənablar".*

*Digər cəhətdən, bütün Azərbaycan daxilində, hal-hazırda 300-dən ziyadə türk tələbəsi yoxdur. Bunlardan Tibbi şöbəsinə ən artığı 25 tələbə gedə bilər. 275 nəfəri isə yenə kənarda qalacaqdırlar. Zira, Tarix və Ədəbiyyat şöbəsinə daxil olammazlar.*

*Böylə olduqda, millətin 10 milyonluq*

*bir məbləği nərəyə sərf olunacaq əcəba?!*

*Halbuki, 10 milyonun 4-də 3 hissəsi sərf edilərsə, bütün tələbələrimiz Avropada bir sənə təhsil edəcəklərdir. Avropa təhsilindən alına biləcək mənfəət nə qədər az olsa belə, buradakı "darülfünun" təhsilindən dəfələrlə artıq olacaqdır.*

*Avropa təhsilinin başqa-başqa siyasi əhəmiyyətləri vardır. Məsələn, bu vaxtadək Qafqaziyanın fəqət [sadəcə] bir erməni ölkəsi olduğunu bilən Avropaya azərbaycanlı türklərin vücudunu da canlı sübutlarla göstərmək və bu kimi çox məsələlər... Heç olmasa, Avropadan qayıdan tələbələr bir lisan öyrənə biləcəklərdir. Ən başlıca ehtiyaclarımızdan biridir.*

*Söz yox, mədəni bir ölkənin darülfünunu olmalıdır. Fəqət, öz darülfününu olmalıdır, halbuki, buradakı çolaq "darülfünun" bizimki deyildir.*

*Hərgah həqiqətən, bizə Tarix-Ədəbiyyat şöbəsi lazımdır, Türkiyədə başqa professorlar olmasa belə, tarix və ədəbiyyatçılar qayət çoxdur. Belə ki, böylə şöbə açılarsa, ona kifayət edə biləcəkdir.*

İclasda nazir həzrətlərinin nitqindən sonra Qazıbəyov sədr, Hənəfi Zeynallı katibliyə intixab edilərək məsələnin müzakirəsinə başlanıldı.

Tələbə natiqlər bir ağızdan bu "darülfünun"un türk tələbələri deyil, başqaları üçün güşadını qeydlə, Avropa mənafeyini təsvir edirdilər. Tələbələrdən Əli Yusifzadə yoldaşımızın, "Doğrudur, vətənin öylə halı olur ki, bütün işləri buraxıb sipərlərə girmək icab edir. Fəqət, yoldaşlar, bu gün Avropadan möhkəm siplərlər, Avropa darülfünunundan itminanlı [etibarlı] tranşeyalar [səngərlər] olammaz" deməsi ümum tələbələr tərəfindən təsvib [bəyənilir] və təqdir edilirdi.

Natiqlərdən sonra, ümumiyyətlə Məsai naziri həzrətlərinə təşəkkür bəyanı ilə Məclisi-Məbusan və Hökumət nəzdində Bakı Darülfünununun müvəqqəti olaraq güşadını təxirlə, türk tələbələrinin Avropaya göndərilmələri haqqında ciddi iqdamatda bulunmağa [addımlar atmağa] dair təşəbbüsat üçün Tələbələr Komitəsinə düsturüləməllər [təlimatlar] verildi.

*Ayn. Ayn.*

**İdarədən**: Darülfünun tələbələrinin buyurduqları kimi, "Azərbaycan Darülfünunu" olmaq üzrə Türkiyə, Misir, ya başqa məmləkətlərdən dəvət olunmuş professorların idarəsi ilə açılsaydı, tələbələrimiz onların dilini başa düşəcəklərmiydi? Yaxud o vaxt da "Bu türk, ya Misir darülfünunudur" deyə yenə Avropanı arzu etməyəcəklərmiydi? Bizcə, tələbələr məsələni bir qədər geniş ölçüdə götürüb nəzəri-tənqiddən keçirsəydilər, bəlkə başqa bir qərara gələrdilər.

## AZƏRBAYCANDA

**Gəncədən**

- Gəncə qəzasının ən narahat hissələrindən birisi indiyə qədər 3-cü uçastok idi.

Burada əski və yeni bir çox qaçaq dəstələri meydana gəlmişdir. Bunların başçıları Qatır Məmməd, Məşhədi Göyüş, Sarı Hüseyn, Rüstəm, Məşhədi Kərim uşağı, məşhur Tat oğlu Həsən quldur olub qaçana qədər hökumətin əlinə-ayağına dolaşmayırlardı. Ancaq son zamanlarda Həsənin ifsadı [fitnə-fəsad salması] ilə bunlar biri-biri ilə görüşüb hökumətə qarşı çıxışlarda bulunub, əhalinin rahatını pozurlardı.

Bu yaxınlarda fərari bir əsgər üçün həman yerə gedən bir zabiti onlar şəhid etdilər. Mərhum Vəkilovdan sonra hökumətin qəti bir tədbirini görməyən qaçaqlar daha da şımardılar [qudurdular]. Başçılarının təhriki ilə onu-bunu öldürməyə qərar qoydular. Vurulan şəxslərdən birisi də Quşbaz oğlu Hacı Həsən oldu. Hökumət bu məsələni sülhən həll etmək istədikcə, onlar ayaqlarını yuxarıkı nərdivana qoyub hökumətlə istehza etməyə qalxışdılar.

Buranın köylərindən Şadılı, Borsunlu və sairə xalqı qaçaqlara hər dürlü müavinətdə bulunduqları halda, hökumətə də şikayətlərdə bulunurlar. Buna binaən [buna görə], Gəncə valisi [Xudadad bəy] Rəfibəylinin əmri ilə qaçaqların üzərinə ramazan axırlarında əsgəri cəza dəstəsi göndərildi. Əsgər onların üzərinə getdiyi vaxt arxada qalan ağırlıq dəstəsinə hücum edib beş əsgəri əsir götürdülər. Bunun üzərinə iş ciddi bir şəklə girdi. Əsgəri dəstə bunları qovub Şadılı köyünə qədər götürdü. Orada bunlar 100-ü mütəcaviz [100-dən artıq] qüvvətlərlə əsgərlə müsadiməyə [toqquşmaya] başlayırlarsa da, müqavimət edəmməyib, köyü boşaldıb dağa çıxırlar. Böyləliklə, Şadılı köyü ağırca bir cəzaya uğrayıb, quldurlardan 10-a qədər kişi ölüb yaralanır. Böyləcə həman köylər bir müddət daha əsgərləri saxlamağa məhkumdurlar. Hökumətin bu qəti tədbiri bütün vilayətin nadinclərinə təsir yapmışdır.

Aldığım məlumata görə, bu işlərdə "şəriət istəriz"lərin də barmağı vardır. Bunlardan iki başçıları hələlik müttəhimdirlər. Böylə zatlardan Borsunlu Hacı Həsəndən əsgəri şeylər tələb edilməkdədir. Hökumətin bu işi gözəlcə təhqiq edib, nəticəsini əfkari-ümumiyyəyə [ictimaiyyətə] məlum edəcəyini bəkləyiriz.

Tat oğlu Həsənin Gəncədə bulunan əmlakının zəbt ediləcəyini xəbər aldıq. Yerində işlənən bu tədbir pək haqlı olduğundan, kimsənin deyəcəyi yoxdur. İstiqlalımıza toxunan hər bir təşəbbüs böylə cansız buraxılmalıdır.

* * *

- Bu gün, təmmuzun [iyulun] ikisində Gəncə qəza Maarif Müfəttişliyi tərəfindən müəllimlərə məxsus iki aylıq kurslar açıldı. Güşad [açılış] mərasimində Parlaman rəisi doktor [Həsən bəy] Ağayev, Parlaman üzvü [Arşak] Malxazov, sabiq şeyxülislam [Axund Məhəmməd] Pişnamazzadə həzrətləri ilə sair firqə və ittifaqların nümayəndələri isbati-vücud [iştirak] etdilər.

Şeyxülislam əfəndinin duasından sonra Parlaman rəisi, Malxazov, Mirzə Abbas Abbaszadə, Müəllimlər İttifaqının nümayəndəsi [Mirzə Cəfər] Əsgərzadə tərəflərindən təbrik nitqləri söylənildi.

Bu nitqlərdən sonra Sənətkarlar İttifaqı sədri Məşhədi Yusif [Qazıxanov] söylədi. Maarif müfəttişi bunların həpsinə cavab verməklə "xoş gəldiniz" söylədi. Kursa davam edəcək müəllimlər tərəfindən Maarif Nəzarətinə teleqraf çəkildi.

Hər kəsdə olan şövq və həvəs insana dadlı bir təsir verirdi. 3 təmmuzdan etibarən dərslərə şüru ediləcəyini [başlanacağını] xəbər aldıq.

* * *

- Keçən il mayısın sonlarında Gəncədə ermənilər tərəfindən səkkiz Osmanlı əsgəri şəhid edilmişdi. Gəncə xalqı bu şəhidləri böyük camenin önündəki Xalq bağında dəfn etdi və o zamandan camaat arasında bunların üzərində bir nişangah yapmağa təşəbbüs edilməsi üçün müzakirələr oldusa da, indiyə qədər bir nəticə əldə edilmədi. Ancaq bu günlərdə Gəncə Sənətkarlar İttifaqı bu xeyirli işə ciddi bir surətdə girişib, Gəncədə bulunan bütün siyasi cəmiyyətlərin və ittifaqların iştirakı ilə bir iclas dəvət etdi. Məsələ müzakirə edilib, həman işə başlanılması təhti-qərara alındı. Bunun üçün yeddi kişidən ibarət bir komisyon seçildi: “Müsavat”dan Əsgərzadə Mirzə Cəfər, Müəllimlər İttifaqından Mirzə Abbas [Abbaszadə], “İttihad”dan doktor Ağalar bəy Səfikürdlü, Cəmiyyəti-Xeyriyyə tərəfindən Hacı Ələkbər Hacızadə, sənətkarlardan Heydərzadə, sosialistlərdən İsrafil Atakişiyev, bələdiyyədən Ələsgər bəy Xasməhəmmədov. Və həman gündən etibarən Komisyon işə başlamışdır. Gəncə Sənətkarlar İttifaqının bu xeyirli təşəbbüsünü ürəkdən alqışlayıb, müvəffəqiyyət arzu eyləriz.

**Salyandan**

- Məlum olduğu vəch üzrə, Salyan müəllimləri tərəfindən “Salyan və Ətraf Müəllimlər İttifaqı” namında bir ittifaq vücuda gətirilmişdir. Bu ittifaqın hələlik məqsədi Salyan soqaqlarında [küçələrində] səfil gəzərək müəssif [təəssüflü, acınacaqlı] bir həyat daxilində imrari-həyat eyləyən [ömür sürən] islam-türk çocuqlarını bir yerə toplayaraq tərbiyə etməkdir.

İşbu təmmuz ayının 1-də, klub salonunda həvəskarlar iştirakı ilə İttifaqın nəfinə [xeyrinə] olmaq üzrə M[ahmud] Mahmudovun 4 pərdədən ibarət “Xəyanətkar” nam [adlı] faciəsi və [Mirmahmud] Kazımovskinin bir pərdəli “Nə qanır, nə qandırır” adlı məzhəkəsi mövqeyi-tamaşaya qonuldu. O gecə salonumuz tamaşaçılarla xıncaxınc [ağzınacan] dolmuşdu.

Pərdə açıldıqda “Bu vətən əcdadımızın yatacaq yeridir” şərqisi oxunub, sonra Azərbaycan istiqlaliyyəti və onun əsbabi-təşəkkülü bablarında [yaradılması səbəbləri haqqında] və şimdiki hakimiyyət və istiqlaliyyətimizi yalnız məktəb və maariflə mühafizə edə biləcəyimiz, maarifi olmayan bir millətin ölümə məhkum olacağı xüsuslarında bir nitq irad edilmişdir. Bədəhu [sonra], cavan müəllimlərimizdən Əliağa Zeynalov əfəndinin skripka çalması ilə səhnədə “Azərbaycan şərqisi” oxundu. Şərqi bitdikdə sürəkli alqışlarla qarşılandı.

Hasilati-ümumiyyə [ümumi gəlir] 3925 manat 50 qəpik, məsarifat [xərclər] 1127 manat, xalis varidat 2798 manat olmuşdur.

- Məlum olduğu üzrə Lənkəran və ətrafında bolşeviklərlə muğanlıların müharibəsi getdiyindən, istər müslüm [müsəlman], istər qeyri-müslüm hər gün Salyana qaçqınlardır ki gəlir. Qeyri-müslüm qaçqınların ifadatlarına nəzərən [ifadələrinə görə], onlar bolşeviklərdən qaçırmışlar. Ancaq qaçqınlar miyanında [arasında] heç bir nəfər də olsun qadın yoxdur. Bu xüsuslarda məlumati-mövsuqəyə hənuz dəstrəs olmadığımızdan [etibarlı məlumat hələlik əlimizdə olmadığından], bu babda gələcək nömrələrdə.





- Bu günlərdə həmiyyətpərvəranımızdan Kərbəlayı Rəşid Kərimov cənabları Salyanda bulunan füqəranı, acları kəndi xanəsinə dəvət edərək, külliyyətli surətdə xərclərlə böyük ehsanat vermişdir. Bundan əlavə, ilin şimdiki ağır bir mövsümündə bir çox fəqir külfətlərin para cəhətindən həyatlarını təmin etdiyindən, mumaileyh [haqqında danışılan] Kərimov cənablarına ərzi-təşəkkür edirəm.

*[Rüstəm] İskəndərzadə*

**BİZƏ YAZIRLAR**

**Aşqabadda Azərbaycan səfarəti**

Sevgili vətənimiz Azərbaycan istiqlaliyyət elan etdikdən sonra, şübhəsiz Mavərayi-Bəhri-Xəzərdə [Zakaspiyskdə] səfarətimiz vacibat qəbilindənədd [hesab] olunurdu. Fəqət təyin olan səfir hökumətimizin heysiyyəti-şanını və millətimizin hüququnu gərəksə siyasətcə, gərəksə ticarət və sair nöqteyi-nəzərdən nə dərəcə müdafiə edəcək və xüsusən bu cənabın kim olacağı əhli-təfəkkürü [düşüncəli adamları] düşündürürdü.

Odur ki, may ayında möhtərəm “Azərbaycan” qəzetəsində cənab Əkbər ağa Sadıqovun buraya konsul təyin olunduğunu oxuduqda, bu cənabın gəlməyini Azərbaycan vətəndaşları dördgözlə gözləyirdilər.

Lakin hənuz konsulumuz buraya varid olmamış [gəlib çatmamış], bolşeviklər Kaspi Hökumətinin əsgərlərinə müvəqqəti qələbə edib, Bayraməli stansiyasından Qəhqəhə mövqifinə [stansiyasına] qədər geri oturmağa məcbur etdilər ki, bu da 100 verstə kimi bir məsafədir. Övzayi-hərb [hərbi vəziyyət] böylə olduqda, yerli hökumət ümumi səfərbərlik elan edib Azərbaycan vətəndaşlarımızı da, “rus təbəəsi” cümləsindən hesabla qəti surətdə əsgərliyə təklif və imtina edənlərə böyük cəzalar hökm etdi. Odur ki, həmvətənlərimizə böyük yəs [hüzün], kədər və pərişanlıq üz verdi. Çünki gözəlcə surətdə bilirdilər, laəlac [əlacsız], bunlar “rus təbəəsi” sifəti ilə bolşeviklərin müqabilinə müharibəyə getməlidirlər. Odur ki, kimi Məşhəd, kimi Kürdüstana və kimisi Məhəmmədabada getmək, doğrusu fərar etmək əzmində sabit oldular və çoxları da getdilər. Fəqət neçə min candan ibarət camaatın qaçqın olub, əhl-əyalı ilə əcnəbi yerlərə getmələri, yaxud pənah gətirmələri asandırmı?

İş böyləykən, Cənabi-Haqqa şükürlər olsun ki, konsulumuz varid olub da, bilatəxir [dərhal] Kaspi Hökuməti ilə məsələni həll etdi. Böylə ki, varid olduqdan üç gün sonra camaatı məscidə ehzar edib [çağırıb], Azərbaycan türkünə yaraşan fəsih [səlis] nitqindən sonra, yerli hökumətin qərardadını və yəni Azərbaycan vətəndaşlarının əsgərliyə alına bilməyəcəyini, nəinki əsgərliyə, bəlkə cəbri zəhməti [məcburi iş] deyilən bir para xidmətlərdən azad etdiyini buyurdular.

Bu xəbəri eşidən vətəndaşlarımızın əksəri dəhşətli girdabdan sahili-nicata çıxmışlar kimi, röya kimi zənn edirdilər. Məsciddə yerli ruhani milliyyətimizə, əsgərlərimizə, Parlaman və hökumətimizə duaxan [duaçı] olduqdan sonra, konsul cənabları həman gündən istirahətsiz camaata pasport verməyə şüru etdilər

[başladı]. Odur ki, səfarətin müqabilində [səfirliyin qabağında] Teymurlardan yadigar qalmış və aylı-ulduzlu bayrağımız sayəsində [kölgəsində] "Yaşasın Azərbaycan!", "Yaşasın Parlaman!", "Yaşasın konsulumuz!" sədaları asimana bülənd olurdu [göyə ucalırdı].

Həman gündən cənab konsul Krasnovodska agent təyin edərək orada vətəndaşlarımızı müdafiə etməkdədir. Sonra camaatın əksəri Firuzədə olduğuna görə, cənab konsul Firuzəyə təşrif aparıb camaatı xatircəm etdikdən sonra Aşqabada qayıtdılar.

Fəqət yerli hökumət konsulumuzun ermənilər barəsində etdiyi tələbatına bir növ təxirlə cavab verdilərsə də, axırda o məsələ də nümayəndələrimizin istədiyi kimi həll olundu. Böylə ki, yerli hökumət Azərbaycan vətəndaşlarını fəqət müsəlmanlardan məhsub [hesab] edib, əsgərlikdən azad edirdisə də, lakin erməniləri "Rusiyanın sadiq oğlanları" deyib də azad etmək istəməyirdi. Odur ki, arada münazié [mübahisə] var idi. Bərəkət versin ki, iyun ayının 19-da Xariciyyə naziri konsulumuzun hüzuruna gəlib, cümlə Azərbaycan vətəndaşlarını, bilafərqi-məzhəb, din [din və məzhəb fərqi qoymadan] azad etdiklərini səfarətə bəyan etdi.

İştə, böylə tez bir vaxtda cavan konsulumuzun nəhayət ciddi fəaliyyətinə canu-dildən təhsinxan olaraq [afərin deyərək], gələcəkdə Azərbaycan vətəndaşlarımız talelərini möhtərəm konsulumuzun yədi-ixtiyarına [əlinə, ixtiyarına] kamali-asudəliklə verə bilərlər.

*Şəhri-Aşqabad, 23 iyun 1919*
*Əmrah oğlu Cəlil*

## GÜRCÜSTANDA

**Gürcüstan Məclisi-Əyanı**

Gürcüstanda Məclisi-Əyan [Senat] açılması üçün Ədliyyə naziri tərəfindən hazırlanan qanun layihəsi Gürcüstan Məclisi-Müəssisanına [Təsisçilər Məclisinə] daxil edilmişdir. Məclisi-Müəssisan komissiyası layihəyə baxmağa başlamışdır.

**Birja açılması**

Gürcüstan Maliyyə nazirinin sədarəti ilə vaqe olan şura[da] Tiflisdə birja açılması məsələsinə baxılmışdır. Bir para üzvlər ticarət birjası açılması təklifini etmişlərdir. Qərar qoyulmuşdur ki, Ticarət Palatasının rəyi xəbər alınsın. O vaxta qədər də bu məsələ təxirə salınmışdır. Bu birjadan məqsəd ticarət işlərini əcnəbi və məhəlli [yerli] valyuta ilə yoluna salmaqdır.

## ERMƏNİSTANDA

**Naxçıvan qəzasının halı**

"Joxovrdi" qəzetəsi Naxçıvan və qəzası xüsusunda Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] verilən məlumat əsası ilə yazır ki, Naxçıvan qəzasında məişət və halət gün-gündən fənalaşır. Səbəbi bir tərəfdən 120 minə qədər qaçqınların oraya toplaşması, digər tərəfdən də Zaqafqaz pulunun qiymətindən düşməsidir. Axır vaxtlarda həman pulun manatı 28 və 30 qəpiyə gedir. Böylə ki, Nikolay pulu bir manata almağı mümkün olan şey Zaqafqaz puluna 3 manat yarıma alınır. O cəhətə məkulatın [ərzağın] qiyməti həddən ziyadə artmışdır. Məsələn, çörəyin girvənkəsi 10 manat, penir [pendir] 15 manat, qoyun əti 20 manat, ilaxır. Çox ittifaq düşür ki, bunları götürməkdən bilmərrə imtina edib, apaçıq Nikolay pulu tələb edirlər. Bu isə xidmətçiləri və ac qaçqınları aşkar boykot eyləməkdir. Bu[na] sübut odur ki, bir manat[a] satılan şey qaçqına və qulluqçuya 50-100 qat artıq satılır.

Naxçıvan dairəsində bu il toplanmış taxıl xeyli boldur. Ermənilər o yerləri istila edən vaxtadək taxılın əksəri İrana göndərilməyə baxmayaraq, burada genə o qədər qalmışdır ki, nəinki məhəlli ehtiyacata [yerli ehtiyaclara], hətta Ermənistanın qeyri yerlərinin də ehtiyacatına kifayət edə bilər. Məkulatı almaq olar Şərurda, Şahtaxtıda və Naxçıvanda. Amma sırf Nikolay puluna.

Əkinlərdən bu il yaxşı məhsul gözlənir. Aranzəmin yerlərdə müsəlmanlar ermənilərin deməli bütün zəmilərini əkiblər. Bir həftəyədək arpa biçini başlanar, iki həftəyədək isə buğda biçilər. Ermənilərin yerlərini əkən müsəlmanlarla torpaq sahiblərinin arasında məhsulu təqsim etmək [bölmək] növbəti əhəmiyyətli bir məsələdir. Bu məsələ, hökumətin bilatəxir [təcili] qərardadını tələb edir.

İşin təxirə salınması arzu edilməyən nəticələr verə bilər. Onsuz da, bir neçə yerlərdə ixtilaf əsərləri müşahidə olunmaqdadır. Böylə ki, ermənilər tərəfindən məhsulun tamamisini almaqdan qorxub müsəlmanlar indidən başlayıblar zəmiləri otarıb tərk eyləməyə. Hərçənd, uyezdin dağbasarından doğru xəbərlər yoxdur, amma genə məlumdur orada da erməni yerlərinin 50 faizini müsəlmanlar əkiblər. Taxılın çoxluğuna və biçinin yaxınlaşmağına baxmayaraq, buğdanın pudu satılır 130 manata. Arpa və darı 100-110 manata. Buna müvafiq də qeyri məkulatın məzənnəsi yüksəkdir. Yağ 80 manat, qoyun əti 80 manat və qeyrə. Tamamisi də Nikolay puluna. Bircə neftin qiyməti çox düşübdür. O cəhətə ki, dəmiryol və dəvələrlə İrəvandan kifayət qədərdə neft gətirilmişdir. Cövhərin [kerosinin] pudu xırda-xırda satılır 200-240 manata. Ondan əlavə, neftin ucuzlaşmasına səbəb odur ki, əhalinin əksəri istilər düşəndən bağlarda və çöllərdə yaşayıb artıq işığa ehtiyac görməyirlər. Duz məsələsi təbəddülatsız [dəyişməz] qalır. Erməni qoşunu o yerləri işğal edənədək məhəlli [yerli] müsəlmanları Canpoladyanın şəhər anbarından 200 min pud, mədəndən isə 300 min pud duz oğurlamışlar. Anbarlarda qalıb ancaq 8 min pud qədər duz, o da torpağa qarışıbdır.

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Bəhri-Xəzər dənizində passajir və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**“Kooperatsiya” müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*





**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

Ümuri-Xeyriyyə Nəzarətinin Qarabağ nahiyəsində Qusulu kəndində olan ipək toxumaq işinə mükəmməl bələd olan və türk dili bilən övrət lazımdır. Hər gün, bayram günlərindən başqa, Nəzarətin Xeyriyyə şöbəsinə müraciət etməlidir.

*T-166*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Sülh ətrafında**

səh. 75. “Hindenburq”: qəzetdə “Gindenburq” kimi getmişdir.

**Qəzetələrdən**

səh. 76. “Şeyx Mahmud”: qəzetdə səhvən “Şeyx Məhəmməd” getmişdir.

**Türkiyədə**

səh. 76. “Sultan həzrətləri”: söhbət, Osmanlı imperiyasının sonuncu sultanı Məhməd Vəhidəddindən (VI Məhməd) gedir.

səh. 77. “İşə bu nəzərlə baxmaq”: qəzetdə “işə” yerinə “iştə” getmişdir.

**Baqqallar tabaqçılar əleyhinə**

səh. 81. “Olqinski və Nikolayevski”: Bakıda, indiki Məhəmməd Əmin Rəsulzadə və İstiqlaliyyət küçələri.

**Xan elə belə olar**

səh. 82. “Zadə”: “Azərbaycan” qəzetində bu imza Məmmədəli Sidqi Səfərova məxsusdur.

**Mətbuat**

səh. 83. “Şah Abbaslar, Ağa Məhəmməd şahlar”: 1587-1629-cu illərdə hakimiyyətdə olan Səfəvi şahı I Şah Abbas və Qacarlar dövlətinin 1789-1797-ci illərdə hakimiyyətdə olan ilk hökmdarı Ağa Məhəmməd şah Qacar nəzərdə tutulur.

**Açıq məktub**

səh. 84. “sajın”: təxminən 2,1 metrə bərabər uzunluq ölçüsü.

səh. 85. “Külli nəfsin zaiqətül-mövti”: “Quran”ın “Ənkəbut” surəsinin 57-ci ayəsinin bir hissəsi; mənası: “Hər bir canlı ölümü dadacaqdır.”

**Bakı xəbərləri**

səh. 86. “Dostavər”: ehtimal ki, “Düztahir” olmalıdır.

səh. 87. “qran”: İranda bir müddət işlədilmiş gümüş pul.

**Bizə yazılar**

səh. 93. “Əkbər ağa Sadıqov”: qəzetdə “Ələkbər ağa Sadıqov” getmişdir.

**Ermənistanda**

səh. 95. “Yağ 80 manat, qoyun əti 80 manat…”: qəzetdə belə getmişdir: “Yağ 800 manat, qoyun əti 8 manat…”





**Çərşənbə axşamı, 8 iyul 1919-cu il, nömrə 219**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 9 şəvvalül-mükərrəm sənə 1337. 8 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**KİNOTEATR “RENESSANS”**

*Torqovı küçə, nömrə 11*

İyul ayının 8-də məşhur “Orleanskaya deva” şəklini (“Janna d’Ark” əsəri) vücuda gətirən məşhur “Transatlantik” adlı Amerika trestinin 6 seriyada 18 dövr və 38 hissə, misli görünməmiş Amerika ictimai və cinayət dramalı şəkillərinin birinci seriyası 8 hissədə göstəriləcəkdir.

**“Qaranlıq dünya”, yaxud Amerikada ehtikarlıq (spekulyatsiya) ilə mübarizə**

*1-ci seriya 8 hissələrdən ibarətdir*

Bu şəkil “Prometey film” səhmdaran şirkətinin əzalarından olub, bütün cahanın narazılığını qazanmış “hal-hazırda olan ehtikarlıq” və “On beşlər klubu” ilə ədalətli mübarizəni təsvir edir. Bu şəkil amerikalılar tərəfindən vücuda gətirilmişdir. Ona görə bir çox mütəəssir halları havi olmaqla [təsirli halları ehtiva etməklə] bərabər, öz böyüklüyü və növbənöv olmasıyla təəccüblüdür: şaxtalar, körpülər partlaması, dəmiryol qatarlarının toqquşub qəzaya uğraması, aeroplanların uçub tələf olması, Hindustan fəqirlərinin möcüzələri, vəhşi heyvanlar əlində həlak olmaq, bütün məhəllələrin böyük yanğını, elektrik qüvvəsi ilə ölüm cəzası, elektrik hava qatarının məhvi, Nyu-Yorkda yeraltında mütəəssir dəhşətlər, paroxodların qərqi, gizli tiryəkxanalarda dəhşətli cinayətlər, minlərcə fəhlələrin çıxışı, mütəşəkkil ehtikarçılar tərəfindən fəhlə hərəkatının yatırılması və qeyriləri.

Bu şəkil bəşəriyyət düşmənləri olan hal-hazırdakı ehtikarçıların [möhtəkirlərin] çatmış olduqları bəşəriyyət həyatındakı uçurumu və dinamiti təsvir edir. Canlı mal ticarəti, süni aclıq törətmək, xalqı aldatmaq, dərmanları və birinci zəruri şeyləri saxtalaşdırmaq, pulların qiymətlərinin aşağı düşməsi baziçəsi [oyunu], bəşəriyyətin nail olduğu mədəniyyəti xarab etmək, həyata lazım olan şeylərin qiymətini artırmaq, fəhlə hərəkatı köməyi ilə fəhlə zəhməti qiymətinin süni surətdə aşağı salınması, saxtakarlıq, yalan şəhadət, aldatmaq, gizli və aşkar qarət və ehtikarçıların qarşısına çıxanların amansız qətli. Həmin bu yollar vasitəsilədir ki, bir dəstə ehtikarçılar milyonlarca doğruçu zəhmətkeşlərin hesabına olaraq ciblərini doldurub, qızıl içində yaşayırlar. Ancaq ciddiyyət və mədəniyyət məmləkəti olan Amerika Lorniqan qardaşları və Robert Kordinq kimi xalq qəhrəmanlarını vücuda gətirib, irəli keçməyi bacarmışdır. Hansılar ki, ehtikarlıqla mübarizədə

zərbə zərbə dalınca, Amerikanı dünya şərindən azad edənə qədər Amerika ehtikarçılarının "On beşlər klubu" olan on beş başlı divinin başını kəsmişlər.

"Prometey film" səhmdaran şirkəti tərəfindən ələ gətirilmiş olan bu şəkil xeyli mənfəətkaranə və fövqəladə tərbiyəbəxş olduğuna görə, camaatın hər bir sinifinə görməyə imkan verməkdən ötrü göstərilmək üçün ancaq "Renessans" teatrosuna verilmişdir.

Hər bir seriya tamam olmuş şəkildir. Ona görə "Qaranlıq dünya" şəkli 6 müstəqil seriyaya bölünmüşdür.

*5412*

**İTTİFAQƏN**
**[TƏSADÜFƏN]**

Birjevoy fayton atları ilə satılır. Naberejnı küçə nömrə 3, Bakı doku qarşısında dvornikdən [dalandardan] xəbər almalı.

*5411*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Məşixət İdarəsindən**

Səneyi-hazirə [bu il] 25 mayısda Nuxu uyezdinin [qəzasının] 3-cü [sahə] Orta Zəyzid prixod mollası Mustafa əfəndi Məhəmməd əfəndi oğlunun əxzi-əsgər [hərbi çağırış] məsələsində millət və dövlətə qarşı böyük xəyanətlərə irtikabı [bulaşması] dərəceyi-həqiqətə qərin bir surətdə təbəyyün etdiyindən [həqiqət dərəcəsinə yaxın bir surətdə meydana çıxdığından], mollayi-mumaileyhin [adı çəkilən mollanın] xidmətdən əzli [qovulması] və işi təhqiq edilib qəbahəti sabit olduğu [sübut edildiyi] təqdirdə qanunən cəzalanması İdareyi-Məşixət [Şeyxülislamlıq İdarəsi] tərəfindən qərara alınmış və icrayi-müqərrərat [qərarın icrası] üçün məqami-aidinə [aidiyyətli quruma] yazılıb təvəssüt edilmişdir [vəsatət qaldırılmışdır].

*Məşixət sədri:*
*[Axund Ağa] Ağaəlizadə*

**AZƏRBAYCAN**
**MƏCLİSİ-MƏBUSANINDA**

**7 təmmuz iclası**

İclas açılır saat birə 20 dəqiqə işləmiş.
Sədr - Həsən bəy Ağayev
Katib - Mehdi bəy Hacınski
**Məsaili-yömiyyə [Gündəlikdəki məsələlər]**

1) Hökumət indində [nəzdində] Xüsusi Təftişat və Təhqiqat Komisyonu təşkili haqqında qanun layihəsi; məruzəçi Şəfi bəy Rüstəmbəyzadə.

2) Poylu istasyonunda gömrük idarəsi təsisi haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

3) Gömrük idarələrində anbar vergisi miqdarının artırılması haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

4) Bakı gömrükxana ştatının təzyidi [artırılması] haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

5) Gürcüstan Cümhuriyyətindəki Azərbaycan siyasi nümayəndəliyi cənbində [nəzdində] Maliyyə Nəzarəti acentəliyinin təşkili haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.





6) Ermənistan sərhədində Uzuntala gömrük idarəsi qarşısında gömrükxana təsisi haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

7) Xəzinə nəfinə [xeyrinə] buğ [buxar] qazanlarından alınan verginin artırılması haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

8) Məclisi-Müəssisan seçkiləri haqqında qanun layihəsi; "Üçüncü qiraət"; məruzəçi [Məhəmməd Əmin] Rəsulzadə.

9) Daxil olmuş kağızlar, o cümlədən:

1 - Ticarət və nafiə [sənaye] şəhadətnamələrindən şəhərlər nəfinə [xeyrinə] alınan vergi miqdarının 50 faizədək tərfisi [qaldırılması] haqqında qanun layihəsi.

2 - Bakı karxana sənətkar yerlərində və fəhlələrin miyanında [arasında] hesabsız içki və spirt işlənilməsinin önünü almaq haqqında qanun layihəsi.

3 - Təhkim vergisi miqdarlarının artırılması haqqında qanun layihəsi.

4 - Ümumi tamaşaxana əyləncə yerlərindən alınan müvəqqəti verginin (naloq) Hökumət Xəzinəsi məbaliğ müstəhfəzəsinə [resurslarına] idxalı haqqında qanun layihəsi.

Birinci layihə Maliyyə-Büdcə, son üçüncülər Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] komissiyasına göndərilir. Növbədə Poylu mövqifində [stansiyasında] gömrük idarəsi təsisi haqqındakı layiheyi-qanuniyyədir.

Bir qədər müzakirədən sonra layiheyi-qanuniyyə 1-ci və 2-ci qiraətdə qəbul olunaraq, 3-cü qiraəti qanuna görə gələcək iclasa qalır.

Bədəhu [sonra] gömrük idarələrində anbar vergisi miqdarının artırılması haqqındakı layiheyi-qanuniyyəyə keçilir və əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.

Üçüncü növbədə Bakı Gömrükxanası ştatının təzyidi haqqında qanun layihəsinə baxılır (məruzəçi Əmircanov). Layihə bilamüzakirə [müzakirə edilmədən] qəbul olunur (birinci, ikinci qiraət) və üçüncü qiraəti qanuna görə gələcək iclasa buraxılır.

Növbədə Gürcüstan Cümhuriyyətində Azərbaycan siyasi nümayəndəliyi cənbində Maliyyə Nəzarəti agentəliyi təşkili haqqındakı qanun layihəsidir. Layihə ümumiyyətlə oxunaraq, bir qədər müzakirədən sonra qəbul olunur. Bədəhu maddəmaddə qiraətə (ikinci qiraət) keçilərək yenə qəbul və üçüncü qiraəti qanuna görə gələn iclasa tərk edilir.

Bundan sonra Ermənistan sərhədində Uzuntala gömrük idarəsi qarşısında gömrükxana təsisi haqqındakı qanun layihəsinə keçilərək, birinci və ikinci qiraətdə qəbul olunur və üçüncü qiraət gələcək iclasa buraxılaraq 5 dəqiqə tənəffüs elan edilir.

Tənəffüsdən sonra Rəisi-vükəlanın [Baş nazirin] təklifi üzərinə Qarabağ məsələsi haqqında hökumət tərəfindən göndərilmiş olan Parlaman heyəti tərəfindən bəyanat verilir. *(Təfsilatı sonra)*

**TELEQRAF XƏBƏRLƏRİ**

Paris - Müttəfiqlərin hərbi heyəti əmrnaməsinə görə, nemeslər Libavanı təx-

liyə etmişlərdir. İyun ayının 27-də latış [Baş] naziri Ulmanis oraya gəlib yenə iş başına keçmişdir.

Bobrinets - Denikin əsarətindən qaçıb gələn bir Qırmızı qoşun nəfərinin rəvayətinə görə, Denikin ilə [Nikifor] Qriqoryev arasında sıxı bir rabitə vardır.

Nauen - Berlində tətil hərəkatı getdikcə artır. Çaharşənbə [çərşənbə] günü omnibus əmələləri tətil etmişlərdir. Berlinin şərqi cəhətində tətilçilər sərnişin aparan bir neçə şoferləri döyüb əzmişlərdir.

- Tətil edən dəmiryol əmələlərinə filizçi və başqa əmələlər də qoşulmuşlardır. Bu hərəkat siyasi bir şeydir. Bunların məqsədi odur ki, şimdiki hökuməti yıxıb yerinə bolşevik hökuməti təşkil edilsin. Berlində vaqe olan dəmiryol tətili Berlin elektrik zavoduna kömür yetirməyə mane olur. Kömür mövcudu ancaq 3-4 günə yetər.

**İzmirin Yunanıstana ilhaqına [birləşdirilməsinə] protesto**

"Tayms" qəzetəsində İzmirdən İngilis Ticarət Palatasına göndərilmiş olan bir protest teleqrafı çap edilmişdir. Protestoda denilir ki, bu şəhərin yunanlılar tərəfindən istila edilməsi vilayətin mənafeyini xələldar edir. Zira, istər türk və istər xristian əhalisi bu yerin üzərinə ingilis, Amerika və Fransa kontrolluğu qo-yulmasına razıdır.

*(Bolşevik məlumatı)*

Varşava - 28 iyunda Lehistan [Polşa] qoşunları Saşova-Bardeyovka xəttinə yetişdilər. Lehistan qoşunları irəli yürüşdə davam edirlər.

Şimal cəbhəsində - Pinsk səmtində mövqeyinin pisliyinə görə bizim hissələrimiz Alekseyevskdən başqa bir yerə çəkilmişlərdir.

Arxangelsk cəbhəsi - Top atışması davam edir. Kəşfiyyatçılarımızın kəşfiyyatından anlaşılmışdır ki, təcilən Zenç üzərində körpü inşa edilir.

Qərb cəbhəsində - Petrozavod[sk] dairəsində bizim qitəatımız [hərbi hissələrimiz] tərəfindən bir çox kəndlər işğal edilmişdir. Fin boğazında bizim təyyarəçilərimiz Kopor boğazı üzərində düşmənlərin gəmilərini pulemyot atəşinə tutmuşdur. Kopor xəlicinin [körfəzinin] cənubi tərəfində müharibə ilə postu işğal eylədik.

Çarev cəbhəsində - Yamburq şosesi boyunda və Baltik dəmiryolu boyunda qızğın müharibələr davam edir.

Molodyojnı dairəsində müharibə davam edir.

Novqorod səmtində - Neman nəhri boyunda düşmənlərin hücumu dəf edilmişdir.

- Starokonstantinovski dairədə bizim qitəat müharibə ilə Kersipol mövqifini [stansiyasını] işğal etmişlərdir. 5 top, 20 tüfəng qənimət və 200 nəfər əsir alınmışdır.

Cənub cəbhəsində - Poltava dairəsində düşmənlər külli qüvvə ilə bizim qoşunları sıxışdırıb, lakin sonradan biz külli qüvvə ilə onları dəf eyləmişik. Sonra onları təqib edən qoşunlarımız Poltavanın 50 verstliyində vaqe İskrovkanı işğal etmişlərdir.

Xarkov səmtində - Boqoduxovun şərq tərəfindən düşmənlərin həmləsi dəf edilmişdir.





Belqorod səmtində - Belqorodun 50 verstliyində Teterevino dairəsində düşmənlərin həmləsi dəf edilmişdir.

Valvisk cəbhəsində - Tərəfimizdən düşmənlərin həmləsi dəf edilmişdir.

Voronej dairəsində qızğın müharibədən sonra biz Ostroqojsku tərk eylədik.

- Sterlitamak və Krasnı Ufa dairəsində bizim hissələrin hücumu müvəffəqiyyətlə davam edir. Ufa dəmiryolu boyunda biz bir çox kəndləri işğal eyləmişik.

## QƏZETƏLƏRDƏN

**General Korinin bəyanatı**

Məlum olduğu üzrə, "Sakartvelo" qəzetəsində general Biçin bir nitqi dərc edilmişdi. Belə ki, Aleksandropolda general Biç bir nitq irad edərkən [söyləyərkən] demiş ki, guya Müttəfiqlər Azərbaycan və Gürcüstan cümhuriyyətlərini təsdiq etməyəcəkdirlər. Gürcüstan Xariciyyə naziri ingilis heyətinin naçalnikinə iyulun 2-də bir nota ilə müraciət edərək, ingilis generalı Koridən xahiş eyləmişdir ki, general Biçin o məlumatının həqiqətə müvafiq olub-olmadığını ona bildirsin. Buna cavab olaraq general Kori Xariciyyə nazirinə zeyldəki [aşağıdakı] məlumatı vermişdir:

*"Alicənab, Aleksandropolda general Biçə isnad verilən nitqin surətini mənə göndərmənizə qarşı artıq mütəşəkkirəm. Məndə olan məlumata görə, Azərbaycan, Gürcüstan və Ermənistanın gələcək sərhədi və yaxud təsdiqi barəsində Sülh Konfransında hələlik heç bir müzakirat olmamışdır. Bundan əlavə, bu nitqin məzmununa bələd olaraq mən zənn edirəm ki, tamamilə uydurma sözlərdir. Bu sözlər Azərbaycan və Gürcüstanın bədxahlarının sözləridir. Mən zati-alilərinizdən rica edirəm ki, bu yalan xəbəri dərc edən qəzetə müdiriyyətindən xəbər alasınız ki, general Biçə isnad verilən bu uydurma xəbəri hanki mənbədən almışdır."*

**İnquşlara ultimatum**

Dabravol ordusundan verilən rəsmi xəbərlərdə çoxdan bəridir ki, kabardinlərin və çeçen dəstələrinin "nagüvara [xoşagəlməz] hərəkətləri" haqqında məlumat verilir. Ancaq inquş dəstələri haqqında indiyə qədər bir xəbər verilməmişdir. Məlum olduğu üzrə, general Denikinin Şimali Qafqaziya millətlərinə verdiyi notasında bolşeviklərlə mübarizə etməkdən ötrü Dabravol ordusuna kömək olaraq müəyyən miqdarda alaylar təşkil edilməsi tələb olunurdu. Osetin və çeçen millətləri ictimasında [yığıncağında] Dabravol ordusu nümayəndələri məzkur [deyilən] millət vəkillərini töhmət edib demişlər ki, siz dağıstanlılar qəbul etdiyiniz ultimatum şəraitini çox həvəssiz və fəna bir surətdə ifa edirsiniz. General Erdelinin müavini çeçen ictimasında demişdir ki, siz hər bir süvarini verdikdə alış-veriş edirsiniz. Çeçenlərdən iki faiz əsgərliyə alındığı halda, rus əhalisi isə tamamilə əsgərliyə alınmışlar.

Bütün dağıstanlılar bir qədər əsgəri dəstələr vermişlərdir. Ancaq bir tək inquş xalqı indiyə qədər Dabravol ordusuna bir əsgər də verməmişdir. Bu münasibətlə Dabravol ordusu komandanlığı inquş xalqına yeni və axırıncı bir ultimatum vermişdir. Ultimatumda deyilir ki, Oruc bayramının 4-cü gününə qədər in-

quşlar müsəlləh [silahlı] surətdə dörd alay süvari verməlidirlər. Ultimatumun vaxtı iyulun 3-də qurtarır. Bu tələbata əməl edilmədiyi təqdirdə, İnquşistanın ümdə kəndləri cəza dəstələri tərəfindən işğal edilib icbari bir surətdə əsgər cəm ediləcəkdir.

İnquşistana külli miqdarda Dabravol qüvvəsi gətirilmişdir. Bunların ümdə qüvvələri 10 min nəfərlik kazak dəstəsindən ibarətdir. Həmin dəstə böyük topxanaya malikdir. Əhval böylədir ki, inquş camaatı bu tələbatı qəbul etməyə məcbur olacaqdır.

**Bolşevik hökumətində**

6 ay bolşevik hökumətində yaşayan sosial-revolyusioner nəql edir ki, bolşevik Rusiyada hal-hazırda fəhlə demokratiya hökuməti yoxdur. Rusiyada şuralar deyil, kommunist firqələrinin diktaturası, yaxud əlahiddə dəstə və adamlar hökuməti davam edir.

- Batuma gəlmiş olan İtaliya paroxodu “Frans Ferdinand” ilə İtaliya mühəndisləri simsiz teleqraf makinaları və xidmətçiləri gətirmişlərdir. Simsiz teleqraf istasyonu Tiflisdə olacaqdır.

**Valyuta məzənnəsi**

Bu axır günlərdə əcnəbi valyutası, Kerenski və Nikolayevski pulların qiyməti aşağı düşmüşdür. İngiltərə lirəsi 400 manatdan ucuzdur. Frank 15 manatdır. Nikolay 100 manatlıqları 480 manat, Kerenski 1000 manatlıq 2000 manata, xırda pullar 8 faizlə, bunları da hər yerdə götürmürlər. Kerenski pulların aşağı düşməsinə səbəb bu axır vaxt Novorossiyskdən çox adamların gəlməsidir.

**Betman-Holveqin məktubu**

Sabiq Almaniya kansleri fon Betman-Holveq 26 mayda Almaniya Hökumətinə bir məktub göndərmişdir. Fəqət, hökumət tərəfindən bisərəncam [nəticəsiz] buraxılmışdır. Binaənileyh [ona görə], Betman-Holveq həman məktubun surətini Sülh Konfransı sədri Klemansoya göndərmişdir. Betman-Holveq Klemansodan təvəqqe edir ki, məktubunu Müttəfiq və Mötəlif dövlətlərə təslim eyləsin. Məktub böylə başlanır:

*“Sülh müahidənaməsinin [sazişinin] 227-ci maddəsinə görə, əlahəzrət Vilhelmi-Sani [II Vilhelm] Müttəfiq və Mötəlif dövlətlər tərəfindən hərb qanununu xələldar etməsi ilə təqsirləndirilir və istəyirlər ki, Niderlanda Hökumətindən əlahəzrət imperatoru alıb da, Müttəfiqlər tribunalında mühakimə etsinlər. Mən bu məktubla Müttəfiq və Mötəlif dövlətlərdən rica edirəm ki, əlahəzrət imperatorun əvəzinə məni mühakiməyə cəlb edəsiniz. Mən özümü Müttəfiqlər binagüzarlığına [sərəncamına] təqdim edirəm. Almaniyanın sabiq kansleri sifəti ilə mənim fəaliyyətim dövründə olan siyasi hərəkata yalnız mən məsulam. Zira Almaniya qanunları ilə məsuliyyət mənim öhdəmdədir. Mən zənn edirəm ki, yalnız mən [məsulam] və məndən başqa kimsə bu işlərə məsul deyildir. Ona görə də, ümid edirəm ki, siz mənim bu təvəqqemə əncam verərsiniz.”*

**BİR ƏLDƏ İKİ QARPIZ TUTANLAR!**

Dabravollar Dərbəndə çatan kimi, “Vahid Rusiya” qəzetəsinin baş mühərriri Podşibyakin və Mərkəzi Ev Komitəsinin müdiri Leontyeviç kamali-şövq və həvəslə Bakıdan oraya təşrif apardılar. Bunların əzm və qəsdinə dair tərəfdar qəzetələri yazmışdılar ki, bu cənabların məqsədi Azərbaycan ilə Dabravollar arasında dostanə bir rəftarın sazişinə çalışmaqdır.

Dərbəndə çatar-çatmaz Podşibyakindən “Vahid Rusiya” qəzetəsinə bir teleqram çəkildi ki, dabravolların Azərbaycana böyük məhəbbət və ehtiramları vardır. Onların Azərbaycan ilə heç bir ədavətləri yoxdur.

Aradan bir neçə vaxt keçdi. Leontyeviç şəhərimizə qayıdıb Rus Cəmiyyətində bir daklad oxudu. Bunun rəvayətinə görə bunları, yəni Podşibyakini, Leontyeviçi və sair yoldaşlarını Dərbəndə bəzi mühüm məlumat üçün Dabravol generalı Erdeli dəvət etmişdir.

Burada generalı görə bilməyib, onun nümayəndəsi ilə mülaqat [söhbət] etmişlər.

Bu mülaqatdan anlaşılmışdır ki, dabravolların Azərbaycan əleyhinə heç bir təcavüzatı olmayacaqdır. Çünki azərbaycanlılar Gürcüstan və Ermənistandan qovulmuş ruslarla xeyli müşfiqanə və mehmannəvazanə rəftar edirlər. Binaənileyh [ona görə], təcavüzə heç bir bəhanə yoxdur, ta ki buna səbəb azərbaycanlılar özləri olmayalar.

Leontyeviçin rəvayətinə görə, dabravolların əhali ilə rəftarı xoşdur. Dini və ictimai işlərinə qarışmayırlar. Dabravolların idarəsindən dağıstanlılar xeyli məmnundurlar.

Leontyeviçin Bakıda təcili işləri olduğu üçün Dərbənddən qayıtmışdır. Sair yoldaşları general ilə mülaqat etmək üçün Yekaterinodara qədər getmişlərdir.

İştə, Leontyeviçin dakladının müxtəsər məzmunu! Politikaçıların dünyada ən böyük rəhbəri aldanğıc olduğu kimi, vahid rusiyaçıların da ilk qədəmi iğfal fəqərəsindən [aldatmaq hadisəsindən] başlanmışdır.

Bakıdan Dərbəndə rəvan olduqları halda qəzetələrdə elan etdilər ki, dabravolların Azərbaycana məhəbbətini cəlb etmək üçün gedirlər. Halbuki, Leontyeviçin öz sözlərindən aşkar olur ki, bunları general Erdeli bəzi mühüm fəqərələrin həlli üçün dəvət etmişdir.

Əcəba, bu hanki mühüm fəqərələrdir ki, onların həlli üçün ancaq leontyeviçlərin dəvəti caiz görülür?

Bundan məlum olur ki, Azərbaycan naz və neməti ilə yaşayan leontyeviçlər, dabravolların rəsmi nümayəndələri olmasalar da, ən sədaqətkar və mötəməd [etimadlı] “dakladçı” və acentələridir ki, daxili işlərimizin səhih məlumatını dabravollar həman ağalardan kəsb edirlər. Böylələrinə siyasiyyun lisanında casuslar denilməzmi? Həm də, öylə mahir casuslar ki, günün günorta çağı aşkar bir surətdə sərhədi keçib tərəfi-müqabilə müfid [faydalı, lazımlı] və mətlub [tələb olunan, istənilən] məlumatı yetirdikdən sonra Bakıya qayıdarkən biçarə azərbaycanlıları da əfsanəvar [əfsanəyə bənzəyən] daklədları ilə iğfal edirlər [aldadırlar]!

İğfalçılar bizə deyirlər ki, dabravolların Azərbaycan ilə heç bir xüsuməti [düşmənçiliyi] yoxdur. Hərgah, bu fəqərə doğrudursa, bəs nə üçün Azərbaycan nümayəndəsi Haqverdiyevə təklif olunmuşdur ki, Teymurxanşuradan çıxıb getsin? Dabravolların bizim barəmizdə bəslədik-

ləri “məhəbbətlərinin” birinci əlaməti nümayəndəmizin Teymurxanşuradan qovulması ilə başlanır. İkinci əlaməti də sərhədimizdə atılan xəndəklərdən ibarətdir. İndi Leontyeviçin gözü aydın olsun. Dabravolların bizə qarşı bəslədikləri “məhəbbətləri” düz-doğru çıxdı. Bundan sonra bir müsəlman tapılmayacaqdır ki, leontyeviçlərin Müshəfə müqabil dakladlarına inanmasın.

Bizə deyirlər ki, dabravollarla Dağıstan əhlinin əlaqə və rəftarları pək gözəldir. Hərgah, bu doğrudursa, bəs nə üçün mütəfərriq [müxtəlif, ayrı-ayrı] dağlı nümayəndələri Tiflis məscidində dabravolların yapdıqları təəddi [qanunsuzluq] və zülümlərindən böyük şikayətlər etmişlər? Bunların ahu-fəğanları hətta gürcüləri də ağlatmışdır.

Daha gözəl olardı, hərgah casusluğa qurşanmış ağalar sərhəddən qayıdarkən heç bir daklad yazmayıb, xamuş [səssiz] və sükut ilə keçinsəydilər. Çünki böylə əfsanələrə aldanan axmaq indiki zəmanədə tapılmaz.

Leontyeviçin sair yoldaşları dabravolların mərkəzi-iqamətgahı olan Yekaterinodara qədər getmişlər. Aşkardır ki, dabravolların ərkani-hərbi [qərargahı] ilə bu ağaların xüsusi bir rabitələri vardır. Yoxsa, bir bu qədər sədaqətə ehtiyac görülməzdi. Bunlar Kadet partiyasına mənsub həman ağalardır ki, bu gün rus istibdadını Denikin kimi qəddar generalların əlləri ilə diriltmək istəyirlər. Sairləri casusluğu gizlin bir surətdə yapdıqları halda, bunlar apaşkarcasına yapırlar.

Bütün bəşəriyyətlə bərabər, Azərbaycanda yaşayan hamının tam hürriyyətdən istifadəsini arzu etməklə belə, hürriyyəti hüququmuza qarşı bir alət qərar verənlər müqabilinə ciddi tədbirlər görülməsini də gözləyiriz.

*F. A.*

## ERMƏNİ CÜMHURİYYƏTİNDƏ MÜSƏLMANLARIN YAŞAYIŞI

“...Azərbaycandakı ermənilər də kaş ki, Ermənistandakı müsəlmanlar kimi yaşasaydılar...”
*Erməni Rəisi-vükəlası: Xatisov*

**- 2 -**

Müsəlmanların qalanları üçün erməni cümhuriyyəti daxilində yaşamaq hər gün, hər dəqiqə bir cəhənnəm əzabı keçirməkdir. Hələ erməni cümhuriyyətinə paytaxt edilmiş İrəvanda qalan müsəlmanlar belə olmazın fəlakət keçirməkdədir, ermənilər tərəfindən təcavüzlər görməkdədirlər.

İndi bağlardan meyvə dərib şəhərə satmağa gətirmək vaxtıdır. İrəvanda bir çox bağlar var ki, indi müsəlmanlar qorxularından öz bağlarına gedəmmədiklərinə görə, ermənilər ya sahiblənib, ya ortaq olub mənfəətbərdar olmaqdadırlar. Bağları öz əllərində qalmış müsəlmanlar isə bir çox fəlakətlər içində ancaq bağlarına gedib-gələ bilirlər. Fəqət bu kimi bağ sahibi müsəlmanlar bağlarından meyvələrini gətirib bazarda satdıqdan sonra, cibləri pullu bağlarına dönmək istədikləri halda, dərhal ermənilər tərəfindən soyulub qarət edilir, ağlar gözlə əliboş əhl-əyalının tərəfinə yola salınır.

* * *

İrəvanda köhnə paltar satan Məşhədi Ələkbərin oğlu iki inək, iki camış aparıb Dəlmədəki öz bağlarında otladarkən ermənilər tərəfindən öldürülmüş, malları aparılmış, zavallının nəşini isə polisə 500 manata öz atasına satmışdır.

* * *

İrəvanda başmaqçı Hacı Cabbarın qardaşı Cəfəri, arvadını, iki oğlunu, bir gəlinini ermənilər öz bağlarında hərəsini bir ağaca bağlamışlar, sonra fəqir Cəfərin cibindən mövcud nağdı olan 40 manatını və yalnız var-yoxları olan bir baş inəklərini götürüb getmişlərdir. Sonra bağ qonşuları müsəlmanlar gəlib bunları ağaclardan açmışlardır.

Dəfələrlə bu kimi təcavüzlərə düçar olan müsəlmanlar qorxularından erməni hökumətinə şikayət edib hallarını bildirəmməyirlər. Çünki şikayət etdikləri halda, birinci dəfə polisə tərəfindən döyülürlər. İkinci isə, əvvəlki təcavüzçü ermənilər tərəfindən təkrar şiddətli təcavüzlərə düçar olurlar.

* * *

İrəvanda hazırda 1500-ə qədər yetim çocuqlar və sahibsiz müsəlman arvadları var. Bunlar olduqca pəjmürdə halda və çılpaq deniləcək dərəcədə yırtıq paltarlar içində, solğun simalı, titrər hallı, fəci bir səfillər sürüsü halındadırlar.

Bunlar bu halətləri ilə gündə parası ilə adambaşına bir girvənkə çörəyi almaq üçün “ekonomiya” çörəkxanasının qabağında, bəlkə gecənin yarısından günortaya qədər növbəyə dururlar. Mümkün olarsa, yəni erməni mühacirlərindən artıq qalarsa, həman bir girvənkə çörəyi almağa intizar çəkirlər.

Bunların halını seyr edərkən bu əsnada bir də 2-3 yerdən şarıltı səsləri eşidilir. Baxıb görürsən ki, yuxarıda hallarını təsvir etdiyimiz müsəlmanların natəvan [zəif] canlarına dəyən erməni qorodovoylarının mürüvvətsiz mataralarının səsidir. Müsəlmanların bu zavallılarından da İrəvanda bulvar ağacları altında gündə 5-6-sı pərişan hal ilə acından ölməkdədirlər.

## MÜASİRLƏŞMƏK

Müasirləşmək sözü ərəb sözüdür. Həməsr olmaq, həmzəmanə olmaq, həmnövlər ilə bərabər yaşamaq deməkdir.

İştə biz, sair həmnövümüz ilə bərabər yaşamayırmıyız? Əlbəttə ki, bərabər yaşayırız. Biz həmzəmanə və həmqərnlərimiz ilə həyati-təbiiyyədə həmhüququz, onlardan heç bir şeydə fərqimiz yoxdur.

Biz də, eynən onlar örtən libasdan örtür, onlar dadan çörəkdən dadır, onlar içən sudan içir, onlar alan badi-həvadan alır, müxtəsərən bütün onlar kimi imrari-həyat edir [ömür sürür], yaşayırız. Fəqət bir fərq vardır ki, yaşayış təbii hallardan başqa mənəvi hallar ilə daha mükəmməl, daha müşəşə [parıltılı, dəbdəbəli], daha mücəlla [parlaq, gözəl] olur. İnsanlar

sövqi-təbii vasitəsilə bir-birinə mərbut [bağlı] olduqları kimi, mənəvi hallarla da daha sıxı bir-birinə mərbutiyyət [bağlılıq] və münasibət peyda edir, daha gözəl bir surətdə imrari-həyat edir, yaşarlar. Və bunun üçün, bu mənəvi halları sazlamaq, yoluna qoymaq üçün də, əlbəttə mədəniyyətə ehtiyac vardır ki, iştə, bizdə olmayan cəhəti də helə bundan ibarətdir. Sair qövm [xalq] və millətlər bu cəhəti bir çox zamanlardan bəri düşündüklərindəndir ki, bu yolda əldən gələcək qədər çalışmış, səy etmiş, bizdən irəli düşmüşlərdir. Bu gün biz bu yolda onlara tabe olmaq məcburiyyətində qalmışıq. Biz bu gün onlar örtən libasdan örtərsək də, ancaq onların emalat və sənaətxanalarında emal olunmuş parçaları örtür, labis oluruz [geyinirik]. Deməк hal-hazır biz – başqa, həməqran [yaşıd] və həmzəmanələrimiz də bir başqa adam olmuşlardır.

Bunu bilməlidir ki, hər qövm, hər millət asari-mədəniyyəsinin [mədəni əsərlərinin] dərəcəsinə görə təmini-mövcudiyyət edə [varlığını təminat altına ala] bilər. Asari-mədəniyyədən məhrum bir millət sair mədəni millətlərin təhti-əsarətinə [əsarəti altına] girərək, həyati-milliyyələrinə əlvida etmək məcburiyyətində qalarlar. Bu, bir həqiqətdir. Bu həqiqəti tarixlərdən əlavə, zamanımız bizə daha gözəl bir surətdə andırdı. Bu gün aləmşümul [bütün dünyanı əhatə edən] hərbin böyük tarixi, məktəbi-həyatın ən böyük professorlar tərəfindən oxunan mühazirələrini mütaliə edib dinləyənlər əlbəttə bilirlər ki, hali-hərbdə bulunan hökumətlərin helə bizim kimi mədəniyyəti-Şərqiyyədən [Şərq mədəniyyətindən] belə xəbərdar olmayan millətlər deyil, Avropa mədəniyyəti-möhtəşəməsi ilə mütəməddin [mədəniləşmiş] qövmlər və millətlər üzərində qalib və məğlub olmaları onların gecəli-gündüzlü mədəniyyət yolunda çalışıb, ancaq kəndilərinə güvənərək qeyrilərinə üstünlük göstərmək istəmələrindən nəşət edən [irəli gələn] bir keyfiyyətdir.

Yoxsa, qılınc ilə, ox ilə, cəhalət ilə, quru bir təəssüb ilə deyildir. Fəqət mədəniyyətin lüzumu düşünüldüyü təqdirdə o yol ilə getmək barəsində yazılmalıdır ki, biz türk və islam firqələri o yol ilə getmək istədiyimiz zaman aramızda bir çox maneələr çıxır.

Halbuki, bu gün Avropa mədəniyyətini qəbula heç də islamiyyət mane deyildir. Ancaq, kəndimizdə mövcud olan bir para gözəl adat [adətlər] və əxlaqı məhv etməyərəkdən Şərq mədəniyyətinə Qərb mədəniyyətindən məxruc [ixrac edilmiş] yeni bir mədəniyyət təşkil etməliyiz ki, buna da heç vaxt şəriətimiz mane deyildir.

Bu mülahizələrə məbni [əsasən], heyəti-ictimaiyyəmizin [cəmiyyətimizin] yarısını təşkil edən və vücudumuzun nisfindən [yarısından] ibarət qadınlarımızı həyati-mədəniyyədən məhrum qılıb, elm və fənsiz buraxmaq və çalışmalarına müsaidət [icazə] verməmək həman yersiz ənənatımızdan [ənənələrimizdən] birisini, daha yersiz bir surətdə şəriət naminə hifz etməkdən ibarətdir ki, müasirləşmək məsələsinin böyük manelərindən birisi də bu olmalıdır.

Bağban əhəmiyyətli ağaclar əkər-biçərsə, gözəl meyvələr dərə biləcəyi kimi, vücudu əlzəm [lazımlı, vacib] analar yetişdirməliyiz ki, lazımlı, qeyrətli, həmiyyətli balalar gətirə biləlim.

*Seyidzadə Bədrəddin*



## ÜŞR MƏSƏLƏSİ

"Azərbaycan" qəzetəsində oxuduğumuza görə, üşr yığmaq hökumət tərəfindən ləğv olunur. Hökumət əhalini nəzərdə tutub, yer bitirənin onda birini almayır ki, əhaliyə zülüm olmasın. Hökumət istəyir ki, camaatı özündən narazı buraxmasın.

Ancaq üşr yığmaq camaatın halına bir təfavüt eyləyir, üşr alındı-alınmadı əhali üçün ələssəviyyədir [eynidir]. Əcəba neyçün?

Çünki üşrü hökumət almasa da, üşr alınır, üşrü yığırlar. Kim yığır və kim alır sualının cavabında deyə biləriz ki, əfəndi, molla, prixod mollası, qəssal [mürdəşir, ölüyuyan], rəmmal [falçı], seyid... Əlhasil uzunsaqqal, uzunpapaq, qırxıxbaş, elmsiz və avam kəndli nə bilir bunlar müftəxordur. Biçarə camaat öylə zənn edir ki, əgər bunlara üşrü və zəkəvatı [zəkatları, dini vergiləri] verməzsələr, dinindən dönərlər. Fəqirə qalsa, yenə bir xoşbəxtlikdir ki, üşrdə fəqirin payı yoxdur; mollalar fəqirin babasını yandırarlar.

Biz kəndliyik, kənd həyatını çox gözəl düşünürük. Bizim kənd camaatının yeri nə yetirsə, ondan birini mütləqa molla alacaqdır. Bununla bərabər, eşitdiyimizə görə, prixod mollalarına hökumət donluq da kəsibdir. Prixod mollaları donluqsuz və üşrsüz çox gözəl idarə edə bilirlər, dolanırlar. Gəlir yerləri çoxdur. Nikah, talaq, fitrə, qurban dərisi, əvvəli-cüz, isqat, təqsim və qeyriləri. Öylə molla var ki, bu sənə 15 və 20 min manat təqsimdən həqqül-qələm [qələm haqqı, yazı pulu] alıbdır. Bunların müqabilində üşrü və donluğu onlara vermək millətə böyük bir xəyanətdən başqa bir şey deyildir deməyə var qüvvəmlə cəsarət edirəm. Bəndə; mollanın ziddi, ya düşməni deyiləm. Mən özüm də mollayam, həm də prixod mollası. Doğrudur, molla arxadaşlarım məndən inciyəsidirlər, varsın, incisinlər. Mən haqqı söylərəm.

Cəsarətlə hökumətimə ərz edirəm ki, mənə verəsi donluq da xəzinədə qalsın, istəməyirəm. Ancaq üşrü ki, bizim ixtiyarımızda qoyubdur, hər ayda xəzinəyə 400 manat verim və üşrü də yığım.

Sözümdə dəlilim var. Bu sənəlik varidatım ancaq bir üşrdən olasıdır – 200 pud çəltik, 50 pud buğda. Bu məbləğ indiki satışla eyləyir 25 min manat. Bunun müqabilində ayda 400 manat xəzinəyə verməyimin haqqı varmı, ya yox? Verərsəm 25 mindən 4800 manat itirmiş olaram.

Bir sənəlik gəlirimin yekunu eylər təxminən cəmi-cümlətanı 50 min manat – üşrün üstünə qeyri gəliri də əlavə edəndə. Onun üçün deyirəm ayda 400 manat hökumətə verim, nəinki bunun müqabilində bir də hökumətdən alım. Bu hesab kəndlər içində orta hesabdır və mənim kəndim əkərat [əkin sahələri] cəhətdən kəndlərin lap az əkərat olan yeridir.

Bununla hökumətin nəzəri-diqqətini cəlb edirəm ki, əlbəttə, üşrü yığsın, qurban dərisini və fitrəni yığsın. Prixod mollalarına da kafi maaş təyin edib öylə ədalətsiz çapqınçılıqdan onları mən eyləsin [uzaqlaşdırsın]. Yoxsa üşr yığılımında prixod mollasından başqa hər kənddə bir 10-15 dənə də müftəxor molla prixod mollasına calanıb, üşrdən də artıq cama-

atdan alırlar. Qoy camaatın üşrünü, millətin zəkəvat və xümsünü millətin əsgəri, millətin qəhrəmanları yesin.

Bundan sonra millət də, Parlaman da, hökumət də özü bilsin. Mən hökumətə əl aparmıram. Eyni həqiqəti söyləyirəm. Mən də bir azəri oğlu olduğuma görə, özümə bir milli vəzifə bilirəm ki, millətin xeyrini deyim. Həmi kəndçiyəm, həmi molla. Mollaların da, kəndçinin də ruhunu bilirəm. Əgər üşr yığılmayb belə mollaların ixtiyarında qalarsa, bir qədər vaxtdan sonra millətin yarısı molla olar. Hətta üşr məsələsi ləğv olunduqdan sonra müəllimlərimizdən də mollalığa hazırlaşan çoxdur. Çünki əldə olan müəllimlərin çoxu Əfəndizadə, Qazızadə, Mollazadə, nə bilim hücrə bucağından gələnlərdir. Bunu heç kim inkar edəmməz. Açıqcasına türkcə deyəlim ki, molladan dönmədirlər. Bir qədər kursa davam eyləyib, ibtidai müəllim olublar. Yoxsa, darülmüəllimin [müəllimlər seminariyası] yox, qeyrisi yox. İndi bunlar hər iki tərəfdə olan gəliri fikir mizanına vurub, mollalıq tərəfdə olan mənfəəti görürlər. Təbiidir ki, o mənfəət də, müəllim deyil, nə olursa-olsun, özünə çəkəsidr. Bunun müqabilində gərək hökumət də prixod mollalarını və üşrü kəndi başına buraxmayıb, onları nəzərə alsın, ruhani işlərini nizam və intizam dairəsində aparsın. Müəllimi müəllim yerində, mollanı molla yerində saxlasın. Mollalıq heç bir vaxtda müəllimliyə qələbə çalmasın. Mollanın gözü müəllimdə olsun, nəinki müəllim olan bir adam mollalığa hazırlansın.

Mən cəsarətlə deyə bilərəm ki, bu müəllimə müəllimlik adı daşımaq yaraşmayır. Müəllim olsa, bu fikri xəyalına da gətirəmməz. Bu halda, millət də, hökumət də, kəndçi də, hətta bəzi fikri açıq mollalarımız da düşünər ki, millətin istiqlalı və istiqbalı [gələcəyi], tərəqqi və təalisi [ucalması] müəllimdən asılıdır.

*Molla H. Əfəndizadə*

**İdarədən**: Bu məqalənin bəzi nöqtələrinə şərik olmamaqla bərabər, əsasən həqiqət olduğunu etirafla eynən dərc ediriz.

## VƏTƏN

Ey müqəddəs Vətən, Vətən, Kəbəm!
Niyə sən böylə durmusan əbsəm?!
Söylə, ey nazənin sənəm, Vətənim,
Madəri-mehriban, canu-tənim.
Söylə, söylə, amandı, lal olma,
Ayaq altında paymal olma.
Madəri-müşfiqi-əhalisən,
Hali-əsrə nə gunə halisən?!
Vətən övladıdır ciyər-parən,
Naxələf olsa, varmı bir çarən?
Bu yerin əhli: oğludur, qızıdır,
İsməti-madərin mühafizidir.
Ey oğul, ey qız övladı vətənin,
Necə insafına rəvadı sənin
Girə düşmən hərəm dəvairinə,
Çata arvad-qızı biri-birinə,
Eyləyə paymal ismətini,
Apara hörmət ilə izzətini?
Gözünə qarşı al bu mənzərəni,
Şimdidən dur gey əyninə kəfəni.
Tez sarıl qalx silaha, ey qardaş,
Batma bunca günaha, ey qardaş!
İgid ol, düşmənin qabağına çıx,
Divi-mənhusu məhv elə, vur, yıx.





Bu həman zülmdür ki, yüz ildir,
Əzmiş idi bizi, vəli bildir
Rədd olub getmiş idi bizlərdən,
Süngüsün çəkmiş idi bizlərdən.
Bu həman əjdahayi-fasiqdir,
Akili-cümleyi-xəlaiqdir.
Tazədən gəldi udmağa vətəni,
Udacaq mülk-malın ilə səni.
Yoxdu namusu heç dəyyusun,
Var bu yerdə vüfuru casusun.
Qoynumuzda, qucağımızda yaşar,
Günbəgün fitneyi-fəsad artar.
Dördgöz ol, aç ikisini qabağa,
Birisini sola, birini sağa.
Yuxlama, qəflət eyləmə, ayıq ol,
Sənə aid vəzifədir bu, oğul!
Düşmənin harda şərrinin əsəri
Baş versə, qoy ol məqamda səri.
Vətənin hafizi, mücahidi sən.
Sələfimin xələfdə vahidi sən.
Babanın ruhunu gəl et şadan,
Budur övlad üçün tamam vicdan.
Dur vətən mülkünün hüdudunda,
Düşmənin qarşına vürudunda.
Rüstəmin oğlu Söhrabın ruhu,
Girəcək cisminə... qopar kuhu.
Eşq oduyla dilin kabab eylə!
Vətənə qarşı bir xitab eylə:
Ey mənim nazənin anam, Vətənim!
Ey həyatım bəqası, canu-tənim.
Sinən içrə yatan babam qəbrin,
Pak saxla anam-atam qəbrin.
Ömrüm olduqca mən mücaviriyəm,
Nə qədər ki, Vətəndəyəm, diriyəm,
Qoymaram düşməni gələ yavuq,
Anamın yavuquna ol fasiq.
Kəsərəm əllərin anam sarıdan,
Biçərəm qıçların babam sarıdan.
Çünki hürr oğlu hürrdür əslim,
Yoxsa lənət oxur mənə nəslim.

*R. Əfəndizadə*

## MƏTBUAT

Qarabağ məsələsi qayət kəskin bir surət alaraq, bu ya o surətlə həllini bulmaq dərəcəsinə gəlmişdir. Bu məsələni hökumətimiz nə qədər etilafcuyanə [razılaşma yoluyla], sülhpərvəranə bir surətdə həllə çalışdısa da, ermənilərin əsrlərdən bəri qəbul etmiş olduqları "xətti-hərəkət" bizi sülh yoluna çıxarammadı və bu vaxtadək həll edilməmiş qaldı. Şimdi artıq öylə bir nöqtəyə çatmışdır ki, nəhayət yolunu bulmaq ərəfəsindədir.

Məzkur [deyilən] məsələ münasibətilə rusca "Azərbaycan" rəfiqimiz son nömrəsində yazmış olduğu baş məqaləsində hökumətimizin, ümumiyyətlə ermənilər haqqında, xüsusən Qarabağ məsələsində nə qədər sülhcuyanə və etilafpərvəranə davrandığını qeyd və ermənilərin, ümumiyyətlə Azərbaycan barəsində nə qədər bədxahlıq ibraz etdiklərini [nümayiş etdirdiklərini] bəyanla, Qarabağ məsələsinə keçərək deyir ki:

*"Böylə mütəşəkkil bir dairədə halhazırda Qarabağ məsələsi ətrafında işləyirlər. Bir tərəfdən burada Azərbaycan hökuməti 3 qəzada (Şuşa, Cavanşir, Cəbrayıl) ermənilərlə əlaqə peyda etmişdir. Ermənilər asudəcə aranzəminə yenərək taxıllarını yığırlar və hökumət məmurları tərəfindən mühafizə edilirlər və ermənilər əleyhinə xırda bir cinayət işləndikdə, şiddətli surətdə təqib edilirlər. Digər tərəfdən, Zəngəzur qəzasında ermənilər dinc müsəlman əhalisi əleyhinə geniş bir dava cəbhəsi açmışlardır.*

*Erməni hökuməti külli miqdarda İrəvan pulu və müntəzəm erməni qoşunu ilə təchiz edilmiş məsuliyyətsiz Zəngəzur*

*Erməni Milli Şurası əli ilə hal-hazırda dinc müsəlman kəndlərini od ilə qılınca tutub, müdhiş təxribat yapır.*

*Bu vaxtadək bizdən asılı olmayan siyasi səbəblər bizə imkan verməyirdi ki, böylə həyasız meydangirliyə [meydan oxumağa, meydan sulamağa] cavab verək. Biz diplomasi müharibədə olduğu kimi, vuruşma meydanında da ancaq müdafiədə bulunurduq.*

*Hal-hazırda ermənilərin Zaqafqaziya müsəlmanları ilə rəftarı böylədir.*

*Biz bəyan edirdik ki, Azərbaycanın mövcudiyyət və siyasi rifah halı ətrafında böyük torlar qurulmuşdur. Bütün canlı qüvvələrin toplanması lazımdır. Keçirməkdə olduğumuz övzayi-siyasiyyənin [siyasi vəziyyətin] ciddiliyini nəzərə alıb bütün qüvvələrimizi səfərbərlik halına gətirərək və bir yerə cəm edərək həyati-siyasiyyəmizin bütün böhranlarını məmləkətdə qanun və qaydanı saxlamaqla rəf edə [aradan qaldıra] biləriz.*

*Azərbaycanın siyasi dairələri, bilafərqi-məslək [tutduğu yoldan asılı olmadan], övzayi-siyasiyyəni nəzərə alaraq hazır olmalıdırlar.*

*Bununla bərabər, biz haqq və ədalətin qələbəsinə inanmaqda davam ediriz. Biz öz millətimizin ruhani və cismani qüvvəsinə inanırız. Və ancaq xalq pişrovlarının [rəhbərlərinin, liderlərinin] ənud və müttəhid [inadlı və birgə] fəaliyyəti düşmənlərimizə isbat edər ki, öz məşru [qanuni] hüququnu çox da ucuz qiymətə güzəşt etməz və erməni pişrovlarının tutduğu xətti-hərəkət erməni millətini səadətə çıxarmaz."*

Son zaman alınmaqda olan xəbərlər Könüllü ordu qüvvələrinin bolşevik qoşunlarına faiq [üstün] gəldiyini və hücumlarında davam edərək müvəffəqiyyətlə irəliləməkdə olduğunu bildirməkdədir. Vahid Rusiyaçılar sair cəbhələrdə bolşeviklərin qazandıqlarını görmək belə istəməyərək, Şura hökumətini məğlub görür, fatihəxanlıq edir [Fatihə oxuyur] və nəhayət irs [miras] məsələsinə keçərək bolşevizmin vəfatından sonra Rusiyanın kimə qalacağı dərdini çəkirlər.

O cümlədən, "Bakinskoye slovo" qəzetəsi irs davasına başlayaraq, bolşevizm xarabasına kimlər malik olacağını sorur [soruşur] və deyir ki:

*"Ona malik olan, hər halda demokratiya [xalq] olmayacaqdır. Moskva üzərinə hücumu zəfər yürüşünə mübəddəl olacaq [çevriləcək] ordu miyanında [arasında] demokratiya yoxdur. Onlar hələ saysız-hesabsız mitinq, syezd və iclaslarda beynəlmiləl imperializm və daxili irtica əleyhinə vahid demokratik cəbhə yaratmaq məsələsini müzakirə və mübahisə ilə məşğul ikən, digər birisi gəlib danışmadan işləməyə başladı. Həman qüvvə hökumət başına keçdikdə, demokratiyanın bitərəflik, ya müzahirəti [köməyi] ilə bolşevizmin düçar olduğu həzimət [məğlub olub dağılmaq] və məğlubiyyətin bütün ağırlığını demokratiya çəkəcəkdir."*

Qəzetə iztiraba düşür və artıq inqilabın təmiqi [dərinləşdirilməsi] deyil, barı insanların yaşamaq hüququnu müdafiə fikrinə düşür və böylə olduğu təqdirdə, bütün təqsiri demokratiyanın pişrovları [xalqın öndərləri] öhdəsinə ataraq yazır ki:

*"Əgər Rusiyanın təcdidi [bərpası], gedə biləcəyi və getməli olduğu yol ilə getməzsə, müqəssir o adamlardır ki, bolşevizmin ilk xüruc [çıxış] və möhkəmləşməsindən bəri bunca səy edib, özü də iki sandaliyə [stul] üstündə əyləşir, bütün demokratiyanı da öylədə əyləşdirirdilər."*



## BAKI XƏBƏRLƏRİ

### Rəisi-vükəlanın əziməti

Şurayi-Vükəla [Nazirlər Kabineti] və Dövləti Müdafiə Komitəsinin rəisi Nəsib bəy Yusifbəyli həzrətləri əhalinin halını öyrənməkdən ötrü qəzalara əzimət edir [yola düşür]. Rəisi-Vükəlanın övdətinədək [qayıdanadək] onun vəzifəsini Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Xudadad bəy Məlikaslanov ifa edəcəkdir.

### Fransız heyəti

Fransa heyəti-əsgəriyyəsi Şimali Qafqaziyadan qayıdıb "Metropol" otelinə düşmüşdür. Bu günlərdə heyət təcili qatarla Tiflisə yola düşəcəkdir.

### Dövlət Bankı

İngilislərin getməsi sabiq Rusiya Dövlət Bankının necə olacağı məsələsini ortaya atır. Güman edirlər ki, bu vaxta kimi ingilislərin ixtiyarında olan bank ya italyanların idarəsi altında yenə işləyəcəkdir, yainki bank tamamilə Azərbaycan Dövlət Bankına təhvil veriləcəkdir.

### Qənd

Batum qəzetələrinin verdiyi xəbərlərə görə, İstanbuldan Novorossiyskə və Batuma çoxlu qənd, xüsusən şəkər (pesok) gəlir. Qəndin bir hissəsi Batum bazarına buraxılmışdır. Qəndin bazarda görülməsi o saat qənd qiymətini 1500 manatdan 750 və 800 manata kimi aşağı salmışdır. Bu xəbər Bakı bazarına da böyük təsir etmişdir. Böylə ki, Batuma qənd və şəkər gəldiyi xəbərini eşidincə, şəkər və qənd qiymətdən düşməyə başlamışdır.

### Hacı-Tərxanın alınması

İyulun 5-də Petrovskdan Bakıya varid olmuş [gəlmiş] bir komandir Hacı-Tərxanın dabravollar tərəfindən 3 iyulda alınmasını təfsilən xəbər verir. Tsaritsın alınan kimi, Hacı-Tərxanda həyəcan başlanmışdı. Zlobinin komandası altında 11-ci Şura qoşunu hissələri qaçmağa başlamışlar. Bolşevik əsgərlərinin çoxu sivil libas geyib camaatın içində gizlənməyə səy edirmişlər. Ordunun bəzi hissələri komissarın təhti-idarəsində [idarəsi altında] ən qiymətli şeyləri alıb avtomobillərlə Hacı-Tərxandan Petrovska yönlənmişdir. Şəhərə dabravollar musiqi və bayraqlarla rəsmi-keçiddə olan kimi girmişlər.

### Tapılmışdır

İyulun 6-da, axşam saat 9 radələrində Olqinski küçə (Pasaj qabağında) bir pul kisəsi ilə pasport tapılmışdır. Sahibi Staropolis və Kolyubakinski küçələrin küncündə "İngilis barı" nam [adlı] qəhvəxana sahibi Aleksandr Kukuşviliyə müraciət etsin.

### Qubernator idarəsində

- Bakı İstintaq Məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna xəbər verir ki, 377, 354, 338 və 347 qanun maddələrinə görə Balaxanı-Sabunçu polismeysterstvasının 7-ci hissəsinin pristavı Rostovskinin işinə baxılmağa şüru edilmişdir [başlanmışdır].

- Cəfərqulu Məhəmmədəli oğlu icazəsiz silah gəzdirdiyinə görə qubernator tərəfindən 200 manat cərimə edilməklə 2 gün həbsə alınmağı əmr edilmişdir.

- Qubernatorun əmri ilə Salyan həbsxanasında olan Mirabbas Mirəziz oğlu Bakı Mərkəzi həbsxanasına köçürülür.

**Quldur başçısı**

Quba mahalında quldur dəstəsi düzəltməkdə müttəhim edilən Ömər Şıxkərim oğlu Quba həbsxanasına salınmışdır.

**Mülkiyyə Müfəttişliyi**

İrəlicə xəbər vermişdik ki, Daxiliyyə Nəzarəti cənbində [nəzdində] hökumət məmurlarının, habelə hökumət idarələri ilə əlaqədar olan müəssisələrin və şəxslərin əfal [işlərini] və hərəkatını təhqiq və təftiş üçün bir müfəttişlik ehdas [təsis] edilmişdir. Birinci olaraq məzkur [deyilən] müfəttişliyə 1919 sənəsi 18 iyun tarixli və 8471 nömrəli məşruhə [izahatnamə] ilə Gəncə valisinin Rəisi-Vükəlaya [Baş nazirə] təqdim etmiş olduğu, Ərzaq nazirinin Gəncə vilayəti nümayəndəsinin məruzəsi mövcibincə [məruzəsinə əsasən] Ləki və Ucar mövqiflərini [stansiyalarını] təftiş etmək həvalə olunmuş və Müfəttişlik tərəfindən Hüseyn Mirzəcamalov cənabları məzkur mövqifləri təftiş edərək aşağıdakı məlumatı əldə etməklə, Daxiliyyə naziri cənablarına təqdim eyləmişdir:

1) Bakı Ərzaq Nəzarətindən verilmiş 11449 və 12195 nömrəli şəhadətnamələrlə Ağdaş sakini Əsədulla Səfərov Ərzaq Nəzarətinin Gəncə nümayəndəsi adına 3 vaqon buğda və arpa aparmalı imiş. Məzkur buğda və arpalar Gəncə nümayəndəsi vasitəsilə lazım görülən yerə göndərilməli imiş. Lakin şəhadətnamə sahibi Əsədulla Səfərov şəhadətnamədən "Ərzaq Nəzarəti Gəncə nümayəndəsi vasitəsilə" cümləsini pozmuş, buğda və arpa Əsədulla Səfərov adına vasitəsiz olaraq göndərilmişdir. Bu sənədlərin saxtalığı Müfəttişlik tərəfindən kəşf edilərək, mallar Ləki mövqifində saxlanılıb, Əsədulla Səfərovun Bakıda kontoru bağlanmış, kəndisi də təhti-məsuliyyətə [məsuliyyət altına] alınmışdır. Hazırda fövqəlzikr [yuxarıda adı çəkilən] Səfərov Bakıda deyildir.

2) Ucar mövqifindən Ərzaq Nəzarətinin 10737 və 10730 nömrəli şəhadətnamələri ilə Qurban İbrahimov və Mehdi Əliyev namlar [adlı şəxslər] 7 vaqon arpa və buğda Tovuz və Ağstafaya göndərmişlərdir. Bu iş təftiş edilərək, məzkur şəhadətnamələr haqqında Ərzaq Nəzarətindən məlumat istənilmiş, 29 iyun tarixi ilə 9550/2420 nömrədə alınan rəsmi məlumatda yuxarıdakı nömrələr məzkur şəxslərə verilmədiyi anlaşılmışdır. Bununla, o şəhadətnamələrin saxta olduğu mühəqqəq olaraq [təsdiqlənərək], Qurban İbrahimov və Mehdi Əliyev saxtakarlıqda müttəhim edilərək, işləri müddəiyi-ümumiyə [prokurora] həvalə olunmaqla, özləri də dəstgir olunmuşdur [tutulmuşdur].

3) Yenə Ərzaq Nəzarətinin Səttar Rəsulzadəyə "Gəncə nümayəndəsinin vasitəsilə" 11973 nömrəli şəhadətnamə ilə 4 vaqon buğda və arpa aparmaq icazəsi verilmiş, şəhadətnamədən "Gəncə nümayəndəsinin vasitəsilə" cümləsi pozularaq bilavasitə öz namına göndərilmişdir. Bunun üçün onun da malları tutulmuş, işi Daxiliyyə Nəzarəti vasitəsilə müddəiyi-ümumiyə verilmiş, kəndisi də təhərri edilməkdədir [axtarılır].

Bu kimi xəyanətlərdə və saxtakarlıqda bəzi dəmiryol qulluqçuları və Ərzaq Nəzarəti məmurları da zümədxəldirlər [işə qarışmışlar]. Onlar da öz vəzifələrindən sui-istifadə edirlər ki, Müfəttişlik bu kimi xainləri kəşf edib təhti-məsuliyyətə alacaqdır.

**SURAXANIDA TEATRO**

"Müsavat"ın Suraxanı şöbəsinin sabiq katibi Məşhədi Əli cənabları keçən iyun ayının 5-də Suraxanıda Benkendorf şkolasında [məktəbində] "Müsavat" firqəsinin nəfinə [xeyrinə] Əmirhacıyan həvəskarları tərəfindən [Əbdülhüseyn] Heybətzadə cənablarının təhti-idarəsində [rəhbərliyi ilə] axşam tamaşası tərtib veriləcəyini "Müsavat" idarəsində mənə, Vəliyulla və Mustafa əfəndilərə söylədi və bizim də bu işdə iştirak etməyimizi tövsiyə etdi. Mən də müdiri-məsulluq vəzifəsini qəbul etdim. Ancaq orucluqdan dolayı naməlum bir vaxta qədər təxir olunmağını məsləhət bildik.

Təxminən bir həftə bundan əqdəm [qabaq] bəndə və Mustafa əfəndi, Məşhədi Əli cənabları ilə görüşüb həvəskarlarla görüşmək, bu barədə danışmaq mümkün olmadığından və camaatın həvəskarlara soyuq baxdıqlarından müəyyən vaxta onlar gəlib vəzifələrini ifa etməyə az ümidim olduğundan və camaat hüzurunda məsul olmamağımı nəzərə alıb öz boynumdan vəzifəmi rədd eylədim. Həmin iyul ayının 3-də "Azərbaycan" qəzetəsində cümə günü iyul ayının 4-də məzkur [deyilən] Əmirhacıyan həvəskarları tərəfindən fövqdə zikr olan [yuxarıda deyilən] oyunlar mövqeyi-tamaşaya qoyulmaq elanını oxudum. İyul ayının 3-də Sabunçuda Məşhədi Əli cənabları ilə rast gəlib bu barədə sual etdim. Məzkur, həvəskarlar hazırdır, sabah nə növ olsa gələcəyini söylədi.

Cümə günü səhər saat 8-də idarəyə gəlib Məşhədi Əli, Mustafa əfəndi və Vəliyulla əfəndi və bəndə [mən] axşam saat 5[-ə] kimi işləyib teatrın səhnəsini və cəmi lazım olan şeyləri hazır edib, həvəskarları gözlədik. Amma həvəskarlar gəlmədi. Saat 5-də xüsusi çatan xəbərə görə həvəskarların müdiri Əbdülhüseyn Heybətzadə cənabları biletlərin az satılıb az məbləğ olmağını nəzərə alıb, qabaqca pullarını alıb sonra oynayacaqlarını söyləmiş. Böylə olduqda, mən də həman saat bir kağız yazıb pulları qabaqca özüm verməyimi vədə edib tezliklə gəlməklərini təmənna etdim. Heybətzadə cənablarının yazdığı cavabdan bizə çatan xəbərin doğru olduğundan əlavə, yoldaşlarını bir yerə cəm etmək qeyri-mümkün olduğunu yazıb və teatro baş tutmamağını məlum etdi.

Bir aydan artıq müntəzir olan camaat axşam saat 10-adək gözləyib axırda qayət nifrətlənib dağıldılar. Bu surətlə teatronun baş tutmaması təqsirini camaat hüzurunda boynumdan atıram.

*Bəşir Bünyadzadə*

**AZƏRBAYCANDA**

**Gəncədən**

Gəncədə bahalıq artdıqca artmaqda idi. Bununla mübarizə indiyə qədər kimsənin ağlına sanki gəlməyirdi. Əhalinin

intixab edib [seçib] başa çıxardığı Bələdiyyə rəyasəti də bu bahalığı da cibinin genişliyindən hiss etməyir kimi idi. Həmd olsun, ən nəhayət Bələdiyyə rəisimiz bazarda bahalıq olduğunu duydu, yeni hümmətli valimiz Bələdiyyə rəisinin canını bahalıqdan qurtarmaqdan ötrü əlzəm [vacib, lazımlı] olan yeyəcək şeylərinə qəti qiymətlər təyin etdirmişdir.

Vali həzrətləri əlindən gələn qədər çalışırsa da, bazarımızda ət, yağ və penir [pendir] və sairə qəhətliyi başlamışdır. Qiyməti qəti görən və 100-ə 200 qazanmağa alışmış olan alış-verişçilər əllərindəki malları hələlik satmamağa qərar verdilər.

Məzə burasındadır ki, hökumətin fikri bahalıqla mübarizə etmək olduğu halda, həm əhali, həm də alış-verişçilər hökumətdən narazı kimidirlər. Əhalinin narazı olmasına səbəb, əlbəttə ki, malın ba-zarda yoxluğudur.

Möhtəkirlərlə mübarizə etmək üçün, şübhə yoxdur ki, əvvəlcə əhalinin köməyini təmin etməlidir. Biz yeni valimizin təşəbbüslərini alqışladığımız kimi, Bələdiyyə rəyasətimizin bacarıqsızlığına da şaşır və gülürüz. Buğda məhsulatına görə ölkəmizin zəngin bir nöqtəsi Gəncə olduğunu, onlar da mənimlə bərabər etiraf etdikləri halda, bu gün Gəncə çörəkçi dükanlarında bişən çörəklər, haşa, çörəyə bənzəməyir. Bunu Allah götürməz. Xalqın etimad etdiyi bir yeri tutub onların qeydinə qalmamaq və onlara çörək yerinə çamır yedirmək cinayət deyil də, nədir?!

Gəncə küçələrinin qaranlıq olduğunu dəfələrcə yazdıqsa da, əhəmiyyət verilmədi. Bəlkə mətbuata gəldi-gedər kimi bir nəzərlə baxırlar. Fəqət əmin olmalıdırlar ki, zərərləri kəndilərinədir. Mənə qalarsa, bahalıqla mübarizə etmək, sabit qiymət qoymaqla bitməz. İndiyə qədər bir neçə dəfə gördülər ki, qiymət təyin edildiyi vaxt, yeyəcək şeyləri bazardan yox oldu. Ya da satılan şeylərin həpsi anbarda çürüyən şeylərdir. Ucuzluqla bərabər, təmizlik də əldə etmək üçün şəhər qəssab və çörəkçi dükkanları açıb, əhaliyə ucuz fiyatla [qiymətlə] mal buraxmalıdır ki, bu rəqabətin təsiri ilə bazara ucuzluq düşüb yaxşı mal çıxsın. Yoxsa, hər şeyə sabit qiymət qoyub çəkilib evdə oturmaq füqəraya zərərdən başqa bir şey verməyəcəkdir.

Aldığımız məlumata görə, vali həzrətləri bu tədbirindən qətiyyən ayrılmayacaqlarını vəd buyurmuşlardır. Ancaq gözəl olardı ki, bizim Bələdiyyənin qulağına da bir şey söyləsinlər. Böylə şey olmaz, a canım, yayın hərarəti artdıqca Bələdiyyənin hərarəti azalır. Bu hərarətsizlik qorxuram ki, Gəncənin xalqını xarab etsin. Madam ki, xalq üçün çalışanlar bunu xalqa vəd etdilər, sonuna qədər davam etməlidirlər:

"Nöqsanını bil, bir işə ya eyləmə iqdam,
Ya başladığın karı pəzirayi-xitam et!"

**Qarabağda**

Qarabağda yaşayanlar və ya ki Qarabağı görənlər bilirlər ki, Zəngəzur ilə Qarabağın arasında olan hündür və böyük dağların üstündən bir təkcə yol vardır ki, Şuşa şəhərinə gəlir. Bu yolun adı yol isə də, lakin özü ancaq bir cığırdan ibarətdir. Bu yol ilə nə araba, nə fayton ilə getmək mümkün deyildir. Ya atlı və ya piyada olaraq bu yol ilə getmək olar.





Zəngəzur kimi böyük bir uyezdin [qəzanın] mədənləri, təbii dövlətləri, xəzinələri, milyonlarca mənfəətləri bu vaxta kimi istifadə edilməmiş qalır. Zəngəzurlular özləri ac-yalavac qalıb ayaqlarının altında hesabsız, milyonlara dəyər mədənləri tapdaladıqları halda, onlardan nəfbərdar ola bilməyirlər [xeyir götürə bilmirlər].

Neyçün, nə səbəbə?

Ona görə ki, Zəngəzura yol yoxdur. O milyonları oradan çıxartmağa, satıb pul qazanmağa rahrov [münasib yol] yoxdur. Araba, fayton deyil, hətta yüklü at, qatır gəlmək də çətinliklə mümkün olur.

Zəngəzurun dövlətləri, mədənləri, meşələri, xəzinələri və hətta neftləri barəsində gələcəkdə yazacağam. Lakin bu dəfə bir böyük ehsan barəsində yazmaq istəyirəm.

Zəngəzur yollarının zəhmətləri, ağırlığı nə qədər varsa, hamıdan artıq "Mıxtökənlər" deyilən iki dağ yollarının zəhmətli və ağır olmaları məşhurdur – "Bala Mıxtökən" və "Böyük Mıxtökən". Bu yol nə üçün böylə adlanmışdır? Çünki yolu ancaq at ilə keçmək olur və yol o qədər ağırdır ki, at həman yolu başa çıxanadək nalının mıxları tökülür.

Qopulmaz qaya daşlardan ibarət olan bu iki dağ yolları Zəngəzurun ticarəti və bəlkə də ümumi həyatı üçün böyük bir maneə təşkil edir. Bu maneəni rəf etmək [aradan qaldırmaq] Zəngəzurdan böyük bir bəlanı rəf etmək idi. Bu iki bəlanın birisi ilə mübarizə etməyi Zəngəzur uyezdində "Zarıslı" deyilən bir kəndin sərvətdarlarından Mürsəl nam [adlı] bir şəxs öz öhdəsinə çəkibdir. Zarıslı Mürsəl 30 min manat ianə edib, öz zəhməti ilə Böyük Mıxtökən deyilən dağın ətrafından meşəni qırdırıb gözəlcə bir yol açmağa iqdam etmişdir [girişmişdir]. Mürsəlin fəhlələri bir ay tamamdır ki, işə şüru edib [başlayıb], bu gün sabah yolu tamam etməkdədirlər.

Mürsəlin bu ehsanı öylə bir xudapəsəndanə [Allahın xoşuna gedəsi] böyük ehsandır ki, onun misli-bərabəri genə də ikinci Bala Mıxtökəni qayırtdırmaq ola bilər.

Zarıslı Mürsəlin 30 min xərc çəkməsi və baxüsus [xüsusən] Zəngəzur kimi gözdən-qulaqdan kənar olan bir yerdə böylə bir ehsan etməsi həqiqətdə də layiqi-etina [diqqətəlayiq] bir əməldir. Mürsəlin bu hərəkəti nə afərinlər eşidib şöhrət qazanmaqdan və nə də bu əməlindən bir mənfəəti-şəxsi hüsul etmək [şəxsi mənfəət əldə etmək] fikrindən nəşət etmişdir [irəli gəlmişdir]. Buna görə, bu hərəkəti onun milli qeyrəti və hümməti olmağı sübut edir. Əsl həqiqi ehsan böylə olar ki, Mürsəl etmişdir. Allah etsin ki, böylə ehsan sahibləri çox olsun ki, Zəngəzur kimi zülmətlə örtülmüş yerlərdə işıq salmağa başlasınlar.

Danışırlar ki, ikinci Mıxtökəni də pristav müavini Teymur Axundov öz xərcinə təmir etmək fikrinə düşübdür. Allah eyləsin, yalansa da, doğru olsun. Allah Mürsəlin də ehsanını qəbul eyləsin.

*Məhəmməd Sadıq [Axundzadə]*

**Çarhan qəryəsindən**

Çarhan kəndi Şamaxı uyezdi Mədrəsə mahalının oturaq və böyük köylərindən birmincisi hesab olunur. İşbu kənd əhalisi fitrətən zəhmətkeş və çalışqan olmaqlarına görə, sair kəndlərə nisbətən

burada asari-həyat [həyat, canlılıq əlamətləri] və irəli getmiş nişanələri müşahidə olunmaqdadır.

Şamaxı şəhəri ermənilər tərəfindən yandırlıb məhv edilməzdən müqəddəm [qabaq], bu şəhərin yeganə məhsul mənbəyi Çarhan idi. Hələ xiyar, qovun, üzüm və sair meyvələri şəhərdə başqa bir mövqe tutmuşdu.

Məmafih [bununla belə], keçmiş istibdad dövründə bu kəndə çəndan [o qədər də] əhəmiyyət verilməyirdi. Belə ki, ziraət [əkin] yerləri az olduğundan dəfələrlə sabiq istibdad hökumətinə müraciət edib əkin yeri istəmişlərsə də, rica və ərizələrinə əməl olunmamış, hətta çəltik (xır) yerləri də əllərindən alınıb düyü əkməkdən məhrum edilmişlərdi. Lakin bunlar qəlblərinə fütur [süstlük, usanma] gətirməyərək bağlarında çəltik əvəzinə soğan, noxud, lobya, paxla kimi hübubat [dənli bitkilər] əkərək boş oturmamışlar.

Çarhanlıların intibah əlamətlərindən biri də məktəbə, elmə rağib və həvəsnak olmalarıdır. 1918-mci [il] 18 mart facieyi-əliməsindən [kədərli faciəsindən] müqəddəm müəzzəm [böyük] və dörd tərəfi aynabənd iki sinifli gözəl bir məktəbə malik idilər. 150-yədək oğlan və qız uşaqları həmin məktəbdə təlim və tərbiyəyə məşğul olurlardı. Həmçinin, yaraşıqlı və pürqiymət [zəngin] bir məscidləri dəxi var idi. Filhəqiqə [həqiqətən], balaca balaların dəstə-dəstə oxumağa şitaban olmalarını [tələsmələrini], cümə günlərində xalqın işdən əl çəkib cameyə rəvan olmaqlarını gördükdə adam bunları təqdir etməyə bilməzdi.

İbtidai məktəbin cənbindəki [yanındakı] sud [məhkəmə], ya ağsaqqalların məşvərət odası daha da calibi-diqqət [diqqətçəkən] idi. Məəttəəssüf [təəssüf ki], biçarələrin rövnəqi çox davam etmədi. 18 mart facieyi-əliməsində Çarhan qəryəsi [kəndi] böyük fəlakət və bədbəxtliyə məruz olaraq, dövlət və sərvətləri talan və qarət olunduğu kimi, heyvanlarının da bir qismi tələf olmuşdur.

Kəndə varid olduğum [çatdığım] zaman buranın həman kənd olub-olmadığında mütərəddid [şübhəli] qaldım. Zira, kənd büsbütün dəyişmiş, başqa bir halətə düşmüş, o gördüyüm uca minarəli məscid yandırılmış, kənardan par-par parlayan, uşaqlarımızın darüttərbiyəsi [tərbiyə evi] olan o gözəl məktəbimiz öylə yaxılmış ki, ancaq uçuq və pozuq sütunları matəm libası geymiş adam kimi gendən qaralır. Demək olar ki, kəndin bütün görünüşlü evləri qismən uçurulub yandırılmışdır. Bolşevik maskasında olan qəddar ermənilər abad olan yerləri xarabazara döndərməkdə çox məharət göstərmişlər.

Doğrudur, çarhanlıların əvvəlki varlanı, dövlətləri əllərindən çıxmış, məmafih, səyləri, çalışmaqları yerindədir. İnşallah, cavan Cümhuriyyətimizin sayəsində çalışacaqlar, həm də qeyrətlə iş görəcəklər. Şübhəsiz ki, hökumətimiz də bunların halını nəzərə alıb mayehtacların [ehtiyacları olan şeyləri] tədarük etməkdə müavinətdə bulunacaq, sentyabrdan etibarən məktəb açdırıb bir ildən bəri avara və dərssiz qalan çocuqların oxutduracaqdır.

*Əlif. Əlif.zadə*





**BATUMDAN**

**Bizə yazırlar**

- Həziranın [iyunun] 27-ci pəncşənbə [cümə axşamı] günü Batum limanına bir italyan drednotu müvasilət etmişdir [gəlib çatmışdır].

- Təmmuzun [iyulun] 1-də İtaliya əsakirinin [əsgərlərinin] ilk postasına [ilk qrupuna] Batumda intizar edilməkdədir. Şimdidən məzkur əsakirə Batumda həyat tədarük edilməkdədir. Təmmuz içində Qafqaziyaya ezam ediləcək italyan qüvayiəsgəriyyəsi [hərbi qüvvəsi] kamilən gələbiləcəkdir. İngilislər də kəza [həmçinin] təmmuz içində Qafqaziyanı kamilən təxliyə edəcəklərdir.

- Bu günlərdə millət və milliyyətimizə mənsub bir çox əşxasın [şəxslərin] kəsrətlə [çoxluqla] Batuma gəlməkdə olduqları məələsəf [təəssüflə] görülməkdə və bunların burada səfahət aləmində qayət müstərihanə [rahat] imrari-həyat etdikləri [ömür sürdükləri] müşahidə olunmaqdadır!

Sevgili vətəni-müəzzəz və müqəddəsimiz afaqında [əziz və müqəddəs vətənimizin üfüqlərində] çarizm ruhlu müstəbid və zalım Denikin və bilxassə rus könüllü qaranlıq buludları toplanarkən, bunlar hüquqi-təbiiyyə və insaniyyəmizi, hürriyyət və sərbəstiyi-həyatımızı təhdid edərkən, buna qarşı cavan Hökuməti-Cümhuriyyəmizin elan etdiyi səfərbərlik zamanı övladi-vətənin pək dürlü bəhanələrlə burada qalmaları ciddən pək çirkin və şayani-nifrət [nifrətəlayiq] bir hal kəsb etməkdədir.

Bunlar ümumiyyət etibarilə ticarətə iştiğal etdiklərini [ticarətlə məşğul olduqlarını] və bu məqsədlə buraya gəldiklərini söyləməkdə isələr də, imrar edə gəlməkdə olduqları həyati-səfihanələri kəndilərini tamamən təkzib etməkdə və həqiqəti-hal bütün çılpaqlıqla təcəlli etməkdədir [meydana çıxmaqdadır].

Binaənileyh [ona görə], böylə mühüm və pək nazik bir zamanda hökumətimizin bu kimi əşxasa [şəxslərə] vətən xaricinə çıxmaq üçün müsaidədə bulunması, bilməm ki, nasıl tələqqi edilməlidir [necə qiymətləndirilməlidir]!

Hər halda cavan Hökuməti-Cümhuriyyəmiz rəsi-karında [iş başında] bulunan namdaranın [tanınmış, adlı-sanlı adamların] bunlar haqqında icab edən tədabirişədidə və müqtəziyyəni ittixaz edəcəyini [gərəkli şiddətli və lazımlı tədbirləri həyata keçirəcəyini] qəviyyən [möhkəm] ümid ediriz.

*Yahya Hacızadə*

**ERMƏNİSTANDA**

**“Aşxatavor” yazır:**

- Ermənistan pulu çap etmək üçün litoqrafiya makinası alıb hazırlamağa hökumət 100 min manat pul təxsis etmişdir [ayırmışdır].

- Həman qəzetənin rəvayətincə, iyulun 7-də Amerika Konqresi cəm olub Ermənistan mandatı Amerika tərəfindən qəbul edilsinmi, yoxmu məsələsini müzakirə edəcəkmiş.

- Genə həman qəzetə yazır:

“Zəngəzur mis mədən sahibləri erməni hökumətinə pudu 120 manatdan 43 min pud mis təklif etmişlərdir.”

### İZHARİ-TƏŞƏKKÜR

Bakıda yaşayan əshabi-həmiyyətdən [hümmətlilərdən, yardımsevərlərdən] adını bildirmək istəməyən alicənab bir zat [şəxs] Bakıda mövcud yetimlər yurdunu ziyarətlə, çocuqların ehtiyaclarını nəzəri-diqqətdən keçirmiş və şimdilik bayram münasibətilə çocuqların maddi cəhətlərini təmin etməyi lazım bilib, bu həmiyyətli şəxs 25 min manat paradan keçib yetim yurdunda mövcud olan 152 nəfər, istər oğlan, istər qız balalarının həm əlbisələrini və həm ayaqqabılarını dəröhdə eylədi [öhdəsinə götürdü] və bu həmiyyətini də Bakı qəyur [qeyrətli] xanımlarının yardımı ilə vücuda gətirib, ərəfə günü [bayram axşamı] çocuqları təzə əlbisələrlə, təzə ayaqqabılarla sevindirdilər. İştə bu həmiyyətli alicənab əfəndi həzrətlərinə həm yetimlər yurdu və həm xanımlar tərəfindən ərzi-təşəkkürlər etməklə, böylə alicənab şəxslərin əmsalını artıq eyləməsini Xudayi-mütəalidən [uca Allahdan] diləriz.

*Şəfiqə Əfəndizadə*

### İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm!

Rica edirəm, mənim bir qaç kəlmə cavabımı qəzetənizin sütunlarında dərc edəsiniz.

İyul ayının 6-dakı nömrənizdə mənim haqqımda bu məzmunda bir məktub yazılmışdı:

*"Neçə gündür ki, Əliheydər Qarayev Tağıyev fabrikasına gəlib, vaxt-bivaxt mitinqlər düzəldib hökumət əleyhinə ağzına gələn nalayiq sözləri söyləyir. Məsələn, yoldaşlar, hökumət sizə düyü, un verib sizi öz tərəfinə çəkir, aldanmayın. Bizə öylə hökumət lazım deyil. Bizim yoldaşlarımız, hansı ki, Aşqabaddadır, Hacı-Tərxandadır [Həştərxandadır], bu yaxın zamanlarda gəlib çıxar. Biz Şura hökumətindən başqa hökumət tanımayırıq."*

Bu məzmunda kağızın da birisi "Azərbaycan" (rusca) və "İstiqlal" qəzetələrində çıxmışdı. Mən vaxtı-vaxtında öz cavabımı həmin məktub sahiblərinə verdim. Mən yenə də təkrar edirəm ki, bu söylənən sözlər həqiqətdən kənar və böyük fitnə və iftiradır. Mən böylə sözləri fabrikada əmələlərə [fəhlələrə] söyləməmişəm və söyləməyə də ehtiyac yoxdur. Çün orada olan mitinqlərin bəratülqövllərini [protokollarını] oxursanızsa, onda görərsiniz ki, həmişə fabrikada həll olan məsələlər, tamamən fabrikada bulunan əmələlərin halına dair məsələlərdir.

Və bir də söylənir ki, guya orada mən vaxt-bivaxt mitinqlər yapıram. Bu, iftiradır. Çün mən heç vaxt iş vaxtı fabrikaya getməmişəm. Əgər mitinq olarsa, olar ancaq saat 6-da axşam, ya cümə günü.

Bir də fitnəçilər araya şuluqluq salmaq məqsədilə söyləyirlər ki, guya fabrika əmələləri oradakı "Müsavat" firqəsinin lövhəsini də yerə salıb ayaqlamışlar. Kamali-ciddiyyətlə buna da etiraz edib, fəhlələrin böylə bir alçaq iş yapmadıqlarını izhar edirəm.

Bununla idarəyə məlum edirəm ki, mənim haqqımda yazılan böhtanı bu gün Ədliyyə divanxanasına göndərirəm. Ədalət divanı müfəttinləri [fitnəkarları] özü tənbeh edər.

*Parlaman üzvü Əliheydər Qarayev*





**İdarədən**: Qarayev əfəndi haqqında yazılan məktubu uzun müddət idarəmizdə saxlayaraq, ancaq sair qəzetələrdə eyni məzmunda yazıldıqdan sonra dərc etdik. Şimdi Qarayev əfəndinin məktubunu da dərc ediriz. Fəqət bunu da əlavə etməliyiz ki, möhtərəm Parlaman üzvü əfəndi fitnə adlandırdığı fəqərəni [hadisəni] təkzib etməyərək, ancaq vaxt-bivaxt deyil, bir cümə günləri, bir də sair günlər saat 6-dan sonra mitinq qurduğunu bəyan edir. Bizcə, mitinq hər dəqiqə olammaz. Saniyən [ikincisi], haqqında yazılan sözləri təkzib etmək əvəzinə fabrikada vüqu bulmuş olan iclasların bəratülqövlünə and içməklə iktifa [kifayət] edir. Zənn edərsək, bu, kafi deyildir.

**İtibdir**

Balahəsən İman oğlunun Zəngəzur qəzasından aldığı pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5407*

**İtibdir**

Hüseyn Kamil oğlunun Suraxanıdan aldığı pasportu itibdir. Etibardan saqitdir.

*5408*

**İtibdir**

Əliabbas Nəsrulla oğlu Turabovun Bakıdan aldığı 5 illik pasportu itibdir. Etibardan saqitdir.

*5413*

**Qaçmışlar**

İyulun 1-də Şamaxı dairəsində 1 madyan və 2 at balası, birisi sarı, digəri isə boz, qaçmışlar. Yerlərini bilənlərdən xahiş olunur bəxşiş alaraq, telefon nömrə 33-31 vasitəsilə məlum etsinlər.

*5410*

**Təzə pianino**

"Offenbaxer"; xarici fabrika malı, iyirmi min (20000) manata, ittifaqən [təsadüfən] satılır. Ünvan: Kolyubakinski və Krivoy küçələrin küncündə musiqi mağazası "Vastoçnaya lira".

*5409*

**Satılır**

Ucuz qiymətə ingilis malından hər cür hazır kostyumlar, Busloviçin mağazasında. Korçakovski nömrə 12, telefon nömrə 24-70.

*5406*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Bəhri-Xəzər dənizində passajir və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

***Müvəqqəti müdir: Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**Kinoteatr "Renessans"**

səh. 99. "Renessans": Bakı şəhərində, Torqovı (indiki Nizami) küçəsində fəaliyyət göstərmiş kinoteatr. Sovet dövründə əvvəlcə "Proletariy", sonra "Vətən" kinoteatrı adıyla fəaliyyətini davam etdirmişdir.

"məşhur «Transatlantik» adlı Amerika trestinin 6 seriyada 18 dövr və 38 hissə, misli görünməmiş Amerika ictimai və cinayət dramalı şəkillərinin birinci seriyası": mətnin bu hissəsində bəzi sözlərin yeri səhv düşmüş, qəzetdə belə getmişdir: "Amerika trestinin 6 seriyada 18 dövr və 38 hissə, misli görünməmiş məşhur «Transatlantik» adlı Amerika ictimai və cinayət dramalı şəkillərinin birinci seriyası".

**İttifaqən**

səh. 100. "birjevoy fayton": "bahalı, elit fayton" mənasında işlədilirdi.

**Qismi-rəsmi**

səh. 100. "prixod": camaatın ianələri hesabına saxlanan yerli dini icma.

**Teleqraf xəbərləri**

səh. 101. "Libava": Latviyanın cənub-qərbində, Baltik dənizi sahilində indiki Liepaya şəhəri.

səh. 102. "Ulmanis": qəzetdə "Ulman" getmişdir.

"omnibus": çoxyerli ictimai nəqliyyat növü; avtobusun əcdadı hesab olunan ilk omnibusları atlar çəkirdi.

"Yamburq şosesi": Rusiyanın Leninqrad vilayətinin Kinqisepp şəhərində şose.

**Qəzetələrdən**

səh. 104. "Müttəfiq və Mötəlif dövlətlər": Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyası, Bolqarıstandan ibarət olan İttifaq dövlətləri (Mərkəzi dövlətlər) və Böyük Britaniya, Fransa, Rusiyadan ibarət olan Etilaf (Antanta) dövlətləri.

**Bir əldə iki qarpız tutanlar!**

səh. 106. "Müshəfə müqabil": Quran kimi, Quran əvəzi (istehza ilə).

"F. A.": "Azərbaycan" qəzetində bu imza Fərhad Ağazadəyə məxsusdur.

**Erməni cümhuriyyətində müsəlmanların yaşayışı**

səh. 107. "Dəlmə": İrəvanın məhəlləsi və münbit bağları ilə məşhur ərazisi olmuşdur.

Müasirləşmək

səh. 108. "Avropa mədəniyyəti-möhtəşəməsi ilə mütəməddin": qəzetdə "mütəməddin" [mədənilaşmiş] yerinə "mütədəyyin" [dindar] getmişdir.

**Üşr məsələsi**

səh. 109. "üşr": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan dini vergi.

"əvvəli-cüz": keçmişdə məhəllə məktəblərində dərsə (cüz adı verilən əlifba kitabına) başlamaqla bağlı mərasim və verilən hədiyyələr.

"isqat": ölünün guya günahlarını yumaq üçün verilən sədəqə.

"təqsim": "bölmə, bölüşdürmə" deməkdir; miras, alacaq kimi şeylərin şəriətə uyğun bölünməsi nəzərdə tutulur.

"Bəndə; mollanın ziddi, ya düşməni deyiləm.": "mən" yerinə təvazökarlıq əlaməti olaraq "bəndə", "fəqir", "aciz" kimi sözlər işlədilirdi.

"Onun üçün deyirəm ayda 400 manat hökumətə verim, nəinki bunun müqabilində bir də hökumətdən alım.": bu cümlə qəzetdə belə getmişdir: "Onun üçün deyirəm ayda 400 manat hökumətə verim, olduğum nəinki bunun müqabilində bir də hökumətdən alım."

səh. 110. “xüms”: varlıların öz qazancının beşdə biri miqdarında verməli olduqları dini vergi.

“hücrə”: məscidlərdə, mədrəsələrdə yaxud təkyələrdə kiçik otaq; “hücrə bucağından gələnlər” deyərkən, xüsusən mədrəsə və təkyələrdə təhsil almış adamlar nəzərdə tutulur.

**“Vətən” şeiri (s. 110-111)**
**üçün lüğət:**

əbsəm: lal; səssiz

madəri-mehriban: mehriban ana

canu-tənim: canım və cismim; ruhum və bədənim

paymal olmaq: ayaq altında qalmaq, tapdalanmaq

madəri-müşfiqi-əhali: camaatın şəfqətli anası

Hali-əsrə nə gunə halisən?!: Zəmanəmizdən, müasir dövrdən nə dərəcədə xəbərdarsan?!

İsməti-madərin mühafizidir: Anasının ismətini qoruyandır

hərəm dəvairi: hərəm otaqları

divi-mənhus: uğursuz, nəhs div

vəli: ancaq

əjdahayi-fasiq: fitnəkar, dinsiz əjdaha

Akili-cümleyi-xəlaiqdir: Bütün adamları, bütün xalqları yeyəndir

vüfur: bolluq; çoxluq

sər: baş

sələf: keçmişlər; əcdadlar; ata-babalar

xələf: oğullar

vürud: gəlmək

kuh: dağ

Eşq oduyla dilin kabab eylə: Ürəyin eşq odu ilə kabab eylə

bəqa: əbədilik, ölməzlik

mücavir: türbə xidmətçisi

Rüstəm: Əfsanəvi İran qəhrəmanı Rüstəm Zal, yaxud Zal oğlu Rüstəm. Şərq folklorunda və ədəbiyyatında güc-qüvvət rəmzi kimi işlədilir.

Söhrab: Əfsanəvi İran qəhrəmanı; həmçinin “Şahnamə”nin əsas qəhrəmanlarından biri; Rüstəmin oğlu.

**Azərbaycanda**

səh. 116. “Nöqsanını bil, bir işə ya eyləmə iqdam, / Ya başladığın karı pəzirayi-xitam et!”: “Ya öz əskikliyini bil və bir işə heç başlama, yaxud da başladığın işi başa çatdır!”; beyt Osmanlı şairi Ziya paşanındır.

səh. 118. “1918-mci il 18 mart facieyi-əliməsi”: 1918-ci ilin 31 Mart soyqırımı nəzərdə tutulur.

**Batumdan**

səh. 119. “drednot”: zirehli hərbi gəmi; drednout.

**Təzə pianino**

səh.121. “Offenbaxer” [Offenbacher]: Alman piano markası; bir sıra şəhərlərdə, o cümlədən Peterburqda da fabrikləri olmuşdur.

“Krivoy” (yaxud Krivaya): Bakıda küçə olmuşdur; hal-hazırda Fəvvarələr meydanı ərazisinə daxil edilmişdir.





**Çərşənbə, 9 iyul 1919-cu il, nömrə 220**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 10 şəvvalül-mükərrəm sənə 1337. 9 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## AZƏRBAYCAN CÜMHURİYYƏTİ BAKI ƏRKANİ-HƏRBİ-ÜMUMİ DAİRƏSİNİN MÖVQE BRİQADASI KOMANDANLIĞINDAN ƏSGƏR ALINMIŞLARIN KƏNDİLƏRİNƏ VƏ [ƏQRƏBALARINA] BUNUNLA ELAN OLUNUR

1915-ci sənəlik təb [nəşr] olunmuş Xidməti-Əsgəriyyə qanununun 297-ci maddəsinə istinadən xidməti-əsgəriyyəyə alınmışların kəndiləri və əqrəbaları, liva (uyezd) əxzi-əsgər [hərbi çağırış] müdiriyyətinin əsgər hesab etmək feilini qanunən doğru bilməyərək, əsgərlikdən azad olmaq qəsdilə liva əxzi-əsgər müdiriyyətlərinin üzərinə şəkvə [şikayət] vermək istərsə, şəkvəsini məzkur [deyilən] müdiriyyətlərin qətnamələri elan olunandan dörd həftə keçənə qədər, doğruca Mərkəz Azərbaycan Əxzi-Əsgər Dairəsinin adına verməlidir. Zira, ancaq Mərkəz Əxzi-Əsgər Dairəsi[nə] öylə şəkvələrə baxaraq, icabına görə yeni qərar çıxarmaq səlahiyyəti verilmişdir.

Ailəsində hüsula gəlmiş yeni təğyirat [dəyişikliklər] dolayısıyla əsgərlikdən azad olmaq üçün veriləcək ərizələr isə doğruca livalarda mövcud liva əxzi-əsgər müdiriyyətlərinə verilməlidir. Ərizələr mövcibi [əsasında] əsgərlikdən azad olmaq məsələsi müdiriyyətin qətnaməsinə vabəstədir [bağlıdır].

Balada [yuxarıda] yazılmışları nəzərə alaraq, öylə misillü [o kimi] şəkvə və ərizələri heç lüzumu olmadığı halda əsgərə alınmışların özləri və ya əqrəbaları, icabına baxılması üçün Hərbiyyə Nəzarətinə verməməlidir. Bu və yaxud o səbəbdən dolayı əsgərlikdən azad olmaq istəyənlər, Hərbiyyə Nəzarətinə, əsgərlikdən azad olunmaq barəsində verilən şəkvələrə baxaraq yeni qərar çıxarmaq səlahiyyəti verilmədiyini bilməlidirlər. Binabərin [ona görə], öylə ərizələri Nəzarət səhvən göndərilmiş övraqlar [sənədlər] sırasında öz tərəfindən əxzi-əsgər dairələrinə göndərməyə məcbur olur və məzkur səbəbdən dolayı Mövqe Briqadası Komandanlığı idarəsi fəzlə [artıq] övraqlar ilə doldurulduğundan başqa, Əxzi-Əsgər qanunu mövcibi məzkur müdiriyyətlərin qətnaməsini Əxzi-Əsgər qanunu mövcibi [qanununa görə] şəkvə [şikayət; etiraz] etmək üçün qonulmuş dörd həftə müddət ötə də bilər.

*Miralay [polkovnik]*
*[Vladimir Fyodoroviç] Klementyev*
*T-170*

**HÖKUMƏT TEATROSUNDA**
**AXŞAM TAMAŞASI**
**DRAMA**

Pəncşənbə [cümə axşamı] günü iyul ayının 10-unda (şəvvalül-mükərrəm ayının 11-ində) 1919-cu ildə Seyyid Şişəli və opera artisti Sarabski tərəfindən birinci dəfə olaraq **ŞƏRQİ KONSERT** veriləcəkdir. Oxunacaq milli türk nəğmələri, mövqeyi-tamaşaya qoyulacaq

**AZƏR-BAY-CAN**

İki pərdədə. Əsəri-İsa bəy Aşurbəyli.
İştirak edənlər:
Zəmanəyə dair şeirlər oxuyacaq Mirzəağa Əliyev; məzhəkə kupletlər deyəcək Darablı və Anaplı, deklamasiya Abbas Mirzə Şərifov, tar çalacaq məşhur tarzən Cəmil Əmirov və Şirin [Axundov]. Yetim segah oxuyacaq xanəndə İslam [Abdullayev].
Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9 tamamda.

*5555*

## TELEQRAF XƏBƏRLƏRİ

London – Ser Horas Planket tərəfindən tərtib edilib də, İrlanda Cəmiyyəti tərəfindən elan edilən manifestdə İrlanda müstəqil bir məmləkət elan edilmişdir. Manifestdə denilir ki, İrlandiya Vestminsterdə sair muxtar məmləkətlər sırasında Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] təqdim ediləcəkdirlər. İrlanda qanuni-idarəsi [idarə qanunu] İrlanda Parlamenti tərəfindən təsdiq ediləcəkdir. Bütün ingilis cəzirələrinin [adalarının] müdafiəsi ümumi kontrol altında qalacaq, fəqət İrlanda Parlamanının ixtiyarı vardır ki, İrlanda əhalisini səfərbərliyə dəvət eyləsin.

Moskva – Həmkarlar İttifaqı başqa bolşevik müəssisələri ilə bərabər, ümum kəndçi və əmələlərə bu məzmunda bir intibahnamə [bəyannamə] nəşr etmişlərdir:

Kazak qarətgərləri sizin yanınıza halqanizə [qılınc və qamçı] ilə gəlirlər. Onlar bizim taxılımızı yandırıb, əkinləri pamal edib [tapdalayıb], yaxşı və çalışqan əmələləri kəsirlər. Bu axırlarda bizimlə qızğın müharibələrə girişirlər. Kolçak hökuməti və onun ordusu Qırmızı qoşunlar və arxada üsyan edən əmələlər tərəfindən pərişan edilmişlərdir. Qırmızı qoşunlar Kolçakı məğlub etmişlər, Denikini də edəcəklərdir. Biz bütün cahanda qəti qələbə çalacağımıza iman edərək, bütün zəhmətkeş xalqı dəvət ediriz ki, qəti qələbə üçün, bolşevizmin möhkəmləşməsi üçün qəti qələbəyə girişsinlər. Yaşasın səfərbərliyimiz, yaşasın amansız müharibə və Denikin, Kolçak üzərinə olacaq qəti qələbəmiz.

Kiyev – Rakovski bəyan eyləmişdir ki, Poltava və Xarkov dairələrində əhval möhkəmdir. Düşmənlər bu yerlərdə irəliləməyir, bəzi yerlərdə hətta geriyə püskürdülmüşdür. Cənub cəbhədə təbəddülat [dəyişiklik] var, Şura qoşunları bu yaxınlarda hücuma keçəcəkdirlər. Kiyevdə nəşr olunan “Əxbar” [“İzvestiya”] qəzetəsi yazır ki, bu böhran da qurtarmaq üzrədir. Bəzi yerlərdə Qırmızı qoşunlar cavab verməkdədirlər.

**Lenin əhvali-hazirə barəsində**

Moskva – İcra Komitəsində vaqe iclasda Lenin demişdir:

Bizim vəziyyətimiz keçən ilkinə nisbətən möhkəm və gözəldir. Nə qədər ki, Denikin ordusu irəliləyir, bir o qədər də fəlakətə yaxınlaşır. İndi fərari saldatlar gəlirlər və onların axıntısı o qədər çoxdur ki, onları qoşun cərgələrinə daxil etməyə belə fürsət bulammayırız. Biz şərq cəbhəsində öhdəmizə aldığımız vəzifəni ifa edirik. Yaxın bir zamanda bizim ordu Sibiryada üsyan edən kəndçilər ilə birləşəcəkdirlər. Minyar zavodu bizim əlimizdədir. Uralda kəndçilər və əmələlər inqilabı müdafiə və mühafizədən ötrü heç bir fədakarlıqdan geri durmayırlar. Yalnız Rusiyada deyil, bütün cahanda inqilab qələbə çalacaqdır.

**Könüllü ordu arxasında**

“Borba” qəzetəsi yazır: Denikin ordusu arxasında üsyan hərəkəti getdikcə artır. Şayiata [şayiələrə] görə asilər, Debaltsevo və Lopasnyanı işğal etmişlərdir. Yekaterinoslavdan çıxmış olan dəmiryol əmələləri deyirlər ki, bütün şəhərdə külli əmələlər həbs və edam edilir. Yemelyovka dairəsində 1000 nəfərdən ziyadə əmələ, arvad və uşaq həbs edilmişdir. Əvvəlinci dörd gündə 30 min nəfərdən ziyadə sosialistlər atılmaqla edam edilmişlərdir. Piyan [sərxoş] kazaklar şəhər içində gəzərək, “Vurun ziyalıları” deyə qışqırırlar. Hər cür mal gətirmək tərk edilmişdir. Bahalıq dəhşətli bir hal kəsb eyləmişdir [hal almışdır]. Əmələlər əksəriyyətlə şəhəri tərk edirlər.

## SÜLH ƏTRAFINDA

Paris – Fransa Rəisi-cümhuru lazım bilir ki, birlik mühafizə edilsin, tainki tezliklə Avstriya, Bolqariya və Türkiyə ilə də sülh müahidənaməsi [sazişi] bağlanıb qurtarsın. Almanların gəmilərinin qərqi və fransız bayraqlarının yandırılması münfəillik [həyəcana gəlmə, hirslənmə] əlaməti olmayacaqdır. Bütün Müttəfiqlərin yaradıcı işləri sayəsində sülhə nail olmaq olar.

İngilis radiosu – Sülh müahidənaməsi gücə minmədikcə sülh müahidənaməsinin qətiyyən əqd edildiyini zənn etmək olmaz. Beş böyük dövlət parlamanı və onlara dost olan dövlətlər tərəfindən müahidənamə təsdiq edildikdən sonra sülh qövldən feilə [sözdən işə] çıxacaqdır.

## QƏZETƏLƏRDƏN

**Hindustanda**

“Tayms” qəzetəsinin Bombay müxbiri yazır ki, Hindustan Konqresinin son iclasında Malaviya təklif eyləmişdir, Lloyd Corca, Monteqyoya və Lord Sincə teleqramlar göndərilib Hindistanın dəhşətli halına onların diqqətləri cəlb edilsin və göstərilsin ki, İngiltərənin Hindustan siyasəti kökdən dəyişilməlidir. İclas təəssüf edərək Hindustanda olan hadisəni müzakirə edərək, hinduların əleyhinə olan Roulatt qanununun əleyhində bulunmuşlar.

İclas qərar qoymuşdur, İngiltərə Hökumətinə müqəddəs müsəlman şəhərlərinin işğalı münasibətilə müsəlmanlar arasında olan həyəcanı bildirsin. İclas xüsusi bir komitə təşkil eyləmişdir ki, axırıncı hadisələr təhqiq edilsin və İngiltərə nazirlərinə məsləhət görürlər ki, cəza siyasətini dəyişdirib Hindustanın qanuni tələblərinə əməl və müsəlmanları həyəcana salan Roulatt qanununu ləğv eyləsin.

**Çində**

Qafqaziyada olan Müttəfiq dövlət nümayəndələri xəbər verirlər ki, Vaşinqtondan verilən xəbərlərə görə, Şanxayda yapon mallarına boykot elan edilmişdir. Yaponiyalılar əksinə [əleyhinə] hər gün nümayişlər yapılmaqdadır. Yaponları Çindən çıxarıb qovmağa dəvət edici lövhələr çıxarılır. Çində olan bu hadisələrə görə yaponiyalıların həyatını və əmvalını [mallarını] mühafizədən ötrü "Suma" və "Saqo" krauzerləri [kreyserləri] Şanxaya getmişlərdir.

**Baltik dənizində**

Eston məlumatına görə, Almaniya tərəfindən mütarikə [atəşkəs] şəraiti xələldar edildiyi münasibətilə, Riqadan Koppeburqa qədər məsafədə Baltik dənizində alman əsgərlərinə qarşı müharibə hərəkatı təzələnmişdir.

*Bolşevik teleqrafları*

**İtaliyada**

İyulun 3-ündə Romadan xəbər verirlər ki, əkinçi nümayəndələri ictimasında [yığıncağında] tezliklə yerlərin milliləşdirilməsi qətnaməsi qəbul edilmişdir. Kəndlilər mülkədarların yerlərini zəbt etməyə başlamışlardır.

**Tətil hərəkatı**

İtaliyada tətil hərəkatı artmaqdadır. İngiltərədə halət inqilabcuyanədir [İngiltərədə inqilabi vəziyyət var]. Almaniyada olan ümumi tətillər burjuaziyanı qorxutmaqdadır. Denikin hücum edirsə də, füqərayi-kasibə də hücum etməkdədir. Bolşevik Rusiya hökumətinə qorxu yoxdur.

**Petroqradda**

Petroqradı mühafizə etməkdən ötrü ehtiyat alayları təşkil etmək üçün Həmkarlar İttifaqı Şurasında ərkani-hərb [hərbi qərargah] idarəsi vücuda gətirilmişdir. Alaylara minlərcə könüllü yazılmaqdadır.

**Menşeviklər**

Kiyevdən xəbər verirlər ki, menşevik qəzetəsi "Naşe slovo" bolşevik hökumətini xəbərdar edir ki, Denikinlərin qalibiyyəti olarsa nəinki bolşevizm, hətta bütün füqərayi-kasibə [proletariat] bir çox illər əzilmiş olacaqdır. Qəzetə fəhlələri firqə münaziəsini [qovğasını] unudub, inqilabı xilas etməkdən ötrü mübarizə üçün cəbhəyə getməyə dəvət edir.

**İngiltərə fəhlələri və Rusiya**

İyunun 4-ündə Liondan xəbər verirlər ki, İngiltərə fəhlə təşkilatlarının konfransı bir milyon altı yüz min səslə bolşevik Rusiya ablukasının [blokadasının] ləğv olunmasını tələb etmişlərdir.

**Dağıstanda**

Məlum olduğu üzrə Şimali Qafqaziya denikinlilər tərəfindən işğal edilən zaman, Cəbaliyyun İttihadı Parlamanı [Birləşmiş Dağlılar Parlamenti] tərxis edilmişdi. Şimdi "Dağıstan" qəzetəsində dərc edilmiş 17 iyun tarixli bir əmrnamədən görülür ki, general [Mikayıl] Xəlilov əmriylə müvəqqət bir Vilayət Şurası dəvət edilmişdir.

**İştə əmrnamə:**

Dağıstan Məclisi-Ümumisi ictima edincəyə [yığılana] qədər, Müvəqqəti Vilayət Şurası atidə əsamisi yazılan zəvatdan [aşağıda adları yazılan şəxslərdən] təşkil edilir:





1) General-mayor Hacı Murad;

2) Polkovnik C[əmalüddin] Musalayev;

3) Hökumət Təftiş Heyətinin sədri [Danyal] Apaşev;

4) Xalq xozyaystvası [xalq təsərrüfatı] müdiri Əlihəsənov;

5) Dağıstan Rəisi-hökumətinin kanselyariya direktoru Bədəvi Səidov;

6) Xalq xozyaystvasının vəkili mühəndis Hacıyev.

Məzkur əzalar [deyilən üzvlər] həftədə iki gün – bazar ertəsi və pəncşənbə [cümə axşamı] günləri axşam saat yeddidə Rəisi-hökumətin kanselyariyasında ictima etməlidirlər [yığılmalıdırlar].

*İmza etdi general-mayor*
*[Mikayıl] Xəlilov*

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

- Türüq və Məabir [Rabitə və Nəqliyyat] nazirinin xidmətçilərə dəmir yollarıyla getmək üçün məccani [pulsuz] bilet və naryad vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Bütün nazirlərə tapşırılsın ki, dövləti xidmətçilərə dəmiryollarıyla getmək üçün məccani bilet vermək məsələsini Türüq və Məabir Nəzarəti ilə Dövləti Kontrola irsal etsinlər [göndərsinlər].

- Ədliyyə nazirinin Azərbaycan daxilində idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] elanı ilə bir çox cinayət işlərinin ümumi məhkəmədən alınıb Hərbiyyə məhkəməsinə verilməsi təqdiriylə hökumət qərardadlarının ləğvi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1919-cu sənənin 24 iyununda elan edilmiş idareyi-örfiyyə qanunları mövcibincə [əsasında] hökumət qərardadlarından fəqət Dövləti Müdafiə Komitəsi vəzifəsindən kənarları qüvvəti haizdirlər [qüvvədədir]. Mabaqisi [qalanı] isə ləğv edilməlidir.

- Bakıdakı Müttəfiqlər Komandası nəzdindəki Dabravol ordusu nümayəndəsi, general Erdeli və general Popov vasitəsilə alınmış teleqramın surətini Azərbaycan Hökuməti Rəisi-vükəlası [Baş naziri] ilə Britaniya Komandanlığına təqdim etmişdir:

*"Rica edirəm təkrar Azərbaycan Hökumətinə xəbər verəsiniz ki, Azərbaycan tərəfindən Dabravollar əleyhinə düşmənanə hərəkat baş verməzsə, qoşunlarımız Dağıstanın hüdudu, yəni Samur nəhrini keçməyəcəklərdir. Azərbaycanı Rusiyanın bir hissəsi saydığım üçün işbu məsələnin Rusiya Məclisi-Müəssisanı qətinədək Azərbaycanı tanıyaraq, əleyhinə heç bir hərəkati-düşmənanə ibraz etməyəcəyəm.*

*General Denikin,*
*miralay [polkovnik] Lazarev."*

Bu kağızdan dolayı Britaniya Komandanlığından Rəisi-vükəla namına [adına] alınan təliqənin [rəsmi məktubun] surəti:

*"Azərbaycan Cümhuriyyəti Rəisi-vükəlası həzrətlərinə Dabravol ordusu nümayəndəsinin təliqəsi surətini bu gün iyulun 7-sində aldım. Həzrətlərinizə məlum edirəm. Təliqədə göstərilən demarkasyon xətti Britaniya Hökumətinin 13 iyunda sizə təqdim etdiyimiz qətnaməyə uyğun deyildir. Baş Komandanlığa xəbər verilmişdir.*

*Bakı dairəsindəki İngiltərə*
*qoşunları komandanı: Şattlvort."*

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

* Suraxanı dairəsi fəhlələri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən rica etmişlərdir ki, bir çox firmalar 12 və 31 mart, 1 və 28 mayıs və 13 iyun tətil günləri məvaciblərini verməkdən imtina etdikləri üçün bu barədə lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

Məsai naziri kağızı Baş Fabrika müfəttişinə göndərərək məvaciblərin verilməsi barəsində təcili binagüzarlıqda bulunmasını tənbeh etmişdir [tapşırmışdır].

* Sayad Xızı icması Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətlə məlum etmişdi ki, kənddə səhiyyə və tibbiyyə müavinəti bulunmadığından, lazım gələn vaxtda bilavasitə Bakıya müraciət edilir. Halbuki bu qayət müşkül olur. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Səhhəti-Ümumiyyə Nəzarətindən rica etmişdir ki, heç olmazsa orada feldşer məntəqəsi güşadı [açılması] üçün lazımi tədabir ittixaz edilsin.

*Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Vükəla Şurası nəzdində təşəbbüsatda bulunmuşdur ki, bir "Azərbaycan Cümhuriyyəti təqvimi" nam kitabça çıxarmaq üçün Nəzarətə icazə və xüsusi məbləğ verilsin.

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti korlara müavinət lüzumunu təcili hesab etdiyi üçün Vükəla Şurasından rica etmişdir ki, kor çocuqlar üçün məkatib, qocalar üçün isə darüləcəzələr [qocalar evi] güşadı və təşkilinə Nəzarətə [Nazirliyə] icazə verilsin.

* "Aqr" cəmiyyəti zavodu müdiriyyəti Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, bir İngiltərə su nəqliyyatı işləri bitdiyindən naşi [ötrü] zavodun fəaliyyəti 75 faiz azalır. Binaənileyh [ona görə], 83 fəhlədən 23-ü əzl edilməlidir [işdən çıxarılmalıdır]. Fəhlələr Məsai Nəzarətinin təsdiqi üzrə əzl edildiyi icabilə müdiriyyət rica etmişdir ki, bu babda lazımi binagüzarlıqda bulunsun. Məsai Nəzarəti təliqəni [rəsmi məktubu] Baş Fabriçni müfəttişə irsalən [göndərərək], məsələni təhqiq etməyi tapşırmışdır.

* "Şibayev və kompaniyası" firması müdiriyyəti Məsai Nəzarətinə müraciətən məlum etmişdir, Balaxanıdakı 4 nömrəli mədən dairələrinin vaxtı bitdiyi üçün mədən qapanaraq, fəhlə və xidmətçiləri əzl ediləcəklərdir. Məsai Nəzarəti təliqəni Baş Fabriçni müfəttişə göndərərək məsələni məhəllində [yerində] təhqiqlə nə kimi tədabir ittixazı lüzumunu Nəzarətə bildirməyi tapşırmışdır.

* Toxucular İttifaqı İdarəsi Məsai Nəzarətinə məlum etmişdir ki, üç günədək 100 faiz məvacib artırılması məsələsi həll edilməzsə, fəaliyyət təşəbbüsatını İttifaq kəndi əlinə alacaqdır.

Məsai Nəzarəti Baş Fabriçni müfəttişə müraciətən xəbər vermişdir ki, məsələ həllindən ötrü etilaf [uzlaşma] komisyonu təşkil edilərək, nəticə haqqında Nəzarətə məlumat verilsin.

* Neft mədənləri xidmətçiləri və fəhlələrinin müştərək İttifaqı idarəsi Məsai Nəzarətinə müraciətən rica etmişdir ki, xəstəxana xidmətçiləri komitələrinə olan əlaqə haqqında İttifaqa məlumat verilsin:

1) Həman xidmətçilər komitəsi məsələsi ləğv edilmiş.

2) İşbu məsələ yeni müştərək müqavilənamə [kollektiv müqavilə] tərtibiylə həll edilməlidir.

**İŞLƏRİMİZDƏ HƏRCÜ-MƏRCLİK**

Hər şeyin ilk yaradılışında, ilk təşəkkülündə bir çox nöqsanlar olur, ibtidailiklər görünür. Dürlü mövcudiyyət, hər növ təsisat mütləq təbiət qanununa, qanuni-tədric və təkamülə təbəiyyətlə [tabe olmaqla] möhkəmləşir!

Təbiətə zor etmək, tərəqqini sürətlə istəmək, səy ilə kamala çatmaq olmaz de[yə]rlər. Bunlar çox doğru! Lakin burası da daha ziyadə doğrudur ki, hər tərəqqini, hər kamalı yalnız təbiət əlinə buraxmaq da təbiəti, Allahı tanımamaqdır. Çünki tərəqqi və kamal, təbiətin təsirindən artıq səy və ictihadın [cidd-cəhdin] dərəceyi-qüvvətinə tabedir.

Cahanı nöqteyi-kamal və səadətə daha sürətlə sövq edən "inqilablar", təbiətin seyri-adisindən, cərəyani-bətisindən [yavaş cərəyanından] ziyadə təsirati-"fövqəladə"sindən, məsaiyi-şəkil-bərəndazındandır [bir şeyin şəklini, formasını dəyişdirən səyindən, çalışmasındandır].

Hər şeyi cərəyani-adisində buraxmaq, bir fəaliyyət, bir təcəddüd [yeniləşmə] göstərməmək hər şeyə, hər zərərə razı olmaq deməkdir.

İştə, bu həqiqət tam mənası ilə bizim hökumət adamlarında və işlərində görünməktədir: hər yanda bir tənbəllik, cümləmizdə bir süstlük, həpimizdə bir ümidsizlik, ifrat dərəcədə bir ehtiyatlıq, daha doğrusu köhnəpərəstlik var. Fəaliyyət, əmniyyət [əminlik], ümidvarlıq, cürət, ciddiyyət, mətanət, sədaqət, fədailik, yenilik az və ya yox. Kimsənin xatiri qalmasın. Bir qaç fədakar ricali-hökuməti [hökumət adamını] müstəsna tutarsaq, həpimiz bir çeşid, bir təbiətdə tənbəl və mənfəətpərəstiz. Bu tənbəllik, bu qeydsizliyimiz [laqeydliyimiz] hökumət, yəni millət şərəfinə, heysiyyətinə, mənfəətinə maddi və mənəvi böyük zərərlər vurmaqdadır.

Mənafeyi-ümumiyyəyə [ümumi mənafeyə, xalqın mənafeyinə] xidmət etməyə, haqq və camaat rizası üçün çalışmağa alışmamışız. İnanınız, çoxumuzun fikir və xəyalı xüsusi mənfəətdir. Millət və hökumət düşüncəsi, xəzinə faydası birər bəhanə, birər lafdır [boş sözdür]. Bütün hərəkətimiz ümumiyyət pərdəsi altında xüsusilikdir. Hər kəs bir dərdə mübtəladır. Bu dərd isə cavan hökumətimizi incidir, sarsır.

Xaricə qarşı daxili qüvvətimizi zəiflədir. İçəridəki dostları[n] mənfəətpərəstliyi xaricdəki düşmənləri sevindirir.

Yeni qurulan hökumət maşinasını pozur, həm də fəna halda pozur. Heç kəs ürəkdən düzəltməyə can yandırmır. Ortalıqda bir "spekulasiya"dır, bir xəyanətdir gedir. Çox deyil, bir-iki saat Ticarət Nəzarətində [Ticarət Nazirliyində], dəmiryol idarələrimizdə, gömrükxanalarımızda... olunuz, görünüz buralarda nə oyunlardır oynanır, nə xəyanətlər edilir!

Keçən gün, rəsmi bir işim üçün Ticarət Nəzarətinə getmişdim. Gülməhəmməd adında biri böylə şikayət edirdi:

– Bir ay qabaq İrana bir neçə fayton aparıb satmaq istədim. Lakin bir yerdən rüxsətnamə alammadım. Məəttəl qalıb düşünürdüm. Nerədən isə (?) mühəndis Dobrovski rast gəldi. Mənə dedi ki, iyirmi min manat ver, sənə rüxsətnamə alım. Mən də 14 min manat verdim. İndi bir ay olar rüxsətnamə alammadı. 9 min manatımı geri aldım. 5 min manatımı vermir.

Beş-on dəqiqə sonra Məhəmmədqulu İmamverdiyev adında biri daha gəldi. Bu da şikayət etdi ki:

– Mircəfər Hüseynzadə məndən iyirmi min manat aldı ki, mənim üçün bir rüxsətnamə düzəltsin. Lakin on-on beş gündür düzəldə bilmədi. On beş min manatımı geri aldım. Beş min manatımı verməyir.

Hələ gömrükxanalarımızın işi bir Allaha qalmışdır. Xəzinəmizə qulluqçuların xəyanətlikləri üzündən milyonlarca zərər dəyir. Bu heç kəsin kefini pozmayır. Pozmaq deyil, hələ bir az açır da. Məsələn, sizə kiçik bir nümunəsini ərz edəyim:

Komissioner və milyoner Cəfər Rəcəbov Yalama və Xaçmaz vağzallarına on milyonlar qiymətində manufaktura [parça, toxuculuq məmulatı] və qeyri mal göndərir. Oradan da təbii Dağıstana, Denikin səmtinə aşırılır. Tamojnadan [gömrükdən] rüxsətnaməsiz maldır, qaçırılır. Heç kəs soruşmayır ki, Yalamaya bu qədər mal neyçün göndərilir?

Tamojnanın qəribə hərəkətlərindənmi soruşursunuz? Başağrısı olmamaq üçün sizə müxtəsərcə bir-iki misal gətirəyim:

1) Türkanlı Məşhədi Abbasqulu İsmayıl oğlu tamojnadan 87 parça mal aparırdı. Rüxsətsiz olmağa görə tutuldu. Lakin bir az sonra sahibinə geri verildi.

2) Keçən apreldə paraxodda 4050 manatlıq gümüş pul tutuldu. Tamojna bunu da nədənsə buraxdı. (Zəbt nömrə [qeydiyyat nömrəsi] 51.)

3) Nəriman Əliyev adında biri aprelin axırlarında, gecə saat ikidə Hacının fabrikasının yanında İrana götürmək üzrə paraxoda 437 put kağız, 425 put ağ un yüklərkən tutulmuş, tamojna 179850 manat qiymət qoymuş. Bu da bir az sonra qaytarılmış. (Zəbt nömrəsi 74.)

4) Yenə apreldə iki böyük karzinkada [səbətdə] üç yüz min manatlıq aptek (əczaxana) malı İrana göndərilərkən tutulmuş, bu da sonra buraxılmış. (Nömrə 86.)

5) Mayda [Ağabala] Quliyev İrandan 16 vaqon düyü tranzit üsulu ilə gətirib Novorossiyskə götürdü. Quliyev bu düyüləri burada dayandırmayıb, düz götürməli idi. Lakin böylə etmədi. Burada günlərcə əylədib dəyirmanında təmizlədi. Tranzit nizamını pozdu. O halda bu mallardan gömrük idarəsi gərək yarım milyondan artıq xərc alaydı, lakin işi hacı-bacı oyununa çevirdilər. Ticarət Nəzarətindən malların dəmiryolunda tutulmasına əmr verilmişkən yenə qaçırdılar.

Nə cürmü deyirsiniz? Çox asan: Bakı stansiya naçalniki deyir, mən bilməm, dəmiryol mühafizə naçalniki müavini göndərdi. Müavin deyir: Yox, stansiya naçalniki göndərdi.

"Bilməm" denildi, can da sələmətə çıxdı, mallar da. Həm 6 vaqon yük maşinası ilə yox, birər-ikişər pasajir [sərnişin] maşinasına bağlanıb sələmətə çıxarılmış.

Bəlkə soruşarsınız ki, heç axtaran, dalına düşən olmadımı? Yenə bir neçə gün danışıldı, əl-ayaq da tərpəndi, hətta bu xüsusda vaxtilə "Azərbaycan"da yazıldı. İştə, bu qədər. Çünki mənfəət xüsusi deyildi, zərər şəxsə yox, "hökumətə" idi.

Ağstafanın gömrük idarəsini isə heç soruşmayın! Orası, daha doğrusu bütün gömrük və dəmiryol idarələri Denikin tərəfdarları əllərində, nə cür kefləri istəyir, öylə də edirlər.

Kassirlər, naçalniklər bir rüxsətnamə ilə kefləri istədiyi qədər vaqon buraxırlar. Lazım olan vaxtda saxta rüxsətnamə qayırmadan da geri durmayırlar.

Keçən ayda yalnız Ləki, Ucar stansiyalarından onlarca vaqon buğda və arpa qaçırılmış.

Ləkidən Əsədulla Səfərəliyev, Səttar Rəsulzadə, Ucarda Mehdi Əliyev və yoldaşı bu surətlə bir çox vaqon aşırmışlar. Bu xəyanətləri, təbii, naçalniklərin, kassirlərin əlləri ilə, iştirakları ilə eyləmişlərdir. Qulluqçuların çoxu öz keflərinə buraxılmışlardır. Bir az əvvəl Ağstafada gömrük qulluqçularından biri gömrük pulunu cibinə doldurub Tiflisə kefə buyurmuş. Bir digəri gömrük anbarını öz başına buraxmış; axtaran yox, soruşan yox.

Hələ "tranzit" oyununu heç soruşmayınız. Ona bir şeytanın ağlı ərər, bir də gömrük qulluqçuları ilə komissionerlərin. Bu "tranzit" hiyləsi ilə hökumətimiz nə qədər zərərlərə düçar olur, bilsəniz bəlkə mənim qəvi [möhkəm, güclü] "Ümidvar"lığıma da şəkk edərsiniz!

Bir çox polisə qulluqçularının (xırdaları ilə işim yox) az vaxtda nə cür kökəldiklərindən bəhsə başlasam günlər, həftələr çəkər. Bu yazdıqlarım isə, aşkar görülənlərin yüzdə biri.

İşlərimizdəki hərcü-mərcliyi böylə bir qaç sətirlə qurtarammam.

Sonra yenə dərdləşəriz.

*Ümidvar*

## QIRMIZI QAN VƏ QARA MÜRƏKKƏB

**- 1 -**

*"Ümuri-dünya [dünya işləri] iki şeylə dönər: Qələmin rifqiylə [mülayimliyiylə], seyfin [qılıncın] şiddətiylə."*

*Əbülfəth Əl-Büsti*

Tarix bizə göstərir ki, dünyanın hakim millətlərinin hökmranlığı iki şeylə davam etmişdir: Əsliheyi-hərbiyyə [müharibə silahları] ilə ki, qədim vaxtlar yalın qılıcdan ibarət idi və əsliheyi-əqliyyə [ağıl silahları] ilə ki, onun da karastısı imdiyə qədər qələmdən ibarətdir.

Ərəblər əqsayi-Qərbdən [uzaq Qərbdən] tutaraq Əqsayi-Şərqə [Uzaq Şərqə] qədər yalnız qılınc zoruyla ən möhkəm qalaları yıxdılar, ən mütəkəbbir millətləri itaətə gətirdilər. Cəbəllüttariqdən Səddi-Çinə qədər məskun millətlərə hakim kəsildilər. Lakin çox az bir zamanda anladılar ki, bir bu qədər müxtəlif millətləri yalnız qılınc zoruyla itaətdə saxlamaq mümkün deyil. Miləli-mətbuəni [tabe etdirilmiş millətləri] mürəffəhən [rifah halında] yaşatmaq üçün ədalətli idarələrə və müntəzəm müəssisələrə ehtiyac vardır ki, bunların da başında elmli və məlumatlı mütəfənnin [alimlər, fənləri bilənlər] və mütəxəssislər dayanmalıdır. Binaənileyh

[ona görə], bir çox məktəblər, mədrəsələr, darülülum və fünunlar [elm və fənn ocaqları] açıldı. Kütübi-yunaniyyənin [yunan kitablarının] tərcüməsi üçün böyük məsariflər ilə mütərcimlər cəlb olundu. Tərcümələri altun əyarıyla qarşıladılar. Əhli-elmi böyük caizə [bəxşiş] və ənam ilə axtarıb mədrəsələrə topladılar. Odur ki, az bir zamanda o vaxtın kaffeyi-ülumuna dara [bütün elmlərinə vaqif olan] professorlar çıxardılar. Öylə professorlar ki, imdiki Yevropa ülumunun [elmlərinin] məxəzi kəsilmişdilər [banisi olmuşdular]: Bəttanilər, Fərabilər, İbni Sinalar, Xəyyamlar, İbni Rüşdlər, Tusilər... ərəblərin yüz minlərlə yetişdirdiyi üləmasının məşhurlarıdır ki, adlarını Yevropalılar imdiyə qədər xüsusi bir ehtiram ilə yad edirlər. Bunların münəccimləri, mühəndisləri, təbibləri, müvərrixləri [tarixçiləri], coğrafiyyunları, lüğəviyyunları [dilçiləri], nəbatiyyunları [botanikləri]... xülasə, o vaxtın ehtiyacını rəf edə [aradan qaldıra] biləcək bir çox mütəxəssisləri meydani-fəaliyyətə atılıb, islam məmləkətinin abad və müntəzəmliyinə çalışdılar. Çalışıb da yəhudi və süryani kimi əcnəbi üləmasının çəngalından [caynağından] məmləkətin yaxasını xilas etdilər. O vaxta qədər ərəblərin ülum və fünun ehtiyacları əcnəbilərin əlində qalmışdı. Ərəblərin öz mütəfənninləri ərsəyə gələr-gəlməz, tamam işləri, idarələri milliləşdirdilər, **ərəbləşdirdilər.** Bundan sonra məmləkətin tamam idarələri ərəb tərz və qəvaidi [qaydaları] ilə yaşamağa başlayıb, əcnəbi mütəxəssislərinin xəyanət xof və əndişəsindən xilas oldular. Bu minval ilə ərəb mədəniyyəti Əndəlüsdən Hindistana qədər intişar tapıb [yayılıb], əcnəbilərin də məhəbbətini cəlb edə bilmişdir. Hərgah sonralardan bu gözəl mədəniyyət izmihlala [puç olmağa] başladısa, buna da rəyasət əhlinin və ələlxüsus Abbasilərin azğınlığı bais olmuşdur.

Hərgah rusların da tarixini bir qədər nəzərdən keçirsək görərik ki, bunların da istinadgahı yenə "seyf ilə qələm" olmuşdur. Sonralardan istibdad tərzi-idarəsindən xoşlanmış rus hakimləri əhalinin maarif yollarına hədd və sədd çəkdiklərindən dolayı rusların milləti-hakiməsi bulunan velikoruslar bəzi məhkum millətlərə nisbət avam və bisavad qalmışlardır. Məsələn Rusiyada yaşayan finlər, polyaklar və ələlxüsus yəhudilər maarif cəhətincə ruslardan yüz dəfə mədəni olduqları üçün ülum, sənaye və ticarət kimi mühüm fəqərələri [sahələri] öz əllərinə almışlardı. Odur ki, inqilab dövründə rus idarələrinə ən böyük zərbələr həman məhkum millətlərdən dəymişdir.

Bu gün məzkur [deyilən] millətlərin çoxu özlərinə məxsus hökumət təşkilinə nail olub, Rusiyadan ayrılmışlardır və mürəffəhülhal [rifah halında] yaşayırlar. Halbuki əsl ruslar imdiyədək bolşevik-dabravol cəngü-cidalı ilə uğraşıb gedirlər. Allah bilir ki, bunlar haçan qabaqkı kimi müntəzəm bir səltənətə nail ola biləcəklər.

Pəs [deməli], bir səltənətin davam və bəqası [əbədiliyi] həman səltənətin milləti-hakiməsinin maarif və mədəniliyinə vabəstə [bağlı] qalır. Məmləkətin milləti-hakiməsi məhkum millətlərindən maarifcə nə qədər üstün olarsa, həman nisbətdə də onun ağalığı davam edəcəkdir.

Məsələn, bu gün ingilislər öz təbəələrində bulunan millətlərin hamısından elmli və mədəni olduqları cəhətə, Hindistan və Misir kimi dünyanın ən böyük müstəmləkələrini əllərində saxlaya bilmişlər. Bərəks [əksinə], finlər və polyaklar ruslardan daha mədəni olduqları cəhətə, rus boyunduruğu və hökmranlığından azad ola bilmişlərdir.

Tarixin bizə göstərdiyi bu qanunundan heç bir millət boyun qaçıra bilməyəcəkdir. Bu təbiidir ki, milləti-hakimə təhti-təbə'iyyəsində [tabeçiliyi altında] bulunan millətlərdən fünun və ülumca gərək üstün olsun. Vəilla [yoxsa] hökmranlıq edə bilməz. Edərsə də, bu hökmranlıq az bir vaxtdan sonra müzməhil [məhv] olub gedəcəkdir. Zira, xəvas avamın [seçilmişlər, üstünlər; avamların, sıravilərin] itaətində qalmayıb, xilas olmasına var qüvvəsiylə çalışacaqdır. Binaənileyh, Gürcüstanda gürcülər, Ermənistanda ermənilər və Azərbaycanda türklər mətbu millətlərdən məlumatlı və mədəniraq [daha mədəni] olmalıdırlar ki, sairlərini də idarə edə bilsinlər. Yoxsa rusların başına gələn bunların da başlarına gələcəkdir.

Vətən uğrunda şühədanın nə qədər qırmızı qanı tökülmüşsə, bir o qədər də üləmanın qara mürəkkəbi sərf olunasıdır ki, vətənimiz müntəzəm bir dövlət şəklinə girsin.

*Fərhad Ağazadə*

## DARÜLFÜNUN HAQQINDA

İyulun beşində Məsai [Əmək] nazirinin təşəbbüsatıyla vaqe olan ümum türk tələbələri iclasında qərar qoyulmuşdur ki, Bakıda açılacaq Azərbaycan darülfünununun [universitetinin] güşadının [açılışının] təxirə salınması haqqında təşəbbüsatda bulunsunlar.

Çünki: "Bu darülfunun türk tələbələri üçün deyil, başqalarından ötrü güşad edilmişdir..." Bunun əvəzində ümumiyyətlə Avropaya göndərilmək üçün iqdamatda [təşəbbüsdə] bulunmağı hökumətdən rica edirlər.

Əsl səbəbi də budur ki, Məsai nazirinin rəyincə, əvvəla yaxşı tibb elmi professorları yoxdur. Əgər olsaydı, yenə rusca da oxumaq olardı. Saniyən [ikincisi], tarix və ədəbiyyat şöbəsi türkcə deyil, rusca keçiləcəkdir.

Məsai nazirinin fikrincə, bu ədəbiyyat və tarix şöbəsində ancaq rus lisanı, rus tarix və ədəbiyyatı oxunacağından, türk tələbələri oraya girməyəcəklər. Bir də, bunlar Avropadan barı bir dil öyrənərlərmiş.

İstər nazir əfəndinin, istər türk tələbələri arxadaşlarımın əsas rəyləri olan "milli" darülfünun fikrinə şərikəm və onu da etiraf edirəm ki, bu rus professorlarının böylə həvəslə çalışması rusluğu yeritmək, rus mədəniyyətini yaymaq üçündür.

Denikin Tiflisdəki Zaqafqaziya Darülfünununa 2 ½ milyon manat pul buraxır ki, Zaqafqaziyada rus mədəniyyətini baqi saxlasın. Bunlarla bərabər onu da bilməli ki, açılacaq bu məktəbdən daha çox əcnəbilər istifadə edəcəklər. Deməli, hökumətimiz öz əliylə yabançı bir mədəniyyətin tərəqqisinə çalışacaqdır ki, buna da əbədiyyən milli hökumət darülfünunu demək olmaz.

Darülfünun mütləqa nazir cənablarının buyurduğu kimi türkcə olmalıdır. Başqa şöbələri olmasa da, ədəbiyyat və tarix şöbəsini türkcə aparmaq çətin deyildir.

Bunun olacağına ümid vardır. Lakin zənn etməyirəm ki, tələbələrin Avropaya getmək həvəsi darülfünunun türkcə olmamasından baş vermişdir. Əksəriyyətlə ana dilini ibtidai bir halda belə bilməyən, tarix, ədəbiyyat və həyati-milliyyəsindən əsla məlumatı olmayan imdiki Azərbaycan türk tələbəsi heç vaxt Türkiyə professorlarının mühazirəsini anlamayacaqdır. Əgər bu gün hökumət bütün darülfünunu mahir türk professorları idarəsində milliləşdirsə, nazir əfəndini əmin edirəm ki, "Avropa" məsələsi yenə davam edəcəkdir.

Lakin bununla Avropaya zidd olduğum zənn olunmasın.

Kəndim texnik olduğum üçün mütləqa alman, ingilis, Amerika texnikasıyla tanış olmaq, son üsuli-inşaatı bilmək arzulardım. Bu məqsəd ilə də, təbiidir, Avropaya getmək lazımdır. Lakin keçmişin acı təcrübəsi göstərmişdir ki, Avropaya kəndi lisan və tarixindən bixəbər gedənlər ruhən, lisanən, fikrən tam mənası ilə bir əcnəbi olaraq gəlirlər, bəlkə heç gəlməyirlər. Camaat içində isə artıq bir üzv kimi görünürlər. Arasında bulunduğu xalqın dilini bilmədiyindən ahü-zarını eşitməz, anlamaz və çarəsini də düşünməz. Deməli, milli bir məfkurə sahibi dəxi olammaz.

Böyük inqilabda, istiqlal hərəkətlərində Avropada oxuyan tələbələrimizin çoxunun heç bir iştirakı olmadığı, ali-ibtidai məktəb mütəallimləri qədər də rol oynamadıqları buna canlı bir sübut olsa gərəkdir.

Denilir ki, Avropadan laməhalə [heç olmasa] lisan gətirə bilər...

Məncə Avropadan gətiriləcək lisan tələbələrimizin və ya mühəndis və yuristlərimizin əlan [hal-hazırda] bildikləri rusca qədər olmayacaqmı?

Avropa lisanlarını öyrənən millətlər diplomasi və siyasi faydadan başqa, bir də mədəni millətlətin kitablarını tərcümə üçün işlədirlər. Ana lisanını bilməyən bir tələbə Avropa lisanından nasıl tərcümə yapar?

Türkcə orta təhsil görmüş türk Osmanlı tələbələrinin Avropada həyatını təftiş edərkən, keçən 1918-nci ilin axırlarında fəna nəticələr əldə edilmişdi və milli tərbiyəni bir qədər də artırmaq qərara alınmışdı.

Ona görə, qabaqda olduğu kimi yenə təkrar deyiriz ki, istər Avropaya getmək üçün, istər burada açılacaq türkcə darülfününa girmək üçün tələbələrimizə türkcə mükəmməl hazırlıq lazımdır.

Gənclərdən, tələbələrdən fəal millət və xalq xadimləri vücuda gətirmək üçün hökumət, tələbələrimizin milli tərbiyəsinə ciddən əhəmiyyət verməlidir. İstər Bakıda, istər Avropaya göndəriləcək imdiki dilsiz tələbələrimizdən ana lisanını, milli tarix və ədəbiyyat bilməsi tələb olunmalıdır. Bu olmazsa, millət onun gətirəcəyi elmdən əsla fayda görəmməz.

*Məhəmmədzadə Mirzəbala*

## XARİCİ SİYASƏTİMİZ

### - 5 -
### Əfkari-ümumiyyə

Dünyada ən böyük qüvvələrdən birisi əfkari-ümumiyyədir [ictimai fikirdir]. Topdan, tüfəngdən və zirehlilərdən də bu qüvvə böyükdür. Odur ki, hər kəs istər ki, bu qüvvəni əldə saxlasın. İstər məhkum, istər hakim hökumətlər rəsmi qəzetələr nəşr etməklə və ajans-teleqraflar ilə əfkari-ümumiyyəni öz tərəfinə çəkmək istəyir. Məhkum millətlər bu yolda daha da çox çalışırlar. Əfkari-amməni [xalqın fikrini] qazanmaq üçün məhkumların hərəkəti bəzi vaxt qəribə hallar alır. Avropa şəhərlərindən birində bir erməninin bir çocuğa güllə atdığını qəzetədə oxumuşdum. Ermənidən cinayətin səbəbini soruşduqda demişdi: "Bu cinayətlə erməni çocuqlarının halından sizi xəbərdar eyləyirəm. Onları Osmanlıda qırırlar." İştə, əfkari-ümumiyyə cəlbi üçün qəribə bir hərəkət. Lakin bu, adətdən kənar bir işdir. Amma bununla da istifadə edirlər.

Neçə sənə əvvəl içəri Rusiyada dəmiryol ilə gedərkən başqa bir hərəkətə rast gəldim. Bir bolqar çocuğu istasyonun birində vaqona minib, bütün miniklərə kağızlar yaydı. Məzmunu təqribən bu idi:

"Vəhşi türklər dilimi kəsdiyi üçün danışa bilmirəm. Təvəqqe eyləyirəm mənə kömək edəsiniz."

Bu işin doğru olub-olmamağını kimsə təhqiq etmirdi. Lakin xalqın rəğbətini bolqar məsələsi qazanırdı və türklərdə nifrət qalırdı.

Əfkari-ümumiyyəni cəlb etmək üçün yuxarıda göstərilən ifrat vasitələrdən başqa, bir də adi yollar var. Bu da mətbuat və nümayişlərdir. Hanki millət yaşamaq istərsə, öz dərdini söyləməlidir, səsini çıxarmalıdır. Səsini çıxarmağı bilməyən və bağırmaq bacarmayan millət həmişə əzilər. Səs vasitəsi də qəzetələr və məcmuələrdir. Qonşularımızdan bağırmağıyla məşhur ermənidir. Bu millət dərdini və tələbini bildirməkdə böyük istedad sahibidir. Dünyada bir qəzetə yoxdur ki, erməni məsələsini yazmasın. Bundan başqa, özlərinə məxsus bir çox qəzetə və məcmuələri var. Müharibə əsnasında Moskvda rus dilində "Armyanski vestnik" məcmuəsi verilirdi. Bu məcmuə başdan-başa erməniliyi təqdir və tərvic etməklə [təbliğ etməklə, ona rəvac verməklə] məşğul idi. Məcmuənin fikri ermənini ən mədəni bir millət şəklində Avropaya tanıtmaq idi. Odessada dəxi eyni fikirdə bir qəzetə çıxırdı. Bu gün İstanbulda fransızca qəzetələri var, tələblərini Avropanın qulağına söyləməkdən çəkinmirlər.

Bir çox məhkum millətlərlə yaxından tanış oldum, çalışmalarını gördüm. Onlarda da eyni hal – əfkari-ümumiyyəni cəlb etməyə böyük əhəmiyyət verirlər. Öz tarixlərini, ədəbiyyatlarını və başqa mədəni məhsullarını Avropanın gözünə soxmağa çalışırlar. Bu gün Paris Konfransının nəzərini cəlb etmək üçün hədsiz-hesabsız kitablar çap olunur, qəzetələr nəşr olunur, hər kəs dərdini, tələbini uca səslə bildirir. Eşitdiyimə görə, ermənilər bu il milli məsələlərinə dair doqquz yüz əsər təb [çap] etdirmişlər.

Mətbuatdan başqa, bir də bir nümayiş var. Müttəfiqlər İstanbula girdikdə rumlar ev və mağazalarını milli bayraqlarıyla bəzəmişlər imiş və çalışmışlar imiş ki, İstanbulun zahir görünüşünə yunan rəngi versinlər. İştə nümayiş. Burada oxumaq lazım deyil. Hər kəs gözüylə görür və bilir.

Məlumdur ki, yunanlar İstanbulu almaq iddiasında bulunurlar. Buna haqları olmağını bildirmək üçün hər bir vasitəyə müraciət edirlər. Birinci yol əfkari-ümumiyyədir ki, buna xoş gəlmək istəyirlər. Türklərin rəvayətinə görə, yunanlar Bəyoğlunda və Qalatada küçələri çox zibilli saxlayırlar, hər nə əllərinə gəlir küçəyə tullayırlar. Səbəbi bu imiş ki, avropalılar türkün “idarəsizliyini” görsünlər. Baxınız, nümayiş nə şəkillər alır.

İstanbulda bir ayrı nümayişə dair söylədilər. Bir neçə yüz erməni uşağı cırıqcındır libasda şəhəri dolanmışlar. Məqsəd erməni qaçqınlarının halını bəyan etmək imiş...

Xülasə, minlərcə zikr olunan şəkillərə rast gəlmək olar.

Bizim müsəlman aləmində əfkari-ümumiyyənin rəğbətini qazanmaq üçün az çalışılır. Onun üçün də dərdlərimiz kimsəyə bəlli olmur və bizlə maraqlanan az olur. Son səyahətim zamanında bir çox Avropa siyasiyyunuyla [siyasətçisiylə] görüşdükdə, təəssüf ki əcib [qəribə] hallar gördüm. Bizim Azərbaycanın nərədə olduğunu çoxları bilmirmişlər. Siyasi adamlar məmləkətimizdən xəbərsiz olduqda, yəqin adi adamların heç də xəbəri yoxdur. Böylə olduqda, biz ermənilərdən də çox çalışmalıyıq ki, özümüzü tanıdaq. Bu yolda birinci addımları səfirlər ilə konsoloslarımız atmalıdırlar. Gürcü konsolxanalarında bir mətbuat şöbəsi var. Bunun vasitəsilə məhəlli [yerli] qəzetələrə Gürcistana dair məlumat verilir. Biz də eynini düzəltməliyik. Tariximizi, məmləkətdə sayımızı və iqtisadi qüvvəmizi aləmə bildirməlidir.

*Yusif Vəzirov*

**GETMƏ**

*Qardaşım H. C. bəyə*

Getmə, bir an təvəqqüf et, getmə!
Bizi sahildə yə’sə qərq etmə.
Ey qayıq, bax tərəhhüm et də bizə,
Gəl aparma o afəti dənizə.

Dur, dayan, saxla bir kürəklərini,
Dalğalarda nihan olub itmə.
Bunca aşiqlərin yürəklərini
İntizarü ələmlə incitmə.

Səni təqib edən nəzərlərə baq,
Həpsi məğmum, münfəil, islaq.
O nəzərlərdə yalvarış doludur,
Getmə, lütf et, dəniz də qorxuludur.
Bir saqın... Yox, saqınmadan gedəcək,
O pəri qız, dənizdə açma çiçək.

Dalğalar, siz toxunmayın qayığa,
Su pərisi dənizdə bir gəzsin.
Qarşı çıxdıqca hər kiçik dalğa
Onu qəhr ilə çiynəsin, əzsin...

Gediyor, bax, qayıq uzaqlaşıyor,
Uçuyor, dalğacıqları aşıyor.
Əyilir, doğrulur, şitab ediyor,
Çırpınır, sanki iztırab ediyor.
Süzülür, iştə qalxdı, bax, endi,
Bir evin arxasında gizləndi.
Mane olma, çəkil sən, ey xanə,
Səni tikmiş ya hanki divanə?

Kəsiləydi əlin, sən ey memar,
Böylə bir xanə tikdiyin yerdə...
O nəzərlər nə bəkliyor, nə umar?
O qayıq bir görünsə, ah, bir də...

*Ayn. Y.*





**İKİ LÖVHEYİ-BAYRAM**

Əvət, iştə mübəccəl [ulu], müqəddəs bir gün ki, hər yerdə, hər məmləkətdə islam nami-cəlilini [böyük, cəlallı adını] daşıyan hər fərd otuz günlük dini, ruhani bir riyazətdən [zahidlikdən] sonra xaliqin əmrini ifa etdiyi üçün qəlbi mənəvi bir çox hissiyat ilə məmlu [dolu] olduğu halda, iftar edəcək, bir ay zərfində etmiş olduğu ibadətlərin qəbulu üçün xaliqinə yalvaracaq, yetimlərə, öksüzlərə ənam və ehsanda bulunacaq.

Bir yanda zövqü şadi,
Bir yanda hüznü matəm.

Əvət, bir yanda bu hallara davam etməkdə ikən, digər tərəfdə ən xunxar [qaniçən] adamları, ən səngin [daşlaşmış] qəlbləri belə mütəəssir edəcək cigərsuz [ciyər dağlayan] hallar vüqu bulur. Engizisyon [inkvizisiya] dövrünə məxsus faciələr icrayi-hökm edir [hökm sürür]. Bir tərəfdə adəta bir cənnət kimi bəzədilən möhtəşəm qonaqların [imarətlərin] müzəyyən [bəzəkli] salonlarında üzərləri ənvayi-məkulat [müxtəlif yeməklər] ilə mali [dolu] masaların ətrafında geymiş olduqları əlbiseyi-faxirələriylə [qiymətli, parlaq geyimləri ilə] pürnəşə [şad] söyləşib gülüşən insanlara baxmaqdan nəzər doyammayırkən, o biri tərəfdə döşəməsi topraq külbələrində [daxmalarında], tavan və divarları yaxmaqda olduqları hisli ağaclardan qapqara olmuş səfalətxanələrdə kirli əlləri, uzamış dırnaqları, üryan vücudları, pərişan bir halət[də], biri-birinə qarışmış saç-saqqalları, soluq bənizləri ilə qayət iyrənc və müdhiş bir mənzərə təşkil edən insan kümələrinə baxmağa belə insan cəsarət edəmməyir. Bir tərəfdə bu gü-nün şərəfinə olaraq açılan masaların üzərləri ayini-təbriki ifaya gələn zəvatı e’zaz [təbrikə gələnləri əzizləmək] üçün dürlü-dürlü dadlılar [şirniyyatlar], növbənöv meyvələrlə mali [dolu] bulunarkən, digər tərəfdə otuz mini mütəcaviz [keçmiş] bir kütleyi-bəşəriyyə dörd aydan bəri şayani-heyrət [heyrətəlayiq] bir təhəmmüllə [dözümlə] mübarizədə bulunduğu aclıqla artıq müqavimətdən aciz qalaraq ərzi-təslimiyyət edir, paxlavalar, qürabiyyələr [un məmulatı, qoğal] deyil, həyatlarını təmin üçün bir quru əkmək parçası bulmaqdan belə məhrum bulunur.

Fəqət, əfəndilər, bu gün bu səfalət halları, bu vəhşi qiyafətləriylə cəlbi-mərhəmətinizdən artıq istikrahınızı mövcib olan [mərhəmətinizi cəlb etməkdən çox, sizdə ikrah doğuran] bu adamlar təsvir edildiyi kimi səfil, zəlil deyildilər. Onların da evləri, onların da gülüb oynayan yavrucaqları var idi. Onlar da sizin kimi bayram yapır, kəndi aləmlərincə məsud, şən, mürəffəh [rifah içində] bir həyat keçirirdilər. Bu gün aclıq, yoxsulluq kimi təhəmmülsuz [dözülməz] müsibətlər içində qovrulan bu qəyur [qeyrətli], bu əzmkar adamlar, daha on ay müqəddəm [qabaq] bugünkü müdhiş hallarını əsla xatirlərinə gətirməyir, Bakının yövmi-işğalına müsadif olması [Bakının əldə edildiyi günə təsadüf etməsi] münasibətilə qədrü qiyməti bir qat daha artmış olan Eydi-əzhanı [Qurban bayramını] şimdiyə qədər görünməmiş bir surətdə bayram edirdilər.

Daha dörd ay müqəddəm süfrəsində bir qaç müsafir bulundurmaqsızın yemək yeməmək mötadı [adəti] ikən, bu gün bir heykəli-qeyri-ziruh [ruhsuz bir heykəl] kimi müməyyəzi-yə’s olan [yasa batmış]

yerlərdə dolaşaraq, hər gəlib keçəndən bir parça əkmək dilənmək kimi zilləti qəbula məcbur olan bu həqiqi müsəlmanlar nəzərlərini sizə dikərək, xərclik olaraq çocuqlarınıza, ikram olmaq üzrə təbrikə gələn dostlarınıza sərf edəcəyiniz paraların bir qismini kəndilərinə təfriqlə [ayırmaqla] həyatlarının təminini tələb və dörd aydan bəri davam edən fəryadın susdurulmasını istirham [xahiş] edir. Şimdiyə qədər göstərmiş olduqları həmiyyət və mərhəmətlə "əbüleytam" ünvanına bəhəq kəsbi-istehqaq edən ["yetimlər atası" ünvanını daşımağa haqqı çatan] Azərbaycan əhalisinin və bu ana qədər ibraz etmiş olduğu müamileyi-mərhəmətkaranəsiylə təməyyüz edən [göstərdiyi mərhəmətli rəftarı ilə seçilən] Azərbaycan Hökumətinin bu xüsusda dəxi lazım gələn müavinəti diriğ etməyəcəklərini [əsirgəməyəcəklərini] surəti-qətiyyədə ümid edirlər.

*Azğur, 28 həziran 335*
*Xocazadə Münirə Ləman*

**İdarədən:** Bunlara xüsusi surətdə ianə vermək arzusunda bulunan olarsa, idarəmiz təşəkkürlə qəbul edər.

## NAXÇIVAN MƏKTUBATI

**Ermənilər Naxçıvana nasıl sahib oldular?**

Ermənilər Naxçıvana əl tapmadan ay yarım əvvəl ingilis general-qubernatoru hökumətə izhar etdi ki, siz əhali olduğunuzdan kəndinizi eyi idarə edəmməyirsiniz.

Bu sözdən bir həftə sonra əhaliyə hökumət təvəssütüylə [vasitəsiylə] elan etdi ki, hər kəs ingilislərə və onların müttəfiqlərinə qarşı bir söz söylər isə Müttəfiqlərin düşməni hesab edilərək, ağır cəza ilə cəzalanacaqdır.

Bundan daha bir-iki həftə sonra polislərə əmr etdi ki, nə qədər Naxçıvan və həvalisində [ətrafında] Osmanlı təbəəsi var isə bilümum [hamısı] bir gün zərfində ingilis general-qubernatoru nəzdinə gəlib də buralarda nə yapmalarını və hanki rütbədə olduqlarını izhar etməsələr, dərdəst edilib [tutulub] böyük tənbeh ediləcəkdir [cəzalanacaq].

Daha sonra Azərbaycan tərəfindən könüllü olaraq polkovnik Kukuşef təhtində [rəhbərliyində] Naxçıvana gəlmiş zabitlərə rəsmən bir həftə müddətində yığışıb getmələri əmr edildi və bir həftə sonra onlara vaqon verərək yola saldılar.

Balada mühərrər hərəkati-siyasiyyədən [yuxarıda yazılan siyasi hərəkətlərdən] təqribən on beş gün keçmişdi ki, qəflətən əhali beynində [arasında] böyük bir cünbüş [hərəkət] və həyəcan göründü. Hər kəsin əlində bir kağız yarpağı görülməyə başladı. Bütün əhalinin üzünə baxdıqda böyük yas və ələmlərə qərq olduqları görünürdü.

Mən də birisinə yanaşıb sorduqda, "Bizim ərazini ermənilərə vermişlər" cavabını aldım. Mütəəssir olaraq elanı alıb oxudum. Elanın məzmuni-müxtəsəri [qısa məzmunu] böylə idi:

*"Naxçıvan və həvalisi əhalisinə!*

*İşbu mayısın üçündən etibarən siz Ermənistanın bir ayrılmaz parçası hesab olunursunuz. Keçənlər keçdi. Erməni-müsəlman müsavi [bərabər] yaşamalıdır. Bilafərqi-dinü-məzhəb [din və məzhəb fərqi olmadan] hər kəs müqəssir olduqda ağır cəzaya giriftar olacaqdır. Qafqaz pullarının götürülməsi ümumi və icbaridir, ilax...*

*İmza: general Devi və*
*erməni komandanı Dro."*

Əhali işbu elanı oxuduqdan sonra üç-dörd saat məst kimi nə yapacağını bilməyib, kəndisini şaşırıb və növbənöv sözlərlə kəndisinə təsəlli verməyə başladı.

Məsələn, bir çoxları söyləyirdi ki, Gümrü nəzdində Naxçıvan ismində köy vardır. Bu elan ora əhalisinə xitabən yazılmışdır.

Sonra camaat ictima [yığışaraq] və izdihamla Milli Şura qonağına [imarətinə] yığılıb, Milli Şura sədrindən tələb etdilər ki qışlaya [kazarmaya] – ingilis general-qubernatorunun nəzdinə gedib bu xüsusda cavabi-kafi alsın. Sədr qışlaya gedib övdət etdikdə [qayıtdıqda], söylədi ki, general-qubernator söyləyir ki, bu xüsusda onun heç bir məlumatı yoxdur. Yarın general Devi kəndisi gələr və hər nə olmuş olsa, təfsilən [ətraflı surətdə] o, camaata yetirər.

Bu minval ilə camaat iki gün bittamam şübhə içində qalıb, general Devinin intizarını çəkməyə başladılar.

*Tamaşaçı*

## MƏTBUAT

Hələ Kotsev hökuməti dövründən Dağıstanlılar arasında Dağıstanın Azərbaycanla birləşməsi lehinə güclü bir cərəyan var idi. Məzkur [deyilən] cərəyan getdikcə qüvvətlənməkdə və nəhayət, mətbuat səhifələrini tutmaqdadır. Əzcümlə [o cümlədən] "Dağıstan" qəzetəsi sütunlarında bu xüsusda mütaliələr [fikirlər] görülməkdədir.

Məzkur qəzetənin 17-ci nömrəsində yazılmış bir məqalə Dağıstanın heç vaxt Zaqafqaziyadan ayrı olmadığı və Rusiya əliylə cəbrən parçalandıqdan sonra inqilab bə'dində [sonrasında] Şimali Qafqaziyadan bir heyət gələrək Dağıstanın onlarla birləşməsini təklif etdiklərini qeydlə deyir ki:

*"Təbii, bu sənə Dağıstan Cümhuriyyəti Məclisi-Məbusanında Dağıstanı Azərbaycanla birləşdirmək məqsədilə çalışanlardan o Məclisdə olanlar, heyəti-mürəxxəsənin müstədasına [nümayəndə heyətinin xahişinə] tamamən müxalif olaraq söylədilər:*

*– Dağıstan Zaqafqaziyadan ayrılmaq, siyasətən və iqtisadən müzirr [ziyanlı] olmaqdan maəda [əlavə], əhalisinin məqsədlərinə dəxi müxalifdir. Əgər istərsəniz gəliniz cənuba birləşəlim.*

*Hasili, ayrılmaq məsələsi tamam olmayıb qaldı.*

*Bir xeyli müddətdən sonra məlum oldu ki, guya Dağıstan Şimali Qafqaziyaya daxil olmuşdur. Müvəqqəti Dağıstan Vilayət Komitəsinin rəisi və bir-iki əza [üzv] müstəsna olaraq, qalan əzalar bu ayrılmaq nasıl oldu və nə səbəbdən oldu, qətiyyən bilmədilər.*

*Ümumi Dağıstan Vilayət Məclisi (Syezd) və Dağıstanın həqiqi intixabıyla [seçkisiylə] olan Vilayət Komitəsi bu işin həqiqətini bilmək üçün nə qədər ciddü-cəhd etdilərsə də, bunun əsl və əsası, bəratülqövl [protokol] və qərarnamə heç bir yerdə bulunmadı."*

## BAKI XƏBƏRLƏRİ

**Seyri-səfain [gəmi hərəkəti]**
İran Astarası ilə Bakı arasında paraxod hərəkatı başlanmışdır. Bu günlərdə Lənkəran və Azərbaycan Astarası ilə də başlanacağı gözlənir.

**Posta-Teleqraf İdarəsində markalar**
Bu günlərdə Posta-Teleqraf İdarəsi tərəfindən yeni markalar buraxılacaqdır.

**Simsiz teleqraf**
Hökumət simsiz teleqraf istasyonu təşkilinə şüru edilmişdir [başlanmışdır]. İstasyon dörd aya hazır olacaqdır.

**Posta-teleqraf ləvazimatı**
Son günlərdə Gürcüstan Cümhuriyyəti Azərbaycan Cümhuriyyəti üçün bir çox teleqraf, telefon ləvazimatı göndərmişdir.

**Müsəlman Cəmiyyəti-Xeyriyyəsində**
Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə qubernator tərəfindən bir məktub göndərilərək təklif edilmişdir ki, Cəmiyyəti-Xeyriyyənin İsmailiyyə binasını sökdürsün, zira binanın uçacağından ehtiyat edirlər. Cəmiyyəti-Xeyriyyə bir neçə mühəndislər vasitəsilə müayinə edib qərar qoymuşdur ki, hələliklə ətrafina hasar çəkilsin və sonra mümkün olarsa sökülməsinə başlansın.

**Su oğurluğu**
Bakı Bələdiyyə İdarəsinin Sihhiyyə [Gigiyena] şöbəsi bütün ixtiyarındakı idarələrə böylə bir xəbər vermişdir: Aldığımız məlumata görə, su turbalarından qaydadan kənar qıraq adamlara su buraxılır. Sihhiyyə şöbəsi qabaqca xəbər verir ki, əgər bu isbat olunsa, bütün məsuliyyət Bələdiyyədən izinsiz su almış və bununla şəhərin mənafeyinə xələl vurmuş idarələrin boynuna düşəcəkdir.

**Aşqabadın alınması**
Bakıda alınan məlumata görə, bolşeviklər Aşqabadı alıb, Tazəşəhər üzərinə yeriş edirlər. Bu münasibətlə Bakıya Türküstandan külli miqdarda qaçqın gözlənir.

**Hacı-Tərxan alınmışmı?**
Hacı-Tərxanın alınması haqqında bu vaxta kimi heç bir rəsmi xəbər yoxdur.

**Taxıl**
Ərzaq Nəzarətinin nümayəndəsi M. S. Axundov xəbər verir ki, Şuşa, Cavanşir və Cəbrayıl uyezdlərində bu il taxıl vardır. Əkinlər hadisə zamanlarında əsla zərər görməmişlər.

**Mədən mühafizəsi**
Türklər Bakıya girəndən sonra Bakı mədən dairəsinin mühafizə dəstələri tərksilah edilmişlərdi. İndi Neft Aksiz İdarəsi Maliyyə Nəzarətindən rica edir ki, neft və mədən dairəsini mühafizə üçün yenə sabiqki dəstəni təslihə [silahlandırmağa] izin verilsin.

**Yeni Şirvan**
Mart hadisəsi vaxtı tamamilə dağılmış Şamaxı şəhərinin əvəzinə yeni şəhər tikmək üçün münasib yer təyin etmək qəsdiylə yollanmış hökumət komisyonu qayıtmışdır.
Komisyon deyir ki, 2500 müsəlman camaatı bu saat xarabalarda yaşayırlar. 16 məscid məhv edilmişdir.





Komisyon bu qərara gəlmişdir ki, sabiq erməni hissəsi olmasın və şəhəri təzədən Avropa hissəsindən başlayaraq tiksinlər. Komisyonun məruzəsinə bu günlərdə hökümət tərəfindən baxılacaqdır.

**Qradonaçalstvoda**
Hal-hazırda şəhərdən kənara gedənlərə vəsiqə vermək Bakı Polismeyster İdarəsinə aiddir.
Polismeyster İdarəsində də ştat azaldığından və başqa əhəmiyyətli işlərlə məşğul olduqlarına görə, vəsiqə vermək çətinliklə olur. Ona görə Bakı qradonaçalniki Daxiliyyə nazirindən rica etmişdir ki, bu vəzifə Qradonaçalstvo cənbində [nəzdində] xüsusi bir şöbəyə həvalə olunsun.

**Dağıstanda**
Dağıstandan alınmış məlumati-mövsuqəyə [etibarlı məlumata] görə, orada Dabravol komandanlığı geniş fəaliyyətə başlamışdır. Bu günlərdə bütün müsəlman tələbələrini səfərbərliyə alaraq, məcburən hərbiyyə məktəbinə göndərmişdir. Xalq arasındakı həyəcan gündən-günə təzayüd etməkdədir [artmaqdadır].

**Mavərayi-Bəhri-Xəzərdə**
Aşqabadın bolşeviklər tərəfindən işğalı təsdiq edilir. Oradakı bütün rəsmi dəvair [idarələr] və müəssisələr, o cümlədən, Azərbaycan siyasi nümayəndəliyi də öz dəftərxanası ilə Tazəşəhərə köçmüşdürlər.

**Fəhlə həyatı**
6 təmmuz tarixində saat 12 zəvalda [günorta] Lianozov 4-ncü uçastok mədənində prikazçik [darğa] Nurulla Bədəl oğlu ilə maslyonşik [yağlayıcı fəhlə] Nurulla Təhməz oğlu miyanında nəşət etmiş [arasında əmələ gəlmiş] küdurəti dəf və islah üçün məzkur [adı çəkilən] müəssisədə çalışmaqda olan bütün müsəlman və erməni işçiləri mitinq tərtib vermişlərdi. Yek-digəri ilə müsafəhə və müanəqə edərək [bir-biri ilə barışıb-qucaqlaşaraq], bir daha yek-digərinə nisbətən ədavət bəsləməyəcəklərinə yəmin etdilər.
Xatimədə Ərzaq İdarəsinə müraciətən münasib qiymət üzrə ərzaq almaq üçün mədən əmələsinin siyahısını tərtib etmək qərara alındı.

**Tağıyev fabrikasında**
Neçə gün bundan əqdəm [qabaq] Tağıyev fabrikasında əmələlər tərəfindən bir nəfərin el divanı ilə öldürülmək istənildiyi və bundan naşi [ötrü] böyük bir həyəcan vücuda gəldiyini mütəaqib [ardınca], oradakı hümmətçilər ilə müsavatçılar arasında rəqabət əmələ gəlmişdir. Əmələlərin dediyinə görə, həmin rəqabətə səbəb olan Əliheydər Qarayevdir. Həmin şəxs fabrikaya gəlməzsə, heç bir ixtilafa yol verilməz. Bu məsələ dünən "Müsavat" firqəsinin Bakı Komitəsi iclasında müzakirə edilərək, məhəllində [yerində] təhqiqat yapmaq üçün üç nəfərdən ibarət xüsusi bir heyət seçilmişdir. Heyət fabrikada məlumat cəm etdikdən sonra, Komitə iclasına bəyanat təqdim edəcəkdir. Bu barədə Komitə "Hümmət" firqəsinə müraciətən onun da iştirakını rica etmişdir.
Əmələlər Qarayevdən nəhayət dərəcədə narazı olduqlarını bildirmişlərdir.

**Azərbaycan konsulunun vürudu**
Aşqabad şəhərinin bolşeviklər tərəfindən işğal edilməsi münasibətilə ora-

dakı Azərbaycan konsulu Əkbər Sadıqov dünən Tazəşəhərdən Bakıya varid olmuşdur [gəlmişdir]. Mavərayi-Bəhri-Xəzərdən [Zakaspiyskdən] Bakıya gəlməkdə olan qaçqınların miqdarı gündən-günə artmaqdadır.

Qaçqınların dediyinə görə, bolşeviklər böyük qüvvələr ilə Qəhqəhəni və Aşqabadı işğal edərək, Tazəşəhərə tərəf irəli hərəkət etməkdədirlər.

**“Yardım alayı”**

“Yardım alayı” əfradının ümumi iclasında yenidən alay komisyonu intixab edilmişdir [seçilmişdir]. Komisyonun rəisliyinə vis-qubernator Müseyib bəy Axıcanov, xəzinədarlığa və katibliyə İsmayıl Fani intixab edilmişlərdir.

**Edam cəzası**

Dövləti Müdafiə Komitəsinin binagüzarlığıyla [sərəncamıyla] neçə gün bundan əqdəm [qabaq] Zabrat ilə Kürdəxanı kəndləri arasında okolodoçnu [sahə pristavı müavini] [Seyfulla] Haşımovu və milis nəfərini öldürməkdə müqəssir edilən Məşqətə [Maştağa] kəndi əhilləri Miryusif Mirməhəmməd oğlu, Mirhüseyn Seyid Salman oğlu dünən Quba meydanında edam edilərək dar ağacına çəkilmişlərdir.

**Xəyanət**

Hərbiyyə nazirinin binagüzarlığına [sərəncamına] görə, süvari alayda xidmət edən zabitlərdən Ağasəlim Şərifov, Miri Hüseynov və iki nəfər qeyriləri xidmətlərindən sui-istifadə etdiklərindən həbs edilmişlərdir. Onlar hökumətə mütəəlliq [məxsus] olan tüfəngləri xüsusi adamlara satmaqla məşğul olub, bir çox pulları kəndi nəflərinə [xeyirlərinə] xərc etmişlərdir.

**Ağabala Quliyevin azad edilməsi**

Hökumətin binagüzarlığına görə, neçə gün bundan əqdəm həbs edilmiş olan məşhur tacir Ağabala Quliyev həbsdən azad edilmişdir.

**Təyin**

Göyçay uyezd naçalniki Xankişi bəy Qafarov Bakı qubernatorunun ikinci müavinliyinə və onun yerinə isə Şamaxı uyezd naçalniki [Lütfəli bəy] Zülqədərov təyin edilir.

**“Göyçay alayı”**

Göyçay əhalisi oraya getmiş olan “Müsavat” Parlaman fraksiyonu və Mərkəzi Komitə nümayəndələrinə müraciətən, Göyçay qəzasının 5000 nəfərə qədər əsgər verməsini göstərməklə, Şamaxı alayı kimi bir “Göyçay alayı” təşkil edilməsi üçün firqənin təşəbbüsatda bulunmasını rica etmişlərdir. Nümayəndələr əhalinin böylə ricasını Rəisi-Vükəla [Baş nazir] həzrətlərinə bəyan etdikdə, o, çox məmmun olduğunu izhar ilə bu barədə Hərbiyyə nazirinə binagüzarlıqda bulunacağını [sərəncam verəcəyini] məlum etmişdir.

**Göyçay “Yardım alayı”**

Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın Göyçay şöbəsi təşəbbüsüylə Göyçayda bu günlərdə həmkarlardan və tacirlərdən ibarət bir “yardım alayı” təşəkkülünə şüru olunacaqdır [başlanacaqdır].

**Mülkiyyə Müfəttişliyi**

Mülkiyyə Müfəttişliyi tərəfindən ətraf qəzalara təftiş üçün göndərilən nümayəndələri mahallar və qəzalar haqqında da bəzi məlumat toplayırlar. O cümlədən olaraq, Göyçay uyezdinin Bərgüşad mahalına bəzi suallar verilmiş və aşağıdakı cavablar alınmışdır:

Sual – Bərgüşad mahalı neçə yüzbaşılıqdan (məhkəmə) ibarətdir?

Cavab – Bərgüşad mahalında 52 yüzbaşılıq və 15 volostluq vardır. Hər yüzbaşılıqda bir yüzbaşı, hər volostda volostnoy starşina var. Bunların əksəri hürriyyət zamanında camaat tərəfindən intixab edilmiş [seçilmiş] adamlardır. Bəziləri də hökumət tərəfindən təyin edilmişdir.

Sual – Mahalda hanki kəndlərdə məktəb var?

Cavab – Hürriyyətdən əvvəl Ucar, Müsüslü, Çallı, Xələc, Lək Birinci, Bığır, Qazyan, İnçə və Zarub kəndlərində birər iki şöbəli ibtidai məktəb olmuşsa da, fəqət hürriyyətdən sonra məzkur [deyilən] məktəblər qapanıb, ancaq yalnız bir Müsüslü kəndində bir də Bığır kəndində iki şöbəli məktəblər davam edir. Birinci kənddə Əli Məhəmmədov, ikinci kənddə Əli əfəndi Hacı Səməd oğlu və Haşım Haşımov müəllimlik edirlər.

Sual – Mahalda xırda etibar [kredit] şirkətləri varmı?

Cavab – Hürriyyətdən əvvəl Ucar, Şəkər və Qarabaqqal kəndlərində birər etibar şirkəti şöbələri olmuşsa da, lakin sonradan dağılmışdır.

Sual – Hifzüssihhə [gigiyena və səhiyyə] xüsusunda mahalda nə yapılmışdır?

Cavab – Mahalda hifzüssihhədən ötrü heç bir şey yoxdur. Aprel ayında mahalın çox kəndlərində tif xəstəliyi olduğuna görə, Göyçay xəstəxanası tərəfindən birisi Zərdab, digəri Müsüslü kəndlərinə olmaq üzərə iki nəfər feldşer göndərilmişsə də, dəva və dərman olmadığından, məhəlli-məmuriyyətlərində [ezam edildikləri yerlərdə] çox qala bilməyib, geri qayıtmışlardır. Hazırda camaatın həkim və dərmana böyük ehtiyacı vardır. Bu xüsusda bir ay əvvəl Ucara gəlmiş Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] nümayəndəsinə Ucar pristavı Haqverdibəyli rəsmi surətdə müraciət etmiş, bir həkim və bir feldşerdən mürəkkəb [ibarət] bir müalicəxanə açılmasını xahiş etmişdir. Hətta camaat tərəfindən məccani [pulsuz] mənzil veriləcəyini də vəd etmişsə də, bu vaxtadək bu xüsusda heç bir təşəbbüs edilməmişdir.

Sual – Bərgüşad mahalında Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] Nəzarətinin nümayəndəsi varmı?

Cavab – Xeyr, yoxdur.

Sual – Ərzaq işləri nasıldır?

Cavab – Bu il mahalda məhsulat kifayət qədər var. Ancaq fəhlə və biçinçi yoxluğu çox müşkülat törədir. Hətta çox yerlərdə məhsul yığılmadığından, məhv olmaqdadır. Zəruri şeylərdən qənd, çay və sabuna böyük ehtiyac vardır.

Sual – Əsgərliyə camaat nasıl baxır?

Cavab – Dağıstan hadisəsindən sonra camaat əsgərliyə böyük rəğbət göstərir.

Sual – Denikin məsələsinə camaat nə nəzərlə baxır?

Cavab – Denikinin bizə yaxlaşmasını eşidən camaatda milli hissiyyat o qədər artmış ki, yalnız cavanları deyil, ixtiyar və ağsaqqallıları belə silaha sarılıb müdafiəyə hazır olmaq fikrindədir.

(Bu xüsusda Müfəttişliyin nümayəndəsinə bilavasitə camaat müraciət edərək, onların könüllü surətdə əsgərliyə hazırlanmaları üçün hökumət tərəfindən təşəbbüs edilməsi və zabitlər göndərilməsi rica edilmişdir.)

Sual – Mahalda asayiş nasıldır?

Cavab – Qonşu mahallara nisbətlə sakitlikdir. Lakin ara-sıra mal oğurluğu vaqe olmaqdadır.

Sual – Mahalda hanki siyasi firqəyə rəğbət göstərilir?

Cavab – Buralarda yalnız "Müsavat" firqəsini tanıyırlar.

* * *

Bərgüşad mahalında polis xidmətində olanların bahalığa nisbətlə rüşvət almayanlarının məişəti qayət ağırdır. Mahal böyük olduğundan hökumətin binagüzarlığına [sərəncamına] görə son zamanlarda onun iki pristavlığa təqsim edilməsi [bölünməsi] təhti-qərara alınmış. Bu təqsim məsələsində bəzi kəndlər özlərinin mərkəzə yaxın olmasını istədiklərindən, hanki kəndlərin hanki hissədə olduğu barəsində bir növ narazılıq vardır.

## AZƏRBAYCANDA

**Zəngəzurda**

Zəngəzur mahalından xəbər verilir ki, ermənilərin müntəzəm qoşunları bu axırıncı günlərdə 6 ədəd müsəlman kəndlərini talan etmişlərdir.

* * *

Ağdamdan yazılır: Zəngəzur qəzasında qanlı hadisələrdən həyəcana düşən əhali hökümət nəzdinə, Parlaman üzvü [Qara bəy] Əliverdibəyov və Usmiyevi nümayəndə göndərmişdir ki, bu yerlərin müsəlmanlarını erməni təcavüzündən xilas etməyə hökumət qarşısında təşəbbüsatda bulunsun.

* * *

Zəngəzurdan xəbər verilir: İrəvan quberniyası tərəfindən erməni saldatları müsəlman kəndlərinə yürüşə başladıqları anda, İran dəstələri müsəlmanlara köməyə gəlməyə başlamışlardır.

**Zəngəzur müsəlmanlarının faciəsi**

Rəsmi və qeyri-rəsmi mənbələrdən verilən xəbərlərə görə, ermənilərin müntəzəm qoşunları Ermənistan sərhədi boyundan müdafiəsiz müsəlman kəndlərinə hücuma başlamışlardır. Zəngəzur Erməni Milli Şurası İrəvandan külli silah almışdır. Müsəlmanlara böyük təcavüzlər edilmişdir. Aşağıda rəsmi məlumatı dərc ediriz:

"Sizin teleqramınıza görə, tərəfimdən Zəngəzura müavinət göndərilmişdir. Bu gün xəbər verilir ki, ermənilərin külli qüvvəsi hücuma keçmişdir ki, Zəngəzur müsəlmanlarını qətiyyən məhv eyləsinlər.

Qələbədən məst olan erməni saldatları boş qalan Saraşo, Yeməzli, İməzli, İkinci Ağalarbəyli, Xaşqab, Gilətağ, Mollalar kəndlərini tamamilə dağıdıb, məhv etmişlərdir. Yandırılmış olan müsəlman kəndlərində ölən müsəlmanlar çox azdır. Fəqət kəndlilərin umum mal-qaralarını aparmışlardır.

İyunun 28-ində Zavodnı dairənin ermənilərləri Qafan dərəsində Qarqel, Çuxuryurd, Qəplik nam müsəlman kəndlərini yağma edərək yandırmışlardır. Müharibə davam edir.





Erməni əhalisi köçərilərə yol vermir. Müsəlmanlara müavinət üçün mən Zəngəzura varid oldum [getdim]. Ermənilər bütün qüvvətləri ilə mənə hücum edirdilər. Mən onlardan özümü gözləyirəm ki, ortalığa fəsad düşməsin. Ermənilər Cəbrayıl və Zəngəzur mahalının köçərilərinə yaylağa getmələrinə mane olurlar. Ona görə də mən özümə borc bildim ki, köçərilərə lazım olan müavinəti edim. Ermənilərin Aqarek, Aqavork, Qarababa və Sirqatar nam kəndləri mənim gəldiyimi bilib, Alıç-adil ilə Aqavorq kəndi arasında bizim üzərimizə hücum edib, məqsədləri də bu idi ki, köçərilərin yolunu kəsib, mənim müavinətimə mane olsunlar. Mən onlarla axşamadək müharibə etməyə məcbur oldum. Nəticədə müsəlmanların Qarababa kəndi yanıb, Aqavork və Sirqatarın qışlalarında böyük tələfat və xəsarətə düçar olmuşlardır. Ermənilərin vəhşətinə qarşı ciddi tədbirlər ittixaz edirəm [tədbirlər görürəm]."

*Milis naçalniki (imza)*

## ERMƏNİSTANDA

*(Erməni qəzetələrindən)*

**Urmiyada**

"Rə'd" qəzetəsindən iqtibasən "Aşxatavor" yazır ki, Urmiyada şiddətli aclıqdır. Şəhərdə və ətrafında kəmali-binizamlıq hökmfərmadır [tam anarxiya hökm sürməkdədir]. Gündüz günorta çağı əhalinin acından adam əti yemək ittifaqları [hadisələri] görmüşlər.

– Vilsonun hüzuruna getmiş erməni arxiyepiskopu Turyana Rəisi-məzkur demişdir:

Mən bəşəxsən erməni tayfasını dost tuturam. Müstəqil olmağa onun haqqı vardır. Bu nöqteyi-nəzərdə tək mən deyiləm, bütün mənim camaatımdır ki, onu mənə rəsmi sayaqda tapşırıbdır. O cəhətə mən camaatın rəyinə müxalif ola bilmərəm. Siz özünüz zənn etdiyiniz qədərdən ziyadə həqiqi dostunuz Sülh Konfransında da vardır. Erməni məsələsini onlar ermənilərin tələbatına müvafiq gərək həll etsinlər. Rica edirəm, erməni vəkilləri Şərq məsələsi xüsusunda təşkil edilmiş Amerika komissiyası ilə yaxın və dostanə əlaqədə bulunmaqlarında davam etsinlər, ta ki, bu komissiya erməni camaatının tələbatını səhvsiz müdafiə edə bilsin və Kilikiyanı Suriyaya ilhaq edilməsini [birləşdirilməsini] qoymayıb, müstəqil Ermənistan hüduduna daxil etdirsin.

Məzkur [adı çəkilən] keşiş Amerika heyətinin nüfuzlu üzvlərindən Vestermanı da ziyarət etmişdir. Müşarileyh [adı çəkilən şəxs], Turyana demişdir ki, mən erməni tayfasının tarixinə bələdəm. Ermənistanda olduğum cəhətə bilirəm ki, Kilikiya heç vaxt Suriyanın hissəsi olmamışdır. Ermənistan məsələsi erməni tayfasının tələbatına müvafiq gərək həll edilsin.

**[Aleksandr] Bekzadyanın etirazı**

Məvərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti orada olan erməniləri əsgərliyə əxz [dəvət] edir. Azərbaycan Hökuməti nəzdində olan Ermənistan siyasi nümayəndəsi onun əleyhinə etiraz edib və məhəl hökuməti naziri Seyranyana bir məktub yazıb, Məvərayi-Bəhri-Xəzərdə

yaşayan ermәnilәri Ermәnistana göndәrmәlәrini rica etmişdir.

## İDARӘDӘN CAVABLAR

**"Bir iranlı"ya:** Mәrәzi yalnız tәşxis etmәk kafi deyil, dәvasını da göstәrmәlidir. Mütәәssifanә, mәqalәnizdә bir dәrman görülmәdi.

**Gәncәdә "İzçi"yә:** İzcilik haqqında yazdığınız mәqalә ancaq bir mәqalәnin yaxşı müqәddimәsidir. Әsl mövzuya müntәzir oluruz. Bir dә izçiliyi tәrif edәrkәn yaxşı vә xeyir olduğunu göstәrmәk istәmiş, fәqәt heç bir dәlil göstәrmәmişsiniz. Öylә sentimental müqәddimәdәn sonra qüvvәtli dәlillәr gözlәnir.

**Satılır**

Dükan lәvazimatı: qәfәsә, maşın tәrәzilәri, elektrik lampaları vә qeyri dükan şeylәri. Xahiş edәnlәr 2-ci uçastkovı ev komitәsinin idarәsinә müraciәt etmәlidirlәr.

*5415*

**Xüsusi müsәlman tәvәllüdxanası**
**Gövhәr xanım Qazızadә**

Vәzi-hәml edәnlәr hәr bir vaxt, gәlәn xәstәlәr isә hәr gün sәhәr saat 10-dan 2-yә kimi qәbul edilirlәr. Tәvәllüdxanada әmәliyyati-cәrrahiyyә (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçәk döyür, yara bağlayır vә iynә vurur. Adres: Armyanski küçә nömrә 13. Telefon nömrә 58-39.

*T-321*

**Bәhri-Xәzәr dәnizindә posta, sәrnişin vә yük gәmilәrinin hәrәkatı**

*Bakı-Әnzәli*

15-ci körpüdәn sәşәnbә [çәrşәnbә axşamı], cümә vә bazar günlәri saat 4-dә.

*Bakı-Tazәşәhәr (Krasnovodsk)*

15-ci körpüdәn düşәnbә [bazar ertәsi], çaharşәnbә vә cümә günlәri saat 4-dә.

*Bakı-Salyan*

19-cu körpüdәn bazar, sәşәnbә, çaharşәnbә vә cümә günlәri saat 4-dә.

*Bakı-Әnzәli-Şahsavar-Mәşhәdsәr-Bәndәr Gәz vә geri*

17-ci körpüdәn çaharşәnbә günü saat 4-dә.

*Bakı-Hәsәnqulı-Bәndәr Gәz-Mәşhәdsәr vә geri*

17-ci körpüdәn sәşәnbә günü saat 4-dә.

*Petrovsk-Fort-Aleksandrovsk vә geri*

Paroxodlar Petrovskdan pәncşәnbә [cümә axşamı] günlәri saat 4-dә çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 vә 24-cü körpülәrdәn sәşәnbә, pәncşәnbә vә şәnbә günlәri saat 12-dә.

Qeyd: Lәnkәrana vә Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Diş hәkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrә 29, Parlaman qarşısında. Telefon nömrә 5-96. Kauçuk vә qızıl üzәrindә süni dişlәr qayırır. Dişlәri ağrısız çәkir.

*10239*

**Diş hәkimi**
**E. S. Karşteynbaumun**

Dişlәr ağrısız çәkilir vә qızıl dişlәr qayırılır. Ünvan: Sisyanovski, nömrә 41, Çadrovının küncündә. Telefon nömrә 22-08. Qәbul edir: 8-dәn 1-әdәk; 5-dәn 7-әdәk.

İyul ayının 1-dәn naxoşları Buzovnada Zәrbәli Şeyxәli oğlunun bağında qәbul edir.





**Arvad diş hәkimlәri**
**Z. A. Şexter vә xanım**

Dişlәr ağrısız çıxarılır. Qızıl qapaq, qazma vә hәr növ qayırma dişlәr. Dişlәrin yaxşı qayırılması tәmin olunur. Kәnardan gәlәnlәr üçün tezliklә görülür. Qiymәtlәr münasibdir.

Qәbul olunur sәhәr saat 9-dan 2-yәdәk, axşam saat 4-dәn 7-yәdәk. Voronsovski küçә 17 nömrәli evdә, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyә vә әsәbiyyә naxoşluqları qәbul edir sәhәr saat 10-dan 1-әdәk, axşam saat 5-dәn 7-yәdәk. Adres: Vorontsovski küçә nömrә 17, 2-ci mәrtәbә. Telefon nömrә 50-28 vә 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrәvi, dәri, sifilis vә daxili naxoşluqlarını qәbul edir. 606 vә 914 müalicә. Naxoşları hәr gün qәbul edir sәhәr saat 7-dәn 8-әdәk, axşam saat 6-dan 8-әdәk. Vorontsovski küçә nömrә 43, 2-ci mәrtәbә. Telefon nömrә 32-56.

*10237*

Doktor **M. M. Kәrimov** göz naxoşlarını vә diş hәkimi **A. Әmirov** naxoşları qәbul edirlәr saat 4-dәn 7-yәdәk. Ünvan: Suraxanski vә Spasski küçәlәrin [küncündә] 102 nömrәli evdә. Telefon nömrә 40-91.

*8754*

**Elan**

Ticarәt, Sәnaye vә Әrzaq Nәzarәti bununla ümuma elan edir ki:

1) Bakı Azәrbaycan dәmiryollarından gәlәn yüklәr üçün put vergisi bu gündәn Nәzarәtdә qәbul olunmayıb, Bakı 1-nci stansiyasında qәbul olunacaqdır.

2) Digәr tәriqlә gәlәn yüklәr üçün isә put vergisi "Vastoçnı Obşestvo"nun 22-nci körpüsündә qәbul olunacaqdır.

*T-171*

***Müvәqqәti müdir:***
***Xәlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 126. "İrlanda Cəmiyyəti": İrlandiyanın birləşdirilməsi və Böyük Britaniya imperiyası tərkibində dominion (öz-özünü idarə edən hissə) statusu alması uğrunda mübarizə aparan siyasi hərəkat olan İrlandiya Dominionu Liqi [Irish Dominion League] nəzərdə tutulur.

"Vestminster [Westminster]: Londonun tarixi rayonu. Böyük Britaniya Parlamenti buradakı Vestminster Sarayında yerləşdiyindən, "Vestminster" deyəndə çox vaxt Böyük Britaniya Parlamenti nəzərdə tutulur."

səh. 127. "Yalnız Rusiyada deyil, bütün cahanda inqilab qələbə çalacaqdır.": qəzetdə belə getmişdir: "Yalnız Rusiyada deyil, bütün cahan inqilabında qələbə çalacaqdır."

"Lopasnya": Rusiyanın Moskva vilayətində şəhər; indiki Çexov şəhəri.

**Qəzetələrdən**

səh. 127. "Hindustan Konqresi": Hindistanın azadlığı uğunda aktiv mübarizə aparmış Hindistan Milli Konqresi nəzərdə tutulur. Bu siyasi partiya 1885-ci ildə yaradılmışdı.

"Roulatt qanunu" [Rowlatt Act]: Britaniya ağalığı dövründə Hindistanda anarxiya və inqilabi cinayətlər əleyhində fövqəladə sərt tədbirlər görməyi nəzərdə tutan qanun. Britaniya Hindistanının qanunverici orqanı tərəfindən 1919-cu ildə qəbul edilən bu qanun, onun müəllifi olan ingilis hüquqşünası Sidney Roulattın adıyla xatırlanırdı.

səh. 129. "C. Musalayev": böyük ehtimalla material ruscadan (Джамалутдин) götürüldüyü üçün qəzetdə "D. Musalayev" getmişdir.

**İşlərimizdə hərcü-mərclik**

səh. 131. "təbiətin əlinə buraxmaq": qəzetdə "təbiətin əlilə buraxmaq" getmişdir.

səh. 132. "3) Nəriman Əliyev adından biri…": qəzetdə bu maddə nömrələnməmiş, bundan sonrakılar 3 və 4 kimi nömrələnmişdir.

səh. 133. "Ümidvar": "Azərbaycan" qəzetində bu imza Ömər Faiq Nemanzadəyə məxsusdur.

**Qırmızı qan və qara mürəkkəb – I**

səh. 133. "yalnız qılınc zoruyla": qəzetdə "qılınc" yerinə "qızıl" getmişdir.

səh. 134. "…idarələri milliləşdirdilər, ərəbləşdirdilər.": qəzetdə "ərəbləşdirdilər" sözü tünd şriftlərlə yığılmışdır.

**Xarici siyasətimiz – 5**

səh. 138. "Bəyoğlu": İstanbulun Avropa hissəsində yer alan rayonlardan (ilçələrdən) biri.

"Qalata": İstanbulun Avropa hissəsində tarixi rayon.

**"Getmə" şeiri (səh. 138) üçün lüğət**

təvəqqüf: dayanmaq, durmaq
yə's: ümidsizlik; hüzün
tərəhhüm: mərhəmət
məğmum: qüssəli
münfəil: küskün
şitab: tələsmə

**İki lövheyi-bayram**

səh. 139. "ənvayi-məkulat ilə mali": qəzetdə belə getmişdir: "ənvayi-məkulat ilə hamı".

səh. 140. "28 həziran 335": burada il, rumi təqvimə görə (1335-ci il) göstərilmişdir; miladi təqvimlə 28 iyun 1919-cu ilə uyğundur.





**Bakı xəbərləri**

səh. 144. "Qəhqəhə": Türkmənistanın cənubunda, indiki Kaka şəhəri.

"Mirhüseyn Seyid Salman oğlu": "Azərbaycan" qəzetinin 20 iyun 1919-cu il tarixli 208-ci nömrəsində bu şəxsin adı "Mirhüseyn Seyid Süleyman oğlu" kimi verilmişdir (bax. "Azərbaycan" külliyyatının IX cildi, səh. 385).

**Ermənistanda**

səh. 147. "Rə'd": Tehranda nəşr edilmiş İran qəzeti.

"Aşxatavor": Tiflisdə nəşr edilmiş erməni qəzeti.



***"Azərbaycan" qəzetinin 221-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 10 iyul 1919-cu il, nömrə 221**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 11 şəvvalül-mükərrəm sənə 1337. 10 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERA**

Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının müdiriyyəti Cümə günü, şəvvalül-mükərrəm ayının 12-də (iyul ayının 11-də 1919-cu [ildə]) mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Hacıbəyli qardaşlarının yazmış olduğu məşhur **"Leyli və Məcnun"** operası. 6 pərdədə. Pərdədən qabaq Zülfüqar bəy tərəfindən olan təzə milli şərqi "Xudam məni yaratdı" çalınıb oxunacaq. Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

10 iyul 1919, pəncşənbə [cümə axşamı] günü, saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

**ELAN**

Azərbaycan Kazyonnı Palatası [Xəzinə Palatası] bununla əlavə mədən naloqu [vergisi] verənlərə elan edir ki, Maliyyə nazirinin həmin həziran (iyun) ayının 19-da 4117 nömrəli binagüzarlığına binaən [sərəncamına əsasən], 1919-cu il üçün idarələrdən mənfəətdən alınacaq faiz vergisi haqqında Müvəqqəti Hökumətin 13 dekabr 1917-ci ildəki 3, 5, 8[-ci] qətnamələri ləğv olunub, qət olunmuşdur [qərara alınmışdır] ki, avqust ayının 1-də naloq verənlərə oklodnoy vərəqə [vergi vərəqəsi] verilməsi, sentyabrın 1-də etirazlar verilməsi, dekabrın 2-də xəzinəyə faiz vergisi verilməsi. Oklodnoy vərəqəni hər kim nədənsə almazsa, podatnoy inspektorlardan [vergi müfəttişlərindən] xəbər ala bilər.

*T-172*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**1919[-cu] ildə buraxılan 50 rubləlik kağız pulun təsviri**

Pullar su nişanı olmadan, adi ağ kağız üzərində çap edilmişdir. Pulların tulu [uzunluğu] haşiyələri ilə bərabər 110 millimetrə və ərzi [eni] isə 68 millimetrədir.

***Üz tərəfi***

Pulların üz tərəfi ibarətdir: 1) Yazıdan, 2) Naxışlı konturalardan və 3) Şəbəkələrdən.

*1 - Yazısı*

Biletin yuxarı tərəfindəki haşiyənin havasında iri xətlə türkcə yazılmışdır: "Azərbaycan Cümhuriyyəti". Hərflər tünd qəhvəyi rənglə yazılmış və bir qədər uzaqdan nazik xətlə əhatələnmişdir.

İkinci xətt kiçik bağlanmış haşiyə arasında yerləşdirilmişdir. Burada türkcə olaraq "1335 sənə" yazılmışdır. Rəqəmlər sarı rəngli nazik xətlərlə əhatələnib müvafiq bir tərzdə qalınlaşır. Rəqəmlər vəsət əndazədə [orta ölçüdə] yazılmışdır. Bu rəqəm türkcə tünd qəhvəyi rənglə yazılmış "sənə" kəlməsini qapayır. Bu naxışın sol tərəfində "19" və sağ tərəfində yenə "19" rəqəmləri yazılıb səneyi-cariyyəni [cari ili] bildirir. Rəqəmlər vəsəti əndazədə olaraq qoşa xətlə yazılıb araları isə ağ qalmışdır.

Sonrakı xətdə: Türkcə "əlli manat" yazılmışdır. Həmin xətt tünd qəhvəyi rəngdə iri naxışlı kəlmələrlə yazılıb nazik xətlə əhatələnmişdir. Hərflər və ağ qalmış yer ümumi şəbəkə ilə örtülmüşdür.

Pulun mərkəzində türkcə iri naxışlı hərflərlə tünd qəhvəyi rəngdə "50" rəqəmi yazılıb nazik kontura xəttilə əhatələnmişdir.

Biletin sol və sağ tərəflərində 12 guşəli şəklin tünd qəhvəyi havasında ağ rəngdə "50"lər yazılmışdır. Bu rəqəmlər vəsəti əndazədə rusca olaraq yazılmışdır.

Ağ rəqəmlər ilə mərkəzi rəqəmlər arasında yazılar vardır. Sol tərəfdə nazik vəsəti xətlə dörd xətdə yazılmışdır: "Rusiya dövlət kağız pulu ilə bərabər işlənir".

Axırıncı xətdə ibtida və nəhayəsində içərisində əyri xətdə olaraq mürəbbelər [kvadratlar] yerləşdirilmişdir.

Sağ tərəfində həman yazılar, ancaq türkcə olaraq üç xətdə yazılmışdır. Bu axırıncı xətdə mürəbbelər yoxdur.

Bunlardan daha aşağı 4 millimetrə bir səthdə tünd qəhvəyi rəngdə naxışlı hərflərlə sarı rəngdə rusca bu sözlər yazılmışdır: "Əlli manat". Bir az aşağı haşiyənin bağlı müdəvvərində [dairəsində] "50" rəqəmi yazılmışdır. Bu rəqəm rusca iri sarı xətlə yazılmış və qoşa xətlərlə əhatələnib müvafiq kölgəsi vardır.

Bu axırıncı rəqəmin sol və sağ tərəflərində, pul rübünün [küncünün] hüdudunda konturasız göy, sadə və iri xətlə rəqəmlər yazılmışdır. Əvvəlinci rübün axırında rusca "50" və üçüncünün axırında türkcə rəqəmlər yazılmışdır.

Pulun sol tərəfindəki qalxan rəsimli haşiyə altında xırda, əyilmiş xətlə iki sətirdə yazılmışdır: "Heyəti-Vükəla rəisi". Bundan sağa isə həman cərgədə Heyəti-Vükəla rəisinin imzası vardır.

Bu yazıdan aşağı həman hürufat ilə bir xətdə: "Maliyyə naziri" yazılmış və Maliyyə nazirinin imzası vardır.

Sağ tərəfdən həman yazılar, ancaq türkcə yerləşdirilmişdir.

Axırıncı sətirdə rusca "Azərbaycan Cümhuriyyəti" yazılmışdır. Sözlər iri naxışlı ağ rəngli hərflərlə yazılmış və nazik kontura ilə əhatələnib müvafiq bir tərzdə qalınlaşaraq haşiyənin aşağı tərəfində yerləşdirilmişdir.

*[2 -] Haşiyəli kontura*

Haşiyənin ərzi 60 millimetrə və tulu 103 millimetrədir.

Pulun haşiyəsi qarışıq Avropa üsulunda birər rəsmi təsvir edir. Haşiyənin yuxarı tərəfi hər biri 1 ¼ millimetrə ərzində ağ xətləri məhdud yeddi üfüqi məsahədən [hissədən, sahədən] ibarətdir. Dörd





məsahə sarı rəngdə olub, qalan 3 məsahə isə bunların arasında kağızın öz rəngində yapılmışdır.

Bu hər üç məsahələrin ağ havalarında 14 ½ dəfə naxışlı dırnaq ilə haşiyəli rəsimdən kombinasiya edilmişdir. Haşiyənin yuxarı tərəfinin ərzi 10 millimetrədir.

Həman tərz ilə yuxarı sətrə mütabiqən [uyğun olaraq] aşağı yapılmışdır.

Haşiyənin ətrafındakı şaquli vəchləri [üzləri] 2 ¼ ərzində məsahələrdən ibarətdir. Bunlar haşiyənin üfüqi tərəflərinin axırını qapayırlar. Bu yerdə ağ rənglər vardır. Bu ağ hissələrin havasında yuxarı və aşağı tərəflərin 1 ¼ millimetrə və ərzi xətlər arasında dörd dəfə "lira" nişanlı rəsm yerləşdirilmişdir. Haşiyənin üfüqi tərəfləri arasındakı şaquli tərəflərinin hissəsi içərisində göy rənglə rənglənmiş və səkkiz dəfə naxışlı mürəkkəb rəsmlər yapılaraq öz kontur[ası] ilə bir məsahə vardır.

Pulun vəsətində, haşiyənin yuxarı vəchi altında, bilavasitə aşağı tərəfində iki həlqəli altı pəncə naxış yapılmışdır. Bu da iki xətdə olub, araları sarı rənglə rənglənmişdir.

Biletin sağ və sol tərəflərində şaquli qayda ilə içərisində on iki pəncəli naxış olaraq iki dənə ucu iti qalxanlar vardır. Naxış tünd qəhvəyi rəngdə olub ətrafında nazik xətlər vardır. Naxışdan yuxarı və aşağı tərəfə səthi-müsəlləsələr [üçbucaq səthlər] çıxıb, tünd qəhvəyi rəngdə sarı sınıq xətlərlə rəsmlənmişdir. Səthi-müsəlləsələrin ətrafında nazik xətlər vardır. Ornamentin açıq hissələri sarı rənglə rənglənmişdir.

Pulun vəsətində türkcə yazılmış "50" rəqəminin altında iki konturalı və sarı rənglə boyanmış 52 millimetrə tulu və 4 millimetrə ərzində bir üfüqi məsahə vardır.

Həman məsahənin axırında iki həlqə olub, axırlarında dəxi məsahənin içərisində iki böylə həlqələr vardır.

Bu məsahənin altında guya iki nazik xətdən asılmış kimi sarı rənglə rənglənmiş iki xətli, bağlı, müddəvvər həlqə yerləşdirilmişdir.

*3 - Şəbəkəsi*

Pulun haşiyəsi ilə kənarları şimal-qərbdən cənub-şərqə tərəf dalğamisal [dalğavari] göy rəngli şəbəkələr ilə örtülmüşdür. Haşiyə ilə məhdud [əhatə edilmiş] məsahə iki dalğamisal bir-biri arasından keçən şəbəkələrlə örtülmüşdür. Bu şəbəkələrin biri üfüqi, digəri yuxarıda təsvir etdiyimiz kimi əyridir.

***Əks tərəfi***

Pulun əks tərəfi ibarətdir: 1) Yazıdan, 2) Naxışlı haşiyədən və [3)] şəbəkələrdən.

*1 - Yazısı*

Haşiyənin yuxarısında rusca "Azərbaycan Cümhuriyyəti" yazılmışdır. Bu kəlmələr tünd qəhvəyi olaraq iri və naxışlı hürufat [hərflər] ilə yazılmışdır. Hürufat ətrafında nazik xətlər vardır. Ümumi şəbəkə bu hərflərin üzərindən keçir. O biri xətt isə, tünd qəhvəyi rəngdə ətrafında nazik xətlə olaraq naxışlı hərflərlə türkcə "əlli manat" yazılmışdır.

Mərkəzi şəbəkələr ətrafında iri rəqəmlərlə "50" yazılmışdır. Həmin rəqəm soldan türkcə, ətrafı kontura xətti olaraq və müvafiq bir surətdə qalınlaşaraq yazılmışdır. Rəqəmin altında adi hüruf [hərflər] ilə türkcə "manat" yazılmışdır.

Naxışların sağ tərəfindən həman əndazədə rusca olaraq "50" və altında da "manat" yazılmışdır. Həmin yazı miyanə [ortabab] naxışlı hüruf ilə yazılmışdır. Pulun ümumi şəbəkəsi bu iki rəqəmlər arasından keçir. Naxışın göy rəngli havasında və onun yuxarı yarımmüdəvvərində [yarımdairəsində] miyanə hüruf ilə türkcə yazılmışdır: "Saxtasını yapanlar qanunən təqib edilirlər".

Naxışın aşağı yarımmüdəvvərində yuxarı yazıdan iki dənə səkkizguşəli və içərisi ulduzlarla ayrılaraq, həman yazı iki xətdə rusca olaraq "Saxtasını yapanlar qanunən təqib edilirlər" sözləri yazılmışdır. Hər iki xətt yarımmüdəvvər tərzdə yazılmışdır.

Naxışın mərkəzi müdəvvərinin tünd qəhvəyi havasında göy rəngdə konturasız hürufat ilə toxunma qaydası ilə naxışlı olaraq türkcə "Azərbaycan Cümhuriyyəti" yazılmışdır.

Axırıncı xətt: "əlli manat" ayrı, qalın, ətrafı konturalı hüruf ilə yazılmış və içərisi yuxarıya çevrilmiş kaman (duqa) [yay] kimi yerləşdirilmişdir. Bu xətt ümumi şəbəkə ilə örtülmüşdür.

*2 - Münəqqəş [naxışlı] haşiyə*

Haşiyənin ərzi 61 ½ millimetrə, tulu isə 103 millimetrədir.

Haşiyə qarışıq Avropa üsulundadır. Haşiyənin yan tərəfləri 28 belikdən [hörükdən] ibarət iki sütundan mütəşəkkildir. İki beliyin ¾ hissəsi görünüb, ikisi isə ancaq nişanlanmışdır.

Aşağıda sütunlar binaya 11 ½ millimetrə irtifasında [yüksəkliyində] daxil olur ki, bunun 1 ½ millimetrəsi bilavasitə sütunun uzadılmış direyini işğal edir. Sonra 10 millimetrə bina bir xətdə mürəkkəb naxışlar yerləşdirilmişdir. Bu naxış da pulun üz tərəfindəki ətraf vəchlərə daxil olan naxış kimi yapılıb, ufacıq təğyir [dəyişiklik] verilmişdir.

Sütunun iki səth arasında başlar vardır ki, bunların cəmi 4 millimetrədir. Sütunlar, səthlər və bina aşağı və sağ tərəfdən qalınlaşaraq göy rənglə rənglənmişdirlər.

Haşiyənin yazılarının hər biri 1 ¼ millimetrəlik ərzində iki məsahədən ibarətdir. Aşağı məsahə göy rəngli, yuxarı məsahə isə ağ kağız rəngindədir. Bu məsahənin ağ yerində haşiyənin üfüqi vəchlərinə daxil olaraq pulun üz tərəfində naxış yapılmışdır.

Haşiyənin yuxarı tərəfi 10 millimetrəlik lenta təsvir edir. Bu lentanın yuxarı və aşağı hissələri göy rəngli və bir millimetrə məsahələri təşkil edir. Bunların arasındakı məsahə ağ toxunma xətlərdən yapılmış naxışla naxışlanmışdır. Bu məsahələrin axırı hər tərəfdən 4 ½ millimetrə olaraq üfüqi tünd qəhvəyi rənglə hər tərəfdən 20 cızıqlarla cızıqlanmışdır. Məsahələrin qalan hissələri şimal-qərbdən cənub-şərqə doğru dalğamisal şəbəkə ilə örtülmüşdür.

Pulun mərkəzi hissəsi tünd qəhvəyi rəngli 16 millimetrə diametrli müdəvvərdən ibarətdir. Bu müdəvvər üç xətlə əhatələnmişdir ki, getdikcə bunların arasındakı məsahə azalır. Bu müdəvvər 10 pəncəli naxış arasında yerləşdirilibdir. Böylə ki, naxışın 8 pəncəsi müdəvvərin müstəqim hissələrini təşkil edir. Ətrafındakı iki pəncələri şəbəkə günbəd şəklini alırlar. Naxışın yuxarı və aşağı qütbü nöqtələrində birər çıxan başlar vardır.

Naxışlar göy rəngdə olub, qoşa bağlı konturaları vardır. Bu xətlərdən xaric, konturalara müqabil daha iki xətt vardır. Bu xətlər başların altından keçərək sağ və sol tərəflərə çıxıb, daxilində ürək misalı olaraq lira şəklini alırlar. Ürəkmisal xarici qoşa xətlərin arasındakı məsafə göy rəngdədir.

Bu naxışın başı üstündə ümumi şəbəkələr ilə örtülmüş qoşa nazik xətli bir naxış daha vardır. Mərkəzi naxışın sağ və sol tərəflərində iki vinyetkalardan ibarət naxışsız xurma ağacı yarpağına oxşar yarpaqlar yerləşdirilmişdir. Yuxarı vinyetkanın ağ cızıqları vardır.

Palmettalar bütün şəklin ətrafında ağ xətdə olaraq göy rənglə rənglənmişdir.

*3 - Şəbəkəsi*

Pulun haşiyədən kənarına kimi şimal-qərbdən cənub-şərqə doğru dalğamisal şəbəkə ilə örtülmüşdür. Haşiyənin yuxarı cızıqlanmamış hissəsi dəxi həmin şəbəkə ilə örtülmüşdür. Haşiyə ilə məhdud məsahə mərkəzi naxış və palmettalardan siva [başqa], göy rəngdə muaret şəbəkəsi ilə örtülmüşdür. Bu şəbəkə sol tərəfdə bir qədər yayılmış, bəsit və iri əndazədədir.

*Maliyyə naziri: Əliağa Həsənzadə*

**Azərbaycan Dəmiryolları Nəzarətindən**

*Əmrnamə nömrə 58*

9 iyun 1919

May ayının 26-da Sumqayıt istasyonu telefonçusu Nikolay Pokrovski istasyona gəlib, Dabravol ordusunun hücum etməsi hərəkatının qət edilməsi [qərara alınması] və qeyrə haqqında yalan və həyəcanlı şayiələr buraxmışdır. Buna görə dəmiryol qulluqçuları arasında həyəcan qalxıb, onlardan bir paraları hətta şeylərini yığışdırmağa belə başlamışlardır. Sumqayıt istasyonu candarması Aslan Babayev tərəfindən vaxtlı-vaxtında ittixaz edilən [görülən] bacarıqlı tədbirlərə görə qulluqçuların işi başlanıb, ixtilaf tamamilə bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Məzkur [adı çəkilən] candarma Aslan Babayevin vaxtlı-vaxtında lazım gələn binagüzarlıqda bulunmasına [addımlar atmasına] görə, xidməti cəhətdən ona öz razılığımı izhar edirəm.

*Əslində imza etdi:*
*Yollar naçalniki*
*T[eymur bəy] Məlikaslanov*
*Mühafizə naçalnikini*
*[Xanbaba bəy] Sədrəddinbəyov*
*Kargüzar (imza)*

*Əmrnamə nömrə 59*

16 iyun 1919

Ələt-Culfa dəmiryolu təşkilatı başlanması münasibətilə bu yolun mühafizə qulluqçuları ştabı təsdiq edilənə qədər Osman bəy Mirzəbəyov Bakı şəhərində müvəqqətən mühafizə naçalniki ixtiyarında qalmaqla bərabər, Azərbaycan Dəmiryolları mühafizə naçalnikinin 2-ci müavini vəzifəsini ifa etməyə buraxılır.

*Əslində imza etdi:*
*Dəmiryol naçalniki mühəndis*
*Vəkilov*
*Mühafizə naçalniki*
*[Xanbaba bəy] Sədrəddinbəyov*
*Kargüzar (imza)*

*Əmrnamə nömrə 61*

21 iyun 1919

1) Müşahidə edilmişdir ki, mühafizə xidmətçiləri nədənsə müqərrər edilmiş

[qərarlaşdırılmış] uniformanı geyməyirlər. Bilatərəddüd [tərəddüdsüz, dərhal] ifasından və nəzər-diqqətə alınmasından ötrü elan edirəm ki, təhti-idarəmdə [tabeçiliyimdə] olan dəmiryol mühafizə xidmətçilərinin hamısı xidmət əsnasında öz vəzifələrinə müvafiq müqərrər edilmiş uniformanı geyməlidirlər.

2) Elan edirəm ki, mühafizə qulluqçuları xudsəranə [özbaşına] bir surətdə vəzifələrini buraxdıqlarına görə nəinki bir tək xidmətdən kənar ediləcəklər, bəlkə məhkəməyə də veriləcəklərdir. Uçastok naçalnikləri [sahə rəisləri] bu əmrnamənin mühafizə qulluqçuları tərəfindən dürüst ifa edilməsinə nəzarət edib, hər bir ittifaqda [hadisədə] mənə xəbər verməlidirlər.

3) Yay istisi münasibətilə müsri [yoluxucu] xəstəliklər zühur etməsin deyə dəmiryol xəttində, həmçinin bütün istasyonlarda, ələlxüsus fəhlə məntəqələrində olan mühafizə xidmətçilərinə əmr edirəm ki, sihhiyyə [səhiyyə və gigiyena] qanunlarını gözləməyi tələb etsinlər.

*Əmrnamə nömrə 62*

25 iyun 1919

Bakı şəhərinin qradonaçalniki və polismeysterinin bəyanatına müvafiq elan edirəm ki, Azərbaycandan Gürcüstana gedən şəxslər Azərbaycan Cümhuriyyəti nəzdində olan Gürcüstan nümayəndəsindən icazə vəsiqəsi almalıdırlar.

*Əslinə imza etdi:*
*Azərbaycan Dəmiryolları mühafizə naçalniki əvəzinə*
*[Osman] Mirzəbəyov*
*Əslinə mütabiqdir.*
*Kargüzar (imza)*

## TELEQRAF XƏBƏRLƏRİ

London - Kopenhaq [Kopenhagen] vasitəsilə Peştədən xəbər verilir ki, əksinqilab hərəkatı qətiyyən tərk edilmişdir. Əksinqilabçılara qarşı terror elan edilmişdir. Onları asırlar. Hər kəsdə silah tapılır, atmaqla edam edilir.

Berlin - Dəmiryol əmələləri [fəhlələri] tətil etdiklərindən dolayı dəmiryol hərəkatı dayanmışdır.

**Fransa ordusunun tələfatı**

Büdcə komissiyasının məruzəçisi Maren aprelin 1-i 1919-cu ilədək Fransa ordusu tələfatı barəsində zeyldəki [aşağıdakı] məlumatı verir:

Ölən afiserlər 32.000 nəfər, əsl fransız saldatlarından ölənlər 1.006.100 nəfər, Şimali Afrikadan alınan saldatlardan 27.000 nəfər, müstəmləkə qoşunlarından 24.600 nəfər, xəbərsiz [itkin] düşənlər 2.500 nəfər, xəbərsiz düşən Avropa saldatları 246.500 nəfər, Şimali Amerikadan alınan saldatlardan 9.000 nəfər. Dokladçı flot tələfatından da bəzi məlumat vermişdir.

*(Bolşeviklərin məlumatı)*

Melitopol səmtində Belqorod üzərinə olan düşmən hücumu dəf edilmişdir. Ştab naçalniki rotmistr Paşkovski və bir general qətl edilmişdir. Ştabın məktubat və əmrnamələri tövqif [həbs] edilmişdir.

* * *

Konstantinoqrad səmtində - Tərəfimizdən Lunnaya mövqifi işğal edilmişdir.





Yekaterinoslav səmtində şiddətli müharibələrdən sonra qırmızı qoşunlar Suxaçyovkanı işğal etdilər.

Valuysk səmtində düşmənlərin güclü qüvvəsi təzyiqi altında bizim hissələrimiz Novı Oskol denilən yeri tərk etdilər. Bobrov üzərinə olan düşmən hücumu dəf edilmişdir.

Kamışin səmtində Lapşinski mövqifi [stansiyası] üzərinə edilən düşmən həmləsi dəf edilmişdir.

Tsaritsın cəbhəsində düşmənlərin külli qüvvəsinin təzyiqi altında biz[im] hissələrimiz Kamışinin 50 verstliyinə yeni səngərlərə çəkilmişlərdir.

**Qərb cəbhəsində**

Petrozavod səmtində - Petrozavod-Olonets yolu düşmənlərdən təmizlənmişdir.

Narv səmtində - Peterqofun cənub-qərb tərəfində vaqe [yerləşən] Malenkovo, Trunovo kəndləri, Qatçinanın cənub tərəfində isə Poddubye kəndləri işğal edilmişdir.

Novo-Svenç səmtində - Luninetskin şimal tərəfində vaqe Lisino kəndindən bizim hissələr çəkildilər.

Proskurov səmtində - Proskurovun şimal-qərb hissəsində biz bir neçə kəndləri işğal etmişik.

**Şərq cəbhəsində**

Qızğın müharibədən sonra Puqaçyovskini işğal etdik.

Buzuluk səmtində - Buzulukun cənub tərəfində bizim hissələr bir neçə səngərləri işğal etmişlərdir.

Perm səmtində - Çernomor zavodu yanında müharibə davam edir.

## SÜLH ƏTRAFINDA

**Müharibə hənuz qurtarmamışdır**

Havas agentliyi xəbər verir ki, sülh müahidənaməsinin [sazişinin] imzalanması ilə müharibə qurtarmamışdır. Şərqin gələcəyi həll edilməlidir. Türkiyə və Bolqariya məsələsini həll etmək üçün hələ altı ay vaxt istər.

**Smets’in bəyanatı**

London - Smets bir bəyannamə nəşr edərək deyir ki, o sülh müahidənaməsini onun üçün imza etməmişdir ki, sülh müahidənaməsi onu razı salmışdır; ona görə imza etmişdir ki, müharibəni bitirmək lazım idi. Çünki cahanın sülhə ehtiyacı vardır.

Altı aylıq mütarikə [atəşkəs] za-manı dörd illik müharibə qədər dünya üçün möhlik [öldürücü, təhlükəli] idi. Bu sülh müahidənaməsi camaatın arzu etdiyi sülh deyildir. Mən çox təəssüf edirəm ki, yalnız düşmən tərəfin əsgəriyyəti [militarizmi] məhv edilmişdir.

Nə qədər ki qaliblər məğlub tərəfə lazım gələn müavinəti verməyirlər, Avropanın bir hissəsi bərbad olacaqdır. Rusiya zülmət içindədir. Sair məmləkətlərin də Rusiya halına düşəcəyi ehtimal daxilindədir.

* Müttəfiqlərin Şurayi-Alisi [Ali Şurası] Avstriya, Bolqariya və Türkiyənin sülh müahidənaməsinə baxmışdır. Türkiyə müahidənaməsindən başqa, Avstriya və Bolqariya müahidənaməsi bu günlərdə qurtararaq, Türkiyə nümayəndələri bu günlərdə İstanbula əzimət edirlər [yola düşürlər].

## QƏZETƏLƏRDƏN

**Kiyevdə**

Hal-hazırda hər tərəfdən bolşevik müəssisələri Kiyevə gətirilməkdədirlər. Moskvadan ayrı-ayrı müəssisələrin təxliyə edilməsi başlanmışdır. "Sentrsaxar" bolşevik hökuməti paytaxtından köçürülüb Kiyevə gətirilmişdir. Kiyevə gətiriləcək Litva hökuməti müəssisələri üçün 2370 bina hazır edilməsi üçün təcili binagüzarlıq [sərəncam] verilmişdir. Həmin binalara Xarkov və Odessadan köçürüləcək müəssisələr də yerləşdiriləcəklərdir.

**Üsyan**

Kiyev yaxınlığında bir para yerlərdə kəndlilərin üsyanı başlanmışdır. Üç böyük kənd kəndliləri Kiyevi işğal edib bolşevikləri qovmaq qəsdi ilə silah götürüb Kurenyovkaya hücum etmişlər. Bu hücum müvəffəqiyyətsizliklə qurtarmışdır. Bolşeviklər bir çox kəndliləri güllələyib kəndləri dağıtmışlardır. Kəndlilər Kiyev altında olan Apşteyn zavodunu və ona yaxın yerləri zəbt edib bolşevikləri həyəcana salmışlardır.

* * *

"Qızılağac" paroxodunun Lənkəran bolşevikləri tərəfindən tutulması haqqında verilən xəbər də əsilsizdir. Həman paraxod hal-hazırda dabravol ixtiyarındadır.

İngiltərə bəhriyyə nəqliyyatı idarəsindən alınan xəbərlərə görə, Hacı-Tərxanın Dabravol ordusu tərəfindən işğal edilməsini təsdiqedici rəsmi xəbər alınmamışdır.

**Krımın bolşeviklərdən təmizlənməsi**

Könüllü ordu komandanlığından verilən son məlumata görə, bütün Krım yarımadası Şura qoşunlarından təmizlənmişdir. Külli qənimət alınmışdır. Perekop general [Mixail Nikolayeviç] Vinoqradov qoşunları tərəfindən işğal edilmişdir. Vinoqradov Krıma qubernator təyin edilmişdir.

* Hələ təsdiq edilməmiş olan xəbərlərə görə, iyul ayının 15-də Poltava Könüllü ordusu tərəfindən işğal edilmişdir.

* General Pokrovski ordusu tərəfindən qayət qızğın müharibədən sonra Kamışin şəhəri işğal edilmişdir. Şəhərin müdafiəsi üçün lazım gələn tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür]. Çünki bolşeviklər əks-hücuma hazırlaşırlar.

**Hacı-Tərxan əhvalı**

Petrovskdan [Mahaçqaladan] gələn "Kaspi" paroxodunun mexaniki Hacı-Tərxan altında vaqe olan axırıncı müharibələr haqqında böylə məlumat verir:

İyunun 27-də inadlı müharibədən sonra dabravollar "Yekaterina", "Sınovya", "Retvizan" və "Krepış" adlı bolşevik paroxodlarını tutmağa müvəffəq olmuşlardır. Bu paroxodlardan üç əvvəlincisi çarxlı, axırıncı isə motorludur. Həman gəmilərdə beş nəfər bolşevik komissarı həbs edilib güllələnmişlərdir.

İyulun 3-də dabravollar təzədən dörd dənə paroxod tutmağa müvəffəq olmuşlardır. Bu qərar üzrə bir həftə ərzində dabravollar əlinə 8 bolşevik gəmisi keçmişdir.

Axırıncı günlər dörd tərəfdən Hacı-Tərxana hücum olurdu. İyulun 6-da Petrovskda bəhriyyə ərkanında [donanma qərargahında] nim-rəsmi [yarım-rəsmi] xəbərlər alınmışdır ki, Krasnı Yar – Hacı-Tərxan xəttində vaqe olan inadlı müharibələr nəticəsində Hacı-Tərxan Dabravol ordusu tərəfindən işğal edilmişdir. Şəhər işğal edilən zaman bolşeviklər tərəfindən şəhərdə 600 əsgər qaldırılmışdır [saxlanmışdır]. Buna baxmayaraq, bu xəbərlər mövsuq [mötəbər] mənbələrdən deyildi və "Kaspi" paroxodu Petrovskdan azim olana [yola düşənə] qədər Dabravol ordusunun bəhriyyə ərkanı tərəfindən alınan xəbər təsdiq edilməmişdi.

Hacı-Tərxanın şimali tərəfinin minalanmış və Volqa kanalında barj və paroxod qərq edilmiş olduğu haqqında verilən xəbərlər əsilsizdir. Həman göstərilən tərəflərdən bolşeviklər mümaniət [müqavimət] göstərməmişlərdir. Volqa sahilində yaşayan əhali bolşevik komissarları əleyhinə olub, mümkün qədəri bolşeviklərlə mübarizədə dabravollara kömək edirlər.

**Türküstanda**

- Ramazan bayramı günü Aşqabadda olan Azərbaycan Hökuməti konsulu Aşqabadda yaşayan Azərbaycan təbəələri möhtaclarına 10.000 rublə ianə etmişdir.

- Azərbaycan konsulu türkmən və yəmud oğlan və qızlarının Azərbaycan ibtidai və edadi məktəblərinə qəbul edilməsi üçün hökumət nəzdində təşəbbüsatda bulunmuşdur. Kasıb sinifi uşaqları ilə bərabər Yəmud xanının iki oğlu və qızı, [Eyvazbəyov] Uraz Sərdar oğlu və Hacı Muradın qardaşı oğlu dəxi Azərbaycan Cümhuriyyəti məktəblərinə gəlmək arzusunda olduqlarını bildirmişlərdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Ticarət, Sənaye və Ərzaq Nəzarətində**

- Ticarət, Sənaye və Ərzaq Nəzarəti tərəfindən Batuma gedən komisyonun aldığı parça, çəkmə, şəkər və bu kimi başqa şeylər bu günlərdə Ticarət və Sənaye Nəzarətinin mağazasında və başqa təyin olunacaq yerlərdə əhaliyə münasib qiymətlə təqsim ediləcəkdir [bölünəcəkdir].

- Ticarət, Sənaye və Ərzaq Nəzarəti şimdiyə qədər əlbisəlik üzündən sıxıntı çəkən köy xalqının ehtiyacını dəf etmək və gələcəkdə əhalinin arasında sənayeni nəşr etmək [yaymaq] məqsədilə yun və pambıq toxuyan culah [culfa, bez toxuyan], cəhrə və bu kimi başqa alatın ehzarına şüru etmişdir [alətlərin hazırlanmasına başlamışdır]. Və həmçinin məzkur kargahda [deyilən iş yerində] işləyəcək kimsələri öyrətmək üçün dəxi müəllimlər cəlb etmişdir. Az bir zamanda Nəzarətin hazır edəcəyi dəsgahlar cəmiyyəti-xeyriyyələr, kooperativlər, Kəndlilər İttifaqı kimi cəmiyyətlər vasitəsilə köy xalqının arasında əlverişli şəraitlə nəşr edəcəkdir [yayacaqdır]. Bundan sonra köylülər kəndi ehtiyaclarını kəndi əlləri ilə rəf edəcəklərdir [aradan qaldıracaqlar]. Bundan başqa, əsgər ehtiyacına lazım gələcək əlbisəlikləri məzkur kargahlar vasitəsilə

vücuda gətirib, Gürcüstandan sifariş etmək zəhmətindən qurtaracaqdır.

* * *

Amerika Qaçqınlar Cəmiyyəti Gürcüstanda polyaklara məxsus kargahı alıb Ermənistana nəql etməklə, Ermənistanda əl işinə tərəqqi veriləcəkdir.

## XARİCİ SİYASƏTİMİZ

### - 6 -
### İngiltərə ilə dostluq

Avropa müharibəsi xırda millətlərin nə qədər qüvvətsiz və böyük hadisələr qarşısında qüdrətsiz olduğunu göstərdi. Bu millətləri siyasi tufanlar yuyar götürər. Bunun üçün xırda millətlərə böyük bir dost qazanmalıdır. Bu dost olarsa və arada iki tərəf də bu dostluqdan fayda götürmək ehtimalı varsa, dostluq sabitliyini təmin edər. Balkan millətlərinin tarixi göstərir ki, ancaq rus dostluğu və millətlər rəqabəti sayəsində balkanlılar müstəqil olaraq meydana çıxdılar. Rus iştahası Balkanı udmaq istəyirdi. Bu iştahaya meydan verməmək üçün istiqlala riza göstərildi. Rus ilə Qərbin rəqabəti sayəsində Balkan millətləri qazandılar.

Beynəlmiləl dostluq yalnız faydadan asılıdır. Bütün məsələlərin həllinə bu nöqteyi-nəzərdən baxılır. Gözümüzün önündə Polşa dövləti ehya olunur [dirildilir] və bu məmləkət təşkilində Avropa, ələlxüsus Firəngistan polyaklardan çox çalışır. Neyçün əcəba?

Məsələ aydındır. Polyakların istiqlaliyyəti alman üçün bir yumruqdur. Sabah genə Almaniya müharibə ilə meydana çıxarsa, Polşanı arxasında görər və Firəngistana hücum məsələsi alman üçün bir az çətinləşər.

Deməli, bütün beynəlmiləl əlaqə qarşı fayda üzərində möhkəmləşir. Adətən xırda millətlər qarşı faydadan çox, qarşı təzaddan istifadə edirlər. İki qüvvətli dövlət arasında bufer olaraq təşəkkül edirlər.

Bu nöqtələrdən baxdıqda, Azərbaycanın coğrafi vəziyyəti çox gözəldir. Bir tərəfdən böyük rus tufanı, o biri tərəfdən İngiltərə faydası. Rus tufanı iki yüz ildən bəri gözünü cənuba – Hindistan yollarına tikmədədir. İki əsrdir ki, addım-addım Hindistana yavuqlaşır. Bu yolu kəsmək üçün rus tufanını durdurmaq məqsədilə Azərbaycan ilə Gürcüstan istiqlaliyyətini tanımaq icab edəcək [lazım gələcək]. Bu dövlətlərin təşəkkülü doğrudan-doğruya İngiltərə faydası ilə mərbutdur [bağlıdır]. Bizim üçün də əlverişlidir. Çünki Rusiyadan ayrılıb hür yaşamaq gürcülər və bizlər üçün tarixi bir məqsəd, həm də müqəddəs bir məqsəd idi. Gec-tez rus axını, rus mühacirliyi tapdağı olub məhv olmağımızı bilirdik. İngiltərə isə bizi öz faydası üçün tutmaq məcburiyyətində olacaqdır. Bu məmləkətdən bizə zərər gəlməz. Bunun mühacir kimi ölkəni hərc-mərc edən məsələsi yoxdur. İngilislər bizdən faydalanmaq istədiyi kimi, biz də onlardan faydalanacayıq. Onlarla bizim aramızda şübhə doğuran bir məsələ də yoxdur ki, ortalıqda soyuqluğa səbəb olsun. Biz xırda bir millətik. Hür yaşamaq istərik. Aləmşümul məsələlərlə uğraşmayacayıq. Qüvvətimizə görə iş görəcəyik. Yəni vətənimizin tərəqqisi yolunda çalışacayıq. İttihadi-islam və ya türk ittihadı kimi xülyapərvər fikirlər gözümüzün önündə qoca bir Osmanlı dövlətini yıxdı. Bunun səbəbini xalqın geniş sinifi belə duyub anladı. Ziyalılarımız isə bunu çoxdan etiraf edib durmadadırlar. Bizim bütün məqsəd və amalımız Azərbaycanımızdır. Bu yolda kim bizi tutarsa, biz də ona rəğbət və meyil göstərərik.

Bu gün ingilislər Qafqazdan çəkilib, yerinə italyanlar da gəlsə, genə İngiltərə dostluğundan çəkinməməliyik. Bu millət dünya siyasətində həmişə böyük rollar oynayıb və oynayacaqdır. Millətlər hüququna riayət etmədə, onların istirahətini təmin etmədə, millətləri tərəqqi yolu ilə götürmədə Avropada birincilik qazanıbdır.

Əminəm ki, ingilis dostluğu bizi asudə yola çıxaracaqdır. Çünki iki millətin də faydası bunu istəyir.

*Yusif Vəzirov*

## AZDIR

Azərbaycan Məclisi-Məbusanının 7 və 8 təmmuz [iyul] tarixli iclasları tamamilə Qarabağ məsələsinə həsr edilmişdir. Qabaqlarda dəxi Parlamanda bu məsələ qalxmışdı və şübhəsiz bundan böylə də kərratla [dəfələrlə] qalxacaqdır. Hələ 10 təmmuz iclasının da bu məsələ ilə iştiğal edəcəyi [məşğul olacağı] şübhəsizdir. Qara bəy [Qarabəyli], Şəfi bəy [Rüstəmbəyli] və sairləri saatlarla danışırlar, çox sözlər deyirlər.

Fəqət bu çoxluqda nə qədər azlıq var!

Azdır!

Qarabağ haqqında denilən bu sözlər tamamilə haqq, fəqət azdır. O qədər ki deməlidir. Və demək olar deməyirlər. Deyə də bilməzlər. Çünki bu danışanlar nə qədər ürəyi yanan qardaş olsalar da, uzaqdan gəlmiş heyət əzasıdırlar [üzvləridir]. Bunlar ancaq bir hadisəni tənvir edirlər [işıqlandırırlar], lakin ən yaxşı tənvir etdikləri halda belə bütün Qarabağ məsələsini əhatə edəmməzlər. Bunu ancaq qarabağlı, əqəllən [ən azı] 10-15 illərlə Qarabağ daxilində yaşamış, məktəbi-həyat [həyat məktəbi] görmüş, Qarabağ övzasını [vəziyyətini] məhəllində [yerində], həyat səhifələrində öyrənmiş, böyüklə bərabər kiçik məsələlərə, cüziyyata [xırdalıqlara] belə vüquf yetirmiş adamlar tənvir edə bilərlər.

Fəqət Parlamandakı Qarabağ vəkilləri ağızlarına su almışlar. Guya bütün Məclisi-Məbusan həyatında bir kəlmə belə danışmamağa əhd etmişlərdir.

Həyat təcrübəsinin göstərdiyi, vəzifənin anlatdığı üzrə həziran [iyun] ayından bəri xüsusən Zəngəzurun od-alov içində bulunduğu hazırkı zamanda Qarabağ məbusları hökumət qapılarında, Parlaman iclaslarında, türkcə, rusca, hətta gürcü, alman, fransız və ingilis dillərində çıxan qəzetələr sütunlarında, Azərbaycan və əcnəbi dövlətlər nümayəndələri hüzurunda fəryad etməli, biçarə qarabağlıların halını göstərməli, əhvalını təsvir etməli, nə kimi fəlakət içində olduqlarını hamının nəzərinə, qulağına yetirməli idilər.

Lakin etməyirlər. Dinməyirlər, danışmayırlar. Təmsil etdikləri camaatın dərdini nəinki ruslar, firənglər, ingilislər, hət-

ta bakılılar da bilməyirlər. Ağdam, Şuşa Qaryagin, Qarabulaq və Zəngəzur məbusları hələ Bakıdakı müsəlmanlara da öyrədə bilməmişlərdir ki, Qarabağ nə haldadır.

Paytaxtımızın ziyalı müsəlmanları hələ bilməyirlər ki, Qarabağın vəziyyəti nədir.

Böylə olan surətdə əcnəbilər, avropalılar nə bilsinlər?! Doğrudur, onlar məlumat alırlar, bilirlər, fəqət düşmən mənabeyindən [mənbələrindən] aldıqları yalan məlumat əsası ilə... Həqiqəti isə deyən olmamışdır. Dübarə ərz edirəm: Bunu Qarabağ məbusları etməli idilər. Lakin etməmişlərdir və etməyirlər. Əminəm ki, bundan böylə də etməyəcək, edə bilməyəcəklərdir.

Halbuki Qarabağ məsələsi hazırda Azərbaycan üçün dövlət nöqteyi-nəzərindən yeni bir Elzas-Loren, milliyyət nöqteyi-nəzərindən yeni bir "Türkiyədə erməni məsələsi" surətini almışdır.

Məbuslarımız bunu bilirlərmi? Bilirlərsə, nə fikirdədirlər?

Nə yapdılar deyə sual verməyirəm. Çünki mənə yəqin məlumdur ki, bir şey yapmamışlardır. Vəhalonki [halbuki], görməli iş, danışmalı söz, ittixaz etməli tədbirlər o qədərdir ki, işləyən axtarır.

Bu xüsusda sonra.

*Qarabağlı*

## QIRMIZI QAN VƏ QARA MÜRƏKKƏB

**- 2 -**

Bir ildir ki, Qafqazda üç cümhuriyyət əmələ gəlmişdir. Bu gödək müddətdə Gürcüstan ilə Ermənistan tamam idarələrini milliləşdirdilər. Hətta teleqraf hürufatına [şriftlərinə] qədər icad edib, erməni və gürcü dillərində müxabirələşməyə [xəbərləşməyə] başladılar.

Azərbaycan idarələrinə gəldikdə, milliləşmək fəqərəsi [məsələsi] bunların bir çoxuna hələ bacadan da baxa bilməmişdir. Zira burada vəzifə daşıyan taqımı müxtəlif millətlərdən ibarətdir. Buranın milləti-hakiməsi türklər olduğu halda, vəzifədarlarının ən çoxu ruslar, yəhudilər, gürcülər, ermənilərdir. Bunun da ümdə səbəbi milləti-hakimənin səltənət müəssisələrinə yarar məmurları mövcud və mühəyya [hazır] olmadığından, təhti-təbiəsində [vətəndaşlığı altında] bulunan məhkum millətlərə möhtac qalır. Ayrı bir çarə də yoxdur. Ya gərək millətin oxumuş əfradı [fərdləri] o dərəcəyə qədər artıq olsun ki, asan vəchlə müəssisələrə, ənva [müxtəlif] təşkilata onlardan qəbul olunsun. Əks surətdə xahi-naxahi [istər-istəməz] xaricilərdən dəvət olunasıdır.

Hərgah müəssisələrimizdəki məmurların siyahısına diqqət yetirsək, görərik ki, bunların 70 faizi və bəlkə 80 faizi xaricilərdir. Bunlar türkcənin nə şifahisini, nə də təhririsini [yazılısını] bilirlər. Qalan 20 faizinə gəldikdə, bunlar da ana dilindən bisavad yaxud kəmsavad türklərdir ki, əksəriyyəti təşkil edən xarici məmurlar arasında dalğalanaraq milliləşdirmək məsələlərində əsla və qət'a bir iş bacarmayırlar.

Madam ki, əksəriyyət xarici məmurları əlindədir, təbiidir ki, azacıq türk məmurları istədiklərini yapammazlar. Milli şüarlarına da müvəffəq olammazlar. Çünki buna xarici məmurları mane olub, istədikləri dildə qonuşarlar, yazışarlar. Üsuli-idarəni öz arzu və xahişləri ilə düzəldərlər. Əcəba halımız bu qərar ilə davam edib gedərsə, vaxtilə milli bir səltənət təsisinə müvəffəq olarızmı?

Ola bilmərizǃ Zira milli səltənətin təməl və əsası millət məmurlarından yaxud həqiqətən milliləşmiş vəzifədarlardan ibarətdir. Bunların hər ikisi meydanda isbati-vücud etmədikcə [varlığını göstərmədikcə], səltənətimiz naqis bir səltənətdir. Və bu nöqsan ortalıqdan qaldırılmadıqca, istiqlalımız xof ilə rəca [qorxu ilə ümid] arasında davam etməyə məcburdur. Özümüzü aldatmayaraq bu məsələni bir azca dərindən düşünəlim.

Bu gün rus, yəhudi və erməni məmurlarımız türkcə bilmədiklərindən dəftərxanalarımızı rusca idarə edirlər. Zatən bunlar rus hökumətindən bizə intiqal etmiş [keçmiş] çinovniklərdir (məmurlardır). Bunların türkcəni öyrənməyə yaşları müsaid [uyğun] olmadığı kimi, buna əsla həvəsləri də belə yoxdur. Ancaq bunlar gözəlcə anlayırlar ki, bundan sonra Azərbaycanda yaşayan zəvat [şəxslər] türk olmasa da, heç olmasa türkləşmiş yaxud türklüyə maraqlanmış əcnəbilər gərək olsun. Azərbaycanlığa maraqlanmayan məmurlarımız bunu çoxdan anlamışlar ki, inadlıqlarında davam edərlərsə, bir vaxt Azərbaycanda çörəksiz qalarlar. Binaənileyh [ona görə], bunlar var qüvvələri ilə çalışırlar ki, rus nüfuzunu Azərbaycanda həm daxilən və həm də xaricən gücləndirsinlər. Mümkün olarsa, burada rus boyunduruğunu keçmişdəki kimi təzələsinlər ki, yenə köhnə hökmranlıqlarını bərpa etsinlər. Türk demokratiyasına mirqəzəb [cəllad] kəsilib qanlarını sorsunlar.

Bunların daxili səyləri bundan ibarətdir ki, rus dövründən qalma idarələrin nizamı həman qərar ilə qalsın. Məhkəmələrdə rus zakonları [qanunları] davam etsin. Mühakimə rusca aparılsın. Teleqramlar rusca çəkilsin. Ərizələr rusca, dəftərdarlıq rusca, məzbətələr [protokollar] rusca, həpsi, həpsi rusca...

Xarici səyləri də – həmişə gözlərinin biri şimala baxıb Denikinləri kəmali-iztirab ilə axtarır.

İndi bir qədər mülahizə olunsun ki, böylə məmurlardan etibar, xülus [saflıq] və sədaqət kimi əxlaqi-həsənə [gözəl əxlaqi keyfiyyətlər] gözləmək olarmı? Ümuri-milliyyəmizi [milli işlərimizi] bunlara həvalə edə bilərizmi? Yəqinimdir ki, bu sualların cavabları hamıya məlum və aşkardır.

Təəccüb burasıdır ki, bunların hamı partiyaları, sağdan sola qədər, burjuylarından demokratlarına qədər hamısı şimal fatehlərini gözləyirlər. Kimisi Denikini, kimisi də bolşevikləri... Xülasə, hər kəs olur-olsun, ancaq şimaldan gəlsin. Azərbaycanlıların da canı cəhənnəmə.

Pəs [elə isə], milləti-hakimədən, yəni türklərdən kifayət edəcək qədər sədaqətkar məmurları ərsəyə gətirməyincə, səltənətimizin rişədar [kök salmasına] və möhkəmliyinə inana bilməriz.

Azərbaycanımızı bolşevik və daşnakların çəngalından [caynağından] xilas etmək üçün yüz minlərlə cavanlarımızı şəhid verdik, bir hökumət təsis etdik. Lakin bununla məsələnin müqəddiməsi ancaq başlandı. Əsl-əsası isə müxtəlif müəssisələr üçün namuskar məmurlar yetişdirməlidir. Vəilla [yoxsa], şəhidlərimizin qanı hədər yerə gedər.

İştə, həmin məmurlar məktəb görmüş, məlumatlı mütəxəssislərdən ibarət olduğu üçün məktəblərimizdə bunların yetişdirilməsi üçün gərək çalışaq. Bu barədə gələn dəfə.

*Fərhad Ağazadə*

**UNUTMUŞLAR**

"Dağıstan" qəzetəsinin son nömrələrindən birisində bu sərlövhə ilə bir məqalə yazılmışdır ki, həm qismən Azərbaycan həyatına aid, həm də Cibaliyyun İttihadı [Birləşmiş Dağlılar Respublikası] dövlətinin hökumət işlərinə işıq salan bir fəqərə [hadisə] olduğundan, eynilə iqtibas və qarelərimizə [oxucularımıza] təqdim ediriz:

Keçən sənə dekabr ayında Çermoyevin hökuməti istefa verdikdən sonra Pşemaxo Kotsev cənablarının təhti-rəyasətində [başçılığı altında] yeni bir hökumət təşkil olmuşdu. O vaxt Teymurxanşuradakı İngiltərə heyətinin rəisi hökumət rəisinə rəsmən bu sözləri söyləmiş imiş:

*"Dağıstanın, Cibaliyyun İttihadı Cümhuriyyəti daxilində olmaq Müttəfiqlər indində müqərrər [qərarlaşdırılmış] bir şey deyildir.*

*Cibaliyyun İttihadı Cümhuriyyəti təsdiq olunacaqmı, olunmayacaqmı, bunu istiqbal [gələcək] göstərəcək. Fəqət siz dağıstanlılara söyləyiniz ki, onlar Azərbaycanla ittihad etsinlər və bilsinlər ki, Terek vilayəti və sairə Denikinin təhtinəzarətində [nəzarəti altında] qalacaqdır."*

Bu mühüm və əmiq [dərin] məsələni yalnız rəisi-hökumət cənablarının qulaqları eşitmişdir. Bu mühəqqəq [şübhəsizdir]. Ehtimal ki, sair hökumət əzaları [üzvləri] dəxi bunu rəisi-hökumət tərəfindən eşitmişlərdir. Fəqət Məclisi-Məbusan əzaları bu sözləri eşitməkdən və bilməkdən bilkülliyyə məhrum qaldı. İştə Məclisi-Məbusan ilə hökumət arasında olan münasibət...

Bu sənə 1-ci apreldə Qroznıda vaqe olan ictimalarda [yığıncaqlarda] məzkur [deyilən] İngiltərə heyətinin rəisi kəndi sözlərini təkrar Çeçenistan qubernatoru dağıstanlı miralay [polkovnik] Məhəmməd Cəfərova söyləmiş və əlavə etmiş ki:

*"Mən bunu rəsmi surətdə söyləyirəm. Bir qaç ay müqəddəm [qabaq] hökumət rəisinə dəxi söyləmişdim. Fəqət rəisi-hökumət mənim sözümə əhəmiyyət vermədi zənn edirəm."*

Cəfərov Dağıstana övdət etdikdə [qayıtdıqda] Məclisi-Məbusan əzaları bunu anlar və dərhal hökumət rəisindən məlumat istərlər. Hökumət rəisi cavabən, "Doğru, söyləmişdi, fəqət mən unutdum" deyər.

Əvət, unutmuşlar. Dağıstan üçün həyat və ya məmat [ölüm-qalım] məsələsi məsabəsində [yerində] olan bu məsələyi-mühimmə hökumət rəisi xatirindən çıxmış.

Azərbaycanla ittihad məsələsi bir qaç dəfə Məclisi-Məbusanın Dağıstan məbusları tərəfindən mövqeyi-müzakirəyə qoyulmaq tələb edilmişsə də, şimaldan gələn məbusların və Dağıstandan olub da onlara tərəfdar olanların ədəmi-müvafiqətindən [münasib görməməsindən] daima təxir olunurdu.

Miralay Cəfərovdan bu məlumat alındıqdan sonra Dağıstan məbuslarının bəziləri bu məsələni qəti surətdə mövqeyi-müzakirəyə qoyulmağı tələb etdilər. Bu dəfə dəxi şimaldan gələn məbuslardan maəda [başqa], Dağıstan məbuslarının bəziləri, hətta şimdi Azərbaycana ən sadiq dost olanlar və Azərbaycanı məlcəgah tutanlar [özlərinə sığınacaq yer kimi görənlər] buna mane olmağa başlamışdılar. Fəqət dağıstanlılardan ittihad tərəfdarı olanların israrı ilə bu məsələ xüsusunda layihə yazmaq üçün Məclisi-Məbusan tərəfindən bir komisyon intixab edilmişdi [seçilmişdi]. O günlərdə siyasətdə olan təğyirdən [dəyişiklikdən] dolayı komisyon üçün işləmək mümkün olmadı.

**"İSTİQLAL" QƏZETƏSİNƏ CAVAB**

19 nömrəli qəzetənizin üçüncü səhifəsinin üçüncü sütununda mənə xitabən yazılan "Tarixi bir mütaliəni tənqid: tənqidi tənqid" sərlövhəli məqalənizə müfəssələn verdiyim cavabı şimdiyə qədər qəzetənizə dərc etmədiyiniz üçün pək qısa olaraq "Azərbaycan"da cavab verirəm. Burada "Millətlərin qurtuluşu" adındakı təfriqənizi müvərrix [tarixçi] Əhməd Rəfiq [Altınay] bəyin "Prussiya nasıl yüksəldi?" ünvanlı kitabından tərcümə (!) etdiyinizi söyləyəcək deyiləm. Yalnız şunu ərz etmək istərəm ki, 329-330 sənələri 18 kanuni-əvvəl tarixli İstanbul, Bursa və İzmir qəzetələrini gətirərsəniz, Osmanlı türklərində də istiqlal bayramları mərasimləri yapıldığını öyrənmiş olarsınız, əfəndim.

*Həsən M. oğlu*

**BAKI XƏBƏRLƏRİ**

**Erməni-müsəlman münasibəti**

Bazar günü iyulun 6-ı saat 1-də Ermənistan Hökumətinin siyasi nümayəndəsi Rəisi-vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli həzrətləri ilə Xariciyyə naziri Məhəmməd Yusif Cəfərov cənablarını ziyarət etmişdir.

Erməni nümayəndəsi Rəisi-vükəla qarşısında Şəki, Ərəş və Göyçay qəzaları ermənilərinin Ermənistana köçürülməsi haqqında bir məsələ qaldırmışdır. Rəisi-vükəla bu günlərdə hökumət tərəfindən baxılacağını xəbər vermişdir.

Məhəmməd Yusif Cəfərov ilə [Tiqran Arutyunoviç] Bekzadyan erməni-müsəlman münasibəti, köçəri, qaçqın və Qarabağ məsələləri haqqında tamam iki saata kimi söhbət etmişlərdir. Sonra yalan xəbərlər yazmaqla hər iki tərəfin arasını gərginlədən mətbuata icrayi-təsir etmək məsələsindən danışılmışdır.

Müsəlmanların Ermənistanda halını və ermənilərin də Azərbaycanda həyatını təhqiq etmək üçün ümumi bir komisyon təşkili haqqında razılıq əmələ gəlmişdir. Komisyon hər iki tərəfin Parlamanı əzasından [üzvlərindən] təşkil olunaraq, Müttəfiq komandanlığının da nümayəndəsi olacaqdır. (Arzu olunmuşdur ki, Müttəfiq komandanlığı nümayəndəsi rusca bilən olsun.) Komisyon istər Ermənistanda, istər Azərbaycanda təhqiqat yapandan sonra parlamanlarına və mətbuata xəbər verəcəkdir.

**Qəzetələrin bağlanması**

Hökumətin binagüzarlığı [sərəncamı] ilə Rus Milli Şurası mürəvvici-əfkarı [fi-

kirlərini yayan orqanı] olan "Yedinaya Rossiya" ilə bolşevik qəzetəsi "Nabat" dünəndən etibarən bağlanmışdır.

**Pud vergisi**

Bununla ümuma bildirilir ki, Azərbaycan dəmiryolu ilə gələn mallardan pud vergisi birinci Bakı mövqifində [stansiyasında], dənizlə gələnlərdən isə "Vostoçnı obşestvanın" 22 nömrəli körpüsündə alınacaqdır.

**Darülfünun haqqında**

İyulun 8-də Şurayi-Vükəla [Nazirlər Kabineti] Maarif Nəzarətinin Bakıda darülfünun [universitet] açmaq layihəsinə baxıb qərar qoymuşdur ki, iki deyil, dörd zeyldəki [aşağıdakı] şöbələr açılsın: 1) Hüquq, 2) Fizika-riyaziyyat, 3) Tarix-ədəbiyyat və 4) Tibbiyyə şöbəsinin dörd birinci siniflərini.

**Azərbaycan əmanət sandıqçası**

Azərbaycanda əmanət sandıqları (sbereqatelnı kassa) açmaq barəsində tərtib vermiş olduğu layihəyə əlavə olaraq Maliyyə naziri bəyan edir ki:

"Azərbaycanda 72 əmniyyət sandıqçası vardı ki, 140 şəxsdən 60 milyon rublə saxlamaqda idi. İndi camaatın əlində külli miqdarda pul vardır ki, maliyyə işlərini çox əngələ salır. Camaatın etibarını qazanmış hökumət bu pulları toplayıb lazım gələn yerinə yollar və bununla da pul buraxmaq məsələsini ortadan götürmüş olar.

Yeni açılacaq sandıqçaların əsası üçün Rusiya qanunu götürülmüşdür ki, Azərbaycan siyasi və iqtisadi əhvalına nisbətən təğyir, təbdil edilmişdir [dəyişdirilmiş, düzəliş verilmişdir].

14 mərkəzi sandıqçalardan 10-u və 49 şöbələrlə məlumat vermişlər. Onlarda 11 milyon pul vardır. Lənkəran, Zəngəzur, Şamaxı və Zaqatala bəzi siyasi səbəblərdən dolayı məlumat verməmişlərdir. Bunu bildirmək lazımdır ki, hökumət hamı yeni pulları və 15 sentyabrdan sonra qoyulanları təmin edir."

**Yusif Vəzirovun məruzəsi**

Azərbaycan Hökumətinin Ukrayna və Krım nümayəndəsi və "Müsavat" firqəsinin Kiyev şöbəsinin rəisi Yusif bəy Vəzirov iyulun 7-də "Müsavat" komitəsinə məruzə oxuyacaqdı. Komitə o gün qərar qoymuşdur ki, məruzə təxirə salınıb ümumi surətdə oxunsun. Bu günlərdə Yusif bəy mühazirəsini oxuyacaqdır.

**Yeni tranzit layihəsi**

Alınmış məlumata görə, hökumət yeni tranzit üsulu tərtib verir. Bu vaxta kimi Gürcüstanla etilaf [razılıq] olmuşdu ki, İran, Dağıstan və Türküstandan gələn mallar ancaq Gürcüstana tranzit hesab olunurdu. Bu növlə İran, Dağıstan, Türküstan və qeyri yerdən gəlib Azərbaycan və ya Gürcüstan təriqi [yolu] ilə başqa bir dövlət torpağına gedən mallar tranzit olmayırdılar. Yeni üsul isə tranzit məsələsini yüngülləşdirəcəkdir.

**Bakıda fransız kapitalı**

Bakıda ələn [indi] bir fransız taciri bulunur. Tacir Marseldən gəlib mal mübadiləsi şərti ilə Azərbaycandan bəzi şeylər alıb aparmaq istəyir. Lakin Azərbaycan Hökuməti hənuz bir razılıq verməmişdir.





**Birjada**

Kerenski minliklər alınır 1.450, satılır 1.550 manata. 250 manatlığın dördü 1.250 manata, satılır 1.300 manata. Yeni Nikolay 500-lüyü 1.700, satılır 1.750 manata. Köhnələri alınır 1.200, satılır 1.400 manata. Nikolay 100-lüyü 300 manata, satılır 350 manata. Zaqafqaziya bonu 3 prosent.

**Varid olmuş [gəlmiş] mallar**

İyulun 3, 5 və 6-da Bakıya aşağıda göstərilən yerlərdən mal gətirilmişdir.

Zaqafqaziyadan: qurşaq dəmiri 1.500 pud, spirt 400 pud, kibrit 350 pud, hazırlanmamış dəri 550 pud, taxıl 110 pud, şəkər (pesok) 302 pud, kartofel 250 pud.

Salyandan: buğda 3.000 pud, çiyid 6.000 pud, sazan (balıq) 2.650 pud.

Kür başından: çiyid 3.500 pud, pambıq 2.000 pud.

Məşhədsərdən: buğda 10.000 pud.

Astaradan: səbzə 3.700 pud.

Tazəşəhərdən: səbzə 800 pud.

* Dünən Tazəşəhərdən "Tamara" paroxodu ilə beş vaqon pambıq, bir vaqon kişmiş gətirilmişdir.

**Bakıdan çıxarılıb**

Hökumətin izni ilə İrana aparılıb: cövhər [kerosin] 22.000 pud, neft 1.000 pud, benzin 1.500 pud, mazut 1.000 pud.

**Silah oğurluğu**

29 iyun saat 11-də şəhər polisinin ehtiyat naçalniki [rəisi] Bəydəmirov Azərbaycan Hökumətinin silah və mərmi zavodu mühafizəsini təhqiq etmək üçün gedərkən, zavodun qapısından bir az məsafədə zavoddan bir yük avtomobili çıxdığını görür. Avtomobildə tüfəng qundaqları görükürmüş. Naçalnik şübhələndiyinə görə avtomobili saxlayıb axtarmışdır. Axtarış nəticəsində avtomobildən 50 tüfəng tapılmışdır. Tüfənglər şəhər polis idarəsinin olub, zavoda təmir üçün verilibmiş. Zavod müdiri Utvinski Bəydəmirova təklif etmişdir ki, 5.000 manat alıb tüfəngləri buraxsın və əlavə etmişdir ki, tüfənglər müsəlmanlar üçün göndərilir. Bəydəmirov razı olmayıb Utvinskini həbs etmək istəmişsə də, qaçmışdır.

Sonra təhqiqatdan məlum olmuşdur ki, oğurluq bu surətlə vaqe olmuşdur: Buzovna əhli Əliəkbər Abdullayev dəyirmanında Timofey Repixa adlı bir rus xidmət edirmiş. Bu Repixa, Utvinski ilə tanış olmuş. Utvinski onlara bir neçə dəfə qonaq getmiş, Abdullayevlə də tanış olmuşdur. Utvinski Abdullayevə və həmin kənd əhli Şıxəli Əliyevə 50 tüfəng təklif etmişdir. Onlar da razı olub ayın 28-də tüfəngləri aparmaq üçün qərarlanmış yerə gəlmişlərdir. Repixa kəndliləri Adolf Malışko nam [adlı] bir nəfərin mənzilinə aparmışdır. Adolf telefon vasitəsilə Utvinskiyə xəbər verib və onun rizası ilə Çornı-qorod Ştopperin zavodundan bir yük avtomobili tələb etmişdir. Avtomobili Zarluqin adlı bir nəfər gətirmişdir. Repixa, Malışko, Əliəkbər və Şıxəli avtomobilə oturub hökumət zavoduna gəlmişlər. Bir az qalmış Əliəkbər və Şıxəli düşüb dayanmışlar. Başqaları isə tüfəngləri gətirmək üçün zavoda daxil olmuşlardır. Burada hamısı Utvinskinin otağına girib şərab içməyə başlamışlardır. Bu zaman-

da sklad [anbar] naziri [müfəttişi] Kapustixa tüfəngləri avtomobilə yükləyib üstünü də örtmüşdür.

Ondan sonra Malışko şoferə əmr etmişdir ki, yola çıxıb Əliəkbər və Şıxəli ilə bərabər Buzovnaya getsinlər. Lakin qapıdan çıxarkən Bəydəmirov tərəfindən tövqif [həbs] edilmişdir. Bütün zikr olunan şəxslər həbsə alınmışlar.

**Mərmi skladı kəşfi**

Təhərri [axtarış] polis agentləri tərəfindən dəniz kənarında 23-95 nömrəli evdə (körpü) bir sklad tapılmışdır. Skladda 1068 dənə top gülləsi tapılmışdır. Sklad Vasili İvanoviç Suklyarevindir.

**Əsgəri ləvazimat tapılması**

Telefonnı küçədə, 37-29 nömrəli evdə əsgəri ləvazimat skladı tapılmışdır. Skladda bu şeylər varmış:

Qaragül saldat papağı 9 dənə, boz saldat papağı 75, saldat qazanı 30, telefon simi, xəstəxana tuflisi 40 cift, gön sumka, suqaynadan qazan, solyanoy kislota [xlorid turşusu] 600 pud, saldat gerbi [nişanı] bir neçə boçka, köhnə Amerika ayaqqabıları mindən yuxarı, köhnə mərmilər, çuqun 3.000 pud, furqon oxları 25 dənə.

Bu şeylərin sahibi Rafael İvanoviç Ekimyan, Artyomoviç Mamatsuyevdir. Sklad bağlanmışdır.

**Mədən dairəsində məktəblər güşadına [açılmasına] dair**

Maarif naziri Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı komitəsinə məlum etmişdir ki, bu il sentyabr ayı əvvəlindən şəhərdə bir çox ibtidai məktəblər və o cümlədən, mədən dairəsində "Müsavat" firqəsi şöbələrinin neçə vaxt bundan əqdəm [qabaq] göstərmiş olduqları yerlərdə dəxi birər məktəb açılması Nəzarət tərəfindən təhti-qərara alınmışdır.

**Şimala mal göndərilməsi haqqında**

Azərbaycan Gömrük İdarəsi Bakı qubernatorluğuna müraciətən, Bakı və ələlümum Cümhuriyyət torpağından Dağıstana və Şimali Qafqaziyaya mal göndərilməsinin qadağan edilməsini rica etmişdir. Bundan sonra bu barədə xüsusi binagüzarlıq edilənə [sərəncam verilənə] qədər Yalama mövqifindən [stansiyasından] o tərəfə zəruri mallar və ələlxüsus taxıl buraxılmayacaqdır. Dağıstandan Azərbaycana dəxi taxıl və bəzi mühüm şeylərdən əlavə heç bir mal buraxılmayacaqdır.

**Yarım milyon**

Bakı qalabəyisi [komendantı] qubernatora müraciətən Bakıdakı süvari polis nəfəratı atları üçün alaf almaqdan ötrü yarım milyon manat təxsis edilməsi [ayrılması] xüsusunda təşəbbüsatda bulunmağı rica etmişdir.

**Torpaq vergiləri**

Azərbaycan Kazyonnı Palatası [Xəzinə Palatası] Daxiliyyə Nəzarətinə məlum etmişdir, fabrika və zavod təmir edilmiş olan yerlərdən 2 faiz torpaq vergisi alınması qərardad edilmişdir. Hal-hazırda hərəkətdən qalmış olan zavod və fabrikalar böylə vergilərdən azad edilirlər. Buna binaən [buna görə], axırıncıların siyahısı tez bir zamanda Palataya təqdim edilməlidir.





**"MİLLİ YARDIMÇI ORDUSU"**

Ay yarımdan bəri könüllü olaraq qışlalar [kazarmalar] qarşısında soqaqlarda təlim almaqda və "Yardım alayı" namı [adı] ilə məşhur olan əfradın [əsgərlərin] başçıları, yəni mütəşəbbisləri tərəfindən 7 təmmuzda ikinci iclas dəvət edildi. İclas vali müavini Müseyib Axıcanlı cənablarının sədarəti və Əliabbas Müznib əfəndinin katibliyi ilə açılır. Nəticədə zeyldəki [aşağıdakı] qətnamə çıxarılır:

*"Baş komandanlıq"*

18 nəfər mütəşəbbis heyətdən əsamisi zeyldə [adları aşağıda] zikr olunan 13 zəvat [şəxs] "Baş komandanlığa" intixab edilir [seçilir]:

Vali müavini Müseyib bəy Axıcanlı (sədr), Zülfüqar bəy Hacıbəyli (sədr müavini), Əliabbas Müznib (katib), Şamil bəy Şirinbəyli (xəzinədar).

Üzvlər: Məşhədi Baxış Ağazadə, Səttar Mərdanlı, Zeynal bəy Səlimbəyli, Süleyman bəy Səlimbəyli, Mahmud bəy Ağabalabəyli, Nəcəfəli Kərimli, İsmayıl Rəhimli, Məşhədi Həsən Eyvazlı, Hüseynqulu Sarablı.

*Fövqəladə heyət*

Təcili məsələlər həlli haqqında çabuq toplanmaq üçün balada məzkur [yuxarıda deyilən] "Baş komandanlıq" heyətindən 5 zat [şəxs] "Fövqəladə heyət" intixab edilirlər:

Müseyib bəy Axıcanlı, Zülfüqar bəy Hacıbəyli, Səttar Mərdanlı, Zeynal bəy Səlimbəyli, Şamil bəy Şirinbəyli.

*"Ərkani-hərbiyyə rəyasəti"*

Təlim almış yardımçı əfradını nizamintizam təhtində [altında] idarə etmək icab etdiyi təqdirdə, məmləkətə yaymaq üçün hərbaşina zəvatdan mütəşəkkil [hərbi biliklərə malik şəxslərdən ibarət] bir "Ərkani-hərbiyyə [Hərbi qərargah] rəyasətinin" təşkili fərz olduğundan, əksəriyyətiara [səs çoxluğu] ilə zeyldəki zəvat "Ərkani-hərbiyyə rəyasətin"ə intixab edildilər:

Məhəmməd Cəmil bəy - Birinci alay komandanı, İbrahim Ədhəm əfəndi - alay komandanı müavini, İsmayıl Fani - ləvazim rəisi, Xəlil Həsənzadə - katib və müvəqqət xəzinədar.

Tabor komandanları: Həsən Təhsin əfəndi, Xəlil Xəlilzadə, Dadaş Əlimuradzadə.

**FƏHLƏ HƏYATINDA**

**"Bəratülqövl"**

7 təmmuz tarixində düşənbə [bazar ertəsi] günü saat 2-də Mədənlər mərkəzi "Müsavat" idarəsində ətraf kəndlər "Müsavat" şöbələri nümayəndələrinin iştirakı ilə Mərkəzi şöbə heyəti-idarə əzasının [idarə heyəti üzvlərinin] növbəti iclası təşəkkül edib, bəzi iqtisadi məsələlərdən sonra Qarabağ məsələsi dəxi müzakirəyə vəz edildi [qoyuldu]. Qarabağ məsələsi müzakirəsində bütün ətraf mədənlərdə çalışan müsəlman fəhlə nümayəndələri dəxi iştirak etdilər.

Fəhlə nümayəndələri artıq təhəyyüc və qələyan ilə [həyəcanla və cuşa gələrək], kəndi iclas növbələrindən xaric həmin Qarabağ məsələsini müzakirə etmək üzrə Mərkəzi şöbə idarəsində cəm olmuşlardı.

Məsələni ətrafı ilə müzakirə bədində [sonrasında] türk "Azərbaycan" qəzetəsi vasitəsilə hökumətə müraciət etmək qərara alındı:

*Şərur, Naxçıvan, Lənkəran qəzalarında sükunət edib pənçeyi-zalimanələrdə əl-ayaq vurmaq haləti ilə fəcianə bir surətdə tərki-həyat etməyə məcbur olan millətdaş və vətəndaşlarımızın təzəllümatını [zülüm altında inildəmələrini] eşidən hökuməti-mətbuəmizin [təbəəsi olduğumuz hökumətimizin] məzkur [adı çəkilən] qəzalarda yaşayan türk füqərayi-kasibəsinin xilası uğrunda ciddi iqdamatına müntəzir ikən [ciddi addımlarını gözləyərkən], Zəngəzur kəndlərində düşmən tərəfindən amansız bir halətdə məhsur [mühasirədə; çarəsiz] qalmış əlsiz-ayaqsız qadınların və məsum yavruların "imdad, imdad" sədaları, Cəbrayıl və Cavanşir qəzalarının atəşin səhralarında qış zamanı sükunət edib bahar mövsümü Zəngəzur yaylaqlarına köçməklə pərvərişyab olub [bəslənib] imrari-məişət edə gəlmiş [ömür sürmüş] elat (köçəri) camaatının südəmər balalarının daşa təsir edici ahuənini [ahnalələri] və qoyun-quzuların zarıltısı daha şiddətlə fövqəl-təhəmmül bir ahəngi-dəhşətnümun [dözülməz, dəhşətli bir səs] ilə eşidilməyə başladı.*

*Binaənileyh [ona görə], bu yaxın günlərdə Qarabağ məsələsini qəti surətdə həll etmək uğrunda ciddi tədbirlər görülməsini, yaxud əldə silah olaraq kəndi qan qardaşlarımızın imdadına qoşmaq üçün Bakı ətrafında sükunət etməkdə olan müsəlman işçi və kəndçi zəhmətkeş xalq camaatına icazə ətasına [icazə verilməsinə] müsaidə buyurulmasını hökuməti-mətbuəmizdən istirham və rica ediriz.*

*Hökuməti-mətbuəmizin şüunatına nisbətən ehtiramati-faiqəmiz [təbəəsi olduğumuz hökumətin ad-sanına böyük hörmətimiz] xudsəranə hərəkatda [özbaşına hərəkətlərdə] bulunmağa yol verməyirsə də, hökumətimizin fövqi-məzayayi-insaniyyə [insani keyfiyyətlərin fövqündə] olaraq təqib etdiyi məsləki-sülhcuyanəsi [sülhpərvərlik yolu] alçaq dənilərin [rəzillərin] bihəyalıqda cəsarət artırmalarına səbəb verdiyini gördüyümüz cəhətə, məyeyi-səbrimiz tükənib, kəndi vətən və millətdaşlarımızın xilası uğrunda birdəfəlik ölməyə hazır olduğumuzu dəxi ərz etməyə məcburuz.*

## AZƏRBAYCANDA

### Lənkəran faciəsi

İyun ayının 11-ində Astara mahalında Hüseyn Ramazanov öz müsəlləh [silahlı] dəstəsi ilə Astara şəhərində hökumət edən bolşevik ordusu ilə vuruşmağa girişib, Astaranı təhti-idarəsinə [idarəsi altına] alaraq hökumət qərar vermişdir. Ondan sonra 3 gün müharibə davam edir. Lənkəranda vəhşətamiz bir surətdə bolşevik dəstələri dalbadal özününkülərə yardım edirlərdi və dava meydanına gedirlərdi. Sonra Hüseyn xan dəstəsinə Putəsər mahalının əhalisi qoşulub bolşeviklərin üstünə böyük hücum yapırlar. İşi müşkül gördükdə bolşeviklər ayın 17-sində Şahağacına çəkilirlər.

Ayın 18-ində Lənkəranda ümumi səfərbərlik elan edilir. Ayın 20-sindən şəhərin mötəbər və tacirlərini tövqif edib [tutub] həbsə alırlar. Bu iş şəhər əhalisinə bilafərqi-məzhəb [məzhəb fərqi olmadan] təsir etdi. Xalqda həyəcan başlandı. Dükan, bazar bağlandı. Gecələr evlərdə yatmaq olmayırdı. Oğru bolşeviklər şəhər müsəlmanlarını qarət etməkdə böyük cəsarət göstərirlərdi.

Ayın 24-ündə, saat 2 radələrində Muğan dəstəsi Lənkərana atışma ilə girib, ümum idarələri, topları və saldat kazarmalarını əhatə altına alıb, bolşeviklərin komissarlarını dəxi tövqif etdilər. Sonra nə tövr oldusa da, Muğan qoşunu şəhəri buraxıb geri çəkildilər.

İyun ayının 26-sında, axşam saat 10 radələrində tüfəng, pulemyot və top atışmaları başlandı. Güllələrin səsindən şəhər zəlzələ edirdi. Sübh saat 9-da Muğan dəstəsi şəhəri buraxıb dala qayıtmağa üz qoyurlar. Camaat kəndlərə dağıldı. Şəhərdə adlarını bolşevik qoyan saldatlar dükanları və evləri qarət edirlərdi. Çox yerlərdə ermənilər müsəlman zənanlarının [qadınlarının] ismətinə dəxi təcavüz etmişlərdi. Şəhərin müsəlman hissələri tarumar və xarabazar oldu. Şəhərdə və ətrafda iyirmi nəfərdən ziyadə müsəlman qətl edildi. Məşhur qaçaq, qaniçən, namussuz Balaməhəmməd dəxi bolşeviklərə qoşulmuşdu. Qarət edən şeylərin əksərisini evinə göndərirdi.

Ayın 28-ində məxluq [camaat] şəhərə övdət etdisə də [qayıtsa da], evlərdə rahat yatmaq olmayırdı. Bivicdan, məsləksiz Ağayev şəhərdə böyük zülmə və qan tökülməsinə bais oldu. Adını "Ədalət" firqəsi qoyubsa, ədalətsiz divan edir. Şimdi Lənkəranın halı nəhayət dərəcə qorxuncdur.

*Lənkəranlı*

### Kazarmada Oruc bayramı

Xankəndində Oruc bayramı günü ruhani atamız alay mollası Ağa Mirzəəli Naxçıvanlı cənabları bizləri bir yerə cəm edib namaz qıldırıb və namazdan sonra şöylə bir nitq ki, baisi-təşviq, söylədi:

Əsgərlərim, hər alayda bir ruhani olur. Ruhaninin vəzifəsi təriqi-həqiqəti [həqiqət yolunu], şəriəti-nəbəvini [peyğəmbərin şəriətini] məxluqata xəbər verməkdir. Allah-taala buyurubdur: "Vəltəkün minküm ümmətün yədunə iləl-xeyri və yəmürunə bil-mərufi və yənhəvnə ənilmünkəri və ülaikə hümül-müflihun." "Gərək olsun sizlərdən bir tayfa ki, həməvəqt [həmişə] çağırsın xeyir tərəfinə, əmr eyləsin yaxşı işlərə və qaytarsın pis işlərdən."

Bu gün sizləri cəm eyləmişik bu məkana yadınıza salmaq üçün ki, bu gün Oruc bayramıdır. Qanuni-şər' ilən [şəriət qanunu ilə] gərək bu günü müsəlmanlar bayram hesab eyləsin və indiyə kimi bizlər şərəfli günlərimizi tanımazdıq və tanıdığımız halda onların ehtiramını saxlamağımız mümkün deyildi. Amma indi, əlhəmdüllah, bizlər üçün mümkündür bu günlərin şərəfini saxlayaq və düşünək bu məkan nərədir ki, kazarmaların arasında, içində Allahu-əkbər səsi ucalır.

Bu neməti-üzma [böyük nemət] bizim üçün hardan üz verdi? Bu nemətin müqabilində gərək Allahı unutmamaq və yada salmaq. Hər millət öz dini üzərində yaşayır. Din bir həblül-mətin deməkdir. Gərək insanlar onun cərgəsinə gəlsin.

Dini, şəriəti saxlayan əsgərdir. Əgər əsgər olmasa canımız, malımız, dinimiz məhv olar gedər. Allah-taala Qurani-əzimdə əsgərliyi çox tərif, tövsif buyurubdur.

"Lə yəstəvil-qaidunə min-əlmümininə qeyru uliz-zərəri vəl-mücahidunə fi-səbi-lillahi bi-əmvalihim və ənfüsihim fəzzə-ləllahul-mücahidinə bi-əmvalihim və ən-füsihim ələl-qaidinə dərəcətən və küllən vəədəl-lahul-hüsna və fəzzələl-lahul-mü-cahidinə ələl-qaidinə əcrən əzimən." "Bə-rabər olmaz zərər çəkməyən möminlərlə zərər çəkənlər; fəzilətli eyləyib mücahid-lərini, malını, özlərini – oturanlardan; mü-cahidlərin böyük əcri var."

Allah yanında əsgərlik hörmətini biləsiniz. Əvvəl mücahid olan peyğəmbərdir. Təlim almaq əmrini zülüm və kazarma-larını həbsxana hesab etməyəsiniz. Hər kəs qaçsa – peyğəmbərdən, şəriətdən qaçıb dini buraxmış olar. Sizlər vətənin ətirli gülləri, çiçəklərisiniz. Sizlə məzlum-lar zülümdən xilas olub rahat yaşarlar. Sizlə məmləkət əmn-aman olar. Gərək əl-ələ, ürək-ürəyə verib bu nemәti əldə saxlayaq. "Hümmətül-rical təqləül-cibal." "Kişilərin hümməti, söz birliyi dağları yı-xar." Fürsət əldə ikən çalışaq. "Fürsəti fövt eyləməz aqil, məgər nadan ola."

Allah-taala bu günün hörmətinə hö-kumətimizi möhkəm eyləsin. Parlaman-da çalışanlarımızı salamət, [Səməd bəy] Mehmandarov, [Həbib bəy] Səlimov, [Əli-ağa] Şıxlinski cənablarını salamət, ko-mandanlar, zabitlərini salamət eyləsin. Yaşasın əsgərlərimiz!

*Altımcı bölükdən İlyas Qədir oğlu*

## TEATRO VƏ MUSİQİ

### Şərqi konsert

Bu gün pəncşənbə [cümə axşamı] gü-nü iyulun 10-unda Hökumət Teatrosun-da məşhur xanəndə Şuşalı Seyid və ope-ra artisti Hüseynqulu Sarablı tərəfindən "Şərqi konsert" veriləcəkdir. Konsertdə başqa müsəlman artistləri də iştirak edə-cəklərdir. Xanəndə İslam [Abdullayev] "Ye-tim" segahı oxuyacaqdır. Konsertin axı-rında İsa bəy Aşurbəylinin yazmış olduğu 2 pərdəli məşhur "Azərbaycan" adlı faciə mövqeyi-tamaşaya qoyulacaqdır. Tama-şa axşam saat 9 tamamda başlanacaqdır. Biletlər satılır teatrın kassasında.

### "Leyli və Məcnun"

Sabah cümə günü iyul ayının 11-ində Hökumət Teatrosunda Hacıbəyli Qardaş-ları Müdiriyyəti tərəfindən mütəntən [tən-tənəli] bir surətdə "Leyli-Məcnun" ope-rası mövqeyi-tamaşaya qoyulacaqdır. Pərdədən qabaq Zülfüqar bəy Hacıbəyli tərəfindən yazılmış olan təzə milli şərqi "Xudam məni yaratdı" çalınıb xor ilə oxu-nacaqdır. Tamaşa axşam saat 9-un yarı-sında başlanacaqdır. Biletlər satılır teat-rın kassasında.

### Balaxanıda müsamirə

Orucluq bayramı münasibəti ilə iyul ayının 1-də Balaxanı Mirzəyev qardaş-larının teatro zalında Türk Ədəmi-Mər-kəziyyət firqəsi "Müsavat"ın Balaxanı kənd şöbəsi nəfinə [xeyrinə] olaraq mü-samirə [konsert] tərtib verildi. Balaxanı həvəskar cavanlarının iştirakı ilə 3 pər-dədən ibarət məzhəkələr mövqeyi-ta-maşaya qoyulmuşdu:

1) "Millət dostları";
2) "İki kələkbaz";
3) "Nə qanır, nə qandırır".

Və əlavə, Mirzəyev qardaşlarının kon-torşiki Ruben Aleksandroviçin iştirakı ilə





bir pərdədən ibarət "Kələk" məzhəkəsi mövqeyi-tamaşaya qoyulmuşdu.

Üçüncü pərdədən sonra səhnədə Amerika torqu Barolun iştirakı ilə gəti-rildi və bu torq dəxi "Müsavat"ın nəfi-nədir [xeyrinədir] deyə bəyan etdi.

Tamaşanın axırında Abbasqulu Ka-zımzadə cənablarının tərəfindən leksi-yalar oxundu və o gündə millətləri əl-ələ verib bir-birinə kömək etmələrinə və kö-məklikdə mənfəətdar olduqlarını və üzü-müzə gələn qara qüvvələri birliklə məhv etməyə çağırırdı.

Leksiyadan sonra Asiya rəqsləri oldu. Bununla cəmi ogünkü teatroda iştirak edənlərə, xüsusən, erməni, rus və gürcü yoldaşlarımıza idarə tərəfindən təşəkkü-rümüzü yetiririz ki, necə ki bizimlə əl-ələ verib müsamirəmizdə artıq fəaliyyət gös-tərdilər. Gələcəkdə də ümidvarız ki, şu millətlər əl-ələ verib, birlik edib xainlik surəti ilə vətənimizə iqdam edənləri məhv edək. Bizim dostluğumuza, mehribançılı-ğımıza mane olan, bizi yırtıcı heyvan kimi bir-birimizin canına salmaq xəyalında olan xainlərə yol verməməliyiz. Onların naqis arzularını ürəklərində qoymalıyız ki, gə-ləcəkdə bizim hürriyyətpərvərliyimizə, bizim mehribançılığımıza, bizim rahat ya-şamağımıza, istiqlaliyyətimizə mane ol-masınlar.

*Şirmirzə Babazadə*

**Ucuz satılır**

Yekaterinodardan alınmış əla sarı sabun, yeşiyi 2 pud, partiya ilə satılır. Adres: Meh-manxana "Bolşoy Moskovski", nömrə 26. Sə-hər saat 9-dan 12-yədək və axşam saat 3-dən 5-ədək.

*Əliverdiyev*
*5417*

Zaqafqazın sünniməzhəb idareyi-ruha-niyyəsindən 1912-ci sənə avqustun 28-ində, nömrə 1341 ilə Şamaxı sakini Məhəmmə-dismayıl Ağaəbdülxalıq oğlunun təvəllüdü xüsusunda verilən metrik şəhadətnaməsi erməni faciəsində məfqud olduğundan [itdiyi üçün] etibardan saqitdir [etibarsızıdr]. Hər kəs onu taparsa, borcludur ki İdareyi-Məşixətə pişnihad etsin.

*5418*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bu-nunla ümuma elan edir ki:

1) Bakı Azərbaycan dəmiryollarından gə-lən yüklər üçün pud vergisi bu gündən Nə-zarətdə qəbul olunmayıb, Bakı birinci istas-yonunda qəbul olunacaqdır.

2) Dəniz təriqi [yolu] ilə gələn yüklər üçün isə pud vergisi Vostoçnı Obşestvanın 22-ci körpüsündə qəbul olunacaqdır.

*T-171*

**Satılır**

Ucuz qiymətə ingilis malından hər cür hazır kostyumlar, Busloviçin mağazasında. Korçakovski nömrə 12, telefon nömrə 24-70.

*5406*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliy-yati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının

küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**Hökumət Teatrosunda**

səh. 153. “Xudam məni yaratdı”: sözləri Əmin Abid Gültəkinə, musiqisi Zülfüqar bəy Hacıbəyliyə məxsus milli mahnı.

**Qismi-rəsmi**

səh. 155. “lira”: simli musiqi aləti.

səh. 157. “palmetta”: xurma ağacı yarpağı şəklində bəzək.

“muaret”: dalğavarı rənglərə çalan ipək parça növü olan xara (muar) parçanın naxışlarını andıran bəzək.

**Teleqraf xəbərləri**

səh. 158. “Konstantinoqrad”: Ukraynanın Xarkov vilayətində, indiki Krasnoqrad şəhəri.

səh. 159. “Yekaterinoslav”: Ukraynanın Dneprepetrovsk vilayətində indiki Dnepr şəhəri.

“Suxaçyovka”: şəhərtipli qəsəbə; halhazırda Ukraynanın Dnepr şəhərinin qərbi hissəsinin adı.

“Novo-Svenç”: Litvada indiki Şvençonelyay şəhəri.

**Sülh ətrafında**

səh.159. “Havas”: Fransız xəbər agentliyi. 1835-ci ildə təsis edilmişdir. Frans-press agentliyi [Agence France-Presse] daha sonra “Havas”ın bazasında yaradılmışdır.

**Qəzetələrdən**

səh. 160. “Apşteyn zavodu”: Tovi Moiseyeviç Apşteynin sahibi olduğu zavod; Kiyevdə yerləşirdi.

**Azdır**

səh. 164. “Qarabulaq”: Qaryagin qəzasının bölündüyü üç polis məntəqəsindən biri.

**“İstiqlal” qəzetəsinə cavab**

səh. 167. “təfriqə”: bir mətbuat orqanının müxtəlif nömrələrində hissə-hissə çap olunan yazı.

“329-330 sənələri 18 kanuni-əvvəl”: burada tarix rumi təqvimlə verilmişdir; [1]329-cu il 18 kanuni-əvvəl miladi təqvimlə 31 dekabr 1913-cü ilə; [1]330-cu il 18 kanuni-əvvəl isə miladi təqvimlə 31 dekabr 1914-cü ilə müvafiqdir.

**Bakı xəbərləri**

səh. 169. “Məşhədsər”: İranın Mazandaran əyalətində, Xəzər dənizi sahilində şəhər; indiki Babülsər şəhəri.

“Tazəşəhər”: Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

**Azərbaycanda**

səh. 173. “Vəltəkün minküm ümmətün yədunə iləl-xeyri və yəmürunə bil-mərufi və yənhəvnə ənil-münkəri və ülaikə hümül-müflihun.”: “Quran”ın “Ali-İmran” surəsinin 104-cü ayəsi; mənası: “İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış şəxslərdir.”

“həblül-mətin”: “möhkəm ip” mənasına gələn bu ifadə ilə “Quran” və ümumilikdə islam dini nəzərdə tutulur. “Quran”ın “Ali-İmran” surəsinin 103-cü ayəsinin bir hissəsində deyilir: “Vatəsimu bihəblillhi cəmian və la-təfərrəqu vəzkürü nimətallahi əleyküm...” Mənası: “Hamılıqla Allahın ipinə (dinə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın...”

səh. 174. “Lə yəstəvil-qaidunə minəlmümininə qeyru uliz-zərəri vəl-mücahidunə fi-səbilillahi bi-əmvalihim və ənfüsihim fəzzələllahul-mücahidinə bi-əmvalihim və ənfüsihim ələl-qaidinə dərəcətən və küllən vəədəl-lahul-hüsna və fəzzələl-lahul-mücahi-

dinə ələl-qaidinə əcrən əzimən.”: “Quran”ın “Nisa” surəsinin 95-ci ayəsi. Mənası: “Zərər çəkmədən (evlərində) əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən kimsələr bir olmazlar. Allah, malları və canları ilə vuruşanları (evlərində) əyləşənlərdən dərəcə etibarilə üstün tutdu. Allah bunların hamısına (savab) vəd etmişdir. (Lakin) Allah mücahidlərə (evlərində) oturanlardan daha böyük mükafatlarla imtiyaz vermişdir.”

**Teatro və musiqi**

səh. 174. “Millət dostları”: Əbdürrəhim bəy Haqverdiyevin bir məclisdən ibarət tamaşası.

“İki kələkbaz”: Bağır Cabbarzadənin bir pərdəli məzhəkəsi.

“Nə qanır, nə qandırır”: Mirmahmud Kazımovskinin komediya əsəri.

səh. 175. “Kələk”: Fransız müəllifi Gi de Mopassanın əsəri.





**Cümə, 11 iyul 1919-cu il, nömrə 222**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 12 şəvvalül-mükərrəm sənə 1337. 11 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**KİNOTEATR “RENESSANS”**

*Torqovı küçə, nömrə 11*

Səşənbə günü iyul ayının 8-dən etibarən ictimai cinayət draması

**“Qaranlıq dünya”, yaxud ehtikar (spekulyatsiya) ilə mübarizə**

6 seriya, 18 dövr, 38 hissəli şəklin 1-ci seriyası 2 hissədə göstərilir. Bu şəkil Amerika igidləri Kordinq qardaşlarının “On beşlər klubu” ilə mübarizəsini təsvir edir. Bu şəkil səhmdaran “Prometey film” cəmiyyəti tərəfindən ələ gətirilib. Vücuda gətirəni isə “Janna d’Ark” şəklini vücuda gətirən Amerika tresti “Transatlantik”dir. Bu şəkil birinci dəfə olaraq “Renessans” teatrosunda göstəriləcəkdir.

*5422*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERA**

Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının müdiriyyəti Cümə günü, şəvvalül-mükərrəm ayının 12-də (iyul ayının 11-də 1919-cu [ildə]) mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Hacıbəyli qardaşlarının yazmış olduğu məşhur **“Leyli və Məcnun”** operası. 6 pərdədə. Pərdədən qabaq Zülfüqar bəy tərəfindən olan təzə milli şərqi “Xudam məni yaratdı” çalınıb oxunacaq. Biletlər indidən teatrın kassasında satılmaqdadır.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

Taxtabitiləri, ağcaqanadları və sair həşəratı məhv etmək üçün ən yaxşı əlac Ş. N. Boriseviçin aptekarski mağazasında satılır. Ünvan: Voronsovski küçənin küncündə, Parapet qarşısında.

*5420*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Ticarət, Sənaət və Ərzaq Nəzarətindən**

*Əmrnamə nömrə 102*

24 iyun 1919

Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti tərəfindən həmin sənə 15 may 91 nömrəli verilən əmrə əlavə olaraq bəyan

olunur ki, ştatdan kənar edilənlər mayın 15-ə qədər xidmətdə olub, öz vəzifələrini ifa etdiklərindən məvacibləri də mayın 15-ə qədər verilməlidir.

*Əmrnamə nömrə 103*

25 iyun 1919

Bununla elan edilir ki, 1919 sənəsi iyunun 11-dən Azərbaycan Hökumətinin qətnaməsinə görə, başqa dövlətlər ilə mal mübadiləsindən ötrü Ticarət və Sənaət Nəzarəti nəzdində olan Komitə ləğv edilib, həman komitənin fəaliyyəti Ticarət, Sənaət və Ərzaq nazirinin şurasına vagüzar edilir [tapşırılır].

*Əmrnamə nömrə 104*

25 iyun 1919

Əcnəbi dövlətlərlə mal mübadiləsi sabiq Komitəsi müdiri mühəndis Balabəy Mustafabəyov 1919 sənəsi iyunun 12-dən Ticarət, Sənaət və Ərzaq Nəzarəti Dəftərxanasında Ticarət şöbəsi naçalniki vəzifəsini ifa etməyə təyin edilir.

*Əmrnamə nömrə 105*

Şura üzvü mühəndis-mexanik A. İ. Mançoya təklif edirəm ki, təhti-idarəmdə [tabeçiliyimdə] olan Nəzarət heyətinə daxil bütün xüsusiyyətinə müvafiq müəssisələri öz idarəsinə qəbul ilə həman şöbələrin məktubatını məzmununca nazir və ya nazir müavini imza etməsi lazım gəldiyi təqdirdə, özü imza etsin.

*Əmrnamə nömrə 106*

25 iyun 1919

Ticarət, Sənaət və Ərzaq Nəzarəti Dəftərxanasında Maliyyə şöbəsi kargüzarlığı vəzifəsini müvəqqəti ifa edən Pavel Qriqoryeviç Belyayev 1919 sənəsi mayın 1-dən həman vəzifəyə təsdiq edilir.

*Əmrnamə nömrə 107*

7 iyul 1919

Həmin sənəsi may ayının 15-dən 92 nömrəli verilən əmrə müvafiq olaraq ştat ixtisar edildiyinə görə, Gəncə quberniyası vəkili A. L. Brilinski, həmin iyunun 16-dan 91 nömrəli əmrdə göstərilən qərar üzrə likvidatsiyon paralarını almaqla xidmətdən kənar edilir.

*Əmrnamə nömrə 109*

7 iyul 1919

Həmin iyul ayının 1-dən etibarən hökumət mərmi zavodunun müavini-müdiri mühəndis S. B. Utvinski xidmətindən kənar edilir.

*İmza etdi:*
*Ticarət, Sənaət və Ərzaq naziri*
*A[ğa] Əminov*
*Əslinə mütabiqdir.*
*Kargüzar müavini (imza)*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**7 təmmuz iclası**
*(keçən nömrədən mabəd)*

Tənəffüsdən sonra Rəisi-vükəla [Baş nazir] həzrətləri növbədənxaric söz alır və Parlamana böylə bir təklif edirlər:

**Nəsib bəy Yusifbəyli** - Möhtərəm məbuslar! Məlumunuzdur ki, iyunun ibtidasında [əvvəlində] Qarabağda bəzi hadisat vaqe olmuşdur və bu vaqiə gərək mətbuat səhifələrində və gərəksə əhali arasında, gərək daxildə və gərəksə məmləkətimizin xaricində bir çox dedi-qoduya bais olaraq, bu məsələ ətrafında böyük gurultular qoparılmışdır. Həman işi təhqiq üçün komissiya tərtib verilmişdir və iş təhqiq olunur. Vaxtında hökumət bu xüsusda sizə məlumat verəcəkdir.

Yenə məlumunuzdur ki, hökumət məzkur [deyilən] məsələni məhəllində [yerində] təhqiq etmək üçün 4 məbusdan ibarət bir Parlaman heyəti təşkil edib Qarabağa göndərmişdi. Komissiya təhqiqat icra etmişdir. Fəqət hələ iş uzanır. Hazırda bu xüsusda bəyanat vermək mümkün olmayır. Bundan dolayı da təşviş çıxır. Binaənileyh [ona görə], heyətə daxil olan məbuslardan rica edərdim Qarabağ hadisatı haqqında sizə bir qədər məlumat versinlər ki, əfkari-ammə [ictimaiyyət] sakit olsun.

Məbusların fikri, rəyi bilindikdən sonra hökumət özünün bu barədə rəyi və məlumatı var, onu da sizə ərz edər. Hələlik münasib bilərdim məbus əfəndilər təhqiqat nəticələrindən sizə məlumat versinlər.

Təklif qəbul olunaraq heyət rəisi Qarabəyli Qara bəy kürsiyi-xitabətə çıxır və ümum məbusların anlamaq üçün məruzəsini rusca oxumağı lazım bilir.

Heyət – ikisi türk, ikisi erməni olmak üzrə 4 nəfərdən ibarətdir, fəqət bəzi təfərrüat və təfsilatda rəyləri bir olmadığından, Qara bəy ilə Şəfi bəy bir məruzə hazırlamışlardır, [Poqos] Çubaryan ilə [İsak Nikitiç] Xocayev digərini. Qara bəy rusca məruzədə bulunmaq istəyir. Şəfi bəyin etirazına baxmayaraq, Parlaman əksəriyyəti-ara [səs çoxluğu] ilə razı olur.

**Qarabəyli Qara bəy** (İttihad) - *(rusca danışır)* Möhtərəm məbuslar! Siz bilirsiniz ki, Qarabağ məsələsi böyük əhəmiyyəti haiz olduğundan [daşıdığından], Qarabağ xüsusi bir general-qubernatorluğa ayrılmışdır. Bu barədə İngilis Komandanlığı ilə də etilaf [razılıq] hasil edilərək, hətta general-qubernatorun şəxsi haqqında da razılıq əmələ gəlmişdi. Qarabağın halı nəhayət dərəcə qeyri-adi idi. Orada iki hökumət var idi. Qarabağın erməni əhalisi Azərbaycan Hökumətini istəməyirdi. İngilis Komandanlığı bəyan etmişdi ki, məsələ Sülh Konfransında həll edilənədək Qarabağ Azərbaycan Hökuməti təhti-idarəsində [tabeçiliyində], Naxçıvan, Şərur və sair İrəvan quberniyası qəzaları və həmçinin Qars oblastı erməni hökuməti təhti-idarəsində qalacaqdır. Fəqət, məzkur [deyilən] yerləri Ermənistan ixtiyarına verərək, İngilis Komandanlığı Qarabağ haqqında vermiş olduğu vədəyə bu vaxtadək əməl etmədi. Hətta Şuşa şəhərinin özündə general-qubernatorun sultası yalnız müsəlman hissəsinə şamil olub, erməni hissəsi isə Erməni Milli Şurası təhti-idarəsində qalmışdı. Böylə adətdən xaric işlər barəsində çox müzakirat icra edilmişdi. Hətta general-qubernator idarəsini qəbula mane olan Milli Şura əzasının [üzvlərinin] Şuşadan təb'idi [qovulması] haqqında İngiltərə Komandanlığı arasında etilaf əmələ gəlmişdi. Qabaqca onların dilindən kağız alınmışdı ki, böylə işlərə qarışmasınlar; fəqət bununla vəziyyət yaxşılaşmadı. Hətta general-qubernator hələ Zəngəzur və Qarabağın sair yerləri o yanda qalsın, barı Şuşa şə-

hərində qəbul olunacağını ümid edəmməzdi. Bir çox dəlillərdən görülür ki, general-qubernator bu məsələləri sülh ilə həll etməyə çalışmışdır. Fəqət göründü ki, bu tədbirləri heç kəs hüsn-istiqbal etməyir [xoş qarşılamır]. Biləks [əksinə], bir çox təcavüzkaranə hərəkətlər ibraz edildi [nümayiş etdirildi]. Yevlax-Şuşa şose yolu kənarında kain [yerləşən] dağlardakı kəndlərin erməniləri yolu güllələyib əhalini öldürür, arabaları soyur, atları aparırlardı. Hətta ordumuz ərkani-hərb [qərargah] rəisi general [Həbib] Səlimovu atəşə tutmuşlardır. Ümumiyyətlə, may ayınadək ermənilər ilə müsəlmanlar sülhlə dolanırmışlar. Mayın ibtidalarında ermənilər yola hücum edib 9 müsəlman aparmışlar, hətta bu vaxtadək meyitlərini belə verməmişlərdir. Mayın ortasında yenə 7 müsəlman ermənilər tərəfindən aparılaraq xəbərsiz qeyb olmuşdur.

Parlaman heyəti Şuşaya iyun ayının 16-da varid oldu [çatdı]. Yevlax-Şuşa yolunda və ətrafında tam müsalimət [əmin-amanlıq], asayiş və nizam hökmfərma idi [hökm sürürdü]. Ağdamda 10 nəfərədək erməni fəhləsi vardı. Biz onları danışdırdıq. Fəhlələr bəyan etdilər ki, burada heç bir təcavüz olmamış və gözlənməyir. Və kəndilərini tam amanda hiss edirlər. Yaxşı muzd alırlar və bu ətrafda yaşayan və işləyən ermənilərə qarşı müsəlmanların rəftarından çox razıdırlar. Pirumov adlı bir arvad Ağdamda casusluqda məznun [şübhəli] tutularaq tövqif [həbs] edilmiş imiş. Fəqət heyət onu azad edib özü ilə avtomobildə Şuşaya aparmışdır. Bu arvad dəxi təhriri [yazılı] surətdə iqrar və təkid etmişdir ki, hökumət və polis qulluqçuları onunla hüsn-rəftar etmişlərdir, pristavlara, qəza qaimməqamına [qəza rəisinə] mütəşəkkirdir.

Şuşa-Yevlax yolu bu halda ikən, Şuşa-Gorus, Şuşa-Qarabulaq (Qaryagin) yolları tamamilə ermənilərin əlində olub bir müsəlman bu yollardan keçə bilməyirlərmiş. Müsəlmanlarla məskun yerlər mühasirədə olan kimi imişlər.

Mayın 27-dən etibarən köç başlanmışdır. Ağdamdan Şuşa və daha ötədə dağlaradək bütün yol mal-qoyun, at və sairə ilə dolur. Hər yeri oba tutur. Zəngəzurdan başqa ümum Qarabağ əhalisi köçür. Şəhərdə iki hökumət olur. Bir qisim əhali general-qubernatora, digər qismi Erməni Milli Şurasına tabe olmasına baxmayaraq, ingilis əsgərləri ilə müsəlman milisləri təhti-mühafizəsində [mühafizəsi altında] köç salamat keçirmiş.

İyunun əvvəllərinədək əhval böylə keçir. Müsəlmanlar çox narazı olmaqla bərabər, bu işlərə bir növ təhəmmül edirlərmiş [dözürmüşlər]. General-qubernator əmr etmişdir ki, heç kəs ermənilərə təcavüz edəmməz. Hətta ermənilər hücum etsələr də, müsəlmanlar gərək dinməsinlər.

Nəhayət, iyunun birində və ikisində (bəzi ermənilərin rəvayətinə görə) Şuşanın müsəlman hissəsində bir milis nəfəri bir erməninin tapançasını alır. Buna cavab olaraq Ermənistanda [şəhərin erməni hissəsində] ermənilər iki əsgəri tərksilah edərək birisinin atını, tüfəngini və tapançasını, digərinin də tüfəng və xəncərini alırlar. (Bunu ermənilər də, müsəlmanlar da etiraf edirlər.) Əsgərlərdən birisi onların əlindən qurtarıb müsəlmanıstana [şəhərin azərbaycanlılar yaşayan hissəsinə] qaçır və əhvalatı xəbər verir. General-qubernatorun ittixaz etdiyi [gördüyü] tədbirlər nəticəsində üç-dörd saatdan sonra ingilis heyəti vasitəsi ilə o biri əsgər dəxi azad edilir və silahları da tamamilə qaytarılmayır. Hətta qaytarılan silah həman adamlardan alınan silah deyildir. Erməni Milli Şurası demişdir ki, atı və silahı alan adamlar şəhərdən qaçmışlar. Ona görə Şura başqasını alıb verməyə məcbur olub. Bu əhvalat məhəlli [yerli] müsəlmanlar və əsgərlərə çox ağır gəlib, onları həyəcana salmışdır. Çünki məzkur [deyilən] hadisəni Azərbaycan Ordusu və əhalisi haqqında böyük həqarət tələqqi [hesab] edirlər.

Siz özünüz bilirsiniz ki, Bakıda Mart hadisəsinə bais Dikaya diviziya deyilən dəstənin adamlarına hücum edilməsi oldu. Mən bunu onun üçün deyirəm ki, böylə bir hadisəyə hərbiyyə idarəsi və camaatın nə nəzərlə baxacağını göstərəyim. Həman bu günlərdə də xəzinə ilə poçt-teleqraf idarəsi erməni hissəsindən şəhərin müsəlman hissəsinə köçürülür. Erməni hissəsində hökumət ümuru [işləri] Milli Şurada olmasına baxmayaraq, orada bəzi şeylər olurmuş. Məsələn, Ermənistana [Şuşanın erməni hissəsinə] müsəlləh [silahlı] erməni dəstələri və məsuliyyətsiz adamlar, ələlümdə kənardan gəlmələr gəlib-gedir. Milli Şuradan əlavə, bir də bandalar burada ciddi surətdə işləyir və ermənilər arasında dəhşət saçırlarmış.

Ruben Nikolayeviç Şahnazaryan və Minasbekovun göstərdiyindən məlum olur ki, həman bandalar Ermənistanda adamları soyur, erməni arvadlarını çəkir, təhqir edir və ermənilərə sair təcavüzlər edirmişlər. Əlbəttə, müsəlmanlar bunun həpsini bilərək həyəcan və iztiraba düşürmüşlər. Fəqət bununla bərabər, general-qubernator əhalini sakit və əsgərlərin tərksilah ixtilafını rəf edə [aradan qaldıra] bilmişdir.

Xəzinə ilə postanın müsəlmanıstana köçürülməsi münasibətilə hərçənd ermənilər təşvişə düşərək ingilis heyətinə qiymətli kağızlarının müqəddəratından qorxduqlarını bəyan etmişlərdir. Fəqət bu münasibətlə öylə bir ixtilaf vaqe olmamışdır.

Həman bu zamanlar şəhərdən köç getdiyindən, general-qubernator ətraflardan gəlib də özünü çox pis aparmaqda olan məsuliyyətsiz adamlar və bandaların təcavüzündən obanı və şəhəri təmin etmək qəsdi ilə mühüm yerdə – şəhərin başı üstündə hökmfərma olan Üçmıxda və Şuşa-Gorus yolunun ən mühüm qismi olan Yarmada mayın axırından etibarən əsgəri qarağol [gözətçi məntəqəsi, post] bulundurmağı təhti-qərara alır. Bunların vəzifəsi şəhərə müsəlləh adam buraxmamaq və elatın rahat keçməsini gözləmək imiş. Qarağolların miqdarı bir manqadan artıq deyilmiş. İyunun 2-də həman əsgər əhvalatından sonra iyunun 4-cü gecəsi general-qubernator binagüzarlıq etmişdir [sərəncam vermişdir] ki, şəhər üzərində hökmfərma olan [hakim mövqe tutan] Üçmıx səngərində qarağol artırılsın. (18 piyada və bir pulemyot ilə 9 pulemyotçu qoyulur.)

Ermənilər bu əhvalı bilərək, iyunun 4-ü səhər tezdən Üçmıxa Arzumanov nam [adlı] bir zabitin təhti-komandasında [komandanlığı altında] bir dəstə müsəlləh adam göndərmiş və onlar əsgərlərin sən-

gərlərinin 50 addımlığında səngər tutaraq türk qarağolları komandanı zabit [Aleksey Pavloviç] Maksimoviçdən tələb etmişlər ki, səngəri boşaltsınlar və əsgərlər oradan getsinlər. Maksimoviç cavab vermişdir ki, müəyyən qanun və nizama tabe olan bir əsgər olmaq həsəbi [səbəbi] ilə öz böyüyündən əmr olmadıqca heç vaxt yerindən tərpənəmməz. Ancaq rəisi ilə bu barədə danışar, əgər rəis buyurarsa məəlməmnuniyyə [məmnuniyyətlə] gedər. Çünki ona əmr olmuşdur yolları mühafizə etsin və heç kəslə dava eyləməsin.

Maksimoviç müzakirata girişmək qəsdi ilə səngərdən çıxıb şəhərə gəlmiş və öz yerində müavini Kərimovu qoymuşdur. Ermənilər ikinci dəfə olaraq Kərimovdan da tələb etmişlər səngəri boşaltsın. Lakin o dəxi razı olmamışdır. Nəticədə səngərdə atışma başlanaraq türklərdən 4 əsgər, ermənilərdən isə zabit Arzumanov qətl edilmişdir.

Burada kim əvvəl güllə atdığını təyin edəmmədik. Ermənilər deyirlər qabaqca türklər atışma açdılar, türklər isə əvvəlcə ermənilərin güllə atdığını bəyan edirlər. Atışma buradan şəhərin sair yerlərinə də yayılıb, bir anda şəhər ataş altında qalmışdır. Şəhərin türk əhalisi dərhal tüfənglərini götürüb 1905-ci ildən bəri adət olduğu üzrə səngərlərə dolmuşlardır.

Bunu da qeyd etməliyəm ki, 1905-ci ildə vüqu bulmuş olan erməni-türk toqquşmasından bəri ermənistanla müsəlmanıstan sərhədi arasında səngərlər qayırılmışdır. Bir şey olan kimi türklər öz səngərlərinə dolurlar, ermənilər də öz səngərlərinə. Bu surətlə atışma başlandıqda türklər hər kəs tüfəngini götürüb müəyyən səngərə getmiş, ermənilər də öz səngərlərinə doluşmuşlardır. Üçmıx səngərinə sabiq polismeyster Məhərrəmzadənin komandası altında 10-15 nəfər polis və süvaridən ibarət xırda bir imdadiyyə dəxi göndərilmişdir. General-qubernator ümum polis nəfəratına və qoşuna şifahən və yazılı əmrnamələr vasitəsilə hökm etmişdir ki, güllə atmasınlar.

Ayın 4-də tamam gün atışma davam etmişdir. Yarmadakı qarağol dəstəsi ilə şəhərin əlaqəsi bilmərrə kəsilmiş imiş və ona kömək göndərmək heç vəchlə mümkün deyildi. Ermənilər yepiskop (keşiş) Vağana müraciətlə təvəqqe etmişlər ki, ingilis nümayəndəliyinə müraciət edərək, atışmanın yatırılması haqqında tədbirlər ittixazını [görülməsini] rica etsin. Mayor bu xüsusda general-qubernatora müraciətdə bulunmuşdur. General-qubernator bunun cavabında İngiltərə Komandanlığından tələb etmişdir ki, Azərbaycan əsgərlərinə təcavüz edilməsi və hökumətə tabe olunmamasına bais olan Milli Şura əzası [üzvləri] şəhərdən təbid edilsin [uzaqlaşdırılsın]. Mayor erməni əhalisinə cavab vermişdir ki, atışma sakit olacaqdır və general-qubernator əsgərlərə bu atışmada iştirak etməyə izin verməyir. Fəqət davanın yatırılması üçün lazımdır ki, İngiltərə Komandanlığı da öz vədinə əməl edərək Milli Şura əzasını şəhərdən çıxartsın.

Ayın 5-də səhər saat 9 radələrində ermənilər Milli Şura əzasından üç nəfərini təslim edərək bildirmişlər ki, yerdə qalanları şəhərdən qaçmışlardır. Bundan sonra atışma sakit olub, ancaq hər iki tərəfdən hərdəm bir tək-tək güllə atılırmış.

Hələ ayın 4-də atışma başlanar-başlanmaz general-qubernator türklərə əmr etmişdir ki, ermənilər güllə atsalar da onlar cavab verməsinlər. Atışmanın dayandırılması uğrunda general-qubernator, tabor komandanı və zabit Ştall tərəfindən hər növ tədbirlər görülmüşdür. Bu zaman yolda olan köçərilər dərhal geri qayıdaraq türk əhalisi mühafizəsinə sığınmışlardır. Fəqət bununla bərabər, onlardan beş külfət bütün şeyləri, qoyun və malları ilə ermənilərin əlinə düşmüşdür. İki arvad öldürülüb meyiti həman oradaca qalmış, yerdə qalanları isə qeyb olmuşdur. Erməni əlinə düşmüş qoyunlardan bir neçəsi bir ingilis avtomobilində tutulmuşdur. İngilis Komandanlığı qoyunları geri verərək üzr istəmişdir ki, onları satın almışdır. Türklərin rəvayətinə görə, bu atışmada ermənilərdən və türklərdən tələfat olmamışdır. Atışma vaxtı müsəlmanıstanda qalmış olan erməniləri buraxmışlardır. Ermənilər də oradakı müsəlmanları buraxmışlar.

Qəribə burasıdır ki, iyunun 4-də səhər ertə türklərin heç şeydən xəbəri olmayaraq öz uşaqlarını şəhərin qırağında, ermənistanın [şəhərin erməni hissəsinin] başında olan Realnı məktəbinə buraxmışlardır. Həman gün türk alış-verişçiləri də ermənistana getmişlərmiş. Məsələn, erməni ilə şərikli dükanı olan Kərbəlayı Qasım Qulu oğlu nam [adlı] bir şəxs səhər gedir ermənistana. Atışmadan bir saat qabaq şəriki olan Akop nam bir erməni şərikli puldan ona 1000 manat verərək demişdir ki, get müsəlmanıstana, çünki burada həyəcan var. Dükanlar bağlanıb və bir şey gözlənilir. Ermənilər isə deyirlər ki, müsəlmanıstanda 18-ədək erməni tələf olmuşdur. Bu barədə heyət general-qubernatordan sormuş və cavab almışdır ki, həman iş təhqiq edilmişdir və məlum olmuşdur ki, nə yerdə erməni işləyirmişsə sağ-salamat buraxmışlardır. Sonra nə olmuşsa bilməyir.

*(mabədi var)*

## TELEQRAF XƏBƏRLƏRİ

*Bolşeviklərin məlumati-rəsmiyyəsi*

Şərq cəbhəsində - Bizim qitəatın [hərbi hissələrin] yürüşü davam edir. Kunqur dəmiryolunun böyük hissəsi tərəfimizdən işğal edilmişdir. Ərzaq və ləvazimi-hərbiyyə [hərbi ləvazimat] ilə yüklü olan 3 qatar tərəfimizdən işğal edilmişdir.

Oxansk dairəsində düşmənlərin iki dəstəsi tərəfimizə keçmişdir. Bunlar bütün silah və obozlarını da [nəqliyyat vasitələrini də] təslim etmişlərdir.

Olonets səmtində biz müvəffəqiyyətli surətdə irəliləyiriz.

Qərb cəbhəsində - Petrozavodsk səmtində bizim qoşunlar Yaza kəndini işğal etmişlərdir. Bu yer Petrozavodskun 10 verstliyindədir.

Narva cəbhəsində bizim hissələr Yamburq şosesində bir qədər irəliləmişlərdir.

Pskov səmtində bizim hücum edən hissələrimiz müharibə ilə Keb nəhrini keçdilər. Bu nəhr Pskovun 20 verstliyindədir.

Molodeçno dairəsində bizim hissələr

düşmənlərin təzyiqi altında Molodeçnonu tərk etmişlərdir.

Luninetsk dairəsində, Minsk səmtində müharibə ilə biz Valkini tərk eylədik. Jmerinka mövqifinin [stansiyasının] 3 verstliyində zirehli qatarların müharibəsi davam edirdi. Cənub tərəfdə bizim hissələr Staromayorska çəkilmişlərdir.

Cənub cəbhəsində - Melitopol səmtində Malaya Belozyorka yaxınlığında düşmənlərin həmləsi dəf edilmişdir.

Konstantinoqrad səmtində bizim qoşunlar Lannaya mövqifini işğal etmişlərdir.

Xarkov tərəfində bizim hissələr Valki şəhərini işğal etməyə çalışırlar. Belqorod səmtində düşmənlərin təzyiqi ilə bizim hissələr Buynı mövqifi[ni] tərk etdilər.

Valvisk səmtində Novı Oskolun 10 verstliyində hissələrimiz müharibə edirlər.

Voronej dairəsində müharibə gedir.

Borisoqlebsk dairəsində düşmənlərin təzyiqi ilə Borisoqlebski tərk etmişlər.

Şərq cəbhəsində Puqaçyov səmtində Miloradovka tərəfimizdən işğal edilmişdir.

Ufa dairəsində bizim qoşunlar Ural mövqifi xəttinə çəkilmişlərdir.

Kiyev - N. ordusunun məlumati-rəsmiyyəsi. Radivilov səmtində bizim hissələr Brodı üzərinə yürüşə keçmişlərdir. Starokonstantinovun cənub-qərb tərəfində bizim yürüşümüz davam edir. Nikolayevin 5 verstliyində vaqe Pisarevka tərəfimizdən işğal edilmişdir. Tərəfimizdən işğal edilən Kobılina üzərinə düşmənlər yürüş edib bir qədər bizi sıxışdırmışlardır. Yerli əhalinin sözünə görə, Prosqorovu düşmənlər təxliyə edirlər. Kamenets-Podolski səmtində sakitlikdir.

Odessanın 40 verstliyində düşmənlər hücuma keçmək istəmişlərsə də, lakin bizim atışımızla geriyə püskürdülmüşlərdir.

Xarkov səmtində üç günlük müharibədən sonra İskrovski yanında süngü ilə bizim hissələr düşmənləri məğlub edib Bakli səmtinə onları təqib edirlər.

Konstantinoqrad səmtində bizim hissələr Karlovka dairəsində düşmənləri səngərlərindən çıxararaq onları təqib edirlər.

Jeloçen səmtində düşmənlər Yuzovka [Donetsk] üzərinə hücum edib bizim hissələri Novoqriqorovka mövqifindən çıxarmışlardır. Bir çox cəbhələrdə əhval bizim üçün yaxşılaşır.

Şura qoşunları dabrovollar əleyhinə yürüşə keçmişdir. Yürüş üç yerdən başlamışdır. Poltava-Xarkov səmtində qoşunlarımız Lyubotin üzərinə yürüş edirlər. Poltava ilə Konstantinoqrad arasında bizim hissələr bir günlük müharibədən sonra bir çox kəndləri və düşmənin möhkəm səngərlərini işğal edib düşmənləri cənub tərəfə qovurlar.

Dabravollar ricət edərkən [geri çəkilərkən] kəndləri yandırırlar. Şura süvarisi ricət edən Denikin qoşunlarını təqib edirlər. Şura kəşifçiləri Konstantinoqrada yaxınlaşmışlardır.

Boqodux[ov] səmtində hakəza [habelə] Şura qoşunları yürüşə başlamışlardır.

Ufa - Bolşevik qoşunları tərəfindən Krasnoufimsk işğal edilmişdir.

Saratov - Nikolayevsk bolşevik qoşunları tərəfindən işğal edilmişdir.





## SÜLH ƏTRAFINDA

Beşlər Şurası zənn edildiyinə görə, bu gün gündüz Tuna və Ermənistan məsələsini qurtaracaqdır. Bu məsələlər dəfəatla Şurada müzakirə edilmişdir. Gələn həftənin başından isə Şura Adriatik məsələsi müzakirəsinə keçəcəkdir.

Hələlik qeyri-rəsmi xəbərlər var ki, guya İtaliyanın vəziyyəti müşküldür. Deyirlər ki, Amerika nümayəndələri fransız və ingilis nümayəndələri ilə birlikdə iş açmaq istəyirlər. İtalyanlar razılığa hazırdırlar. Hərgah, maneə çıxmazsa əğləbiehtimala [qüvvətli ehtimala] görə razılıq əmələ gələcəkdir. Tainki, tezliklə Avstriya ilə də sülh əqdi mümkün olsun. O zaman Yaxın Şərq, Bolqariya, Türkiyə və bolşevik məsələlərini həll etmək üçün Konfransın vaxtı olacaqdır.

- Xəbər verilir ki, Çin mürəxxəsləri [nümayəndələri] Avstriya ilə əqd ediləcək [bağlanılacaq] Sülh müahidənaməsini imzalamağa hökumətlərindən əmr almışlardır.

- Romanya rəisi-vükəlasının Parisdən getməsinə Müttəfiqlər təəssüf edirlər. Balkan məsələsinə əhəmiyyət vermədiyi ilə Sülh Konfransını təqsirləndirirlər.

## QƏZETƏLƏRDƏN

### Parisdə tətil

Parisdən xəbər verirlər ki, əhval fənalaşmışdır. Tətil edənlərin miqdarı 350 minə varmışdır. Yeraltında olan dəmiryolların əksəri işləməyir. Tramvay həmçinin dayanmışdır. Tətil edənlər məvaciblərinin azalmaması ilə iş vaxtının 8 saat olmasını tələb edirlər.

### Süveyşdə tətil

Harmsvort izhar etmişdir ki, Süveyş kanalı kompaniyası müdirlərinin verdikləri xəbərə görə, tətilçilər tərəfindən qaldırılan məsələ teleqrafən Paris ilə müzakirə edilir. Saziş hüsula gələcəyini təsəvvür etmək olar. Tətil siyasi ruhdadır. İngiltərə məmurlarının müdaxiləsi ancaq asayişi saxlamaqdan ibarət olmuşdur.

### Çörçillin bəyanatı

Avamlar Kamerasında [Donald] Maklin nazir haqqında etdiyi müzakirat barəsində, həmçinin Arxangelsk və Murman cəbhələrindən başqa ingilislərin və Müttəfiqlərin Rusiyadakı əsgəri siyasətindən mübahisə açıb demişdir ki, müəyyən edilməmiş müdaxilə siyasətini davam etdirmək bizim tərəfimizdən böyük səhvdir.

Çörçill təklif etmişdir ki, sülh müzakiratının və sənədlərin elan edilməsi məsələsi baxılmaq üçün nümayəndələrə vagüzar edilsin [tapşırılsın].

Çörçill Rusiyadan bəhs edib demişdir ki:

*"Biz çalışırıq ki, Rusiya şimalındakı işlərimizi qurtaraq. Ümidimiz var ki, yayın axırına qədər Şimali Rusiya o qədər qüvvətli olar ki, artıq bizim köməyimizə ehtiyacı olmaz. Biz də vəzifəmizi ifa etmiş olub, əsgərlərimizi geri çağırarıq. Qafqaziyada olan əsgərlərimiz düşməndən yüzlərcə verst məsafədədir. Qafqaziyanın gələcəyi həll edilənə qədər əsgərlərimiz orada qalacaqlardır.*

*Sibiryada bizim ancaq iki batalyonumuz var. Bunlar da cəbhədən uzaqdadırlar. Onlar Sibirya hökuməti paytaxtı Omsk şəhərindədirlər. Bununla da biz öz hüsn-*

*təvəccöhümüzü Omsk Hökumətinə izhar ediriz."*

Sonra Çörçill izhar etmişdir ki:

*"Kolçakın hücumuna çox ümidvar olmaq olmaz. Kolçakın dəstəsi cənub tərəfdə geri çəkilmişdir. Lakin cəbhə böyük olub qüvvə az olduqda hücuma və geri çəkilməyə o qədər əhəmiyyət vermək lazım deyildir."*

Çörçill qəzetələrin verdikləri xəbərləri təkzib etmişdir:

*"Guya Kolçak bu yaxın vaxtda Moskvanı alacaqdır. Kolçak bir neçə yüz mil şəhərin məsafəsindədir. Biz Kolçaka əsgər göndərməyib, ancaq ona mühimmati-hərbiyyə və silah çatdırmışıq."*

Çörçill demişdir ki:

*"Omsk Hökumətinə pul ilə kömək edilmişdir. Biz bu hökumətə müavinət göstərməyi özümüzə vəzifə ədd [hesab] edirik. Çünki qismən bu hökumət bizim tərəfimizdən vücuda gətirilmişdir. Biz polyakların əməliyyatına onunçün maraq edirik, bəlkə onların müvəffəqiyyəti əsgərlərimizi Rusiya şimalından geri çağırmağa kömək etsin.*

*Mütarikə elanından indiyə qədər Rusiyada bizim tələfatımız bu cür olmuşdur: 13 zabit və 14 əsgər ölmüşdür, 14 zabit və 152 saldat yaralanmışdır, 2 zabit və 26 saldat xəbərsiz itmişdir."*

Çörçill az miqdarda olan qurbanlar ilə İngiltərə qüvvəsinin azalması rəyinə rişxənd etmişdir:

*"Belə görünür ki, bizim əməliyyatımız polisə işi kimidir."*

Çörçill Rusiyada olan əməliyyat məxaricinin Yevropa müharibəsi ilə əlaqədar olduğunu isbat ilə demişdir ki:

*"Denikinə çatdırılan silahın və mühimmati-hərbiyyənin qiyməti 20 milyon ingilis lirəsindən artıq deyildir. Çünki müharibə qurtardığından onların qiyməti xeyli aşağı düşmüşdür. Əqd edilən etilafnaməyə [razılığa] görə, Rusiya Hökuməti bu məbləği verməlidir. Hal-hazırda Rusiya siyasəti bir tək İngiltərə siyasətindən ibarət olmayıb, Müttəfiqlərin və qeyri dövlətlərin siyasətindən ibarətdir. Onlar hamısı vaxtla Rusiya işlərini təqib edirlər."*

**Müttəfiq heyətinin məlumati-rəsmiyyəsi**

- Kolçak Hökuməti namından və general Denikin tərəfindən göndərilmiş olan heyəti-mürəxxəsə [nümayəndə heyəti] Parisə varid olmuşdur [çatmışdır].

- Sülh Konfransının sədri Klemanso bəyan eyləmişdir ki, Türkiyə və Bolqariya məsələlərinin həlli daha 6 ay çəkəcəkdir.

- İngiltərənin Təchizat naziri bəyan edir ki, Almaniya ilə mütarikə əqd edildiyi zaman İngiltərənin iki milyon top gülləsi varmış. Müharibədən əvvəl ingilis ordusunun 456 topu var ikən, müharibə zamanında topların ədədi 26430-a qalxmışdır.

- General Ayronsayd xəbər verir ki, Şimali Rusiyada Dabravol ordusu Onej [Oneqa] gölü yanında Kanderbaş monastırını işğal etmişlərdir.

- Bauer və rəisi-vükəla Erzberqer Almaniya kabinəsini təşkil edirlər.

- Xəbər verildiyinə görə, Krım bolşeviklərdən təmizlənmişdir.

- General Denikin tərəfindən, Kolçak Hökuməti namından Parisə göndərilmiş olan heyəti-mürəxxəsə Parisə varid olmuşdur.





**NƏZARƏTLƏRDƏ**
**[NAZIRLIKLƏRDƏ]**

Gədəbəy zavodu fəhlələri ilə müdiriyyət əlaqəsi ilə məhəllində [yerində] tanış olmaq üçün işbu günlərdə Məsai Nəzarəti [Əmək Nazirliyi] katibi Kazımzadə cənabları oraya göndərilmişdi. Bu gün Kazımzadədən böylə bir teleqram alınmışdır:

*"Gədəbəy zavoduna gəldik. İşlər qayda üzrə gedir. Fəhlələrlə müdiriyyət miyanındakı [arasındakı] ixtilafı təhqiq etdik. Onların arasında etilaf [razılıq] əmələ gətirilmişdir. Ehtimal edilir ki, ixtilaf bərtərəf olacaqdır [aradan qaldırılacaqdır].*

*Kazımzadə."*

**Bakıdakı İngiltərə qüvayi-əsgəriyyəsi [ordusu] komandanı həzrətlərinə!**

İyulun 7-dən 1036 nömrəli Müttəfiq Komandanlıq tərəfindən qət edildiyi [qərarlaşdırılan] demarkasyon xəttinin [demarkasiya xəttinin, atəşkəs yaxud sülh bağlayan iki ordunu bir-birindən ayıran xəttin] pozulması haqqındakı təliqənizə [rəsmi məktubunuza] cavabən təkrarən məlum ediriz ki, Azərbaycan Cümhuriyyəti Hökuməti 3 iyun 1891 nömrəli etirazına əlavə olaraq inanır ki, Britaniya Hökumətinin qərardadını əmələ gətirməyə ixtilaf çıxmamasından ötrü general Denikini var qüvvəsilə məcbur edəcəkdir.

*Xariciyyə naziri: imza*

**Tiflisdən iyulun 8-də alınan teleqram**

Erməni Hökumətinin fəaliyyəti başlanmışdır. Naxçıvan və Şərurda bir çox həbslər icra edilmişdir. Naxçıvandan məşhur Mirzəəli bəy Bektaşov, Hüseynağa Novruzov, Cəfər bəy İrəvanski, Teymur Həsən Kazımov təqsirlərini elam etmədən [bildirmədən] Aleksandropola aparılmışlardır. Rica ediriz ki, iki qonşu millətin səlaməti üçün azad edilmələri üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

*Əli Səbri*

**İyulun 8-də Tiflisdən alınan teleqram**

Bakı, Xariciyyə nazirinə

Şimdicə gəlmişlərin dediklərinə görə, Vedibasar dairəsindəki erməni cəza dəstələrinin dəhşəti davam edir. Müharibə davam edir. Vaqonlardan müsəlmanların çıxarılıb aparılmaları kimi hadisat olmuşdur. Məsələn, Qəmərli mövqifində [stansiyasında] 4 nəfər müsəlman aparılmışdır ki, başlarına nə gəldiyi məlum deyildir. Xalqın həyəcanı və vicdan məsələnin təhqiq və önünü almaq üçün tədabir ittixazını tələb edir.

*Əli Səbri*

**Dağıstanın müvəqqət hakimi həzrətlərinə**

İşbu iyunun 30/17-sindən 1715 nömrəli kağızınızla Tersk və Dağıstan nahiyələri Baş Komandanı general Erdelinin əmrinə məbni [əsasən], mənə Azərbaycan Cümhuriyyətinin siyasi nümayəndəsi olduğum üçün Teymurxanşura daxilində qala bilməyəcəyimdən naşi [ötrü] çıxmamı təklif etmisiz.

Həzrətlərinizə məlum olduğu üzrə, 1918-ci sənənin 26 mayısında Zaqafqaziya Hökuməti ləğv edilərək bir qaç dövlət, o cümlədən Azərbaycan Cümhuriy-

yəti vücuda gəlmişdir. Hər yerdən qovulmuş rus ziyalıları Azərbaycanda kəndilərinə bir məlcə [sığınacaq] bularaq yaşayırlar. Hal-hazırda 10 minlərlə ruslar – ziyalı, fəhlə, kəndçilər Azərbaycanda yaşayaraq, vətəndaşlar kimi həyat sürürlər. Rus Milli Komitəsi bütün rusları təmsil edərək, hətta hökumətdə belə iştirak edirlər. Məsələn, [Viktor Viktoroviç] Klenevski.

Öylə görükürdü Dabravol ordusu olan yerlərdə Azərbaycanın nümayəndəsi ola bilərmiş. Binaənileyh [ona görə], general Erdelinin mənim Teymurxanşurada qalmama zidd getməsini mən bir növ anlamayıram. General Erdelinin ordusu işğal etdiyi dairədə kəndisi istədiyi kimi çalışacağını qəbul edərək rica edərdim ki, Yalama mövqifinədək məni və ailəmi aparmaq üçün mənə bir vaqon verilsin. Vaqonun qaytarılacağını öz öhdəmə götürürəm.

*Azərbaycan siyasi nümayəndəsi:*
*[Əbdürrəhim bəy] Haqverdiyev*

**Petrovskdakı Müttəfiq Komandanlıq nümayəndəsinə**

Bununla təqdim edilən Zaqafqaziyadakı Britaniya qüvayi-əsgəriyyəsi [hərbi qüvvələri] Baş Komandanı general Korinin təliqəsindən [rəsmi məktubundan] göründüyü üzrə, Qafqaziya ştatları ilə və general Denikin miyanında demarkasyon xəttini [demarkasiya xəttini, atəşkəs yaxud sülh bağlayan iki ordunu bir-birindən ayıran xətti] riayətən [gözləmək üçün] general Denikin Dağıstanı təxliyə etməlidir.

Yenə pişnihad [təqdim] edilən Dağıstanın müvəqqət hakiminin 30/17 iyun 1715 nömrəli kağızında general Erdelinin əmrinə görə, mənə Dağıstandan çıxmaq təklif edilir. Şimdi mən də bilməyirəm general Erdelininmi qətnaməsinə və yaxud Britaniya Hökuməti əmrinə itaət edəyim. Rica edirəm, kəndiniz məsələni vazeh [aşkar] ediniz. Mənim səmimiyyətimi qəbul ediniz, əfəndim.

*Azərbaycan Cümhuriyyəti*
*siyasi nümayəndəsi:*
*[Əbdürrəhim bəy] Haqverdiyev*

## DAĞISTANDA

Dağıstan Müvəqqəti Hökuməti rəisi general [Mikayıl Maqomedoviç] Xəlilov "Dağıstan" qəzetəsində böylə bir elan dərc etdirmişdir:

Eşidirəm ki, Azərbaycan və gürcü hökumətləri və sairə məni müqəssir görürlər və məni xaini-millətədd [hesab] edirlər. Binaənileyh [ona görə], elan etmək istəyirəm ki, gürcü hökuməti və sairənin indində [nəzdində] mən məsul deyiləm. Onların indində bəraət qazanmaq mənə heç bir vəchlə vacib deyildir. Mən ancaq, əvvəla Cənabi-Haqqın, saniyən [ikincisi] kəndi vicdanımın, salisən [üçüncüsü] Dağıstan millətinin indində məsulam.

Fəqət Azərbaycan əhalisinin ehtiramı və qüdsiyyəti mənim indimdə çox olmaq həsəbi [səbəbi] ilə, onların indində dəxi kəndimi məsul hesab edirəm.

Cənabi-Haqq niyyətimi bilir. Kəndisi həqqaniyyətlə [ədalətlə] hökm edəcəkdir. Vicdanım dəxi heç bir vəchlə mütəəssir deyildir. Çünki yapdığım və yapmadığım şeyləri kəndim eyi bilirəm.

Millətə dəxi ən-səmimül-qəlb [səmimi qəlbdən] böylə cavab verirəm:





Əski hökumət istefa verdikdən sonra bir qaç dəfə məndən sadir olan ədəmi-qəbula rəğmən [razılıq vermədiyimi bildirdiyimə baxmayaraq], 14-cü mayda Məclisi-Məbusan tərəfindən mən Hökumət rəisliyinə intixab edildim [seçildim]. Əvət, intixab edildim. Fəqət öylə bir zamanda intixab edildim ki, hökumət kassası paradan bomboş idi. Qüvveyi-əsgəriyyə az idi. Əhalidə itaət yox idi. Anarşizma bütün Dağıstanı istila etmişdi. Bütün ziyalılar məyusiyyətə qərq olmuşdular. Kabinədə əza [üzv] olmağa cəsarət edən heç kimsə yox idi. Evimizin bütün divarları münhədim olmuşdu [dağılmışdı].

Kabinəni təşkil etməklə məşğul vaxtda bolşeviklərin təşviqatı ilə bir taqım avam əhali Teymurxanşuraya hücum etməyə başladılar. Fəqət əsgərimizin səy və ictihadı [cidd-cəhdlə çalışması] ilə bilazərər [zərərsiz bir halda] onlar şəhərə daxil olmadan tərd edildilər [qovuldular].

Bu işin mənşəyini təhqiq və təftiş edib külliyyən böylə işlər olmamaq üçün adamların məqsədini bilərək Dağıstanda asayişi təmin etmək üçün çalışdığım vaxtda, 3-cü mayda Könüllü ordu Şamilqala və Dərbənd şəhərlərini işğal etdilər. Bunun həqiqətini bilib dərhal Məclisi-Məbusana ərz etdim. Məclisi-Məbusandakı Dağıstan məbusları və şeyxülislam müavini kəndi aralarında bir məclis əqd edərək, iş bu yerə gəldikdən sonra başqa bir əlac bulunmadığı bilindiyindən, nahaq yerə qan tökmək şər'ən [şəriətə görə] caiz olmadığı şeyxülislam müavini tərəfindən söyləndikdən sonra, Məclisi-Məbusanı müvəqqətən tərxis və Dağıstana məxsus bir hökumət təşkil etməyə qərar verdilər. Və saniyən [ikincisi], məni Dağıstan Hökuməti rəisliyinə intixab edərək Könüllü ordu komandanları ilə görüşüb müsalihə [sülh] ilə işi bitirməyi mənə təfviz etdilər [tapşırdılar].

Mən Könüllü ordu komandanları ilə görüşüb onların məqsədlərini anladığımdan sonra Dağıstan məbuslarına heç birisini ixfa etməyərək [gizləməyərək] həpsini söylədim və onların təsvibi [təsdiqləməsi, bəyənməsi] ilə işə başladım.

Şimdi insaf gözü ilə baxınız! Bu işlərdə məni müqəssir görmək və məni xaini-millət ədd [hesab] etmək caizmidir? Xayır, bu böyük insafsızlıqdır.

Qardaşlar! Mitinqlərdə natiq olub nitq irad etmək [nitq söyləmək] və əlindən gəlməyəcək şeylərlə bağırıb-çağırıb gurultu çıxarmaq qolay bir işdir. Fəqət söylədiyi şeyləri qövldən feilə çıxarmaq və milləti sözlə deyil, işlə sevmək o qədər qolay deyildir.

Qəbahət məndəmi, yaxud məndən əvvəlki rəyasətdə bulunub kəndi millətini aldatmaqla vətənini hərc-mərcliyə döndərənlərdəmi? Tarix göstərəcəkdir.

Cənabi-Haqq mitinq natiqlərinə insaf versin.

*Hökumət rəisi general Xəlilov*

## XARİCİ SİYASƏTİMİZ

### - 7 -
### İran və biz

Böyük rus tufanından həmişə zərər görənlərdən biri də İran idi. Bu məmləkət çoxdan bəri dövləti islahat ilə uğraşmaq meylində idi isə də, rus intriqaları, heyfa ki, bu fikirləri yıxıb əzirdi. İranın bir daxili işləri yox idi ki, ona rus qarışmasın.

Daima ölkənin heysiyyəti ayaqlar altında tapdalanmada idi. Təbrizdə mücahidlərin asılması, Məşhəddə İmam Rza qəbri-şərifinin təhqir olunması hamının yadındadır. Biçarə İran rus zərbəsindən göz aça bilməyirdi ki, ölkəsinin rahat və tərəqqisinə çalışsın.

Rus yıxıldı. Rus ilə İranın arasında Azərbaycan dövləti təşəkkül etdi. Rus qorxusuna qarşı Qafqaz orduları döşlərini si-pər edərək durdular və duracaqlardır. İran da asudə nəfəs almağa başladı. Bundan sonra bu iki qonşu və islam dövlətləri ara-sında dostluq hüsula gəlməlidir.

İran ilə aramızda məchul və ixtilaflı bir məsələ yoxdur. İki qonşu dövlətin tərəqqisi yalnız qarşı dostluq ilə ola bilər. İran bizi tutarsa və bizi müstəqil deyə tanırsa, özü üçün şimal tufanına qarşı bir sipər qazanar.

İran istiqlaliyyəti bizə də böyük faydalar verəcəkdir. Bu istiqlaliyyət sayəsində dindaş qonşumuz islahat və idarə inkişafı ilə məşğul olaraq ölkədə rahatlıq və asayiş doğura bilər. Nə qədər İranda daxili rahatlıq olarsa, bir o qədər biz də rahat yaşarıq. Sərhəd boyundakı təbəələrimizin [vətəndaşlarımızın] sülhpərvər həyatı təsadüfi hadisələrlə pozulmaz.

Rus rəqabəti İranı iqtisadi cəhətlərdən əzirdi. Biz istərdik ki, İranın iqtisadi qüvvələri artsın. Çünki məmləkətin məhsulları Azərbaycan yolu ilə başqa məmləkətlərə nəql olunacaqdır. Biz də bundan fayda görəcəyik. İqtisadca tərəqqi etmiş İranın alıcıları artar və biz də oraya artıq mal yeritməyə müvəffəq olarıq. Müstəqil yaşayan İranın, əminik ki, pulları çoxlaşacaq, nəqliyyə vasitələri gözəlləşəcək, insanların asayişi təmin olunacaq və bunların sayəsində də bizimlə İran arasında alış-veriş yüngüllük ilə yola gedəcək, bundan da hər iki tərəf fayda görəcəkdir.

Hanki nöqteyi-nəzərdən baxsaq, İranın müstəqil və məsud yaşaması bizə əlverişlidir.

Dövlətimizin Azərbaycan adlandığı suitəfəhhümlərə [yanlış anlamalara] səbəb oldu. Halbuki, Təbriz əyalətinin yəni İran Azərbaycanının İranın olub-olmaması barədə ortalıqda heç bir məsələ yoxdur. İranın haqqına təcavüz etmək fikrində deyilik, olmamışıq və olmayacayıq. Bizim tərəqqi və istirahətimizi təmin edən yalnız qonşularımız ilə dostluğumuz olacaqdır.

*Yusif Vəzirov*

## QIRMIZI QAN VƏ QARA MÜRƏKKƏB

**- 3 -**

Yeni təşəkkül edən səltənətlərin ilk istiqlalı inqilab və bu yolda şühədanın [şəhidlərin] axıdılmış qırmızı qanı ilə təmin olunduğu halda, onun əsrlərcə davam və bəqası da [əbədiliyi də] onun daxilində yaşayan üləmanın [alimlərin] hümməti və bu yolda sərf etdiyi qara mürəkkəbin miqdarı ilə təmin olunur. Bunu hamıdan qabaq ərəblər anlamışlar ki, "üləmanın mürəkkəbi şühədanın qanından əfzəldir" demişlərdir. Filhəqiqə [həqiqətən də], məmləkətin mütəfənninləri [elm adamları] artdıqca, onun ömrü uzanar. Bərəks, alimləri azaldıqca ömrü gödəlib izmihlala [süquta, dağılmağa] yaxınlaşar. Hanki hökumət ki, millətinin ülum və fününu [elm və fənni] uğrunda çalışmayır, böylə bətaətlə [süstlüklə] istiqlalın kökünə baltalar vurur. Tarixdən adları silinmiş millətlərin də izmihlalı həmin minval ilə başlamışdır.

İndi heç kəsə gizlin deyil ki, Azərbaycan türkləri maarifcə çox geridə qalmışlardır. Lakin bu böyük qüsurumuz hələ bizi izmihlala məhkum edəmməz. Zira, amerikalılar və bolqarlar kimi, hərgah biz də ciddü-cəhd edərsək, istiqlalın elanından az bir vaxt sonra mətin və sarsılmaz bir səltənətin sahibi olarız. Bu, mümkündür. Hətta, 30 ildən sonra Azərbaycanı İsveçrə kimi mədəni bir ölkəyə döndərmək olar. Bu şərtlə ki, mütəfəkkirlərimizin həpsi maarif yolunda çalışalar, əmək sərf edələr. Burada birinci vəzifə Parlamanda əyləşən millət vəkillərinin və hökumətindir. Zatən, bunların səy və kuşişləri [çalışmaları] yalnız üç şeydən ibarətdir: əvvəla, əhalinin qarnı tox olsun (çörək), ikincisi cəhldən azad olsun (maarif) və üçüncüsü də dünyada sərbəst yaşasın (hürriyyət). Lakin vaxtın pozuqluğu və qəhətlik şiddəti vəkilləri indiyə qədər məşğul edib maarif işlərinə, heyfa ki, hələlik imkan verməmişdir. Bununla belə, vəkillərimiz düşünməlidirlər ki, maarif işləri təxirə düşdükcə, idarə əngəlləri davam edəcəkdir.

Cahil qalmış millətin başı üstündə hədə qamçıları oynayacaqdır. Binaənileyh, maarif məsələlərini ən təcili işlərdən sanıb Parlamanın və Heyəti-Vüzəranın [Nazirlər Kabinetinin] müzakirə və icrasına çalışmalı ki, bu yolda hər dəqiqə giranbəhadır [qiymətlidir].

Məlum olduğu üzrə, mədəniyyətə nail olmaq üçün iki yol vardır: biri uzun, o biri də gödək. Əvvəlincisinə "təkamül" və ikincisinə də "inqilab" üsulu deyərlər. Təkamül üsulu uzun olsa da, nəticəsi müstəqim və müsbətdir. Biz bu üsulu qəbul etsək, Azərbaycan türklərinin mədəniləşmək fəqərəsi bəlkə 100 ilə də başa gələ bilməsin. Böylə olarsa, yəni maarif işlərini əhalinin öz meyil və xahişinə buraxarsaq, bir əsr tamam olunca mədəni qonşularımız bizi dəfələrlə həzmi-rabedən keçirmiş olarlar. Pəs [elə isə], təkamül yolu bizim üçün yaramaz və əlverişli deyil.

Maarif inqilabına gəldikdə, bu da siyasi inqilab kimi qan tökməkdən ibarət olmayıb, ancaq hökumətin təsdiq və qəbul edilə biləcək icbari bir qanununa vabəstədir ki, onun icrası ilə əhalinin uşaqları – zükurən və ünasən məktəblərdə təlim almağa məcbur olsunlar. Əxzi-əsgər məsələsində heç kəs boyun qaçıra bilmədiyi kimi, təlimi-ümumi və icbari fəqərəsində də heç bir valideyn həddi-təlimə varmış övladını məktəbə verməyib avam saxlaya bilməz. 7-8 yaşına varmış uşaqların hər il siyahısı tutulub məhəllə məktəbləri arasında təqsim edilir. 3-4 il təlimi-ibtidaiyyəni gördükdən sonra edadiyyələrə daxil olmaq istəməyən şagirdlər bu ibtidai təlimə kifayət edərək xüsusi məşğuliyyətləri dalınca gedirlər. İştə, arzu etdiyimiz bu qanun hökumət tərəfindən təsdiq olunarsa, 4 ildən sonra həddi-təlimə varmış uşaqlarımızdan bir nəfər də bisavadı dərman üçün belə tapılmaz! Təlimi-ibtidaiyyəmiz məcburi olarsa, indiki halda bu, bizə kifayət edər. Bu, böyük bir nemətdir. Ey kaş ki, hamı azərbaycanlılar sadəcə oxumaqla yazmaq biləydilər. Bu məsələ baş tutarsa, yəqin ki, edadiyyələrimiz, indiki kimi, müsəlman şagirdlərindən boş qalmazlar. İbtidaiyyələri ikmal edənlərdən bir çoxu

edadiyyələrə və oradan da, hətta darülfünunlara daxil olmaq həvəsində bulunacaqlar. Xülasə, təlimi-ibtidaiyyəmiz məcburi olmayınca, edadiyyə və darülfününlarda əcnəbi rəqabəti çəkəmməyəcəyiz. Və bu hal davam edib dayandıqca, idarələrimiz də əcnəbilər çəngalında qalacaqdır. Yenə köhnə əsarət, yenə sabiqdəki zəlalət [zəlillik; doğru yoldan çıxma]... Axırı da uçurum...

Burada yenə irad edəcəklər ki, təlimi-icbariyyənin öhdəsindən gəlmək zordur. Zira, mətlub ehtiyacı rəf etmək üçün nə müəllimlərimiz, nə də mənzillərimiz vardır. Burası inkar edilməyəcək bir həqiqətdir. Bununla belə, dünyada çalışqanlar üçün heç bir çətin iş yoxdur. Əvvəla, təlimi-icbariyyəni bütün-bütünə icra etmək mümkün olmasa, hissə-hissə mümkün olar. İkincisi, bir mənzildə günortaya qədər bir məhəllənin, günortadan sonra o biri məhəllənin, axşam da hətta üçüncü məhəllənin şagirdlərini oxutmaq mümkün olduğu kimi, müəllimlər də ağır məşəqqətə qatlaşıb iki-üç növbədə dərs versələr, məqsədimizə bir qədər yaxınlaşan kimi olarız (əlbəttə, müəllimlər hər növbəyə ayrıca məvacib almalıdırlar). Müvəqqəti olaraq, qoy hər yerdə ki, mümkündür dərs verilsin. Hər kəs ki, bacarır dərs versin.

*Fərhad Ağazadə*

**AZƏRBAYCAN DARÜLFÜNUNU**

Bakıda bir darülfünun [universitet] açmaq məsələsi qalxmışdı. Maarif Nəzarəti nəzdində layihə hazırlamaq üçün bir əncümən [şura, komitə] təsis edilmişdir. Əncümən işlərini bitirib qurtarmaq üzrədir. Bu yaxınlarda Azərbaycan tarixinə şanlı bir səhifə yazılacağı – Darülfünun açılacağı gözlənir.

Fəqət birdən-birə bəzilərincə kəşf edildi ki, Azərbaycana böylə darülfünun lazım deyilmiş. Və açılacaq olduğu təqdirdə ancaq yabançı mənafeyə xidmət edəcəkmiş. Çünki Məsai [Əmək] naziri həzrətləri ilə tələbələrimizin zənnincə:

*"Tibbi şöbəsinə elmi cəhətdən, təbii ki, bir söz deniləmməz. Fəqət yenə bir çox tərəfləri mövcuddur ki, Azərbaycan türk tələbələrini kifayətləndirməyəcəkdir. Zira layiqli professorların yoxluğu, lazımi vəsaitin əldə edilə bilməyəcəyi və qeyrə kimi nöqsanlar görülür. Tarix və ədəbiyyat şöbəsinə gəldikdə, burası qayət gülünc, hətta bir dərəcə acınacaq bir məsələdir. Əcəba, bu şöbə türk tələbələri üçünmü? Əlbəttə, xayır. Zira, böylə olacaq olardısa, o vaxt Türkiyə, Misir və yaxud başqa yerlərdən türk professorları dəvət edilməli idi. Halbuki, böylə deyildir. Burada rus professorları rusca tarix və ədəbiyyata dair mühazirələr oxuyacaqlarmış. Deməli, yenə əski hamam, əski tas. Biz yenidən rus məktəbinə dönürüz."*

Buna görədir ki, Məsai naziri və tələbələr Azərbaycan türk tələbələrinin təhsil üçün Avropaya getmələrini məsləhət görürlər. Çünki:

*"Avropa təhsilinin başqa-başqa siyasi əhəmiyyətləri vardır. Məsələn, bu vaxtadək Qafqaziyanın fəqət [ancaq, sadəcə] bir erməni ölkəsi olduğunu bilən Avropaya Azərbaycan və türklərin vücudunu da canlı sübutlarla göstərmək və bu kimi çox məsələlər. Heç olmazsa, Avropadan qayıdan tələbələr bir lisan öyrənə biləcəklərdir. Ən başlıca ehtiyaclarımızdan biridir."*

Gərək nazir həzrətlərinin və gərəksə tələbələrin başlıca dəlilləri iki şeydir:

Əvvəla, darülfünunda leksiyalar türkcə olmayacaqdır. Ona görə məqbul deyildir. Saniyən [ikincisi], darülfünun Azərbaycan mədəniyyətinə deyil, rus mədəniyyətinə xidmət edəcəkmiş.

Bu səbəblərə görə də, Azərbaycan türk tələbələri əcnəbi darülfünunlarına getməlidirlər. Əsas etibarilə elm, fənn, musiqi və ümumiyyətlə sənayeyi-nəfisənin [incəsənətin] milliyyət xaricində ümum bəşəriyyət malı olması əsasını kənara qoyaraq və yenə əsas etibarilə darülfünunun tam bir türk məbədi-ülumu [elm məbədi] olmasını onlarla bərabər tələb edərək, fəqət, bununla bərabər məsələyə həqiqəti-hal və vəziyyəti-hazirəmiz nöqteyi-nəzərindən yaxlaşaraq, bir çox məsələdə onlarla şərik olammayırız.

Məsələn, deyirlər, Azərbaycan darülfünununda leksiyalar türkcə olmadığından üdul edirlər [vaz keçirlər]. Əcəba, Avropaya getdikdə türk tələbələri leksiyaları türkcəmi eşidəcəklərdir?

Deyirlər, hamı tələbələr Avropaya getsinlər.

Bu barədə ümum tələbələrin maddi halı nəzərə alınırmı, yoxsa yalnız 5-10 zəngin tələbə ölçüsü tətbiq edilir? Böylə isə, bəs yüzlərcə biçiz [kasıb] tələbəmiz nə yapsın?

Deyirlər, Avropaya gedən barı bir dil öyrənər. Fəqət o dili öyrənmək üçün sərf edəcəkləri hümməti tələbə əfəndilər ana dillərini öyrənməyə sərf etsələr, özlərinin hesab olunub da bixəbər qaldıqları türk dilini öyrənsələr çoxmu zərər ola?

Saniyən, əgər bir tələbəmiz Avropaya gedib bir dil öyrənəcək olarsa, digər tərəfdən türk dili, türk mühiti və türk evindən uzaq düşməklə, türk dili, türk ruhu, türk ənənatı [ənənələri], türk hərfini tamamilə unutduqda, qeyb etdikdə azmı zərər gətirəcəkdir? Qazandıqları dil qeyb etdikləri türklüyü əvəz edəcəkmidir? Bilxassə, bu vaxtadək Avropada oxumuşlarımızın camaatdan nə qədər uzaq düşdükləri göz qabağındadır.

Deyirlər, tələbələrimiz Avropaya getdikdə, hər şəhərdə bir neçə tələbə bulunması ilə biz Azərbaycanın varlığını nümayiş etdirmiş olacağız. Tələbələrimiz Avropada Azərbaycan üçün canlı bir reklam kəsiləcəklərdir.

Tələbələrimiz Avropa qapılarında elm dilənçisi olmaq üzrəmi vətən və milləti nümayiş etdirməyi faydalı görürlər, yoxsa birillik həyata malik olan bir millətin qanlar, alovlar içində məbədi-ülum və fünun [elm və fənlər məbədi] yaratması iləmi? Məncə, canlı reklam lazım gəlsə, Avropada varlığımızı siyasi nümayəndəlik, ticarət, mətbuat və sairə ilə nümayiş etdirmək, məktəb qapılarına düşməkdən pis deyil. Elm və mədəniyyətə olan həvəsimizi göstərmək üçün isə, şübhəsiz, daxilimizdə təcəddüd [yenilənmə] və tərəqqi ilə nümayiş etdirmək daha övladır [üstündür] ki, bunun da icrası üçün darülfünun açmaqdan böyük tədbir olammaz. Bir neçə tələbənin təhsil üçün Avropaya getməsi mütəəddid əşxasın [bir çox şəxsin] elmə talib olduğunu göstərir, amma bu tezlikdə paytaxtımızda darülfünun açmaq isbat edir ki, biz nimvəhşi [yarımvəhşi] asiyalı kimi deyil, milli hərsimizi [mədəniyyətimizi] Avropa mədəniyyəti ilə

mərbut edərək [əlaqələndirərək], Avropa mədəniyyətinə malik milli həyat ilə yaşamaq istəyiriz. Reklamın böyüyü budur zənnindəyiz.

Deyirlər, nə üçün Darülfünunun tarix və ədəbiyyat şöbəsinə Türkiyədən, Misirdən deyil, Rusiyadan professorlar çağırılır? Burası pək haqlı olardı. Fəqət bir şərtlə. Bunu iddia edənlər barı öz aralarında ana dilini barı mükəmməl danışmağa və eşidəcəklərini anlamağa qadir olaydılar. Həqiqət nə qədər acı olsa da, gizləmək olmaz. Üz qızartısı ilə etiraf etməliyiz ki, bu gün darülfünunumuza Türkiyədən, Misirdən professorlar dəvət ediləcək və leksiyalar türkcə oxunacaq olarsa, tələbələrimizin ancaq yüzdə biri onu başa düşər. Bizim yazılarımızı, danışıqlarımızı "qəliz ibarədir, başa düşmürəm" deyə oxumaq, dinləmək istəməyən əfəndilər professorların elmi, fənni, tarixi, ədəbi istilah və təbirlərlə [termin və ifadələrlə] dolu mühazirələrini necə olacaq ki, anlayacaqlardır?

Bizcə, tələbələrin istədiyi "Azərbaycan Darülfünunu" ancaq "Azərbaycan gimnaziyaları" bitirmiş, yəni milliləşmiş məktəblərdə milli tarix, milli ədəbiyyat, milli dildə riyaziyyat, fizika, həndəsə, kimya, kosmoqrafiya və sairə, və sairə oxumuş tələbələr üçün açıla bilər. Bu da ancaq bir neçə ildən sonra, yəni orta məktəblərimiz tamamilə milliləşərək, mükəmməl türk dili bilən cavanlar yetişdirdikdən sonra mümkün olar. Bu isə uzaq deyildir: Gələcək tədris sənəsində orta məktəblərin 3-cü sinifləri milliləşir. Bu surətlə 4 ildən sonra edadilər arzu etdiyimiz kimi cavanlar yetirə biləcəklərdir. O vaxt darülfünunumuz "Azərbaycanlaşmaz" isə, əlbəttə bizə öylə darülfünun lazım olmadığını həpimiz iqrar [təsdiq] edər və ona bir qəpik millət pulu buraxılmasına kimsə razı olmaz. Fəqət şimdilik arzumuz üzərinə deyil, məcburiyyət altında darülfünunumuz tam mənası ilə Azərbaycan darülfünunu olammaz. Bunu tələbə arxadaşlar dəxi etiraf edərlər.

Dövlət və millət məsələsində hissiyyata qapılmaq həmişə məmul [arzuedilən] nəticə verəmməz!

*Maarifçi*

**MƏTBUAT**

Türk mətbuatı yeni bir qəzetə ilə zənginləşmişdir. "Əhrar" firqəsi naşiri-əfkarı [orqanı] olmaq üzrə "El" adı ilə yeni bir qəzetə çıxmağa başlamışdır. Birinci nömrəsində "Məsləkimiz" sərlövhəli baş məqaləsində qəzetə tutacağı yoldan bəhs edir və: *"«El» qəzetəsinin təqib edəcəyi məslək hal-hazırda siyasətən biri-birindən ayrı olaraq yaşamaqda olan türk əqvamı [xalqları] arasında mənəvi, siyasi və iqtisadi bir rabitə hasil etmədən ibarət olacaqdır. Bu gün türk əqvamı arasında bir mövqeyi-mühüm ehraz edən [qazanan] Azərbaycan türkləri siyasi bir istiqlala nail olduqdan sonra türk əqvamının yuxarıda zikr etdiyimiz əsaslar üzərinə birləşmələrindəki lüzum və əhəmiyyət daha ziyadə artmış bulunur" deyə,* bədəhu [sonra] *firqə proqramının tətbiqi olmaq üzrə: "Hökumət işlərində görülən qüsurları, nöqsanları tənqiddən bilmərrə çəkinməyəcəkdir. Gənc məmləkətimizin ümuri-həyat və məişətinə [həyat və məişət işlərinə] aid məsələlərdə ittixaz edəcəyimiz [tutacağımız] xətti-hərəkətə gəlincə, bunda, təbii, əvvəl-bə-əvvəl ərbabi-məsaidən [zəhmətkeşlərdən]ədd [hesab] edilən işçi və əmələ sinifi ilə əhli-ziraənin [əkinçilərin], rəncbərlərin hüquqi-ixtiyarının müdafiə ediləcəyini"* vəd ilə siyasəti-xariciyyəyə keçir və bu yolda həmişə ümum millətlərlə, xüsusən qonşularla mehriban və dostanə münasibat hüsuluna çalışacağını qeydlə, nəhayət, hökumətə münasibətini böylə təsvir edir:

*"Hökumətin əza-ərkanı [Hökumət üzvləri və adamları] əksəriyyət etibarilə başqa bir firqəyə mənsub bulunmuş olsa da, ögey ana nəzəri ilə baxmayıb, hər bir tədabir və təşəbbüsatda ona yardım etməliyiz. Çünki istiqlaliyyətimizə qarşı xaricdə bir çox təhlükələr mövcud ikən, biz firqə münaziəsi [çəkişməsi] ilə iştiğala [məşğul olmağa] başlayıb da, millət və vətənin təkrar qeydi-əsarətə keçməsini təshil edəcək [asanlaşdıracaq] qədər böyük bir xəyanətdən, əfvi qeyri-qabil müdhiş bir cinayətdən ehtiraz etməliyiz [çəkinməliyiz]."*

Digər bir məqaləsində Paris Sülh Konfransından nələr gözlədiyini təzkarla [deməklə], ümidlərinin puça çıxdığını bəyanla və yə'sini [ümidsizliyini]: *"Hər kəs düşüncəsinin yalnız boş və havayı bir əfsanə olduğunu acı təəssürlə [hisslə] təsdiqə məcbur oldu. Məlum oldu ki, kəndilərini zəiflərin arxası hesab edənlər, onlara kəndi hüquqlarını, azad yaşamaqlarını verməк deyil, biləks [əksinə], təzədən əlaltılar, əsirlər arayırlar. Aşkar bilindi ki, siyasəti-hazirənin ərkani-əsliyyəsi [əsas qaydaları], əsası yalan, hiylə, təzvir [saxtakarlıq] və iğfal [aldatmaq] imiş"* kimi cümlələrlə bəyan və izhar edərək, konfransçıardan şikayətlənir və yazır ki:

*"Deməк ki, ən nifrətli yalan bugünkü sülh konfransçılarının söylədiyi zinətli və mahiranə yalanlardır. İştə, görülür ki, millətlərin gözlədiyi başqa, Konfrans müzakiratı nəticəsi isə bambaşqadır."*

Nəhayət, yeni rəfiqimiz bu səbəblərə görə və bu mülahizələri nəzərə alaraq azərbaycanlıların nə kimi bir vəziyyət almaları və nə etmələri lazım gəldiyinə keçərək, qarelərinə [oxucularına] xitabən deyir ki:

*"Bilməlisən, bu gün haqq, həqiqət də həpsi qüvvətdədir. Onun üçün, ən birinci istəyimiz olan Azərbaycanımızın müstəqil bir Hökuməti-Cümhuriyyə halında yaşanması üçün özgələrdən bir tədbir gözləməməliyiz. Bütün millət bir fərdin kəndi hüququnu tələb etdiyi kimi, böyük-kiçik, cahil-alim bu yolda kəndi qüvvəsinə güvənərək arzusunu əldə etməsi yolunda çalışmalıdır, vəilla [yoxsa] ağlamayan çocuğa süd verməzlər."*

Şübhəsiz hər kəs özünə ümidvar olmalı və müqəddəratının təəyyününü [müəyyənləşməsini] başqalarından gözləməyib, öz əlinə almalıdır. "Qonşuya ümid olan şamsız yatar" demişlərdir. Təəssüf ki, "El"çilər hələ indi başa düşürlər.

**BAKI XƏBƏRLƏRİ**

**Məktəb kitabları**

Maarif Nəzarəti tərəfindən təşkil olunmuş məktəb kitabları hazırlayan komisyon 20 günün içində aşağı siniflər üçün türkcə kitablar hazırlayıb qurtarmışdır. Bu günlərdə böyük siniflər üçün türkcə sərf-nəhv [qrammatika] və başqa kitablar hazır olacaqdır.

**Lənkəran komissarının həbsi**

İyulun 8-də "Salyanets" paraxodu ilə Salyandan Bakıya Lənkəranda Şura hökuməti təşkil edən və məhəlli [yerli] hökumətin Hərbiyyə komissarı olan Qorlin adlı bir şəxs gətirilmişdir. Qorlinin həbsi böylə vaqe olmuşdur:

İyulun 5-də Kür çayında bir lodkada 8 nəfər şübhəli adam tutulmuşdur. Onlardan 7-si həbs edilib Salyana yollanmışlar. Birisi isə saxta sənədlə Gürcüstan nümayəndəsi olduğunu söylədiyindən, azad olmuşdur.

Azad olunan Qorlin Bankəyə gəlib "Salyanets" paraxoduna minmiş, orada Lənkəran qaçqınları tərəfindən tanınmış və hökumətə təslim olunmuşdur. Qorlin hər bir şeyi boynuna almışdır. Axtarışda yanından 34 min manat pul dəxi tapılmışdır.

**Hökumət Darülfününu üçün**

Bakıda Hökumət Darülfününu [Universiteti] üçün birinci növbədə xərc olaraq Şurayi-Vükəla Maarif Nəzarəti ixtiyarına bir milyon para buraxmışdır.

**Məktəb kitabları üçün**

Türk dilində məktəb kitablarının çap olunması üçün və kağız almağa hökumət tərəfindən Maarif Nəzarəti ixtiyarına 500 min manat pul buraxılmışdır.

**Azərbaycan Dövlət Bankı**

Hökumət tərəfindən Dövlət Bankının başa gətirilməsi üçün Maliyyə Nəzarəti ixtiyarına 100 min manat para burax[ıl]mışdır.

**İngiltərə ştabından rica**

Ticarət və Sənaət [Sənaye] Nəzarəti Bakıdakı İngiltərə ştabına müraciətən rica etmişdir ki, ştab Londonla danışıb Tağıyevin fabrikası üçün bir çox maşın hissələri və materiallar almağa İngiltərəyə getmiş Ağazeynal Tağıyevə müavinət etməyi təvəqqe etsin.

**Düyü**

Ticarət və Sənaət Nəzarəti Ziraət [Əkinçilik] Nəzarətinə müraciətən rica etmişdir ki, zeyldəki [aşağıdakı] məsələləri müzakirə üçün bir mütəxəssis göndərsin:

[1)] Azərbaycan əhalisinə lazım olan düyünün miqdarı;

2) Ehtiyat düyüsü düzəltmək üçün nə qədər faiz təyin olunsun.

3) Düyü təmizlənərkən neçə faiz tələf olur.

Necə ki məlumdur ki, Ticarət və Sənaət Nəzarəti bu saat İrandan Bakıya gələn düyülərin təmizlənmək məsələsini müzakirə edir. Düyü Bakıdan və Azərbaycan içərisindən keçib tranzit təriqi [yolu] ilə başqa məmləkətlərə gedəcəkdir.

**Çörək**

Mərkəzi Ev Komitəsi xəbər verir ki, iyulun 8-dən yenə çörək bişirilib, ağ çörək 3 manat 90 qəpiyə, qara çörək 2 manat 60 qəpik və 2 manat 75 qəpik qiymətlə satılmaqdadır.

**Dəmiryolunda**

Dəmiryol hərəkatını qaydaya salan büro Maliyyə Nəzarətinə müraciətən rica etmişdir ki, tamojna [gömrük] hissəsinə baxmaq üçün bir nümayəndə göndərsin.

* * *

Avqustun 1-dən etibarən malı skorost [aşağı sürət] ilə mal göndərmək qaydası ləğv olunub, 51-52[-ci] maddə əsasları tətbiq olunacaqdır.

* * *

Dəmiryol hərəkatını qaydaya salan büronun xərci üçün hər puddan 3 qəpik xərc almaq təhti-qərara alınmışdır.

* * *

Azərbaycan Cümhuriyyəti ilə Ermənistan miyanında [arasında] əqd edilmiş [bağlanmış] olan Post və Teleqraf müqavilənaməsini Ermənistan Məclisi-Məbusanı təsdiq etmişdir.

* * *

Qafqazyadakı Ukrayna siyasi nümayəndəliyi nəzdində ateşemilitərliyə miralay [polkovnik] [Nikolay Moiseyeviç] Çexovski təyin olunmuşdur.

**Qızıl pul tutulması**

Srağagün təhərri [axtarış] polis acentləri tərəfindən naməlum bir yəhudinin Dərbəndə külli miqdarda qızıl pul aparması xəbər alınmışdır. Bakı mövqifində [stansiyasında] Petrovska [Mahaçqalaya] gedən qatarda təftiş icra edilmiş və nəticədə həman yəhudidən bir kisə qızıl və gümüş pullar tutulmuşdur. Pulun miqdarı hələ müəyyən edilməmişdir.

**Bomba tutulması**

Srağagün Kolyubakinski küçədə sabiq "Madrid" mehmanxanasında olan Parlaman qoruqçu bölüyü nəfəratından [əsgərlərindən] birisi balkondan rubəruda [üzbəüz] olan bir dükandan bir ermıninin əlində bir şey olduğunu görərək təşvişə düşmüş və onu axtardıqda kiçik bir bomba tapmışdır. Bomba alınıb özü isə həbs edilmişdir.

**Aşqabadın dağılması**

Dabravol ordusu Aşqabad şəhərindən çəkildikdə şəhərin bir çox mühüm yerlərini, elektrik mövqeyini, yaxşı evləri və qeyri bir neçə idarələri yandırmışlardır. Şəhər artıq dərəcə xəsarətə düçar olmuşdur.

**Ermənilərin dənizə tökülməsi**

Tazəşəhərdən gələn qaçqınların dediyinə görə, Tazəşəhərdən Bakıya və Petrovska gələn paroxodların birisində qaçqınlar və erməni saldatları ilə dabravol kazakların arasında toqquşma vaqe olub nəticədə kazaklar ermənilərdən bir neçəsini dənizə atmışlardır.

**Birjada**

Kerenski minlikləri qiymətdən düşməkdə davam edirlər. Lap təzələrini 1450 manata tapmaq mümkündür. Ümumi kurs isə 1300 manatdır. Xırdası əsla getməyir. Nikolay 500-lükləri çox yaxşı gedir. 500-ə 1650-1700 manat təklif edirlər. 100-lükləri 280-300-ə axtarırlar. Zaqafqaziya bonları 2 – 2 ½ faiz.

**Varid olmuş [gəlmiş] mallar**

Bakıya iyulun 7-də bu qərar ilə mal gəlmişdir: Türküstan tərəfindən tənbəki 1400 pud, pambıq 500 pud.

## AZƏRBAYCANDA

**Qarabağda**

Qarabağ, Qafqaz müsəlmanları arasında ən qədimül-əyyamdan [ən qədim zamanlardan] mərkəzi-ürfan hesab olunmaqdadır. Məşhur alimlərin, ariflərin, şa-

irlərin, qəhrəmanların, şücaətli kişilərin əksəri bu Qarabağdan vücuda gəliblər.

Qarabağın dağları, meşələri, suları, ələlümum [ümumiyyətlə] təbiəti Qafqazda birinci olduğu kimi, təbii olaraq yetişdirdiyi adamları da birincidir. Odur ki, millətin keçirməkdə olduğu tarixi günlərdə, şübhəsiz, gərək Qarabağ mühüm rollar oynaya.

Bu axırkı illərdə, ələlümum Qafqaz müsəlmanlarının və baxüsus Qarabağ müsəlmanlarının başına gələn bəlalar, keşməkeşlər bu milləti o qədər çulğalayıb cünbüşə, təlatümə gətirib ki, millətin içində olan qeyrət və namusluları hərəkətə gətirib dəyərli vücudlar meydana gətirmişdir.

Zəmanəmizin özü yetişdirdiyi dəyərli zatlardan [şəxslərdən] birisi də Qarabağda zühur etmiş Soltan bəy Muradovdur.

Rusiya hərc-mərci başlanandan sonra Qarabağda erməni dəstələri tüğyan və Andranik dəstəsi Qarabağa hücum edərək yüzlərcə müsəlman kəndlərini viran, Şuşa şəhərinə yürüş edərək Qarabağ müsəlmanlarının "ya həyat, ya məmat" [ölüm-qalım] məsələləri həll olunan bir zaman bu Soltan bəy Zəngəzur dağlarının arxasından, meşələrdən, çaylardan çıxıb üç-dörd yüz nəfər kürd ilə meydana atılaraq "Müsəlmanlara məmat [ölüm] bu qədər!" deyə millət yolunda mücahidəyə [mübarizəyə] başlamışdır.

Keçən il Andranik bir neçə min əsgərlərdən mütəşəkkil dəstə ilə Şuşaya gəlmək istəyib Qaladərəsinə çatdığı zaman, genə də Soltan bəy az bir qüvvəsi ilə Andranikin qabağını kəsib Qaladərəsində çox böyük tələfatla Andraniki qayıtmağa vadar, Qaladərəsini də həmişəlik müsəlmanlar üçün əziyyətsiz, qorxusuz etmişdir.

Soltan bəy kürdlərin arasında öylə bir geniş və həqiqi hörmət və etibar qazanmış ki, hamısının məhbubül-qülubu [ürək dostu] olmuşdur.

Soltan bəyin şücaəti, səxavəti, hünəri və bütün övsafi-həsənəsi [gözəl xüsusiyyətləri] Qarabağ müsəlmanları arasında böyük bir şöhrət tapıb, cümlənin tərif və afərinlərinə məzhər [nail] olmuşdur.

Hökumət tərəfindən Qarabağa general-qubernator təyin olunandan sonra Zəngəzurda milli milisiya təşkil edilmək lazım görülmüşdü. Bu ağır və məsuliyyətli vəzifəni də, genə Soltan bəy öhdəsinə almışdır. Soltan bəy Zəngəzurda milis naçalniki təyin olunan üç-dörd ay tamam deyil, bu bir az zamanda istirahəti, adi həyatını unudub, gecə-gündüz bu yolda işləyərək, bu anda 2000 nəfərə yavuq təlim görmüş nizami milis dəstəsi hazırlamağa müvəffəq olmuşdur.

Zahiri nəzəri ilə iş asan və zəhmətsiz bir şey görünür. Lakin Zəngəzurda yaşayan kürd camaatını tanıyanlar onların həyati-ictimaiyyələrindən, əhvali-ruhiyyələrindən xəbərdar olanlar indi gəlib "kürd dəstəsini" görsələr, yəqinimdir ki, Soltan bəyin bu yolda çəkdiyi zəhmətləri təqdir edəcəklər.

Ən şücaətli, ən dilavər [ürəkli] və layiqli cavanlardan mütəşəkkil bu "kürd dəstəsi" demək olar ki, Qarabağ üçün böyük bir nemətdir.

"Kürd dəstəsi" olmasaydı, yəqinimdir ki, bu günə kimi Qarabağ müsəlmanları yenə bir çox əziyyətlərə, bəlalara giriftar olacaqdılar.

Dəstə nəfəratının [əsgərlərinin] göstərdiyi şücaətlər, Azərbaycan Hökumətinə indiki xidmətlər və bununla belə xülusi-qəlb ilə [təmiz qəlblə, sədaqətlə] daşıdıqları ağır vəzifələr heç vaxt onların hökumətdən aldıqları aylıq məvaciblərinin bahası deyildir. Milisiyadakı kürd ancaq vətən və milliyyət pərəstarlığı [qulluğu] qəsdi ilə, öz millət qardaşlarına kömək etmək fikri ilə, çiyinlərinə "Azərbaycan-kürd" kəlmələrini yazıb, hökumətə xülusi-qəlb ilə xidmət edirlər. Bunların hamısı Soltan bəyin zəhmət və məşəqqətlərinin gözəl nəticəsidir.

Soltan bəy milli qəhrəmandır. Ona görə də, millət onu sevir, onun namı [adı] ilə özünü hər bir bəlaya uğrayır. Və cümlə düşmənlərin qarşısına durmağa öz hazırlığını izhar edir.

Soltan bəy təkdir. Bir neçə Soltan bəylərə malik olsaydıq, deyə bilərdim ki, bundan sonra dəxi millətimizin, vətənimizin qorxusu yoxdur.

*M. S.*

**İtibdir**

Əsəd Molla Hüseyn oğlunun Şamaxıdan aldığı pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5426*

**İtibdir**

Heydər Kərbəlayı Əbdüləli oğlunun Şamaxıdan aldığı pasportu itibdir. Etibardan saqitdir.

*5419*

**İtibdir**

Hüseyn Qasım oğlunun Lənkərandan aldığı 5 illik pasportu itib. Etibardan saqitdir.

*5421*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla ümuma elan edir ki:

1) Bakı Azərbaycan dəmiryollarından gələn yüklər üçün pud vergisi bu gündən Nəzarətdə qəbul olunmayıb, Bakı birinci istasyonunda qəbul olunacaqdır.

2) Dəniz təriqi [yolu] ilə gələn yüklər üçün isə pud vergisi Vostoçnı Obşestvanın 22-ci körpüsündə qəbul olunacaqdır.

*T-171*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Ucuz satılır**

Yekaterinodardan alınmış əla sarı sabun, yeşiyi 2 pud, partiya ilə satılır. Adres: Mehmanxana "Bolşoy Moskovski", nömrə 26. Səhər saat 9-dan 12-yədək və axşam saat 3-dən 5-ədək.

*Əliverdiyev*
*5417*

**Elan**

Cümə günü iyul ayının 11-də axşam saat 6-da Şəhər Dumasının kiçik zalında İrəvan Quberniyası Həmtorpaqlılar Cəmiyyəti üzvlərinin ümumi iclası təyin olunmuşdur.

*İdarədən*
*5423*





**Satılır**

Ucuz qiymətə ingilis malından hər cür hazır kostyumlar, Busloviçin mağazasında. Korçakovski nömrə 12, telefon nömrə 24-70.

*5406*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Qəzetələrdən**

səh. 187. "Avamlar Kamerası": ikipalatalı Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası.

**Dağıstanda**

səh. 191. "qövldən feilə çıxarmaq": qəzetdə "qövldən" yerinə "qüvvədən" getmişdir.

**Xarici siyasətimiz**

səh. 197. "İki qonşu dövlətin tərəqqisi": mətndə "iki" yerinə "ikinci" getmişdir.

"rahatlıq və asayiş doğura bilər": qəzetdə "doğura bilər" yerinə "doğura bilməz" getmişdir.

**Bakı xəbərləri**

səh. 199. "Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

**Azərbaycanda**

səh. 201. "M. S.": bu imza Məhəmməd Sadıq Axundzadəyə (Aran) məxsusdur.


آذربایجان

***"Azərbaycan" qəzetinin 223-cü nömrəsinin 1-ci səhifəsi***





**Bazar, 13 iyul 1919-cu il, nömrə 223**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 14 şəvvalül-mükərrəm sənə 1337. 13 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERETTA**
Zülfüqar bəy və Üzeyir bəy
Qardaşlarının
Müdiriyyəti
Yekşənbə [bazar] günü,
şəvvalül-mükərrəm ayının 14-də
(iyul ayının 13-də 1919-cu ildə)
şükuhlu [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin
**"O olmasın, bu olsun"**
operası.
Biletlər indidən teatronun
kassasında satılmaqdadır.
Tamaşa başlanacaq
axşam saat 9-un yarısında.

**Cəmiyyəti-Maarifi-İraniyan "Tərəqqi"-nin** idarəsi bu gündən etibarən açıqdır. Üzv yazılmaq və məlumat bilmək istəyən zəvat hər gün axşam saat 4-dən 7-dək "İttihad" mədrəsəsində (Qubernski 37) cəmiyyətin idarəsinə müraciət edə bilərlər.

*Heyəti-idarə*
*5424*

**AZƏRBAYCAN**
**KAZYONNI PALATASI**

Bununla elan edir ki, Azərbaycan Parlamanının 23 iyun 1919-cu ildə təsdiq eylədiyi qanuna görə, vergi naloqu verənlərin mədaxili beş mindən (5000) yuxarı olmayanlar həmin naloqu verməkdən azad edilirlər. O şəxslər ki, mədaxilləri 1918-ci ildə beş mindən (5000) yuxarı olmuş, uçastkovı komitələrin vergi naloqu şöbəsinə ərzihal verib, 1918-ci ildəki mədaxilləri lazım olan qayda üzrə göstərmələri üçün dəvət olunurlar. Ərzihal yazmaq üçün lazım olan vərəqələri Kazyonnı Palatada və podatnoy inspektorlardan almaq olar.

*T-175*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Dəmiryol Nəzarətindən**
*Əmrnamə nömrə 63*
29 iyun 1919

İşbu iyunun 24-də 4-cü uçastok mühafizə naçalniki məlumat almışdır ki, Volodya ləqəbində sabiq xəfiyyə polis

agenti məşhur oğru başqa yoldaşları ilə bərabər bir evdən 28 min rublə Nikolay pulları oğurladıqlarına görə polisə əlinə keçməmək üçün gizlənib, vağzal binasındadırlar. Dərhal 4-cü uçastok mühafizə naçalniki müavini Əhmədxanova əmr edilmişdir ki, vağzal binasını mühasirəyə alsın. Nəticədə məzkur [adı çəkilən] Volodya öz yoldaşı Kalantaraşvili ilə bərabər, mühafizə məmurlarının həyatları təhlükədə olmaqla bərabər ittixaz edilən [görülən] ciddi tədbirlər sayəsində həbs edilmişlərdir. Kalantaraşvilidən bir mauzer tapançası tutulmuşdur. Tutulan oğrular mühafizə naçalniki müavini Əhmədxanov tərəfindən bəratülqövl [protokol] yazan Məhəmməd Məhəmmədov və mühafizə məmuru Kazım Bağırovun məiyyəti [müşayiəti] ilə təhərri [axtarış] polisəsinə gətirilmişlərdir.

4-cü uçastok mühafizə qulluqçuları öz vəzifələrini bu cür sədaqətlə ifa etdiklərindən, xidmət namından onlara razılıq izhar edirəm.

*Əmrnamə nömrə 64*

29 iyun 1919

5-ci uçastok mühafizə naçalniki iyunun 23-də 972 nömrəli məktubu ilə Petrovsk [Mahaçqala] əhli İsaq Nasiyev tərəfindən 12 tay tumac dərisi aparmağa icazə almaq üçün Yalama istasyonu mühafizə qulluqçuları Mirkazım Babayevə və Abdulla Hüseynova hər birinə 2 min rublə olaraq verdiyi 4 min rublə rüşvəti mənə göndərmişdir. Məzkur [deyilən] mühafizə qulluqçuları həman dəriləri tutub, aldıqları rüşvəti də naçalnikə verdikləri, bu surətlə də mühafizə qulluqçuları Babayev və Hüseynov öz vəzifələrini bu cür sədaqətlə ifa etdiklərindən xidmət namından onlara razılıq izhar edib onların hər birinə 200 rublə bəxşiş verilməsinə icazə verirəm.

*Yollar naçalniki mühəndis:*
*T[eymur bəy] Məlikaslanov*
*Mühafizə naçalniki əvəzinə:*
*[Osman] Mirzəbəyov*

*Əmrnamə nömrə 65*

30 iyun 1919

Müşahidə edilmişdir ki, mühafizə xidmətçilərindən bir çoxu öz vəziyyətlərindən istifadə edərək sərnişinləri, başqa köməksiz adamları, həmçinin tutduqları caniləri döyüb təhqir edirlər. Mühafizə xidmətçilərinin bundan belə bu cür hərəkətlərinə təhəmmül edilməyəcəkdir [dözülməyəcəkdir]. Mühafizə xidmətçiləri Cümhuriyyət vətəndaşlarına əziyyət etmək üçün deyil, bəlkə onların, həmçinin hökumətin mənafeyini mühafizə üçün qoyulmuşlardır. Bu – cinayətdə müttəhim edilib mühafizə xidmətçiləri tərəfindən tutulan adamlar, o cümlədən mühüm canilər qanuna görə məhkəmə məmurlarına verilməlidirlər. Məhkəmə məmurları da onlarla qanuna görə rəftar edərlər. Bu cür tutulan adamları dəxi döyüb təhqir etməməlidir. Naçalniklərə, həmçinin onlara tabe olan mühafizə xidmətçilərinə xəbər verirəm ki, hərgah onlardan biri bu əmr elan edilən gündən camaatla nahəmvar [kobud] bir surətdə rəftar edilməkdə, xüsusən adam döyməkdə müttəhim edilsələr, bu cür xidmətçilər dərhal xidmətdən kənar edilməklə bərabər, məhkəməyə veriləcəklərdir. Özlərini təmizə çıxarmaqdan ötrü heç bir ərzi-hal [ərizə, müraciət] tərəfimdən qəbul edilməyəcəkdir.

*Azərbaycan Dəmiryolları*
*idarəsinin mühafizə naçalniki:*
*[Xanbaba bəy] Sədrəddinbəyov*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 7 iyul iclası

*(keçən nömrədən mabəd)*

**Qarabəyli Qarabəy** - (İttihad) *(Qarabağ hadisatı [hadisələri] haqqında məruzəsinə davam edir.)*

Ayın 5-də şəhərdə atışma sakit olub, hərdənbir güllə atılmaqda ikən, saat 12 radələrində Qaybalı adlı erməni kəndinə hücum edilmişdir. Məzkur [adı çəkilən] kənd 60-65 tüstü [ev] ermənidən və 15-ə qədər tüstü müsəlmandan ibarətdir. Şəhərin 3-4 verst cənub-qərbində bir dərədə vaqedir. Kənd general-qubernatorun evindən görükməyir. Həman kəndin müsəlman əhalisi qabaqkı binizamlıqlar əsnasında kənddən qovulub evləri yandırılmış olduğundan şimdi orada müsəlman olmayır.

Qaybalı kəndinin müsəlman əhalisi oranın yaxınlığındakı 7-8 kənddən ibarət Xəlifəlilərə köçmüşdür. Görünür ki, şəhərdə atışma başlandıqda məzkur kəndlərin əhalisi şəhərə köməyə, yainki bəlkə də qarətə gəlmək istəmişdir. (Özləri deyirlər müsəlman qardaşlarına köməyə gəlirmişlər.) Yolda Qaybalı kəndinə hücum etmişlərdir.

Şəhərin bundan xəbəri olmamış. Ancaq saat 12-1-də şəhərdən və qubernatorun evindən görmüşlər ki, dərədən tüstü çıxır. Şəhərdə müxtəlif şayiələr dövran edirmiş. Çox danışırlarmış ki, ətraf erməni kəndlərindən şəhərin üstünə böyük qüvvə gəlir.

Ordumuzun ərkani-hərbi [qərargahı] iqamət edən [yerləşən] Xankəndindən də general-qubernatora bu məzmunda xəbər verilmişdir. Ümumiyyətlə şəhərin ətrafında vüqu bulmaqda olan hadisat haqqında ibtidada heç kəsə doğru bir şey məlum deyilmiş. Böylə şayiələrin intişarından [yayılmasından] dolayı general-qubernator hər növ ehtimala qarşı hazır olmaq məcburiyyətində bulunduğundan, Xankənddəki qoşun heç yerə göndərilə və dağıdıla bilməzdi.

Tüstü görükdükdən və ingilis heyəti vasitəsilə erməni mənabeyindən [mənbələrindən] Qaybalıya hücum edildiyi xəbəri alındıqdan sonra general-qubernator əhvalı öyrənmək və hadisəni yatırmaq üçün oraya adam göndərilməsi haqqında binagüzarlıq etmişdir [sərəncam vermişdir]. Fəqət şəhərdəki erməni səngərlərindən yol gülləyə basıldığından general-qubernatorun adamları yaxın yol ilə gedə bilməyib, Xankəndi təriqi [yolu] ilə 12-13 verstlik dolama yol ilə getməyə məcbur olmuşlardır. Fəqət məhəllinə [yerinə] vaxtında çatmamışlardır. Çünki kəndin üstünə gəlmiş olan külli miqdarlı müsəlman 3-4 saat içində kəndi işğal və talan edərək evləri yandırmış və əllərinə düşən erməniləri tamamilə qırmışlardır. General-qubernatorun adamları ilə Xankəndindən zabit Əli bəyin komandası altında göndərilmiş olan əsgərlər daha

kəndə bir kömək edə bilməyərək ancaq kollarda gizlənmiş və qaçmış olan 57 erməni yığıb Xankəndinə, oradan da general-qubernatorun yanına gətirə bilmişlərdir. Burada həman ermənilərə yemək-içmək verib, sonra da ermənistana [Şuşanın ermənilər yaşayan hissəsinə] yola salmışlardır. (Bunu mütəzərrir olan [zərər çəkən] ermənilər dəxi təyid [təsdiq] edirlər.) Gərək general-qubernator, gərəksə Xankəndindəki əsgərlər Qaybalıya ondan artıq kömək edə bilməzlərdi.

Ayın 6-da şəhərin 30-35 verstliyində bulunan uzaq kəndlərdən külli miqdarda kürd dəstələri şəhərə gəlmək istəmiş, fəqət general-qubernatorun əmri ilə şəhərə buraxılmayaraq dayandırılmışlardır.

Kürdlər Qaybalının, ya sair erməni kəndlərinin dağıdılmasında iştirak edə bilməzlərdi. Yaxın kəndlərdən yığılmış olan dəstələr şəhərin altındakı Daşaltı, Daşkənd və sair erməni kəndlərini dağıtmaq istəmişlərsə də, general-qubernator onların müqabilinə qoşun və pulemyot göndərərək qayıdıb getmələrini əmr etmiş və qoşuna əmr etmişdir ki, əgər öz xahişləri ilə qayıdıb getməsələr, pulemyot atəşi ilə qovsunlar.

Bu surətlə, ayın 5-də şəhərdə atışma davam edərək, hökumətin ətrafdan bixəbər olduğundan bilistifadə [istifadə edərək] kəndlərə hücum edən dəstələr[in] dağıda bilmədikləri kəndlər tamamilə mühafizə edilmiş və salamat qalmışlardır.

Bir də həman dəstələr Kərkicahan adlı erməni kəndini yandırmış, dağıtmışlardır. Kərkicahanın əhalisi qabaqcadan Xankəndinə aparılmış və orada Azərbaycan qoşununun mühafizəsi altında qalmışdır. Çünki Xankəndi əsgərlərindən Kərkicahana az bir miqdarda mühafizə əsgəri verilmiş imiş. Əsgərlər özlərinin az olduqlarını və şayəd kəndə böyük bir dəstə hücum edərsə müqavimət göstərə bilməyəcəyini dərklə, qabaqcadan ermənilərə təklif etmişlər ki, şeylərini qonşu müsəlmanlara əmanət verərək (həman kəndin əhalisi qarışıq olub, həm erməni var, həm müsəlman) özləri qorxusuz bir yerə köçsünlər. Bunlardan əlavə, 15 tüstüdən ibarət olan Bəhlul adlı digər bir erməni kəndi də yandırılmışdır. Fəqət burada əsla insan tələfatı olmamışdır. Çünki əhalisi davadan qabaq yaxın erməni kəndlərinə köçmüş imiş.

Miqdarı 3000-dən ziyadə olan kürdlər şəhərə buraxılmayıb, 18 verstlikdə Mıxtökən adlı dağda dayandırılmışlardır. Ancaq 50-60 nəfəri ayın 6-da şəhərə girmiş, lakin onlar da tezliklə şəhərdən çıxarılmışlardır. Görünür ki, kürdlər heç müsadimədə [toqquşmada] iştirak etməmişlərdir, çünki davalardan və talandan sonra gəlib çıxmışlardır. Bu davalarda kürdlərin iştirak etmədiklərinə çox dəlillər vardır. Əzcümlə [o cümlədən] burası var ki, Daşkənd qabağında 4 müsəlman öldürülmüşdür, bunlardan heç biri kürd deyil, yaxın kəndlərin əhalisindən imiş.

Kürdlərin ancaq ayın 6-da axşam çağı gəlib çıxdıqları sübut edir ki, hökumət, yainki yerli camaat qabaqcadan kürdlərə xəbər verməmiş və kömək istəməmişlərdir. Çünki o halda kürdlər əhvaldan xəbərdar olaraq tez bir zamanda cəmləşib şəhər üzərinə gedə bilərlərdi. İstər atlı, istər piyada, kürdlər üçün yığışmaq, cəm olmaq şəhərə yollanmaq öylə ağır bir şey deyildir. Bir şey oldumu tüfəngini götürüb, atını minib avtomobil sürəti ilə müəyyən yerə gələcəkdir. Piyadaları da atlı qədər cəld gəlirlər.

Qaybalı kəndi Xankəndinin 5-6 verstliyindədir və oradan görükməyir. Bu iki kəndin arasında bir dağ var. Kərkicahan kəndinin də əhalisi qabaqcadan Xankəndinə daşınmış olduğundan, qoşun boş Kərkicahana o qədər diqqət verəmməzdi. Bilxassə Xankəndində öylə bir qüvvə saxlamaq lazım gəlirdi ki, şayəd ərkani-hərbə hücum və yolu kəsməyə sui-qəsd ediləcək olarsa, müdafiəyə qadir olsun. Hücum icrası və yolun kəsilməsi isə ehtimal daxilində idi. Ona görədir ki, Xankəndindəki az miqdarlı qoşun uzaqdakı kəndlərin müdafiəsi üçün heç vaxt dəstələr ayıra bilməzdi.

Ümumiyyətlə, heyətin əldə edə bildiyi məlumat əsası ilə denilə bilər ki, təqribən Qarabağ hadisatı bundan ibarətdir. Müəssif [təəssüflü] hadisənin səbəbi bütün Qarabağ və xüsusən Şuşa şəhərinin məruz qalmış və qalmaqda olduğu belə qeyri-adi vəziyyətdir. Orada iki hökumət vardı. Şəhərin erməni qismi, erməni kəndləri və ümum erməni dairələrini Erməni Milli Şurası idarə edirdi. Müsəlman hissələri isə, çoxdan bəri öz bəyannaməsi ilə Sülh Konfransının qərarınadək Qarabağın Azərbaycan Hökumətinə tabe olmalı olduğunu bizə də, ermənilərə də elan etmiş olan İngiltərə Komandanlığının rizası ilə Azərbaycan Hökuməti tərəfindən təyin edilmiş general-qubernator tərəfindən idarə edilirdi. Naxçıvanı və İrəvan quberniyasının sair uyezdlərini və Qars oblastını erməni hökuməti təhti-idarəsinə [tabeliyinə] verib də o yerlərə erməni qoşunu sövq etmiş olan İngiltərə Komandanlığı, bu vaxtadək Qarabağ haqqındakı vədinə əməl etməmişdir. General-qubernatorun məhəlli-iqaməti [yerləşdiyi yer] olan Şuşa şəhərinin yarısı Azərbaycan Hökumətini qəbul etməyərək, hətta qulluq işi üçün ermənistana [şəhərin ermənilər yaşayan hissəsinə] gedən əsgərlərin silahını alırdılar. Qarabağı Ermənistana ilhaq etmək [birləşdirmək] xəyalında olan erməni hökumətinin məqsədinə xidmət edən əşqiya [quldur] dəstəsi əlindən yollar rahat və salamat deyildi. Müsəlmanlarla məskun olan bəzi dairələrin bütün dünyadan əlaqəsi kəsildi. Baş şose yolunda müsafirlərə hücum edilir, gəlib-gedənlər atəşə tutulur, fürsət məqamında erməni əlinə düşən müsəlmanlar 7-9 nəfərlik dəstələrlə qeyb olurdular. Kəndlərdən Şuşa şəhərinə müsəlləh [silahlı] erməni əşqiya dəstələri gələrək ermənistanda həyatı öz təsərrüflərinə [idarələrinə] alır, dinc əhalini dəhşətlərə salır və müsəlmanlara etdikləri zülüm və cəfadan məsul olmayırdılar. Azərbaycan Hökumət nümayəndəsi bu ya o cinayətin müqəssirlərini tələblə müraciət etdikdə ingilislər vədlər verib ancaq müxtəlif təsvirlərlə iktifa [kifayət] edirdi. Halbuki eyni zamanda müsəlmanlar heyətin fəaliyyətsizliyindən narazı qalaraq həyəcana gəlir, həyat və əmlakının təmin olunmasını öz hökumətindən tələb edirlərdi. Buna görə, şəhər ətrafında gəzib dolaşmaqda olan müsəlləh erməni əşqiyasını şəhərə buraxmamaq və Qarabağın üç qəzasının on minlərcə köçərilərinə rahat gəlib keçməyi təmin qəsdi ilə general-qubernator şəhər və yollar üzərində hökmfərma olan [hakim mövqe tutan] iki mövqeyi işğal etməyi lazım bil-

mişdir. Eyni zamanda xəzinə ilə post-teleqraf idarəsini ermənistandan müsəlmanıstana köçürmüşdür.

Gərək müsəlmanların, gərəksə ermənilərin və rus zabitlərinin verdikləri məlumat göstərir ki, bizim hökuməti Qarabağ hadisəsini qabaqcadan hazırlamaqla təqsirləndirmək olmaz. Hətta müsəlmanlar hökumətdən çox narazıdırlar ki, hadisata çox loyalnı nəzərlə baxıb erməniləri müdafiə edir. Müsəlmanlar asudə yaşamaq imkanından məhrum olaraq və ermənilərin də onlara qarşı təcavüzkaranə hərəkatını bilərək hökumət nümayəndəsinin tədbirlərindən narazı qalırlar. Müsəlmanlar hətta ermənilərə ərzaq satmaq istəməyirlər. Çünki ermənilər Azərbaycan Hökumətini qəbul etmədikləri halda, külli miqdarda ərzaq alıb hökumət və camaat əleyhinə işləyən əşqiya [quldur] dəstələrini saxlayırlar. Bununla da bir yandan təcavüzkar ünsürə müzahirət [yardım] edir, digər tərəfdən də ərzağın bahalaşmasına bais olurlar.

General-qubernator erməniləri boykot etməmişdir. Bu xüsusda nə şifahi, nə təhriri [yazılı] əmr verilmişdir. Fəqət icbari tədabir [tədbirlər] olmaq üzrə əhalinin özü elan etdiyi boykota mane də olmamışdır. Boykotdan qabaq ermənilər baha qiymətlə çox mal alırmışlar. Amma ondan sonra, Qarabağdan taxıl ixracı mən [qadağan] edilmiş və ermənilərə taxıl az miqdarda buraxılmışdır.

Ermənilər miyanında [arasında] yepiskop Vağan (baş ruhani), Qriqori Kalantarov (sabiq Bələdiyyə rəisi), Ruben Şahnazarov (edadiyyə müəllimi) kimi möhtərəm zəvat [şəxslər] qəti surətdə bəyan edirlər ki, Şuşa hadisəsinə səbəb və bais general-qubernator deyildir. Onlar ancaq deyirlər ki, general-qubernator Qarabağı Azərbaycana tabe etmək qəsdi ilə öz qüvvəsini göstərmək, ya müqavimətin önünü almaq üçün bir nümayiş əmələ gətirmək istəmiş ola bilər. Fəqət bu iş bir nümayiş olsa da, yalnız ermənilər haqqında deyil, müsəlmanların da cilovunu çəkmək üçündür. Heç bir təcavüzə məhəl [yer] buraxmamaq barəsində verilmiş olan bir çox əmrnamələr dəxi bunu isbat edirlər.

Bunlardan əlavə, Qarabağ yollarında bütün mal və heyvan ilə on minlərcə silahsız köçərilər bulunduğu və dava günü müsəlmanların körpə uşaqlarının həpsi ermənistana məktəbə getdikləri aydın göstərir ki, general-qubernatorun dava eyləmək, ya ixtilaf çıxarmaq fikri yox imiş. Əgər böylə fikri olsaydı, barı uşaqları məktəbə buraxmazdılar.

Bizim orduda xidmət etməklə vicdanlarını da bizə satmamış olduqları yaxşı məlum olan rus zabitlərinin də göstərdiyindən anlaşılır ki, general-qubernatorun bütün fəaliyyəti ancaq əhalinin həyat və əmlakını təmin uğrunda sırf hüquqi və qanuni tədbirlərdən ibarət olmuşdur. Əlimizdə olan bütün dəlillər bunu isbat edir.

Fəqət general-qubernatorun böylə qanuni tədbirləri və yuxarıda zikr olunan nöqtələrin işğalı erməni başçılarının irticasına bais olmuşdur. Onlar qoşun müqabilinə müsəlləh qüvvə ilə çıxmağı qərarlaşdırmışlardır və nəticədə müəssif [təəssüflü] hadisə baş verərək Qaybalı, Kərkicahan və Bəhlul kəndləri mütəzərrir olmuşdur [ziyan çəkmişdir]. (Kərkicahan və Bəhlul kəndlərində tələfat olmamışdır, Qaybalıda isə tələfat olmuşdur, amma hesabı məlum deyildir, çün qaçıb salamat qurtaranlar dəxi var, bunların da miqdarı təyin edilməmişdir.) General-qubernatorun hərəkəti hökuməti möhkəmləşdirmək və əhalinin rifahi-halını təmin etmək üçün icra olunmuş sırf zəbtiyyə tədabirindən [asayiş tədbirlərindən] ibarət olmuşdur.

Heç kəs və əzcümlə [o cümlədən] general-qubernator heç vaxt təsəvvür edə bilməzdi ki, bəzi ağılsızlar böyük əsgəri və mülki qüvvələrə müqavimət edib atışmaya girişəcək və nəticədə 1 əsgər ölüb 5 nəfəri yaralanacaq və burası bir qığılcım olub alovlandıracaqdır. General-qubernator bu ya o qanuni tədbirlər görə bilmək üçün özünü lazımınca güclü hesab edirdi. Böylə yanğın əmələ gələcəyini heç təsəvvür etməz, fikrinə gətirməzdi. Hətta gətirmək istəməzdi. Çünki o zaman şəhər təriqi [yolu] ilə köçərilər bütün mal-heyvanları ilə gedirdi və onlar hər iki tərəfdən ermənilər tərəfindən atəşə tutularaq böyük xəsarətlərə düçar ola bilərlərdi. Buna görə, ağlına gəlməzdi ki, şəhər hadisəsini bilərək ətraf kəndlərdən müsəlmanlar şəhərə hücum edib, yolda da erməni kəndlərini məhv edərlər, yainki uzaq kəndlərdən minlərcə kürd (həmişə etdikləri kimi) müsəlman qardaşlarının köməyinə gələcəkdir, tainki, əvvəla bunların önünü almaq, sonra da kənardakı talanı təsviyə etmək [aradan qaldırmaq] üçün tədbirlər görülə idi.

Xankəndində duran əsgəri qüvvələr dəxi erməni kəndlərinin xilası üçün geniş tədabir görə bilməzlərdi. Çünki əvvəla hadisat haqqında vaxtlı-vaxtında məlumat alammayırdı, saniyən [ikincisi] də Xankəndinə və şəhərə böyük erməni dəstələri hücumu haqqında şaye olan [yayılan] müxtəlif xəbərlər onları vadar etmişdir ki, ehtimal daxilində olmaq üzrə bu hadisat böyük bir davaya mübəddəl olduğu [çevrildiyi] təqdirdə hiss ediləcək bir qüvvə olmaq üzrə hazır dursunlar.

Davanın üçüncü günü şəhər ətrafına gəlmiş olan 3000 kürd məsələsinə gəlincə, general-qubernatora hadisatı qabaqca bilərək onları dəvət etmək lazım deyildi. (Hətta general-qubernator hadisəni qabaqca görməz və görmək istəməzdi.) Onlar şəhər hadisatı haqqında kənardan xəbərdar olaraq yığışıb gələ bilər. Çünki şəhərdən o kəndlərə 30-35 verstdir.

Bu surətlə biz təkid ediriz ki, general-qubernatorun qabaqcadan düşünülmüş, təyin edilmiş talan planı yox imiş. Ancaq qanlı müsadimə [toqquşma] və müqavimət imkanını təsəvvür belə etməyərək böyük gücünü nümayiş etdirməklə ən sülhcuyanə [sülhpərvər] bir surətdə əhali və köçərilərin rahatını təmin və Azərbaycan Hökumətini tətbiq və təşmil [şamil etmək] arzusunda imiş.

General-qubernator erməniləri hifz etmək üçün hər növ əldə olan tədbirləri görmüş və hər vəsilə [vasitə] ilə çalışmışdır və qoymamışdır ki, Yevlaxdan başlamış Şuşayadək bütün erməni dairələri tamamilə məhv olsun. Halbuki binagüzarlığında olan qüvvə ilə bunu etmək pək asan idi. Bu həqiqəti ermənilər özləri də etiraf edirlər və onlardan heç birisi general-qubernatoru sui-niyyətlə və müntəzəmən erməniləri məhv etmək fikri ilə ittiham etməyirlər. Bitərəf, xüsusi məqsədə xidmət etməyən, Ararat siyasətçiləri

məbuduna tabe olmayan möhtərəm ermənilər (məsələn, yepiskop Vağan, 11 il qlava olmuş Kalantarov və daşnak məktəbinə mənsub olmayan ciddi siyasi xadimlərdən Şahnazarov) dəxi öz səmimi və düzgün bəyanatlarında bu əmri [işi] qəti surətdə təyid [doğrulamış] və təsdiq etmişlərdir.

Hər kəs bu dəlil və sübutlara diqqət versə anlar ki, çalışqan, iş bilən, ermənilərə qarşı xeyirxah, bütün Qarabağ müsəlmanlarının ehtiram və təziminə məzhər [nail] olub, Qarabağda az zaman xidmət etməklə həyatı təcdid [bərpa] etmiş, hər şeyi qaydaya salmış olan general-qubernator əleyhinə necə murdar, çirkli yalanlar, iftiralar söylənir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Xarkov və Vladiqafqaz altında**

Şimali Qafqaziyadan varid olmuş [gəlmiş] bir zat Vladiqafqaz və Petrovsk [Mahaçqala] şəhərlərində bu cür bəyannamələrin yapışdırıldığını söyləyir:

İyul ayının 8-də sövqülceyş [strateji] nöqteyi-nəzəri ilə Dabravol ordusu tərəfindən Xarkov şəhəri tərk edilmişdir. Qoşunlarımız Merefa mövqifi [stansiyası] yaxınlığında əvvəlcə hazırlanmış səngərlərə çəkdirilmişlər. Kolçak xəttindən azad olan Şura qoşunları bütün cənub xəttində həmləyə keçmişlərdir. İnquşların arasında osetin və ruslar da vardır. Qroznıya və Vladiqafqaza yürüş etmişlərdir. Bu yerlərdə dabravollarla qızğın müharibə davam edir. Yekaterinoslav [Dnepr] və Belqorod səmtində xətti-hərb çox uzandığı üçün qoşunlarımızı bir yerə cəmləşdiririk.

**Petroqradın halı**

Stokholm - Petroqraddan xəbər verilir ki, orada idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi rejim] elan edilibdir. Restoran, kinematoqraflar və sair təfərrücgahlar [əyləncə yerləri] bağlanmışdır. Casusluq dəhşətli hal kəsb eyləmişdir [hal almışdır].

Zinovyev nitq irad edərkən [söyləyərkən] demişdir: Yalnız burjuaziyanı deyil, proletariatı təqib etməlidirlər. Çünki əksinqilabçılar getdikcə artır.

Flotun bir hissəsi Neva nəhri üzərində dayanmışdır. Zənn edilir ki, hücum edildiyi təqdirdə bu paroxodlar qərq ediləcəkdir ki, düşmən gəmilərinin keçməsinə mane olsunlar. Görünür ki, bolşeviklər Petroqradı müdafiəyə hazırlaşırlar.

**Petroqrad altında**

London - Estonların məlumatında denilir ki, Qatçina dairəsində müharibə davam edir. Dəmiryolun şimal tərəfində biz 400 nəfər əsir almışıq.

**İngiltərədə tətil**

Paris - Kömür mədən əmələləri şuraları 8 saatlıq iş vaxtından narazı qalaraq qərar qoymuşlar ki, iyulun 16-dan etibarən əmələlər ümumi tətil etməlidirlər. Siyamez Konqresi də eyni qərara gəlmişdir. Birinci zəruri şeylərin bahalandığını Konqre müzakirə edərək bəyan eyləmişdir ki, Əlcəzirə [Əlcəzair] sahillərində min tonlarla buğdalar çürüyür, külli mal sahilə atılmışdır. Eyni zamanda həmi gəmilər, həmi də dəmiryolları bunları daşımaq üçün iş görməyirlər.





**Parisdə tətil**

Parisdə tətil edən əmələlərin miqdarı artır. Hökumət nümayəndələri ilə əmələ nümayəndələri tətil xüsusunda müsahibədə bulunmuşlardır.

**Odessanın işğalı**

Bolşeviklərlə mübarizə edən qüvvənin komandanı general [Nikifor] Qriqoryev xəbər verir ki, qanlı müharibədən sonra onun qoşunları Odessaya daxil olmuşlardır.

* İngiltərə Qafqaziyanın istilasını İtaliyaya vagüzar eyləmişdir [tapşırmışdır]. İtaliyaya bu xüsusda mandat verilmişdir.

**İngiltərədə əmələlər üsyanı**

London - Parça fabrika əmələləri arasında başlanmış olan üsyan Eşton-ander-Layn, Stalibric və Dukinfildə keçmişdir. Güclü dəstələr ki, əksəri arvadlardandır, küçələri kəsib evlərin pəncərələrini sındırırlar.

**Petroqrad üzərinə hücum**

Kopenhaq - Estonlar Şərqi Litvada Dvinaya keçib Uzeli işğal etmişdirlər.

**Çində üsyan**

Pekindən iyulun 6-sı tarixi ilə xəbər verilir: Şanton xüsusunda olan Sülh Konfransının qərarı bütün Çin ölkəsində çinlilərin həyəcanına səbəb olmuşdur. Studentlər küçələrdə nitq irad edib əhalini qızışdırırlar. Pekində polis min nəfər studentləri həbs eyləmişdir. Şanxay və Tyanszində Çin mağaza və banklar[ı] bağlanmışdır. Bu da studentlərin həbs edilmələrinə qarşı protestodur. Yapon mallarının yandırılması davam edir. Bu gün studentlər azad edilmişlərdir.

**Türkiyə qoşunları**

Fransanın mənabeyi-rəsmiyyəsindən [rəsmi mənbələrindən] alınan məlumata görə, top, pulemyot və sair ləvazimihərbiyyə [hərbi ləvazimat] ilə bərabər türklər Asiyayi-süğraya [Kiçik Asiyaya, Anadoluya] 40 min qoşun yeritmişlər. Əmr alınmışdır ki, Ənvər paşanı bu qoşunların komandanlığı[nı] qəbul etməyə razı etsinlər.

* Kursk şəhər əhalisinin halı möhkəmdir. Ümumi səfərbərlik elan edilmişdir. Şəhər möhkəmləşir. Denikin bandası hücum edəcəyi təqdirdə şəhər əhalisi çıxışa başlayacaqlardır.

Roma - İtaliya matrosları tətil hədəsi ilə tələb etmişlər ki, bolşeviklərlə mübarizədən ötrü Denikin ordusu üçün paroxoda yüklənən silahların yüklənməsi tərk edilsin. İtaliya hökuməti matrosların tələbinə əməl etməyə məcbur olub demişdir ki, silah yüklədilən paroxod adi reys ilə səfərə gedəcək, Dabravol ordusu üçün silah göndərilməyəcəkdir. Bu münasibətlə İtaliya sosialistlərinə mənsub olan "Avanti" qəzetəsi yazır ki: Bu göstərir ki, heç bir İtaliya gəmisi rus əhalisini məhv etməyə sərf edilə bilməz.

* Londondan teleqrafla xəbər verilir ki, Kanadada xətti-hərbdən övdət edən [cəbhədən qayıdan] saldatlar üsyan qalxızmışlardır. 300 nəfər yaralanan vardır.

Kiyev - Ukraynanın Şura qoşunları müvəffəqiyyətli surətdə Qaliçaya yürüş edir-

lər. Voloçisk səmtində onlar bir neçə qəsəbəni işğal etmişlərdir. Şura qoşunları bu yaxınlarda Cənub cəbhəsində dəxi yürüşə keçəcəkdirlər.

**QƏZETƏLƏRDƏN**

Erməni teleqraf acentəsi İrəvandan iyulun 8-də xəbər verir ki:

Azərbaycan Hökuməti ilə poçta-teleqraf etilafı şəraiti [razılaşması şərtləri] üzrə Ermənistan ilə Gürcüstan arasında saziş hüsula gəlib təsdiq edilmişdir.

* Xidmətçilərin öz xidmətlərindən sui-istifadələrinin təhqiqatı üçün Fövqəladə İstintaq Komissiyası və məhkəmə təşkil edilir.

* "Nor aşxatavor" yazır ki, Novo-Bayəzid nahiyəsində şiddətli aclıq hökmfərmadır [hökm sürməkdədir]. Acından ölmək kimi hadisələr kəsbi-şiddət etməkdədir [şiddətlənməkdədir]. Kəndçilər ermənilərin yurdlarını yandırıb tələf edərək dəstə ilə Rusiyaya köçürlər. (?)

* "Jamanak" xəbər verir ki, guya ittihad-tərəqqiçilər Parisdə Poqos Nubar paşanın canına müvəffəqiyyətsiz suiqəsd etmişlərdir. Bədəfkarları [cinayətkarları] erməni gəncləri tutub Fransa hökumətinə təslim etmişlər.

**Kilikiya və Fransa**

Türkiyə teleqraf acentəliyi Parisdən xəbər verir:

Məhəlli [yerli] qəzetələrdə Mərsindən teleqrafən alınmış bir manifest dərc edilmişdir. Manifestdə Suriya ortodoksları, yunanları, katolikləri, maruniləri, ərəbləri, türkləri, yəhudiləri Kilikiya da Suriya kimi Fransa təhti-himayəsinə [himayəsi altına] veriləcək xəbərindən naşi [ötrü] Fransa bayrağının altına daxil olmaq şadlıqlarını izhar etmişlər. Manifesti fövqəlzikr [yuxarıda adları çəkilən] tayfaların nümayəndələri imzalamışlar.

**Urmiyə qırğını**

Urmiyə qırğınında 200 adam yaralanıb, o qədər də öldürülmüşdür. Qırğından qalan əhalinin töküntüsü qəza müdirinin evinə pənah aparmışlar. Onların halı təhlükəlidir. Amerika konsulu İran məmurları ilə Təbrizdən Urmiyəyə azim olmuşdur [yola düşmüşdür]. Onların gəlmək xəbərini eşitcək kürdlər Şərəfxanadan çəkilmişlərdir. Amerika missioneri Pakrat əsir aparılıbdır.

**İran şahı**

Xəbər verirlər ki, İran məxlu [taxtdan salınmış] şahı Məhəmmədəli İrana qayıdıb, Qəzvinə varid olmuşdur [gəlib çatmışdır].

**Zaqafqaziya Konfransı**

Erməni hökuməti tərəfindən Zaqafqaziya beynəlmiləl konfransına [S.] Araratyan, [N.] Ağabalyan və [Stepan Qriqoryeviç] Mamikonyan nümayəndə intixab edilmişlərdir [seçilmişlər].

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

- Maarif nazirinin Bakıda açılacaq darülfünun [universitet] üçün hələlik bir milyon manat verilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Hökumət ixtiyarındakı 20 milyon fonddan Maarif Nəzarətinə darülfünun xərci hesabına bir milyon manat buraxılsın.

- Maliyyə nazirinin Azərbaycanın şimali hüdudlarında gömrükxana təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinə hal-hazırda belə Azərbaycanın şimali hüdudlarında başqa hüdudlarındakı şərait üzrə gömrük vergisi təyin edilməsi tapşırılsın.

- Maliyyə nazirinin Azərbaycan Bankı mənzilini təmir [tikmək, yaratmaq] üçün əlavə olaraq yüz min rublə təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) 20 milyonluq fonddan Maliyyə Nəzarətinə Azərbaycan Bankı mənzili təmiri üçün yüz min rublə buraxılsın.

2) Mənzili təmiredici komisyona lazımi ləvazimat həcz [müsadirə] etmək ixtiyarı verilsin.

- Rəisi-vükəlanın [Baş nazirin] Ermənistanla tranzit müqavilənaməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ticarət və Sənaye və Ərzaq Nəzarətinə tapşırılsın ki, Bakıdakı Ermənistan nümayəndəsinə tranzit müqavilənaməsinin iki cümhuriyyət Məclisi-Məbusanları tərəfindən təsdiqindən sonra qüvvəyə minəcəyini bildirsin.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Neft sənaət və ticarət[i] işlərində çalışan fəhlələrin müştərək İttifaqı idarəsi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, son vaxtlar ev sahibləri ilə kirayənişin fəhlələrin əlaqəsi gərginləşmişdir. Ev sahibləri fəhlələri nəhayət dərəcədə incitməyə başlamışlardır. Məsələn, Elektrik Cəmiyyəti fəhlələri məlum edirlər ki, bu günlərdə Bibiheybətdə bir çox fəhlələr ailələri ilə bərabər evlərdən çıxarılıb bayıra atılmışlardır. İttifaq rica etmişdir ki, Məsai Nəzarəti lazımi tədabiri ittixaz etsin [tədbirləri görsün].

- Kəsbkarlar [Həmkarlar] İttifaqı Şurası Məsai Nəzarətinə xəbər vermişdir ki, Mətbəəçi Fəhlələr İttifaqının mənzili polis tərəfindən bağlanaraq, İttifaqın sədrini də həbs etmək üçün axtarırlar. Halbuki hökumət tərəfindən kəsbkarlar ittifaqlarına rəsmi surətdə yaşamağa icazə verilmişdir. İttifaq işbu hadisəni başsızlıq adlandırır. Zira İttifaqın əleyhinə heç bir təqsir əldə edilməmişdir. Mənzilin qapanmasından əvvəl polis İttifaqın katibindən "Nabat" qəzetəsinin bir daha nəşr edilməyəcəyinə dair imza istəmişdir. Katib imza vermişdir. Bundan sonra da qəzetə nəşr edilməyir. İttifaq Nəzarətdən qəti surətdə mənzilin açılmasını tələb etmişdir.

- Mexanik və Gəmi Xidmətçiləri İttifaqı idarəsi Rəisi-Vükəlaya [Baş nazirə] müraciətən məlum etmişdir ki, gündəngünə işsiz ittifaq əzasının [üzvlərinin] hesabı artmaqdadır. İttifaqın nizamnaməsi mövcibincə [nizamnaməsinə əsasən], İttifaq öz əzasından ötrü başqa-başqa müəssisələrlə etilaf yapmaqla [razılığa gəlməklə] onlar üçün xidmət aramalıdır. Böylə müəssisə hal-hazırda Bakı Hərbi portudur ki, işsiz durur. Port işə salınarsa, bir

çox ittifaq əzası orada çalışa biləcəkdir. İttifaq rica etmişdir ki, bu barədə iqdamatda bulunulsun [təşəbbüs göstərilsin].

- Qaçqınlar üçün mənsucat [trikotaj] emalatxanaları güşadı [açılması] işlərinə şüru edildiyi [başlandığı] üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Qarabağ general-qubernatoruna müraciətən rica etmişdir ki, Ağdamda olan yunu Nəzarətin ixtiyarına versin. Yun toxucu emalatxanalarında işlənəcəkdir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti teleqrafən kəndi müvəkkili Behbudova xəbər vermişdir ki, təcili surətdə emalatxanalar güşadı ilə lazım olacaq xammal almasına şüru etsin. Mal almaq üçün xüsusi komisyonlar təşkil etmək olar.

- Hal-hazırda taxıl o qədər çoxdur ki, yığmaq belə mümkün deyildir. Böylə gedərsə, taxıl bütünlüklə çöldən yığılammaz. Binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti teleqrafən bütün qubernator, qəza qaimməqamları və nahiyə müfəttişlərinə müraciətən rica etmişdir, qaçqınları zəhmət haqqı verməklə taxıl yığmaq işlərinə cəlb etsinlər.

- Məvərayi-bəhri-Xəzərdən [Zakaspiyskdən] böyük qaçqın dəstələri gəlməsi ehtimalı üzərinə onlar üçün "Slon" nam dəyirman təyin edilmişdir. Həman dəyirmanda Hərbiyyə Nəzarət[in]ə məxsus əşya olduğu üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti rica etmişdir ki, təcili surətdə əşya üzərində mühafiz qoyulsun və yaxud siyahı üzrə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə təhvil verilsin.

**Ermənistan və müsəlmanlar**

Xariciyyə Nəzarəti namına işbu teleqramlar alınmışdır:

Bu gün axşam saat 5-də məlumat alınmışdır ki, iyulun 4-də erməni nizami qoşunları topçu dəstələri ilə Böyük Vedi, Çiyan kəndi, Kələvan, Namaşlı və başqa kөyləri mühasirə edərək top atəşinə basmışlardır. Başqa köylərin əhalisi qaçmışsa da, Böyük Vedi və məzkur [adları çəkilən] köylərin əhalisi uşaq və qadınlarla bərabər olduqları halda müdafiə edirlər. Müharibə davam edir.

Böyük Vedi köyü erməni nizami qüvvələri və topçularının təərrüzlərini [hücumlarını] dəf etmişlərdir. Ermənilər böyük tələfat verərək dəmir yoluna doğru ricət etmişlərdir [geri çəkilmişlər]. İrəvana külli surətdə yaralı saldat gətirilmişdir.

Şayiata görə, müsəlmanlar ermənilərdən 2 top, 8 mitralyoz qənimət almışlardır. Yenidən təərrüz etmək üçün qoşun dəstələri hazırlanır. Ermənilərin ruhu qayət düşkündür. Ermənilər öz müvəffəqiyyətsizliklərini türk əsgərlərinin vücudu ilə isbat edirlər. İngilis heyəti də buna inanır. Köylərdə türk əsgərləri yoxdur. Ermənilərin işbu məlumatları da təbiidir.

4 iyul davasının təfsilatı böylə olmuşdur:

İyulun 4-də ermənilərin Sason alayı Qaranqı dağ tərəfindən Böyük Vedi kəndinə yavuqlaşırlar. Müsəlmanlar Zeynalabdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşir oğlunu heyət sifəti ilə göndərsələr də, ermənilər tərəfindən məzkurlar [adı çəkilən şəxslər] qətl edilirlər. Bundan sonra kəndi top və mitralyoz atəşi ilə bombardmana başlarlar. Qəmərli tərəfindən digər bir alay hücuma keçirsə də, ricət etməyə məcbur olmuşdur. Sason alayı axşam saat 9-dək təərrüzlər yapmışsa da, böyük tələfat verərək geri püskürdülmüşdür. Alayın bütün nəfəratı [əsgərləri] tələf olmuşdur.

Bu teleqramlardan sonra Xariciyyə Nəzarəti İngiltərə Komandanlığına müraciətən rica etmişdir ki, Ermənistandakı müsəlman kəndləri üzərinə hücum etmək əleyhinə təcili tədabir ittixaz edilsin [tədbirlər görülsün]. Zira böylə hərəkətlər Azərbaycan və Ermənistan müsəlmanları miyanında [arasında] böyük həyəcana səbəb verməklə, istənilməyən nəticələr verə biləcəkdir.

Azərbaycan Hökuməti və İngilis Komandanlığının işbu iki cümhuriyyət xalqı miyanında dostluq peyda etmək məsələsi də böyük mümaniətlərə [maneələrə] uğrayır. Nəzarət rica etmişdir ki, tədabir ittixazı təcili olsun.

## XARİCİ SİYASƏTİMİZ

### - 7 -
### Ermənistan və biz

Erməni hərəkəti tarixi göstərir ki, bu millət iki yüz sənədən bəri Avropaya müraciət edib onlardan kömək gözləyir və hər müraciətlərini xristianlıq namına, dindaşlıq adına eyləyir. Təbiidir ki, avropalılar vədlər etmiş, hissiyyat oxşayan sözlər söyləmiş, lakin məsələ həll olunmamışdır. Keçən əsrdən başlamış erməni məsələsi böyük əhdnamələrdə də qeyd olundu. Berlin əhdnaməsinin 61-ci və Ayastefanos sülhnaməsinin 16-cı maddələrində ermənilik xatırlandı. Lakin genə məsələ sonra basdırıldı. Təkrar-təkrar Avropa vicdanına, dindaşlıq namına müraciət olundu. Əvəzində bəlli oldu ki, İngiltərə donanması Ararat dağına çıxmağa müqtədir deyil. Bismark bütün erməniliyə bir alman əsgərinin kəmiyini (sümüyünü) dəyişmək istəmədi. Rus da erməniləri xilas yox, Ermənistanı istila etmək xahişində oldu. Yəni ermənidən boşalmış Ermənistana malik olmaq meylini göstərdi. Ermənilər məyus olmadılar. Təkrar əvvəlki yollarında çalışdılar. Müharibədən əvvəl genə erməni məsələsi siyasət səhnəsinə çıxdı. Lakin genə həll olunmadı.

İki yüz illik bir tarix göstərdi ki, dindaşlıq namına olunan müraciətlər bütün erməni qırğını ilə itmama yetişir [nəticələnir]. Neyçün? Məsələ aydındır. Siyasətdə hissiyyat yoxdur. Siyasət nə din, nə milliyyət, nə insaniyyətpərvərlik, heç bir şey tanımaz, siyasətin əsli-əsası faydadır və bütün siyasi və beynəlmiləl münasibata dair məsələlər fayda nöqteyi-nəzərindən həll olunur.

İki yüz sənə bağıran, göz yaşı tökən və qan axıdan bir millət etinasız qaldı. Səbəb bu ki, bunların istiqlaliyyəti avropalılara faydalı deyildi. Bu istiqlaliyyət bəzilərini belə qorxudurdu. Məsələn, Rusiyanı.

İndi yenə erməni məsələsi meydana çıxır. Bunun həlli bizi də maraqlandırmaya bilməz. Ermənistan bizimlə həmsərhəd bir dövlət olduqda, iki qonşu dövlətin əlaqəsini yoluna salmalıdır. Biz erməni istiqlaliyyətini tanımaq istərik və istərik də aramızda davamlı bir sülh olsun. Lakin erməni iddiaları bu sülhü pozur. Ermənilər etnoqrafi cığırlarından çıxırlar.

Böyük Ermənistan xəritəsini gördüm. Üç dəniz arasında təşəkkül edəcəkmiş: Ağ [Aralıq], Qara və Xəzər dənizləri arasında. Xəritədə Gəncə, Lənkəran, Salyan, Təbriz, Marağa və başqa şəhərlər də Ermənistana daxil edilmişdir.

Əgər bu xəritə erməni milli amalının şəkli isə, onda erməni məsələsi genə bir çox münaqişə və mücadiləyə səbəb olacaq və həlli genə kağız üzərində qalacaqdır. Halbuki Qafqazda asayişin təmini məsələnin etnoqrafi dairədə həll olunması ilə mərbutdur [bağlıdır]. Uzun bir təcrübə göstərdi ki, dindaşlıq ilə siyasət arasında böyük bir uçurum var.

Qafqaz məsələsini həll etmək üçün əvvəlcə qafqazlılar öz arasında anlaşmalıdırlar. Bizim etiqadımız bunadır ki, Qafqazda yaşayan üç böyük millətin faydası yalnız qarşı anlaşmaya bağlıdır. Köhnə ədavəti unutmalıyıq, siyasət kin və intiqam bilməz. Bugünkü gün həmsərhəd Ermənistan ilə Azərbaycanın faydası nələr tələb edirsə, onu əmələ gətirməyə çalışmalıyıq.

Erməni ilə Azərbaycan müsəlmanının təbiətində bir çox ümumi nöqtələr var. Ermənilər bizim dil və adətləri gözəlcəsinə bilirlər. Bizim mədəniyyətimizi təqdir edirlər. Məsələn, musiqi və teatromuzdan həzz alırlar. Söz arasında "Turk asala" deyə bizim məsəlləri işlətməyə alışmışlar. Çox vaxt türkcə danışırlar...

Bunlar bunu göstərir ki, iki millət arasında sıxı bir rabitə var. Dostluqla yaşamaq üçün böyük bir zəmin mövcuddur. Lakin siyasətin əyri yol ilə getməsi iki millətin dostluğunu və asayişini pozur.

Erməni rəhbərləri bizə əl uzatmalıdırlar. Kin-küdurəti buraxıb doğru yola gəlməlidirlər. Və əmin olmalıdırlar ki, biz erməni dərd və istəyini avropalılardan tez başa düşərik.

*Yusif Vəzirov*

## AZƏRBAYCAN DARÜLFÜNUNU

"Məmləkətimizdə bir darülfünun [universitet] təşkil edilə bilərmi?"

Bu suala cavab verməzdən əvvəl, məktəblərin surəti-təşəkküllərinin nə kimi ehtiyaclardan doğduğunu nəzərə almaq və məktəb təşkilatının ibtidai səfhəsinə [mərhələsinə] qədər enmək icab edir [lazım gəlir].

İbtidailər hanki qüvvətin zadəsidir [əsəridir]? Hər cəmiyyətdə, hər qəsəbədə bu məktəblərin təşkilatı eynimidir? Və məktəbləri hər dürlü həyati və ictimai cərəyanlardan mücərrəd fərz etmək mümkünmüdür?

Şimdiyə qədər yapılan tədqiqlər, təcrübələr göstərmişdir ki, ibtidai məktəbləri də, yaşamaq ehtiyacından doğan və həyatları "təbii" bir şəkildə idamə edilə [davam etdirilə] bilərsə məqsədə xidmət edə bilən intifai [faydalı] müəssisələrdir.

Nüfusu [əhalisi] az və hər ehtiyacı mühitindən təmin edərək pək təbii bir surətdə yaşayan və civar ilə təması az olan bir köy ilə nüfusu çox və sakinlərinin rifahi-maddisini təmin edəmməyən və xariclə təması daima vaqe olan bir köyün "məktəb ehtiyacı" bir deyildir. Vahid proqramı bu məktəblərə soxammayız!

Çünki həyat və təbiətin qanunlarına münafidir [ziddir]! Əməyimiz bihudədir, israfdır!..





İbtidai məktəblərinin qayəsi dinli, imanlı, bir az oxur-yazar, əməli hesab bilər namuskar köylülər, şəhərlilər yetişdirməkdir. İbtidai məktəblərindən bundan fəzlə bir qiymət bəkləmək doğru deyildir.

Binaənileyh [ona görə], bu məktəblərin vəzifəsi "elmi" olmaqdan ziyadə "hərsi"dir [mədənidir].

Gimnaziyaların qayəsi isə "milli və insani" məfkurəli birər "millət fərdləri" yetişdirməkdir.

Bu məktəblərdə tədris edilməsi lazım gələn elmlərə ən ziyadə tərbiyəvi qüdrəti haiz [daşıyan] ülum [elmlər] (din, fəlsəfə, əxlaq, hüquq, ədəbiyyat, milli tarix və milli jeoqrafiya) olmalıdır. Çünki bu məktəblər ümumi fəlsəfi, milli və insani tərbiyə verməklə mükəlləfdir [borcludur, vəzifəlidir]. Burada "elm" ilə "hərs" təarüz edir [ziddləşir]. Və məatəəssüf [təəssüf ki], bu qüvvətlər yek-digərini [bir-birini] nəfy [rədd, inkar] etdiyindən, gənclərdə dini və əxlaqi əqidələr, iştiyaqlar [həvəslər, şövqlər] çözülür, inhilal edir [dağılır]. Gənclərin vicdanı sərsəri olur!

Bunun üçün buradakı tədrisat hər şeydən əvvəl fəlsəfi və milli mahiyyətdə olmalıdır. Bəzi dərslərin təarüzündən vücuda gələn "əcəba"ları fəlsəfə yardımı ilə həll etmək, "elm" ilə "hərs"i təlif etmək [bir-birinə uyğunlaşdırmaq, uzlaşdırmaq] və gənclərdə müşahidə, müqayisə və mühakimə mələkələrini [bacarıqlarını, səriştələrini], təşəbbüs, əzm, fədakarlıq və təsanüd [həmrəylik] kimi məfkurə qabiliyyətlərini təxmin etmək [qiymətləndirmək] əlzəmdir.

Hərsi tədris: "dini, milli, bədii iştiyaqların təlqini"dir.

Hərsli fərd demək, fərdin bu iştiyaqlarla bir məfkurə sahibi olması, yəni ülumi-ictimaiyyə [sosiologiya] alimi Ziya Gökalpın tərifincə "ictimai vicdanın iradələrini kəndisinə düsturüləməl ittixaz etməsi"dir [davranış rəhbəri seçməsidir]. Əgər gimnaziyalar böylə milli, qiymətli adamlar yetişdirəmməzsə, əsla vəzifəsini ifa etməmiş deməkdir.

Hər millətin ictimai vicdanının iradələri başqa-başqadır. Onun üçün bu günə qədər rus gimnaziyalarından həqiqi türk hirasəti [mədəniyyəti] ilə tələbələrimiz yetişdimi? Bittəb, xayır! Olammazdı ki!

O halda bizdə, məatəəssüf, həqiqi bir darülfünun təəssüsü [yaranması] bir qaç sənələrə möhtacdır. Çünki "həqiqi" gimnaziyalar olmadıqca "tam" bir darülfünun olammayacağı kimi, darülfünuna mənsub bir heyəti-təlimiyyə [təlim heyəti] bulunmayan bir məmləkətdə gimnaziya dəxi təəssüs edəmməz.

İbtidai təhsilinin təəmmümü [ümumiləşməsi] gimnaziyalar, gimnaziyaların təkəmmülü [kamilləşməsi] tam bir darülfünunu doğurar.

Bir fərd intifai tərbiyəsini ibtidai məktəbində; fəlsəfi, milli, insani tərbiyəsini də gimnaziyada alar. Tədqiqati-elmiyyə ilə "elmi üsulları" nəşr və təmim edəcək [yayacaq və ümumiləşdirəcək] və tətəbböati-hərsiyyə [mədəniyyət araşdırmaları] ilə "hərsi qaydaları" kəşf və təsbit edəcək bir müəssisə olan darülfünunda mütəxəssis olar.

Elmi nəşr və təmim etməklə bərabər, milli hərsi bu məktəblər vasitəsilə ruhlara yayar. Binaənileyh, darülfünunlar milli təkamüldə pək mühüm amildirlər.

* * *

Buna nəzərən, gimnaziyadan çıxan əfəndiləri nerəyə göndərəcəyiz?

“Azərbaycan” qəzetəsində bu babda uzunca bir məqalə vardı. Məsai [Əmək] naziri həzrətlərinin tələbənin ümumunu Avropaya getməyə təşviq eyləməsi nə dərəcəyə qədər doğrudur? Əgər doktorluq, mühəndislik, kimyagərlik təhsil edəcəklərsə, deyəlim ki, zərəri nisbətən azdır. Fəqət öz ədəbiyyatını, öz tarixini, öz hüququnu Avropadanmı öyrənəcək? Milli zövqünü, iştiyaqlarını oradanmı alacaq?

Başqa bir səbəb daha: bu əfəndilər hanki mərkəzə göndəriləcəklər? Oranın lisanını mükəmməl bilirlərmi? Lisanı öyrənmək üçün laəqəl [ən azı] bir sənə lazım deyilmi? Əfəndilər fransızcanı, almancanı öyrənmək üçün sərf edəcəkləri zamandan əvvəl türkcəni öyrənəməzlərmi?

Osmanlı darülfünununun, bilxassə ədəbiyyat və tibb şöbələri digər şüubata [şöbələrə, fakültələrə] nisbətən mütərəqqidir. Əfəndiləri hərs nöqteyi-nəzərindən bəzi qüyud və şərait təhtində [qeydlər və şərtlər altında] İstanbula göndərmək daha müsib [məqsədə müvafiq] bir tədbir deyilmi?

Rus darülfünunda oxuyan və zərrə qədər ruhi-milli daşımayan bəzi türk tələbəmiz ati [gələcək] üçün müdhiş əlamətlərlə gözümüzün önündə durarkən, əsasən rus hərsi ilə yetişmiş şagirdlərimizi şimdi də başqa əcnəbi bir hərsin tabeiyyətinə soxmaq müvafiqmidir?

Məni tədhiş edən [dəhşətə salan] cəhət atiyi-qəribdə [yaxın gələcəkdə] ikmali-təhsil edərək [təhsilini tamamlayaraq] Avropadan məmləkətimizə dönəcək və birər gimnaziya, birər darülfünun professoru olacaq olan bu əfəndi qardaşlarımın milyonlarca millətimin müqəddəratı ilə oynayacaq birər şəxsiyyət olacaqlarıdır.

*Həsən M. oğlu*

## BAKI XƏBƏRLƏRİ

**“Əsgərliyə qaçdım”**

Həmin sərlövhə ilə Bakıda Tserkovnı küçədə sükunət edən Əmirulla Abdulla oğlu bir məktub buraxıb naməlum yerə qaçmışdır. Əmirulla neçə gün bundan əqdəm [qabaq] Bakıdakı “Yardım alayı”-na yazılıb və bir neçə gün Salyan qışlalarında [kazarmalarında] məşq və təlimdə bulunmuşdur. Bu günlərdə onun dükan şərikləri işlərinin təxirə düşməsindən naşi [ötrü] narazılıqlarını bildirərək bir qədər mümaniət [maneçilik] göstərmişlərdir. Əmirulla özü əsgərliyə düşmədiyindən, könüllü olaraq orduya yazılmaq istəmiş və bir tək anasını buraxıb qaçmışdır.

Yazdığı kağızında deyir:

*“Əlbəttə, siz bu kağızı oxuyanda və mənim qaçmağımı biləndə güləcək və deyəcəksiniz ki, bu kimdən acıq eyləyib qaçdı, atasındanmı, ya qardaşındanmı? Və yaxud bir kasə evlərini idarə etməyə ümid olubmu gedibdir? Mənim getməyimin səbəbi vətən məhəbbətinin ürəyimə dolmasıdır. Burada mənə əsgərlik təlimi almağa mane olursunuz. Mən də məcburam qeyri şəhərdə təlim alam. Yenə tez qayıdaram, mənə lazım deyil nə mal, nə dövlət, nə pul. Mənə lazım ancaq vətən, vətən.”*





Bunu yazdığından sonra kəndi-kəndisindən sorur:

– Anan necə?

– Anamdan da qabaq vətən! – deyə cavab verir.

Əsgərliyə qaçmış olan Əmirulla Abdulla oğlunun anası Püstəxanım Hacı qızı Bakı və Azərbaycanın başqa şəhərlərində və qəsəbələrindəki ümum Azərbaycan ordusu ərkani-hərb [qərargah] idarəsi və şöbələrinə müraciətən oğlunun adresini ona bildirməyi rica edir. Adres: Bakı, Tserkovnı küçə, 80 nömrəli evdə Püstəxanım Hacı qızı.

**Məhkəməyə cəlb**

Azərbaycan İstinaf [Apelyasiya] Məhkəməsi müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə Salyan şəhəri pristavının müavini Heydərbəyov qulluğundan sui-istifadə etdiyi üçün təhti-mühakiməyə [mühakimə altına] alınmışdır.

**İtaliya heyətinin vürudu**

Cümə axşamı iyulun 10-da İtaliya heyəti əzası [üzvü] Savoya şahzadəsi ilə kapitan Qranufin Bakıya varid olmuşlardır [gəlmişlər]. Onlar mövqifdə [stansiyada] Bakı qubernatoru tərəfindən istiqbal olmuşdur [qarşılanmışdır].

**Qubernator idarəsində**

Okolodoçni Abdullayev

Bakı İstinaf Məhkəməsinin müddəiyi-ümumisi Bakı qubernatoruna xəbər verir ki, polis okolodoçniki Abdullayevin 339 və 341 maddə ilə baxılacaq işi 2-ci polis məntəqəsinə verilmişdir.

- Bakı İstinaf Məhkəməsinin müddəiyi-ümumisi qubernatora xəbər verir ki, Salyan şəhərinin pristav müavini Heydərbəyovun 345 və 1495 maddə ilə baxılacaq olan işi Salyan müstəntiqinə verilmişdir.

**Aşqabadda**

Aşqabadı dabravollar buraxmadan əvvəl Anev mövqifi [stansiyası] ilə Büzmeyin mövqifi miyanındakı [arasındakı] dəmiryol xəttini patlatmışlardır. Ondan sonra şəhərdə qalmaq istəyən şəhərin Xitrovka nam hissəsi əhalisini bolşeviklərə hüsn-rəğbət bəslədiklərində müttəhim edərək güllələmişlər və evlərini talan və yağma etmişlərdir. Bundan sonra türkmənlər yerlərinə getmişlərdir. Hökumət qovulmuşdur. İngilislər Tazəşəhəri verməmək üçün Cəbəl mövqifini təhkim edir [möhkəmləndirir]. Tazəşəhərdə bir çox azərbaycanlı qaçqınlar toplaşdığı üçün siyasi nümayəndəmiz tərəfindən orada iaşə məntəqəsi güşad edilmişdir [açılmışdır].

**Xosrov bəy Sultanovun əziməti**

Qarabağ general-qubernatoru doktor Xosrov bəy Sultanov srağagün axşam sürət qatarı ilə Bakıdan Şuşaya əzimət etmişdir [yola düşmüşdür].

**Gorus şəhərinin Azərbaycan qoşunu tərəfindən işğalı**

Hökumət dairələrində alınan məlumata görə, erməni çətə dəstələri və nizami qoşunlarının qəlbgahı olan Gorus şəhəri Azərbaycan kürd hissələri tərəfindən işğal edilmişdir. Kürd hissələri minbaşı Kazım bəyin təhti-komandasında

[komandanlığı altında] olaraq hərəkət və əməliyyatda bulunurlar. Həmin xəbəri dünən Bakıya varid olan [gələn] bir neçə ordu zabitləri dəxi təsdiq və təyid ilə [doğrulamaqla] əlavə edirlər ki, Gorus şəhərinin işğalı ilə Erməni Milli Şurası və Ermənistan Hökuməti acentələrinin macəraculuğuna [avanturistliyinə] xitam verilmiş olur.

**Tövqif edilmiş zabitlər haqqında**

Neçə gün bundan əqdəm [qabaq] Hərbiyyə naziri binagüzarlığı [sərəncamı] ilə tövqif [tutulmuş] və həbs edilmiş olan süvari alayı zabitlərindən Ağasəlim, Ağakərim Şərifovlar və Seyidhüseyn Hüseynov və iki nəfər qeyrilərinin işinə bu günlərdə əsgəri məhkəmə tərəfindən baxılacaqdır. Məhbuslardan Seyidhüseyn Hüseynov srağagün azad edilmişdir. Qalan 4 nəfərinin üzünə böyük sübut və dəlillərlə bir neçə şahidlər vardır.

**Fayton zəbti**

Göyçay sakini Kərbəlayi Ağaməhəmməd Məhəmmədov tərəfindən Daxiliyyə nazirinə verilmiş bir ərizədə denilir ki, qubernatorun xüsusi məmuriyyətlər çinovniki Mehdi bəy Nəcəfbəyov iyunun 5-də Göyçaya gəlib onun faytonunu zorla evindən çıxarıb aparmışdır. Daxiliyyə naziri bu barədə qubernatordan izahat tələb etmişdir.

**Darülfünun Komisyonunda**

- Darülfünun açılması qəti surətdə hökumət tərəfindən qəbul olunmuşdur. Layihə bu günlərdə Parlamanın təsdiqinə təqdim olunacaqdır.

- Darülfünun Komisyonu ləvazimat hazırlamaqla məşğuldur. Darülfünun cənbində [nəzdində] təcrübə şöbələri təşkili üçün lazım olan şeyləri almağa 600 minə kimi pul təxsis edilmişdir [ayrılmışdır]. Darülfünun binası üçün də 400 minə qədər para ayrılmışdır.

**Dəvəçidə**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Dəvəçi şöbəsi mərkəzi idarəyə müraciətən rica etmişdir ki, Dəvəçidə məktəb, posta-teleqraf, xəstəxana, aptekxana kimi xalqın möhtac olduğu müəssisələr açılması haqqında hökumətdən istidada [xahişdə] bulunsun. "Müsavat"ın mərkəzi idarəsi bu barədə lazımi binagüzarlıqda bulunmuşdur [addımlar atmışdır].

- Tağıyev fabrikasında baş verən hadisəni təhqiq üçün intixab olunmuş [seçilmiş] komisyon bu vaxta kimi "Hümmət" firqəsinin nümayəndə seçib bərabər işə başlamalarını bəkləyirdi. Aldığımız məlumata görə, dünəndən təhqiqata başlamışlar.

- Quba qəzasının Əhmədabad kəndinin əhalisi "Müsavat" firqəsinin şöbə və mərkəzi komitəsi vasitəsilə Maarif Nəzarətinə müraciətən rica edirlər ki, 6 ildən bəri orada Səmi bəy Hacınskinin xərci ilə davam edən məktəb Mart hadisəsindən sonra bağlanmış olduğundan yenidən açılması üçün lazımi tədbirlər ittixaz edilsin [tədbirlər görülsün]. Həmin məktəbdə 40 oğlan və 15 qız uşağı oxuyurmuş və o məktəb vasitəsilə bir çox ətraf kəndlərdə məktəb açılmışdı. Bundan başqa, camaat rica edir ki, həmin





kənddə bir də bağçavanlıq [bağbanlıq] məktəbi açılsın. Firqə bu barədə Maarif Nəzarətinə xəbər vermişdir.

**Möhtəkirlərlə mübarizə**

Xırda alış-verişçilər Komitəsinin rəisi M. Həsənovun təşəbbüsü ilə möhtəkirlərlə mübarizə üçün tədbirlər ittixazı [tədbirlər görülməsi] qəsdi ilə iyulun 11-də bütün tüccarların [tacirlərin] ümumi iclası dəvət olunmuşdu. İclas bu barədə bir layihə tərtib etməyi və ayın 13-də təzədən iclas çağırmağı Həsənov əfəndiyə həvalə etmişdir.

**Torpaq qanunu**

Azərbaycan Məclisi-Məbusanının Torpaq Komisyonu torpaq islahatı layihəsini tərtib edib qurtarmışdır. Layihə Parlaman heyəti-rəyasətinə verilmiş və bu günlərdə müzakirəyə qoyulacaqdır.

**Neftçilər İttifaqında**

Neftçilər İttifaqı Yekaterinodardan bir teleqram almışdır. Teleqramda denilir ki, Rusiya ilə Azərbaycan arasında neft məsələlərində rabitə düzəltməkdən ötrü vaqe olacaq şuraya nümayəndə göndərsinlər. Bakı Neftçilər İttifaqı A. A. Paronyan ilə M. V. Paşeni intixab etmişlərdir [seçmişlər].

**Dəmiryolunda təyin**

Ələt-Culfa dəmiryolu düzəlməkdə olduğuna görə ştat hazırlana[na] kimi müvəqqəti olaraq Osman bəy Mirzəbəyov Azərbaycan dəmiryol mühafizəsi bölüyünün rəisinə ikinci müavin təyin olunur və müvəqqəti olaraq Bakıda qalır.

**Forma**

Dəmiryol mühafizəsi bölüyünün üzvləri arasında forma geyməyənlər müşahidə olunduğundan, naçalnik əmr verir ki, məcburən hamısı forma geysinlər.

**Dənizdə**

"KAMVO", "Rus" və "Samolyot" paroxod cəmiyyətləri Ural kazak ordusu ilə Dabravol ordusunun arzusu üzərinə İngiltərə Komandanlığına müraciətən rica etmişlər ki, Bakı – Petrovsk – Fort-Aleksandrovsk – Quryev aralarında və geri paroxod hərəkətinə izin versinlər. Bu yolda "Dağıstan" paroxodunu işlətmək istəyir.

**Birjada**

Kerenski minliklər 1500-1550 manata, 250 manatlar minlik 1300-1350 manata, Nikolay 500-lüyü 1800-1850 manata, Nikolay 100-lüyü 325-350 manata. Xırdalar 200-220 manata. Zaqafqaziya bonları 2%.

**İyulun 9-da varid [daxil] olmuş mallar**

- Zaqafqaziya istasyonlarından: un 98 pud, arpa 218 pud, ot 400 pud, dam dəmiri 117 pud.

- Salyandan və Kür başından: buğda və un 13 min pud, arpa 2800 [pud], buğda 100 pud, soğan 1000 pud, düyü 400 pud, göyərti 800 pud.

- Tazəşəhərdən: kişmiş 2000 pud, pambıq 237 pud.

- İrandan: meyvə 500 pud, vobla balığı [Xəzər külməsi] 250 pud, qənd 415 pud, manufaktura 100 pud.

**"Gənclər yurdu"**

Tiflisdə türk gəncləri tərəfindən nəşr olunan "Gənclər yurdu" məcmuəsinin 7-ci sayı Bakıya gəlmişdir. Alınması tövsiyə olunur.

## AZƏRBAYCANDA

**Qarabağda**

Şuşadan idarəmizə böylə bir teleqraf gəlmişdir:

Dünən ayın 7-də gündüz Ağdam-Qaryagin yolunda Pirağbulaq yanında teleqraf xətləri nəzarətçisi Karapanov, poçtalyon Mirzəbəyov strajnik ilə bərabər teleqraf xəttini düzəltdikləri əsnada gizlənmiş olan 14 nəfər müsəlləh [silahlı] ermənilər tərəfindən atəşə tutulmuşlardır. Poçtalyon Mirzəbəyov ilə strajnik qətl edilmişdir. Nəzarətçisi isə qaçıb qurtarmışdır. Təhqiqat davam edir. İngiltərə heyəti naçalnikinə xəbər verilmişdir.

*General-qubernator əvəzinə:*
*B. Bədəlbəyov*

**Şamaxıda "Müsavat" şöbəsi**

İyul ayının 7-də Şamaxıda Parlaman üzvü Mehdi bəy Hacıbababəyovun sədarəti ilə vaqe olan ictimada [baş tutan yığıncaqda] "Müsavat" firqəsinin şöbəsi açılması təhti-qərara alınmışdır. Mehdi bəy Hacıbababəyov cəm olanlara əhvali-hazirə haqqında məlumat verdikdən sonra seçki başlanmışdır. Komitə sədrliyinə Fəttahbəyov, müavinliyə Allahyarov, katib Səmədov, xəzinədar Seyidov, üzvlüyə Allahverdiyev, Hacatov, Hacıyev, Ömərov və Hüsov intixab edilmişlərdir.

**Göyçayda**

Həmin iyul ayının 1-də Bakıdan Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" komitəsinin üzvlərindən möhtərəm Həmdi əfəndi, Piri Mürsəlzadə əfəndi Göyçaya təşrif gətirdilər. Həman gün Göyçayda Müsavat Komitəsinin iclası olub və möhtərəm qonaq əfəndilər iclasda isbati-vücud [iştirak] etdilər.

Məclis açıldıqda Həmdi əfəndi Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" Komitəsinin böyük Rusiya inqilabında göstərdiyi fəaliyyətindən bir qədər məlumat verib, Göyçayda Müsavat Komitəsinin bu vaxta kimi nə gunə [nə cür] işləməyini sordular. Firqənin sabiq sədri Rza bəy Ağabəyov və indiki sədri Paşabəyov Hüseyn bəy cənabları firqənin nə halda işləməyi barəsində müxtəsər məlumat verib qurtardıqda, möhtərəm qonaqlar Göyçay mahalının bəzi qəryələrində [kəndlərində] firqənin şöbəsi olmağını lazım bildilər və mahalda təşkilat yapmaqdan ötrü möhtərəm qonaqlarla firqənin üzvlərindən iki nəfəri olmağı təhti-qərara alındı.

Ertəsi gün qonaqlarla firqə üzvlərindən Mirhaşımzadə Mirkazım və Zahid Nəcəfzadə Qaraməryan tərəfə azim olaraq [gedərək] Yekəxana, Qarayazı, Kürdmaşı, Şahsoltanlı, Qaraməryanda "Müsavat" şöbə təşkilatı düzəlib, qonaqlar Göyçaya övdət buyurdular [qayıtdılar].

İyulun 3-də qonaqlarla kəndxuda Sədrəddin ilə Zahid Nəcəfzadə Qaraman tərəfə azim oldular [yola düşdülər]. Qarabaqqal, Ləkçılpaq və Buğur qəryələrində dəxi "Müsavat" şöbəsi təşkil olunub, qonaqlarımız həman gün övdət buyurdular. Məzkur [deyilən] qəryələrin camaatı "Müsavat" şöbəsinin təşkilatına ziyadə rəğbət göstəriblər.

Bir də Göyçayın divarlarına elanlar yapışdırılmışdı ki, cümə günü, iyulun 5-də Bakıdan təşrif gətirmiş Piri Mürsəlzadə əfəndi mühazirə (leksiya) oxuyacaqdır. Vəqti-müəyyəndə şəhərin edadi zükur [oğlanlar] məktəbinin zalına camaat yığılmışdılar. Piri əfəndi əhvali-hazirə haqqında bir mühazirə oxudu. Ertəsi gün firqə əzası [üzvü] cənab Mirsahib Məstanzadə möhtərəm qonaqlarla Ucar mövqifinə [stansiyasına] azim olub və Ucarda təzə "Müsavat" şöbəsinin təşkilatı düzəlib, qonaqlarımız oradan Bakıya azim olublar.

*M. M. Sadıqzadə*

## ERMƏNİSTANDA

Erməni İctimaiyyuni-Amiyyun [Sosial-Demokrat] firqəsi "Hnçak"[ın] qəzetəsi "Qordzavud" yazır:

İrəvandan gələn xəbərlərdən aşkar olur ki, bütün intixabat [seçki] dairələrində Daşnaksutyun firqəsi əksəriyyət qazanır. İntixabata iştirak edən İctimaiyyuni-İnqilabiyyun [Sosialist İnqilabçılar] firqəsinin məlum olan rəqəmlərə nəzərən Parlamanda 7-8 nümayəndəsi olacaqdır. Parlaman üzvlərinin ədədi 80 nəfər olasıdır. Deməli ki, orada Daşnaksutyun tərəfindən 70-72 üzv olacaqdır. Qalan firqələr intixabatı boykot etmişlər.

- Erməni "Hnçak" firqəsinin əcnəbi məmləkətlərdəki naşiri-əfkarı [fikirlərini yayan orqanı] bu qəzetələrdir:

1. "Zartonk" (Oyanmaq) firqənin Misir şöbəsinin qəzetəsi;
2. "Hay aşxar" (Erməni aləmi) İstanbul şöbə orqanı;
3. "Kilikiyayi dzayn" (Kilikiya sədası) Adana şöbəsinin qəzetəsi;
4. "Balkaniyan mamul" (Balkan mətbuatı) Balkan şöbələrinin mürəvvici-əfkarı;
5. "Parizi ardzakank" (Paris sədası) Fransa şöbələrinin nəşriyyatı;
6. "Yeridasard Hayastan" (Gənc Ermənistan) Amerika şöbələrinin nəşriyyatı.

"Daşnak" firqəsinin qəzetəsi bundan daha çoxdur və hər yerdə var.

- Tiflisdə "Daşnaksutyun" firqəsi naşiri-əfkarı olan "Aşxatavor" qapandıqdan sonra əvəzində "Nor aşxatavor" adlı təzə bir qəzetə intişara [nəşrə] başlamışdır.

- Həman qəzetənin məlumatına görə, erməni Parlaman seçkilərində ayın 5-dək 223.488 adam Parlaman intixabatına səs vermişdir. O cümlədən daşnaklara 198.415 səs, milli firqələrə 758 səs, inqilabiyyunlara 3.668 səs, kürdlərə 1.325 səs, aysorlara 174 səs, kəndçilər firqəsinə 385 və tatarlara 10.007 səs verilmişdir.

- İngilis Komandanlığı ermənilər tərəfindən bütün Oltu dairəsinin işğalına razılıq vermişdir.

- İyunun 4-də erməni qoşunları Böyük Vedi adlı türk kəndinin camaatından əsgərlərin qatillərini, məqtulların ailələrini təmin etməyi və silahlarının təslimini tələb etmişdir. Əhali tələbi rədd etdikdə qabaq dəstə qoşun irəli yürüş edib, əhali qoşunu tüfəng və mitralyoz atəşi ilə qarşılamışdır. Qoşun komandanı hərəkətdə bulunanların qərargaha çəkilməklərini əmr edib müsəlmanlar haqqında

ayrı tədbirlər görüb erməni hökumətinin nüfuz və sultasını tətbiq etməyi təhtiqərara almışdır.

- Həman Şuranın 22 may qərardadınca, Şuşa şəhərində Məryəm ünasiyyə [qız] məktəbinin müəllim və müəllimələrinin sentyabrın 1-dək məvacib vermək üçün Maarif nazirinə 40.500 rublə pul buraxılmışdır.

**İdarədən**: Diqqət verilsin, Azərbaycadakı məktəbə Ermənistan hökuməti məvacib verir.

### İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm, işbu sözlərin möhtərəm "Azərbaycan" qəzetəsinin bir sütununda dərci mütəmənnadır [xahiş olunur].

Bəzi nəzərə kiçik, lakin əhəmiyyətən böyük kəlmələr vardır ki, onların milliləşməsi asan olduğu kimi, birinci cərgədə olması gərək və vacibdir. O əhəmiyyətli kəlmələr təbiblər əmri ilə dəvaxanalardan verilən dərman şüşələrinin və qutularının üzərində yazılmalı olan "Внутренное", "Наружное", "Держать на прохладномъ мѣстѣ", "Взбалтывать", "Втиранiе", "Беречь оть огня", "3 раза вЪ день по столовой ложкѢ" ["Daxilə", "Xaricə", "Sərin yerdə saxlayın", "Çalxalayın", "Sürtmək üçün", "Oddan qoruyun", "Gündə 3 dəfə bir xörək qaşığı"] kimi sözdür.

Dəvacata [dərmana] çox ehtiyacı olan müsəlmanların bir az-çox türkcə savadı olduğu halda bu cür əhəmiyyətli sözlərdən öz türk ana dilində istifadə etmələri vacibatdan olsa gərəkdir. Fövqdə [yuxarıda] yazdığım sözlərə məni bu atidəki fəqərə [aşağıdakı hadisə] vadar etdi.

Bu günlərdə tanışlarımdan birisinin evində naxoş yoluxmağa getmişdim. Naxoşun yanında şüşələrdə və qutularda olan dərmanlardan atası vaxtbavaxt naxoşa verirdi. Mənim yanımda bir şüşəni açıb dərmandan bir qaşıq naxoşa verdi. Mən həmin şüşəni götürən kimi o saat gözümə şüşənin üzərində rusca yazılmış "Втиранiе", "Наружное" kəlmələri çarpdı. Deməli, kişinin rusca savadı olmadığından sürtməli dərmanı naxoşa içirdirmiş. Və bu cür müalicə nəticəsi zəhərlənib ölməkdən başqa bir qeyri şey deyildir. Və yəqin ki, bu cür bəlalara bir çox fəqir-füqəra düçar olub və olmaqdadır. O dərmanlar üzərində yazılan kəlmələr türkcə öz ana dilimizdə olmasının millətimizə böyük xeyri və əhəmiyyəti olduğunu nəzərə alaraq, bu haqda hökumətimiz tərəfindən dərmanxanalar və dərman mağazalarına bir əmr verilməsini arzu və təmənna ediriz.

*Abbas Hüseynzadə*

### İDARƏDƏN CAVABLAR

9 şəvval [8 iyul] tarixli adsız məktub yazan əfəndiyə:

Əvvəla, adsız məktub heç vaxt qəzetədə dərc olunmaz. Saniyən [ikincisi], o adamlardan ki, gilayə edirsiniz, onlar haqqında yaxşı məlumatınız varsa, özünüz idarəyə təşrif gətiriniz.

Teymur İsmayılov əfəndiyə:





Əfəndim, özünün qədrini bilməyən özgələrin qədrini necə bilər? Şikayət etdiyiniz adam və onun bütün böyük-kiçik yoldaşları öylə olmasaydılar, yurdları bu gün gördüyümüz hala düşməzdi. Öylə adamların sözü çox da dilgir [dilxor] olmağa dəyməz.

Qazaxda Hüseynzadə əfəndiyə:

Məktubunuzun məzmunu neçə aydan bəri məlum olduğundan, dərcinə hacət görmədik. Bilxassə bu gün sizin yazdığınız dərc ediləcək olarsa, yarın 20 məktub da bunun əksini isbata çalışacaqdır.

**Elan**

Osmanlı və Azərbaycan türkcəsi bilən və rusca məlumatlı bir gənc kəndisinə idarələrdə, yaxud divanxanalarda yer arayır. Xahiş edənlər "Azərbaycan" qəzetəsi idarəsindən məlumat ala bilərlər.

**İtibdir**

Əbil Əhmədovun Göyçay uyezdindən aldığı 13 nömrəli pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*5427*

İyun ayının 25-də Bakıdan axşam qatarı ilə Ağdaşa gəlməkdə olan Müslim Talıbzadənin cibindən Bakı vağzalında çıxarıblar 8575 manat pul, 12 dənə 2 tümənlik İran markası, 5 dənə 5 qranlıq marka, 2 dənə İran konsulu tərəfindən verilmiş dokument, biri rusca, biri müsəlmanca vəkil olmağa Ağdaşda. Bu dokumentlər kimin əlində olsa, etibardan saqitdir.

*5428*

**Satılır**

Dükan, elektrik işığı və hər bir əşyası ilə. Krasnokrestovski küçə, nömrə 22.

*5432*

İngilis motosiklet, yan arabası ilə (Motorio zavodu), beş at qüvvəsində, tamam mükəmməl surətdə olaraq satılır. Talib olan Nikolayevski küçədə "Təbriz" mehmanxanasında kontorda görə bilər.

*5429*

**Satılır**

Corab maşını, hər bir əşyası ilə, 14 nömrəli telefon, qrammofon, əla skripka.

Adres: Parapetdə "Gəncə" şirkət kontorasında, telefon nömrə 6-57.

*5471*

**Satılır**

Samovar 30 girvənkəlik, tərəzi, ev ventilyatoru.

Ünvan: Merkuryevski küçə, nömrə 33. Elektrik mexaniçeski mağaza "Sentral". Telefon nömrə 15-86.

*5430*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Diş həkimi**
**B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Doktor**
**M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 205-206. "29 iyun 1919": qəzetdə hər iki yerdə "iyun" yerinə "iyul" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 213. "Avanti!" [Avanti!]: (İrəli!) 1896-cı ildən etibarən İtaliyada (Roma və Milanda) nəşr edilən qəzet; İtaliya sosialistlərinin orqanı.

**Qəzetələrdən**

səh. 214. "Jamanak": 1908-ci ildən etibarən İstanbulda erməni dilində nəşr edilən gündəlik siyasi qəzet.

"Kilikiya": Kiçik Asiyanın (Anadolunun) cənub-şərqində tarixi bölgə.

"Marunilər" (yaxud maronitlər): özlərinə məxsus kilsələri olan xristian qrup; əsasən Livanda yaşayırlar.

"Şərəfxana": Urmiyə gölünün limanlarından biri olmuşdur.

**Nəzarətlərdə**

səh. 215. "Nabat": Bakıda nəşr edilmiş bolşevik qəzeti.

"Mexanik və gəmi xidmətçiləri İttifaqı idarəsi Rəisi-Vükəlaya müraciətən məlum etmişdir ki...": qəzetdə "məlum etmişdir" yerinə "məlum almışdır" getmişdir.

səh. 216. "Slon": Rusiyada açılmış düyü arıtlama dəyirmanı; Bakıdakı şöbəsi Balaxanı şosesində yerləşirdi.

**Xarici siyasətimiz**

səh. 217. "Berlin əhdnaməsi": 1877-1878 Rusiya-Türkiyə müharibəsindən sonra baş tutan Berlin Konqresi nəticəsində 1878-ci ildə imzalanan saziş nəzərdə tutulur.

"Ayastefanos sülhnaməsi": 1877-1878 Rusiya-Türkiyə müharibəsindən sonra 1878-ci ildə imzalanan San-Stefano sazişi nəzərdə tutulur.

**Azərbaycan Darülfünunu**

səh. 219. "xariclə təması daima vaqe olan": qəzetdə "təması" yerinə səhvən "tamamı" getmişdir.

**Bakı xəbərləri**

səh. 220. "Tserkovnı": Bakıda, indiki Vidadi küçəsi.

səh. 221. "okolodoçni": polis sahə rəisi

səh. 222. "süvari alayı zabitlərindən": qəzetdə səhvən "süvari əhali zabitlərindən" getmişdir.

səh. 223. "KAMVO": Gəmiçilik şirkəti. Rusiyada inqilabdan əvvəl fəaliyyət göstərən böyük gəmiçilik şirkətlərdən "Qafqaz-Merkuri" [Кавказ и Меркурий] ilə "Şərq Ticarət Anbarları Şirkəti"nin [Восточное общество товарных складов] birləşməsi nəticəsində 1913-cü ildə təsis edilmiş, adını da bu iki şirkətin adının bəzi hərflərinin birləşməsindən götürmüşdür.

"Samolyot": Volqada gəmiçiliklə məşğul olan böyük şirkətlərdən biri idi. 1853-cü ildə qurulmuşdu. Şirkətin Bakıda şöbəsi var idi.

"Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

"Fort-Aleksandrovsk" (yaxud Aleksandrovsk): İndiki Qazaxıstanın Mangistau (Manqışlaq) vilayətində yerləşən Fort-Şevçenko şəhəri 1857-1924-cü illərdə Aleksandrovsk (Fort-Aleksandrovsk) adlanmışdır.

"Quryev": Qazaxıstanda, indiki Atırau şəhəri.

"250 manatlar minlik 1300-1350 manata": belə başa düşülməlidir: 250 manatlıq banknotlarla hər min manata 1300-1350 manat.

"Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

**Ermənistanda**

səh. 226. "Həman Şuranın": Ermənistan

Nazirlər Şurası nəzərdə tutulur. Xəbərin əvvəli qəzetdə getmədiyi üçün anlaşılmır.

"Məryəm ünasiyyə məktəbi": Mariinski qız gimnaziyası nəzərdə tutulur.

**[Elanlar]**

"İyun ayının 25-də..."

səh. 227. "qran": İranda bir müddət işlədilmiş gümüş pul.





**Bazar ertəsi, 14 iyul 1919-cu il, nömrə 224**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 15 şəvvalül-mükərrəm sənə 1337. 14 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**OPERETTA**
**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
Zülfüqar bəy və Üzeyir bəy
Qardaşlarının Müdiriyyəti
Düşənbə [bazar ertəsi] günü,
şəvvalül-mükərrəm ayının 15-də
(iyul ayının 14-də 1919-cu ildə)
şükuhlu [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin
**"O olmasın, bu olsun"**
operası.
Biletlər indidən teatronun
kassasında satılmaqdadır.
Tamaşa başlanacaq
axşam saat 9-un yarısında.

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Azərbaycan Dəmiryol Müdiriyyətindən**

*Əmrnamə nömrə 66*

2 iyul 1919

İkinci uçastok mühafizə naçalniki müavini vəzifəsini müvəqqətən ifa edən Nikolay Koşelyov öz vəzifəsinə müvafiq olmadığından, iyulun 1-dən xidmətdən kənar edilir.

*Yollar naçalniki, mühəndis:*
*T[eymur bəy] Məlikaslanov*
*Mühafizə naçalniki:*
*[Xanbaba bəy] Sədrəddinbəyov*

*Əmrnamə nömrə 67*

Dördüncü uçastok mühafizə xidmətçisi Hüseyn Rəhmanov kişmiş oğurluğu işində tutulmuş olan maşinist Kiril Rakotindən 220 manat miqdarında aldığı rüşvəti naçalnikə təqdim etmişdir. Mühafizə xidmətçisi Hüseyn Rəhmanov vəzifəsini bu cür sədaqətli ifa etdiyindən xidmət namından ona razılıq izhar edirəm.

*Yollar naçalniki, mühəndis:*
*T[eymur bəy] Məlikaslanov*
*Mühafizə naçalniki əvəzinə:*
*[Osman] Mirzəbəyov*

*Əmrnamə nömrə 68*

3 iyul 1919

Dəmiryollar mühafizə naçalniki müavini Georgi Georgiyeviç Dotsov öz ərizəsinə görə həmin iyul ayının 20-də xidmətindən kənar edilir. Ona verilən 3339 nömrəli birinci klas bileti və şəxsi şəhadətna-

məsi etibardan saqit [etibarsız] hesab olunur.

*Yollar naçalniki, mühəndis:*
*T[eymur bəy] Məlikaslanov*
*Mühafizə naçalniki:*
*[Xanbaba bəy] Sədrəddinbəyov*

*Əmrnamə nömrə 17*
6 iyul 1919

İkinci uçastok mühafizə xidmətçisi Yunis Yaqubov vaqonda pud yarım un aparmasına icazə verməkdən ötrü Viktor Taranov nam [adlı] sərnişindən aldığı 40 manat rüşvəti naçalnikə təqdim etmişdir. Mühafizə qulluqçusu Yunis Yaqubova öz vəzifəsini bu cür sədaqətli ifa etməsinə görə xidmət namından razılıq izhar edirəm.

*Əslində imza etdi:*
*Yollar naçalniki əvəzinə mühəndis:*
*Vəkilov*
*Mühafizə naçalniki:*
*[Xanbaba bəy] Sədrəddinbəyov*

*Əmrnamə nömrə 73*
9 iyul 1919

Həmin iyulun 8-dən Ağasalah Hacıyev ikinci uçastok mühafizə naçalniki müavini vəzifəsini müvəqqətən ifa etməyə buraxılır.

*Əslində imza etdi:*
*Yollar naçalniki, mühəndis:*
*T[eymur bəy] Məlikaslanov*
*Mühafizə naçalniki:*
*[Xanbaba bəy] Sədrəddinbəyov*

**Neft ticarəti haqqında**

Aksiz, gömrük və kirayə üçün möhlət verilməklə rəhnsiz neft və neft məhsulatı aparmaq üçün 1919 sənəsi iyulun 7-də Vükəla Şurası [Nazirlər Kabineti] nəzdindəki Maliyyə və İqtisad Komitəsi tərəfindən təsdiq edilmiş müvəqqət qanunlar:

Aksiz, gömrük və kirayə üçün möhlət verilməklə rəhnsiz Batuma neft məhsulatı göndərilməsi ancaq Sovet Syezd nəzdində olan neft və neft məhsulatı satışı bürosunda iştirak edən neft firmaları namından olar. Firma neft göndərdiyi zaman öz malını Batumda özü satacağı və ya bu işi başqasına həvalə edəcəyi arzusunda olduğunu izhar edir. Yük gərəkdir büronun adına və onun ixtiyarına göndərilsin, yaxud həman neft firması namına ki, hansı ki, öz malını özü satacağını izhar etmişdir. Aksiz, gömrük və kirayə üçün möhlət vermək üzrə göndərilən neft yüklərinin dublikatları göndərənlərin əlinə verilməyib, Batumda olan Azərbaycan Cümhuriyyəti general-konsulu namına göndərilir. Mal göndərənlərə isə göndərilən neft məhsulatının vaqon miqdarı, dürüst vəzni və nə növ olduğu haqqında müfəssəl bəyanatla şəhadətnamələr verilir. Vaqonlar Batuma gələn kimi neft konsulun nümayəndəsi iştirakı ilə büro ixtiyarında olan anbarlara tökülür. Varid [daxil] olan yükün miqdarı haqqında müfəssəl əqd [akt] yazılıb, konsulxana və büro nümayəndələri tərəfindən imzalanaraq saxlamaq üçün büronun məsuliyyətinə verilir.

Neft məhsulatının aksiz, gömrük, kirayə və qeyri nakladnoy xərcləri verildikdən sonra həman anbarlardan buraxılmasına icazə verilir. Neft satışından hasil olan və firmanın, büronun ehtiyacı üçün mal mübadiləsindən ötrü istifadə edilməyən məbləğ yükün göndərildiyi yerə görə, valyuta ilə Batumda Azərbaycan nümayəndəsinə və ya şərt edilən banka verilir. Bunun əvəzinə isə mal satan (firma və ya büro) Bakıdan Batuma göndərilən malın kursuna görə, Bakı pulu alır. Bu kurs Ticarət və Sənaət Nəzarəti tərəfindən qoyulub, Ticarət, Sənaət və Ərzaq Nəzarəti ilə Bakı birjası nəzdində olan komitə tərəfindən xüsusi surətdə təsdiq edilən qanun üzrə təyin edilir.

Batumda yükləri buraxmaq, almaq və saxlamaq qanunları, bundan ötrü lazım olan qulluqçular ştatı və ştata lazımi düsturüləməllər [təlimatnamələr], həmçinin bunlara məsarif təyini və bu məsarifləri almaq üsulu büro tərəfindən hazırlanıb Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən təsdiq edilir. Hər həftə büro (yaxud konsulxana nümayəndəsi) Batumdan buraxılacaq neft məhsulatı haqqında büronun və ya əlavə firmaların verəcəkləri pulları haqqında Ticarət, Sənaət və Ərzaq Nəzarətinə xəbər verməlidir.

*İmza etdi:*
*Ticarət, Sənaət və Ərzaq Nəzarəti*
*nəzdində olan Şura üzvü Manço*
*Əslinə mütabiqdir.*
*Ümumi şöbə kargüzarı (imza)*

## TELEQRAF XƏBƏRLƏRİ

London - İngilis Bəhriyyə [Donanma] idarəsində 70 nəfər Almaniya bəhri afiserlərinin siyahısı vardır ki, bunların içində məşhur Tirpitz də vardır. Skapada flotu qərq etdiklərinə görə, bunlar mühakimə ediləcəklərdir.

* * *

Royter xəbər verir ki, ingilislər Şimali Rusiyanı təxliyəyə başlamışlardır. Yaxın bir zamanda orada kimsə qalmayacaqdır. Qafqaziyadan da ingilis əsgərləri dəvət ediləcəkdirlər.

**Denikin yanında**

Denikin ilə yaxın olan və bu günlərdə Londona varid olan [gələn] bir ingilis afiseri ilə “Royter” ajansı müsahibədə bulunmuşdur. Afiser demişdir ki, Yekaterinodarda Denikin ixtiyarında 17 milyon ingilis lirəsi qiymətində ləvazimi-hərbiyyə [hərbi ləvazimat], külli aeroplan, tank, silah vardır. Afiser əlavə eyləmişdir ki, Yekaterinodarda mahir təyyarəçilər də mövcuddur. Londonda Denikinin Kolçaka mülhəq olmasına [qoşulmasına] böyük əhəmiyyət verilir. Çox mümkündür ki, yaxın bir zamanda bu iki generalın ordusu birləşsin.

* * *

Almaniyanın hökumət qoşunları Hamburq şəhərini işğal etmişlərdir. Müsadimədə [toqquşmada] 160 nemes saldatı qətl edilmişlərdir.

## QƏZETƏLƏRDƏN

**Feldmarşal Hindenburq**

Feldmarşal Hindenburq öz istefası münasibətilə Almaniya Baş vəziri Ebertə bu məzmunda bir məktub göndərmişdir:

*“Sülh müahidənaməsinin [sazişinin] imza edilməsi münasibəti ilə zeyldəki [aşağıdakı] məlumatı verməyə özümü borclu bilirəm:*

*1916-cı il avqust ayının 20-dən Almaniyanın Ali Komandanlığının hər bir binagüzarlığına [qərarına] və hərəkətinə mən cavabdəhəndəyəm [cavabdehəm] və bütün məsuliyyət mənim üzərimə düşür. Hakəza [eləcə də], əlahəzrət Kayzerin də bütün əmr və binagüzarlığına mən məsulam. Bütün müharibələrin aparılması və üsulu mənim məsləhətim və mənim məsuliyyətimlə icra edilmişdir. Təvəqqe edirəm, bu bəyanatımı alman millətinə və Müttəfiq hökumətlərə yetirəsiniz.”*

Sabiq feldmarşal Hindenburq[un] Kolberqdən Hannoverə gəlməsi qayət təmtəraqlı olmuşdur. Hannoverdə vağzalda mumaileyhi [adı çəkilən şəxsi] böyük cəlalla qarşılayıb, şəhər qlavası onu istiqbal eyləmişdir [qarşılamağa çıxmışdır]. Hindenburq özünə edilən ehtiramdan, özünə bəxş edildiyi evdən dolayı təşəkkür eyləmişdir. Külli izdiham generalı təbrik eyləmişdir. Hindenburq öz evi yaxınlığında müxtəsər bir nitq irad eyləmişdir [söyləmişdir]:

*“Siz cavan nemeslərin öhdəsinə dağılmış olan Almaniyanı təzədən tikmək düşür. Sizdə nemes ruhu vardır. Siz buna nail olmalısınız ki, düşmənlərimiz bizi məzəmmət etməyib, bizə ehtiram eyləsinlər. Cənabi-haqqın müavinəti ilə biz yenə kəmafissabiq [keçmişdə olduğu kimi] vətənimizin tərəqqi və təalisinə [ucalmasına] nail olarıq.”*

## TÜRKÜSTANDA

**Mərvdə**

Məhəlli [yerli] qəzetələr xəbər verirlər ki, bolşeviklər Mərvi aldıqdan sonra ciddi surətdə nizam və qanun bərpa edilmişdir. Qanunu pozan bolşevik əsgərləri güllələnmişlərdir. Bolşeviklər Mərvdə birinci zəruri şeylərə bu qərar üzrə məzənnə qoymuşlardır: çörəyin girvənkəsi 40 qəpik, ət 2 manat 50 qəpik, süd butulkası 3 manat ilaxır.

**Türküstanda Azərbaycan Konsulxanası**

* İyul ayının 4-də Aşqabadın ümumiyyətlə təxliyə edildiyi münasibətilə Azərbaycan Konsulxanası Məvərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti ilə birlikdə Tazəşəhərə köçmüşlərdir. Aşqabad şəhəri bolşeviklər tərəfindən işğal ediləcəyi təqdirdə Azərbaycan təbəələrinin haqqını və əmlakını Şura Hökumətinin Türküstanda aldığı yerlərdə müdafiə etməyi İran konsuluna vagüzar [həvalə] eyləmişdir.

* İyul ayının 7-dən etibarən Tazəşəhərdə Konsulxana agentliyi fəaliyyəti müvəqqətən dayandırılmışdır. Agentliyin məmurları Konsulxanaya köçürülüb, şimdi Tazəşəhərdə Konsulxana işə başlamışdır.

* Bu günlərdə Tazəşəhər hökuməti Azərbaycan təbəələrinin Tazəşəhərdən çıxmasına icazə verməyirdi. Konsulun cidd-cəhdi sayəsində şimdi bu mümaniət [maneçilik] götürülmüşdür.

* Mərv, Aşqabad, Tecan və İrandan Qızıl-Arvada və Tazəşəhərə külli fərari gəldiyi üçün Azərbaycan Konsulxanası onlara müavinət etmək uğrunda hər növ tədbirlər ittixaz edir [tədbirlər görür]. Tazəşəhərdə yemək və yatmaq üçün yerlər hazır edilmişdir. Qızıl-Arvadda dəxi böylə məntəqələr açılacaqdır. Fərarilərin halı çox fənadır. Şəhərdə ərzaq şeylərinə böyük ehtiyac vardır. Bu axır vaxtlarda yeməli şeylər qətiyyən bazarda görünməyir.





## GÜRCÜ MÜRƏXXƏSİ QAMBAŞİDZE İLƏ MÜSAHİBƏ

Bu günlərdə Londondan varid olan [gələn] gürcü mürəxxəslərindən [nümayəndələrindən] [David] Qambaşidze zeyldəki [aşağıdakı] məlumatı verir:

“Sülh Konfransı hələ Gürcüstan və Zaqafqaziya cümhuriyyətləri məsələsini müzakirə eyləməmişdir. Gürcüstana böyük əhəmiyyət verən İngiltərədir. Zaqafqaziya və Gürcüstan məsələsi, Şərq məsələsi ingilis komitəsindədir. Bu məsələ İtaliya komitəsində Rusiya məsələsi kimi idi. Bu axır vaxtlarda onlar İngiltərə komissiyası kimi rəftarda bulunmağı qət eyləmişlərdir [qərara almışlar]. Yaponlar isə bizim məsələmizi Qərbi Asiya məsələsi kimi tələqqi edirlər [qiymətləndirirlər]. Yalnız Fransa Zaqafqaziya məsələsini Rusiya məsələsi kimi tələqqi edir.

Hamıdan artıq bizim məsələlərdən İngiltərə məlumat alır və hər bir məsələ barəsində düzgün cavab verir. Bizim barəmizdə verilən məlumat böylədir: gərək bizdə və gərək sabiq Rusiyanın başqa torpaqlarında rüşvətxorluq və dövləti əmlakı oğurlamaq şiddətlənmişdir. Bu da rusların yüz illərlə ağalıq etmələrinin nəticəsidir.

Avropa dövlətləri qət eyləmişlər ki, Rusiyada bolşevizmi yıxsınlar. Fəqət heç kim Gürcüstanı Rusiyaya mülhəq etmək [birləşdirmək] istəməyir. Bu barədə “Tayms” qəzetəsində yazılmış olan fəqərə [məlumat] general Miln tərəfindən edilən dokladа müvafiqət etməyir [uyğun gəlmir].

Bolşevizmi yıxmaq məsələsində avropalılar Denikin ilə Kolçaka artıq ümid bağlamışlardır. Orada Rusiya planı vardır ki, Gürcüstan və Azərbaycan qitəsindən [bölgəsindən] başqa yerlər qara xətt ilə cızılmışdır.

General Milnin dokladında denilir ki, torpaq reforması artıq narazılığa səbəb olur. General Briqqs Londondan göndərilmişdi ki, Gürcüstanın Denikin və Dabravol ordu ilə olan əlaqəsini bilsin. Gürcüstanda general Briqqs məsələyə aşna olub məlum olmuşdur ki, Gürcüstanın Denikin ilə birləşməyə heç bir həvəsi yoxdur.

Fransada mütəəssib hərəkətlər müşahidə edilir. Mayda olan əmələ nümayişi fransız ordusunun patronu olsaydı müvəffəqiyyətsiz olardı. Ordu bu nümayişi almanlara istinad verirdi. İngiltərədə böyük sosialnı reformalar qoyulmuşdur. Bizim istiqlaliyyətimizi təsdiq edəcəklərinə böyük ümid vardır.”

## NƏZARƏTLƏRDƏ [NAZIRLIKLƏRDƏ]

Ermənistandakı müsəlman qırğınlarından naşi [ötrü] Xariciyyə Nəzarəti tərəfindən Bakıdakı Ermənistan nümayəndəsinə işbu məzmunda bir təliqə [rəsmi məktub] göndərilmişdir:

Azərbaycan Hökumətinin əldə etdiyi rəsmi və xüsusi məlumata görə, erməni nizami qoşunları top dəstələri ilə Böyük Vedi, Çənan, Qələvan, Qaşlı və başqa müsəlman kəndlərini mühasirə edərək atəşə tutmuşlardır. Azərbaycan Hökuməti istiqlaliyyət elanının birinci günündən daima kəndi müqəddəratlarını əllərinə almış, rus istibdadından əziyyət və rəza-

lətə mübtəla olmuş qonşu millətlərlə dostluq əlaqəsi peyda etmək, xüsusən hüdud məsələlərinin sülh üzrə həll edilməsi nöqteyi-nəzərini təqib etmişdir. Millətlərin müqəddəratı həllinə dair məsələlərdə Azərbaycan Hökuməti daima məsələlərin qan tökməksizin məhəllərində [yerində] və həkəm [münsif, arbitr] vasitəsilə və yaxud Sülh Konqresində həll edilməsi tərəfdarı olmuşdur.

Təəssüflər olsun ki, Ermənistan Hökuməti Azərbaycan nöqteyi-nəzərini təqib etmədiyindən, öz müqəddəratlarını əllərinə almış müsəlmanlar əleyhinə cəza dəstələri göndərərək zorla ərazini kəndi torpağına ilhaq etmək [birləşdirmək] xəyalına düşmüşdür. Böylə cəza dəstələri əhalinin həyəcanına bais olacağı təbii olduğu kimi, qonşu millətlərin miyanında [arasında] da niza [nifaq, çəkişmə] törədə biləcəkdir.

Bütün bu vaxtadək baş vermiş hadisatı [hadisələri] və baş verə biləcək hadisatın bütün məsuliyyətini Ermənistan Hökuməti üzərinə atmaqla, Azərbaycan Hökuməti öz nöqteyi-nəzərində baqi [dəyişməz] qalmaqla, öz hökumətim namından erməni qoşunlarının müsəlmanlar əleyhinə yapdıqları fəaliyyətinə ciddi etiraz etməklə rica edirəm ki, kəndi hökumətiniz nəzdində müsəlmanlar əleyhinə filcümlə [ümumiyyətlə], xüsusən Milistan-Vedibasar dairəsi kəndləri əleyhinə başlanmış iqdamata [addımlara] təcili surətdə xitam vermək üçün təşəbbüsatda bulunasınız.

*Xariciyyə naziri: imza*

- Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] məlum etmişdir ki, hal-hazırda Xüsusi Komisyon tərəfindən Şuşa və Cəbrayıl qəzalarında arpa, buğda və düyü alınmağa başlanmışdır. Nəzarət rica etmişdir ki, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti də öz nümayəndəsini o komisyona təyin etsin. Nəzarət Qarabağdakı kəndi müvəkkilinə müraciətlə Komisyona adam təyin qılmasını təklif etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən Vükəla Şurasına [Nazirlər Kabinetinə] idxal və Şura tərəfindən təsdiq edilmiş İrəvandakı Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin müsəlmanlara müavinət şöbəsi məxaricatı [xərcləri] üçün 177 min rublə təxsisinə [ayrılmasına] dair qanun layihəsi Məclisi-Məbusan təsdiqinə idxal edilmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ermənistandakı siyasi nümayəndəmizə teleqrafən xəbər vermişdir ki, Ermənistan qaçqın müsəlmanlarına paylanmaq üçün onun ünvanına 10 vaqon ərzaq göndərilmişdir. Təqsim məsələsi tənzimindən [bölüşdürmə məsələsinin qaydaya salınmasından] ötrü də Nəzarətin xüsusi məmuru oraya azim olmuşdur [yola düşmüşdür].

- Bu günlərdə Gədəbəy zavodu fəhlələri əhvalını məhəllində [yerində] təhqiq üçün Məsai Nəzarəti [Əmək Nazirliyi] tərəfindən oraya göndərilmiş Nəzarət katibi Kazımzadə cənabları səfərindən övdət edib [qayıdıb] zavod əhvalına dair bir məruzə vermişdir. Məruzədən məlum olduğu üzrə, zavod fəhlələrinin əhvalı nəhayət dərəcədə fənadır. Aldıqları məvacib gün-





dən-günə ərzaq və mühimmatın qiyməti artdığından kafi olmayır. Xəstə düşmüş fəhlələri zavod xəstəxanasına qəbul etmək istəməyirlər. Bir çox fəhlə acından və zəiflikdən vəfat etmişlərdir. Zavod sahibləri tərəfindən vəfat etmiş ailələrə maaş verilməyir. Keçən sənənin mart ayından etibarən 8 saatlıq iş günü qəbul edilmişsə də, müştərək müqavilənamə [kollektiv müqavilə] yoxluğundan fəhlələri artıq da çalışdırırlar. Fəhlələr rica edirlər ki, heç olmasa, onlara 20 günlük bir vaxt verilsin ki, əkin işlərinə çıxa bilsinlər. Böylə olarsa, bir qədər təmin edilmiş olacaqdırlar. Fəhlə üçün bəzzaziyə malı [parça, manufaktura] yoxdur. Binaənileyh [ona görə], rica etmişdirlər ki, Bakıdan mal göndərilsin. Fəhlələr arasında Mirzə Sadıqov nam [adlı] bircə nəfər ziyalı fəhlə vardır. Onu da qovmağı təhti-qərara almışdırlar. Fəhlələr buna da etiraz edirlər və rica etmişlərdir ki, onun zavodda xalq müəllimi sifəti ilə qalması üçün Maarif Nəzarəti nəzdində təşəbbüsatda bulunulsun. Fəhlələr rica etmişlər ki, onlar üçün gecə kursları güşad edilsin [açılsın].

Məhəllində komisyon ilə müdiriyyət arasındakı müzakirat sayəsində bir çox məsail qət edilsə də [bir çox məsələlər həll edilsə də], bir çox məsələlər də həll edilməmiş qalmışdır.

- Bugünlərdə hökumət qətnamələri və qanunlarını havi [ehtiva edən] bir məcmuə nəşrinə başlanacaqdır. Bundan ötrü "Xüsusi şöbə" nam bir şöbə təsis edilmişdir ki, fəqət [yalnız, ancaq] işbu iş ilə iştiğal edəcəkdir [məşğul olacaqdır]. Məcmuənin birinci nömrəsi ən yaxın zamanda təbdən [çapdan] çıxacaqdır.

- Məsai Nəzarəti Kəsbkarlar [Həmkarlar] İttifaqına müraciətən məlum etmişdir ki, zəhmətkeşlərin mənafeyi mühafizəsindən ötrü Nəzarət cənbində [Nazirlik nəzdində] təsis edilmiş Münsiflər şöbəsinə öz nümayəndəsini göndərmək üçün İttifaqa müraciət edildisə də, rəddi-cavab alındı. Axırıncı dəfə olaraq Nəzarət rica etmişdir ki, oraya nümayəndələr göndərilsin. Əks surətdə şöbə xidmətçiləri buraxılaraq şöbə təsviyə [ləğv] ediləcəkdir.

- Xariciyyə Nəzarəti Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən məlum etmişdi, Məvarayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti qüvayi-hərbiyyəsi [ordusu] tərəfindən boşa[l]dılmış Bayraməli və Mərvdən İrana qaçmış müsəlmanlara müavinət üçün hökumətdən para istəməlidir. Zira bunların bir hissəsi əvvəlki yerlərinə, digər hissəsi isə Bakıya qayıtmaq məcburiyyətində qalmışlardır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məsələni Rəisi-vükəlaya [Baş nazirə] vermişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən Cavad qəzasının Qalaqayın kəndi əhalisi tərəfindən buraxılmış mənqul və qeyri-mənqul [daşınan və daşınmaz] əşya və imarətlərin siyahısını tutmaq üçün Talışinski oraya göndərilmişdir. Talışinski cənabları həman köydə yaşayan Şamaxı qaçqınlarının da əhvalını təhqiq etməlidir.

- Gəncə nahiyə müfəttişliyi Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti indində [nəzdində] İrəvan qaçqınlarının məcburən Ərəş və Şəki qəzalarında sakin etdiril-

mələri haqqında təşəbbüsatda bulunmuşdur. Zira əkilmiş tarlalar sahibləri tərəfindən buraxıldığı üçün məhv olub getməkdədir. [Ümuri-Xeyriyyə və Nafiə] Nəzarəti Ziraət və Dövləti Əmlak Nəzarətindən tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti əmr vermişdir ki, Bakı Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] iaşə məntəqələri üçün 300 min rublə və Bakıya gələn Lənkəran qaçqınları üçün 15 min rublə buraxılsın.

**AZDIR**

**- 2 -**

Keçən məqaləmizdə Qarabağ haqqında çox az danışıldığını, az yazıldığını, az çalışıldığını qeyd etmişdim. Şübhəsiz ki, bu söz yalnız bu gün Parlamanda bir məsələ ətrafında danışıq qalxdığı üçün deyil, aylardan, hətta illərdən bəri göstərilmiş səhlənkarlığa aiddir. Çünki Qarabağın bugünkü vəziyyəti təzə doğmuş bir şey olmayıb, on illərdən bəri hazırlanmış bir zəmində, bəslənmiş bir ağacda yetişmiş bir meyvədir.

Bu gün azərbaycanlılar qarşısında Lənkəran, Naxçıvan, Şərur, Ordubad, Borçalı və sairə kimi ərazi məsələləri var. Bəziləri Qarabağ məsələsini də o qəbildən hesab edirlər. Fəqət bu, düz deyildir. O yerlər dövri-istiqlalda heç vaxt Azərbaycanın əlində olmamışlardır, yabançılar əlində qalmışlardır. Bunları əlimizə almağa çalışırız. Çünki vətənimizin ayrılmaz bir qitəsi [hissəsi] hesab ediriz. Amma Qarabağ öylə deyildir. Qarabağ heç vaxt bizdən başqasının əlində olmamışdır. Ancaq, bəzi əşqiya [quldur] dəstəsinin qüvveyi-cəbriyyəsinə [zor gücünə] fəda olur.

Hələ bir il tamam deyil. Məhərrəmülharamın əvvəlinci günü Türk-Azərbaycan ordusu şəhərə girdi. Komandan C[əmil] C[ahid] əfəndi Xan qızı bulağı ucalığından "Bu yerlər artıq Azərbaycan Hökumətini qəbul edəcəkdir. Burası Azərbaycanın ən dəyərli, qiymətli bir hissəsidir. Bizim üçün erməni, türk, rus yoxdur. Ancaq müti və asi var. Mütilərlə mədəniyyətin tələbi, divani-ədalətin hökmü, Quranın əmri ilə rəftar olunacaq. Asilərlə isə bütün mədəni millətlər və dövlətlər kimi qanunla rəftar edəcəyiz" deyə ilk dəfə Azərbaycan Hökumətini təbliğ etdi. O zaman, hamıdan əvvəl Bələdiyyə rəisi Məlik-Şahnazarov musiqi və bayraqla istiqbala [qarşılamağa] çıxmış olan neçə yüz erməninin hüzurunda ermənilər namından [adından] bəyani-təbəiyyət etdi [tabe olduğunu bildirdi]. Fəqət az çəkmədi, beyəti [tabeçilik vədini] sındırdılar, sözlərini saxlamadılar. Yenə əşqiya ayaqlandı, yenə asi cərəyanı gücləndi. Axırda görürsünüz nə oldu.

Səbəbi nədir, hanki amillər, hanki şərait bu hadisəni doğurdu?

İştə, bizim istədiyimiz, Qarabağ məbuslarından tənvirini [aydınlaşdırılmasını] tələb etdiyimiz məsələ burasıdır.

Yenə təkrar ediriz ki, aylar, illərcə bundan qabaq camaat xadimlərimiz, xüsusən son 8 ay müddətində Qarabağ məbusları hər yerdə, hər vasitə ilə bu məsələni açmalı və məlum etməli idilər. Öylə olsa idi, bəlkə bu işlər də əmələ gəlməzdi.





Mənə etiraz edə bilərlər ki, keçirmiş olduğumuz siyasi əhvallar nəzərə alınsın. Fəqət deyərəm: siyasi əhvallar necə dəyişsə də, Qarabağın vəziyyəti əsla dəyişməmişdir, həman coğrafi, əsgəri, milli, etnoqrafi, topoqrafi mövqeyini saxlamışdır. Açılması lazım gələn məsələ də bunlar idi.

Mənə etiraz edirlər ki, iki-üç məbus Parlamanda da çalışıb, kənarda da bu qədər işi görə bilməzlər. Bunun cavabında ərz edərəm ki: əvvəla Parlamanda qarabağlı məbus sabiq Rusiya Dövlət Dumasında ümum müsəlmanların məbusundan çoxdur (nazirdən başqa 7 məbus var). Saniyən [ikincisi], nəinki kənari işlər, hətta Parlamanın öz işlərində onları yalnız buraxmaq barəsində təşəbbüs edildi. Fəqət özləri istifadə etməyi ya bacarmadılar, yainki istəmədilər.

Çünki Parlaman işlərinə bələd, Qarabağın bütün övzası [vəziyyəti] ilə aşna olan zəvatdan [şəxslərdən] bir qədərinin təşəbbüsü ilə hələ beş-altı ay bundan qabaq bir iclas dəvət edildi. Orada qərar verildi ki, Bakıda yaşayan bacarıqlı, işbilən adamlar miyanından [arasından] bir neçə adamdan ibarət bir büro təsis edilsin. Həman büro Qarabağ məbuslarına ümum işlərdə kömək etsin (necə ki, Dövlət Duması Müsəlman fraksiyası nəzdində var idi). Fəqət büro hələ də təsis gözləyir. Qərar verilmiş iclasın dəvətini hələ də, intizarla bəkləyiriz. Halbuki, o vaxt büro təşkil olunub məbuslarımız onlarla əl-ələ versəydilər, çox iş görə bilərlərdi. Məbuslar bunu etmədilər.

Millətlərin, dövlətlərin dili mətbuatdır. Bundan da istifadə edilmədi. Hələ də, edilmək təşəbbüsü müşahidə olunmayır. Halbuki, Şuşada qanlı faciə baş verdi. Zəngəzur alov içindədir. Cəbrayıl qəzası təhdid altındadır (deyirlər orada da bir şey var; dünən aldığımız teleqraf da bunu təyid [təsdiq] edir).

Bu gün, sabah Cavanşir qəzası da alışar, böyük bir Qarabağ yanğını əmələ gələr. Heç kəs də bilməz nədən oldu, haradan oldu. Yüzlərcə müsəlman kəndi dağılar, heç gözə görünməz, bir dənə Qaybalı kəndi yandıqda bütün dünya titrər. Təqsir general-qubernatorun boynuna atılar. Vəhalonki [halbuki] mən də, məbuslarımız da, hökumət də, Qarabağda bütün arvad-uşaqlar da, hətta dünyanı titrədən fitnəkarlar özləri də yaxşı bilirlər ki, Qarabağ hadisəsində təqsir tamamilə Erməni Milli Şurasındadır.

Söz gəlmişkən, bunu da qeyd edəlim. Deyirlər Şuşada Erməni Milli Şurasının 5 üzvü qaçmış, 3 nəfəri də general-qubernatorun tələbi üzərinə ingilis heyəti tərəfindən şəhərdən təbid [sürgün] edilmişdir. 3 nəfər təbid edilmiş, buna hamı inana bilər, amma yerdə qalanları necə olmuşlardır? Və Milli Şura ancaq 8 nəfərdənmi ibarət idi ki, 3-ü təbid edildikdə, 5-i qaça və hara qaçmışdır? Doğrudur, ola bilər ki, tutulma qorxusu olan vaxt şəhərdən çıxmışlar. Fəqət uzağa yox, bulvarın başından enmişlər Böyük Daşaltına, oradan Topxananın üstündən Muxtar təriqi [yolu] ilə Şuşa kəndinə, sonra da Keşiş kəndinə getmişlərdir. Orada ətraf kəndlərə səs salıb bir neçə yüz (eşitdiyimizə görə 500) müsəlləh [silahlı] erməni toplayıb sair yaxın kəndlərin adamları ilə köməkləşərək Malıbəyli, Abdal və Güləblı üzərinə hücum etmək istəmişlərdir. Fəqət dava tez sakit olduğundanmı, ya başqa səbəblərə görəmi, nədənsə fikirlərindən daşınmışlardır.

Bu dördüncü dəfədir ki, Şuşa şəhəri və ümum Qarabağ müdhiş yanğın təhlükəsi keçirir. Fəqət, bununla qurtaracaqmı? Xayır! Nə üçün? Səbəbləri gələn məqalədə.

*Qarabağlı*

**QIRMIZI QAN [VƏ] QARA MÜRƏKKƏB**

**- 4 -**

Vətən uğrunda qanını, canını fəda etmək qəsdi ilə yaşayan millət istiqlalını da yaşadar, səltənətini də mühafizəyə qadir olar. Bu yolda ən böyük fədakar bir millət varsa, o da türklərdən ibarətdir. Bunu dəfəatla həm tarix sübut etmişdir, həm də əsrimizdə vüqu bulan türklərin bir çox qəyuranə [qeyrətli] hərəkətləri bunu göstərmişdir.

Timsal üçün uzağa getməyəlim. Azərbaycan türkləri şimal təhlükəsini müşahidə edər-etməz filfövr [dərhal] bunun tədarükünə sarıldılar. Şəhərlərdə, qəsəbələrdə, hətta kəndlərdə müdafiə fikir və tədbirinə qurşandılar. Xəyala gəlməyən həyəcanı müşahidə etmədəyiz. Bir yandan dəmirçilər, baqqallar, əttarlar [ədavat satanlar], xülasə tamam əhli-kəsəbə və sənətkarlar könüllü dəstələri təşkil edib küçələrdə, meydanlarda, hətta məscid həyətlərində hərbi məşqlər öyrənirlər. Bunların arasında 15 yaşında uşaqdan başlamış 60 yaşında əlil qocalara qədər müşahidə olunur. Sənət və kəsblərindən [işlərindən, qazanclarından] fariğ [azad] olan kimi, məşq meydanlarına öylə şövq və həvəslə gedirlər ki, guya bunlar üçün bir toy-bayram hazırlanır.

Əxzi-əsgər [hərbi çağırış] məsələsinə də camaatımız xeylaq rəğbət və həvəs göstərməkdədir. Böylə ki, bir kənddən (Qarabağda) əsgərlik həddinə dolmuş cavanları tələb etdikdə, həman kəndin tamam camaatı ağsaqqallarına qədər böyük bir nümayişlə hökumət nümayəndəsi yanına gedərək izhar etmişlər ki, yalnız cavanları deyil, bəlkə tamam kənd əhli uşaqlarına qədər millət uğrunda fədayican etməyə hazırdırlar. Zənn edirəm ki, çadra fəqərəsi [məsələsi] olmasaydı, müdafiə fəqərəsində qadınlar da kişilərdən geri qalmaya idilər. İştə, türklərin fədakarlıq məsələlərində hazırlıqları!

Burası mühəqqəq [qəti, şübhəsiz] olduqdan sonra, fərz edəlim ki, Ermənistanda və Azərbaycanda səfərbərlik elan edilir. Ermənilərin kişiləri müharibə meydanlarına göndərildyi halda, təlim və tərbiyə görmüş qadınları evlərini müreffəhən [rifah içində] dolandıra biləcəklər və bəlkə müharibə işlərində qadınlığa yaraşan bir çox yararlıq da göstərəcəklər. Azərbaycana gəldikdə, gərək hər evdə əqəllən [ən az] bir kişi qalsın ki, çoluq-çocuğu doyursun, qadınlara pərəstar olsun [baxsın, qulluq etsin]. Böylə olarsa, iki-üç yüz min kişi evdə oturmağa məcbur olaraq qoşunumuzun ədədini xeylaq əskildəcəklər. Bu isə, düşmənlə bizim qüvvəmizin nisbətini pozmağa məcburdur ki, bunun nəticəsi hamıya məlumdur. İştə, qadınların avamlığından törəyə biləcək əngəllər.

Müharibə əsnasında işlənən fənlərin hamısında ermənilərin ənvai [müxtəlif] sənətkarları mövcud olduğu üçün bunları tamamən öz cavanlarına həvalə edəcəklər. Azərbaycana gəldikdə bir çox hərbi fənlərin ustadları hələ ərsəyə gəlmədiyindən, teleqraf, telefon, avtomobil, aeroplan kimi işləri sağ, ya sol firqələrə, yaxud şimal əhlinə həvalə edərsək, şübhəsiz ola biləcək xəyanətləri ilə Azərbaycanı qorxulu uçurumlara atmazlarmı? İştə, millətin fədakarlığı, şühədanın [şəhidlərin] töküləcək qırmızı qanı kifayət edəmməz. Bununla bərabər, məlumatlı şəxslərin məharəti, "qara mürəkkəbi" də lazımdır ki, milləti hər girdabi-fəlakətdən rahi-nicata [nicat yoluna] çıxara bilsin.

Pəs, müharibə əsnasında bizə elmli və mütəfənnin [müxtəlif fənləri bilən] şəxslər lazım olduğu kimi, sülh və müsalimət [əmin-amanlıq] günlərində də daha artıq lazım və vacibdir. Necə ki, bu barədə keçmiş məqalələrdə sübut olundu. Aya, buna bir çarə vardırmı?

Qabaqkı məqalədə buna çarə olaraq təlimi-ümumi və icbarini göstərmişdik. Lakin, buna indidən şüru olunarsa [başlanarsa], dörd ildən sonra nəticə göstərəcəkdir demişdik. Bu məsələnin icrası hökumətdən asılıdır. Bunun layihəsini təsdiq edib mövqeyi-icraya qoyunca, yəqin ki, bir qədər vaxtı zaye etmiş olarız. Bundan əlavə, təlimi-icbarinin faydası həddi-təlimə varmış uşaqlar üçündür. Bəs bu həddi keçmiş cavanlara nə çarə etməli?

İştə, məsələmizin ən böhranlı yeri!

Fədakarlıqdan qaçmayan cavanlarımız könüllü dəstələri tərtib verdilər. Tərtib verib də hökumətdən tələb etdilər ki, bunların təlimi üçün zabitlər təyin etsinlər. İş bir məqama gəlmişdi ki, bunların istidasını [xahişini] hökumət qəbul etməyə bilməzdi. Zira məsələ yoğunlayıb böyük etibar qazanmışdı. Odur ki, hökumət bunların xahişini kamali-şövq ilə qarşılayıb istədiklərinə də sərəncam verdi.

Təlim məsələsində də cavanlarımız, yəni "maarif könüllülərimiz" məzkur [deyilən] qərarla təşəbbüsatda bulunsalar, hər 30-40 cavana bir müəllim tələb edərək maarif məramlarına da nail olacaqlar ümidindəyəm. Az çəkməz ki, bu qərarla yüz minlərlə cavanlarımız savad əhli olub, bununla millətə böyük yararlıqlar göstərmiş olarlar. Xülasətül-kəlam, cavanlarımız bilməlidirlər ki, balığa su fərz olan kimi Azərbaycana da savadlı və maarifmənd şəxslər lazımdır.

Hökumətimiz edadiyyələri milliləşdirəcək, ali mədrəsə açacaq, daha nələr, nələr yapacaq. Bu, uzun bir yoldur. Həm də yaşlılarımız bundan faydamənd olammazlar. Müəllimlərimiz, mollalarımız, ziyalılarımız, zabitlərimiz, tələbələrimiz, hətta şagirdlərimiz, xülasə kim bacarırsa, zəhməti müzayiqə etməyib könüllülərimizə dərs desinlər, savad öyrətsinlər. Məktəblərdə, məscidlərdə, qışlalarda [kazarmalarda], məclislərdə, mehmanxanalarda, hətta karvansaralarda, xülasə hanki mənzildə və harada mümkündürsə dərs verilsin ki, aman günüdür, bəlkə mənzili-məqsudumuza çataq.

Əhalidə böylə bir ciddi təşəbbüslər əlaməti müşahidə olunarsa, şübhəsiz ki, hökumət maddi və mənəvi kömәkləri ilə bunları qarşılayacaqdır.

Əsgərlik fəqərəsini [məsələsini] anlamış cavanlarımız, ey kaş ki, maarif fəqərəsini də öylәcə anlamış olaydılar. Onda arvadlarını, hətta qocalarını da oxumağa vadar etmiş olardılar. Könüllü dəstələrimiz istəsələr, bunu asanca əncama gətirə bilərlər. Xülasə, avam və cahil millət ağalıq edə bilməz, vəssalam.

*Fərhad Ağazadə*

## FELYETON
## NƏŞRİYYATIMIZIN ƏSBABİ-TƏRƏQQİ VƏ TƏDƏNNİSİ

**- 6 -**

İslamlar məmləkətlərini vüsətləndirdiyi qədər də ülum və maariflərini də tövsi etmişlər [genişləndirmişlər]. Bağdadda saçılan ülum və maarif toxumu Xorasan, Rey, Xuzistan, Azərbaycan, Mavəraünnəhr, Misir, Hind, Məğrib, Şam, Əndülüs və sairə kimi yerlərdə də meyvə vermişdir. Məzkur qitələrdə [deyilən ərazilərdə] ülum, maarif parlaq dövr keçirərkən, Bağdadda üləma, süləha və ətibba [alimlər, yaxşı əməl sahibləri və təbiblər] yetişirdi.

Xüləfa, üməra, vüzəra, əğniyadan [xəlifələr, əmirlər, vəzirlər, varlılardan] füqəraya qədər həpsi təlifata [əsər yazmağa] məşğul olurlardı. İslamların ittixaz etdikləri [əldə etdikləri] ülum və maarif dürlü şöbələrə bölünmüşdür. Növbənöv elmlər təlifinə müxtəlif heyətlər təyin edilmişdir. Türk əazimi-üləmasından [Türk alimlərinin ən böyüklərindən] Taşköprüzadə kəndi "Məfatihül-ülum"unda deyir ki, o zamanda elmi şöbələrin ədədi 500-dən ziyadə idi. Ərəb dilinə məxsus ülumi-islamiyyə ilə adabi-islamiyyədən maəda [başqa], elmi şöbələrdən iqtisad, siyasa [siyasət], hikməti-tarixiyyə və coğrafi, tarixi qamuslar [lüğətlər] kimi bəzi asar [əsərlər] vardır ki, islamiyyətdən əvvəl mövcud deyildi.

"Kəşfüz-zünun"a nəzərən islamların yazdıqları kitablar 14501-ə baliğdir [çatır]. Zühur edən fitneyi-ixtilal və sair fəlakətlər əsnasında məhv olan kitablar, şərh və hamiş [dərkənar] surəti ilə yazılan əsərlər bu hesaba daxil deyildir. Hətta islam müəllifləri içində minə qədər yüzlərcə kitab yazanlar olmuşdur.

Məsələn, məşahiri-üdəbadan [məşhur ədiblərdən] Əbu Übeydə 200, əimmeyi-füqəhadan [şəriət hüququ elminin müctəhidlərindən] Əbül-Abbas bin Süreyc 400, Əndülüs kübari-üləma və üdəbasından [Əndülüs alimlərinin və ədiblərinin ən böyüklərindən] İbn Xürrəm 400, Kindi [Yaqub bin İshaq] 231, [Əbubəkr] Razi, [Əbülfəzl] Süyuti, İbn Sina kimi alimlər 100-ə qədər kitablar təlif etmişlər. Hətta Əndülüs üləmasından Əbdülməlik bin Həbib əs-Süləmi və Cəmaləddin əl-Hafiz kimi üləma minər asar [hərəsi min əsər] yazmışlardır. Bu asarın ən ufağı [kiçiyi] 10 cilddən ibarətdir. Halbuki, Sibt bin Cövzinin "Miratüz-zaman"ı 50, İbn Əsakirin "Tarixi-Dəməşq"i 80, Xətib Bağdadinin "Tarixi-Bağdad"ı 14, "Əğani" 20, İbnül-Əsir 20 cildlərdən mütəşəkkildir. Yaqut Həməvinin "Mucəmul-buldan"ını – ensiklopediyasını, İbn Əbdürəbbihin "əl-İqdül-fərid"ini və sairləri dəxi bunlardan qiyas etməlidir.

İslamlar maarif məhşəri-kübərası [böyük maarifpərvərlər izdihamı] içində əsər cəm və tədvininə [əsərləri toplamağa və kitablaşdırmağa] çapalayarkən, təbəqat, məqazi, siyər, tarixi-ümumidən əlavə el ədəbiyyatı, qədim əşarı [şeirləri] belə toplamaq üçün seyrü-səyahətə çıxdıqları kimi, coğrafiyaya da son dərəcə əhəmiyyət vermişlərdir. Bu xüsusda ətraflıca məlumat əldə [etmək] mümkün isə də, lakin Corci Zeydanın yazdığına iktifa edəcəyiz [kifayətlənəcəyik]. Mumaileyh [adı çəkilən şəxs] deyir ki:





İslamların coğrafiya yazmasına üç səbəb vardır:

Birincisi həccdir. Zira, islamlar hansı iqlimdə olursalar olsunlar fərizeyi-həcci [fərz olan həcc ibadətini] ifa etmək üçün Məkkəyə gedirlər. Bir müsəlman Hinddə, ya Çində olsa, həccə getmək ona fərzdir. Binaənileyh [ondan ötrü], yolların bilinməsi lazım idi.

İkincisi elm və məlumat təhsili üçün və fəth etdikləri yerlərdə kübar səhabələrin şər'i-şərifi təlim və təmim etmək [şərəfli şəriəti öyrətmək və yaymaq] üçün səyahət etmələridir. Bu səyahətlərin icrası da gediləcək yerlərin və məntəqələrin bilinməsinə möhtacdır. Buna görə, ərəblərin coğrafiyaya dair ilk yazdıqları asar ərəblərin iqamətgahlarından və bədəvi qəbilələrin qonaq yerlərindən təşəkkül edirdi. Bu yolda ilk əsər yazanlar Əbu Səid Əsmayi ilə Əbu Übeyd Sükuni olmuşdur. Bunları mütəaqibən [bunların ardınca], biladi-ərəb [ərəb ölkələri] haqqında məlumati-coğrafiyyəni havi əsər vücuda gətirilmişdir. Həsən bin Əhməd Həmədaninin "Xərirətül-ərəbi", Əbu Əş'əs Kindinin "Tihamə dağları" və sairələri o cümlədəndir.

Üçüncü səbəb isə ərəblər fəth etdikdən sonra məmləkətlərin alınmasına nəzərən ehkam vəz etmək [hökmlər vermək] idi. Çünki sülh ilə alınan məmləkətin qanunu ayrı, qəhr ilə zəbt edilən yerin ehkamı ayrı idi. Bu nöqtələr ehkami-diniyyədən [dinin hökmlərindən] olduğuna görə, üməra və füqəhanın [əmirlərin və şəriət hüququ mütəxəssislərinin] bilmələri zəruri idi. Bu dəxi tarix və coğrafiyadan asılı idi. Binaənileyh, əcnəbi dillərində bulub tərcümə etdikləri coğrafiyadan maəda [əlavə], kəndiləri də bizzat şərqən və qərbən, cənubən və şimalən, dənizləri, bütün əqtari-kainatı [kainatın bütün tərəflərini] dönüb dolaşaraq gördüklərini, bildiklərini, topladıqlarını təhqiqat üzrə qeyd və tədvin etmişlər [kitablaşdırmışlar].

Hətta yunanlı Batlamyus Klavdinin 4350 şəhərləri, iki yüzə baliğ [çatan] dağların daxilindəki mədənləri hesabati-fələkiyyə və riyaziyyə [astronomik və riyazi hesablamalar] ilə tənzim etdiyi xəritələri havi coğrafiyasındakı bir çox yanlışlıqları təshih etmişlər.

Ərəb alimləri tarixi-ümumiyyəyə dair əsərlər vücuda gətirməyə nasıl sərfi-qeyrət etmişlərsə, coğrafiya elminə dair mötəbər asar yazmağa da öyləcə bəzli-hümmət eyləmişlərdir [səy göstərmişlər].

Ərəblərdə ilk dəfə yazılan müfəssəl coğrafiya dördüncü əsri-hicri ibtidalarında [hicrətin dördüncü əsrinin əvvəllərində] Şeyx Əbu Zeyd Bəlxinin "Süvərül-əqalim"idir. Bu coğrafiyada məmaliki-islamiyyə [islam məmləkətləri] 20 qismə təqsim olunmuş [bölünmüş], hər qismi haqqında müfəssəl məlumat verilmişdir.

Yenə İstəxrinin o əsrdə yazılmış "Məsalikül-məmalik" nam [adlı] coğrafiyasıdır. Müşarünileyh bizzat [adı çəkilən adam şəxsən] əqtari-cahanı [dünyanın bir çox yerini] səyahət edərək bir çox məmləkətlər, dənizlər və şəhərlər haqqında tədqiqat və tətəbböat [araşdırmalar] icra eyləmişdir. Bu dəxi Bəlxi kimi islam məmləkətini 20-yə təqsim etmişdir. Bu qisimlər diyari-ərəb, Cəzirətül-ərəbdən [Ərəbistan yarımadasından] başlayaraq Türküstanda müntəha [son] bulur. Və bu qisimləri ayrı-ayrı zikr və tövsif [vəsf] etməklə bərabər, hər məmləkətin sənaye və ticarətini və sairəsini kamalınca yazmışdır.

İbn Hövqalın yazdığı "əl-Məsalik vəl-Məmalik" daha müfəssəl, daha müntəzəmdir. Müşarünileyh uzun müddət səyahət etmiş, gördüklərini tamamilə yazmışdır. Hər məmləkətə məxsus bir xəritə tənzim etdikdən maəda [əlavə], şəhərləri, nəhrləri, dağları, dənizləri, adaları dəxi tərsim eyləmişdir [çəkmişdir].

Eyni zamanda İbn əl-Fəqih Həmədani, [Şəmsəddin] Müqəddəsi və [Əli bin Hüseyn] Məsudi dəxi coğrafiyaya dair əsərlər yazmışdır. Hətta, Məsudi bir qaç dəfə Hindistanın əqsayi-hüduduna [uzaq sərhədinə] qədər səyahət etmiş, müşahidatını təhqiqat üzrə təhrir eyləmişdir [yazmışdır].

Bu surətlə, get-gedə böyük və müfəssəl olaraq hürufi-heca üzrə [əlifba sırasına görə] coğrafi qamuslar [lüğətlər] vücuda gətirilmişdir. Bilxassə [xüsusilə], 626 hicridə vəfat edən Yaqut Həməvinin "Mucəmul-buldan"ı hamıdan yüksək və mümtaz [seçilmiş] mövqe tutur. Müşarünileyh [adı çəkilən şəxs] bu əsərində məmləkətləri, dağları, dərələri, səhraları, köyləri, qonaq yerlərini, portları, dənizləri, nəhrləri, heykəlləri, bütxanələri, bütləri tərif və tövsif [vəsf] etdiyi kimi, zikr eylədiyi hər şəhərin doğulanları və məşahiri [məşhurları] haqqında geniş məlumat verməklə kitabına bir çox təracimi-əhval [tərcümeyi-hallar] əlavə etmişdir. Böyləliklə, Yaqut Həməvinin bu kitabı həm coğrafi, həm tarixi, həm də ədəbi bir qamus ədd [hesab] olunur.

Əbül-Fəda namı ilə məruf olan [tanınan] Həma əmirinin "Kitabül-müxtəsər fi-əhvalül-bəşər"i dəxi bu qəbildəndir.

Coğrafiya elminin tərəqqisinə xidmət edən bir çox ərəb səyahətnamələri yazılmışdır ki, bütün cahan tarixini və içində yaşayan ünsürlərin ənənatını [ənənələrini], ürf-adatını, rüsum və adabını [mərasimlərini və qayda-qanunlarını] dolayısilə havidir [ehtiva edir].

İslamlarda az müddət zərfində vücuda gətirilən rəsədxanalar, xəstəxanalar, mədrəsələr, kitabxanalar, kimyagərlik, nəbatat və əczaçılıq şayani-təqdirdir [təqdirəlayiqdir].

Aləmi-islamda böyük əllərlə başlanan asari-mədəniyyət hər bir millət üçün cığır açmış və mövzu təşkil eyləmişdir. Burasını avropalı müvərrixlər [tarixçilər] də etiraf edir. Böylə vaqiələrdən şayani-əhəmiyyət birisi də böyük Türkiyə məmləkətinin "şəhərlər şahı" adlanan paytaxtı İstanbulda dəxi yeni icad edilmiş bir mətbəənin təsis edilməsidir.

Ülum və fünunun və hər dürlü əfkari-mədəniyyənin sürəti-intişarına [mədəni fikirlərin sürətlə yayılmasına] xidmət edən mühüm ixtiraatın biri də mətbəəçilik deyilən "fənni-tibaət"dir [çap elmidir]. Bu sənəti 1400 miladidə Almaniyanın Mayns qəsəbəsində doğulan Qutenberq 1440-cı miladi, 844 hicridə icad etmişsə də, Türkiyədə 1139-cu sənədə başlanmışdır. Macar əfazili-müvərrixinindən [tarixçilərinin ən fəzilətlilərindən] Karaçson əfəndi bu xüsusda böylə idareyi-kəlam edir [söz edir]:

1130-da məsnədi-sədarəti ehraz edən [baş vəzirlik vəzifəsini əldə edən] Damad İbrahim paşa ülum və fünun ilə Avropa mədəniyyətinin Türkiyədə təmim etdirilməsini [yayılmasını] arzu və izhar etməkdə idi. Fransa səfarətindən övdət edən [qayıdan] Səid əfəndi təşviqiylə bərabər, qapıçıbaşılarından Mütəfərriqə İbrahim ilə müşarünileyh sədrəzəmə [adı çəkilən baş vəzirə] mətbəə təsisi haqqında müraciət etmişdir. Sədrəzəm həzrətləri təsvib edib [bəyənib], kifayət edəcək miqdarda onlara para vermişdir.

İbrahim əfəndi Vyanadan həkkaklar, hürufat [şriftlər] tökənlər və mətbəəçilər gətirib işə başlamaq istəmişsə də, qeyri-məmul bir mümaniətə [arzuedilməz bir müqavimətə] uğramışdır. Zira o zamanlar İstanbulda yüzlərcə adamlar kitab istinsax etmək [köçürmək] və yazısı olmayanların məktubatını [məktublarını, yazılarını] yazmaqla keçinirlərdi. Onlar bu məsələdən xoşnud olmamışlar. Bir çox patıltı-gurultu çıxarmışlarsa da, ricali-hökumət dahilərinin [dahi hökumət adamlarının] aqilanə tədabiri [tədbirləri] qarşısında bir şey yapammamışlardır.

Üçüncü Sultan Əhməd həzrətlərinin müsaidəsi [icazəsi], Şeyxülislamla bərabər bir çox türk məşahiri-üləmasının [məşhur alimlərinin] yazdıqları təqrizlər [müsbət rəylər] qüvvəsi ilə dedi-qodular bərtərəf olub [aradan qaldırılıb], mətbəəni hicri 1140-da Sultansəlim civarında Mütəfərriqə İbrahim bəy evində təsis etmişlər ki, ta icad edildiyi tarixdən üç əsr sonra olur.

Bu mətbəədə 1140-da təb [çap] edilən kitab məşahiri-üləmadan Vani Məhəmməd bin Mustafanın "Sihahi-Cövhəri" tərcüməsi olan "Vanqulu" nam lüğətdir.

2) Katib Çələbinin "Töhfətül-kübar fi-əsfaril-bihar" nam bəhriyyə tarixidir;

3) "Tərcümeyi-tarixi-səyyah";

4) "Tarixi-Hindi-qərbi əl-müsəmma bə hədisi-növ";

5) "Tarixi-Teymur Gürgan";

6) "Tarixi-Misri-qədim və Misri-cədid";

7) "Gülşəni-xüləfa";

8) İbrahim Mütəfərriqənin "Üsulül-hikəm fil-nizamül-üməm"i;

9) "Füyuzati-miqnatisiyyə"si;

10) Katib Çələbinin "Cihannüma"sı;

11) "Tarixi-Naima", birinci cildləri, ikinci cildi;

12) "Tarixi-Raşid", birinci və ikinci cildləri.

Diqqət edilərsə, zikr olunan əsər sahiblərinin həpsi üməra, vüzəra və onlar nüfuzda məşahiri-üləmadan ibarətdir ki, Türkiyənin "şəriət istəriz" kimi qovğaçıları qarşısında köks gərmişlər və bugünkü tərəqqiyati-elmiyyə və fənniyyənin təməlini qoymuşlardır.

Sərd edə gəldiyimiz silsileyi-məqalatın ibtidasında [meydana qoyduğumuz məqalələr silsiləsinin əvvəlində] demişdik ki, millətdə intibah elmi oyatmaq və eyni zamanda müfid [faydalı] və mötəbər əsərlər nəşr etmək üçün hökumət müsaidə etməli, iş başında əhli olmalı, el düçar olduğu ehtiyacı kəndi müqəddəratına müvafiq rəf etməlidir [aradan qaldırmalıdır].

Təbii, mövzui-bəhsimiz [söhbətimizin mövzusu] olan bu iddialar yalnız beş-altı kəlmələri bir-birinə qoşmaqla ifadə olunammazdı. Buna uzun-uzadıya tarixi dəlillər lazım idi. Məqsədimiz bu yolda veriləcək məlumatı islamlardan başlamaq olduğundan, qüruni-ula [ilk çağ, qədim dövr] mədəniyyətinə müraciət etmədik. Zira qüruni-ula mədəniyyəti nə qədər məchulat və məchulatla məmzuc [məchulluqlarla, bilinməzliklərlə qarışmış] isə, islam tərəqqiyati-elmiyyə və fənniyyəsinə nisbətən o qədər də naqisdir.

Qüruni-əxirədən [axırki dövrdən, yaxın əsrlərdən] də yaxın zaman olduğuna görə

sərf-nəzər etdik. Ancaq mədəniyyəti-hazirənin mucidləri [hazırki mədəniyyəti icad edənlər], fəqət ibtida [əvvəlcədən] ülum və maarifdən bütün bütün məhrum olan ərəb-islamların intibahi-elmiyyəsini və aləmin təqdirinə məzhər [nail] olan müvəffəqiyyətlərlə vücuda gətirdikləri qüruni-vüsta [Orta əsrlər] mədəniyyətini və o mədəniyyətin amillərini ixtisarən şərh və bəst eylədik [meydana qoyduq].

Fəqət tarixə baxılarsa, yalnız islam xüləfa və ümərası deyil, həmişə millətin əfkarını parlatmaq, təbəəsini, məmləkətini abad və mədəni etmək üçün rəsikarda [iş başında] duranlar təşəbbüsatda bulunmuşlardır. Hətta Əfqanıstan kimi dağlıqda belə kitablar hökmdar əli ilə yazılır və nəşr olunur. 1911-ci ilə qədər "Piseyi-əxbar" və sonra "Xülasətül-əxbari-Əfqaniyyə" adında müsəvvər [şəkilli] və olduqca nəfis məcmuələr nəşr edilirdi.

Əcnəbi ünsürlərin bu yoldakı iqdamatına [addımlarına] nəzər edilərsə, bütün asari-mədəniyyə təmimində [mədəniyyət əsərlərinin yayılmasında] hökmdarların, vəzirlərin fəaliyyət göstərdiyi və milyonlarca para sərf etdikləri görülər. Budur, hənuz avropalılarca nim-vəhşi [yarı vəhşi] adlanan Rusiya mədəniyyəti göz önündədir. Ülum və maarifin təmiminə [yayılmasına], məkatib və mədarisin təzayüdünə [məktəb və mədrəsələrin artmasına], nəşriyyat və mətbuatın bolluğuna və nəfasətinə [nəfis şəkildə olmasına] həddən ziyadə para sərf edilmişdir.

Əvət, yuxarıda söylədiyimizdən anlaşılır ki, ərəb tərəqqiyati-elmiyyə və fənniyyəsinə bizzat xüləfa [şəxsən xəlifələr] çalışdığı kimi, sair millətlərin də böyükləri tərəfindən bəzli-hümmət [səy] edilmişdir.

Təbii, böyüklərin əlləri ilə başlanmasa, gərək mənəviyyat, gərək maddiyyatca ufaq [kiçik] əllərdən bir şey çıxmaz. Buna isbat göstərmək üçün cahiliyyət əshabı ərəblərin nəşriyyatı ilə mədəniyyət ərbabı azərbaycanlıların mətbuatı üzərində bir müqayisə icra edəlim.

1905-ci sənədən bəri 300-ə baliğ [çatan] nəşr edilən asarın içində əcəba 50-si dəyərlimidir? Xayır və yenə xayır! Çünki ülum və maarif nəşriyyatı başında qeyri-əhli olaraq bir qəpik mənfəəti güdən tacir otururdu. Ruscada görüb bəyəndiyi hekayələri, nağılları, aşiqanə asarı tərcümə və nəşr etdirirdi. O sayədə bir çox əxlaqsızlığa təqviyət [güc] verəcək ləyaqətsiz vərəqələr dəxi meydana çıxırdı.

Müəllif və mütərcimin yetişməsi də bunun kimi. Naşir (tacir) ağa nə buyururdusa, mühərrir [yazıçı, müəllif] onu dinləyir, itaət edirdi. Rus çarizmi islamları ruslaşdırmaq yolunda məsai sərf [etdiyi] qədərdə də tacirlər, naşirlər mühərrirləri təzib etmək [müəlliflərə azab vermək] xüsusunda tədabir ittixaz edirdi [tədbirlər görürdü]. Böylə qəddar şikəncələrə [işkəncələrə] düçar olan mühərrirlərin çoxu hali-həyatdadır. Gördükləri həqarətdən dolayı indi də sızlayırlar.

Həmd olsun, şimdi kəndi hökumətimiz, kəndi məmləkətimiz vardır. Təlifə [əsər yazmağa] müqtədir müəlliflərimiz, tərcüməyə mahir mütərcimlərimiz mövcuddur. Ərəblər xəlifələrindən, sair millətlər hökmdarlarından sənayeyi-nəfisə və asari-mədəniyyəyə [incəsənətə və mədəniyyət əsərlərinə] aid nə görmüşlərsə, biz dəxi gənc Azərbaycan Hökuməti-əbədmüddətindən onu bəkləyiriz. Eynilə görəcəyimizə qəviyyən [möhkəm] əminiz.





Zira sabiq Maarif naziri, şimdi Rəisi-vükəla məqamını ehraz buyuran Yusifbəyli Nəsib bəy həzrətləri müsahibəmiz əsnasında mükəmməl bir nəşriyyat binası qoyacağını və ona məxsus ayrıca bir mətbəənin təsisini, 250 səhifədən ibarət aylıq bir məcmuə nəşr etdirəcəyini lütfən vəd buyurmuş və ləvazimatından da hürufat alınmış. Bəzi qəbul edilən kitabların smetası tərtib edilmişdir. Şimdi hökuməti-aliyyəmizin [uca hökmətimizin] yeni Maarif nazirindən müşarinileyhin [adı çəkilən şəxsin] tutduğunu təqiblə bərabər, tarixi, elmi, coğrafi, ədəbi, fənni və sair bunlar kimi asarın tərcümə və təlifi üçün elm və ədəb ərbabından bir heyətin təşkili və o heyətin tədqiq və təhqiqi ilə saheyi-intişara qonulacaq [çap ediləcək] asari-elmiyyənin təmimi [elmi əsərlərin yayılması] yolunda hər dürlü fədakarlığın qəbul və icra olunacağına ümidvarız.

*Ə. Müznib*

**NAXÇIVAN MƏKTUBATI**

**- 2 -**

İki gün sonra general Devi Naxçıvana gəldi. Şəhərin möhtərəmləri (?!) istasyonda onu istiqbal edərək [qarşılayaraq] kamali-ehtiramla [Naxçıvanski] Kəlbəli xanın evlərinə gətirdilər. Hind əsgərləri xanın imarətinin nəzdində müsəlləh olaraq [silahlı] durmuşlardı. Hər tərəfdən əhali sel kimi axıb gəlmədə idi. 20 dəqiqə keçmədi ki, xanın imarətinin ətrafı və Bəylər meydanı camaatla məmlu oldu [doldu]. Hər kəs kəndi ağıl və düşüncəsi ilə Devinin nə deyəcəyini mülahizə edirdi. Böyləcə, çar-çeşmlə [dördgözlə] camaat gözləri qapıda tam bir saatdan ziyadə müntəzir qaldı. Qəflətən xanın odasından İbrahim bəy Kəngərli dişarıya çıxdı. Əhali bir anda onun dövr-bərini [ətrafını] alaraq qulaq asmağa başladı. İbrahim bəy zeyldəki [aşağıdakı] sözləri söyləməyə başladı:

Devi həzrətlərinin bizim sözlərimizə cavabı bu oldu:

*"Əhaliyə dağıdılmış [paylanmış] elanların məzmunu doğrudur. Onu mən kəndim imza etmişəm. Mayısın 3-dən siz və Şərur, Ordubad əhaliyi-islamiyyəsi müvəqqəti olaraq erməni təbəəsi hesab olunursunuz. Ermənilərə qarşı heç bir etirazfilan qəbul olmayacaqdır. Çünki Qafqaziyada Azərbaycanla Ermənistan beynində [arasında] qaç mübahisəli qəzalar vardır ki, o qəzalar mütləqa bu iki millətin arasına müharibə və münaqişə sala bilərlər ki, ondan da qan tökülmək əmələ gələ bilər. Məsləkimiz qan tökməyə müğayir [zidd] olduğundan, bu xüsusda Müttəfiq dövlətlərə yazıldı. Cavabında İstanbuldan Müttəfiqlər nümayəndələri əmr etdilər ki, Şuşa qalası ilə Zəngəzur qəzaları bilamübahisə [mübahisəsiz] Azərbaycana verilməklə bərabər, Naxçıvan və Şərur qəzaları da müvəqqətən Ermənistan təhti-idarəsinə [idarəsi altına] keçməlidir. Məzkur [adı çəkilən] qəzalarda bulunan erməni və müsəlmanlar hər kəs kəndi hökumətinə izhari-əbdiyyət etməlidir [tabe olduğunu göstərməlidir]. Əks təqdirdə asilər cəzalarına çatacaqlar. Çünki Azərbaycan və Ermənistana itaət etmək istəməyənlər bizə itaət etməyirlər deməkdir."*

Nümayəndələrimizdən bir çoxları Devi cənablarına ərz etmişlərdi ki, biz erməni-

lərlə yaşayammayız. Bizimlə onların beynində [arasında] olan rəqabət və ədavət məlumi-alilərididir. Mümkün olarsa, Naxçıvan və Şərur qəzalarının idarə edilməsini qonşumuz İran Hökumətinə tapşırsınlar. Yaxud ingilislər Sülh Konfransı bitənə qədər kəndləri məzkur əhalini idarə etsinlər. Cavabında buyurmuşlardı ki:

*“Qətiyyən öylə iş olammaz. Əski ədavətlər keçdi. Ermənilər müsəlmanlara qarşı fəna hərəkatda bulunammazlar. Çünki Naxçıvanda həmişə ingilis missiyası oturub da haqsızlığın önünü alacaqdır.”*

Başqa söz söyləyənlər də olmuşlardısa, heç birisinə cavab verməyərək xətmi-kəlam etmişdir.

Camaatın razısızlığına gəlincə, Devi buyurmuşdu ki:

*“Mətbuat aləmi açıq olmaqla bərabər, siz hürsünüz, daima izhari-nifrətinizi (protestonuzu) yaza bilərsiniz. Hətta bizim təvəssütümüzlə [vasitəmizlə] Müttəfiq dövlətlərə belə fikirlərinizi, arzularınızı bildirə bilərsiniz.”*

Ondan sonra camaat mütəfəkkir [fikirli] və yəsnak [qəmgin] halda evlərinə dağılıb getməyə başladı. Devi qışlaya [kazarmaya] hərəkət etdikdən sonra camaat əcələ ilə hökumət idarəsinə yığışaraq oradaca rusca rəsmən ingilis general-qubernatoruna təslim edilmək üçün bir protesto yazıb Parlaman sədri ilə sabahısı gün Devi getdikdən sonra Tiflisdə Baş komandan Tomsona göndərmək üçün qubernatora göndərdilər ki, məzmunu ixtisarən böylə idi:

*“Biz ermənilərə rəiyyət olmaq istəməyiriz. Britaniya Hökuməti bizi zorla onlara tabe edir. Biz ermənilərə rəiyyət olammayız. Çünki əvvəla onların da bizim kimi hökumət olmaları təsdiq edilməyibdir. Saniyən [ikincisi], kəndilərini idarə edə bilməyən bir millət bizə hökmran ola bilməz. Salisən [üçüncüsü], bizlə onların beynində [arasında] şimdiyə qədər nə kimi ədavət törədiyi, qan töküldüyü məlumi-aliləridir ki, böylə milli ədavətlə yaşamış iki millətin birini o birisinə hakim etdikdə qoyunu qurda tapşırmaq deməkdir. Hakim tərəf, təbii, qisas alacaqdır. Şanlı, mədəni, insanpərvər Britan Hökumətinin nümayəndəsindən acizanə rica ediriz, bizi ermənilər kimi xunriz [qan tökən] bir millətin çəngalına [caynağına] verməyib də, ya İrana mülhəq etsin [birləşdirsin], yaxud kəndisi koloniya [müstəmləkə] hesabında idarə buyursun və yaxud bu iş müvəqqəti olduğunda[n] bizi kəndi-kəndimizə idarə etməyə buraxsınlar və kəndləri də nəzarət etsinlər. Böylə olmazsa, biz bu hərəkətə qarşı protesto ediriz.”*

Sabahısı günü sədr qışlada [kazarmada] aparıb rəsmən zərfi general-qubernatora təslim edib, imza alıb gətirmişlər. General-qubernator məəlməmnuniyyə [məmnuniyyətlə] zərfi qəbul etməklə bərabər, sədrə söyləmişlər ki, rahatsız olmayın, protestonaməniz tezliklə yerinə çatar və cavabını sizə söylərəm.

*(Mabədi var)*

*Tamaşaçı*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan və Gürcüstan istiqlaliyyətinin təsdiqi**

“B. J.” qəzetəsi xəbər verir ki, İstanbuldan alınmış xəbərlərə görə, Sülh Konfransı Azərbaycan ilə Gürcüstanın istiqlaliyyətini qəbul edir. Bu şərtlə ki, bu iki Cümhuriyyət federasiya əsası ilə birləşib Rusiya dövlətinin borcundan 6 milyar manatını öz öhdəsinə qəbula razı olsun.

**Türkmən gəmisində bolşevik tutulması**

Cümə günü iyulun 11-də Bibiheybət kəndi dalında bir türkmən gəmisində Lənkərandan qaçan 7 bolşevik tutulub Bakı həbsxanasına salınmışdır. Məhbuslar bir həftə var ki, dənizdə qalmışlar və ərzaqsız qaldıqlarından qırağa çıxmağı qərara almışlardır. Buna görə, əvvəlcə gəmiçini qətl etmişlər. Onların dediyinə görə, dənizdə böylə gəmilərdən çoxdur. Gəmilərdə son hadisələrdən sonra Lənkərandan qaçmış bolşeviklər vardır. Ərzaqları olmadığından dənizdə onların halı çox pis keçirmiş.

**Parlaman komisyonlarında**

*Maliyyə-Büdcə komisyonunda*

* Ermənistanda müsəlman qaçqınlarına yardım üçün hökumət tərəfindən 3 milyon para buraxmaq üçün təqdim olunmuş layihə Maliyyə-Büdcə komisyonu tərəfindən qəbul olunub, bu günlərdə Parlaman təsdiqinə təqdim olunacaqdır.

* Zəngəzur qaçqınlarına yardım üçün smetadan xaric olaraq Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] 18 milyon 250 min manat para buraxılması Maliyyə-Büdcə komisyonu tərəfindən qəbul olunmuşdur.

* Maarif Nəzarətinin təqdim etdiyi iki aylıq pedaqoji kursları güşadı [açılması] haqqındakı qanun layihəsi Maliyyə-Büdcə komisyonu tərəfindən qəbul edilmişdir. Tələb olunan məbləğ[in] buraxılması təhti-qərara alınmışdır.

**Mütəallimlər üçün hazırlıq kursları**

Milli şöbələrdə türkcə zəif olub da, indi hazırlanmaq istəyən mütəallimlərdən [şagirdlərdən] rica olunur Birinci Realnı məktəbində müəllim Abdulla Şaiqə müraciət etsinlər.

**Müəllim və müəllimələr kursları**

Məlum olduğu üzrə Hökumət tərəfindən müəllim və müəllimələrdən ötrü xüsusi hazırlıq kursları açılmasına qərar verilmişdi. Kurslara zəif və hazırlığa ehtiyacı olan müəllimlər qəbul olunacaqdı. İndi həman məktəbin iki sinifi vardır, dolmuşdur vəhalonki [halbuki] hər tərəfdən müəllimlər gəlib kurslara daxil olmaq istəyirlər. Kursların müdiri Mahmudbəyov Mahmud bəy əfəndi isə maddi qüvvənin olmamasına istinadən gələnləri artıq qəbul etməyir. Biz zənn ediriz ki, Hökumət vətənimizin müəllimlərə olan əşəddi-ehtiyacını [şiddətli ehtiyacını] nəzərə alaraq lazım qədər para buraxar və nə qədər gəlsə, hamısını qəbul edib millətimiz üçün müəllim qüvvələri hazırlığına qüvvət verər.

**Maarif Nəzarətinin Təlif Komisyonunda**

Milliləşdirilmək üzrə olan məktəblərimiz üçün türkcə kitablar hazırlamaqdan ötrü Maarif Nəzarəti cənbində [nəzdində] təşkil olunan Təlif Komisyonunda ibtidai məktəbi üçün, rüşdiyyə məktəblərinin 1, 2, 3-cü sinifləri üçün və edadilərin 3-cü siniflərinə qədər lazım olan kitablar hazırlanmışdır. Hazırlanmış kitablar əlan

[indi] hökumət tərəfindən təşkil edilmiş xüsusi mətbəədə təb [çap] olunmaqdadır. Əvvəl sırada ibtidai məktəblərin kitabları təb olunur.

Təlif Komisyonu zeyldəki [aşağıdakı] şöbələrdən ibarətdir:

1) Riyaziyyat şöbəsi;

2) Tarix və ədəbiyyat şöbəsi;

3) Tarixi-təbii və coğrafiya şöbəsi.

1-ci şöbədə fizika, əlcəbr, başqa riyaziyyata aid elmlər, 2-ci şöbədə ümumi türk tarixi, ümumi mədəniyyət tarixi və Azərbaycan tarixi hazırlanır. Ədəbiyyat şöbəsində isə ədəbi kitablar hazırlanır. 3-cü şöbədə tarixi-təbii, ümumi coğrafiya və bir də Azərbaycan coğrafiyası tərtib olunur.

Havanın istiliyinə baxmayaraq müəllimlər və mühərrirlər gecə-gündüz çalışırlar. Hazırlanmış materiallara hər şöbə ayrı-ayrı baxandan sonra bir də ümumi iclas çağırılaraq müzakirə olunur. Təsdiqdən sonra kitabların imlaca ümumiləşməsinə başlanır. Necə ki məlumdur, hər müəllimin xüsusi bir imlası mövcud olması kitabların cürbəcür imlada olmasına səbəb olur. Bunu rəf [aradan qaldırmaq] üçün Təlif Komisyonu [Ağayev] Tofiq Nurəddin əfəndini dəvət etmiş və komisyonca qəbul olunan Əhməd Rasim imlası ilə kitabları təshih etməyi ona həvalə etmişdir. İmla təshihatından sonra kitablar mətbəəyə gedir.

**Həkimlərin əsgərliyə dəvəti**

Azərbaycan Məclisi-Məbusanının iyun ayının 19-da Azərbaycan Cümhuriyyəti daxilində yaşayan həkimlərin həqiqi əsgəri xidmətə dəvət edilmələri haqqında qəbul etdiyi qanuna görə Bakı uyezd Əxzi-əsgər [əsgərliyə çağırış] idarəsi (Persidski və Qubernski küçələrin küncündə, Şaqidanovun evində) Bakı və Balaxanı-Sabunçu dairəsində yaşayan və 45 yaşından yuxarı olmayan bilaistisna [istisnasız] bütün həkimləri həmin iyul ayının 18-də, səhər saat 9-da Əxzi-əsgər idarəsinə qeyd edilməkdən ötrü dəvət edir. Həkimlər özləri ilə bərabər onların ailədar olub-olmadığını, hanki dinə mənsub olduqlarını, əsgəri xidmətdə olduqlarını, darülfünun [universitet] qurtardıqlarını, hanki naxoşluqlarda ixtisas sahibləri olduqlarını isbat edici sənədlərini dəxi təqdim etməlidirlər. Həkimlərin əsgəri xidmətə cəlbləri haqqında qayda və şərait iyulun 13-də Əxzi-əsgər idarəsində elan ediləcəkdir.

**Ev Sahibləri İttifaqında**

Sentrodomun [Mərkəzi Ev Komitəsinin] Mənzil Komisyonu tərəfindən Daxiliyyə Nəzarətinə təqdim olunan yeni mənzil qanunu layihəsinin bəzi üzvlər tərəfindən qəzetədə oxumaqla gücə minmiş hesab etdiklərini Bakı Ev Sahibləri İttifaqı müzakirə edib, ev sahiblərini məhəllə nümayəndələri vasitəsilə xəbərdar edir ki, zikr olunan layihə hökumət tərəfindən təsdiq olunmamışdır, heç bir qanuni qüvvəsi yoxdur və ev sahibləri bununla iş görə bilməzlər. Öz növbələrində ev sahibləri də hökumətə mənzil məsələsinə görə bir məruzə verib rica etmişdir ki, mənzil məsələsinin həlli üçün bitərəf bir komisyon təşkil etsin.

**"İki inqilab arasında"**

Bakı müharibəsi zamanı Azərbaycan istiqlalı və Azərbaycan türkləri əleyhinə təbliğat aparan bəzi Tiflis mətbuatına və siyasi firqələrə cavab olaraq Məhəmmədzadə Mirzəbala tərəfindən təfriqə surəti ilə Tiflis qəzetələrində buraxılmış və sonra Tiflis türk gəncləri tərəfindən təb [çap] olunmuş "İki inqilab arasında" adlı bir kitab təbdən çıxıb satışa qonulmuşdur.

**Uşaq itibdir**

20 gün bundan əvvəl Tovuz mövqifində [stansiyasında] 9 yaşında irəvanlı Muxtar Əhəd oğlu itibdir. Uşağın əynində sarı gömlək, başında ağ papaq, ayağında çust vardır. Uşağı tapanlardan rica olunur ki, Quberniski küçədə Ələkbərzadə Zeynalabdinin dəllək dükanına bildirsinlər.

**Qaçqınların teleqrafı**

Gəncədən idarəmizə böylə bir teleqraf gəlmişdir:

Hal-hazırda Gəncədə yaşayan biz İrəvan quberniyasının müsəlman qaçqınları izdihamlı mitinqdə Ermənistanda olan müsəlmanların əhvalını müzakirə etdik. Ermənistanda müsəlmanlar əleyhinə görülən hərəkətlər, bir çox müsəlmanları qətl və onlara təcavüz olunması, kəndlərin dağıdılması, ələlümum tədriclə müsəlmanların məhvi bizi protesto eyləməyə vadar edir. Erməni Hökuməti tərəfindən nəinki tədbirlər görülməyir, hətta Ermənistan Hökumətinin aşkar köməyi ilə dinc müsəlman əhalisi haqqında hər cür narəva [nalayiq] hərəkətlər görülür. Bir dəstə nahəmvar [zorba] adamlar əli altında olan erməni hökumətinin quldur dəstələri hər cür cinayət yapmaqdadırlar. Nizami dəstələrin Vedibasar üzərinə hərəkəti, Naxçıvanda olan məşhur camaat xadimlərinin həbsi müsəlmanların hüququnu tapdamaqdan ibarətdir.

Naxçıvanlıların hüququna bu cür təcavüz etmək erməni məmurları tərəfindən qəbul ediləmməz və narəva bir hərəkətdir. Ermənilərin Ermənistanda olan müsəlmanlara bu cür münasibatı və hər cür xudsəranə [özbaşına] hərəkətlər, məsələn, mauzerçi vergiyığanlar tərəfindən vergi, naloq adı ilə külli miqdarda müsəlmanlardan kontribusiya [xərac] tələb eyləmək və müsəlmanların tədriclə məhv edilməsi ciddi beynəlmiləl toqquşmasına bais olacağı şübhəsizdir.

Fövqdə zikr olunan əhvala [yuxarıda deyilən hallara] görə, mitinq qət etmişdir, Azərbaycan Parlamanından xahiş etsin ki:

1) Bu xüsusda Qafqaziyada olan Müttəfiq Komandanlıq xəbərdar edilsin. Müttəfiq Komandanlıq ermənilərin Ermənistanda cinayətkaranə hərəkətlərinə ciddi surətdə diqqət yetirib ermənilərin müsəlmanlar haqqında gördükləri qanlı hərəkətlərə soyuqqanlılıqla baxmamalıdır.

2) Ermənistan hökuməti ilə münasibata girişməlidir ki, Ermənistan hökuməti vaqe ola biləcək milli qırğının qabağını almaq qəsdi ilə ermənilərin müsəlmanlar əleyhinə müsəlləh [silahlı] surətdə olan çıxışlarını tezliklə dayandırıb, müsəlmanların bütün siyasi və ictimai hüquqlarını təmin üçün təcavüzün qət olunmasından [kəsilməsindən] ötrü tədbirlər görməklə bərabər, Naxçıvanda həbs edilən camaat xadimlərini tezliklə həbsdən azad eyləsin. Biz qaçqınlar bunu da izhar edirik ki, var qüvvəmizlə Ermənistan Cümhuriyyətində olan ermənilərin cinayətkaranə hərəkətləri əleyhində mübarizə edəcəyik.

*Mitinq sədri: Kazımov*

*Katib: (imza)*

**AZƏRBAYCANDA**

**Qızılağacın bombardmanı**

Eşitdiyimizə görə, şəvvalül-mükərrəm ayının 10-da [9 iyulda] "Milyutin" paroxodu Lənkəran bolşevikləri tərəfindən gəlib Qızılağac qarşısında durarkən qəflətən Qızılağacı bombardmana başlayıb, əhali tərəfindən müqavimət gördükdə müvəffəqiyyətsizliklə Lənkərana doğru hərəkət edib də, nəticə də bu olubdur: iki ev və bir buğda tayası yanıbdır.

**Qubadan**

Qusar və Müşkür nahiyələrində hökmfərma olan [hökm sürən] bəzi qanunsuzluqdan əhali narazı olaraq Xuluq qəryəli [Xuluq kəndindən] Hacı Cavad Vəlibəyzadəni vəkil edərək Bakıya ezam etmişlərdir. Mumaileyh [haqqında danışılan] Hacı Cavad əfəndi Rəisi-vükəlaya [Baş nazirə] əxzi-əsgər [hərbi çağırış idarəsi] və kənd divanxanalarının milliləşməsi və maarif ümuratı [işləri] haqqında bir ərizə təqdim qılaraq, Rəisi-vükəla dəxi lazım gələn tədabiri səriyyən ittixaz edəcəklərini [tədbirləri sürətlə görəcəklərini] bəyan buyurmuşlardır.

Kəza [eləcə də] Xuluq Nəşri-Maarif Cəmiyyəti tərəfindən güşad edilmiş [açılmış] olan Xuluq müəllimlər kursunun təsdiq olaraq hökumət kursu ilə müsavi [bərabər] hüquqda tutulması yanında, Maarif Nəzarətinə bir ərizə və ərizəyə ləffən [əlavə edilməklə] kurs proqramını dəxi təqdim edərək, Nəzarəti-müşarünileyha [haqqında danışılan Nazirlik] Xuluq camaatının böylə vətənpərvəranə hərəkətindən son dərəcə məmnun olaraq Maarif naziri həzrətləri səriyyən [tez bir zamanda] lazım gələn müamilatı [işləri] icra eyləyəcəyini bəyan buyurmuşlardır.

**Şuşadan**

Şuşa Türk Mütəəllimlər Komitəsi tərəfindən Bakı qurultayına 1335 sənəsi 26 həziranda [26 iyun 1919-cu ildə] intixab olunmuş [seçilmiş] nümayəndələrin etdikləri təşəbbüsat sayəsində məzkur [deyilən] komitəyə Şuşa şəhərində Hacıbəyli Qardaşları Müdiriyyətinin Qarabağ şöbəsini təşkil etməyə vəkalət verilmişdi.

Məzkur komitənin 14 həziran [iyun] tarixli iclasında bu məsələni həll etdikdə, Müdiriyyət şöbəsinin ümdə heyəti-idarə əzaları [idarə heyəti üzvləri] üzrə Rəşid Yusifzadə, Hacı Zalov, Əziz İbrahim Tahirzadə, Hüseyn Hacızadə, Əsəd Məhərrəmovdan ibarət 5 nəfərlik bir heyət seçildi.

Müdiriyyətin yeni təşkil olunmuş Qarabağ şöbəsinin əvvəlinci iclası 17 həziranda vaqe olub, Rəşidə müdirlik, Hacıya dəftərdarlıq, Əzizə şöbəni idarə etmək, Hüseynə admnistratorluq və Əsədə katiblik vəzifələri tapşırılmışdır.

Şöbə həman gündən etibarən pərakəndə dağılıb pozulmuş həvəskarları toplamağa və lazımi iltizamlar [öhdəliklər] almağa davam edir. Bu günlərdə isə idarə nəfinə [xeyrinə] olaraq "Evliykən subay" operettasını oynamağı təhti-qərara almışdır.

Bir qaç mütəəllimlər [tələbələr] təşəbbüsatı ilə bir arxadaş nəfinə [xeyrinə] olaraq 16 həziranda mövqeyi-tamaşaya qoyduqları operettadan 491 rublə şöbə kassasına vasil olmuşsa da, fəqət bu paradan 241 rublə həman zəvatın [şəxsin] ərizələrinə binaən [əsasən] şöbənin səlahdidi [razılığı] ilə fəqir mütəəllim faydasına qaytarılmışdır. Bununla bərabər, 29 həziranda Koçeryan nam [adlı] erməni artisti tərəfindən oynanılan operettadan 1335 rublə şöbəyə yetmişdir. Bu paradan yalnız 20 rublə kağıza və 200 rublə 3 ədəd möhürə məsrəf olunmuşdur.

**Lənkəranda**

Bolşeviklər hiylə və aldatmaq sayəsində Lənkəranda rus, müsəlmanlardan mütəşəkkil Muğan dəstəsinə qalib gəlmişlərdir.

Muğanlıların Lənkəran üzərinə yürüş etdiklərini bilərək [D. N.] Kropotov və [V. D.] Suxorokov musiqi ilə muğanlıları istiqbala [qarşılamağa] çıxmışlardır. Şəhərin kənarında müsəlman dəstəsinin komandiri Xoşev bunları həbs edib ştaba göndərmişdir. Bolşeviklərin başçısı olan bu həriflər özlərinin müşkül halını görüb and içmişlər ki, hər bir ixtiyarı Muğan dəstəsinə versinlər, yalnız bunları azad etsinlər və bunlar da öz adamlarına icrayi-nüfuz etsinlər ki, silahlarını muğanlılara verməyə müvəffəq olsunlar. Bunlar da təvəqqe etmişlər ki, atəş kəsib qoşunlarını da şəhərdən çıxarsınlar.

Cavan təcrübəsiz Xoşev bunlara inanıb Şurayi-Hərbiyyəyə sormadan, bizzat kəndisi atəşin dayandırılmasına və yuxarıda zikr edilən şəxslərin azad edilməsinə əmr verir. Eyni zamanda Qırmızı qoşun nəfəratı [əsgərləri] ilə muğanlılar arasında müharibə gedirmiş. Muğanlılara Qızılağac və Caraylı əhalisi müavinət edirmiş.

Kropotov və Suxorokov həbsdən azad edildikdən sonra Qırmızı qoşunlar məxfi surətdə hücum əmri almışlardır. Deməli, muğanlılar səngərlərini buraxıb şəhərdən çıxdığı zaman bolşeviklər hücuma keçmişlərdi. Muğanlılar mühasirə edilmələrindən və yeksərə [tamamilə, hamılıqla] qırılmalarından ehtiyat edərək qaçmağa başlarlar. Böyləliklə, Xoşevin təcrübəsizliyindən dolayı bu müharibədə muğanlılar uduzmuşlardır.

Muğanlılar ricət edərkən [qaçarkən] bolşeviklərə mütəəlliq [məxsus] olan 3 top ilə 2 pulemyotu da özləri ilə bərabər aparmışlardır. Bütün ziyalı müsəlmanlar da muğanlılarla bərabər şəhərdən getmişlərdir. Bunlar sabiqdə bolşeviklərə qulluq edib də sonradan muğanlılara kömək etmişlərdir və şimdi də bolşeviklərin intiqamından qorxaraq şəhərdən çıx-mışlardır. Bolşeviklər müsəlman və rus- lardan artıq dərəcədə narazı qalıb arvad-uşaqlarından intiqam almışlardır.

İkinci hissə muğanlıların hücuma keçəcəklərindən ehtiyat edərək Suxorokov və Kropotov Sara cəzirəsində [adasında] gizlənmişlərdir. Axırıncı müsəlman qırğınının "pəhləvanı" olan Qorlin 33800 rublə pul ilə Salyan təriqi [yolu] ilə Bakıya qaçmışdır. Bu işlərdən dolayı Lənkəran mahalında iki cümhuriyyət əmələ gəlmişdir. Biri Muğan, biri də Lənkəran Cümhuriyyətidir. Qumbaş çayından Cavad mahalınadək birincinin, Qumbaşdan Qala dağınadək ikinci cümhuriyyətin idarəsi altındadır.

Bolşeviklər tərəfindən Mirmehdi xan Talışınski qətl edilib, Nurulla bəy Nəsirbəyov ölümcül surətdə əzilmişdir. Pavel İvanov və Reytman muğanlılara kömək etdiyi üçün hər ikisi qətl edilmişlərdir. Vəlhasil, hal-hazırda Lənkəranda bolşevik keyfəmayeşası [özbaşınalığı] davam edir.

**Azərbaycan Astarası**

Lənkəranda bolşeviklər tərəfindən müsəlmanlara qarşı edilən məzalimdən [zülümlərdən] Astara əhalisi həyəcana gəlib Hüseyn Xəlil bəy və Hacı Osman dəstələrinə talışlılardan könüllülər gəlməkdədir. Lənkəranda günahsız olaraq bolşeviklər tərəfindən atəşə tutulan müsəlmanlar üçün intiqam almaq istəyirlər. Talış dağlarınadək kəndçilər üsyan etmişlərdir. Oarada cavan talışlılar Lənkəran üzərinə hücuma keçmişlərdir.

İyulun 6-da müsəlmanlar hücuma başlayıb Gələdəhnə və Püsədəhnə yanında qızğın müharibə vaqe olub, bolşeviklərə böyük tələfat verilmişdir. Bolşeviklər 12 nəfər meyitlərini buraxıb qaçmışlardır. Onların 8 nəfəri erməni, 3 nəfəri isə rusdur.

Bolşeviklərdən zeyldəki [aşağıdakı] şeylər qənimət alınmışdır: 1 pulemyot, 2 at, 10 kisə un, 10 kisə arpa. Bürcəli və Alekseyev[ka] nam rus kəndləri bitərəflik saxlayıb nə bolşeviklərə və nə müsəlmanlara kömək etməmişlərdir.

## TEATRO VƏ MUSİQİ

**"Operetta"**

Bu gün axşam iyulun 14-də Hökumət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən şükuhlu [təntənəli] bir surətdə "O olmasın bu olsun" operettası mövqeyi-tamaşaya qoyulacaqdır. Bu dəfə Məşhədi İbadın rolunu məşhur komik Mirzəağa Əliyev ifa edəcəkdir. Tamaşa başlanacaq axşam saat doqquzun yarısında. Biletlər satılır teatrın kassasında.

**İtmişdir**

Göyçay Əxzi-əsgər komisyonu tərəfindən Cəbrayıl Məşhədi Haşım oğlu Cəbrayılzadəyə 10 nisan [aprel] 1919 tarixi ilə 164 nömrəli, yaşı cəhətindən əsgərliyə düşməməyi xüsusunda verilmiş şəhadətnamə itib. Etibardan saqitdir [etibarsızdır].

*5436*

**İtibdir**

Nəsib Heydər oğlunun Tiflis quberniyasından aldığı pasportu itib. Etibardan saqitdir.

*5433*

**İtibdir**

Əsədulla Mirzəqəni oğlunun Şamaxıdan aldığı pasportu itib. Etibardan saqitdir.

*5434*

**Bağ satılır**

Pirşağıda Hacı Mirvahab Seyid Kamil oğlunun bağı, Hacı İmaməli oğlunun bağının yanında. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Tatarski, nömrə 33.

*5435*

**Satılır**

Dükan, elektrik işığı və hər bir əşyası ilə. Krasnokrestovski küçə, nömrə 22.

*5432*

İngilis motosiklet, yan arabası ilə (Motorio zavodu), beş at qüvvəsində, tamam mükəmməl surətdə olaraq satılır. Talib olan Nikolayevski küçədə "Təbriz" mehmanxanasında kontorda görə bilər.

*5429*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*





**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor**
**S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Diş həkimi**
**B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Elan**

Təzəpir məscidi cənbində [yanında] yarım binalı bir qitə yer, işbu iyul ayının 25-ci günündə müzayidə (torq) [hərrac] olacaqdır. Məlumat üçün Qəzavətxana [Qazılıq] idarəsinə müraciət etməlidir.

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 231. "Azərbaycan Dəmiryol Müdiriyyətindən / Əmrnamə nömrə 66": qəzetdə bu iki sətirin yeri dəyişik düşmüşdür.

səh. 232. "Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

**Teleqraf xəbərləri**

səh. 233. "Skapada": bu coğrafi ad qəzetdə təhrif edilmişdir; Şotlandiyanın Orkney adalarında Skapa-Flou limanı nəzərdə tutulur. Birinci Dünya müharibəsindən sonra Almaniya hərbi-dəniz donanmasının bir hissəsi bu limanda qərq edilmişdir.

**Qəzetələrdən**

səh.233. "Hindenburq": qəzetdə "Gindenburq" kimi getmişdir.

**Türküstanda**

səh. 234. "Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

**Felyeton**
**Nəşriyyatımızın əsbabi-tərəqqi**
**və tədənnisi – 6**

səh. 242. "Əğani": ərəb tarixçisi və ədibi Əbülfərəc İsfahaninin bəstəkarlar və müğənnilər haqqında əsəri.

İsfahani, Əbülfərəc (897-967): ərəb tarixçisi və ədibi.

"İbnül-Əsir": Ərəb tarixçisi İbnül-Əsir İzzəddin əl-Cəzərinin ümumi tarix kitabı olan "əl-Kamil fit-tarix" nəzərdə tutulur.

"təbəqat": alimlərin, şairlərin, müxtəlif peşə sahiblərinin bioqrafiyalarının toplandığı kitablar.





"məqazi": din uğrunda müharibələrə (qəzalara) dair əsərlər.

"siyər": Həzrəti-Məhəmmədin həyatından bəhs edən əsələr.

səh. 244. "Əbül-Fəda namı ilə məruf olan Həma əmirinin": qəzetdə belə getmişdir: "Həma əmirinin Əbül-Fəda namı ilə məruf olan". ("Həma" Suriyanın qərbində qədim şəhərin adıdır.)

"Səid əfəndi": İyirmisəkkizçələbizadə Məhməd Səid paşa nəzərdə tutulur.

səh. 245. "həkkak": müxtəlif sərt materiallar üzərində yazı yaxud şəkil nəqş edən usta.

"Şeyxülislamla bərabər...": söhbət 1718-1730-cu illərdə Osmanlı şeyxülislamı olan Yenişəhərli Abdulla əfəndidən gedir.

"Sultansəlim": İstanbulun Avropa hissəsində Fatih rayonunun məhəlləsi.

"Tərcümeyi-Tarixi-Səyyah": Polşa şərqşünas və səyyahı Tadeuş Krusinskinin İran tarixi haqqında əsərinin türk dilinə tərcüməsi.

"Tarixi-Hindi-qərbi əl-müsəmma bə hədisi növ": Türk şairi və coğrafiyaşünası Məhməd Süudi əfəndinin əsəri.

"Tarixi-Teymur Gürgan": Osmanlı tarixçisi Nəzmizadə Mürtəza əfəndinin Şəhabəddin İbn Ərəbşahdan tərcümə etdiyi əsər.

"Tarixi-Misri-qədim və Misri-cədid": Osmanlı tarixçisi Əhməd Süheylinin əsəri nəzərdə tutulur. "Tarixi-Misri-qədim" (Qədim Misir tarixi) və "Tarixi-Misri-cədid" (Yeni Misir tarixi) əslində iki ayrı əsərdir.

"Gülşəni-xüləfa": Osmanlı tarixçisi Nəzmizadə Mürtəza əfəndinin Bağdad tarixi haqqında əsəri.

"Üsulül-hikəm fi nizamül-üməm": İbrahim Mütəfərriqənin "siyasətnamə" üslubunda qələmə aldığı əsəri.

"Füyuzati-miqnatisiyyə": İbrahim Mütəfərriqənin əsəri.

"Tarixi-Naima": Osmanlı tarixçisi Naimanın əsəri; qəzetdə təhrif edilmiş, "Tarixi-yəğma" kimi getmişdir.

"Tarixi-Raşid": Osmanlı şairi və tarixçisi Raşid Məhməd əfəndinin əsəri.

**Bakı xəbərləri**

səh. 250. "Əhməd Rasim imlası": Türk müəllifi Əhməd Rasimin məktəblilər üçün qələmə aldığı imla kitabı olan "İmlayi-Osmani"dəki imla qaydaları nəzərdə tutulur.

**Azərbaycanda**

səh. 252. "Evliykən subay": Zülfüqar bəy Hacıbəylinin musiqili komediya əsəri.


آذربایجان

*"Azərbaycan" qəzetinin 225-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 15 iyul 1919-cu il, nömrə 225**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 16 şəvvalül-mükərrəm sənə 1337. 15 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**KİNOTEATR "RENESSANS"**

*Torqovı küçə, nömrə 11*

*2*

Düşənbə günü iyul ayının 14-dən 1919-cu ildə ictimai cinayət draması

**Amerikada ehtikarlıq (spekulyatsiya) ilə mübarizə "Qaranlıq dünya"**

6 seriya, 18 dövr, 38 hissəli "Prometey film" cəmiyyəti şəklinin 2-ci seriyası göstəriləcəkdir.

Müstəsna bir şəkildir ki, burada təsirli məzmunu ilə bərabər, dünyada ən gözəl və mükəmməl dəhşətli anlar vardır ki, həmin Amerika şəkli qarşısında cahanın başqa şəkilləri heç misalındadırlar.

Seriyada Lorinqan qardaşlarının "On beşlər klubu"nun təzə üzvlərindən birini məğlub etmələri göstərilir.

*5437*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERETTA**

Zülfüqar bəy və Üzeyir bəy Qardaşlarının Müdiriyyəti

Düşənbə günü, şəvvalül-mükərrəm ayının 17-də (iyul ayının 16-da 1919-cu ildə) mütəntən bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır

Üzeyir bəyin məşhur

**"Şah Abbas və Xurşidbanu"**

Bu dəfə Sarabski Şah Abbas rolunda səhnəyə "atlı" çıxacaqdır.

Biletlər indidən teatronun kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

**Məşixətdən**

İdareyi-Məşixətin [Şeyxülislamlıq İdarəsinin] işbu 1919 sənəsi təmmuz [iyul] 7 tarixli qərarı ilə Gəncə şəhəri əhlindən Qurban Əlizadə Xankəndində olan Azərbaycan dağ topçu diviziyasına imam təyin edilmişdir.

*Məşixət sədri: Ağaəlizadə*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

*(keçən nömrədən mabəd)*

**Çubaryanın məruzəsi**

Məclisi-Məbusanın 7 təmmuz tarixli ic-

lasında Qarabağ hadisəsini təhqiq üçün göndərilmiş olan Parlaman heyəti tərəfindən doktor Qarabəyli əfəndinin məruzəsindən sonra (həman məruzə qəzetəmizdə var idi) heyətin erməni əzası [üzvləri] tərəfindən Çubaryan ayrıca bir məruzə təqdim etmişdir. Məlum olduğu üzrə, hadisat barəsində heyət bir rəyə gəlməyib, türklər ayrı, ermənilər də ayrıca məruzə vermişlərdir. İştə Çubaryanın məruzəsi:

**Çubaryan** - Qarabağa getmiş olan komissiyanın birinci iclasında bir təklif vardı ki, rəylər yazılı surətdə təqdim edilsinlər. Bunun cavabında doktor Qarabəyov eşitdiyiniz məruzəni təqdim etdi. Fəqət həman məruzədə vüqu bulmuş [baş vermiş] olan şeylərin bəziləri denilmədi. Mən həm erməni, həm də daşnak olduğum üçün bu iki amil əleyhimdə olacaqdır. Fəqət rica edirəm inanasınız ki, hadisat barəsində bitərəf bəyanat verəcəyəm. Sizdən xahiş edirəm, Qarabəyovun məruzəsində ümumi vəziyyət haqqındakı müqəddimə ilə məsələnin siyasi cəhətini atıb, ancaq ələni [açıq, faktiki] cəhətinə diqqət verəsiniz. Mən hətta məsələyə mənafeyi-siyasiyyə nöqteyi-nəzərindən yanaşmayacağam. Çünki bu məsələdə rəylər müxtəlif ola bilər. Öz məruzəmdə mən ancaq hadisat haqqındakı məlumatı nəzərə alıram. Burada Şurayi-Milli Divani-Rəyasəti Daxiliyyə naziri Yusifbəyliyə müraciətlə Qarabağda nələr olduğunu sordu. Buna böylə cavab verildi. *(Cavabı oxuyur.)*

Daxiliyə naziri naminə çəkmiş olduğu bir teleqrafda Qarabağ general-qubernatoru hadisəni böylə göstərir ki, ermənilər elatın qabağını kəsmişlər və nəticədə təbii bir hərəkət üzündən bir erməni kəndi məhv edilmişdir. Mən tamam bu andan başlayacağam. Elat mayın 27-dən etibarən köçməyə başlamış və tam bir həftə dinc-salamat gəlib keçmişdir. Heç bir ixtilaf və müsadimə [toqquşma] olmamışdır. Bu öylə bir məsələdir ki, buna diqqət verməli və düşünməlidir. Avam camaat öz mənafeyini daha yaxşı anlayır və dərk edir. İbtida [əvvəlcə] qərar verilmişdi ki, elatı İngiltərə heyəti, general-qubernator və Erməni Milli Şurası adamlarından ibarət bir mühafizə dəstəsi təşyi [müşayiət] etsin. Fəqət nədənsə böylə mühafizə dəstəsi təyin edilməmişdir. Amma bununla bərabər, el-oba sağ-salamat və heç təcavüzə uğramadan gəlib keçmişdir.

Boykot məsələsinə gəlincə, burasını deməliyəm ki, doğurdan da boykotun hökumət tərəfindən edildiyi qəti surətdə müəyyən olmamışdır. Fəqət hökumət bu boykota mane olmamış və onu hamı görmüşdür. Lakin buna da etiraz etməyiriz. Hərb qanunları şiddətlidir və biz ona tabe oluruz.

Şəhərin müsəlman hissəsində bir erməninin tapançasını almışlardır. Bunun cavabında ermənistanda [şəhərin erməni hissəsində] bir neçə xuliqan bir süvarinin atını və tüfəngini alıb qaçmışlardır. Erməni Milli Şurası bir at alıb vermiş və məktub yazaraq üzr istəmişdir. Deyirlər ki, ermənilər müsəlmanlara təcavüz edirlər. Fəqət heç bir təcavüz olmamışdır. Ermənistanda xəzinəni həmişə əsgərlər mühafizə edirdilər. Ermənistan ilə müsəlmanıstan arasında daima gediş-gəliş davam etmişdir. Daxiliyyə nazirinin məktubunda denilir ki, xəzinəni ermənistandan





köçürmək istədikdə ermənilər müqavimət göstərmiş, mane olmaq istəmişlərdir. Halbuki xəzinənin köçürülməsi işinə baxan zabitin bəyanatından anlaşılır ki, heç bir mümaniət [maneçilik] göstərilməmişdir. Mən bilməyirəm ki, postxana ilə xəzinənin köçürülməsinə ermənilər tərəfindən mümaniət göstərilməsi haqqında ingilis heyətinə yazmış olduğu məktubu general-qubernator nə əsas üzərinə yazmışdır. Böylə şeylər məni vadar edir ki, hökuməti-məhəlliyyə [yerli hökumət] tərəfindən verilən bəyanata bir qədər sərhesablıqla [ayıq-sayıqlıqla; şübhəylə] baxam.

Yarma səngərinin sövqülceyş [strateji] əhəmiyyəti vardır. Tutalım ki, o səngər yolu mühafizə etmək üçün lazım idi. Fəqət şəhərin erməni hissəsi başı üstündə olan Üçmıxın nə əhəmiyyəti ola bilər? Şahidlərin həpsi göstərir ki, üç səngər müsəlman əsgəri tərəfindən işğal edilən kimi ermənilər arasında çaxnaşma və həyəcan başlamışdır. Ermənilər yığışıb yepiskopun yanına getmişlər ki, ingilis heyətinə müraciətlə onların əmin və amanlığını müdafiə və təmin etsin. Səngərə ancaq açıq yol ilə getmək olur. Doktor Qarabəyov pək haqlı olaraq qeyd edir ki, əvvəl hanki tərəfin güllə atdığını təyin etmək çox çətindir. Çünki ermənilər deyirlər ki, qabaqca müsəlmanlar güllə atdılar, müsəlmanlar isə deyirlər, qabaqca ermənilər atdılar. Fəqət bunların həpsi nə məqsədlə edilmişdir? General-qubernator açıqdan-açığa bəyan edir ki, birdəfəlik bu hallara xatimə çəkərək öz hökumətini möhkəmləşdirməyi təhti-qərara almışdır. Hadisat general-qubernatorun təşəbbüsü ilə başlanmış və müəyyən plan üzərinə tədricən səngərlər işğal edilmişlərdir. Nəticədə bütün şəhər atəş içində qalmışdır.

İkinci dəfə yepiskop ingilislərin yanına getdikdə, Milli Şura əzasının şəhərdən çıxarılması haqqında general-qubernator tərəfindən verilmiş tələbnamə ona xəbər verilmişdir. Şəhərdə olan Milli Şura əzası təslim edilmiş, fəqət atışma dayanmamışdır. Uzun müddət atışma davam etdiyinə baxmayaraq, heç kəs mütəzərrir olmamışdır [zərər çəkməmişdir]. Bunların həpsi göstərir ki, sırf hərbi bir nümayiş icra edilmişdir. Dava başlanan zaman müsəlmanıstanda olan ermənilərin həpsi yox olmuşdur. Hökumət nə yapmışdır? General-qubernator deyir ki, o danışdırdığı adamlar bəyan etmişlər ki, atışma başlandıqda həman erməniləri müsəlmanıstanın sərhədinədək aparıb yola salmışlardır. Sonra necə olmuşsalar, onlara məlum deyildir. Hökumətin böylə hərəkəti müqəssirləri ruhlandırmaqdır.

Qaybalı kəndindən qaçıb qurtaranların bəyanatından görülür ki, orada dava ayın 5-ində deyil, 4-ündə başlanmışdır. Saat 11-də general-qubernator görmüşdür ki, xəlifəlilər Qaybalı kəndini mühasirə etmişlərdir. General-qubernatorun evindən Qaybalı kəndinin görükməsi doğru deyil, amma mühasirə edənlərin keçəcəyi təpələr yaxşıca görükürlər. Mən bir xanımla bərabər iki saat zərfində piyada endim dərəyə və hər yeri gəzdim. General-qubernator isə deyir ki, o adamını dolama yol ilə göndərmişdir. Qaybalı kəndlilər deyirlər ki, onlar qaçıb qurtarmaq üçün kənddən çıxdıqda bir tərəfdən köçərilərlə əsgərlər, digər tərəfdən də şəhərin adamları ilə əsgərlər on-

ları mühasirəyə almışlardır. Ona görə də kəndlilər geri qayıtmağa məcbur olmuşlardır. Bu zaman böyük bir dövlətin nümayəndələri ilə ermənilər mühafizəsiz, köməksiz ermənilərin qırılmağına tamaşa edirmişlər.

Telefon daima general-qubernatorun binagüzarlığında [sərəncamında] olmuşdur. Binaənileyh [ona görə], telefon ilə də tədbirlər ittixaz edə [tədbirlər görə] bilərdi. Deyirlər ki, mühafizə əsgərləri erməni qüvvələrinin hücumu təhdidi altında imiş. Fəqət heç bir sual etməyirlərmi ki, bu qüvvələr nə yerdən gələ bilərlərdi? Əsgərlər kazarmada oturmamalı, əhalini mühafizə etməli idilər. Hamı bir səslə təkid edir ki, Qaybalı kənddə dava ayın 5-də qurtarmamış, hətta 6-da da davam etmişdir. Binagüzarlığında qoşun və süvarilər olan general-qubernator bunu dayandıra bilməzmi idi? Kürdlər ayın 5-də gəlmişlərdi. Mən bu barədə general-qubernatoru təqsirləndirmək fikrində deyiləm, fəqət güman edirəm ki, onların vürudu [gəlişi] hadisatın nəticəsi deyil, onlar böylə bir şey gözləyirmişlər. Onun üçün də gəlmişlərdir. Məhəlli-hadisələri [hadisə yerlərini] mən gəzmişəm, dərədə meyitlər vardı. Meşə meyitlərlə dolu idi. Çayda meyitlər vardı. Qəbirlər açılıb dağıdılmışdır. Çünki camaat böylə güman etmişdir ki, qəbirlərdə şey gizlətmişlərdir. General-qubernatorun böylə rəftarını nə ilə izah edirsiniz? O vaxtadək meyitləri də dəfn etməmişlərdir. Camaat özü ərizə verərək meyitlərin dəfni üçün izin istəmişdir. Fəqət ayın 11-ədək ancaq 30 meyit basdırılmışdır. Mən bu xüsusu general-qubernatora dedikdə, cavab verdi ki, keşişə demişdir, fəqət nədənsə bu vaxtadək əməl edilməmişdir.

Bizim cəmi ümidimiz, şübhəsiz ki, qoşunadır. Binaənileyh, cavan ordumuza toxunan hər növ şeyə öylə ehtisasla [həssaslıqla] baxılmasını anlayıram. Fəqət bizim ümidimiz sağlam orduyadır. Kərkicahana göndərilmiş olan dəstənin zabiti yerli əhaliyə demişdir ki, kəndin üstünə gəlməyə dəstələr yığılır. Əsgərlər də əlbəttə öz müsəlmanlarının əleyhinə çıxmayacaqlar. Ona görə təklif edir ki, ermənilər kənddən çıxıb Xankəndinə köçsünlər. Ermənilər də qulaq asmışlardır. Sonra kənd talan edilmişdir.

Bəhlul kəndi bilmərrə mühafizəsiz imiş. Camaat kənddən çıxıb getmiş, sonra kəndi yandırmışlardır. Bunlar hökumətin fəaliyyətsizliyi deyilmi? Bunun həpsi isbat edir ki, əhalinin bir qismi digərinə nisbətən xüsusi imtiyazata [imtiyazlara] malikdir və hər nə istəsə edə bilər. Dedilər ki, yolun kənarındakı kəndlərdən şoseni güllələyirmişlər. Əgər bu kəndlər təcavüz etmək istəsəydilər, burada zikr olunduğu kimi Ağdamdan Şuşayadək bütün yolu tutmuş olan köçəriləri buraxmazlardı. Ancaq bir ittifaq [təsadüfi hadisə] olmuşdur ki, o da burada zikr edildi. Kəndlilər heç bir təcavüzkaranə hərəkatda bulunmamışlardır.

Mən bir neçə söz də bu məsələnin müzakirəsi barəsində demək istəyirəm. Anlamayıram məsələ nə üçün bu qayda ilə müzakirə olunur. Bizi Parlaman göndərməmişdi və ümumiyyətlə mən bilməyirəm oraya nə üçün getdik. Əgər məhəllində hər şey təhqiq və tədqiq edilmiş olsaydı, biz dəxi müfəssələn [təfsilatlı] təhqiq etmək və məlumat toplamağa imkan bulardıq.

Mən istərdim ki, biz əqəliyyət [azlıq]





nümayəndələri də məmləkətdə ümum vətəndaşların istifadə etdikləri ümum hüquqa malik olaydıq. Mən bir şey istəyirəm ki, Azərbaycanın müxtəlif yerlərində bəlkə azlıqda qalan ermənilər var, onlar dəxi ümum vətəndaşlarla bərabər hüquqa malik olsunlar.

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərin məlumatı**

Kiyev - Voloçisk səmtində bizim hissələr Voloçisk və Kamenets-Podolski üzərinə müvəffəqiyyətli surətdə yürüş edib Kupel, Ryabiyevka, Manaçin, Petrikovtsı, Qarnışevkanı işğal etdik. Bir neçə pulemyot, top gülləleri və vintovkalar qənimət alınmışdır.

Proskurov dairəsində Oleşini işğal eylədik. Düşmənlər həyəcan içində qaçırlar. Düşmənlər Novokonstantinov üzərinə yürüş etmişlərdir. Bizim hissələr bunların yürüşünə əngəl törədirlər.

Xarkov səmtində Skolovo yanında bizim qoşunlar müharibə ilə əsir, top-tüfəng və patron almışlardır.

Boqoduxov səmtində Kurı mövqifi [stansiyası] yanında bizim zirehli qatarımız düşmənlərin ağır toplarla təchiz edilmiş bir zirehli qatarını yoldan çıxarmışdır.

“General Kornilov” namı ilə təsmiyə edilən [adlandırılan] və Xarkov səmtinə gedən düşmənin üçüncü qatarı da xəsarətləndirilmişdir.

Voloçisk səmtində Xotimir altında düşmənlər tərəfindən bizə vurulan zərbə bizim hissələri dayandırmışsa da, lakin sonradan yenə qitəatımız [hərbi hissələrimiz] yürüşə keçmişlərdir.

Minsk - N. İki diviziya tribunal üzvlərini aparan Şura qatarı Olexnoviçi mövqifinə yetişərkən Lehistan qoşunları tərəfindən tövqif [həbs] edilmişdir.

Qırmızı qoşun nəfəratına [əsgərlərinə] olmazın əziyyət etdikdən sonra Şura hökuməti adamlarını təslim etmələrini tələb etmişlərdir. Fəqət Qırmızı qoşunlar bu əziyyətlərdən heç də dilgir olmayıb, öz adamlarını verməmişlərdir. Amma bununla bərabər, polyaklar 11 nəfər tribunal üzvlərini tapıb edam etmişlərdir.

Kiyev - Gündən-günə Ukrayna cəbhəsində əhval yaxşılaşır. Petlyura dəstəsini üç tərəfdən əhatə etmişlərdir. Petlyura dəstəsinin ricət [geri qaçış] yolu kəsilmişdir. Dneprin cənub tərəfində sakitlik davam edir. Xarkov tərəfinə Poltava dairəsində bizim yürüşümüz davam edir. Obuxova daxil olmuş Yaşıl qvardiya Qırmızı qoşun nəfəratını qətl etmişlərdir. Qətldən əvvəl onlara çox işgəncə edilmişdir.

**Denikinin əmrnaməsi**

Kiyev - General Denikin bir əmrnamə ilə dabravollar tərəfindən işğal edilən yerlərdəki əhalini 18 yaşından 42 yaşınadək səfərbərliyə dəvət eyləmişdir. Hər kəs səfərbərlikdən imtina edərsə, edam ediləcəkdir.

Kiyev - Şura hökuməti 18 yaşından 40 yaşınadək ümum əhalinin məcburi surətdə hərbi təlim almaları barəsində əmrnamə sadir eyləmişdir [əmrnamə vermişdir].

**İtaliyada iğtişaş**

- Bütün İtaliyada iğtişaş başlandığını yazırlar. İtaliyanın Floransa şəhəri əmələlər [fəhlələr] tərəfindən işğal edilmişdir.

- İtaliyada iğtişaş və tətil getdikcə artır. İtaliyanın bir çox yerlərində şuralar təşkil edilmişdir. Floransa əmələlərin əlindədir. İğtişaşçıları iskat [susdurmaq] üçün göndərilən qoşunlar əhaliyə atəş açmaqdan imtina etmişlərdir.

- "Republik" qəzetəsi Avropada və Asiyada bir çox tətil əmələ gəldiyi barəsində xəbərlər dərc eyləmişdir. Pa-de-Kale və Fransanın şimali tərəfində olan kömür mədənlərində yenidən tətil başlanmışdır. Parisin özündə tətil edən dəmiryol əmələlərinə şəhər tramvay və avtobus əmələləri də mülhəq olmuşlardır [qoşulmuşlar].

- Kömür mədəni, gəmi, dəmiryol, nəqliyyat əmələləri və sair əmələlərin müttəhid [birləşmiş] Həmkarlar İttifaqının baş idarə konfransı elan edir ki, gərək tətil edən əmələlər və bütün füqərayi-kasibə [proletariat] öz tələblərində heç bir güzəştdə bulunmayacaqlardır. İttifaq hər bir tədbirlə Həmkarlar İttifaqının tələblərinə müzahirət [kömək] edəcəkdir və bu yolda heç bir fədakarlıqdan çəkinməyəcəkdirlər. Fransada ələddəvam [davamlı] birinci zəruri şeylər bahalandığı və getdikcə naloqların [vergilərin] artdığı, xırda millətlərin hüquq və istiqlaliyyətini Fransa hökuməti xələldar etdiyi [pozduğu], Rusiya və Macarıstan inqilabını boğmaq istədiyi, qoşunlar tərxisinin təxirə salındığı və əfvi-ümuminin rədd edildiyi Fransada öylə bir hal törətmişdir ki, ancaq qəti hərəkətlə o haldan qurtarmaq olar. Fransız, İtaliya, İngiltərə və Belçika əmələləri Həmkarlar İttifaqının baş konfransı əhvalın qayət vəxim [ağır] olduğuna görə arasıkəsilmədən işlədiyini bəyan eyləmişdir.

- 400 min nəfər İtaliya əmələlərinin konfransı İtaliya əmələlərinin Rusiya və Macarıstan Şura hökumətləri ilə hüsnrəftarda bulunmaları haqqında bir qərarnamə çıxarmışlardır.

- Berlində tətil davam edir. Mərkəz ilə ətraf arasında müxabirə [xəbərləşmə, əlaqə] kəsilmişdir.

- Neapolda (İtaliya) tətil davam edir. Bu tətil hərəkatı ətrafa da sirayət eyləmişdir. Romada tramvay əmələləri tətil etmişlərdir.

## QƏZETƏLƏRDƏN

### Müttəfiqlər və Kolçak

Kolçak hökumətinin Müttəfiqlər tərəfindən təsdiq ediləcəyi və Müttəfiqlərin Kolçaka maddi və mənəvi müavinətdə bulunacaqları aşağıdakı nota mübadilələri ilə olmuşdur. Bu notalar Parisdə Burtsev tərəfindən nəşr edilməkdə olan "Obşeye delo" qəzetəsində təfsilən dərc edilmişdir.

Mayın 28-də Klemanso tərəfindən admiral Kolçaka göndərilən notada Müttəfiqlər izhar etmişlər ki, Rusiyada sülh və asayiş bərpasını arzu edərək və bolşevik hökuməti ilə müzakirat baş tutmayacağına qəti surətdə inanaraq, onlar ancaq müəyyən şərtlərlə admiral Kolçak hökumətinə mühümmati-hərbiyyə, ləvazimat və ərzaq ilə müavinət etməyə hazırdırlar. Admiral Kolçakın siyasəti Müttəfiqlər tərəfindən qoyulan şəraitdən başqa olmayıb, müəyyən şərtləri gözləməklə Müttəfiqləri təmin etməlidir. Şərait budur:





1) Moskva alınan kimi Məclisi-Müəssisan [Təsisçilər Məclisi] azad, gizlin və demokratik seçki əsasları ilə dəvət edilməlidir. Hərgah o vaxta qədər lazımi qədər asayiş və qanun bərpa edilməsə, təzə seçkilər mümkün olana qədər 1917-ci ildə seçilmiş olan əski Məclisi-Müəssisan dəvət edilsin.

2) Bütün məmləkətdə qanuni davam edən müəssisələrə, zemstvo bələdiyyə idarələrinə və qeyrilərinə azad seçki ixtiyarı verilməsi Kolçakın ixtiyarına verilir.

3) Admiral Kolçak əski tərzi-idarədə mövcud olan sinif və silk imtiyazlarını heç bir vəchlə təcdid [bərpa] etdirməməlidir.

4) Finlandiya ilə Polşa istiqlaliyyəti təsdiq edilib saziş hüsula gəlmədiyi zaman mübahisəli sərhəd məsələsi Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] hökmünə verməlidir.

5) Bir tərəfdən Rusiya, digər tərəfdən Estoniya, Latviya, Litva, həmçinin Qafqaziya və Türküstan oblastları arasında münasibat məsələsi sazişlə həll edilməsə, bu məsələlərin həlli Cəmiyyəti-Əqvamın müavinəti və iştirakı ilə olacaqdır. Bu məsələlər həll edilənə qədər Rusiya razı olur ki, məzkur [adı çəkilən] oblastları muxtariyyətli hesab edib, bu oblastların həqiqi hökumətləri ilə Müttəfiq dövlətlər arasında davam edəcək münasibatı təsdiq etməlidir.

6) Sülh Konfransının Bessarabiyanın Romaniya oblastları müqəddəratını həll etməsi ixtiyarı təsdiq edilir.

7) Demokratik Rusiya hökuməti təşkil edildikdən sonra Rusiya Cəmiyyəti-Əqvama daxil olur.

8) Müttəfiqlər Rusiyanın dövləti borcları haqqında admiral Kolçakın 1918 sənəsi noyabrın 27-də verdiyi bəyanatı nəzəri-diqqətə alırlar.

Admiral Kolçak iyunun 4-də Müttəfiqlərin həmin notasına maddəbəmaddə cavab vermişdir.

Kolçakın verdiyi cavabdan görünür ki, o, özünü gələcək Məclisi-Müəssisan qarşısında məsulədd [hesab] edib bolşevikləri əzmək, təzə seçkilər təyin etməsinə imkan verdikdən sonra bütün ixtiyarı Məclisi-Müəssisana verəcəkdir. Əski Məclisi-Müəssisana gəldikdə, admiral Kolçak göstərir ki, həman Məclisi-Müəssisanın seçkiləri bolşevik hökumətinin təzyiqi altında olmuşdur və həman Məclisi-Müəssisanın bir çox üzvləri hal-hazırda bolşevik səflərindədirlər [sıralarındadır].

Kolçak hökuməti 1917-ci sənəsi Müvəqqət hökumət tərəfindən elan edilən Polşa istiqlaliyyətini təsdiq etməyə hazır olub, qəti surətdə təsdiqini və sərhəd məsələsini Məclisi-Müəssisana həvalə edir. Kolçak hökuməti Finlandiya hökumətini də həmçinin təsdiq edib, məsələnin qəti surətdə həllini Məclisi-Müəssisana vagüzar edir [tapşırır]. Rusiyada vücuda gələn başqa müstəqil hökumətlər haqqında admiral Kolçak deyir ki, biz Estoniya, Latviya, Litva, Qafqaziya və Türküstan oblastlarının milli qruplarına daxil olan məsələlərin həllini hazır etmək niyyətindəyik. Biz təsəvvür edirik ki, məsələlərin tezliklə həllinə müvəffəq olacağız. Bunu da nəzərə almalıdır ki, Kolçak hökuməti müxtəlif millətlərin muxtariyyətini təmin etməyə hazırdır. Burası da bəllidir ki, bu muxtariyyətli yerlərin qədəri və forması bu millətlərin hər bi-

rindən ötrü əlahiddəcə təyin ediləcəkdir. Həmin müxtəlif məsələlərin həlli əsnasında müşkülat vücuda gəldikdə, saziş hüsula gəlməsi üçün Kolçak hökuməti Cəmiyyəti-Əqvama müraciət etməyə hazırdır. Məclisi-Müəssisan tərəfindən təsdiq ediləcək əsaslar aşkardır ki, Bessarabiya məsələsinə də tətbiq ediləcəkdir.

Sonra Kolçakın cavabında Rusiya borclarının Kolçak hökuməti öhdəsinə alındığı təsdiq edilib, köhnə üsuli-idarə imtiyazlarının qaytarılmayacağına söz verilir.

Müttəfiqlər Kolçakın bu cavabını öz təkliflərinə müvafiq görüb, Kolçaka müxtəsər surətdə cavab vermişlər ki, onlar admiral Kolçaka və onun müttəfiqlərinə birinci məktubda göstərildiyi qərar üzrə kömək etməyə hazırdırlar. Bu cavabı Lloyd Corc, Vilson, Klemanso, Orlando və Makino imza etmişlərdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Ziraət və Dövləti Əmlak Nəzarətinə [Əkinçilik və Dövlət Əmlakı Nazirliyinə] xəbər vermişdir ki, Astraxanka, Maryevka köyləri əhalisinə iyulun 11-də vaqe olmuş hökumət qərardadı ilə Azərbaycan daxilinə qayıtmağa icazə verilmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Tiflisdəki Rus Milli Şurasına teleqrafən xəbər vermişdir ki, Naftluqidə toplanmış Şamaxı qəzası rus kəndçilərinə Nəzarətin iqdamatı [təşəbbüsü] nəticəsində hökumət tərəfindən öz yerlərinə qayıtmağa icazə verilmişdir.

- Yaxın Şərqdə Qaçqınlara Müavinət Edən Amerika Komitəsinə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən bir böylə təliqə [rəsmi məktub] göndərilmişdir:

*"Ermənistanın müsəlman əhalisi müharibə və inqilab hadisatından zərərdidə olduqları [zərər çəkdikləri] üçün hal-hazırda qayət fəna bir haldadırlar. Xaricdən müavinət edilməzsə, onlar öz yerlərinə qayıtmaqla rəncbərlik edə bilməyəcəkləri kimi də, yemək yoxluğundan da bir çoxları tələf olmağa məruz qalacaqlar.*

*Azərbaycan Cümhuriyyəti Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin bütün vəsaiti işbu dövlətin kəndi füqərası təmininə çevrilmişdir. Burada ermənilərə də müavinət edilir.*

*Yeni əsaslar üzrə təsis ediləcək gənc dövlətə Amerika milləti müavinət etdiyi kimi, müsəlman əhalisini də yaddan çıxarmayacaqdır. Böylə müavinət xüsusən qoca və ətfala [uşaqlara] lazımdır ki, kəndi zəhmətləri ilə yemək tapmaqdan acizdirlər. Bunlara yemək və əlac [dərman] verməklə tələf olmaqdan saxlamaq mümkün olacaqdır.*

*Komitet əzasından [üzvündən] biri ilə şəxsən etdiyim müsahibədən maəda [başqa] rica edirəm ki:*

*1) Ermənistanın müsəlman əhalisinə un və yaxud əkmək vermək məsələsini öhdəsinə götürməklə qaç nəfərə müavinət ediləcəyi barəsində mənə məlumat verilsin;*

*2) Ətfal və ixtiyarlar [uşaqlar və qocalar] üçün bir qaç darüleytam və darüləcəzə güşad [yetimxana və qocalar evi açılsın] və tibbi müavinət üçün bir neçə məntəqə təsis edilsin;*

*3) Xəsarətə düçar olmuş ərazi sahiblərinə toxum və ziraət və fəllahət [əkinçilik və kənd təsərrüfatı] alətləri verməklə müavinətdə bulunsun."*

## XARİCİ SİYASƏTİMİZ

### - 9 -
### Gürcüstan və biz

Gürcüstan ilə dostluğumuz ən təbii bir haldır. Şimalda rus qorxusu və cənubda ola biləcək intriqalar gürcülərlə azərbaycanlıları kip dostluğa məcbur edir. İki müstəqil dövlət üçün də hürriyyətlərinə təcavüz edən qüvvələrə qarşı bir hazırlıq lazımdır. Bu dövlətlər hücum üçün deyil, müdafiə məqsədilə birləşdilər və əqd yapdılar. Bu əqdin sabit qalacağına əminik.

İki dövlət arasında olan dostluq yalnız faydaya bağlı olduğunu söyləmişdik. Gürcüstan-Azərbaycan dostluğunun iki tərəf üçün də böyük faydası var. Şübhə ola bilməz ki, həm Gürcüstan, həm də Azərbaycan müstəqil yaşamaq istəyir. Böylə olduqda, Gürcüstan üçün bir qorxu baş versə, axırda xətəri Azərbaycana da toxunacaq. Bu iki məmləkətin hürr yaşaması bir-birinə bağlıdır. Biri asudəliyini itirərsə, o birisi də itirmək məcburiyyətində bulunar. Qafqazın dağlarını Qara dənizlə Xəzər dənizi arasında müttəfiqən müdafiə etməliyik. Açıq dənizə yolumuz olmadığı üçün ölkəmizə mal ixrac və idxalını Gürcüstan təriqi [yolu] ilə edəcəyik. Dost bir dövlət bizə bu yolda maneələr təşkil etməyəcək və ya ağır şərtlər qoymayacaq.

Gürcüstan ilə aramızda qovğalı bir məsələmiz yoxdur. Acar məsələsi aramızda soyuqluq doğura bilməz. Bu məsələnin həlli iki dövlətin faydasına uyan bir şəkildə həll olunmasına əminik. Ümum fayda üçün Gürcüstana maddi köməkdə bulunmalıyıq.

Bizim üçün əhəmiyyətli bir məsələ də var. O da məmləkətimizdə sadiq məmurlar yetişdirmək. Lakin bu günün işi deyil. Məsuliyyətli məmuriyyətləri öz əlimizdə saxlamalıyıq. Özümüzdə adam az olsa, gürcülərdən gətirməliyik. Yoxsa istiqlaliyyətimizə düşmən bir çox məmurlar bəsləyirik. Bunlar Denikinin gəlməsini candildən gözləyirlər. Xəyanət olmamaq üçün məsuliyyətli yerləri dost əlinə verməlidir.

*Yusif Vəzirov*

## NAXÇIVAN MƏKTUBATI

### - 4 -

Atalar demiş ki, "müsəlmanın son ağlı mənim olsun". Filhəqiqə [həqiqətən] öylə imiş. Müsəlmanlar nədənsə rahatçılıq zamanında işləməyib, mütləqa qar qapını alanda, yəni iş bitib getdikdən sonra makina kimi işləməyə başlarlar. Niyə də işləməsinlər ki? "Boğulanlar əllərini kola-kosa atmalıdırlar", təbii.

Naxçıvanlılar hər yerdə mitinqlər qurub, gündə on dəfələrcə gəlib Parlaman-

da kəndi fikirlərini izhar edirlərdi. Məsələn, bir gün içində Azərbaycana məktub, İrana teleqraf və telefon yazılıb, hazır edilib süvarilərlə yola salındı ki, mayısın 3-nə qədər İran və Azərbaycan təvəssütü [vasitəçiliyi] ilə bütün yer üzünə gurultu salıb onlara olan zülüm və təəddini [əziyyəti] düvəli-müəzzəmələrə [böyük dövlətlərə] bildirmək istəməklə bərabər, ermənilərin zənciri-əsarətindən, bəlkə, xilas olsunlar.

Nə isə, "fürsəti fövt eyləməz aqil məgər nadan ola" zərbül-məsəlindən, hallarımızdan istifadə edərək, "Nə yapalım, artıq mövqeyidir, əhalini yığıb da şu ərazini İrana keçənlər kimi mülhəq etməyi [birləşdirməyi] təklif edəlim; təbii, erməni qorxusuna, həpsi razı olacaqlar və biz də məqsədimizə nail olarız" dedilər.

Əvət, dedilər. Xanların məxfi şurası bitdi. Nerədə əski qafalı, pullu hacılardan, ağalardan, bəylərdən, Parlaman əzalarından [üzvlərindən] varsa, xan imarətinə yığdılar. Məclis kamilən şəhərimizin əyan, əşraf və çığırqanları ilə dolduqdan sonra, Cəfərqulu xan [Naxçıvanski] üzünü camaata tutaraq buyurdu:

"Camaat, siz müsəlmanlar işi vaxtilə görməzsiniz. Bir ay əqdəm [qabaq] mən sizə nə qədər fəryad etdim ki, bizdən hökumət olmaz, bizə muxtariyyət verməzlər. Çünki biz bütün millət olmayıb, bir parça əhaliyiz. Biz gərək İrana yapışaq. Kimsə sözlərimə etimad etmədi. Hər kəs dalda min söz danışmağa başladı ki, xanlar bilməm genə əski hüquqlara, yəni hökmranlıq və kəndlərinə sahib olmaq istəyirlər. Halbuki mən bugünkü gün üçün deyirdim. Kərratla [dəfələrlə] məni təhqir etdiniz. Mən də bundan sonra hiddətlənərək sizə bildiyimi edəcəyəm."

Sonra Hacı Həsənəli ağa (Naxçıvan milyoneri):

"Babam, çalışmaq lazımdır, bir çarə arayaq. Mən elə məsləhət görürəm ki, İrana deleqat [nümayəndə] göndərək, deyək ki, biz sizə rəiyyət olmaq istəyirik."

Xülasə, tam üç saat mübahisə və boğuşmadan sonra İrana üç nəfərdən ibarət bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] göndərilməsi təhti-qərara alındı. Kimi seçib göndərmək üstə dörd saat kimin tərəfindən kim getsin məsələsi ilə vaxt keçirdilər. Axırda şeyxülislam; Mirzə Cabbar ağa Bektaşi ilə Hacı Mirbağır Seyidsəmədzadəni Naxçıvandan intixab və Mehdiqulu xan Diyarbəkrini Təbrizdən vəkil etdilər ki, əyaləti-kübra ilə baladakı [yuxarıdakı] məsələ haqqında danışsınlar.

Təbriz nümayəndələrimizə 10 min manat yol xərcliyi gecə ilə mandatları hazır olana kimi xəzinədən götürüb verdilər. Saat 11 radələrində fayton hazır olub mürəxxəsləri Culfaya yola saldılar. Əhali bir az təskinül-qəlb olub istirahətə məşğul olmağa başladılar.

Ermənilərin bu işlər olan zaman Naxçıvana gəlmələrinə hələ 4 gün var idi. Camaat mürəxxəslərə ümidvar olmaqla rahat olmağa başladılarsa, gündə o biri tərəfdən ingilis general-qubernatoru da camaatı həkimanə [ağıllı, hikmətli] bir surətdə inqilab olmasın deyə rahat etməyə başladı.

Məsələn, bir gün [Naxçıvanski] Kəlbəli xanı çağırıb əmr edirdi ki, təşkilatınızı pozmayınız. Bir gün Parlaman sədrinə söyləyirdi ki, hələ ermənilərin gəlməsi bəlli deyildir, hökumətinizi edib Parlamanınızı dağıtmayın; hərgah hökumət etməyi bacarmasanız, kəndim idarə etməyə başlayacağam. Qəlbi saf müsəlmanlar bu sözlərdən nə qədər dilşad olub və nə qədər o sözlərə siyasi məna verirlərdi.

Məsələn, Parlamanda əzalar şurada söyləyirlərdi ki, ehtimal ki, bizim protestomuz Tomsona çatmış, inşallah ki, bizi ermənilərə verməyəcəklər. Bir çoxları və sədr cənabları da gülər üzlə, – əvət, yəqin ki, elədir, – deyirdilər; – çünki Vilsonun təklifinə görə, hər millət kəndi hüququna sahib olmaqla bərabər, cəmi millətlər haraya istəsələr, oraya mülhəq ola [qoşula] bilərlər. Zor və zülümlə bir milləti başqa bir hökumətə yapışdırmaq olmaz.

Mürəxxəslərimiz, Allah bərəkət versin ki, təcili surətdə Təbrizə getdikləri halda, iki günlük yolu altı günə getdilər və hər gün telefonla Parlamana yol göstərirlərdi ki, fikrinizdə bərk durunuz, təslim fəqərəsindən [işindən] vaz keçiniz. Əyalətlə teleqrafən danışdıq, halınızı ərz etdik. Xoş xəbər gəlməkdədir. İnşallah ki, axırı xeyir olar.

Bu növ telefonları hökumət aldıqca, camaat sevincindən kəndini şaşırdırdı. Vaxtında mallarını İrana qaçırıb qəpik sərf etməyən milyonçularımız da əllərini yuxarı qovzayıb "Allah, sən özün kömək ol" cümləsini işlədib əzalara dua edirdilər ki, bəlkə, Allah tez onları İran rəiyyəti etsin. Fəqət az-çox bəsirəti olanlar qüssəsindən kəndisini zəhərləmək istəyirdi.

*Tamaşaçı*

*Felyeton*

## TƏLİF İŞLƏRİ

Məlum ki, lisanlar millətlərin ictiması [cəmi; yekunu] və cavanlarının inikası, ayinəsidir. Milli möhtəşəm bir ədəbiyyata malik olan millətlər layəmut [əbədi] birər həyata məzhərdirlər [naildirlər].

Bu gün mövcudiyyətlərini yaşadan, bu gün illərin xəşin [sərt] məhkumiyyətindən sonra bəsübədəlmövtə [ölümdən sonra dirilişə] nail olan millətlər lisanlarını qaib etməyənlərdir. İstiqlali-siyasi [siyasi istiqlal] milli ədəbiyyatı, milli ürfanı olan millətin başına bir gün qonacaq bir tacdan başqa bir şey deyildir...

Burada bir nəbzə osmanlıların dövrə və inqilabi-ədəbiyyələrindən [ədəbi dövrlərindən və dəyişikliklərindən] bəhs edəcəyəm.

Osmanlılar, məətəəssüf [təəssüf ki], gözəl türkcə durarkən ərəb və fars lüğətlərini, tərkiblərini, hətta qaydalarını dillərinə soxmuşlardır. Bu surətlə üç dildən mürəkkəb [ibarət] (əqanimi-sələsə) [üç əsas ünsür] bir Osmanlı ədəbiyyatı vücuda gəlmişdi. Xütuti-ümumiyyəsi [ümumi xətləri] ilə kəlmə oyuncağından başqa bir ücubə [qəribə, qeyri-adi şey, eybəcərlik] olmayan və mövzusunu əsla öz millətinin ruhundan almayan bu ədəbiyyati-ətiqə [qədim ədəbiyyat] son dövrlərində pək adiliyə düşmüş, binaənileyh [ona görə], kəndisi üçün yeni bir üfqi-ədəbi aramışdı.

İştə, Qərbin pək yüksək təkamülünü görən üdəbayi-cədidə [yeni ədiblər] məftun, heyran, Qərbin dahi ədiblərini təqlidlə Qərb ədəbiyyatını, mənsub olduğu millətlərinin ruhu ilə bərabər Osmanlı

ədəbiyyatına nəql etmişlər, ədəbiyyati-cədidəni [yeni ədəbiyyatı] təsis etmişlərdi. Pək yüksək bir qaç dahi istisna edilərsə, Osmanlı ədibləri, ümumiyyətlə, Avropa məktəbi-ədəbinin müqəllidləri [təqlidçiləri] idilər. Halbuki təqlid ibdadan [yeni bir şey yaratmaqdan] məhrumdur. Sənət isə ibda deməkdir.

Neyçün bütün türklərin sürur [şadlıq] və matəmdə müştərək həssasiyyətə malik olmaları qayəsini istihdaf edən [hədəfləyən], milli, yüksək bir türk ədəbiyyatı təəssüs edəmməmişdi?

Bütün türk dünyasının həyati-ictimaiyyə və siyasiyyəsini [ictimai və siyasi həyatını] tədqiq edərsək görəriz ki, osmanlılar bilxassə islam ittihadı [birliyi] məfkurəsinə xadim olmuşlardı. Ədəbi asar [əsərlər] dini mahiyyətdən qurtulammamışdı. Buna əski zehniyyətin xətayi-siyasiləri və əsbabi-jeoqrafiyaya məbni [coğrafi şərtlər üzündən] türk aləminin yek-digəri [bir-biri] ilə sıxı təması qaib edərək məhəlli [yerli] və pək fərqli ləhcələrin və ədəbiyyatların təəssüs etməsi və daha sonra bu böyük yurdun şimal həyulası [divi] tərəfindən parçalanması ilə rabitələr imkanının münsəlib olması [aradan qalxması] da inzimam etmişdi [əlavə olunmuşdu].

Eyni zamanda osmanlılar, əfsus ki, hərblərin verdiyi zəfər nəşəsi ilə pək məst olaraq yaxın və uzaq atinin [gələcəyin] pək müdhiş təhlükələrini görəmməyirlərdi.

Əvət, bir çox dəfələr Osmanlı türklərinin münhəzim [məğlub] etdiyi Avropa şimdi feyzli inqilablar səhnəsidir. Dini əsarətdən sıyrılır, milli bir hürriyyət və həyata girir, vaqiən [doğrudan da] hüquqi-bəşər bəyannamələri nəşr edir, fəqət həqiqətdə düşmənlərinin, həyati qabiliyyətsizliklə ittiham etdiklərinin və hələ ölülər kimi uyuyan bədbəxt türk və islam aləminin şöleyi-həyatını söndürmək üçün dimağının qabiliyyəti-təfəkküriyyəsi ilə xariqələr doğurur, xülasə, milliyyət məfkurəsinin atəşin və şədid [şiddətli] eşqi ilə mütəvaliyən [davamlı] yüksəlirdi!..

Osmanlı zimamdaranı [idarəçiləri] bu səri [sürətli] tərəqqinin sarsıntıları ilə bir az oyandı və Qərbə baxdı. Fəqət pək xətaalud [xətalı] bir zehniyyətlə Qərbin ürfündən [adət-ənənəsindən] doğan, binaənileyh [buna görə], ancaq Qərbin ruhuna tətabüq edə [uyğun gələ] bilən qanunları Osmanlı idarəsinə tətbiq etməyə başladı!.. Zavallı Tənzimat!..

Nəhayət, 10 təmmuz inqilabı infilaq etdi [partladı]. Daha şədid bir qərbliləşmə ehtiyacı ilə bərabər, Osmanlı dövlətini təşkil edən bütün millətlərin qaynaşması laziməsi doğdu. Bədəma [bundan sonra] türk, ərəb, arnavud, bolqar, qrek, erməni, həpsi bir qardaşdı, həpsi Osmanlı vətəni üçün çalışacaq birər vətən övladı idi. Həpsinin müştərək dili osmanlıca idi. Halbuki milliyyət əsrinin göbəyində yaşadığını anlayan müsəlman arnavudlar, ərəblər ictimai maskalar altında siyasi rollar oynayan müəssisələr təşkil etdilər və bugünkü iftiraqı [ayrılığı] doğurtdular.

Balkan fəciəsi [faciəsi], Hərbi-ümumi bəliyyəsi [Birinci Dünya müharibəsinin bəlaları] tarixi ənənəsi, məfaxiri [iftixar etdikləri şeylər], məfkurəsi ayrı, hətta bir-birinə zidd millətlərin imtizac edəmməyəcəklərini [qaynayıb-qarışammayacaqlarını] son dəfə olaraq bir daha anlatdı.

Vaqiən Əbdülhəmidin ən kəsif istibdadı zamanlarında belə Osmanlı türklərinin münəvvər [ziyalı] təbəqəsi bu yürüyən həqiqəti görürdü. Lakin türklər idarətən hakim bir mövqedə idilər. "Osmanlı dövləti" bu gün bir "mövcudə" idi, halbuki "milliyyət" bir "məfkurə" idi...

"Məfkurə" üçün "mövcudə"ni təhlükəyə qoymaq istəməyirlər, "osmanlılıq" siyasətini bihudə idaməyə [davam etdirməyə] çalışırlardı.

İştə, müsəlmanlar arasında da milliyyət duyğularının təzahüratı millətini sevən, əlim [acı] fəlakətləri idrak edən türkləri ən sonra bir araya topladı, ani denilə biləcək bir surətdə milli məfkurə, milliyyətçilik, yeni lisan doğdu.

Qəflətin, təsirati-siyasiyyənin parçaladığı böyük türk dünyasının böyük mütəfəkkirlərini, ədiblərini pək dərin düşündürən hər şeydən əvvəl "lisan" məsələsi idi!

Binaənileyh, bütün türklərin, bütün irq qardaşlarının həqiqətləri, gözəllikləri eyni surətlə idrak edə bilməsinin ən birinci amili, milliyyətin ən böyük istinadgahı olan ədəbiyyatı birləşdirmək lüzumu təqərrür etdirildi [qərarlaşdırıldı]. Paytaxt lisanı olan Osmanlı türklərinin ədəbiyyatı bütün türklər üçün tənsib [münasib görüldü] və qəbul edildi.

Hər lisan kəndinə məxsus bir ədəbiyyat və ürfan ibda, bir hərs və mədəniyyət yaradacağından, bu pək qüdsi bir məfkurə idi.

* * *

Gərək ədəbiyyati-ətiqə, gərəksə ədəbiyyati-cədidə dövrlərindəki şairlər ya ümumiyyətlə, eşq, hüsn [gözəllik] və qadın mövzularının məhdud vadisində dolaşırlar, yaxud ilhamlarını mövhum [xəyali] "insaniyyət" məfkurəsindən alırlardı.

Halbuki Qərbin gözlərimizi qamaşdıran təkamüli-möhtəşəmini, ağla heyrət verən xariqələrini yaradan fikirlər, əllər bütün bəşərin deyil, bəlkə, yalnız millətlərin fikirləri və əlləri idi.

Milli qürurun doğurduğu rəqabəti-irqiyyə [irqlərarası rəqabət] kainata ayrı-ayrı və bir-birindən fərqli milli mədəniyyətlər hədiyyə etmişdi.

Qərbin türk aləmi haqqındakı binihayə etisafatı [nəhayətsiz təcavüzü], bədbəxt millətin əmrazi-ictimaiyyəsi [ictimai xəstəlikləri] türk şairlərinin ruhunda qısqanc bir eşqlə millət sevgisi, milli qürur yaratmamışdı.

Qiymətdar bir şairimizin "Əgər yer üzündəki səfalətləri izalə [aradan qaldırmaq] üçün Mərrixdən [Marsdan] şu bədbəxt səyyarəyə [planetə] bir xilaskar gəlsə idi, əvvəla türklərin yanına gedərdi" həqiqəti bilinməyirdi. Lehistanın [Polşanın] bugünkü ürfan və istiqlalını mədyun [borclu] olduğu şair Senkeviçin "Mən milyonlarca insanın kədərini kəndimdə daşıyıram, milyonlarca insan üçün ələm çəkirəm və ağlayıram" şüarı şairlərimiz üçün bir düstur olammamışdı!

Bir Qərb ədibi deyir ki: "Eyi yazmaq üçün eyi hiss etmək, eyi hiss etmək üçün də eyi yaşamaq lazımdır." İştə, milli həyat yaşamadığı üçün, məəttəəssüf, Osmanlı ədəbiyyatı milli dahilər doğurammamışdı.

Binaənileyh ilhamlarını həqiqi mənbələrdən almayan, xalq ilə kəndi arasında namütənahi məsafat [sonsuz məsafələr] bulunan bu ədəbiyyat münhəsirən [məxsusi olaraq] kəndi üdəbasının [ədib-

lərinin] mühitlərində tədavül [dövr edir, işlənir] və təbiətilə [təbii olaraq] süqut edir və mövqeyini yeni lisana, "milli ədəbiyyata" tərk eyləyirdi. Yeni lisan ərəbcə, farsca kəlmələri, qaydaları mümkün olduğu qədər lisanımızdan tərd edərək [qovaraq], pək müstəməl olanlarını da [çox işlənənlərini də] türkləşdirəcək, yeni "milli ədəbiyyat" mövzularını, təşbeh və istiarə zəminlərini, ilhamlarını bu gün xalqın ruhunda yaşayan tarixi mənqəbələrdən, ənənələrdən alacaqdır. Yəni xalqın ruhundan bu milli ədəbiyyata feyizli [bol, bərəkətli] bir şeiriyyət axacaqdır. Bu surətlə kəndi ruhundan qopan bir ədəbiyyat onu pək səmimi hiss və həyəcanla yaşadacaq, kəndi alamını inləyən [öz dərdlərindən şikayətlənən], kəndi sevinclərini tərənnüm edən, kəndi qürurunu oxşayan milli ədəbiyyat bittəb pək möhtəşəm bir də türk mədəniyyəti doğuracaqdır.

* * *

Bütün bu məsrudati-acizanəmdən [acizanə sözlərimdən, izahlarımdan] məqsədim: Təşəkkül edərək bu gün hali-fəaliyyətdə bulunan Təlif Komisyonu tarixi vəzifəsinin, rollarının vüsət və şümulu [genişliyi və əhatə dairəsi] nisbətində asar [əsərlər] vücuda gətirə bilərmi? Müqtədir və möhtərəm zəvatın [şəxslərin] vücudları [iştirakı] ilə mütəşəkkil olduğuna əsla şübhəmiz olmayan komisyon, heç olmazsa, təlifatın məxəzləri [yazılacaq əsərlərin, kitabların mənbələri], surəti-icrası [necə icra edilməsi] haqqında həyati-ictimaiyyədəki nüfuzları inkar ediləmməyən zümreyi-münəvvərənin əfkarını tənvir etsə [ziyalı sinifinin fikirlərinə işıq salsa]!..

Milli hərsi [mədəniyyəti] yaradacağına qüvvətlə iman etdiyimiz dil birliyi, ədəbiyyat birliyi əməlinə [arzusuna] təbən [tabe olmaqla] Türkiyə maarifinin bilxassə şu on sənəlik milli və həqiqi tərəqqiyatına hörmətən, Türkiyə kitablarını ibtidailərin ilk sinifləri üçün şiveyi-lisan fərqinə binaən [görə] qismən və təbdilən [dəyişdirərək], böyük məktəblər üçün eynən qəbul edərmiyiz?

Əgər Türkiyə həyati-maarifinin hələ əski sistemdə davam etdiyini zənn və iddia edənlər varsa, pək aldanırlar. Türkiyə ülum və fününa [elmlərə və fənlərə] aid kitab ehtiyacını təmin etmiş və etməkdədir.

Müvərrix [tarixçi] Əhməd Rəfiq bəy "Böyük tarixi-ümumi" külliyyatı ilə bərabər, hər məktəb sinifləri üçün qiymətdar tarixlərini, Faiq Səbri açdığı Darülməsaisi ilə coğrafiyasını, [Məhməd Fuad] Köprülüzadə və rüfəqası [yoldaşları] türkcə qəvaid [qaydalar] və Osmanlı ədəbiyyatını, M. Nərmi və sairləri gözəl milli qiraət və inşadlarını, Rza Tofiq fəlsəfəsini, digərləri riyaziyyat, təbiiyyat [təbiət elmləri] kitablarını mükəmməl şəkillərdə maarifə ehda [hədiyyə] etdilər.

Şübhəsiz, bəzi kitablar əskik, əzcümlə [o cümlədən] türk tarixi-ədəbiyyatına [ədəbiyyat tarixinə] aid bir kitab yoxdur. İstərdik ki, mükəmməl bir türk tarixi-ədəbiyyatı olsun. Bu da İstanbulun mütəşəkkil müəssisatı[nı]n, tarix əncümənlərinin [komissiyalarının] və buradakı ixtisaskar zəvatın [şəxslərin] təhərriyyat [axtarışları] və tədqiqatı ilə əldə ediləcəkdir. Bunun üçün pək yanlış olan əski tərz tələqqilərə [fikirlərə, qiymətləndirmələrə] qapılaraq kəndimizə başqa bir üfüq ararsaq, milli həyatdan verstlərlə uzaqlaşmış olarız zənni-acizanəsindəyəm.

Hər halda, bu günün idareyi-məsləhətindən [bu günü yola verməkdən] ziyadə, yarını düşünərək proqramlarımızı, fikirlərimizi müsbət elmi əsaslara istinad etdirəlim ki, paydar [qalıcı] ola bilsin. Çünki elmə, həqiqətə istinad etməyən heç bir qüvvət əbədi həyata məzhər [nail] olammamışdır.

*Həsən M. oğlu*

**İdarədən**: Bu məqalə Azərbaycan Maarif Nəzarəti-cəliləsinə xitabən "Açıq ərzi-hal" ünvanı və surətində yazılmışdı. Fəqət idarəmiz bu surətdə dərcini tərcih etdi.

## MƏTBUAT

### Biz hələ gözləyirik

Ermənilərin gərək daşnak və gərək qeyri-daşnak qəzetələri hər gün olmasa da, günaşırı Qarabağ hadisəsinə dair birər qızğın və fitnəəngiz [fitnəkar] məqalələr dərc edib və əfkari-ümumiyyəni iğva edib [ictimaiyyəti yanıldıb], işin həqiqətini və bu hadisədə cürbəcür məsuliyyətsiz xumbapetlər oynadıqları çirkin rolları erməni demokratiyasından [xalqından] pərdələyib öz cinayətlərini özgələrinin boynuna yıxmağa çalışırlar. Hətta Qarabağda ermənilərin qətliam edilmələrində Azərbaycan Hökuməti ilə İngilis Komandanlığının əlbir olmağını qəsd, bir də sübuta yetirmək istəyirlər.

Əzcümlə [o cümlədən] "Nor aşxatavor"un 136-cı nömrəsində bu məalda [mənada] yuxarıda qeyd olunmuş sərlövhə ilə bir məqalə dərc edilmişdir ki, tərcüməsini qarelərimizə [oxucularımıza] təqdim ediriz.

Qəzetə yazır ki:

*"Qarabağda icra edilmiş təhlükəli qırğın cinayəti mətbuat səhifələrində dərc edildi. Müttəfiqlər heyətinin rəsmi və qeyri-rəsmi nümayəndələri işi təhqiq edib müqəssirləri cəzaya məhkum eyləməyi vəd etdilər. Amma vəddən bir əsər meydana çıxmadı. Guya bunların cümləsi yalnız camaatın qələyana [cuşa] gəlmiş qəlbini sakit etmək üçün imiş.*

*Biz dəfələrlə sübut eyləmişik ki, Azərbaycan Zaqafqaziyada bir Türkiyədir, onun məramnamələrini və qərardadlarını əncama yetirəndir. Müttəfiqlərdə Bakı qırğınını sazlayanlara tənbeh etmək xahişi [arzusu] görməyib və onların tərəfindən Sultanov kimilərin "realnı" siyasətlərinə xeyirxahanə münasibatlarından özlərini bərkidib, Azərbaycanın baş məhafilləri [dairələri] nəinki özlərinin türk siyasətlərinə xitam vermək istəməyirlər, hətta Müttəfiqlərin təhəmmülkar və mütərəddid münasibatlarından [dözümlü və qətiyyətsiz münasibətlərindən] hər növlə istifadə edib, ümumi qarışıqlıq arasında Qarabağın hündürlükləri, təpələrində təzədən qan hamamları yapmaq təşəbbüsatına iqdam edirlər [addım atırlar].*

*Onlar bir tərəfdən sülh və mehriban qonşuluq münasibatı xüsusunda danışıb, digər tərəfdən türklərin ümmülfəsad [fitnə-fəsadın anası, əsas baiskarı] paşaları Ənvərlərə və onun müridlərinə sığınacaq verib, onların ittihadi-islam [müsəlmanların birliyi] təbliğatlarına yardım edirlər.*

*Bu minval ilə sellər kimi qanlar axıdıb*

*hədsiz-hesabsız qurbanlar verdikdən sonra Zaqafqaziya demokratiyası [xalqı] özünü "kəsrikçi" bəylərin fəaliyyətlərindən əmin-amanlıqda hesab edə bilməyib, onların qüvvələnməklərini və sərbəst olmaqlarını müşahidə edir.*

*İcra edilmiş cinayətlər cəzasız qalıb, cinayətkarlar isə asudə və arxayın gəzib, bir dəfə tutduqları təriq [yol] ilə getməkdə davam edəcəklərini söyləyirlər. Bu işlərə gərək xatimə çəkilsin.*

*İcra edilmiş fəsad dairəsində yapılan təhqiqatın nəticəsi gərək meydana çıxıb canilərə tənbeh olsun. Qoy, heç olmasa, bir dəfə hamıya görk olsun ki, bütün bədəfkarlar [cinayətkarlar], hətta ən ali sahibi-mənsəb də olsa, camaat və qanun nəzdində məsuldur. Biz hələ ədalətin həman sözlərini gözləyirik."*

Erməni siyasətçiləri və onlara təzim edən qəzetəçilərinin, şübhəsiz ki, böhtan, iftira və latayilatdan [boş və faydasız, ədəbsiz sözlər danışmaqdan] başqa bir sənəti olammaz. Bunu həpimiz biliriz. Ali mənsəb sahibləri də daxil olmaq üzrə ümum canilərə tənbeh edilməsi haqqındakı tələblərinə isə hər iki əlimizlə qol çəkiriz. Zira böylə olarsa, zənn edərsəm, bir erməni başçısı cəzadan boyun çəkəmməz.

## HƏSƏN M. OĞLUNA CAVAB

Əfəndi!

"Azərbaycan" qəzetəsində "İstiqlal"a yazılmış bir cavabınızı oxudum. "İstiqlal"a bir cavab yazıb göndərdiyinizi bilməyirəm. İdarə sizdən heç bir məqalə almamış və mənə də vüsul olmamışdır [çatmamışdır]. "Millətlər qurtuluşu" təfriqəsi çox uzun bir təfriqə olub yazıldığından, Avropa dillərində bulunan kütübxanənin içərisində və hər hanki bir kitabı ixtiyar edə bilməkdə kimsə müdaxilə və müarizət [etiraz] edəmməz.

329-330 sənədə 18 kanuni-əvvəl tarixli İstanbul, Bursa və İzmir qəzetələrini gətirib oxumaqda məna yox. 330-dan sonra və hal-hazıra qədər bu bayram varmıdır, yoxmudur? Siz iddia edirsiniz ki, guya İstiqlal bayramı hər sənə Türkiyədə icra edilməkdə imiş. Sizin kimi Türkiyədə son zamanlara qədər bulunmuş əfəndilər də vardır. Onların təsdiq və şəhadətləri ilə mən əvvəlcə söylədiyimin üzərində dururam.

## BAKI XƏBƏRLƏRİ

**İstanbul səfiri**

Eşitdiyimizə görə, sabiq Ukrayna və Krım səfiri Yusif bəy Vəzirov İstanbulda Azərbaycan səfiri təyin edilir.

- Aldığımız məlumata görə, Xariciyyə naziri müavini Adil xan Ziyadxanov da bu günlərdə Tehrana azim olacaqdır [yola düşəcək].

**Qızlar üçün sənət məktəbi**

Bakı Ünas Cəmiyyəti-Xeyriyyəsi [Qadın Xeyriyyə Cəmiyyəti] Ticarət və Sənaət Nəzarətinə xəbər verir ki, Cəmiyyətin 7 iyul qərarına görə, bu il sentyabrdan qızlar üçün açılacaq sənət məktəbində əlavə olaraq parça toxumaq sənəti də öyrədiləcəkdir.



**Cəmiyyəti-Xeyriyyədə**

Biləcəri dəmiryol xidmətçiləri tərəfindən qaçqınlar üçün toplanmış 2585 manat 25 qəpik ianə "Azərbaycan" qəzetəsi idarəsi tərəfindən Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə təslim edilmişdir.

**Xəstə türklər**

Bakı Mixaylovski xəstəxana direktoru Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə müraciətən rica edir ki, xəstəxanada yatmaqda olan beş nəfər türk xəstəsi çox zəif olduğundan qara çörək yeyə bilməyirlər. Ona görə Cəmiyyəti-Xeyriyyə mümkün isə onlara ağ çörək alsın. Cəmiyyət təkliflərə əməl etmişdir.

**Yetimlər yurduna**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi yetimlər yurdu üçün Ünas Cəmiyyəti-Xeyriyyəsinə 25 min manat vermişdir.

- Heybətəli Mehdi oğlu Adamovun gəmisindən dənizə düşüb öldüyündən və kimsəsi olmadığından Cəmiyyəti-Xeyriyyə dəfn xərcini öz pulundan etmişdir.

- Ticarət, Sənaət və Ərzaq Nəzarəti kontrolu İsgəndər bəy Əliyev Dərbəndə gedən bir nəfər İshaq oğlu yəhudi sərnişindən kağız torba içində qoz altında gizlədilmiş gümüş pulları müsadirə etmişdir: gümüş manatlıq 82 ədəd, 50 qəpiklik 151 ədəd. Müsadirə edilən paralar Bakı gömrükxanasına verilmişdir.

- Ticarət, Sənaət və Ərzaq Nəzarəti kontrolu İ[sgəndər] b[əy] Əliyev iyulun 6-da Dərbəndə gedən qatarı jandarma Allahyar Nurulla oğlu ilə bir yerdə gəzdiyi əsnada ikinci klasda Dərbəndə gedən Yusif Borquyev nam bir sərnişinin sandığının alt qatından 63 cift yun və ipək corab tutmuşdur. Corablar yazılan bəratülqövl [protokol] ilə bərabər və vaqon biletləri Bakı gömrükxanasına verilmişdir.

**Lənkəranın işğalı**

Bakıda alınmış xüsusi xəbərlərə görə, iki gün əvvəl Lənkəran şəhəri müsəlmanlar tərəfindən kamilən işğal edilmişdir.

**Şimali Qafqaziyada**

Yenə alınmış xüsusi xəbərlərə görə, Şimali Qafqaziyada üsyan qalxmışdır. Beslan mövqifi [stansiyası] ilə Qroznı miyanında [arasında] dəmiryol hərəkatı qət edilmişdir [kəsilmişdir]. Üsyan inquşlar və çeçenlər tərəfindən dabravol dəstələri əleyhinə qalxmışdır. Dabravolların əhvalı nəhayət dərəcədə fənadır.

## UNUDULMUŞ MƏHƏLLƏ

Bakıda Tatarski küçə başdan-başa, Gimnaziya, Karantin, Aziatski və Kamenisti küçələrin ona mülahiq [bitişik] hissələri bütün şəhərdən üzülmüş və ayrılmış bir aləmdir denilsə, rəvadır. Burasına kimsə etina etməz. Burası kimsəni tanımaz. Birinci etibar ilə nəzərlərdən atılmış, ikinci etibara görə bir anarxiya halını almışdır. Burada kim nə istərsə, onu yapar. Kimsənin şikayətinə baxan yox. Bir nəfər tapılıb camaatın halına qalmaz.

Hər əlli qədəmdə cavanların ömürlərini zəhərləyən bir görüş evi və onun

yaxın bir səmtində bir şərabxana açılmışdır. Odur ki, axşam olcağın şəhərin başqa yerlərində görünməyən əcaibülməxluqat burada görünməyə başlar. Gecədən bir qədər keçdikdə hər qapıda bir neçə nəfər məst və hər tində iki-üç nəfər şübhəli şəxslər görünür. Sübhə kimi qovğa sakit olmayır. Kimsə evində istirahət edəmməyir. Bakının baxışlı cavanları bu qapıdan çıxıb o birisinə girərlər. Az-çox huşyar [ayıq] gələnlər divanə olaraq gedərlər.

Şikayətə baxan yox, ara-sıra qoyulmuş milisionerlər də hərgah tapılsalar, gözləri önündə hər dəqiqə təzələnən həvadisə [hadisələrə] sairləri kimi qeydsiz baxmaqdan başqa bir şey bilməyirlər.

Keçənlərdə Nikolay dövründə şərabxanaların məbədlərdən, hər halda, 50 sajından uzaq olması qanun təhtinə [qanun altına] alınmışdı. Şimdi isə bu məhəllənin məscidi ilə şərabxananın arası 50 qədəm belə deyildir. Burasına əsla diqqət edən yoxdur. Son zamanlarda yenə də Nikolay dövründə ricali-dövlət [dövlət adamları] mədaxil mənbəyinin qismi-əzəmini [böyük hissəsini] içkidən gələn vergilərdə gördükləri bir halda, bu fənalığın qarşısını almaq üçün həman mədaxildən sərf-nəzər edərək [vaz keçərək], şərabxanaları bilmərrə qapamaq fikrinə belə düşmüşdülər. Şimdi isə bu işə artıq dərəcədə müsaidə olunmaqdadır [icazə verilməkdədir].

Camaatın şikayətlərinə qulaq asan yoxdur. Müxtəsər, şəhərin bu hissəsinə baxdıqda Şerlok Holms hekayələrində təsvir olunmuş London və Nyu-Yorkun canilər məhəllatı [məhəllələri] və meyxanaları insanın nəzərində təcəssüm olur.

Nəzafət[sizlik] [çirklilik] və təbibsizlikdən əmrazi-cildiyyə [dəri xəstəlikləri] nəhayət dərəcəyə çatmışdır. Bu da kimsəni narahat etməyir.

Təəccüb burasıdır ki, polis dairəsi cinayətin önünü almaq üçün caniləri dərdəst etmək [tutmaq] istəyir. Halbuki hər gün yeni bir quldur dəstəsini Bakıya buraxan cinayət yuvalarını əsla düşünmək istəməyir. Rişəsi [kökü] qazılmış nəxl [fidan, ağac] şaxə [budaq] verməyəcəyi təbiidir.

Möhtərəm polis məmurları! Unudulmuş və bir parça cinayət yuvası olan məhəlləyə dəxi nəzəri-mərhəmətinizi salınız. Siz şəhərin öylə əhəmiyyətli bir hissəsini unutmaqla orasının bir cinayət yuvası, bir fənalıq mənbəyi olmasına meydan verməyin.

*Hatif*

## FƏHLƏ HƏYATI

Balaxana və dairəsi fəhlələri öz vəkilləri Məşhədi Mətləb Cahangirov vasitəsilə hökumətə və Parlamana müraciətən böylə bir ərizə vermişlər:

1) Biz Balaxana mədən dairəsi fəhlələri hənuz başqa fəhlələr əlavə almadıqları vaxt 30 faiz əlavə almışdıq. İndi isə xırda və böyük tüccarlar bütün məkulata [azuqəyə] və ərzağa 30 faizdən 3 dəfə çox artırmışlar.

2) Müəyyən çörəyə girvənkəsində 50 qəpik artırmışlar. Kartofel, kələmə də çox artırıblar. Ət 13 manata idi, indi 15 manatadır. Mal əti 8-10 manata idi, indi isə 14 manatadır. Bu artmaq nə vaxt qurtaracaqdır?

3) Biz öz məvacibimiz ilə həyatımızı təmin edə bilməyirik. Hələ özümüz üçün bir şey almaqdan danışmayırıq. Aldığımız məvacib özümüzü dolandırmayır.

Ona görə Azərbaycan Parlamanından acizanə rica edirik ki, birinci zəruri şeylərə bir qiymət qoyasınız. Məsələn, hər gün unu artıran Quliyevin dəyirmanıdır. Hər halda, çörək və qeyri mayehtac [ehtiyac malları] gərək ucuz olsun. Çünki meyvələr dəyib, təzə taxıl gəlir. Amma bizdə daha da bahalanır.

Buna görə Parlamandan rica edirik, tüccarların hərəkətinə diqqət veriniz. Heç kəs bilməz, məsələn, kartofelin qiyməti neçəyədir? Çünki birində bir cür, o birində başqa cür satılır. Bu, tüccarlar tərəfindən xilafi-qanun hərəkətdir. Ümidvarıq ki, ricamız qəbul olunacaq və ərizəmizə baxıb hər bir zəruri şeylərə qiymət qoyulacaq və bu barədə qradonaçalstvanın hər yerinə ciddi surətdə elan ediləcəkdir.

## AZƏRBAYCANDA

### Quba qəzasında Rus "qaçqınlarının" övdəti

İğtişaş günlərindən bir xeyli zaman və irəli mülk və əmlaklarını kəndi xahişləri ilə satıb Quba qəzasından köçmüş olan rus mühacirləri bu axır günlərdə böyük qafilələrlə [qruplarla] Qubaya övdət etmədədirlər [qayıtmaqdadırlar]. Vahid Rusiya yaratmaq xülyasında olan Denikinin "sarsılmaz" ruhu ilə ruhlanmış həman rus mühacirlərinin əllərində calibi-maraq [maraq oyandıran] bir vəsiqə vardır ki, o da Nikolay hökuməti zamanında Quba naçalniki olan Leontyev tərəfindən verilmişdir. Vəsiqədə "qaçqınların" kəndi mülk əmlaklarına qaim edilmələri [yerləşdirilmələri] əmr və tövsiyə edilir.

Qaçqınların söyləməsinə görə, Dabravol komandanlığı tərəfindən Quba və Dərbənd nahiyəsi naçalnikliyinə "təyin" edilmiş Leontyev onları tez zamanda kəndi "himayə"si altına alacağını vəd etmiş imiş.

### Provokasiya

Elani-istiqlal etdiyimiz gündən hökumətimiz fəaliyyətinə hər anda bir əngəl törətmək arzusunda bulunan ittihadçılar [islam birliyi tərəfdarları] kəndi qara fikirlərini intişar etmək [yaymaq] üçün Quba qəzasını ən münasib bir yer xəyal etmiş olmalarındandır ki, göndərmiş olduqları mübəlliğlərlə [təbliğatçılarla] əhali içində nifaqəngiz [nifaq salan] şayiələr buraxmadan və fitnəamiz təbliğlər etmədən çəkinməyib, şu yol ilə mənhus [uğursuz, nəhs] məramlarına yetişmək istəyirlər.

Ancaq bunu da etiraf etməmək insafsızlıq olar ki, bu əfəndilər əhalinin, daha doğrusu, bir taqım mütəəssib [mövhumatçı] cahillərin məzaqını [zövqünü] layiqincə düşündükləri üçün fəaliyyətlərini də həman yola, həman məzaqa tətbiq etmişlərdir.

Məsələn, əhalinin bir hissəsinə: "Bu hökumət Müsavat hökumətidir. Müsavatçılar da bir taqım dinsizlərdən ibarət olduğu üçün din və şəriətimizin hər əsasını məhv etməyə və o cümlədən qızlarımızı məktəblərə alıb qadınlarımızı məcburən açmağa çalışırlar" kimi mən-

tiqsiz sözlər söyləyirlər. Digər bir hissəsi isə "Biz Türkiyə tərəfdarıyız, ittihadi-islamçıyız, müsavatçılar isə türk və islam düşməni ingilis tərəfdarıdırlar" kimi laqqırtılarla iğfala [aldatmağa] səy edib, bəzən heç də əfv edilməz "Bizim firqəmiz sünni firqəsidir, müsavatçılar isə şiə və İrana mülhəq olmaq arzusu bəsləyənlərdir" kimi provokasiya buraxmaq cəsarətində də bulunurlar.

Əhalinin sərvətli qisminə də: "Müsavat sizin var-yoxunuzu, mülk-maaşınızı zəbt ilə ac və yalavaclar içində bölmək və o yol ilə kəndilərinə tərəfdar qazanmaq istəyirlər. Amma biz Quran və şəriət ilə iş görmək, varlıları Cənabi-Haqqın "buyurduğu" kimi füqəra üstündə əfəndi (ağa) etmək üçün əlləşirik" deyirlər.

İştə bizim ittihadçı əfəndilərin fəaliyyəti!

Bu günlər həman yuxarıda yazılmış təriq [yol] ilə elənən [açıqca] təbliğat etmək niyyətində olub mitinq çağırmış olan ittihadçılar yerli hökumət tərəfindən mümaniət [maneçilik] edildiyi üçün arzularına yetişəmməmişlərdir. Camaat hökumətin şu iqdamatından [addımlarından] fövqəladə məmnun qalmışdır.

*H. R.*

**Lənkəranda bolşevizmdirmi?**

Xayır, Lənkəranda bolşevizmin qoxusu da belə yoxdur.

Lənkəranda keçmiş bolşevizmə nisbət, bu il mayıs ayının 5-də xüruc edən [meydana çıxan] bolşevik hökuməti əsla beynəlmiləliyyət əsası üzrə deyildir.

Ətrafdan qaçıb gələnlər şəhərimizdə toplaşıb bolşevizm adı ilə ortalıqda bir şey düzəltmişlərdir.

İştə, hökumətin rəisləri: məşhur [V. D.] Suxorukov ən əvvəl millətpərəstlik iddiası edib, keçən il biçarə Lənkəran müsəlmanlarını qırmaqdan usanmazdı və Lənkəran mahalını tam od içində yandırdı. Sonralar məzkur [deyilən şəxs] sosialist olub bir hökumət təşkil verdi.

20 iyun 1918-də isə menşevik əsası ilə təşkil olunan hökumətdə yenə də Suxorukov ağalıq eyləyirdi. Bu axır zamanlarda mayıs ayında qərar verilən bolşevik hökumətində isə yenə də Suxorukov birinci vəzifə ifa edir.

Hal-hazırda Lənkəranda kommunist hökumətində Baş vəzir Suxorukov, Hərbiyyə naziri komandan [İ. P.] Orlov, Bəhriyyə naziri matros Kropotov, Daxiliyyə Nəzarətini idarə edən isə iranlı Bəhram Ağayevdir. Şəhərin tam ixtiyaratı işbu şəxslərin əlindədir.

200 minə yaxın müsəlman camaatını mum kimi əllərində əzirlər.

Bunlardan başqa, şəhərdə Şevkunov dəxi dəstə ilə hakimlik edir və idarə açıbdır. Məzkur, islamın elmsizliyindən istifadə edib Qaçaq Məmmədi özünə kömək tutmuşdur. Və Məmməd dəxi öz müsəlman qardaşlarını ermənilərə döydürməkdən əl götürməyir. Lənkəranın kəndlərində sünni-şiəlik ədavəti törədir. İslam qadınlarının həyalarını, namuslarını erməni yırtıcı canavarlarına satır.

Lənkəran şəhəri dövlətli kəndlərə və məhsulatlı yerlərə sahibdir. Fəqət təəssüf olsun ki, bu il böyük buğda, arpa, düyü, meyvə və sairə məhsul ara yerdə pamal [puç] oldu. Şəhərdəkilərin xofundan ətrafda İrana ucuz qiymətlərə satılıb dağıldı. Kəndlər saldatlar tərəfindən dəfəatla soyulub çapıldı.





Erməni müsəlləh [silahlı] dəstələri ədavətlərində davam edirlər.

"Ədalət" firqəsi sədri Bəhram Ağayev hər gün kəndliləri başına cəm edib kommunizm ideyasını onlara təbliğ edir və Şura hökumətini mühafizə etməyə çağırır. Hökumət bu ağır zamanlarda şəhər müsəlmanlarından 8 milyon təzminatiəsgəriyyə [hərbi təzminat] tələb edir. Buna görə də 33 nəfər tacirlərdən tutub dustaqxanaya salmışlardır və məhbuslara sutkada yarım girvənkə yavan çörəkdən başqa heç şey verməyirlər. Camaat gedib rica etdi ki, hərgah məcburi surətdə 8 milyon pul istəyirsiniz, o vaxt buyurub ev-eşiyimizi satıb bu məbləği düzəldin. Buna qarşı "ev-eşiyiniz həp bizimdir" cavabını aldılar. Naəlac pullar tədriclə yığılıb verilir.

Təəccüb burasıdır ki, hökumət rəisi Bəhram Ağayevə xitabən Ağabəy Kələntərli: "Sən axı müsəlmansan, yazığın gəlsin, Allah rizasına dustaqları burax, ancaq pulları alınız" dedikdə "Siz bilməyirsiniz, sizin Allahınız mənəm və məni zinhara gətirsəniz, bundan dəxi artıq qeyz edərəm" cavabını almışdır.

Yenə də bir dəfə matroslar rəisi Bleqdən dustaqlara evlərindən xörək getməsi ixtiyarını istədikdə, Bleq cavabında: "Nəinki xörək, bəlkə də bir qətrə su dəxi verməyəcəyəm. Çünki kapitalistlər gərək ac qalsınlar."

Yenə də camaat pərişan halda evlərinə gedirlər.

Aya, baxalım, böylə hərəkətlərdən sonra bu hökumətə bolşevikmi, menşevikmi, ya canilər yuvası denilir? Əlbəttə, böylə hökumətə heç ad verməkolmaz, məgər canilər yığıncağı.

Əlhasil, yaylaq, ürəkaçan cənnətasa [cənnət kimi] və məhsulatlı Lənkəran mahalını bir ilin müddətində xarabazara döndərdilər. Əhalinin halı pək fənadır. Ancaq Azərbaycan ümidi ilə yaşayır və Azərbaycan hökumətindən hər dəqiqə imdad gözləyirlər.

*Lənkəranlı*

## ERMƏNİSTANDA

*(Xüsusi müxbirimizdən)*

**Müsəlmanların yaşayışı**

İrəvan uyezdi Zəngibasar kəndlərindən bir müsəlman evinə mayehtac [ehtiyac şeyləri] almaq üçün kəndindən çıxıb İrəvana gəlməyə başlayır. Uluxanlıda oturan erməni komissarı məzkur [deyilən] müsəlmanı saxladıb bu növ ilə sual və cavaba başlayır:

Komissar: Şəhərə neçə pul aparırsan?

Müsəlman: Ağa, pulum yoxdur. Şəhərə gedirəm, başımı dolandıram və əhləyalıma çörək pulu qazanam.

Komissar (adamlarına deyir): İndi ki bunun pulu yoxdur, öylə isə bu, oğrudur. Döyün bunu. Və sonra dama qatın.

Kəndli müsəlman, komissarın əmri ilə bir çox döyüldükdən sonra çustunun arasında erməni soyğunçularının qorxusundan gizlətmiş olduğu pulları çıxarıb komissara verir və sonra komissar bunu bağışlayıb azad edir.

* * *

Bu günlərdə erməni Parlamanına İrəvanda seçkilər olmuş. Daşnaklar müsəlmanlara demişlər: "Bizim məmləkətdə

yaşaya bilmək istəsəniz, bizə səs verməlisiniz. Yoxsa sizə burada yaşamaq mümkün olmaz." Binaənileyh [ona görə], seçki zamanı müsəlmanlar qorxularından ancaq qatilləri olan daşnaklara səs vermişlərdir.

* * *

İrəvanda Dəmirbulaq məhəlləsində Çobankərəli Qasımın evinə ermənilər gecə ikən basqın edirlər. Arvadı sandıqda olan paltarlarını mühafizə etmək məqsədilə özün sandığın üstünə atır. Ermənilər sandıqda pul var ümidi ilə vurub arvadı öldürürlər. Sandığı açdıqda arvad paltarından başqa bir şey çıxmadığı halda genə talayıb aparmışlar.

* * *

İrəvanda Hacı Ələsgərin arvadını küçə ilə keçdiyi halda ermənilər hücum edib aparmaq istəmişlərdir. Müsəlmanlar yetişib güclə əllərindən almışlardır.

* * *

İrəvanda Mirhəsən qəssab, yanında iki uşağı ilə bağlarından çıxıb şəhərə gələrkən ermənilər Talar bağının yanında şəhərin kənarında vurub Mirhəsəni öldürürlər.

* * *

İrəvanda Abbasəli bəyin oğlu Əli bəyin evində pul olduğunu bilib ermənilər gecə ikən məzkurun [adı çəkilən şəxsin] evinə basqın edirlər və pullarını alıb aparırlar.

* * *

Ermənilər Şərur, Vedi tərəfli müsəlmanlarının başçılarından dörd nəfərini tutub İrəvana gətirirmişlər. Qəmərlidə vaqondan endirib dördünü də güllələyib öldürmüşlərdir.

* * *

Naxçıvanda müsəlman irəli gələnlərdən Hüseynağa Novruzovu və Cəfər bəyi və daha iki digər müsəlman iş görənlərini ermənilər min dürlü töhmətlər qoyub tutmuşlar və gətirib İrəvan qalasında həbs etmişlərdir.

**Dava hərəkatı**

Erməni teleqraf agentəliyinin iyulun 11-də verdiyi xəbərlər: Zəngəzur qəza komissarının müavini xəbər verir ki, Zəngəzurda halət şuluqdur. Tatarlar müntəzəm təərrüzat [hücumlar] edib hətta Qapan mahalında müvəffəqiyyətə nail olmuşlar. Erməni kəndçiləri əks hərəkat edib qaib etdikləri mövqeləri və kəndləri geri almışlar.

Şahtaxtı dairəsində dağlarda yüzə qədər kişidən mürəkkəb [ibarət] bir süvari dəstəsi müşahidə edilmişdir. Yerli müsəlmanları intizama salmaq üçün şimala doğru üç türk süvarisi rəvan olmuşdur. İyulun 6-da səhər saat 9 radələrində Əliməhəmməd köyünün əhalisi qoşun üzərinə atəş açır. Kənddən bir dəstə süvari, bir böyük dəstə də piyada çıxdıqda top atəşi ilə pozulmuşlar.

Sədərəkdən bildirilir ki, 500 kişilik müsəlləh [silahlı] bir dəstə ötdü. İyulun 5-də və 6-da Keykəvi və Böyük Vedi köylərin hökuməti Məşhədi Ələsgər Həmzani pişrovluğu [rəhbərliyi] ilə Yenicə köyünün nümayəndələri qoşun komandanına müraciətən Böyük Vedi camaatını çölə gətirib məşru [qanuni] hökumətə tabe olmağa nəsihət eyləmək üçün oraya ağsaqqallar göndərməyi rica etdilər. Nəticəsi hələ məlum deyildir.

Qaraqurd səmtində 200 qədər kürd, qoşunumuza hücum etdi. Düşmən top





atəşi ilə dağıdılmışdır. Başqa bir dəstə də Məscidli kəndinə təcavüz edib talan yapdı. Teleqraf xəttini sazlayan bir dəstə fəh-lə də təcavüzə düçar olmuşdur. Sarıqa- mış, Qaraqurd, Şərur və Naxçıvan ilə ra-bitə mühafizə edilir.

Ordubadda və dairəsində olan kəndlərdə türk mübəlliğləri [təbliğatçıları] erməni əleyhinə təbliğat icra edirlər. Tatarlar müsəlləhdirlər.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

Rica edirəm, zeyldəki [aşağıdakı] sözlərimə qəzetənizdə yer verəsiniz.

Yanvarın 9-da Ticarət və Sənaət Nəzarəti 227 nömrəli şəhadətnamə ilə mən Cavanşir uyezdi nümayəndəsinə izin vermişdi ki, camaata paylamaq üçün Tağıyev fabrikasından dörd tay bez alım. Ticarət və Sənaət Nəzarətinin iyunun 19-da vermiş olduğu 9012/568 nömrəli şəhadətnaməsindən görülə bilər ki, fabrikadan bez Gəncə Təchizati-əsgəriyyə [Hərbi təchizat] şöbəsi üçün buraxılmada olduğuna görə, həman dörd tay bezi mən ala bilmədim. Mən Qarabağ general-qubernatoruna bu barədə xəbər verdim. Halbuki həmin qubernatora bu barədə böylə xəbər vermişlər ki, guya mən o bezləri alıb özüm üçün istifadə etmişəm. Rəfi-iştibah [şübhənin aradan qaldırılması] üçün məni vəkil etmiş olan camaata xəbər verirəm ki, mən bez ala bilməmişəm və alsam, onların malına sahiblənmərəm.

*Kamali-ehtiramla*
*Hidayət Tanrıverdiyev*

**Satılır**

Dükan, elektrik işığı və hər bir əşyası ilə. Krasnokrestovski küçə, nömrə 22.

*5432*

**İtibdir**

Həmdulla Həsən oğlunun Ərdəbildən aldığı pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*5438*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, iyul ayının 17-də, 1919[-cu] ildə səhər saat 10-da Petrovsk meydanında qovun, qarpız satmaqdan ötrü olan yerləri müvəqqəti olaraq icarəyə verməkdən ötrü torq [hərrac] təyin edilibdir. Təfsilatı Şəhər İdarəsinin Ziraət (yer) şöbəsində bilmək olar.

*T-176*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***





## "QEYD VƏ ŞƏRHLƏR

**Hökumət Teatrosunda**

səh. 259. "Düşənbə günü, şəvvalülmükərrəm ayının 17-də (iyul ayının 16-da 1919-cu ildə)": ayın tarixi ilə həftənin günü arasında uyğunsuzluq var.

**Teleqraf xəbərləri**

səh. 263. "Yaşıl qvardiya": Rusiyada Vətəndaş müharibəsi dövründə əcnəbi müdaxiləçilərə, bolşeviklərə və ağqvardiyaçılara qarşı mübarizə aparan, qeyri-nizami silahlı qruplar; əsasən kəndlilərdən və kazaklardan ibarət olurdu.

**Nəzarətlərdə**

səh. 266. "Astraxanka": Şamaxının kəndi; indiki Qızmeydan kəndi.

"Maryevka": Şamaxı rayonunun kəndi; indiki Nağaraxana kəndi.

**Təlif işləri**

səh. 270. "Tənzimat": Türkiyədə 1839-cu ildə elan edilən Tənzimat fərmanı ilə rəsmən başlayan və əsasən qərbliləşmə meyilləri ilə xarakterizə edilən mülki islahatlar dövrü. "Tənzimat" sözü "nizamlamalar, qaydaya salmalar" mənasına gəlir.

"10 Təmmuz inqilabı": Türkiyədə İkinci Məşrutiyyətin (Sultanın hakimiyyətini məhdudlaşdıran Konstitusiyanın) elan edildiyi 23 iyul 1908-ci il, rumi təqvimlə 10 təmmuz 1324-cü ilə müvafiqdir.

səh. 272. "təşbeh və istiarə": təşbeh – bədii əsərdə bənzətmə; istiarə – bənzətmədə söz və ifadələrin məcazi mənada işlədilməsi.

"mənqəbə": dini və tarixi şəxsiyyətlər haqqında əfsanəvi-dastani hekayələr.

"Darülməsai": Faiq Səbri Duranın İstanbul Universiteti nəzdində açdığı Coğrafiya Darülməsaisi (Coğrafiya İnstitutu) nəzərdə tutulur.

**Mətbuat**

səh. 273. "xumbapet": müsəlman əhaliyə qarşı qırğın törədən silahlı erməni dəstələrinə ermənilərin verdiyi ad.

"əlbir olmağını qəsd": qəzetdə "qəsd" yerinə "fəsl" getmişdir.

**Həsən M. Oğluna cavab**

səh. 274. "«Azərbaycan» qəzetəsində İstiqlala yazılmış bir cavabınızı oxudum.": Həsən M. oğlunun "«İstiqlal» qəzetəsinə cavab" adlı yazısı "Azərbaycan" qəzetinin 10 iyul 1919-cu il tarixli 221-ci nömrəsində dərc edilmişdir.

"təfriqə": qəzetdə hissə-hissə çap edilən yazı.

**Unudulmuş məhəllə**

səh. 275. "Tatarski": Bakıda, indiki Əlimərdan bəy Topçubaşov küçəsi.

"Gimnaziya": Bakıda, indiki Tolstoy küçəsi.

"Karantin": Bakıda, indiki Həzi Aslanov küçəsi.

"Aziatski": Bakıda, indiki Əlövsət Quliyev küçəsi.

"Kamenisti": Bakıda, indiki Bəşir Səfəroğlu küçəsi.

**[Elanlar]**

"Bakı Şəhər İdarəsi bununla elan edir ki... Petrovsk meydanında": Petrov meydanı (yaxud Petrovsk meydanı, Teatralnaya meydanı) Bakıda meydan olmuşdur; hazırda bu ərazidə Muzey Mərkəzi (Dənizkənarı park yaxınlığında) yerləşir.



***“Azərbaycan” qəzetinin 226-cı nömrəsinin 1-ci səhifəsi***





**Çərşənbə, 16 iyul 1919-cu il, nömrə 226**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 17 şəvvalül-mükərrəm sənə 1337. 16 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERETTA**
Zülfüqar bəy və Üzeyir bəy
Qardaşlarının Müdiriyyəti
Düşənbə günü, şəvvalül-mükərrəm ayının 17-də (iyul ayının 16-da 1919-cu ildə) mütəntən bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin məşhur
**“Şah Abbas və Xurşidbanu”**
Bu dəfə Sarabski Şah Abbas rolunda səhnəyə “atlı” çıxacaqdır.
Biletlər indidən teatronun kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

---

İyunun 21-də Şəhər İdarəsi binası Su yolu şöbəsində neft motorları hər bir sistem 27 gücdən 5 gücədək, dəmir vərəqələr, kotanlar, şuruplar, taxta boçkalar [çəlləklər], 4-6 düyməli atvodlar [boru dirsəkləri], qaz trubası lövhü və qeyri şeyləri satmaqdan ötrü müzayidə (torq) [hərrac] təyin olunubdur. Təfsilatı Su yolu şöbəsi dəftərxanasında saat 10-dan 2-yədək və həmçinin şeylər satılacaq yerdə, “Pajarnı komanda” binasında 10-cu Zavağzalnı, 4-cü Çornı-qorod küçəsi, İtskoviçin zavodu qarşısında saat 10-dan 1-ədək bilmək olar.

*T-177*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*8 təmmuz iclası*

### Rüstəmbəyli Şəfi bəyin məruzəsi

**Rüstəmbəyli** - Dün [dünən] burada ərz edildi ki, Qarabağ məsələsi haqqında iki məruzə var: birisi mənimlə Qarabəyli əfəndinin, digəri Çubaryan ilə [İsak] Xocayevin.

Fəqət mütəəssifanə [təəssüf ki], dün ikinci məruzə oxunmadı. O məruzə deleqat heyətinin əlində bulunan sənəd və sübutlar əsası ilə tərtib verilməmişdir. O, ancaq general-qubernator əleyhinə bir təqsirnamədən ibarətdir. Əsl-əsasları da bundan ibarətdir ki, Qarabağ hadisatı əsnasında hökuməti-məhəlliyyə [yerli hökumət] fəaliyyətsizlik və səhlənkarlıq ibraz etmişdir [göstərmişdir]. Bunu isbat üçün sual edirlər ki, Üçmıx səngərinə qa-

raqol qoymaq general-qubernatorun nəyinə lazım idi? Məlumunuzdur ki, Şuşa iki müsəlləh [silahlı] tərəfdən ibarət idi: birisində hökumət vardı, digərində isə hətta ermənilər özləri də etiraf edirlər ki, heç bir hökumət olmayıb, müsəlləh çətə dəstələri hökmfərma olaraq [hökm edərək] əhalini dəhşətə salırdı. General-qubernator da, ingilis heyəti də böylə vəziyyəti təhəmmül edilməz [dözülməz] bir hal sayaraq general-qubernator sultasının ermənistana da [Şuşa şəhərinin ermənilər yaşayan hissəsinə də] tətbiq və təşmil [şamil] edilməsini lazım görürlərdi. Bu məqsədlə qışla [kazarma] olan qismə əsgəri qitəat [hərbi hissə] yeridilməsi təhtiqərara alınmışdı və çünki general-qubernatorun bu qərara əməl etməsinə müsəlləh ermənilər tərəfindən mümaniət [maneçilik] göstəriləcəyi və öz xahişləri ilə bu əmrə tabe olmayacaqları gözlənirdi, ona görə də general-qubernator qeyri-məmul [arzuolunmaz] hərəkətlərin önünü almaq üçün bəzi tədbirlər ittixaz etməyə [tədbirlər görməyə] məcbur idi. Bunu erməni əhalisi də bilirdi.

General-qubernatorun bəyanatına görə, məlumat varmış ki, o zaman erməni kəndlərindən şəhərə müsəlləh kömək dəstələri gələcəkdi. Əlimizdə məlumat var ki, şəhərə tez-tez müsəlləh dəstələr gəlirmiş, hətta Qarabağ ermənilərinə səərbərlik elan edilmiş imiş. Ona görə Üçmıxa qaraqol qonulmuşdur ki, şəhərə müsəlləh erməniləri buraxmasın. Ermənilər də, türklər də təyid [təsdiq] edirlər ki, silahsız adamlara heç kəs dəyməyirdi.

Hadisat başlanan günü Ağdamdan Şuşayadək bütün Şuşa köçlə dolu imiş və Qarabağ türklərinin bütün var-yoxu yolda imiş. Bir çox şahidlər göstərirlər ki, ermənilər kərratla [dəfələrlə] məzkur [deyilən] yolu atəşə tutmuşlardır. Bu işlər isbat edir ki, general-qubernatorun ermənilərə qarşı heç bir təcavüzkarlıq fikri yoxmuş və ola bilməzdi.

Erməni mətbuatı bu hadisədə kürdlərin roluna böyük əhəmiyyət verir. Bu xüsusu Çubaryan dəxi qeyd etdi. Qaybalı kəndinin talanında kürdlərin iştirakı haqqında ermənilərlə ingilis heyəti məlumat verirlər. Fəqət türklər göstərirlər və tabor komandanı, hökumət və sairlərinin əldə etdikləri məlumatdan anlaşı[lı]r ki, kürdlər dava qurtardıqdan sonra gəlib çıxmışlardır. Ermənilərin həpsi deyir ki, kürdlərin iştirakı onlara məlum deyildir. Mühəqqəqdir [şübhəsizdir] ki, kürdlərin hərəkəti general-qubernatorun binagüzarlığı [sərəncamı] ilə dayandırılmışdır. Təbiidir, bir yerdə bir hadisə olarsa, bəziləri kömək, digər bəziləri də qarət üçün oraya qoşarlar.

Bir də, Çubaryanın bəyanatında əsgərlərimizin iştirakına böyük əhəmiyyət verilir. Halbuki məlum olur ki, Üçmıx və Yarma səngərlərindəki qaraqollardan başqa ümumi əsgərlər ayın 4-də qışlalarda imişlər. Erməni hissələrindən atılan güllələrlə qışla içində əsgərlərdən qətl edildiyi də bunu isbat edir. Hətta general-qubernator və tabor komandanı əmr etmişlər ki, ermənilər güllə atsalar da, əsgərlər cavab verməsinlər. *(Hökmləri oxuyur.)* Bu surətlə görülür ki, əsgərlərin güllə atmamaları üçün hər növ ciddi tədbirlər görülmüşdür və general-qubernator var qüvvəsi ilə çalışmışdır qan tökülməsin.

*(bitmədi)*





## TELEQRAF XƏBƏRLƏRİ

### İtaliya və Fransada inqilab

Genuyada tətil davam edir. Fəqət şəhərdə sakitlik vardır. Bahalığa protesto olmaq üzrə iyunun 14-də Speziyada mağazaları talan etmişlərdir. Fransada əhval yaxşılaşmışdır. Parisin nəqliyyat işlərində işləyən əmələləri [fəhlələri] işə başlamışlardır. Kömür mədən əmələləri federasiyası bütün kömür mədən əmələlərinin tətil etdiyini xəbər verir.

London - (Şimali Rusiyada) İngilis və Rusiya əsgərləri Medvejyeqorskda olan bolşevik səngərini işğal etmişlərdir. Cənubi Rusiyada Luqanskın şimal-qərb[i], İzyum və Belovodskun 40 ağaclığında Kupyansk dabravollar tərəfindən işğal edilmişdir.

Bağdad - Şeyx Mahmudun dəstəsi Baziyan dərəsi yaxınlığında məğlub olmuşdur. Onların ədədi böyükdür. Yüzdən ziyadə əsir alınmışdır. Şeyx Mahmud [Bərzənci] səhrada yaralanmış bir halda tapılmışdı. Yaralı xəstəxanaya gətirilmişdir.

- "Berliner taqeblatt" qəzetəsində Teodor Volf yazır:

*"Müttəfiqlər Kayzer Vilhelmin məhkəməyə cəlb edilməsi işinə şüru edərək [girişərək] ədalət və insaniyyətə muğayir [zidd] iş görürlər və bununla da böyük müşkülat törədirlər."*

"Vorvart" qəzetəsi isə yazır:

*"Müttəfiqlərin müharibə işlərində bir adamı təqib etmələri Kayzerin dəxi də nüfuzunu artırır. Sabiq Kayzerin tənbehə düçar edilməsi xüsusunda olan İngiltərənin inadı – ki bütün Almaniya üçün həqarətdir – təsdiq edir ki, bir çox almanların zənn etdikləri kimi İngiltərə Almaniyanın ən dəhşətli və xətrəli [təhlükəli] düşmənidir. Hərgah, Almaniyanın müharibədə müqəssir olduğu sənədlərinə baxılarsa, o zaman Almaniyanın düşmənləri də etiraf edər ki, bu böyük müharibədə yalnız Almaniya müqəssir deyildir."*

- Yekşənbə [bazar] günü, gündüz Sileziya və Katovitsedə dəhşətli iğtişaş əmələ gəlmişdir. General [Yozef] Haller tərəfindən Yuxarı Sileziyanın istila edilməsinə qarşı böyük mitinqlər qurulub etiraz edilmişdir. 4 min nəfər polyaklar Katovitse tərəfindən gəlib nümayişlərə mane olmaq istəmişlərdir. Onlar arvad və uşaqların əlindən alman bayraqlarını alıb, natiqləri yerlər[in]dən yendirmişlərdir. Qoşunlar gələrək, iğtişaş davam edirdi. Bir çox ölən və yaralanan vardır. Almaniyada dəmiryol tətili bitib qurtarmışdır.

### Maltada üsyan

Maltadan xəbər verilir ki, işsizlikdən dolayı orada iğtişaş əmələ gəlmişdir. Nəhayət qoşun gücü ilə iş görülmüş. Zənn edilir ki, indi asudəlik bərpa edilmişdir.

### İtaliya-Fransa əlaqəsinə dair

Fransa Hökuməti Fiumedə İtaliya ilə Fransa saldatları arasında vaqe olan qanlı müharibənin nəticələrindən və aranın kəskinləşəcəyindən artıq ehtiyat edir.

London - Royter ajansı xəbər verir ki, ingilis qoşunları Qafqaziyanı təxliyə edəcəklərdir.

* Feldmarşal Hindenburqun Foşa yazmış olduğu məktubu münasibətilə Vyana qəzetələri yazırlar ki, Hindenburq Almaniyanın öylə bir nümayəndəsidir ki, bütün Almaniya onun vücudu ilə iftixar edə bilər.

**Kanada üsyanına dair**

"Deyli nyus" sərməqaləsində [baş məqaləsində] deyir ki, Kanadada olan şimdiki əmələ böhranı[nın] rəsmi surətdə deyiləndən daha artıq əhəmiyyəti vardır. Vinnipeqdə olan əmələ hərəkatından əlavə Kanadanın ən mötəbər Manitoba şəhərində də əmələ hərəkatı vardır. Orada may ayında belə ümumi tətil başlanmışdı və bu tətil nəticəsi olaraq dəhşətli iğtişaş əmələ gəlmişdir. Vinnipeq hal-hazırda mühasirə halında bir şəhərə mübəddəl olmuşdur [çevrilmişdir].

Stokholm - "Aftonbladet" qəzetəsi xəbər verir ki, Berlində tətil davam edir. Hökumət siyasi nöqteyi-nəzərlə tətilin aparıldığını zənn edir. Tətilçilər şimdiki hökuməti yıxmaq istəyirlər.

Odessa - Romaniyada müntəşir [nəşr olunan] "İzbanda" qəzetəsi yazır: Parisdə Fransa və İtaliya sosialistlərinin konfransında qərar qoyulmuşdur ki, bir beynəlmiləl nümayiş təşkil edilib də qoşunların tərxisini, Rusiya ilə sülh edilməsini və əfvi-ümumi elanını tələb eyləyəcəkdirlər.

**Macarıstan bolşevikləri**

Royter acentəliyinə çex-slav mənbələrindən rəsmi surətdə xəbər verirlər ki, macar bolşevikləri hökuməti əllərinə alan kimi narazılıq qaldırmaq qəsdi ilə Slovakiyada və Transilvaniyada bolşevik təşviqatı başlamışlardır. Acentələrə silah və pul verilmişdir. Romaniyalılar buna cavab olaraq təyin edilən xətti-hüdudu [sərhədi] keçmişlərdir. Macarların dəfələrlə etdikləri hücuma baxmayaraq çex-slavlar xəttini keçməyirlər. Müttəfiqlərin tələbatına görə, romaniyalılar hücumu dayandırmışlardır. Bu hücum nəticəsində ola bilərdi ki, romaniyalılar Peştəni alıb bolşevik hökumətini məhv etsinlər. Bu iş macarlara kömək etmişdir ki, çex-slavlar ilə mübarizədən ötrü öz qüvvələrini cəm etsinlər. Belə görünür ki, macarların hücumu dayandırılmışdır. Macar bolşevikləri təcili surətdə ordu təşkil edirlər. Macarların Slovakiya[nın] şimal-şərq hissəsinə olan inadlı hücumları göstərir ki, onların niyyəti Ukraynaya soxulub rus bolşevikləri ilə birləşməkdən ibarətdir.

**Meksikada amerikalılar**

El-Pasodan xəbər verirlər ki, Karransa əsgərləri ilə Villa üsyançıları arasında vaqe olan müharibə əsnasında təsadüfi güllə ilə yaralanmaq ittifaqı [hadisəsi] olduğuna görə, 3600 Amerika əsgərləri sərhədi keçib üsyançılara qalib gəlmişlərdir. Üsyançılardan bir çoxu əsir edilmişdir.

Berlin - Spartaklar hər gün hökumətin icazəsi ilə simsiz teleqraf ilə Lenin, Trotski və Gön ilə danışırlar. Bunlar rəmzi [şifrəli] teleqrafla danışırlar və tərəfimüqabil heç bir şey anlamayır.

Odessa - Petlyuralıların sağ əli olan ataman [Trifon] Yanov atılmaqla edam edilmişdir.





Nauen - Bütün Yuxarı İtaliyanı tətil istila eyləmişdir. Bu barədə hökumətlə edilən danışıq heç bir nəticə verməyir. Əmələlər tələb edirlər ki, ümumi tərksilah, əfvi-ümumi elan edilib və bir də Rusiyaya qarşı heç bir növ təcavüz edilməsin.

- Bolşeviklər Finlanda sərhədinə 30 min qırmızı qoşun, 250 top yeritmişlərdir. Bolşeviklərin aeroplanları Finlanda sərhədinə bomba tökmüşlərdir.

- Almaniya sosialistləri ümid edirlər ki, Müttəfiqlər Kayzer Vilhelmi mühakiməyə cəlb etməkdən vaz keçəcəkdirlər.

- Türkiyə Ermənistanında müsəlmanlar artıq olmaq üçün müəyyən türklərin oraya mühacirət etmələri üçün türk hökuməti 3 milyon lirə təxsis eyləmişdir [ayırmışdır].

- Xerson ilə Nikolayev arasında nemes bolşevikləri ilə məhəlli [yerli] bolşeviklər arasında qızğın müharibə gedir.

**SÜLH ƏTRAFINDA**

Prins Henrix Prusski ingilis kralına teleqram edərək ondan təvəqqe edir ki, ədalət naminə kayzerin məhkəməyə cəlb edilməsi tələbindən vaz keçsin: "İyul ayının 20-də 1914-cü ildə mən siz əlahəzrət ilə müsahibədə bulunduqdan sonra Almaniyaya qayıdıb Almaniya səfərbərliyi başlananadək kayzerin yanında olmuşam və mən şahidəm ki, əlahəzrət kayzer və onun məşvərətçiləri dünyanın fəlakətinə bais ola biləcək müharibənin qabağını saxlamağa çalışırdılar. Mən hazıram kayzer barəsində edilən iftiraları rədd edim və mən özümü zati-şahanənizin ixtiyarına verərəm, tainki müharibənin əsli səbəbini sizə ərz edərəm."

Nauen - Almaniyada Baş Ruhani İdarəsi sülh imza edilən günün matəm günü olmasına qərar vermişdir.

Nauen - Yuxarı Sileziya Amerika qoşunları tərəfindən istila ediləcəkdir.

Lion - Norveçya Hökuməti Şpitsbergen cəzirəsinin [adasının] Norveçyaya verilməsini Sülh Konfransından tələb edir.

**QƏZETƏLƏRDƏN**

**General Şkuroya sui-qəsd**

Xarkovdan verilən xəbərə görə, Xarkovda general Şkuroya sui-qəsd edilmişdir. Şkuronu şəhər restoranlarının birində zəhərləmək istəmişlərdir. Polkovnik Nelidov zəhərdən ölüb, Şkuro və başqaları salamat qalmışlardır.

**Dabravol cəbhələrində**

Yekaterinodardan xəbər verirlər ki, Belı şəhəri cəbhəsində general Belovun ordusu bolşevik 5-ci ordusunun sağ cinahını sındırıb Sterlitamak və Orenburq rayonu ortasına çıxmışdır. Ural cəbhəsində Orenburq rayonunda general Kappel ordusu Buzuluka hücum etməkdədir. Voljski rayonunda Nikolayev işğal edilib,

Ural əsgərləri Samaraya yaxınlaşmışdır. May ayı ibtidasında [əvvəlində] Denikin ordusu ilə admiral Kolçak ordusu arasında olan məsafə 700 verst idi. Hal-hazırda isə 200 verstdir.

**Xerson yolunda**

Novorossiyskdən xəbər verirlər ki, Qara dəniz sahilində olan Xorlı portu dabravollar tərəfindən işğal edilmişdir.

**Fransanın köməyi**

Admiral Kolçak əsgərləri arasında olan 40 min Müttəfiq əsgərlərindən ancaq 500 nəfəri fransızlardır. Şimali cəbhədə 2000, Dnestr cəbhəsində isə 3 fransız əsgəri dəstəsindən 2-si arxaya aparılmışdır.

**Bolşevik mətbuatı**

Bolşevik qəzetələri yazırlar ki, biz təzədən var qüvvəmizlə həyat-məmat [ölüm-qalım] üçün öz mübarizəmizdə davam edəcəyik. Qəzetələr Ağ qvardiya əsgərlərinin müvəffəqiyyətini müvəqqəti hesab edir.

**Fransızlar Rusiya haqqında**

"A. F." qəzetəsinə Jak Banvil yazır ki, Estoniya istiqliyyətinin Müttəfiqlər tərəfindən təsdiq edilməsi rus izzəti-nəfsi üçün xeyli təsirlidir. Bununla Rusiya Baltik dənizinə baxan pəncərədən məhrum edilir. Ukrayna təsdiq edilərsə, Rusiya parçalanıb Qara dənizə də çıxmaqdan məhrum olar.

**Kanadada**

Kanadada bolşevizm təşviqatı ilə mübarizə məsələsini həll etmək üçün ictima [yığıncaq] dəvət edilmişdir. Tətil hərəkatı artmaqdadır.

**Malakka şibhi-cəzirəsində**

Malakka şibhi-cəzirəsində [yarımadasında] həyəcan davam edir. Vellesleydə idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi rejim] elan edilmişdir. Penanq və Sinqapurda sakitlikdir. Asayiş könüllülər ilə "Sisler-ney" paroxodu maryakları [matrosları] tərəfindən gözlənilir.

**Polşa ordusu**

Hal-hazırda Polşa ordusu 13 piyada və 3 süvari əsgəri firqədən [diviziyadan] ibarətdir. Bundan əlavə, 40 minə qədər olan Haller ordusunda 2 piyada əsgəri firqə vardır. Polşa əsgərlərinin cümlətanı 300 min nəfərdir ki, bunlardan 100 mini cəbhədə, qalanları arxada əsgəri təlim almaqdadırlar. Zabitlər rus, Avstriya və alman alaylarından [polklarından] ibarətdir. Bir qədər də Fransa və Amerika müəllim-zabitləri [instruktorları] vardır.

**Hacı-Tərxanın mühasirəsi**

İngiltərə mənbəyindən verilən xəbərlərə görə, Hacı-Tərxan şəhəri bolşeviklər əleyhinə olan qüvvələrlə mühasirə edilmişdir. Tələfat olmasın deyə şəhəri təslim olmağa məcbur etmək istəyirlər.

**Krasnovodskda**

Şəhərin 8-10 verstliyində xəndəklər qazılmışdır. Krasnovodskda İngiltərə əsgərləri vardır. Lakin qaçqınların dediyinə görə, bu əsgərlərin qəsdi Krasnovodsk təxliyə edilib qurtarana qədər hücumun qabağını almaqdan ibarətdir.





**İtaliya əsgərləri Zaqafqaziyada**

"Tiflis" qəzetəsi xəbər verir ki, verilən məlumata görə, İtaliya ilə Cənubi Slav yeni təşkilatları arasında olan ixtilafın həll edilməməsi nəticəsi olaraq İtaliya sərhədində qalxmış həyəcan və İtaliya daxilindəki hadisələr münasibətilə İtaliya əsgərlərinin Zaqafqaziyaya gətirilməsi məsələsi əsasən təbdil edilməmişsə [dəyişdirilməmişsə] də, ikinci plana buraxılmışdır.

**İngilislərin Şimali Rusiyadan getmələri**

Royter acentəliyinə xəbər verirlər ki, ingilislər Şimali Rusiyanı boşaltmağa başlamışlardır. Bu yaxınlarda orada Dabravol ordusundan başqa ingilis əsgəri qalmayacaqdır. İngilislər Qafqaziyadan da geri dəvət ediləcəklər. Burası da qeyd edilir ki, İngiltərə Hökuməti həmişə Qafqaziyanı ingilis əsgərlərindən boşaltmaq niyyətində olmuşdur.

**Əcnəbi məmləkətdə fəhlə hərəkatı**

Genuyada tətil davam edir. İyulun 14-də Speziyada bahalıq qarşısına olaraq dükanlar qarət edilmişdir. Fransa əhvalı yaxşılaşmışdır. Nəqliyyat fəhlələri işə başlamışlardır. Kömür mədənləri fəhlələrinin tətili davam edir.

**Pişonun bəyanatı**

Pişon demişdir ki, Fransa Hökuməti Rusiyaya əsgər göndərməyəcəkdir. Sibiryada 40 min Müttəfiq əsgərlərindən 500 nəfəri fransızlardır. Murmanda 2000 nəfərdir. Dnestrdə 3 əsgəri firqə vardır ki, onlar da bu yaxınlarda gedəcəklərdir. Pişonun bəyanatından sonra Palata 137 səs əleyhinə 349 səslə böylə bir formul qəbul etmişdir: "Palata Hökumətə etimad edib, Rusiyaya hərbi qüvvə göndərməməklə, Müttəfiqlərlə bərabər Fransa mənafeyinə siyasət yürütməyi hökumətə təklif edir."

## TÜRKİYƏDƏ

**Türkiyə nümayəndələrinin müxtirəsi**

"Nyu-york herald" qəzetəsi yazır ki, Türkiyə nümayəndələri tərəfindən Sülh Konfransına təqdim edilən müxtirədə [yazılı qeyddə] izhar edilir ki, İngiltərə və Fransa türklərin əski dostlarıdır. Müharibə məsuliyyəti Almaniya ilə onun acentləri olan Gənc türklər öhdəsindədir. Nümayəndələr vəd edirlər ki, xristian patriarxları hüququnu bərpa edib, Müttəfiqlərin kontrolu altında ədəmi-mərkəziyyət əsası ilə oblastlara muxtariyyət verməklə bərabər, Avropa üsulu ilə məhkəmə reforması tətbiq etsinlər. Rəsmi dillər türk, Fransa, İngiltərə, erməni və yunan dilləri olacaqdır. Nümayəndələr Türkiyənin Suriya və Misirə olan iddialarından imtina edirlər. Bu şərtlə ki, Türkiyənin tamamiyyəti-mülkiyyəsi [torpaq bütünlüyü] mühafizə edilsin.

**Sultan İstanbulda qalır**

Atina [Afina] qəzetəsi "Embros" yazır ki, Şərq işlərinə baxan dairələrdən alınan mövsuq [etibarlı] məlumata görə, Türkiyə sultanı şübhəsiz İstanbulda qalacaqdır.

**Türkiyə qadınları və Sülh Konfransı**

Türkiyə qadınlarının müxtəlif cəmiyyətləri müttəhidən [birgə] Xariciyyə Nə-

zarətinə bir məktub göndərib, həman məktubun Sülh Konfransına göndərilməsini xahiş edirlər. Məktubda deyilir ki, Türkiyə millətinin hüququnu və mənafeyini gözləmək üçün lazımi tədbirlər görməlidir.

**Sansür**

Türkiyə mətbuatı konqresində qəbul edilən qərara müvafiq Fransa, İngiltərə, İtaliya və Amerika ali komissarlarına müraciətən Türkiyə millətinin mənafeyini gözləməkdən ötrü Türkiyə mətbuatına imkan vermək üçün davam edən sansür [senzura] üsulunun bir qədər təğyir və təbdil edilməsi [düzəldilməsi və dəyişdirilməsi] haqqında istida [xahiş] edilmişdir.

**İraq şeyxi**

İraq şeyxlərindən Əcmi paşa bir teleqrafla Türkiyə Hökumətinə müraciət etmişdir. Teleqrafda şeyx xəbər verir ki, 50 nəfər adamla Diyarbəkirə gəldim. İraqda məskun tayfaların şeyxləri Türkiyə Hökumətinə sədaqət və təbəiyyət [tabeçilik] izhar edirlər. Bağdadda olan şurada başqa bir hökumətə tabe olmamağı qərara almışlardır. Əcmi paşa əlavə edir ki, Mardinə gedirəm və teleqrafın cavabını oraya göndərməyi xahiş edirəm.

## İRANDA

**Türküstan qaçqınları**

Bolşeviklərin Mərv və Aşqabad üzrə hücumları münasibətilə bu şəhərlərin əhalisi qaçqın sifəti ilə İrana köçmüşdür. Qaçqınların ədədi günbəgün artmaqdadır. Qaçqınların çoxu böyük üsrətlə [çətinliklə] Məşhəd şəhərinə dolmaqdadırlar. Məşhəddə çıxan qəzetələr əhalini qaçqınlara müavinət eyləməyə dəvət edirlər. Bununla bərabər, qəzetələr sərhəddə olan İran məmurlarının qaçqınlar haqqında gördükləri fəna müamiləleri [pis rəftarları] təəssüflə qeyd edirlər. Sərhəd məmurları qaçqınların ağır hallarına baxmayıb, onları günlərlə saxlayırlar. Qəzetələr bu barədə hökumət tərəfindən tədbirlər görülməsini tələb edirlər.

**"Bahar" qəzetəsinin qapanması**

Çoxdan bəri Məşhəd şəhərində nəşr olan "Bahar" qəzetəsi bu günlərdə hökumətin binagüzarlığına [sərəncamına] görə qapadılmışdır. "Agahi" qəzetəsi bu münasibətlə narazılıq izhar edib, "Bahar" qəzetəsi haqqında görülən cəzanın ləğv ediləcəyinə ümid edir.

**Əfqanıstan əhvalı**

Məşhəddə çıxan İran qəzetələrinin verdikləri xəbərlərə görə, Əfqanıstan əhvali-siyasiyyəsi ingilislərə hərbi hərəkat başlanması münasibətilə əvvəlki qərar üzrədir. Bir para yerlərdə bolşevizm güclənməkdədir.

## DAĞISTANDA

**General Xəlilovun qaçması**

Alınan məlumata görə, Dağıstanı satan general [Mikayıl] Xəlilov Teymurxanşuradan qaçmışdır.

**İnquşistan od içində**

Bütün İnquşistanda dabravollara qarşı üsyan qalxmışdır. Xüsusi surətdə verilən xəbərlərə nəzərən, Vladiqafqaz şəhəri inquşlar tərəfindən işğal edilmişdir. Dabravolların məğlub olmasına özlərinin ehtiyat əsgərlərinin Qırmızı qoşunların qarşısına başqa yerə göndərilməsi ilə izah edilir.

Dağıstanda üsyan getdikcə kəsbi-vəxamət edir [qorxulu hal alır]. Şeyx Əli Hacının bayrağı altına 50000 dağıstanlılar cəm olub ya ölüm, ya istiqlal deyə son qətrə qanlarınadək dabravollarla müharibə edəcəklərinə qəsəm yad etmişlərdir [and içmişlər].

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

Maarif nazirinin Bakıda güşad olunacaq [açılacaq] darülfünun [universitet] komisyonu layihəsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Bakı şəhərində dövləti darülfünun güşadı [dövlət universiteti açılması] layihəsini təsviblə [bəyənməklə], Məclisi-Məbusana idxalı tapşırılsın. Layihəyə işbu maddələr əlavə edilməlidir:

1) 1919-1920-ci tədris sənəsində Tarix və ədəbiyyat şöbəsinin fəqət 1-ci sinifi güşad edilir ki, başqa sinifləri vaxtilə güşad ediləcəkdir.

2) Xüsusi mümaniət [maneçilik] olmazsa, 1919-1920-ci tədrisat sənəsindən etibarən Riyaziyyat və Hüquq şöbələri də güşad edilməlidir. Fəqət müsəlman hüququ və tarixinin orada keçilməsi məşrutdur [şərtdir].

3) Hər halda darülfünuna ən əvvəl azərbaycanlılar qəbul edilməlidir.

4) Türk lisanının ciddi bir surətdə hamı şöbələrdə keçilməsi icbaridir.

5) Maarif naziri yeni bir kafedra güşadını lazım görərsə, kafedra güşad edilməlidir.

6) 7-ci maddəni xaric etməli. Zira darülfünun təmiri [tikilməsi] üçün lazım gələcək ərazi şəhər tərəfindən məccani [pulsuz] olaraq verilə bilər.

7) 1919-1920[-ci] sənə üçün darülfünun təşkilinə istənilən 3 milyon manat az olduğundan, 5 milyon manatadək artırmalı.

8) 62, 63 və 64-cü nizamnamə fəsillərinə qeyd edilməlidir ki, darülfünunda 3 sənə xidmət edəcək zəvat [şəxslər] təqaüd (pensiya) ala bilər. Qəza buraya daxil deyildir.

9) Müdərrislər məvaciblərini 1/3 artırmaq.

10) İdarə və təsərrüfat cəhəti xidmətçilərinin məvaciblərini bərvəchi-ati [aşağıdakı kimi] təyin etməli:

Şura katibi sənədə 48 min manat;

Ekzekutor [təsərrüfat müdiri], klinika müdirlərinə, fakültələr kargüzarlarına sənədə 24 min manat;

Doktor sənədə 12 min manat;

Memarlıq vəzifəsini ləğv etməklə, vəzifəni Maarif Nəzarəti memarına mühəvvəl etməli [tapşırmalı].

## NƏZARƏTLƏRDƏ
## [NAZİRLİKLƏRDƏ]

- Gürcüstan Hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəsi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Tə-

minat Nazirliyinə] xəbər vermişdir ki, hər gün Ermənistandan qaçqın müsəlmanlar varid olmaqdadır [gəlməkdədir]. Bunlar maddi müavinətə möhtacdırlar. Bunlar ümumiyyətlə Azərbaycana rəvan olmaqdadırlar. Bir vaqon vermək kafi olmayacağından, başqa müavinətlərdə bulunması da mərcudur [xahiş olunur]. Bundan dolayı Ümuri-Xeyriyyə və Nafiə naziri Rəisi-vükəlaya [Baş nazirə] müraciətən rica etmişdir ki, məsələ Vükəla Şurasına [Nazirlər Kabinetinə] idxal edilsin.

- Zaqafqaziya aysorlar milli komitəsi sədri Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məlum etmişdir ki, Yelenendorf Georgiyevksdə hal-hazırda Van ətrafından qaçmış 1500-ədək aysorlar mövcuddur ki, bunlar Amerika Komitəsi tərəfindən birdəfəlik maaşdan başqa heç bir müavinət almamışlardır. Komitə rica edir ki, qaçqınlar üçün darüleytam güşad etmək [yetimxana açmaq], qaçqın payı, əlbisə [paltar] vermək kimi müavinətdə bulunmaq üçün iqdamatda bulunsun [addımlar atsın]. Ümuri-Xeyriyyə və Nafiə naziri Gəncə nahiyə müfəttişinə xəbər vermişdir ki, təcili surətdə qaçqınların əhvalını məhəllində [yerində] təhqiqlə Nəzarətə lazımi məlumatı versin.

- Müsəlman Ünas [Qadın] Cəmiyyəti-Xeyriyyəsi sədri Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məlum etmişdir ki, Cəmiyyət nəfinə [xeyrinə] işbu həzəratdan ianələr varid [daxil] olmuşdur:

Rəisi-vükəla Nəsib bəy Yusifbəyli həzrətlərindən 1100 rublə;

Ağababa Quliyev 1000 manat;

Doktor Gindesdən 50 manat;

Gizli qalmaq istəyən zəvatdan [şəxslərdən] 4000 manatdan ziyadə;

Dadaşov 1000 manatlıqdan ziyadə dəvacat [dava-dərman];

Abdullayev Mustafadan 150 cift çarıq, 88 cift uşaq əlbisəsi;

Fransız sineması 105 yer vermişdi.

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bütün ianə verən zəvata izhari-təşəkkür edir.

- Xariciyyə Nəzarəti Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə məlum etmişdir ki, Batumdakı siyasi nümayəndəmizdən bir çox azərbaycanlılar vətənlərinə qayıtmaq üçün müavinət istəməkdədirlər. Nümayəndə ixtiyarında xüsusi vəsait olmadığından, onların müraciətlərini açıq buraxmaq məcburiyyətində qalır. Nəzarət rica etmişdir ki, böylə hadisələrdən ötrü nümayəndəyə 15-20 min manat pul verilsin. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məsələni Vükəla Şurasına idxal üçün Rəisi-vükəla həzrətlərinə müraciətdə bulunmuşdur.

## YENİ NOTARİUS İNTİXAB EDİLƏCƏKDİR

Mədəni müəssisələrin biri də müqavilat idarələri, yaxud Yevropa təbirincə notariusxanalardır. Burada şirkət, ticarət müqavilələri, vəkalət və vəsiyyətnamələr və bunlar kimi sair sənədlər qeyd və təsdiq olunur. Bu idarələrin yardımı ilə məhkəmə işləri asan vəchlə [surətdə] həll və şərh olunur. Əhaliyə xeyri olan kimi, xəzinə varidatına da böyük mənfəəti vardır.





Məlum olduğu üzrə, müqavilələr rusca yapıldığından bu lisanı bilməyən əhalinin bir çox xahiş və arzuları ürəklərində qalaraq, istədikləri dərəcədə qeyd olunmayırdı. Bisavad dilmaclara möhtac qalmış müqavilat mühərrirləri (notariuslar) tərəfi-müqabilin məqsədini anlamayıb, bəzən naqis müqavilələr yapırdılar ki, bunun nəticəsi olaraq müqavilədarın övladı əsrlərcə zərər və ziyana uğraşırdı. Hələ bəzən əhvalatdan baxəbər [xəbərdar] olmayan notariusları iğfal edib [aldadıb] öylə saxta müqavilələr icad edirdilər ki, şeytan da bunlardan baş çıxara bilməzdi. Neft yerlərinin bəzən bir neçə mütəfərriq əşxasa təəllüqü [ayrı-ayrı şəxslərə mənsub olması] və hər şəxsin əlində özünə məxsus müqavilənaməsi olduğunu yəqin ki, Bakıda yaşayan zəvat müşahidə etməmiş deyil. İştə, bir bu qədər səhv və xətalar ondan tövlid edir [əmələ gəlir] ki, notariuslar əhalinin lisanına dara deyillər [əhalinin dilini bilməyirlər].

Dilbilməz notariuslardan azad olmaq üçün Qafqazda gürcülər hamıdan qabaq notariusxanaları milliləşdirdilər. İndi Gürcüstandakı müqavilat mühərrirləri [müqavilə yazanlar] tamamən gürcüdürlər, yaxud gürcücə bilən sair millətlərdir. Bu gün Azərbaycan məhkəmələri milliləşdirilmədiyi üçün notariusxanalarımız da köhnə üsul ilə bəqa [qalmaqda] və davam etməkdədir. Müqavilənamələrimiz yenə rusca yazılır. Bu hala biz səbir etmişik və yenə edərdik. Hərgah, bununla belə, məsələnin ikinci bir cəhəti olmayaydı. O cəhət də bundan ibarətdir ki, Azərbaycan notariuslarının heç biri nəinki azərbaycanlı, hətta gürcü, erməni, ləzgi kimi Qafqazın sair məxluqundan da deyildirlər. Böylə olan surətdə bizim notariuslar Azərbaycan əhlinin əhvali-ruhiyyəsinə, adat və ənənatına [adət-ənənələrinə] əsla bələd olmayıb, biganəvar yaşayırlar. Halbuki, notariusların ən böyük vəzifələrindən biri əhalinin maddi və mənəvi işlərinə lap yaxından bələd olub, xeyir-şər yoldaşı və qəm şəriki olmaqdır. Rusiyanın ən uzaq yerlərindən gəlmiş bu ağaların məqsədi əhalinin dilini, adət və dəblərini öyrənmək deyildir. İdarəsində bir-iki dilmac ittixazı ilə [işə götürməklə] vicdanını sakit və rahat etmişdir.

Dilmac ağa hər nəyi qəbul edirsə, notarius əfəndi də onu mütləq qəbul edir. Dilmac kimi notariusa müqaviləsinin başında "Şəxsiyyəti mənə məlumdur" cümləsini notarius da yoğun bir xətlə yazır. Halbuki, bunlar küçədə bir-birinə rast gələrsə, "şəxsiyyəti məlum" ağanı notarius əsla və qət'a tanımaz.

Qanunşünaslıq bumu? Əcnəbi notariusları əhalinin əyri və doğrusunu nə təriq [yol] ilə müəyyən edəcəkdir? Hərgah dilmacın hər sözü notarius qarşısında bir qanun kimi qəbul olunarsa, ağıl və məntiq bunu tələb etməzmi ki, dilmacın özünə notariusluq və notariusa da sadəcə bir mirzəlik vəzifəsi verilsin. Madam ki, müqavilənin başında "Şəxsiyyəti mənə məlumdur" cümləsi yazılmaq icab edir, aşkar deyilmi ki, bunu qanun tələb edir? Gərək tərəfi-müqabili notarius ətraflıca tanısın, bilsin ki, bu cümləni də yazmağa ixtiyarı olsun. Öylə olan surətdə kamali-cidiyyətlə iqrar [təsdiq] edə bilərəm ki, notariuslardan heç biri qanuna mütabiq [uyğun] təyin olmamışdır. Zira əhalini tanımaq üçün uşaqlıqdan Azərbaycanda yaşamaq icab edər.

Əcəba Azərbaycanın bir bu qədər hüquqşünasları mövcud olduğu halda, bunlardan notariusluğa bir nəfəri də yaramadımı? Hökuməti-müstəbidə buna razı olmayırdı ki, azərbaycanlılara notariusluq kimi əhəmiyyətli bir vəzifə verilsin. İndi azərbaycanlıların haqqı yoxdurmu ki, yeni təyin olunacaq notariusun müsəlman hüquqşünaslarından intixab edilməsini [seçilməsini] tələb etsin?

İstinaf [Apelyasiya] Məhkəməsi elan etmişdir ki, bu yaxın vaxtlarda Bakı şəhərinə yeni bir notarius intixabı təhtiqərara alınmışdır. Hüquqşünaslardan xahişmənd [istəyən] varsa, ərizə verib imtahana təşrif gətirsin. Əlbəttə notariusluq, ələlxüsus neft mədənləri ilə məşhur Bakı notariusluğu öylə bir "dadlı" məmurluqdur ki, məşhur advokatlar, hətta məhkəmənin salxordə [yaşılı] üzvləri bunu dərdəst etməyə [ələ keçirməyə] çalışacaqlar. Bunların müqabilində, ola bilsin ki, bizim cavan hüquqşünaslarımız məharətli imtahan verə bilməsinlər. Verə bilsələr də yenə köhnə və təcrübəli advokatlara tərcih verilsin. Böylə olarsa, yenə əhalinin haqqı mülahizə olunmayaraq ayaqlar altında tapdalanacaqdır. Lakin zənn etməyirəm ki, bu dəfə əhali buna razı olsun.

İnsafdan kənar bir şeydir ki, Azərbaycanın 50-60 notariusu olduğu halda, aralarında bir nəfər müsəlman notariusu yox, türkcə bilənləri yox, ələlxüsus Azərbaycanın paytaxtı bulunan Bakıda tamam müsəlmanlar dilmacların keyfəmayeşalarına [keflərinə] möhtac qalaraq, yüz minlərcə ürfi və şər'i [ənənəvi və qanuni] müqavilat ehtiyaclarını rəf edə [aradan qaldıra] bilməyirlər. Halbuki Bakıda bir dənə müsəlman notariusu təyin edilərsə, süls və nəfəqə kimi ehsanlara dair minlərcə müsəlmanların vəsiyyətnamələri tərtib verilər. Bir nəfər müsəlman notariusu intixab olunarsa, əhali dərdini bilavasitə notariusa söylər, istədiyi qayda ilə də şər'i vəsiyyətnamələri etdirər. Barı bu nöqteyi-nəzərlə bir nəfər müsəlman notariusu intixab edilsin. Bu da əncampəzir olmasa, İstinaf Məhkəməsi əhalinin haqq tələbini dinləmək istəməyir deməkdir.

*Fərhad Ağazadə*

## NAXÇIVAN MƏKTUBATI

### - 5 -

Camaat gündə hər tərəfdən təzə xəbərlər gözləməkdə ikən, İran mürəxxəslərimizdən [nümayəndələrimizdən] Təbrizdən zeyldəki [aşağıdakı] məzmunda bir məktub alındı:

*"Biz sağ-salamat Təbrizə yetişib Mehdiqulu xan cənabları ilə bərabər əyaləti-kübraya gedib xaki-payi-həzrəti-vala ərvahına fədanın [ruhuna qurban olduğum uca həzrətin ayağının torpağına] qədəmlərinə döşənib ziyarətinə nail olduq.*

*Naxçıvan və həvalisi [ətrafı] əhalisinin İran təbəəsi olmalarını və müraciətnamələrini izhar və təqdim etdikdən sonra həzrəti-vala [uca həzrət] bizə xeyli məhəbbət edib qəhvə (?) gətirtdi. İçdik və buyurdu ki, bu xüsusda mən Tehran ilə danışmışam, hələ cavabi-kafi almamışam. İnşallah ki, axırı xeyirdir. Siz də çalışın mən də. Gecə və gündüz (?) bu xüsusda bir dəqiqə müzayiqə və müsamihə etməyib [bir dəqiqəmi əsirgəməyib və səhlənkarlıq etməyib] çalışacağam.*

*Sonra biz Amerika konsulunun ziyarətinə nail olduq. Bizi kamali-məhəbbətlə qəbul etdi. Mətləbimizi izhar etdik. Bizə dildarlıq [təskinlik] verib söylədi ki, heç öylə qanun yoxdur ki, o qədər camaatı zorla özgə millət himayəsinə versinlər. Bu barədə mən Amerikaya yazmaqla bərabər, Sülh Konfransına da məlumat verib Vilson həzrətlərindən sizin xilas olmağınızı rica eylərəm.*

*Sonra İtaliya, ingilis, bilməm filan konsulları ilə görüşdük. Bizə təsəlli verdilər... ilx."*

Şu məktubu alan kimi do-do bütün bazar əhalisinə xəbər verirlər, gəliniz xeyir xəbər gəlmiş. Biçarə əhali sevincindən çar-çabuq dükanları qapayıb da, haydı, xan imarətinə. İctimayi-ümumidən [ümumi yığıncaqdan] sonra molla Əli Axund məktubu oxuyur. Hər kəs ağzını açaraq diqqətlə məzmununu dinləyir. Sonra dağılır və sevinir ki, iranlı oldu.

Sabahkı gün yenə mürəxxəslərdən telefon:

*"Bərk durunuz, işlər düzdür. Sizə Tehrandan hakim təyin olunmuş."*

Xülasə bir həftə əhalini bu növ məktublarla məşğul etdikdən sonra mürəxxəslərdən məktub gəldi:

*"Burada işlər düzəlir, fəqət Tehrana getmək lazım, para (?) göndəriniz."*

Bu məktubdan sonra artıq camaat xəbər bəkləməkdən bıqdıqdan, naümid olub İrandan da gözünü yumdu. (Mürəxxəslərimiz şimdi rəvayətə görə Tehrandadırlar.)

### - 6 -

Erməni hökumətinin gəlməsinə üç gün qalırdı. Biçarə camaat başı kəsik toyuq kimi hərdən bir tərəfə fırlanıb qovrulurdu. Hər yerdə avam mitinqləri və mübahisələr görünmədə idi:

Bir çoxları:

– Babam, xanlar bizi satdılar.

Başqaları:

– Onun zamanı deyildir, əlac aramalıyız.

Gənclərimiz və avamlardan bir çoxu:

– Erməniyə təslim olmaq yoxdur, ya ölüm ya azadlıq.

Zəiflər və tacirlər:

– Xeyr, canım, nə yapırsınız? Biz gedib ingilis hökuməti ilə müharibə yapmayacağız ki, – deyirlərdi.

Filhəqiqə [doğrudan da] axırıncı sözləri eşitdikdə hər kəs düşünərək sakit olurdu.

Əsgərlər və zabitlərimiz:

– Buraları ermənilərə verərlərsə, biz bilümum [ümumiyyətlə] yığışıb Azərbaycana gedəcəyiz.

Bir çoxları:

– Xeyr, Azərbaycanda onsuz da əsgər çoxdur. Biz böyük şayka dəstəsi bağlayıb da dağlarda dolanarız. Nə vaxt ermənilərin zülam-zülümü başlanarsa, ol vaxt biz də qisas almağa başlarız və həm ermənilər rahat durarlar. (Həqiqətən erməni hökuməti gəlmədən əvvəl çox əsgərlər zabitlərlə Azərbaycana hərəkət etməyə başladılar.)

Camaat böylə fikirlər etməkdə ikən gündə onların arasında növbənöv şayiələr də dövran edirdi. Bir gün söyləyirlərdi erməni əsgərləri 2 top və 10 pu-

lemyotla Şərurun Noraşen köyünə gəldilər. O qədər deyildirlər, 200 nəfərdirlər. Həpsi zəif, cansız mühacir gətirmişlər. Bir gün söyləyirlərdi ki, erməni zirehlisi Şahtaxtına gəlmiş, o biri gün zirehlinin Naxçıvana gəldiyini söyləməklə kəndilərinə təsəlli verirlərdi ki, şu zirehli erməni malı olmayıb ingilislərinkidir. Xülasə, bu cür xəbərlərlə məşğul olub, yavaş-yavaş qulaqları qızışdı və əvvəlki inadlarından biraz soyudular demək olar. Bir az ticarətə məşğul olub əski müsəlman sözlərini təkrar etməyə başladılar ki:

"Ay baba, xalq necə biz də birisi filan..."

**- 7 -**

Mayısın 12-si idi. İngilis general-qubernatoru [Naxçıvanski] Kəlbəli xana əmr etmişdi ki, əsgərləri nə üçün tərxis edirsiniz? Şəhər və həvalisi qüvveyi-əsgəriyyə ilə mühafizə edilməlidir. Əski qanununuzu pozmayınız. Bu xəbər camaata böyük sürur [şadlıq] verdi ki, daha erməni gələsi deyildir. Yenə min mülahizə ilə məşğul olmağa başladı. Mayısın 13-də general-qubernator qışladan [kazarmadan] şəhərə telefonla Milli Şura sədrinə xəbər verdi ki, yarın erməni general-qubernatoru gəlir. Siz və iki nəfər zihörmət [hörmətli] şəxs Bələdiyyə rəisi ilə istasyonda bulunub onu istiqbal edəcəksiniz [qarşılayacaqsınız] və saat 4-də siz qışlaya gəlməlisiniz ki, sözüm vardır. Saat 4-də sədr qışlaya getmişdi. Qubernator söyləmişdi ki, nə qədər silah qismi varsa gizləyiniz. Erməni hökuməti gəldikdən sonra artıq silah gəzdirəmməzsiniz. Əhali nə qədər rahat dursa, bir o qədər onun xilasıdır. Milli Şura əvəzinə Milli Komitə yapınız.

Bu xəbərlər camaata yetişdikdə, bir anda hər yerdə intişar tapıb [yayılıb] bütün camaat yenə bir yerə yığılmağa, toplanmağa başladılar. Camaat Milli Şuraya yığışıb məsləhət gördülər ki, kimsə ermənilərin istiqbalına Milli Şura sədrindən başqa çıxmayacaqdır. Erməni qulluq və məmuriyyətinə girənlər edam ediləcəklər. Protestomuzu səbata yetirmək üçün onlara soyuq baxacağız. Hər kəs yeni təşəkkül edəcək Milli Komitəni tanıyıb mütləqa ona şikayət etməklə, erməni hökumət və divanxanasını tanımayacaqdır. Tanıyanlar əvvəlcə cəzayi-nəqdi [pul cəriməsi] və sonra böyük cəza ilə cəzalanacaqlar. Erməniyə rəiyyət olmayaq deyə İrana köçənlər heç vaxt köçəmməzlər. Çünki onlar zənginlikdən gedib, kasıb və fəqirləri ermənilərə qurban buraxırlar və bir də erməni gəlməklə bu böyüklükdə türk yurdunu, ocağını söndürmək, keçirmək olmaz.

*Tamaşaçı*

**ŞAMAXI HAQQINDA**

Orucluq bayramından istifadə ilə Şamaxı uyezdinin vəziyyətini, əhalisinin güzəran və məişətini yerində öyrənmək, bununla bərabər, təşkilat yapmaq məqsədi ilə Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Komitəsi tərəfindən Şamaxıya göndərilmiş Parlaman üzvü Mehdi bəy Hacıbababəyov bu günlərdə Bakıya qayıtmış və Şamaxı qəzası haqqında atideki [aşağıdakı] məlumatı vermişdir:

– Məlum olduğu üzrə, Şamaxının yolu Kürdəmir istasyonundandır. Şamaxıya gedəcək bir müsafir Kürdəmirdən getməlidir. Vaxtilə bir çox nəqliyyat əsbabı [vasitəsi] – fayton, dilican, araba və sairə olardı ki, Kürdəmir ilə Şamaxı arasındakı yolu müşkülatsız getmək olardı. Son hadisələr zamanında Şamaxı və ətraf kəndləri tamamilə dağılıb qeyri-məskun bir hala qoyulduğundan, Kürdəmirdən gediş-gəliş tamamilə kəsildiyindən, indiki halda heç bir nəqliyyat vasitəsi mövcud deyildir. Böylə ki, birisi əgər Kürdəmirdən Şamaxıya gedəcək olsa, təkbaşına üç-dörd yüz manat xərc çəkmək məcburiyyətində olacaq. Bu isə fəqir əhali üçün nə qədər müşkülat törədir. Tək-tük yurdlarına qayıtmış fələkzədələri [fələk vurmuşları, bədbəxtləri] məişət və dolanacaq cəhətindən nə qədər çətin bir vəziyyətə salır. Əgər həftədə iki kərə Kürdəmirdən Şamaxıya gedən poçta troykası iki kərə artırılar və sərnişinə məxsus edilərsə, bir növ camaatın nəqliyyat və gediş-gəlişlərini asanlaşdırar.

Kürdəmirdən Şamaxıya doğru yol üzərində olan kəndlər tamamilə yerlə yeksan edilmişdir. Yurdlarına qayıdan bu zavallılar küləşdən yapılma komalarda, habelə üzəri küləşlə örtülmüş daxmalarda yaşayırlar. Yarın qışda bunların nasıl yaşaya biləcəklərini nəzərə almalı, indidən çarəsinə baxılmalıdır.

Şamaxı qəzasında demək olar ki, çöl işləri fəna bir haldadır. Onun fənalığı əkilməməkdən deyil, bəlkə təbii çöl məhsulatının yığılmamasındandır. Ağsu rayonunda ot tamamilə biçilməmiş qalmışdır. Çünki camaatın bir qismi müharibələrdə və sonrakı qaçqınlıqda və xəstəliklərdə qırılmış, qismi-küllisi [çox hissəsi] də öz yurdlarına qayıtmamışdır. Qayıdanların da gəncləri əsgərliyə alınmış. Bununla bərabər, çöllərin biçilməməsinə ən böyük səbəb kəndçilərə lazım olan alat və əsbabın [alətlərin və vasitələrin] qətiyyən olmaması, kəndistanda at və kəl kimi birinci dərəcədə kənd həyatına lazım olan qaramalın olmamasıdır. Bu hal isə yalnız Şamaxı qəzası əhalisinin deyil, ümum məmləkətin gələcək həyatını təhdid edir.

Şamaxı şəhəri bir halətdədir ki, onu təsvir etmək mümkün deyildir. Evlər tamamilə yandırılıb uçurulmuşdur. Vəlöv [hətta] bir dənə olsun salamat binaya təsadüf edilməyir. Küçələr dağıdılmış evlərin ənqazı [qalıqları, dağıntıları] ilə tutulmuş, insan şəhərə girərkən onu vəhşət [qorxu; dəhşət] alır. Səqfi tökülmüş, qapı-pəncərəsi yanmış binalardan yalnız uçuqlar, onların miyanından [arasından] görünən Pompey xarabazarlığını andıran sütunlardan başqa nəzərə bir şey çarpmaz. Şəhərdə həyat yox kimidir. İki min nəfərədək şəhərə camaat övdət etmişdir [qayıtmışdır]. Gecələr xaraba evlərin mənzərəsi insana bir dəhşət verir. Şamaxı zəlzələsindən sonra evlər yek-digərindən [bir-birindən] qayət məsafəli bir halda bina edildiyindən, bir evdən digər evə heç bir halda od keçəmməzdi. Budur ki, iddia etmək olar ki, evlər birər-birər yandırılmışdır. 16 məsciddən birisi də salamat qalmamışdır. Məscidi-camenin binasında ataş ala biləcək heç bir məvadd [maddə] olmadığından anlaşılır ki, onun yalnız daşdan olan divar və tağlarına neft və mazut sürtməklə və bir çox

müşkülat daxilində onu yandıra bilmişlərdir. Çünki o məscidi başqa dürlü yandırmaq imkan xaricində idi. Məbədləri böylə təhqir və xarab edilmiş türk və müsəlmanlar sonradan şəhəri istirdad edərkən [geri alarkən] erməni və rus kəlisalarına müqabileyi-bilmisl [eyni şəkildə müqabilə] etməmişlər, o kəlisalara heç bir toxunulmadan öyləcə salamat qalmışlardır. Şamaxıda öylə bir salamat bina yoxdur ki, qəza qaimməqamı, post və teleqraf və bələdiyyə idarəsi və sair bu kimi dövləti müəssisələr orada iqamət eyləsinlər [yerləşsinlər]. Bu müəssisələrin cümləsi şəhər məktəbinin yanğıdan qalmış xarabalıqları içərisində iqamət edirlər. Şamaxıya gedəcək bir məmur, komisyon və heyət özü ilə lazım olan yataq və sair bu kimi mayehtacı [ehtiyac şeylərini] aparmalıdır. Əks halda orada müvəqqəti də olsa, qala bilməyəcəkdir.

Şəhərə övdət etmiş iki min nəfərədək əhali şəhərin kənarında dağlardan ağac və küləş toplamaqla komalar yapıb orada yaşayırlar. Əgər hökumət qışadək onlar üçün ev və mənzil tədarük etməzsə, qışda soyuqdan tələf olacaqlar.

Şəhərdə əxzi-əsgər [hərbi çağırış] idarəsi olmadığından, Şamaxı şəhərindən əsgərliyə düşəcək gənclər dəfələrlə Göyçay, Kürdəmir və sair bu kimi məhəllərdən [yerlərdən] nəqliyyat əsbabı olmadığından min dürlü zəhmət və məşəqqətlə və böyük xərclərlə Şamaxıya gəlib təkrar geri qayıtmışlardır. Bu uğurda olan var yoxlarını da xərc etmişlərdir. Şamaxıda ya bir əxzi-əsgər idarəsi təsis etməlidir və yaxud əsgərliyə düşəcək gənclər nərədə iqamət edirlərsə, həman məhəlin əxzi-əsgər idarəsində kəndilərini qeyd etsinlər, bir daha onları izafə xərclər verdirib Şamaxıya göndərməyə ehtiyac qalmasın.

Şamaxıda sükunət edə biləcək yer olmadığından, Şamaxı qazısı indi də Kürdəmirdədir. Camaatın qəzavətə [qazılıq idarəsinə] ehtiyacı olduqda, bu uzun yolu ya piyada və yaxud üç-dörd yüz manat verməklə Kürdəmirə gəlməyə məcburdur.

Şamaxılılar bu qədər fəlakətə məruz olduqları halda təkrar yeni bir fəlakətə uğramışlardır. Bu yaxınlarda orada yanğın olub külli surətdə taxıl məhsulatı yanıb tələf olmuşdur. Zərərin miqdarı hələ müəyyən edilməmişdir. Lakin yalnız Hacıqədirli köyündən 202 min 800 dərz yanmış ki, 70-75 min puda qədər taxıl edir.

Ehtikar [möhtəkirlik] Şamaxıda davam edir. Şamaxı xarabalarının ənqazından qalmış dəmirləri yığıb furqonlar ilə Bakıya daşıyırlar. Onlarla bir mübarizə edən yoxdur. Halbuki, Şamaxı əhlinin aparılan o dəmirlərə gələcəkdə böyük ehtiyacı olacaqdır.

Müsahib əfəndi orada olarkən 6 furqon bu kimi şeylərin çıxarıldığını və naçalnik tərəfindən saxlandığını görmüşdür. Bir də aldığı xəbərə görə bir min ədəd soba (peç) qapısı Şamaxıdan çıxarılmışdır.

Əski hökumət zamanında Şamaxı-Bakı yolu üzərində Arbat və Cəngi istasyonları var idi. Nasılsa indiyədək onlara qaraqol qoyulmamışdır. Əgər onlarda qaraqol təyin edilərsə, bu kimi Şamaxıdan qaçırılan şeylərin qarşısını alar.

Mərəzə adlı malakan kəndi yanında vaqe Mərəzəli müsəlman kəndi vaxtilə ermənilər və malakanlar tərəfindən yandırılıb dağıdılmışdır. Sonradan türklərin müvasiləti [gəlişi] zaman[ı] malakanlar Mərəzədən qaçdıqlarından, mərəzəlilər öz kəndlərinə övdət etdikdə onun xaraba hala salındığını görərək malakanların kəndində yerləşmişlərdir. İndi malakanlar öz kəndlərinə qayıdıb müsəlmanlar tərəfindən işğal edilən evlərini geri istəyirlər. Bu xüsusda hökumətə müraciət etmişlərdir. Hər halda hökumət bu barədə qərar verərkən müsəlmanların da halını nəzərdə tutmalıdır.

*H. S.*

## MƏTBUAT

### Əksinqilab hiyləsi

O gün olmayır ki, erməni qəzetələri kürreyi-ərzin müxtəlif nöqtələrində ermənilər üçün faydabəxş olmayan hər cür hadisata əksinqilab adı qoyub Yeni türklərə və onlarla bir yerdə Azərbaycana isnad verməsin.

Daşnakların türk və müsəlmanxor siyasətlərinin nəticəsi olaraq hazırkı Ermənistanda müsəlman cünbüşünü [hərəkətini] Gənc türklər və azərbaycanlılar fitnəsi adlandıraraq, Gənc türkləri və azərbaycanlıları fəsadçılıqda və ittihadi-islamçılıqda ittihamla fəryad qoparırlar.

"Nor aşxatavor"un 137-ci nömrəsində "Əksinqilab hiyləsi" sərlövhəsi ilə yazılmış bir məqaləni nümunə olmaq üzrə bittərcümə [tərcümə edərək] qareini-kirama [möhtərəm oxuculara] təqdim ediriz:

*"Gənc türklərin və onların sadiq müridinin, yəni Azərbaycan Hökumətinin əksinqilab səyləri nəinki qurtarmayır, hətta gün-gündən kəsbi-rövnəq və vüsət etməkdədirlər [rövnəqlənməkdə və genişlənməkdədir]. Hürriyyətpərvər Qarabağda erməni qırğını sazlayan Sultanovlar və Xan Xoyskilər və onların arxalarında gizlənmiş Yeni türklərin hədsiz iştahalarının intəhası yoxdur.*

*Axısxa, Qars, Ərzurum, Trabzon, Araz, Naxçıvan "cümhuriyyətlərinin hökumətləri" oynadıqları əksinqilab rolları cümləyə bəllidir. Öylə ki, Ənvərlərin xahişi ilə əmələ gəlmiş cümhuriyyətlərin birisi tərtib üzrə məhv edilir, fövrən [dərhal] başqa bir yerdə əlavə bir cümhuriyyət sazlanır ki, bir azdan sonra o da fövt [yox] olub yerini qeyrisinə versin.*

*Jön türklərin və Azərbaycan bəylərinin şu səyləri əcaib bir tərtib üzrə və Zaqafqaziyada müxtəlif lisanlarda çıxan yeni türk qəzetələrinin müavinəti və tədbiri ilə nəticələnir.*

*Əlan [hal-hazırda] Ermənistan dairəsində olan Naxçıvan nahiyəsində təzə bir əksinqilab macərası yapılır. Sədərəkdə və Böyük Vedidə üz verən hadisələr də təsadüfi və xüsusi bir iş olmayıb, pişəzvəqt [qabaqcadan] hazırlanmış proqram üzrə icra edilir. Bu hələ işin əvvəlidir. Arxasınca nələr olacağı tezliklə görünər.*

*Biz onu həman o gündən duyduq ki "Azərbaycan" qəzetəsi sütunlarında "Zəngəzur müsəlmanları[nı]n faciəsi" və Tavadların "Qruziya"sı ona səs və təskinül-qəlb verərək, Naxçıvan müsəlmanlarının dəhşətləri xüsusunda məqalələr yazmağa durdular. Bu cür tədarükat ilə bir zamanda Sədərək ətrafında hadisələr baş verməyə başladı.*

*Azərbaycan bəylərinin və Tələt-Ənvərin müridlərinin proqramı açıq və ay-*

*dındır: Qaryagin-Araz boyu ilə Ordubad-Naxçıvan səmtinə yol açıb Qarabağı və Naxçıvanı biri-birinə mərbut eyləmək [bağlamaq]. Bu şiddətli və imperialist məramnamələrinin əncampəzir olması yolunda onlar heç bir vəsilədən [vasitədən] çəkinməyirlər. Halbuki, elə onun özü Ermənistanın zəhmətkeşləri üçün bir təhlükədir. Həman zəhmətkeşlər ona mütəhəmmil olub [dözüb] laqeyd dayanammazlar. Böyük təhlükə qarşısında erməni zəhmətkeşləri gərək ittifaq yapıb hökumətdən tələb etsinlər ki, ən şədid [şiddətli] tədbirlərlə bəylərin əksinqilab hərəkatına xitam verib, inqilabçı zəhmətkeşlərin başı üstündə asılmış təhlükəni rədd etsin. Bəy hiylələrinə bilatəxir [təxirəsalınmadan] gərək xatimə verilsin. Əks surətdə yeni macəraculuqlar [avantüralar] baş verər.*

*"Kəsrikin ustadları" gərək bilsinlər ki, erməni zəhmətkeşləri onların əksinqilab hərəkatlarına laqeyd ola bilməyib öz qan bahası ilə alınan azadlığını müdafiə etməyə hər dəqiqə hazırdır."*

## SƏADƏT İDARƏSİNDƏ

Müdiri-möhtərəm!

Qəzetənizin 218[-ci] nömrəsi sütununda dərc olunmuş məktub münasibətilə Səadət idarəsi dəxi bir qaç kəlməni bildirmək istəyir.

Əvvəla, Hacı Səməd [Heydərov] mərhum kəndi həyatında işbu mülkü Səadət idarəsinə notarius vasitəsi ilə hibə [hədiyyə] etmişdi. Böylə ki, qarelərə məlumdur, neçə illər həman mülkdə Səadət idarəsinin "Səmədiyyə" adı ilə birşöbəli məktəbi davam edirdi və həmin mülkü Hacı Səməd mərhum idarəyə bağışlayan günü Səadət mədrəsəsinin çocuqları hacı şərəfinə bir cəşn [ziyafət, məclis] məzkur [deyilən] mülkün həyətində bərpa [təşkil] etmişdilər. Böylə ki, həmin cəşndən əsər olaraq şimdi də məzkur mülkün divarında əlif [yağ, yağlı boya] ilə yazılmış bir xətt görünür.

Axırlarda Səadət idarəsinin səhlənkarlığından və hacı mərhumun maddi cəhətincə əli aşağı olduğundan, Səadət idarəsi nə qədər hacı sağdır deyə həman mülkdən mənfəətbərdar olmaq [faydalanmaq] istəməyirdi, lakin hacı mərhum olandan sonra üç arvadının hərəsi bir yana mülkü çəkdiyini idarə nəzərə alaraq, mülk sənədlərini notariusa pişnihad [təqdim] edib, mülkdə olan hacının varislərini və kirayənişinlərini evdən xaric etməsini onlara xəbər verməsini tələb etdi və [Lev] Tsimmerman notarius dəxi onlara kağız göndərib onları ixrac etdi. Bu şərtlə ki, məhkəmə dəxi ixrac etməsini təsdiq etsin və şimdi məhkəmə dəxi hibənaməni təsdiq etmişdir.

Böylə ki, mülkün hal-hazırda Səadət idarəsinə təəllüqü [aidiyyəti] vardır və müqavilənamənin bir maddəsində hacı mərhum olandan sonra əyalının bir il o mülkdə oturmağa ixtiyarı olduğunu nəzərə alaraq idarə hacının böyük əyalı Kərbəlayi Fatma Kərbəlayi Ağa qızını həman evdə sakin etmişdir.

Təəccüb burasıdır ki, Ağaəli Əliyev cənabları yazır ki, məni təhdid edirlər. İdarə bunilə böylə qarelərə məlum edir ki, hər kimsənin bu mülk barəsində etiraz və ya qeyri bir sual-cavabı varsa Səadət idarəsinə rücu [müraciət] etməlidir və Ağaəli Əliyev cənablarını bu barədə təhdid etmələri bimənа və vicdansızlıqdır və bundan əlavə, məlum edirəm şimdi həman mülk cəmiyyətə mütəəlliq [aid] olduğu üçün Səadət cəmiyyəti var qüvvəsi ilə təhdid edən əşxasa [şəxslərə] cavab verəcəkdir.

*Səadət idarəsi sədri:*
*Axund Əbdürrəhim Hadizadə*

## BAKI XƏBƏRLƏRİ

**Məcburi qərardad**

Bakı qradonaçalniki böylə bir icbari qərardad elam etmişdir [bildirmişdir]:

Bununla ümuma elan edirəm ki, iyulun 15-dən etibarən hamı qəssab dükanlarında ət bu qiymətə satılacaqdır: mal əti 10 manata, qoyun əti 14 manata. Ət satanlar bu vaxta qədər olduğu kimi indi də lazım qədər ət saxlamalıdırlar. Bu qanunu pozanlar şiddətli cəzaya cəlb olunacaqlar. Əhalidən rica olunur ki, hərgah qəssablar bu qanuna əməl etməsələr, o saat polis məmurlarına müraciət etsinlər. Polis məcburdur bu qərardadın dalınca baxsın və ət satanlar tərəfindən pozularsa, o saat tutub həbs edib məsuliyyətə cəlb edilmək üçün mənə xəbər versin. Bu qərardad hamı qəssab dükanlarında göz qabağında asılmalıdır.

*Bakı qradonaçalniki əvəzinə*
*müavini: T. Mahmudov*

**Parlaman komisyonlarında**

- Torpaq Komisyonunda: Parlamanın Torpaq Komisyonu tərəfindən qəbul edilmiş yeni Torpaq qanunu üçün komisyon məruzəçi olaraq Səməd ağa Ağamalıoğlunu və müavin Hacı Hüseyn Əfəndizadəni intixab etmişdir [seçmişdir].

- Fəhlə Komisyonunda: Parlaman komisyonlarından Fəhlə Komisyonu bu vaxta kimi əsla işləməmişdir. Bir dəfə fəaliyyətsizlik üzündən heyəti dəyişmiş olduğuna baxmayaraq, komisyon bir də təzədən təşkil olmağa möhtac görünür.

- Maliyyə-Büdcə Komisyonunda: Parlamanın Maliyyə-Büdcə Komisyonunda əlan [hal-hazırda] yeni Dövlət Bankı nizamnaməsi müzakirə olunur. Nizamnamə təsdiq olandan sonra təsdiq üçün heyəti-ümumiyyə iclasına idxal ediləcəkdir.

**Müsavatda**

Quba qəzasının Rustov qəryəsində [kəndində] Türk Ədəmi-Mərkəziyyət firqəsinin şöbəsi açılıb, sədrliyə Hacı Yusif Hacıbaba oğlu intixab edilmişdir.

**İçki vergisi**

Əlan Parlamanın Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komisyonunda spirt içkilərinin vergisini artırmaq layihəsi müzakirə olunur.

**Məktəb imarətləri**

Şəhər idarəsi Daxiliyyə Nəzarətinə müraciətən rica edir ki, qoşunlar tərəfindən tutulmuş məktəb imarətləri boşa[l]dılsın və bir daha bundan sonra zəbt olunmasına müsaidə [icazə] verilməsin.

**Dənizdə**

Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri dəniz işinə baxan ingilis idarəsinə

müraciətən port xərcinin bir qismini öhdəsinə götürməyə razı olduğunu bildirmişdir.

**Azərbaycan Kooperasiya qurultayı**

Bakı Bəhri-Xəzər Kooperativ İttifaqının təşəbbüsü ilə iyulun 25-də Bakıda Azərbaycan Kooperativ İttifaqlarının qurultayı dəvət edilir. Hər 500 nəfər bir nümayəndə, 1500 - 2 nəfər, 1500-dən yuxarı 3 nümayəndə göndərməlidir.

Qurultayın nizamnaməsi:

1) Bəhri-Xəzər Kooperativ İttifaqı dairəsində kooperasiya halı;

2) Məhəllərdən [yerlərdən] məruzələr;

3) Xalq bankı;

4) Müştərək müqavilənamə [Kollektiv müqavilə];

5) Kooperativlərin sənaət təşkili;

6) Təşkilat işləri;

7) Maarif işləri;

8) Kooperativlər və ərzaq işləri;

9) Cari məsələlər.

"İttihad" şöbəsi

Srağagün 14 təmmuzda "İttihad" firqəsi tərəfindən Balaxana "Qafqaz Masis" mədənində ümumi iclas çağırılmışdır. Əhvali-hazirəyə dair nitqlər söyləndikdən sonra məzkur [deyilən] mədəndə "İttihad" şöbəsi seçkisinə şüru edilmişdir [başlanmışdır]. Nəhayət, zeyldə əsamisi mühərrər zatlar [aşağıda adları yazılan şəxslər] intixab olunmuşdur [seçilmişdir]:

Sədr - usta Bayram Novruzzadə; müavini-sədr - Jomat Gərayxanzadə; katib - İbrahim əfəndi Məhəmmədzadə; xəzinədar - Xankişi Kazımzadə; heyəti-idarə üzvləri - Həsən Qocazadə, Hacı Əbülxanzadə, Məhəmməd Əmirzadə, Fəramiz Nağızadə.

**Aşqabadda**

Dövran edən şayiata [şayiələrə] görə, Aşqabaddakı İran konsulu bolşeviklər tərəfindən qətl edilmişdir.

**Tazəşəhərdə**

Aldığımız məlumata görə, dabravollar Aşqabaddan Tazəşəhərə köçmüş "Nicat Komitəsini", başda Zimin olmaq üzrə həbsə almışdırlar. Tazəşəhər dabravollar tərəfdən təxliyə edilməkdədir.

**Bələdiyyə İdarəsində**

- Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə müraciətən məlum etmişdir ki, məktəb mülklərinin əksəri əsgərlər üçün həcz [müsadirə] edilmişdir. Şimdi də şəhərin ən gözəl mülklərindən biri də Bakıda güşadı [açılması] gözlənən darülfünun [universitet] tələbələri üçün təyin edilmişdir. Böylə gedəcək olarsa, məktəblər bu sənə hifzüssihhəyə müğayir [gigiyenaya zidd] evlərdə dərs oxumaq məcburiyyətində qalmaqla, ətfal miyanında [uşaqlar arasında] bir çox xəstə[lik]lərin baş verməsi də təbii olacaqdır. Bələdiyyə İdarəsi rica etmişdir ki, bu barədə lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə məlum etmişdir ki, Bələdiyyə Məclisi iyunun birindəki iclasında Bələdiyyə İdarəsinin smeta haqqındakı məruzəsini istema etmişdir [dinləmişdir]. Şəhərin bir sənəlik smetası 44 milyon manat açıqlıqla qapanır. Bunu örtmək üçün Bələdiyyə İdarəsinin heç bir vəsaiti olmadığından, qət etmişdir [qərara almışdır] ki, hökumət indində [nəzdində] 25 milyon manatlıq istiqraz haqqında təşəbbüsatda bulunulsun. Qəbul edilməzsə, Bələdiyyə İdarəsinə 50 milyon manatlıq daxili istiqraz biletləri buraxılmasına icazə verilsin.

Bununla Bələdiyyə İdarəsi rica etmişdir ki, hökumət indində Daxiliyyə Nəzarəti təşəbbüsatda bulunsun.

Bələdiyyə İdarəsinin təsərrüfat cəhətinin fənalığını təsvir etməməklə məlum etmişdir Məclisi-Məbusan təsdiqinədək təcili surətdə fəhlələrə məvacib vermək üçün hökumət Bələdiyyə İdarəsinə 5 milyon manat borc versin.

**Birjada**

Ruh düşkündür.

Kerenski minliyinə 1400 manatdan artıq verməyirlər. 250 manatlıqların 1000 manatına 1300 manat, xırdaları 18 faizə. İstəyən də azdır.

Nikolay pullarından çox gedən 500-lükdür. 500 manata 1750 manat verirlər. Nikolay yüzlüyü köhnə qayda ilə 320 manata gedir. Xırdalar 100 faizə.

Zaqafqaziya 100-lükləri 2 faiz, qızıl Osmanlı lirəsi 420 manata, ingilis lirəsi 300-dən tutmuş cürbəcür qiymətə gedir. Frank 22 manata, çek 18 manata, İtaliya lirəsi 20 manata, İran tüməni 100 manata.

## MÜƏLLİMLƏR İCTİMASINDA

İyulun 13-də bazar günü axşam saat 9 radələrində Bakı kurslarına ətraf köylərdən və qəzalardan dəvət edilmiş müəllimlərin toplanmağından istifadə edərək Bakı Müsəlman Müəllimlər İttifaqı sədrinin binagüzarlığı [sərəncamı] ilə bir iclas dəvət edilmişdir.

Məqsud [məqsəd] Bakıya toplanan müəllimlərdən bir ətraf müəllimin [müəllimlər] ittifaqı yapmaq təşəbbüsündə bulunduğu üçün haziruna bu barədə bir qədər izahat vermək idi.

Məlumat verildikdən sonra köylərdəki və qəzalardakı sabiq müəllimlərdən əhvalpürsan olub nasıl yaşamaqları xüsusunda məlumat toplandığı vaxt anlaşılmışdır ki, onlardan bir qaç nəfəri Mart facieyi-əliməsində [faciəli Mart hadisəsində] qətlə yetişmiş, bəzisi də öz əcəli ilə ölmüşdür.

Əlhasil, iclas açılarkən sədrliyə Şirin bəy Səfərəlibəyzadə cənabları və katibliyə dəxi Abbasqulu Vəlixanzadəni intixab edirlər.

Şirin bəy cənabları əvvəl mərhumların ruhlarının ehtiramlarından ötrü ayağa qalxmalarını təklif edir. Sonra [İsrafilzadə] Ağababa bəy Bakı Müsəlman Müəllimlər İttifaqının proqrammasını maddəbəmaddə oxumağa başlayır. Bədəhu [sonra] İttifaqın təsis edilməsinə şüru olunur [başlanır]. Bu barədə bir qaç münaqişədən sonra iki təklif olunur:

1) Şəhərin içində olan müəllimlərin özlərindən bir idarə seçilsin;

2) Şəhərdə və şəhərin ətrafında olan müəllimlərin iştirakı ilə intixab edilsin.

Təkliflər səsə qoyulur. İkinci təklif ittihadı-ara [yekdillik] ilə qəbul olunur və bununla da Şamaxı və Göyçay qəza və köylərinin müəllimlər ittifaqı təsis edilir. İdarə üzvlərinin seçkisi isə iyulun 14-nə axşam saat 6 radələrinə təyin edilib iclas qapanır.

İyulun 14-də axşam saat 9 radələrində dünkü iclasın mabədi [ardı] olaraq

Şirin bəy Səfərəlibəyzadə cənablarının təhti-sədarəti [sədrliyi] ilə iclas acılır. Şamaxı və Göyçay qəzalarının hər birindən ayrı-ayrı bir idarə seçilməkdən ötrü camaat iki yerə təqsim olunur [bölünür]. 20 nüfusdan [nəfərdən] ibarət Şamaxı qəzasının müəllimləri və 30 nəfərdən ziyadə Göyçay qəzasının müəllimləri heyəti-idarə üzvlərinin inxibatına şüru edib namizədlərini göstərirlər. Hər iki qəzanın seçkisi Amerika – yeni üsul ilə olur. Hər bir idarəyə 7 üzv intixab edilməsi əksəriyyətlə qəbul olunur və üzvlər seçilirlər.

## ERMƏNİSTANDA

**Müsəlman kəndlərinin təxribi**

Xariciyyə Nəzarəti Ermənistanda bir neçə müsəlman kəndlərinin dağılmasını təsvir edici teleqram almışdır:

İyul ayının 4-də gecə topçuların iştirakı ilə erməni qoşunları Böyük Vedi, Çənan kəndi, Qələvan, Qaşlı və digər bir neçə kəndləri əhatə edib topla kəndləri atəşə basmışlardır. Adları zikr edilən kəndlərdən başqa kəndlərin əhalisi qaçmağa müvəffəq olmuşlardır. Fəqət həmin yuxarıda söylənən kəndlərin əhalisi ermənilərə mane olmağa başlayırlar. Erməni qoşunları Böyük Vedi kəndi altında mükəmməl məğlubiyyətə düçar olmuşlardır. Onlar özlərinin məğlubiyyətini bununla izah edirlər ki, guya müsəlmanların miyanında [arasında] türk əsgərləri də var imiş. Ermənilər tərəfindən atəşə tutulan müsəlman kəndlərinin heç birində və müsəlman dəstələrində türk əsgərləri yox idi. Əlbəttə, bu cürə xəbərlərə təəccüb etməməlidir. Çünki müsəlmanlar arasında türk əsgərləri var deyən xəbərlər erməni mənabeyindən [mənbələrindən] bildirilmişdir ki, buna ingilis heyəti də inanır.

İyul ayının 4-də sübh vaxtı Böyük Vediyə Kotandağ tərəfindən ermənilərin Sason alayı yetişir. Müsəlmanlar ermənilərin yanına Zeynalabdin Şıxəli oğlu və Nəsrulla bəy Bəşir bəy oğlu namlar nümayəndə sifəti ilə göndərilmişlər. Hər iki nümayəndə qətl edilib, bu haldan sonra kəndləri dəhşətli surətdə top atəşinə basmışdır. Sason alayının müavinətinə ikinci bir erməni alayı da gəlib dərhal birlikdə müsəlmanlara qarşı hərb açırlar. Davamlı həmlədən sonra erməni dəstələri ricətə [qaçmağa] başlayırlar və bu ricətdə öz hissələrinin qismi-küllisi tələf olur.

Bu teleqramlar münasibətilə Xariciyyə Nəzarəti ingilis qüvayi-əsgəriyyəsinin [ordusunun] Bakıda olan Baş komandanına müraciət edərək təvəqqe eyləmişdir ki, Ermənistan qoşunlarının müsəlman əleyhinə açdıqları bu məzalim və qitala [zülüm və qırğına] qarşı ciddi tədbirlər ittixaz eyləsin [tədbirlər görsün]. Zira ermənilərin müsəlmanlar əleyhinə açdıqları hərb gərək Ermənistan və gərək Azərbaycan müsəlmanlarını artıq həyəcana salmışdır və mümkündür ki, arzu edilməyən hallar əmələ gəlsin və ermənilərlə müsəlmanlar arasında hüsn-əlaqə başlanılması barəsində atılan qədəmlərə, ittixaz edilən tədbirlərə əngəl törətsin.

Bununla Xariciyyə Nəzarəti göstərir ki, İrəvan quberniyasında ermənilərin müntəzəm qoşunlarının müsəlman kəndlərinə təcavüz etmələri birinci şey deyildir. Binaənileyh [ona görə], Azərbaycan Hökuməti ümidvardır ki, İngiltərə Komandanlığı axirüləmr [nəhayət] ermənilərin bu kimi təcavüzkaranə hə-rəkatına bir sədd qoyar.

**Ermənistan məsələsinə dair**

Ermənistanın işlərinə baxan Amerika Komitəsinin üzvü Cerard Komitəyə atidəki mülahizatını [fikirlərini] təqdim etmişdir:

1) Ermənistan hüdudu məsələsinin həllini gözləməyib Parisdə erməni sülh mürəxxəsləri [nümayəndələri] Ermənistan Hökuməti nümayəndəsiədd [hesab] edilsinlər, ta ki məmləkətdə hökmfərma olan [hökm sürən] hazırkı haləti yaxşılaşdırmaq və Ermənistana qərz [borc] vermək mümkün olsun.

2) Qafqaziya Ermənistanına bir milyon möhtaclar üçün məkulat [ərzaq] və 50 min kişilik ordu üçün ləvazimati-hərbiyyə idxal edilsin. Bu şərtlə ki, həman şeylərin qiymətini hazırkı və onun yerini tutacaq hökumət versin.

3) Ermənistan nümayəndələri təqdim etdikləri xəritə üzrə Ermənistanın işğal edilməmiş nöqtələri Müttəfiqlər qüvvəti İngilis-Amerika zabiti təhti-komandasında [komandanlığı altında] olmaq şərti ilə və erməni dəstələri tərəfindən işğal edilsin.

Amerika hökuməti gərək Amerikada yaşayan ermənilərdən 10 min nəfərlik bir əsgəri dəstə təşkil edib bunların cümləsinə Amerika qoşun hissələrində xidmətdə bulunan erməni əsgərlərini də daxil edib vətənlərinə xidmət üçün Ermənistana göndərsin. Sülh Konfransının Amerika heyəti 2-ci üzvü [Edvard] Hauza dəxi bu məalda [məzmunda] bir teleqram göndərilmişdir. O da cavabında böylə bir teleqram göndərmişdir:

*"Ceyms Cerard! Ermənilərin halı həmişə bizim diqqətimizi cəlb edibdir və biz həmişə əhvalın tağyir-təbdilinə [dəyişməsinə] diqqətlə fikir veririk. Təqdim etdiyiniz layihə layiqi-diqqət olub Ermənistanda hökmfərma vəziyyətin düzəlməsi üçün tərtib edilmiş proqramın icrasına artıq kömək yetirə bilər."*

- "Nor aşxatavor" erməni teleqraf agentəliyi xəbər verir ki, Çürüksuda rus bayrağı endirilib yerinə ingilis sancağı nəsb edilmişdir [asılmışdır].

- İyulun 6-da Batumda yerlilərdən təşkil edilmiş korpus nəfəratından [əsgərlərindən] 250 kişilik bir dəstə Novorossiyskə göndərildi. Dəstə nəfəratının əksəri ingilis əlbisəsi [paltarı] geymiş ermənilərdir. Batum əhalisini məhəlli [yerli] qolorduya yazılmaq dəvətnaməsi məqtul general [Aleksandr] Natiyevin ərkani-hərb [qərargah] idarəsi qapısından qoparılıb xahiş edənlərin siyahısı tərtibinə xitam verilmişdir.

- Ərkani-hərb müdiri Dıbenko Yekaterinodara azim olmuşdur [yola düşmüşdür].

- "Qruziya" qəzetəsindən iqtibasən həman qəzetə yazır ki, Könüllü ordu komandanı yekşənbə [bazar] gecəsi Osetiyaya kazaklardan mürəkkəb [ibarət] böyük bir cəza dəstəsi göndərmişdir. Bunun müqabilinə osetinlər kazaklara elani-hərb etmişlər. Müharibə qanlı bir surət kəsb edə bilər.

**İtibdir**

Ələsgər Məhəmməd İbrahim oğlu. 12-13 yaşında. Başında çal papaq və əynində qara pencək. Bu gün 7 gündür itibdir. Onun barəsində məlumatları olanlardan acizanə xahiş edirəm gəlib bu adresə xəbər versinlər: Bazarnı küçə, nömrə 93. Mirzə Məhəmməd oğlunun dükanı.

*5439*

**Bağ satılır**

Pirşağıda Hacı Mirvahab Seyidkamil oğlunun bağı, Hacı İmaməli oğlunun bağının yanında. Xahiş edənlər bu adresə müraciət edə bilərlər. Tatarski, nömrə 33.

*5435*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Şəhərdə isə asistentka R. Q. Risqind qəbul edir.

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*





**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, iyul ayının 17-də, 1919[-cu] ildə səhər saat 10-da Petrovsk meydanında qovun, qarpız satmaqdan ötrü olan yerləri müvəqqəti olaraq icarəyə verməkdən ötrü torq [hərrac] təyin edilibdir. Təfsilatı Şəhər İdarəsinin Ziraət (yer) şöbəsində bilmək olar.

*T-176*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## “QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 287. “Berliner taqeblatt” [Berliner Tageblatt]: 1872-1939-cu illərdə Berlində nəşr olunan almanca qəzet.

“Vorvart”: Almaniya Sosial-Demokrat Partiyasının orqanı olan və əsası 1876-cı ildə qoyulan “Forverts” [Vorwärts] (“İrəli”) qəzeti nəzərdə tutulur.

səh. 288. “Aftonbladet” [Aftonbladet]: Stokholmda nəşr edilən gündəlik qəzet. Əsası 1830-cu ildə qoyulmuşdur.

“Karransa”: qəzetdə bu soyadı təhrif edilmişdir.

**Sülh ətrafında**

səh. 289. “Prins Henrix Prusski”: Prussiya şahzadəsi Henrix Albert Vilhelm nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 291. “Tiflis qəzetəsi”: Gürcüstanda nəşr edilmiş “Tiflisskaya qazeta” nəzərdə tutulur.

**Türkiyədə**

səh. 291. “Nyu-York herald” [New York Herald]: 1835-1924-cü illərdə Nyu-Yorkda nəşr edilmiş qəzet.

“Gənc türklər” (yaxud “Jön türklər”): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat.

**Nəzarətlərdə**

səh. 294. “Amerika Komitəsi”: Erməni və suriyalılara yardım üzrə Amerika Komitəsi [American Committee for Armenian and Syrian Relief] nəzərdə tutulur. Əsası 1915-ci ildə qoyulan təşkilat əvvəlcə Osmanlı imperiyasının erməni və assuriyalı təbəələrinə yardım məqsədi güdürdü. Sonrakı dövrlərdə Yaxın Şərqə yardım üzrə Amerika Komitəsi [American Committee for Relief in the Near East] və Yaxın Şərq Fondu [Near East Foundation] adıyla fəaliyyətini davam etdirmişdir.

**Yeni notarius intixab ediləcəkdir**

səh. 296. “süls”: dini vergi növü, “üçdə bir” mənasına gəlir.

“nəfəqə”: boşanan qadına, keçmiş əri tərəfindən ödənən pul.

**Naxçıvan məktubatı**

səh. 296-297. “qəhvə (?) gətirtdi… gecə və gündüz (?) bu xüsusda…”: sual işarələri qəzetdə getmişdir.

“para (?) göndəriniz”: sual işarəsi qəzetdə getmişdir.

səh. 298. “Erməniyə rəiyyət olmayaq deyə”: qəzetdə “olmayaq” yerinə “olmayıb” getmişdir.

**Şamaxı haqqında**

səh. 299. “troyka”: üç atın çəkdiyi ekipaj, araba.

**Mətbuat**

səh. 301. “Yeni türklər” (yaxud Gənc türklər; Jön türklər): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat.

“tavad” (yaxud “tavadi”): Feodal Gürcüstanında knyaz titulu.

“Qruziya”: 1918-1921-ci illərdə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet. Heç bir partiyanın orqanı olmadığını elan etsə də, bu qəzet əslində gürcü millətçilərinin görüşlərini əks etdirirdi.

**Səadət idarəsində**

səh. 302. “Qəzetənizin 218-ci nömrəsi sütununda dərc olunmuş məktub”: söhbət “Azərbaycan” qəzetinin 7 iyul 1919-cu il tarixli 218-ci nömrəsində Ağaəli Əliyev tərəfindən yazılan “Açıq məktub”dan gedir.





**Müəllimlər ictimasında**

səh. 305. “iyulun”: bu yazıda hər yerdə “iyulun” yerinə “eylülün” getmişdir.

**Ermənistanda**

səh. 307. “Ermənistanın işlərinə baxan Amerika Komitəsi”: 1918-ci ilin dekabrında erməni əsilli Amerika siyasi xadimi Vahan Kardaşyan tərəfindən yaradılan və Ermənistanın müstəqilliyinin tanınması uğrunda fəaliyyət göstərən Ermənistanın Müstəqilliyi Uğrunda Amerika Komitəsi [American Committee for the Independence of Armenia] nəzərdə tutulur.

“Çürüksu”: Qaradəniz sahilində Kobuleti şəhəri nəzərdə tutulur.


آذربایجان

*"Azərbaycan" qəzetinin 227-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə axşamı, 17 iyul 1919-cu il, nömrə 227**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 18 şəvvalül-mükərrəm sənə 1337. 17 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrinküncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ELAN

17 iyul 1919 pəncşənbə [cümə axşamı] günü saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

## ELAN

Gömrük hissəsini təftiş üçün Maliyyə naziri tərəfindən təşkil edilmiş Müvəqqəti Komissiya, məmuriyyətlərində hər hanki cürə olursa, sui-istemal [sui-istifadə] edib doğruluq göstərməyən məmurları yazıb bildirmələrini hər kəsdən rica edir. Komissiya bu xüsus üçün olan müraciət və kağızları Kazyonnı Palata [Xəzinə Palatası] imarətində hər gün 10-dan 11-ə qədər qəbul edir.

*Komissiyanın sədri:*
*İsfəndiyar bəy Hacıyev*

## SABUNÇU İSTEHLAK CƏMİYYƏTİ "EL DÜKANI"

Bununla öz üzvlərinə elan edir ki, həmin iyul ayının 18-də cümə günü səhər saat 10-da Sabunçu Ali-ibtidai məktəbi binasında (1-ci polis idarəsi qarşısında) cəmiyyətin ümumi iclası təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) 1917 və 1918[-ci] illərin hesabına baxılıb və təsdiq olunması barəsində;

2) Yeni idarə heyəti seçilməsi barəsində;

3) İclasda qaldırıla biləcək məsələlər.

Qeyd: Hərgah təyin olunan vaxtadək iclasa lazım olan qədər üzv gəlməzsə, saat 11-də hər nə qədər üzv olmuş olsa, iclas qanuni hesab olunacaqdır.

*Heyəti-idarə*
*5440*

## SƏBRİMİZ TÜKƏNİR

Ay yarımdır ki, erməni qəzetələri, erməni siyasətçiləri, erməni cəmiyyətləri bütün dünyaya səs salmışlar, ah-nalələri asimana bülənd olmuşdur. Baş vəzirləri Tiflisə, Müttəfiqlər Komandanlığı hüzuruna şikayətə gəlir. Xariciyyə nazirləri Azərbaycan hökumətinə notalar göndərir. Tiflis zemlyaçestvoları [həmyerlilər dərnəkləri] vicdani-bəşəriyyətə müraciət edir. Milli şuralar bütün dünyaya səs salırlar. Parlamanımızda uzun-uzadıya müzakirə və mü-

bahisələr olur. Komissiyalar göndərilir, təftişat, təhqiqat icra edilir, istintaq qurulur, bilməm nələr olur.

Nə var, nə olmuşdur?

Ermənilər özləri xuliqan, məsuliyyətsiz quldur adlandırdıqları adamların fitnə və dəsisəsi [hiyləsi] nəticəsində Qarabağda xırda bir müsadimə [toqquşma] olmuş, ermənilər bir qədər zərər görmüşlərdir.

İştə!

Azərbaycanın hökuməti və dövlət işləri ilə az-çox əlaqəsi olan bir türk, ya bir əcnəbi böylə qeyri-məmul [arzuolunmaz] hərəkət baş verməsinə razı deyildirlər. Və mümkün olan qədər bu cür çıxışların önünü almağa çalışırlar.

Amma bu biri tərəfi götürəlim. Bir ildən bəri (hələ irəliki işləri kənara atalım, çünki o vaxt erməni hökuməti yox idi) Ərzurumdan, Qarsdan tutmuş Qarabağın aran qisminədək (Şuşadan 20-30-40 verst şərqədək) uzanan böyük bir məsafədə yüz minlərcə müsəlmanın başına nələr gəlir, nə qədər xanimanlar dağılır, nə qədər abad kəndlər bərbad olur...

Fəqət nə bir gurultu qopur, nə “vicdani-bəşər”ə müraciət edilir, nə də hüquq və ədalət naminə dünyanı titrədən ermənilərdən bir səs çıxır. Ermənilər sükut ixtiyar edirlər. Çünki onlarca əvvəla burası böyük və etiraz qəbul etməz bir siyasətdir.

Saniyən [ikincisi] də böylə siyasətin nəticələrini, şübhəsiz, gizlətmək lazımdır. Siyasət nə hüquq bilir, nə ədalət.

Əgər bir erməninin burnu qanadıqda dünyaya səs-küy salınırsa, o da haqq və ədalət üçün deyil, Azərbaycanı ləkələmək, həyati-siyasiyyəmizə əngəllər çıxarmaq, vaxtilə türklər haqqında edildiyi kimi, şimdi də bizi vəhşi və müstəqil həyata ləyaqətsiz göstərmək üçündür, vəssalam.

Fəqət biz özümüz nə yapırız?

Hamıya məlumdur ki, İrəvan quberniyasının yüzlərlə kəndi erməni əşqiya [quldur] dəstələri tərəfindən xak ilə yeksan [yerlə yeksan] edilmişdir. Əşqiya dəstəsi denildikdə güman edilməsin ki, bunlar ordan-burdan yığılmış 5-10 quldurdur. Xeyr, bu əşqiya dəstəsi “Erməni Cümhuriyyəti” denilən “demokrat” bir təşkilatın müntəzəm qoşunlarıdır. Bunlar Ermənistan hökumətinin “ali məqsəd”lərinə xidmət edirlər. Əksəriyyəti müsəlman təşkil edən yerlərdə erməni əksəriyyəti əmələ gətirmək üçün və gələcəkdə erməni hökumətinə “əngəl çıxara biləcək” ünsürlərdən təmizləyirlər. Həman bu zalımların, xatakarların əli ilə minlər, on minlərlə türk-müsəlman qətl edilib, on minlərlə çöllərdə, səhralarda ac, susuz, çılpaq, səfil-sərgərdan qalmışdır. Dünkü milyonlular bu gün müavinətə möhtac olmuşlardır.

Axır günlər İrəvan quberniyasından alınan xəbərlərdən anlaşılır ki, erməni hökuməti, nəhayət, əzmini cəzm etmiş [qəti qərara gəlmiş] və sanki birdəfəlik ora türklərini məhv və nabud [yox] etmək fikrinə düşərək mütəşəkkil bir qətliama başlamışdır. Köylər, qəsəbələr müntəzəm erməni əsgərləri tərəfindən top və tüfəng atəşi altında, camaat tufan içində qalmışdır. Qırdıqlarını qırır, salamat qalanı məmləkətdən sürür və yerlərinə erməni mühacirlərini yerləşdirirlər. Barı Nikolay hökuməti mühacirət siyasətini dinc və sülh təriqi [yolu] ilə yürüdürdü. Amma Vorontsov-Daşkovların əziz dostları, varisləri mühacirlərini iskan [məskunlaşdırmaq] üçün ancaq qan və alov ilə yer boşaldırlar.

Bunların həpsi müqabilində Xariciyyə Nəzarətimiz tərəfindən erməni hökumətinə bir nota verilməsi və İrəvan qaçqınlarının bir protesto nümayişi tərtib verdikləri müstəsna tutularsa, biz azərbaycanlılar bir şey yapmadıq. Halbuki bütün Azərbaycan vətəndaşlarının borcudur bunların dərdinə qalsın, mümkün olan qədər hər növ tədbir görsün ki, bu zavallıların müsibətinə bir xatimə çəkilsin. Cəmiyyətlərimiz, hökumətimiz vicdani-bəşəriyyətə müraciət etməli, ingilis, Amerika, İtaliya nümayəndələri yanında təşəbbüsatda bulunmalıdırlar ki, ermənilərin bu vəhşiliyinə xitam verilsin.

Ermənistanda ingilis və Amerika nümayəndəlikləri var. Onlara müraciət etməli, həqiqəti-halı anlatmalı, bildirməlidir ki, ermənilər İrəvan quberniyasında “hərcmərc törədən quldurları iskat” [susdurmaq] adı ilə, hüququnu müdafiə edən, rahat yaşamaq, soyğunçulara, talançılara, qatillərə təbəiyyət etmək [tabe olmaq] istəməyən dinc əhalini, rəncbərləri, fəhlələri qırırlar. Bunu anlatmalı, bütün dünyaya teleqraflar çəkməli, prostestolar etməli və yalnız bununla da qənaətlənməyərək əlimizdə olan bütün vəsait, vəsail [vasitələr, yollar] ilə icrayi-təsir etməli. Barı yüz minlərcə türk xalqının bəqiyyətüsseyfini [qırğından qurtulanlarını] erməni vəhşilərinin əlindən almalı, nicat verməlidir. Camaat böyük iztirab və həyəcanla bu hadisatı təqib edir, gözləyir ki, görsün hökumətimiz İrəvan çöllərində oynanan bu faciəyə nə cür ibrazi-irtibat edəcəkdir [necə münasibət bildirəcək].

*X.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

8 təmmuz iclası

*(keçən nömrədən mabəd)*

**Rüstəmbəyli Şəfi bəy** - (Müsavat) *(Məruzəsində davamla deyir)* Qaybalı hadisatında qoşun qitəatının [hərbi hissələrinin] iştirakı haqqında heç bir dəlil yoxdur və mən bilməyirəm hansı əsas və dəlillər üzərində Çubaryan təkid edir ki, qoşun iştirak etmişdir. Doğrudur, mütəzərrirləri [zərər çəkənləri] danışdırarkən bir növ çinli [rütbəli] adamların dəxi iştirak etdiklərini bəyan etmiş və isbat üçün bir dənə çin dəxi göstərmişlərdir, fəqət haman çin məhkəmə məmuruna məxsus bir şey idi.

Qaybalı kəndinə kömək verilmişdir, general-qubernatorun binagüzarlığında [sərəncamında] bulunan ümum vasitə və qüvvələrdən istifadə edilmişdir. Hətta öylə bir vaxt olmuşdur ki, əhalidən bir qismi ermənilərə hücum etmək istəmiş, fəqət general-qubernator qoymamışdır. İş bir məqama çatmışdır ki, yerli müsəlman əhali general-qubernatorun fövqəladə insaniyyətpərvəranə və himayətkaranə rəftarından narazı qalmışdır.

Qətiyyən müəyyən edilmişdir ki, Qaybalı kəndində yanğın şəhərdə atışma olan zaman başlanmışdır. Yəni o zaman ki, hökumət[in] bütün fikri və zehni bittəb [təbii olaraq] şəhər hadisatı ilə məşğul imiş.

Rotmistr Ştal bəyan edir ki, yolları ermənilər öylə güllələyirlərdi ki, ancaq dolama yolla getmək lazım və mümkün olurdu. General-qubernatorun evi yaxınında

şəhərlə Qaybalı arasında uca dağ var. Doğrudur, biz o xüsusda tədqiqat icra etmədik, lakin zənnimcə bu evdən tüstü çətin görülə bilərdi.

Şahidlərin göstərməsi əsası ilə biz təyin etdik ki, Qaybalı kəndində dava 3-4 saat çəkmişdir. General-qubernator bu hadisəni bildikdə, dərhal köməyə başlamışdır. Fəqət şübhəsizdir ki, təhti-idarəsində [tabeçiliyində] olan bütün qüvvədən istifadə edəmməzdi, zira eyni zamanda yalan-doğru çox xəbərlər çıxmışdır ki, sair kəndlərə də hücum edilir.

General-qubernatorun qüvvəsindən bir neçə erməni kəndinə kömək edilmiş və onlara nicat verilmişdir. Xankəndinin köməyinə qaldıqda, bu mövqe hər tərəfdən erməni kəndləri ilə əhatə edilmiş olduğundan, oradakı əsgərlər çox sərhesab [ayıq-sayıq] olub oranı boş qoymamalıydılar. Bilxassə ki, firqə [diviziya] komandanının göstərdiyindən anlaşıldığı üzrə, Xankəndi yaxınında müsəlləh [silahlı] erməni dəstələri yığıldığı haqqında məlumat alınmış imiş. Bununla bərabər, kəndlərin mühafizəsi üçün oradan xırda qaraqol dəstələri və əsgər qitəatı göndərilmişdir və bu surətlə nə mümkünsə edilmişdir.

Ermənilər özləri deyirlər ki, ayın 5-də firqə komandanı, yanında qalmış olan yeganə komandanı 16 əsgərlə Qaybalı kəndinin köməyinə göndərmişdir. Fəqət kömək gec yetişmişdir. Ancaq 67 adamı xilas edə bilmiş və Xankəndinə gətirərək iki gün yemək-içmək verdikdən sonra general-qubernatorun yanına göndərmişdir. Bundan əlavə, Atabekovun mülkü dəxi əsgərlər tərəfindən hifz edilmişdir. Onun bütün şeylərini ştaba apararaq saxlamış və ertəsi gün qaytarmışlardır. Gərək general-qubernator və gərəksə qoşun bu etdiklərindən artıq daha bir şey edə bilməzlərdi.

Bir də Çubaryan dəfn edilməmiş meyitlərdən bəhs etdi. Ola bilər ki, orada meyitlər varmış. Fəqət burası da məlumdur ki, general-qubernator kərratla [dəfələrlə] ermənilərə və hətta keşişə meyitlərin dəfni haqqında kağız yazmışdır; o meyitləri müsəlmanlar dəfn edə bilməzlərdi, çünki dəfn zamanı müəyyən ayini-ruhani icrası lazımdır. Meyitlərdən qohum-əqrəbası olan bir qismini onlar dəfn etmişlərdir. Yerdə qalan bir qismi isə dəfn olunmamış qalmışdır. Bu işi hökumətin fəaliyyətsizlik və səhlənkarlığına isnad vermək, həm də eşidənlərin əhvali-ruhiyyəsinə icrayi-təsir etmək, müəyyən bir nəticə və təsir buraxmaq üçün Çubaryanın danışdığı kimi danışmaq lazım deyildi, buna ehtiyac yoxdur: fəzlə bir işdir.

Kərkicahan məsələsinə gəldikdə, qoşun heç vaxt onlara deməmişdir ki, biz müsəlmanlara güllə atmayacağız. Ancaq bəyan etmişdir ki, qoşun az olduğundan, böyük dəstəyə müqavimət edəmməz. Ona görə də ermənilərə təklif edilmişdir ki, şeylərini müsəlmanlara əmanət tapşırıb, özləri Xankəndinə, əsgərlərin mühafizəsi altına getsinlər. Bu əmr əsgərlərin fəaliyyətsizliyi deyil, bəlkə ayrıca diqqət və iltifat əlamətidir. Bunların həpsindən əlavə, ermənilərə güllə atılmaması, onlara kömək və müdafiə edilməsi haqqında general-qubernator bir çox əmrlər vermişdir. *(Əmrnamələri oxuyur.)*

Telefonla da hər tərəfə əmrlər vermiş, binagüzarlıqlar etmişdir.

Şübhəsizdir ki, böyük bir yanğın əmələ gətirə biləcək olan hadisat ancaq hökuməti-məhəlliyyənin [yerli hökumətin] təşəbbüs və fəaliyyəti sayəsində təhdid edilmiş [məhdudlaşdırılmış], dayandırılmışdır. General-qubernatorun böylə qəti tədbirləri olmasaydı, erməni kəndlərinin həpsi dağıdılardı.

Biz Qarabağda olan zaman istintaq icrası və müqəssirləri tapmaq üçün oraya müddəiyi-ümumi [prokuror] və İstinaf [Apelyasiya] Məhkəməsi sədri dəxi gəldilər. Bu surətlə, ədliyyə tədbirləri də görülmüşdür.

Bitərəfanə və biqərəz mühakimə edilərsə görülər ki, Qarabağ hadisəsi nəinki yeni təşəkkül etmiş bir dövlət, hətta böyük dövlətlərdə də mümkünatdan olan bir anarşi çıxışı imiş; lakin qabaqcadan düşünülmüş bir təşəbbüs və Çubaryanın dediyi kimi qəsdən edilmiş səhlənkarlıq deyil. Biləks [əksinə], hökumət qara niyyətləri boğmaq üçün hər növ tədabir [tədbirlər] görmüşdür. Bunu biz müəyyən və qəti surətdə bəyan ediriz. General-qubernatorun məqsədi ancaq bütün şəhərdə nizam və asayiş bərpa etmək olmuşdur.

Mətbuatda general-qubernator namı [adı] ətrafında qaldırılan səs-küy provokasiyadır. Bu ancaq Azərbaycanda bir fəna hadisəni qeyd və müəyyən surətdə tənvir etmək [işıqlandırmaq] niyyəti ilə icra olunur. Köhnə Qarabağ məsələsi qaldırılır. Bu məqsədlə də Zaqafqaziya həyatında İrəvan quberniyası və Axısxa qəzasında görmüş olduğumuz hadisələrə nisbətən xırda bir məsələ ətrafında bunca gurultular qoparılır. Biz gərək bu məsələni meydana çıxararaq Qarabağın vəziyyətini aydınlaşdıraq və erməni mütəəssiblərinin hərəkatı və əməlləri müqabilinə nə kimi tədbirlər ittixazı [tədbirlər görülməsi] lazım gəldiyini təyin edək.

Məclisi-Məbusan və bütün azərbaycanlılar Qarabağı Azərbaycanın ayrılmaz bir hissəsi deyə qəbul etmişlərdir. Bu iş son zamanlar ermənilərlə müsəlmanlar arasında vasitəçi rolu oynayan xarici qüvvənin rizası ilə olmuşdur. Fəqət həqiqətihalda Qarabağın dağlı qismi və şəhərin yarısı Azərbaycan Hökumətinin məntəqeyi-nüfuzu xaricində qalmışdır. Şübhəsiz dövlət və beynəlmiləl hüquq nöqteyinəzərindən bu işə müsəlləh [silahlı] üsyan kimi baxmalı və bunun müqabilinə hər bir hüquqi dövlət qüvvə işlətməyə qədər qəti tədbirlər görməlidir. *(Səslər: Doğrudur.)*

Fəqət Azərbaycan Parlaman və hökuməti bu məsələnin sülhlə həll edilməsini istəyirdilər. Buna baxmayaraq, Azərbaycan Cümhuriyyəti təşkil olunandan bəri bəzi qruplar oranı Azərbaycandan ayırmağa çalışırlar. Az qala Qarabağı bolşevik Rusiyasının bir hissəsi elan etmək dərəcəsinə vardılar. Nəticədə orada iki düşmən tərəf əmələ gəldi: biri erməni, biri müsəlman. Həmişə də bunların arasında müsəlləh müsadimələr [silahlı toqquşmalar] baş verdi. Hökumətimiz Qarabağda general-qubernatorluq təsis etdikdən bəri Qarabağ məsələsinin yeni bir səfhəsi [mərhələsi] başlanmışdır.

Biz Qarabağ ermənilərinin də, türklərinin də əhvali-ruhiyyəsini gördük. Onlar həmişə birgə yaşamaq istəyirlər və bilirlər ki, siyasi və iqtisadi rabitəsiz yaşaya bilməzlər.

Şuşa və Zəngəzur Erməni Milli Şuralarının daima rəhbərlik etdikləri mütəəssib erməni dairələrinin fəaliyyəti həmişə Azərbaycan dövləti əleyhinə camaatı qızdırmağa həsr edilmişdir. Açıqdan-açığa

gözümüz qabağında işləyir, əleyhimizə çıxışlar qurur, yollarımızı, kəndlərimizi güllələyirdilər. Bunun həpsi dəlil və sənədlərlə sübut olunur. Fəqət biz həmişə sülh tərəfdarı olduq qaldıq.

General-qubernatorluq təsisindən sonra müsəlmanlar ermənilərə hücum etmişlərdir, fəqət general-qubernatorluq təhti-idarəsində bulunan hər yerdə hər daim hökuməti-məhəlliyyə [yerli hökumət] sülhcuyanə [sülhpərvər], tərəfi-müqabil isə təcavüzkaranə iqdamatda bulunmuşdur [addımlar atmışdır]. General-qubernatorla əlaqəsi olmayan kəndlərdə həmişə müsəlləh dəstələr olmuşdur. İyunun 4-nədək Erməni Milli Şurası general-qubernatoru qəbul etməyib, onunla ancaq ingilis heyəti vasitəsilə əlaqədə bulunurdu. Bu surətlə Erməni Milli Şurası hökuməti qəbul etməyirdi, hətta yepiskopu da general-qubernatorla görüşməkdən mən etmişdir [görüşməyi qadağan etmişdir] və ancaq ayın 4-5-dən sonra görüşmüşlərdir.

Eyni zamanda bunu da nəzərdən qaçırmamalıdır ki, Qarabağ Milli Şurası özbaşına, öz gücü ilə işləməyirdi. General-qubernatorun əldə etdiyi dəlillər bunu şübhə xaricində isbat edirlər ki, onlar həmişə İrəvanla siyasi və maddi rabitədə olub, Şuşa Erməni Milli Şurasının əlində olan bütün qüvvə və pul İrəvandan göndərilirmiş. Burası Şuşada Arzumanovun evi axtarıldıqda kəşf edilmişdir. Bu dəlillərin həpsi isbat edir ki, Qarabağda erməni camaatının təcavüzkaranə niyyəti vardır.

Zəngəzurda təcavüzkarlıq hələ də davam edir. Bunu mətbuat səhifələri də göstərirlər. Fəqət orada da hökumətimiz məsələnin sülh təriqi [yolu] ilə həlli tərəfdardır. Hətta hal-hazırda ermənilər hər tərəfdən hücum etdikləri zaman general-qubernatorun müəyyən əmrnamələri var ki, müsəlmanlar hücum etməsinlər, yalnız özlərini müdafiə və mühafizə etsinlər.

Burada boykotdan bəhs edildi. Qışda general-qubernator Qarabağa gəldikdə ermənilər çox fəna bir halda olub hətta acından ölənləri olurmuş. Səbəbi də bu idi ki, ermənilərin arandan əlaqəsi kəsilmişdi. Qarabağın erməni hissəsi şiddətli aclıq təhlükəsi altında idi. General-qubernator dərhal ermənilərə ərzaq verilməsi haqqında tədbirlər görmüş, Qarabağdan taxıl ixracını mən [qadağan] etmişdir. Bu surətlə Bakıda 200 manatdan yuxarı olduğu halda, Qarabağda taxılın pudu 30 manata düşmüşdür. Ermənilər ucuz qiymətə külli miqdarda taxıl alıb əşqiya [quldur] dəstələrini təmin etmişlərdir. Bu halda general-qubernator iqtisadi boykot kimi tədbir görə bilərdi, amma görməmişdir.

Heç yerdə göstərilməyir ki, general-qubernator boykot elan etmişdir. [Ruben] Şahnazarov, [Qriqori] Kalantarov və sair adamlar da bunu təyid [təsdiq] edirlər və deyirlər ki, camaat özü boykot etmişdi. Ermənilər az-az taxıl ala bilirlərdi; amma külli miqdarda verilməyirmiş. General-qubernator boykot etməmiş, biləks [əksinə], erməni nümayəndəsi Şahnazarovun hüzuru [şahidliyi] ilə qəti binagüzarlıq etmişdir ki, boykot götürülsün; götürülmüşdür də.

Bu surətlə, bu məsələdə də general-qubernatoru təqsirləndirmək olmaz.

Həmişə və hal-hazırda general-qubernatorun bütün qüvvələrinin yarısı ermənilərin mənafeyinə xidmət edir. Məsələn, erməniləri həmişə qaraqol əsgərləri müşayiət etmişlər, canlarını, mallarını daima hökumət və əsgərlər mühafizə etmiş və etməkdədirlər. Hal-hazırda ermənilərlə müsəlmanlar arasında öylə əlaqə hasil edilmişdir ki, Əsgərana və Ağdamadək hər yerdə erməni arvadları taxıllarını yığıb kəndə daşıyırlar.

Bunların həpsi hökumətin tədbirləri ilə edilmişdir. Onlara mühafizə verilir və çox kömək edilir. Fəqət bunların həpsi ilə bərabər mütəəssifanə [təəssüf ki], ermənilər ayrı olurlar.

Hal-hazırda yenə də müntəzəm müsəlləh qüvvələri, hökumətləri, ərkani-hərbləri [qərargahları] var, hökumətə tabe olmayırlar. Bunlar da Şuşada deyil, Keşişkəndindədirlər.

Ermənilər Azərbaycan Hökumətinin bütün yaxşılıqlarından istifadə edir, fəqət öhdələrinə düşən dövləti vəzifədən boyun qaçırırlar və Azərbaycan Hökumətini qəbul etməyir, tanımaq istəməyirlər. Bunların həpsini edən Zəngəzur Erməni Milli Şurasıdır ki, açıqdan-açığa işləyir və hökumətə tabe olmayır. Amma digər tərəfdən bizim hökumətimiz bu uğurda bir iş görmək istədikdə həmişə səs-küy, gurultu-patıltı qoparılır.

Şuşada, Zəngəzurda və sair yerlərdə edilən hücumlar kimi bir çox hadisələr vüqu bulmuş, fəqət kimsə bu xüsusda məsul olan hökumətə müraciət etməmiş və bu surətlə müqəssirlər tapılmamışdır. Şuşada, Zəngəzurda və hər yerdə bəzi məsuliyyətsiz ünsürlər işləyirlər. Mütəəssifanə, Çubaryanın bəyanatının bir təqsirnamə olduğu və erməni başçılarının xətalarından əsla bəhs olunmaması bununla təyid edilir.

Bunların həpsini edən Azərbaycan, Ermənistan və Tiflisdəki erməni başçılarıdır. Daima rəhbərlik etmiş və etməkdə olan firqə bu işlərin həpsinə hüsn-nəzərlə baxır. Şahnazarov Ruben və [Qriqori] Kalantarovun bəyanatı isbat edir ki, bu hadisələrin həpsində pişrovluq [rəhbərlik] edən "Daşnaksutyun" firqəsidir. Fəqət general-qubernatorstvada ildırım saçan, od yağdıranlar, mütəəssifanə, nizam və asayiş bərpası üçün heç bir tədbir görməmişlərdir və görməyirlər.

Binaənileyh [ona görə], mən özümü borclu bilirəm Məclisi-Məbusana elam edim [bildirim] ki, hal-hazırda Qarabağ ən ciddi bir vəziyyət altındadır. Əgər hökumət qəti tədbirlər görüb möhkəm hökumət idarəsi qurmasa, bu hadisat bütün Qarabağa yayılar və çünki Qarabağ Azərbaycanın ümdə bir mərkəzi, ümdə bir hissəsidir, ona görə orada öylə böyük hadisələr çıxa bilər ki, bu vaxtadək vüqu bulmuş olanların həpsini keçər. Binaənileyh, deleqat heyəti keçən dəfə demişdir, yenə təkrar edir ki, Qarabağda sülh və asayiş, nizam və qaydanı bərpa etmək üçün nizam və asayişi təmin edə biləcək yaxşı hökumətin sultasını bütün Qarabağa tətbiq və təşmil [şamil] etmək lazımdır. Bu mühüm Qarabağ məsələsini ancaq böyləliklə həll etmək olar.

## TELEQRAF XƏBƏRLƏRİ

**Novorossiysk**

Amerikanın müavinət edici komitəsi İrana 100 min dollar, Qafqaza 825 min dollar, Beyrut və Urfaya 300 min dollar,

Hələbə 100 min dollar, İstanbula 650 min dollar, cümlətanı 2 milyon 375 min dollar pul göndərmişdir. Bu puldan əlavə komitə 1 milyon dollar qiymətinə əlbisə [paltar] göndərmişdir.

**Albaniyanın istiqlaliyyəti**

Yekaterinodar - Romanya qəzetələrinin yazdığına nəzərən, Albaniya cümhuriyyətli bir dövlət elan edilir və böyləliklə, İtaliya ilə Yunanıstan arasında ola biləcək yeni müharibə bərtərəf edilmiş [aradan qaldırılmış] bulunur.

**Lloyd Corc və kayzer**

London - Lloyd Corc bəyan eyləmişdir ki, bu yaxınlarda kayzer Vilhelm Londonda istintaq ediləcəkdir.

Kiyev – bütün əcnəbi konsulları Kiyev şəhərindən təbid edilmişlərdir [qovulmuşlar]. Orada yalnız İran və Çin konsulları qalmışdır ki, rəsmən Şura Hökuməti bunları təsdiq eyləmişdir.

**Rusiya üçün 60 milyon pud qənd**

Yekaterinodar - İndi məlum olur ki, əcnəbi məmləkətləri Rusiyaya bir milyon ton (hər ton 60 puddur) qənd verə bilər. Zira müharibə zamanı xaricdə qənd zavodları öz işlərində davam edirmiş.

Yekaterinodar - Dvariyada 72 nəfər çinlilər tövqif [həbs] edilmişlərdir. Bunlar 70 milyon manat Nikolay və Kerenski pulları aparmaq istəyirmişlər. Bütün gün bunlar təftiş edilmişlərdir. Zira pulları çaynik və çamadanların içində gizləyiblərmiş. Pullar çamadanların alt qatında müxtəsər yerdə qoyulmuş imiş. Kimsə orada pul gizləndiyini zənn etməzmiş. İndi anlaşılır ki, bu pullar komissar tərəfindən sirqət edilib [oğurlanıb] Sibiryada bulunan bir çox bolşevik komissarları üçün göndərilirmiş.

**Bolşeviklərin məlumati-rəsmiyyəsi 13 iyul**

*Şimal cəbhəsində* - Çerdın dairəsində biz Ksenofontov mövqifini [stansiyasını] işğal etmişik.

*Qərb cəbhəsində* - Murman səmtində biz Markilet mövqifini işğal etdik. Narv səmtində biz bir neçə kəndləri işğal eylədik. Baltik dəmiryolunun cənub tərəfində Narvın 30 verstliyində qızğın müharibə gedir. Luj dairəsində, Luqanın 30 verstliyində biz bir neçə kəndləri işğal eyləmişik. Pskov dairəsində müharibə ilə Toroşino mövqifini işğal eylədik. Bizim irəliyə yürüşümüz davam edir. Dvin dairəsində, Panevej səmtində bizim hissələrimiz hücuma keçmişlərdir. Luçitsk dairəsində bizim hissələr düşmənlərin təzyiqi altında Losvanı tərk edib Proskurova tərəf çəkilmişlərdir.

*Cənub cəbhəsində* - Yekaterinoslav səmtində bizim yürüş edən qoşunlarımız Verxnedneprovsk yanında müharibə edirlər. Şimal tərəfdə qoşunlarımız Novomoskovskiyə tərəf yürüş edirlər. Xarkovun 70 verstliyində Kolomak kəndi yanında 100 nəfər əsir alıb iki top qənimət almışıq. Nəhayət, Boqoduxov şəhərini də işğal eylədik. Belqorod səmtində biz bir neçə kəndi işğal etdik. Balaşovun 50 verstliyində qoşunlarımız düşmənləri cənub tərəfə püskürdüb 5 verst irəliləmiş.

*Şərq cəbhəsində* - Buzuluk dairəsində bizim hissələr Uralsk şəhərinin hissələrinə mülhəq oldular [qoşuldular]. Sterlitamak dairəsində bizim hissələrin yürüşü davam edir. Hal-hazırda bizim qoşunlar Zlatoustun 6 verstliyindədir. Krasnoufimsk səmtində Belebeyev zavodunun yuxarı hissəsində düşmənlər qətiyyən məğlub edilmişlərdir. Biz Serobinski mövqifini işğal etdik, orada 11 ədəd işəyarar parovoz, 150 vaqon qənimət almışıq. Kourovka mövqifində biz düşmənlərdən 4 eşelon tutmuşuq, bunların birində saldat, üçündə isə ərzaq vardır. Bilimbay mövqifində bir çox ləvazimi-hərbiyyə almışıq. Biz Çusovaya mövqifini işğal etdik. Şimal tərəfdə bizim qitəatımız Qubaxa və Kizel mövqifini işğal etmişlərdir.

Simbirsk - Düşmənlər Nijni-Oskol, Utkin, Baymiev zavodlarının yanında qətiyyən məğlub edilmişlər. Dabravollar böyük tələfata düçar olmuşlardır. Biz beş alayadək düşmənlərdən əsir almışıq. Düşmənlərin 7-ci firqəsi qaçmışdır. Yürüşümüz davam edir. Zlatoust şəhəri tərəfimizdən işğal edilib, düşmənlərin bir zirehli qatarı qənimət alınmışdır. Tomsk quberniyasına ağalıq edən Kolçak bolşeviklərin partizan qoşunlarının müqabilində iş görür. Bizim hamı dəstələrimiz müəyyən plan üzərinə iş görürlər. Tobolsk quberniyada 5 qırmızı dəstə vardır ki, bunların həpsi kəndçilərdən ibarətdir.

Kiyev - Ukrayna Şura Hökumətinin sədri Rakovski bəyan eyləmişdir ki, Denikinin yürüşü dayandırılmışdır. Biz ciddi həmləyə keçiriz. N-ski ordunun ştabı xəbər verir ki, Kizir, Mironovka tərəfindən düşmənlər qaçırlar. İkinci düşmən dəstəsi bizim möhlik [öldürücü] həmləmizlə rədd edilmişdir.

**Qərbdə inqilab**

Paris - Fransanın burjuaznı hökuməti bu yaxınlarda Fransa, İtaliya və İngiltərə əmələlərindən [fəhlələrindən] təşkil edilmiş Əmələlər İttifaqına amansız bir müharibə elan eyləmişdir. Müttəfiq dövlətlərin ittifaq yapmış əmələləri İtaliya, İngiltərə və Fransada iyulun 21-də ümumi tətilə hazırlaşırlar. Üç dövlətin əmələləri tələb edirlər ki:

1) Bilatəxir [dərhal] ümum saldatlar silah altından azad edilib evlərinə buraxılsınlar;

2) Müttəfiq dövlətlər minbəd [bundan sonra] Rusiya və Macarıstan cümhuriyyətləri işlərinə müdaxilə etməsinlər;

3) Siyasi mücrimlər [cinayətkarlar] bilatəxir həbsdən azad edilsinlər.

Beynəlmiləl Əmələlər İttifaqı Müttəfiq hökumətləri böyük xof və əndişələrə salır. İngilis əmələləri bütün ingilis şəhərlərində mitinqlər tərtib verib Versal Sülh Konfransının müahidənaməsinə [sazişinə] protesto edirlər. İtaliyada hal-hazırda iğtişaş davam edir. İtaliya Hökuməti üsyançılarla mübarizə etməkdən acizdir. Fransız Hökuməti tətilçiləri divani-hərb [hərbi məhkəmə], əsgərliyə dəvət və qaba cəzalarla hədələyir, amma əmələlər də hökumətə elani-hərb etmişlərdir. Əmələlərin şüarı budur: "Ya qələbə, ya ölüm."

## SÜLH ƏTRAFINDA

**Osmanlı nümayəndələri konfransda**

Onlar Şurası tərəfindən Osmanlı nümayəndələrinin qəbulunu "İstanbul" qəzetəsi böylə təsvir edir:

Almanlar qəti sülh şəraitini elan etdikdən bir gün sonra Müttəfiq dövlətlər nümayəndələri Osmanlı sülh murəxxəslərini [nümayəndələrini] qəbul etmişlər. Deməli, böyləliklə, Osmanlı məsələsi xüsusunda da danışıq başlanmışdır. Onlar Şurası Fransa Xariciyyə Nəzarətinə yığışmışdı, orada Klemanso, Pişon, Vilson, Lansinq, Lloyd Corc, Balfur, Sonnino, Markiz İmperiali, Makino və Çinda isbati-vücud [iştirak] etmişlərdi. Osmanlı murəxxəsləri üç nəfərdən ibarət idi: Sədrəzəm [Baş nazir] Damad Fərid paşa, Tofiq bəy və Rza Tofiq bəylər idi. Bunları bir italyan, bir ingilis afiseri müşayiət edirdi. Bunlar Vilyam Martin tərəfindən qəbul edilib, sonra orada olan məmur tərəfindən Konfransa aparılıb, məmur "Həzərat, Osmanlı murəxxəsləri" deyə dakladda bulunmuşdur.

Klemanso müxtəsər bir nitq ilə bunları təbrik eyləmişdir. Sonra Damad Fərid paşa fransız lisanında yazılmış olan uzun bir müxtirəni qayət nəvazişkaranə bir surətdə oxumuş. Həman müxtirədə denilir ki, əsas etibarilə müharibə cinayətli bir şey idi, fəqət bu müharibənin başlanmasında türk milləti qəbahətli deyildir. Türkiyə əvvəllərdə müharibə elan etməyirdi. Fəqət Almaniya ilə gizli surətdə bağlanan müahidənaməni [sazişi] qövldən feilə [sözdən işə] çıxarmaq üçün hərbə sövq edilmişdi. O ki qaldı müharibə zamanında türklərin qaba hərəkətdə bulunmasına, Sədrəzəm bunu etiraf eyləmişdir. Fəqət bu məsuliyyəti "İttihad-Tərəqqi" firqəsi öhdəsinə buraxmışdır. Hər halda, dini nöqteyi-nəzərlə qabalıq göstərilməmişdir. Zira xristianlarla bərabər müsəlmanlar da xəsarətdidə olmuşlardır.

Sədrəzəm demişdir ki, müharibənin məsuliyyəti tamamilə "İttihad-Tərəqqi" firqəsinə düşür. Hər bir cəzanı da onlar görməlidir. Damad Fərid paşa Türkiyə ilə Rusiyanı müqayisə edərək demişdir ki, Rusiyanı bolşeviklər Müttəfiqlər əleyhinə qalxızdığı kimi, Türkiyəni də "İttihad-Tərəqqi" Müttəfiqlər əleyhinə qalxızmışdır. Müttəfiqlər xalis ruslara müavinət etdikləri kimi türklərin də o hissəsinə eyni surətlə kömək etməlidir ki, onlar vətənlərini Gənc türklərdən xilas etmək istəyirlər.

Böyləliklə, Sədrəzəm paşa ümid edir ki, Müttəfiqlər Türkiyənin tamamiyyəti-mülkiyyəsini [torpaq bütünlüyünü] saxlayacaqlardır.

Sədrəzəm nitqini qurtararkən bəzi kinayəli sözlər demişdir. Asiya və Afrikada olan 300 milyon müsəlmanların xilafət hesab etdiyi və dünya səhnəsində böyük rollar oynamış olan Türkiyəni sıxışdırmaq olmaz.

Damad Fərid paşa nitqini irad edərək [söyləyərək], yuxarıdakı bəyanatı havi olan [ehtiva edən] müxtirəni Klemansoya vermişdir. Sonra murəxxəslər qonşuluqda olan odaya getmişlər. Şura dəxi Türkiyə məsələsini müzakirəyə qoymuşdur ki, yarım saatdan sonra Klemanso Türkiyə murəxxəslərini dəvət edib demişdir ki, Şura bu məsələni müzakirə etdi. Fəqət şənbədən tez olaraq cavab verəmməyəcəkdir. Sədrəzəm cavabında demişdir ki, cüməyədək Onlar Şurasına yeni bir ərzihal vərəqəsi verəcəkdir.

Bu əhvaldan sonra iclas qapanıb, murəxxəslər Şura üzvləri ilə vidalaşıb, özlərinə məxsus edilən hotelə əzimət etmişlərdir [yola düşmüşlər].





## QƏZETƏLƏRDƏN

**Cəbhədə**

Moskvadan xəbər verirlər ki, bolşeviklər Novı Oskolu və Çarevi tərk etmişlərdir. Bolşeviklər Yekaterinburqun 150 verstliyindədirlər.

**Odessanın alınması ətrafında**

Ataman Qriqoryev Dnestrdə bolşeviklərlə mübarizə edən Romaniya əsgərlərinə Odessadan bir teleqraf göndərmişdir. Teleqrafda xəbər verir ki, qanlı və inadlı müharibədən sonra onun əsgərləri Odessanı almağa müvəffəq olmuşdur. Əhali, adəti üzrə, onları şadlıqla qarşılamışdır. Rakovskinin dəstələri nizamsız bir surətdə qaçmışdır. Hərgah Müttəfiqlər Dnestrdə hücumu davam etdirsələr, Qriqoryev ümidvardır ki, bir neçə gündən sonra onlarla birləşsin.

**Sosialistlər bolşeviklər haqqında**

İyulun 11-də Nauendən xəbər verirlər ki, Parisdə Fransa-İtaliya Sosialist Konfransı iclasları davam edir. Konfrans[ın] qəbul etdiyi qətnamədə bolşeviklərlə mübarizənin qət olunması [dayandırılması] tələb edilir.

**Katolik mərkəzi hökuməti**

Fransa mətbuatının aldığı xəbərə görə, Bavariya Mərkəzi Firqəsi Yevropa mərkəzində alman katolik hökuməti vücuda gətirmək qəsdi ilə Avstriya Tirol ilə birləşmək iqdamatına [təşəbbüsünə] girişmişdir.

**Aşqabadın süqutu ətrafında**

"Zarya" qəzetəsi Aşqabad süqutu barəsində zeyldəki [aşağıdakı] məlumatı verir:

Şura qoşunları tərəfindən Qəhqə mövqifi [stansiyası] alındıqdan sonra Qəhqəni əhatə edərək bolşeviklər zeyldəki şeyləri qənimət almışlardır: 12 parovoz, 9 qatar, 1 zirehli qatar, müxtəlif sistemdə 56 top. Bundan əlavə, dabravollardan 1500 nəfər də əsir alınmışdır. Ümum əsirlərin miqdarı 3 min nəfərdir. Dabravollar qayət həyəcan içində ricət etmişlərdir [geri çəkilmişlər]. Qoşunların və ştabın bir hissəsi əsir düşəcəklərindən ehtiyat edərək Aşqabad yanına piyada gəlmişlərdir. Yolda afiserlər çinlərini və başqa afiserlik əlamətlərini çıxarıb atmışlardır. Aşqabad da Qəhqə süqutundan sonra beş gün qalmışdır. Qayət əcələ ilə şəhərdən ləvazimi-hərbiyyəni çıxardırmışlar. Bir çox şeyləri şəhərdə buraxmışlar. Bu şeylər yeganə olan bir qatar ilə aparılmış. Həbsxanada olan siyasi məhbuslardan 35 nəfəri atıb həbsxananı qan hamamına döndərmişlərdir. Bu əhval fərarilərin yanında əmələ gəlmişdir.

Hal-hazırda dabravollar Qızıl-Arvadı da tərk eyləmişdir. Səlaməti-ümumiyyə Komitəsi dabravollardan daha əvvəl qaçmışdır. İyul ayının 4-də Aşqabad alındıqdan sonra orada məhəlli [yerli] qüvvələrdən Şura hökuməti təşkil edilmişdir.

Oradan gələnlərin rəvayətinə görə, Türküstanda artıq dabravol cəbhəsi yoxdur. O ki qaldı ingilislərə, onlar Tazəşəhərdə çox azdırlar. Ona görə də hadisatın gedişini, hər halda, saxlaya bilməzlər.

Fərarilərin sözlərinə nəzərən, Şura qoşunları arasında sartlar və qırğızlar vardır. Şura qoşunları işğal etdikləri yerlərdə mükəmməl qanun qoyub, fərarilərin otaqla-

rı möhürlənib, qarət edən bolşeviklər atılmaqla edam edilirlər.

### DAĞISTANDA

**Dağıstan şeyxülislamının Dabravol ordusu baş nümayəndəsinə ərzi-hal[ı]**

Mən Dağıstan şeyxülislamı Əli Hacı Akuşinski xalqı Allahın yolu ilə məhəbbət, mehribanlıq və sülhə aparmaq üçün həyatımı verib, bütün Dağıstan xalqı tərəfindən Dağıstanda olan Dabravol ordusu nümayəndəsinə işbu zeyldəki [aşağıdakı] bəyanat ilə müraciət edirəm.

Dabravol ordusu komandanlığı və dəstələri tərəfindən Dağıstan dairəsində vücuda gətirilən işlər, məsələn, general Lyaxovun Dağıstan əhalisindən 8 batalyon piyada və iki alay süvari tələb etməsi, Dabravol ordusu dəstələrinin Dağıstan torpağına soxulub və İngiltərə Hökumətinin Zaqafqaziyada olan İngiltərə qüvvələri Baş komandanına verdiyi xəbərə müvafiq Qafqaziya cümhuriyyətləri arasında təyin edilən xətti-hüdudu [sərhədi] keçib Teymurxanşuranı və Dərbəndi zəbt etməsi, Dağıstan dairəsində əsgəri və mülki ixtiyarı əlinə alması, 99 faiz zəhmətkeş əhaliyə nisbətən zabit və bəy sinifini aşkara və qismən müdafiə etməsi, başqa yerlərdə çap edilmiş, o cümlədən Dabravol ordusu tərəfindən Tersk oblastında ləğv edilən Türküstan və Tersk bolşevik pullarının güclə Dağıstanda sərf edilməsi, dinc kəndlərin cəza dəstələri gücü ilə tərk-silah etdirilib qaramal, buğda, pul və qeyri şeylərlə xərc alınması, şəhərlərdə və şəhərətrafında müsəlləh [silahlı] kazakların qarət qəsdi ilə dinc əhali üzərinə hücum etmələri, balıq vətəgələri fəhlələrinin və dəmiryol boyunda kəndlilərin təhdid edilməsi və bir çox başqa hərəkətlər aşkara surətdə Dağıstan xalqının hüququna təcavüzdən və onun müqəddəs şəriətini xələldar etməkdən ibarətdir ki, bu da müttəhidül-qəlb [könül birliyi ilə] onu narazı edir. Dabravol ordusunun bu cür hərəkətlərinə artıq təhəmmül etmək [dözmək] olmaz. Bu cür hərəkətlər əski üsuli-idarədə rus ordusu tərəfindən baş verməyirdi.

Dağıstan əhalisi Dabravol ordusu hissələrini öz torpağına dəvət etməmişdir. Dağıstan xalqı dabravolların Dağıstana soxulmaq və yuxarıdakı hərəkətlərdə bulunmalarına yol verməmişdir. Dağıstan camaatı Dabravol ordusunun hərəkətini nəinki haqlı görür, bəlkə, Dabravol ordusu dəstələri tərəfindən onun hüququna və onun üçün müqəddəs olan şəriətə təcavüz edilməsinə bir təqsir belə tapmayır. Fəhlə və əkinçilərdən ibarət bütün Dağıstan zəhmətkeş ünsürü iqtisadca Rusiyaya bağlı olduğundan, heç vaxt Rusiya hökuməti əleyhinə cəbhə açmamışdır. İşıqlı inqilab günlərindən sonra Dağıstan öz zəhmətkeş xalqı mənafeyinə müvafiq tərzi-idarə hazırlamaq üçün var qüvvəsini sərf etmişdir. Dağıstan inqilab cərəyanının doğurmuş olduğu üsuli-idarə altında öz həyatı ilə yaşamaq istəyir. Həmin üsuli-idarənin təyini məsələsində Dağıstan Rusiyanın başqa millətləri ilə bir yerdə iştirak etməyə haqlıdır. Buna görə Dağıstan xalqı ümumi üsuli-idarə məsələsində Dabravol ordu[su]nun Dağıstana öz xahişini [öz arzusunu] təlqin etməsini əsla haqlı görməyib, üsuli-idarənin təyini[ni] yalnız bütün Rusiya millətlərinin azad xahişlərindən asılı əדd [hesab] edir.

Dabravol ordusunun Dağıstana nisbət məsələsini və siyasəti başqa cür qoyması Dağıstan xalqını kazakların hərəkətlərində Dağıstan üzərində hakim olmaq arzusunda olmalarını görməyə məcbur edir ki, bu da indiyə qədər mehriban qonşuluq ilə yaşayan millətlər arasında ancaq milli müharibəyə bais olar. Hərgah Dabravol ordusu özünü ümumi üsuli-idarə vücuda gətirmək üçün mübarizə edən qüvvətlərdən biri ədd edirsə, gərək o yerdə mübarizə etsin ki, orada ona zidd bir qüvvə hərəkət edir. Rusiyada ümumhökumət üsuli-idarəsi bərpa edilənə qədər Dağıstan öz ənənatına [ənənələrinə] və müqəddəs şəriətinə müvafiq özünü və öz işlərini idarə etməkdə özünü haqlı görür. Dağıstan xalqı məsuliyyətsiz və düşmən adamlar tərəfindən onun adına buraxılan menşeviklik, bolşeviklik və qeyri bu kimi töhmətlərə cavab verməyi öz vəzifəsi əדd etməyir. Dağıstan camaatı Rusiya millətlərinin ümumi arzusu həll edilənə qədər istər daxildən, istər xaricdən onun hüququna bərəks [zidd] olan əqdlərə səbir etmək niyyətində deyildir.

Yuxarıda göstərilənlərə görə mən Dağıstan şeyxülislamı Əli Hacı Akuşinski Şeyx Uzun Hacı və başqa möhtərəm alimlərlə bərabər bütün Dağıstan xalqı ilə müttəhidən xalq namından Dabravol ordusu nümayəndəsindən təkidanə surətdə tələb edirəm ki:

1) Teymurxanşura və Dərbənd şəhərləri Dabravol ordusu hissələrindən təmizlənib, bu dəstələr İngiltərə Hökumətinin təyin etdiyi Dağıstan xətti-hüduduna aparılsın.

2) Dağıstanın daxili işlərinə qarışılmayıb, Dağıstan xalqı kazakların və Rusiyada olan başqa millətlərin istiqlaliyyətini etiraf etdiyi kimi, Dağıstan xalqının özünü idarə etməyə ixtiyarı olduğu aşkara surətdə elan edilsin.

3) Dağıstan hakimi təyin edilməsi haqqındakı əmr ləğv edilib, həmçinin Dağıstan üzərinə hakimi-mütləq olan zabit və bəy sinifinə müavinət göstərilməkdən imtina edilsin.

4) Hərgah Dağıstan xalqının yuxarıda göstərilən maddələrdəki şəraiti Dabravol ordusu komandanlığı tərəfindən qəbul edilə, mən Dağıstan şeyxülislamı Dağıstan əleyhinə heç bir düşmənanə hərəkatda bulunmamağa söz verirəm. Əks surətdə mən, həmçinin Dağıstan camaatı vaqe ola-caq nəticələrin bütün məsuliyyətini Dabravol ordusu öhdəsinə buraxıb azad hərəkatda bulunacağız.

5) Mənim bu bəyanatımın təhriri [yazılı] cavabını sizə vüsul ediləndən [çatdırılandan] 24 saatın müddətinə qədər nümayəndəmə verilməsini xahiş edirəm.

*(İmza)*

### VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Daxiliyyə nazirinin Balaxanı-Sabunçu polismeysterliyi cənbindəki [nəzdindəki] polis məxaricatı vergisi üçün 436.828 manat 26 qəpik təxsis [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

20 milyonluq fonddan Daxiliyyə Nəzarətinə fövqəlzikr məxaricatdan [yuxarıda

deyilən xərclərdən] ötrü istənilən məbləğ buraxılsın.

- Ədliyyə nazirinin ticarət və iş idarələri vəkalətnamələrinin vaxtlarının uzadılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ədliyyə naziri tərəfindən təqdim edilən vəkalətnamələr vaxtının uzadılması haqqındakı qanun layihəsi 3-cü maddəsində denilən 6 aydan bir sənəyədək artırılmasının dəyişməsi ilə təsviblə [bəyənilməklə], təsdiqdən ötrü təcili surətdə Məclisi-Məbusana idxalı tapşırılsın.

- Ədliyyə nazirinin Gəncə nahiyə məhkəməsi dəftərxanası məxaricatı üçün 25 min rublə təxsis haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan həman məbləğ buraxılsın.

- Ədliyyə nazirinin Gəncə nahiyə məhkəməsi[nə] işıq və yanacaqdan ötrü 15 min manat təxsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən məbləğ 20 milyonluq fonddan verilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Hökumət qərardadına məbni [əsasən], Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti cənbində [Sosial Təminat Nazirliyi nəzdində] Şamaxı şəhərini yenidən təmir məsaili ilə iş[ti]ğal edəcək [yenidən bərpa məsələləri ilə məşğul olacaq] beynəl-idarə [idarələr arası] bir komisyon təşəkkül tapmışdır. Komisyonun müşavirəsi nəticəsində işbu qərara gəlinmişdir:

Şamaxı şəhəri köhnə şəhərin yuxarı hissəsində təmir ediləcəkdir. Zira buranın əsası möhkəm olduğu kimi, düzgün olduğundan dolayı zəlzələ hərəkatına müqavimət göstərə biləcəkdir. Digər cəhətdən şəhərin yuxarı hissəsinin əhvali-fəsliyyəsi [iqlimi] də həyatdan ötrü qayət müvafiq görülür.

- Ermənistan hökuməti nəzdindəki Azərbaycan siyasi nümayəndəsi [Məhəmməd] xan Təkinski cənabları teleqrafən Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] məlum etmişdir ki, müsəlman Milli Şurasının parası bitdiyindən, qaçqın müsəlmanlar bilmərrə müavinətsiz qalmışdırlar. Həman Şura üçün para təxsisindən [ayrılmasından] ötrü Ümuri-Xeyriyyə və Nafiə naziri Vükəla Şurası indində [nəzdində] iqdamatda [təşəbbüsdə] bulunmuşdur.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Bakı qradonaçalnikinə müraciətən məlum etmişdir ki, onun tərəfindən Tazəşəhərdən qaçqınlara verilmiş üç gün vaxt az olduğundan onlar lazımi sənədlər ala bilməyirlər. Binaənileyh [ona görə], vaxt bir qədər uzadılmalıdır. Qazax qəzasına gəlmiş qaçqın dəstələrinin çoxalmasından dolayı Ümuri-Xeyriyyə və Nafiə naziri Gəncə nahiyə müfəttişinə təcili surətdə Qazaxa azim olmaq [getmək] üçün düsturül-əməl [təlimat] vermişdir. Müfəttiş məhəllində [yerində] qaçqınların əhvalı ilə tanış olmaqla bərabər, Qaçqınlar Komitəsi fəaliyyəti təcdidinə [bərpasına] çalışacaqdır.

- Bələdiyyə İdarəsinin Tibbiyyə və Səhiyyə şöbəsi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] məlum etmişdir ki, çörəkçi dükanları son vaxt hifzüs-sihhəyə mügayir [gigiyenaya zidd] bir şərait altında saxlanmaqdadırlar. Bunun önünü almaq üçün Məsai Nəzarətinin iqdamatda bulunması rica edilmişdir.

- Gəmi inşaatı zavodu xidmətçilərinin xidmətlərindən əzl [kənar] ediləcəkləri haqqındakı təliqəni [rəsmi məktubu] Məsai Nəzarəti Baş müfəttişə irsalən [göndərərək], məsələnin təhqiqini tapşırmışdı. Müfəttiş Nəzarətə müraciətən məlum etmişdir ki, əzl məsələsi adi yay məsələlərindən biridir. Zira gəmi təmiratı azaldığı üçün fəhlələrin də çoxluğu hiss edilmişdir. Fəhlələr müştərək müqavilənamə [kollektiv müqavilə] üzrə 24 olmaq üzrə xidmətlərindən əzl edilmişlərdir.

## XARİCİ SİYASƏTİMİZ

### - 10 - Denikin qorxusu

Kerenskinin mücərrəd nəzəriyyələri əməli bir nəticə vermədikdən sonra, rus xalqına bağlanan ümidlərin boşa çıxmağı rus məmləkətçiləri fikrində təğyirlər [dəyişikliklər] doğurdu. Rus fəhlələri yəqin etdilər ki, sırf rus qüvvələri ilə Rusiyanı ehya etmək [diriltmək] olmayacaq. Donda general Kaledin[in] başçılığı ilə olan müzakirələrdə bu yerə gəldilər ki, Rusiyanı köhnə şəklinə salmaq üçün Rusiyada sakin başqa millətlərdən istifadə etməlidir. Bu millətlər arasında sadiq və cəsurluğu ilə məlum Rusiya müsəlmanları da nəzərləri cəlb eyləyirdi.

Milli bölüklər, sonra qolordu [korpus] və ordular vücuda gəlməsinə meydan verildi. Romaniya sərhədində "Birinci Müsəlman ordusu" ünvanında qüvvələr toplandı. Birinci Müsəlman ordusunun Ukrayna Hökuməti nəzdindəki komissarı miralay [polkovnik] Tuqan-Baranovski ilə olan müsahibəmdə anladım ki, Don fəalları "Müsəlman ordusu"na böyük ümidlər bağlayırlar.

Aşıb-daşmış inqilab bütün qüvvələrə zərbə vuran kimi, müsəlman korpusuna da sirayət etdi. Əsgərlər qaçıb dağılmağa başladılar. "Kiyev Müsavat Komitəsi" kimi bəzi müsəlman təşkilatı da açıq-açığına korpusun əleyhinə propaqanda yapmağa qalxışdı. Böylə hərəkətlər korpusun qüvvəsini daha da qırdı. Lakin Rusiya ehyaçıları [bərpaçıları] "Müsəlman korpusu"ndan ümidlərini kəsmədilər. Bu halda korpus yalnız 5-6 yüz zabitdən (bunlardan təqribən 20-si müsəlman idi) və külli ləvazimati-əsgəriyyədən ibarət idi. Fikir bu idi ki, zabitlər və ləvazimat ilə Krıma gəlib müsəlmanları əsgər çağırıb Qafqaza yerisinlər və müsəlmanlardan ibarət sadiq və bolşeviklikdən uzaq bir qüvvə ilə Rusiya ehyasına çalışılsın. Lakin iş başqa cür oldu.

Müsəlmanlar gözlənilən kimi kor və avam deyil imişlər. Kiyev Müsavatının fikrinə krımlı qardaşlarımız da şərik olaraq "Müsəlman korpusu"nun yalnız rusluğa xidmət edəcəyini bilib ona şiddətli müqavimət etməyə başladılar. Axırda korpus başında duranlar Denikini Krıma dəvət edərək korpusun iki-üç yüz qalan müsəlman əsgərini də ona təqdim etdilər. Böylədə, müsəlmanlığa hazırlayan korpus öldürüldü, lakin Kaledin[in] planı ölmədi. Müsəlman sadiq və avamlığından istifadə etmək istənildi.

Altı ay əvvəl Denikin Krımda kadetlər hökuməti vasitəsilə səfərbərlik elan etdi,

lakin bir nəticə hasil olmadı. Bircə müsəlman da əsgərliyə gəlmədi. Yalnız Krım mirzalarının (tatar əsilzadələri) bəzisi köhnə imtiyazlarını ehya etmək üçün Denikinə qoşuldu. Axırda bolşeviklik Krımda həm Denikini, həm də mirzaları yuyub götürdü.

Genə fikir ölmədi. Bu dəfə "Don" gözünü Qafqaza dikdi. Beş ay əvvəl Yekaterinodar şəhərində miralay [polkovnik] Belikov əhəmiyyətli məruzədə bulundu. Belikov isbat etmək istədi ki, Moskovu alıb Rusiyanı ehya etmək üçün əvvəlcə Qafqazı almalıdır. Belikovun nəzərincə Bakının nefti, Kuban və Stavropolun çörəyi, Xəzər dənizinin balığı rus qüvvələrinə Moskovu almaq üçün bir üssül-hərəkə [baza] təşkil edə bilər. Belikov fikri bir addan ibarət deyil, Denikin ordusunda bir axındır. Bir çoxları bunun tərəfdarıdır ki, Moskovu bolşeviklikdən qurtarmaq üçün Qafqazın bütün qüvvələrini sərf etməlidir. Bu fikrin nə dərəcə qüvvətli olması gözümüz önündədir. Şimali Qafqaz Dağıstan ilə bərabər bu gün "istifadə" olunur. Uşaqdan-böyüyə əsgərliyə çağırı[lı]b bolşeviklərə qarşı göndərilir.

Xülasə, avam dili ilə danışaraq deyə bilərik ki, köhnə Rusiya üçün qaynayan bir qazanın altına bizi odun əvəzinə atmaq istəyirlər. Məsələ aydındır. Denikinə odun lazımdır ki, Rusiya qazanını qaynatsın, başımıza bəla etsin. Deməli, bizim yağımızla bizi qovurmaq istəyirlər. Bunu cəmi müsəlman bu gün anlayıbdır. Odur ki, Krım müsəlmanları Denikinə əsgər vermədilər. Və bu səbəbdəndir ki, inquş qardaşlarımız əllərində silah olaraq ölmək istəyirlər, namuslarını satmaq istəməyirlər.

Hökumətimizin ciddi tədbirləri Denikin qorxusunu vətənimizdən uzaqlaşdırır. Bu yolda xalqımızın geniş dairəsi hökumətimizə kömək etməlidir. Xalq anlamalıdır ki, Denikin gəlsə, vətənimiz alt-üst olacaqdır. Əvvəla, daxildə zidd qüvvələr bizə qarşı çıxacaq, ikinci, bolşeviklik meydan alacaqdır. Təcrübə göstərdi ki, Denikin ayağını basan yerlər bolşevik olur. Çünki "dükan yanarsa, siçan da yanar" fəhvasınca [mənasına uyğun olaraq], Denikin siçanlarını öldürmək məqsədilə bütün dükanı yaxmaq lazım gəlir. Bu müsibətlər vətənimizə üz verməmək üçün Denikinin qara qüvvəsi ilə həmişə mübarizəyə hazır olmalıdır.

*Yusif Vəzirov*

## NAXÇIVAN-ŞƏRUR MƏSƏLƏSİ

**- 1 -**

Tədarüksüz azəri türklərini xunxar [qaniçən] canavarların pənceyi-zülmündən qurtarmağa gəlmiş Osmanlı türkləri, işğali-əsgəriyyələrinin [hərbi işğallarının] nəticəsində Qafqaziyada Dağıstan, Azərbaycan, Araz Türk cümhuriyyətlərini təsis etdikləri kimi, İrəvan tərəflərində də Erməni Hökumətini təşkil etdilər.

Hələ Osmanlı əsgərləri İrəvan tərəflərinə ayaq basmadan əvvəl ermənilər rus-Osmanlı cəbhəsini saxlayacağız deməklə rus komandanlarını, generallarını, Qafqaz Seymini, gürcü-müsəlman qonşu millətləri və nümayəndələrini aldatdılar. Və bu aldatmaq vəsiləsi [vasitəsi] ilə cəbhədəki rus dava ləvazimatını taladılar. Sonra cəbhəni saxlayacaqları yerinə, taladıqları silahları götürüb içlərində sakit yaşamaqda olan müsəlman kəndçilərini, əkinçilərini qırıb dağıtmağa başladılar. Cəbhəni saxlaya biləcək qədər qüvvətli müntəzəm erməni qoşunlarının qabağında fikirsiz, tədarüksüz müsəlman kəndçi və əkinçiləri yataq-yurdlarını, kənd və əkinlərini buraxıb qoyun sürüləri kimi dağlara, dərələrə, meşələrə qaçmaqda idilər.

O biri tərəfdən də İran cəbhəsində Osmanlı əsgərləri qabağında tikiş tutdurammayıb Qafqaza doğru geri daban basan general Andranik bəqiyyətüs-seyf [qılınc artığı, öldürülməkdən qurtulan] "igid"ləri ilə Naxçıvan, Ordubad tərəfi ilə Qarabağa, daha doğrusu, Osmanlı əsgərlərinin qorxusundan Zəngəzur dağlarına qaçmaq istəmiş, fəqət tədbirli Andranik qorxusundan qaçdığını müsəlmanlara sızdırmamaq üçün Naxçıvan və ətrafı müsəlmanlarına silahlarını tərk edib kəndisinə təslim olmalarını və keçib getmək üçün əsgərlərinə yol verilməsini əmr etmiş, yerli müsəlmanlar isə "hər zaman xain" ermənilərə, bilxassə insan qatili olan Andranik kimilərə təslim olmaqdansa, şərəflə ölməyi xoş görmüşlər, Andranikin əmrinə tabe olmayıb kəndilərini müdafiəyə qalxmışlardır.

Nəticədə Andranikin top-pulemyotları ilə müdafiəsiz bir çox müsəlman kəndləri və əkinçi daxmaları dağılıb, əhalisi qırılmışdır. Yaycı kimi bir neçə müsəlman kəndlərini[n] gəlin-qızları, uşaqları da özlərini Araz çayına atıb can verməklə erməni zülümündən qurtarmışlardır. Böyləliklə, ermənilərin müsəlman üstünə təcavüz və zülümkarlıqları davam etmiş, nəticədə isə 300-dən artıq müsəlman kəndləri dağıdılmış, yüz minlərcə müsəlman kəndçi və əkinçiləri qırılıb pərişan edilməkdə idi.

Ermənilər ta qədimdən bəri tarixlərin göstərməsi ilə bəslənmiş olduqları alçaq təbiətləri ilə vücuda gətirdikləri nifrətli, vəhşi kinlərini bütün qüvvətləri ilə aralarında yaşayan müsəlmanların üstünə tökmüşlər və bu vəsilə ilə aralarındakı müsəlmanları məhv etməyə əzm etmişlərdir.

Osmanlı türkləri İran cəbhəsindən İrəvan quberniyasına ayaq basdıqları dəmdə ora müsəlmanlarının tale ulduzu erməni xunxarlarının payi-zülmü [zülümkar ayağı] altında sönməkdə idi.

Binaənileyh [ona görə], Osmanlı əsgərləri İrəvan torpağına üç gün daha gec gəlmiş olsaydılar, ora müsəlmanlarından indi ancaq muzeylərdə nümunə tapılmış olacaqdı.

* * *

Bu əsnalarda idi ki, Osmanlı əsgərləri İrəvan quberniyasına daxil oldular. Erməni təcavüz və xunxarlıqlarının qabağını dayandırdılar. Yerli türk müsəlmanları fəlakətdən, məhv olmaqdan qurtardılar.

Osmanlı türkləri Qafqaziyaya gəlməklə Qafqaziyada hərc-mərcliyin önünü aldılar, asayiş bərpa və xırda millətlərə istiqlallar bəxş etdilər. Dağıstan, Azərbaycan, Ararat, Araz namlarında Qafqaz cümhuriyyətləri təsis və təşkil etdirdilər. Osmanlılar vasitəsilə təşkil edilən bu hökumətlərdən Ararat Erməni Cümhuriyyəti ilə Araz Türk Cümhuriyyəti İrəvan quberniyasında təşəkkül etmişdilər.

Ararat Erməni Cümhuriyyəti İrəvan şəhəri paytaxt olmaq üzrə demək ola bilər ki, İrəvan quberniyasının Gümrü, Göyçə və Üçkilsə uyezdlərinin tamamına və

İrəvan, Dərə Alagöz [Dərələyəz] uyezdlərinin yarısına malik idi. Araz Türk Cümhuriyyəti isə paytaxt müvəqqətən Qəmərli qəsəbəsi olmaq üzrə məmləkət əhalisinin yüzdə 90 faizi türk-müsəlman olaraq İrəvan uyezdinin yarısına, Şərur uyezdi hissəsinə, Sürməli, Naxçıvan uyezdləri tamamına əlaqədar idi.

İrəvan quberniyasının Ordubad uyezdi isə o zamandan Azərbaycan hüdudu içində olub, Azərbaycan məmləkətinə daxil idi.

* * *

Osmanlılar Qafqaziyadan çəkilməyə məcbur edildikdən sonra Ararat Cümhuriyyəti hazır qoşunları ilə Osmanlı-rus cəbhəsindən malik olmuş əsləhələri [silahları] ilə ilk dəfə əllərini qonşusu Araz Cümhuriyyətinin qanı ilə boyadı. Kəndini müdafiəyə hələ qüvvət bulammayan Araz Türk Cümhuriyyəti Erməni Cümhuriyyətinin bu qəsbkaranə təcavüzünə tabavər olammayıb [tab gətirə bilməyib] məmləkətinin içərilərinə çəkildi. Bu hal Araz Hökumətinin əhali arasında nüfuzdan düşməsinə səbəb oldu.

Araz Cümhuriyyəti Erməni Hökumətinin təcavüzünü və kəndisinin qüvvəsizliyini dərk edib, o əsnalarda idi ki, kəndi tərəfindən məhəlli [yerli] fəal gənclərdən Paşa Bayramov nam [adlı] bir zatı deleqat olaraq Azərbaycan Hökuməti yanına göndərdi, müavinətlər tələbində bulundu.

Erməni Cümhuriyyəti kəndisinə yaxın olan müsəlman yerlərini də bəzi müsəlman xain, yaxud təcrübəsizlərinin əli ilə öz hökmranlığı altına almağa başladı. Məsələn, İrəvan uyezdinin Zəngibasar mahalını İrəvan xanzadələrindən Əli xan Makinskinin vasitəsilə təhti-tabeiyyətinə [tabeçiliyi altına] keçirdi. Əli xan Makinski indi də İrəvanda Azərbaycan siyasi nümayəndəsi [Məhəmməd] xan Təkinskinin mikrobvari bir həmnişinidir [yoldaşı, həmsöhbətidir].

Erməni Cümhuriyyəti 90 faizi müsəlmanlardan ibarət Sürməli uyezdini də məhəlli [yerli] studentlərdən Məşhədi Rza bəy Topçubaşov vasitəsilə hökmranlığı altına aldı. Məhəlli müsəlmanlar sonra məzkur [adı çəkilən] studentin xəyanətini bildilər. Onu cəzasına yetirib öldürdülər və qəbrini pamal etdilər [tapdaladılar].

Məhəlli müsəlmanları erməni tabeiyyətinə keçirmək xəyanətində müttəhim olanlardan birisi də İrəvan cavanlarından Əbuş bəy Mirzəbağırbəyov idi ki, Naxçıvanda müsəlmanlar tərəfindən fəci bir surətdə öldürüldü.

* * *

Ararat Cümhuriyyəti bununla kifayətlənməyib, Araz Türk Cümhuriyyətinin Vedibasar, Şərur, Naxçıvan uyezdləri kimi qalan müsəlman hissələrini də təcavüzlə qəsb və zəbt etməyə başladı. Bu məqsədlə erməni müntəzəm qoşunları top və pulemyotlarla Vedi və Şərur müsəlman kəndlilərinə hücum etdilər. Vedi kəndliləri ermənilərin hücumuna qarşı kəndilərini inadlı surətdə müdafiə etdilər.

Erməni hücumlarının dəhşət və fəlakətini gördükləri üçün Şərurdan bəzi varlılar, qorxaqlar, Naxçıvandan xanlar, bəylər, bəzi mollalar, hacılar yığışıb İrana qaçdılar. Əhalinin əksəri İrana köçməyə hazırlandı. Erməni hücumlarının qabağında Vedi müsəlmanlarının qeyrətli müdafiələrini görməklə, Şərur müsəlmanları da köməyə gedib xətti-müdafiəni qüvvətləndirdilər.





Bu əsnada idi ki, Naxçıvanın cavan xanzadələrindən Kəlbəli xan Naxçıvanski əhalinin qaçmasını və atası Cəfərqulu xanın İrana köçməyə hazırlanmasını görüb mütəəssir oldu və təsirindən atasını şiddətli bir surətdə bihörmət edib köçməkdən daşındırdı.

Kəlbəli xan Naxçıvan əhalisini köçməkdən saxladıqdan sonra, Naxçıvan əsgərlərini götürüb, məhəlli qeyrətli komandalarını da yanına alıb erməni əsgərlərinin qarşısına şərurluların, vedililərin köməyinə getdi. Şərurda məhəlli sərkərdələrdən Məşhədi Ələsgər Həmzəyev qeyrətli müdafiəsi ilə erməni hücumlarının qabağını dayandırmışdı.

Kəlbəli xanın Naxçıvandan gətirdiyi əsgəri qüvvə də gəlib Şərur qüvvəsinə mülhəq olduqdan [qoşulduqdan] sonra bu iki qüvvə məşhur "Şərur dəhnəsi" müharibəsində erməni əsgərlərinə şiddətli bir zərbə vurdular. Naxçıvan və Şərurun qeyri-müntəzəm və lakin qeyrətli əsgərləri Kəlbəli xan və Məşhədi Ələsgər kimi qeyrətli komandanlarının cavanmərdanə təşəbbüsləri sayəsində ermənilərin müntəzəm və bol ləvazimatlı əsgərlərini məhv və pərişan etdilər, top-pulemyotlarını şikəst edib kəndilərini qaçırdılar. Bu şikəstlik ermənilərə öylə ağır oturdu ki, erməni əsgərləri bir daha Vedi, Şərur, Naxçıvan tərəflərinə üz döndərməyə cürət edəmməyir.

Bu əsnada ingilislər tərəfindən (Azərbaycan Hökumətinin xahişi ilə) Naxçıvan həvalisi müsəlmanlarının mənafeyini təhti-himayə və nəzarətə [himayə və nəzarət altına] almaq üçün Naxçıvana polkovnik Lautin namında bir ingilis general-qubernator təyin olunub gəldi.

*M. B.*

## GÜRCÜ MƏTBUATI

Ermənistan Hökuməti Zaqafqaziya hökumətlərinin konfransının təzədən çağırılmağı xüsusunda eylədiyi təklif barəsində Gürcü Milli Demokratik firqəsinin qəzetəsi "Ertoba" 135-ci nömrəsində dərc etdirdiyi layiqi-diqqət bir məqaləni bittərcümə [tərcümə edərək] qareini-kirama [möhtərəm oxuculara] təqdim ediriz.

Qəzetə yazır ki:

*"Ermənistanın ayrılması ilə Gürcüstan və Azərbaycan hökumətləri arasında hərbi etilaf [razılıq] hüsula gəldi. Bu etilafın məqsədi şimaldan gələn ümumi təhlükəni rədd və azad olmuş əhalinin siyasi istiqlaliyyətini müdafiə eyləməkdir. Ermənistanın ayrılmağını ermənilərin özləri istədilər. Erməni camaatının pişrovları [liderləri] hətta özlərinə verilmiş möhlətdən də istifadə edib müahidəni [sazişi] imzalamaq və etilafa daxil olmaq istəmədilər. Bununla onlar, general Denikin İngilis Komandanlığının xahişinə müğayir [zidd] gedib Zaqafqaziya cümhuriyyətlərinin üzərinə hücum etdikdə hansı tərəfə mail olacaqlarını aşkar etdilər. Bu cür hərəkatdan sonra erməni hökuməti genə də konfrans iclaslarına təzədən məşğul olmaq dəvətini edir."*

"Borba" qəzetəsi də bu barədə bir məqalə yazıb deyir:

*"Biz ümid edirik təcdid [bərpa] edilmiş konfransda İrəvan nümayəndələri başqa hərəkatda bulunacaqlar. Və arxayın olmaq istəyirik, bu dəfə konfransın iştiğalından [işindən] müəyyən və müfid [faydalı] bir nəticə hasil olacaqdır. Uzun müddət davam edən konfransda Ermənistan nümayəndələri ancaq konfransın iştiğalına*

*[işinə] mane olurdular, böyük məsələlərdə razılığa gəlməyirdilər, razılıq hüsula gətirmək səylərində etina etməyirdilər. Bu təəccüblü rəftarlarına Ermənistan Hökuməti ilə ədəmi-əlaqəni [əlaqə olmamasını] bəhanə gətirirdilər. Aşkardır ki, bu barədə erməni vəkillərinə heç kəs inanmayırdı. Ararat Hökuməti çoxdan bəri ayrılmaq siyasəti aparırdı və işlərin bu cür xitam bulması çoxdan qərara alınmış imiş. Qonşuları ilə razılıq hüsula gətirmək məsələsini Erməni Hökuməti həmişə başından rədd edirdi. Bu gümanla ki, qəvi [güclü] bir xadim ilə arxalanıb qonşuların hesabından özlərinin məxfi arzularına nail olmağa müvəffəq olsunlar.*

*Paris dairələrində ermənilərin oynadıqları rolları onların Müttəfiqlərə necə məlumat verdiklərini kim bilməyir. Böyük Ermənistan təşkili xülyası bütün erməniləri o dərəcədə işğal edibdir ki, onlar öz hədlərini və ağıllarını bilmərrə itiriblər. Burada qonşularla barışıq vəd edib mübahisəli məsələləri sülhlə qurtarmaq barəsində şirin-şirin söylədilər, Yevropada isə Böyük Ermənistan təsis eyləmək xüsusunda bir-birini mütəaqib [bir-birinin ardınca] münaqişəni mövcib [münaqişəyə bais olan] tələblər edirlər.*

*İkiüzlü siyasət yürüdən, əlbəttə ki, konfransın müvəffəqiyyətsizliyinə gərək çalışsın. [Sirakan] Tiqranyan, [Stepan] Mamikonyanın rəftarı həqiqətdə elə o cür idi ki, Qafqaz Konfransı günlərini bilmərrə səmərəsiz və mənfəətsiz keçirdi.*

*İndi ermənilər konfransın iştiğalını mehmannəvaz [qonaqpərvər] gürcü Daxiliyyə Nəzarətinin imarətində genə təzələmək istəyirlər və bizim sosial demokratlarımız da onlar üçün xoşhallıqla bütün qapıları açırlar, bu ümidlə ki, Daşnaksutyunun agentələri, bəlkə, bu dəfə təzə düsturül-əməllərlə [təlimatnamələrlə] gəlib Gürcüstan və Azərbaycan ilə ümumi bir lisan tapalar.*

*Sosial-demokratların bu ümid və arzularını təqdir edirik, ancaq təzə amillər görmədikcə, Yermolov küçəsində qardaşlığa qəsəm edib, Versalda isə üzərimizə bıçaq itiləyənlərə biz heç vaxt arxayın ola bilmərik."*

## BAKI XƏBƏRLƏRİ

**Müstəhliklər dükanlarında**

Qızıl və gümüş sənətkarlarının "Qənaət" Müstəhliklər Cəmiyyəti əhaliyə məlum edir ki, həmin cəmiyyətin dükanlarında olan ərzağın qiyməti bu cürədir: un (ələnmiş) 190 manat pudu, un kəpəkli 160 manat, kartof girvənkəsi 2 manat 50 qəpik, buz 1 manat, pesok 34 manat, sabun (ağ) 18 manat, sabun (sarı) 14 manat, papiros (vışşı sort) 7 manat. İdarənin telefon nömrəsi: 49-73.

* Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsi Bakı Bələdiyyə İdarəsinə müraciətən, nə üçün bu vaxta kimi şəhərin küçələri əski adda qaldığını sormuşdur və tez zamanda küçələrin adlarını türkləşdirməyi təklif etmişdir.

**İngilislər Qafqaziyada**

Aldığımız məlumata görə, ingilislər hənuz avqust ayının 15-nə kimi Qafqaziyada qalacaqlar.





**Bahalıqla mübarizə**

Hökumət dairələrindən xəbər verirlər ki, Azərbaycan Hökuməti cənbində [nəzdində] olan Mal Mübadiləsi Komisyonu tərəfindən külli miqdarda manufaktur, ayaqqabı və qənd alınmışdır. Bu günlərdə camaat arasında paylanmasına şüru olunacaqdır [başlanacaq].

**Parlaman komisyonunda**

Azərbaycan sərhədində mühafizə dəstəsi təşkili xüsusunda Maliyyə Nəzarətinin qanun layihəsi Maliyyə-Büdcə Komisyonunda qəbul edilib, Parlaman müzakirəsinə təqdim edilmişdir.

**Hərbiyyə Komisyonunda**

Məmuriyyət və sinif nöqteyi-nəzərindən mükəlləfiyyəti-əsgəriyyədən [hərbi mükəlləfiyyətdən] müvəqqəti azad edilməsinin müddət tövsisi [vaxtının uzadılması] haqqında Hərbiyyə nazirinin qanun layihəsi Hərbiyyə Komisyonunda qəbul olunub, Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komisyonunun ikinci dəfə müzakirəsinə təqdim edilmişdir.

**Bələdiyyə İdarəsində**

Bələdiyyə rəisi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən məlum etmişdir ki, bələdiyyə işlərinin işbu sənəki açıqlığını qapamaq üçün hökumətdən 25 milyonluq istiqraz [borc] istəmək məcburiyyəti görünmüşdür. Rəisi-hökumət indindəki işbu iqdamata [təşəbbüsə] Məsai nazirinin müavinətdə bulunmasını rica və təmənna etmişdir.

* Ticarət və Sənaye Nəzarəti Məsai Nəzarətindən rica etmişdir ki, tezliklə müfəttişlik vəzifəsi ilə məsai müfəttişliyi vəzifələri ayrılsınlar. Zira bunların bir vəzifə kimi tələqqi etdirilməsi [qiymətləndirilməsi] qarğaşalıq çıxarmaqdadır.

**Məhəmməd Əmin Əfəndiyev**

Bakıda yaşayan şamaxılılardan bir qismi Şamaxı bələdiyyəsinə yazmış olduqları bir kağızda Salyan edadiyyəsinin müdiri Məhəmməd Əmin Əfəndiyevin Azərbaycan Parlamanı üzvlüyünə namizədliyini qoymağı təklif edirlər.

**Dövləti Bank ətrafında**

Bu günlərdə açılmış Azərbaycan Dövləti Bankı bütün Azərbaycan daxilindəki xüsusi banklara müraciətən xəbər vermişdir ki, Azərbaycanda müamilatda [əməliyyatda] bulunmağın təmini üçün Dövləti Banka rəhn verməlidirlər. Əks surətdə müamilatları qət ediləcəkdir [kəsiləcək].

**Bayram günü haqqında**

Dəmiryolları emalatxanalarının fəhlələri miyanında [arasında] bayram günü haqqında ixtilaf baş vermişdir. Müsəlmanlar cümə gününün, xristianlar isə bazar gününün bayram edilməsi tərəfdarıdırlar. Məsələ müzakirə bə'dində [sonrasında] xüsusi bir komisyona verilməsi qət edilmişdir [qərara alınmışdır].

**Məhkəməyə cəlb**

* Bakı Nahiyə Məhkəməsi müddəiyi-ümumisi [prokuroru] qubernatora məlum etmişdir ki, Bakı 6-cı polis müdiri Misirxanov kəndi xidmətindən sui-istifadə etdiyi üçün qanunun 345 və 354-cü maddələrinə müvafiq təhti-mühakiməyə [müha-

kimə altına] alınıb istintaqa şüru edilmişdir [başlanmışdır].

* Sabiq təhərri [axtarış] polis müdiri müavini Zamanov xidmətindən sui-istifadə etdiyi üçün müddəiyi-ümumi tərəfindən qanunun 377 və 378-ci fəslinə müvafiq təhti-mühakiməyə alınmışdır.

* Balaxanı-Sabunçu müddəi polis müdiri müavini Baxşəliyev xidmətindən sui-istifadə etdiyi üçün müddəiyi-ümumi tərəfindən 354-cü maddəyə görə təhti-mühakiməyə alınmışdır.

*Muğan pristavı Xəlil Xəlilov xidmətindən sui-istifadə etdiyinə görə müddəiyi-ümumi tərəfindən qanunun 348 və 377-ci maddələrinə görə təhti-mühakiməyə alınmışdır.

**Varid olmuş mallar**

Ticarət və Sənaət Nəzarətinin məlumat şöbəsinin xəbərinə görə, iyulun 8-dən 14-nə kimi Bakıya varid [daxil] olub: taxıl 141.608 pud, furaj [yem] 9.072 pud, kartofel 1.036 pud, qənd 1.338 pud, qoyun yunu 1.077 pud, pambıq 2.368 pud, dəmir şeylər 1.527 pud.

**Valyuta**

Valyuta halı çox düşkündür. Türk lirəsi 420 manat, funt 350 manat, çek 300 manat, İtaliya lirəsi 22 manat.

**Aksiya və fond**

Hökumət aksiyaları 4 faiz gedir. Əsgəri istiqraz və xəzinə təminatı 5-10 faiz. Neft aksiyaları pis deyildir.

**Dəmiryolunda**

Azərbaycan Dəmiryol İdarəsinin mühafizə naçalniki [Xanbaba bəy] Sədrəddinbəyov mühafizə məmurlarına əmr edir ki, həbs etdikləri şəxsləri müqəssir də olsalar, incitməsinlər və ümumi vətəndaşlarla gözəl rəftar etsinlər. Bu əmrə tabe olmayanlar şiddətli cəzaya mübtəla olacaqlar.

**Birjada**

Bakı, Tiflis, İrəvan və Batum lajları [pul birjaları] arasında o qədər fərq qalmamışdır. Kerenski minlikləri bu yerlərin hamısında 1450-dən 1500 manata gedir. 250 manatın 4-ü 1200 manata, xırdalar 20 faiz, Nikolay beşyüzlükləri 1750 manata, yüzlüklər 300-dən 320 manata kimi, xırda, demək olar, yoxdur. Olan da 100 faizə gedir. Zaqafqaziya bonları 1 ½ faizə gedir.

## AZƏRBAYCANDA

**Lahıc qəsəbəsi və ətrafı**

Lahıc qəsəbəsi 25 kəndin mərkəzidir. Bu kəndlər iqtisadi və coğrafi cəhətdən yek-digərinə [bir-birinə] bağlıdırlar. Bunlarda 50 mindən ziyadə əhali yaşayırlar. Bu əhalinin 10 mindən ziyadəsi lahıcdır. Şu zavallı köylülərin halları olduqca fənadır. Heç bir yerdən müavinət almayırlar. Yüzlərlə çılpaq, yalavac, ac qoca kişilər, qadınlar və çocuqlar köydən-köyə gedərək müavinət arayırlar. Qalan əhalinin qüvvəsi də tükənib, daha bu fəlakzədələrə müavinət etməyə imkanları yoxdur.

Səhiyyə cəhətinə gəldikdə, heç bir müavinət yoxdur. Bunun nəticəsi olaraq keçən sənə ay yarımın ərzində bu rayonda səpmə yatalaq, “ispanka” və bu kimi müsri [yoluxucu] naxoşluqlardan 15 mindən ziyadə əhali tələf oldu. Tək Lahıcda 4 mindən fəzlə camaat tələf oldu. Burada bir şəxs xəstələnsə, mütləqa dünyadan əl çəkməlidir. Son vaxtlarda genə səpmə yatalaq müşahidə olunur. Hərgah tezliklə müavinət göstərilməsə, bildirki kimi biçarə əhali minlərlə tələf olub gedəcəkdir.

Digər bir mühüm məsələ maarif məsələsidir. Şu 26 köyün əksərində məktəb yoxdur. Olan məktəblər də iki ildir ki, qapanmışdır. Lahıcda iki zükur [oğlanlar] ibtidai məktəb var. Və ancaq bunlar çocuqların ehtiyacını təmin etməyir. Çünki, əvvəla, məktəbin xüsusi evi yoxdur. İkincisi, idarə edilən evlər məktəbə yaramayırlar. Və üçüncüsü, müəllim azlığıdır. Və ona görə yüzlərcə çocuqlar küçələrdə qalıb müzirr [zərərli] təsirat altında yaşayırlar. Əhali o qədər zəngin deyil ki, özləri məktəblər bina edib orada uşaqlara tərbiyə və elm öyrətsinlər. 1902-ci sənədə Lahıcda camaat tərəfindən bina olunmuş məktəb zəlzələdən dağılıb getdi. Sonra da genə təkrar bir məktəb bina etdilər. Bu da 1907 sənədə yanğıya məruz olub dağıldı.

Əlhasil, hər cəhətdən bu 50 mindən ziyadə əhali fəna bir halda yaşayıb imdad gözləyir. Ümid ediriz ki, Azərbaycan hökuməti-aliyyəsi şu bədbəxt köylərin hallarını nəzərə alıb maddi və mənəvi ehtiyaclarını təmin edər. Xüsusən məktəb yoxluğundan küçələrdə veyil və sərgərdan dolanan çocuqları gələcəkdə vətən və millətə xidmət etmək üçün yarar insanlar etmək uğrunda təşəbbüsdə bulunar.

*Tələbə: Y. Lobji*

**Gəncədə quldur dəstəsinin dağıdılması**

Keçən gün Daxiliyyə Nəzarətinə Gəncədən uyezdnı naçalnik [qəza rəisi] [Bəhram bəy] Məlikabbasov teleqraf etmişdir ki, Qədir Mahmudovun quldur dəstəsindən 11 adam tutulub, 7 nəfəri erməni kəndlərində gizlənmişlərdir. Onlar da tutulacaqlardır.

**İtibdir**

Zülfəli Balakişi oğlu Ələkbərovun Sabunçudan aldığı əbədilik pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5441*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Şəhərdə isə asistentka R. Q. Risqind qəbul edir.

*10237*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**Səbrimiz tükənir**

səh. 315. "X.": "Azərbaycan" qəzetində bu imza Xəlil İbrahimə məxsusdur.

**Teleqraf xəbərləri**

səh. 320. "Yekaterinoslav": Ukraynanın Dneprepetrovsk vilayətində indiki Dnepr şəhəri.

**Sülh ətrafında**

səh. 322. "Tofiq bəy": Əhməd Tofiq paşa (Okday) nəzərdə tutulur.

"Gənc türklər" (yaxud "Jön türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat.

**Gürcü mətbuatı**

səh. 332. "Yermolov küçəsi": Tiflisdə, indiki Şio Çitadze küçəsi. Gürcüstan Xarici İşlər Nazirliyi bu küçədə yerləşir.

**Bakı xəbərləri**

səh. 333. "Misirxanov": qəzetdə səhvən "Nəsirxanov" kimi getmişdir; 6-cı sahənin polis müdiri Ağabəy Misirxanov idi.



*“Azərbaycan” qəzetinin 228-ci nömrəsinin 1-ci səhifəsi*





**Cümə, 18 iyul 1919-cu il, nömrə 228**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 19 şəvvalül-mükərrəm sənə 1337. 18 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## KİNOTEATR “RENESSANS”

*Torqovı küçə, nömrə 11*

*2*

Ancaq üç gün daha

İctimai cinayət draması

**Amerikada ehtikarlıq (spekulyatsiya) ilə mübarizə “Qaranlıq dünya”**

6 seriya, 18 dövr, 38 hissəli “Prometey film” cəmiyyəti şəklinin 2-ci seriyası göstəriləcəkdir.

Müstəsna bir şəkildir ki, burada təsirli məzmunu ilə bərabər, dünyada ən gözəl və mükəmməl dəhşətli anlar vardır ki, həmin Amerika şəkli qarşısında cahanın başqa şəkilləri heç misalındadırlar.

Seriyada Lorinqan qardaşlarının “On beşlər klubu”nun təzə üzvlərindən birini məğlub etmələri göstərilir.

*5443*

## OPERETTA

**Hökumət Teatrosunda**

**Axşam tamaşası**

Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının müdiriyyəti

Cümə günü, şəvvalül-mükərrəm ayının 19-da (iyul ayının 18-də 1919-cu ildə) şükuhlu [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Üzeyir bəyin yazmış olduğu məşhur **“Arşın mal alan”** operettası. Dördüncü pərdədə Abbasmirzə Şərifzadə diklamasiya deyəcəkdir. Darablı Rza və Anaplı Əbülhəsən və qeyriləri meyxana oxuyacaqdırlar. Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

## SABUNÇU İSTEHLAK CƏMİYYƏTİ “EL DÜKANI”

Bununla öz üzvlərinə elan edir ki, həmin iyul ayının 18-də cümə günü səhər saat 10-da Sabunçu Ali-ibtidai məktəbi binasında (1-ci polis idarəsi qarşısında) cəmiyyətin ümumi iclası təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) 1917 və 1918[-ci] illərin hesabına baxılıb və təsdiq olunması barəsində;

2) Yeni idarə heyəti seçilməsi barəsində;

3) İclasda qaldırıla biləcək məsələlər.

Qeyd: Hərgah təyin olunan vaxtadək iclasa lazım olan qədər üzv gəlməzsə, saat 11-də hər nə qədər üzv olmuş olsa, iclas qanuni hesab olunacaqdır.

*Heyəti-idarə*

*5440*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

*(keçən nömrədən mabəd)*

**Çubaryan** (Daşnak) - Möhtərəm məbuslar! Dün mən bu məsələnin mövqeyi-müzakirəyə düz vəz edilməmiş [müzakirəyə qoyulmamış] olduğunu qeyd etmişdim ki, bundan dolayı da bəzi əmrlər [işlər] haqqında aramızda ixtilafi-rəy [fikir ayrılığı] hasil olmuşdur. Möhtərəm Rüstəmbəyli Şəfi bəyin nitqinin siyasi qərəz haqqında və Qarabağda və ötəsində bu ya o qrupların siyasi arzu və məqsədlər[i] və həman qrupların icrayi-təsiri ehtimalı və hətta deleqa heyəti əzasından [üzvlərindən] bəzilərinin böylə qərəzdən azad olmaması barəsindəki ikinci qismindən əsla [qətiyyən] bəhs etməyəcəyəm. Məruzə hazırlarkən bu cüzi məsələlər məni maraqlandırmamışdır. Zira mən məsələyə ancaq bir cəhətdən yaxlaşmışam: hadisatın cərəyanını aydınlaşdırmaq və hüquqi-dövlət [dövlət hüququ] nöqteyi-nəzərindən hadisatın nə qədər düz cərəyan etdiyini təyin qılmaq.

İştə, zənnimcə, həpimizin təqib etməli olduğu əsas prinsip budur. Fəqət nə üçün Şəfi bəy bizim təqsirnamə adlandırdığı məruzəmizdən bir çox şeyləri buraxır? Mən heç vaxt təkid etmərəm ki, özünü erməni hökuməti adlandıran Erməni Milli Şurası bulunduğu şərait altında öylə yaxşı nizam və qayda təsis edə biləydi. Bununla böylə, bu gün yenə səmimi surətdə sizə bəyan edirəm ki, Qarabağ məsələsinin siyasi cəhəti məni maraqlandırmayır. Əgər biz bu işi düzgün müzakirə edib müəyyən qərara gəlmək istəyirsək, siyasi cəhəti atmalıyız. Çünki nail olmaq üçün general-qubernatorun var qüvvəsi ilə çalışacağı siyasi məqsəd bir məsələdir, ona ərişmək qəsdi ilə təvəssül olunan [müraciət edilən] çarələr dəxi başqa məsələ. Orada lazım gəldikcə məhəllində [yerində] təvəssül edilmiş çarələrdən birisi – Parlaman və ya hökumət bilmək istərsə – siyasi məqsədə ərişmək uğurundakı tədbir, Parlaman əksəriyyətinin işidir. Fəqət zənnimcə böylə yolla gedən, hər halda yaxşılığa çıxmaz. Burası nə Azərbaycan üçün faydalıdır, nə də yeni təşəkkül etmiş digər dövlətlər üçün.

Mən hadisatı bəyan edərkən buraxmış olduğum xətaya övdət edirəm [qayıdıram]. Sizə baş ağrısı verməmək üçün mən keçən dəfə istəməmişdim və indi də istəməyirəm təqsirnamə adlandırılan məruzəmi oxuyayım. Mən burada danışılanları, xüsusən hadisatın əməli cəhətinə aid nitqləri diqqətlə təqib edirdim. Zira qəti surətdə tədqiq olunmamış dəlillərə isnadla öylə məsuliyyətli nəticələr çıxarmaq – necə ki, burada çıxarıldı – hər halda siyasi kütahbinlik [uzaqgörməzlik] olar və böylə zərbə məqsədə endiriləmməz.

Çox tez-tez Ruben Şahnazaryan adlı bir adamın şəhadətinə isnad edirlər. Mən siyasi düşmənlərimin şəxsiyyətinə ehtiram etməyə adət etmişəm. Binaənileyh [ona görə], istərdim bunca böyük diqqət və əhəmiyyət verilən Şahnazarovun kim olduğunu açam. *(Səslər: Şuşa ermənilərinin nümayəndəsidir!)* Bu şahidin haqqında bunu deyərəm ki, erməni deleqaları Qaybalı kəndi əhvalını ondan soruşduqda cavab verdi ki, mən Qaybalı





kəndi haqqında bir şey bilmirəm. Mənim vəzifəm bu idi ki, general-qubernator Qaybalıdan qaçqınlar gəldiyini xəbər verdikdə, ancaq onları Ermənistana [Şuşanın ermənilər yaşayan hissəsinə] apardım.

Pensilvaniya haqqında, Pensilvaniya nefti barəsində, ingilis siyasəti, Rusiya işləri, Denikin siyasəti, Qarabağın kimə məxsus olacağı və Milli Şura haqqında çox danışdı; anlaşıldı ki, bu, müəyyən ziyalı qrupun siyasətindən *(Səslər: daşnak siyasətindən)* narazı qalan ziyalı agentlərdən birisidir. Orada menşeviklər də vardı, daşnaklar da, kadetlər də. *(Səslər: kadetlər də mi?)* Bəli, kadetlər də! Sonra, bir də o deyirdi ki, bəşəxsən onun zənninə görə, böylə siyasət fəlakətamizdir və qeyri-məmul [arzuolunmaz] nəticələr verər.

Şəhərdə hanki əsgəri qitənin [hərbi hissənin] iştirak etdiyi və hadisatın necə cərəyan etməsi haqqında müsaidənizlə birinci pulemyot bölüyü komandanı rus xidmətində bulunan zabit Aleksey Pavloviç Maksimoviçin şəhadətini ərz edəyim. *(Səslər: Rus xidmətində!)* Bu həman zabitdir ki, Arzumanovla müzakiratda bulunmuşdur. *(Oxuyur: Bizim taborumuz tamamilə atışmada iştirak edirdi və ətraf kəndlərdən kürdlər və sair müsəlmanlar bizə köməyə gəldilər.)* Bunu deyən nə daşnakdır, nə də erməni. Sizi də, bizi də maraqlandıran bir məsələ daha: məruzəmdə tez-tez göstərdiyim yol, general-qubernatorun evindən Qaybalı kəndinə gedən dərə təriqi [yolu] ilə ən yaxın yoldur. Bu yol, bu şose kimin əlində idi? Həman zabit bu barədə deyir ki, şose yolunu bir zabitin komandası altında general-qubernator məiyyətindəki [əmrindəki] kürdlər işğal etmişlərdi.

Həzərat, bir şahid dəxi var ki, buna inanmamağa heç birimizin ixtiyarı yoxdur. Bu şahid general-qubernator özüdür. Öz bəyanatında o dedi ki, biz oraya müsəlləh [silahlı] adamlar qoyduq, çünki atışmanın ən şiddətlisi orada idi.

Burada ikinci bir məsələ daha açılır. Kimlərin hücum etdiyi barəsində düz danışmadılar. Mən heç vaxt demədim ki, atışmada qoşun qitəatı iştirak etmişdir. Mən dedim əsgərlər də varmış. Onlar köçərilər və şəhərlilərlə bərabər Xankəndi və dağ tərəfdən kəndlilərin yolunu kəsmişlərdir. Kəndlilər əsgərlərin çinini [paqonunu], rəngini təsvir edirlər və bir dənəsini də bizə gətirdilər. Deyirlər o çin məhkəmə məmuruna məxsus şeydir. Fəqət biz əhli-xibrə [mütəxəssis] vəzifəsi görmürdük. Ancaq gördük ki, əcəb bir şey idi, həm də mülki məmura məxsus idi. Fəqət kəndlərin talanında əsgərlərin iştirakını şübhəsiz hesab etməlidir. *(Səslər: Provokasiya!)*

General-qubernator deyir ki, Qaybalı kənd davası qurtardıqdan 3-4 saat sonra (dava 2-3 saat çəkmişdir) kəndin içindən 65 kürd keçmişdir. Fəqət kürdlər davada iştirak etməmişlərdir. Kəndlilər biz olmayan zaman general-qubernatora verdikləri ərizədə deyirlər ki, davada Keçəli (?) kürdləri iştirak etmişlər. Zənnimcə biz şübhə edəmməyiz. Mən bəşəxsən bu sözlərin doğruluğuna şübhə etməyirəm. General-qubernator gərək kürdlərin şəhər üstünə gəldiklərini biləydi və bilcək qabağını alaydı. Müxtəlif nöqtələrdən kürdlərin yığışıb gələ bilməsi üçün əqəllən [ən azı] iki gün lazım idi. Saat 10-dan 1-dək bunu etmək olmazdı. Ona görədir ki, məruzədə dəxi göstərilir ki, kürdlərin

şəhər üstünə gəlmələri hadisatın nəticəsi deyil, onu qabaqlamaq tədbirindən ibarətdir. Mən deməyirəm qabaqlamaq hərəkəti *(səslər)* və sonralar dəxi müxtəlif yığınlar iştirak etmişlərdir.

Bir də burada qışlalardan [kazarmalardan] bəhs edildi. Şəfi bəy bu məsələni şübhəsiz yaxşı təsvir etdi. Bu qışlaları Şuşanın erməni hissəsində nizam və asayişi bərpa etmək və hərc-mərci yatırmaq üçün tutmaq lazım gəlirdi. Mən bunu təbrik edərdim, fəqət biz bunu bilmək istərdik ki, qışlaların təslimi haqqında general-qubernator nə vaxt tələb vermişdir. Həpimiz siyasətə alışmamışədd [hesab] etdiyimiz digər bir şahid – Minasbekovdan sual edildikdə ki, İngilis Komandanlığı tərəfindən qışlanın təslimi haqqında bir tələb varid [daxil] olmuşmu idi, yoxmu, Minasbekov cavab verdi ki, bəlkə general-qubernator və İngilis Komandanlığı qışlanın təslimini tələb etmişlərdir də, fəqət Milli Şuraya böylə bir tələb təqdim edilməmişdir. *(Şəfi bəy yerindən: O vaxt Milli Şura yox idi!)* Həman qışlada 1500 nəfərədək erməni qaçqını olurdu. Ancaq ayın 5-də general-qubernator polismeysterdən tələb etmişdir ki, qaçqınlar üçün yer tapsın. Ermənistanda [Şuşanın ermənilər yaşayan hissəsində] yer tapmaq və qaçqınları yerləşdirmək lazım gəlirdi. Ayın 6 və 7-də qışlanı işğal etmişlərdir. Bu məsələdə general-qubernator tərəfindən heç bir mümaniət [maneçilik] və müqavimət olmamışdır.

Burada Milli Şuradan çox bəhs etdilər və deyirlər ki, o Milli Şura şimdi mövcud deyildir. Fəqət, həzərat, vaxt yetişmişdir ki, biz siyasi düşmənlərimizlə namusla rəftar edək. Mən bilmərrə bu rəyə iştirak etməyirəm ki, Milli Şura öz qüvvəsi və məhəllindəki təşkilat köməyi ilə general-qubernator kimi böyük bir qüvvə müqabilinə mübarizə edəmməzdi. Həzərat! Azərbaycan Hökumətini qəbul etməyənlərin həpisini, başqa məqsədlər, başqa arzular təqib edənlərin cümləsini əşqiya [quldur] dəstəsi və hətta danışmağa yaramayan adamlar ədd etmək məsələni düz təsvir etmək deyildir və siyasi mübarizədə öz qarşısında namuslu düşməni görməməkdir.

**Səslər** - Namuslu düşmən yoxdur! Namuslu düşmənimiz olsaydı!

### TELEQRAF XƏBƏRLƏRİ

Nauen - Alınan məlumata görə, Almaniyanın Afrika müstəmləkatını bölüşmək barəsində Fransa ilə İngiltərə arasında etilaf [razılıq] əmələ gəlmişdir. Kamerunun 5-dən 4 hissəsi ilə Toqonun 3-dən 2 hissəsini Fransa alır.

Lion - Beşlər Şurasına verilən məlumata görə, İtaliyada böyük tətillər və fəhlə nümayişləri olmuşdur. Hökumətlə çıxış yapanların arasında müsadimələr [toqquşmalar] vaqe olmuş və 600 adam yaralanmışdır.

- Romaniya, Serbiya və Çex-Slav nümayəndələri Beşlər Şurasına müraciətlə Macarıstan əleyhinə mübarizədə bulunmaq üçün kömək istəmişlərdir. Fəqət Fransa camaatı əsgərlərin buraxılmalarını tələb etdiyindən, Fransa bilmərrə qoşunla kömək edə bilməyir, İngiltərə və Amerikanın da halı öyləcədir.





Sumı – [Nikolay İvanoviç] Astrov Xarkova gəlmişdir. Ona tapşırılmışdır ki, Denikin Kabinəsindən müştərək bir hökumət təşkil etsin. Astrov arzu etmişdir ki, dövlət nöqteyi-nəzərini müdafiə edən sosialistlər dəxi kabinəyə daxil olsunlar.

Moskva - Sibirya Hökuməti Amerikada 3 milyard yarımlıq Nikolay parası sifariş eyləmişdir. Bu pulların bir hissəsi Vladivostoka gətirilmişdir. Gərək Vladivostok və gərək Şərqi Sibiryada Nikolay parasından başqa para qəbul etməyirlər.

Lion - Beşlər Şurasının aldığı məlumata görə, İtaliyada böyük tətillər əmələ gəlmişdir. Əmələlərlə [fəhlələrlə] polis arasında vaqe olan atışmada 600 nəfər yaralanmışdır.

Voronej - Qırmızı qoşunlar tərəfindən iyun ayının 10-da Boqoduxov şəhəri işğal edilmişdir. Bir çox top və pulemyot qənimət alınmışdır.

- Kiyev, Odessa, Nikolayev, Xerson və Poltava şəhərləri idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] altında elan edilmişdir. 18-45 yaşında olan burjuylar arxada işləməyə dəvət edilmişlərdir.

**Fiume məsələsi**

Paris - Fiume əhvalının bu yaxınlarda aydınlaşacağı ümidi ilə Dördlər Şurası bir neçə gün gözləyərək axırda qət eyləmişdir ki, axırıncı Fiume hadisəsini təhqiq üçün Dördlər Şurası bir Beynəlmüttəfiq Komisyon [Müttəfiqlərarası Komissiya] təyin eyləmişdir. Fiumedə İtaliya qoşunları ilə fransız qoşunları arasında müsadimə [toqquşma] əmələ gəlmişdir. Fransızlar bu işin təhqiq edilməsinə razıdırlar. Fransızlar italyanları, italyanlar isə fransızları ittiham edirlər.

- Avstriya ilə bağlanan sülh müahidənaməsi [sazişi] təsdiqdən sonra Müttəfiq dövlətlər Avstriyanın Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] buraxılmasına razılıqlarını vermişlərdir.

**İtalyanlar Dobrucada**

Yekaterinodar - Bükreşdə olan İtaliya sabiq hərbi attaşesinin xəbərini "Tayms" qəzetəsi dərc eyləmişdir. Hərbi attaşe deyir ki, Parisdən verilən əmr üzərinə İtaliya qoşunları Dobrucanı istila eyləmişdir. İtaliya saldatları Versal Sülh Konfransının arzusuna əməl eyləmişdir.

Simbirsk - Utkin yanında düşmənlər tərəfimizdən məğlub edilmişlərdir. Biz düşmənlərdən beş alay əsir almışıq. Dəmiryol batalyonu və düşmənlərin yeddinci firqəsi qaçmışdır. Hücum davam edir. N-ski ordunun hissəsi Zlatoustun bir verstliyindədir. Düşmənlərin zirehli qatarını tutmuşuq.

**Dabravollar nümayəndəsi Varşavada**

"Luqanka" qəzetəsi yazır: General Denikin və admiral Kolçakın nümayəndələri Varşavaya varid olmuşlardır [çatmışlar]. Bunlar Polşa Hökuməti ilə bolşeviklərə qarşı mübarizə etmək barəsində danışığa girişəcəklərdir.

**Vilson Amerikada**

Dünən Rəisi-cümhur Vilson Nyu-Yorka varid oldu. Böyük təntənə ilə istiqbal

edilmişdir [qarşılanmışdır]. Karnegi-hollda Vilson bir nitq irad edərək [nitq söyləyərək] demiş: "Mən öylə sülhə nail olmuşam ki, o sülh bundan sonra dünyanı qandan xilas edəcəkdir!"

**Kayzerin mühakiməsi**

Hollandadan verilən son məlumata görə, Hollanda Hökuməti kayzer Vilhelmin Müttəfiqlərə verilməsini qanuni hesab etməyir. Fərarilərə müavinət barəsində olan Hollanda qanunlarına müğayir [zidd] iş görməmək niyyəti ilə Hollanda Hökuməti kayzerin verilməsi tələbinə rizasını verməyəcəkdir.

"N. R. K." qəzetəsi yazır:

*"Müttəfiqlər ədalətli bir məhkəməni təmin etməyirlər. Çünki onlar tərəfi-müqabilin bəyanatını dinləməmiş, kayzeri müqəssir elan etmişlərdir. Bundan əlavə, Kayzer Vilhelm Müttəfiqlərin nümayəndələri tərəfindən mühakimə ediləcəklərdir. Bu isə qərəzkarlıqdan təmin edəmməz. Çünki onlar kayzeri, şübhəsiz, töhmətləndirəcəklərdir. Əgər böylə etməsələr, bütün dava məsuliyyətinin Müttəfiqlərcə Almaniya üzərinə atılmasına əsas qalmaz. Bu isə Müttəfiqlərin siyasətinə ziddir."*

Müxbir bunu da əlavə edir ki, bu anadək kayzerin verilməsi barəsində heç bir rəsmi övraq [sənəd] varid [daxil] olmamışdır. Bu vaxta qədər qəzetələrin bu xüsusda yazdıqları şeylər boş gurultudan ibarətdir.

**Bolşeviklər məlumatı**

Simbirsk - Zlatoust səmtində düşmənlərin güclü qüvvəsini sındırdıq. Müharibə qayət şiddətli olub süngü vuruşmasınadək varmışdır. Dabravolların üç alayı tamamilə məhv edilmişdir, iki alayı isə üçdən iki hissəsini itirmişdir. Düşmənlər Ufa-Zlatoust dəmiryol boyu ilə qayət bintizam bir surətdə ricət edirlər [geri çəkilirlər]. Əski ordunun tərzi-hərəkəti hər növ tərif mafövqündədir [üzərindədir]. Bizim bu müvəffəqiyyətimizə səbəb olan şeylərin birisi də odur ki, yalnız əmələlər deyil, kəndlilər də bizə müavinət edirlər. Onlar Qırmızı qoşuna daxil olub, partizan dəstələri düzəldib düşmənlərin arxasında həyəcan törədirlər. Zavodlar işləyir, Balaşov zavodunda bütün maşınlar və 400 min pud dəmir qalmışdır. Bu şeylər bir il zavod işinə kifayət eylər.

## SÜLH ƏTRAFINDA

Paris - Parisdə olan Almaniya sülh mürəxxəslərinin [nümayəndələrinin] sədri Sülh Konfransına xəbər vermişdir ki, Almaniya Məclisi-Məbusanı sülh müahidənaməsini [sazişini] təsdiq eyləmişdir.

Nauen - Müttəfiqlər iyul ayının 12-dən etibarən Almaniyadan ablukanın [blokadanın] qaldırılmasına binagüzarlıq [sərəncam] vermişdir.

**Türkiyə və Sülh Konfransı**

İyunun 27-də Parisdən İstanbul qəzetələrinə teleqraf edirlər ki:

*"Müttəfiqlər və onlara mülhəq olan [qoşulan] dövlətlər dünən axşam iyunun 7-də verilən Türkiyə notasının cavabını Türkiyə nümayəndələrinə vermişlər. Müttəfiqlərin notasında ən əvvəlcə göstərilir ki, Türkiyə müharibənin və müharibə əsnasında olan dəhşətlərin bütün məsuliyyətini "İttihad və Tərəqqi" komitəsi üzərinə atmaq istəyir. Türkiyə dünyanın məzhəbi bərabərliyi lüzumundan ötrü və ədalət mənafeyi tələb etdiyinə görə, Osmanlı məmləkətinin təmamiyyətini və mühafizə olunmasını təkid edir.*

*Türklərin mehriban və mərhəmətli niyyətdə olduqlarını etirafla, Sülh Konfransı imkan verə bilməz ki, bir millət keçirmiş olduğu hökumətlərin hərəkətlərinə görə məsuliyyətdən azad edilməsini iddia etsin. Müttəfiqlər Konfransı türk millətinin gözəl xasiyyətlərindən razıdır. Lakin Konfrans edə bilməz ki, başqa milləti idarə etmək bacarığını bu xasiyyətlərdənədd [hesab] etsin. Təcrübə göstərmişdir ki, Türkiyə idarəsi çox da tərəqqiyə vəsatət etməmişdir [şərait yaratmamışdır].*

*Türkiyə notasında cahanın dini bərabərliyini saxlamaq və müxtəlif məmləkətlərdə məskun müsəlmanların hisslərinə toxunmamaq lazım olduğu göstərilir. Bu barədə müharibə böyük bir sübutdur. Müharibə dini üsyanın mümkün olmadığını aşkar etdi. Müttəfiqlər öz tərəflərindən səy etmişlər ki, bu təhlükədən xilas olsunlar."*

Yenə həman qəzetələrin 28 iyunda aldıqları teleqraflarda deyilir ki:

*"Damad Fərid paşa tərəfindən Sülh Konfransına müraciət edilən və Onlar Şurasında oxunan müxtirədə [rəsmi müraciətdə] deyilir ki, türklərin düşündüklərinə görə, bədbəxt hadisələr cərəyanı Türkiyəni fəna bir hala qoymuşdur. Lakin Şərqdə olan müharibə məsuliyyəti Türkiyə millətindən və həmçinin Yevropa diplomatlarından xəbərsiz gizlin müqavilənamələri imza edənlər öhdəsinə düşür. Damad Fərid paşa müharibədən əvvəlki xətti-hüdudun qaytarılması istidasını [xahişini] izhar edib deyir ki, bundan böylə bizim işimiz mənfəətli bir üzv sifəti ilə Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil olmaqdan ötrü var qüvvəmizi iqtisadi və mədəni işlərə sərf etməkdən ibarət olacaqdır.*

*Müttəfiqlər öz cavablarında deyirlər ki, onlar Türkiyə millətinin deyil, Türkiyə Hökumətinin məsul olduğu sübutları qəbul edə bilməzlər. Türkiyə heç vaxt mədəniyyət mənafeyi olaraq sülhdən istifadə etmək istedadını aşkar etməmişdir. O, həmişə müharibələrlə buna nail olmaq istəmişdir. Müttəfiqlər inanmayırlar ki, indiki Türkiyə Hökuməti ondan qabaqkıların siyasəti əleyhinə olsun. Türkiyə hazırlanmış niyyətlə Müttəfiqlər üzərinə hücum edib məğlub olmuşdur. İndi Türkiyə məmləkətində olan müxtəlif millətlərin müqəddəratını həll etmək kimi ağır bir vəzifə Müttəfiqlər öhdəsinə düşür. Bu vəzifəni Müttəfiqlər həman millətlərin daimi mənafe [və] arzularına müvafiq ifa etməlidirlər."*

## QƏZETƏLƏRDƏN

**Hacı-Tərxandan son xəbər**

Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə nəzərən, Hacı-Tərxan bolşevikləri şəhəri təxliyə edirlər. Ləvazimi-hərbiyyəni onlar paroxodlara yükləyib, paroxodlarda toplar qoyulmuşdur. Bu paroxodlar sahil kənarında hərəkət edirlər. Qırmızı qoşun nəfəratı [əsgərləri]

quru ilə Dağıstana və Çeçenistana gedirlər və fikirləri də odur ki, orada dağlarda gizlənib sonra dabravollarla mübarizəyə girişsinlər. Hələlik Qırmızı qoşunlar Hacı-Tərxandan 180 verst aralanmışlardır. Bu yürüşün qabağını almaq üçün tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Kronştadtda**

Əcnəbi qəzetələri yazırlar ki, ingilis gəmiləri Kronştadt dairəsini minadan təmizləyirlər.

* Tazəşəhərdən qaçanlar xəbər verirlər ki, dabravolların ştabı Səlaməti-Ümumiyyə Komitəsi üzvlərini, başda sədrləri Zimin ilə bərabər tövqif [həbs] eyləmişdir.

**Şeyxin bayrağı altında**

Bakı sosialistləri arasında şaye olan [yayılan] xəbərlərə görə və Dağıstandan aldıqları məlumata nəzərən Dağıstanın şeyxülislamı başına 5 min nəfər adam cəm edilmişdir. Bu dəstə alaylara, taborlara bölünmüşdür və hər növ ləvazimi-hərbiyyə ilə təchiz edilmişdir. Bunların topları az isə də, fəqət bunlar dağlıqlarda partizan müharibəsi edəcəklərindən, bunlar üçün topun o qədər əhəmiyyəti yoxdur. Şeyxülislam ümid edir ki, qoşunları 20 minə yetəcəkdir. O ki qaldı könüllülərə, onlar 2 min nəfərdir ki, qayət biintizam haldadırlar.

**Batumda**

Gündən-günə Batumda əcnəbi malları çoxalmaqdadır. Orada hal-hazırda mal o qədər çoxdur ki, bütün iskələ anbarlar[ı] dolmuşdur. Hakəza [eləcə də], bir çox dəmiryol skladları da və xüsusi anbarlar dəxi mal ilə ləbaləb dolmuşdur. İtaliyanın axırıncı paroxodu 150 milyon manatlıq mal gətirmişdir. Bu malların içində qəzetə kağızı da vardır. Batumda boş anbarlar olmadığından, mallar paroxoddan çıxarılmamışdır. Hal-hazırda əcnəbi mallarının sahibləri Bakı və Tiflis tacirləri ilə danışığa girişmişlərdir, bu mallar Gürcüstana və Azərbaycana göndərilsin.

## DAĞISTAN ƏHVALI

Bizə yazırlar ki:

- Dabravol ordusu tərəfindən elan edilən səfərbərlikdən əhali qaçıb əsgərliyə gəlməyirlər.

- İncədən, Böyük Burinak və Kiçik Purnal kəndləri talan edilib, əhalisi isə ac-yalavac məhv olmaqdadırlar.

- Morakir kəndinə 35 ədəd top gülləsi atılmışdır. Bu güllələr yandırıcı olduğundan kənd yanıb əhalisinin bir çoxu tələf olmuşdur. Qaçanlar isə pulemyot atəşinə tutulmuşdur.

- Dabravol ordusu Əli Hacıya ultimatum vermişdir ki, əgər əsgərlərini buraxmasa kəndlər talan olacaq. İncəvar istasyonunda süvari rus kazakları bir para namussuz müsəlmanlarla kəndlərə, kəndlilərə, hətta qadınlara böyük əziyyət edirlər.

- Dabravol ordusu tərəfindən əmr verilmişdir ki, Dağıstan daxilində Azərbaycan pulu qəbul edilməsin. Lakin əhali bu əmri nəzəri-etinaya almayıb Azərbaycan pulunu kamali-məmnuniyyətlə qəbul edirlər.

- Dərbənd şəhərinin qoruq tərəfində Dabravol ordusu tərəfindən əhaliyə böyük zülümlər edilir. Əhalinin evini, hətta qadınlarını təftiş edib böyük əziyyətlər edirlər.





## TÜRKÜSTAN ƏHVALI

Aşqabadda olan Azərbaycan konsuluna yaxın bir zat [şəxs] iyulun 8-də Aşqabaddan çıxıb keçən gün iyulun 15-də Bakıya varid olmuşdur [çatmışdır]. Müşarünileyh [haqqında danışılan şəxs] bu axır vaxt bolşeviklərin Aşqabad üzərinə hücum etmələri haqqında müxbirimizə böylə məlumat vermişdir:

Dabravol ordusu Baş komandanı general [İppolit] Savitskiyə xəbər vermişlər ki, bolşeviklər çevirmə hərəkət edəcəklər. General buna inanmamışdır, boşeviklər isə qəflətən Qəhqəhə dalına keçib Dabravol ordusunu və Türküstan Hökuməti əsgərlərini mühasirə etmişlərdir.

Artık istasyonunda Dabravol ordusunun üçdən iki hissəsini əsir edib 44 toplarını almışlardır. Bu xəbər Aşqabada çatan kimi şəhərdə həyəcan başlanmışdır. Türküstan Hökuməti əvvəlcə hökumət idarələrini şəhərdən köçürməyə başlamışdır. Aşqabadda olan Dabravol ordusunun süvari hissəsi ki, osetinlərdən, ləzgilərdən və bir qədər də iranlı və türkmənlərdən ibarətdir, şəhərdə olan həyəcandan istifadə edib şəhəri qarət etməyə başlamışlar. Hətta müsəlmanların qaçacaq yolu olan Firuzə yolunda müsəlmanlardan bir çoxları qarət edilib, bir neçələri qətl edilmişdir. Hökumət bu hərəkətlərin qabağını saxlamağa çalışmışsa da, nəticəsiz qalmışdır.

Aşqabaddan başlamış Krasnovodska tərəf dəmiryol mövqiflərində [stansiyalarında] qorxuya düşən əcnəbi arvadları Krasnovodska gəlməkdə olanlara müraciət edib heç olmasa öz qızlarının Krasnovodska aparılmasını yalvarırmışlar. Aşqabadda olan bir neçə nəfər polyaklar Azərbaycan konsuluna müraciət edib özlərinin Krasnovodska qədər aparılması xahişində bulunmuşlar. Bunlar Azərbaycan konsulunun vaqonunda üç günlük yol azuqələri verilməklə bərabər, Krasnovodska gətirilmişlərdir.

Aşqabadda olan müsəlmanların əksəri Aşqabadın 36 verstliyində olan Xeyrabad kəndinə qaçmışlardır. Cəbəl mövqifindən Krasnovodska tərəf dəmiryolunda dabravol zabiti əmri ilə 32 nəfər adam Krasnovodska gəlməkdə olan sərnişinlərin gözü qabağında güllələnmişdir. Bunların əvvəlcə dəyərli paltarlarını çıxarıb sonra güllələmişlər. Dabravol zabitindən bu güllələnənlərin kim olduğu xəbər alındıqda cavab vermişdir ki, bunların 7-si əşqiya [quldur] dəstəsindən, qalanları isə bolşevikdirlər. Bunlar Aşqabadda həbs edilmişlərdir.

Krasnovodskda, məlum olduğu üzrə, azuqə yoxdur. Su tərəfdən böyük korluq var, üç adama gündə bir vedrə su verilir. Bişirilən çörəklərdən arpa və peyğəmbəri (qarğıdalı) unundan qarışıq çörəklərdir. Azərbaycan konsulu Krasnovodskda Azərbaycan təbəəsi olan qaçqınlar üçün müvəqqəti iaşə məntəqəsi açmaq istəmişsə də, azuqə yoxluğundan bu iş

baş tutmamışdır. Bakıdan azuqə göndərilən kimi qaçqınlar üçün iaşə məntəqəsi açılacaqdır.

Krasnovodskdan Azərbaycan təbəələri vəsiqələrlə Azərbaycana buraxılırlar. Şübhəli adamlar isə buraxılmayırlar. Krasnovodskda olan adamlardan bir çoxu Petrovska getməkdədirlər.

*Felyeton*

## MƏCDÜSSƏLTƏNƏ*

Bir çox möhtərəm alimlər, qiymətli vücudlar var ki, sağlıqlarında qədirləri bilinməyir, zamanlarında xidmətləri təqdir edilməyir [qiymətləndirilmir]. Asari-ətiqə [qədim dövrlərə məxsus, antiq əsərlər] kimi istiqbalın [gələcəyin] – o hər şeyin hüviyyətini [mahiyyətini], həqiqətini kamalilə təşxis [müəyyən] edən münəqqidi-təbiinin [təbii tənqidçinin] təyininə qalır.

İştə, istiqbalın təqdis edəcəyi [müqəddəsləşdirəcəyi, ucaldacağı], namını [adını, şöhrətini] əbədiyyən yad etdirəcəyi unudulmuş möhtərəm vücudlardan biri də Məcdüssəltənədir.

Məcdüssəltənə, Əfşar türklərindən, Azərbaycan övladından urmiyəli bir xandır. Böyüklüyü yalnız əsil və qədim bir nəsilə mənsub olduğundan deyil, şəxsən qayət qeyrətli, həmiyyətli, məlumatlı, mətanətli və son dərəcə xoş əxlaqlı olduğundandır.

Məcdüssəltənə çocuqlarını oxutmaq üçün 15-20 il qabaq bütün ailəsi ilə Tiflisə gəlmiş. Qızları rus məktəblərində oxutmaq küfr olduğu bir vaxtda əfkari-ümumiyyəyə [camaatın rəyinə, ictimai fikrə] qulaq asmayıb üç qızı ilə iki oğlunu da rus məktəblərinə vermiş, həpsini kamal ilə oxutdurmuşdur. Həm bizim dövlətlilər, xanlar kimi çocuqlarına yalnız rus elmi tərbiyəsi verməklə qalmamış, cümləsinə türkcə, farsca da öyrətmişdir ki, bu gün həpsi türkcə, farsca və rusca gözəl danışıb yazırlar.

Məcdüssəltənə Tiflisdə çocuqlarını oxutmaqla bərabər, özü də boş oturmamış. Deyə bilərəm ki, çox az islam aliminə nəsib olan böyük və qayət qiymətli kütübxanə [kitabxana] və asari-ətiqə kolleksiyonu vücuda gətirmişdir.

Kütübxanəsində ən nadir yazma və əski türkcə, farsca divanlar, nüsxələri qalmamış kitablar, qayət qiymətli və nəfis əski rəsimlər, qızıl və gümüş paralar və əşya vardı. Tiflisin sənayeyi-nəfisə [incəsənət] mütəxəssisləri, məşhur alimlər, aktyorlar tez-tez bu kütübxanəni ziyarət edib istifadə edirlərdi.

Məcdüssəltənənin ən böyük fikri İran və Osmanlıya qərb mədəniyyətini idxal etmək, buraları zamanın ehtiyacından bixəbər nüfuzlu molla və axundların mövhumat və səfsətələrindən qurtarıb bir an əvvəl ülumi-müsbətəni [müsbət elmləri] qəbul etdirməkdi.

Bunun üçün yalnız niyyət və xəyal ilə qalmadı, farsca "Tuği-lənət", "Dilhayiçubin" və "Eşqi-ərquvani" adları ilə müxtəlif məzmunda əsərlər vücuda gətirdi. Bunları təb [çap] etdirib ucuz qiymətlə nəşrinə [yaymağa] çalışdı. Bunlardan başqa, türkcə və farsca qiymətli bir divanla böyük bir səyahətnamə yazmışdır. Təəssüf ki, bunları təb etdirməyə vaxtı olmamışdır.

Məcdüssəltənənin hürr və şərqpərvərliyi rus müstəbidlərinin nəzərindən təbii uzaq olammazdı. Bunlar möhtərəm alimi daima təhti-nəzarətdə [nəzarət altında] bulundururlardı. Lakin xan ingilis tərəfdarlığı ilə məşhur olduğundan çox da incidə bilməyirlərdi.

1914 elani-hərbi isə rus müstəbidlərinin qollarını açdırdı. Xanı iki gündə bir axtarmağa, incitməyə başladılar. Xan da gələcəkdə rahat qoymayacaqlarını anlayıb müvəqqətən vətəni olan Urmiyəyə getməyə məcbur oldu.

Xan, ailəsi ilə bərabər Urmiyəyə getdi. Qiymətli kütübxanəsi ilə bütün əşyasını Tiflisdə bir müsəlmana təslim etdi. Xan müharibə səbəbilə tezliklə vətənini buraxıb gələmmədi. Orada da vətənin səlaməti naminə çalışmağa məcbur oldu. Gecə-gündüz çalışdı. Tiflisdəki on beş-iyirmi milyon qiymətindəki asari-ətiqəsi ilə kütübxanə və əşyaları təslim etdiyi müsəlmanla konsulxana məmurları və rus qulluqçuları arasında talan və qarət edildi.

Xan Cahan müharibəsinin axırına qədər Urmiyə və ətrafında qalıb vətənin müqəddəratına şərik oldu. Məmləkətini, İranın mənafeyini hər dürlü zalimanə təcavüzdən mühafizəyə çalışdı. Həmvətənləri ilə bərabər, hücum edənlərə qarşı müdafiədə bulundu. Bir çox müharibələrə istər-istəməz iştirak etdi. 1917-də Bağdad[ın] süqutu üzərinə İstanbula getdi. İştə, bu vaxtda assuri erməniləri fürsət tapıb rus qoşunundan qalmış vəhşi kazak və rus erməniləri ilə birlikdə, otuz min qüvvətlə Səlması, Urmiyəni, Soyuqbulağı və ətrafındakı yüzlərcə kəndi qətliam edib xarabaya çevirdilər.

Şəhərlərdən özgə dağılan kəndlərin miqdarı beş yüzdən, qırılan müsəlmanın sanı yüz otuz mindən fəzlədir [artıqdır].

Xan bu qanlı faciə üzərinə İstanbulda durmayıb, yenə Urmiyəyə gəlmiş, oraların xarabazarını ancaq göz yaşları ilə seyr edə bilmişdir.

Hələ bir çox Urmiyə xanları ilə bərabər məşhur tarixnəvis [tarixçi] Müstəan cənablarını ermənilərin qa[y]çı ilə parça-parça doğramaları xanı haləti-təbiisindən çıxarmışdır, fövqəladə dilgir etmişdir [ürəyini sıxmışdır].

Xan bu acılıqları ilə bərabər əlində fürsət varkən Marağa nəsranilərini [xristianlarını] qətliamdan qurtarmış və bir çox erməni ailələrini himayə eyləmişdir.

İştə, vətəni uğrunda milyonlarca malından, otuz-qırx qədər yaxın qövmlərindən məhrum edilib min zəhmət və məşəqqətlərlə fədakaranə çalışan Məcdüssəltənə, fevral ayında Batumda həbs edilmiş və iki ay qədər orada saxlanandan sonra Bakıya və buradan da Ənzəli həbsxanasına göndərilmiş, orada da iki ay qədər həbsdə saxlanandan sonra təkrar Bakıya gətirilmiş. Burada da bir ay qədər fəna halda həbsdə saxlanıb mühakimə üçün on beş gün qabaq Tiflisə göndərilmişdi.

Tiflisdəki mühakiməsindən bir nəticə, yəni onu təqsirləndirəcək şahid və dəlillər bulunmayınca yazığı min əziyyət və məşəqqətlə təkrar Bakıya və buradan da Ənzəli-Tehran həbsxanasına göndərmişlər.

Məcdüssəltənə əlli yaşlarında xəstə və zəif bir vücuddur. Çəkdiyi əziyyətlərə tab gətirəmməyib bir qaç kərələr özünü

* Məcdüssəltənə haqqında yazılmış olan bu məqalə ümum müsəlman başçılarına aid olub, başbilənlərimizlə necə rəftar edildiyini təsvir və nümayiş etdirici bir nümunə olduğundan, dərcini lazım gördük. (İdarə)

öldürməyə qəsd etmişsə də müvəffəq olammamış, son dəfə Tiflisə yük vaqonu ilə üç gündə göndərilmiş, yolda, Tiflisdə yüz dürlü əziyyətlər verilmiş, bir qaç dəfə qəşş etmiş, saatlarca iki qolu birdən çıxmış halda qalmış, günlər uzunu ac buraxılmış.

İmdi də o hal ilə İran həbsxanasına göndərilmiş, güya mühakiməsi orada ediləcəkmiş.

Bunlar neyçün?

Çünki, əvvəla, müsəlman və türkdür. İkincisi Miyandoab tərəflərində erməni əşqiyası [quldurları] ilə müharibə edib onlardan beş-onunu öldürtmüş.

Ey oxuyan! Ey iranlı qardaş! Diqqət edirmisən, yüz otuz min günahsız müsəlmanı milçək kimi qıran erməni quldurlarının heç biri müqəssir tutulmayır, öz keflərinə buraxılır. Xarab edilən beş yüz müsəlman kəndinə heç kəsin yazığı gəlməyir. Lakin, vətənini mühafizəyə çalışan iranlı alim həbslərdə çürüdülür. Həm heç bir vəhşinin etmədiyi əziyyət və işgəncələr mədəni, hüquqi-şəxsiyyəyə riayətlə məşhur bir millət tərəfindən edilir. Bu cəhətin mühakiməsini başqa bir vaxta buraxalım. Şimdilik Azərbaycan ürəfasının [ziyalılarının] ricası budur ki, İran hökuməti bu möhtərəm alim şəxs haqqında, yad və qərəzkar bir millətin rəva gördüyü əziyyət və işgəncəyə qarşı izhari-nifrət edib onu düçar edilən fəlakətdən xilas eylər və bu surətlə Azərbaycan qardaşları öhdəsinə böyük bir minnət buraxar. Bununla ümidvarız ki, hökumətimiz də, işgəncələrlə öldürülmək istənilən bu alimin xilası xüsusunda insaniyyət və qonşuluq naminə ciddi təşəbbüsatda bulunar.

*Ümidvar*

### *DÜŞMƏNƏ*

*Olmuş övladi-vətən zülm ü sitəmdən bağrı xun,*
*Əl çək ey birəhm zalım, əl çək ey cəlladi-dun!*

*Qət'i-ümmid eylə, bizdən çək tamah dəndanını,*
*Baxma bica bizlərə, bilmə bizi əhli-cünun.*

*Keçsə min illərlə dəsti-düşmənə xaki-vətən,*
*Keçmərik xaki-vətəndən, olmarıq zar ü zəbun.*

*Vermərik xaki-vətəndən qeyriyə bir qəbzəsin,*
*Olsa səhralar üzü gər qanımızla lalə-gun.*

*Fəxr qılma xəncəri-xunxarına Zöhhakvar,*
*Çox sənintək kimsəni dövran edibdir sərnigun.*

*Aləmə salma sədayi-huy boş şeypurtək,*
*Verməz heç əksi-səda yox burda kuhi-Bisütun.*

*Uyma bəxtə kim səni nail qılar məqsuduna*
*İmdi öz bəxtin səninçündür bəlaya rəhnümun.*

*Öylə nafərcamdır tale üzün döndərmədən,*
*Çevrilər iqbal, olar qəm barı gün-gündən füzun.*

*Gər pərişan eyləsən biçarələr cəmiyyətin,*
*Müzməhil eylər səni axır sipəhri-nilgun.*

*Bədriya, əvvəl hilal idinsə şimdi bədrsən,*
*Saç qələm nurun sipahi-zülmət olsun vajgun.*

### VÜKƏLA ŞURASINDA
### [NAZİRLƏR KABİNETİNDƏ]

* Ədliyyə Nazirinin Bakı nahiyə məhkəməsi müddəiyi-ümumisi [prokuroru] müavini İzdelski və həman məhkəmə üzvü Uspenskinin Xüsusi Təftiş və İstintaq Komisyonu əzalığına [üzvlüyünə] təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Müşarünileyh [haqlarında danışılan] əfəndilər təyin edilirlər.

* Ticarət və Sənaye və Ərzaq nazirinin Azərbaycandan Batumda yaşayan müsəlmanlar üçün ot, arpa, sulu̇q və qoyun aparılmasına icazə verilmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə rədd edilsin.

* Ticarət və Sənaye və Ərzaq nazirinin Quba qəzasında taxıl toplayan məmur və fəhlələrə məvacib vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumətin 1919-cu sənəsi 15 aprel qərardadına əlavə olaraq Ərzaq və Ticarət və Sənaye nazirinə Quba qəzasında taxıl toplamış 40 nəfər fəhləyə də məvacib vermək tapşırılsın.

* Maliyyə nazirinin Elektrik Cəmiyyəti mövqifinin [stansiyasının] təmiri üçün 2 milyon rublə təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ümumi əsas üzrə birdəfəlik Elektrik Cəmiyyəti mövqifi təmirindən ötrü neftçilərə 2 milyon manat verilməsi Maliyyə Nəzarətinə tapşırılsın.

* Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Şamaxı rus qaçqınlarının yerlərinə qayıtmaları haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Naftluqi mövqifinə varid olmuş [gəlmiş] 180 nəfərdən mürəkkəb [ibarət] 36 rus ailəsinə Şamaxı qəzasına qayıtmağa icazə verilsin.

* Daxiliyyə nazirinin Yevlax mövqifindəki evi polis üçün təmirdən ötrü 3600 manat təxsis haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan istənilən məbləğ buraxılsın.

### NƏZARƏTLƏRDƏ
### [NAZİRLİKLƏRDƏ]

- Xüsusi Təftiş və İstintaq Komisyonu sədri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] və ümum nəzarətlərə müraciətən rica etmişdir ki, idarələrdə icra edilən sui-istemalların [sui-istifadələrin] önünü almaq üçün təşəkkül tapmış fövqəlzikr [yuxarıda adı çəkilən] komisyona hər bir halda təftiş vasitəsilə müavinətdə bulunulsun.

- Azərbaycan Hökuməti nəzdində erməni siyasi nümayəndəsi hökumətimizə xəbər vermişdir ki, Baş vəzirin [Baş nazirin] tapşırması ilə sizi xəbərdar edirəm ki, iyul ayının 1-də Böyük Vedi kəndində Dəvəli ətrafında 9 saldat ilə 12 kəndli öldürülmüş olduğundan, ayın 4-də hökumət polkovnik Apresovun təhti-komandasında [komandanlığı altında] bir dəstə əsgər göndərmişdir ki, müqəssirləri və ölənlərin silahlarının təslimini tələb etsinlər. Apresov dəstəni istirahətə buraxaraq müzakirata girişmiş və ehtiyatkarlıq tədbirləri görməmişdir. Müsəlmanlar qəflətən bunlara atəş açaraq 5 afser və 30 saldat öldürüb, 7 afser və 120 saldat yaralamışlardır. Apresov məhkəməyə verilmişdir. İngilislərin təsvibi [icazəsi, təsdiqi] ilə oraya cəza dəstəsi göndərilmişdir.

### QARABAĞDA

Türk-Ədəmi Mərkəziyyət firqəsi "Müsavat"ın Mərkəzi Komitəsi tərəfindən təşkilat yapmaq məqsədilə Zəngəzur və Şuşa qəzalarına göndərilmiş Parlaman üzvü Cavad bəy Məlik-Yeqanov və Mərkəzi Komitə üzvü mübəlliğ [təbliğatçı] Zül-

füqar Fərəczadə dünən məhəlli-məmuriyyətlərindən Bakıya övdət etmiş [qayıtmış], ümumiyyətlə məzkur [deyilən] qəzalar haqqında aşağıdakı bəyanatı vermişlərdir:

"Ağdamdan Şuşaya gedən şose yolunu ermənilər dağlardan atəşə tutub müsafirlərin rahatca gedib-gəlmələrinə mane olurlar. Ara-sıra atılan qurşunlardan tələf olanlar da olur. Ağdamdan Qaryaginə gedən yol həmçinin dağlardan atəşə tutulur. Bu günlərdə ermənilər tərəfindən dağıdılmış teleqraf xəttini təmirə məşğul olan 4 nəfər teleqraf qulluqçularının üzərinə hücum edərək onları dəstgir etmişlər [ələ keçirmişlər]. Onların iki nəfərini ki, rus imişlər, buraxıb, iki nəfərini türk və müsəlman olduğundan öldürmüşlərdir. Teleqraf xətti işləməyir.

Şuşanın vəziyyəti yaxşıdır. Əhalinin ruhu yüksəkdir. Demək olar ki, əhali tamamilə silah altındadır. Azərbaycan Hökuməti idarəsində olan yerlərdə ermənilərə heç bir təcavüz olunmayır. Onlar kamali-asudəliklə öz çöl işlərinə məşğuldurlar. Müsəlmanlar yenə sabiqki kimi ermənilər hökmran olan tərəflərə keçə bilməyirlər.

Köçərilərin yaylaq yolu yenə qapalıdır. Hər yerdə müsəlmanlara rast gəldikdə güllələyirlər. Kəpəzdə köçərilərin halı qayət fənadır. Heyvanlarına yedirməyə ot-ələf tapmayırlar. Bütün mahallarda, istər Şuşa qəzası olsun, istər Zəngəzur, Qaryagin qəzası olsun, taxıl hədsizdir. Hər yerdə olduğu kimi buralarda da əkin və biçin alat və əsbabına [alətlərinə və vəsaitlərinə] böyük ehtiyac vardır. Fəhlə də yoxdur.

Qaçqınların halı qayət fənadır. Bu vaxtadək onlara əsaslı bir yardım edilməmişdir. Aralarında təşkilat yoxdur. Onlara yalnız bir kərə müavinət edilmiş, adambaşına yarım arşın bez və 15 girvənkə buğda verilmişdir. Aralarında başqa müsri [yoluxucu] xəstəlik yoxdur, yalnız şiddətli qızdırma xəstəliyi vardır. Onlara tibbi müavinət edilməyir. Həkim və dərman əbədən yoxdur. Yekunu 30-32 min nəfərə baliğ olan [çatan] qaçqınlar 3-cü və 4-cü uçastoklarda yaşayırlar.

Zəngəzurda müsəlman xalqının ruhu qayət yüksəkdir. Gorusun alınması doğru deyildir. Orada ermənilərin külli surətdə müntəzəm qüvvələri var. Alınan Köhnə Gorusdur.

Məktəblərin halı qayət fənadır. Axırıncı bir-iki ilin qarışıqlıqları və inqilabları ibtidai məktəbləri acınacaq bir hala salmışdır.

Zəngəzur qəzası da səhiyyə cəhətindən ağır bir vəziyyətdədir. Əhali davadərmansızlıqdan qırılır. Səhiyyə Nəzarəti tərəfindən Cavad bəy Cavanşirə 70 min manat para buraxılmış ki, orada bir şöbə açılsın. Lakin bu vaxtadək bir iş görülməmişdir.

Ermənilərlə köçərilər miyanında [arasında] olan toqquşmalarda möhtaci-müavinət [yardıma möhtac] olan yaralılara və mütəzərrirlərə [zərərçəkənlərə] yardım etmək üçün Şuşada general-qubernatorun müşaviri Şahsüvarov Şuşa mütəallimlərindən [tələbələrindən] iki feldşerin iştirakı ilə iki səhiyyə dəstəsi tərtib verib, birini Zəngənə, digərini Kəpəzə göndərmişdir. Şahsüvarovun, bu işdə iştirak edən Şuşa mütəallimlərinin işbu insani hərəkətləri şayani-təqdirdir [təqdirəlayiqdir].





Zəngəzur mahalı tam əmniyyətdir. Cavanşir qəzasında, bəzən Bərdə tərəflərində soyğunçuluqlar vaqe olursa, hökumət ciddi surətdə quldurları təqib edir. Əhali bu barədə olduqca hökumətdən məmnundurlar. Bununla bərabər, bəzi hökumət məmurlarının rəftarından şikayət edirlər. Əhalinin kəndçi sinifi "Müsavat" firqəsinə hüsn-təvəccöh [hüsn-rağbət] bəsləyirlər, Azərbaycan fikrini və Azərbaycan Cümhuriyyətini "Müsavat" meydana çıxardı deyirlər. Başqa firqələrin bir o qədər nüfuzu yoxdur.

"İttihad" firqəsi Qaryagin və Ağdamda şöbələr açmaq fikrindədir. Lakin şimdiyədək müvəffəq olmamışdır. Çünki onlar əhalini yalnız təvəqqe və xahişlə öz tərəflərinə çəkirlər. Öz proqramlarından bəhs etməyirlər.

"Müsavat" tərəfindən Bərdə, Qərvənd, Ağdam, Şuşa, Suarası, Dondarlı, Qaryagində şöbələr açılmışdır.

**NAXÇIVAN MƏKTUBATI**

**- 8 -**

Həman gün saat 6, axşam vaxtı, cəmi məhəllə vəkilləri yığışıb Milli Şura ləğv edildikdən Milli Komitəyə əza [üzv] və sədr seçdilər. Sabiq Milli Şura sədri Əliqulu (Əmiş bəy) Sultanov yenə Milli Komitə sədri seçildi.

Ayın 14-ü oldu, saat 11 radələrində Kəlbəli xan [Naxçıvanski], Əmiş bəy, iki nəfər mötəbəranla [mötəbər şəxslərlə] bərabər istasyona gedib erməni general-qubernatorunu istiqbal etdikləri [qarşıladıqları] halda xəbər gəldi ki, general Devi, [Aleksandr İvanoviç] Xatisov (ermənilərin Premyer ministri) və erməni qubernatoru, bir çox çinovnik və qeyri ermənilərlə gəldilər. Camaat mülahizə eylədiyi kimi çıxmayıb, sonra xəbər gəldi ki, həpsi Culfa məbərinə [körpüsünə] baxmağa getdilər ki, sabah övdət edəcəklər [qayıdacaqlar].

Xülasə, 15-nə qədər müsəlmanların Milli Komitə əzaları sədr ilə və bir çox kamil adamlarla səhərdən axşama qədər şura yapırlardı ki, sabah Xatisova nə cavab versinlər. Cavablar hazır oldu, ondan maəda [əlavə], ingilis general-qubernatoruna verilən protestnamənin müxtəsər məzmunu müsvəddəsi [qaralaması] yazılıb, bir para sözlər əlavə edilməklə Xatisova verilməsinə məsləhət göründü ki, məzmunu iştə bu:

"Siz kəndinizi erməni cümhuriyyəti sayırsınız. Cümhuri hökumətində zülüm və zorba zorlu olammaz. Təbii, biz sizə tabe olmadığımızı və kərratla [dəfələrlə] bizi sizə rəiyyət verdikdə etirazımızı eşitməklə nə üçün bizi zorla kəndinizə rəiyyət etmək istəyirsiniz? Sizə biz camaat məlum ediriz ki, biz sizə rəiyyət olmağı protesto ediriz."

Ayın 15-i oldu. Qonaqlar Culfadan təşrif gətirdilər. Əvvəlcə Milli Komitəyə gəldilər. General Devi camaatı yumuşadıcı dil ilə nitq irad edib [nitq söyləyib], sonra erməni hakimini nişan verdi ki, bundan sonra yollar açılar, bolluq olar, əmin olunuz əmniyyət hər yerdə bərpa olacaqdır.

Deviyə hər nə qədər etirazat haqqında söz izhar etdilərsə də, heç birisinə danışmağa meydan vermədi. Söylədi ki, Ermənistandır burası, vəssalam.

Sonra Xatisov çox böyük fikirli və məhəbbət oyadıcı bir lisanla nitq söyləməyə başlayaraq "Qardaşlar, yoldaşlar, artıq keçənlər keçdi. Biz eyi biliriz ki, hər iki tərəf bədbəxt və mütəzərrir olmuş [zərər çəkmiş]. Odur ki, biz əski olanları və yaxud xəsarətləri aramayıb, təzədən həyata qədəm qoyub, əski qonşuluq məhəbbətini qazanmağa səy və qeyrət etməliyiz. Sizə hər dürlü müavinətdə bulunmağı vəd etməklə bərabər, onu da sədaqətlə deyirəm ki, erməni əsgərləri tərəfindən siz məhəbbətdən başqa heç bir fəna hərəkət görməyəcəksiniz. Ümid [edirik] ki, siz də bizlə müttəhidən [birgə] işləyəcəksiniz. Hökumət məmurlarından sizdən istədiyiniz qədər ola bilər. Fəqət Milli Komitənin təsvibi [təsdiqi] ilə." deyir.

Sonra Xatisov və Devi Milli Komitə qonağından [imarətindən] qapıya toplanmış mindən ziyadə əhalinin fikrini bilmək və onlara söz söyləmək üçün dişarıya çıxdılar.

Əvvəlcə general Devi üzünü camaata tutaraq: "Camaat, bu tarixdən ermənilər sizə hakimdir. Qubernatorları da gəlmiş. Hər kəs ona itaət etməlidir. Onu tanımayanlar və ona itaət etməyənlər erməni hökumətini tanımayırlar deməkdir. Erməni hökumətinə boyun əyməyənlər bizim özümüzə itaət etməməklə bizə düşman hesab olunurlar" kimi sözlər söylədi.

Camaat: "Xeyir, biz erməni hökumətini tanımayırız. Onlar hökumət deyillər, bizim kimi başıpozuqdurlar. Biz onlara tabe olmayırız. Bizi zorla onlara verirsiniz. Britan hökumətinə bizim zorumuz yoxdur. Ermənilər xain cəlladdırlar. Biz onlara rəiyyət olammayız. Onlar kəndilərini islah etsinlər də, idarə etsinlər də, sonra bizə ağa olsunlar. Bu saat gündə İrəvanda mauzerçilər peydərpey adam öldürüb yol kəsməkdədirlər. Bu saat fədailər silahsız müsəlmanları əzməkdədirlər. Xatisovlar onları islah etsinlər. Biz məhv olsaq da Ermənistana rəiyyət olmağı istəməyiriz, ilx..." deyə cavab verdi.

Bu sözlərdən sonra Xatisov qızarıb pək məhcub [pərt] oldu. Daha qətiyyən söz söyləmədi. Ondan sonra Kərbəlayı Əli xangilə vizitə [görüşə] gedib çay-qəhvə içib bir saat qədər söhbətdən sonra qışlaya və oradan da sabahı gün erməni qubernatorunu Naxçıvanda qoyub İrəvana hərəkət etdilər.

**- 9 -**

Erməni qubernatoru məmurları ilə üç-dörd gün qışlada ingilislər nəzdində qalıb işə baxmağa başladı. O müddətdə divanxanası və polis idarələri üçün şəhərdə yer aramağa iqdam etdi [başladı].

Bu üç-dörd gün zərfində camaat beynində [arasında] ermənilərə müsəlmanlardan məmurlar verilsinmi, verilməsinmi məsələsi mövqeyi-müzakirə[yə] qoyuldu.

Bir çoxları məsləhət görürlərdi ki, əlbəttə müsəlmandan məmur olması bizim eyni məsləhətimizdir [bizim xeyrimizə olandır]. Çünki onların hərəkati-siyasiyyəsindən bizə məlumat verməklə bərabər, həmişə kəndi qardaşlarına da müavinətdə bulunmaqdan geri durmazlar.

Bir çoxları bunun əksinə olaraq söyləyirlərdi ki, xayır, biz ermənilərə kəndimiz məmur verdikdə, verdiklərimiz protestolara kəndimiz zidd getməklə, həm ermənİyə müti olmaq rizamızı da göstəririz. Bundan maəda [bundan əlavə], müsəlman məmurları erməni xidmətində bulunduqda (ruh və əxlaqca zəif olan adamlarımız) keçən zamanlarda kim nə yapmış və millətinə xidmət etməkdə nə kimi təşəbbüsatda bulunması haqqında izahat verəcəklər təbii və bu kimi məlumatdan erməni hökuməti istifadə edərək zamani-atidə [gələcəkdə] bizim fəal və hissi-millisi çox olan adamlarımızı həbs etmək və cəfa verməkdən vaz keçməyəcəkdir. Bu isə bizim siyasətimizə toxunar və şayani-təəssüf [təəssüfə layiq] bir səhv olmuş olar.

Xülasə, çox mübahisədən sonra, bilümum [ümumiyyətlə] məmur verməmək tərəfdarı oldular.

Həman günlərdə məhza bir komitə çıxdı. Hər gecə elanlar yapışdırıb bir çoxlarını təhdid etməyə başladı.

Məsələn, birisinin məzmunu böylə idi:

"Hər kəs erməni hökumətinə şikayətə gedərsə, yaxud erməni məmuriyyətinə girərsə, o, güllələnəcəkdir."

Polis məmuriyyətində sabiqlərdə bəylərdən çoxu iştirak edib və son zamanlarda işsiz qaldıqlarından, baxalım onlar bu təhdidlərə nə nəzərlə baxırlar.

Sabiq məmurların təbliğatı:

"Həqiqətən, erməniyə xidmət etmək pək fəna işdir. Fəqət bir iş var ki, baxalım onu əhali yapacaqlarmı? Erməniyə xidmət etməkdən məqsud [məqsəd] para qazanmaqdır. Bizə, xidmət etməyin deyirlər. Halbuki, xidmət etmək bizim sənətimizdir. Öylə isə, tacirlərimiz də ermənilərlə ticarət yapmamalıdırlar. Sənətkarlarımız da müamilə etməməlidirlər. Halbuki, ermənilərin ilk vürudunda [gəlişində] Xatisovdan Hacı Hüseynəli (?) günlərini yeritmək üçün məclisdə – ki yeri deyildi – vaqon istədi. Əmirov bilməm nə yapdı. Milyonerlərə zorları çatmayan əfəndilər kasıbların bir parça əkməyinə bais olmaq istəyirlər. Milli Komitə bizi iaşəcə təmin etsinlər, ol vaxt pək eyi."

Üç gündən sonra erməni qubernatoru şəhərə köçüb yavaş-yavaş işləməyə başladı. Müsəlmanları cəlb etmək üçün sabiq polislərə və müdirinə xəbər verdi ki, sizin maaşınız mayısın əvvəlindən bizə hesab olunur, üç gün sonra veriləcəkdir. Şimdi tacirlərimiz və bir çoxlarına İrana, Tiflisə və qeyri yerə getmək lazım ki, erməni vəsiqəsi olmasa, heç bir yerə buraxmazlar. Bu kimi ehtiyacda bulunanlar erməni divanxanasını tanımağa başladılar. Divanxana şənlənməyə başladı, hökumət işə şüru etdi [başladı].

*Tamaşaçı*

## "SON SİSTEM EHTİKAR"

Məlum olduğu üzrə, şəhərimizdə çoxdan bəri növbənöv ehtikar istemal edilir [işlədilir] və edilməkdədir. Məsələn, pul, parça ticarəti, qızıl, gümüş, mis, başqa bu cür şeylərin adi qiymətindən birə yüz və daha yuxarı olmaq üzrə alış-verişi adi bir xasiyyət kəsb etmişdir.

Fəqət son vaxtlar şəhərimizdə yeni bir ehtikar doğmuşdur ki, onun nəticəsi əhalinin çox qisminə, ələlxüsus kasıb sinifinə pək fəna təsirlər bağışlamaqdadır. Məsələn, mülk sahibləri mənzil kirayəsi haqqında şimdilik bir qanun olmadığın-

dan istifadə edərək mənzil sahiblərinin aylıq muzdunu birə on və hətta iyirmi artırır. Təbii, az bir maaşla imrari-həyat edən [dolanan] kasıb və hətta orta sinif əhali işbu məbləği verməkdən aciz olduğundan, otaqları boşaltmağa məcbur olur. Ev sahibləri də öyləcə bunu arayırmışlar. Onlar dərhal otaqları bir pulluya kirayə verir. (Son vaxtlar şəhərimiz yeni törəmə milyonçular ilə məmludur [doludur]). Qabaqca 10-dan 20 minədək otaqlar üçün “sərqıfıl” [dəbbə pulu] alır, sonra baha və az bir müddətə onunla doqovor [müqavilə] bağlayır ki, vaxtı tamam olan kimi başqası ilə böylə müamilədə bulunsun.

Əksər övqat [çox vaxt] mənzil sahibləri dəxi eyni surətdə rəftar edirlər. Onlar qeyri şəhərə gedəcəklərini bəhanə edib kəndi otaqlarını artıq bir məbləğ alaraq başqasına verirlər. (Bu fəqərə [hadisə] yəhudilərin arasında pək artıq intişar tapmışdır [yayılmışdır]). Və başlayırlar qeyri yerdə mənzil aramağa, tapdıqları halda yenə həman qayda ilə qeyrisinə satırlar. Bu növlə onlar otaqsızlıqdan dolayı podvallarda və hətta tövlələrdə qalan əhalinin halını bilmərrə unudub, yeni ixtira etmiş olduqları “sənətdən” gündə minlərlə paralar qazanırlar. Bunların həpsi nəzərdən keçirilərsə, həqiqi kirayənişinlərin halı nə dərəcə fəna olduğunu aydın bir surətdə görəcəyiz.

İşbu fəqirlərin halın nərəyə lazım isə göstərib deyiriz ki, bu iş qeyrilərinə bənzəməz. Pul, qızıl, gümüş alış-verişi öylə bir şeydir ki, ondan törəyən zərər və ziyanlar əhalinin çoxuna bir o qədər fəna təsiri olmayır. Fəqət otaq məsələsi qeyrilərə bənzəməyir. Otaqsız dirlik etmək olmaz. Ümidsizlikdən podvallar və hətta tövlələrdə yaşamağa məcbur olan əhali müxtəlif naxoşluqlara mübtəla olub yüzlərlə tələf olur. Kimsənin bunların halında xəbəri yox. Tələf olarsa, səbəbi soran olmaz, əgər sorularsa, laqeyd keçib gedərlər. Əgər tezliklə işbu fənalığın önü alınmazsa, əgər həmin müamilədə bulunan şəxslər layiqi cəzalarına çatdırılmazsa, ol vaxt mənzilsiz əhalinin halı çox fəna olacaqdır.

*Aciz*

## BAKI XƏBƏRLƏRİ

**Lənkəranda**

Salyandan gələnlər rəvayət edirlər ki, şimdi Lənkəranda sakit və rahatlıqdır. Muğanlılar idarəni öz əllərinə alırlar.

**Kuban ilə mal mübadiləsi**

Ticarət Nəzarəti Kuban Hökuməti indində olan Azərbaycan siyasi nümayəndəsinə xəbər vermişdir ki, Azərbaycan Hökuməti Kuban ilə xüsusi müəssisələr vasitəsilə mal mübadiləsinə başlamağa lüzum görmüşdür. Bu şərtlə ticarətə başlamaq üçün hökumət Kuban Hökumətindən müavinət istəyir və öz işlərindən ötrü Yekaterinodara getmiş Nəzarət agenti İ. İ. Kotovski ilə bu barədə danışmağı təklif etmişdir.

**Təyin**

Bakı quberniyasının straja inspektoru [mühafizə müfəttişi] Əhmədbəyov Azərbaycan Ordusu Ərkani-hərbinə [Qərargahına] zabit təyin olunduğundan, onun yerinə Bakı qubernatorunun xüsusi məmuriyyət çinovniki Mehdi bəy Nəcəfbəyov təyin edilmişdir.





**Darülfünun Komisyonunda**

Darülfünun Komisyonu qərar qoymuşdur ki, Bakı Texnik Komitəsinin kimyaxanası Darülfünun ixtiyarına alınsın. Bu şərtlə ki, Ticarət və Sənaət Nəzarətinin mənafeyinə də xidmət edə bilər. Xidmətçilərinin Darülfünun və ya Ticarət, Sənaət Nəzarəti tərəfindən təyin olunacağı məsələsi isə Darüfünun açılandan sonra həll olunar.

**Qubanın istidası [xahişi]**

- Quba şəhəri Bakı qubernatoruna müraciətən bolşevik anarşiyasından zərərdidə olmuş Quba 2 sinifli məktəbinə 50 min rublə subsidiya verilməsini rica etmişdir.

- Quba uyezdinin Mixaylovski kənd məktəbi naziri qubernatora müraciətən rica etmişdir ki, hökumətdən həmin məktəbi təmir üçün 29 min manat istidasında bulunsun. Məktəb bolşevik zamanında artıq zərərdidə olmuşdur.

**Bolşevik irsi**

Axır vaxtlarda təhərri [axtarış] polis müdiri Fətəlibəyov böylə xəbərlər alırmış ki, Bakıda bolşeviklərdən külli miqdarda mal qalıbdır. Bu xəbərləri təhqiq edərkən məlum olmuşdur ki, bu malların bir qismi “Qafqaz-Merkuri” cəmiyyətinin Vostoçnı Obşestva Naberejnaya küçə, 21-ci pristanın qabağındakı skladında və Çornı-qorodda qalmışdır. Axtarış zamanı bu skladlardan zeyldəki [aşağıdakı] mallar tapılmışdır:

1) Maxorka 3207 qutu, ağırlığı 6000 pud;
2) Türkmən keçəsi, 2000 ədəd;
3) Yarımkürk, 57 tay, 2000 ədəd;
4) Dəri əlcək, 2 tay, 700 ədəd;
5) At üçün dəmir qaşov, 1300 ədəd;
6) Qaloş, 7 tay, 400 ədəd;
7) Dəvə dərisi, 10 put.

Mallar hamısı zəbt olunmuşdur.

**İclas**

Şənbə günü saat 4 radələrində “Müsavat” idarəsində Bakı Politexnik məktəbinin Türk Mütəəllimləri [Tələbələri] İttifaqının ümumi iclası münəqd olacaqdır [yığışacaqdır]. Baxılacaq məsələlər:

1) Müsamirə [konsert] heyətinin mühasibəsi (atçotu);
2) Qeyri cari məsələlər.

**Tələbələr iclası**

Bu gün cümə günü saat 5-də Birinci Realnı məktəbinin salonunda Bakıda bulunan türk tələbələrinin ümumi təcili iclası dəvət olunur. İclasda keçən dəfə qəbul olunmuş bəzi məsələlərə təzədən baxılacaqdır. Tələbələr Komitəsi bütün arxadaşlarını bu təcili iclasa dəvət edir.

**Dəmiryolunda**

- İkinci hissə mühafizə naçalnikinin müvəqqəti müavinliyinə iyulun 8-dən etibarən Ağasalah Hacıyev təyin edilir.

- Dəmiryol mühafizəsi naçalniki xəbər verir ki, Azərbaycandan Gürcüstana gedənlər məcburən Azərbaycan Cümhuriyyəti indində [nəzdində] olan Gürcüstan nümayəndəsindən vəsiqə almalıdırlar.

**Birjada**

Kerenski pulları ilə dəyişik yoxdur. Minlik 1450-1500 manata, 250 manatlıq 4-ü 1300 manata, xırdalar 20 %. Nikolay pullarından 500-lük 1800 manata, yüz-

lüklər 340 manata, başqaları ilə maraqlanan yoxdur.

**Valyuta**

Valyuta arzu edən azdır. İngiltərə funtu 360 manat, çek 330 manat, qızıl türk lirəsi 425 manata, kağız lirə 90 manata. İtaliya lirə krediti 22 manata.

## İRƏVANLILAR İTTİFAQINDA

Uzun bir sükutdan [sonra] yazıq İrəvan vilayəti türklərinin Həmtorpaqlılar Cəmiyyəti fəaliyyətə başladı. Azərbaycan Cümhuriyyətinin təbəiyyati-ümumiyyəsi, ayrılmaz parçaları olan Naxçıvan, Şərur və Ordubadın erməni əşqiyaları [quldurları] tərəfindən cəbrən istila edilmələri, "Ermənistan Cümhuriyyətində" imrari-həyat edən [ömür sürən] türk qardaşlarının gündən-günə min dürlü zalimanə müşkülata məruz qalmaları Bakıda – Azərbaycanın müşfiq qoynunda rahat və asudə yaşamaqda olan İrəvan türklərinin fələkzədə qardaşlarını xatırlatmış kimi oldu.

İrəvan vilayətinin İrəvan, Göyçə, Üçkilsə və Sürməli mahallarında islam-türk əhalisi kamilən qətliam edildikdən, yüzlərlə məmur [abad] və abadan köylər erməni qitəati-əsgəriyyəsi [hərbi hissələri] tərəfindən toplarla təxrib və türk əhalisinin hissiyyati-milliyyə və diniyyəsi, bəlkə irz və namusu müstəbidanə bir surətdə daşnaklar ayağı altında məhv olub getdikdən sonra yapılmış fənalıq və məzalimin təvəssö edilməsi [nə dərəcədə yayılması, faciənin miqyası] anlaşılır.

Son teleqraf "müstəqil Ermənistan" hökuməti təhti-hakimiyyətində [hakimiyyəti altında] yaşayan türklərin yenə işgəncələrə düçar olmaları xəbərini gətirdi. Təbii olaraq işbu xəbər Bakıdakı İrəvan türkləri arasında böyük bir iztirab və həyəcana bais oldu.

İştə, çoxdan bəri sükuta məcbur olan Həmtorpaqlılar Cəmiyyəti fəaliyyətə başladı. Cəmiyyət sabiq İrəvan vilayətinin bir qisminin etnoqrafi (milli), tarixi və digər şəraiti-məhəlliyyəyə [yerli şərtlərə] nəzərən Azərbaycan Cümhuriyyətinin ayrılmaz bir parçasını təşkil etdiyindən şu ərazinin Azərbaycan Cümhuriyyətində ibqası [qalması] ilə, oralarda yaşamaqda olan əhalinin mənafeyini hər bir təcavüzdən müdafiə etmələri yolunda tədabir ittixaz edilməsini [tədbirlər görülməsini] kəndi məqsədi-fəaliyyətləri qəbul etmişdir.

Cümə günü, təmmuzun 10-cu günü Bakı Bələdiyyə salonunda vaqe olan iclasında əhvali-hazirə nəzərə alınmış, Rəisi-vükəla [Baş nazir] həzrətləri hüzuruna bir heyət göndərilmişdi. Bu gün yenə həman Bələdiyyə salonunda Cəmiyyətin fövqəladə iclası vaqe olur. Ümidvarız ki, Həmtorpaqlılar Cəmiyyəti bu dəfə millət və vətəndaşlarının əhvali-faciənələrini [faciəli vəziyyətlərini] eyi hiss edib səmimiyyətlə işə başlayacaqlar.

## FƏHLƏ HƏYATI

12 təmmuz şənbə günü, saat 2-də Balaxana krujokunda [Balaxana dərnəyində] Sabunçu, Ramana, Zabrat, Balaxana məntəqələri mədənlərində çalışmaqda olan bütün müsəlman fəhlələri tərəfindən bavəsiqə intixab edilmiş [vəsiqələrlə





seçilmiş] nümayəndələr tərəfindən müşavirə iclası təşkil edilib və bahalıq məsələləri mövqeyi-müzakirəyə vəz edildi [müzakirəyə qoyuldu].

Birinci növbədə Zəngəzurdan gəlmiş Məhəmmədhəsən bəy Xocahanzadə cənabları məruzəçi sifəti ilə 1918-ci sənəsi təşrini-sani [noyabr] ayından etibarən halhazıra qədər erməni bandaları və nizami qüvvələri tərəfindən 145-i mütəcaviz [keçmiş] islam köylərinin əksər əhalisi fəcianə bir surətdə qətl və bütün əbniyələri ehraq [binaları yandırıldığı] və əmvalı [malları] yağma edildiyinə və Zəngəzur qəzasını Ermənistana ilhaq [birləşdirmək] əzmi ilə Ermənistandan qüvveyi-əsgəriyyə varid olduğundan [gəldiyindən], hal-hazırda eyni faciələr mütəaqibən [ard-arda] vaqe olmaqda davam etdiyinə dair ətrafıyla məlumat verdiyindən sonra, mərqumətüz-zeyl tələbatı [aşağıda sadalanan tələbləri] Rəisi-vükəla [Baş nazir] həzrətlərinə təqdim və İngiltərə Komandanlığından dərxast etmək [tələb etmək, istəmək] üçün: 1) Mirzəağa Kərimzadə, 2) Həmid Paşazadə, 3) Fərəc bəy Hüseynzadə, 4) Əsgər bəy Yeganzadə, 5) Məşhədi Məhərrəm Hüseynzadə, 6) Bəhram bəy Yeganzadə, 7) Mustafa Əlizadə intixab edildilər.

Bərəkətli ormanları və filizat məadini [filiz mədənləri] sayəsində Qafqaziyada ümumən, Azərbaycanda xüsusən mövqeyi-mühüm ehraz etdiyindən maəda [mühüm yer tutmaqdan əlavə], qış fəsli Şuşa, Cəbrayıl, Cavanşir qəzalarında sükunət edici islam əhalisinin həyatında həvayi-mühit [hər şeyi əhatə edən hava] dərəcədə zəruri olub da Azərbaycanın təmamiyyəti-mülkiyyəsi [torpaq bütünlüyü] ilə mərbut [bağlı] bulunan Zəngəzur qəzası islamlarının qəlb yandırıcı təzəllümat və istimdadına [zülümlərinə və imdad diləməsinə] qarşı hökuməti-mətbuəmizin [tabe olduğumuz hökumətimizin] laqeydanə davranması şayani-təəccübdür [təəccüb ediləsidir]. Binaənileyh [ona görə], hökuməti-mətbuəmizdən tələb ediriz:

1) Zəngəzur qəzası islamlarına qarşı icra edilməkdə olan təcavüzati-zalimanələrə xatimə çəkmək, Zəngəzur qəzasını və islam əhalisini ədna qasib [alçaq qəsbkarlar] və zalım düşmən əlindən birdəfəlik xilas etmək uğrunda səri [sürətli] və qəti tədbirlər görülməsi;

2) Qarabağ general-qubernatoru tezlikcə kəndi vəzifə başına müraciətlə, fəaliyyətində davam etməsinə müsaidə verilməsi;

3) Zəngəzur qəzası ilə poçta-teleqraf müxabirə vəsaiti [rabitə vasitəsi] düzəlməsi üçün binagüzarlıq [sərəncam] edilməsi;

4) Zəngəzur islamlarına varid olmuş milyarlara baliğ [çatan] zərər və xəsarəti ermənilərdən alıb özlərinə qaytarmaq üçün tədabiri-lazimə ittixaz edilməsi [lazımlı tədbirlər görülməsi];

5) İngilis Komandanlığından tələb edirik, kəndi vədəsinə vəfa edərək Zəngəzur erməni camaatını Azərbaycana tabe və təslim olmağa məcbur etməyi;

6) Zəngəzurda davam etməkdə olan qətl-qarətin önünü alıb müqəssirləri cəzalandırmağı, yaxud əks təqdirdə bitərəf dayanıb müdaxilə etməməyi tələb ediriz.

Tələbatımız qəbul edilmədiyi təqdirdə, Bakı ətrafında bulunan zəhmətkeş islam camaatı təni-vahid [hamı bir nəfər] kimi kəndi din və qan qardaşlarımızın mü-

dafiəsinə qoşub, son damla qanımızı millətdaş və vətəndaşlarımızın xilası uğrunda tökəcəyimizi və heç bir qüvvə bizi əzmimizdən inhirafa [döndərməyə] qadir olammayacağını dəxi ittila [xəbər] veririz;

7) Hökuməti-mətbuəmizdən, Zəngəzur fəcayesini radio-teleqraf vasitəsilə Paris Sülh Konfransında Azərbaycan heyəti-mürəxxəsəsinə [nümayəndə heyətinə] ittila vermək xüsusunda müsaidə buyurulmasını rica ediriz;

8) Bahalıq məsələsində nırxların gündən-günə tərəqqisinə bir sədd qoymaq üçün bütün ərzaq və meyvəcata müəyyən fiatlar təyin edilərək, möhtəkirlərin cəzaya giriftar olmaları zimnində [məqsədi ilə] lazım məhəllinə [lazımi yerə] əmr verilməsini rica ediriz.

*Sədr: Mirzəağa Kərimzadə*
*Katib: Yusif Əbdürrəhimzadə*

## İZHARİ-TƏŞƏKKÜR

Müdir əfəndi! Cənabınızdan acizanə istida [xahiş] olunur ki, mənafeyi-ümumiyyə və xeyriyyə naminə bu neçə kəlmə təşəkküratımıza möhtərəm qəzetənizin bir guşəsində yer verəsiniz.

Şəvvalın qürrəsində [ilk gecəsində] eydi-fitr [Oruc bayramı] münasibətilə cəmiyyəti-maarifi-iraniyan [iranlılar maarif cəmiyyəti] "Tərəqqi"nin heyəti-idarəsi tərəfindən həvəskarlar iştirakı ilə məzkur [deyilən] cəmiyyətin nəfinə [xeyrinə] olaraq Fəhlə Klubunda bir nümayiş [tamaşa] tərtib verilmişdi. Nümayiş mərhəmətli yoldaşların səy və hümməti sayəsində qayət mütəntən [təntənəli] və parlaq keçdi. Əziz qonaqların şadlıq və yüksək ruhu drama heyəti tərəfindən tərtib verilmiş məramnamənin gözəl və maraqlı olduğunu isbat edirdi. Şayani-təhsin [alqışa layiq] burasıdır ki, alihümmət camaat maarif yolunda biletlərə sərf etdiyi paralardan əlavə, tamaşa gecəsi öz həsəbülnümayişləri ilə [öz imkanları qədərində] cavan cəmiyyətin sandıqcasına ianələr dəxi etdi. Nümayişdən hasil olan paralar:

Mədaxil: bilet və kontramarkalardan 10517 manat, ianədən 1335 manat, məramnamədən 314 manat 15 qəpik. Cümlətan mədaxil 16166 manat 15 qəpik.

Məxaric: marka vergisi 2050 manat 75 qəpik, salon və onun xadimlərinə 735 manat, musiqi müəllimi, tarzən, neyçi 550 manat, məramnamə, afişa, parikmaxer 600 manat, xırda xərclər 427 manat 45 qəpik. Cümlətan məxaric 4363 manat 15 qəpik.

Xalis mədaxil: 7803 manat.

Heyəti-idarə ianə və hər cəhətdən yardım edən zəvati-kirama [möhtərəm şəxslərə] və "İttihad" məktəbinin müdirinə və musiqi çalan şagirdlərə öz səmimi təşəkküratını izhar edir.

*Heyəti-idarə*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Şəhərdə isə asistentka R. Q. Risqind qəbul edir.





**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**İtibdir**

Şamil Qurban oğlunun Zəngəzurdan aldığı pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5442*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Parapetdə Ticarət komisyon kontoru**
**Gəncə şirkəti**

Telefon nömrə 75-06.

Elan edir ki, kontorda böyük partiya Buxara dəriləri və şəkər pesoku münasib qiymətlərlə satılır və habelə, bu günlər satış üçün Amerika ayaqqabıları və sair mallar alınacaqdır və həmin kontorda tülkü dəriləri dəxi alırlar.

*5444*

**Bakı Şəhər İdarəsi**

Elan edir ki, iyul ayının 20-də 1919[-cu] ildə ikinci dəfə olaraq səhər saat 10-da Petrovsk meydanında qarpız, qovun satmaq üçün olan yerləri müvəqqəti olaraq icarəyə vermək üçün müzayidə (torq) [hərrac] təyin olunubdur. Təfsilatı Şəhər İdarəsinin Ziraət şöbəsində bilmək olar.

*T-181*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 344. "Karnegi-holl" [Carnegie Hall]: Nyu-Yorkda, XIX əsrin axırlarında açılmış konsert salonu.

"N. R. K.": 1844-1970-ci illərdə nəşr olunan gündəlik "Nive Rotterdamşe kurant" [Nieuwe Rotterdamsche Courant] qəzeti nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 345. "dünyanın məzhəbi bərabərliyi lüzumundan ötrü": belə başa düşülməlidir: "dünyada dini tarazlığın qorunmasından ötrü".

**Qəzetələrdən**

səh. 346. "Dağıstanın şeyxülislamı": Əli Hacı Akuşinski nəzərdə tutulur.

**Məcdüssəltənə**

səh. 350. "Ümidvar": "Azərbaycan" qəzetində bu imza Ömər Faiq Nemanzadəyə məxsusdur.

**"Düşmənə" şeiri (səh. 350)**
**üçün lüğət:**

xun: qan
cəlladi-dun: alçaq cəllad
qət'i-ümmid: ümidi kəsmək
dəndan: dişlər
əhli-cünun: dəlilər, ağlını itirmişlər
dəsti-düşmən: düşmənin əli
xaki-vətən: vətən torpağı
zar ü zəbun: ağlayan və əsir
qəbzə: ovuc
gər: əgər
laləgun: lalə rəngində, qıpqırmızı
xunxar: qaniçən
Zöhhak: İran mifologiyasında insanla əjdahanın qarışığı olan surət; klassik ədəbiyyatda zülüm timsalı kimi işlənmişdir.
Zöhhakvar: Zöhhak kimi
sərnigun: başı aşağı çevrilmiş, baş-ayaq olmuş
sədayi-huy: hay-huy səsi
kuhi-Bisütun: Bisütun dağı
rəhnümun: yol göstərən
nafərcam: uğursuz, nəhs
qəm barı: qəm yükü
füzun: çox
iqbal: bəxt, uğurlu tale
müzməhil: məhv olmuş, alt-üst olmuş
sipəhri-nilgun: mavi rəngli səma
vajgun: məhv olmuş

"Fəxr qılma xəncəri-xunxarına Zöhhakvar": "Zöhhak kimi, qaniçən xəncərinlə öyünmə!" Bu misrada "xəncəri-xunxarına" (qaniçən xəncərinə) yerinə güman ki, "xəncəri-xunrizinə" (qan tökən xəncərinə) olmalı idi.

"olmarıq zar ü zəbun": qəzetdə belə getmişdir: "olmarıq nar ü zəbun"

Şeir Bədri (Bədrəddin) Seyidzadənindir.

**İrəvanlılar İttifaqında**

səh. 358. "Uzun bir sükutdan": qəzetdə "sükutdan" yerinə "süqutdan" getmişdir.

**Fəhlə həyatı**

səh. 359. "filizat məadini": qəzetdə "məadini" yerinə "müavini" getmişdir.

səh. 360. "Katib: Yusif Əbdürrəhimzadə": "Azərbaycan" qəzetinin əvvəlki nömrələrində, "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin katibinin adı Əbdürrəhim Yusifzadə kimi verilmişdir.



***“Azərbaycan” qəzetinin 229-cu nömrəsinin 1-ci səhifəsi***





**Bazar, 20 iyul 1919-cu il, nömrə 229**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 21 şəvvalül-mükərrəm sənə 1337. 20 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**OPERETTA**
**Hökumət Teatrosunda**
**Axşam tamaşası**

Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının müdiriyyəti Yekşənbə günü, şəvvalül-mükərrəm ayının 21-də (iyul ayının 20-də 1919-cu ildə) möhtərəm camaatın xahişinə görə mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin məşhur
**“Aşıq Qərib”** operası.
Balet, qızlar və oğlanlar xoru.
Böyük musiqi orkestri.
Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

**SABUNÇU İSTEHLAK CƏMİYYƏTİ**
**“EL DÜKANI”**

Bununla öz üzvlərinə elan edir ki, həmin iyul ayının 22-də düşənbə [bazar ertəsi] günü səhər saat 1-də Sabunçu Ali-ibtidai məktəbi binasında (1-ci polis idarəsi qarşısında) ümumi iclası təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) 1917 və 1918[-ci] illərin hesabına baxılıb və təsdiq olunması barəsində;

2) Yeni idarə heyəti seçilməsi barəsində;

3) İclasda qaldırıla biləcək məsələlər.

Qeyd: İclas ikinci dəfə olduğuna görə, hər nə qədər üzv olmuş olsa, iclas qanuni hesab olunacaqdır.

*Heyəti-idarə*
*5449*

**Bakı Şəhər İdarəsi**

Elan edir ki, iyul ayının 20-də 1919[-cu] ildə ikinci dəfə olaraq səhər saat 10-da Petrovsk meydanında qarpız, qovun satmaq üçün olan yerləri müvəqqəti olaraq icarəyə vermək üçün müzayidə (torq) [hərrac] təyin olunubdur. Təfsilatı Şəhər İdarəsinin Ziraət şöbəsində bilmək olar.

*T-181*

Ümum Bakı meşşan camaatına elan edirəm ki, bu iyul ayının 20-sində axşam saat 5 tamamda Duptatxanada (Təzəpirin həyətində) olacaq sxod [yığıncaq] qəyyum tikməkdən ötrü Bakı meşşanı Qriqori Deşevov üstündə və başqa işlər də müzakirəyə qoyulacaq Duptatxanadan ötrü.

*5447*

İyulun 21-də Şəhər İdarəsi binası, Su yolu şöbəsində neft motorları hər bir sistem 27 gücdən 5 gücədək, dəmir vərəqələr, kotanlar, şuruplar, taxta boçkalar, 4-6 düyməli otvodlar, qaz trubası lövhü və qeyri şeylər satmaqdan ötrü müzayidə (torq) [hərrac] təyin olunubdur.

Təfsilatı Su yolu şöbəsi dəftərxanasında saat 10-dan 2-yədək və həmçinin şeylər satılacaq yerdə, "Pajarnı komanda" binasında 10-cu Zavağzalnı 4-cü Çornı-qorod küçəsi, İtskoviçin zavodu qarşısında saat 10-dan 1-ədək bilmək olar.

*T-177*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabəd)*

**Xocayev** (Erməni fraksiyasından) - Həzərat! Deleqa yoldaşlarımın həpsindən sonra mən danışıram. Birinci iki yoldaşım hadisat haqqında heyətin məhəllində [yerində] toplamış olduğu bütün məlumatın əməli cəhətindən bəhs etdi. Bu məlumatın həpsini elam etmək [bildirmək] üçün mən iki sənəd göstərməli idim:

Birisi gərək ermənilər və gərəksə müsəlmanlar tərəfindən edilmiş şikayətləri havi [ehtiva edən] bəratül-qövldür [protokoldur] ki, çox uzun olduğundan onu oxumayacağam; ancaq dövləti nöqteyinəzərdən ermənilər üçün də, müsəlmanlar üçün də böyük əhəmiyyəti haiz [əhəmiyyət daşıyan] bir məsələdən bəhs edəcəyəm.

Erməni şikayətçilərinin böyük qismi göstərir ki, hadisat vaxtı Şuşa-Yevlax yolunda olduqlarından, mühafizə əsgərləri ya könüllülər mühafizəsi altında müəyyən yerlərə getməyə məcbur olmuşlardır. Və orada yol boyunda vətəndaşların əmn [təhlükəsizliyini] və rahatını mühafizə etmək üçün təyin olunmuş adamlar onları axtarmaq bəhanəsi ilə soymuşlardır.

Digər sənəd də Şuşadakı ingilis heyətinin, daha doğrusu ingilis heyəti nümayəndəsi polkovnik Klyatenberqin verdiyi xəbərdir. Bu vaxtadək ancaq ermənilərlə müsəlmanların, yəni mənfəətdar olan tərəflərin verdikləri məlumatı elam etmişik. Üçüncü məruzə isə kənarda buraxılmışdır. Əlimizdə olan məlumatı tamamilə bəyan və tənqid edə bilmək üçün mən həmin bu sənədi dəxi elam edəcəyəm. *(Klyatenberqin verdiyi məlumatı oxuyur. Salonda səs-küy qalxır. Səslər: Doğru deyil, bunlar həp yalandır.)*

İştə, həzərat, dün və bu gün burada elam edilmiş materialın həpsi bu! Bu məlumatın tənqidi nədən ibarət olmalıdır? Məncə bunun tənqidi iki cür ola bilər: əvvəla hadisatın səbəblərini açmaq, aydınlaşdırmaq, saniyən [ikincisi], məzkur [deyilən] hadisatda hökuməti-məhəlliyyənin [yerli hökumətin] rolunu təyin etmək.

Hadisatın səbəbləri nədir? Səmimi və insaf üzərinə bu suala bir cavab ola bilər: Bir tərəfdən Qarabağ ermənilərinin Azərbaycan Cümhuriyyəti Hökumətini qəbul etmək və tanımaq istəmədikləri, digər tərəfdən də Azərbaycan Cümhuriyyəti və onun nümayəndəsi, yəni hökumətin məhəlli nümayəndəsinin nə yolla olur-olsun Qarabağ ermənilərini Azərbaycana tabe etdirməyə çalışması. Bu hadisatın əsl səbəbi iştə budur!





Burada sizə deyirlər ki, əhalinin bu işdə təqsiri yoxdur. Onlar Azərbaycan Hökumətini qəbula hazırdırlar; fəqət bəzi qruplar, təşkilatlar, dəstələr onları qoymayırlar və tabe olmamağa məcbur edirlərdi. General-qubernator bu nöqteyi-nəzəri müdafiə edir. Görünür ki, deleqa heyətindəki müsəlman yoldaşlarım dəxi bu nöqteyi-nəzərə şərikdirlər. General-qubernator ancaq Şuşa Milli Şurası əzasının [üzvlərinin] təbidinə [qovulmasına, uzaqlaşdırılmasına] çalışırdı və təbid etdi. Ona görə anlaşılır ki, o ancaq həman əzanı müqəssir və mübəlliğ [təbliğatçı] sanır. Bilxassə ki, başqa şəxslərin təqib edildiyini görmədik və görməyiriz.

Mütəəssifanə [təəssüf ki], Milli Komitənin bütün fəaliyyətini təhqiq edə bilmədik. Nə üçün? Çünki nə mükatibə [yazışma, məktublar] vardı, nə dəftərxana, nə də Şura əzası. Bəziləri qaçmış, digər bəziləri təbid edilmişlərdi. *(Səslər, salonda ümumi səs-küy.)* Ancaq bilavasitə hadisata aid bir çox əmrlərə təsadüf etdik. Məncə Milli Şura heç bu qədər əhəmiyyət verilməyə dəyməz.

Deyirlər ki, erməni hissəsində Milli Şuradan başqa hökumət yox idi. Mayın 27-də köç başlanandan iyunun 4-nədək köçərilərlə ətraf kənd erməniləri miyanında [arasında] heç bir müsadimə [toqquşma] olmamışdır. Bəs nə üçün fəsadların hamısı Milli Şuraya isnad verilir, amma qeyd edilməyir ki, həman Şuranın tədbirləri sayəsində iş beləcə rahat keçirmiş. Bir də, müsəlmanıstanda bir erməninin tüfəngini almışlar. Bunun cavabında onun da xuliqan yoldaşları 2-3 gün sonra iki nəfər könüllünün silahını, hətta atını almışlardır *(Səslər: Könüllü deyil, əsgərin silahını almışlar!)* Birinin atını qaytarmışlar, digərinin atı və silahı qeyb olmuşdur. General-qubernator həman atla silahın qaytarılmasını tələb etdikdə Milli Şura onun dalınca adam göndərmişdir; çünki xuliqan atı minərək kəndə qaçmış imiş; lakin tapmamışlar, çünki iz itirmək üçün ayrı kəndə qaçmışdır. Milli Şura isə 10.000 manata bir at və 1.500 manata bir tüfəng alaraq könüllüyə *(Bir səs: Əsgərə)* vermək üçün ingilis heyətinə təslim etmişdir.

Bir də, deyirlər ki, Ermənistanda [Şuşanın ermənilər yaşayan hissəsində] hökumətsizlik, hərc-mərc hökmfərma imiş [hökm sürürmüş]. Bəlkə varmış; amma müsəlmanlar haqqında yox, çünki dava başlandıqda Ermənistanda bulunan müsəlmanlar həp salamat qalmışlar; amma müsəlmanıstanda 40 erməni tələf olmuşdur.

Bir də son dəqiqədə general-qubernator ultimatum kimi tələb edir ki: "Şəhərdə atışma ancaq təbid üçün Milli Şura əzasının təslimindən sonra yatırılacaqdır." Bunun müqabilində əzalar gəlib ingilis heyətinə təslim olurlar. Bunlar həp isbat edir ki, Milli Şurada əyləşənlər qaniçici deyilmişlərdir.

Məncə, ümumiyyətlə bu hadisatda müəyyən şəxsləri, yaxud qrupları və təşkilatı müqəssir tutmağa əsas yoxdur. İş təbliğatda, ya əhali içində hasil edilən əhval-ruhiyyədə deyildir. *(Qarabəyli: Düzdür.)* Əhval-ruhiyyə üsuli-idarədən asılıdır. Bunu isə hökumət və onun məhəlli nümayəndələri əmələ gətirirlər. Doğrudur, bəzi adamlar təbliğatla camaatı bir tərəfə mail edər, hökumət müqabilinə çıxara bilər. Fəqət hökumətin də əlində çox tədbirlər var ki, mübəlliğlərlə müba-

rizə edib əhval-ruhiyyəni dəyişdirə bilər. Deleqa rəisi doktor Qarabəyli general-qubernatorun bu məsələ ətrafındakı bütün tədabir və hərəkətini təsvib edir [bəyənir], haqlı görür.

Bir də, boykot məsələsindən bəhs etdikdə deyir ki, general-qubernator razı ola bilməzdi ki, ermənilər külli miqdarda ərzaq alıb onunla da əşqiya [quldur] dəstəsini təmin etsinlər. Mən sizi inandırıram, cənab Qarabəyov, ki, əhalini ərzaqdan məhrum etdikdə əşqiyanın heç vecinə də olmayır. Onlar sizdən, bizdən çox tapırlar, mütəzərrir [zərər çəkən] dinc əhali olur.

Bir də bunu qeyd etməlidir ki, hadisat zamanı hökuməti-məhəlliyyənin rolu nə imiş və necə rəftar etmişdir. Sabiq natiq, Çubaryanı tənqid edərkən öylə isnad verdi ki, guya o, general-qubernatoru talan əmələ gətirməkdə ittiham edirmiş. Xayır, öylə deyildir. O şeylər ki, Şuşada olmuşdur, heç kəs deyə bilməz və deməyir ki, Şuşada erməniləri qırmaq üçün hazırlanmış imiş. Bu ancaq geniş dairədə icra edilmiş (bəlkə ingilislərin də rizası ilə) bir nümayiş idi ki, erməniləri qorxudaraq Azərbaycan Cümhuriyyəti hökumətinə tabe olmağa, general-qubernatoru qəbula məcbur etmək məqsədi ilə vaqe olmuşdur. Ərz etdiyim kimi, burası pək böyük dairədə icra edilmiş bir nümayiş idi. Və əgər bir xəta və səhv olmuşsa, mən deməyirəm ki, bu, general-qubernator tərəfindən bir cinayətdir. Yoldaşım da böylə deməyir. Biz deyiriz ki, bu, ehtiyatsızlıqdır. Nəticədə müəyyən müsadimələrə bais ola biləcək tədbirlər görmək və bunu da əhaliyə xəbər verməmək ehtiyatsızlıqdır. Nə üçün general-qubernator bunu danır? Nə üçün deyir ki, bu iş nümayiş məqsədi ilə deyildi, köç yolunu mühafizə üçün idi? Gərək ermənilərin və gərək müsəlmanların iztirab və həyəcan içində olduğunu nəzərə alsanız görərsiniz ki, general-qubernator böylə bir halda o cür tədbirlər görmək mümkün olmadığını bilməyə bilməzdi. Çünki ermənilər böylə anlamışlar ki, onları qırmaq hazırlıqları görülür. Ona görə də silahlı adamlarını qaraqolların müqabilinə çıxarmışlardır. İki müsəlləh [silahlı] qüvvə qarşı-qarşıya durmuşdur.

Böylə bir zamanda, vəziyyət müşkül, xalq həyəcanlı olan bir halda heç əhəmiyyəti yoxdur kim qabaqca güllə atmışdır. Bilxassə ki, aralarında nizama tabe olmayan adamlar dəxi az deyilmiş.

Şuşa hadisəsini ehtiyatsızlıq hesab etmək olarsa, Qaybalı hadisəsi hökumətin fəaliyyətsizliyi və səhlənkarlığından başqa bir şey deyildir. Dün Qarabəyov isbat edirdi ki, general-qubernatorun kömək vermək və qırğının önünü almaq imkanı yoxmuş. Yoldaşlardan bəziləri deyirlər ki, orada müsadimə [toqquşma] olmuşdur. Xeyir, orada qırğın vaqe olmuşdur.

Deyirlər, kömək vermək üçün 17 verst dolama yol getmək lazım gəlirdi. Halbuki firqə ərkani-hərbi iqamət edən [diviziya qərargahı yerləşən] Xankəndi ilə Şuşa arasında telefon var. Bu surətlə, istəsəydilər qırğının önünü almaq üçün telefonla binaqüzarlıq edə [sərəncam verə] bilərlərdi. Amma etməmişlərdir. Deyirlər, etmişlər, fəqət gec olmuşdur. Yox, böylə deyil. Nədən hamı bilirdi, amma general-qubernator bilməyirdi ki, qırğın var. Deyirlər ki, erməni dəstələrinin hücumu təhlükəsi





varmış. Mən qəti surətdə deyirəm ki, şəhərə heç erməni dəstəsi gəlməyirmiş və gələ bilməzdi. Hərbi idarələr böylə şayiat əsası ilə iş görməzlər. Onlar kəşfiyyatçı göndərər, nə olduğunu bilərlər. Odur ki, demək olmaz ki, kömək göndərmək mümkün deyildi.

Bir də deyirlər ki, orada təqdim edilmiş olan çin [paqon] əsgəri deyil, məhkəmə məmurlarına məxsus bir şey olduğundan, kürdlərin iştirak etdiklərinə bir dəlil deyildir. (?) Binaənileyh [ona görə], Qaybalı kəndlilərin[in] sübutları əsassızdır. Amma adətən mütəzərrirlərin şəhadəti əgər cərh edilməzsə [əksi isbat edilməzsə], dəlil hesab olunar. Deyirlər, Qaybalıya kömək göndərmək olmazdı, çünki sair kəndlərin də köməyə ehtiyacı vardı. Fəqət, həzərat, qabaqca Qaybalı mütəzərrir olmuşdur. Binaənileyh, sair kəndlərdən Daşaltı və sairlərinə hücum edilməsindən bəhs olunammaz. Çünki onlar sonradan olmuş imişlərdir.

Bu işlərin həpsinə adi deyil, dövlət nöqteyi-nəzərindən baxılarsa, demək olar ki: əvvəla general-qubernator böylə hadisələrdə müsəlləh camaatın iştirakını məqul bir əmr [normal bir iş] sayırmış. Müsəlmanların özlərinin dediklərinə görə, orada Müdafiə Komitəsi var. Həman Komitə erməni sərhədinə müsəlləh adamlar göndərmişdir. Mən deyirəm ki, bu böyük xətadır, çünki general-qubernator özü təkrar bəyan etmişdir və heyət buna şərikdir ki, general-qubernatorun ixtiyarında hər növ nizamsızlığı yatırmaq üçün lazım gələn miqdarda müsəlləh müntəzəm qüvvə var idi.

Davada nizama tabe olmayan camaat özü əldə silah iştirak etmişdir. Şahidlərdən birisi deyir ki, bizim Müdafiə Komitəmiz var. Böylə ittifaqlarda [hadisələrdə] könüllü müsəlləh adamlar çıxarır. Bunlar heç bir nizama tabe olmayırar. Mən hər şeydən ziyadə diqqətinizi buna cəlb edirəm. Zira gələcəkdə burası bir ixtilaf və müsadimə mənbəyi və qanun və asayişi təhdid edici bir təhlükə ola bilər.

Bir mühüm məsələ də var: hadisatdan sonra heç bir təftişat və istintaq olmamışdır. On gün sonra bizim heyət getdi, hələ istintaq yox idi. Məncə bu iş Qaybalının qırğınından betərdir. Çünki cəza verilmədikdə, camaat öylə güman edər ki, insanın kefi nə istəsə edə bilər.

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərin məlumati-rəsmiyyəsi**

(Bakıda Azərbaycan simsiz teleqrafı qəbul eyləmişdir)

*15 iyul*

Qərb cəbhəsində - Göl dairəsində biz bir neçə kənd işğal edib, 13 min patron zəbt eyləmişik. Perm səmtində Krasnovun cənub cəhətində biz Baltik dəmiryolunu işğal eylədik. Düşmənlər bizim hücumumuza qarşı ciddi müqabilədə bulunurlar.

Kukov səmtində bizim hissələr Pskovun 10 verstliyinə çıxmışlar.

Yekaterinoslav səmtində bizim hissələr müvəffəqiyyətlərini vüsətləndirib, düşmən xəttini yarıb Yekaterinoslavı işğal etmişlərdir.

Balaşov səmtində bizim hissələr müharibə ilə bir neçə kəndləri işğal eyləmişlərdir. 3 pulemyot və bir neçə ingilis tüfəngi qənimət almışdır.

Kamışin səmtində bir əsir, pulemyot və düşmənlərin nəqliyyatını tutmuşuq. Cənub tərəfdə biz Qusevkanı tərk eylədik.

Şərq cəbhəsində - Ural səmtində bizim tərəfimizdən Terkul-Peremennaya mövqifi [stansiyası] işğal edilmişdir. Yuxarı Ural səmtində bu yerin 30 verstliyinə çıxmışıq.

Zlatoust səmtində Çelyabinsk dəmiryolu ilə düşmənləri təqib ediriz.

*16 iyul*

Kovel səmtində - Tərəfimizdən Bolşaya və Malaya Verbovka işğal edilmişdir. Kamenets-Podolski səmtində tərəfimizdən Slabodkovtsı işğal edilmişdir.

Yekaterinoslav səmtində - Suxaçyovka, Karnauxovka hissələrində düşmənlərin həmləsi dəf edilmişdir.

Kamışin, Balaşov səmtində biz müharibə ilə bir neçə kəndləri işğal eylədik. Pulemyot və vintovka alınmışdır.

Kamışin dairəsində əmələ alayı və süvari alayın zərbəsi ilə düşmənləri Kamışinin 75 verstliyinə püskürtmüşük.

Şərq cəbhəsində - Ural səmtində Terkul mövqifi tərəfimizdən işğal edilmişdir. Buzuluk səmtində Buzulukun 57 verstliyində müharibə davam edir.

* * *

Kiyev - Yekaterinoslavın bolşeviklər tərəfindən işğalı münasibətilə Rakovksi yazır:

*"Yekaterinoslavın işğalı göstərir ki, biz beloqvardistləri döymüşük, fəqət lazım olan qədər döyməmişik. Onları qətiyyən məğlub etmək lazımdır. Xarkov, Baxmaç bizə lazımdır. Çünki Rostov, Çerkassk, Stavropol, Taqanroqa yol buradandır. Düşmənlərin getdikcə qüvvəti ölür. Bizim qüvvələr isə artır."*

Saratov - 4-cü kabardin, 1, 3 və 4-cü çərkəz alayları öz xahişləri ilə bizim hissələrə təslim olmuşlardır.

Simbirsk - Yekaterinburqda Qırmızı qoşunların nümayişi vaqe oldu. Burada 20 min nəfərdən ibarət qoşunların nümayişi vaqe olmuşdur. Buraya cəm olanlar Şura qoşunlarının müvəffəqiyyətinə şaddırlar.

**Almaniya ilə əlaqə başlanır**

Lion - Amerika Xariciyyə Nəzarəti rəsmi surətdə elam edir [bildirir] ki, Almaniya ilə rəsmi surətdə müxabiratda bulunmaq qət edilmiş [əlaqə qurmaq qərara alınmış], onlarla Amerika ticarəti başlanmışdır.

**Kolçakın qətli**

Batumdan xəbər verirlər ki, iyulun 18-də admiral Kolçakın qətl edilməsi şayiələri şəhərdə dövran etməkdə imiş. Verilən xəbərlərə görə, Omsk mövqifində [stansiyasında] bir nəfər dəmiryol qulluqçusu admirala bomba atıb öldürmüşdür. Bomba patlayışından admiral Kolçak ölüb, yanında olan adamları, o cümlədən iki Fransa zabitləri yaralanmışdır.

**Əfqanıstanda**

London məlumatına görə, Hindistan vitse-kralı əfqan əmirinin nümayəndələrini iyulun 22-də ingilis torpağına dəvət eyləmişdir.

**İtaliyada böhrani-vüzəra**

London - Romadan xəbər verilir ki, İtaliyanın daxili və xarici vəziyyətindən dolayı böhrani-vüzəra [hökumət böhranı] davam edir. Orlando Paris səfərindən qayıtdıqdan sonra halı son dərəcə kəskin görmüşdür. Fəqət İtaliya məsələsi barəsində nikbinanə olaraq nöqteyi-nəzərini bildirdiyindən və böhrani-vüzəranın tərk edilməsi üçün hökumət tərəfindən lazım gələcək iqdamat ittixaz ediləcəyi [addımlar atılacağı] barəsində ümidvarlıq verdiyi üçün əhalinin halı yaxşılaşmışdır.

## SÜLH ƏTRAFINDA

Paris - Bu gün Onlar Şurası Ke d'Orseydə Türkiyə mürəxxəslərini [nümayəndələrini] qəbul eyləmişdir. Bunlar avtomobildə fransız afiserinin müşayiəti ilə gəlmişlərdir. Heyət Türkiyə işləri barəsində dokladda bulunmuşdur.

**Fiume hadisatı**

Fiumedə fransız saldatları ilə İtaliya saldatları arasında vaqe olan hadisəyə Dördlər Şurası artıq əhəmiyyət vermişdir. İşin çegunəliyini [necə olduğunu] ətraflıca öyrənmək üçün bir təhqiqat komisyonu intixab edilmişdir [seçilmişdir].

- Türkiyənin daxili əhvalını bilmək üçün Sülh Konfransı tərəfindən göndərilmiş olan komisyon İstanbula varid olmuşdur [çatmışdır].

**Fələstinin idarəsi**

Nikolayev - İngiltərənin təhti-idarəsində [tabeçiliyində] Fələstini idarə etmək üçün müvəqqəti bir idarə təşkil edilmişdir. Xarici siyasəti idarə üçün Mandenştam təyin edilmişdir.

**Şeyxülislam və Sultanın təbidi**

Lion - Şeyxülislam Sədrəzəmə [Baş nazirə] müraciətlə, Müttəfiqlərin Sultanı İstanbuldan köçürüb köçürməyəcəkləri barəsində sualda bulunmuşdur. Türkiyə ruhanilərinin başçısı bəyan edir ki, xəlifə həzrətlərinin paytaxtdan köçürülməsi bütün aləmi-islamın həyəcanına səbəb ola bilər. Sultanın İstanbuldan köçürülməsi təşəbbüsü yunanilərdən qalxmış və yunan patriki tərəfindən bu təşəbbüsə kömək edilir. Şeyxülislam axırda əlavə edir ki, Sultanın köçürülməsinə riza verməyəcəkdir. Şeyxülislamın bəyanatı Müttəfiqlərin səfirlərinə bildirilmişdir.

## CÜMƏ GÜNKÜ XƏBƏRLƏR

**Amerika-Fransa müqavilənaməsi**

Məlum olduğu üzrə, Amerika ilə Fransa arasında bir müqavilənamə əqd edilmişdir ki, Almaniya Fransaya hücum etdiyi əsnada Amerika Fransaya kömək etsin. Bu müqavilənamə Amerika siyasətinin təbəddülatını [dəyişdiyini] göstərir. Vilson ilə Klemanso Yelisey Sarayında sadə bir miz üzərində məzkur [deyilən] müqavilənaməni imza etmişlərdir. Sonra Lloyd Corc eyni məzmunda İngiltərə ilə Fransa arasında olan əqdnaməni imza etmişdir. Gələcək tarix üçün bu iki sənəd sülh müahidənaməsi [sazişi] kimi mühümdürlər. Siyasi mənbələrdən verilən xəbərlərə görə, Amerika müahidənaməsinin layihəsi Lansinq tərəfindən hazırlanmışdır ki, bir çox maddələri vardır. Bu maddələr sülh müahidənaməsinin Almaniya tərəfindən xələldar edildiyi [pozulduğu] zaman Fransanın Amerikadan

müavinət tələb etmək ixtiyarı olduğunu aşkar göstərir.

**İtaliya Kabinəsinin istefası**

Verilən xəbərlərə görə, Orlando Kabinəsi istefa vermişdir. Romadan verilən xəbərlərə görə, Kabinənin istefasına səbəb bu olmuşdur ki, Palata 78 səs əleyhinə, 250 səs ilə Orlandonun məxfi Parlaman iclası təklifini rədd etmişdir.

- Havas acentəliyi xəbər verir ki, İtaliya Kabinəsinin istefasına səbəb bu olmuşdur ki, Palata əcnəbi siyasətlə əlaqədar olan məsələlərin gizli deyil, aşkara müzakirə edilməsini istəmişdir.

- Doktor Dillon İtaliya Kabinəsinin istefası haqqında “Deyli teleqraf” qəzetəsinə göndərdiyi teleqrafında deyir ki, İtaliyada narazılıq hökmfərmadır [hökm sürməkdədir]. İtaliyanı mənəvi, iqtisadi və siyasi böhran təhdid etməkdədir. Maksimalistlər iki firqəyə ayrılmışlardır. Birinci firqə inqilabçılar firqəsidir ki, müharibə əleyhinədirlər. Bunlar hal-hazırda davam edən tərzi-idarəni endirib, füqərayi-kasibə [proletariat] hakimiyyəti ilə kommunist cümhuriyyəti vücuda gətirməyə çalışır. İkinci firqə isə müharibə tərəfdarıdırsa da, lakin müharibə nəticəsindən peşman olmuşdur. Bu firqə bahalıq əleyhinə olan tətil elan etmişdir. Maksimalistlərin düşməni millətpərəstlər və militaristlərdir ki, Sülh Konfransının İtaliya məsələlərinə olan münasibətından narazıdır. İtaliya Hökuməti bu iki müddəi [iddiaçı; bir-biri ilə münaqişə edən] firqələrin toruna düşmüşdür.

**İtaliyada iğtişaş**

Romadan xəbər verirlər ki, sənaət [sənaye] aləmində həyəcan davam edir. Genuyada nümayişlər edilmişdir. Neçə yüz adam həbsə alınmışdır, banklar qapanmışdır. Tramvay hərəkatı dayanmışdır.

Lion - Beşlər Şurasına rəsmi surətdə xəbər verilir ki, iyul ayının 10-da İtaliyada iğtişaşlar əmələ gəlmişdir. Nəticədə neçə yüz adam yaralanıb və həbs edilmişdir.

**Yaponiya və Kolçak**

Parisdən xəbər verilir ki, Yaponiya heyəti Yaponiyanın Kolçak hökumətini təsdiq etməsi haqqındakı Amerika xəbərini təkzib etmişdir.

**“Oleq” kruvazerinin qərqi**

Bolşevik teleqrafları xəbər verir ki, iyunun 18-də Tolbuxin mayakı yanında İngiltərə sualtı qayığı “Oleq” kruvazerini [kreyserini] qərq etmişdir.

**Almaniya-eston müharibəsi**

Almaniya əsgərləri eston və latışlara qarşı müharibəni tərk etmişlərdir.

**İrlandada**

London - Dublində qrafinya Markeviç həbs edilmişdir.

**Vilhelmin qardaşı**

Berlindən xəbər verirlər ki, Vilhelmin qardaşı prins Henrix [Albert Vilhelm] teleqrafla Kral Georqa müraciət edib, Vilhelmin ələ verilməsi tələbindən imtina edilməsini xahişlə, müharibə səbəbləri təhqiq edilmək üçün özünü kral Georq ixtiyarına verməyə hazır olduğunu bildirmişdir.

**Çində iğtişaş**

- Pekində verilən xəbərlərə görə, Parlaman izhar etmişdir ki, rəisi-cümhurun istefasını qəbul etməyə vəkil edilməmişdir. Maksimalistlərin inqilab törətmək niyyətində olduqları məlum olduğuna görə, əhval bir qədər həyəcanlıdır. Yaponiya tərəfdarı olan qulluqçulardan 3 nəfəri xidmətindən əzl [kənar] edildiyinə görə, Şimali Çində əhval bir qədər yaxşılaşmışdır. Roytera xəbər verilir ki, rəisi-cümhur başda olmaq üzrə iki nəfər Çin naziri istefa verdiklərindən şəhər üsyanı yatmışdır. Müttəfiq dövlət səfirlərinin müdaxiləsi işləri düzəltmişdir.

- Şanxay xəbərlərinə görə, tətil edən tələbələr hamı fəhləri tətilə çağırırlar. Qulluqçular və şəhər əmələləri tətilə başlamışlardır. Şanxay-Nankin və Şanxay-Hançjou dəmiryolunda olan maşinistlər tətilə qərar vermişlərdir. Başqa dəmiryollarda tətil gözlənir. Pekin hökuməti Yaponiya tərəfdarı olan xidmətçiləri iş başında saxladığına görə, ümumi tətil gözlənir. Şanxaya ərzaq gətirilməsi qadağan edilmişdir. Buraxılmayacağı da gözlənir. Tələbələr Müttəfiqlərə müraciətlə Əqsayi-Şərq [Uzaq Şərq] militarizmi əleyhinə müavinətdə bulunmağı xahiş etmişlərdir.

**Müttəfiqlər və Kolçak**

Parisdən xəbər verirlər ki, Müttəfiqlərlə Kolçak arasında olan müxabirat [rabitə] rəsmi surətdə elan edilmişdir. Müttəfiqlərin notasına cavabən Kolçak tərəfindən yazılan məktuba cavab olaraq Müttəfiqlər deyirlər ki, Kolçak Rusiya camaatının və onun qonşularının sülhünü və özlərini idarə etməyi təmin etdiyinə görə, onlar Kolçak hökumətinə müavinət göstərməyə və onu hər bir lazım olan şeydən təchiz etməyə hazırdırlar.

**Petroqrad altında**

Stokholmdan xəbər verirlər ki, Krasnoqorka qarnizonu bolşeviklər əleyhinə üsyan etmişlərdir. Krasnoqorka Kronştadtdan topa tutulmuşdur. Atəş davam edir. “Deyli meyl” qəzetəsi Helsinqforsdan [Helsinkidən] xəbər verir ki, Kronştadt qalası yanır. Bolşeviklərin 7 hərbi paroxodu ağ bayraq qaldırıb İngiltərə gəmilərinə təslim olmaq üçün azim olmuşdur [hərəkətə keçmişdir]. Eston məlumatına görə, estonlar düşmən təzyiqi altında əvvəlcədən topları xarab edib Krasnaya Qorkanı boşaltmışlardır.

**Vyanada kommunistlər**

Vyanadan xəbər verirlər ki, kommunistlər inqilab törətməyə çalışmışlardır. Böyük bir dəstə həbsxananı mühasirə edib məhbusları azad etmək istəmişdir. Əsgərlər gələn kimi dəstə qaçmışdır. Təlefat çoxdur.

**Vyanada nümayişlər**

Almanlarla məskun Avstriyada sülh müahidənaməsi [sazişi] əleyhinə nümayişlər davam edir. Petrol məsələsinin həlli xeyli narazılığa səbəb olmuşdur. Avstriya Aşağı Palatasında natiqlər demişlər ki, sülh şəraitinin qəbulu qeyri-mümkündür. Müttəfiqlər bu şəraiti yüngülləşdirməlidirlər.

**Dardanelin tərksilah edilməsi**

Havas agentəliyi xəbər verir ki, Müttəfiq dövlətlər Dardaneli tərksilaha şüru etmişlərdir [başlamışlar]. Dardanel Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] kontrolu altında hamı gəmilər üçün açıq olacaqdır.

**Fransada**

Londondan xəbər verilir ki, fransız dəmiryollarında və poçtxanalarında ümumi tətil başlandığı üçün hökumət qərar qoymuşdur ki, bu vaxta qədər silah altına dəvət edilməmiş olan hamı əmələlər [fəhlələr] tətil edərlərsə, hərbi məmurların əlinə veriləcəklər və divani-hərb [hərbi məhkəmə] tərəfindən mühakimə ediləcəklər.

**İngilislərin məlumati-rəsmiyyəsi**

Müttəfiqlər tərəfindən imza edilməli olan üçüncü sülh müahidənaməsinə [sazişinə] Türkiyə, Bolqariya, Macarıstan və Rusiya da daxildir. Türkiyə məsələsi çox əngəl törədir. Zira İstanbul, Ərəbistan, Ermənistan, Suriya və sairə məsələləri vardır. Bunlardan əlavə daireyi-nüfuz məsələsi vardır. Bolqariya, Macarıstan məsələsi həlli Rusiya məsələsindən az vaxt istəyir. Rusiya məsələsi də hakəza [həmçinin]. Təzə sərhəd təyin edilməlidir. Və böyləliklə Rusiyada yeni cümhuriyyətlər təşkil edilir.

## TÜRKİYƏDƏ

**Trabzonda patlayış**

Mövsuq [etibarlı] mənbələrdən alınan xəbərlərə görə, Trabzonda olan patlayışın səbəbi budur:

Dabravol ordusu əski Qafqaz ordusu tərəfindən Trabzonda buraxılmış top, güllə və qeyri şeylərdən ibarət olan külli miqdarda rus əmvalını [mallarını] Müttəfiqlərin razılığı ilə təhvil almalı imiş. Bu şeylərin bir hissəsi paroxodlarda Novorossiyskə aparılmışdır. Top güllələrindən və başqa patlayıcı şeylərdən ibarət olan digər hissəsi iyulun 12-də limanda olan paroxodlara yüklənməli imiş. Axır dəqiqədə 4 patlayış olub, cəbbəxana və barıt anbarları havaya atılmışdır. Patlayış o qədər güclü olmuşdur ki, Tripolidə eşidilmişdir. Şəhərin yarısı patlayışdan xəsarətdidə olmuşdur. Cəbbəxanalara yaxın olan evlər tamamilə bərbad olmuşdur. Xəbər verirlər ki, cəbbəxanaları mühafizə edən İngiltərə əsgərlərinin hamısı tələf olmuşdur. Top güllələri olan Soyuqsu kəndi böyük xəsarətə uğramışdır. Patlayışın səbəbini öyrənməkdən ötrü Müttəfiqlər komisyonu Trabzona gəlmişdir.

## KÜRDÜSTAN HÜDUDU

**Şərif paşanın müxtirəsi**

"Nor aşxatavor"a Fransadan yazırlar:

Parisdə olan [Məhməd] Şərif paşa Sülh Konfransına təqdim etdiyi uzun bir müxtirəsində [rəsmi müraciətində] kürdlərin tələbatının haqlı olduğunu isbat edir. Həman müxtirəyə nəzərən, Kürdüstanın hüdudu etnoqrafi cəhətincə bu qərar ilə olasıdır:

Şimalda Zivəndən (Qafqaziya hüdudu üstdədir) başlanıb qərbə tərəf gedərək Ərzurumu, Ərzincanı, Kəmahı, Ərəbgir, Besni, və Divriyi; cənubdan Harran-Sincar təpələri ilə Təlafər, Ərbil, Kərkük, Süleymaniyyə, Akkelman, Sənəndəc; şərqdən Rəvanduz, Başqala və Vəzirqalanı, yəni Marağandan Araratadək olan hissəsini tutur.

Bu müxtirə xüsusunda "Monitor" qəzetəsinin mühərririnə mümaileyh [adı çəkilən] paşa demişdir ki, məzkur [deyilən] yerlərin hansı bir hissəsi ermənilərə verilərsə, kürdlər onlarla şiddətli dava başlamağa məcbur olub, öz aralarında olan erməni əhalisini fövrən [dərhal] qırmağa başlayacaqlar və əlavə etmişdir ki, necə ki, bilirsiniz, bu işdə kürdlər artıq məharət kəsb etmişlərdir [qazanmışlar].

## DAĞISTANDA

**İnquşistanda**

Alınan xəbərlərə görə, Voznesensk kəndi inquşlar tərəfindən işğal edilmişdir. Nəqliyyat ilə üç top qənimət alınmışdır.

"T. k." qəzetəsi xəbər verir ki, əhalini sakit etməkdən ötrü guya Surxoy kəndi hündürlükləri üçün müharibə davam edir. Ekajevo kəndində isə dabravol əsgərləri vardırlar.

İnquşistandan verilən xəbərlərdə isə deyilir ki, Ekajevo, Bazorkino və Surxoy rayonunda olan dabravollar Kambilevka çayının o biri tərəfinə atılmışlardır. O zaman dabravollar Qalaşki tərəfinə hücum etmişlərsə də Feldmarşalskaya kəndi yanında geri atılmışlardır.

Nümayəndə sifəti ilə Dabravol ordusu ilə danışmağa gedən 10 nəfər inquş, dabravollar tərəfindən qətl edildiyinə görə, əhval dəxi də ciddiləşmişdir. Voyennı qruzinski yol Balta rayonunda kazaklar əlindədir.

İnquşistanın hər yerində üsyan hərəkatı artmaqdadır. Üsyançılar böyük və mütəşəkkil qüvvədən ibarətdirlər. Alınan məlumata görə, üsyançılar Vladiqafqaz altında Dabravol ordusuna böyük zərbə endirmişlərdir. Vladiqafqaz dabravollar tərəfindən təxliyə edilir. Ola bilər ki, Vladiqafqaz şəhərini müharibəsiz inquşlara təslim etsinlər.

**Don kazakları arasında**

Verilən məlumata görə, Don kazakları arasında üsyan qalxmışdır.

## NAXÇIVAN-ŞƏRUR MƏSƏLƏSİ

**- 2 -**

Erməni Cümhuriyyətinin ilk təcavüzü nəticəsində Araz Türk Cümhuriyyəti Hökuməti pərişan oldu. Hökumət əzaları [üzvləri] ətrafa dağıldılar. Əzalardan bir çoxu isə Naxçıvana toplandılar və orada yerli ziyalı müsəlmanların təşəbbüsü ilə bir Milli Şura intixab etdilər [seçdilər]. Sonra bu Milli Şuranın intixab və təsdiqi ilə yenə cümhuriyyət şəklində bir hökumət düzəldib qurdular.

İştə, bu hökumətin zamanında idi ki, erməni cümhuriyyəti hökuməti təcavüzkarlığını Naxçıvan və Şərur tərəflərinə qədər yeritməkdə idi ki, Şərur Dəhnəsi deyilən mövqedə Naxçıvan və Şərur əsgərləri tərəfindən aldıqları şiddətli zərbə nəticəsində erməni əsgərləri münhəzim [qovulmuş] və pərişan olub, məğlubən fərar etmişlərdi.

Naxçıvana ingilislər tərəfindən general-qubernator təyin olunan polkovnik Lauton tam bu əsnada aralığa girib müharibəni dayandırdı. Erməni Cümhuriyyəti ilə Naxçıvan Hökuməti arasında həddi-fasil [ayırıcı, neytral ərazi] olaraq bitərəf bir məntəqə düzəltdi. Sonra polkovnik

Lauton erməni və Naxçıvan hökumətlərinə və camaatlarına xitabən rəsmi bir elamnamə [bildiriş] buraxdı. Elamnamənin eynən surəti budur:

*"Nömrə 28.*

*3 cəmaziyüs-sani 1337 hicri*

*İngilis Hökuməti tərəfindən hər kəndin ümum əhalisinə elan:*

*1) Əmniyyət və asayiş üçün Araz çayının tamam hüdudu müvəqqəti olaraq İngilis Hökumətinin əlində qalacaq.*

*2) İrəvan Hökuməti (yəni erməni cümhuriyyəti hökuməti) müvəqqətən Yuva kəndindən qədim İrəvan uyezdinin hüduduna qədər İngilis Hökumətinin təhti-nəzarətində [nəzarəti altında] olaraq icrayi-hökumət edəcəkdir.*

*(Yuvadan Sədərək kəndinə qədər olan yerlərdə, yəni bitərəf qərar verilmiş məntəqədə idareyi-hökumət ingilis əlində qalıb, qulluqçular, yəni hökumət məmurları isə müsəlmandan olacaqdır.)*

*3) Fövqdə məzkur [yuxarıda deyilən] hüduddan (yəni bitərəf məntəqədən) bu yana Sədərəkdən başlayıb Culfaya, Ordubada qədər Naxçıvan Hökuməti olaraq bir müsəlman hökuməti dəxi ingilis təhti-nəzarətində bərqərar olacaqdır.*

*4) Erməni hökuməti öz saldatlarının hamısını məzkur hüduddan (yəni müsəlman hökuməti hüdudundan) geri aparacaqdır. Ancaq bitərəf məntəqənin Dəvəli kəndindən Yuva kəndinədək olan hissəsində kiçik bir müfrəzədən [dəstədən] ibarət 40 nəfərlik erməni saldatı, bir müfrəzə ingilis saldatı ilə bərabər Dəvəlidə qalacaq."*

Elamnamə 9 maddədən ibarətdir. Məqaləmizə aid olan iştə bu 4 maddəsi idi ki, dərci lazım göründü.

Naxçıvan ingilis general-qubernatoru imzası ilə təsdiqlənmiş və onun tərəfindən rəsmi olaraq buraxılmış bu elamnamə dəxi açıq göstərir ki, Erməni Cümhuriyyəti ilə Naxçıvan Hökuməti siyasət nəzərində yek-digərindən [bir-birindən] fərqi yox. Bunun üçün ikisinin də hüququna bir nəzərlə, bir vicdanla baxmaq icab edir.

* * *

Şərur Dəhnəsi müharibəsinin qalibiyyəti Naxçıvan Hökuməti heyəti-əzasından bulunan Naxçıvan xanlarına [Naxçıvanski] Kəlbəli xanın şəxsi vasitəsilə böyük bir nüfuz və təfəvvüq [üstünlük] verdirdi. Zira Dəhnədə erməni əsgərlərini məhv və pərişan etmək keyfiyyətində ən böyük rolu Kəlbəli xan oynamış və o müharibənin qəhrəmanı namını [adını] əhali arasında məhəbbətlə o qazanmışdı.

Bu əsnada hökumət əzası miyanından [arasından] bir Hacı ... Şərur məsələsində məmləkətə qarşı xainanə bir intriqa çevirmək istəmiş, fəqət müvəffəq olammamışdır.

Binaənileyh [ona görə], Kəlbəli xanın nüfuzlanması sayəsində hökumət əzalarına iş başından əl çəkdirilmiş və Naxçıvan Hökuməti Kəlbəli xan, atası Cəfərqulu xan, qohumları [İrəvanski] Kərim xandan ibarət üç nəfər xanın idarəsi altında yeni bir diktatorluq hökuməti halına münqəlib olmuşdur [çevrilmişdir].

Bu xanlar idareyi-hökuməti tamamilə əllərinə alandan sonra nüfuzlarından suiistifadə etməyə başlamışlardı. Böylə ki, Naxçıvanın yanı başında vaqe İranın Maku xanlığının sərdarı bulunan Murtuzaqulu xan ilə Naxçıvan xanlarının qohumluğu diktatorluq məqamında bulunan





Naxçıvan xanlarında böyük bir cürət və artıq bir tamah oyandırmışdı. Bu isə Naxçıvanı və ətrafını İrana ilhaq etdirmək [birləşdirmək] və sonra da özlərini bu yerlərin hakimi-mütləqi, xanı elan edərək bu qitəni [ərazini] də kəndi idarələri altında İranın Maku xanlığı kimi imtiyazlı bir xanlıq halına yetirməkdən ibarət bulunmuşdur. İştə, fövqdə məzkur [yuxarıda adları çəkilən] xanlardan ibarət olan Naxçıvanın diktator hökuməti bu niyyətlə Maku xanının vasitəsilə Təbrizə, İran vəliəhdi yanına xüsusi nümayəndələr göndərmişlər. Məqsədlərini müş'ir [xəbər verən] rəsmi ərzi-hallar təqdim etmişlər və ərzi-hallarının Tehranda xaki-payi-şahanəyə [padşahın ayağının torpağına] təqdim edilməsini həzrəti-vəliəhddən rica və təmənnada bulunmuşlardı. Bu əsnalarda Araz boyu müsəlman torpaqlarının idarə əhvalı bu şəkildə idi:

Erməni Cümhuriyyəti hökuməti Zəngibasar, Gərnibasar mahallarını bəzi hiylələr, cəbrlər, aldatmalar nəticəsində təhti-hökmranisinə [hökmranlığı altına] daxil etmiş və genə o vasitə ilə müsəlman mahalı olan Sürməlinin ancaq Daşburun deniləri yerinə qədər istila edə bilmiş, ondan bu yanasına yerli müsəlmanların və məhəlli [yerli] kürdlərin qorxusundan irəliləyəmməmişdi. Daşburundan o yana, Aralıq, Başkənd tərəfləri isə yerli kürd və türklərdən ibarət olmaqla, özlərinin intixab etdikləri [seçdikləri] Milli Şura vasitəsilə idarə olunmaqda idi.

Sürməlinin qərb yanında böyük və zəngin duz mədəni ilə məşhur olan Qulb və ətrafı yerli əhalisi müsəlman-türk olmaq etibarilə Milli Şuraları və İcraiyyə Komitəsi vasitəsilə müsəlmanlar tərəfindən idarə edilməkdə idi. Bunların qərb və şimalında Kağızman, Ərdahan, Qars, Sarıqamış, Oltu, Ardanuç tərəfləri isə Qars Hökuməti-islamiyyəsinin təhti-idarəsində idi. Ordubad və həvalisi də [ətrafı da] əvvəldən bəri özlərini Azərbaycan hissəsi sayıb, fəqət hökuməti-məzkurənin [adı çəkilən hökumətin] bilavasitə müavinətinə əlləri çatmadığından, müntəxəb [seçilmiş] Milli Şuraları və hökuməti-icraiyyələri vasitəsilə kəndilərini idarə etməkdə idilər.

Sədərəkdən buraya qədər olan hissə isə bitərəf məntəqə namı altında ingilis, erməni və Naxçıvan hökumətlərinin təhti-nəzarətində [nəzarəti altında] idi.

*M. B.*

## BAKI XƏBƏRLƏRİ

**Tağıyev fabrikasında**

Tağıyev fabrikasında baş verən hadisəni təhqiq üçün "Müsavat" firqəsi ilə "Hümmət" firqəsi tərəfindən intixab edilmiş [seçilmiş] xüsusi komisyon işini bitirib, məlumatımıza görə, lazım gələn materialı hökumətə təslim etmişdir.

**Cəmiyyəti-Xeyriyyədə**

Bakı Cəmiyyəti-Xeyriyyəsi Səhiyyə Nəzarətinə xəbər verir ki, davaxana [aptek] açılması haqqındakı təklifini Cəmiyyət qəbul edir.

**Yetimlər yurdu**

Bakıda müsəlman yetimlər yurdunun rəisəsi Sona xanım əfəndi Cəmiyyəti-Xeyriyyə idarəsinə xəbər verir ki, Sentrodom [Mərkəzi Ev Komitəsi] bağlanaca-

ğına görə, yetimlər yurdu zəruri şeylərdən məhrum qalacaqlar. Ona görə, bir tədbir görülməsini rica etmişdir.

**Doktor Nərimanov**

Şəhərdə dövran edən şayiata görə, doktor Nəriman bəy Nərimanov Şura Hökuməti tərəfindən Xarici İşlər komissarına müavin təyin edilmişdir və bu günlərdə Hacı-Tərxandan Moskvaya əzimət etmişdir [yola düşmüşdür].

**Yeni polismeyster**

Aldığımız məlumata görə, Bakı polismeysterliyinə Mirzəyev cənabları təyin edilmişdir.

**İtaliya-Qafqaziya Bankı**

Bakıya gəlmiş İtaliya heyətinin verdiyi xəbərlərə görə, Romada İtaliya-Qafqaziya Bankı təşkil edilmişdir.

**Kooperasiya qurultayı**

18 iyulda vaqe olacaq Kooperativlər qurultayına Müsəlman Kəndçilər İttifaqından da nümayəndə dəvət edilmişdir.

**Mənzil qanunu**

Mənzil Komisyonu üzvü Qadaseviç Hökumət rəisi Nəsib bəy həzrətləri ilə Mənzil qanunu haqqında müsahibədə bulunmuşdur. Rəis həzrətləri xəbər vermişlər ki, hərgah ağustosun 1-ə kimi yeni Mənzil qanunu Parlaman tərəfindən qəbul olunub qurtarmasa, köhnə qanun öz qüvvəsində qalmalıdır.

**Birjada**

Kerenski pulunun kursu təbədüllatsızdır [dəyişməzdir]. Nikolay yüzlükləri bir az möhkəmdir. Yüzlük 370 manata gedir. Bon pulları əskilir. Əlan [indi] 25 faizlə gedir. Zaqafqaziya bonları qalxır. Məzənnə 3-dür.

**Valyuta**

Valyuta təbədüllatsızdır. İngilis funtuna və türk lirəsinə etibar artır. Rus gümüşü əskilmədədir.

**Buzovnada**

Cümə axşamı, iyulun 17-də Buzovna kənd idarəsi həyətində Əksinqilabla Mübarizə Komitəsinin rəisi Məhəmmədbağır Şeyxzamanov, Balaxanı-Sabunçu polismeysteri Səməd bəy Əliisgəndərov kəndliləri yığıb Buzovnada davam edən hər iki tərəf ədavətçinin əqrəbasını bir yana və bitərəf camaatı da otağa yığıb bitərəf camaatdan ədavətçilər haqqında məlumat toplamışlardır.

Ondan sonra camaat şikayət etmişdir ki, əhalidən oğullarını əsgərlik xidmətindən gizlədən vardır. Ona görə, Şeyxzamanov cənabları əsgərlik haqqında bir nəsihətdən sonra, Balaxanı-Sabunçu polismeysteri Səməd bəy cənabları camaatın hamısını bir yerə toplayıb əvvəl əsgərlik barəsində uzun bir nitq söyləmiş, camaatı müdafieyi-vətən və millətə dəvət etmişdir. Axırda təklif etmişdir ki, oğullarını gizlədənləri xəbər versinlər.

Alqışlardan sonra camaat xahiş etmişdir ki, kənddə olan ədavətli tərəflər barışsın. Bundan sonra oğurluq olarsa, oğruları hökumətə təslim edəcəklərini söz vermişlərdir. Bu barədə Səməd bəy Əliisgəndərov cənabları camaata söz vermişdir və rica etmişdir ki, camaat da zərərli adamları təslim etməkdən qaçmasınlar.





**Mərdəkanda böyük oğurluq**

İyulun 13-də gecə saat 12-dən sonra 7 nəfər naməlum şəxs Mərdəkanda Hacı Möhsün Məhəmmədəlizadə, qardaşı Məşhədi Həsən və kürəkəni Qafar Babayevin evinə girmişlər və tüfəng təhdidi altında kişiləri bir otağa almışlar, arvadları qeyri otağa. Bu tədbirlərdən sonra kişiləri soymağa başlamışlar. Hacı Möhsündən 35 min manat nağd pul, ailəsindən 3 parça qızıl qolbağı, qardaşı Məşhədi Həsəndən 4600 manat pul, ailəsindən bir dənə boyunbağı, bir cift qolbağı və evdən bir tapança, 20 girvənkə qənd, Qafar Babayevdən 60 min manat nağd pul, ailəsindən bir qızıl saat, mirvari, cıqqabağı, bir qızıl kəmər, iki dənə sırğa, bir dənə boyunbağı və bir çox zənanə libası almışlardır. Bunları alandan sonra hədələyiblər ki, bayıra çıxmasınlar və özləri qaçmışlar.

Sabahı bunlar əvvəl kəndxudaya və sonra Suraxanı pristavı Yusif bəyə şikayət etmişlər. Ancaq bu vaxta kimi iki nəfər tutulmuşdur, onlardan da biri ləzgidir. Tutulanlar boyunlarına almışlar ki, bu oğurluqdan xəbərləri var, yoldaşlarını da böylə nişan vermişlər: Mərdəkandan Xələf, Əlikişi Balakişi oğlu, Şağandan Əlibala faytonçu, o biriləri naməlumdur. Bu xüsusda ciddi təhqiqat icra edilir.

## AZƏRBAYCAN NÜMAYƏNDƏSİNİN GENERAL KORİYƏ MÜRACİƏTİ

"Nor aşxatavor" yazır ki, Gürcüstanda Azərbaycan siyasi nümayəndəsinin vəzifəsini ifa edən [Faris bəy Vəkilov] Müttəfiq hökumətlərin Qafqaz qüvayi-əsgəriyyəsi [qoşunları] komandanı general Korini ziyarət edərək uzun müsahibədə bulunmuşdur və bu məzmunda bir müraciətnamə təqdim etmişdir:

*"Mənim hökumətim hər gün xəbər alır ki, İrəvan vilayəti əhaliyi-müsliməsi [müsəlman əhalisi] Ermənistan Hökuməti tərəfindən təqibat və təzyiqata giriftar edilmişdir. Müsəlman kəndlərinin üzərinə erməni qoşunları göndərilib qırğın törədilir. Hətta arvad-uşağa da rəhm etməyirlər. Yandırılıb təxrib edilmiş kəndlərin qaçqınları hər gün Tiflisdən Azərbaycana müraciət edib fəryadla imdad istəyirlər. İrəvan mahalının müsəlman əhalisi Müttəfiq hökumətlərin xahişinə müvafiqətlə [xahişinə uyğun olaraq] zorən müvəqqəti olaraq Ermənistan Hökumətinin təhti-idarəsinə [tabeliyinə] verilmişdir. Bu əhvalın elanından sonra hər gün ingilis hökmdarlığı əhali təşkilatı tərəfindən hədsiz etirazlar almışdır. Həman etirazlarda açıq-aşkara deyilir ki, yaxın keçmişlərin qanlı vüquatı [hadisələri] müsəlmanları qoymayır inansınlar ki, erməni hökuməti onlarla biqərəz rəftar edəcəkdir və onları vadar edir özlərinin gələcək istirahətlərinin pozulmağından ehtiyat etsinlər. Həman ehtiyatların nəticəsini biz hal-hazırda görürüz. Müttəfiq dövlətlər tərəfindən Ermənistan hökumətinə tapşırılmış əyalətlərin daxili işlərinə müdaxilə etməkdən özümüzü haqlı görməməklə bərabər, Ermənistan Hökumətinin müsəlmanların haqqında rəva gördüyü zülüm və təəddi [insafsızlıq] müqabilinə hökuməti-mətbuəm [tabe olduğum hökumət] tərəfindən şiddətlə etiraz edirəm və bunu da deyirəm ki, bu cür işlərin axırı qeyri-məmul [arzuolunmaz] nə-*

*ticələr verə bilər. Naxçıvan müsəlmanlarının çəkdikləri əziyyətlərin xəbəri Azərbaycan əhaliyi-müsliməsinə çatdıqda onların qəlblərini qəlәyana gətirib* [həyəcanlandırıb]*, bigünah məzlumların qisasını almaq hissiyyatı oyandırır. Əhalinin cuşa gəlmiş əfkarını sakit edib arzu olunmayan hərəkatın önünü almaq üçün mənim hökumətim hər cür tədbirlər ittixaz etmişdir* [tədbirlər görmüşdür]*. Bunları bilcümlə cənabınıza məlum edərək var qüvvəniz və tədbirlərlə Ermənistan Hökumətinə icrayi-təsirlə müsəlmanlara edilən zülüm və sitəmlərə xitam verməsi haqqında təşəbbüsatda bulanmanızı rica edirəm."*

## İDARƏDƏN CAVABLAR

**Əli Səbri əfəndiyə**

Yazdığınızın məsuliyyətini tamamilə kəndi öhdənizə alarsanız, məəlməmnuniyyə [məmnuniyyətlə] dərc edəriz.

**Gəncə M. R. əfəndiyə**

Yazmış olduğunuzu dərc ilə vəd etdiyiniz üzrə eyni mövzuda daha yazmanızı gözləyiriz. Fəqət mətbuat vasitəsilə təbliğ etdiyinizin intişarına [yayılmasına] da feilən çalışmalı və həmrəylərinizi toplayaraq bir təşkilat əmələ gətirməli və onun vasitəsilə iş görməlisiniz. Vəilla [yoxsa] yalnız qəzetə sütunlarında yazmaqla əməli bir nəticə çıxarmağa müvəffəq olmazsınız.

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Satılır**

Daş kömür 1000 pud. Ünvan: Bazarnı küçə nömrə 5. Həsənağa Əliyev.

*5446*

**Satılır**

Yaxşı, yanmayan dəmir kassa. Adres: Qoqol küçəsində nömrə 6. Kumerlizdən xəbər almalı.

*5445*

**İtibdir**

Vəsiləxanım Məşhədi Əmin qızı, 3 yaşında. Əynində ağ kofta, ayağında qara tufli, başı açıq, iyul ayının 18-də, saat 1-in yarısında Nijni Təzəpirski küçədə itibdir. Onun barəsində məlumatları olanlardan acizanə xahiş edirəm 3-cü polis idarəsinə məlum etsinlər.

*Məşhədi Əmin Əlizadə*

*5448*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Berlin Darülfününu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Elan**

Gömrük hissəsini təftiş üçün Maliyyə naziri tərəfindən təşkil edilmiş Müvəqqəti Komissiya, məmuriyyətlərində hər hanki cürə olursa sui-istemal [sui-istifadə] edib doğruluq göstərməyən məmurları yazıb bildirmələrini hər kəsdən rica edir. Komissiya bu xüsus üçün olan müraciət və kağızları Kazyonnı Palata [Xəzinə Palatası] imarətində hər gün 10-dan 11-ə qədər qəbul edir.

*Komissiyanın sədri:*
*İsfəndiyar bəy Hacıyev*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**[Elan]**

səh. 365. “Ümum Bakı meşşan camaatına elan edirəm ki, bu iyul ayının 20-sində”: qəzetdə “iyul ayının 20-sində” yerinə “iyul ayının 2-də” getmişdir.

**Teleqraf xəbərləri**

səh. 370. “Çelyabinsk dəmiryolu”: qəzetdə təhrif edilmişdir.

“Çerkassk”: Rusiyanın Rostov vilayətindəki Novoçerkassk şəhəri nəzərdə tutulur.

“Hindistan vitse-kralı”: 1916-1921-ci illərdə Hindistanın vitse-kralı və general-qubernatoru olan Frederik Tezicer [Frederic Thesiger] nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 371. “Ke d’Orsey” [Quai d’Orsay]: Parisdə, Sena çayının sol sahilində bulvar. Fransa Xarici İşlər Nazirliyi burada yerləşir.

**Cümə günkü xəbərlər**

səh. 371. “Lansinq”: qəzetdə təhrif edilmişdir.

**Türkiyədə**

səh. 374. “Tripoli”: Türkiyənin Girəsun vilayətində, Qara dəniz sahilində liman şəhəri olan Tirəbolu şəhəri nəzərdə tutulur.

**Kürdüstan hüququ**

səh. 374. “Kürdüstanın hüdudu etnoqrafi cəhətincə bu qərar ilə olasıdır”: qəzetdə bu cümlədən sonrakı coğrafi adların çoxu təhrif edilmişdir; mümkün qədər bərpa etdik.

Zivən: Türkiyənin Qars vilayətinin Sarıqamış rayonunun Süngüdaşı kəndinin köhnə adı.

Marağan: İranın Qərbi Azərbaycan ostanının Sərdəşt şəhristanında kənd.

“Monitor”: İstanbulda fransızca nəşr edilmiş “Monitor Oriental” [Le Moniteur Oriental] qəzeti nəzərdə tutulur.

**Dağıstanda**

səh. 375. “T. k.”: Vladiqafqazda nəşr edilmiş “Terski kazak” qəzeti nəzərdə tutulur.

Feldmarşalskaya: İnquşetiyada kazak kəndi olmuşdur.

**Naxçıvan-Şərur məsələsi – 2**

səh. 376. “3 cəmaziyüs-sani 1337 hicri”: miladi təqvimlə 6 mart 1919-cu ilə müvafiqdir.

“bir Hacı … Şərur məsələsində”: qəzetdə hacının adının yerinə üç nöqtə qoyulmuşdur.

səh. 377. Qulb: Türkiyənin Iğdır vilayətinin Tuzluca rayonunun köhnə adı.

**Bakı xəbərləri**

səh. 378. “ədavətçilər haqqında məlumat toplamışlardır”: qəzetdə “məlumat” yerinə “müamilat” getmişdir.

**Elan**

səh. 381. “Komissiya bu xüsus üçün”: qəzetdə “Bu komissiya xüsus üçün” getmişdir.





**Bazar ertəsi, 21 iyul 1919-cu il, nömrə 230**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 22 şəvvalül-mükərrəm sənə 1337. 21 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## TELEQRAF XƏBƏRLƏRİ

Xarkovda dabravolların qolordu [korpus] komandanı bir əmr verərək bəyan edir ki, bolşeviklərin qələbəsini xəbər verənlər dəhşətli cəzaya düçar olacaqdırlar. İkinci əmrnamədə komandan deyir ki, Xarkovda hələ çox bolşevik ünsürləri qalmışdır. Ona görə də, onlar axtarılıb cəzalarına yetməlidirlər. Kəndçilər bu cür əmrnamələrə əhəmiyyət verməyərək Şura qoşunlarına kömək edirlər.

Kiyev - Bir neçə nahiyələrin kəndçiləri ictima [yığıncaq] qurub böylə qərar çıxarmışlardır: “Biz [Nikifor] Qriqoryev, Denikin və Maxnoya inanmayırız. Şura Hökuməti dəvət etdiyi anda silah altına girib də dabravollarla mübarizədə bulunacağız.”

Bir çox kəndlərdə səfərbərlik müvəffəqiyyətlə keçir.

Kiyev - Xersonda əksinqilabçıların suiqəsdi kəşf edilmişdir. Bu işin başında Yedokov nam [adlı] bir afiser dururmuş. Sabiq çar afiserlərindən bir çoxları həbs edilmişlərdir. Bunlar Denikindən külli məbləğ almışlar ki, əhalini bolşeviklərə qarşı üsyana dəvət eyləsinlər. Hətta bunlar bolşevik icra komitəsini həbs etməli imişlər.

**Amerikada anarxiya hərəkatı**

Moskva - Vaşinqtondan “Tayms” qəzetəsinə yazılır:

İyul ayının 3-də gecə yarısı (burada cümlə buraxılmışdır)... Yaşayan evin yaxınlığında bir patlayış əmələ gəlmişdir. Pittsburqda sülh hakimi Tomsonun evi, Klivlend Bələdiyyə rəisi Devisin evi, Şəhər Duması üzvü Qaydon Voksberin evi (burada cümlə buraxılmışdır)... Deyirlər ki, orada patlayışdan Puersin evi təxrib edilmişdir.

Pittsburqda ən sərvətli bir məhəldə hakəza [habelə] patlayış əmələ gəlib, bir neçə imarət təxrib edilmişdir. Bundan əlavə, Nyu-Yorkun qərbi hissəsində patlayış əmələ gətirmək istəmişlərdir. Patersonda ipək zavodunda dəxi bir patlayış əmələ gəlmişdir. Polis zənn edir ki, bu patlayışların həpsi anarxiya hərəkatının nəticəsidir və məqsədləri də şimdiki Amerika Hökumətini düşürməkdir.

**Moskva qatarının qəzası**

Kontun - İyul ayının 10-da gecə Baxmaç ilə Leski arasında Moskvadan Kiye-

və əzimət edən [gedən] qatar qəzaya uğramışdır. Bədəfkar [cinayətkar] dəstəsi yolu dağıdıb, parovoz iki vaqonla bərabər yoldan çıxmışdır. Qalan vaqonlar isə odlanıb adamlarla bərabər yanmışdır. Sərnişinlərdən bəziləri xilas olmuşlardır. Tələf olanların miqdarı çoxdur.

**Yekaterinburq-Sibirya**

Moskva - Kolçakın arxasında üsyan artır. Gündən-günə biz Sibiryaya doğru irəliləyiriz. Tez bir zamanda Sibiryada Şura Hökuməti təşkil olunacaqdır. Şura Sibiryası üçün təcrübədən çıxmış qoşunlar hazırlayır. Sibiryanı Kolçakın əsarətindən xilas etməlidir. Ural ticarətini yoluna qoyuruz. Şuranın Ural zavodları işləyirlər.

Kiyev - Qırmızı cəbhə N ordusu ərkani-hərbindən [qərargahından]: Ordunun rəşid qitəatı [cəsur hissələri] tərəfindən Miasski zavod işğal edilmişdir.

Qərb cəbhəsində - Murman səmtində tərəfimizdən (?) işğal edilmişdir. Krasno-Mamarkın hər iki tərəfində düşmən hissələri bizim tərəfimizə keçmişdir. Luj-[ski] səmtində biz şimal-qərb tərəfində bir neçə kəndləri işğal eylədik.

"Tayms" qəzetəsinin Helsinqfors [Helsinki] müxbiri yazır: Bolşeviklərlə mübarizə etmək üçün Finlandaya müavinət etməmək kimi Müttəfiqlərin qətnaməsi Finlandaya ağır təsir eyləmişdir. Fin əhalisi bu əqidədədir ki, Müttəfiqlərin müavinəti gərək Finlanda və gərək Avropa üçün böyük əhəmiyyəti haizdir [əhəmiyyət daşıyır]. Hərgah bu şayiat doğru olarsa, finlilər ya Almaniya qucağına atılmalı, yaxud bolşeviklərlə sülh etməlidir.

**Ənvər paşa həbs edilməmişdir**

Məlum olduğu üzrə məhəlli [yerli] qəzetələrin bəzisində İstanbuldan (?) çəkilmiş bir teleqram dərc olunmuşdu ki, guya Almaniya Hökuməti Müttəfiqlərin əmri ilə Ənvər paşa, Tələt paşa və digər Gənc türk başçılarını təslim eyləmişdir. Bunlar da İstanbula gətirilib həbs edilmişlərdir. Tiflis qəzetəsinin ingilis şöbəsində zeyldəki [aşağıdakı] təkzib dərc edilmişdir:

"Gürcü teleqrafı vasitəsilə dünən Tiflis qəzetələrinin Ənvər paşanın həbsi barəsində verdiyi xəbərlər qətiyyən yalan və uydurmadır. Bu teleqraf bolşeviklərin Nikolayevdə olan radiosundan alınmışdır."

## SÜLH ƏTRAFINDA

**Sülh Konfransının cavabı**

İstanbulda müntəşir [nəşr olunan] "Vakit" qəzetəsindən:

Paris Sülh Konfransı rəisindən Osmanlı heyəti-mürəxxəsəsinə [nümayəndə heyətinə] göndərilib, təşəvvüşati-həvaiyyə [hava xətlərindəki qarışıqlıq] səbəbi ilə müqəddəmən [bundan əvvəl] tamamən gəlməmiş olan məktubun tərcüməsidir:

Düvəli-Mötəlifə [Antanta dövlətləri] Osmanlı heyəti-mürəxxəsəsinə Sülh Konfransına vaqe olan bəyanatından dolayı təşəkkür edir. Bəyanati-məzkurə [deyilən bəyanat] layiq olduğu vəchlə, əhəmiyyətlə nəzəri-etibara alınmış olduğu kimi, bədəmən [bundan sonra] dəxi alınmaqda bərdavam olacaqdır.

İşbu bəyanat Dövləti-Osmaniyyə mənafeyindən maəda [əlavə], düvəli-sairə [sair dövlətlər] mənafeyinə dəxi təmas eyləməkdə bulunduğundan beynəddüvəl [dövlətlər arası] bir taqım məsail tövlid eyləməkdədir [məsələlər doğurmaqdadır] ki, bunlar haqqında vəhlətən bir qərar ittixazı məəttəəssüf [ani surətdə bir qərara gəlmək təəssüf ki], qabil deyildir. Hər nə qədər məclis müqərrərati-qətiyyeyi-sülhiyyənin həll və fəslinə ziyadəsi ilə xahişkar bulunur [sülh sazişinin qəti qərarlarının həll edilib qurtarmasını artıq dərəcədə arzu edir] və vəziyyəti-hazirənin tövlid etməkdə [doğrumaqda] olduğu qərarsızlığın müntəc olacağı məhaziri [meydana gətirəcəyi təhlükələri] tamamən təqdir edirsə də, məsələnin ətrafı ilə tədqiq və tənviri [aydınlaşdırılması] nəticəsində bir müddət daha təəxxürün qeyri-qabili-ictinab olduğuna [daha bir müddət gecikmənin qaçılmaz olduğuna] yəqin [əminlik] hasil olmuşdur. Binaən-ələ-zəlik [buna görə], Dövləti-Aliyyənin [Osmanlı dövlətinin] Fransaya ezamını tələb eyləmiş olduğu heyəti-mürəxxəsənin vəziyyəti-hazirə qarşısında bundan ziyadə Parisdə təvəqqüf və iqamətlərindən bir səmərə hüsulu məlhuz bulunmamaqdadır [dayanmaqlarından və qalmaqlarından bir fayda əldə edilməsi gözlənilmir]. Məmafih [bu halda], bu xüsusda təkrar təatiyi-əfkarın mövcibimühəssənat olacağı [fikir mübadiləsinin fayda verəcəyi] hiss və təqdir olunduğu surətdə, qayeyi-mətlubənin surəti-səriyyə və münasibədə istehsalı [istənilən qayənin sürətlə və münasib bir şəkildə əldə edilməsi] üçün Hökuməti-səniyyə ilə [Uca hökumətlə, Osmanlı hökuməti ilə] ən müvafiq tərzdə yenidən təsisi-irtibat ediləcəkdir [əlaqə yaradılacaqdır].

- Royter agentəliyinə bildirilir ki, sülh müahidənaməsi [sazişi] Berlində Şurayi-Milli tərəfindən təsdiq edildiyi andan Almaniya sahillərindən abluka [blokada] qaldırılacaqdır.

**Bolqariya ilə sülh şəraiti**

"Jurnal" qəzetəsi yazır ki, Bolqariya sülh şəraitinə görə Qərbi Frakiyanı Türkiyəyə güzəşt etməlidir. (Teleqraf cümləsi buraxılmışdır.) Serbiyaya isə Romaniyanı (Dobrucanı) güzəşt etməlidir. Bolqariya mürəxxəsləri Eqlyuka iyulun 25-də varid olmalıdırlar [çatmalıdırlar].

- Londondan xəbər verilir ki, Almaniya ilə Estoniya arasında mütarikə əqd edilmişdir [saziş imzalanmışdır]. Bu mütarikəyə görə, almanlar Riqa şəhərini onlara tərk etməlidir.

**Fiume məsələsi**

Londondan xəbər verilir ki, bir neçə gündən sonra Fiume əhvalı aydınlaşacaqdır. Beşlər Şurası qət eyləmişdir ki, Fiume məsələsinin təhqiqatı Beynəddəvair Komisyona [İdarələrarası Komissiyaya] vagüzar edilsin [tapşırılsın]. Fiumedə vaqe olan hadisədən dolayı İtaliya ilə Fransa arasında böyük ixtilaf əmələ gəlmişdi. Bu barədə hər iki tərəf yek-digərini təqib edir.

## QƏZETƏLƏRDƏN

Odessadan simsiz teleqrafla xəbər verirlər ki, fəhlələrin üsyanı nəticəsi olaraq Ataman Qriqoryev öz əsgərlərini Odessadan çıxarmışdır. Ətrafda dəhşətli müharibələr olmuşdur.

**Xarkov əhvalı**

Novorossiyskdən xəbər verirlər ki, bolşeviklər bütün ehtiyat əsgərlərini Xarkova çəkmişlərdir. Bolşevik əsgərlərinin pişdarı [avanqardı; qabaqda gedən dəstəsi] bolşevik zabit alaylarından ibarətdir. Kəşfiyyatla düşmən süvarilərinin Xarkovun 14 verstliyində olduğu məlum olmuşdur. Xarkovda olan qiymətli şeyləri şəhərdən çıxarmağa başlamışlar.

**Təzə etilaf**

Varşavadan simsiz teleqrafla xəbər verirlər ki, tutulmuş olan simsiz teleqraf Lenin ilə Bela Kun və Bauerin görüşməklərini xəbər verir. Bunların görüşməkdən məqsədləri iqtisadi imtiyazat yapmaqdır. Zənn edirlər ki, bu görüşmək Almaniya, Macarıstan və Rusiya aralarında hərbi etilaf [saziş] yapmaqdan ibarətdir. Bu məsələ Moskva mətbuatı tərəfindən müzakirə edilirmiş.

**Yağlı tikə**

Novorossiyskdən xəbər veirlər ki, "Tan" qəzetəsində Qafqaziya sərvəti haqqında bir məqalə dərc edilmişdir. Qafqaziya sərvəti rus pulu kursu ilə 275 milyard qiymət olunur.

**Petroqrad altında**

Don məlumat şöbəsi xəbər verir ki, general Yudeniç əsgərləri Petroqradın 40 verstliyində olan Tosno istasyonunu işğal etmişlərdir. Moskva ilə Petroqrad arasında dəmiryol münasibatı qət edilmişdir [kəsilmişdir].

**Assuri istiqlaliyyəti (?)**

Xəbərlərə görə, Sülh Konfransı İngiltərə himayəsi altında Assuri istiqlaliyyətinin təsdiq edilməsi qərarını qəbul etmişlərdir. Təzə Assuri istiqlaliyyəti cümhuriyyətinə Sancaq, Mərduk, Hakkarinin bütün müsəlman nahiyələri, Diyarbəkir və Van nahiyələrinin bir hissələri daxil edilir. Ola bilər ki, gələcək Assuri istiqlaliyyətinə Urmiyə, Səlmas və assurilər ilə məskun olan İran Azərbaycanı hissəsi daxil edilsin. Assuri istiqlaliyyətinin vücuda gəlməsinə sabiq Rusiya Xariciyyə naziri Sazonov artıq dərəcədə çalışmışdır.

**DAĞISTAN ƏHVALI**

**Dağıstanda üsyan**

Dağıstan şeyxülislamı və sabiq Dağıstan Hökuməti üzvü Əli Hacı Akuşinskinin təşəbbüsatı ilə dağıstanlıları mühafizə üçün hökumət vəzifəsini ifa edici bir komitə təşkil edilmişdir ki, əhalinin istirahətini anarxiyadan gözləsin. Komitənin ümdə məqsədi Dağıstanı və Şimali Qafqaziyanı kazaklardan və Denikin dəstələrinin qarətgərliyindən müdafiə etməkdir.

Dabravol ordusuna mənfi bir nəzərlə baxan əhali təbiidir ki, təşkil edilməkdə olan Dağıstan Hökuməti ətrafına cəm olmağa başlayıb və hökumətin tələbinə görə öz qüvvələrini Əli Hacının ixtiyarına vermişdir. Dabravol ordusu ərkani-hərbi [qərargahı] təşkil edilməkdə olan ordunu buraxmağı Əli Hacıya təklif edib, Aşağı Cenqutay, Böyük və Kiçik Buynak kəndləri üzərinə hücum etmişdir. Kazaklar burada nizamsızlıq və qarətgərlik başlayıb, arvadlara təcavüz etməklə bərabər, 15 nəfərə qədər adam öldürmüşlər. O zaman Müdafiə Komitəsi təcavüz və qətldən həyəcana düşən əhalinin təsiri altında general [Mikayıl] Xəlilov ilə Denikin dəstələri əleyhinə hücuma başlamağa məcbur olmuşdur.

Teymurxanşuradan 18 verst məsafədə Aşağı Cenqutay kəndi ətrafında müharibə olmuşdur. Müharibə nəticəsində Cenqutay kəndini zəbt etmiş olan kazaklar öz mövqelərindən çıxarılıb Teymurxanşura şəhərindən də o tərəfə atılmışlardır. Cenqutay kəndi Dağıstan Müdafiə Komitəsi əsgərləri tərəfindən işğal edilmişdir. Kazaklar böyük tələfata düçar olmuşlar. 7 nəfər zabit öldürülmüşdür.

Denikin və Xəlilov dəstələri bir vaxtda Cenqutay səmtində Teymurxanşuradan və Deşlaqar tərəfdən hücuma başlamışlardır. Müharibələr Məkəgi və Durangi dərələrində olmuşdur. Bu müharibələrdə dabravollar tamamilə məğlub olmuşlardır. Sabiq Dağıstan və hal-hazırda Xəlilov Hökuməti dəstələri bütün mühimmati-hərbiyyələri ilə üsyançılar tərəfə keçmişlərdir. Teymurxanşura hind əsgərləri tərəfindən mühafizə edilir. Dabravollar müvəffəqiyyətsiz hücumdan sonra Kadar kəndi üzərinə hava hücumu yapıb, nəticəsiz bombalar salmışlardır.

- "Müsavat" firqəsinin məlumat şöbəsi Dağıstan hadisələri haqqında böylə məlumat almışdır:

"İyulun 16-da xəbər alınmışdır ki, Əli Hacı Akuşinski Yuxarı Cenqutaya hücum etmişdir. Orada olan polkovnik Cəfərov 23 nəfərlə bərabər Teymurxanşuraya qaçmışdır. Əli Hacı hal-hazırda öz dəstəsi ilə bərabər Aşağı Cenqutaydadır. Orada ona heç kəs mümaniət [maneçilik] göstərmədiyindən, Aşağı Kazanişe kəndinə keçmişdir. Petrovskdan alınan axırıncı xəbərlərə görə, Əli Hacının əsgərləri Teymurxanşuranın 9-10 verstliyindədirlər ki, şəhəri mühasirə etmişlərdir. Petrovskda olan Dabravol ordusunun miqdarı 1000 nəfərdən ziyadə deyildir."

**BATUMDA**

- Tiflisdə olan Qafqaziya Bankı şöbəsi Batumda açılır.

- İyulun 13-də Torontodan sərnişinlərlə "F. E. Kiralli" nam [adlı] paroxod varid olmuşdur [gəlmişdir]. Paroxodla manufaktura, ipək, xərəzi [xırdavat] malları, kükürd və limon gətirilmişdir. Həman gün məzkur [adı çəkilən] paroxod İstanbul təriqi [yolu] ilə sərnişinlərlə bərabər geri övdət etmişdir [qayıtmışdır].

- İyulun 13-də fransız paroxod şirkəti "Pane" paroxodlarından biri Marseldən Batuma gəlib manufaktura, xərəzi malı, ayaqqabı və qənd gətirmişdir. Malları boşaltdıqdan sonra paroxod Potiyə getmişdir ki, marqans yükləsin. Paroxod qayıdan baş Batuma gəlib Marselə getmək üçün sərnişin və yük götürəcəkdir.

- Batumda olan İtaliya sindika[t] şöbəsi Zaqafqaziya kooperativlərinə ucuz qiymətlə mal buraxmağa razı olmuşdur.

- Hal-hazırda Batumda külli miqdarda kibrit vardır. Yenə kibrit gətiriləcəyi gözlənir.

- Batuma əcnəbi məmləkətlərdən külli miqdarda dava-dərman gətirilmişdir. Qiymətlər xeyli aşağı düşmüşdür. Qiymətlərin təzədən aşağı düşməsi gözlənir.

- Batumdan verilən xəbərə görə, general [Romanko-]Romanovski öz adyutantı ilə bərabər bu günlərdə Şimali Qafqaziyaya azim olmuşdur [yola düşmüşdür].

## XARİCİ SİYASƏTİMİZ

### - 11 -
### Bolşevik qorxusu

Rus inqilabı rus millətinin təbiəti üzərindən pərdəni götürdü. İnqilab göstərdi ki, rus təbiəti hakimiyyəti sevməyir – bu hakimiyyət nə şəkildə olursa-olsun. Rus həyati-fikriyyəsində və rus tarixində bu hallar çoxdan bəri görünmədə idi. Anarşi nəzəriyyəsini rus fikri doğurdu. Baxınız, anarşi nəzəriyyəsinin banisi Bakunin nə söyləmiş: "Yıxıcılığın şirinliyində yaradıcılıq ləzzəti var."

İştə, Bakuninin şüarı!

Bakunin kimi beynəlmiləl inqilabçını rus xalqı yetirib. Bu xalq bir çox hakimiyyət tanımayan məzhəblər də vücuda gətirib. Rus hökuməti məmləkətə müzirr [zərərli] məzhəblərlə əsrlərdən bəri mübarizə edə gəlmədədir. Bizim Qafqaza mühacir surətində gələn malakan, duxobor və başqaları da sürgün olaraq gəlmişlər. Rusiyadakı məzhəblərin əksəri müharibəni inkar edən, hakimiyyəti tanımayan və kommuna şəklində yaşamağı sevən qüvvələrdirlər.

Bir xalq deyil, rusun ziyalıları arasında da hər şeyi inkar edici axınlar da çoxdan meydan almadadır. Keçən əsrin ortasında bu hərəkət qüvvət kəsb edərək [qazanaraq], "nihilizm" sözü ilə təsmiyə olunmuşdur [adlandırılmışdır].

Eyni halı rus ədəbiyyatında da görürük. Maksim Qorkinin özü bolşevik olan kimi, bütün qəhrəmanları da bolşevikdirlər. Qraf Tolstoyun fəlsəfə həyatı da bolşeviklikdən xali [uzaq] deyil. Böyük ədib əsrlərcə yaradılmış insaniyyət tərəqqisinin bütün məhsullarını inkar eylədi. Axırda da bir nöqtədə dayanmayaraq dünyadan getdi və sabit bir yol da göstərmədi.

İştə, rus təbiəti həmişə qələyan [qaynama] içində şuriş [coşğu] axtarır. Bu təbiəti azdırmaq üçün çar istibdadı da çalışdı. Fitri amillərə bir də acıq və intiqam hissi qarışdı. Odur ki, çar hökuməti yıxılar-yıxılmaz təbii hallar, acıqlar və intiqamlar meydana çıxdı. Hərc-mərclik geniş Rusiyanı ağzına aldı. Deməli, bolşeviklik rus təbiətindən çıxan bir vulkandır. Bizi maraqlandıran bir şey var: əcəba bu rus vulkanı başqa millətlərin də malı ola bilərmi, yoxsa ola bilməz?

Macarıstan hadisələri bu suala müsbət bir cavab verir, bolşevik qorxusu başqa ölkələrə də sirayət edə bilər deyir. Bunun səbəbi də aşkardır. Əsrlərcə yığılıb toplanan acıqlar və intiqamlar dalğalanır. Deməli, bolşeviklik əsrlərin illəti, keçmiş səhvlərin mənfi nəticələridir. Bunun üçün bolşeviklikdə denikinçilikdən çox yıxıcılığa əhəmiyyət verilir. Yaxmaq, yıxmaq və öldürmək şüarı hər yerdə hökmfərmadır [hökm sürməkdədir].

Bu gün etiraf edəriksə, Şərq dəxi bolşevikliyə alışmadadır. Xilqətən tabe və sadiq, hər bir sıxıntıya səbir edən, hakimiyyəti təqdis [müqəddəsləşdirən] və təqdir edən Şərq də bu gün bolşeviklik xislətinə bac verməyi istəyir. Türküstan hadisələrində və başqa hərəkətlərdə müsəlman kommunistləri adı çəkilir. Burada da əsri intiqamlar və acıqlar görünür. İntiqam hissi dindar və millətpərvər Şərqi dinsiz və milliyyət tanımayan bolşeviklik qucağına atmaq istəyir. Nə qorxulu addımlar! Bizim mühitdə bolşeviklik nə dəhşətli şəkillər ala bilər! Bu tufanın önünü almaq çarələrini düşünməli. Yəqin etməli ki, bu axın bizi götürərsə, bütün Şərqə sirayət edib uzun müddətlər anarxiyaya səbəb ola bilər.

Düşünməli və çox düşünməlidir. Bolşevikliyi doğuran səbəbləri təkrar-təkrar təhlil etməli və məhvinə çalışmalıdır. Azərbaycanda asayişin təmini üçün torpaq və əmələ məsələlərinin həllini təxirə salmamalıdır. Kağıza yazılanları işlə nəticələndirməlidir. Sonra idarəmizin tənziminə çalışmalıdır. Ədalətsizliklə qəti surətdə mübarizə etməlidir. Məmləkətimizin hər nöqtəsinə təftiş heyətləri göndərməlidir. İdarəmizi sağlamlandırmalıdır.

Əminəm ki, ədaləti təmin edərək acıq və intiqama yer qalmaz və bolşeviklik qorxusundan vətənimizi mühafizə etməyə müqtədir olarıq.

*Yusif Vəzirov*

## NAXÇIVAN MƏKTUBATI

### - 10 -

Naxçıvana təyin olunmuş erməni qubernatorunun familiyası Varşamyandır. Varşamyan ali məktəb bitirmişdir. Kəndisinin verdiyi məlumata görə, əslən bakılıdır, ev əşyaları da Bakıdadır. 40 sinnində nəzərə gələn Varşamyan zahirən çox həlim, mətin və hər kəsin ruhuna girən bir zat görünürdü.

Keçəlim mətləb üstünə. Əvət, erməni hökuməti işə şüru etdi [başladı]. Hər kəs vəsiqə filan istədikdə, "Milli Komitənizdən şəhadətnamə gətiriniz, sonra verəriz", deyirlərdi. Bu fənn ilə həm Milli Komitəni işlətməyə və həm kəndi idarələrini işlətməyə təlaş etməyə başladılar ki, bir həftə sonra filhəqiqə [həqiqətən] erməni divanxanasına getdikdə divanxana kimi işlədiyini insan hiss edirdi. Bir para gizli müsəlman komitələrinin təhdidləri kəndi nəzdlərində qaldı. Demək, bir həftə keçər-keçməz güclü xanzadə və bəyzadələrdən də pristavlıq filan mənsəbin alıb, paqon və şpor vurub hökumətə başladılar. Onlara da söz söyləyən olmadı.

Ermənilərin bir həftəlik hökumətlərinə kimi qüvveyi-əsgəriyyələri heç yox idi. Amma hər gün vaqonlarla mühacirləri sel kimi axıb gəlmədə idi. Mühacirlərin heç birisinə kəndi köy və evlərinə getməyə müsaidə [icazə] verilməyirdi. Gələn mühacirləri böyük imarətlərə toplayıb xörəkləyirlərdi. Mühacirlər pək pərişanhal olub, libassızlıqdan maəda [əlavə], görükürdü ki, Ermənistanda aclıqdan böyük üsrət [əziyyət] çəkmişlərdi. Yüzlərcə övrət və uşaqlar şəhərə yetişən gündən müsəlman dükanlarını dolanaraq sual edirlərdi [dilənirdilər] və müsəlmanlar da onlara müavinətlərini heç müzayiqə etməyirlərdi [yardımlarını heç əsirgəmirdilər].

Bir həftə keçdikdən sonra 200 erməni əsgəri ilə general-qubernator Şelkovnikov şəhərə varid [daxil] oldu. Erməni əsgərlərinin simalarından yorğun, pozğun

və aclıqdan çıxmaları bəllənirdi. Həpsi mühacirlər toxuduğu qış şal əlbisəsinin içində idilər. Qırxa qədər süvari əsgərləri (zinvorları) var idi. Şəhərə daxil olduqda süvarilər Şelkovnikovu hər tərəfdən əhatə etmişdilər. İstiqbalına [qarşılamağa] müsəlmanlardan kimsə getməmişdi.

Əvət, əsgərlər şəhərə yetişdilər və sabahkı gün Şelkovnikov Varşamyan ilə Milli Komitə qonaqlığına gəldi. Məiyyətində [yanında] 10-dan ziyadə zabit var idi. Qayət təkəbbüranə və ciddi sima ilə əyləşərək əvvəlcə dövr-bərinə [ətrafına] nəzər salıb, sonra Milli Komitə rəisinə:

"Bu nə yığıncaq və nə şuradır? Böylə şuralar heç vəchlə olammaz. Çünki qanuna müvafiq deyildir. Hökumət içində hökumət yaratmaq hər yerdə naməqbuldur..."

Sonra bir para məlumat toplamağa başladı:

"Burada nə qədər süvari var idi, piyada əsgərlərin sanı nə qədər idi? Bilməm, bu gündən idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] elan edirəm, kimsə silahlı dolanammaz. Müsəlləhlər [silahlılar] tutulub həbsə alınmaqla bərabər, silahları da zəbt olunacaqdır. Əhaliyə siz də elan ediniz."

Sonra qubernator Varşamyan söylədi ki:

"Burası Milli Komitədir. Siyasətlə işləri yoxdur. İctimadan [yığıncaqdan] məqsəd müsəlman mühacirlərinin iskanını [yerləşdirilməsini] mülahizə və onlara yardım etməkdir", kimi sözlər qullanıb da, guya ki, qızmış Şerkovnikovu iskat etdi [sakitləşdirdi].

Bir az söhbətdən sonra Şelkovnikov Milli Komitənin qonağının [imarətinin] nisfindən ziyadəsini [yarısından çoxunu] əsgəri divanxana üçün həcz [müsadirə] etdiyini xəbər verib getdi.

**- 11 -**

Erməni əsgərləri şəhərə gələn günə qədər camaata erməni təbəəsi olmaq o qədər də təsir etməyirdi. Əsgərlər gəldikdən sonra bütün camaat mütəəssir oldu. Şimdiyə qədər sərbəst müsəlləh gəzmiş əsgərlərimiz silahları artıq yerə qoyub başıpozuq olduqları halda, onların yerinə dövriyyəyə (patrul) ermənilər əllərində silah çıxması insana qəribə gəlirdi. Gözlər guya ki, inanmayırdı. Bellərdə mauzer, çiyinlərində zabit paqonları (çinləri), mütləq ixtiyar və nəvazişlə gəzib dolanan gənc zabitlərimizi bu gün paqonları açıb da mütəfəkkir və heyran [fikirli və çaşqın] dolandıqlarını gördükdə insan o qədər dilxəraş olurdu [könlü inciyirdi, əzab çəkirdi] ki, dilkəndəliyindən [ümidsizliyindən] böylə ağlamaq halına gəlirdi.

Böylə vəziyyətdə bulunduqda insan azad və muxtar yaşamağın ləzzətini hiss və keçən sərbəst ömürlərə izhari-təəssüf edirdi. Həqiqətən, nədənsə insan nemətin içində yaşadıqca, nemətin şükürünü yerinə gətirməməklə bərabər, çox zaman olur ki, nasəza da [nalayiq, namünasib də] danışır. Amma neməti azadlıqda bulmadıqca, bir o qədər də ağzı dualı və qəlbi nisgilli olur.

Türklərdən sonra yeddi ay sərbəst, daha doğrusu, muxtar yaşamış Naxçıvan, Şərur və Ordubad əhalisi muxtar yaşadıqları zaman həman muxtariyyətin nə qədər neməti-üzma [böyük nemət] olduğunu anlamaq və ondan istifadə etməkləri əvəzində, çox vaxt görürdünüz ki, bir-birlərinə dirsək göstərmək, yaxud bu qəzanın camaatı o biri qəza əhalisi ilə boyunduruq yoldaşı olmamaq fikrində olub kərratla [dəfələrlə] təkrar edirdi:

"Pəh babam, biz müsəlmana hökumət yaraşmaz. Hökumət zalım oğlanları ermənilərə və xaricilərə gəlib. Bilməm gərək biz deyən olsun, filan."

Çox zamanlar şərurluluq və naxçıvanlılıq söhbəti danışırlardı.

Ermənilərin qüvveyi-əsgəriyyəsi gəldikdən sonra hər kəs uyqudan ayılmış kimi keçmiş günləri, zamani-halı [indiki zamanı] mülahizə edib, fəqət şimdi muxtariyyət nə olduğunu hiss və keçən günləri arzu edirlərdi.

*Tamaşaçı*

**BAKI XƏBƏRLƏRİ**

**Rəisi-vükəla həzrətləri general Kori hüzurunda**

Dün Rəisi-vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli həzrətləri general Korini ziyarət etmişdir. İki saatlıq müsahibə əsnasında bütün mühüm məsələlərdən bəhs edilmişdir. General Kori Vedibasar[da] ermənilərlə müsəlmanların toqquşmasına tezliklə bir intəha qoyacağına söz vermişdir. Ondan sonra general söz vermişdir ki, öz hökumətindən Şimali Qafqaziyada xətti-hüdud təyini haqqında istidada [xahişdə] bulunsun. Lənkəran barəsində də general bizim xeyrimizə söz vermişdir. Öz tərəfindən general Rəisi-vükəla həzrətlərindən dağıstanlılara icrayi-təsir etməyi rica etmişdir, ta ki, dağıstanlılar Könüllü ordu əleyhinə çıxmasınlar. Ümumiyyətlə, general Kori qıraq hökumətlərlə münasibət məsələsində Azərbaycana müavinətdə bulunmağa söz vermişdir.

**Parlaman komisyonlarında**

*Maliyyə-Büdcə Komisyonu*

Bakıda Hökumət Darülfünunu açmaq barəsindəki qanun layihəsi Azərbaycan Parlamanının Maliyyə-Büdcə Komisyonuna daxil olmuşdur. Bu günlərdə müzakirə olunacaqdır.

*Hərbiyyə Komisyonu*

Əlan [hazırda] Hərbiyyə Komisyonunda əsgərlik xidmətinin 3 sənədən 2 sənəyə kimi əskilməsi haqqında bir qanun layihəsi müzakirə olunur.

- Ümumi əyləncə və tamaşa yerlərindən alınan vergilərin hökumət xəzinəsinə vüsul olması haqqında Maliyyə-Büdcə Komisyonu müzakirəsinə bir qanun layihəsi təqdim olunmuşdur.

- 1918-ci sənə 15 dekabrdan 19 iyula kimi Azərbaycan Parlamanı təsvib [bəyənməsi] və müzakirəsinə 138 qanun layihəsi təqdim edilmişdir. Bu layihələrdən 75 ədədi qəbul edilmiş, 63 ədədi isə komisyonlarda müzakirə edilməkdədir.

**Gəmiçilərin şikayəti**

Zirə və Türkan kəndlərindən şəhərə yemiş [quru meyvə] və meyvəcat daşıyan gəmilər Zığdan atəşə tutulurlarmış. Bu barədə icra edilən təhqiqatdan böylə anlaşılmışdır ki, bununla şəhərdən mal qaçıran türkmən gəmilərini tutmaq istəyirlərmiş. Bakı gəmiləri ilə türkmən gəmiləri arasında böyük fərq olduğundan gəmiçilər güman edirlər ki, Port idarəsi bu barədə lazımi binagüzarlıqda bulunar [la-

zımi addımlar atar]. Zira, gəmiçilər meyvə daşımaqdan əl çəkməyə məcbur olacaqlar.

**Qayıq itmişdir**

Dünən şiddətli külək Tağıyev fabrikası qabağından bir qayığı sürüb aparmışdır. Qayıqda iki adam vardı. Qayığın dalınca "Dağıstan" paroxodu getmişdirsə də, qayığa yanaşa bilməmişdir. Qayıq Qum Zirə adası dalında durumuş. Bu barədə "Müsavat" firqəsinin istixbarat şöbəsi port idarələrinə xəbər verib lazımi tədbir görülməsini ciddən rica etmişdir.

**Şamaxı uyezdindən Parlaman üzvü**

Parlaman üzvlüyünə Şamaxı uyezdindən Asəf bəy Şıxəlibəyov intixab edilmişdir [seçilmişdir]. Yeni nümayəndə Parlamanın "Müsavat" fraksiyasına daxil olmuşdur.

**Doktor Cavadov**

Aldığımız məlumata görə, Lənkəranda bolşeviklər tərəfindən həbs edilmiş müsəlmanlar arasında Lənkəran müsəlmanları arasında möhtərəm sayılan doktor [Əliheydər] Cavadov dəxi vardır. Cavadovun həbsi Lənkəran müsəlmanlarını həyəcana salmışdır.

**Azərbaycan pulları**

Petrovskda olan Azərbaycan agentəliyinin verdiyi məlumata görə, Könüllü ordu komandanı əmri ilə Bakı bonlarının qəbulu qadağan olunur. Hətta ingilislərdən də almayırlarmış. İngilislərin bir neçəsi bazardan mal alarkən pulunu almamışlar. İngilislər acıqlanıb "Azərbaycan özü gəlib pullarını qəbula məcbur edər" demişdir.

**Birjada**

Kerenski pulunun məzənnəsi təbəddülatsızdır [dəyişməzdir]: minliklər 1600 manata, 250-liklərdən 1000 manatı 1300 manata, xırdalar işlənməyir. Nikolay pullarından yüzlüklər artmaqdadır. Böylə ki, ələn yüzlük 350-370 manata gedir. Zaqafqaziya bonları artır. Qiyməti 3 ½ faizə çatmışdır.

**Valyuta**

İngilis pulları zəif gedir. İngilis lirəsi 360 manata, çek 320 manata, qızıl osmanlı lirəsi 430 manata, kağız lirə 90 manata, İtaliya lirəsi 22 manata gedir.

**Ticarət bazarı**

Avtomobil şinləri bərk bahalanmışdır. Hətta bazarda azaldığı hiss olunur. Qiyməti 6000 manata qalxmışdır. Səqf [dam] dəmiri 300 manata, post [dəri] 600 manatdan 2000 manata. Neftin halı möhkəmdir. Məzənnə 3 manat 20 qəpiyə qədərdir.

**Səyahətdən övdət**

Azərbaycan vilayətlərinə səyahət qəsdi ilə çıxan Məclisi-Məbusan əzasından möhtərəm Məhəmməd Əmin Rəsulzadə cənabları ilə Mustafa bəy Vəkilov cənabları ayın 19-da axşam saat 10-da şəhərimizə övdət eyləmişlərdir [qayıtmışlar]. Məbus əfəndilər Gəncədə, Qazaxda, Nuxuda və Zaqatala şəhərlərində bulunub 15 günlük bir səyahət icra eyləmişlərdir. Hər yerdə məbuslar böyük bir məhəbbətlə qəbul olunub, haqlarında hər növ ehtiram göstərilmişdir. Məhəmməd Əmin cənablarının "Azərbaycan Cümhuriyyətinin Parlaman dövrü" mövzusundakı mü-





hazirəsi yuxarıda zikr olunan şəhərlərin həpsində külliyyətli camaat tərəfindən böyük bir şövq və həvəslə dinlənmiş və natiqi-möhtərəm gərək hazır və gərək mehman bulunduğu vilayət namına təbrik və təhniyət edilmişdir. Natiqin, vətəni xarici düşmənlərə qarşı müdafiə yolundakı dəvəti isə səmimiyyətlə qarşılanmışdır.

**Tranzit əhdnaməsi**

Aldığımız məlumata görə, Azərbaycan ilə Gürcüstan arasında azadə ticarət aparmaq üçün tranzit əhdnaməsi əqd edilmək [sazişi imzalanmaq] üzrədir.

## ZİYALILAR İTTİFAQINDA

Təmmuz [iyul] 14-ndə İttifaqın növbəti iclası vaqe olaraq, təmmuz 7 bəratülqövl[ü] [protokolu] oxunduqca hər üzv öz öhdəsinə aldığı vəzifə xüsusunda bəyanat verdi.

Könüllülər üçün səhiyyə bölüyü təşkil etmək xüsusunda Sadıq əfəndi bəyan edir ki, Könüllü ştabının rəisi bölüyün təşkilinə çox əhəmiyyət verir və söz vermişdir ki, könüllülərin arasında bir qaç nəfər savadlılarını intixab edib [seçib], İttifaq tərəfindən açılacaq kurslara göndərsin.

Sonra Rəisi-vükəla hüzuruna göndərilmiş sədr Əli bəy [Seyidzadə], rəisdən aldığı cavabları ərz etdi ki, Arslan Kriçinskinin zəhmətlərinin [əsərlərinin] hökumət mətbəəsində çap olunması xüsusunda Rəisi-vükəla riza vermişdir və buna sərf olunacaq qədər idarəyə para buraxılmasını da vəd etmişdir.

İçərişəhərdə Xan sarayı binasını və bu kimi əskidən qalma binaları mühafizə etmək xüsusunda Rəisi-vükəla bəyan etmişdir ki, onların həpsini Ziyalılar İttifaqı təhti-idarəsinə [tabeçiliyinə] alıb hökumətə məlum etsin. O zaman lazım olan qədər para hökumət tərəfindən buraxılar.

Rəisi-vükəlaya izhari-təşəkkür qıldıqdan sonra idarə qərar qoydu ki, Ağalar bəy və Arslan Kriçinski cənabları çap olunacaq zəhmətləri hökumət mətbəəsinə aparsınlar və Rəisi-vükəlanın verdiyi rizası münasibətilə onları orada çapa versinlər.

Bədəhu [sonra] məsaili-yövmiyyəyə [gündəlik məsələlərə] keçərək, ibtida [əvvəla] darülfünun açılması məsələsi müzakirəyə qoyuldu. Bakı ruznamələrində [qəzetlərində] bu xüsusda yazılmış məqalələr həpsi oxundu. Bunların cümləsində əsassız maddələr yazıldığı və cavaba ehtiyacı olduğu lazım bilindi. Bu səbəbə idarə Əli bəy [Seyidzadə], Yusif Ziya bəy, Səməd bəy, Camo bəy və Kriçinskidən ibarət bir komisyon təşkil edib qəzetələrdəki məqalələrə müfəssəl bir cavab yazmağı ona mühəvvəl [həvalə] eylədi.

Vaxt müsaid etmədiyi üçün baqi [qalan] məsələlər gələcək iclasa qaldı.

## FƏHLƏ HƏYATI

**Balaxanada**

Balaxana Musa Nağıyevin mədənində "Müsavat" şöbəsində, iyulun 15-də türk fəhlələrinin ümumi iclası vaqe olmuş və qət edilmişdir ki, 33 faiz əlavə edilmiş məvacib həyatı təmin etmədiyindən və tacirlər birinci zəruri şeylərin

üzərinə birə üç gəldiklərindən, hökumətə müraciətən tələb edilsin ki, bahalığın qabağını alsınlar və birinci zəruri şeylərə tez bir zamanda münasib qiymət qoyulsun.

## "AZƏRBAYCAN"A

Türk eliyəm deyə bayraq qaldırdın,
Aslan kimi düşmən üstə saldırdın,
Vətən üçün can verdin, can aldırdın,
Bəs indi bu şövkət, bu şan nə oldu?

Lənkərandan düşmənləri atdınmı?
Naxçıvanın imdadına çatdınmı?
Səsin gəlmir, bu tezlikdə yatdınmı?
Etdiyin əhd ilə peyman nə oldu?

Böyük qardaşını bütün unutdun,
Vəfasızlıq yolun qabağa tutdun,
O qızğın qanını nə tez soyutdun,
O məhəbbət, o isti qan nə oldu?

Qorxaqmı kəsildi cavanlarımız,
Bədəndə dondumu həp qanlarımız,
Sındımı oxumuz, kamanlarımız,
Türkə layiq namü-nişan nə oldu?

Yararmı ki, düşmən bizi çiynəsin,
Türk övladı xəsm əlində inləsin,
Sən olmasan onları kim dinləsin,
İqrar nərə getdi, iman nə oldu?

Hərəkət et, qoy, bir səni görsünlər,
Türk övladı kim olduğun bilsinlər,
Düşmən qəmnak olub, dostlar gülsünlər.
Deməsinlər Azərbaycan nə oldu?

*Əli Şövqi*
*Bakı, 19 təmmuz, 1919*

## AZƏRBAYCANDA

**Qızılağac davası**

Lənkəran bolşevikləri şəvvalın 15-də dörd tərəfdən Qızılağac müsəlman kəndinə hücum edirlər. Böylə ki, axşam saat 9 radələrində erməni və rus bolşevik dəstələri dörd tərəfdən Qızılağac üzərinə hücum edərkən, Qumbaşı stansiyasında qızılağaclıların qaraqol dəstəsinə rast gəlib onlarla atışma başlayırlar. Əhali tərəfdən kömək gələnədək qaraqolçular bolşeviklərin hücumlarına davam edirlər. Quruda olan atışmadan istifadə edib bolşeviklər iki xırda top, dörd mitralyoz kənara [sahilə] çıxarıb, qurudan, həm dənizdən müsəlmanların səngərlərini top və pulemyot atəşinə tuturlar. Gecə saat 4 radələrinədək davam edən bu cür şiddətli müharibədə qızılağaclılar isbat [səbat, dəyanət] və qeyrətlə davam edirlər.

Həmişə özləri ilə məa [birgə] bolşeviklər əleyhinə mübarizə edən Nikolayev[ka] rus kəndi əhalisindən imdad istədikdə, ruslar bu dəfə köməyə gəlmədən imtina etmişlərdir. Bu vuruşmada müsəlmanlardan 4 nəfəri yaralanıb, 6 at ölmüşdür. Bolşeviklərin tələfatı 7 nəfər məqtul, 9 nəfər yaralı əsir olmuşdur.

**Lənkəran əhvalı**

İndiyə qədər öz doğma yurdu olan Zuvand dağları azadəliyini mühafizə edən məşhur Şahverən 500 nəfər gözəl surətdə müsəlləh [silahlı] süvariləri ilə Ramazanov Hüseynin dəstəsinə qoşulub onunla bərabər zalımlar əleyhinə hərəkət etməkdədir. Bu həman Şahverəndir ki, [Qaçaq] Yunis və Şevkunov ilə olan müharibədə onların topuna və pulemyotuna baxmayaraq, onları geri çəkilməyə məcbur etmişdi.

Bolşeviklərin müsəlman qadınlarına etdikləri təcavüzatı eşidərək Əsgəri Şura dəvət edilmişdir. Bu ictimada [yığıncaqda] üç tərəfdən – cənub, şərq və qərb tərəfindən zalımlar üzərinə hücum edilməsi qərara alınmışdır. Şahverən qərbdən, Ramazanov cənubdan Lənkəran çayı boyu və Hacı Osman şərqdən hücuma başlamışlardır. Hücum vaxtı hücum edənlərə xəbər verməkdən ötrü Şahverən şəhər hissəsində olan Mirbağır xan Talışinskinin evini odlamışdır. Bu əhvalat gecə saat 12-də, qaranlıqda olmuşdur. Hücum müttəhidən [birgə, kollektiv surətdə] olduğundan, bolşeviklər məğlub olmuşlardır. Bolşeviklərdən bir hissəsi bürcə [qalaya] girib, digər hissəsi isə qayıqlarda, barkazlarda və "Milyutin" paroxodunda dənizə qaçmışlardır.

Səhər "Milyutin" paroxodundan və bürcdən top atışı başlanıb, küçələrdə isə zirehli avtomobil hərəkət etməyə başlamışdır. Buna görə, hücum edənlər Lənkəran çayının sağ sahilində və sol sahilində səngərə girməyə məcbur olmuşlardır. Bu saat küçələrdə şiddətli müharibə davam edir. Muğanlılar müsəlmanlara köməyə gəlirlər. Bolşeviklərin halı günü-gündən fənalaşır. Çünki bolşeviklər hər tərəfdən mühasirə edilib heç bir yerdən azuqə almayırlar. Kifayət qədəri patronları da yoxdur.

Bir çox evlər top gülləsindən dağılmışdır. Böyük Bazar tamamilə məhv edilmişdir. Bolşeviklərin çoxu ermənilərdən və iranlılardan ibarətdir. Onlar öz ailələrini Sara cəzirəsinə [adasına] götürmüşlər. Burada bolşeviklər özlərinə üssülhərəkə [baza] qərar vermək istəyirlər. Bolşeviklərin köməyinə Bakıdan, Çornı-qoroddan qayıqlarda cavan fəhlələr gəlib, patron və qeyri mühimmat gətirilər. Polkovnik Yermolayev bir anarxist kimi güllələnmişdir.

**Lənkəran bolşevikləri Xəzər dənizində**

İyulun 17-də alınan xəbərlərə görə, Lənkəran şəhəri üç tərəfdən hücum edən Ramazan[ov] dəstələri ilə mühasirə edilmişdir. Lənkəran bolşevikləri ilə məzkur [deyilən] dəstələr arasında bilafasilə [aramsız] müharibə davam edir. Bolşeviklər "Dmitri Milyutin" paroxoduna, həmçinin motorlu qayıqlara yüklənmişlərdir. Paroxodlar və qayıqlar Lənkəran yaxınlığında açıq dənizdə seyr edirlər. Sərnişin paroxodlarının seyri təhlükəsiz deyildir. Çünki sərnişin paroxodları bolşeviklər tərəfindən tutula bilər.

## ERMƏNİSTANDA

**General Koriyə katolikosun teleqramı**

Qarabağ hadisəsi xüsusunda erməni katolikosu Gevorq ingilis generalı Kori namına [adına] Tiflisə böylə teleqram göndərmişdir:

*"Uzun müddət davam edən zülüm və gözyaşlarından sonra biz yəqin edirdik ki, Müttəfiq hökumətlərin himayəsi sayəsində ruhani [mənəvi] övladımız üçün əmin-amanlıq günləri yetişmişdir. Məəttəəssüf [təəssüf ki], bədbəxt Qarabağda müsəlmanlar tərəfindən bigünahların qanları tökülür. Pənahsız arvad-uşaqlar*

*və onların kimsələrini və baba yurdlarını mühafizə edən qəhrəmanlar öldürülür. Onların ürəkyandırıcı ahu-ənini [ah-naləsi] katolikos-nişinə [katolikos iqamətgahına] çatır. Ona görə bu cür qəmli vüquata [hadisələrə] biz laqeyd tamaşaçı kimi qala bilmərik. Məzlumların istixlası [xilası] üçün səsimizi qaldırmağı bacarmayırız.*

*O cəhətə, siz alicənaba müraciət edib böyük ingilis nümayəndəsindən rica ediriz, təzə təərrüzat [hücumlar] təhdidi altında yaşayan ruhani övladımızı mühafizə edib məhrumlar üçün ədalət və əmin-amanlıq təmini ilə məchul məsələnin tezliklə həll olunmasına təvəssüt [vasitəçilik] edəsiniz. Ümidvarız ki, böyük İngiltərə nümayəndəsinin hüsn-rəğbəti və nüfuzlu səsi sayəsində biz haqlı olan arzumuza nail olaq."*

**Ermənistanda müsəlmanların halı**

İrəvandan mövsuq [etibarlı] mənbələrdən bizə xəbər verirlər, iyul ayının 4-də, gecə erməni qoşunları toplarla Böyük Vedi, Çimənkənd, Daşlı, Goravan, Yengicə, Şidli, Əfşar nam [adlı] müsəlman kəndlərini əhatə edib atəşə başlamışdırlar. Onları ağır toplarla toplayırlar. Kəndlərin əhalisi məhv edilir. Müsəlmanlara qarşı iki zirehli qatar da iş görür. Müharibə davam edir. Əhali təvəqqe edir ki, ermənilərin bu xainanə hərəkətlərinə bir sədd çəkilsin.

**Ermənistan Parlamanı intixabı**

"Joxovrdi" qəzetəsində Ermənistan Parlamanı intixabatı [seçkiləri] barəsində bir çox xəbərlər dərc edilmişdir ki, intixabatın nə üsul ilə icra edildiyini vüzuhiylə [açıqca] bildirir.

Novo-Bayəziddən yazılır:

Mahaldan övdət etmiş [qayıtmış] olan bizim mübəlliğlər [təbliğatçılar] bəyan edirlər ki, Parlaman intixabatı təcavüz və qanundankənar bir surətdə davam edir. Daşnak firqəsinin intixab komisyonu hədədə bulunub kəndilərinə səs verənlərə un vəd edirlər. Gərək daşnak natiqləri və gərək milisiya bizim mübəlliğləri təhdid edirdilər. Hər bir kənddə əlli adamdan artıq iştirak etməyir.

İğdırda, Sürməli mahalının kəndlərində intixablar son dərəcə qanunsuz icra edilmişdir. Məsələn, Əlican kəndində 223 nəfərin intixaba ixtiyarı var imiş, fəqət intixabdan sonra anlaşılmışdır ki, daşnaklar 350 səs almışlardır. Yeşiyi açdıqda 331 ədəd yazılmamış vərəqələr salınmışdır. Görünür ki, aclıqdan və tifdən [yatalaqdan] ölənlər həqiqətən də ölməmişlərdir. Yalnız daşnakları gözləyirmişlər ki, onlara səs versinlər.

Hər yerdə daşnaklar kəndçilərə un vəd edirlər. Bu şərtlə ki, daşnakların namizədlərinə səs versinlər. Bu işdə Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] nümayəndəsinin fəaliyyəti gözə çarpır.

Bu dairədə ümid etmək olardı ki, eserlər ona görə çox səs alacaqlar ki, onlar Rusiya nəfinə [xeyrinə] təbliğatda bulunurlar. Onlar kəndlərdə deyirlər ki, hər kəs Rusiya çarizminin təşkilini istəyirlərsə, 3 nömrəli siyahıya səs verməlidirlər. Ona görə də, eserlər Nikolayın hesabına səs almışlardır.

Erməni Milli Şurasının Sürməlidə möhkəm bir istinadgahı vardır. Əhali daşnakları görmək istəməyir, zira daşnakların siyasəti onları hər cəhətdən məhv və inqiraza [çöküşə] sürükləmişdir. Əhalinin





qismi-küllisi [çox hissəsi] intixablarda iştirak etməmişlərdir. Camaatın haqqına qayət qaba surətdə təcavüz edilir.

Varqaşapatdan yazılır ki:

Birinci gün ancaq bir neçə nəfər intixabatda iştirak eyləmişdir. Mücadilə olmamaq üçün daşnaklar özlərinə məxsus olan bir üsul yürütmüşlərdir. Kəndlərə cəm edilmiş olan külli fərarilər və aclar daşnaklara cəbrən səs vermişlərdir. Onlara denilmişdir ki, nə qədər ki, birinci nömrə siyahıya səs verməyiblər un almayacaqlardır. Ona görə də, intixab [günü] bir çox arvadlar və kişilər əllərində kisə olaraq intixab mənzilinin qarşısında dayanmışlar imiş ki, intixabdan sonra un alsınlar. Bu üsul ilə intixab edilən Parlamanın nə kimi nüfuzu ola bilər?

## ERMƏNİ MƏTBUATI

**Böyük Vedi hadisəsi və daşnaklar**

Böyük Vedi hadisəsi və erməni hökumətinin Naxçıvan, Şərur və qeyri yerlərin müsəlmanları haqqında icra etdiyi vəhşilik əleyhinə Azərbaycan nümayəndəsi[nin] general Koriyə etdiyi etiraz daşnakları böyük təşvişə salıbdır. Çünki kələklərinin və hiylələrinin başı tutulmağını başa düşüb əl-ayaq çalırlar. Onunla belə, genə də əski hiyləgər üsullarından əl çəkməyib, Azərbaycanı və Türkiyəni ittihadi-islamçılıqda ittiham etmək təşəbbüsatından bir an geri durmayırlar. Müsəlmanlar və Azərbaycan Hökuməti əleyhinə ermənilər tərəfindən yapılan dürlü-dürlü xəyanət və təcavüzatı qəhrəmanlıq, azadlıq yolunda "zalımlar" və "əksinqilabçılar" əleyhinə mübarizə əda [hesab] edib; ermənilərin müsəlmanlar haqqında rəva gördükləri fənalıqlar əleyhinə təngə gəlmiş müsəlmanlar[ın] müqavimət və öz diriliklərini müdafiə eyləmək üçün icrayi-hərəkatlarını xəyanət, quldurluq və cinayət kimi alçaq işlər adlandırırlar.

Bütün Qafqaziyada və Rusiyada, hətta demək olar ki, Yevropada da yalnız fəsadçılığı ilə şöhrət tapmış Daşnaksutyun firqəsi böylə güman edir ki, ermənilərdən başqa Türkiyənin və Azərbaycanın özgə bir dərdləri, başqa bir fikirləri yoxdur. O cəhətə də, erməniləri Tiflisdə, Batumda, Oltuda, bəlkə Qütbi-şimalda [Şimal qütbündə] təqib edib yer üzündən namu-nişanələrini belə yox eyləmək istəyirlər. Amma gərək Türkiyə, gərək Azərbaycan öz daxili işlərinə uğraşıb, daşnak məsələsi kimi ufaq [kiçik] bir məsələyə vaxtlarını sərf edəmməzlər.

Bunu yaxşı bilə-bilə, daşnaklar dediklərində inad edib yanlış əqidələrini feilən və qövlən və təqrirən və təhrirən [əməldə və sözdə, şifahi və yazılı olaraq] təbliğ eyləməkdən geri durmayırlar. Bunların bu cür həyasızlıqlarının nümunəsi üçün "Nor aşxatavor"un 142-ci nömrəsindəki "Böyük Vedi" adlı baş məqaləsini bittərcümə [tərcümə edərək] qəzetəmizdə dərc edir[iz]:

*"Gözlədiyimiz iş icra edildi. Türk və Azərbaycan xadimlərinin təbliğatı nəticəsi olaraq Ermənistan paytaxtı yaxınlığında, hökumətin gözü önündə Böyük Vedi, Çimənkənd, Goravan, Şidli və qeyri müsəlman kəndləri erməni qarovul dəstəsi üzərinə təcavüz edib 100-dən ziyadə əsgər qətl edirlər. Qəflətən olmuş bu hərəkət qarovul dəstəsini geri çəkilməyə*

*məcbur etmişdir. Çünki kəndçilər kamali-nizam və qayda üzrə hərəkatda bulunub, külli miqdarda ləvazimi-hərbiyyə [hərbi ləvazimat] və mitralyozlara malik idilər. Qan tökməyə yol verməmək üçün erməni qoşunu, tərksilah etmək üçün həman kəndləri mühasirəyə almaq istədikdə şiddətli müqavimətə və süngü davasına düçar olmuşdur. Kəndçilər kiçik qoşun dəstəsi üzərinə çabuq yürüş edirlər.*

*Şəkk ola bilməz ki, erməni hökuməti öz rəftarını dəyişdirməyə məcbur olub bu təzə macəraculuğa [avantüraya] intəha vermək üçün ciddi tədabirə [tədbirlərə] müraciət edəcəkdir. Amma burada layiqi-diqqət bir maddə var ki, onun üstündə bir qədər dayanmaq istəyiriz. Azərbaycanın Xariciyyə Nəzarəti, onun məhəlli [yerli] nümayəndəsi İrəvan müsəlmanlarının ağır halları xüsusunda Müttəfiq dövlətlərə etiraz verirlər. Bununla bərabər, onların xadimləri Ermənistanın daxilində müsəlləh [silahlı] üsyan sazlayıb qoşun əleyhinə hücum edir və hökumətin arxayın və səbirli rəftarından istifadə edib külli tələfata səbəb olurlar.*

*Böyük Vedi hadisəsi çoxdan bəri Müttəfiq hökumətlərin təvəccöhlərini cəlb etmək istədiyimiz hərəkatın və fəaliyyətin bir hissəsi olduğu bəllidir. Süngüyə sarılmaq, mitralyoz, baqaidə [qaydalı şəkildə] nizam üzrə əsgəri hərəkat dediklərimizin cümləsinə böyük bir dəlildir. Sülhcu [sülhpərvər] əhali arasında minlərcə türk zabitləri, Azərbaycan zabit müəllimləri [instruktorları] mövcuddur. Pulu və ləvazimi-hərbiyyəni də həman Azərbaycan Hökuməti göndərmişdir.*

*Böyük Vedi hadisəsi azad olmuş camaatların düşmənlərinin planlarını açmaqla, erməni hökuməti üçün möhlik [öldürücü] daş olmuşdur. Bundan sonra ləng ilə iş görmək xəyanət və cinayətdir. Çünki məqtulların məsuliyyəti gözü önündə böylə bir qüvvənin təşkil və intizamına imkan vermiş hökumətin öhdəsinədir. Onun borcudur bir an əvvəl ciddi tədbirlərlə Böyük Vedi və ətraf kəndləri Türk-Azərbaycan icrayi-təsirindən təmin etsin. Bir dəqiqə də təxir etmək olmaz. Çünki bu cür vüquatın cümhuriyyət ortasında davamı, onun təhlükəyə uğraması mənziləsindədir [yerindədir], hökumətin borcudur məmləkəti qara qüvvələrin fəaliyyətindən xilas edib gərək erməni, gərək müsəlman zəhmətkeşlərinin fövt [məhv] olmasının qabağını alsın. Erməni zəhmətkeşlərinin artıq qanı yoxdur ki, əksinqilabçıların məramnaməsini icra yolunda töksün. Onun ixtiyarı var hökumətdən bu cür vüquata [hadisələrə] intəha verməyi və müqəssirləri məsuliyyətə cəlb etməyi tələb etsin. Bunu bütün Zaqafqaz və erməni demokratiyasının mənafeyi də tələb edir."*

**İdarədən**: Əlbəttə "Nor aşxatavor"-çular hələ böylə az qanlardan doymazlar. Onlara qalarsa, bütün türk-islam aləmini qana qərq etmək lazımdır. Amma bəlkə bir gün olar ki, biçarə erməni milləti işi qanıb min il əvvəl ruslar Knyaz İqor ilə etdikləri kimi rəftar edər və "Al da, həyatında doymadığın qanın içində üz" deyərlər.

## İZHARİ-TƏŞƏKKÜR

Müdiri-möhtərəm! Rica ediriz, möhtərəm qəzetəniz vasitəsilə xəstə əsgərlər





nəfinə [xeyrinə] Ağadadaş Həsənov və Oruc Quliyev cənabları vasitəsilə 5000 manat ianə vermiş Ağa Əliəsgər Dadaşzadə həzrətlərinə və vasitəçilərə səmimi təşəkkürатımızı izhar edəsiniz.

Xəstə əsgərlər: Kazım Mustafa oğlu, Qasım Əhməd oğlu, Yasin Abdulla oğlu, Səfər Əli oğlu, Ömər Həsən oğlu.

**İtibdir**

Kərbəlayi Əlişan Xanmirzə oğlunun Zabratdan aldığı əbədilik pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5453*

**İtibdir**

Məşhədi Sadıq Hacı Həsən oğlunun Şamaxıdan aldığı pasportu itibdir. Etibardan saqitdir.

*5452*

**Satılır**

1500 pud qoyun yunu. Ünvan: Ağdam, "Tağıyev və Əliyev" şirkəti.

*5451*

**İtibdir**

İdris Seyidovun Nuxadan aldığı pasportu itibdir. Etibardan saqitdir.

*5450*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir. Şəhərdə isə asistentka R. Q. Risqind qəbul edir.

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 383. "Klivlend Bələdiyyə rəisi Devisin evi: qəzetdə bu hissə təhrif edilmişdir; belə getmişdir: "Bələdiyyə rəisi Kivinlend Devisin evi".

səh. 384. "Murman səmtində tərəfimizdən (?) işğal edilmişdir": qəzetdə belə getmişdir.

"Gənc türklər" (yaxud "Jön türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat.

**Qəzetələrdən**

səh. 386. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" [Le Temps] qəzeti nəzərdə tutulur.

**Dağıstan əhvalı**

səh. 387. "polkovnik Cəfərov 23 nəfərlə bərabər Teymurxanşuraya qaçmışdır": qəzetdə "Teymurxanşuraya qaçmışdır" yerinə "Teymurxanşuradan qaçmışdır" şəklində getmişdir.

**Xarici siyasətimiz**

səh. 388. "Malakanlar": xristianlığın kilsə iyerarxiyasını qəbul etməyən malakanlıq sektasına mənsub ruslar.

"duxoborlar": rusların dini-etnik qrupu; kilsənin zahiri rituallarını rədd edirlər.

**Naxçıvan məktubatı**

səh. 389. "Varşamyan": qəzetdə bu familiya təhrif edilmişdir.

səh. 390. "zinvor": nizami qoşundan olmayan, könüllü və yığma erməni döyüşçüsü.

**"Azərbaycana" şeiri (səh. 394) üçün lüğət:**

çiynəmək: tapdalamaq, əzmək
xəsm: düşmən

**Azərbaycanda**

səh. 394. "şəvvalın 15-də": burada tarix hicri təqvimlə verilmişdir; miladi təqvimlə 10 iyula uyğundur.

"Nikolayevka": Masallı rayonunun kəndi; indiki Viləş kəndi.

səh. 395. "Böyük Bazar": Lənkəran şəhərinin məhəlləsi.

"Sara adası" (yaxud Sarı adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

**Ermənistanda**

səh. 395. "erməni katolikosu Gevorq": 1912-1930-cu illərdə Bütün Ermənilərin Katolikosu olan V Gevorq nəzərdə tutulur.

səh. 396. "onların kimsələrini və baba yurdlarını": "kimsələrini" yerinə güman ki, "kilsələrini" olmalı idi; qəzetdə "kimsələrini" getmişdir.

"Böyük Vedi, Çimənkənd, Daşlı, Goravan, Yengicə, Şidli, Əfşar": Vedibasarın (hal-hazırda Ermənistanın Ararat rayonunun) kəndləri olan bu kəndlərin adları qəzetdə əksər hallarda təhrif edilmişdir.

**Erməni mətbuatı**

səh. 397. "Böyük Vedi, Çimənkənd, Goravan, Şidli": Vedibasarın (hal-hazırda Ermənistanın Ararat rayonunun) kəndlərin adları qəzetdə əksər hallarda təhrif edilmişdir.



*"Azərbaycan" qəzetinin 231-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 22 iyul 1919-cu il, nömrə 231**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 23 şəvvalül-mükərrəm sənə 1337. 22 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

Tiflis Müsəlman bazarında Balabəy Xəlilbəyli tərəfindən yeni açılmış olan "Kaspi" mehmanxanası 32 təmiz nömrələri ilə hazırdır. Mehmanxanada ancaq qonaqlara məxsus təamlar hazırlanır. Nömrələrin qiyməti adidir.

*375*

**SABUNÇU İSTEHLAK CƏMİYYƏTİ**
**"EL DÜKANI"**

Bununla öz üzvlərinə elan edir ki, həmin iyul ayının 22-də cümə günü səhər saat 1-də Sabunçu Ali-ibtidai məktəbi binasında (1-ci polis idarəsi qarşısında) cəmiyyətin ümumi iclası təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) 1917 və 1918[-ci] illərin hesabına baxılıb və təsdiq olunması barəsində;

2) Yeni idarə heyəti seçilməsi barəsində;

3) İclasda qaldırıla biləcək məsələlər.

Qeyd: İclas ikinci dəfə olduğuna görə, hər nə qədər üzv olmuş olsa, iclas qanuni hesab olunacaqdır.

*Heyəti-idarə*
*5449*

**HÖKUMƏT TEATROSUNDA**
**AXŞAM TAMAŞASI**
**DRAMA**
**Paytaxtımızda təşkil olunmuş Azərbaycan Yardım Alayı nəfinə**

*Yardım günüdür*

Zülfüqar bəy və Üzeyir bəy Qardaşlarının Müdiriyyəti

Çaharşənbə [çərşənbə] günü şəvvalülmükərrəm ayının 24-də, iyul ayının 23-də 1919-cu ildə yardım günü münasibətilə mövqeyi-tamaşaya qoyulacaq türk məşahiri-üdəbasından [məşhur türk ədiblərindən] mərhum Namiq Kamal bəyin əsəri:

**"Vətən yaxud Osmanlı müharibəsi"**

Bu faciədə göstəriləcəkdir:

Rus-Osmanlı müharibəsi əsnasında rus-Romaniya əsgərləri ilə türk əsgərlərinin vuruşması, dəhşətli top atəşləri, türk şəfqət bacılarının müharibədə igidlikləri və həmin tamaşada yeni Azərbaycan əsgəri musiqi dəstəsi ilə bərabər Yardım Alayının əsgərləri türk zabitanı komandası altında iştirak edəcəklərdir. Birinci pərdədə milli hərbi nəğmələr oxunacaqdır.

Müqəddəs məqsəd üçün verilən işbu tamaşada möhtərəm camaatımızın isbati-vücud [iştirak] etməklərinə əminiz.

İanə olunarsa, kamali-məmnuniyyətlə qəbul olunub və ianə verənlərin əsamisi [adları] qəzetələrdə yazılmaqla bərabər, təşəkkürdə bulunacağız. İanələr isə tamaşa günü teatronun kassasında qəbul olunub və qəbzlər veriləcəkdir.

Biletlər indidən teatrın kassasında satılmaqdadır.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

Müdiri-məsul: Müseyib bəy Axıcanlı; baş rejissor: A[bbas Mirzə] Şərifzadə; məsul: X[əlil] Hüseynov; müdir: Zülfüqar bəy Hacıbəyli.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Maarif naziri əmrnaməsi**

Təmmuz, sayı 314

İşbu təmmuzun 25-dən etibarən Bakı İkinci Edadi məktəbi müdiri Nikolay Petroviç Popova 15 günlük məzuniyyət verilmiş və onun müvəqqəti vəzifəsini ifa etmək həman məktəbin müəllimi Aleksey Kuzmiç Qonçarova vagüzar olduğu [tapşırıldığı] ümumən elan olunur.

*Əslinə qol qoydu Maarif naziri: Qaplanov*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 17 təmmuz iclası

**Nəsib bəy Yusifbəyli** (Rəisi-vükəla) – Möhtərəm məbuslar! Qarabağ hadisətının təfsilatından sizə ərz etməyəcəyəm. O vüquat [hadisələr] ki, orada olub, mən güman edirəm siz onun təfsilatını burada söyləyən yoldaşlarınızdan eşitmişsiniz. Onları təkrar etməyi mən öz tərəfimdən və hökumət namından [adından] artıq bilirəm.

Sizin yoldaşlarınızdan dörd nəfərini, sizə məlumdur ki, hökumət vüquatdan sonra Qarabağa göndərdi, onlar orada olan vüquatı öyrəndikdən sonra gəlib sizə ərz etdilər. Mən bir şeyi ərz etmək istəyirəm. Məəttəssüf [təəssüf ki], o dokladlar ki burada sizə söylənildi, onlarda ifrat və təfrit [mübaliğə; kiçiltmə] vardı. Bir tərəfdən verilən dokladda səy edilmişdi ki, Qarabağda vaqe olan hadisələrdə kimsə günahkar olmadığı göstərilsin. Digər tərəfdən sizə ərz olunan dokladdan məlum olurdu ki, guya orada iki növ adamlar vardır: birisi zalım, o birisi məzlum. Zalımlar onlardır ki, orada olan məzlumlara son dərəcədə zülüm etmişlər. Zalım müsəlmanlar, məzlumlar isə ermənilər olduğu göstərildi. Ermənilər tərəfindən heç bir hərəkət vaqe olmamış kimidir.

Heyətin erməni əzası [üzvləri] tərəfindən təqdim olunan məruzədə hər bir xüsusda səbəb axtarılmışdır və səbəb göstərmişlər ki, guya iki nəfər əsgəri ermənilər tərksilah etmişlər. Əlbəttə bu öylə böyük bir məsələ deyil, bunun da səbəbi varmış. O da bu imiş ki, müsəlmanlar tərəfindən bir erməninin tapançası alınmış imiş. Digər tərəfdən Qaybalı kəndi dağılmış. O kənddə gördüklərini təfsirlə həzin kartinalar, dəhşətli mənzərələr təsvir edirlər. Amma həman məruzədə söylənməmişdir ki, Qaybalı kəndində olan müsəlmanların da evləri dağıdılmışdır. Dokladda bu barədə heç bir söz söylənməmişdir ki, bütün müsəlman ailəsi dağılmış, iki arvad məqtul [qətl edilmiş halda] tapılmışdır.

Bunu ərz etmək istəyirəm ki, dokladlar öylə bir tərzdə yazılmışdır ki, bir tərəfdən müdafiə, digər tərəfdən hücum edilir. Bir tərəf müqəssir görülərək, digər tərəf özünü təqsirsiz göstərmək istəyir.

Qarabağa göndərilən heyətdən əsl məqsəd bu deyildi. Məqsəd o idi ki, cinayətin üstü açılsın və günahkarlar tapılsın.

Çubaryanın dokladına Məclisi-Məbusan üzvlərindən birisi təqsirnamə adı verdi. Burada yəni bir məqsəd var. Məqsəd günahkarları tapmaq deyil, general-qubernatoru təqsirləndirməkdir. Həqiqətən general-qubernatorda günah varmı və ya yoxdur – bu böyük bir məsələdir. Bu xüsusda hökumətin fikrini ərz etmək istərəm.

Əlbəttə, bilirsiniz ki, son zamanlarda Zaqafqaziyada qırğınlar olduğu zaman onda məhəlli [yerli] hökumət məmurlarının əli olmuşdur. Əlbəttə, burada da nəzərə gəlir ki, kənd dağılmış, arvad-uşaq ölmüş, bunda general-qubernatorun da əli olmuşdur. Əgər qubernator həqiqətən talançı və məqsədi də talan düzəltmək olsa idi, o zaman buna müsaid [uyğun] bir zəmin axtarardı. Baxıb görəlim, o vaxt ki, Qarabağda bu hadisə vaqe olmuş, o buna müsaidmidir və ya deyildir? Bütün Qarabağ yolları köçərilərlə dolu olan bir zamanda talan fikrinə düşmək dəlilik olardı. Çünki o öylə bir zaman idi ki, həqiqətən böylə bir iş görmək onda bütün köçərilərin həyatını təhlükə altında buraxardı. Bunu şübhəsiz ki, general-qubernator nəzərə almaya bilməzdi.

İkinci, əgər məqsəd yalnız talan qurmaq idisə, məgər general-qubernator başqa yer tapmazmı idi ki, orada qursun? Öylə gərək Avropa nümayəndələrinin, ingilis və Amerika nümayəndələrinin gözü qabağında qura idi ki, gəlib o meyitlərin şəkillərini görsünlər və rəsmlərini alıb aləmə bildirsinlər. Yenə deyirəm, general-qubernator talan qurmaq istəsəydi başqa bir yer tapardı. Əgər general-qubernator istəsə idi bütün Yevlaxdan Şuşaya kimi öylə bir poqrom yapa bilərdi ki, bütün Qarabağ atəş içində qalardı. Əgər məmurlarda sui-niyyət olsa idi əlbəttə böylə edərlərdi. Bilirsiniz, general-qubernatorun bunu edə bilmək qədər qüvvəti və nüfuzu vardır.

Görürsünüz ki, burada sui-niyyət olmamışdır. Əgər olsa idi bu hadisə iki şeydən baş verə bilərdi.

Əvvəla, general-qubernator gərək divanə ola idi. Çünki əqli başında olan şəxs Şuşanın iki verstliyində poqrom qayırmazdı. Yoxsa ayrı səbəbi yoxdur.

İkinci isə o adam xain olmalı idi. Çünki həmin poqromdan Azərbaycan camaatının, istər müsəlman, istər ermənidən olsun, bütün Azərbaycan əhlinin canı və malı tələf olmaq təhlükəsi vardır.

Qaybalı kəndi bütün sarsıldı. Orada iki yüz adam tələf olmuşdur. Zaqafqaziyanın halı bu saat öylədir ki, doğrudan da 200 adam nəzərə bir şey gəlməyir. Lakin Şuşada Qaybalı kəndinin poqromu bir cinayətdir, bir dəlilikdir. Deyilə bilər ki, Xosrov bəy eyi və ya fəna adamdır. Mən onu tanıyıram. Lakin heç bir kimsə ona xain deyə bilməz. Çünki şübhəsiz ki, bir xəyanətlik yoxdur. Poqrom barəsində

general-qubernatorun heç sui-fikri və sui-qəsdi olmamışdır.

Sonra dokladların birisində yeni tənzim olunmuş Azərbaycan əsgərlərini də müttəhim etmək istəyirlər. Mən deyirəm, hər yerin əsgərləri arasında, o cümlədən Azərbaycan əsgərləri içərisində də ola bilər fəna adamlar tapılsın. Bu bir təəccüblü şey deyildir. Özünüz görürsünüz ki, mənim məiyyətimdə bulunan iki nəfər əsgəri cinayət yapdıqları üçün boğazından asdılar. Ola bilər onlar bütün mövcudiyyətimizi müdafiə edirlər. Lakin cinayətə görə onları da asdılar. Söyləmək ki, Qarabağ əsgərləri nizamı pozub cinayət yapmışlar, bu, mümkün deyildir, yalandır.

**Səslər** – Yalandır... Biz qoymarıq... Rədd edirik...

**Nəsib bəy** - İnsafı olan təsdiq edər ki, bizim ərkani-hərbimiz [qərargahımız] erməni məzlumları üçün bir mərcə [müraciət yeri] olmuşdur. Hər kəs orada həyatının təmində olduğunu görürdü. Şuşada əsgərlərimiz asayişi təmin və təcdid [bərpa] etməyə çalışmışlardır. Mən böylə əsgərlərlə başqa şey deyil, yalnız iftixar edirəm. *(Alqış)*

Deyirlər, nə üçün əsgərlər vüquatın qarşısını almadılar və Qaybalı kəndini mühafizə etmədilər?

Möhtərəm əfəndilər! Əvvəla vüquatın necə olduğunu bilməyirlər. Camaat bir-birini yemək istəyir. Şuşa od içində yanır. Əgər bütün Qarabağ alovlansa idi, iş qayət fəna olardı. Orada öylə bir qüvvət olmalı idi ki, bu təhlükənin qarşısını alsın. Əlbəttə, az qüvvətimizi parçalayıb kəndlərə yollaya bilməzdik. Əgər getmək istəsəydi belə məlum deyildi ki, o kənd dostmudur, ya düşmənmidir. Bilməyirdik ki, o kənd əsgərlərin arxasından tüfəng atacaqlarmı, ya atmayacaqlarmı.

O işi ki, əsgərlərimiz orada edibdir, oraya gələn adamları mühafizə edib müdafiə etmişlər, yedirib-içirmişlər. *(Alqışlar)* Biz biliriz ki, başqa əsgər böylə hörmətkaranə hərəkətdə bulunammazlar. O səbəbə əsgərlərimizlə iftixar edirəm. *(Alqışlar)* Az bir zamanda yetişmiş əsgərlərimiz, isbat olundu ki, disiplina (nizam) saxlayırlar. Bir sözlə, demək olar ki, əsgərlərdə və Sultanovda günah yoxdur.

Hər halda bir kənd məhv olmuşdur. Şəfi bəy Rüstəmbəyov öz nitqində dedi ki, Şuşada ufaq vüquat olmuşdur. Qaybalı kəndinin vüquatı ufaq görünürsə də, filhəqiqə [doğrudan da] Bakı əhvalatından, Şamaxı, Nuxu, İrəvan, Zəngəzur və Naxçıvan hadisatından daha ufaq isə də, amma məəttəəssüf ufaq olması ilə bərabər, çox böyük rəzalətdir və bütün Zaqafqaziya müsəlmanlarını ləkələyən vüquatdır.

Nə olmuş? Üç-dörd yüz arvad-uşaq məhv olub getmişdir. Keçmiş zamanlarda qonşular arasında heç böylə vüquat olmamış, qədimdə arvad və uşaqlara əl vuran olmazdı. Şimdi kəndilərini kişi hesab edənlər silahsız və pənahsız arvad və uşaqları məhv edirlər. O səbəbə istiqlaliyyətimiz üçün bu kimi cinayətlərin önünü almaq lazımdır.

O böyük günah nədir? O günah – ya Ermənistanda, ya Azərbaycanda kimsə canilərin əleyhinə qalxıb onlara tənbeh etməmişdir.

Əfəndilər! Demək olmaz ki, İrəvanda və Ermənistandakı müsəlmanlar köylərində Qaybalı kəndindən əskik işlər və faciələr olur. Bunlar həpsi bir-birinə əvəz yapmaq deməkdir. Məncə canilərə mütləq tənbeh etmək lazımdır.

Bu işləri; Ədliyyə nazirinə, tamamilə təftiş, layiqi ilə təhqiq etməsi və canilərin cəzaya çatdırılması haqqında əmr olmuşdur və komissiya seçilmişdir.

Başqa yollar da vardır ki, hökumət təvəssül [müraciət] etmişdir, onları da unutmamışdır. Bu yollardan birisi Qarabağ əhalisi nümayəndələri ilə bilavasitə bir çox məsələləri həll etmək təşəbbüsüdür. Buna iqdam edilmişdir [addım atılmışdır]. Altıncı erməni syezdi [qurultayı] çağırılmışdır. Oradan nümayəndələr gəlib hökumətlə müzakirədədirlər. Arada bir o qədər şey qalmamışdır. İşlər sülh ilə həll olur. Orada sizin istiqlaliyyətinizi Qarabağ ermənilərinin hamı olmasa da, dörddən üç hissəsi Sülh Konfransına qədər etiraf edib kəndilərinin Azərbaycanda olduqlarını hiss və dərk edərək, özlərini Azərbaycan təbəəsi elan etməyə qərar verirlər.

Bundan əlavə, başqa yerlər də daha vardır. Azərbaycanda da, Ermənistanda da bir çox cinayətlər vaqe olub, olmuşdur. Bunları gözlə görmək və təhqiq etmək üçün millətlər nümayəndələrindən ibarət bir komisyon təşkil etmək mümkündür. Və hökumət də böylə bitərəf bir komisyonun təşkilinə qərar verib erməni hökumətinə təklif etmişdir ki, 2 əza [üzv] bizim Parlamandan, 2 əza erməni Parlamanından, 2 nəfər bitərəf adamlardan, məsələn ingilis və ya İtaliya nümayəndələrindən bir heyət gedib həmi Qarabağ hadisatını, həm də Ermənistanda vüqu bulmuş və bulmaqda olan hadisatı öyrənsinlər, Azərbaycanda yaşayan ermənilərin və Ermənistanda yaşayan müsəlmanların halını təftiş etsinlər. Azarı təyin etsinlər ki, dəvası tapılsın. Çünki azar tapılarsa, dəvası tez tapılar. Ona görə mən təvəqqe edərdim ki, tezliklə iki nəfər nümayəndənizi intixab edəsiniz. Ermənistan da razı olmuşdur. Komissiya gedər, təftiş edər.

İştə, hökumətin tədbiri və fikri. Ola bilər ki, bu tədbirləri tənqid edənlər olsun və razı olanlar da olsun. Amma bir şeyi ərz edərdim. Talan harada olursa-olsun hökumət onun əleyhində olacaq və poqrom qayıranlara ciddi cəza verməyə tərəfdardır. Əgər hökumət bunu yapa bilməzsə, bir dəqiqə iş başında qalmaz, qala da bilməz. *(Alqış)*

Bundan sonra iki təklif varid olur:

1) Erməni fraksiyonları təklifi:

Azərbaycan Parlamanı Parlaman üzvlərindən mütəşəkkil heyətin məruzəsini və Rəisi-hökumətin Qarabağda iyul ayının əvailində [əvvəllərində] vüqu bulmuş olan hadisələr xüsusundakı bəyanatını dinləyərək arzu edir ki, hökumət tərəfindən məzkur [deyilən] hadisat münasibətilə general-qubernator məmuriyyətindən kənar olmaq şərti ilə istintaq təyin ediləreк müqəssirlər, kim olursa-olsun mənsəb və məmuriyyətinə baxmayaraq, təhti-mühakiməyə [mühakimə altına] alınsın.

2) "Müsavat"ın təklifi:

Qarabağ hadisatı haqqında hökumətin bəyanat və məlumatını dinləyərək və hökuməti-məhəlliyyə [yerli hökumət], xüsusən general-qubernatorun əməl və fəaliyyətində heç bir qanunsuzluq əlaməti görməyərək, Məclisi-Məbusan bu hadisənin təsviyəsi [aradan qaldırılması] üçün

hökumət tərəfindən ittixaz olunmuş [görülmüş] tədbirləri təsviblə [bəyənməklə], növbədəki məsələlərin müzakirəsinə keçir.

Birinci təklifin lehinə ancaq ermənilər səs vermişlər. Sosialistlər səs verməmişlər və əksəriyyət əleyhinə səs vermişdir. İkinci təklifin əleyhinə ermənilər və lehinə əksəriyyət səs vermişdir. Sosialistlər bu təklifə də rəy verməmişlərdir.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqrafı)*

**Kolçak arxasında**

Samaradan xəbər verirlər ki, Ağ qvardiya qəzetələri Kolçak ordusu arxasında üsyan başlandığı xəbərləri ilə doludur. "N. Z." qəzetəsi bolşevik dəstələrinin əməliyyatı şiddətləndiyini xəbər verir.

**General Yudeniç**

"Deyli meyl" qəzetəsi yazır ki, general Yudeniç ərzaq işlərindən, mühimmatihərbiyyədən, dərmandan korluq çəkir. Saldatlara məvacib verməyə pul yoxdur.

**Arxangelsk cəbhəsində**

Dvinskdən verilən xəbərlərə görə "Mançester qardian" yazır ki, Arxangelsk cəbhəsində mübarizə ağırlığını tamamilə ingilis əsgərləri öhdəsinə salmaq mümkün deyildir. Rus dəstələri müşkülatı öz öhdələrinə götürməlidirlər.

**Amerika əsgərləri**

Liondan xəbər verirlər ki, Arxangelsk cəbhəsində olan Amerika əsgərləri mühəndis dəstəsindən başqa hamısı geri dəvət edilmişdir.

**Trotski Denikin haqqında**

Trotski demişdir ki, biz qış fəslinə qədər Denikinlə qurtarmalıyıq. Müharibəni yavaş-yavaş etmək olmaz. Birdən hərəkət edib Don və Şimali Qafqaziya əksinqilabını məhv etmək lazımdır.

**Ukraynada**

Kiyevdən xəbər verirlər ki, kəndlilər təzə taxılı bolşeviklərlə təqsim etmək [bölmək] istəyirlər. Könüllülərin ədədi hər gün artır. Kəndlilər Denikin əleyhinə əsgər cəm edilməsini tələb edirlər. Bessarabiyada narazılıq müşahidə edilir. Qırmızı Ordu Vapnyarka tərəfdə hücuma başlamışdır. Yampol tərəfdə bir çox kəndlər işğal edilmişdir. Yekaterinoslav quberniyasında 7 volost [nahiyə] öz xahişi ilə Qırmızı orduya 87 min pud taxıl cəm etmişdir.

**İngiltərədə tətil**

Lankaşir fabrikaçıları əmələlərinə həftədə 48 saatlıq iş və məvaciblərinin 25 faiz artırılmasını təklif etmişlərdir. Əmələlər isə 46 saat işə və 25 faiz məvaciblərinin artırılmasına razılıqlarını vermişlərdir. Hələlik bu barədə olan danışıq heç bir nəticə verməmişdir.

**Alman gəmilərinin qərqi ətrafında**

London – Tursodan xəbər verilir ki, şənbə günü günorta zamanı Almaniya gəmilərinin birində bayraq qalxızılmışdı. Bu bayrağın qalxızılması paroxodların qərq edilməsinə bir əlamət idi. Gəmi tayfaları [ekipajı, heyəti] lodkalara minib kənara çıxmaq istəmişlərdi. Fəqət gözətçi bunları atəşə tutmuş, atəşə məruz qalan Almaniya bəhriyyunları [matrosları] kəndilərini suya atıb üzərək kənara çıxmışlardı.

Almaniya hərbi gəmilərinin qərq edilməsi böyük əndişələrə səbəb olmuşdur. Admiral ser Siprian Bric və Lord Sidenhem bəyan etmişlər ki, gəmilərin qərq edilməsi əmri Berlindən alınmış olmalıdır. Ser Persi Skott demiş ki: "Biz buna layiqiz. Alman matroslarına biz inanmışdıq. Admiral idarəsini artıq dərəcə töhmətləndirirlər. Zira, gəmiləri bitərəf bir yerə götürdüyü halda tayfalarını dəyişdirib ingilis bəhriyyunları qoymamışdır. Bəziləri bu zəndədirlər ki, bu gəmilərin qərq edilməsinin heç bir əhəmiyyəti yoxdur. Zira, böyləliklə Müttəfiqlər arasında bu gəmilərin təqsimindən [bölünməsindən] dolayı qalxa biləcək ixtilaf yatırılmış olur. Yalnız işin bu cəhəti fənadır ki, gəmilər ingilis flotu mühafizəsində ikən qərq edilməməli idi."

**Amerika və Yaponiya**

Amerikanın Ərzaq komissarı demişdir ki, gələcəkdə Amerika heç bir müharibəyə kömək etməyəcəkdir. Amerikanın şüarı budur. Hərgah Avropa işləmək istəməyirsə, qoy acından ölsün. Onun rəyinə görə, Avropada əmələ saatının əskildilməsi və məvaciblərin artırılması Avropanın müflisliyinə və aclığına bais olacaqdır. Hərgah Amerika əmələləri gündə 15 saat işləyəcək olarlarsa, o zaman Köhnə Dünyanı doyuzdura biləcəkdir. Fəqət bunu Yeni Dünya – Amerika etməz. Ona görə də, qət eyləmişdir ki, işləməyənlər acından gəbərsin. O ki qaldı, bolşevik hədəsinə, amerikanların rəyincə Avropaya ərzaq vermədiyi kimi, Rusiyaya da verməzsə, o zaman bolşevizm xətrəsi [təhlükəsi] özü-özündən bərtərəf olar [aradan qalxar].

**İtaliyada inqilab varmı?**

Tiflisə varid olmuş [gəlmiş] olan İtaliya ordusu nümayəndəsi demişdir ki, İtaliyada inqilab var deyə şaye olan [yayılan] xəbərlər həqiqətə müğayirdir [ziddir]. Bu günlərdə xüsusi surətdə İtaliyadan gələn müxabirələrə [xəbərlərə] istinadən bu şayiələr buraxılırsa da, fəqət o müxabirələrdə inqilabdan bir kəlmə də olsun bir şey bildirilməyir. İtaliya nümayəndəsi İtaliyanın bəzi yerlərində tətil olduğunu inkar etməyir və deyir ki, bu tətil iqtisadi nöqteyi-nəzərdəndir. Bu tətildən heç bir siyasi məqsəd gözlənməyir. İtaliya üçün bu, adi bir şeydir.

**Bolşeviklərin məlumatı**

Moskva - Kovel səmtində bizim hissələr düşmənləri Kriçinski mövqifindən [stansiyasından] çıxarmışlardır. Voloçisk səmtində zirehli qatarın müavinəti ilə bizim qitəatımız [hərbi hissələrimiz] düşmənləri Voloçiskdən çıxarıb, iki top, iki pulemyot qənimət və 60 nəfər də əsir alınmışdır. Düşmənlər ricət edərkən [geri çəkilərkən] öz silahlarını buraxırlar.

Kamenets-Podolski səmtində bizim hissələr tərəfindən Vetuşkovo mövqifi işğal edilmişdir.

**Yekaterinoslavın işğalı**

Kiyev - (rəsmi) "Bu gün Qırmızı qoşunlar tərəfindən Yekaterinoslav şəhəri işğal edilmişdir."

*Ukrayna İcra Komitəsi sədri:*
*Rakovski*

Moskva - Sterlitamak və Zlatoust[ovka] dairəsində bizim qoşunlar irəliləyirlər. Düşmənlərdən bir zirehli qatar alınmışdır. Qoşunlarımız tərəfindən Borisoqlebsk işğal edilmişdir. Kazak və Zelyonnı ordu bütün cəbhə boyu ricət edirlər [geri çəkilirlər].

**Şura Rusiyanı abluka**

Lion - Beşlər Şurası Rusiyanın bundan sonra da abluka edilməsi [blokadaya alınması] məsələsini müzakirə eyləmişdir. Təklif edilmişdir ki, icazəsiz Fin boğazından heç bir kimsə buraxılmasın. O ki, qaldı Qara dənizə, təklif edilmişdir ki, Müttəfiqlər rəsmən oranı abluka eyləsinlər. Deyirlər ki, Amerika Rusiyanın abluka edilməsinə ziddir. Zira, Müttəfiqlər bolşeviklərlə hali-hərbdə [müharibə şəraitində] olmadıqlarından heç bir vəchlə abluka edilməməlidir. Amerika nöqteyi-nəzəri qətiyyən anlaşılıncayadək məsələ təxirə salınmışdır. Zənn edilir ki, Vilson da Rusiyanın abluka edilməsinə zidd olacaqdır. Zira, bu iş beynəlmiləl qanuna müğayirdir [ziddir].

Çerniqov - Cənub cəbhədən gəlmiş olan tovarişlər [yoldaşlar] xəbər verirlər ki, Denikin ordusunun arxasında Denikin quldurlarının hərəkətindən təngə gələn camaat üsyan qalxızmışdır. Denikinçilər arxada üsyanı yatırmaq üçün cəbhədən arxaya qoşun yeritməyə məcbur olmuşlardır. Kazakların içində həyəcan vardır.

**Müsəlmanlarda inqilab ruhu**

Kazan - Ufa quberniyasından gələnlər xəbər verirlər ki, müsəlmanlar içində getdikcə inqilab ruhu artır. Müsəlmanlar Şura Hökumətinə mükəmməl etibar edirlər.

Kiyev - Jmerinskidən gəlmiş olanların rəvayətlərinə görə, Qaliçyada inqilab hərəkatı artır. Qaliçyada hər gün əmələ və kəndçilər arasında üsyan qalxır.

**Almaniyada**

Dünən Manheymdə dəhşətli həyəcan var idi. Mağazalar və xüsusi evlər qapanmışdır. Qoşunlar əhalinin qışlalara [kazarmalara] girməsinə mane olmuşdur. İyirmi nəfər ağır surətdə yaralanmışdır. İki yüz nəfər həbs edilmiş, bütün teatrolar və sair təfərrücgahlar [gəzinti yerləri] qapanmışdır. Bu gün şəhərin müxtəlif yerlərində atışma davam edirdi. Spartaklar həbsxana və polis imarətinə hücum etmək istəmişlərsə də, müvəffəq olmamışlardır.

**3 milyard Nikolay parası**

İnqilabdan əvvəl Amerikaya sifariş edilmiş olan 3 milyard Nikolay parasını admiral Kolçaka təslim eyləmişlərdir. Bu paraların Amerikada qalmasına bolşevik inqilabı səbəb olmuşdur.

**Xarkov[un] süqutuna dair**

Novorossiyskdən xəbər verilir ki, bolşeviklər Xarkov tərəfinə külli qüvvə və qoşun göndərmişlərdir. Dabravol kəşfçiləri bolşeviklərin Xarkovun 15 verstliyinə yetişdiklərini kəşf etmişlərdir. Dabravollar şəhərin təxliyəsinə şüru etmişlərdir [başlamışlar]. Xarkovun yenidən bolşeviklər tərəfindən saatbasaat işğalı gözlənir.

**Yəhudi talanı**

Dabravollar Yekaterinoslavı işğal etdikləri zamanı yəhudi talanı tərtib vermişlərdir. Bir çox yəhudilər qətl edilmişlərdir.

**Cəbhədə**

İyul ayının 16-da Batum iskələsində ləngərəndaz olan [lövbər salmış] gəmilərdən birisi bir radio teleqrafı tutmuşdur. Bu xəbərdə bolşeviklər tərəfindən öz ştablarına bildirilir. Xəbərdən anlaşılır ki, hal-hazırda Xarkov dabravolların əlindədir. Dabravollar bu tərəflərdə geniş miqyasda hücuma keçmişlərdir. Yenə həman teleqrafda denilir ki, Dabravol ordusunun cəmlənməsi qurtarmışdır. Yaxın bir zamanda onların hücuma keçəcəkləri zənn edilir.

**Bolşeviklərin flotu**

Bolşevik radiosunun məlumatına görə, hal-hazırda Kronştadt iskələsində 4 ədəd drednot dayanmışdır. İki ədəd kiçik drednotlar vardır. Orada bir çox xırda gəmilər də durmuşdur. Bolşeviklərin məlumatına görə, bu gəmilərin həpsi müharibəyə hazırdırlar. Petroqrad yanında “Admiral Makarov”, “Bayan” və “Boqa-tır” kruvazerləri [kreyserləri] durmaqdadır. Bunlardan əlavə, həman yerdə bir çox minonos və sualtı qayıqları vardır. Bolşeviklərin bu müxabirəsində [xəbərində] bu günlərdə ingilislər tərəfindən qərq edilən “Oleq” kruvazerindən sükut ilə keçirilir.

## SÜLH ƏTRAFINDA

**Rusiya məsələsi**

Sülh Konfransı üzvlərinin əqidəsinə görə, Rusiya məsələsi Sülh Konfransında avqust ayının axırlarında müzakirə ediləcəkdir. Məsələ böylə qoyulur:

1) Rusiyanın böyük Avropa müharibəsində iştirakı və London müahidənaməsini [sazişini] imza etməsi;

2) Brest-Litovsk sülh müahidənaməsinin Rusiyanın Müttəfiqlərlə bağladığı müahidənaməni pozması;

3) Rusiyanın şimdiki halı və onun vəzifəsi;

4) Müttəfiqlərə müavinət etməyə səy edən, sabiq Rusiyada yeni təşkil edilmiş cümhuriyyətlər;

5) Almaniya və müttəfiqlərinə müavinət etməyə kuşiş edən [çalışan], sabiq Rusiyada təşkil edilən yeni cümhuriyyətlər;

6) Rusiyanın gələcəyi.

Almanlar tərəfindən imza edilən sülh müahidənaməsində almanlara aşağıdakı güzəştlər olmuşdur:

1) Ən yaxın bir zamanda Almaniya Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil ediləcəkdir;

2) Yuxarı Sileziyanın Almaniyaya, yaxud Lehistana [Polşaya] mülhəq olması [birləşməsi] barəsində rəyi-amma [referenduma] müraciət ediləcəkdir;

3) Almaniya ordusu üç ay müddətində 300 min nəfər miqdarında olacaq, sonra tədricən əskiləcək və nəhayət 10 min miqdarında olacaqdır;

4) Lehistanın sərhədi məsələsinə gəldikdə, Dansiq azad bir şəhər elan ediləcəkdir;

5) İadeyi-Xəsarət [zərərlərin ödənilməsi, kompensasiya] Komissiyası alman millətinin xəsarəti haqqında Müttəfiqlərin təbəəsi kimi müdafiə etməlidir;

6) Almaniyaya ixtiyar verilir ki, müahidənamə imzasından 4 ay sonra iadeyi-

xəsarət barəsində nə üsul ilə hərəkət edəcəyini təklif etsin; Almaniya özü istədiyi plan ilə xəsarəti ödəyə biləcəkdir;

7) Elzas-Loren, Saar hövzəsi, Almaniya bəhriyyə [donanma] qüvvəsinin əskilməsi və məxlu [taxtan salınmış] imperatorun beynəlmiləl məhkəməyə verilməsi kimi müahidənamə maddələri təbdilsiz [dəyişməz] qalmışdır.

**TÜRKİYƏDƏ**

Məlumdur ki, Versal Sülh Konfransına Türkiyə Hökuməti tərəfindən təyin edilib də Parisə göndərilən heyəti-sülhiyyə rəisi [Damad] Fərid paşa konfransa 17 həziran [iyun] tarixi ilə bir nota verib, Türkiyənin Etilaf [Antanta] dövlətlərinə qarşı bir düşmənliyi olmadığı və ancaq Almaniyanın əlində bir alət olaraq müharibəyə daxil olduğu və bəzi uyğunsuz və nizamsız halların məsuliyyəti hazırkı hökumətə aid olammayacağı sərd edilmişdir [meydana atılmışdır]. Fərid paşanın bu notasına qarşı Konfrans cavab verib, sərd edilən mütaliələri [fikirləri] rədd etmişdir. Məzkur [haqqında danışılan] rədd notasında denilir ki:

*"Müttəfiq və müştərək dövlətlər məclisi Türkiyədə hökuməti-hazirə, sələfləri tərəfindən təqib olunan siyasəti təqbih etdiyində [pislədiyində] heç şübhə etməyirsə də; millət, başlarında bulundurduğu başçıları hərəkatından və siyasiyyatından məsuldur. Türkiyə heç bir üzrü olmaqsızın Etilaf dövlətlərinə təərrüz [hücum] etmiş və məğlub olmuşdur. Bu səbəblə Türkiyə imperatorluğunu təşkil edən əqvami-müxtəlifənin [müxtəlif xalqların] müqəddəratını tənzim etmək vəzifeyi-müşkiləsi [çətin vəzifəsi] qaliblərə aiddir və Müttəfiq və müştərək dövlətlər bu vəzifəni əqvamın arzularına müvafiq bir surətdə ifa etmək istəməkdədirlər."*

Bu cavabdan bəhs edən İstanbul qəzetələrindən "Yeni qəzetə" şu yolda mütaliəsini söyləməkdədir:

*"Hər halda bu cavab bizim üçün bir bayram hədiyyəsi deyildir, bir bayram ərəfəsidir. Bizi dərin düşündürməlidir. Lehimizdə hasil olduğunu bir dizi irəliyə sürdüyümüz cərəyanların bu vəsiqə – Sülh Konfransının bu müsbət cavabı üzərində təsiri nədir?*

*Bizi fəzlə nikbinliyə sövq etmək, həqiqəti olduğu kimi bildirməmək, tanıtmamaq, ovutmaq – zənn edərsək, bu millətə tamam dostluq sayılmaz. Həqiqətini biləlim ki, yəs və inkisara [ümidsizlik və məyusluğa] düşmədən hüququmuzu müdafiə edə biləcək, məmləkətimizi, istiqlalımızı nasıl qurtara biləcək tədbirləri, çarələri düşünəlim. Bu tədbirlərdə, bu çarələrdə nədən qüvvət ala biləcək, nəyə istinad edəcək isək, bu qüvvəti, bu istinadgahı hazırlayalım, bulalım.*

*Hərbin üzərimizə yıxmış olduğu müsibətlər və bəlanı üstümüzdən silkinib ata bilməmiz nə qədər müşkül olduğunu Sülh Konfransının ilk cavabı bizə pək sərih [açıq] göstərir. Bu cavab bugünkü vəziyyətimizi Etilaf dövlətlərinin nə surətlə nəzər-diqqətinə aldıqları, Türkiyə və Türkiyədə müqim [yaşayan] əqvam haqqında nə fikirlər pərvərdə etdiklərini [bəslədiklərini] bizə anladır.*

*Doğrudan-doğruya bu cavaba müxatəb olmuş [bu cavabı birbaşa olaraq almış] olan mürəxxəslərimizin əllərində lehimizdə cərəyanlar hasil edə biləcək nə qüvvət və qüdrət varsa, bunu istemal edəcəkləri [işlədəcəkləri] şübhəsizdir. Fəqət bütün qüvvət və qüdrəti hər şeydən əvvəl millətdən almaq zərurətini də ehmal edəmməyəcəyiz!"*

**İRANDA**

**Birinci İran Dəmiryol xətti**

Tiflisdə İran General-konsulgərisinin [Baş konsulluğunun] məlumatı:

İran General-konsulgəriliyi bununla elan edir ki, Təbriz dəmiryol xətti İran Hökumətinin əmrnaməsi ilə İranın əlinə keçmişdir. Dəmiryolunun ümuri-idarəsi [idarə işləri] hökumət mühəndisi A. İ. Treskinskiyə mühəvvəl edilmişdir [tapşırılmışdır]. Dəmiryol idarəsi işlərinə müdaxilə edənlər qanunsuzluq yapmış olurlar. Qulluqçulardan hər kəs Treskinski əmrinə itaət etməzsə, qulluqdan kənar və İran torpağından təbid [sürgün] ediləcəkdir.

**DENİKİN ÖLKƏSİNDƏ**

Dabravolların hakimiyyəti altında yaşamaq istəməyib də Kizlyardan çıxmış olan bir nəfərin rəvayətinə görə, əksinqilab generallarının hakimiyyəti əhaliyə heç bir mənfəət verməmişdir.

**Təcavüz**

Şəhərdə və ətrafında qətl və qarət davam edir. Dabravol ordusunun saldatları, xüsusən kazaklar və osetinlər gündüzlər evlərə girib hər nə qiymətli şey varsa həpsini alırlar. Məsələn, son libasınadək hamam sahibi bir iranlı qarət edilmişdir. Yəhudi tüccarından Şirman və Kovalski şəhərin mərkəzində qarət edilmişlərdir. Ətrafda olan rus və müsəlman qəsəbələri öylə qarət edilmişdir ki, ev sahibləri çılpaq evdə dayanmayıb çıxmışlardır.

Gündüz günorta çağı arvadların ismətinə təcavüz edilir, hanki xanım kazaka və osetinə xoş gəlirsə, sual-cavabsız alıb aparırlar. Osetinlər rahibələrə, monaxinyalara da təcavüz edirlər.

Atışma həddini keçmişdir. Şəhər alındıqda 11-ci Orduya mənsub olan Qırmızı qoşunlardan 5000 nəfər dəhşətli əzaba düçar edilmişlərdir. Sonra yalnız bolşevikləri deyil, hər kəsi sosialistlikdə müttəhim edirdilərsə, atıb öldürürdülər. Divani-hərb [hərbi məhkəmə] qısa bir müddətdə 200 adamı edama məhkum eyləmişdir. Bunlar edam edilmişlərdir. Fəqət mühakiməsiz də bir çox adamlar qətl edilir.

Əhalidən buğdasını, mal-qarasını yığıb onları dilənçi halına salmışlardır. Əlbətə, bu hallarla dabravollara kimsə meyil göstərməz.

**Səfərbərlik**

Cəbrən arasıkəsilmədən səfərbərlik icra edilir. Dabravolların istinadgahı olan kazaklar belə ağlaya-ağlaya gəlirlər.

**Yaralılar və xəstələr**

Yaralıları və xəstələri xəstəxanalarda deyil, öz kəndlərinə verib nə dərman, nə də para verməyirlər. Nə tövr ilə olsa da müalicə edirlər. Kəndlərdə həkim və dərman olmadığından yaralılar milçək kimi qırılırlar. Məsələn, Tsaritsın altından külli

yaralı gəlmişdi. Bunları gətirib kəndlərə doldurdular. Onlar kamilən dərmansızlıqdan fövt [məhv] oldular. Səfərbərliyə alınanlar və qətl olunanların ailələri heç bir cəhətdən təmin edilməyirlər.

**İqtisadi əhval**

Bu bərəkətli olan mənbə şimdi fəqirliyə üz qoymuşdur. Bir çoxları qarətdən qorxub hərə bir tərəfə getmişlər. Çöllər əkilmədiyi kimi, buğdalar yığılmayıbdır. Kimsə yoxdur ki, bu işləri görsün. Payızda təbiidir ki, aclıq başlanacaqdır. Qiymətlər Bakı qiymətindən az deyildir. Çörək 5 manat, ət 12 manat, düyü 25 manat, kişmiş 25 manat, çit 80 manat, şərabın vedrəsi 250 manatdır.

**Dabravollara qarşı**

Kizlyarın yaxınlığında vaqe bir qəsəbədə Qırmızı qoşunlar və çeçenlər gizlənmişlərdir. Bunlar dabravollara rahatlıq verməyirlər. Atışma tərk edilməyir. Dabravol naçalniki hər zaman öz dərisinin hayındadır.

## AYILAN MƏMLƏKƏTLƏR

"Parlaman mütailatı" nam fransız qəzetəsinin axırıncı nömrəsi təzə məmləkətlər haqqında bir çox məqalələr dərc etməkdədir. Anri de Şambonunun Litva haqqında yazdığı məqalələrindən ümum xasiyyəti haiz olan [daşıyan] əhəmiyyətli hissələri bunlardır:

*"Çar Rusiyası ölmüşdür. Məhkum millətlər ayağa qalxmaqdadırlar. Finlanda, Estoniya, Latviya, Litva, Lehistan [Polşa], Belorusiya, Ukrayna, Gürcüstan, Ermənistan və qeyriləri öz istiqlaliyyətlərinin təsdiqini tələb edirlər. Biz təzə cahanın vücuda gəlməsində iştirak edib bunu anlamırıq. Və heç kəs də tarixdə görünməyən təzəlzülatın [sarsıntıların] səbəbini təfsir [şərh] etmək istəməyir. Rəsmi diplomatiya hipnoz kimi gözləri bağlı yaşayıb, aşkar şeylərə inanmaq istəməyir. Geniş mətbuat göstərici şeylərlə, yaxud öz taktikasında elan edilməyə münasib olmayan bəhanələrlə hərəkət edir. Aldadılmış və əhvaldan bixəbər camaat indiki vəziyyətə malik olan ağaların hazırladığı dəhşətli ayıqlığı hiss etməyərək hadisata qarşı laqeydlik ibraz edir [göstərir].*

*Doğrudur, birinci baxışda rus məsələsinin həlli çətin görünür. Fəqət bu, ələlümdə ondandır ki, bu məsələ doğru və dürüst qoyulmamışdır. Çar hökuməti endirildiyi zaman belə görünürdü ki, hərcmərc hökmfərmalığı [hökmranlığı] başlayır. Müttəfiq dövlət dairələri, xüsusən Fransa inqilab hərəkatı ilə mübarizə üçün var qüvvələrini sərf etməyə çalışmışlardır. Onlar rus inqilabının dərin səbəblərini düşünməyi, həmçinin onun nəticələri nə olacağını tapmağı bacarmamışlardır. Onlar inqilabın əsasında milliyyət və torpaq məsələsi kimi iki mühüm məsələ olduğunu görməmişlərdir. Şübhəsiz ki, tək bir Almaniya ilə məşğul olduğumuza görə, biz Rusiya hadisələrinə lazımınca nəzər yetirə bilməmişik. Fəqət fikrə gətirmək olar ki, hərgah biz köhnə üsul tərəfdarlarının hamısını müdafiə etmək əvəzinə Rusiyada başlanmış olan milli və ictimai hərəkata müavinət etməyə çalışsaydıq, nəticələr daha da gözəl olardı.*

*Admiral Kolçakın və general Denikinin müvəffəqiyyətlərini bizə tərif edirlər. Bizimkilər əsrlərcə məhv olmuş keçmişin tərəfdarı olan [Sergey Dmitriyeviç] Sazonov və [Aleksandr Petroviç] İzvolskilərin amalı ilə ruhlanırlar. Bizimkilər gürcülərin, latışların, belorusların tələbatına diqqət verməyib, onu da görməyirlər ki, bizdən kənar hərgah tədbirlər görməsək, Ağ dənizdən [Aralıq dənizindən] Xəzər dənizinə qədər Şərq ilə Qərb arasında keçilməz bir hail [manea, sədd] təşkil edən bir çox millətləri əleyhimizə çıxararız. Hərgah biz ehtiyatlı olmasaq, təzə Yevropa intriqa ocağı olar.*

*Bədbəxtlik ondadır ki, millətlər arasında olan mübahisələr tüfəng atəşi ilə həll edilir. Bununla belə, çox yaxşı olardı ki, millətlərə öz müqəddəratlarını azadəcə təyin imkanı vagüzar edilsin [buraxılsın]. Vilsonun əsasları imperialist əsasları ilə toqquşur. Birinin iştahası qonşularının iştahasına düçar olur. Hamı almaq istəyir, heç kəs vermək istəməyir. Bunların hamısından o qarışıqlıq və o hərcmərclik vücuda gəlir ki, onu guya biz Rusiyada söndürmək istəyirik və qarışıqlıq və hərc-mərclik sabah Yevropanın hissəsinə düşəcəkdir."*

* * *

Qəzetənin həman nömrəsində Emil Karteron "Min illik hökumət" ünvanında Gürcüstan haqqında sənədlərlə əsaslanmış bir məqalə dərc etmişdir. Məqalə sahibi Gürcüstanın keçmiş tarixini gürcü mədəniyyətindən başlayıb bu axır vaxtlara qədər yazdıqdan sonra, cavan Gürcüstan Cümhuriyyətində vücuda gətirilən ümdə islahatı, həmçinin Gürcüstanın təbii sərvətini qeyd edir və məqaləsini bu cür qurtarır:

*"1918-ci il mayın 26-dan müstəqil olan bu qədər gözəl və dövlətli, mütərəqqi Gürcüstan indiyə qədər Fransa tərəfindən təsdiq edilməmişdir. Gürcüstan o sərhədlərin qaytarılması xülyasında deyildir ki, bir zaman Fərat və Tallis nəhrlərinə qədər çatırdı. Gürcüstan 1801-ci ildə Rusiyaya yapışdırılana qədər Gürcüstana mütəəlliq [aid] olan yerləri istəyir. Gürcüstan türklər tərəfindən imza edilmiş və 1829-cu ildə Ədirnə və 1879-cu ildə Berlin müahidənamələri mövcibincə [sazişlərinə əsasən] Rusiyaya güzəşt edilən yerlərin qaytarılmasını tələb edir. Gürcüstan o yerlərə, əksərən gürcülərlə məskun olan Yuxarı Çoroxu və Türkiyə Lazistanını yapışdırmaq istəyir. Bu qərar üzrə Gürcü Cümhuriyyəti Tiflis, Kutais quberniyalarından, Suxum və Zaqatala nahiyələrindən, Batum oblastından, Oltu və Ərdahan uyezdlərindən, Qara dəniz sahili quberniyası ilə Trabzon vilayətinin hissələrindən ibarət olur. Növbət Fransanındır desin ki, 1789-cu ildə Fransanın dirilməsi misalında hal-hazırda dirilməkdə olan mütəkəbbir [məğrur] milləti müdafiə etməyə hazırdır. Fransa özünə cavab verməlidir ki, onun Xariciyyə Nəzarətinin siyasəti Fransanın Qafqaziyada olan mənafeyinə müvafiqdir və Asiyaya olan bu qərar vaxtilə ondan ötrü qapalımı olacaqdır ya açıq?"*

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Qarabağdakı müvəkkilinə teleqrafən təklif etmişdir ki, tə-

cili surətdə Qarabağda darüleytam güşadı [yetimxana açılması] haqqındakı qərardadın qövldən feilə [sözdən əmələ] gətirilməsi barəsində məlumat versin. Nəzarət ingilis zabitanı vasitəsilə Amerika heyəti tərəfindən göndərilən məbləğin nasıl xərclənməsi və hanki qaçqınlara müavinətdə bulunulmasına dair də məlumat istəmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Şəki Nahiyə Müfəttişliyinə müraciətən rica etmişdir ki, oradakı iaşə məntəqələri və fəaliyyəti haqqında Nəzarətə məlumat verilsin.

- "Qafqaz-Merkuri" cəmiyyətinin xidmətçiləri Məsai [Əmək] Nəzarətinə müraciətən məlum etmişdirlər ki, işlərin azalmasından naşi [azalmasına görə], onları xidmətdən əzl [kənar] etmişdirlər. Xidmətçilər müştərək müqavilənamə [kollektiv müqavilə] üzrə xidmətdən çıxmaq haqqı vermək xüsusunda, Məsai Nəzarəti nəzdində təşəbbüsatda bulunmuşlardır. İttixaz edilmiş tədabir [görülmüş tədbirlər] sayəsində cəmiyyət məlum etmişdir ki, fəhlələrin tələbatına əməl edəcəkdir.

- Baş müfəttiş Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, təhqiqatdan alınmış nəticələrdən məlum olmuşdur ki, Balaxanıdakı Şibayev cəmiyyətinin 4 nömrəli mədənində işlərin saxlanılması əsaslı olduğu kimi, 29 fəhlənin də başqa mədənlərdə çalışması, fəqət 5 nəfərinin əzlinə müsaidə verilmişdir. Fəhlələr kəndiləri də bununla razı olmuşdurlar.

- Daxiliyyə Nəzarəti tərəfindən mətbuat üçün qanun layihəsi tərtib verilmişdir. Qanun üzrə tam bir hürriyyəti-mətbuat olmalıdır. Nəşr ediləcək qəzetə və yaxud məcmuə üçün heç bir icazə almaq lüzumu yoxdur. Fəqət qəzetə və yaxud məcmuənin nəşri haqqında lazımi yerinə məlumat verilməlidir. Mətbuat işləri fəqət [yalnızca] məhkəmədə həll ediləcəkdir.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Vükəla Şurasına [Nazirlər Kabinetinə] müraciətən məlum etmişdir ki, Məclisi-Məbusan üzvü Hacı Mirzə Səlim Axundzadə Lənkərandan qaçmışlara müavinət üçün 100 min rublə məbləğ istəmişdir.

- Xariciyyə Nəzarəti Məvərayi-Bəhri Xəzərdəki [Zakaspiyskdəki] Azərbaycan konsulunun bir təliqəsini [rəsmi məktubunu] Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə irsal etmişdir [göndərmişdir]. Təliqədən məlum olur ki, Tazəşəhər və Qızıl-Arvad mövqifində [stansiyasında] bir çox azərbaycanlı qaçqınlar toplaşmışdır ki, müavinətə möhtacdırlar. Konsul rica etmişdir ki, Qızıl-Arvadda iaşə məntəqəsi güşadı [açılması] üçün və Tazəşəhərdə açılmış darüləcəzə [möhtaclar evi] və iaşə məntəqəsi üçün 75 min rublə təxsis edilsin [ayrılsın]. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti təliqəni Rəisi-vükəlaya təqdim etmişdir.

## NAXÇIVAN-ŞƏRUR MƏSƏLƏSİ

**- 3 -**

Yerli əsgərlər tüccardan, kəsəbədən [kəsbkarlıq edən, bir peşə, sənət sahibi], əkinçidən əsgərlik yaşlarından xaric olaraq toplanmaqda idi. Əsgərlik növbəsinə çağırıldıqları zaman tüccar, əhli-kəsəbə dükanını, ticarətini; kəndçi, əkinçi isə cütünü, əkinini, malını buraxıb silahını götürərək əsgərliyinə başlamaqda idi. Bununla bərabər, əsgərlərə maaş da verilməyirdi. Ancaq iaşələri hökumət anbarlarından idarə edilməkdə idi. Bu hökumət anbarlarına toplanmış buğda və arpalar isə Osmanlılar zamanında məhəlli [yerli] əhalidən toplanılmış üşr buğda və arpaları idi. Bu azuqələrin miqdarı o qədər idi ki, xəyanət edilməyib yaxşı idarə olunsaydı, məhəlli əsgərləri uzun müddət idarə edə biləcəyi kimi, o tərəflərə qaçmış, dolmuş minlərcə qaçqınların iaşəsinə də kifayət edərdi.

Dəmiryol cəhətindən isə Naxçıvan hökumətinin idarəsində Culfadan buraya qədər olan xətt, 3-4 yük vaqonu və 2 parovoz var idi. Bundan əlavə, Şahtaxtı-Maku darxətli dəmiryolunun az hissəsi və Naxçıvan dairəsi daxilində bulunan Şahtaxtı mövqifində külliyyətli surətdə vaqonlar və neçə milyonlara baliğ [çatan] dəmiryol ləvazimatı mövcud idi. Bununla bərabər, Culfa mövqifində də bəlkə milyard qiymətində dəmiryol ləvazimatı bulunmaqda idi.

Naxçıvanın məşhur və zəngin duz mədəni də Naxçıvan hökumətinin varidat mənbələrindən birisini təşkil etməkdə idi.

Silahları özlərindən olduğu kimi, məsrəfləri də öz ciblərindən olmaq məsələsi yerli əhalini məsarif vermək cəhətindən və qeyri-nizami halda əsgərə alınmaq səbəbindən olduqca ağır halda sıxmaqda idi. Ancaq vətən və namus müdafiəsi bu qeyrətli camaatı vəzifeyi-əsgəriyyələrində sabit və qaim [möhkəm] saxlayırdı.

Arazboyu həvalisi [ətrafı] və Naxçıvan ətrafı hökumət və camaatının əhvalı zikr edilən hal ilə keçməkdə idi. Araz Türk Cümhuriyyəti tərəfindən deleqat olaraq lazımi müavinətlər istəmək üçün Azərbaycan Hökuməti yanına göndərilmiş Paşa Bayramovun təşəbbüsü ilə Bakıda yaşayan İrəvan Quberniyası Müsəlmanlarının Həmtorpaqlılar Cəmiyyəti təşəkkül etdi. Cəmiyyətin idarə üzvləri də həmin quberniyanın hökumət yanında nüfuz və etibar sahibi məmurlarından intixab edildi [seçildi].

Bu Cəmiyyətin təşəbbüsləri nəticəsində Naxçıvan və ətrafı müsəlmanlarının xahişinə əməl olunmağa hökumət tərəfindən iqdam edildi [addım atıldı]. Özlərini Azərbaycanın ayrılmaz bir hissəsi məqamında təqdim edən Arazboyu həvalisi müsəlman arasına qaçıb dolmuş olan qaçqınlara sərf olunmaq üçün bir milyona baliğ qaçqın pulu və məhəlli müsəlmanların ehtiyaclarını öyrənmək üçün də bir deleqat Azərbaycan tərəfindən Naxçıvan və həvalisinə göndərildi.

Qaçqınlara pul aparmaqda olan Paşa Bayramov və Yusif bəy Qazıyev pul ilə bərabər Tiflis-İrəvan dəmiryolu ilə, bu əsnalarda Naxçıvan xanlarından Bəhram xan [Naxçıvanski] o həvalidə təyin edilən bitərəf məntəqə barəsində İngiltərə heyəti ilə müzakirədə bulunmaq üçün Naxçıvan Hökuməti tərəfindən Tiflisə göndərilmişdi.

Bəhram xan Tiflisdə naxçıvanlı Qasım Camalbəyov ilə görüşmüş, Azərbaycan Hökumətinin hal və fəaliyyətindən məlumat almış və məzkur [deyilən] hökumət tərəfindən qaçqınlar nəfinə [xeyrinə] Paşa Bayramov vasitəsilə bir milyon pul göndərilməkdə olduğundan xəbərdar olmuşdur. Binaənileyh [ona görə], Bəhram xan, Camalbəyov ilə bərabər Paşa ilə gö-

rüşmüş və Araz Türk Cümhuriyyəti pozulmuş olduğunu, indi isə Naxçıvan Türk hökuməti təşkil edildiyini, özünün də Naxçıvan Hökumətinin Xariciyyə komissarı bulunduğunu, buna görə oraya aparılmaqda olan pulun kəndisinə təslim edilməsinin lazım gəldiyini söyləmişdir.

Digər tərəfdən də Camalbəyov Parlaman üzvü olmaq münasibətilə, Azərbaycan Hökumətinə teleqraf çəkərək Naxçıvan ətrafındakı qaçqınlara göndərilməkdə olan pulun geri istənilməsini təklif etmişdi. Camalbəyov və Bəhram xanın tərəflərindən vaqe olan bu kimi maneələrə görə, Paşa Bayramov və Yusif bəy Qazıyev pulu Naxçıvana aparmadıqları kimi, Bəhram xan və Camalbəyova da verməyib, təkrar götürüb Bakıya gətirmişlər, nəhayət, hökumət xəzinəsinə təslim edib qəbzül-vüsul [təhvil qəbzi] almışlardı.

Bəhram xanın və Camalbəyovun məzkur pul barəsində ortaya çıxardıqları maneələr, Bayramovun və Qazıyevin də onların sözünə uyub pulu Naxçıvana aparmamaları Naxçıvan və ətrafı müsəlmanlarının indi gördüyümüz fəlakətli hallara düşməsinə səbəbiyyət vermişdir. Zavallı Ordubad və Naxçıvan ətrafı müsəlmanları ümidsiz və köməksiz halda sıxıntılar, böhranlar içində qaldıqlarından, bir-birinin arxasınca Azərbaycan Hökuməti yanına qasidlər, deleqatlar, ərzi-hallar göndərib müavinətlər, çarələr xahişində bulunmaqda idilər.

Naxçıvan ətrafı müsəlmanları bu qədər möhtaclıq halında ikən Camalbəyov Naxçıvan və ətrafı müsəlmanları xüsusunda edilən hər bir iqdamata [təşəbbüsə] ənvai vəsilələrlə [müxtəlif vasitələrlə] əngəllər çıxarıb, ortalığı səs-küylərlə doldurmaqda idi. Naxçıvan tərəfi qaçqınlarına birinci dəfə pul aparmaqda olan deleqatlar, məzkur maneələr səbəbi ilə vəzifələrini tamama yetirməyib yarımçıq geri qayıtdıqları halda, deleqat [Mirabbas] Mirbağırzadə 20 gün zəhmətli yolları gedib Ordubad və Naxçıvana çatmışdı (1919, fevral 20-də). Yollar bağlı, ətrafla əlaqələri olmadığından əhval və hadisati-aləmdən xəbər tutmayan, köməksizlik, ümidsizliklə intizar içində yaşayan Ordubad və Naxçıvan ətrafı müsəlmanlar deleqat Mirbağırzadəni və yoldaşlarını Azərbaycan namına hörmətən, böyük məhəbbət və hörmətlə, şahanə bir təntənə ilə qarşılayıb istiqbal və qəbul etmişlərdi. Hələ Naxçıvan müsəlmanları bunların vürudu [gəldiyi] günü özləri üçün bir xilas bayramı məqamında tutub böyük şadlıqlar etmiş və Azərbaycana, onun nümayəndələrinə qarşı hökumətli-camaatlı səmimi məhəbbətlərlə nitq söyləmiş və ibrazi-ixlas və sədaqət etmişlərdi [səmimiyyət və sədaqətlərini göstərmişdilər].

Deleqatın Naxçıvanda hökumət tərəfindən şərəflərinə keşidə [tərtib] edilən böyük ziyafət məclisində məhəlli müsəlmanların ehtiyacına sərf olunmaq üçün digər deleqatlar vasitəsi ilə də bir milyon pul gətirilməkdə, kəndisinin də deleqat olaraq məhəlli ehtiyacatı anlamaq üçün göndərilmiş olduqlarını bildirmişdi.

Sabahı günü məsciddə toplanılmış külliyyətli camaat hüzurunda Mirbağırzadə eyni sözləri ətraflıca camaata söyləmiş, anlatmışdır. Camaatın hər sinifi hazır olduğu halda, Azərbaycan deleqatları Azərbaycan Hökuməti namına böyük məhəbbət və səmimiyyətlərlə təkrar-təkrar alqışlanmışlardı. Bütün camaat həp bir ağızla Azərbaycan Hökumətinin bilatəxir [təxirəsalınmadan] bütün mənası ilə kəndi irqdaşlarına sahib durmasını, tərəflərinə Azərbaycandan hər qisim təşkilat və hökumət idarələri təsisi üçün məmurlar göndərilməsini, bu tərəfləri də tarixən və irqən Azərbaycanın təbii hissəsi olmaqla Azərbaycan məmləkətinə ilhaq etməsini [birləşdirməsini] müsirranə [israrlı] surətdə tələb və təmənnada bulundular.

Sonra Naxçıvandakı ingilis general-qubernatoru Lautin Azərbaycandan gələn deleqat Mirbağırzadə və əsgəri təşkilat üçün göndərilmiş zabitlər rəisi Kukuşev ilə rəsmi görüş eyləmişdir. Məqsədi anladıqdan sonra general-gubernator deleqatın və zabitlərin geri qayıtmaları təklifində bulunmaq kimi hal göstərmişdir. Fəqət Mirbağırzadənin general-qubernatora xitabən söylədiyi müfəssəl nitqindən sonra general-qubernator deleqata qarşı razılıq izhar edərək hər xahişinə əməl edilməsini, zabitlərin orada qalıb vəzifələrinə başlamalarını və bu uğurda onlara və məhəlli əhaliyə mümkün olan köməkliyi edəcəyini vəd etmişdi.

*M. B.*

## NİFRƏTAMİZ HƏRƏKƏTLƏR

15 təmmuz [iyul] 1919 tarixli "Azərbaycan" qəzetəsində Quba qəzasında yapılan provokasiyaya aid şöylə mənhus [mənfur] bir fəqərə [hadisə] vardı: "Bizim firqəmiz sünni firqəsidir, müsavatçılar isə şiədir."

Bu qədər böyük bir mənzəreyi-şənaət [pislik, alçaqlıq mənzərəsi] qarşısında duyduğum yeganə hiss bu fəqərənin faillərinə qarşı dərin və əbədi bir nifrət və istikrah [iyrənmə] ilə zavallı məsum millətimə aid pək şəfiq [şəfqətli] bir mərhəmətdir!

İntixabat [seçkilər] zamanında firqələr tərəfindən yapılan propaqandalar, münaqişələr, mücadilələr məşru [qanuni] ola bilər. Fəqət müəlləm bir mazini hələ idaməyə [kədərli bir keçmişi hələ də davam etdirməyə] çalışan bu dürlü hərəkətlətin dərəceyi-dənaətini [alçaqlıq dərəcəsini] təsvir üçün kəlmə bulammayıram.

Bu bədbəxt millət öz içərisində və dişarısındakı düşmənlərin təsirat və təlqinati-bədxahanəsi [bədxah təsirləri və təlqinləri] ilə əsrlərcə qan dəryasında üzdü, boğuldu!

Lakin bir gün çatdı, hər həqiqəti, zamanın icabati-həyatiyyəsini [həyati ehtiyaclarını] anladı, hiss etdi və "milliyyət" qardaşlığının zəval-napəzir [zaval görməz, məhv olmaz, yox olmaz] rabitəsi ilə, rabiteyi-mənəviyyəsi ilə bağlandı.

Şimdi bu bağı çözmək, xaricin möhtəris, iştahalı nəzərləri qarşısında içimizə təfriqə [ayrılıq, fitnə] toxumları əkmək, məmləkəti qana boyamaq istəyənlər tarixin qara yapraqlarında lənətlə, nəsliatinin [gələcək nəslin] yetim ruhlarında nifrətlə yaşayacaqlardır.

* * *

Müsibətzədə [müsibətlər görmüş, bəlalar çəkmiş] millətim! İllərin fəlakətli, məşum [dəhşətli] istibdadından sonra nail olduğumuz hürriyyət və istiqlalımıza

canımızla sarılalım. Bu, hər tərəfimizi qaplayan məzarlar, xarabalar ortasında açmış bir “çiçək” qədər nazlı və nazikdir. Ona toxunanların başına ildırımlar yağdıralım. Dün doğmuşduq, bu gün məzarımızı qazan xain əlləri qıralım. Bu dəqiqə vəzifə və fədakarlıq zamanıdır. Binaənileyh [ona görə], bütün millət tək bir adam kimi müdəbbir [tədbirli, uzaqgörən], bəsirətkar hökumətin ətrafında yığılaraq ona kömək edəlim. Zira, həqiqi vətənpərvər ətrafımızdakı təhlükələrin ələn [indi] mövcud olduğu böylə bir zamanda bütün qəlb və mövcudiyyətləri ilə xidmət edənlərdir. Onlar ancaq müxatirəli [təhlükəli] zamanlarda bəlli olarlar.

* * *

Qoy provokasiya yapanlar dini alət, qanlarla məmlu [dolu] qaranlıq mazini [keçmişi] ehya etməsinlər [diriltməsinlər]. Xaricdə qan! Daxildə qan! Bu millətin müqəddəratını qanlar içində görməkdən zövqyabmı olurlar [zövqmü alırlar]? Bu müsibətzədə milləti müflis və müzirr [zərərli] bir siyasətin arxasından uçurumlara sürükləməsinlər!

*Həsən M. oğlu*

## ÇÖRƏK BARƏSİNDƏ

Bahalıq bəlasına qərq olmuş vətənin çarə yolu hökumətdən gözlənməkdə ikən nagah çörək bahalaşır. Əhali nəzərində görünən səbəb hökumətin Gürcüstanla mal mübadiləsi haqqındakı təşəbbüs məsələsidir ki, 100 vaqon taxıl verib, əvəzində qənd və qeyri alıb vətən məişətinə yardım göstərmək və ucuzluğa bir vəsilə [vasitə] imiş. Halbuki, heç bir şey ucuzlanmayıb, yövmən-fəyövmən [gündən-günə] çörək bahalaşmaqdadır.

Fəqət bunun səbəbi də bir dürlü anlaşılmayır. Aya [görəsən], il qoxurtluqmu [qəhətlikmi], il azuqəmiz yetməyirmi, məhsulat yoxmu, taxıl yanğından tələf oldumu, ya ki təzə taxıl baha qiymətə alınırmı?

Dəyirman sahibləri hər gecə yatıb, sabah yüzlər manat bir kisəyə izafə qiymət qoyub vətəni həlakətə [həlaka] sövq edirlər, əhalini boğurlar. Bu fikirdə olan möhtəkirlərin müqabilinə ciddi mübarizə tədbirləri görülsün gərək.

Bunlarda vətənxahlıq [vətənpərvərlik] haqqı yoxdur.

Vətənin ən möhlik [təhlükəli, öldürücü] bəlası bahalıqıdr.

Hökumətin ciddi tədbiri lazımdır, çarəsi təcili gərək olsun.

*Vətəndaş*

## BAKI XƏBƏRLƏRİ

**İsveçrəyə heyəti-mürəxxəsə**

Avropa dairələrini Azərbaycan Cümhuriyyətinin əhvalı ilə tanış etmək məqsədilə Hökumət İsveçrəyə xüsusi bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] göndərməyi təhti-qərara almışdır. Heyətin başında sabiq Dağıstan Hökuməti üzvlərindən Cabaqiyev duracaqdır. Mövsuq [etibarlı] mənbələrdən alınan xəbərlərə nəzərən, Cabaqiyevin heyəti-mürəxxəsə rəisliyinə namizədliyi bəzi fraksiyaların narazılığına səbəb olmuşdur.





**Darülfünun haqqında**

Darülfünun [universitet] layihəsi ələn [hazırda] Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komisyonu ilə Maliyyə-Büdcə Komisyonunun müttəhid [birgə] iclaslarında doktor [Musa bəy] Rəfiyevin sədarəti altında müzakirə olunur. Layihə ətraflı surətdə müzakirə olandan sonra Parlamana təqdim ediləcəkdir.

**Dağıstanlılar Şurası tərəfindən**

Bəzi naməlum şəxslər şəhərdə Dağıstana yardım adı ilə pul yığırlar. Dağıstan işlərinə baxmaq üçün təşkil olunmuş Şura ümuma elan edir ki, o şəxslərdən Şuranın əsla xəbəri və razılığı yoxdur və onlar özbaşlarına hərəkət edirlər.

**General Baratov**

Qafqaz və İran aləminə məşhur olan general [Nikolay Nikolayeviç] Baratov Könüllü ordu tərəfindən Zaqafqaziya üçün İngilis Komandanlığı indində [nəzdində] nümayəndə təyin edilir.

**Dərbənddə**

Dərbənddən gələnlərin söylədiyinə görə, bütün hökumət idarələrində, xəzinə kimi dairələrdə Denikinin əksi asılmışdır. İçəri daxil olan ona təzim etməli, papaq götürməlidir.

**İclas**

Sabunçu-Balaxanı dairələri mədənlərində çalışmaqda olan bütün müsəlman fəhlə nümayəndələrindən rica olunur seşənbə [çərşənbə axşamı] günü 22 təmmuz tarixində saat 2-də Balaxanı krujokunda [dərnəyində] işçilər iclasına təşrif gətirsinlər. Qarabağ məsələsi və bahalıqla mübarizə üçün tədbirlər görülməsini hökumətdən rica etmək üçün göndərilmiş nümayəndələr məlumat verəcək və bəzi iqtisadi məsələlər müzakirə ediləcək.

*Mədənlər Mərkəzi*
*“Müsavat” İdarəsi*
*Sədr: Mirzəağa Kərimzadə*

**İclas**

Sabah təmmuzun 23-də saat 5-də “Müsavat” firqəsinin bürosunda Bakı Politexnik məktəbinin türk mütəallimlərinin [şagirdlərinin] ümumi iclası vaqe olacaqdır. Yoldaşların vaxtında gəlmələri rica olunur.

**Bakı tələbələri**

Əhvali-siyasiyyədən [siyasi vəziyyətdən] dolayı Xarkovda qalmış Bakı tələbələri indi Bakıya qayıtmaqda ikən səfərbərlik münasibətilə Petrovskda Könüllü ordu komandanlığı tərəfindən saxlanmışlardır.

**Lənkəran bolşevikləri**

Lənkəran bolşeviklərinin bir qismi “Milyutin” paroxoduna və “Tekinski” motoruna minib açıq dənizdə gəzirlər. Qalan hissələri Lənkəranda qalıb hücum edən Ramazan dəstəsi ilə çarpışır.

**Paroxoda hücum**

İyulun 18-də səhər vaxtı Salyandan təzə əsgər gətirən “Samolyot” paroxoduna müsəlləh [silahlı] bolşevik barkazı tərəfindən hücum vaqe olmuşdur. Bolşeviklər paroxodu saxlayıb ərzaq və mazut tələb etmişlərdir. Paroxodda bir neçə qaraqoldan başqa qüvvə olmadığına görə bolşeviklərin tələbi qəbul olunmuş-

dur. Muğandan qaçmışların dediyinə görə, bolşeviklər Sarı adasına köçüb oradan Lənkəranı bombardman edirlər.

**İttihadi-İraniyan məktəbinin həczi**

Necə ki məlumdur, şəvval ayının 17-də Azərbaycan Hökuməti tərəfindən “İttihad” məktəbi binası həcz [müsadirə] olunaraq, skamyaları damlara tullanıb, Parlamanın Qorucu bölüyü oraya yerləşdirilmiş. Həqiqətən böylə əsəfəngiz [təəssüflü] bir hal İran ziyalılarını nəhayət dərəcədə qəmgin etmişdir. Bakıda və onun ətrafında yaşayan 60 min iranilərin yeganə ümidgahı, maarif mənbəyi, daha doğrusu mədəniyyət yuvası olan “İttihad” bu gün on illərlə füqərayi-kasibəsinin qəpik-qəpik cəm olunmuş pulları ilə alınmış skamyalar günün altında xarab olmaqdadır.

Aya, bir öylə yer tapılmayırdı ki, əsgərlər oraya cəm ola idilər? Hansı ki, klublar, şərabxanalar, qumarxanalar olduğu halda, bir məktəbi həcz etsinlər, çocuqları küçələrdə sərgərdan qalsınlar. Nikolay zamanında heç bir məktəbdə layiqincə türk lisanı oxunmadıqda “İttihad” məktəbində farsi, ərəbi, türki lisanlarına rəvac verilirdi. Odur ki, bu gün onun sayəsindən, İkinci Realnı məktəbində “İttihad” məktəbini qurtaranlardan Həsən Qasımzadə, Balaxanı Realnı məktəbində Məhəmmədrza Müslümzadə, şəhər məktəblərində Qulam Həmidzadə, “İttihad” məktəbində Mirzəağa Vəlizadə türk lisanı müəllimlik vəzifəsi ifa edirlər. Tez bir zamanda “İttihad” məktəbinin boşa[l]dılmasını xahiş ediriz.

*Mirzəağa Vəlizadə*

**DAĞISTAN ŞURASI**

Məlum olduğu üzrə, Dağıstan işləri ilə məşğul olmaq üçün Bakıdakı dağıstanlılar bir şura təsis etmişlərdir. Şuranın daxili nizamı böylədir:

Dağıstan işlərinə baxan müvəqqəti şurası “Savqor” adlanır. “Savqor” beynəlfirəq [partiyalararası] bir təşkilatdır. “Savqor”un məqsədi Şimali Qafqaziya dağıstanlılarının inqilabi haqlarını mühafizə etmək və dağıstanlılar arasında təşkilat qurmaqdır. Bu məqsədə ərmək üçün Dağıstan ictimai qüvvələrini toplamaq “Savqor”un şüarını təşkil edir. Bu mənа ilə “Savqor” mərkəzi bir təşkilatdır və müvəqqəti olaraq məhəlli-iqaməti [yerləşdiyi yer] Bakıdır. (“Savqor”da Dağıstan torpağında yaşayan rus və başqa millətlər də iştirak edə bilərlər.)

“Savqor” məhəllində Dağıstan xalqını toplayacaq, mətbuat və təbliğat vasitəsilə onlarda inqilab ruhu saxlamağa səy edəcəkdir. “Savqor” lazım gələn təşkilatlarla münasibata girişəcəkdir. Qafqaziyanın o şəhərlərində və kəndlərində ki, ehtiyac və lüzum göründü, “Savqor” oralarda öz şöbəsini açacaqdır.

Şöbələr təşkil olunduqdan sonra “Savqor” ümum şöbə nümayəndələrindən ibarət bir qurultay dəvət edir. Orada daimi bir Şura təşkil olunur. Dağıstanda əksəriyyətin etimadına istinad edən bir hökumət təşkil olan[a] kimi və Dağıstan Cümhuriyyətinin mərkəzi hökumət idarəsi düzələnə kimi bu Şura fəaliyyətdə davam edəcəkdir. Dağıstan Cümhuriyyətinin mərkəzi hökumət idarəsi təşkil olunmaqdan sonra Şura buraxılır və onun bütün işləri, əmlakı və varidatı təşkil olunmuş hökumətə təslim edilir.





“Savqor”dan başqa heç kəsin ixtiyarı yoxdur ki, Dağıstan xalqı adından danışsın. Hökumət və firqələrə bu barədə şəxsən və mətbuat vasitəsilə xəbər verilməlidir. Ümum Dağıstan dairəsində onun bütün daxili və xarici işlərini idarə edən “Savqor”dan izinsiz dağıstanlılar şurası vəzifəsini əllərinə alan məsuliyyətsiz dolandırıcılarla “Savqor” qəti mübarizə aparacaqdır.

Dağıstan işlərinə görə mərkəzi bir idarənin olmaması sansız təşkilatların çıxmasına, camaat xadimlərinin arasında anarxiya, hətta ziddiyyət və ədavət törənməsinə səbəb olmuşdur. Parçalanmağın Dağıstan işlərinə ağır zərbə olduğunu etirafla, “Savqor” ümid edir ki, hər bir namuslu dağıstanlı onunla hesablaşar, onu müdafiə edər və bu çətinlikdən qalibiyyətlə çıxmasına kömək edər. İstiqlaliyyət və hürriyyət kimi ümumi Dağıstan şüarları vardır. “Savqor” Dağıstan demokratiyasını [xalqını] bu şüarların həqiqət olaraq meydana çıxarılmasına doğru çəkəcəkdir.

**Dağıstan işlərinə görə Müvəqqəti Şura təşkili**

Dağıstan işlərinə baxan Müvəqqəti Şura Bakıda bulunan Dağıstan xadimlərinin ümumi iclasında seçki üsulu ilə təşkil olunur. Üzvlərin qədəri ümumi iclas tərəfindən təyin olunur. Camaat xadimləri 1917-ci ilin martından bu yana inqilab zamanlarında 100 adamın vəkaləti ilə məhəlli və ya mərkəzi, hərbi və ya mülki idarə təşkilində iştirak etmiş şəxslər hesab olunurlar. Bu şərtlə ki, sonra ixtiyarı azalmamış olsun, siyasi və ya ictimai bir cinayət yapmamış olsun və bir də əksinqilabçıların müvəffəqiyyətinə Dağıstanda müavinət etməmiş olsun. Hər bir camaat xadiminin vükəlalıq [vəkillik, nazirlik] və təşkilatda iştirak etməyə haqqı yuxarıkı əsas ilə camaat xadimlərinin ictiması [yığıncağı] tərəfindən təyin olunur. “Savqor” öz arasında Divani-rəyasət intixab edir [seçir]. Divani-rəyasətə sədr, müavini-sədr, katib və iki üzv daxil olur.

**AZƏRBAYCANDA**

**Qazaxdan**

İdarəmizə böylə bir teleqraf gəlmişdir:

*“Qazax uyezdi əhalisi izdihamlı mitinqdə İrəvan quberniyası müsəlmanlarının, ələlxüsus Vedibasar rayonunda Ararat Cümhuriyyətinin müntəzəm əsgərləri tərəfindən mühasirə edilən müsəlmanların fəlakətli halını müzakirə edib, Qafqaziyada olan Müttəfiq Komandanlığının nəzər-diqqətini məzkur [deyilən] cümhuriyyət əsgərlərinin cinayətkaranə hərəkətinə cəlb etməyi və qan tökülmənin, dinc əhalini qırmağın qarşısını tezliklə almaq üçün ciddi tədbirlər görülməsini xahiş etməyi qərara almışdır. Əks surətdə ermənilərin bu hərəkəti arzuedilməyən nəticələrə bais ola bilər.”*

**Şamaxı-Kürdəmir şose yolu**

Şamaxı ilə Kürdəmir arasında vaqe şose yolu işlək və şenlik bir yoldur. 18 Mart hadisatından müqəddəm [qabaq] fayton, dilican, furqon müsafirlərin çoxluğuna kifayət etmədiyindən, bir avtomobil kompaniyası dəxi düzəlməkdə idi.

Məəttəəssüf [təəssüf ki], məzkur hadisat [deyilən hadisələr] bunun vücuda gəlməsinə mane oldu. Şamaxı şəhəri viran edildikdən sonra bu yol əski halını qeyb edərək bir müddət gediş-gəliş kəsildi. Amma bu halda Şamaxıda bir növ asari-həyat [həyat əlaməti; canlılıq] görülməyə görə, yenə müsafirlərin gediş-gəlişi çoxalmaqdadır.

Əvvəllərdə Şamaxı-Kürdəmir yoluna böyük əhəmiyyət verilərək ildə təmir olunurdu. Amma indi bir neçə ildir ki, unudulmuşdur. Odur ki, payız və qış fəsillərində palçıq və çamırın çoxluğundan çarvadar və müsafirlər böyük müşkülata uğrayırlar. Ələlxüsus, Ağsu ilə Şərədil mövqifi [stansiyası] arasındakı məsafə bir qaç yerdən uçqun əlaməti olaraq zədələnmişdir. Havanın quraqlıq vaxtında belə o yerlərdən mürur edəndə [keçəndə] insan qorxuya düşür. Xüdanəkərdə [Allah göstərməsin], nəmişlik vaxtda yolun aralanmış hissəsi uçarsa, oradan keçən fayton və arabaların dərələrin dibində qərar tapacaqları şübhəsizdir.

18 Mart hadisatından qabaq Şamaxıdan Kürdəmirə get-gəl çox asan idi. Çünki vaxtlı-vaxtında yolçular üçün minik arabaları müyəssər olurdu. Fəqət, bolşevik maskasında olan qəddarlar Şamaxıda və Kürdəmirdə olan at və arabaları tamamilə yığıb apardıqlarından, daha bir şey qalmamışdır. Kürdəmirdən Şamaxıya, Şamaxıdan Kürdəmirə gedən müsafirlər bir neçə gün malakan furqonlarını gözləməyə məcburdurlar. Vəlhasil, Şamaxının diriliyinə yolun və vaxtlı-vaxtında minik arabalarının da tapılmasının böyük əhəmiyyəti vardır.

*Əlif. Əlif.zadə*

**Salyandan**

Rüstəm İskəndərzadə qətl edildi.

14 təmmuz gecəsi saat 1 radələrində evinə getdiyi zaman Rüstəm İskəndərzadə düşmənanə bir surətdə qətl edildi.

"Azərbaycan" qəzetə müxbirlərindən Rüstəm İskəndərzadə qəddaranə bir halda güllələboran edildi. Üç güllədən ancaq ikisi döşündən dəyib filfövr [dərhal] canını təslim etmişdir. Məhəlli-hadisəyə [hadisə yerinə] polis məmurları, müstəntiq gəlib məqtulun təqriratını [ifadəsini] ala bilməmişlər. Qatillər məlum olmadığından iki nəfər şübhəli bədəfkar [cinayətkar] həbs edildisə də, yenə sabahı azad edilmişlərdir. Qatillər təqib edilməkdədir.

İskəndərzadə cənabları mətbuata xidmət etmək niyyəti ilə, millətinin eyib və qüsuratını [qüsurlarını] göstərmək xəyalı ilə kəndi qələmi sayəsində "Azərbaycan" qəzetəsində yazmağa başladı. Haqq söz acı olduğundan qiymətdar qırmızı qanı ilə də ağiştə edildi [qanına bulandı].

Zülümə adət etmiş bir qövm, pristav və yüzbaşılar qamçısına adət edən bir insan, rüşvətxor, zalım və qəddarlığa meyil, məhəbbət edən bir camaat bu gün əlbəttə aynada özünü pis görəcəkdir, haqq sözlərini acı biləcəkdir. Böylə də haqq qurbanı verildi.

* * *

Salyanda müxbirimiz İskəndərzadənin qətl edildiyi xəbərini təəssüf və təhəssürlə [həsrətlə, kədərlə] aldıq. İskəndərzadə qayət həlim, mülayim, kimsə ilə işi olmayan, namuskar, düz, doğru bir cavan idi. Neçə ildən bəri Bakıda nəşr





edilən bir çox qəzetələrin müxbiri-sadiqi olmuşdur. Yazdıqlarının doğruluğuna, kəndisinin əxlaqi-həsənə [gözəl əxlaq] sahibi olduğuna kimsə şübhə edəmməz. O da qətl edildi. Kəndisi Azərbaycanın idraklı və millətini sevən bir türk balası olub, Salyanın siyasi və ictimai həyatında görkəmli bir rol oynayırdı.

İdarəmiz mərhumun qətlindən pək mükəddər [kədərli] və qəmgin olaraq baqimandələrinə bəyani-təziyət edir [geridə qalanlarına baş sağlığı verir]. Bu hadisənin təfsilat və səbəblərini bilmək barəsində qəza qaimməqamına teleqraf çəkməklə bərabər, idarəmiz yerlilərdən bəzilərdən dəxi qətlin səbəbləri barəsində məlumat istəyir.

## İDARƏDƏN CAVABLAR

**Lənkəranlılar** imzası ilə idarəmizə Lənkərandan gəlib burada əsgərliyə yazılanlar haqqında məktub yazmış olan altı əfəndiyə: Məktubunuz qəzetəyə aid deyildir. Məhəlli-aidinə [aid olduğu yerə] bildirsəniz daha yaxşı nəticə hasil edərsiniz.

**Fərhad Ağazadəyə**: "Yenə günah özümüzdədir" sərlövhəli məqaləniz qalacaqdır. "Darülfünun qovğaları" ünvanlı məqaləniz də müəyyən mülahizə və nöqteyi-nəzəriniz göstərilmədiyindən dərc edilməyəcəkdir.

**Köçəri əfəndiyə**: "Qarabağ məbuslarına açıq məktub"unuz dərc edilməyəcəkdir.

**Həsən M. oğlu əfəndiyə**: "Bir təshih" ünvanı ilə yazmış olduğunuz məqaləniz münasib görülmədi.

**Salyanda** müxbir olmaq istəyən əfəndiyə: Müxbirliyiniz məqbuldur. Mərhum İskəndərzadənin qətli haqqında, xüsusən səbəbi barəsində müfəssəl məlumat gözləyiriz.


**Satılır**

Hacıqabul stansasında binalarla bərabər ikimərtəbəli daş ev və pambıq təmizləmək zavodundan ötrü korpus, həyəti ilə. Təfsilatı bu ünvana müraciətlə bilmək olar: Birjevaya küçə, nömrə 2. "F. Reddavey və kompaniyası" şirkətində Ağamirov.

*5457*

**Göyçayda**

700 mürəbbe sajınlıq bir yer satılır. Telefon: 35-20.

*5456*

**İpək jaketlər**

3 dənə xarici məmləkət malı sarı, narıncı, göy rəngdə satılır. Ünvan: Remeslenni küçə, nömrə 20, həyətdə, Zərgəryansın mənzilində.

*5454*

**Mirzə lazımdır**

Müsəlmani, farsca yazıb oxuyan və müsəlmanca yainki rusca dəftərdarlıq (buxqalterlik) dərsini oxumuş və dəftərdarlıq vəzifəsinə istedadı olan iki nəfər mirzə lazımdır.

Dərya kənarında Hacı Müseyib Həsənovun kontoruna təşrif gətirsinlər.

*5545*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqları qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Elan**

Gömrük hissəsini təftiş üçün Maliyyə naziri tərəfindən təşkil edilmiş Müvəqqəti Komissiya, məmuriyyətlərində hər hanki cürə olursa sui-istemal [sui-istifadə] edib doğruluq göstərməyən məmurları yazıb bildirmələrini hər kəsdən rica edir. Komissiya bu xüsus üçün olan müraciət və kağızları Kazyonnı Palata [Xəzinə Palatası] imarətində hər gün 10-dan 11-ə qədər qəbul edir.

*Komissiyanın sədri: İsfəndiyar bəy Hacıyev*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**Hökumət Teatrosunda**

səh. 403. "Vətən yaxud Osmanlı savaşı": Türk şairi Namiq Kamalın "Vətən yaxud Silistrə" əsəri Azərbaycanda bu adla səhnəyə qoyulmuşdur.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 406. "Qaybalı kəndinin vüquatı ufaq görünürsə də, filhəqiqə [doğrudan da] Bakı əhvalatından, Şamaxı, Nuxu, İrəvan, Zəngəzur və Naxçıvan haqdisatından daha ufaq isə də...": qəzetdə mətnin bu hissəsində qeyri-dəqiqlik var; belə getmişdir: "Qaybalı kəndinin vüquatı ufaq görünürsə də, filhəqiqə Bakı əhvalatındandır. Nuxu, Şəki, İrəvan, Zəngəzur və Naxçıvan haqdisatından daha ufaq isə də..."

**Teleqraf xəbərləri**

səh. 408. "N. Z.": Sibirdə nəşr edilmiş "Naşa zarya" qəzeti nəzərdə tutulur.

səh. 410. "Zeyonnı ordu": Yaşıl ordu, yaxud Yaşıllar hərəkəti; Rusiyada Vətəndaş müharibəsi dövründə əcnəbi müdaxiləçilərə, bolşeviklərə və ağqvardiyaçılara qarşı mübarizə aparan, qeyri-nizami silahlı qruplar; əsasən kəndlilərdən və kazaklardan ibarət olurdu.

"Spartaklar": Almaniyada fəaliyyət göstərən marksist təşkilat üzvləri.

**Ayılan məmləkətlər**

səh. 414. "Parlaman mütaliatı": "La revyu parlementer" [La revue parlementaire] adlı fransız qəzeti nəzərdə tutulur.

səh. 415. "Gürcüstan haqqında sənədlərlə əsaslanmış": qəzetdə "sənədlərlə" yerinə "sənələrlə" getmişdir.

"Çorox" (yaxud Çorux): Türkiyənin şimal-şərqində çay; Qara dənizə tökülür.

"Lazistan": Türkiyədəki etnik qruplardan olan lazların yaşadıkları əraziyə verilən ad; Osmanlı dövlətində Trabzon vilayəti daxilində Lazistan sancağı mövcud olmuşdur. Lazistan sancağının inzibati mərkəzi əvvəllər Batum, Batumun ruslar tərəfindən işğal edilməsindən sonra isə Rizə şəhəri idi.

**Naxçıvan-Şərur məsələsi – 3**

səh. 417. "üşr": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan dini vergi.

**Bakı xəbərləri**

səh. 421. "Milyutin": qəzetdə bu ad təhrif edilmişdir.

"Samolyot": Volqada gəmiçiliklə məşğul olan böyük şirkətlərdən biri idi. 1853-cü ildə qurulmuşdu. Şirkətin Bakıda şöbəsi var idi.

"barkaz" (yaxud "barkas"): əsasən liman daxilində istifadə edilən kiçik gəmi.

səh. 422. "Sarı adası" (yaxud Sara adası): Xəzər dənizində, Lənkəran şəhərinin şərqində yerləşirdi. 1956-cı ildə torpaq yolla Port İliç (indiki Liman) şəhəri ilə birləşdirildikdən sonra yarımada olmuşdur.

**Dağıstan Şurası**

səh. 422. "Savqor": əslində: "Sovqor"; "Dağlı İşləri Şurası"; Совгор (Совещание по горским делам).

**Azərbaycanda**

səh. 423. "18 Mart hadisatı": 1918-ci ilin 31 Mart hadisələri – daşnak və bolşevik cəlladlarının Azərbaycan xalqına qarşı törətdikləri soyqırım nəzərdə tutulur.

səh. 424. "çarvadar": yük heyvanı ilə yük daşıyan adam.

**İpək jaketlər**

səh. 425. "Remeslenni küçə": Bakıda, indiki Mirəli Qaşqay küçəsi.



***"Azərbaycan" qəzetinin 232-ci nömrəsinin 1-ci səhifəsi***





**Çərşənbə, 23 iyul 1919-cu il, nömrə 232**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 24 şəvvalül-mükərrəm sənə 1337. 23 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ELAN

23 iyul 1919 çaharşənbə günü axşam saat 7-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan olunur.

*T-185*

## HÖKUMƏT TEATROSUNDA AXŞAM TAMAŞASI DRAMA

**Paytaxtımızda təşkil olunmuş Azərbaycan Yardım Alayı nəfinə**

*Yardım günüdür*

Zülfüqar bəy və Üzeyir bəy Qardaşlarının Müdiriyyəti

Çaharşənbə [çərşənbə] günü şəvvalül-mükərrəm ayının 24-də, iyul ayının 23-də 1919-cu ildə yardım günü münasibətilə mövqeyi-tamaşaya qoyulacaq türk məşahiri-üdəbasından [məşhur türk ədiblərindən] mərhum Namiq Kamal bəyin əsəri:

**"Vətən yaxud Osmanlı müharibəsi"**

Bu faciədə göstəriləcəkdir:

Rus-Osmanlı müharibəsi əsnasında rus-Romaniya əsgərləri ilə türk əsgərlərinin vuruşması, dəhşətli top atəşləri, türk şəfqət bacılarının müharibədə igidlikləri və həmin tamaşada yeni Azərbaycan əsgəri musiqi dəstəsi ilə bərabər Yardım Alayının əsgərləri türk zabitanı komandası altında iştirak edəcəklərdir. Birinci pərdədə milli hərbi nəğmələr oxunacaqdır.

Müqəddəs məqsəd üçün verilən işbu tamaşada möhtərəm camaatımızın isbati-vücud [iştirak] etməklərinə əminiz.

İanə olunarsa, kamali-məmnuniyyətlə qəbul olunub və ianə verənlərin əsamisi [adları] qəzetələrdə yazılmaqla bərabər, təşəkkürdə bulunacağız. İanələr isə tamaşa günü teatronun kassasında qəbul olunub və qəbzlər veriləcəkdir.

Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

Müdiri-məsul: Müseyib bəy Axıcanlı; baş rejissor: A[bbas Mirzə] Şərifzadə; məsul: X[əlil] Hüseynov; müdir: Zülfüqar bəy Hacıbəyli.

## MİRZƏ LAZIMDIR

Müsəlmani, farsca yazıb oxuyan və müsəlmanca yainki rusca dəftərdarlıq (buxqalterlik) dərsini oxumuş və dəftərdarlıq vəzifəsinə istedadı olan iki nəfər mirzə lazımdır.

Dərya kənarında Hacı Müseyib Həsənovun kontoruna təşrif gətirsinlər.

*5545*

**SİRK "MODERN"**

Çaharşənbə günü iyul ayının 23-də, 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş fransız güləş mübarizəsinin 25-ci günü 1919-cu ilin məşhur "Cahan Pəhləvanı" namı və Azərbaycan fəxri şarfı və 30 min manat mükafat.

Bu gün üç cift pəhləvan mübarizə edir. Birinci – Gənc Əli İbad və Krayevski, ikinci – Qırmızı Maska və Naməlum, üçüncü – İbrahim Maxtilyayev və Qalişeviç.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: təzə artistlər və pəhləvanlar gəlir.

*5459*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan simsiz teleqrafları)*

**İrlanda istiqlaliyyəti**

Liondan xəbər verirlər ki, Sülh Konfransı iştirakı ilə intixab edilən [seçilən] İrlanda heyəti İrlanda Cümhuriyyətinin Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil edilməsi barəsində Klemansoya bir müxtirə [rəsmi müraciət] göndərmişdir. Bu müxtirədə deyilir ki, İrlanda camaatı uzun müddət əzilməkdə olan məhkumiyyət tərzi-idarəsindən azad olmağa çalışır. İrlanda ayrılmaz xüsusi hüququ ilə əlahiddə bir müstəqil millətdən ibarətdir ki, hər cür Cəmiyyəti-Əqvam onu təsdiq etməyə borcludur.

**Rusiya cəbhələrində**

Qərb cəbhəsində Korel yarımadasında Karyasalsk bolşevik əsgərləri tərəfindən işğal edilmişdir. Narva səmtində Krasnoqorski dəmiryolunun hər iki kənarında olan kəndlər işğal edilmişdir.

Cənub cəbhəsində bolşevik əsgərləri hücuma keçib Yekaterinoslavın 20 verst məsafəsində Suxaçyovkanı zəbt etmişlərdir. Hücum davam edir. Bolşevik əsgərləri düşmənin inadlı müqavimətini sındıraraq Xopyorun şimali sahilini ələ gətirmişlərdir. Balaşov müharibə ilə alınmışdır. Yelan bolşevik əsgərləri tərəfindən buraxılmışdır.

Şərq cəbhəsində Hacı-Tərxan cəbhəsində Çornı-rınokdan ricət edən [geri çəkilən] düşmən təqib edilir. Uralskın qərbində bir neçə kəndlər alınmışdır. Çelyabinsk rayonunda bolşevik əsgərləri inadlı müharibələrlə irəli hərəkət edirlər.

**Denikin**

Admiral Kolçak general Denikini üç vəzifə saxlamaqla bərabər Baş komandan yerini dolandırmağa təyin etmiş imiş.

**Yermolov və Finlandiya**

Murman general-qubernatoru [Vasili Vasilyeviç] Yermolov Murmanda olan finlərlə var qüvvəsi ilə mübarizə etməkdədir. Yermolov özünü Finlanda istiqlaliyyətinin düşməni elan etmişdir. Finlanda burjuaziyası rus Ağ qvardiyası ilə ittifaqa girişmək əleyhinədir. Finlanda Hərbiyyə naziri Rusiya Bolşevik Hökumətinə nisbətən Finlanda Hökumət siyasəti əleyhinə narazı olduğundan istefa verməyə məcbur olmuşdur.





**Mias zavodunun işğalı**

N-ski ordunun ştabı – Qırmızı qoşunlar çex-slovaklara təsadüf edib qızğın müharibədən sonra onları pərişan edərək ağır və yüngül top almışlardır.

**Yekaterinburq işğalına dair**

Alınmış məlumata görə, Yekaterinburq bolşeviklər tərəfindən işğal edilərkən orada 3500 nəfər dabravollardan əsir alınmışdır.

Nauen - Berlin Əmələ və Saldat İcra Komitəsi hökumətə təklif edir ki, Şimali Fransada Belçikanın yenidən təmir və təcdidi [bərpası] üçün lazım gələn tədbirlər ittixaz etsin [tədbirlər görsün]. Bu məqsədlə də Almaniya müəssisəsi təşkil edilmişdir. Xüsusi komissarlar təyin ediləcəkdir.

**Riqada**

Dvinsk - Riqanın qubernatorluğuna Palten namında ingilis təyin edilmişdir.

Dvinsk - Latviyada 6 nəfər latış, 3 nəfər nemeslərdən Kabinə təşkili barəsində edilən Müttəfiqlərin təklifi əhalinin narazılığına səbəb olmuşdur.

**Cəbhələrdə**

Samara – Zlatoust[ovka] səmtində Qırmızı qoşunlar müzəffəranə bir surətdə irəliləyib, hər yerdə əhali tərəfindən alqışlanırlar. Karabaşevo mövqifi [stansiyası] işğal edilərkən N alayı əmələlər [fəhlələr] tərəfindən mahnı və nümayişlərlə istiqbal edilmişdir [qarşılanmışdır].

**Qərb cəbhəsində**

Ponevej boğazının [körfəzinin] qərb cəbhəsində Padmozero tərəfimizdən işğal edilmişdir.

Kivaç mövqifinin qərb cəhətində Voronovo əlimizə keçmişdir. Biz yürüşdə davam edib Baltik dəmiryolu boyunda bir neçə kənd işğal eyləmişik. Novqorod səmtində düşmənlər Kolizinonu işğal eyləmişlərdir. Borisoqlebsk bizim əlimizdədir.

Muldaşevo səmtində Stepnoye mövqifini işğal eylədik.

Kamışin səmtində Salomatovo denilən yeri tərk eyləmişik.

**Cənub cəbhədə** - Aleksandrov-Qayski dairədə Solomuxinskini işğal eylədik.

Biz hücumla Serebrini işğal eylədik. Çələbi səmtində 1700 pud dinamit tutmuşuq. Arasıkəsilmədən irəliyə yürüş edirik. Arqazi [və] Uvildi gölünə yetişdik.

Yekaterinburq səmtində Çələbiyə tərəf yürüş edirik. Şimal tərəfdə Tuymazı-Buzdyak dəmiryoluna yetişib bir çox əsir almışıq.

N ordusunun məlumatı: Miass zavodu işğal edildikdən sonra Sibiryaya tərəf yürüş edirik.

**Ukrayna cəbhəsində**

Kiyev - Konstantinoqrad səmtində bizim hissələr müharibə ilə yeddi mövqif işğal eyləmişdir.

Yekaterinoslav səmtində qızğın müharibələr davam edir. Qırmızı qoşunlar məharətlə irəliləyirlər.

**Almaniya flotunun qərqinə dair**

Skapa-Flouda Almaniya flotu kontr-admiral fon Royterin əmri üzərinə qərq edilmişdi. Onun əmrnaməsinin surəti ta-

pılmışdır. Fon Royter bütün məsuliyyəti öz öhdəsinə götürmüşdür. Fon Royter bəyan eyləmişdir, nemes qəzetələrindən birində oxumuşdur ki, mütarikə [ataşkəs] iyun ayının 26-da qurtarmışdır. Məxlu [taxtdan salınmış] kayzerin əmri üzərinə gəmiləri qərq eyləmişdir. Belə ki, bu əmr müharibənin əvvəlində verilmişdi: Heç bir vaxt təslim olmamalı. Atışma zamanı 6 nəfər nemes ölüb, 10 nəfər də yaralanmışdır. İngilis gəmiləri bu zaman dənizdə idi. Sonra məhəlli-hadisəyə [hadisə yerinə] gəlmişdir. Gəmilərin əksəri 17 sajın dərinlikdə sudadır. Bu gəmiləri çıxarmaq istəyirlər. Deyirlər ki, gəmilərin Skapa-Flouda saxlanması Beynəddəvair Komisyon [İdarələrarası Komissiya] tərəfindən qət edilmişdi. Nemes tayfalarının [gəmi ekipajının] gəmidə qalması məsuliyyəti Müttəfiqlərin üzərinə düşür. Qəzetələr fon Royterin bu hərəkətindən artıq həyəcana düşmüşlərdir və tələb edirlər ki, almanlar qərq etdikləri gəmilərin pulunu versinlər.

Helsinqfors [Helsinki] - Seym Finlandanın istiqlaliyyəti qanununu təsdiq eylədi.

## QƏZETƏLƏRDƏN

**Yeni İtaliya Kabinəsi**

Yeni İtaliya Kabinəsi zeyldəki [aşağıdakı] şəxslərdən ibarətdir: Rəisi-vükəla [Baş nazir] və Daxiliyyə naziri Nitti, Xariciyyə naziri Tittoni, Müstəmləkə naziri Rossi, Ədliyyə naziri Mortara, Maliyyə naziri Tedesko və sairədir. Tittoni iki dəfə Xariciyyə naziri olmuşdur. Bundan əlavə, London və Parisdə səfir olmuşdur.

**Cənubi Avropa Federasiyası**

"Deyli meyl" qəzetəsi Çex-slav Cümhuriyyəti rəisi Masarikin Cənubi Avropa Federasiyası təşkili məsələsi haqqındakı bəyanatını yazır. Masarikin rəyinə görə, bu federasiya heyətinə rutenlər [Şərqi slavyanlar], çex-slavlar, romaniyalılar, serblər, cənubi slavlar və yunanlar daxil olmalıdırlar. Bolqariya ancaq torpaq iddialarından imtina etmək şərti ilə bu federasiyaya daxil edilə bilər. Məzkur qəzetə bu cür bir federasiya təşkilini vaxtsızədd [hesab] edir.

**Bolqariya rəyi-amm haqqında**

Sofiyadan verilən xəbərlərə görə, Bolqariya Hökuməti müəzzəm [böyük] dövlətlərə, həmçinin Amerika və Belçika işləri vəkillərinə bir nota vermişdir. Bu notada Bolqariya Hökuməti müqəddəratını həll etdiyi zaman milli əsasları gözləyəcəkdir. Bolqariya Hökuməti inandırır ki, Konfrans tərəfindən qoyulan məsələlərin vücuda gətirilməsi üçün bundan belə mümaniət [maneçilik] törətməyəcəkdir. Bolqariya öz milli hüququnun etirafından başqa heç bir şey istəməyir. Hərgah, Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] kontrolu altında Balkan hökumətlərindən bəzilərinin iddiası olan oblastlarda rəyi-amm [referendum] olması olarsa, Konfrans Bolqariya tərəfindən qoyulan əsaslara müvafiq rəftar edər. Bu əsas üzrə Bolqariya hal-hazırda Yunan, Serbiya və Romaniya tərəfindən işğal edilən yerlərdə rəyi-amm icra edilməsini xahiş edir.

**Hacı-Tərxan altında**

"B. S." qəzetəsi yazır ki, mövsuq [etibarlı] mənbələrdən alınan məlumata görə, Hacı-Tərxanın işğalı və bolşeviklərin qüvvə alması xəbərləri əsilsizdir. Hacı-Tərxan rayonunda təyyarəçilərin kəşfiyyatına görə, Hacı-Tərxan təxliyə edildikdən sonra bolşevik əsgərlərindən qalanları xırda gəmilərə yüklənmişlərdir. Bunlara mərkəzdən əmr edilmişdir ki, təzə binagüzarlıq [sərəncam] olana qədər orada qalsınlar. Dabravol ordusunun və Müttəfiqlərin gəmiləri böyük olub Volqa nəhrinə daxil ola bilmədiyindən bolşevik donanması ilə müharibə etməkdən məhrum olmuşlardır. Verilən xəbərlərə görə, Petrovskda xırda gəmilər müsəlləh edilir [silahlandırılır] ki, bu günlər Hacı-Tərxana azim olacaqlardır [yollanacaqlar].

**İtaliya-Fransa müsadiməsi**

Fiumedə Fransa və İtaliya qoşunlarının arasında vaqe olan müsadiməyə [toqquşmaya] Dördlər Şurası artıq diqqət vermişdir. İşin həqiqətini bilmək üçün Xüsusi İstintaq Komissiyası intixab edilmişdir [seçilmişdir].

**Türkiyə Parlamanı**

Novorossiyskdən alınan məlumata nəzərən, Türkiyə Hökuməti Parlaman çağırılmasını təhti-qərara almışdır. İntixabat [seçki] qanununda bir qədər təğyirat [dəyişiklik] icra edildikdən sonra üzv intixabatına şüru ediləcəkdir [başlanacaq]. Nazirlərdən biri bəyan etmişdir ki, intixabatda Ərəbistandan başqa Türkiyənin bütün əyalətləri iştirak edəcəklər. Əqdi-sülhü [sülh sazişini] təsdiq etmək üçün Türkiyə Hökuməti Parlamanın açıq olmasını lazım bilir.

**Kürd Hökuməti**

Urmiyədə kürd sərkərdəsi Simkonun təhti-idarəsi ilə [idarəsi altında] bir Kürd Hökuməti təşkil edilmişdir.

**Məhəmmədəli şah**

"Nor aşxatavor"un rəvayətincə, sabiq İran şahı Məhəmmədəli [şah Qacar] İrana qayıdıb Qəzvinə azim olmuşdur [yola düşmüşdür].

**Türkiyə məsələsinə dair**

Yunan qəzetəsi "Atan"ın Paris müxbiri teleqraf edir ki, Türkiyə məsələsinin həlli xüsusunda Sülh Konfransında iki nöqteyi-nəzər mövcuddur. Biri bütün Avropa, Asiya Türkiyəsini dörd hökumətin müttəfiq kontrolu təhtində [altında] qoymaq, digəri isə təzə Türkiyə Hökuməti mandatını üç müəzzəm [böyük] dövlətlərin, yəni Fransanın, Cəmahiri-Müttəhidənin [Birləşmiş Ştatların], ya İngiltərənin birinə verməkdir.

**Böyük qarət**

Batumdan "Nor aşxatavor"a xəbər verirlər ki, bu günlərdə orada İstanbul tərəfə bir paroxod azim olmuş [yola düşmüş] imiş. Sərnişinlər cümləsində 20 nəfər naməlum müsəlləh bədəfkar [silahlı cinayətkar] var imiş. Paroxod Rizəyə yaxınlaşdıqda bunlar silah gücü ilə paroxodu dayandırıb bütün minikləri qarət edib 50 milyon manat pul və külli miqdarda ziqiymət [qiymətli] şeylər aldıqdan sonra genə silah gücü ilə kapitandan şlyupkalar [qayıqlar] alıb, minib Batuma doğru azim olmuşlardır.

**İngilislərin getməsi**

Roytərdən xəbər verirlər ki, Cənubi Rusiyadan ingilislər çəkilməyə başlamış-

lar. Çox çəkməz ki, orada könüllü ingilis dəstələrindən başqa ingilis qoşunu qalmaz. Bu tezlikdə ingilislər Qafqaziyanı həm təmizləyəcəklər. Müşahidə edilmişdir ki, bu dairəni hökumət çoxdan təxliyə etmək arzusunda imiş.

## DAĞISTAN ƏHVALI

**Dağıstanlılar Vilson yanında**

Parisdən alınan məlumata görə, Dağıstan Cümhuriyyəti nümayəndələri Rəisi-cümhur Vilson tərəfindən qəbul edilmişlərdir. Vilson onlara hüsn-təvəccöh göstərib müavinətdə bulunacağını vəd etmişdir. Dabravol ordusu tərəfindən Dağıstan əhalisinə xəsarət toxunması münasibətilə Amerika heyətinə əmr edilmişdir ki, Denikinin Dağıstan üzərinə hücumu nəticəsindən toxunan zərərləri və hadisələrin səbəbini təhqiq edib xəbər versin.

**Amerikalıların dağıstanlılara müavinəti**

Denikinin Dağıstana hücumu ilə qanlı hadisələrdən xəbərdar edilən Amerika Səlibi-Əhmər [Qırmızı Xaç] cəmiyyəti öz nümayəndəsi mayor Devasi ilə külli miqdarda əczа [dərman], uşaq libası və qeyri ləvazimat göndərmişdir ki, Denikinin hücumundan Şimali Qafqaziya ilə Dağıstanın xəsarətdidə olmuş əhalisinə müavinət etsin. Mayor Devasi Novorossiysk-Vladiqafqaz təriqi [yolu] ilə Teymurxanşuraya varid olacaqdır [çatacaqdır].

**Dabravollar Dağıstanda**

Dabravol ordusu tərəfindən işğal edilən Dağıstan şəhərlərindən gələnlər dabravolların zəhmətkeş Dağıstan xalqını qarət etmələrini xəbər verirlər. Ələlxüsus Dərbənddə kazaklar özlərini xeyli azad hiss edirlər. Dabravol dəstələri öz zabitləri ilə bərabər yerli əhalinin evinə soxulub axtarış bəhanəsi ilə evləri qarət edirlər. Kazaklar heç bir silah tapmadıqlarından paltara qədər qiymətli şeylərin hamısını özləri üçün götürürlər. Dağıstanın daxilinə müvəffəqiyyətsiz hücumdan sonra kazakların bu hərəkətləri şiddətlənmişdir.

## TÜRKÜSTANDA

**Bolşeviklərin qüvvəsi**

Alınan məlumata görə, hal-hazırda Türküstanda 6-7 min nəfərdən ibarət Türküstan Hökuməti Ordusu əleyhinə 35-40 min bolşevik əsgəri hərəkət edir.

* * *

Firuzə İran əsgərləri tərəfindən zəbt edilmişdir. Keçən gün Krasnovodskdan gələn sərnişinlər xəbər verirlər ki, Aşqabadın yaxınlığında olan Firuzə bu günlərdə İran əsgərləri tərəfindən işğal edilmişdir. Bununla əlaqədar olaraq bolşeviklər İrana tərəf hərəkətə başlamışlardır. Eyni zamanda bolşeviklər Firuzəyə tərəf qüvvə göndərirlər. Belə rəvayət edirlər ki, İran Hökuməti Firuzəni Rusiya ilə İran arasındakı sazişin mübahisəli bir maddəsi olduğundan işğal etmək istəyir. Firuzə həman saziş münasibətilə Rusiyaya yapışdırılmış idi.





## İRANDA

**Kiçik xan**

Rəştdən gələnlərin verdikləri xəbərlərə görə, Cəngəldə təzədən Kiçik xan dəstələrinin hərəkəti müşahidə edilir. Kiçik xan özü yenə iş başındadır. Bu dəstələr iki min nəfərdən ibarətdir. Bu günlərdə Cəngəldə olan İran kazakları qəflətən Kiçik xan dəstəsinin hücumuna düçar olmuşdur. Atışma əsnasında kazaklardan bir neçəsi ölüb və yaralanıb, qalanları Lahicana tərəf qaçmışlar. Hökumət Kiçik xan hücumunun bərtərəf edilməsi üçün tədbirlər görməkdədir.

**Dəbirülmülkün vəfatı**

Bu günlərdə İranın Ticarət və Sənaət [Sənaye] naziri Ağa Məhəmmədhüseyn xan Dəbirülmülk füccətən [qəflətən] Tehranda vəfat etmişdir. Qəzetələr mərhumun haqqında məqalələr yazıb təəssüf edirlər.

**Sipəhdar xəstələnmişdir**

İranın Hərbiyyə naziri Sipəhdari-əzəm [Fətulla xan Əkbər] ağır surətdə xəstələnmişdir.

## TÜRKİYƏ HAQQINDA BİR MÜLAQAT

Bu yaxınlarda İstanbuldan şəhərimizə gələn və İstanbulda bitərəfliyi ilə məşhur olan siyasi simalardan möhtərəm bir zat ilə mühərrirlərimizdən birisi arasında bir mülaqat [müsahibə] vaqe olmuşdur. Türkiyənin vəziyyəti-ümumiyyəsi və siyasiyyəsi haqqında müəyyən bir fikir edinmək hər kəsin əlaqədar olduğu bir məsələ olduğundan, məzkur [deyilən] mülaqatı buraya eynən dərc ediriz:

Sual – Bəy əfəndi, İstanbuldan çıxdığınız qaç gündür və çıxdığınız günə qədər nə kimi əhval olmuşdur?

– Bu ayın üçüncü pəncşənbə [cümə axşamı] günü İstanbuldan çıxdım. Gəzədolaşa üç gün əvvəl buraya gəldim. Paytaxtın əhvali-ümumiyyəsində bir başqalıq vardır. Bunu da əsrlərdən bəri türk neməti ilə yaşayan ənasiri-qeyri-müslimə tövlid edir [qeyri-müsəlman ünsürlər əmələ gətirir]. Əsl qəbahət isə onlara bu qədər üz verənlərdədir. Bu həqiqəti yaxın bir ati [gələcək] təyid [təsdiq] edəcək və o zaman bugünkü sevinmələr pək dərin yerinmələrlə [peşmanlıqlarla] xitam bulacaqdır. Osmanlı Hökumətinin əsasındakı qüvvət və qüdrət zayiati-hazirəni [hazırkı itkiləri] hər vaxt təlafi [kompensasiya] edər. Əl verir ki, artıq sərsəri bir siyasət təqib edilmiş olmasın, idarəyə bir intizam verilsin və qeyri ünsür arasındakı ixtilafat [ixtilaflar] mübəddəli-etilaf olsun [razılığa çevrilsin]. Mənsubiyyəti ilə müftəxir olduğum [iftixar etdiyim] millətin, yəni türkün sükun və vüqarı qədər, cəladət [igidlik] və mətanəti də olduğuna iman edilməlidir.

– Etilaf [Antanta] dövlətləri ilə Türkiyə arasında ümumiyyətlə bir anlaşma və etilaf [razılıq] mümkün olacaqmıdır?

– Əlbəttə olacaq və zənn edirəm ki, o dövlətlərdən biri ilə bu etilaf şimdidən olmuşdur belə. Ancaq Türkiyə gərək o anlaşmalardan və gərək bu etilaflardan böyük-böyük faydalar bəkləməz. Mənim etiqadımca, heç bir vaxt bəkləməməlidir də. Yaşadığımız əsrin tabe olduğu milli,

iqtisadi, elmi, fənni cərəyan içində hər fərd kimi, hər hökumət mühafizeyi-mövcudiyyət edə bilmək [varlığını qoruya bilmək] üçün mütləqa kəndi adat və ənənatı [adət-ənənələri] ilə mütənasib təşkilata möhtacdır və bədəma [bundan sonra] bundan hasil olacaq qüvvətlərlə idameyi-həyat edilə bilər [yaşamaq mümkün ola bilər]. Sözün türkcəsi, bizlər hər şeyi ibtida [ən əvvəl] kəndimizdən bəkləməliyiz.

– Türkiyədə kiçik millətlər məsələsi nə surətlə həll edilə bilər?

– Avropalılara görə bunlara muxtariyyət verilmək surəti ilə, mənə görə isə bunların hüquq və hürriyyətləri təyid [təsdiq] edilmək surəti ilə bu məsələ həll oluna bilər. Yalnız, bilməyirəm ki, bugünkü türk, dünkü türk qədər rəhim və şəfiq [mərhəmətli və şəfqətli] olsa da, ehmalkar da olarmı və olacaqmı? Son sənələrin siyasətindən hər kəs az-çox zərər görmüşdür. Binaənileyh [ona görə], o kiçik millətlərin bu qədər fəryada haqları yox idi. Madam ki, onlar bu haqqı kəndilərində fəzləsi ilə [artıqlaması ilə] gördülər, bundan böylə türk də hər şeyi daha yaxından görməyə qətiyyən məcburdur.

– Anadoludakı milli cərəyan hökuməti-hazirənin [indiki hökumətin] siyasətinə nə surətlə baxır?

– Anadoludakı milli cərəyanı İstanbuldakı nümayişlərlə mavili-bəyazlı bayraq vücuda gətirdiyi üçün hər türk əvvəlbəəvvəl o nümayişçilərə mədyuni-şükrandır [təşəkkür borcludur] və bu şükranı hökuməti-hazirə siyasətinə bir istiqamət vermək surəti ilə əda edir [qaytarır]. Zaman bütün insanları nasıl əmrinə tabe qılırsa, Etilaf dövlətləri səbəbiyyət verdikləri təqdirdə milli cərəyan hökuməti-hazirəni ər-gec öylə kəndinə tabe qılacaq və bundan Avropa dəxi ayrıca mütəzərrir olacaqdır [zərər çəkəcəkdir]. Könül isə bunu istəməyir. Hökumət istəməməklə mövqeyi zəiflədir. Bu zə'f [zəiflik] əlbəttə və əlbəttə uzun müddət davam edəmməz. Nəhayət, qüvvətlər birləşəcəkdir.

– Türkiyədə hanki bir firqə məmləkətin səlamətini təmin edə bilər?

– Şimdiki halda Türkiyədə heç bir firqə münfəridən [təkbaşına] məmləkətin səlamətini təmin edəmməz. Zatən içində bulunduğumuz böhran firqələrin, firqəçilərin müvəqqətən bir guşəyə çəkilmələrini, susmalarını amirdir [əmr edir]. Əvvəla, firqəçilik təhlükə qarşısında bir haqqı ifadə etməz. Saniyən [ikincisi], firqəçilik səviyyəsi yüksəlmiş millətlər üçün faydalı olur. Bu halda bu gün Türkiyə üçün səlamət, məəttəəssüf [təəssüf ki], təfriqəni mövcib olan [bölünməyə, ittifaqsızlığa yol açan] firqəçilikdə deyil, qəlbi eşqi-vətənlə çarpan, tamamilə müstəqil olan və hər hanki bir proqramdan ziyadə təcrübəsinə, ürfan və vicdana istinad edən bir Kabinənin göstərə biləcəyi əzəmi [maksimum] fəaliyyətlə həmiyyətdədir. Türkiyədə o övsafı haiz [o xüsusiyyətlərə malik] olaraq yetişmiş xeyli rical [dövlət xadimi] var və bu rical vətənin mənafeyi-elmiyyəsi ilə mütənasibən hərəkətə mühəyyadır [hazırdır]. Üç-beş gün daha səbir edəlim, sonra yeni Kabinəni olanca əsəbiyyəti-milliyyəsi [milli qeyrətkeşliyi] ilə ortaya çıxmış, işinə başlamış görəcəyiz.

– Parisə əzimət edən [gedən] Türkiyə heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] Versal Sülh Konfransına verdiyi nota üzərinə Etilaf dövlətlərinin cavabı İstanbulda nə kimi bir təsir hüsula gətirmişdir? Versal Konfransı Türkiyə üçün ümidbəxş ola bilərmi?

– Parisə gedən heyət[ə] Dördlər Məclisinin verdiyi cavab ənasiri-qeyri-müsliməni daha sərahətlə iltizam etdiyindən [müsəlman olmayan ünsürlərin tərəfini daha açıq bir surətdə tutduğundan], bittəb [təbii ki], İstanbulda olanca şiddəti ilə sui-təsirini göstərmiş. O, milli cərəyana da başqa bir qüvvət vermişdir. Binaənileyh, Türkiyə heç bir zaman zillətlə yaşamayacaq və Konfransın nəhayət haqq və ədlə [ədalətə] rəayət edəcəyinə qane olmaqla bərabər, bu Konfransdan hər şeyə istifsar etməyəcəkdir [cavab gözləməyəcəkdir]. 1870 tarixində Bismarkın Elzas-Loreni Almaniyaya ilhaq etmək [birləşdirmək] surəti ilə yapdığı xətanı 1919-da Almaniya canı ilə və qanı ilə təshihə [düzəltməyə] məcbur oldu. Bu gün yapılacaq böylə bir xəta da, yarın yenə böylə bir təshihə məhkumdur. Hər hanki bir idarə əsası nasıl ədalət isə, siyasətdə də əsas olacaqdır. Bu haqq, bu gün yalnız qüvvətdən ibarət olammaz. Şayəd yenə olarsa, türkün bundan pərvası [qorxusu] yoxdur. Çünki o, pək zəif zamanlarında qahir [qəhredici] və qadirdir. Sözümə etimad etmək istəyənlər Osmanlı tarixindən əvvəl türk tarixinə müraciət buyura bilərlər.

– Trakya, Makedoniya, Arnavudluq [Albaniya], Adalar, Misir, Ərəbistan, Kürdüstan məsələlərinin nə tərzdə həll ediləbiləcəyi haqqında mütaliəniz [fikirləriniz]?

– Bu məsələlərə dair izahat vermək saatlara mütəvəqqif [bağlıdır]. Şu anda isə mən bu saatlara malik deyiləm. Binaənileyh, bu babdakı [bu barədəki] tədqiqat və mülahizatı uzun-uzadıya ərz edəmməyəcəyəm. Sizi bütün-bütün cavabsız da buraxmaq istəməm. İbtida [əvvəla], ortada bir Kürdüstan məsələsi yoxdur. Sonra, islam mühiti daima islam olaraq qalacaq və məqami-xilafətə mərbut [xəlifəlik qurumuna bağlı] bulunacaqdır. Daha sonra Trakya, Makedoniya, Arnavudluq kimi yerlərin əşkalı halən deyil, atiyyən təəyyün edəcəkdir [vəziyyəti indi deyil, gələcəkdə müəyyənləşəcəkdir].

– Azərbaycan və Qafqaziya cümhuriyyətləri haqqında İstanbulda və Avropa mətbuatında nə surətlə bir tələqqi [münasibət] vardır?

– Azərbaycan və Qafqaziya cümhuriyyətləri üçün türk aləmi və islam dünyası daima mütəhəssisdir [həssasdır], xeyirxahdır və Vilson prinsipi qabiliyyəti-tətbiqiyyə göstərərsə [həyata keçə bilərsə], bu aləm arasındakı rabiteyi-mənəviyyə bilamüşkülat kəsbi-qüvvət edəcəkdir [mənəvi əlaqələr asanlıqla artacaqdır]. Əks təqdirdə, yenə olacaq olar. Eyni irq arasındakı təmayülata [meyillərə] bədəmə [bundan sonra] heç bir mane' hail [əngəl] olammaz. Şimdiyə qədər yek-digərini görməkdən, yek-digəri ilə sevişməkdən məhrum olan əqvami-Şərq [Şərq xalqları] artıq bu kimi zalım məhrumiyyətlərə qatlanmayacaqdır. Kainatda bizim də bir haqqi-həyatımız var və bu haqq bizləri yek-digərimizə təqrib etdisə [yaxınlaşdırdısa], mənəviyyatımız qədər maddiyyatımız da yüksələcək, hesaba layiq bir ünsür olduğumuzu təkrar meydana qoyacaq, sülh üçün də daima vücudumuza olan ehtiyacı təyid [təsdiq] edəcəkdir. Bu iki cümhuriyyət haqqında şimdiyə qədər Avropa mətbuatında əsaslı bir tələqqiyə müsadif olmadım [təsadüf etmədim] və zənn edirəm ki,

bu mətbuatın sizlərlə surəti-məxsusədə iştiğala [xüsusi məşğul olmağa] hənuz vaxtı da olmamışdır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Ticarət, Sənaət və Ərzaq Nəzarətində**

Azərbaycan dəmiryollarının Tyaqa [Dartma] şöbəsi xidmətçilərinə 5 min arşın bez buraxılmışdır.

**Maliyyə Nəzarətindən**

"Azərbaycan" qəzetəsinin 9 iyul tarixli 220-ci nömrəsində Gömrükxana İdarəsi ilə əlaqədar olan xəbərlər dərc edildiyi münasibətilə Maliyyə Nəzarəti yaxın nömrələrin birində aşağıda yazılan bəyanatın dərcini rica edir:

1) Xaçmaz və Yalama istasyonlarına, yəni Azərbaycan daxilində olan məntəqələrə mal göndərilməsi işinin Gömrük İdarəsinə dəxli yoxdur və daxili mal hərəkatı olduğundan gömrük kontrolundan kənardır. Buna görə, [Cəfər] Rəcəbov tərəfindən bu rayonlara göndərilən malların Gömrük İdarəsinə əlaqəsi yoxdur. Lakin buna baxmayaraq, məmləkət daxilində olsa da, arzu edilməyən bir surətdə ixracı xüsusi şərait altında olan malların sərhəd yaxınında yığılıb qalmamaq üçün 8 iyulda 4444 nömrəli təliqə [rəsmi məktub] ilə Maliyyə naziri Daxiliyyə nazirinə müraciətlə təvəqqe etmişdir ki, sərhəd boyunda bu cür malların saxlanması və hərəkəti barəsində öylə qayda qoysun ki, bu işlər hökuməti-məhəlliyyənin [yerli hökumətin] xəbərdarlığı və şəhadətnaməsi ilə olsun və məcburi qərardadı pozanlar cəzalansınlar.

2) Türkan kəndi [sakini] Məşhədi Abbasqulu İsmayıl oğlundan 87 parça manufaktura malı tutulması haqqında Bakı gömrükxanasına heç bir şey məlum deyildir və böylə bir müsadirə işi Gömrükxana İdarəsinə daxil olmamışdır.

3) 4050 manat miqdarında 10, 15 və 20 qəpiklik rus gümüş pulları bu il aprelin 1-də "Tula" paroxodu yüklənməmiş, sərnişin buraxılmamış və Gömrükxana qulluqçuları tərəfindən rəsmi axtarış və sərnişinləri isticvab [sorğu-sual] etmədən tutulmuşdur. Ona görə bu pullar Gömrükxana hissəsi müdirinin Gömrükxana adına yazdığı əmr qüvvəsincə ancaq aparılmağa buraxılmayıb, müsadirə edilməmişdir. Lakin bu əmr xaricə mal göndərmək haqqında 1914-cü il iyunun 21-də təsdiq edilən qanunların 36-cı maddəsinə müvafiq olmadığından, bu iş təftiş və təhqiq olunmaqdan ötrü Maliyyə Nəzarəti tərəfindən Maliyyə Nəzarətinin təşkil etmiş olduğu Müvəqqət[i] Təftiş Komissiyasına göndərilmişdir.

4) Nəriman Əliyevə mütəəlliq [aid] şeylərin tutulması işi bir neçə yerlərdən keçmişdir. Bu iş Bakı Gömrükxanası Gömrükxana hissəsi müdiri, Maliyyə Nəzarətinin yurist-konsulu [hüquq məsləhətçisi] və Maliyyə naziri Şurası tərəfindən müzakirə edilib baxılmışdır. Hər yerdə bu işə qanuna müvafiq baxılıb, mallardan bir tayının da olsun gəmiyə yüklənməsi aşkar olduğu üçün nəticə bu olmuşdur ki, bu işdə gizli surətdə xaricə mal aparmaq nişanələri yoxdur. Ona görə də Əliyevi müttəhim etməyə imkan verməyir. Ancaq 1910-cu ildə nəşr edilən Gömrükxana qanunlarının 5-ci cildi 2-ci hissəsi 1045-ci maddəsinə görə, gizli mal aparmaq sui-istemalı [sui-istifadəsi, qanunsuzluğu] hərəkətinə cəza edilmişdir.

5) Aprelin 13-də Ticarət, Sənaət və Ərzaq Nəzarəti xidmətçisi tərəfindən "Kursk" paroxodunda tutulan iki səbət aptek malları Gömrükxana hissəsi müdirinin binagüzarlığına [sərəncamına] görə azad edilib mal sahibinə qaytarılmışdır. Çünki bu mal aşkara surətdə və İngiltərə əsgəri polis[i] tərəfindən verilən sənəd mövcibincə [əsasında] paroxoda yüklənmişdir. Bunu da əlavə etmək lazımdır ki, İngiltərə məmurunun bu binagüzarlığı polkovnik Braun tərəfindən imza edilməməsi saxta hesab edilmişdir. Lakin bu, malın çıxarılmasına imkan verməyə əlaqədardır.

6) Ağabala Quliyevin düyüsünə gəldikdə, poşlin [rüsum] məsələsi qanuna görə həll edilmişdir. Belə ki, iyulun 6-da 4365, 4368, 4380 və 4381 nömrələr ilə gömrükxana hissəsi müdirinə yazılmışdır ki, hərgah bu düyü Azərbaycan daxilindən aparılırsa, tezliklə poşlin alınsın. Buna əməl edilmək üçün Bakı Gömrükxanası tərəfindən Ağabala Quliyevdən 1.722.433 manat, A. M. Feynberqdən 931.861 manat tələb edilmişdir. Bundan əlavə, bu düyünün aparılması məsələsi təhqiq olunmaq üçün Təftiş Komisyonuna verilmişdir.

7) "Ağstafa xidmətçilərinin hamısının Denikin tərəfdarı" olmaları məsələsinə gəldikdə, xidmətdən xaric olanların əqəllən [heç olmasa] birinin siyasi fəaliyyətini göstərici sübutlar yoxdur. Onların xidməti fəaliyyətləri isə gömrükxana işlərinə görə qoyulan qanunlar və formalar mövcibincədir, heç bir halda siyasi rəng ala bilməz.

*Dəftərxana müdiri əvəzinə Nazir*
*Şura[sı] üzvü A[leksey] Lebedev*
*Kargüzar əvəzinə (imza)*

## NAXÇIVAN MƏKTUBATI

Əvət, erməni hökuməti işləri nizama salıb aparmağa başladı. Şimdi baxalım erməni hökuməti Naxçıvana gəldikdən sonra Naxçıvan Milli Komitəsi nə ilə məşğul olmağa iqdam etdi.

Söylədilər ki, [Naxçıvanski] Rəhim xanın oğlu İsgəndər xan [Naxçıvanski] ki, İrəvanda Azərbaycan mümessili [nümayəndəsi] [Məhəmməd] xan Təkinskinin attaşesidir, milyon yarım Azərbaycan Hökuməti tərəfindən göndərilmiş ianə pullarını Naxçıvana gətirmiş və Milli Komitəyə təslim edəcəkdir. Milli Komitə bu işdən maraqlanaraq sədr ilə neçə əzasını [üzvünü] xan gilə göndərdi. İsgəndər xan para gətirdiyinin mühəqqəq [doğru] olduğunu sədrə izhar etməklə bərabər söyləmişdi ki:

Şimdilik mən 400 min manat gətirmişəm. Məzkur [deyilən] paranı Milli Komitəyə ədalətlə mühacirlər arasında təqsim edilmək şərti ilə dövr edəcəyəm [təhvil verəcəyəm]. Milli Komitənin ədalətli və düz-doğru hərəkətinin təqibi üçün xan Təkinski tərəfindən atam Rəhim xan sizə müfəttiş təyin olunur ki, o, mütləq paraların sərfinə diqqət edə bilər. Yarın siz bir iltizamnamə hazır edib gətiriniz də 400 min rubləni alınız.

Sədr əzalarla Xanlıqdan övdət edib [qayıdıb] eşitdiklərini Məclisə nəql və

məzkur paraları təhvilə aldıqdan sonra, kassa olmadığından nərədə mühafizət edəcəkləri haqqında məsləhətləşməyə başladı. Polad sandıqları olanları nişan verdilərsə də, nəticədə etimadsızlıq göründü. O səbəbə axırda paranı aldıqdan sonra dörd qismə bölüb, hər payı bir dövlətliyə məqbuzən [qəbzlə] əmanət tapşılırması təhti-qərara alındı.

Bir gün sonra Milli Komitə sədri neçə nəfərlə gedib məzkur məbləği alıb gəldilər. Sədr Komitəyə yetişdikdə məlum etdi, İsgəndər xan söyləyir ki, İrəvanda pulumuz çoxdur və daima sizə para buraxılacaqdır. Hərdən 200 min, 300 min qədər aldıqca siz xan Təkinskiyə hesab verməlisiniz ki, o da məzkur hesablarını Azərbaycan Hökumətinə təqdim etməklə para alacaqdır.

Xülasə, Milli Komitə insaflıca aldığı paranı müstəhəq [layiq, haqqı çatan] mühacirlərə təqsim və təslim etmək üçün üç yerdə "iskani-mühacirin" [mühacirlərin yerləşdirilməsi] və mühacirlərə yardım şöbəsi, Naxçıvan mərkəz olmaq şərti ilə açmaq təşəbbüsatında bulunmağa başladı. Əzalar təsdiq etdilər. Şimdi məzkur şöbələrə qaç nəfər xidmətçi, onlara maaş məsələsi haqqında müzakirə başlandı. Maaşları mövqeyi-müzakirəyə qoyub qət etdi ki, hər ay Milli Komitə sədri katibi ilə məzkur şöbələr maaşına 60 min manat para sərf ediləcəyi smetaya daxil edildi. Bu işdən İsgəndər xan xəbərdar olduqda "o paralardan kimsəyə maaş filan verilməz" demişdi. Milli Komitə sədri məzkur paralardan Parlamanın 40 min manat qalmış borcunu tədiyə etmək [ödəmək] istəyirdi.

*Tamaşaçı*

## VEDİBASAR DAVASI

Bizə yazırlar ki:

Erməni əsgəri dördüncü dəfə olaraq Dronun komandası altında hücum etmişlərdir. Dro İrəvandan azim olduğu [yola düşdüyü] zaman böylə demişdir: "Üç saat sərfində mən üsyançıları tarmar edərəm."

Dro öz mauzerçilərini cəm edib Vedibasar üzərinə hücum və Böyük Vedi kəndini mühasirə edib top atəşinə tutmuşdur. Müsəlmanlar öz kəndlərinin dağılmasını istəmədiklərindən erməni əsgərlərini kəndə buraxmışlardır. Erməni əsgərləri kəndə daxil olan kimi müsəlmanlar küçələrə çıxdıqda əlbəyaxa müharibə başlanmışdır. Müsəlmanlar balta və yabalarla müsəlləh imişlər. Bu da onunla isbat edilir ki, şəhərə gətirilən yaralıların çoxu süngü ilə yaralanmışlardır. Ermənilər bu müharibədə məğlub olub geri çəkilmişlərdir. Şayiələrə görə, Dro özü də yaralanmışdır.

Müharibə gəldikcə genişlənməkdədir. Vedibasardan başqa ermənilər hal-hazırda Sürməli uyezdində, Araz çayının o biri kənarında və Vedibasar kəndi bərabərində Bucutluq kəndini bombardman edirlər. Bu məntəqənin hər iki tərəf üçün böyük əhəmiyyəti vardır. Çünki vedibasarlılar oradan öz arvad-uşaqlarını Aralıq rayonuna köçürürlər ki, burası indiyə qədər erməni hökuməti tərəfindən işğal edilməmişdir və bu rayon erməni hökumətinə tabe olmaq istəməyir. Ermənilər dəfələrlə buranı işğal etməyə çalışmışlarsa da, müvəffəqiyyətsiz qalmışlardır. Çünki bu yer xeyli möhkəmdir və sakinləri hamısı müsəlmandır.



Aralıq rayonu Ağrı dağı ətəyində vaqe olub Maku xanlığına və Bayəzidə yapışıqdır. Aralıq rayonundan kürdlər Araz nəhrindən keçib vedibasarlıların köməyinə gəlmişlərdir.

Qəmərlinin iki verstliyində olan Novruzlu kəndi ki, sakinləri müsəlman və ermənilərdən ibarətdir, yandırılmışdır. Qəmərlidə ermənilər arasında həyəcan olduğundan təxliyə başlanmışdır. Erməni əsgərlərinin ruhu düşkündür. Onlar Vedi üzərinə hücumdan imtina edirlər. Onları mitinqlərdə qızğın nitqlərlə ruhlandırırlar. Axırıncı mitinqlərdən birində bir erməni qızı erməni mauzerçilərini qorxaqlıqda müttəhim edib demişdir ki, onlar müsəlmanlarla müharibə etməyə getməlidirlər. Bu qızın nitqi təsir bağışlamışdır. Dərhal Hərbiyyə naziri müavini Dro danışığa başlayıb, öz mauzerçiləri ilə bərabər hücum edəcəyini vəd etmişdir.

Hərgah bu yaxın zamanlarda müharibə hərəkatı dayandırılmasa, Vedibasar hadisələrində iştirak etməyən və heç bir təqsiri olmayan müsəlman kəndləri xəsarətdidə olacaqlardır.

## İZÇİLİYƏ DAİR QANUNLAR

Baden-Pauel – izçilərin babası söyləyir ki, izçiliyin məsələlərindən biri də keçmiş sipahilərin [şevalyelərin] üzərinə qoyduğu işləri, nişanları öz aramızda işlətdirməkdir. Fəqət keçmiş sipahilərin hissi bizdə böyük dərəcədə bitmişdir.

Baden Pauel izçiliyin qanunlarını, əsasən sipahilərin qanunlarından, işlərindən götürmüşdür. Amma izçiliyi anlaşdırmadan qabaq, sipahilərin qanunlarını araya atardıq. Sipahilərin qanunları bu idi:

Həmişə qaraqol çək, yuxu istirahətindən siva [başqa] heç vaxt silahını çıxarma. Fəqirlərə kömək et və kəndilərini mühafizə edə bilməyənləri mühafizə et. Digərinin namusuna toxunacaq şeyləri yapma. Vətənini mühafizə etməyə hazır ol. Öz verdiyin sözdən qaçma. Öz həyatınla vətənin namusunu saxla. Utanmaqsız yaşamadan namusla ölmək eyidir. Nəcabətlik vacib bilir ki, bir cavan ən ağır işləri sağlam ruhla və nəcibliklə yapsın və həmişə hər kəsə hörmət etsin.

Qədim sipahilərin başladıqları, yapışdıqları işlərin binası bunlar idi və bizim zamanənin izçi qanunu da bundan götürülmüşdür. İzçi qanunu isə bu idi:

İzçilərin qanunları:

1) İzçi namusu inanmağa yarayasıdır. Məgər izçi deyir: "Namusum üzərinə, namus haqqı bu böylədir" – bunun böylə olduğu doğrudur və bu sözlər ən şərəfli anda bərabərdir.

2) İzçi vətənə, ata-anasına və böyüklərinə doğruçudur. O, onları mühafizə etməlidir.

3) İzçinin borcu insanlara faydalı olmaq və kömək etməkdir. O vaxtı ki, izçi bir iş üzərində nə yapacağını bilməyir, onda kəndisindən sormalıdır: "Mənim borcum nədədir?" Yaxud, məgər: "İnsanlara hamısından eyi nə olar?" və öz borcunu, insanlara eyi olacaq şeyi yapmalıdır. O, hər vaxt birinin həyatını qurtarmağa, yaxud zülmə düçar olmuşa kömək etməyə hazır olmalıdır.

4) İzçi hər kəsin aşnası və hər digər izçinin qardaşıdır.

5) İzçi nəzakətdir. O, hər kəslə, çox

vaxtı qadınlarla, uşaqlarla, qocalarla, saqatlarla [şikəstlərlə], axsaqlarla və digəri ilə nəzakətlidir. Öz zəhmətinə və nəzakətinə heç vaxt mədəd almamalıdır.

6) İzçi heyvanat aşnasıdır. Onları mühafizə etməyə, bəsləməyə hazır olmalıdır.

7) İzçi böyüklərinin, qaraqolbaşının, ata-anasının əmrinə itaət edər.

8) İzçi hər ağır dəqiqələrdə məmnundur.

9) İzçi ehtiyat sevəndir.

10) İzçi işdə, sözdə və düşüncədə təmizdir. İzçi, onun düşüncəsi kimi özü də təmizdir. İzçi əsl insandır. Sipahilərin diləyi həmişə hazır olmaq idi, izçilərin də diləyi hazır olmaqdır. Bu, o mənadadır ki, həm ruhla, həm bədənlə öz borcunu yerinə yetirməyə hazır olmalıdır. Ruhla hazır olunuz ki, bir şeyi eyicə düşünüb onu yapasınız. Bədənlə hazır olunuz ki, lazımlı saniyədə bacarıqlı və qüvvətli lazım olan iş yapasınız.

Bu söylənmişdən görsənir ki, izçilik yalnız qədim, bizim zamanda yatmış və yenidən oyanan sipahilikdir. İzçilik yalnız vətənini sevən, millətini ucaltmağa çalışan, zülümlə mücadilə [mübarizə] edən, insaniyyət yolunda çarpışan, digərindən ötrü canını fəda edən yatmış sipahilikdir. İzçiliklə sipahilikdə fərq yoxdur.

*İzçi M. R.*

**BİR CAVANIN FACİƏSİ**

Neçə vaxt əvvəl Cavadzadə Keyqubad nam [adlı] qeyrətli bir cavanın ölüm xəbərini eşitdik. Fəqət faciənin çegunəliyi [necə olduğu] məlum olmadığından, bir xəbər yaza bilmədik. Zira, bir rəvayət qətl edildiyini, digəri suya atıldığını, üçüncüsü isə Denikini çəkə bilməyib özünü çaya atdığını bildirirdi. Şimdi nəhayət həmqəryəsindən [həmkəndlisindən] böylə bir müxabirə [xəbər] aldıq. Dağıstanda millət xainləri tərəfindən fəci [faciəvi] bir surətdə şəhid edilmiş olan Keyqubad Hacı Cavadzadənin tərcümeyi-halı:

Mərhumi-müşarünileyh [haqqında danışılan mərhum] Quba qəzası təvabeyindən [Quba qəzasına tabe olan yerlərdən] Xuluq qəryəli [Xuluq kəndindən] yoldaşımız, məşhur millətpərəstlərimizdən Hacı Cavad Vəlibəyzadənin məxdumu [oğlu] olub, 1315 tarixi-hicrisində Xuluq qəryəsində təvəllüd etmişdir. 7 sinnində [yaşında] Dərbənd məktəbi-ibtidaisinə gedərək daima əqran və əmsalından [yaşıdlarından və taylarından] geri qalmayaraq rüşdiyyəni bədəl-ikmal [bitirdikdən sonra], şəhri-məzkur [deyilən şəhərin] edadisinə daxil olmuşdur. Əsnayi-təhsildə [təhsil aldığı zaman] hənuz 16 sinnində ikən 1327 Osmanlı-İtalyan müharibəsi vüqu bulmaqla qeyrəti-milliyyə və diniyyə saqiəsi ilə [milli və dini qeyrət sövqü ilə] Trablisqərb müharibəsinə iştirak etmək fikri ilə İstanbul şəhərinə əzimət eyləməkdə [getməkdə] ikən Batumda rus məmurları tərəfindən tövqif [həbs] edilərək pədərinə [atasına] ixbari-keyfiyyət edilmişdir [xəbər verilmişdir]. Pədəri dəxi Batumdan gətirərək yenə təvəqqe və iltimasla (zira müdiri-məktəb çocuqda görmüş olduğu hissi-milliyə məbni [milli hisslərə görə] bir daha məktəbdə qəbul etmək istəməyirdi) Dərbənd edadisinə göndərmişdir.

Məktəbi-məzkuru [deyilən məktəbi] bitirdikdən sonra Moskva Darülfünunu-





nun [Universitetinin] Ticarət şöbəsinə daxil olaraq bir sənə təhsil eylədikdən sonra müharibeyi-hazireyi-ümumiyyədən dolayı zühur edən iğtişaşa görə evinə qayıtmışdır. Bədəhu [sonra] məmləkətimizdə meydana gələn son inqilabda Bakıdan üsərayi-hərbiyyədən [müharibə əsirlərindən] bulunan türk zabitlərindən xəfi [gizli] surətdə cəlb edərək Quba qəzası daxilində ilk təşkilat və təlimati-əsgəriyyəyə çalışmış və bilaxirə [daha sonra] Xırdalan müharibəsinə dəxi iştirak edib türk zabitləri ilə bərabər Axtı, Şəki, Gəncə təriqi [yolu] ilə İstanbula əzimət etmişdir.

Orada dəxi türk ricali-siyasiyyunu [siyasət adamları] tərəfindən məzhəri-hörmət [hörmətə nail] olmaqla türk üdəbası [ədibləri] tərəfindən kəndisi "Keyqubad" ləqəbi ilə təlqib edilmişdir [ləqəbi verilmişdir]. Nəhayət, türk orduyi-hümayunu [Osmanlı padişahının ordusu] Qafqaziyanı işğal edərək Bakı şəhərinə daxil olduğu zaman orduyi-məzkurə ilə Bakıya varid olub [gəlib], oradan evini ziyarət üçün xanəsinə gəlmişdir.

Müddəti-həyatında boş durmamış olduğundan, yenə də boş durmayaraq Azərbaycan, Dağıstan hər iki məmləkətin naili-istiqlaliyyət olduqlarından, Dağıstanda görmüş olduğu nizamsızlığa məbni [görə] oraya daha ziyadə əhəmiyyət vermək lazım gələcək fikri ilə məhəlli-məzkura əzimət etmiş [deyilən yerə yollanmış] və Dağıstan Hökuməti tərəfindən hüsnqəbula məzhər olaraq Məclisi-Məbusan Baş kitabətinə [Baş katibliyinə] təyin qılınmaqla ifayi-hüsni-xidmət etmişdir [vəzifəsini yaxşı ifa etmişdir]. Bundan maəda [bundan əlavə], "Dağıstan Darülfünun Tələbə Cəmiyyəti" rəisliyində və "Hürriyyət və İstiqlal" firqəsi əzalığında [üzvlüyündə] dəxi vətən və millətə pək böyük xidmət etmişdir.

Bilaxirə [daha sonra] hökumət tərəfindən Andı, Qunib, Xasavyurd Məclisi-Məbusan əzası intixabı komissiyasının [seçki komissiyasının] rəisi vəzifəsi ilə məzkur qəzalara əzimət edərək vəzifəsini ifa etməkdə ikən Denikinin Dağıstana daxil olduğu xəbərini eşidincə, həman intixab övraqını irsal edərək [seçki sənədlərini göndərərək], kəndisi təxiri-övdət edib [geri qayıtmağı təxirə salaraq], millət xainlərini birər-birər əhaliyə anlatmaq və camaatı Denikin əleyhinə hazırlamaqla məşğul olur. Nəhayət, Axtı təriqi ilə övdət etməkdə ikən əsnayi-rahda [yolda] millət xainləri tərəfindən Andı qəzası daxilində Göysu nam çaya atılmaq surəti ilə məzlumanə bir surətdə şəhid edilmişdir. (Rəhmətullahi rəhmətən vasiən.) Cənabi-haqq əbəveyninə [valideynlərinə] səbri-cəmil [gözəl səbr] ehsan buyursun.

*Xuluq məktəbi müdiri:*
*Məhəmməd Şərif*

*Balaca felyeton*

**İMAN ƏZİZDİR!**

Bəzən qəzetələrdə oxuyuram ki, filan məmur filan cür xəyanət etmiş. Doğrusu, mən bu xəbərə inana bilmirəm. Çünki gərək "siyasət", gərəksə "ruh öldürmək – ruh yüksəltmək" və "baş yastığa qoydurtmaq" nöqteyi-nəzərlərindən qəzetələrdə o qədər yalan xəbərlər çap edilir ki,

adam lap doğrusuna da inanmaq istəməyir. Arxadaş, bir də mən necə inanım ki, bir qəzetənin bir nömrəsinin bir səhifəsinin bir sütununda görürsən yazılmış:

*Şura qırmızıları bütün cahanı zir-zəbər [alt-üst] edib qanlı ənqazlar [dağıntılar] içində tovariş [yoldaş] Lenin inqilab "Papa"sı elan edilmişdir.*

*Və həman xəbərin cizgisi altında dərc edilmiş:*

*Kolçak və Denikin Müttəfiqlərin müavinəti ilə bütün qırmızıları məhv edib Petroqradda tacgüzarlıq [tacqoyma] mərasimi ilə məşğuldurlar.*

Bu gün qəzetədə oxuyuram ki, İngiltərə Komandanlığı rəsmi surətdə Azərbaycan Hökumətinə xəbər vermiş ki, Denikin haydudları [quldurları] tez zamanda, yəni iki-üç günə Dağıstanı boşaldıb müəyyən xətt ötəsinə çəkiləcəklərdir. Öz-özümə deyirəm, yəqin ki, bu boyda cahangir hökumət heç vədə bu böyüklükdə başını yastığa qoy laylayını, özü də rəsmi surətdə bizə çalmaq istəməyəcək. Amma sabah görürəm ki, Denikin Samurda səngərlər atdırıb, göndərmiş olduğu agentlər və casuslar sayəsində Quba qəzasını da (hələlik qan tökməksizin pul tökməklə) istila etmək xəyalına düşür. Hələ qonşumuz erməni kirvələrin qəzetələrini ələ aldıqda "fabrikasiya" [uydurma] sözünün mənasını ətraflıca anlayıb dünyada heç bir doğru şey olmadığına inanmağım gəlir.

Bəli, sözüm orada da deyil, mən onu ərz etmək istəyirəm ki, bu axır zamanlar bəndəniz bir inanmamaq mərəzinə mübtəla olmuşam ki, hətta bir çox gözümlə gördüyüm şeylərə də inana biməyirəm. Məsələn, görürəm ki, bildir bir ayağında çust, bir ayağında başmaq küçələri səfil dolaşan əfəndilər bu il məmuriyyət sayəsindəmi, iman əzizdir, ya nə yol ilə isə qatarlarla mülklərə sahib olub, qiymətsiz bonları ətrafa sovururlar. Bu barədə hərə ağzına gələni söyləyir, amma mən isə bir söz söyləyə bilməyirəm. Çünki inana bilməyirəm ki, bir tək məmurluq ilə beşaltı ay içində adam bu qədər dövlətə malik ola bilsin. Həqiqətdə, bəlkə kişinin başqa "alış-verişi" də var imiş.

Məsələn, görürəm ki, Quba kimi kiçik şəhərlərdə məmurların qoltuqçu adyudantları heç bir işlə məşğul olmayıb ancaq ora-burada gət[ir]di-göt[ür]dü, yüzbaşı-müzbaşılarla işləmədən böyük dövlətə sahib olub aşıb-daşırlar. Deyirəm, görəsən, bunda da bir hikmət var imiş, yoxsa insan durduğu yerdə dövlətli ola bilməz ki.

Görürəm ki, Salyan şəhəri pristav müavini Heydərbəyov qulluğundan suiistifadə etdiyi üçün müddəiyi-ümumi [prokuror] tərəfindən təhti-mühakiməyə alındığı halda ("Azərbaycan", nömrə 223), özü tərfiyi-rütbə ilə [rütbəsi artırılmaqla] Xaçmaz pristavlığına təyin edilir. Mən nə müddəiyi-ümumiyə inana bilirəm, nə də bu tərfiyi-rütbəyə. Ağlıma gəlir ki, bu iş də bir hikmətdən xali deyildir. Yəqin ki, burada bir qohum-qardaşlıq, aşna-dostluq kimi mühüm bir məsələ vardır.

Görürəm ki, çar hökuməti zamanı rüşvətçilikdən dolayı həbsxanalarda sümük sındırmış və kənd mirzəsi olduğu zaman Vəliyev Dəvəçiyə pristav təyin edilir və yenə zülmündən şikayətlər edilir. Deyirəm ki, əlmənə fi-bətnüş-şair...

Bu işləri görüb bağışlayınız, bir az biədəb də danışıram. Srağagün bizim uşaqların anası da dilə gəlmiş və mənə deyir ki, a kişi sən də kişisən? Dünənki aclar bu gün qulluqdan mülkü-mal sahibi olmuşlar, oğul evləndirirlər, qız köçürdürlər, sən hələ millət belə gəldi, vicdan helə getdi - deyə oturub ağzını göyə tikmisən. Bu[n]lar da bir gündü, belə fürsət məqamı hər zaman ələ düşməz ki! Demişəm, arvad sus, iman əzizdir, adam qaranlıq yerə daş atmaz, bu[n]ların hamısında bir hikmət var.

### İnanmıram

Mən gözümlə gördüyüm şeylərə inanmadığım halda, qəribə burasıdır ki, Qubadan mənə yazırlar ki, guya Quba məmurları millətin sayeyi-cibişdan-vayəsində [millətin cibi sayəsində] mazi, hal və istiqballarını [keçmişlərini, indilərini və gələcəklərini] təmin etmək işlərində fövqəladə tərəqqilər edərək, hətta bu yolda ruhanilərlə sıxı bir irtibat əldə etməyə, yəni dövlətli uşaqlarının yaşlarını azaltmaq və çoxaltmaq kimi əxzi-əsgər [hərbi çağırış] məsələlərində də etilafa [razılığa gəlməyə] nail olmuşlardır.

Və yenə yazırlar ki, müstəntiqlərimizdən hərəkati-insaniyyətpərvəranədə o qədər irəli gedənlər vardır ki, artıq öz müştərilərinə zəhmət verməyi rəva bilməyib, hələ bazar içindəcə qonuşub, görüşüb, sonra da bir dalana, ya daldaya çəkilərək "haqq və hesabı" düzəldirlər.

Və yenə də yazırlar və yazırlar ki, Quba məmurları hər vəzifələrini "layiqincə" ifa edib, bitirib qurtardıqları üçün öylə asudəliyə çıxmışlar ki, bütün vaxtlarını guya millətin şərəfinə badənuş olmağa sərf edərək "paxmel" fasilələrindəki bikar vaxtlarını da xali beş yüz-min çağırırlar...

Kaş ki, hələ beləcə olaydı. Məmurlarımız həyatlarını təmin edib, rüşvətdən gözləri doymuş olaydı. Ruhanilərimizlə "ziyalılarımız" arasında ixtilaf olmayaydı. Müstəntiq əfəndilərimiz insaniyyətpərvər olaydı. Amma mən inanmıram və mən ölüm, necə ola bilər ki, mən gözümlə gördüyüm şeylərə inanmaya-inanmaya bir parça kağıza inanım?

İnanmıram və inanmayacağam. İstəsə "Ümidvar" əfəndi "İdarələrimizdə hərcümərclik" ünvanlı gündə bir məqalə yazsın. Yenə inanmayacağam, vəssalam.

*Əfi*

## BAKI XƏBƏRLƏRİ

### İxtar [xəbərdarlıq]

Qəzetəmizə məqalə, müxabirə [xəbər] və əşar [şeirlər] göndərən əfəndilərə qəti surətdə xəbər veririz ki, dərc olunmayan yazılar haqqında uzun bəyanat verilməyəcəkdir. Yazan əfəndilər qəzetəmizin axırında "İdarədən cavablar" qismi-məxsusuna baxsalar kifayət edər. Daha gündə neçə saat vaxt almağa dəyməz.

### Birinci Ali-ibtidai məktəbində

İbtidai şəhər məktəblərini qurtaran uşaqlar imtahansız Birinci Ali-ibtidai hökumət məktəbinə qəbul edilirlər. Həmin məktəbdə əlavə olaraq fransız və alman lisanları da təlim edilir. Bu məktəbi bitirənlər imtahansız gimnaziyanın 5-ci klasına, Texniçeski məktəbə və Hərbiyyə məktəbə qəbul edilirlər. Ərizələr hər gün səhər saat 10-dan 12-yə qədər məktəbin

dəftərxanasında qəbul edilir. Adres: Şamaxinka, Üçüncü Paralelni küçədə, 47 nömrəli evdə.

**İsgəndərzadənin qətli münasibətilə**

Müxbirimiz Rüstəm İskəndərzadənin Salyanda qətli münasibətilə idarəmiz tərəfindən Salyan qəza qaimməqamına bir teleqraf göndərilib mərhumun kimlər tərəfindən və nə səbəbə qətl edildiyi xəbər alınmışdı. Həman teleqrafımıza cavab olaraq bu gün Salyan qaimməqamı idarəmizə böylə bir teleqraf göndərmişdir:

*“İskəndərzadəni qətl edəni ciddi surətdə cüstcu edirik [axtarırıq]. İş İstintaqa verilmişdir.*

*Qaimməqam: [Əliheydər] Yusifzadə”*

**Gürcüstana taxıl yollanması**

Əvəzində qənd və başqa zəruri şeylər gətirmək şərti ilə Gürcüstana taxıl aparılmasına hökumət tərəfindən izin verilmişdir.

**Batum-Bakı**

Təmmuzun 22-də Batuma xüsusi Hökumət Komisyonu gedir. Komisyonda Maliyyə Nəzarəti, Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] və Sovet Syezdin nümayəndələri iştirak edir. Komisyonun məqsədi Batuma 300 min pud cövhərin [kerosinin] aparılması məsələsini asanlaşdırmaq və Azərbaycan dəmiryol agentəliyi cənbində [nəzdində] zavod skladı təsis etməkdir.

**Şamaxı hadisəsinə dair**

Şamaxıda vaqe olan hadisələrin səbəb və müqəssirlərini aydın etmək üçün hökumət tərəfindən təşkil olunmuş Fövqəladə Təhqiqat Komisyonu öz çinovnikləri [Nikolay Mixayloviç] Mixaylov və Novatskini Şamaxı uyezdinə göndərmişdir. Komisyon Bakı qubernatoruna müraciətən məzkur [deyilən] komisyon üzvlərinə müavinətdə bulunmağı rica etmişdir.

**Yeni qiraətxana**

Çaharşənbə [çərşənbə] günü iyul ayının 23-də Sabunçu İran nümayəndəsi Ağamirzə Abbas xan cənablarının təşəbbüsü ilə Sabunçuda Martınovski küçədə Bəşir bəy Aşurbəyovun mülkündə iranlıların “Xurşid” adında qiraətxanası açıldı.

**İclas**

Təmmuzun 23-də axşam saat 6 tamamda Parlaman binasında “Müsavat” firqəsinin odasında Bakı Politexnik məktəbinin türk mütəəllimlərinin [tələbələrinin] ümumi iclası vaqe olacaq. İclas ikinci olduğu üçün nə qədər üzv olsa həqiqiədd [hesab] olacaq. İclasda həll olunacaq məsələlər:

1) Müsamirə heyətinin məruzəsi;
2) Təcili yardım şöbəsinin məruzəsi;
3) Sənətçilərin halı barəsində.

**Ticarət və Sənaət Nəzarəti indindəki Böyük Şuranın iclası**

Bir tərəfdən dövlətin valyutasını artırmaq, digər tərəfdən də mal sahiblərinə kömək etmək məqsədi ilə məmləkətdən xammal çıxarmaq məsələsini müzakirə etməkdən ötrü iyulun 19-da Ticarət və Sənaət Nəzarəti indində [nəzdində] Böyük Şuranın iclası vaqe olmuşdur. Çünki banklara qoyulmuş mallar xarab olur və mal sahibləri zərər çəkirlər. Böylə istidalardan [xahişlərdən] biri də “Elektrik qüvvəsi” cəmiyyəti tərəfindən daxil olmuşdur.





Cəmiyyət istidasına görə, bir qədər qoyun dərisi, 5000 puda kimi təmizlənməmiş yun aparıb elektrik işlərinə lazım olan əşya alıb gətirsin. Şura iki milyonluq mal çıxarmağı izin vermişdir. Sonra Şura Nobel Qardaşları şirkətinə izin vermiş ki, Rostov tərəfinə 3 milyon yarım manatlıq neft aparsın. Bu şərtlə, əvəzində mədənlərə lazım olan material alıb gətirsin.

Nəhayət Denisovun bankir kantorasının Azərbaycandan qərbi Avropaya hökumətin təhti-nəzarətində [nəzarəti altında] xammal çıxarmaq məsələsi müzakirə edilmişdir.

Şura qət etmişdir ki, tezliklə mal sahiblərinə yardım etmək lazımdır. Fəqət, bu, hökumətin təşəbbüsü ilə təşkil edilməlidir. Bu köməyi ətraflı surətdə düzəldib bir layihə halına salmaq nazir və birja nümayəndələri ilə pambıq komitələri nümayəndələrinə mühəvvəl [həvalə] edilmişdir. Azərbaycanda bir neçə milyon pud pambıq mövcud olduğundan Şura qərar qoyur ki, sentyabrda vaqe olacaq qurultaya kimi bu məsələ ətraflı surətdə həll olunsun və pambıqlar hökumətə mənfəətli surətdə satılsın. İclasın axırında Nəzarətin Sentrodom [Mərkəzi Ev Komitəsi] cənbindəki nümayəndələrinin məruzəsinə baxılmışdır.

Şura gələn iclasda Sentrodoma maddi müavinətdə bulunmaq məsələsini müzakir[ə] etməyi təhti-qərara almışdır.

**Türk Müəllimləri İttifaqında**

- Aldığımız məlumata görə Bakı Türk Müəllimləri İttifaqı işbu gələn sentyabrın birindən etibarən pedaqojiyə aid bir məcmuə nəşrinə başlayacaqdır. Məcmuə böyük qitədə [ölçüdə] olub, müəllimlər iştirak edəcəklərdir. Bundan ötrü smeta hazırlanıb Maarif Nəzarətinə təqdim edilmişdir.

- Avqust ayının 1-dən sentyabrın 1-dək Bakı Azərbaycan və Dağıstan Müəllimlər İttifaqı nümayəndələrinin Şurası iniqad edəcəkdir [yığışacaqdır]. Şurada Azərbaycan və Dağıstan Cümhuriyyətləri türk və müsəlman müəllimləri ittifaqlarının mərkəzi təşkilatı təşkil ediləcəkdir. Bakı İttifaqı mütəşəbbüs olduğu üçün 35 min manatlıq bir smetanı Maarif Nəzarətinə təqdim edərək təcili surətdə paranın təxsisini [ayrılmasını] rica etmişdir.

- Bakı İttifaqı Maarif Nəzarətinə müraciətən rica etmişdir ki, hər qəzada birər kitabxana güşadına [açılmasına] lüzum görüldüyündən, İstanbuldan kitablar gətirilmək üçün iqdamatda [təşəbbüsdə] bulunulsun. Nəzarət öz müavinətini vəd etmişdir.

- Məlum olduğu üzrə, Bələdiyyə İdarəsi müəllimlərin maaşını fəqət iyundan artırmışdır. Halbuki, hökumət yanvardan artırmışdı. İttifaq İdarəsi hal-hazırda Bələdiyyə İdarəsi nəzdində məvaciblərin yanvardan artırılması haqqında iqdamatda bulunmaqdadır.

- Bakı İttifaqı İdarəsi müəllimlər üçün ərzaq almaq uğrunda təşəbbüsata başlamışdır. Ən yaxın zamanda ərzaq almağa müvəffəq olacağı gözlənir.

## XƏZƏR DƏNİZİNDƏ BOLŞEVİKLƏR

İyulun 21-də Bakıya varid olan [gələn] “Lənkəranets” paroxodunun tayfası [ekipajı] xəbər verir ki, iyulun 18-də paroxodumuz Bakıdan İran Astarasına gedəndə

Lənkəranın 13 mil məsafəsindən keçdikdə yoldan 6 mil kənarda "Dmitri Milyutin" "Lənkəranets" nam bolşevik paroxodunu görmüşdür. "Milyutin" paroxodunu görüb bütün sürəti ilə ona tərəf gəl-mişdir. Lakin "Lənkəranets" paroxodu vaxtlıvaxtında düşmənin bu hərəkətini müşahidə edib dənizə çəkilmişdir. "Milyutin" paroxodu "Lənkəranets" paroxodunun qaçmasını gördükdə top atəşi açmışdır. Atılan 5 top gülləsindən heç biri "Lənkəranets"ə dəyməmişdir. "Lənkəranets" paroxodu salamatlıqla düşmənin təqibindən qurtarmışdır. İran Astarasından qayıdan baş Lənkəranın 22 mil məsafəsindən keçdikdə "Lənkəranets" paroxodu tayfası Lənkəran şəhəri üzərində böyük işıq görmüşdür ki, bu da Lənkəranda böyük yanğınlar olduğunu göstərir.

"Lənkəranets" paroxodunun bolşevik gəmisi tərəfindən atəşə tutulması birinci dəfə deyil. Bolşevik gəmiləri açıq dənizdə seyr etdiklərindən sərnişin paroxodlarının Xəzər dənizində üzmələri təhlükəsiz deyildir. Belə görünür ki, Lənkəran ilə Hacı-Tərxan arasında bolşeviklərin paroxod hərəkatı vardır. O cümlədən, iki gün bundan əvvəl Bakıdan Lənkərana qaçan "Vstreça" barkazı hərəkət edir. "Vstreça" paroxodunda pulemyot qoyulub 10 nəfərə qədər müsəlləh [silahlı] bolşevik əsgəri vardır.

"Vstreça" barkazı sürətlə hərəkət edəndir. Onun ümdə qüvvəsi ondadır ki, sərnişin paroxodları mümaniət [müqavimət] göstərməyə hazır deyildirlər.

İyulun 28-də "Liza Sokolova" paroxodu "Vstreça" barkazı tərəfindən dayandırılmışdır. Bolşevik əsgərləri əvvəlcə paroxodu axtarmaq istəmişlərdir. Lakin paroxodda "burjuy" olmadığından barkaz ancaq paroxodda olan mazutu özü üçün götürüb paroxoddan uzaqlaşmışdır. Burasını da qeyd etməlidir ki, bu əhvalat Bakıdan 30-32 mil məsafədə "Oblivni" cəzirəsi [adası] yanında olmuşdur.

İyulun 20-də həman barkaz zahirən Hacı-Tərxana getmək istədikdə İran Astarasından Bakıya gəlməkdə olan "İslam" paroxodunu görüb onun dalınca düşmüşdür. Barkaz paroxoda çata bilməyəcəyini görüb pulemyot atəşi açmışdır. "İslam" paroxodu sürətini artırıb tələfatsız Bakıya varid olmuşdur [çatmışdır].

## AZƏRBAYCANDA

**Kürdəmirdən**

Keçən il fəlakətə məruz olan yerlərdən Şamaxıdan sonra biri də Kürdəmirdir. Kürdəmir qəsəbəsində mövcud yüzlərlə dükan və evlərin, demək olar ki, nisfi [yarısı] bolşevik adı ilə hərəkət edən erməni çətələri tərəfindən yandırılmışdır. Kürdəmirdə sükunət edən əhali iki tərəfdən düşmənin hücumuna rast gəldiklərindən özləri ilə vəlöv [hətta] cüzi də olsun, bir şey götürməyə müvəffəq olmamışlar. Zira, dağ və dəmiryol səmtindən hücuma keçən düşmənlər əhaliyə yetişib qətliam etmək üçün öylə sürətlə irəliləyirdi ki, atdıqları pulemyot və tüfəng gülləleri qaçqın əhalidən də bir neçə qədəm qabağa düşürdü.

Kürdəmir mahalında sükunət edən bütün el-oba və kənd əhilləri işin vəziyyətini vəxim [qorxulu] gördüklərindən, üçdən iki hissəsi mal, heyvan və arabalarını buraxıb ancaq rəhmsiz düşmənin ölüm pəncəsindən canlarını xilas etmək üçün Göyçay tərəfə fərar edirlərdi. Məəttəəssüf [təəssüf ki], bu tərəfdən dağ ermənilərinin süvari dəstəsi yetişib ayağı çarıqlı kəndliləri, fəqirləri qanlarına qəltan edirlərdi. Binaənileyh [ona görə], ölümdən qurtarmaq üçün əksər adamlar az-çox apardıqlarını da yolda qoyub getmişlər.

Kürdəmir bir cəbhə şəkli aldığına görə hər cəhətdən böyük xəsarətə uğramışdır. Kürdəmir əhalisi bu il heyvan və alat [iş alətləri] yoxluğu ilə bərabər az-çox taxıl əkmişdilər. Məhsulları da bol və bərəkətli idi. Heyfa ki, məhsul yetişib əhali biçib-toplamağa şüru etdikləri [başladıqları] bir vaxtda dəmiryol tərəfdən zühur edən böyük bir yanğın əkin yerlərinə sirayət edib [keçib] Şıxımlı və Şahsevən deyilən böyük bir camaatın məhsulatı büsbütün yanmışdır. Taxılın böylə yüksək fiyatla satıldığı bir vaxtda yemək və əkməkdən ötrü əksərinin qüvvə və təvanaları [gücləri] yoxdur. Hər halda bu biçarələr yardım və köməyə möhtacdırlar.

*Əlif. Əlif.zadə*

## ERMƏNİ MƏTBUATI

**Ermənilərin torpaq iddiası**

Erməni ictimaiyyuni-amiyyun [sosial-demokrat] firqəsinin mürəvvici-əfkarı "Qaydz" qəzetəsi Ermənistanın ərazi məsələsi barəsində yazır ki:

Türkiyə erməniləri 1878-ci ildə əvvəlinci dəfə Berlin Konfransının Ermənistanda islahat qanun layihəsinin proqramını təqdim edən zamanlarda onların torpaq iddiaları Fəratın bu tərəfində olan üç vilayətlərə aid idi. Sonra üç vilayətin üstünə başqa yerlər də əlavə edilib beş vilayətə təqsim edildi [bölündü]. Həman vilayətlər Ərzurum, Van və Diyarbəkir təqsimindən sonra əlavə edilənlər Bitlis və Xarput, yəni Məmürətül-Əziziyyə vilayətləri idi.

1895 sənəsinədək ermənilər bununla iktifa edirdilər [kifayətlənirdilər]. Həman sənədən ingilislər, ruslar və fransızlara təqdim etdikləri müxtirə [müraciətnamə] ilə 6 vilayətin cümləsinə Sebastiya, yainki Sivas vilayəti də idxal edildi. 1913 sənəsinədək erməni vilayətləri dedikdə həman 6 vilayət mülahizə edilirdi.

Ermənistanda islahat xüsusunda Rusiya ilə Almaniya arasında olan müzakirat dövründə Türkiyə Hökuməti bu hökumətlərin təsvibi [razılığı] ilə ermənilərin rəylərinə müğayir [zidd] olaraq erməni vilayətlərinin cümləsinə əhalisinin bir cüzü erməni olan Trabzon vilayətini də əlavə etmişdir.

1918-1919[-cu] illərdə halət bilkülliyyə təğyir tapır [tamamilə dəyişir]. Erməni heyəti-mürəxxəsəsi [nümayədnə heyəti] [Poqos] Nubar paşanın və [Avetis] Aharonyanın təhti-sədarəti ilə [başçılığı altında] Paris Sülh Konfransına təqdim etdiyi müxtirədə fövqəlzikr [yuxarıda adı çəkilən] vilayətləri az hesab edib, hətta Türkiyə Hökuməti Ermənistanın boynuna sarıdığı ögey Trabzon vilayətindən əl çəkməyib, ermənilərin məchul tarixi əsaslarına məbni olaraq [söykənərək], iddialarını Kilikiyaya, yəni Hələb və Adana vilayətlərinə də təşmil [şamil] edir.

Deməli ki, 1878-ci ilin 5 vilayəti əvəzinə heyət şimdi 9 vilayətdən mürəkkəb

[ibarət] böyük dairəni iddia edir. Həman vilayətlər şunlardır ki, Ərzurum, Van, Bitlis, Diyarbəkir, Xarput, Trabzon, Sivas, Adana və Hələb vilayətləri. Bu məmləkət Şuşa ilə Sarıqamış və Axalkələk ilə Naxçıvan arasında vaqe olan Rusiya Ermənistanından dörd qat artıq olub, 240 min mürəbbe verstlik [kvadrat verstlik] bir məsafədən ibarətdir. Halbuki, Rusiya Ermənistanı 63 min mürəbbe, 3 Zaqafqaziya cümhuriyyətləri isə bir yerdə 180 min mürəbbe verst yer tutur. Bu qədər böyük yerdə, hər tərəfindən hədsiz-hesabsız quşlar ilə əhatə edilmiş birgünlük əkin yerində bir qaç toxum kimi Türkiyə erməni qaçqınları gərək iskan edilsinlər.

Erməni tayfasının, xüsusən Türkiyə ermənilərinin böhranlı zamanı yaxınlaşır. Almaniya sülhnaməni imza etmişdir. Avstriya ilə Bolqariyanı da baş etdikdən sonra yer üzünün istiqbalını [gələcəyini] əllərində tutanlar "Şərqin xəstəsi"ni siyasi təşrih [əməliyyat] taxtı üstə uzadıb, əllərində iti bıçaqlarla onun istiqbalını müəyyən edəcəklərdir. O zaman hər bir dəqiq erməni siyasisi və mətbuatı artıq mülahizədən və on dəfə ölçüb bir dəfə biçəndən sonra nəhayət dərəcədə əhəmiyyəti olan bu suala cavab verməlidir: Onun üçün əhalisinin 1878 sənəsində 64 faizi erməni olan 5 vilayətinmi iddiası yaxşıdır, yoxsa davadan qabaq müxtəlif yerlərdə əhalisinin 32-dən 53-ə qədər faizi erməni olan, fəqət davada ermənilə-rinin qismi-küllisini qaib etmiş şimdiki 9 vilayət iddiası əlverişlidir?

Bu məsələyə artıq diqqət yetirməlidir. O cəhətə ki, ermənilər, xüsusən Türkiyə Ermənistanında bəzən ədədcə özü ilə bərabər, əksərən də özündən çox artıq ədədli düşmən bir tayfa ilə bir yerdə yaşamağa məhkum olacaqdır.

Poqos paşa və cənab Avetis zənn edirlər ki, ermənilərin vətənlərinin dairəsinə o cənabların özlərinin hesabınca əhalisinin 74 faizi qeyri-erməni olan Trabzon vilayəti kimi bir vilayəti daxil etməklə ermənilərə böyük xidmət edirlər. Amma ilhaq və təzminati-hərbiyyəsiz sülh fəryadları əsaslı bir qüdsiyyət mənzələsində [yerində] olanlardan və hazırkı dargözlük, cahangirlik mərəzinə mübtəla olmayan şəxslər erməni tayfasını xəbərdar etməlidirlər ki, tələsən ustalar onun evinin bünövrəsini boş qum üstündə qururlar.

Ermənilərin torpaq iddiaları nə qədər 1878-ci ilin 5 vilayət hüduduna yaxın olarsa, bir o qədər beynəlmiləl ədalət və sağlam milli siyasətə riayət edilmiş olar. Ermənilər üçün ən nafe [xeyirli] nöqteyinəzər yalnız yuxarıda zikr etdiyimiz nöqtədir.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndim!

"Azərbaycan" qəzetəsinin keçən nömrələrindən birisində böylə bir məlumat dərc edilmişdir ki, guya mən də Göyçay sakini Kərbəlayı Ağaməhəmməd Məhəmmədovun zorla faytonunu alıb götürmüşəm. Həqiqət aydın olmaqdan ötrü atidəki [aşağıdakı] bir neçə sətirləri yazmağa məcburam.

Biçeraxovun dəstəsi paytaxtımıza varid [daxil] olcaq araba və atları həcz [müsadirə] etməyə başladılar. Mən də öz fayton və atlarımı həczdən xilas etmək üçün tanışım göyçaylı Məşhədi Ağaməhəmməd nama saxlamağa göndərdim. Görünür ki, Məşhədi Ağaməhəmməd fayton və atları saxlamaq zənn etməyib öz xüsusi malı hesab etməyə başlamışdır. Çünki bir müddət keçdikdən sonra mənə xəbər çatdı ki, atlar satılmışdır. Bu əhvalat mənə çatcaq Göyçaya gedib atların həqiqətən 40 min rubləyə Həzrət bəy Ağabəyova satılmasını bilmişəm və yerdə qalan faytonu təcavüzdən xilas etmək üçün əvvəla qaimməqam [qəza rəisi] cənablarına məlum etmişəm və sonra Kərbəlayı Ağaməhəmməddən geri almaq fikrinə düşmüşəm. Bu cənab Göyçayda olmadığı üçün bunun əmisinə rücu [müraciət] etmişəm və əmisi Əli Məhəmmədəliyev və İsrafil Məhəmmədov şahidliyi ilə mənə qaytarıbdır. Atlar isə hal-hazıra kimi mənə çatmamışdır. Bu xüsusda məhkəmədə iddia başlanmışdır. Söylədiyimdən anlamalıdır ki, müttəhim Kərbəlayı Ağaməhəmməddir. Kimin haqlı və haqsız olduğunu məhkəmə (sud) aydın edər. Bu xüsusda qaldırılmış iş məhkəməyə dəxi verilmişdir.

*Bakı valisinin xüsusi ümurat [işlər] məmuru:*
*Mehdi bəy Nəcəfbəyov*

## İDARƏDƏN CAVABLAR

**Şair Bədri əfəndiyə:** "Əfsanə deyilmi" qafiyəli mənzuməniz qəzetə üçün deyil, bir məcmuə materialıdır. Binaənileyh [ona görə], dərc edilməyəcəkdir.

**Yusif bəy Vəzirov əfəndiyə:** "Xarici siyasətimiz" sərlövhəli silsilə məqalatınızın [məqalələrinizin] 12-ci nömrəlisi həqiqəti-hal və praktika etibarı ilə pək haqlı olduğu halda belə millətlərin təyini-müqəddərat hüququ prinsipinə müğayir [zidd] görüldüyündən, dərc edilməyəcəkdir.

**Kabinə mebeli, sair əşya**
Papiros kağızı və ipək zənanə corablar satılır. Merkuryevski küçədə, nömrə 7, 3-cü mərtəbə.
*5458*

**Satılır**
Hacıqabul stansiyasında binalar ilə bərabər ikimərtəbəli daş ev və pambıq təmizləmək zavodundan ötrü korpus həyəti ilə. Təfsilatı bu ünvana müraciətləbilmək olar: Birjevaya küçə, nömrə 20. F. Reddavey və Kompaniyası şirkətində Ağamirov.
*5461*

Bakı Şəhər İdarəsi bununla elan edir ki, iyul ayının 25-dən etibarən arabaçılara 1919-cu ilin ikinci hissəsindən ötrü Təsərrüfat şöbəsində nömrələr veriləcəkdir. Təyin olunan vaxta qədər hər kim nömrə seçməzsə, o şəxsdən hasilatın cəmindən 50 faiz olaraq cərimə alınacaqdır.
*T-184*

Məşhədi Hüseyn Qafarov şəkili bununla elan edir ki, iyul ayının 1919-cu ildən etibarən öz qardaşı Qulu Qafarovdan ayrılıbdır və bu tarixdən belə Qulu Qafarov etdiyi işlərinə məsul deyildir.
*Məşhədi Hüseyn Qafarov*
*5462*

**Diş həkimi S. M. Hamburq**
Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.
*10239*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

***Müvəqqəti müdir: Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan**

səh. 429. “Çaharşənbə, 24 şəvvalül-mükərrəm sənə 1337”: qəzetdə “çaharşənbə” yerinə səhvən “səşənbə” getmişdir.

**Teleqraf xəbərləri**

səh. 431. “Çələbi”: Rusiyanın Çelyabinsk şəhəri nəzərdə tutulur; Çelyabinsk şəhərinin yerləşdiyi ərazi keçmişdə belə adlanmışdır.

“Konstantinoqrad”: Ukraynanın Xarkov vilayətində, indiki Krasnoqrad şəhəri.

**Nəzarətlərdə**

səh. 438. “Gömrükxana İdarəsi ilə əlaqədar olan xəbərlər dərc edildiyi münasibətilə...”: söhbət “Azərbaycan” qəzetinin 9 iyul 1919-cu il tarixli 220-ci nömrəsində “Ümidvar” (Ömər Faiq Nemanzadə) imzası ilə dərc edilən “İşlərimizdə hərcü-mərclik” adlı yazıdan gedir.

səh. 439. “5) Aprelin 13-də...”: qəzetdə bu maddə də səhvən (təkrar olaraq) “4)” kimi işarələnmiş və bu səbəbdən, bundan sonrakı maddələrin nömrə sırası da pozulmuşdur.

**Bir cavanın faciəsi**

səh. 442. “1315 tarixi-hicrisində”: miladi tarixlə 1897-1898-ci illərə uyğundur.

“rüşdiyyə”: təhsildə ibtidai siniflərdən sonrakı mərhələ “edadi” isə ali təhsildən əvvəlki mərhələ idi.

“1327 Osmanlı-İtalyan müharibəsi”: burada tarix rumi təqvimlə göstərilmişdir; miladi təqvimlə 1911-1912-ci illərə uyğundur.

səh. 443. “Rəhmətullahi rəhmətən vasiən”: Allah ona çox rəhmət eləsin.

**İman əzizdir**

səh. 444. “əlmənə fi-bətnüş-şair”: “məna şairin içindədir”

səh. 445. “Əfi”: “Azərbaycan” qəzetində bu imza Seyid Hüseyn Sadiqə məxsusdur.

**Xəzər dənizində bolşeviklər**

səh. 448. “Oblivni”: Xəzər dənizində Azərbaycana məxsus Çigil adası nəzərdə tutulur.

**Erməni mətbuatı**

səh. 450. “Şərqin xəstəsi”: Osmanlı dövləti nəzərdə tutulur. Ümumiyyətlə qəbul edilən qənaətə görə, Rusiya imperatoru I Nikolay, Şərq məsələsinin müzakirəsi əsnasında Osmanlı dövləti barədə “Avropanın xəstə adamı” ifadəsini işlətmişdir.

**Satılır**

səh. 451. “Ağamirov” yerinə “Ağamirzov” getmişdir.



***"Azərbaycan" qəzetinin 233-cü nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 24 iyul 1919-cu il, nömrə 233**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 25 şəvvalül-mükərrəm sənə 1337. 24 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ELAN

Fevral ayında 1919 sənəsi Batumda Məcdüssəltənə ingilislər tərəfindən tövqif [saxlanılıb] və həbs olunduqdan sonra oradakı əşyamız kimsə tərəfindən hifz və siyanət olunmadığı [qorunmadığı] üçün arada sahibsiz qalaraq pək çox ziqiymət [qiymətli] əşyamız, kitablarımız, xəritələrimiz və bir taqım övraqımız [sənədlərimiz] və Məcdüssəltənənin möhürləri çalındı və qarət olundu. Binaənileyh [ona görə], bununla elam edirəm [bildirirəm]: Məcdüssəltənə bütün qəbz sənədlərini kəndi xətti ilə imza etdiyi üçün o möhürlərin heç bir təsir və əhəmiyyəti yoxdur və o möhürlər dəxi təsir və əhəmiyyətdən saqitdir [düşmüşdür].

*Prins Məcdüssəltənə Əfşar*

*5465*

Bakı Müsəlman Təchiziyyə İdarəsi bununla kəndi heyət üzvlərinə elan edir ki, növbəti heyət iclası həmin iyul ayının 24-də pəncşənbə [cümə axşamı] günü saat 5-ə təyin edilmişdir. Həmin iclas ikinci dəfə olduğuna görə nə qədər üzv gəlsə, qanuni hesab ediləcəkdir.

*Bakı Müsəlman Təchiziyyə İdarəsi*

*5463*

## SİRK "MODERN"

Pəncşənbə günü iyul ayının 24-də, 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş fransız güləş mübarizəsinin 26-cı günü 1919-cu ilin məşhur "Cahan Pəhləvanı" namı və Azərbaycan fəxri şarfı və 30 min manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

Birinci – düşənbə günü iyul ayının 21-də Zakoroyko və Svabodanın mübarizəsi 1 saat 20 dəqiqə müddətində axırı bulmadığından, bu gün mən Yelizarov pəhləvanların xahişinə görə qəti arasıkəsilməyən mübarizə təyin edirəm.

1) Ferdinand Svaboda – Zakoroyko; 2) Gənc Əli – Tələbə (Student) V. O.; 3) Qəti mübarizə Dizavaninin tələbinə görə: Dizavani – Naməlum.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır. Elan: təzə artistlər və pəhləvanlar gəlir.

*5464*

## MALİYYƏ NƏZARƏTİ
## ELAN

Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar [Dövlət Əmanət Kassa-

ları və Kiçik Kredit] İdarəsi Şurayi-Vüzəranın [Nazirlər Kabinetinin] 1919 sənəsi həziran [iyun] qərarı əsasına istinadən elan edir ki:

1) 15 avqustdan (1919 sənə) Azərbaycan Dövləti Əmanət Sandıqları nizamnaməsi ilə mütabiq [uyğun] olmaq üzrə zirdəki [aşağıdakı] 12 Azərbaycan xəzinələri, yəni Bakı, Gəncə, Qazax, Zaqatal, Ağdaş, Göyçay, Quba, Şəki, Petropavlovka, Salyan, Şamaxı və Şuşa xəzinələri cənbində [nəzdində], Azərbaycan posta və teleqraf idarələri cənbində 35 şöbə ilə Azərbaycan Dövləti Əmanət Sandıqları mərkəzi idarələri açılır. Azərbaycan Dövləti Əmanət Sandıqlarına daxil edilən əmanətlər hökumətin bütün vəsaiti ilə dəröhdə edilərək hər zaman heç bir məhdudiyyəti haiz olmamaq [məhdudlaşdırılmamaq] üzrə tamamən tədiyyə edilir [təmin edilir, ödənir]. Əmanətlərə sənəvi [ildə] 3.6 % ayrılır.

2) Yuxarıda göstərilən xəzinələr cənbində vaqe Rusiya əmanət sandıqları keçən 1918 sənəsi eylül [sentyabr] 15-dən etibarən kəndi əlaqələrini, fəaliyyətlərini kəsmişlərdir. Azərbaycan Hökuməti xalq mülahizatı dolayısı ilə [xalqın maraqlarını nəzərə alaraq], 12 xəzinə cənbində açılmış Azərbaycan Dövləti Mərkəzi İdarələrinə 12 xəzinədə vaqe 1918 sənəsi eylülünə qədər sabiq sandıqlardakı əmanətlərin qaytarılmasını və para ilə tədiyyəsini həvalə etmişdir. 1918 sənəsi 15 eylülə qədər idxal edilən əmanətlərin para ilə tədiyyəsi yeni açılmış sandıqlarda Azərbaycan Dövləti Əmanət Sandıqları Mərkəzi İdarəsi tərəfindən nəşr olunub Maliyyə naziri ilə 18 təmmuz [iyul] 1919 sənəsində təsdiq edilən qəvaid [qaydalar] ilə hər ayrı əmanətə təyin olunan nisab [norma] ilə qismən həftədə iki yüz (200) rublə verməklə tətbiq edilir. Faizli kağızlar ilə olan əmanətlər isə heç bir məhdudiyyəti haiz olmamaqla tamamən sahiblərinə qaytarılır.

*İmza etdi: Maliyyə naziri*
*Əliağa Həsənzadə*
*Dövlət Əmanət Sandıqları və Xırda*
*Etibar müdiri:*
*[Nəsir bəy] Tağıyev*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqrafı)*

**Almanların protestosu**

Nauendən xəbər verirlər ki, Almaniya Hökuməti Berlində bir nəfər fransız saldatının qətlinə görə Müttəfiqlər tərəfindən Berlin üzərinə cərimə qoyulması müqabilinə protesto etmişdir.

**Amerika və Almaniya**

Liondan xəbər verirlər ki, Amerika posta idarələri Almaniyaya göndəriləcək məktubatı və mürasilatı [poçt yazışmalarını] qəbul etməyə başlamışlar.

**Riqada**

Dvinskdən teleqraf edirlər ki, Amerika polkovniki Devleys Riqada general-qubernator təyin edilmişdir.

**Dördlər Şurasında**

Dvinskdən xəbər verirlər ki, "T. B." latış qəzetəsinin yazdığına görə, Dördlər Şurası Lehistan [Polşa] əsgərlərinin miqdarını 80 min, çex və slavların və romaniyalıların hər birinin 50 min və cənubi slavların 40 min nəfər artırılmasına icazə vermişdir.

**Varşavada nümayişlər**

Minskdən xəbər verirlər ki, Varşava yaxınlığında Mokotuvda fəhlələr ərzaq işlərinin yoluna salınması və ictimai işlərin dayandırılmaması tələbi ilə Seymə [Qanunverici orqana] tərəf getdikdə, polisə ilə saldatlar tərəfindən qovulmuşlardır. Nəticəsində 2 fəhlə ölüb, 15 nəfəri yaralanmışdır. Olan atışmaya baxmayaraq fəhlələr Seym binasına gəlib öz tələbatlarını Baş nazirə izhar etmişlərdir. Nazir fəhlələrə vəd etmişdir ki, onların tələblərinə fəhlə nümayəndələrinin iştirakı ilə xüsusi komissiyada baxılacaqdır.

**Londonda iğtişaş**

London - "Deyli teleqraf" yazır: Haydparkda silah altından azad edilmiş olan saldat və matrosların mitinqi vaqe olmuşdur. Mitinq qurtardıqdan sonra camaat Parlamana soxulmaq istəmişdir. Lakin polis onların qabağını kəsib bir neçə güllə atmışdır. Nəticədə 6 nəfər ingilis yaralanmışdır. O gün də hücum edilmişdir (cümlə buraxılmışdır). Böyük izdiham Nəzarətə yanaşıb Parlamana girmək istərlər. Polis yenə də onların qarşısına çıxar. Nümayişçilər polis əleyhinə çıxdıqlarından polis ricətə [geri çəkilməyə] məcbur olmuşdur. Camaat polis üzərinə şalman parçaları və sairə atmağa başlamışlardır. Bir neçə dəqiqədən sonra süvari alayı imdadiyyə alaraq yenə nümayəşçilərin qarşısına gəlib onları atəşə tutmuşlardır. Bu heyndə [bu əsnada] dəhşətli həyəcan başlanıb, oradan ittifaqən [təsadüfən] keçən bir çox adamlar xəsarətdidə olub, bir hissəsi isə qaçıb qurtarmışdır. Nümayişçilərdən bəziləri nitqlər irad etmişlərdir [nitqlər söyləmişlər]. Bir saldat demişdir: Hökumət qərar qoymuşdur ki, hər bir tərxis edilmiş saldata iki ingilis lirəsi verilsin. Camaat isə deyirmiş: Bizə mərhəmət lazım deyildir.

**Yeni neft mənbəyi**

Samaradan xəbər verilir ki, Çernoqorsk dairəsində Mixaylovka kəndi yanında neft mənbəyi kəşf edilmişdir.

**Almaniya flotunun qərqi ətrafında**

Tursodan xəbər verilir ki, ingilis bəhriyyunu [matrosları] salamat qalan Almaniya paroxodlarının təmirinə çalışırlar. Dəniz kənarında atılmış bulunan paroxodların suyunu çıxarırlar. 3 kruvazer [kreyser] və 3 müxrib gəmi [destroyer] də çıxarılmışdır. Deyirlər ki, yeni "Emden" kruvazeri su üzərində görülmüşdür.

Paris - Konfransa xəbər verirlər ki, almanlar öz iskələlərində qalan gəmilərini də qərq etmişlərdir.

Paris - Bu gün nazir Leyq Palatanın Bəhri [Donanma] Komitəsinə xəbər vermişdir ki, Almaniya flotunun qərq edilməsini Klemansoya bildirmişdir və Fransanın xəsarətinin ödənilməsini tələb eyləmişdir.

London - Tərsanədən xəbər verirlər ki, iyunun 22-də Almaniya afiserləri başda fon Royter olmaq üzrə, "Rezendis" paroxoduna götürülmüşlər. Amiral Sidney, fon Roytерə demiş ki, mütarikə şəraitini [atəşkəs şərtlərini] pozduğu üçün hərbi əsir hesab edilir və əlavə eyləmiş ki, fon Royterin bu işi cinayətdir. Təbii,

bu da bir şey deyil. Almanlar həmişə qanunu pozmuşlardır. Fon Royter cavabında demiş: Mən flotun qərqində məsulam, fəqət özümü müqəssir hesab eyləmirəm. Zira bilirəm ki, bu kimi hallarda hər bir ingilis matrosu da mənim kimi hərəkətdə bulunardı.

Deyirlər ki, fon Royter bəhri divanihərb [donanma hərbi məhkəməsi] tərəfindən mühakimə ediləcəkdir. Zənn edilir ki, qərq edilmiş gəmilərdə bir çox almanlar tələf olmuşlardır.

**İtaliya inqilab ərəfəsində**

Moskva - İtaliya paytaxtı Romadan gəlmiş bir şəxs rəvayət edir ki, Amerikanın Roma səfiri Parisdə Vilsona məlum eyləmişdir ki, İtaliyanın halı çox fənadır. Məmləkət inqilab ərəfəsindədir.

- Verilən bolşevik xəbərlərinə görə, əcnəbi təbəələri qanundan kənar hesab edilirlər. Yalnız irlandalılar, misirlilər və məhkum millətlərin xalq əmələləri müstəsna tutulurlar.

Yekaterinodar - Dəmiryol hərəkatını təmin üçün İtaliya qoşunları Vyana dəmiryollarını istila etmişlərdir.

- Bir neçə Almaniya generalları istefa vermişlərdir. Bu istefa məxlu [taxtdan salınmış] imperatorun təslim edilməsi şərtinə protesto əlamətidir.

Novorossiysk - Romadan verilən xəbərlərə görə, Amerikanın Roma səfiri Peyc, Vilsonla bəzi məsələlərdə həmrəy olmadığından istefa vermişdir. Onun əvəzinə Brüsseldə olan səfir Brend Vitlak təyin edilmişdir.

## SÜLH ƏTRAFINDA

**Türkiyə məsələsi**

Türkiyə məsələsi hələ həll edilə bilməz. Fransa və İngiltərə Türkiyə məsələsinin həll olunmasını istəyirlər. Onlar Amerikasız bu məsələni bitirmək istəyirlərsə, ehtiyat edirlər.

**Asiyayi-Suğrada**

İstanbuldan xəbər verirlər ki, Asiyayi-Suğra [Kiçik Asiya, Anadolu] əhvalı Müttəfiqlərdən ötrü gəldikcə təhlükəli bir hala düşməkdədir. Müttəfiqlər əleyhinə gəlməkdə olan könüllü ordunun miqdarı 70 minə qədərdir.

**İngilislər əleyhinə**

Nauen – Verilən xəbərlərə görə, Polşada ingilislərin Dansiq, Memel və Baltik sahilində məntəqeyi-nüfuzları genişlənməsi əleyhinə protestolar artır.

## QƏRBİ AVROPADA TİCARƏT NƏ HALDADIR?

İngiltərədən övdət edən [qayıdan] Gürcüstanın London səfiri [David] Qambaşidze iyul ayının 11-də Ticarət və Sənaye Nəzarətində Qərbi Avropa ticarətinin nə halda olduğu barəsində doklad eyləmişdir.

Dokladçı demiş ki, Cahan müharibəsi İngiltərənin ticarət və sənaatini [sənayesini] fövqəladə bir surətdə qalxızmışdır. İngiltərə ticarət və sənaatdə hamı dövlətlərdən fövqdədir [üstündür]. İngiltərənin o qədər zavod, fabrikası vardır ki,





oradan hasil olan mallar bir qaç dəfə öz ehtiyacından artıqdır. Özünün artıq qalan malları təbii sair dövlətlər arasında təqsim ediləcəkdir [bölünəcəkdir].

İngiltərədə bu saat hər bir şey boldur. Yeganə bir nöqsan var isə dəri, gön və sair xammalların kifayət edəcək dərəcədə olmamasıdır. Bu xüsusda da İngilis Hökuməti tədbirlər görür. İngiltərəyə lazım olan bir çox şeylər Arxangelskdən İngiltərəyə gətirilməkdədir. İngiltərə üçün ən böyük zərbə müharibə zamanında ingilis ticarət flotunun tam yarısının, yəni 50 faizinin qərq edildiyidir. Fəqət bu tələfatın üçdən birisini İngiltərə almanlardan zəbt eyləmiş, bir hissəsini də yenidən inşaya başlamışdır.

Fransanın iqtisadi, ticarət və sənaye işləri İngiltərəyə nisbətən fəna haldadır. Bunun da səbəbi odur ki, almanlar Fransa yerlərini işğal edərkən oradakı zavod və fabrikaları həp təxrib edib [dağıdıb] yaxud makinaları aparmışlardır. Almaniya korpuslarının komandirləri Berlindən əmr alırdılar ki, Fransanın zavod və fabrikaları məhv edilsin. Şimdi Şimali Fransada fransız zavod və fabrikalarından belə nümunə qalmamışdır. Şimali Fransada fabrika və zavodların təxrib edilməsi o yerlərdə işsizliyi artırmışdır. Bu əhval müharibə qurtardıqdan anlaşılmışdır. Amerikanın cidd-cəhdi sayəsində Elzas-Lorendən Fransanın işsiz əmələlərinə iş tapılmışdır.

İtaliyanın iqtisadi əhvalı Fransa halından çox yaxşıdır. İtaliya Avropaya ən mahir mexaniklər vermişdir. İtaliya avtomobilləri, gərək Amerika və gərək Avropada olsun, artıq dərəcə qiymətlənir. Rusiyanın İtaliyaya məmulati-hərbiyyə [hərbi mallar] sifariş eyləməsi İtaliya ticarət və sənaətini fövqəladə bir surətdə artırmışdır və nəticədə İtaliyada 45 ədəd zavod və fabrika artmışdır.

Avstriya isə iqtisadi cəhətdən ən ağır və müşkül hallar keçirir. Zira Avstriyanın bir çox zavodları çexlərin əlinə keçmişdir. Şimdi də o zavodlar Müttəfiqlərin kontrolluğu altındadır.

Almaniyada isə inqilabdan sonra Almaniya ticarət və sənaəti artıq xəsarətə uğramışdır. Almaniya əmələləri [fəhlələri] öylə ağır məvaciblər tələb eyləmişlər ki, zavod, fabrika sahibləri bu məvaciblərə davam etməyib [dözməyib], işi tərk etmişlərdir. Fəqət sonra Almaniyada bu səhv düzəlmişdir və Almaniya fabrika və zavodları işə şüru etmişlərdir [başlamışlar]. Fəqət xammallar az olduğuna görə, tezliklə Almaniya cahan bazarına mal buraxa bilməyəcəkdir.

Avropanın bitərəf məmləkətləri başqa bir haldadırlar. Almaniyanın sifarişatihərbiyyəsi İsveç ticarətini 25 dəfə, Norveçya ticarətini beş dəfə artırmışdır. İspaniya da eyni haldadır. İspaniya istərsə cahan bazarına külli mal verə bilər.

## QARS ƏHVALI

Neçə gün bundan irəli Qarsdan gələn bir nəfər Qars əhvalı haqqında aşağıdakı məlumatı verir:

Hal-hazırda Qarsa Türkiyədən bir çox erməni qaçqınları gəlməkdədir. Qarsda olan müsəlmanlar şəhəri tərk etmişlər. Bir neçə müsəlman evi qalmışdır ki, onlar da Qarsdan çıxmağa hazırlaşırlar. Erməni qaçqınları müsəlmanların tərk et-

miş olduqları evləri tutub otururlar. Qarsda olan müsəlmanlar səhər saat 10-dan tez dişarıya çıxmaqdan və axşam saat 5-dən gec evə qayıtmaqdan ehtiyat edirlər.

Qarsda oblastnoy [vilayət] Müsəlman Milli Komitəsi işləyir. Bundan əlavə, Qarsda İran konsulxanası da davam edir. Qarsda həbs olunub İstanbula aparılmış Qars Hökuməti üzvlərini azad etməkdən ötrü Müsəlman Milli Komitəsi İstanbula İngiltərə heyəti nəzdinə nümayəndələr göndərmişdir. Həbsə alınmışların Qarsda qalan ailələri maddi cəhətdən xeyli üsrət [çətinlik] çəkirlər. İngiltərə nümayəndələri onlara heç bir müavinət göstərməyirlər.

İki həftə bundan irəli Qarsa gəlməkdə olan sərnişin qatarı Qarsın bir neçə verstliyində erməni və müsəlmanlar tərəfindən atəşə tutulmuşdur. Vaqonda olan müsəlman sərnişinlərindən iki nəfəri qətl edilmişdir.

Qarsı tərk etmiş müsəlmanların halını təmin etməkdən ötrü Azərbaycanda Qars Həmyerlilər İttifaqı təşkil edilməsi lazımdır. Qars oblastında olan müsəlmanların halı gəldikcə fəna bir surətə düşür.

Qarsda bir nəfər erməni vardır ki, həmişə müsəlmanların mənafeyini müdafiə edir. Lakin tək olduğundan bir şey bacarmayır. Hər halda Qars müsəlmanlarının və qaçqınlarının halını təmin etməkdən ötrü tədbirlər görülməsi lazımdır.

1914-cü ildən Qars oblastı müsəlmanları bir dəqiqə belə rahat qalmamışlar. Əvvəlcə rus kazaklarının, indi də erməni "humbapet"lərinin təcavüzünə giriftar olmuşlardır.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Göyçə qəzasının Şişqaya kəndi ictimai müvəkkilləri Məsai Nəzarətinə [Əmək Nazirliyinə] məlum etmişdirlər ki, 140 evdən ibarət olan kəndləri keçən sənə ermənilər tərəfindən xarabazara döndərildiyindən Gəncə nahiyəsinin 5-ci məntəqəsindəki Miskinli kəndinə köçmüşdürlər. Hal-hazırda həman köydə ac-çılpaq qaldıqlarından erməni nümayəndələrinə müraciətən öz yerlərinə köçməyə icazə istəsələr də rədd cavabı almışdırlar. Neçə aydan sonra qış gələcəkdir. Kəndlilər torpaqsız və evsizlikdən ölümə məhkum olacaqdırlar. Kəndlilər rica etmişlər ki, Gədəbəy yaxınlığındakı boş Alekseyev[ka] kəndinə köçməyə onlara icazə verilsin.

- Gədəbəy zavodu müdiriyyəti Məsai Nəzarətinə bir məruzə təqdim edərək zavodun fəaliyyətində davamından ötrü hökumətdən 800 min manat qərz [borc] verilməsi haqqında iqdamatda [təşəbbüsdə] bulunmasını rica və təmənna etmişdir. Məsai Nəzarəti məruzəni Vükəla Şurasına [Nazirlər Kabinetinə] təqdim etmişdir.

- Məsai Nəzarəti tərəfindən tərtib verilmiş müəssisədarlar ilə xidmətçi fəhlələr əlaqəsini tənzim nizamnaməsi bu günlərdə Vükəla Şurasına təqdimən təsdiqi rica edilmişdir.

- Mədən dairələri xidmətçiləri Məsai Nəzarətinə müraciətən məlum etmişdirlər ki, hökumət onlardan gəlir vergisi almağa qərar verdiyindən firmalar kassalarından veriləcək məvaciblərindən çıxırlar. Öz ixtiyarı ilə vergisini verməyən fəhlələrdən 500 manat cərimə alınacağı da tənbeh edilməkdədir. Fəhlələr kəndi fəna əhvallarını təsvirlə, maddi cəhətlərinin onsuz da öz ehtiyaclarını təmin etmədiyini qeydlə, lazımi binagüzarlıqda bulunulmasını [addımlar atılmasını] Məsai Nəzarətindən rica etmişlərdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən qaçqınlar üçün inşa ediləcək olan emalatxanaların fəaliyyəti və xidmətçilərinin öz xidmətlərində sadiq olmaları üçün hər emalatxana cənbində [nəzdində] birər şura təşkil ediləcəkdir. Şurada emalatxana müdiriyyəti və fəhlə nümayəndələrindən əlavə, kəndlilər və Nəzarətlər nümayəndələri də iştirak edəcəkdirlər.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində məlumat alınmışdır ki, Şamaxıdan inşaat materialları aparılmaqdadır. Nəzarət Şamaxı qəza qaimməqamına teleqrafən müraciət edərək rica etmişdir ki, materialların aparılmasına yol verməməklə bu vaxtadək aparılmışların qaytarılması və siyahı edilib üstündə qaraqol qoyulması haqqında lazım gələcək tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti qaçqınlar üçün emalatxanalar tərtibi üçün mənzil aramaq qəsdi ilə Maarif Nəzarətinə müraciətən rica etmişdir ki, Bərdədəki ibtidai məktəbin fəaliyyətsiz buraxılmış emalataxanası mənzilini Nəzarətin ixtiyarına vermək haqqında lazımi tədabir ittixaz edilsin.

- İrəvandakı Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müvəkkili [Zülfüqar bəy] Makinskiyə teleqrafən xəbər verilmişdir ki, təcili surətdə ehtiyacı olan müsəlmanların siyahısı tərtib verilsin. Birinci sırada əşəddi-ehtiyacı [şiddətli ehtiyacı] olanlara, sonra digərlərinə müavinətdə bulunulacaqdır.

- Məclisi-Məbusan tərəfindən xəsarətdidə zəngəzurlulara para təxsisi [ayrılması] haqqındakı qanun layihəsi təsdiq edildiyindən, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən xüsusi bir beynəddairə [idarələr arası] komisyon təşkil edilir ki, işlərə baxsın. Komisyon xəsarətdidələrə müavinətlə onların öz kəndlərinə qayıtması üçün çarələr arayacaqdır. Bununla bərabər, nazir həzrətləri Qarabağ general-qubernatoruna müraciətən rica etmişdir ki, həman komisyona kəndi tərəfindən bir nümayəndə göndərsin. Komisyonda ictimai təşkilatlar nümayəndələri də iştirak edəcəkdirlər.

*"Azərbaycan" təfriqəsi*
*Felyeton*

**TÜRK İRQ BİRLİYİ İLƏ YAŞAMIŞ, ÖYLƏ DƏ YAŞAMALIDIR**

**- 1 -**

İnsan dəf'inə müqtədir olammadığı bir fəlakətə uğradıqda, o fəlakətin törətdiyi ağırlığı bir qədər yüngülləşdirmək üçün hadisat və vəqayenin səbəb və hikmətini tədqiqə çalışar. Bir çox zamanların vüquatını əsas etibarilə nəzəri-diqqətə alar. Düçar olduğu fəlakətin əsbabını bütün təfərrüatı ilə tədqiqə çalışar. Həqayiqi-tarixiyyəni şəkil və ənənatı [təfsilatı] ilə xatırlayıb, hər vəqəsindən kəndisinə bir çarə arar.

Təbii, hər millət hiss etdiyi ağırlığı, uğradığı fəlakəti, dolayısilə nəzəri-etibara almalı, dəf’i haqqında ətraflıca düşünməlidir. Bu xüsusdan hanki millət sərf-nəzər edərsə [vaz keçərsə], o millətin məhkum olacağı, fəlakətə uğrayacağı, müdhiş bir əsarət altında yaşayıb məhv olacağı müqərrərdir [şübhəsizdir]. Burasını qüruni-ula [ilk dövr, qədim dövr] hökumətlərindən finikəlilər, kartacalılar, kəldanilər, assurilər deyil, son zamanlarda bərbad edilən Hindistandakı böyük türk dövləti, Kazan xanlığı, Krım xanlığı, Türküstan Hökumətinin əhvali-fəciyanəsi [faciəvi halı] isbat edir.

Böylə müdhiş təcavüzlərdən yaxasını qurtarammayan millətlərdən birisi, daha doğrusu birincisi türk millətidir. Sanki türk milləti bütün dünya hökmdarlarının “güc daşı”sı olmuşdur. Bütün krallar krallığını, imperatorlar imperatorluğunu, cahangirlər cahangirliyini, bahadırlar bahadırlığını həp türklərin üzərində təcrübə edirlər. Mərhəmətsiz cərrahlar kimi dilədikləri əməliyyatı türklük üzərində icra edirlər. Türklük haqqında bütün təşəbbüsatları müttəhid [birgə] olur. Müahidə əqdində [saziş imzalamaqda] müttəhid, imtiyaz tələbində müttəhid, məmləkət bölüşündə müttəhid, həp müttəhid bulunurlar. Hətta müharibəni fərdən-fərd [təkətək] etməyirlər, dörd-beş dövlət birləşib türklük üzərinə hərəkət edirlər, vuruşurlar. Bununla bərabər türklük yenə də eyni əzəmət, eyni həşəməti [böyüklüyü] ilə davam etmək üzrədir.

Bu nöqtəni düşünərək irəlisinə, bəlkə daha sonuna varılarsa, ruhu düşkünlərcə “təfəzzülati-ilahi” [ilahi üstünlüklər, ilahi fəzilətlər] etiqadı təcrübəsiz gənclərcə “böyüklük” xülyası şəklinə soxulmuş, ənqavari bir sima görülər. Halbuki həqayiqi-tarixiyyə [tarixi həqiqətlər] öylə deməyir. Həqayiqi-tarixiyyə bütün ənənatı ilə gözü açıqlıq, çalışqanlıq və bilümum [ümumi] irq birliyi tələb edir. Həqayiqi-tarixiyyə imperatorluğu, cahangirliyi, təfriqəni [ayrılığı, nifaqı], münaziəni [mübahisəni], yalqılığı [təkliyi], əyyaşlığı təqdir edəmməyir.

Dəlil olaraq assurilərin Sardanapalından tutmuş Kazan xanlığının Canəli xanına, Krımın Şahin Girayına, İranın Fətəli şahına qədər həpsini bütün icraatları ilə meydana sürür. Sürür də bir çox “mənəmlik” sevdası ilə balapərvazlıq edənləri [“yüksəkdən uçanları”, təkəbbürlüləri] müaxizə edir [töhmətləndirir]. Xətalarını və günahlarını birər-birər sayır, məhkəmeyi-kübraya [böyük məhkəməyə] dəvət edir.

Bu müaxizədən böyük Turan təşkil edən türklük dəxi kəndisini bir dürlü xilas edəmməyir. Zira o dəxi yaşayış yolundan yanılmış, hali-təbiisini təhəvvülə [dəyişikliyə] uğratmış və o sayədə kəndi əzəmət, kəndi sətvətini [qüdrətini] xələldar etmiş, irqlərini parça-parça edərək dünyanın ötəsinə-bərisinə buraxmışdır. Bu öksüz [yetim] balalar (irqlər) isə, hər biri dünyanın bir başında amansız cəlladlar bıçağı altında türk, tatar, macara, fin, hint və sair bunlar kimi müxtəlif adlar, müxtəlif dillər, müxtəlif üsullar ilə müxtəlif yerlərdə ayrı-ayrı yaşayırlar. Halbuki, ibtidada [başlanğıcda] böylə olmamışdır. Get-gedə kəndi isimləri, kəndi yaşayışları təhəvvülə uğradığı kimi, namları [adları] da böyük imperatorluqlar tərəfindən dəyişdirilmişdir.





Bu nöqtəni nəzəri-etibara alan Təkin əfəndi “Turan”ında qayət qiymətdar bir fəsil başlayıb deyir ki:

*“Qospodin Sazonovdan (Rusiyanın sabiq Xariciyyə naziri idi) Turan nə demək olduğu sorulsa, şübhəsiz, nemsə Baş vəkili Metternixin yüz il bundan əqdəm [qabaq] İtaliya üçün, İtaliya bir coğrafi təbirdir, dediyi kimi, Turan dəxi bir tarixi təbirdir cavabını verər. Lakin İtaliya coğrafi bir təbir olmadığını tezcə isbat etdi. Nemsə Baş vəkilinin laqeydanə verdiyi hökmi-siyasidən 40-45 sənə keçməmişdi ki, qədim, böyük və yalnız bir İtaliya, topu, tüfəngi, hökuməti, milləti, xülasə səltənəti-milliyyəsi ilə meydana çıxdı. Fəqət ilk silahını tabe olduğu dövlətə çevirmək, ilk süngüsünü onun sinəsinə sancmaq şərti ilə çıxdı.*

*Kim bilər, Turan dəxi bir gün tabe olduğu dövlətlə eyni müamilədə bulunmayacaqdır? Nə zaman, daha nə qədər gözləyəcək, neçə müddət əsir yaşayacaqdır? Burası məchul isə də, məlum bir şey vardır ki, bir gün gələcək, bəlkə də pək yaxında Turan dəxi tarixi bir təbir olmadığını isbat edəcəkdir.”*

Həqiqətən, bu gün Turanı əzən ağırlıq yıxılmaz və dağılmaz bir ağırlığa bənzəyir. İki imperatorluq onun zəif və nazik vücudu üzərinə çökmüş, oturmuşdur. Öylə imperatorluq ki, biri dünyanın ən böyük cəmiyyəti-siyasiyyəsinə amir [siyasi cəmiyyətinin ağasıdır], digəri rübi-məskunun [dünyanın, insan yaşayan yerlərin] altıda birinə hakimdir. Bunlar dörd yüz milyon çinli və altmış (?) milyon rusdan ibarətdir. Asiyanın və Avropanın ən böyük iki imperatorluğu bunlardır.

Şimdi bu ağırlıq, bu kabus bizi əzərkən, asanlıqla silkinib qalxmaq və yeni bir həyat qazanmaq qabildirmi? Təsəvvür olunarmı? Əvət, etiraf ediriz ki, çətindir. Lakin heç də qeyri-qabil deyildir. Çünki Çin və Rusiya bir millətə hakim birər dövlət deyil, müxtəlif millətlərə amir [ağalıq edən] birər imperatorluqdur. İmperator[luq]ların kamalı [yetkinliyi, son nöqtəsi] isə zəvaldır, inqirazdır, inqisamdır [məhv olmaqdır, çöküşdür, parçalanmaqdır].

Dünyada yalnız millətlər və irqlər paydar [əbədi] olacaqlardır. İmperatorluqlar gec-tez inqiraz və inqisama məhkumdurlar.

Tarix meydandadır. Dünyaya bircə Çin və Rusiya imperatorluqları gəlməmişdir. Onlardan daha böyük, daha qüvvətli, daha əzəmətli neçə-neçə şahənşahlar gəlib keçmişdir. İştə, İskəndəri-Kəbirin [Böyük İskəndərin] imperatorluğu! Venedik dənizindən İndus mənsəblərinə, Mavəraünnəhrdən Libya [Liviya] çöllərinə qədər uzanan yunan səltənəti-əziməsi [əzəmətli səltənəti] nə oldu? Gəldi və keçdi. Bu gün yerində yellər əsir.

İştə, möhtəşəm Roma imperatorluğu! Qafqaziyadan, Krımdan, Karpatdan, Cermaniya, İngiltərə, Fransa və İspaniyadan Bəsrəyə, Həbəşə, Səhra [Sahara çölü] və Bəhri-Atlasa [Atlantik okeanına] qədər uzanırdı. Qara dəniz və Ağ dəniz [Aralıq dənizi] bütün mənası ilə birər iç dəniz olub qalmışlardı. Milyonlarca xalq, yüzlərcə millət, italyanlar, bretonlar, ispanyollar, cermənlər, qreklər, anadolulular, assurilər, kəldanilər, iranilər, qibtilər, bərbərlər və morolar tamamilə Ogüst və Trayana, bu qüdsi Roma imperatorluğuna itaət və ibadət edirlərdi. Bu bö-

yüklükdə imperatorluq nə oldu? Bir səhifeyi-tarix... İndi yerində yellər əsir.

İştə, parlaq ərəb səltənəti! Bəhri-Xəzərdən Bəhri-Qulzüm [Qırmızı dəniz] və Bəhri-Mühitə [Sakit okeana] qədər Məşriq və Məğribə, Sind və Əndəlüsə hökmran idi. Nə oldu? Heç nə. İndi yerində yellər əsir.

İştə, Moğol imperatorluğu! Əzmineyi-tarixiyyənin [tarixi dövrlərin] ən böyük səltənəti idi. Hindistandan, Cəzirətül-Ərəbdən maəda [Ərəbistan yarımadasından başqa] Çin, Maçin daxil olmaq üzrə bütün Asiyanı və sonra Baltik dənizindən Venedik körfəzinə qədər bütün Avropayi-Şərqini [Şərqi Avropanı] istila etmişdi. Nə oldu? İndi yerində yellər əsir.

Bunların yanında Şarlken, Süleyman və Napoleon imperatorluqlarından bəhs etməyə lüzum yoxdur. Məmafih [bununla belə], onlar nə olmuşdu? Pavi[ya]da ucalan qalibiyyət nəfirinin [şeypurunun] əks-sədası, Zigətvar qabağında çalınan kusizəfərin [zəfər təbilinin] təntənəsi artıq eşidilməyir. Ostriçdə gülən pürnur [parlaq, işıqlı] günəş parlamayır. Bu imperatorluqlar nə olmuşdur? Bunlar tamamilə münqəriz [məhv, yox] olmuşlardır. Ancaq yerlərində qılıncdan artıq qalan heyətlər yaşayırlar. Bu dövlətlər, bu imperatorluqlar vüsətlərindən, rabitə və təşkilatsızlıqdan, bəzən mədəniyyətsizlikdən, fəqət bir millətə müstənid [söykənən, istinad edən] bir dövlət olmayıb bir çox millətlərə hakim birər imperatorluq olduqlarından yaşamamışlar, ölüb getmişlərdir.

Hal böylə, qaideyi-əzəliyyə bu ikən Çin və Rusiya səltənətlərinin, xüsusən dünyanın ən müxtəlif millətlərinə hakim olan Rusiyanın bu qaydadan müstəsna qalmasını təsəvvür qabilmidir? Əsla! (Rusiya imperatorluğu da münqəriz oldu.)

Bunların daireyi-hakimiyyətləri qayət vüsətlidir. Hökmləri altında yaşayan millətlərin mədəni və ictimai işlərdə tərəqqi edəcəkləri təbiidir. Binaənileyh [ona görə], bir gün gələcək, bunlar dəxi sarsılacaq, parçalanacaqlardır. Bu gün ayaq altında əzilən böyük millətlər hürriyyət və hakimiyyətlərini istirdad edəcəklərdir [geri alacaqlar].

Qərbin dövri-intibahında doğan hürriyyət və səltənəti-milliyyə fikirləri, əsasları, getdikcə daireyi-nüfuzlarını böyütmüşlərdir və hələ keçən əsrdə bir Qərb müvərrixi-həkimi [müdrik bir Qərb tarixçisi] demişdir ki: "Əhvali-aləm, bir amili-kimyəvi [kimyəvi vasitə] surətində təsir edərək, heyəti-siyasiyyələrin kimini təhlil, kimini tərkib eyləmişlərdir [siyasi topluluqların kimini bir-birindən ayırmış, kimini bir-birinə birləşdirmişdir]."

Bu əməliyyeyi-kimyəviyyənin [kimyəvi əməliyyatın] sonunda baqi [sağ] qalanlar yalnız millətlər, yalnız irqlər olmuşdur.

Dünya böyük cahangirlərə müsaid deyildir. Bu gün yaşayışda ümumun təmayülü müəyyən hüdudlar daxilində müəyyən millətlər təşkili tərəfinədir (Azərbaycan, Gürcüstan kimi). İngiltərə, Fransa, İspaniya bu təmayülü təqib edərək yer və millət birliyi gətirmişlər. Müdhiş qasırğalara, tufanlara, ixtilallara, hərblərə, istilalara rəğmən davam edirlər, yaşayırlar. Almaniya və İtaliya yenə bu sayədə yeni-yeni həyat və fəaliyyət ocağı qurmuşlar. Napoleon qalib və müzəffər olub Şönbrunnda əmrlər sadir edir [əmrlər yağdırır], Üçüncü Fridrix Vilhelm Tilzitdə nəhr kənarında əmr bəklərkən Almaniya nə halda idi? Tarmar, iki yüz parça dövlət olmuşdu. Fəqət hamısı məqhur [qəhr olmuş], münhəzim [məğlub olmuş, dağılmış] və pərişan, fateh hüzurunda baş almışlardı.





Fəqət axıra qədər onlar öylə həqir və zəlil qalmadılar. Qalib gəldiyi zaman əlində bir-iki bayraq gətirmişdi. O dəxi hüquqi-bəşər bəyannaməsi idi. Onda böylə ibarələr yazılmışdı: "Millətlər insanlar kimi bir-biri ilə bərabərdirlər. Hər millətin sinəsində səltənət müstəqərrdir [qərar tutmuşdur] və hər millət kəndisini dilədiyi kimi idarə edər."

Nəticədə fikri-milliyyət, haqqi-milli, səltənəti-milliyyə doğdu.

İştə, almanlar 1813-də bu bayrağı tutub böyük şövq və ümid ilə ayaqlandılar. Qasibi [qəsbkarı] (Napoleonu) qovdular və hürriyyətlərini qazandılar. Hürriyyəti-siyasiyyədən vəhdəti-milliyyəyə gedən bir şahrah [yol, xiyaban] vardır. Almanlar bu yolu 1814-dən sonra tutdular və 1871-də o vaxta qədər Almaniyanı parçalayan millətin abideyi-səltənətin[in] dağılmışı və tör-töküntüsü üzərində – Fransada Versal sarayında milli və irqi birliklərini elan və təsis eylədilər.

İtalyanlar dəxi bu qərar üzrədir. İtaliya 1815-də nemsə kanslerinin iddiasına görə, bir coğrafi təbir idi. Onların bir qismi əsir, bir qismi parça-parça olaraq səfil və məchul bir həyat keçirirlərdi. Fəqət bir gün gəldi, İtaliya dəxi eyni düsturların sövqü ilə bir bəsübə'dəlmövt [ölümdən sonrakı diriliş], bir "risorcimento" başladı. Parça-parça oyanan məcmuələr [topluluqlar, qurumlar] bir taxt, bir Parlaman ətrafında toplandılar (1860-1861-də) və Dante milləti yenidən yaşamağa başladı.

Böyləcə 15-ci əsrdən 19-cu əsrə qədər əcnəbilərin təğəllübü [zorakılığı] altında yaşayan bu millətlər irq və milliyyət fikirlərinin nəfx etdiyi [nəfəs verdiyi] qüvvətlə dirildilər, canlandılar, bu gün qalib düşmənlərlə biməhaba [qorxusuz] pəncələşəcək bir dərəcəyə gəldilər.

Neyçün?

Çünki dövlət ölər, millət ölməz. Hər millət üçün hüviyyəti-milliyyəsini zaye etməmək [milli kimliyini itirməmək] şərti ilə bir bəsübədəlmövt haqdır.

Bu gün bir əsrdir əsir yaşayan polyak (leh) millətinin canlanmaq üçün çırpındığını, silkindiyini görürüz. Bunun kimi bir gün Turan türkləri də başdan-başa titrəyəcək, titrəyərək ayılacaq və bu ayıq türklərin milliyyət fikri ilə yanan sinələri üzərinə yeni Çingizlərin taxtı qurulacaqdır. Qurulacaq, çünki Turan, tarixi bir təbir [termin] deyil, irqi bir həqiqətdir. Çünki türklük yaşayan, zində [canlı, dinamik] və bərhəyat [yaşayan] milliyyətdir.

Millət nədir?

Millət eyni mənşəyə, eyni maziyə [keçmişə], eyni tarixə malik olan bir heyətmi deməkdir?

Öylə isə, türk odur!

Millət eyni irq və adətə tabe, eyni müəssisati-ictimaiyyəyə [ictimai qurumlara] malik, hətta eyni dinə müti [itaət edən] bir cəmiyyətmi deməkdir?

Öylə isə, türk odur!

Millət eyni dil ilə qonuşur, eyni ədəbiyyat ilə yaşar, eyni ehsasat [hisslər] ilə titrər, eyni məfkurə arxasından qoşar bir məcmueyi-irqiyyəmi [irqi topluluqmu] deməkdir?

Öylə isə, türk odur!

Millət bir atanın, bir ananın öz çocuqlarımı deməkdir?

Öylə isə, türk odur!

Bunun üçün türk yaşayacaq və bir gün Turan – müxəlləd [əbədi] və müqəddəs Turan doğacaqdır.

*19 təmmuz 1919*
*Ə. Müznib*

## NAXÇIVAN-ŞƏRUR MƏSƏLƏSİ

**- 4 -**

Bu müvəffəqiyyətə nail olduqdan və arxayınlıq hasil etdikdən sonra iş başında bulunanlardan başqa, camaat nümayəndələrinin də fikir və rəyini anlamaq lazım idi. Bunun üçün [Mirabbas] Mirbağırzadə bir neçə xüsusi ev məclislərində hazır bulundu və camaatın xanlar hökumətindən razı olmadıqlarını, "İrana ilhaq edilmək" [birləşdirilmək] sözünü də özləri üçün bir şərəfsizlik və həqarət məqamında tutduqlarını, əla və ədna [böyüklü-kiçikli, varlı-yoxsul hamı], Naxçıvan, Şərur, Vedi, Sürməli mahallarının yüzdə doxsan faizi müsəlman türklərindən ibarət olan camaatının ancaq və ancaq öz tarix, dil, soy və dindaşları bulunan Azərbaycana səmimiyyətlə mülhəq olmaq [qoşulmaq] istədiklərini öyrənir.

Mirbağırzadə xüsusi məclislərdən anladığı bu məlumatını daha da vüsətləndirmək istəyərək onun təklifi ilə hökumət sabahı gün əhalini məscidə toplar. Böyük izdihamla hər təbəqədən məscidə toplanan camaat qarşısında Azərbaycanın deleqat və zabitlərin[i] gördükdə qəhrəman və lakin müntəzir [intizarlı] gözlərində böyük ümid və sevinc ziyaları parlar. Bu səmimanə təsir altında Azərbaycan naminə olaraq onun zabitləri və deleqatı Naxçıvan, Şərur, Sürməli, Vedi, Zəngibasar, Gərnibasar demokratlarının məhəbbətli alqışları ilə məsciddə qarşılandılar.

Deleqat Mirbağırzadə Azərbaycanın əhval [və] övzasından [hal və vəziyyətindən] xəbərdarlıq verib, bu tərəf haqqında Azərbaycan Hökumətinin nöqteyi-nəzərini anladır. Nitq əsnasında hər dəfə "Azərbaycan Cümhuriyyəti Hökuməti" cümləsi keçdikdə camaat böyük bir məhəbbətlə "Yaşasın Azərbaycan" sədasını ucaldır və özlərinin səmimiyyətlərinə, məhəbbətlərinə şahid olmaq üçün hər dəfə məscid gümbəzinin də ilahi sədasını özləri ilə həmavaz edib həp birlikdə "Yaşasın Azərbaycan" deyirlər. Hələ Mirbağırzadənin Azərbaycan zabitlərini göstərərək: "Bu zabitlər ki hüzurunuzdadır, bunlar Azərbaycanın ən dəliqanlı və cavan zabitləridir. Azərbaycanın ən sevimli oğullarıdır. Bunlar bu tərəfə hökumətin icbarı ilə gəlməmişlər. Ancaq bu tərəf müsəlman qardaşlarının sıxıntılar, nizamsızlıqlar altında yaşadıqlarını anladıqları vaxt özlərini birinci olaraq könüllü qeyd etmişlər və bu tərəfə göndərilmələrini müsirranə [israrla] tələb etmişlərdi. İştə, sizin uğrunuzda lazım görünərsə, cavan qanlarını nisar etməyə də [axıtmağa da] bunlar yəmin etmişlərdir" cümlələrini söylədikdə camaatın ümidli göz halqalarında sevincli göz yaşları görünür.

Mirbağırzadənin nitqi xitam bular-bulmaz hər tərəfdən:





"Biz azərbaycanlıyız, tarix, dil, soy, dindaşımız Azərbaycan Cümhuriyyəti Hökumətinin pədəranə [atalıq] vəzifəsidir ki, bizə atalıq əlini uzatsın, bizi öz qanadı altına alsın. Bizə başqa hökumət, başqa məmur lazım deyil. Azərbaycan Hökuməti öz daxiləsindən bizə məmurlar göndərsin. Burada hökumət idarələrini o təsis etsin. İçimizə öz qanunlarını göndərsin."

Bunun üçün Naxçıvan Hökuməti başında duran xanların iş başından çəkilmələrini və Azərbaycandan məmurlar gəlincəyədək idareyi-hökuməti müntəxəb [seçilmiş] Milli Şuraya tərk etmələrini tələb edirlər. Bu tələb üzərinə məsciddə camaat hüzurunda birinci olaraq Kəlbəli xan [Naxçıvanski] istefa verib hökumət heyətindən çıxdığını camaata bildirir. Ondan sonra atası Cəfərqulu xan [Naxçıvanski] istefa verir. Kərim xan İrəvanski də məktubən [məktub vasitəsilə] istefasını göndərir.

Binaənileyh, yeni hökumət əzaları [üzvləri] seçmək üçün hökumət dairəsində axşam vaxtı əski Milli Şura əzalarından və camaat nümayəndələrindən ibarət bir məclis qurulmasına qərar verilir.

Xanlar bu dəyişiklik keyfiyyəti haqqında ingilis general-qubernatoruna məlumat vermişlərdi. General-qubernator isə Mirbağırzadə ilə başqa dəfəki görüşdə müstafi [istefa etmiş] hökumət üzvləri yanında demiş ki, camaatın hökumət dəyişməsinə mən mane deyiləm, ancaq iş başında kimlər duracaqlarsa dursunlar, fəqət bu xüsusda mənə məlumat verilsin ki, rəsmi işlərimizi hanki heyətlə idarə edəcəyimizi anlayalım.

* * *

Keçməkdə olan bu kimi günlər əsnasında məhəlli [yerli] tabor komandanlarından bir çoxu və nüfuzluları Azərbaycan deleqatının və əsgəri nümayəndəsinin məhəlli-iqamətinə [oturduğu yerə] gəlib, əsgərləri ilə bərabər özlərinin Azərbaycan əsgəri nümayəndəsinə tabe və təslimiyyətlərini izhar və iqrar [təsdiq] edirlər. Bəziləri də bu iqrarlarını yazı ilə təqdim edir. Böylə ki, məhəlli komandan və əsgərlərin əksərisi Azərbaycan deleqat və zabitlərindən başqasını özlərinə hökmran görmək istəməyirlər. Hətta Şərur səngərləri mühafizəsinə dəyişilmək üçün Naxçıvandan göndərilməkdə olan bir tabor məhəlli əsgər bir sabah qışladan [kazarmadan] çıxarılıb göndərilərkən, Azərbaycan deleqatı və zabitlərinin oturduqları mehmanxananın qarşısına yetişdikləri vaxt həp birdən apansızın [anidən] dayanırlar, aralarında üç əsgəri vəkil edib deleqatın və zabitlər rəisinin yanına göndərirlər və dəyişilməyə getdikləri halda Azərbaycan zabitləri[ni] gözləri ilə görərək təsəlli tapıb da sonra getmək istədiklərin[i] bildirirlər.

Binaənileyh, başda polkovnik Hüseyn bəy olmaqla deleqat və zabitlər əsgərlərin hüzuruna çıxaraq səmimi məhəbbətlərlə salamlayırlar. Polkovnik rəsmi salamından sonra əsgərlərin keçirdikləri qəhrəmanlıqlarına və gələcək vəzifələrinə aid Mirbağırzadənin əsgərlərə xitabən söylədiyi hərarətli nitqindən sonra əsgərlər "Yaşasın Azərbaycan" sədaları altında rəsmi-keçidlə ayrılıb yollanırlar.

Camaatın və əsgəri hissələrdən bəzilərinin Azərbaycan nümayəndələrinə qarşı etina və tabeiyyətləri artdıqca artır, hətta əsgərlərdən və tabor komandan-

larından bəziləri ortalıqda keçən bəzi məsələlərdən dolayı deleqatın və polkovnikin yanına gəlib əmrinizə mane olanlar varsa, söyləyiniz, bir anda dəf edəriz deyirlər. Fəqət ortalığı hərc-mərcə salma[ma]ları haqqında, politika aləminə qarışmamaları haqqında deleqatın söylədiyi sözlər tabor komandanların[ı] və əsgərləri sakit edir.

* * *

İranın Qaradağ hissəsinin Araz kənarı kəndlərinin hamısında və Urmiya, Xoy, Mərənd və digər yerlərdə Azərbaycanın səfil, pərişan bir halda gəzib son günlərini, yaxud kəndlərinə, yurdlarına qayıtmaq üçün çarə və ümid yolların[ı] gözləməkdə olan minlərcə qaçqın təbəələri vardı. On minlərcə pərişan-halları da Ordubad, Naxçıvan, Şərur və qeyri tərəflərdə gözləri yurdlarına qayıtmaq intizarını çəkməkdə olduqları halda sərsəri gəzməkdə idilər.

Zavallı qaçqınlar Azərbaycan deleqatı və zabitlərinin Ordubad və Naxçıvana gəldiklərini bilib, hər tərəfdən, hətta uzaq kəndlərdən arvad, uşaq, qoca, xəstə dəstələrlə deleqatın yanına gəlib pərişan hallarına, yurdlarına geri qaytar[ıl]malarına çarə edilməsini pərişan hallarıyla sızlayıb yalvarırlar. Bu qaçqınlardan bir çoxunun aclıqdan öldükləri üçün meyitləri Qaradağ səhralarında və kənd yanlarında açıqda qalıb üfunətlənmişdi.

Qaradağın Üştübin kəndinin çayı kənarında su içmək halında bir qaçqın meyiti uzanıb qalmışdı. Bəzi şenliklərdə [qəsəbələrdə] də qaçqın meyitləri kəfənsiz olaraq heyvan kimi çuxurlara atılıb üstü torpaqlanırdı. Azərbaycan qaçqınlarının bu kimi əsəfnak [təəssüflü] halları İranın Qaradağ hissəsində dəfələrlə görünmüş oldu.

Binəvalar Zəngəzur tərəflərindən qaçdıqdan sonra Azərbaycandan xəbərləri yox və Azərbaycan Hökumətinin də bunlardan xəbəri yox bir halda qalmışlardı.

Binaənileyh, Azərbaycan deleqatı və zabitlərinin gəldiyin[i] eşidən hər tərəfdəki qaçqınlar dəstələrlə gəlib dərdlərinə, hallarına çarə edilməsini Azərbaycan Hökuməti naminə yalvarıb yaxarırdılar. Bunların dağılmış kəndlərinin və özlərinin nüfus [əhali] siyahılarını Mirbağırzadə Ordubad və Naxçıvan Milli Şuralarından alıb toplamışdır. Ordubad camaatı son vaxtlarda fəqirhal olduqları ilə həm əsgər saxlayırlardı, həm də bu qaçqınlardan bir neçə yetimləri yemləyirlərdi. Arvad, qoca yüzə qədər qaçqınları da Mirbağırzadə Naxçıvanda məhəlli hökumət vasitəsilə Amerika darüləcəzəsinə [möhtaclar evinə] qəbul etdirmişdir. Qalan qaçqınlar isə səfil hallarla gözyaşı tökməkdə davam edib, Azərbaycan Hökuməti tərəfindən ediləcək müavinətə müntəzir qalırlar.

## BİR XANIMIN ŞİKAYƏTİ

*(İstanbulda həbs və Lemnos adasında Limna şəhərinə sürgün edilmiş üstadi-möhtərəm Ağaoğlu Əhməd bəy əfəndinin kərimeyi-möhtərəməsi (qızı) Təzəxanım əfəndi tərəfindən İstanbuldan yazılmışdır.)*

Möhtərəm müdir bəy əfəndi! Pədərim [atam] haqqında qəzetənizə yolladığım şu bir qaç sətiri lütfən dərc etmənizi rica edirəm.





Hissiyyati-qəlbiyyəyə [könül hisslərinə] tərcüman olan bu yazıları öz babalarımın, annələrimin, qardaşlarımın da görməsini dilərəm.

Əvət, bu gün sürgündə bulunan bir babanın [atanın] qızı sifəti ilə söz söyləyirəm. Öylə bir baba ki, övladını, ocağını, səadətini, hər şeyini vətən və millət uğrunda fəda edir. Əcəba, pədərim bunca sənələrdən bəri göstərdiyi fədakarlıqların, hətta böyüklüklərin deyəcəyəm, səmərəsini, mükafatını görür? Və bilmədiyi, tanımadığı bir adaya ailəsindən uzaq atılır. Pədərim haqqında qullandığım bu xitablardan məni məzur görünüz [üzürlü sayın]. Çünki mən babamı təqdis edirəm [müqəddəsləşdirirəm]. Onu yalnız bir baba sifətilə deyil, vətəninin, millətinin bir hamisi olaraq da sevirəm. Yoxsa azərbaycanlılar, bizim öz vətəndaşlarımız bizi unutdularmı?

Bilməm, böylə bir şeyi ağlıma gətirmək istəməm. Millətimə sədaqətsizlik ətf [isnad] edəmməyirəm. Bu gün Azərbaycan hökumət və millətindən pədərim haqqında böyük yardımlar bəklərkən məəttəəssüf, [təəssüflər olsun ki], ən ufaq bir təşəbbüsə belə məzhər [nail] olammadıq.

Fəqət hər şeyi görən bir Allah var. O Allah ki, qəlblərə və ruhlara hakimdir. Haqq verə, əgər mənim həsrətini çəkdiyim babacığım bu cəzaya müstəhəqsə [layiqsə], Cənabi-haqq da bilir ki, mən "qəlbən" onun təcziyəsini [cəzalandırılmasını] dilərəm. Lakin onun hər günlük həyatında hər şey, hər fikir millətinin xeyrinə olaraq yapılmış və düşünülmüşdür. Bu qədər məşəqqətlərə, məzalimə [zülümə] düçar olan bigünah pədərim haqqında millətimdən, Azərbaycandan imdad bəkləyirəm.

*Ağazadə Təzəxanım*

## VEDİBASAR HADİSƏSİ ƏTRAFINDA

### Azərbaycan nümayəndəsinin teleqrafı

Vedibasar rayonundakı axırıncı hadisələr münasibətilə Azərbaycan Hökuməti erməni əsgərlərinin həman rayonda olan müdafiəsiz müsəlman əhalisi əleyhinə etdikləri hərəkətlərinə görə, İngiltərə Komandanlığı qarşısında lazımi iqdamatda [təşəbbüsdə] bulunmuşdur. Bu hadisələri təftiş etməkdən ötrü İngiltərə Komandanlığı tərəfindən bir zabit göndərilmişdir. Bu münasibətlə iyulun 22-də Ermənistanda olan Azərbaycan siyasi nümayəndəsi [Məhəmməd xan] Təkinskidən Xariciyyə Nəzarətinə böylə bir teleqraf gəlmişdir:

*"Bu gün İngiltərə əsgəri nümayəndəsi polkovnik Plauton şifahən və təhrirən [şifahi və yazılı olaraq] mənə xəbər vermişdir ki, general Koridən alınan əmrə görə, Böyük Vedi və Naxçıvan rayonlarında hamı müharibə hərəkatı qət edilməlidir [kəsilməlidir]. Bu gün polkovnik Plauton general Kori ilə görüşməkdən ötrü Tiflisə azim olur [yola düşür]."*

*Siyasi nümayəndə: Təkinski*

### İngiltərə heyətinin notası

Böyük Vedi kəndində olan hadisələrə görə, İrəvanda olan Azərbaycan siyasi nümayəndəsi [Məhəmməd] xan Təkinski İn-

giltərə heyətindən böylə bir nota almışdır:

"Hüzuri-alilərinizə xəbər verirəm ki, bu gün iyulun 5-də Əli xan Makinski mənim yanıma gəlib erməni əsgərlərinin müsəlman kəndləri əleyhinə etdikləri qanunsuz hərəkətlərinə görə, Böyük Vedi kəndi müsəlmanlarından aldığı şikayəti mənə göstərmişdir. Bu əhvalatın həqiqətə müvafiq olub-olmadığından bəhs etməyərək, mən sizdən xahiş edirəm ki, Ermənistanın daxili işlərinə qarışmayıb və bu işlər haqqında da İngiltərə heyətinə nümayəndələr göndərməyəsiniz. Məhəlli [yerli] müsəlmanların özlərinin nümayəndələri vardır ki, hərgah erməni hökuməti əleyhinə şikayətləri olsa, onların vasitəsilə şikayət edərlər. Azərbaycan Cümhuriyyətinin siyasi nümayəndəsinin bu işlərdən ötrü istifadə olunmasını anlaya bilməm. Sizin hökumətiniz Ermənistanın daxili işləri məsələsində tamamilə bitərəf təsəvvür edilir.

*Kamal-ehtiramla İrəvanda olan İngiltərə əsgəri nümayəndəsi: B. V. P."*

**Vedibasar hadisatı**

Vedibasar hadisatı haqqında idarəmizə əlavətən işbu məlumat varid [daxil] olmuşdur:

İyulun 4-də gözlənmədiyi halda Ağdağ tərəfindən ermənilərin Sason alayı göründü. Alayın böylə gəlməsi və fəna nəticələrdən vahiməyə düşmüş əhali kəndxuda Zeynalabdin Şıxəli oğlu ilə Nəsrulla bəy Bəşir bəy oğlunu heyət sifətilə onlarla danışmağa göndərdilər. Məzkur zatlar [adı çəkilən şəxslər] ermənilər tərəfindən qətl edilmişdirlər.

Bundan sonra Sason alayı Böyük Vedi kəndi üzərinə təərrüzə [hücuma] başlayaraq mitralyoz və top atəşinə başlamışlardır. Qəmərli tərəfindən də Van alayı yetişib həman kəndi top və mitralyoz atəşinə tutmağa başlar.

Bir neçə saat atışmadan sonra hər iki alay təərrüzə keçərlər. Müsəlmanlar təərrüzü dəf etmişdirlər. Van alayı iki təərrüzdən sonra çəkildiyi kimi, Sason polku da təkrar bir neçə təərrüzdən sonra bütün mövcudunu qaib edərək ricətə [qaçmağa] məruz qalmışdır. Müsəlmanlar alayın dəftərxanasını, bir top, bir qaç mitralyoz, cəbbəxana ilə dolu bir araba, tüfəng və başqa qənaim [qənimətlər] almışdırlar.

Ermənilərin eyi müsəlləh [silahlanmış] olması, əlverişli xəndəklərdə olduqlarına baxmayaraq münhəzim [məğlub] olmuşdurlar. Müsəlmanların tələfatı qayət azdır.

Böyük Vedi kəndi müsəlmanları layiqincə bilmişdilər ki, ermənilərə təslim olsalar Şahablı, Dəhnəz, Qədili, Qarabağlar kəndliləri başlarına gələnlər onların da başlarına gələcəkdir. Yəni özləri öldürülüb qadınları aparılacaqdır. Buna görə, kəndin qocaları ağac və balta ilə hərb edirdilər.

Erməni hökuməti məsələni ingilislərə böylə anlatmışdır ki, Sason alayına kəndə girməyə icazə verildikdən sonra saldatlar tüfənglərini çatıb bağlara qayısı və alu yığmağa getdikdən sonra, müsəlmanlar əhd-şikənanə [xaincə] bir surətdə türk əsgərləri və zabitanı komandası altında qoşuna hücum edib 150 saldat, 10 nəfər zabit öldürmüşlərdir. İşbu xəbərin yalan olmasını isbata kənd içində bir nəfər də olsun erməni ölüsünün olmayıb, fəqət kəndin kənarında olması kifayət edəcəkdir.

İngilis heyəti Böyük Vedinin alınamayacağına itminan hüsulundan [əmin olduqdan] sonra iyulun 8-də kəndə gəlib ixtilafı bərtərəf etməyə [aradan qaldırmağa] vəsait aramağa başlamışdır, yəni ermənilərə təslim olmağı təklif etmişdir.

## AZƏRBAYCANDA

**Lənkəranda**

Lənkəran hələ bolşeviklərin əlindədir. Şəhərdə yanğınlar var. Bolşeviklərlə Ramazanın hücum etməkdə olan dəstələri arasında dəhşətli müharibələr davam edir. Muğanlılar taxıl yığmaqla məşğuldurlar. Bolşeviklər əleyhinə olan əməliyyatda iştirak etməyirlər. Lənkəranda cümlətanı 800 nəfər kommunist var. Hücum edən Ramazanın isə kifayət qədəri qüvvəsi var, amma topu yoxdur. Bolşeviklərin zirehli avtomobili olduğundandır ki, Lənkəranı saxlayırlar. Ramazan Lənkəranın yaxınlığındadır.

## BAKI XƏBƏRLƏRİ

**Acaradan bir heyəti-mürəxxəsə**

Dün paytaxtımıza Batum oblastından bir heyəti-mürəxxəsə [nümayəndə heyəti] gəlmişdir. Heyəti-mürəxxəsə Baş vəkili [Baş naziri] ziyarət etmişdir. Heyəti-mürəxxəsə Batum və oblastının vəziyyətihazirə və siyasiyyəsini bildirmək və bəzi mühüm məsələlər haqqında Azərbaycan Hökuməti ilə müzakiratda bulunmaq məqsədi ilə təşrif etmişdir.

**Parlaman komisyonlarında**

- Bələdiyyə məclisləri əzasının [üzvlərinin] üsuli-intixabı [seçkisi üsulu] haqqında yeni qanun layihəsi Parlamanın Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komisyonuna idxal edilmişdir. Müzakirə olunduqdan sonra layihə Parlamanın heyətiümumiyyə iclasına təqdim ediləcəkdir.

- Sinif və şəğələsindən [işindən] dolayı xidməti-əsgəriyyədən azad edilənlər barəsində qanun layihəsi Ləvayehi-Qanuniyyə Komisyonunda müzakirə edilib Parlamanın birinci iclaslarına təqdim ediləcəkdir. Məruzəçi Mehdi bəy Hacınski təyin edilmişdir.

**Təlif Komisyonunda**

Məktəblər üçün türkcə kitablar hazırlamaqla məşğul olan Təlif Komisyonu təşəbbüsü ilə ibtidai məktəblər üçün türk əlifbası, 2-ci il kitabları hazır olub, 3-cü il və hesab kitabı hazır olmaq üzrədir. Rüşdiyyə və edadilər üçün ilk növbədə ədəbiyyat kitabları, qəvaidi-ədəbiyyat [ədəbiyyat qaydaları], hesab, cəbr və bu kimi şəklə və klişeyə ehtiyacı olmayan kitablar çapdan çıxacaqdır və əlan təbdədir [hal-hazırda çapdadır]. Coğrafiya, tarixi-təbii, həndəsə, hikmət və qeyri bunlar kimi şəklə və klişeyə möhtac olan kitablar sinkoqrafiya yoxluğundan ləngə düşür. Bu barədə Komisyon ciddi tədbirlər görmüşdür. Klişelər hazır olduqca bu kitabların da çap olunmasına şüru ediləcəkdir [başlanacaq]. Komisyon ümid edir ki, üzümüzə gələn il məktəblər üçün lazımi kitablardan təmin edilə biləcəkdir.

**Parlaman iclasları**

Parlamanın 21 təmmuzda vaqe olan qərarına görə bundan sonra Parlamanın

növbəti cələsələri [iclasları] bazar və çaharşənbə [çərşənbə] günləri axşam saat 7-də başlanacaqdır.

**Türkcə kurslar**

Türk müəllimlərinin təşəbbüsü ilə Birinci Realnı məktəbinin binasında türk mütəəllimlərindən [şagirdlərindən] ötrü türkcə xüsusi hazırlıq kursları açılmışdır. Kurslarda türk dili, türkcə tarixi-təbii və hesab keçiləcəkdir. Bundan başqa, alman və fransız dilləri də öyrədiləcəkdir. Arzu edənlər Realnı məktəbi binasına müraciət etməlidirlər.

**Bələdiyyə İdarəsində**

Son vaxtda şəhər soqaqlarında [küçələrində] bir çox sahibsiz itlər dolaşmaqdadır ki, miyanlarında [aralarında] quduz və digər bu kimi xəstəliklər nəşətindən [əmələ gəlməsindən] əhaliyə zərər toxunacağı ehtimal daxilindədir. Bələdiyyə İdarəsi bunu nəzərə alaraq zərərin önünü almaq qəsdi ilə itlərə vergi təyin etmək üçün bir layihə hazırlayıb bu günlərdə Bələdiyyə Məclisinə idxal ediləcəkdir.

**Hacı-Tərxan ətrafında**

Petrovskdan gəlmiş bir nəfər tacirin dediyinə görə, bolşeviklər ordusu İdil [Volqa] nəhrinin mənsəbində vaqe adalara tərəf sıxışdırılmışdırlar. Dabravolların dediklərinə görə, bolşeviklər burada böyük müqavimət göstərəcəklərmiş. Hər halda tacirin dediyinə görə, Hacı-Tərxanın alınması yaxın günlərin məsələsidir.

**Bakıda dabravollar**

Aldığımız məlumata görə, Bakıda olan rus ordusuna mənsub bütün zabitan orduya alınmaq üçün Petrovsk şəhərinə getməlidirlər. İşbu dabravol qanununa itaət etməyən zabitan dabravol qanunu qarşısında məsul olacaqdır. Zabitan qismən vapor, qismən də dəmiryollarla Petrovska getməkdədirlər.

**Bon kursunun artması**

İyulun 20-də valyutanı möhkəmləşdirmək və Azərbaycan pullarının qiymətini artırmaq məsələsi müzakirəsindən ötrü Maliyyə və İqtisad Komitəsinin iclası vaqe olmuşdur. Müzakirədə neftçilər, Birja Komitəsi, ticarət və sənaət [sənaye] və nəqliyyat cəmiyyəti nümayəndələri də iştirak edirmiş.

**Ermənistan üçün cövhər**

Ermənistanın cövhərə [kerosinə] olan böyük ehtiyacını nəzərə alaraq Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Ermənistan Hökumətinin xahişinə görə, 50 vaqon cövhər aparılmasına izin vermişdir. Neft Sənain mövqifində [stansiyasında] Ermənistana təhvil veriləcəkdir.

**Stavropol ilə mal mübadiləsi**

Ticarət Nəzarəti Stavropol vəkilinə xəbər vermişdir ki, Stavropol ərzaq təşkilatının Nəzarətlə sazişi üzərinə Azərbaycan ilə Stavropol arasında mal mübadiləsinə zidd deyildir.

**Posta-Teleqraf İdarəsində**

Müvəqqəti olaraq İrana və Türküstana posta müxabiratı [rabitəsi] və teleqraf qəbul edilməyir.

**Müəllimlər İttifaqında**

- 25 təmmuz səhər saat 10-da Birinci Realnı məktəbində Müəllimlər İttifaqı





İdarəsi tərəfindən Azərbaycanda anarşi zamanında vəfat etmiş müəllimlərin ruhlarına fatihə məclisi tərtib veriləcəkdir. Məclisdə Yasini-şərif qiraət ediləcəkdir.

- Bu vaxtadək maaşları posta ilə göndərilən müəllimlərdən posta xərci alınırdı. Müəllimlərin məvaciblərinin onsuz da az olmasını və kəndilərini təmin edə bilməyəcəyini nəzərə alaraq, Müəllimlər İttifaqı İdarəsi Maarif Nəzarəti indində [nəzdində] işbu xərcin alınmaması haqqında təşəbbüsatda bulunmuşdur.

- Bir çox müəllimlərin maaşları vaxtından gec olmaq üzrə kəndilərinə çatırdı. Əlavə, köy və başqa qəzalardan şəhərə məvacib üçün gələn müəllimlərdən yol xərci alınmaması haqqında Müəllimlər İdarəsi Maarif Nəzarəti indində təşəbbüsatda bulunmuşdur.

**Birjada**

İki gün qabaq Hökumət tərəfindən birja əhatə olunub, möhtəkirlər həbs edildiyindən, birjada ruh düşkünlüyü müşahidə olunur. Kerenski minliklər 500 rubləyə, 25 rubləliklər 30 faiz, hətta 28 faizə gedən olur. Xırda kerenskilər 22 faizə qalxmışdır. Nikolay 500-lükləri 1800 rubləyə gedir. 500-lüklər 340 rublə, Zaqafqaziya bonları 2 ½ %.

**Valyuta**

Qızıl Osmanlı lirəsi yenə düşmüşdür. Qiyməti 375 rubləyədir. İngilis lirəsi – banknot 360 rublə və çek 335 rublə. İtaliya lirəsi 18 rubləyə, çekləri 15 rubləyə. Finlandiya xırdaları 6 rubləyə. Alman pulları ucuzdur. Xırda gümüş 15 rubləyə.

**Ticarət bazarı**

Şəkər (pesok) aşağıdır, qiyməti 1050 rubləyə. Qəndin halı möhkəmdir. Mövcud çoxdur.

**Cəmiyyəti-Xeyriyyədə**

Müsəlman Cəmiyyəti-Xeyriyyəsi Bakı qradonaçalnikinə müraciətən rica etmişdir ki, Verxni-Priyutski küçədə ibtidai məktəb binasında vaqe olan müsəlman ye-timlər yurdu qapısında bir qaraqol qo-yulması haqqında binagüzarlıqda bulun- sunlar [sərəncam versin].

**Xəstə türk zabiti**

Doktor Larionovun xəstəxanasında yatan Rüfət İsmayıl oğlu nam [adlı] bir türk zabiti iyulun 4-ünədək 5298 rublə 30 qəpik borclu olduğundan xəstəxana Cəmiyyəti-Xeyriyyədən kömək istəmişdir. Cəmiyyəti-Xeyriyyə bu barədə Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən o məbləğin verilməsini rica etmiş və xəstənin də Mərdəkan bağlarına göndərildiyini xəbər vermişdir.

**Hinduların təşəkkürü**

Necə ki məlumdur, Oruc bayramı günü Təzəpir həyətində hindular dəxi əsgərlərimizlə bərabər dəvət edilmiş və şirniyyata qonaq edilmişlərdi. Bu hörmətə qarşı hind əsgərləri öz nümayəndələri vasitəsilə Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə və bütün Azərbaycan müsəlmanlarına təşəkkürlərini izhar etmişlərdir.

**Şəhidlərə abidə**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi şəhid türk əsgərləri qəbirləri üstündə bir abidə tikmək və oraya su çəkməyi təhtiqərara almışdır. Bunun üçün Cəmiyyəti-Xeyriyyə xüsusi ianə dəftəri açmışdır.

**MÜƏLLİMLƏR İCTİMASINDA**

Təmmuzun 18-də Bakı, Göyçay və Şamaxı türk müəllimləri ittifaqlarının müttəfiq idarələrinin iclası vaqe olmuş, Şuranın sədri Ağababa bəy İsrafilbəyzadə cənabları şu zeyldəki [aşağıdakı] məsələləri müzakirəyə qoymuşdur:

1) Mart hadisəsində və ondan bu vaxta kimi qətl olmuş və kəndi əcəli ilə mərhum olmuş arxadaşlara bir gün təziyə etmək.

2) Sentyabrın 1-ədək nümayəndələr şurası dəvəti.

3) Ümumi və icbari təlim barəsində.

4) Sentyabrın 1-ədək məktəblər binasının hər bir şeydən təxliyə edilməsi.

5) Məclisdə qaldırılacaq məsələlər xüsusunda.

1-ci məsələ ümum iclas tərəfindən qəbul edilir. Bu təziyə rəsminin [mərasiminin] icrası üçün üç nəfərdən ibarət bir komissiya təşkil edilir. Komissiyaya daxil olanlar:

1) Bakı Müsəlman Müəllimlər İttifaqı tərəfindən Abbasqulu Vəlixanzadə;

2) Şamaxı ittifaqından Vahab Axundzadə;

3) Göyçay ittifaqından Soltan bəy Əhmədbəyzadə.

Bundan dolayı rusca və türkcə "Azərbaycan" ruznamələrində [qəzetlərində] bu barədə elan verilməsi dəxi təhti-qərara alınır. Bu təziyə rəsmi Realnı məktəbi salonunda cümə gününə təyin edilir.

2-ci məsələ dəxi iclas tərəfindən ittihadi-ara ilə [yekdilliklə] qəbul olunur. Qurultayın avqustun 20-dən sentyabrın 1-ədək çağırılması lüzum görülür və üç nəfərdən ibarət bir komissiya təşkil edərək şu zeyldəki üzvlər intixab olunurlar [aşağıdakı üzvlər seçilirlər]:

1) Bakı Müəllimlər İttifaqından Ağababa bəy [İsrafilbəyzadə];

2) Şamaxı ittifaqından Hacı Baxış Axundzadə;

3) Göyçay ittifaqından Ağa İsmayıl Hüseynzadə.

Nümayəndələr Şurasına hər bir ittifaqdan bir nümayəndə gəlməsi əksəriyyətlə qəbul olunur. Ümumi və icbari təlim hakəza [habelə] iclas tərəfindən qəbul edilir. Şəhər üçün çocuqları toplamaq və icbari təlim hər bir məktəb müdirinin özünə mühəvvəl edilir [tapşırılır], lakin qəzalarda və köylərdə bu icbari təlimi yeritmək müşkül bir əmr [iş] olduğu üçün hökumət özü bu barədə təşəbbüsatda bulunmağını xahiş edirlər.

4-cü məsələ, yəni sentyabrın 1-ədək məktəblər binasının hər bir şeydən təxliyəsi haqqında iclas bu qərara gəlmişdir ki, Bakı Müəllimlər İttifaqı Bələdiyyə İdarəsinə və yaxud Hökumətin özünə müraciət edərək sentyabrın 1-ədək Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsi tərəfindən tutulmuş məktəb binalarının təxliyəsi barəsində təşəbbüsat və istida [xahiş] etsinlər.

**EV SAHİBLƏRİ İTTİFAQINDA**

Bakı Ev Sahibləri İttifaqının Şurası camaata elan edir ki, iyulun 20-də İttifaq Daxiliyyə Nəzarətinə mənzil məsələsi haqqında yeni bir layihə təqdim etmişdir. Layihədə tənqid ilə bərabər, mənzil məsələsi ictimai və dövləti nöqteyi-nəzərdən müzakirə edilmiş və mənzil qəhətliyinin səbəb və çarələri göstərilmişdir və deyilmişdir ki, otaqlara qoyulan qiymət mənzil məsələsini həll edəmməyir. Əksinə olaraq, təmir etmək, yeni ev bina etmək kimi təşəbbüsatı qət etmişdir [dayandırmışdır]. Bu növlə pis nəticə vermiş, bir çox evləri xaraba halına gətirmiş, mənzilə böyük ehtiyac hiss edildiyi halda, mənzillərin azalmasına bais olmuşdur. Axırda bu normalıq üsulu əhalinin bir qismində otaqların çoxalmasına səbəb olmuşdur. Bununla mənzilləri bir möhtəkirlik mənbəyinə döndərmiş olduqları halda, digər tərəfdən də otaqların ədalətli surətdə təqsiminə [bölünməsinə] də mümaniət [maneçilik] yaratmışlardır. Ev Sahibləri İttifaqı mənzil məsələsini ətraflı və bitərəf bir surətdə həll üçün lazım bilir ki, tezliklə əbədi bir orqan təşkil olunsun və mənzil məsələsi üçün lazım gələn tədbirlər ittixaz edib [tədbirlər görüb] həyata tətbiqinə səy etsin.

**İRƏVAN QUBERNİYASI**

İrəvan quberniyası müsəlmanlarının həmyerlilər üzvlərinin iyulun 18-də vaqe olan ümumi iclasında İrəvan uyezdi Vedibasar rayonunda olan axırıncı hadisələr haqqında məruzəyə qulaq asdıqdan sonra müttəhidül-qövl [yekdilliklə] böylə bir qətnamə çıxarılmışdır:

Ermənistan Cümhuriyyəti daxilində müsəlman kəndliləri haqqında erməni məmurları tərəfindən tətbiq edilən tədhiş [terror] üsulu insanın müqəddəs hüququna təcavüz və hədsiz başsızlıq şəkli almışdır. Bunun da nəticəsi, təbiidir ki, müsəlmanların narazılığına bais olmuşdur. Erməni əsgərləri iştirakı ilə İrəvan uyezdi Vedibasar rayonunda qanlı müsadimələr [toqquşmalar] vaqe olmaqdadır. Erməni hökuməti müsəlman demokratiyasının [xalqının] narazılığına bais olan səbəbləri rəf etmək [aradan qaldırmaq] əvəzinə, Vedibasar rayonuna əsgəri dəstələr göndərmişdir ki, bu da bütün müsəlman kəndlilərini məhv ilə təhdid edir.

Müsəlman kəndlilərinin təbii narazılığını bəylər və türklər tərəfindən ruhlandırılmış əksinqilab çıxışı adlandırıb, erməni mətbuatı öz adətinə görə, bilə-bilə yalanlar yazıb, Müttəfiq Komandanlığı və Yevropa əfkari-ümumiyyəsini [ictimaiyyətini] şübhəyə salır. Müsəlman qanını axıtmaqda olan Erməni Hökumətinin bu cür hərəkəti böyük bir narazılığa bais olur. İrəvan uyezdi Vedibasar rayonunda müsəlman kəndlilərinin məhv edilməsi əleyhinə Müttəfiq Komandanlığı ilə Sülh Konfransı qarşısında protesto edib, həman rayonda tezliklə qan tökülməsini dayandırmaqdan ötrü tədbirlər görülməsi Azərbaycan Hökumətindən xahiş edilsin.

*Şura sədri: N. Makinski*
*Katib: A. Firidunbəyov*

**FƏHLƏ HƏYATI**

İyulun 20-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Balaxana kənd şöbəsində Xeyrəddin Xeyrullazadənin sədarəti və Şirmirzə Babazadənin katibliyi

ilə kəndçi və fəhlələrin iclası vaqe olub, möhtəkirlərlə mübarizə və Zəngəzur uyezdi məsələsi müzakirə edilmişdir.

Birinci məsələ barəsində böylə qərar çıxarılmışdır:

Biz fəhlə və kəndçilər görürüz ki, gündən-günə yaşayışımız çətinləşir. Böylə ki, tacirlər zəruri şeyləri birə üç artırırlar. Biz məşəqqət çəkirik, lakin bu təklif müqabilində məvaciblərimizin artırılmasını tələb etməyiriz. Ancaq hökumətdən tələb edirik ki, bahalığın qabağını alsın və birinci zəruri şeylərin tez bir zamanda ucuzlanması haqqında binagüzarlıq etsin [addımlar atsın].

Zəngəzur uyezdi haqqında iclas böylə bir qərara gəlmişdir:

Zəngəzurda naəlac qalmış miskin dindaşlarımızın halına laqeyd baxa bilməyərək, biz fəhlə və kəndlilər hökumətdən acizanə rica edirik ki, onları əziyyətdən xilas üçün ciddi tədabir ittixaz etsin [tədbirlər görsün], yollarını açdırsın. Fəhlə və kəndlilər ümidvar olurlar ki, bu gün yalnız bizdən gözləyən Zəngəzur uyezdi dindaş və millətdaşlarımıza hökumətimiz nicat verməyə çalışacaqdır.

## İDARƏDƏN CAVABLAR

**Qazaxdan Məcid əfəndiyə:** Hökumət həmişə məmur təyin edərkən əlbəttə camaat və məmləkətin mənafeyini, vətənin asayiş və müsalimətini [əmin-amanlığını] təmin üçün edir. Zatən hökumətin və ümum məmurların vəzifəsi budur. Binaənileyh [ona görə], bir məmur, vəzifəsinə layiq çıxmazsa vəzifə başından çəkilməli, düşürülməlidir və biləks [əksinə], məmurlar vəzifələrini hüsn-ifa edərsələr, heç kəsə minnəti yoxdur. Şayəd təqdir etmək lazım gəlsə də, bunun üçün ayrıca mədhiyyələr, təşəkkürlər lazım deyildir. Onların borcudur böylə etsinlər.

Qazax qəzasına gəlincə, orada qabaqkı binizamlıq, pozğunluqdan nə qədər məyus idiksə, şimdi yaxşı əhvallar gəldiyindən də o qədər məmnun oluruz. Fəqət hökumətə təşəkkürlər yazmaqdansa, camaata həmişə böylə yaxşı dolanmağı nəsihət etmək və anlatmaq övladır [yaxşıdır]. Hökumət camaat ilə iş görür. Camaat saleh olduqca hökumətin də, vətənin də, millətin də işi gündən-günə yaxşılaşar.

**"10 nəfər iranlı" imzası ilə yazan əfəndilərə:** Tazəşəhərdə tutulan mallar haqqında yazdığınız pək haqlıdır, fəqət o xüsusda İran konsuluna müraciət etmək lazımdır. Qəzetədə yazmaqla bir fayda əldə edəmməzsiniz. Azərbaycan Hökumətinin köməyi lazım və mümkün isə onu da konsul vasitəsilə istərsiniz.

**İtibdir**

Qurban Qənbər oğlu Zeynalovun Zaqafqaziya şeyxülislamı tərəfindən 10 noyabr 1904-cü ildə [verilən] 2740 [nömrəli] metrik şəhadətnaməsi itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5469*

**Satılır**

Quba şəhərində ev satılır. Adres: Staroposeyski küçə, nömrə 4. Ağayanın mənzili, 3-cü mərtəbə.

*5470*





**İtibdir**

Abbasqulu Zamanovun Ordubaddan aldığı pasportu itib. Etibardan saqitdir.

*5467*

**İtibdir**

Əli Cəbrayıl oğlu Muxtarovun 2-ci polis idarəsindən aldığı pasportu itib. Etibardan saqitdir.

*5466*

**İtibdir**

Süleyman Cavadzadə Ağakərimovun Bakı Meşşanski Upravadan aldığı pasportu və Maarif Nəzarətindən verilmiş 1204 nömrəli şəhadətnaməsi itib. Etibardan saqitdir.

*5468*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor**
**M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Maliyyə Nəzarəti**
**Elan**

səh. 455. "Azərbaycan Dövləti Əmanət Sandıqları və Xırda Etibar İdarəsi": buradakı "Dövləti" sözü "dövlətə məxsus" kimi başa düşülməlidir. Yəni qurumun adı bütövlükdə, Azərbaycan dövlətinin "Əmanət Sandıqları" kimi yox, Azərbaycanın "Dövlət Əmanət Sandıqları" kimi anlaşılmalıdır.

**Teleqraf xəbərləri**

səh. 456. "T. B.": qəzetdə səhvən "K. B." getmişdir; "Tautas Balss" adlı latış qəzetinin baş hərfləri kimi "T. B." olmalıdır. "Tautas Balss" [Tautas Balss]: (Xalqın səsi) Latviyanın şimalındakı Valka şəhərində 1919-cu iin aprelindən sentyabrına qədər nəşr edilmiş gündəlik ictimai-siyasi, ədəbi qəzet idi. Latış dilində nəşr edilirdi. Latviyada eyni adda daha sonra da (1921-1922 və 1942-ci illərdə) qəzet nəşr edilmişdir.

səh. 457. "Seym": İkinci Polşa Respublikasının qanunverici orqanı.

**Qərbi Avropada**
**ticarət nə haldadır?**

səh. 459. "Rusiyanın İtaliyaya məmulati-hərbiyyə sifariş eyləməsi": qəzetdə "məmulati-hərbiyyə" [hərbi mallar] yerinə "əməliyyati-hərbiyyə" [hərbi əməliyyat] getmişdir.

**Qars əhvalı**

səh. 460. "humbapet": ermənilərin silahlı quldur dəstələri; Türkiyə ərazisində və Qafqazda müsəlman türk əhaliyə qarşı qırğınlar törətmişlər.

**Türk irq birliyi ilə yaşamış,**
**öylə də yaşamalıdır**

səh. 462. "Kartacalılar": Aralıq dənizi hövzəsinin qərbində yaşamış və əsasən Şimali Afrikada, müasir Tunis ərazisində mövcud olmuş qədim Karfagen dövlətinin sakinlərindən ibarət olan karfagenlər nəzərdə tutulur.

"kəldanilər" (yaxud xaldeylər): eramızdan əvvəl Mesopotamiyanın cənubunda yaşamış tayfa; Aramilərin bir qolu.

"ənqavari": "Ənqa" əfsanəyə görə Qaf dağında yaşayan bir quşun (Simurq quşunun) adıdır; bu quşu görmək demək olar ki, mümkün olmadığından, ədəbiyyatda ənqa, adı olub özü olmayan şeylərə deyilir.

"Sardanapal": Assuriyanın mifoloji kralı.

səh. 463. "Turan": İstanbulda 1914-cü ildə nəşr edilmiş kitab. Müəllifi "Təkin" kimi qeyd edilmişdir. Bəzi araşdırıcılar "Təkin"in Türkiyədə yaşamış yəhudi əsilli yazıçı və filosof Munis Təkinalp olduğunu iddia etsə də, bu iddia isbat edilməmişdir.

"Venedik dənizi": Adriatik dənizinin şimalındakı Venetsiya körfəzi nəzərdə tutulur.

"İndus": Cənubi Asiyanın böyük çaylarından Hind çayı nəzərdə tutulur.

"Mavəraünnəhr": Mərkəzi Asiyada tarixi-coğrafi bölgə. Bu termin əvvəllər Amudərya çayının sağ sahilini ifadə edirdi. Sonra isə Amudərya ilə Sırdərya çayları arasındakı ərazini ifadə etməyə başlamışdır.

"Bretonlar" [Bretons]: Fransanın şimal-qərbində yaşayan xalq.

"Qibtilər": Misirdə yaşayan xristian xalq; koptlar.

"Bərbərlər" (yaxud bərbərilər): Şimali Afrikanın yerli xalqı; müsəlmandırlar.

"Morolar": Afrikanın şimal-qərb sahilində yerləşmiş qədim Mavretaniya ölkəsinin əhalisi olan mavrlar nəzərdə tutulur.

"Ogüst": I Roma imperatoru Oktavian Avqust nəzərdə tutulur.

səh. 464. "Məşriq": Orta əsrlər ərəb coğrafiyaşünaslarına görə, Hindistan və Çin də daxil olmaqla "Şərq ölkələrini" ifadə edirdi; hal-hazırda isə Aralıq dənizi ilə İran arasındakı ərəb ölkələrini ifadə edir.

"Məğrib": Orta əsrlər ərəb coğrafiyaşünaslarına görə, Şimali Afrikanın Misirdən qərbdə qalan əraziləri.

"Sind": hal-hazırda Pakistanın əyaləti.

"Maçin": Çində tarixi bölgə; Mancuriya.

"Venedik körfəzi": Adriatik dənizinin şimalındakı Venetsiya körfəzi nəzərdə tutulur.

"Şarlken, Süleyman və Napoleon": Müqəddəs Roma imperatoru V Karl, Osmanlı padşahı Qanuni Süleyman (I Süleyman) və Fransa imperatoru I Napoleon nəzərdə tutulur.

"Paviyada ucalan qalibiyyət nəfirinin əks-sədası": İtaliya müharibələrinin (1494-1559) gedişatında ən vacib döyüşlərdən biri 24 fevral 1525-ci ildə İtaliyanın şimalındakı Paviya şəhərində baş vermiş və Müqəddəs Roma İmperiyasının imperatoru V Karlın ordusu bu döyüşdə fransızlar üzərində böyük zəfər qazanmışdır.

"Zigətvar qabağında çalınan kusi-zəfər": Osmanlı padşahı I Süleymanın (Qanuni Süleymanın) son hərbi yürüşü olan və zəfərlə başa çatan Zigətvar mühasirəsi nəzərdə tutulur. Osmanlılar Zigətvar qalasını 8 sentyabr 1566-cı ildə tutdular, ancaq müxtəlif xəstəliklərdən əziyyət çəkən Qanuni Süleyman bu zəfərdən bir gün əvvəl – 7 sentyabrda öldü.

"Ostriçdə gülən pürnur günəş": Üçüncü Koalisiya müharibəsinin gedişatında, Napoleon ordularının anti-fransız koalisiyası qoşunlarıyla 2 dekabr 1805-ci ildə baş tutan döyüşü nəzərdə tutulur. Austerlits şəhəri (hal-hazırda Çexiyanın cənub-şərqindəki Slavkov-u-Brna) yaxınlığında baş tutan döyüş fransızların qəti qələbəsi ilə başa çatdı və Üçüncü Koalisiyanın dağılması ilə nəticələndi.

"Şönburnn": Avstriya imperatorlarının yay sarayı. Vyana şəhərinin qərb hissəsində yerləşir. Fransa imperatoru Napoleon 1807 və 1809-cu illərdə iki dəfə sarayı tutmuş və orada yerləşmişdi.

"Üçüncü Fridrix Vilhelm Tilzitdə nəhr kənarında əmr bəklərkən...": 1807-ci ilin iyun ayında Rusiya imperatoru I Aleksandrla Fransa imperatoru Napoleon Tilzit şəhərində, Dördüncü Koalisiya müharibəsi sonrasında sülh müqaviləsi imzalayırdılar, bu müharibədə Rusiya ilə eyni tərəfdə Napoleona qarşı savaşmış Prussiya kralı III Fridrix Vilhelm isə sülh müzakirəsinin nəticəsini gözləyirdi.

səh. 465. "Risorcimento" (il risorgimento): lüğət mənası: diriliş, yenilənmə. XIX əsrin ortalarında İtaliyada milli azadlıq hərəkatını və İtaliyanın birləşdirilməsi uğrunda mübarizəni ifadə edən tarix termini.

"Millət eyni irq və adətə...": qəzetdə "millət" yerinə "milliyyət" getmişdir.

**Bir xanımın şikayəti**

səh. 468. "Lemnos adasının Limna şəhərində...": qəzetdə belə getmişdir; Ə. Ağaoğlu əvvəlcə Lemnos (türk mənbələrində Limni) adasının Mudros qəsəbəsinə sürgün edilmiş, daha sonra oradan Malta adasına aparılmışdır.

səh. 469. "ən ufaq bir təşəbbüsə": qəzetdə "ufaq" sözü təhrif edilmişdir.

"O Allah ki": qəzetdə təhrif edilmiş, "Ondan ki" şəklində getmişdir.

**Vedibasar hadisəsi ətrafında**

səh. 469. "Böyük Vedi və Naxçıvan rayonlarında hamı müharibə hərəkatı": qəzetdə "Böyük Vedi" adı təhrif edilmişdir.

**Bakı xəbərləri**

səh. 471. "Rüşdiyyə və edadilər": rüşdiyyə məktəbləri təhsildə ibtidai siniflərdən sonrakı mərhələ; edadi məktəbləri isə rüşdiyyədən sonrakı, universitetdən əvvəlki mərhələ kimi başa düşülməlidir.

səh. 472. "Birja Komitəsi": qəzetdə "Birja Komissiyası" getmişdir.

səh. 473. "Verxni-Priyutski": Bakıda, indiki Şamil Əzizbəyov küçəsi.

**Satılır**

səh. 476. "Staropoliseyski": Bakıda, indiki Yusif Məmmədəliyev küçəsi.





**Cümə, 25 iyul 1919-cu il, nömrə 234**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 26 şəvvalül-mükərrəm sənə 1337. 25 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bakı, Şamaxı və Göyçay Müəllimlər İttifaqının idarəsi bununla ümuma elan edir ki, cümə günü təmmuz ayının 25-də gündüz saat 10-da Bakı Birinci Realnı məktəbinin mülkündə Mart hadiseyi-əliməsi və sonralıq məmləkətimizdə hökmran olan xəstəliklərdən vəfat edən **müəllim və müəllimə** əfəndilərin istirahəti-ruhu üçün əza məclisi tərtib ediləcəkdir.

*5472*

## OPERA
**Hökumət Teatrosunda**
**Axşam tamaşası**

Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının müdiriyyəti
Cğmə günü, şəvvalül-mükərrəm ayının 26-da (iyul ayının 25-də 1919-cu ildə) mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
Üzeyir bəyin məşhur
**"Aşıq və Kərəm"** operası.
Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

## SİRK "MODERN"

Cümə günü iyul ayının 25-də, 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəm-məl surətdə vücuda gətirilmiş fransız güləş mübarizəsinin 27-ci günü 1919-cu ilin məşhur "Cahan Pəhləvanı" namı və Azərbaycan fəxri şarfı və 30 min manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1) Gənc Əli İbad - Pavel Zakroyko; 2) Revanş mübarizəsi Makarov - Ferdinand Svaboda; 3) Kalişeviç - Krayevski.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*5471*

## QİSMİ-RƏSMİ
**[RƏSMİ HİSSƏ]**

**Ticarət, Sənaət və Ərzaq Nəzarətindən**

*Əmrnamə nömrə 114*

16 iyul 1919

Həmin sənəsi iyulun 16-dan mühəndis Poliyan İosifoviç Yurkovski xidmətə götürülüb Ticarət, Sənaət və Ərzaq Nəzarəti nəzdində agentə təyin edilir.

*Əmrnamə nömrə 115*
16 iyul 1919
Nəzarət nəzdində olan xüsusi işlər kiçik məmuru V. V. Bezladnov xidmətə gəlmədiyindən iyulun birindən xidmətindən əzl [kənar] edilir.

*Əmrnamə nömrə 116*
16 iyul 1919
§1
May ayının 15-də Nəzarət tərəfindən 91 nömrəli verilən əmr mövcibincə [əmrə əsasən] Nəzarət xidmətçiləri ştatı ixtisar edildiyinə görə, həmin sənəsi avqustun birindən etibarən Ticarət, Sənaət və Ərzaq Nəzarəti dəftərxanasının kargüzarı Fyodor Fyodoroviç Qartonq xidmətindən əzl edilir.
§2
Xalq Təsərrüfatı Şurası işlərinə baxan Təsviyə Komisyonunun [Ləğvetmə Komissiyasının] Təsərrüfat şöbəsi müdiri S. P. Palşeviç həman komisyonun ştatı ixtisar edildiyinə görə, həmin iyul ayının 8-dən xidmətindən əzl edilir.

*İmza etdi:*
*Ticarət, Sənaət və Ərzaq naziri*
*A[ğa] Əminov*
*Əslinə mütabiqdir.*
*Kargüzar müavini:*
*S. Məhəmmədyarov*

**Məşixətdən**
*Nömrə 1503*
İdareyi-Məşixət [Şeyxülislamlıq İdarəsi] müvəzzesi [sənəd və məktub paylayanı] Qulam Məhəmmədzadə səneyi-hazirə [bu il] 19 təmmuzdan etibarən vəzifəsindən istefa vermişdir.

*Məşixət sədri:*
*[Axund Ağa] Ağəalizadə*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqrafı)*

**Bolşeviklər şərq cəbhəsində**
Uralsk rayonunda Quryev cəbhəsi boyu bolşeviklərin hücumu davam edir. Çelyabinsk rayonunda Çebarkul istasyonu alındıqdan sonra düşmən dəmiryol boyu təqib edilməkdədir. Bolşevik əsgərləri Yekaterinburq-Çelyabinsk dəmiryolundan 5 verst kənara çəkilmişlərdir. Bolşeviklər Arqayaş istasyonuna yaxınlaşırlar. Yekaterinburq rayonunda, Tümen dəmiryolunda, Yeqorşinonun 25 verstliyində bolşevik əsgərləri Klinskaya xəttinə çıxmışlardır.

**Ukrayna cəbhəsində**
Kamenets-Podolski səmtində Ukrayna əsgərləri Vapnyarka istayonunu tərk etmişlərdir. Vapnyarka istasyonunun 15 verst cənub-şərqində Çebotarka istasyonu işğal edilmişdir.

**Dabravolların vəhşiliyi**
İyulun 21-də Kamışindən xəbər verirlər ki, Denikin dəstələri Kostevkanı işğal etdikdən sonra əhalini qarət eyləməyə başlamışlar. Saldatlar sərxoş olub arvadların namusuna təcavüz etmişlərdir. Zabitlər xeyli fəna rəftar edirlər. Bir neçə arvad asılmışdır. Əhval inqilabcuyanədir [inqilab halı var].

**Polşada torpaq məsələsi**
İyulun 21-də Parisdən xəbər verirlər ki, Polşa Seymi Polşada olan böyük mülklərin xırda mülkədarlar nəfinə [xeyrinə] verilməsi tərəfdarı olduğunu izhar etmişdir.





**Bolqariyada inqilab hərəkatı**
Odessadan xəbər verirlər ki, Bolqariyada inqilab hərəkatı artmaqdadır. Bolqariya fəhlə və kəndlilərinin hüsn-təvəccöhü Bolqariya kommunistləri tərəfindədir. Xalq Şurası seçkiləri münasibətilə Bolqariyada sosialistləri incidirlər. Hürriyəti-kəlam [söz azadlığı] yoxdur. İctima [yığıncaq] və təşviqat qadağan edilmişdir.

**Amerika maryaklarının tətili**
İyulun 20-də Vıborqdan teleqraf edirlər ki, iyulun 16-da Nyu-York limanlarında maryakların tətili başlanmışdır.

Roma - Məbus Martini və digər məbuslar Parlaman intixabatında [seçkilərində] arvadlara haqqi-intixab [seçmək haqqı] verilmək xüsusunda Parlamana bir qanun layihəsi idxal eyləmişdir.

Bern - Etilaf [Antanta] nümayəndələri İsveçrə hökumətinə məlum etmişlər ki, abluka [blokada] ilə mal ixracının məhdudlanması ləğv edilmişdir.

Roma - İtaliya Məclisi-Məbusanı intixabat işlərində islahat məsələsinin müzakiratında davam edir. Versal sülh müahidənaməsi [sazişi] əleyhinə iyulun 20 və 21-də gözlənilən tətili-ümumi münasibətilə bütün şəhər polislərinə əmr verilmişdir ki, o gün heç yerdə nizam pozulmasın. Əmrnamədə denilir ki, müsadimədən [toqquşmadan] və təcavüzdən çəkinməlidir, fəqət tətilçilər tərəfindən ediləcək hər növ təcavüzün qabağı alınmalıdır.

Paris - "Jurnal" yazır ki, Almaniyada bir fransız saldatının qətl edilməsinə görə məqtulun [qətl edilənin] ailəsi nəfinə [xeyrinə] 100 min frank tələb edilir. 1 milyon frank da fransız hökuməti ixtiyarına verilmək üzrə cərimə istənilir.

**Xarkovda**
Kiyev - Xarkovda bahalıq həddini aşmışdır. Camaatı cəbrən silah altına dəvət edirlər. Kontr-razvedka agentləri əmələ məhəllələrinə soxulub bolşevikləri axtarırlar. Hər gün külli həbslər icra edilir. Məhbuslar haraya isə aparılıb bir daha qayıtmayırlar. Denikinçilərin təcavüzü o qədər artıqdır ki, bir çox əmələlər [fəhlələr] öz evlərini, şeylərini buraxıb şəhərdən qaçırlar. Əmələlərin əksəri dabravollardan narazıdır. Denikinçilərin təcavüzünə qarşı əmələlər də fəaliyyətə başlamışlardır. Şəhər ətrafında səhərlər Denikin saldatlarının meyitləri tapılır. Şəhərdə sağ kadetlər iş görürlər. Menşeviklər edam və dəhşətə [terrora] qarşı protesto etdikdən sonra şəhər duması buraxılmışdır. Şəhərə tərəf bolşeviklər yürüş etdikləri üçün dabravollar arasında son günlərdə həyəcan vardır.

**Kronştadt yanında**
Yekaterinodar - "Kavkazski kray" qəzetəsinin yazdığına görə, Baltik dənizində 7 dənə bolşevik gəmisi ingilislərə təslim olmuşdur. Hal-hazırda Kronştadt atəş altındadır.

İstanbul - Parisdə müntəşir [nəşr olunan] "İnformasiya" qəzetəsinin xüsusi müxbiri Londondan teleqrafla xəbər verir ki, bir çox əlamətlərdən anlaşıldığına görə, bolşevik donanmasının bir hissəsinin təslim olmaq zamanı yaxlaşır. Estoniyanın hərbi məmurları Kronştadtın təslimini tələb edirlər.

- Atinadan verilən xəbərlərə görə, Aydın yanında qızğın müharibə davam edir. Türklərin bütün qüvvəti şəhəri almağa sərf edilmişsə də, fəqət müvəffəqiyyətsiz olub şəhəri işğal edəmməmişlərdir. İzzət paşa və Mərdan paşa ləvazimati-hərbiyyəni cəm eyləmişdir. Mustafa paşa Sultana teleqraf eyləmiş ki, Sultana sadiq qalır, fəqət hökuməti təsdiqdən imtina edir.

- Londondan verilən xəbərlərə nəzərən, Bolqariya sülh müahidənaməsi iyul ayının 16-da iadeyi-xəsarət [ziyanın ödənilməsi, kompensasiya] komisyonuna verilmişdir.

**Erzberqerin bəyanatı**

Londondan xəbər verilir ki, Erzberqer öz nitqlərinin birisində Milli Məclisə məlum eyləmişdir ki, o, kapital və mədaxilə böyük vergi qoymaq istəyir, vergilər çox artıq olmalıdır.

**Ukraynalıların protestosu**

Müttəfiq dövlətlər tərəfindən Kolçak hökuməti təsdiq edilməsi münasibətilə Ukrayna sülh mürəxxəsləri [nümayəndələri] Sülh Konfransı sədrinə bir müxtirə [rəsmi müraciət] vermişlər. Müxtirədə böylə denilir:

Müttəfiq dövlətlər Kolçak, Denikin, Finlanda, polyak və Romaniyaya hər növ müavinət etdikləri bir zamanda hər bir müavinətdən məhrum olan Ukrayna qoşunları bolşeviklərin əleyhinə yalnız başına müharibə etməklə bərabər, özünün qərb tərəfindəki sərhədini də qonşularının təcavüzündən müdafiə etməlidir. Dövlətlərin beş nümayəndəsi tərəfindən Kolçaka göndərilən teleqramda Ukraynadan heç bir söz danışılmayır. Ukrayna Cümhuriyyəti sülh mürəxxəsləri Sülh Konfransından təvəqqe edir ki:

1) Ukrayna Cümhuriyyəti bilatəxir [dərhal] müstəqil bir dövlət olmaq üzrə təsdiq edilsin.

2) Şimdiki Ukrayna Direktoriyası təsdiq edilsin.

3) Bolşeviklərə və anarşiyə qarşı hərb edən Ukrayna qoşunlarına müavinət edilsin.

**Yunan istilası**

Novorossiysk - Yunan istilası xüsusunda “Təsviri-əfkar” qəzetəsi yazır:

Müttəfiq dövlətlərin nümayəndələri Babi-alinin notasını öz hökumətlərinə göndərmişlərdir. Bu notada Türkiyə Hökuməti Müttəfiqlərdən təvəqqe edir ki, gündən-günə vüsətlənməkdə olan yunan istilasının qarşısına sədd çəksinlər. Yunan qoşunları hər gün Türkiyə torpağını zəbtdə davam edirlər. Notada əlavə edilir ki, Osmanlı qoşunlarına əmr verilmişdir ki, əldə silah olaraq Türkiyə torpağını müdafiə etsinlər. Deməli, bundan sonra yunan qoşunları yenə Türkiyə torpağından zəbt edəcək olarlarsa, türk əsgərləri onlara qarşı hərb edəcəkdir. Müttəfiqlərin nümayəndələri bəyan etmişlər ki, Yunanıstanın istila məntəqəsi məhduddur. Yeni xəritə nəşr edildikdən sonra bu barədə rəsmi elam olacaqdır [bildiriləcəkdir].

Qəzetə əlavə edir ki, bizim Paris nümayəndələrimiz bu xüsusda Müttəfiqlər qarşısında təşəbbüsdə bulunurlar.

“Ələmdar” qəzetəsinin rəvayətinə görə, Müttəfiqlər Atina [Afina] Kabinəsinə məlum etmişlər ki, yunanilər üçün təyin edilən istila məntəqəsini saxlamalıdırlar, yəni təyin edilmiş məntəqədən o tərəfə keçməməlidirlər. Bu münasibətlə yunanilər Türkiyə torpağında bir neçə mühüm yerləri təxliyə ilə türklərə təslim etməlidirlər.





**Klemansonun bəyanatı**

Yekaterinodar - Havas agentəliyi xəbər verir ki, Klemanso Fransa Parlamanının üzvləri ilə xüsusi surətdə müsahibə edərkən demiş ki, siz çox da şad olmayınız. Zira az bir qüvvə tərxis edilmişdir. Müharibə hələ qurtarmamışdır. Şərq məsələsi hələ həll edilməmişdir. Bolqariya və Türkiyə müqəddəratı hənuz həll edilməmişdir. Hələ Sülh Konfransının 6 ay, ola bilər ki 12 ay işi qalmışdır və bu müddətdə dövlətlər hərb halında qalacaqlardır. Fransa bayraqlarının Almaniyada yandırılması mütarikəni xələldar eyləmişdir [atəşkəsi pozmuşdur]. Lehistan sərhədində almanlar həqiqətən də müharibə edirlər. Ona görə də hal böylə ikən qoşunları tərxis etmək olmaz.

## QƏZETƏLƏRDƏN

Tsaritsın - Admiral Kolçak qoşunlarına mül-həq olmaq [qoşulmaq] üçün Volqa təriqi [yolu] ilə general Ulaqayın dəstəsi göndərilmişdir.

**Komissarlar**

Tsaritsın süqut edən zaman maliyyə komissarı Litvinenko top zavodunun kassasını aparmaq istəmişsə də əmələlər tərəfindən qətl edilmişdir. Vladiqafqaz dəmiryolunun komissarı 7 milyon manat pul ilə qaçmışdır.

**Sibiryada üsyan**

Moskva - Əqsayi-Şərqdən [Uzaq Şərqdən] vətəndaş müharibəsi Zabaykal oblastına da keçmişdir. Ufada nəşr olunan dabravol qəzetəsi yazır ki, bolşeviklərin birinci dəstəsi Kalqa yanında görünmüşdür. Eyni zamanda Sibirya bolşeviklərinin digər dəstəsi Aleksandrovsk zavodunu işğal etmişlərdir. Bolşeviklərə əmələlər və kəndçilər müavinət edirlər.

Kiyev - “Əxbar” [“İzvestiya”] qəzetəsində Rakovski yazır ki, cahangir hökumətlərinin qarşısında iki yol var: ya yaxın iki-üç ayda bizi tamamilə məhv etməli, yaxud bizimlə sülh etməlidirlər. Şimdiki vəziyyət artıq davam edəmməz.

**Yekaterinoslavda**

Bu günlərdə Yekaterinoslavdan varid olmuş [gəlmiş] R. namında mühəndis Yekaterinoslav əhvalından zeyldəki [aşağıdakı] məlumatı verir:

Yekaterinoslav şəhəri dabravolların “Volçya sotnya” dəstəsi tərəfindən işğal edilmişdir. Dabravollar şəhərə girən kimi öz vəzifələrini ifaya başlamışlardır. Yəni yəhudi talanı başlamışlar ki, tam 6 gün çəkmişdir. Qayət vəhşiyanə bir surətdə heç bir qəbahəti olmayan şəhər əhalisini öldürmüşlər. Bunlar qarət və talanda bulunub arvadların ismətinə təcavüz edirdilər. Yəhudilər tərəfindən seçilmiş olan heyət general Şkuronu görmək istəmişdir. Şkuronun acudanı [adyutantı] onları qəbul etmişdir. Yəhudilər təşəbbüsdə bulunmuşlar ki, yəhudi qırğını dayandırılsın. Acudan isə “Sizə böylə lazımdır” deyə cavab vermişdir. Sabahı günü general Şkuro əhvalatı bilib həman heyəti dəvət etmiş və üzr istəmişdir və əlavə etmişdir ki, talanın qabağını almaq üçün tədbirlər

ittixaz edəcəkdir [tədbirlər görəcəkdir]. General Şkuro bunu da əlavə eyləmişdir ki, "Volçya sotnya" dəstəsi bədəxlaqlardan təşkil edilmişdir. Ona görə də birinci günlərdə qətl-qarətin qarşısını ala bilməmişdir. Həqiqətən də general Şkuro öz dediyinə əməl edib, talan yatırılmışdır.

Ravi [rəvayət edən şəxs] vağzalda ikən dəhşətli top atışması gəlirmiş. Şəhərin bir neçə verstliyində kazaklarla Şura qoşunları arasında müharibə gedirmiş. Rostova gəldikdə Yekaterinoslavın təzədən bolşeviklər tərəfindən alındığı haqqında bir teleqraf alınmışdır. Mühəndis bunu da əlavə edir ki, Rostovdan Bakıya gələrkən qəzetələri sərnişinlərdən yığırmışlar. Görünür ki, beləliklə həqiqəti-əhvalı gizləmək istəmişlərdir.

**Türkiyə Məclisi-Müəssisanı**

Vüzəra böhranı ilə Türkiyənin daxili və xarici işləri ağır olduğu münasibətilə "J. O." qəzetəsinin iyulun 1-də verdiyi xəbərə görə, siyasi dairələrdə Türkiyə Məclisi-Müəssisanının dəvət edilməsi məsələsi qaldırılmışdır.

**İngilislər şimalda**

Yekaterinodardan xəbər verirlər ki, Olenets cəbhəsində mayor Tavilin alayı Murman dəmiryoluna çatıb Petrozavodskdan şimala tərəf körpünü dağıtdıqdan sonra bir neçə kəndləri də işğal etmişdir.

**Avstriyada türklər**

İtaliya bayrağı altında İstanbula varid olmuş [gəlmiş] "Qaribaldi" paroxodunda Triestdən 10 nəfər türk tələbəsi, senator Əbdülhaq Hamid bəy, doktor Mədəni bəy və Avstriyada olan bir neçə türk mühacirləri varid olmuşlardır. Bir çox türk tələbələri pulsuz olduqlarına görə gələ bilməmişlərdir. İstanbula gələnlərdən birisi "Vakit" qəzetəsinin mühərririnə demişlər ki, Vyanada olan Türkiyə səfarətxanasının əsgəri attaşesi Rəfiq bəy 5 milyon kron pul ilə Vyanadan İsveçrəyə azimət eyləmişdir [yola düşmüşdür]. Fəqət Hüseyn Hilmi [paşa] işə müdaxilə edib onu qaytarmış, pulları zəbt edib və özündən də Vyanadan çıxmamağa imza almışdır.

**Trakyada**

İstanbuldan Trakyaya [Frakiyaya] xüsusi bir komisyon göndərilmişdir. Komissiyaya mühəvvəl edilmişdir [tapşırılmışdır] ki, Trakya xüsusunda Yunanıstan ilə Türkiyə arasında olan mübahisəli məsələni həll etsinlər.

**Hacı-Tərxanda**

Yekaterinodardan xəbər verirlər ki, Hacı-Tərxan İcraiyyə Komitəsi Volqa ilə aparıla biləcək gəmilərin Hacı-Tərxandan çıxarılması haqqında əmr vermişdir. Hacı-Tərxandan çıxmaq qadağan edilmişdir. İcazəsiz şəhərdən çıxanlar ölüm cəzasına giriftar edilirlər.

**Krasnovodskun təxliyəsi**

İyulun 16-da "Merkuri" paroxodu Krasnovodskdan Petrovska getmişdir. Bu paroxodla Türküstan Hökumətinin Ədliyyə, Poçt-Teleqraf, Ərzaq Nəzarətləri xidmətçiləri və əsgəri məmurları ailələri getmişlərdir.

**Yaponiya və Amerika**

İstanbuldan xəbər verirlər ki, Yaponiya Hərbiyyə naziri Sibiryada Yaponiya əsgərləri ilə Amerika əsgərləri arasında ixtilaf





olması haqqındakı məlumatı təkzib etməklə bərabər bunu da etiraf edir ki, balaca bir ixtilaf olmuşdur. Lakin bu ixtilaf hal-hazırda yatırılmışdır.

**Konfransda Türkiyə məsələsi**

"Nor Aşxatavorun" rəvayətinə görə, Dördlər Şurası Türkiyə məsələsinin həllini təxirə qoymuşdur. O səbəbə ki, Vilson Türkiyə üçün bir ya çox mandat qərarı məsələsi xüsusunda Amerika senatının rəyini bilmək üçün möhlət istəmişdir.

**Vilson və Türkiyə**

Onlar Şurası Vilsonun xahişinə görə Türkiyə məsələsinin həllini təxirə salmışdır. Vilsonun bu xahişinin səbəbi budur ki, bu yaxınlarda Amerika Məclisi Senatı Amerikaya getmiş olan Türkiyə xüsusi heyətinin bəyanatını dinləyib qərar çıxaracaqdır. Bu çıxarılacaq qərar da Türkiyə məsələsini həll etməkdən ötrü Vilson üçün düsturüləməl [rəhbər] olacaqdır.

**Vyananın işğalı**

"N. T." qəzetəsi xəbər verir ki, Sülh Konfransı Şurası Vyananı işğal etməkdən ötrü iki İtaliya və bir fransız əsgəri firqəsi [diviziyası] göndərməyi təhti-qərara almışdır. Bu qərar macar əsgərlərinin Vyanaya cəm olmalarına mümaniət [maneçilik] göstərməkdən ötrü çıxarılmışdır.

- "Tribun of Çikaqo"nun Paris şöbəsinin məlumatına nəzərən, Asiyayi-Osmani [Osmanlı Asiyası] əvvəldə qəbul edilmiş qərara rəğmən bəzi hissəsindən başqa məntəqeyi-nüfuza təqsim edilməyəcəkdir [nüfuz məntəqələrinə bölünməyəcək]. Sultan hökmdar olmaq üzrə İstanbulda qalmalıdır. Bütün Avropa və Asiya Türkiyəsi idarəsi düvəli-müəzzəmə [böyük dövlətlər] hökumətləri arasında məntəqeyi-nüfuza təqsim edilmiş bir neçə hərbi hissələrdən başqa tamamilə 25 ilin müddətinə Cəmahiri-Müttəhidə [Birləşmiş Ştatlar] hökumətinə mühəvvəl [həvalə] ediləcəkdir. 25 il bitdikdən sonra Millətlər İttifaqı Türkiyənin müqəddəratını qəti surətdə həll edəcəkdir. Şu proqram Lloyd Corca məxsusdur. Vilson da buraya şərikdir.

**Yeni hökumət təşkili**

"Ç. M." qəzetəsi iyulun 17-də xəbər verir ki, yeni hökumət təşkili üçün Cənub-Şərq Konfransının müzakirə edəcəyi əsaslı qanunlar bunlardır: Don, Kuban, Terek müəssisələrdən intixab olunan [seçilən] nümayəndələri ilə, başqa oblastlar isə zemstvo [yerli özünüidarə qurumu] və şəhər nümayəndələri ilə iştirak edirlər. Denikin diktaturası etiraf [qəbul] edilir. Hökumət Şurası müşavirə orqanından ibarət olur. Kabinə rəisini Dövlət Şurası razılığı ilə general Denikin təyin edir. Don, Terek, Filimonov və Kubanski baş komandanlığı hüsn-təvəccöhlə bu qərarı qəbul etmişlərdir.

**Kadet firqəsi qətnaməsi**

Kadet firqəsi konfransında bolşevizmdən azadedici və yeni həyat bərpaedici diktaturanı təbrik qətnaməsi çıxarılmışdır. Bu qətnamə hökumət amalı bəsləyən ünsürləri köməyə dəvət edir.

## DAĞISTANDA

**Dağıstanda üsyan**

Dağıstanda başlamış olan üsyan gəldikcə şiddətlənməkdədir. İndiyə qədər

heç bir fəaliyyətdə bulunmayan Samur və Qaytaq-Tabasaran nahiyələri bu axır vaxt Teymurxanşura, Dargin və Qazıqumuq nahiyələrində olan hadisələrlə əlaqədar olaraq ciddi surətdə fəaliyyətə başlamışlardır. Hər yerdə könüllü əsgər cəm edilir. Bunlar hamısı müdafiyeyi-milliyyə komitəsi ixtiyarına verilir. General [Mikayıl] Xəlilov tərəfindən Məclisdə və Axtıda qoyulan nahiyə naçalnikləri Lvov-Kerenski hökuməti zamanında iş başında olanlarla əvəz edilmişlərdir. Dabravol ordusu dəstəsi Dərbənddən Samur və Tabasaran nahiyələri mərkəzlərini tutmaq istəmişsə də, müvəffəq ola bilməmişdir.

**Azərbaycan və dağıstanlılar**

Parisdə olan Azərbaycan və Dağıstan heyəti Sülh Konfransına xəbər vermişlər ki, bu iki dövlət arasında sərhəd münasibətilə ixtilaf yoxdur.

**Dağıstanlıların protestosu**

Dağıstan hökumətinin Xariciyyə naziri və Paris Sülh Konfransı üzvü Heydər Bammatov general Denikin tərəfindən müstəqil olmuş çərkəz və Dağıstan camaatı əleyhinə məhvedici müharibə başlaması münasibətilə Sülh Konfransı sədri Klemansoya, Vilsona, Balfur və başqa hökumət nümayəndələrinə protesto notası vermişdir. Vilsondan Amerika heyəti müdiri professor Lord vasitəsi ilə cavab alınmışdır. Bu cavabda Dağıstan əhvalının yüngülləşdiriləcəyi vəd edilir.

**Kubanda**

Kubandan gələnlər xəbər verirlər ki, Dabravol ordusu ərkani-hərbi [qərargahı] Kubandan köçürməyə hazırlıqlar görməkdədir. Bu qərar Ryabovolun qətlindən sonra Dabravol komandanlığı ilə Kuban Radası arasında münasibətın kəskinləşməsi nəticəsindən ibarətdir. Parisdən Rus Şurasının müəyyən təlimatı ilə varid olmuş olan [gələn] Kuban Radası üzvü [N. S.] Dolqopolov nifaqı daha da artmışdır. Dolqopolov tərəfindən verilən məruzədə qeyd edilmişdir ki, Dabravol komandanlığı başçılarının monarxiya tərəfdarı olmaları əcnəbi məmləkətdə yaxşı təsir buraxmamışdır. Dabravol əsgərləri Rostova və oraya yaxın rayonlara aparılırlar. Ərkani-hərb isə Xarkova köçürülür.

## İRANDA

**Bəxtiyarların üsyanı**

Neçə ay bundan əvvəl Bəxtiyar tayfaları tərəfindən İsfahanda hökumət əleyhinə başlanmış olan hərəkət hal-hazırda aşkar surətdə üsyan halına düşmüşdür. Əvvəlcə üsyançılar əleyhinə Bəxtiyarların məşhur başçısı Sərdar Əsəd ilə Sərdar Cədd başda olmaq üzrə cəza dəstələri göndərilmişdir.

Üsyançıların böyük qüvvəsi Qəsrcan kəndində olduğu müşahidə edilmişdir. Üsyançıların başçısı Cəfərqulu ilə Rza Cövzani də bu kənddə imişlər.

Hökumət əsgərləri komandanı ixtilafı sülh ilə bərtərəf etməyə [aradan qaldırmağa] çalışmışsa da, heç bir şeyə müvəffəq olmadığından üsyançılar əleyhinə müharibə hərəkatı açmışdır.

Neçə gün davam edən müharibədə üsyançılar hökumət əsgərləri hücumuna davam gətirəmməyib, 60 nəfər ölən və yaralı buraxmaqla geri çəkilmişlərdir. Üsyançıların başçısı Cəfərqulu və Rza Cövzani 22 nəfərlə bərabər naməlum yerdə qaçıb gizlənmişlərdir.

Üsyançılara bir nəfər Martin adlı erməni diş həkimi bomba verməklə kömək edirmiş. Bombaları həman erməni özü hazırlayırmış. Həman erməni tutulub xəyanət etdiyindən hamının gözü qabağında boğazdan asılmışdır. Onunla bərabər üsyançılarla əlaqədar olmaqda müttəhim edilən bir neçə başqaları da həbsə alınmışdır.

Hökumət əsgərlərinə külli miqdarda ləvazimati-əsgəriyyə və mühimmati-hərbiyyə, qızıl və başqa qiymətli şeylər və min rəs [baş] at çatmışdır. Bu şeylər hamısı Qəsrcan kəndində anbarlarda gizlədilmiş imiş. Müharibə əsnasında kənd dağılmışdır.

Gizlənmiş olan Bəxtiyar başçılarının təzədən üsyan qaldırmalarından ehtiyat edirlər. Ona görə hökumət əsgərləri komandanlığı tərəfindən tədbirlər görülməkdədir.

**Kürdüstan hadisələri**

Xoydan İran qəzetələrinə teleqraf edirlər ki, kürdlərin müsəlləh [silahlı] və qüvvətli dəstəsi Xoy üzərinə hücuma başlayıb, neçə gün bundan irəli şəhərin iki verstliyində imiş. Ətraf kənd əhalisi böyük ehtiyac içrədir. Çünki kürdlər onların var-yoxlarını əllərindən almışlardır. Şəhərin müdafiəsi üçün hökumət məmurları tərəfindən tədbirlər görülüb teleqrafla qüvvə istənilmişdir.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Səhhəti-Ümumiyyə nazirinin taun xəstəliyi ilə mübarizə layihəsi tərtibindən ötrü Azərbaycan, Gürcüstan, Ermənistan, Dağıstan baytariyyə təşkilatları nümayəndələri qurultayı dəvəti haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Səhhəti-Ümumiyyə nazirinə ağustosun 15-dək Tiflis və yaxud Gəncədə məzkur [deyilən] qurultayı dəvət etmək tapşırılsın.

- Rəisi-Vükəlanın [Baş nazirin] məxaric üçün kəndi ixtiyarına istiqraz açılmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan Rəisi-Vükəla ixtiyarına 500 min rubləlik bir istiqraz açılsın.

- Daxiliyyə nazirinin Bakı məclis və qəza idarəsi xidmətçilərinin məvaciblərinin verilməsi üçün 3745 manat 40 qəpik buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə Nəzarətinə işbu məsələ haqqında Vükəla Şurasına məruzə təqdimi tapşırılsın.

- Xariciyyə nazirinin müsəlmanların və onların əmlakı üzərinə yapılmış haqsızlıqları təhqiq üçün Fövqəladə İstintaq Komisyonu təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Xariciyyə nazirinin məruzəsi təsviblə [bəyənilməklə], Avropa müharibəsi başlanandan bu vaxtadək bütün Zaqafqaziyada müsəlmanlar əleyhinə yapılmış haqsızlıqları təhqiq üçün məzkur komisyonun təşkili tapşırılsın.

- Ədliyyə nazirinin Nəzarət cənbində [Nazirliyin nəzdində] yurist-konsulluq [hü-

quq məsləhəti şöbəsi] təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Ədliyyə nazirinin layihəsi rədd edilsin.

2) Hökumət İşləri müdirinə Ədliyyə naziri layihəsi üzrə bir qanunverici orqanın Hökumət İdarəsi cənbində açılması haqqında layihə tərtibi tapşırılsın.

- Xariciyyə nazirinin İstanbulda siyasi nümayəndəlik və İranda Tehran şəhərində böylə səfarət təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) İstanbula başda sabiq Ukrayna Hökuməti nəzdindəki siyasi nümayəndə Yusif bəy Vəzirov və heyətin maliyyə cəhəti müstəşarı sifəti ilə sabiq Nəzarət dəftərxanası müdiri Cahangir bəy Qayıbov olmaq üzrə bir heyət göndərilsin.

2) Tehranda İran Hökuməti nəzdində səfarət təşkili üçün xariciyyə naziri müavini Adil xan Ziyadxanov səfirliyə təyin edilsin.

- Xariciyyə nazirinin Gürcüstan Hökumətinin Bakıda konsulluğa Mikeladzenin təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Mikeladzenin təyin edilməsinə riza verilsin.

- Səhhəti-Ümumiyyə nazirinin rus qoşunları getdikdən sonra qalmış xəstəxanaların işlərinin təsviyəsindən [ləğv edilməsindən, tamamlanmasından] ötrü 814 min manat təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Səhhəti-Ümumiyyə Nəzarətinə:

1) Təsviyə pulları verilsin;

2) Qərbi Kaspi idarəsinə mənsub malları qəbuledici komisyona qəbul edilmiş malları yenidən təhqiq və verilən hesabatı tədqiq etmək, nəticə haqqında hökumətə məlumat vermək tapşırılsın.

- Ədliyyə nazirinin Ədliyyə Nəzarəti cənbində Ədliyyə Kütübxanası güşadı [açılması] üçün para təxsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan kütübxana tərtibi üçün Ədliyyə Nəzarətinə 50 000 manat verilsin.

- Səhhəti-Ümumiyyə nazirinin xidmətçiləri azaltmaq qəsdi ilə əzl ediləcək xidmətçilərə təsviyə parası vermək üçün məbləğ təxsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Bütün nazirlərə xidmətdən əzl edilən xidmətçilərə məvacibləri üzrə təsviyə parası verilmək tapşırılsın.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Ermənistana müvəkkil təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Dava vəkili Zülfüqar bəy Makinski Ermənistanda Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti müvəkkilliyinə təyin edilsin.

## BİR MİLYON İKİ YÜZ MİN MANATIN SAXTA KAĞIZLA APARILMASI

Təhərri [axtarış] polisə naçalniki Həsən bəy Fətalibəyov keçən aprelin 11-də "Kursk" paroxodundakı dabravol zabitlərinin yanlarında çoxlu para bulunduğunu və bunun Denikin ordusuna göndəriləcəyini xəbər alır və həman gün "Kursk" paroxoduna gedib məzkur [deyilən] zabitlərin əşyasını axtarır. Zabitlərin karzinkalarında, ciblərində üç para paketi tapar ki, hər birinin içində 400 min manat varmış. Paralarla bərabər, zabitləri də polisəyə gətirib bəratülqövl [protokol] yapar. Tutulan üç paketi zabitlərin iştirakı ilə sayar. Nəticədə bilinər ki, mövcud para 1 milyon 200 min deyil, 1 milyon 113 mindir. Çünki paketin biri axtarış vaxtında zabitlər tərəfindən cırılıb paranın bir miqdarı götürülmüş, buna görə bir paket 400 mindən əskik çıxmış.

Fətalibəyov müsadirə edilən paranın miqdarını və surəti-zəbtini [necə zəbt edildiyini] Bakı valisi Rəşid bəy Axundova raportla bildirər və paranın nərəyə göndəriləcəyini və nə tədbirdə bulunacağını sorar. Vali Rəşid bəy Axundov da bu para xüsusunda nə müamilədə bulunacağını həm [Xoyski] Fətəli xandan, həm də əvvəl vaxt Daxiliyyə naziri bulunan [Xəlil bəy] Xasməmmədovdan telefonla xəbər alar. Paranın xəzinəyə təslim edilmək lazım olduğu cavabı verilər.

Bunun üzərinə Rəşid bəy, Fətəlibəyova yazar ki, paranı doğrudan-doğruya götürüb xəzinəyə təslim etsin. Fətəlibəyov paranı düz xəzinəyə götürər və valinin möhürü ilə möhürləyib təslim edər.

Beş gün sonra, aprelin 17-də, gündüz saat 12-də ingilis zabiti qiyafətində biri Bakı valisi Rəşid bəy Axundovun yanına gələr. Cibindən bir kağız çıxarıb Rəşid bəyə verər. Kağız guya ingilis ştabı tərəfindən rusca yazılmış. Bu kağızla ayın 12-də hökumət tərəfindən müsadirə edilən paranın Dabravol ordusuna göndərilmək üzrə ingilis ştabına verilməsi tələb edilir.

Gələn kağız xırda poçt kağızı şəklindədir, nömrəsi yoxdur. İl tarixi 1919 yerinə, 1918 yazılmış. Karandaşla qol çəkilmiş. "Çesterfild" adında olan bu qolun ingilis papiros kağızları üzərindən kopya edildiyi möhtəməldir [ehtimal edilir]. Blankın yazısı pozuq, hərfləri müxtəlif və qeyri-müntəzəm, ştabın möhürü kağızın ucunda, möhür ilə yazı arasında 8-10 sətirlik yer var. Böylə möhür isə ingilis ştabının heç bir kağızında yox.

Vali cənabları böylə bir kağızı alan kimi o gün də paranı xəzinədən gətirdib vermək istər. Lakin o günü bayram olmaq münasibətilə xəzinə erkən qapandığından, paranın verilməsi bayram ertəsinə qalar. Tək və tərcümansız gələn və "net" ilə "xoroşo"dan özgə guya heç bir söz bilməyən bu hərifə ayın 23-də gəlməsi anladılar. O da gedər.

İngilis qiyafətlinin gətirdiyi kağız vali dəftərxanasında qalar. Aradan 7 gün keçər. Aprelin 23-də saat 12-də həmin zabit yenə gələr. Paranı istər. Vali bir saat sonra paranın gələ biləcəyini və o vaxta qədər istər divanxanada oturub bəkləməsini, istəsə gedib bir saat sonra gəlməsini təklif eylər. Zabit sonuncu təklifi qəbul edib gedər.

Vali cənabları Maliyyə şöbəsi müdiri Sosnini bir qaç mühafizə və avtomobil ilə xəzinəyə göndərər, paranı gətirtdirər. Para vali divanxanasına gələndən bir az sonra zabit də gələr. Paranın sayılması zabitə təklif edilər. Zabit "net" deyər və həman saymadan və qol çəkəcəyi rusca qəbzi əsla oxutmadan əcələ [tələsik] qol çəkər. Sandıq parasını təkcə adi faytona qoyub aparar.

Zabitin çəkdiyi qol yazısı 2-3 gündə öyrənilmiş ingilis yazısı olduğu bəlli.

Vali cənabları aprelin 18-23-ə qədər keçən 7 gün müddətində "Çesterfeld" adında ingilis polkovniki olub-olmadığını, milyon paranın verilməsi barəsində Baş vəkil [Baş nazir] və Daxiliyyə nazirindən telefonla qabaqkı kimi sormağı yadına gətirməmiş və ehtimal ki, lüzum görməmişdir. Mayın 14-ə qədər hər kəs bu paranı gərçəkdən ingilis ştabı zabitinin götürdüyü zənnində bulunur. O gün isə işin üstü açılır.

Mayın 14-də dabravol nümayəndəsi polkovnik Lazarev Baş vəkil idarəsinə gəlib müsadirə edilən paranı istər. Hökumət paranın 23 apreldə ingilis ştabı zabitinə verildiyini söylər. Lazarev ingilis ştabına gedib xəbər alar. Ştab isə paranın alınmadığını bəyan eylər və həman təhqiq üçün kapitan Hausla bərabər iki zabiti göndərər. Zabitlər vali dəftərxanasına gəlib təhqiqatda bulunarlar və anlarlar ki, ingilis zabiti paltarında bir aferist saxta blank və qol ilə 1 milyon 113 min manatı asanlıqla əlinə keçirib qaçmış. Qaçırılan paraların hamısı minlik Kerenski imişlər ki, indi bizim bon ilə 3 milyona yaxın eylər.

İştə, 3 milyon para üç qəpik və adi şəkilli kağızla zərrə qədər təhqiq edilmədən, kimsədən soruşulmadan üç qəpik kimi verilir və bu para indi İngilis Hökuməti tərəfindən Azərbaycan xəzinəsindən istənilir. Bu iş 10 gündən bəridir ki, Baş Mülkiyyə Müfəttişliyi tərəfindən təftiş edilməkdə idi. Aldığımız xəbərə görə, Baş müfəttiş dünən təftişatını qurtarıb raportunu Baş vəkilə təqdim eyləmişdir.

Bu məsələ ətrafında xalq arasında çox sözlər danışılıb qubernatorluq idarəsi başındakı məmur əfəndilərin adı çəkilməkdə olduğundan, Daxiliyyə naziri həzrətləri bu işi təhqiq üçün bir təftiş təyin etmişlər.

## MİLLİ VƏ MƏDƏNİ İŞLƏRİMİZ

### - 1 -
### Ümumi kütübxana

Bakıda ümumi bir kütübxana açılmasını qəzetələrdə oxumuşduq. Sonra bu məsələ unudulmuş kimi göründü. Halbuki kütübxananın bizim üçün o qədər əhəmiyyəti var ki, çoxdan bu yolda çalışmalı idik. Kütübxana açmaq bir o qədər də çətin iş deyil. Təşəbbüs olunsa, pulsuz belə bir çox kitablar toplamaq olar.

Ümumi kütübxana fikri birinci olaraq Kiyev "Müsavat" komitəsini düşündürdü. İl yarım əqdəm [qabaq] komitə Bakıda ümumi kütübxana təsisinə qərar verdi və min cildə qədər kitab ələ gətirdi. Kitablar iqtisadi, siyasi, ictimai və başqa məsələlərə aiddir. Avropalıların islam və türk aləminə olan nəzəriyyatlarına dair bir çox kitablar var. Fikir bu idi ki, kütübxananın bir qismi islam məsələsinə sərf edilsin və islama dair nə qədər əsərlər yazılıbsa, ələ gətirilsin. Təəssüf ki, inqilab bir çox maneələr təşkil etdi və kütübxanamız da Kiyevdə qaldı, Bakıya gətirə bilmədik. Bu gün bu məsələ genə önümüzdədir. Gələcəkdə də bizdən əl çəkməyəcəkdir. Bu gün bu məsələnin həllinə çalışmalıdır.

Milli işlərimizdə hər şeyi hökumətdən gözləməməlidir, xüsusi təşəbbüslər də lazımdır. Bu barədə Zəhmətkeş Ziyalılar İttifaqı işə girişməli idi. İttifaq bütün səyini kütübxana məsələsinə həsr etsə, böyük iş görər. Kömək üçün hökumətə müraciət olunsa, hökumət müzayiqə etməz, zənnindəyəm. Kitab ələ gətirmək üçün xaricdəki səfarətlərimizə və konsoloslarımıza müraciət edilsə, türk, fars, ərəb və Avropa dillərində qiymətli əsərlər ələ gətirmək olar. Bunları deməyə lüzum yoxdur. Kütübxana açmağa meyil olsa, yolu da tapılar. Meyilli adamlar bulunmalı.

Kütübxanamızın olmaması bizə çox zərərlər verir. Rusiyanın böyük şəhərlərində yaşadıqda və bir məsələ ilə maraqlandıqda o saat ümumi kütübxanaya gedirsən, səni maraqlandıran məsələlərə aid bir neçə cild kitab alıb çəkilirsən kütübxananın böyük salonuna. Nə lazımsa o kitablardan yazıb götürürsən. Bir şey yazmaq üçün nə məlumat lazım isə, asanlıqla almaq mümkündür. Bizdə isə böylə deyil. Bu günlərdə bu sətirləri yazana, bir qədər keçmiş yazıçılarımıza dair məlumat lazım idi. Şəhərdə kütübxana yox, şəxsi kütübxanam da yanımda deyil. Axırda bütün şəhəri ayaqlamaq məcburiyyətində qaldım. İştə, yazıçı üçün nə qədər müşkülat!

Hərgah milli fikrimizə, milli sözümüzə meydan verilmək istəyiriksə, tezliklə ümumi kütübxana açmalıdır.

*Yusif Vəzirov*

## KOKARDLAR VƏ MÖHÜRLƏR VƏ PAVESTKALAR

İstiqlalımız elan olunduğu gündən etibarən bütün müəssisələrimizin türkləşəcəyini hər kəs dörd gözlə bəkləyirdi. Paytaxtımızı bolşevik və daşnakların çəngalından [caynağından] xilas edən Osmanlı Ordusu Komandanlığı Azərbaycanımızı müvəqqətən işğal etdiyi sıralarda hökumət dairələrində Osmanlı Komandanlığı ilə əlaqədə bulunmaq üçün heç olmazsa bir tərcüman və yaxud türkcə bilir kiçik katib bulundurulurdu. Osmanlılar yurdumuzu tərk etdiyi gündən etibarən dəftərxanalarımız təzədən ruslaşmağa başladı.

İlk dəfə ən çox xalq dedi-qodusuna hədəf olan Hərbiyyə Nəzarəti oldu. Osmanlı zabitanının ordumuzda xidmət etməsinə imkan verilmədiyindən və yerli islam zabitlərinin sayı çox az olduğu üçün təşkil olunacaq ordumuz bir çox müəllim və təcrübəli zabitan və üməraya [əmirlərə, komandirlərə] möhtac idi. Hərbiyyə Nəzarəti istər-istəməz rus afiserlərini xidmətə alaraq, həmən [dərhal] əsgəri təşkilata şüru etdi [başladı]. Uzun müddət görüləcək təşkilat işini qüsurlu da olsa tamam edərək, türk qiyafəsində (uniformasında) türkcə təlim görmüş ordu meydana qoydu. Ordumuzun qitəatı [hissələri] Azərbaycanın müxtəlif nöqtələrində rəsmikeçid yaparaq dostları şad, düşmənlərimizi isə məyus eylədi. Nəcib millətimiz hərbi işlərimizin yoluna qonulduğunu gördükdə Hərbiyyə naziri həzrətlərinə və yardımçılarına qaibanə [qiyabi surətdə] məhəbbət bəsləyərək qəlbdən alqışladı. İştə böyləliklə, Hərbiyyə Nəzarəti feilən bütün dedi-qoduların önünü aldı.

Hərbiyyə Nəzarətindən başqa Posta-Teleqraf, Maarif Nəzarəti milliləşdirmək arzusu ilə ibtida kiçik təşəbbüsdə bulundularsa, ikmal etmədilər [tamamlamadılar]. Balada məzkur nəzarətlərdən [yuxarıda adları çəkilən nazirliklərdən] başqa sair nəzarətlər milliləşdirməyi ağıllarına belə gətirməyirlər.

Bu günə kimi məktəblərdən və hökumət dairələrindən verilən vəsiqələrə rus çarının qartallı möhürü basılaraq verilir. Nə qədər rəzalət! Müdirlərdən, hakimlərdən neyçin yeni Azərbaycan möhürü hazır etməyirsiniz deyə sual verdikdə, məəttəəssüf [təəssüf ki], o barədə hələ hökumətdən əmr yoxdur, cavabını alırız. Məsələni məktəblərin heyəti-tədrisiyyəsinin şurasına idxal etdikdə rus müəllimləri: Hələlik Azərbaycan təsdiq olmamış, gələcəyi bilmək olmaz, deyərək dübarə rus çarlığı hökuməti qurulacağına bütün varlıqları ilə iman etdiklərini andırırlar.

Pasılka pavestkalarının arxalarında "По указу Его Императорскаго Величества" [Əlahəzrət İmperatorun əmri ilə] sözlərin[i] oxuduqda qarelərin tükləri biz-biz olur. Çar hökuməti uniformasında kokardlı millətçi rus məmuru, rus lisanında, rus hökuməti və rəsmi möhürü ilə göndərdiyi dəvətnamələri, verdiyi qartal möhürlü vəsiqələri oxuyan Azərbaycan xalqı kəndini şaşırır.

Rus qanunları, rus möhürü, rus uniforması, rus dili, rus kokardları hökumətimiz dairələrindən atılmalıdır. Hər halda hökumət müstəcəl [təcili] surətdə məktəb idarələrindən və qeyri idarələrdən rus möhürləri qaldırılması üçün əmr verməlidir. Rus uniformaları, rus kokardı götürmək mən [qadağan] edilməlidir. Tabe olmayanlar hökumət xidmətindən dişarı atılmalıdır. Pasılka pavestkalarından imperator adını-filanı qaldırtmalı, dəvətnamələr-filanlar türkcə olmalıdır. Tezliklə Azərbaycan qanunu tərtib edərək lisani-rəsmimizi türkcə, ancaq türkcə etməliyiz.

İştə, balada [yuxarıda] yazdıqlarım xalq ağzından olan millət arzusudur. Arzularımıza gec də olsa əməl olunacağına ümidlə, hökumətin təşəbbüsatını dörd gözlə bəkləyiriz.

*İdris [Axundzadə]*

**NAXÇIVAN MƏKTUBATI**

**- 13 -**

Milli Komitədə Azərbaycandan göndərilmiş dörd yüz min manatın təqsim[i] [bölüşdürülməsi] və mühacirlərin halı düşünüldüyü zamanda, şəhərdə camaat beynində [arasında] məzkur [deyilən] para haqqında bir çox şayiələr dövran etməkdə idi.

Kimi söyləyirdi ki, bu pul beş milyon imiş, nisfini [yarısını] [Bayramov] Paşa bəyə və nisfini [Naxçıvanski] Bəhram xan cənablarına Azərbaycan Hökuməti Naxçıvan və həvalisi [ətrafı] zərərdidə və möhtaclarına təqsim etmək üçün təslim etmiş ki, o paranın həpsi Tiflisə qədər gəlmiş də, sonra İngilis Hökuməti mane olduğundan həpsi geri qaytarılmışdır.

Bir çoxları söyləyirlərdi ki, xayır, məzkur para üç və ya iki milyon imiş. Onun bir qədəri Tiflisdə qastinitsa [mehmanxana] sobasında səhvən yanmış, baqisi [qalanı] Bəhram xan əfəndi ilə İrəvana qədər gətirilmiş və İrəvan istasyonunda bir çox sıxıntı altında və [Məhəmməd] xan Təkinskinin hafizləri mühafizəsində iki-üç gün qalaraq, ol müddətdə erməni daşnak mauzeristlərindən xof və ehtiyat edərək milyon yarıma qədər nəzdində bulunan əmanəti bərayi-mühafizə [saxlamaq üçün]





xan Təkinskiyə təslim etmişdir. Sonra Naxçıvana gəlmədiyindən, geri övdət edib [qayıdıb] Bakıya getmişdir.

Sonki şayiənin mühəqqəq [gerçək] olduğu etibar kəsb etdi [qazandı]. Çünki Bəhram xanın İrəvan istasyonundan Əmirovun oğlu ilə bərabər (ermənilər Naxçıvana gəlmədən əvvəl) yazdıqları məktubun eynini Cəfərqulu xan cənabları Milli Şurada oxudu. Məzmunu böylə idi:

*"Dayı, mən min fəlakətlə İrəvan istasyonuna yetişdim. Tam üç gecədir ki, burada qorxudan yatammamışam. Hər dəqiqə bizi ölüm gözləyir. Erməni mauzeristləri Azərbaycan müməssilinin [təmsilçisinin; səfirinin] bizə verdiyi mühafizəçi əsgərlərinin gözləri qabağında bizi böylə vurub yıxmaq istəyirlər. Şimdi öylə bir haldayıq ki, [nə] yazacağımı bilməyirəm. Nəzdimdə böyük əmanət var idi ki, həpsini Naxçıvan qaçqınlarına təslim etmək üçün məxfi olaraq xan Təkinskiyə verdim. Artıq, həyata ümidim yoxsa da, amma erməni hökuməti bizi Naxçıvana nədənsə buraxmaqdan imtina etdiyindən, görünür ki, Tiflisə qayıdacağız. Naxçıvan müsəlmanlarına təbliğ ediniz ki, ingilislərlə mülayim və məhəbbətlə rəftar etsinlər. Yoxsa sonra fəna nəticələr meydana çıxar. Ermənilərin Naxçıvana gəlmələri doğru olsa, ailənizi Bakıya köçürsəniz, mənim də qız çocuqlarımı əlbəttə, Makuya aparınız. Rica edirəm."*

Bu məktubun məzmunundan əhalinin bir çoxlarına təskinülqəlb oldu. Para milyon buçuqmuş [milyon yarımmış] etibarında qaldı.

Mən də Naxçıvanı şimdiyə qədər ərz etdiyim halda qoyub vəsiqə alaraq Tiflisə gəlmək niyyətində oldum. O səbəbə, möhtərəm qarelərə bundan sonra "Yol xatiratım" sərlövhəsi ilə bir qaç məqalə yazaraq izahat verəcəyəm.

*Tamaşaçı*

**MƏTBUAT**

Bir məmləkətin yaşaması, tərəqqisi üçün hər şeydən ziyadə asayiş və müsalimət [əmin-amanlıq] lazımdır. Hanki millət öz məmləkətində nizam və asayişi möhkəm saxlarsa, qanun və ədaləti riayət edərsə, o millət müstəqil yaşamağa layiq hesab olunar. Biləks [əksinə], bir məmləkətdə şuluqluq, qətl, qarət, oğurluq və sair bu kimi nizamsızlıq hərəkətləri o millətin ləyaqətsizliyini, o hökumətin iş bacarmamasını isbat edər. Ona görədir ki, adətən bir millətin, bir hökumətin düşmənləri həmişə onun nizamsızlıq, hərcmərc, ədalətsizlik və pozğunluq əlaməti olan qüsur və nöqsanlarını axtarıb o vasitə ilə düşməni yıxmağa çalışarlar. Azərbaycanın daxili düşmənləri, dün hər qorodovoya "qospada" deyən türklərin bu gün müstəqil yaşadıqlarını çəkəmməyənlər hər vasitə ilə olur-olsun, hökuməti ləkələndirmək, milləti qabiliyyətsiz göstərmək və nəticədə "Azərbaycanlılar özləri-özlərini idarə etməyə müstəid [istedadlı] deyildirlər, kənardan bir hakim lazımdır" denilməsinə müvəffəq olub da, yenidən rus hakimliyi qurmaq arzusunda olanlar bu uğurda heç bir vəsilədən [vasitədən] geri durmayırlar.

Əzcümlə [o cümlədən], Bakı Rus Milli Şurasının naşiri-əfkarı [fikirlərini yayan or-

qanı] olan "Rossiya" qəzetəsi bu işdə çox səy edir. Məzkur [deyilən] qəzetə Azərbaycanda bir-iki quldurun çıxışından istifadə edərək burasını bir hərc-mərc, torpaq məsələsi üstündə iğtişaşı bolşeviklik, bilməm daha nə adlandırır. Məhəlli-aidini [aidiyyətli yerləri] inandırmaq istəyir ki, Azərbaycanda bolşeviklik kök salır, bolşevik ocağı olur. Rusca nəşr olunan "Azərbaycan" rəfiqimiz bunu təkzib edir. Azərbaycan[da] torpaq məsələsi üstündə heç bir təcavüzkaranə hərəkat olmadığını, mülkədarlarla əkinçilər arasında bu məsələnin sülh və ədalətlə həll edildiyini xəbər verir, bütün Azərbaycanda nizam, asayiş, sülh və müsalimət hökmfərma olduğunu [hökm sürdüyünü] göstərir. Nəhayət, "Rossiya"çıların bu şeyləri yazmaqla nə kimi məqsəd təqib etdiklərini bu surətlə təsvir edir:

*"Rossiya" (qəzetə) siyasətcə o qədər xam deyil ki, hökumətimizin bolşevizmə qarşı əlaqə və rəftarını bilməsin. Fəqət, "Rossiya"ya lazımdır ki, hər necə olur olsun, Azərbaycanda bolşeviklik kəşf etsin. Tainki Müttəfiqlərə göstərsin ki, Azərbaycan Hökuməti bolşevizmlə mübarizədə bulunmağa müstəid deyildir. Bolşeviklərlə mübarizə edən yeganə qüvvə Denikin qüvvəsidir. "Rossiya"nın çalışdığı budur. Doğrudur, biz etiraf ediriz ki, bolşevizm aləmi-mədəniyyəti dağıdır, onunla mübarizə lazımdır. Biz bunu ediriz və edəcəyiz. Bakıda fəhlələrin müsəlman olmayan qismi arasında bəzi bolşevizm çıxışları vaqe olmuşdur və biz onları dövlət və qanun gücü ilə yatıra bilmişiz. Gələcəkdə də hökumətimiz bu hərəkətin müqabilinə var qüvvəsi ilə mübarizə edəcəkdir. Biz içimizdəki bolşevizmlə mübarizə ediriz. Bunun üçün lazım olan qədər qüvvəmiz də var."*

## DƏYƏRLİ TƏLƏFAT

Millətlərin sənaye və mədəniyyət tarixi başdan-başa tədqiq ediləcək olarsa fikri, mədəni, sinai tərəqqi əsərləri göstərən millətlərin içində səssiz, gurultusuz yaşayan və gözə görünməyən müəllim əfəndilərdir. Bir bal arısı çiçək-çiçək dolaşaraq min zəhmət və üqubətlərlə [əziyyətlərlə] topladığı baldan, mumdan başqaları ətək-ətək, xırman-xırman istifadə etdikləri və həzzyab olduqları [həzz aldıqları] və kəndilərinə cüzi bir şey buraxdıqları kimi, bütün gəncliyin dimağ və fikrini tənvir [beynini və fikrini işıqlandıran], ruhunu təsfiyə [saflaşdıran], hiss və zehnini tərbiyə edən və millətlərin tərəqqi və mədəniyyət əsasını quran şu əfəndilər də bu qədər səy və zəhmətlərinin müqabilində həyatdan götürdükləri hissə fəlakətdən başqa bir şey deyildir. Bu fəlakətləri təsəlli edəcək, iztirab və məşəqqətlərini unutduracaq bir şey varsa, o da yalnız mahir bağban kimi yetişdirdiyi ağacların dürlü-dürlü dadlı meyvələrini görməkdən ibarətdir. İştə, bunlarla bütün acılarını ovudur, sönük gözləri nurlanır, o xələcan [təlaşlı] və iztirablı qəlbi sevinclərlə dolur.

Millət bir şəxsdir, bir ailədir, bəşəriyyətin bir kütləsidir. Bu milləti sahili-nicata çıxaracaq və bəşəriyyətin təqib etdiyi son nöqteyi-təkamülə yetişdirəcək vasitə yalnız məktəb və müəllimləridir. Müəllimləri olmayan bir millət mədəniyyətdən pək uzaq bir aləmdə yaşar ki, bir gün cəhalət pəncəsi ilə uçuruma doğru sürüklənib məhv olmasına şübhə yoxdur.

Hər millət üçün üç dürlü vətən təsəvvür oluna bilər. Ən kiçiyi ailə, ortancısı məktəb, ən böyüyü içində yaşadığımız ölkə və məmləkətdən ibarətdir. Məktəb dediyimiz ortancı vətənin birinci və ikincilərdən əhəmiyyəti daha çoxdur. Zira, bəşəriyyət ailələrdən doğur. Ailə həyatının ən mühüm əsasını təşkil edən "ana" və "baba"nı yetişdirən məktəblər və müəllimlər olduğu kimi, üçüncü vətənin də əsgərindən başlayaraq həyat amillərini yetişdirən nədir və kimdir? Məktəb və müəllimlər deyilmi?

Əvət, məktəb bir feyz və rəhmət ocağıdır ki, onu şöləndirən müəllimlərdir. Gəncliyin o kiçik qəlblərində ilk şöləni oyadan və milli bir ideal doğuran da müəllimlər olduğu üçün, tədqiq edilərsə, bugünkü istiqlalımızın və Cümhuriyyətimizin mənəvi qəhrəmanları da müəllim əfəndilərdir.

Bir millətə ruh, himayət və milli bir hiss bəxş edən bu əfəndilər millətin ən mühüm sinfini təşkil edir. Bu gün gənc hökumətimizin müəllimlərə nə qədər böyük ehtiyacı olduğu bəllidir. Azəri türklərinin daima həyati-ictimaiyyə və siyasiyyələrində ən böyük rol oynayan şu əfəndilər inqilab və Mart facieyi-əliməsi [kədərli Mart faicəsi] və sonra məmləkətimizdə zühur edən xəstəliklərdən verdikləri qurban və tələfat gənc millət və Cümhuriyyətimiz üçün həqiqətdə ən ağır və qiymətli tələfatdır. Son vaxtlar cümhuriyyətimizdə əsaslı Müəllimlər İttifaqı təşkil edildiyindən, üç-dörd qəzada müəllimlərimizin verdikləri qurbanlar haqqında məlumat toplanmışdır.

Bakıda sakin müəllimlərdən vəfat edənlər: Qəni bəy Əfəndizadə, Həmidzadə Hüseyn, Məhəmməd bəy İsrafilbəyzadə, Cəfər Bünyadzadə, Məryəm xanım Sulkeviç, Ələddin Əfəndizadə, Məhəmməd bəy Əfəndizadə, Şükür bəy Əfəndizadə, Tofiq Əfəndizadə, Seyyidə xanım Əfəndizadə.

Şamaxıdan: Bədəl Yolçuzadə, Abbasqulu Qədirzadə, Abbasqulu Abbaszadə, Hacı Rəhim Əfəndizadə, Hüseyn Əfəndizadə.

Göyçaydan: Ağaəli bəy Əhmədbəyzadə, Qafur Əfəndizadə, İmran Mehdizadə, Səftər Əfəndizadə, Məhəmməd Əfəndizadə, Paşa Əfəndizadə, Abdulla Əfəndizadə və qeyriləri.

Mərhum müəllim və müəllimə əfəndilərin istirahəti-ruhu üçün cümə günü təmmuzun 25-də saat 10-da Realnı məktəbinin binasında əza məclisi tərtib edilmişdir.

*Türk Müəllimlər İttifaqı İdarəsi*

## BAKI XƏBƏRLƏRİ

**Netçilər İttifaqında**

İyulun 22-də Bakı qradonaçalnikinin iştirakı ilə neftçilər iclası vaqe olmuşdur. İclasda mədən dairələrindəki oğurluqlar və firmalar mənzillərinin həczi [müsadirəsi] məsələlərinin müzakirəsindən sonra qradonaçalnik cənabları bütün oğurluqların önü alınacağı və oğrulara cəza veriləcəyi haqqında məlumat verdikdən sonra, mənzil məsələsinə keçərək bəyan etmişdir ki, şəhərdə qoşun qitəatı [hissələri]

olduğundan və qaçqınların çoxluğundan mənzil məsələsi həqiqətən ciddi bir hal kəsb etmişdir [hal almışdır]. Fəqət firmaların kontorları ehtiyaci-əşədd [şiddətli ehtiyac] zamanı həcz edilirsə də, kontor üçün başqa mənzil verilə bilməsi ehtimalı vardır. Sonra qradonaçalnik cənabları Mənzil Komisyonuna bir nəfər nümayəndə göndərilməsini rica etmişdir.

**Bələdiyyə İdarəsində**

- Bələdiyyə İdarəsi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] məlum etmişdir ki, Nəzarətin müvəkkili Bələdiyyə İdarəsi mülkündə yerləşmişdir. Halbuki, Bələdiyyə İdarəsinin mənzilləri kəndi müəssisələrinə iktifa [kifayət] etmədiyi kimi, Bələdiyyə İdarəsində qələbəliyi izdiyad edir [artırır]. Bələdiyyə İdarəsi rica etmişdir ki, həman müəssisənin oradan köçürülməsi haqqında lazımi binagüzarlıqlarda bulunulsun [addımlar atılsın].

- Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinə müraciətən məlum etmişdir, Bakı konka yolu icarədarının müqavilənaməni imza etməməsi konka atlarının ordu ehtiyacı üçün alınması ehtimalından tövlid etmişdir [irəli gəlmişdir]. Bələdiyyə İdarəsi şəhərin geniş təbəqələrinin əhvalını nəzərdə tutaraq Nəzarətdən rica etmişdir ki, müyəssər olarsa təcili surətdə bu barədə icarədara atlarının alınmayacağı haqqında şəhadətnamə verilsin.

**Tələbələr iclasında**

Srağagün, Realnı məktəbin salonunda bütün tələbələrin beynəlmiləl bir iclası iniqad etmişdi [baş tutmuşdu]. İclasda Darülfünun [Universitet] Komisyonu üzvü professor [Nikolay Aleksandroviç] Dubrovski darülfünun haqqında izahat verdikdən sonra tələbələrin təsərrüfat cəhətləri təmini üçün bir komitə intixab edilmişdir [seçilmişdir]. Komitə 10 nəfərdən ibarət olmaq üzrə 5 nəfəri müsəlman tələbələrindən mürəkkəbdir [ibarətdir].

**Yəmin mərasimi**

Srağagün, Hürriyyət meydançasında Bakıda olan ordu qitəsinə [hissəsinə] yəmin [andiçmə] mərasimi icra edilmişdi. Qitəni bir musiqi dəstəsi müşayiət edirdi. Mərasimdə Bakı valisi və Bakı qradonaçalniki isbati-vücud [iştirak] edirdilər.

**Parlaman iclası**

Ayın 23-də saat 7-ə təyin edilmiş Parlaman iclası əza [üzvlər] gəlmədiyindən baş tutmamışdır.

**Fəhlə kursları**

Türk Ədəmi-Mərkəziyyət firqəsinin Ağ və Qara şəhərlər şöbəsi (Belı-qorod və Çornı-qorod) tərəfindən o dairədə türk fəhlələrinə məxsus kurslar açılmışdır. Kurslarda türkcə yazmaq, oxumaq öyrədiləcəkdir. Arzu edən fəhlə yoldaşlar "Müsavat" firqəsi şöbəsinə müraciət edə bilərlər. Dərslər axşamlar saat 6-dan 8-ə kimi davam edəcəkdir.

**Salyanda və Xıllıda rus bayraqları**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın istixbarat şöbəsinə Salyandan xəbər verilir ki, Salyanda və Xıllıda olan körpülərdə rus bayrağı çəkilmişdir. Səbəbini sorduqda körpü əmələləri kimsə bir tədbir etməyir və mümaniət [maneçilik] də göstərməyir, demişdir. Xəbərçi bu hərəkətlərin qabağının alınmasını mərkəzi idarədən rica edir.

**Batum konsulumuzun əziməti [gedişi]**

Bir neçə gün bundan qabaq Batumda olan Azərbaycan konsulu doktor Mahmud bəy Əfəndiyev Batuma yola düşmüşdür.

**Azərbaycan və Gürcüstan ittifaqı**

Azərbaycan ilə Gürcüstan arasında əqd edilmiş hərbi və müdafei ittifaq [müdafiə məqsədli ittifaq] münasibətilə "Müsavat" firqəsi fəhlələr tərəfindən təbrik teleqramları almaqdadır. Öylə teleqramlardan biri də Yevlax fəhlələri tərəfindən gəlmişdir və Azərbaycan-Gürcüstan ittifaqının daha da möhkəmləşməsini arzu edir.

**Pulumuzun kursu artır**

İstanbul, Sofiya, Bükreş [Buxarest] və İzmirdə xüsusi şöbəsi olan Türk-Bolqar cəmiyyəti Bakıya bir neçə vaqon qənd və zirai mal [kənd təsərrüfatı malı] gətirib 5 milyon yarıma Ticarət və Sənaət Nəzarətinə satmışdır. Bu mallar Azərbaycan pulları ilə təmin olunmuşdur. Burada bu mallar qayət baha olduğuna baxmayaraq, yenə "Novrov" ticarət firması üçün bu qaydanın böylə xeyiri vardır. "Novrov" firmasına izin verilmişdir ki, Bakıdan neft, cövhər [kerosin] və bəzi makina yağları alıb Avropaya aparsın və pullarını da Azərbaycan bonları ilə versin. Bu növlə burada nə qədər çox mal alınar və Azərbaycan pulu ilə ödənər, o qədər də pulumuzun qiyməti artar.

**Bakıda mal gözlənir**

Eşitdiyimizə görə, həmin Türk-Bolqar ticarət cəmiyyəti İstanbulda və Marseldə külli miqdarda elektrik alatı [alətləri], qab-qacaq, ayaqqabı və zirai mal alıb Bakıya gətirməkdədir.

**Qənd və zirai mal paylanacaqdır**

Bu günlərdə Sentrodom [Mərkəzi Ev Komitəsi] vasitəsilə camaata girvənkəsi 20 manatdan hər adam başına 2 girvənkə qənd paylanacaqdır. Ondan sonra, həmin qayda ilə ucuz qiymətə arşın malı, sabun, corab, ipək və şokolad kimi şeylər də satılacaqdır.

**Yeni gömrükxana**

Quba qəza qaimməqamı Bakı qubernatoruna xəbər verir ki, Dağıstan sərhədində yeni gömrükxana açmaq üçün onun tərəfindən Yalama mövqifi [stansiyası] və Budux kəndi intixab edilmişdir [seçilmişdir].

**Taxıl**

Şirvan qəza qaimməqamı Bakı qubernatoruna xəbər verir ki, Altıağac mahalında bu il taxıl məhsulu az olacaqdır. Çünki oralarda həm quraqlıq keçib, həm də şiddətli yellər taxılı tələf etmişdir.

**Bolşeviklərin təbliğatı**

İki gün irəli, Bakı küçələrində bolşeviklər tərəfindən ingilis lisanında intibahnamə [vərəqə] yapışdırılmışdı. İntibahnamədə deyilir ki, müharibə artıq bitmişdir. Nə üçün sizi vətənə qaytarmayırlar?

**Birjada**

Lajın [qiymətli kağızların] kursu təbədüllatsız [dəyişməz] durur. Maraqlı budur ki, kurs Qafqaziyanın hər yerində bir qiymətədir. Nə vaxta kimi böylə olacağı mə-

lum deyilsə də, gələcəkdə lajın qiyməti əskiləcəyinə də ümid çoxdur. İndilik qiymət böylədir: Kerenski minliklər 1500 rublə, 250 manatlığın mini 1300 manat, xırdalar 23 faiz. Zaqafqaziya bonnaları 2 ½ faizə. Don pulları 27 faiz. Nikolay 500-lükləri 1750 manat, yüzlüklər 340-350 manat

**Valyuta**

Valyuta möhkəmdir. Funt banknot 360 manata, çek 325 manata. Qızıl Osmanlı lirəsi 375 manata, kağız alınmayır. Frank kredit 18 manata, çek 15 manata. Mark 6 manata.

## MÜƏLLİMLƏR İCTİMASINDA

Təmmuzun 12-də Bakı, Göyçay və Şamaxı Türk Müəllimlər İttifaqlarının müttəfiq idarələrinin iclası vaqe olmuşdur. O günə dair müzakirə ediləcək məsələlər bunlar idi:

1) Mart hadisəsində mərhum olmuş türk müəllimlərinin ailələrinə yardım etmək məqsədi ilə “Müəllimlər günü” adı ilə bir gün onlardan ötrü para toplamaq;

2) Tezliklə bir müsamirə [konsert] tərtib vermək;

3) Quba Müəllimlər İttifaqından Bakı heyəti-idarəsinə gələn məktub barəsində;

4) Müəllimlər nümayəndələri şurasının layihəsi;

5) Bakı Müəllimlər İttifaqı tərəfindən veriləcək jurnal xüsusunda.

Sədr Ağababa bəy [İsrafilbəyzadə] cənabları iclası açarkən “Müəllimlər günü” adı ilə mərhum müəllimlərdən ötrü para toplayıb onların ailələrinə yardım etməyi və bu cümə günü təziyənin rövnəqli olması üçün cəbə [ianə qutusu] vasitəsi ilə para toplamağı təklif edir. Lakin təziyənin təkidən saxlanılması lazım görünür və “Müəllimlər günü” avqustun son günlərinə təyin edilir.

Tezliklə bir müsamirə tərtibi təklifi məclisdə əsasən qəbul olunur. Ancaq Baba bəy Səfərəlibəyzadə cənablarının meydana atdığı “Bir fincan çay” təklifi müsamirəyə mümaniət [maneçilik] göstərərək iclas tərəfindən əksəriyyətlə əvvəl “Bir fincan çay” qurulması təsdiq olunur və müsamirə avqustun 25-ə təyin olunur. “Bir fincan çay”dan ötrü 7 nəfərdən ibarət bir komissiya təşkil olunur. Komissiyaya bu adamlar seçilirlər:

1) Baba bəy Səfərəlibəyzadə;
2) Ağababa bəy İsrafilbəyzadə;
3) Abbasqulu Vəlixanzadə;
4) Mürsəlzadə;
5) Soltan bəy Əhmədbəyzadə;
6) Soltan bəy Rəhimzadə;
7) Nəsir bəy.

Quba, Göyçay və Şamaxı qəzalarının ittifaqlarından ötrü möhür zakaz verilməsi Abbasqulu Vəlixanzadəyə həvalə olunur. Avqust ayında dəvət ediləcək nümayəndələr şurası xüsusunda sədr cənabları Maarif naziri ilə görüşmüş və Maarif naziri bu barədə layihə tərtib [və] təqdim edilməsini xahiş etmişdir.

Bakı Müəllimlər İttifaqı tərəfindən veriləcək jurnaldan ötrü 5 nəfərdən ibarət bir heyət təşkil olunur. Heyətə daxil olan zəvat [şəxslər] bunlardır:

Əliabbas Müznib, Abdulla Şaiq, Mahmud bəy Mahmudbəyzadə, Ağababa bəy İsrafilbəyzadə, Soltan bəy Nəsibbəyzadə.





## TEATRO VƏ MUSİQİ

**Yardım alayı faydasına teatro tamaşası**

Keçən gün Hökumət Teatrosunda Bakıda yeni təşkil edilməkdə olan Yardım alayının faydasına olmaq üzrə Hacıbəyov Qardaşlarının Müdiriyyəti tərəfindən türk məşahiri-üdəbasından [məşhur ədiblərindən] Namiq Kamal bəyin “Vətən” nam [adlı] əsəri mövqeyi-tamaşaya qoyuldu.

Havanın sıcaqlığına baxmayaraq, camaatımız kamalı-həvəslə teatroya gəlmiş, adəta Hökumət Teatrosunda boş yer qalmamışdı. Bütün lojalar və salon tamaşaçılarla məmlu [dolu] idi. Xanımlarımız da bufedə ciddiyyətlə çalışır, şirniyyat, çiçək və proqram satmaqla teatrodakı ruh yüksəkliyini təqviyə edirlərdi [artırırdılar]. Bu hal xalqımızın müdafiə və istiqlaliyyət uğrunda xalqın içərisindən könüllü surəti ilə təşkil edilməkdə olan Yardım alayına, bununla bərabər kəndi mövcudiyyətlərini müdafiə işlərinə nə qədər əhəmiyyət verdiklərini andırmaqdadır.

Teatro məclisini Yardım alayının mütəşəbbisləri [təşəbbüskarları] idarə edir, nizam və qaydanı da Yardım alayı zabitanı və nəfəratı [zabitləri və əsgərləri] gözləyirdi.

Tamaşaçılarda ruh yüksəkliyi nə qədər qüvvətli idisə, artistlərin oyunu bir o qədər zəif idi. Səhnədə tamaşaçılarda olan qədər istilik və həyəcan görükməyirdi. Müdafieyi-vətən məqsədi ilə Namiq Kamal bəy kimi vətənpərvər bir ədib tərəfindən qələmə alınmış vətən pyesinin cümləsi o Namiq Kamal bəyin ruhundan və vətən eşq və məhəbbəti ilə yanan qəlbindən çıxan fəryadlardan mürəkkəb [ibarət] olan sənətkaranə parçalar və cümlələrində bir adilik hiss edilirdi. İnsafsız artistlər vətən mücahidi Namiq Kamalın əsərini öylə bir hala vəz etmişlərdi [elə bir vəziyyətə qoymuşdular] ki, burası heç zaman əfv ediləcək şeylərdən deyildir.

Nasılsa bizim hər bir işimiz get-gedə tərəqqi etdiyi halda, drama kimi sənayeyi-nəfisəmiz [incəsənətimiz] əvvəlki qüdrət və qüvvətini itirməkdə və qeyb etməkdədir. Vaxtilə səhnədə artistlərimizin əf’al və hərəkatından [işlərindən və hərəkətlərindən], söylədiyi cümlələr və parçalardan lazım qədər mütəəssir olan xalqımıza indiki münasib zəmin və mövqedə “Vətən” kimi əsər istədiyi təsiri icra edəməyirdi. Bu da artistlərin laqeydliyindən, rejissorun zavallı Namiq Kamal bəyin ədəbi lisan və şivəsini bərbad bir hala vəz etməklə onu təhrif etdiklərindəndir.

Hələ birinci pərdədə şeyxülislamın nitqi nə idi! Əcəba, o, “Vətən” faciəsininmi idi və yaxud başqa bir əsərdənmi alınmışdı? Bunu yapmaq cəsarətində bulunan bir artist heç olmasa Namiq Kamal bəyə ehtiram etməsə də, barı hüzurunda dayandığı tamaşaçılara ehtiram edə idi.

Səhnədə bir tərtibsizlik müşahidə edilməkdə idi. Dekorasiyaya diqqət edilməmiş, artistlər layiqincə hazırlanmamış, hələ Sidqi [Ruhulla] bəyin Abdulla Çavuşu “Mirzəağa” [Əliyev] adı ilə çağırması isbat edirdi ki, artistlər öz vəzifələrinə nə qədər laqeyddirlər.

Mən pərdə açılmadan əvvəl xalqdan eşidirdim ki, guya indiki oynanan “Vətən” əvvəllərdə oynanmış “Vətən” faciəsindən başqa imiş. Yəni bu faciəni eyni surətdə, Namiq Kamal bəyin lisan və şivəsində oynayacaqlarmış. Bunun üçün tamaşaçılar diqqəti-tamla səhnəyə baxmaqda idi-

lər. Lakin səhnədə büsbütün əksi zühur etdi. Əvvəllərdə oynanan "Vətən" bir qədər də adi bir hala vəz edilərək oynandı. Xalqın hissiyyatı-bədayepərvəranəsini təxdiş etdi [Xalqın sənətsevərlik duyğularını zədələdi].

Hələ xanəndə şikəstəsi səsi əbədən [əsla] teatroya layiq bir halda deyildi. Bir kərə, o qədər böyük bir xalqın hüzurunda icrayi-ahəngi-sənət etməyi əvvəlcə bir nəzərə almalı idilər. Keçən gecə teatroda oxunan avazə bəlkə bir başqa məkanlar üçün yarardı.

Xalqı bir qədər məşğul edən yenə pərdələr arasında oxunan diklomasiyalar oldu. Cavid bəy Azərbaycan bayrağına müraciətən oxuduğu mənzumə, Şərəfəddin bəy Məhəmməd Əmin [Yurdaqul] bəyin "Qafqaziya" ünvanlı mənzuməsini, Ömər Fazil bəy yenə Məhəmməd Əmin bəyin "Çar" ünvanlı şeirini müvəffəqiyyətlə oxudular və xalq tərəfindən alqışlandılar. Habelə, Rza Zaki əfəndinin vətən məhəbbəti haqqında və camaatı Yardım alayına yardım etmək xüsusunda nitqi də təsirsiz olmadı.

Artistlərdən yalnız İslam bəy rolunda Abbas Mirzə Şərifzadə və Zəkiyə yolunda xanım Olenskaya, Abdulla Çavuş rolunda Mirzəağa Əliyev bir qədər müvəffəq ola bildilər.

Vəqta ki, "Vətən" faciəsi Azərbaycan şivəsində oynanır, bu surətdə istər birinci pərdədə, istər sonra müharibə meydanlarında isbati-vücud [iştirak] edən könüllülərin qırmızı əlbisə ilə (guya bu türk və osmanlı əlbisəsi imiş) görsənmələrinə nə lüzum vardır? Kəndi qiyafələrimizlə könüllülər dəstəsi səhnəyə çıxsa idi daha da təbii çıxardı. Əgər Osmanlı əlbisələri mühafizə edilirsə, o surətdə Osmanlı lisan və şivəsi də mühafizə edilməlidir. Bu surətdə bəlkə o əlbisələrin təsiri ola bilər. İlla [yoxsa] öz lisanımız ilə qırmızı əlbisələrin tamaşaçılar üzərində heç bir təsiri olmayırdı. Biz arzu edərdik ki, artistlər bir qədər ədəbi lisana diqqət edib bu xüsusda çalışa idilər. Abdulla çavuş demişkən, artistlər bir az ədəbi lisana malik olsalar qiyamətmi qopar?

**"Əsli və Kərəm"**

Bu gün cümə günü axşam şəvvalülmükərrəm ayının 26-da (iyulun 25-də) Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən Hökumət Teatrosunda "Əsli və Kərəm" operası mövqeyi-tamaşaya qoyulacaqdır. Biletlər satılır teatrın kassasında. Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

**İtibdir**

Məşhədi Kazım Məşədi Nəcəfqulu oğlunun Şirvandan aldığı pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*5473*

**Satılır**

Hacıqabul stansiyasında binalar ilə bərabər ikimərtəbəli daş ev və pambıq təmizləmək zavodundan ötrü korpus həyəti ilə. Təfsilatı bu ünvana müraciətləbilmək olar: Birjevaya küçə, nömrə 20. F. Reddavey və Kompaniyası şirkətində Ağamirov.

*5461*

**Həsən Dadanovun tənbəkisi**

Satılır Badkubədə Hacıbala Məhəmmədovun dükanında. Möhtərəm müştərilərimizdən rica olunur sifariş üçün bu adresə müraciət etsinlər: Bazarnı küçə, nömrə 3, Hacıbala Məhəmmədov.

*6801*





**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski nömrə 29, Parlaman qarşısında. Telefon nömrə 5-96. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri ağrısız çəkir.

*10239*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78. Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Berlin Darülfünunu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

***Müvəqqəti müdir: Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

### Teleqraf xəbərləri

səh. 484. "Təsviri-əfkar": Türkiyədə nəşrə başlayan ilk (xronoloji baxımdan dördüncü) türkcə qəzetlərdən biri; əsası 1862-ci ildə qoyulmuşdu.

"Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin) sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

səh. 485. "Ələmdar": İstanbulda nəşr edilmiş qəzet.

### Qəzetələrdən

səh. 485. "Volçya sotnya": Kuban kazaklarından general-leytenant Andrey Şkuronun rəhbərliyi altındakı hərbi hissələrin qeyri-rəsmi adı.

səh. 486. "J. O.": İstanbulda fransız dilində nəşr edilən "Le-jurnal d'Orient" [Le journal d'Orient] qəzeti nəzərdə tutulur.

"Vakit": İstanbulda 1875-1934-cü illərdə nəşr edilmiş gündəlik qəzet.

səh. 487. "və Kubanski baş komandanlığı": qəzetdə "Kubanski" yerinə "Kurqanski" getmişdir.

### Dağıstanda

səh. 488. "Lvov-Kerenski hökuməti": Georgi Yevgenyeviç Lvov (mart-iyul 1917) və Aleksandr Fyodoroviç Kerenskiy (iyul-noyabr 1917) başçılığındakı Rusiya Müvəqqəti hökuməti nəzərdə tutulur.

"Parisdən Rus Şurasının...": Keçmiş Rusiya imperiyasının xarici strukturlarının birləşmiş nümayəndəliyi kimi 1918-ci ilin axırlarında Parisdə yaradılan siyasi qurum olan Rus Siyasi Müşavirəsi [Русское политическое совещание] nəzərdə tutulur.





**Bazar, 27 iyul 1919-cu il, nömrə 235**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 28 şəvvalül-mükərrəm sənə 1337. 27 təmmuz 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.

Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.

### İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bakı İstehlak Cəmiyyəti "Kooperasiya" İdarəsi kamali-hüzn və təhəssürlə İttifaqın idarə üzvü Əlihüseyn Hüseynovun həmin iyul ayının 25-də vəfat etdiyini elam edir [bildirir].

*5480*

### ELAN

28 iyul 1919 bazar günü axşam saat 7-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur. Məsələlər: keçən günkü müzakireyi-yövmiyyə qərarı ilə.

*T-188*

### İTİBDİR

Mirzə Rəfi Şalçının üç cild dəftər mühasibatı və iki cild kopya dəftəri işbu şəvval ayının 25-də təkatlı faytonda qalmışdır. Faytonçu və ya tapan şəxslərdən rica olunur dəniz qırağında Dadaşov karvansarasında 21 nömrəli kontora gətirib, layiqincə müjdə alsınlar. Telefon nömrə: 23-41.

*5478*

### VAĞZAL-SURAXANI-MƏRDƏKAN-ŞÜVƏLAN

Həmin bu yerlər arasında avtomobil hərəkatı açılmışdır. Şüvələndan çıxır səhər saat 7-də və gündüz saat 2-də, Suraxanıdan isə səhər saat 9-da, gündüz saat 4-də.

"Avtoqruzoartel"

Qaraj Çornı-qorodda Staleliteyni zavodda [Poladtökmə zavodunda]. Telefon nömrə: 11-60.

*5476*

### SİRK "MODERN"

Bazar günü iyul ayının 27-də, 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəm-məl surətdə vücuda gətirilmiş fransız güləş mübarizəsinin 27-ci günü 1919-cu ilin məşhur "Cahan Pəhləvanı" namı və Azərbaycan fəxri şarfı və 30 min manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-ci: Qırmızı Maska - Dizavani; 2-ci: Mustafa Əhmədov - Tələbə V. O.; 3-cü: Apollon Staroşvili - Pavel Zakoroyko.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda.

*5474*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Ticarət, Sənaət və Ərzaq Nəzarətindən**

*Əmrnamə nömrə 119*

21 iyul 1919

Bakı quberniyasının 3-cü uçastok fabrika inspektoru Şıxəli Hüseynov xəstə olduğundan həmin iyul ayının 20-dən etibarən maaş verilməklə bərabər bir ay məzuniyyətə buraxılır.

*İmza etdi:*
*Ticarət, Sənaət və Ərzaq naziri*
*A[ğa] Əminov*
*Əslinə mütabiqdir.*
*Kargüzar: S. Məhəmmədyarov*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqraf mövqifi [stansiyası] qəbul eyləmişdir)*

**Prezident intixabına dair**

Klemanso bəyan eyləmişdir ki, bütün qanunverən müəssisələrin nümayəndələri təzə Fransa rəisi-cümhuru [prezidenti] intixab ediləndək [seçiləndək] təzədən intixab edilməlidirlər. Yeni rəisi-cümhur fevralda intixab ediləcəkdir. Fransa Parlamanı 289 səs 76 səsə qarşı olaraq hökumətə izhari-etibar eyləmişdir [etimad göstərmişdir].

**Yeni istehkam**

Nauen - Strasburq qəzetələrinin məlumatına görə, Fransa hökuməti Elzasda yeni istehkam inşasına şüru eyləmişdir [başlamışdır].

**İngiltərədə dəhşətli tətil**

London - Yorkşirdən xəbər verilir ki, ingilis əmələlərinin [fəhlələrinin] tətili başlanandan iki min əmələ tətil eyləmişdir.

**Xersonun təxliyəsi**

Novorossiyskdən xəbər verirlər ki, bolşeviklər Xersonu boşaltmağa başlamışlardır. Şəhərdə partlayışlar eşidilir. Hava kəşfiyyatı ilə məlum olmuşdur ki, bir para əsgəri dəstələr şəhərdən çıxmışlardır.

**Odessa altında**

Qara dəniz donanması gəmiləri Odessanın 16 verstliyində Bolşoy Fontana yaxınlaşmışlardır. Hidroplanlar kəşf etmişlər ki, limanda adam yoxdur.

**Qərbdə üsyan**

İyulun 23-də Nauendən xəbər verirlər ki, bolşevik Xariciyyə Komissarlığına Qərbdə üsyan artması haqqında hər gün xəbərlər gəlməkdədir. İyulun 28-də Lion fabrika və zavod rayonunda böyük tətil başlanacağı gözlənir.

**Krım xadimləri**

Krımın bolşeviklərdən azad ediləcəyi imkanı münasibətilə Kislovodskda yaşayan Krım camaat xadimlərinin şurası vaqe olmuşdur. Krım zemstvo və şəhər idarələri başında dura biləcək şəxslərin namizədliyi qeyd edilmişdir.

London - Roytera xəbər verilir ki, Ukrayna ilə polyaklar arasında əqd edilmiş olan mütarikə [imzalanan ataşkəs] pozulub, hərəkati-hərbiyyə [hərbi əməliyyatlar] başlanmışdır.





Macarıstanda əhval çox xətrəlidir [təhlükəlidir].

Royter ajansına polyak mənabeyindən [mənbələrindən] xəbər verilir ki, Yuxarı Sileziyada qumbara zavodları top qumbaraları hazırlamaqda davam edirlər. Almanlar oraya öz agentlərini göndərirlər ki, orada üsyan qalxızsınlar. Almaniya qoşunları Dubrovda kömür mədənlərini işğal etmək istəyirlər. Polyaklar ciddi surətdə müqabiləyə hazırlaşırlar.

**Feldmarşal Hindenburqun istefası**

Kolberqdən xəbər verilir ki, feldmarşal Hindenburq Almaniya Rəisi-vükəlası [Baş naziri] Ebert namına yazdığı bir məktubda deyir ki, mən Baş komandanlıq vəzifəsini tərk edirəm.

* Berlindən xəbər verilir ki, tətil əmələ gəldiyindən dəmiryol hərəkatı dayanmışdır. Hökumət 1000 nəfər inqilabçıları həbs eyləmişdir. Hamburqdan xəbər verilir ki, hökumət qoşunları şəhəri işğal edib, orada şimdi sakitlik bərpa edilmişdir. Axırıncı küçə müharibəsində 42 nəfər qətl edilib, 116 nəfər yaralanmışdır.

**İngilis qoşunlarının miqdarı**

Royter agentəliyinə xəbər verilir ki, ingilis qoşunlarının miqdarı bu qərar ilədir: Reyndə 206.000 ingilis qoşunu var; Fransa və Hollandada isə 2.040.000 qoşun vardır. Bu ordu Reyn ordusu üçün yollar təmir edir. İngiltərənin 11 minlik ordusu da İtaliyadadır. Bir batalyon Fiumedədir. Qara dəniz boyunda hindlərdən başqa 44 min ingilis əsgəri vardır ki, bunun 22 min nəfəri Qafqaziyadadır. Asiyayi-Suğrada [Kiçik Asiyada, Anadoluda] 96 min nəfər qoşun saxlamaq icab eyləmişdir [lazım gəlmişdir]. Bunlardan 10 min nəfəri Misir ilə Fələstində durur.

**Mərakeşdə üsyan**

Madrid - Madriddən rəsmi surətdə xəbər verilir ki, Rezul böyük bir dəstə ilə Laraş ilə Tetuana həmlə eyləmişdir. Bütün gün və iyulun 13-cü gecəsi müharibə davam etmişdir. İspaniyalılar mərakeşlilərin həmləsini dəf eyləmişlərdir. Yerlilərin tələfatı çoxdur. İspaniyalılardan isə 38 adam qətl edilmiş, 95 adam yaralanmışdır.

**Denikin və Qriqoryev**

Çerniqov - General Denikin qəti surətdə [Nikifor] Qriqoryevi təsdiqdən imtina eyləmişdir. Yekaterinodara gəlmiş olan Qriqoryev nümayəndələrinə əmr verilmişdir, bilatəxir tərki-silah etsinlər [dərhal silahı yerə qoysunlar]. Qriqoryev Romaniya ilə danışığa başlamışdır.

Kişinyov - Burada məhəlli [yerli] qarnizon əmələləri ilə bərabər Romaniya məmurlarına qarşı bir nümayiş yapmışlardır. Bunlara dəmiryol əmələləri də qoşulmuşlardır.

**Konstantinoqradın işğalı**

Qızğın müharibədən sonra bolşevik qoşunları Konstantinoqrad şəhərini işğal etmiş, külli ləvazimati-hərbiyyə qənimət alınmışdır. Obuxov işğal edilərkən Zelyonı dəstə ərkani-hərbi [qərargahı] bütün heyəti ilə əsir edilmişdir.

**İngilis və fransız matroslarına xitabnamə**

Peterburq - Baltik donanması matrosları ingilis və fransız matroslarına bu məzmunda bir xitabnamə nəşr etmişlərdir:

“İtaliya bolşeviklərinin binagüzarlığı [qərarı] ilə İtaliya, İngiltərə və Fransa matrosları iyulun 21-də tətil elan edərək öz hökumətlərindən tələb edirlər:

Macarıstan və Rusiya işlərinə müdaxiləyə və kəndçi və əmələlərə qarşı mübarizəyə cəsarət etməsinlər, rus əksinqilabçılarına müavinət göstərməsinlər. Yaşasın bütün cahanda əmələ hökmranlığı! Yoldaş matroslar, siz də öz yoldaşlarınızın dəvətinə icabət ediniz [müsbət cavab verin]. Şimdi zəhmətlə sərmayənin qızğın müharibəsi başlanmışdır. Rusiya əmələləri dörd illik qanlı müharibənin, bu qədər olan aclığın, milyonlarla İngiltərədə, Fransa, Almaniya, İtaliyada tökülən əmələ qanlarının müqəssirlərindən cavab gözləyirlər. Sizlər tətil ilə Macarıstan və Rusiya Şura hökumətinə müavinət ediniz.”

**Varşavada iğtişaş**

Minsk - Varşava ətrafında polis ilə əmələlər arasında qanlı müsadimələr vaqe olmuşdur [toqquşmalar baş tutmuşdur]. Əmələlər çörək və iş istəyirlər. İki nəfər əmələ qətl edilmiş, 25 nəfər də yaralanmışdır.

## SÜLH ƏTRAFINDA

Lion - Ali Müttəfiqlər Şurası qərar qoymuşdur ki, Şərqi Qaliçya Polşaya verilsin. Qaliçya Polşaya ilhaq edildiyi [birləşdirildiyi] üçün Romaniya ilə həmsərhəd olur. Fransa hökuməti bu xırda millətləri birləşdirib də Rusiya ilə Almaniya arasında möhkəm bir sədd təşkil etmək istəyir və böyləliklə, bolşevizmin Qərbi Avropaya keçməsinə mane olur.

**Parisdə dağıstanlılar xüsusunda**

General Denikin tərəfindən Şimali Qafqaz hökuməti təzyiq edildiyi və sair Qafqaz cümhuriyyətlərinə Denikinin təcavüz qəsdində olduğu münasibətilə Parisdə cavan cümhuriyyət mürəxxəsləri [nümayəndələri] gərək Avropa mətbuatında, gərək Sülh Konfransı qarşısında olsun, müttəhid iqdamatda [birgə təşəbbüsdə] bulunmuşlardır. Bu halda onlar Balfura da icrayi-nüfuz etmişlərdir. Həkəza [Habelə] Rusiya işlərinə dara [vaqif] olan digər Avropa ricali-siyasiyyununa da [siyasi xadimlərinə də] icrayi-nüfuz etmişlərdir. Və nəticədə Sülh Konfransı bir heyəti-məxsusə [xüsusi heyət] ezam edir ki, Qafqazda cümhuriyyətlərə qarşı İngilis Komandanlığının etdiyi səhvlərini düzəltsin və dabravolların müəyyən xəttə çəkilmələrinə tədbir ittixaz eyləsin [tədbir görsün].

**Türkiyə məsələsi Avamlar Kamerasında**

İngiltərə Avamlar Kamerasında Türkiyə məsələsi haqqında hökumət üzvləri bəyanat vermişdir. Polkovnik Herbert Xariciyyə Nəzarətindən xəbər almışdır ki, Türkiyənin parçalanması Vilsonun 14 maddəsində olan əsaslara müvafiqdirmi, ya yox? [Sesil] Harmsvort cavab vermişdir ki, mən bu suala müsbət və ya mənfi





surətdə cavab verə bilmirəm, çünki sualda göstərilən parçalamaq barəsində mənim heç bir məlumatım yoxdur. Kapitan Ormsbi-Qor, öz növbəsində, xəbər almışdır ki, ərəblər Türkiyə hakimiyyəti altında qalacaqlardırmı? Harmsvort bu suala cavab verməmişdir. O zaman məzkur [adı çəkilən] kapitan sual etmişdir ki, hökumətə məlumdurmu, Ənvər paşa və Tələt bəy nərədə gizlənmişlər? Harmsvort buna cavab vermişdir ki, Ənvər paşanın nərədə gizləndiyi bizə məlum deyildir, lakin hökumət onun hərəkətlərinə görə ondan hesab tələb etməyi qərar almışdır. Sonra Xariciyyə naziri əlavə etmişdir ki, Türkiyəyə veriləcək sülh müahidənaməsinə [sazişinə] Ənvər paşanın təslim edilməsi haqqında xüsusi bir maddə daxil ediləcəkdir. Tələt paşanın da nərədə olduğu hökumətə məlum deyildir.

**İstanbul türklərdə qalır**

Lion - Sülh Konfransı Avstriya məsələsini qurtardı. Türklərin Avropadan kənar edilməsi məsələsi barəsində hələlik heç bir şey qət edilməmişdir. İngiltərə müsəlmanlarının inadına görə, onların əxz etdikləri vəziyyətə görə İstanbul xəlifəliyin paytaxtı sifəti ilə qalacaqdır.

**Türklər Türkiyə haqqında**

“Hadisat” qəzetəsi sülh haqqında yazdığı məqaləsində deyir ki, türklər Avropanın asayişindən ötrü lazımdırlar. Ola bilər ki, gələcəkdə müvazinə bizim statukomuzdan [status-kvomuzdan] asılıdır.

“Vakit” qəzetəsi də bu ruhda yazmaqdadır. Həmin qəzetədə Əhməd Səlahəddin bəyin “Sülh konfransında nə deyərdim?” ünvanlı məqaləsi dərc edilmişdir. Məqalədə deyilir ki, hər yerdə yaşamaqda olan milyonlarca müsəlmanlar və türklər bütün qəlbləri ilə Türkiyə müqəddəratı ilə əlaqədardırlar. Hərgah siz istəməyirsiniz ki, müharibəni Avropadan Asiyaya gətirən irtica olmasın, o zaman vaxt var ikən indilikdə bunu fikir ediniz. Siz o zaman ağlınız və geniş məlumatınız sayəsində mənim tərəfimdən gizlində saxlanan bir çox maddələri anlarsınız. Bunu da həmçinin anlarsınız ki, Türkiyə dünyanın asayişindən ötrü lazımdır.

**Asiyayi-Suğra**

İyulun 20-də Liondan xəbər verirlər ki, Müttəfiqlərin Ali Şurası Asiyayi-Suğrada [Kiçik Asiyada, Anadoluda] yunanilərin və italyanların işğal edəcəkləri məntəqələrin sərhədi haqqında Venizelos ilə Tittonini dinləmişdir. “Matin” qəzetəsinin yazdığına görə, hər tərəf Asiyayi-Suğrada hüdud xətti təyin edilməsinə razı olmuşlardır. Bu xətdən yunan və İtaliya əsgərləri keçməyəcəklərdir.

**Müttəfiq komisyonları**

Yenə Liondan xəbər verirlər ki, Asiyayi-Suğrada yunanilər tərəfindən edilən xəyanətlərə görə Türkiyə hökumətinin şikayəti münasibətilə Müttəfiqlərin Ali Şurası hadisələri təftiş və təhqiq etməkdən ötrü Asiyayi-Suğraya xüsusi bir komissiya göndərilməsini təhtiqərara almışdır.

## CÜMƏ GÜNKÜ XƏBƏRLƏR

**Hindustanda iğtişaş**

Londondan xəbər verirlər ki, Hərbiyyə Nəzarətinin verdiyi məlumata görə, Sinqapurda iğtişaş başlanmışdır. Qubernator şəhəri idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] altında elan eyləmişdir. Avstraliya hərbi gəmisi "Sidney"in əzimətinə [gedişinə] mümaniət [maneçilik] göstərilib, asayişi bərpa etməkdən ötrü gəmi komandası sahilə çıxarılmışdır. Sonradan alınan xəbərlərə görə, asayiş bərpa edilib, həyat öz adi halına düşmüşdür. Üç nəfər Çin və bir nəfər Yaponiya təbəəsi qətl edilib, bir neçə adam da yüngül yaralanmışdır.

**Pəncab üsyanı**

"V. K." qəzetəsi iyulun 18-dən xəbər verir ki, Hindustanın məşhur şairi Rabindranat Taqor Hindustan vis-kralına məktub yazıb Pəncab üsyanı yatırıldığı zaman ingilislər tərəfindən göstərilən zülümlər müqabilinə protesto etmişdir. Məzkur [adı çəkilən] şair dərbar rütbəsindən imtina edir.

**Ümumi tətillər**

- İsveçrədə olan sosial-demokratlar iyulun 20-21-nə təyin edilən tətili təxirə salmağı təhti-qərara almışlardır.

- İtaliya dəmiryollarının Mərkəzi Şurası ümumi tətildə iştirak etmək məsələsinin məhəlli [yerli] ittifaqlara vagüzar edilməsini [tapşırılmasını] təhti-qərara almışdır. "A." qəzetəsinin verdiyi xəbərə görə, məzkur [deyilən] Şura istefa vermişdir. Təzə intixab edilən [seçilən] Şura tətil tərəfdarı olduğunu izhar etmişdir.

**Hamburqda**

Hamburqdan xəbər verirlər ki, ərzaq azlığına görə böyük iğtişaşlar başlandığından, şəhər idareyi-örfiyyeyi-əsgəriyyə [fövqəladə hərbi vəziyyət] altında elan edilmişdir. Spartaklar ümdə dəmiryol istasyonunu əllərinə keçirməyə müvəffəq olmuşlardır. Sonradan həman istasyon geri alınmışdır.

**Lehistan**

İyulun 20-də Nauendən xəbər verirlər ki, Almaniya-Lehistan [Polşa] cəbhəsində müharibə hərəkatı dayandırılmışdır. Lehistan qaraqol əsgərləri hər gün hüdud xəttini keçməkdədirlər.

**Şimali Amerikada**

"R. S." qəzetəsinin verdiyi məlumata görə, Amerika Senatının üzvü yaponiyalıların Amerikaya mühacirət etmələrini qadağanedici bir qanun layihəsinin hazırlanmasını tələb etmişdir.

## XARKOVDA

Təqribən 8 gün bundan əvvəl, cümə günü Xarkovdan çıxıb Rostov təriqi [yolu] ilə şəhərimizə varid olan [gələn] bir nəfər müsəlman studenti ilə müsahibədə bulunduq. Mumaileyh [adı çəkilən şəxs] bizə böylə məlumat verdi:

Xarkovun işğalı barəsində məhəlli [yerli] qəzetələrdə verilən xəbərlər doğrudur. Çoxdan bəri Dabravol ordusu Xarkovu işğal etməyə hazırlaşırdı. Zatən bolşeviklər bunu düşünmüşdülər. Ona görə də pişəzvəqt [qabaqcadan] şəhəri təxliyəyə başlamışdılar. Şəhərdə olan bir





çox ləvazimi-hərbiyyəni çıxarmışdılar. Nəhayət, dabravollarla bolşeviklər arasında şəhərin kənarında qızğın bir müharibə vaqe oldu. Bolşevik qoşunları ricətə [qaçmağa] məcbur olub şəhəri tərk etdilər.

Sonra şəhər içində də müharibə vaqe olmuşdu. Fəqət bu müharibə çox müxtəsər olmuşdu. Şəhər az xəsarətdidə olmuşdu.

Dabravollar şəhəri işğal etdikləri kimi dərhal orada Nikolay üsulu bərpa etdilər. Şəhərdə təşkil edilən kontr-razvedka [əkş-kəşfiyyat] bolşevikləri axtarmağa başladı. 100 nəfər əmələni tövqif [həbs] edib həpsini bir gündə güllələboran etdilər. Bu əmələlər arasında bir-iki nəfər müsəlman əmələsi də var idi.

Bu da məxfi qalmaya ki, bolşeviklərin dövründə Xarkovda "Hümmət" təşkilatı da var idi ki, başçısı da Tağı Şahbazi idi. Dabravolların xürucundan [çıxışından] 5 gün əvvəl Tağı Şahbazi başqa bir çox student yoldaşları ilə bərabər Moskvaya doğru əzimət etmişlərdi [yola düşmüşdülər].

Xarkovda hər nə qədər müsəlman studentləri var idisə, həpsi sağ və salamatdırlar. Şimdi Xarkovda qalan studentlər bolşeviklikdə ittiham edilməyənlərdir ki, yalnız propusk [icazə vəsiqəsi] ala bilmədikləri üçün Xarkovda qalmağa məcbur olmuşlardır.

Bu günlərdə Xarkovun 70 verstliyində olan Obuxov şəhəri bolşeviklər tərəfindən işğal edildiyi üçün Xarkov dabravolları və burjuyları arasında dəhşətli həyəcan vardır. Çox mümkündür ki, yaxın bir zamanda Xarkovu bolşeviklər yenidən işğal eyləsinlər.

Azərbaycan xüsusunda gərək bolşeviklər, gərək dabravollar mətbuatında bir çox şeylər yazılırdı. Bolşeviklər iri xətlərlə "Azərbaycan dabravollara qarşı hərb elan etmişdir" deyə qəzetələrində yazmışdılar. Həm bundan artıq dərəcədə məmnun olurdular. Onların danışığından öylə görünürdü ki, Azərbaycana bir o qədər ədavət bəsləməyirlər. Bəlkə, icab edərsə [lazım gələrsə], Azərbaycan ilə uyuşa bilərlər. Fəqət dabravollar əksinə idi. Hər gün yeni cümhuriyyətlər barəsində bir səfsətə yazırlar. Dəfəatla dabravollar tərəfindən Bakının işğal edildiyi xəbəri verilirdi. Dabravollar öz qəzetələrində Azərbaycan ilə bolşeviklər arasında ittifaq bağlandığı haqqında xəbərlər dərc etmişlərdi.

Xarkovda artıq dərəcədə bahalıq vardır. Yollarda çox əziyyət edilir.

## DAĞISTAN ƏHVALI

**Dərbənddən**

Dərbənddən bu günlərdə varid olmuş [gəlmiş] mötəbər bir zatın rəvayətinə görə, bu son vaxtlarda Denikin kazakları Dərbənddə olmazın rəzalətlər yapırlar. Belə ki, bir gecə olmayır ki, onlar bir neçə müsəlman dükanını talan etməsinlər. Keçənlərdə bir dükanı talan etdikdə, dükançı müsəlmanın da başını kəsmişlərdi. Bu xüsusda müsəlmanlar dabravolların başçılarına hər nə qədər şikayətlər etsələr də, bunların şikayəti bisərəncam [nəticəsiz] qalır.

Keçənlərdə camaat tərəfindən intixab edilmiş [seçilmiş] yeni şəhər duması Denikin nümayəndəsi əmri ilə qovulub,

yerinə köhnə duma qoyulmuşdur. Şəhərdə bu günlərdə bir kontr-razvedka [əks-kəşfiyyat] əmələ gəlmişdir. Bunlar şübhə eylədikləri adamları axtarırlar. Ömər bəy Heydərovu Azərbaycan agentidir deyə axtarıb, nəhayət, evini də təftiş etmişlərdir. Dərbənd cavanlarını bunlar bir az rahat qoymayırlar. Dərbənddə gecələr atışma olur. Gecələr şəhər içində gəzmək mümkün deyildir.

Azərbaycan sərhədini keçdikdən sonra Belici mövqifində [stansiyasında] kazaklar qatarlara soxulub sərnişinləri axtarırlar. Bəzən onların pullarını alıb, sonra yarımstansiyada düşüb qaçırlar. Bu barədə şikayət edildikdə heç bir nəticə verməyir.

Dabravollar Azərbaycanın ruslarla etdikləri hüsn-müamilədən [yaxşı rəftardan] razıdırlar və iqrar edirlər ki, Azərbaycanda ruslara yaxşı baxır[lar]. Fəqət Gürcüstandan çox narazıdırlar və deyirlər ki, gürcülər bütün rusları xidmətindən kənar etmişlərdir.

* * *

Neçə gün bundan əvvəl Dərbənd ziyalılarından İsmayıl Mehdizadə yatalaq xəstəliyindən vəfat eyləmişdir. Mərhum gərək mətbuat, gərək məktəb və gərək səhnədə olsun, artıq xidmətlər göstərmişdir. Keçənlərdə Dərbənddə nəşr olunan "Azad Dağıstan" qəzetəsində də ciddi surətdə iştirak edirdi.

**Dağıstan istiqlaliyyəti və Kuban Radası**

Kuban nahiyə Radasının Sülh Konfransında olan heyəti sədri Bıç Dağıstan Cümhuriyyətinin Dabravol ordusu tərəfindən dağıdılması münasibətilə Dağıstan Cümhuriyyətinin Xariciyyə naziri Bammatov namına iyunun 8-də göndərdiyi cavab notasında general Denikinin hərəkatını zəmm etməklə [pisləməklə], o cümlədən yazır ki, Şimali Qafqaziyada asayiş və tərəqqini sıxı coğrafi təmas, qarşılıq[lı] hörmət və ehtiram, hər iki tərəfin istiqlaliyyətini etiraf etmək əsası ilə iqtisadi mənfəətlərin ümumiləşməyi təmin edə bilər. Kuban kazakları Şimali Qafqaziya Cümhuriyyəti millətləri ilə mehribanlıq və sülh ilə yaşamaq istəyir. Onların arasında ixtilaf salmaq təşəbbüsatı Kuban əhalisi mənafeyinə düşmənanə bir əqd hesab edilib onun əleyhinə mübarizə ediləcəkdir.

## TÜRKİYƏDƏ
## TÜRKİYƏ HAQQINDA AVROPA MƏTBUATI

**Fransanın Türkiyədəki siyasəti**

Türkiyə haqqında Avropa mətbuatı bir çox məqalələr yazmaqdadır. Bu məqalələrdən bəzilərini oxuyuculara bildirmək üzrə İstanbul qəzetələrindən iqtibas etdik.

2 təmmuz tarixli "Aksion fransız"dan:

*"Dördüncü dəfə olaraq Müttəfiqlər Osmanlı imperatorluğunun taleyi haqqındakı fikirlərini təbdil edirlər [dəyişdirirlər]. 1915 və 1916 sənələrində münəqid etilafnamələr [imzalanmış sazişlər] ilə Türkiyənin, italyanların da bir mövqeyi olmaq üzrə Fransa, İngiltərə və Rusiya arasında təqsimi [bölünməsi] düşünülmüşdü. Bu etilaflar [sazişlər] Konfransın məsələyə vəzi-yəd etməsinə [əl qoymasına] qədər uyquya daldılar. O zaman vəkalətlər üsulu meydana çıxdı. İstanbul Amerikaya verildiyi halda, Fransaya kəndisini qayət az əlaqədar edən Bəhri-Siyah səvahili [Qara dəniz sahilləri] qalırdı.*

*Birdən-birə İngiltərə Konfrans hüzuruna bir maharaca çıxardı. Konfrans bunu dinlədikdən sonra ən eyi surəti-həllin İstanbulu türklərdə buraxmaq olduğunu gördü.*

*Məsələ bu şəkildə ikən Damad Fərid paşanın məktubu və aldığı cavab işə başqa bir rəng verdi. Vokresson mürəxxəslərinin [nümayəndələrinin] zəmin və zamana müvafiq olmayan nümayişləri, üsula müxalif millətçiliyi əvvəlcə zatən zikr etdiyimiz [dediyimiz] səbəbə müstənid olduğu [istinad etdiyi] bu gün vazehən [açıq-aşkar] anlaşılmaqdadır. Bu da İstanbulda icra edilməkdə olan şantajın səmərəsidir.*

*Gənc Türklərin bəzilərini məmləkətdə təhrik etmişlər. Əhalini ayaqlandıracaq iqtidarı mövcud olduqca, əski türklərlə müfid [faydalı] bir tərzdə qonuşmaq mümkün olammayacağını dərk etmək müşkül bir şey deyildi. Müzəffəriyyətimizin İttihad və Tərəqqi Komitəsinin vücudunu məhvə kafi gələcəyinə hökm etməklə çox xəta edildi. Şunu anlamadıq."*

**Türkiyə mürəxxəsləri haqqında**

Türkiyə mürəxxəslərinin [nümayəndələrinin] Parisə əzimətləri [yola düşmələri] münasibətilə "Jurnal" qəzetəsi yazır:

*"Vəqayeni [hadisələri] izah etmək üçün daima bir bəhanə bulmaq lazım olduğu üçün, bunun üzərinə türklərin də qeyri-qabili-müdafiə müddəiyyat dərmiyan etdikləri [müdafiə ediləcək bir yanı olmayan iddialar meydana atdıqları] irəliyə sürüləcəkdir.*

*24 həziran [iyun] Osmanlı heyəti-mürəxxəsəsinin verdiyi müxtirədə [yazılı müraciətnamədə] Babi-alinin [Osmanlı hökumətinin] Misir, Tunis və hətta Cəzayir üzərindəki hüquqi-sabiqəsindən [keçmişdəki haqqından] bəhs edilirmiydi? Birinci Osmanlı notası və heyəti-mürəxxəsələri rəislərinin Müttəfiqin [Müttəfiqlər] məclisini incəliyindən dolayı heyrətə düşürən bəyanati-şifahiyyəsindən sonra çox qərib [qəribə] bir xəta! Türkiyəni idarə edən adamların zehniyyəti haqqında yanlış fikirdə bulunduğunu bir çox kimsələr iddia edirlər.*

*İttihad və Tərəqqi Komitəsinin icraatı məmləkəti qanqren etmişdir. Türkiyə təshih qəbul etməz [düzəlməz].*

*Halbuki həqiqət büsbütün başqa. Türkləri köçəbə bir əşirət olmaq üzrə tələqqi edənlərin [qiymətləndirənlərin] xilafına olmaq üzrə bir Osmanlı hissi-millisi mövcuddur, türklərin kəndi böyük mazilərini [keçmişlərini] unutmamışlardır.*

*Digər tərəfdən, İttihad və Tərəqqi Komitəsi on sənəlik diktatorluğu zamanında məmləkətdə qəvi [güclü] bir surətdə təəssüs etdiyi [yerləşdiyi] də səhihdir. Bir qaç rəisi düşürən fəlakəti-üzma [böyük fəlakət], kadrolar heç bir təsir icra edəmməmişdir. Alman məmləkətini qırmaq istəyib də, fransız tərəfdarlığında bulunan zəvatın [şəxslərin] mövqeyi olduqca müşküldür. Onlar fəzlə milliyyətçilik yapmaq məcburiyyətindədirlər. Hər yerdə, Macarıstanda, Ukraynada, Qafqaziyada bizə xidmət etmək istəyən adamları tərk etdiyimiz kimi, bunları da kəndi hallarına buraxacaqmıyız?"*

"Over" qəzetəsindən:

*"Keçən gün ən böyük bir laqeydi ilə [laqeydliklə] Dördlər Məclisinin «xəstə adam»ın yuvasını təqsimə [bölüşdürməyə] qərar verdiyindən bəhs olunurdu. Fəqət bu proje «Osmanlı imperatorluğunun türklərlə məskun olan əqsamına [türklər yaşayan hissələrinə] tam və mütləq bir hakimiyyət bəxş olunacağını» vəd edən Vilson prinsiplərinin 12-ci maddəsi ilə nasıl qabili-təlif olar [necə uyğunlaşar]? Osmanlı imperatorluğu daxilində türklərlə məskun olan Ankara ilə Bursa vilayətindən qeyri əqsam yoxmudur? Rumlarla ermənilər tərəfindən irəliyə sürülən statistiklər nə qədər tərəfgiranə olursa-olsun, əksini göstərir."*

"Aksiyon fransız" qəzetəsi isə müvəqqət surəti-təsviyələrin müvafiq olduqları yerlərdə qəbul edilmələri lazım gəldiyini və sanki artıq Rusiya mövcud deyilmiş kimi ortaya sürülən Türkiyənin müqasiməsi [bölüşdürülməsi] vəxim [təhlükəli] nəticələr tövlid edə [əmələ gətirə] biləcəyini bəyan eylədikdən sonra deyir ki:

*"İstanbulda bir dövləti-müəzzəmənin [böyük dövlətin] yerləşməsi Avropada sərbəsti və müvazinətlə qabili-təlif olmayacağını təxəttür edincə [Avropada sərbəstlik və müvazinətlə uyğunlaşmayacağını yada saldıqda], Osmanlı imperatorluğunun tamamiyyəti-mülkiyyəsi [torpaq bütünlüyü] düsturu zində [canlı, diri] bir həyatla yenidən canlandı. İngiltərə Hindistandakı əmniyyəti əsbabını [təhlükəsizliyinin şərtlərini] irəliyə sürərək bunu qəbul etdi və məqami-xilafətin ixtiyarı Türkiyənin əlində bulunması cahani-islamı idarə etmək iddiasında bulunan gənc və millətpərvər Ərəbistanın əlində bulunmasından daha münasib olacağını anladı."*

"Exo de Pari" qəzetəsindən:

*"Osmanlı dövlətinin məhv və inqirazından [çöküşündən] məzərrətdən [ziyandan] başqa bir şey əldə edəmməyəcəyiz. Biz əsrlərcə bu ən fəna müqasiməyə [bölüşdürməyə] səssiz mümaniət etmədik [mane olmadıq]. Fəqət bu oyun çoxdan oynandı. Türkiyə böyük alman projesinin ikmalından [başa çatmasından] sonra məğlub olmaq və hakimiyyətinin bütün əski düşmənlərinə iltica etməklə [pənah aparmaqla] alman mahiyyətini üzərindən silkə bilərdi. Bundan sonra Türkiyə ayaqda dura bilmək üçün müttərid [müntəzəm] və əzmkarənə bir fəaliyyət göstərməli idi."*

**Yeni üsul mitinq**

İzmirin yunanlılar tərəfindən işğalı münasibətilə İstanbulda zühura gələn böyük nümayiş və mitinqlər şimdi də başqa bir şəkildə, yeni bir üsulda davam edir. Bu üsul üzrə hər protestoçu türk açıq kart-postal [poçt açıqcası] ilə Parisdəki Dördlər Məclisinə protestolar göndərməkdədir. Göndərilən kart-postalların ədədi milyonlara çatır. Bir nümunə olmaq üzrə İstanbul mətbuatından alıb buraya nəql ediriz:

*"İstanbulda (...) səfarətxanası vasitəsilə Dördlər Məclisi-Alisinə*

*İzmirin yunanlılar tərəfindən işğalını şiddətlə protesto ilə bu haqsızlığın təmirini rica edirəm.*

*İzmirli Vəli Hüseyn"*

**Berqam hadisələri**

Yunan əsgərləri Berqam[a] şəhərini işğal etdikdən üç gün sonra türklər qəfləti hücum ilə yunanlıları şəhəri təmizləməyə məcbur etmişlərdir. Ermənilər öz kəlisalarında gizlənmişlərdir. Türklər ermənilərin məsuniyyəti-şəxsiyyələrinə [şəxsi toxunulmazlıqlarına] söz verib evlərinə getmələrini təklif etmişlərdir. Ermənilər türklərin təklifini rədd etmişlərdir.

**Üsyan yatırılmışdır**

Yunan məmurları Əhmədlidə olan başçılardan 17 nəfərini məhkəmeyi-hərbiyyəyə vermişlərdir. Bunlar həman şəhərin İtaliya əsgərləri tərəfindən işğalına mümaniət [maneçilik] göstərmişlərdir. Tutulanların 16 nəfəri asılacaqdır.

**Frakiya məsələsi**

"Ələmdar" qəzetəsinin məlumatına görə, Parisdə olan Türkiyə sülh heyəti nümayəndəsi [Əhməd] Tofiq paşa [Okday] İstanbula Sultan həzrətlərinə iki teleqraf göndərmişdir. Teleqraflarda deyilir ki, Türkiyə məmləkəti salamat qalacaqdır. Tofiq paşa Parisdə məşhur siyasət xadimləri ilə görüşmüşdür. Onlar da bu məsələ haqqında müsbət rəy vermişlərdir.

## İRAN İŞLƏRİ

**İran və bolşeviklər**

Lütfabaddan "Rə'd" qəzetəsinə xəbər verirlər:

Bolşeviklər Aşqabadı işğal etdikdən sonra toplardan xarab edilmiş olan yerləri təmirə başlamışlardır. Onlar şəhərin ətrafında böyük səngərlər və istehkamat [istehkamlar] hazırlamaqdadırlar ki, buradan Tazəşəhərə hücuma başlasınlar. Bolşeviklərin qüvvəsinin miqdarı məlum deyildir. Bolşeviklərin Aşqabadı işğal etmələri İran sərhədində yaşayan əhalini böyük həyəcan və təşvişə salmışdır. Sərhəd əhalisi Xorasan həvalisinə [ətraflarına] müraciətən onları müdafiə etməkdən ötrü lazımi tədbirlər görülməsini rica etmişlərdir. Hökumət tərəfindən bolşeviklərin İran sərhədinə təcavüz etməyə imkan verməmək üçün sərhədin bir çox yerləri möhkəmləşdirilib istehkamat yapılmışdır.

**Azərbaycan sərhədində**

Makudan teleqrafla "Rə'd" qəzetəsinə xəbər verirlər ki, neçə gün bundan əqdəm [qabaq] bir neçə nəfər erməni Ərəbtaxta deyilən kəndə gəlib oranın müsəlman əhalisinə silahlarını tərk və ermənilərə təslim olmasını təklif etmişlərdir. Müsəlmanlar iki saat möhlət istəyib və müzakiratdan sonra təslim olmayıb mübarizə və müharibədə bulunmağı təhti-qərara almışlardır. Ermənilər gəldikdə onların arasında şiddətli müharibə başlanıb, bir qədər vuruşmadan sonra ermənilərdən bir çox ölən və yaralanan olub, 100 nəfər də əsir alınmışdır. Müsəlmanların əlinə bir çox tüfəng, patron və beş dənə pulemyot keçmişdir. Ölənlərdən bir polkovnikin cibindən bir kağız tapılmışdır ki, onunla həman şəxsin müsəlmanları tərksilah etməkdən ötrü göndərilməsi təsdiq edilirmiş.

**Təbrizdə şiddətli yağış**

Axır günlər Təbrizdə şiddətli yağışlar yağdığından şəhəri sel basıb Xətib məhəlləsini xarab etmişdir. Seldən 80 ev dağılıb, insan tələfatı olmuşdur.

**Əfqanların təcavüzü**

Məşhəddən teleqrafla xəbər verirlər ki, axır vaxtlar əfqanlar İran sərhədinə yaxınlaşıb oralarda yaşayan əhalini qətl-qarət etməyə başlamışlardır. Hökumət tərəfindən sərhədə bir qədər qoşun göndərilib və eyni zamanda sərhəddəki əfqan hökuməti məmurları ilə müzakirata şüru edilmişdir [müzakirələrə başlanmışdır].

**Türküstan qaçqınları**

Yenə həman qəzetəyə xəbər verirlər ki, Aşqabaddan qaçmış olan 61 nəfər rus və erməni menşevikləri İran sərhədində qaraqol dəstələri tərəfindən tərksilah və həbs edilib Məşhədə gətirilmişlərdir.

**Hacı Əhməd**

Qəzvindən xəbər verirlər ki, Kiçik xanın birinci müavinlərindən olan məşhur Hacı Əhməd Kəsmeyi Cəngəldə tövqif [həbs] edilib və bu günlərdə mühafizə altında Qəzvinə gətirilmişdir.

**Xorasan sərhədlərində**

Gilandan raporla məlum edirlər:

Hökumət tərəfindən Səngdivara məmurlar göndərilib orada yaşayan əhalinin halından müttəle [xəbərdar] olmuşlardır. Bolşeviklərin sərhədə yaxınlaşmaları münasibətilə Günavə və Səngdivar tərəflərində istehkamat yapılmaqdadır. Mavərayi-Bəhri-Xəzərdən [Zakaspiyskdən] Gilana bu günlərdə təzədən iki min nəfərdən ziyadə qaçqın varid olmuşdur [gəlmişdir]. Türkmanlardan bir çoxları qaçqın olmayıb, bolşeviklərə rəğbət və tabe olmuşlardır. Çöhçə və Ləhənd türkmanları bolşeviklərlə bərabər işləyib onlara kömək edirlərmiş.

**Türkmanların istidası [xahişi]**

Şirvandan xəbər verirlər ki, türkmanların rəisi olan polkovnik Hacı Murad sərhəddəki teleqrafxanaya gəlib Xorasan valisinə teleqrafla müraciətən bir neçə nəfər türkmanın müsəlləh [silahlı] olaraq İran torpağına keçib valinin hüzuruna qəbul olmalarına icazə verilməsini rica etmişdir. Türkmanlar bir çox mühüm məsələlər barəsində İran hökuməti ilə müzakiratda bulunacaqlardır.

**Bəxtiyarların üsyanı ətrafında**

İsfahandan "Rə'd" qəzetəsinə xəbər verirlər:

Bu gün Sərdar Zəfər ilə Sərdar Əsəd və Əmir Mücahid bəxtiyarların tərəfinə hərəkət edib onlarla sülh müzakiratına şüru etmişlərdir [başlamışlar]. Cəfərqulunun öldürülməsi barəsində verilən xəbərlər doğru deyildir.

**Şahsevənlərin şərarəti [yamanlığı, fitnə-fəsadı]**

Zəncandan xəbər verirlər ki, Şahsevən süvariləri Gərmərud və Xalxal tərəflərində neçə gündür böyük qətl-qarətdə davam edirlər. Dinc əhali onların hərəkətindən təngə gəlib hökumətə müraciətən kömək istəmişlərdir. Neçə gün bundan əqdəm [qabaq] quldurlar Zəncandan Təbrizə gedən bir karvanı qarət edib yüz min manatlıq mal və qızıl pul aparmışlardır. Bu günlərdə hökumət tərəfindən Sarım əs-Sultan və Bahadır əs-Sultanın sərkərdəliyi ilə min nəfərdən ibarət bir süvari dəstəsi göndərilib quldurların dərdəst edilməsindən [tutulmasından] ötrü lazımi tədbirlər görülmüşdür.





**İran şahının Avropa səyahəti**

"İran" qəzetəsində Rəisi-vükəla [Baş nazir] Vüsuqüddövlənin imzası ilə dərc edilmiş bir elanda denilir ki, Avropa müharibəsi bitdiyindən dolayı əlahəzrət Sultan Əhməd şah qeyri-rəsmi olaraq altı aylığa xəstəliyini dəf etməkdən ötrü zilqədənin axırında Ənzəli təriqi [yolu] ilə Avropaya əzimət edəcəkdir [yola düşəcək]. Bu günlərdə Təbrizdən vəliəhd Tehrana varid olacaq [gələcək], şah həzrətləri Avropadan qayıdanadək paytaxtda bulunacaqdır. Tehran qəzetələri şahın bu Avropa səfərinə böyük əhəmiyyət verib, bundan bəzi nəticələr gözləyirlər.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Bu vaxtadək Maliyyə Nəzarətinin şəhər dairəsi üçün vergi polisi mövcud idi isə də, mədən dairəsində böylə polis yox idi. Maliyyə Nəzarəti bunu nəzəri-etibara alaraq Balaxanı-Sabunçu dairəsində də bir vergi polis[i] təsisi haqqında qanun layihəsi tərtib verib Vükəla Şurasında təsviblə [Nazirlər Kabinetində razılaşdırmaqla], bu günlərdə təsdiqdən ötrü Məclisi-Məbusana idxal etdiriləcəkdir.

- Maliyyə Nəzarəti tərəfindən üzümdən qayırılan şərablara aksiz təyini haqqında bir qanun layihəsi tərtib verilmişdir ki, bu günlərdə Vükəla Şurasına təqdim ediləcəkdir.

- İşbu günlərdə Xariciyyə Nəzarətinə Şamaxı, Quba və Azərbaycanın başqa yerlərində 1918-ci sənədə müsəlmanların başlarına açılmış fəlakəti təyin üçün intixab edilmiş [seçilmiş] Fövqəladə Komisyonunun məlumatını havi [ehtiva edən] materiallar varid [daxil] olmuşdur ki, mətbuat vasitəsilə elam olmaqla [bildirilməklə] bərabər, xırda kitabçalar şəklində nəşr ediləcəkdir.

- Hal-hazırda Şamaxı ilə Kürdəmir miyanındakı [arasındakı] şose yolunda böyük hərəkat müşahidə olunmaqdadır. Fəqət yolun fəna halda bulunması hərəkata mümaniət [maneçilik] göstərməkdədir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Türuq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciətən rica etmişdir ki, müyəssər olarsa, həman yol qaydaya salınsın. Bundan ötrü də qaçqınlardan istifadə etmək olar.

- Hal-hazırda Azərbaycandakı qaçqınların hesabı nəhayət dərəcədə böyük olduğu üçün gənc Cümhuriyyətin xəzinəsinə təsir edəcəyini nəzərə alaraq, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti qəza qaimməqamlarına və qəza məmurininə [məmurlarına] müraciətən rica etmişdir ki, xalq arasında növbənöv ianə yolları açılsın. Bundan ötrü Nəzarət tərəfindən xüsusi ianə dəftərçələri tərtib verilib göndərilmişdir.

- Şimali Qafqaziyadan Bakıya gələn qaçqınlardan Yalama mövqifində [stansiyasında] malları üçün Bakı mövqifinədək yol xərci alınır. Əlavə, Bakıda da yeni fraxt [daşınma xərci] tələb edilir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti işbu məsələ

haqqında Türuq və Məabir Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir.

- Şamaxı qəzası qaçqınlarının əksərisi torpaq və ziraət və fəllahət [əkinçilik və kənd təsərrüfatı] alətlərindən məhrum olduqlarından çöl işlərinə başlamayacaqlarını bildirərək, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Beynəlidarə Komisyondan [İdarələrarası Komissiyadan] rica etmişdir ki, təcili surətdə işbu məsələ haqqında lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Son vaxtlarda tamaşaxana və xüsusən bulvar və bu kimi yerlərdə bir çox saillik [dilənçilik] edən ətfal [uşaqlar] görülməyə başlamışdır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bunun önünü almaq qəsdi ilə Bakı qradonaçalnikinə müraciətən rica etmişdir ki, böylə çocuqlar polis məmurları vasitəsilə alınıb Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] Ətfala Yardım Bürosuna göndərilsin. Zira bu barədə Mərkəzi Ev Komitəsinə məlumat verilmişdir.

**MƏTBUAT**

Azərbaycan-Gürcüstan münasibatı necə olmalıdır? Şübhəsiz, bu suala hamının bir cavabı var: Dostanə, bəradəranə [qardaşcasına].

Gürcüstan ilə Azərbaycan arasında əqd edilmiş olan siyasi-tədafei ittifaq [siyasi-müdafiə ittifaqı] daha da genişləndirilərək iqtisadca da birləşməli, yekdigərinə hər daim müavinət və müzahirət [kömək] göstərməlidirlər. Fəqət nasıl?

"B. J." nam [adlı] gürcü qəzetəsi Azərbaycan-Gürcüstan münasibatına həsr etdiyi silsileyi-məqalatda [məqalələr silsiləsində] məsələni bir kərə qələm cızması ilə həll edir. "Gömrükxanalar götürülsün, sərhəd açıq olsun, mübadilə sistemi ləğv edilsin. Azərbaycanın malı bir qəzadan digərinə necə asudə gedirsə, Gürcüstana da öylecə sərbəst buraxılsın" deyir və bunun ziddinə olanları Azərbaycan və Gürcüstan düşməni, xain elan edir.

Rusca "Azərbaycan" rəfiqimiz məsələyə öylə baxmayır. Onun zənnincə:

*"Madam ki bir məmləkət müstəqil yaşayır, o halda şimdiki cahan münasibati-iqtisadiyyəsi təqazası [tələbi] ilə gömrükxanalar olmalıdır. Hökumətin borcudur məmləkətə gətirilən və buradan aparılan malları kontrol altına alsın və idxalat həm ixracatı bir nizama, qaydaya salsın. Ümumun keçirməkdə olduğu şiddətli iqtisadi və mali müşkülat [maliyyə çətinliyi] zamanında başqa dürlü olammaz.*

*Əlbəttə, hamımız biliriz ki, Gürcüstan həmişə kənardan aldığı taxıl ilə dolanır. Ona neft məhsulatı da lazımdır. Fəqət bunu da biliriz ki, Azərbaycan dəxi ildə kənardan 7 milyon pud taxıl alırdı. Şimdi ancaq qənaət və bir də pambıqçılıq ölməklə taxıl əkininin artması nəticəsində özgəyə möhtac deyil və hətta qonşularına da kömək edə bilir.*

*İki qonşu millətin ittifaqı bittəb [təbii ki], yalnız dava meydanında hərbi ittifaqla məhdud qalammaz. Hər bir siyasi məsələnin həllində iqtisadiyyat dəxi təbii surətdə meydan alır. Bu nöqteyi-nəzərdən Azərbaycanla Gürcüstan kəndi münasibati-iqtisadiyyələrini başqalarına*





*nisbətən daha yüngül şərait və yekdigərinə qarşı imtiyazlar əsası ilə təyin etməlidirlər.*

*Azərbaycan hökuməti bu uğurda iqdamatda [təşəbbüsdə] bulunmuşdur. Bu vaxtadək taxıl ixracı məmnu [yasaq] ikən, indi Gürcüstana külli miqdarda taxıl buraxmışdır. Hətta nəticədə Azərbaycanın daxilində çörək bahalanmışdır. Fəqət Azərbaycan öz camaatının ehtiyacını və bazarının vəziyyətini də nəzərə almalıdır.*

*Azərbaycan hökuməti nə ilə mümkün isə gürcülərə kömək etməyə səmimiqəlbdən hazırdır. Lakin bunu da hesaba almaq məcburiyyətindədir ki, bu il ancaq 50% əkin qalmışdır və gələcəkdə dəxi Gürcüstanı müntəzəmən o qərar ilə təchiz etməlidir ki, öz camaatı da ac qalmasın.*

*Biz ümum sair məhsulat [bütün digər məhsullar] ilə də yek-digərimizi bu əsas üzrə təchiz etməliyiz.*

*İştə, bizim iqtisadi münasibatımız böylə olmalıdır. İki müstəqil dövlət arasında başqa yol ola bilməz.*

*Gürcü siyasi dairələri əmin olmalıdır ki, keçirdiyimiz təhlükəli bir zamanda iki müttəfiq dövlət hər iki millətin rifahi-halı üçün bərabərcə çalışacaq və ümumi iş uğrunda müvəffəqiyyətlə mübarizə edə bilmək üçün nələri varsa, insaf üzrə bölüşəcəklərdir."*

- Sülh Konfransı tərəfindən Türkiyə heyəti-mürəxxəsəsi müxtirəsinə [nümayəndə heyətinin rəsmi müraciətinə] verilmiş olan cavab İstanbul qəzetələri tərəfindən ciddi surətdə müzakirə edilməkdədir. Bu xüsusa çox mütaliələr təxsis edilir [tədqiqatlar, qənaətlər ayrılır]. Əzcümlə [o cümlədən] sərbəst millətçilər naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan "Təsviri-əfkar" qəzetəsi həman cavab haqqında yazdığı bir məqaləsində deyir ki:

*"Vüzəra böhranı ehtimalı ağır nəticələrlə xitampəzir olmalı [başa çatmalı] idi. Klemansonun Parisdə mürəxxəslərimizə vermiş olduğu cavab buna qəti bir dəlildir. Durbin [uzaqgörən] mütəfəkkirlər, heç şübhəsiz, bu işin bizim arzularımızı rədd edilməkdən ibarət olduğunu anlarlar. Burası vəziyyətimizin nə qədər böhranlı olduğunu isbat edir və müqəddəratımız haqqında qəbul olunmuş rəhmsiz qərarları bir dərəcə andırır. Nə yazıq ki, bizi diri-diri qəssabxanaya çəkirlər də, nicat qapısı tapmağı bacarmayırız. Hənuz yek-digərimizi parçalamağı, mənsəb davasını davam etdiririz. Bədbəxt vətən mövcudiyyətini qeyb etdikdən sonra hankı valinin dalınca qoşacağız, əcəba. Klemansonun mürəxxəslərimizə müraciətən qullandığı sözlərdən də qəti və şiddətli hesab tələbi təsəvvür olunarmı? O dərəcə şiddət və qətiyyətlə müşkül vəziyyətimiz haqqında bizdən hesab tələb edilir, günümüzün keçmiş olduğunu bundan da aydın təsvir etmək üçün daha başqa bir vəsilə varmı idi? Gözümüzü açıb qarşımızda bulunan uçurumu görmək üçün daha nə gözləyiriz? Başımız üzərindəki təhlükə barı bizi düşündürməyirmi?"*

Radikal firqəsi mürəvvici-əfkarı olan "İləri" qəzetəsi dəxi eyni məsələ haqqındakı bir məqaləsində deyir ki:

*"Konfrans bizə gözəl bir ibrət dərsi verdi. Fəqət ondan istifadə edə biləcəkmiyiz? Müxtirəmizə cavabən verilmiş*

*olan notada denilir ki, Türkiyə mötəliflərə [Etilaf dövlətlərinə; Antantaya] qarşı silah qaldırmış və məğlub olmuşdur. Etilaf dövlətləri hazırda ağır bir məsələnin həlli qarşısında bulunur: Türkiyə imperiyası daxilində yaşayan müxtəlif millətlərin müqəddəratını təyin etmək.*

*Biz bu sözü böylə təfsir edə bilərik: İmperiyanı təşkil edən millətlər arasında türk milləti dəxi vardır. Madam ki, Konfrans Türkiyəni sabiqki halında təcdid [bərpa] etmək fikrində deyilmiş, o halda türk milləti də öz tələbini Konfransa bildirməlidir. Sair millətlər böylə etmişlərdir. Əcəba türklər nə istəyirlər? Yarın konfrans bizə iştə bu sualı verəcəkdir."*

## ƏRZURUM KONQRESİ

Ərzurumda böyük bir konqre dəvət edilmişdir. Bu konqre şərqi vilayətlərin müqəddəratı məsələsi ilə iştiğal edir [məşğul olur]. Konqre Türkiyədə başlayan milli cərəyanların bəliğ [açıq] bir nümunəsidir. Batumda çıxan "Sədayi-millət" qəzetəsi bu konqredən bəhslə aşağıdakı məqaləni yazmışdır:

**Türkiyə Şərqin hakimidir!**

334 sənəsi 11 təmmuzunda dövri-istibdadı təməlindən imha [məhv] edən Türkiyənin mücahidi-hürriyyət üzvləri millətinə bəxş eylədiyi bu tarixi əyyamın [günlərin] nə qədər məsud və münşərih [şən, ürəkaçan] olduğunu fəvaidi-əziməni möhtəvi mütəəddid vəq'ələrlə [böyük faydalar ehtiva edən çoxsaylı hadisələrlə] isbat etmişdir. Bu dəfə də naməlum bir səbəbdən dolayı Cahan hərbini üful edən [uduzan] türklərə şimdi də Sülh Konfransı namı altında birləşən mədəni Avropa ricalı [dövlət adamları] şücaətlərlə, qəhrəmanlıqlarla, əsalətlərlə şöhrətşüar olan [şöhrət tapan] türklərin gövdəsindən qollarını, bacaqlarını qoparıb ətrafdakı törədilərə [yerdən bitmələrə] hədiyyə olunarkən qolsuz, bacaqsız bir gövdə başı ilə dünyada yaşayammayacağını, yaşasa da, heç bir fayda təmin edəmməyəcəyini pək yaxından dərk və təfərrüs edən [anlayan] vilayati-şərqiyyə əhaliyi-islamiyyəsini[n] vəkilləri yenə bu tarixi günü millətin sinəsində böyüdərək islamiyyəti və türklüyü əbədi bir sülh və sükun dövrəsində yaşatmaq və livayi-xilafət və səltənətin [xilafət və səltənət bayrağının] bu mübarək bürclər, ovalar və zirveyi-cibal [dağların zirvəsi] üzərində bilaqeydü-şərt təməvvücü [qeydsiz-şərtsiz dalğalanması] və yenə bu torpaqlar üzərində hüquq və hakimiyyəti-islamiyyə və osmaniyyəni təmin və təqviyə etmək [gücləndirmək] məqsədilə 11 təmmuz 335 Ərzurum müəzzəm konqresi vilayati-şərqiyyənin ən mümtaz [seçilmiş] və fəal simalarının ictima [toplanması] və iştirakı ilə pək müstəsna bir surətdə güşad ediləcəyini [açılacağını] ajanslar [xəbər agentlikləri] xəbər verməkdədir.

Ərzurum Konqresinin güşadından əvvəl vilayati-məzkurə mühafizə və müdafieyi-hüquqi-milliyyə cəmiyyətləri [adı çəkilən vilayətlərin milli hüququ qoruma və müdafiə cəmiyyətləri] icab edənlərlə istişarə etdikdən [lazım gələn şəxslərlə məsləhətləşdikdən] sonra işbu Konqrenin əqdinə [baş tutmasına] və vücuduna lüzum görülmüşdür.





Ərzurum Konqresi məqami-xilafətin Qafqaz sərhədlərinə mücavir [qonşu] və hakim olaraq yaşayacağını bütün cahana elan edəcək və məqami-müəllayi-xilafətin [uca xilafət məqamının] bu mübarək zümrüd ovalarda çağlayan yaşıl və namütənahi [sonsuz] irmaq və çaylarda əksəriyyəti-əziməsi [böyük əksəriyyəti] islam olan bu yerlərdəki hüquq və hakimiyyəti-milliyyə və osmaniyyənin tamami [bütövlükdə] mühafizəsi uğrunda heç bir fədakarlıqdan ictinab etməyəcəklərini [çəkinməyəcəklərini], cəmiyyəti-məzkurənin vilayat şöbələrindən [adı çəkilən cəmiyyətin vilayətlərdəki şöbələrindən] zati-şövkətmaəb cənabi-tacdari-ə'zəmi və xəlifeyi-ruyi-zəmin [ulu, böyük tac sahibi, yer üzünün xəlifəsi] şövkətli, əzəmətli padşahımız, əfəndimiz həzrətlərinə kəşidə buyurduqları [çəkdikləri] mütəəddid [çoxsaylı] teleqrafların mütaliəsində ən ziyadə calibi-nəzəri-diqqət görülən [diqqətləri ən çox cəlb edən] şu bir qaç kəlməni zikr etməklə din qardaşlarımızın dinləri və istiqlaliyyətləri uğrunda nasıl bir mücahidə cığırı güşad etdiklərini ənzari-intibaha vəz ediriz [oyaq olan, qəflətdə olmayan gözlərə göstəririk]:

"Şurayi-Səltənətin, Paris Sülh Konfransının və müəzzəm Avropanın sənələrdən bəri həll və fəsl edəmmədiyi [həll edib yekunlaşdıra bilmədiyi] vilayati-şərqiyyə məsailini [Şərq vilayətləri məsələlərini] bizlər Peyğəmbərimiz əfəndimiz həzrətlərinin imdad və ruhaniyyətinə istinadən Trabzon, Ərzurum, Van, Bitlis, Xarput, Diyarbəkir, Sivas vilayəti əhalisi bu mühüm və müşkül məsaili bilamüşkülat [çətinlik çəkmədən] Ərzurum müəzzəm və möhtəşəm konqresində həll edəcəyimizi süddeyi-səniyyeyi-cənabi-tacdariyi-əzəmilərinə iblağ etməyə ictisar eyləriz [böyük tac sahibinin mübarək qapısının astanasına təbliğ etmək cəsarətini göstəririk]."

Mütarikənin fərdasından [atəşkəsin ertəsindən] bəri bütün mətbuatı və hətta məhafili-aliyyəni [böyük dövlət idarələrini] işğal edən məsələ sırf millətlərin kəndi müqəddəratlarına hakim olmasına mütədair [aid] məvaddın süvəri-tətbiqiyyəsinin [maddələrin necə tətbiq olunacağının] gecikmiş bulunmasından mütəvəllid [irəli gələn] hüsula gələn əfkar və qələyani-ümuminin [fikirlərin və ümumi həyəcanın] basdırılması idi. Sırası gəldikcə, düsturların ədəmi-tətbiqindən [tətbiq edilməməsindən] bəhs açan ərkani-mətbuat və cəmiyyat [mətbuat və cəmiyyətlərin xadimləri] qalib və məğlub millətlər üçün mənsub olduqları hökumətın qeyri-qabili-təhəmmül [dözülməz] cəzalarına hədəf olaraq susdurulur.

İştə, bu kimi keşməkeşlərə bir nəhayət vermək əzmi-mərdanəsi ilə meydani-mücahidəyə atılan vilayati-şərqiyyənin əsil və nəcib övladlarının tarixi cahangirliklərinin nəzəri-etibara alınmasını və yenə tarixin səhaifi-möhtəşəmində [möhtəşəm səhifələrində] zərrin qələmlərlə mənquş [qızıl xətlərlə yazılmış] bahadırlarının nəzəri-aləmdə işğal etdiyi mövqeyi-möhtərəmin dərpiş edilməsini [nəzərə alınmasını] və əcdadi-üzzamının şücaət və şəhamətləri [böyük əcdadların şücaət və igidlikləri] ilə tarixdə ibqayi-nam və etilayi-şanu-şövkət [ad-sanlarını əbədi saxlamaq və şan-şöhrətlərini ucaltmaq] üçün göstərdikləri layüəd və layühsa

mənaqibi məa ziyadətən ibraz edəcək [saysız-hesabsız qəhrəmanlıqları artıqlaması ilə nümayiş etdirəcək] və o məhamid qəhrəmanlarının övlad və əhfadı [tərifələnməyə layiq qəhrəmanlarının övladları və nəvələri] olduqlarını bir kərə daha cahana anlatmaq və təsdiq etdirtmək üçün hər şeyə köks gərərək Ərzurum müəzzəm konqresi təhtində [altında] birləşərək, amalını bütün kürreyi-ərzdə məskun [var olan] hökumata və millətlərə və bunlara mənsub mətbuat və cəmiyyata rəfiavazeyi-iştika eyləyərək [şikayət səsini ucaldaraq], hökumətləri nəzdində təşəbbüsati-ciddiyyə və müsmirədə bulunmalarını [ciddi və faydalı təşəbbüslər göstərmələrini] tələb və iltimas [xahiş] edəcəklərdir.

Binaənileyh [ona görə], məqamixilafətin hər iki tərəfdən biz əlviyeyisəlasə islamlarının atiyi-qəribdə [yaxın gələcəkdə] təyin və təhdid ediləcək [məhdudlaşdırılacaq] hüdudlarına daha şimdidən mücavir [qonşu] və hakim olmaq əzmini pərvərdə etməsi [iradəsini bəsləməsi] bizim üçün fəlah və nicat [qurtuluş və xilas] dövrələrinin yaxın bulunduğunu və istiqlaliyyəti-tamməyə məzhəriyyətimizin qəribən [tam müstəqilliyə nail olmağımızın yaxın zamanda] həll edilmək üzrə bulunduğunu anlamaq bizim üçün qolaylaşmışdır.

Bunun üçün nəzərlərimizi sülh masasına, Ərzurum Konqresinə tikməliyiz. Burada veriləcək qərarlara intizarən çalışmalıyız. Həman cənabi-Haqq din qardaşlarımızı əməllərinə [arzularına] nail, müvəffəqün-bilxeyir [xeyirli işlərdə müvəffəq] eyləsin. Amin.

**VƏTƏN!**

*Bir əsgər dilindən*

Ah, ey vətən, ey qəlbimin sultanı!
Ey ruhumun, amalımın cananı!
Ey ordunun şanlı virdi-zəbanı;
Sənə yüksək şan və şərəf dilərəm!
Ey cəddü-əb əsrarının məkanı!

Ulu dağlar, göllər sinəndə parlar,
Quşlar ötər, həzin-həzin su çağlar,
Baxdıqca hey könlüm fərəhdən ağlar.
Gözyaşımı kəfənimlə silərəm,
Ey cəddü-əb əsrarının məkanı!

Badın mənə şəfa, suyundur şərbət,
Cənnət olsa yerim sənsizdir qürbət,
Gələr bir gün şanlı günlərin əlbət,
O günləri məzarımda bilərəm,
Ey cəddü-əb əsrarının məkanı!

Bir ordunun bir nəfərindən oldum,
Düşmənləri görcək mən cana doldum,
Əsgərlikdə hər əməlimi buldum,
Düşməni iti qılıncımla didərəm,
Ey cəddü-əb əsrarının məkanı!

Mən əsgərəm, vətən nazın çəkərəm,
Məsərrətdən gözyaşımı tökərəm,
Süngüm ilə sərt qalalar sökərəm!
Mən ölərsəm məqsuduma yetərəm,
Ey cəddü-əb əsrarının məkanı!

Mən gedirəm, vətən, sən qal səlamət,
Türk əsgəri eşitməz heç məlamət,
Yavuzluqdan var türklərdə əlamət,
Mən gedərkən gülə-gülə gedərəm,
Ey cəddü-əb əsrarının məkanı!

*Əli Məstan*





**GÜRCÜ MƏTBUATI**

**"Yeganə təriq"**

"Sakartvelo" gürcü qəzetəsinin 148-ci nömrəsində Zaqafqaziya millətlərinin münasibatı haqqında yuxarıda qeyd edilmiş sərlövhə ilə bir məqalə yazılmışdır. Məqalənəvis [məqalə müəllifi] deyir ki:

*"Ermənilərlə müsəlmanlar arasında aramsız ədavət və düşmənçilik mövcuddur. O cəhətə də aralarında vaxtbavaxt müsəlləh [silahlı] vuruşmalar, qətl-qarət, vəhşilik zühur edir. Vaxtbavaxt gah bu tərəf, gah o biri tərəf etiraz edir, fəryadlar qoparır, amma bunların heç biri işə bir fayda verməyir. Ona görə bir-biri ilə qatışıq yaşayan bu iki camaat yekdigərini [bir-birini] puç eyləməyə çalışır."*

Ondan sonra Azərbaycan nümayəndəsi mətbuat vasitəsilə erməni hökuməti İrəvan müsəlmanları əleyhinə təqibat başladığını elan etdikdən sonra qəzetə deyir:

*"Gərək azərbaycanlı, gərək erməni tərəflərindən indidən bu yolda səy və təlaş edilməzsə, işin axırı nə cür olacağını cümləmiz başa düşə bilərik. Bunca qətl və qitala [qırğına] və qanunsuzluğa intəha verilsin gərək. Zaqafqaziyanın bütün mədəni qüvvəsi müdaxilə edib iki qonşu arasında hər iki tərəfi müttəhim edici düşmənçiliyi götürməklə bərabər, onları barışdırıb dostlaşdırsın gərək. Bu yolda hamıdan artıq iş görməyə mümkün olan tərəf nədənsə hamıdan az fəaliyyət göstərir. Böylə dedikdə, nəzərimizdə Ermənistan hökumətini və erməni başçılarını tutmayırıq. Çünki erməni başçıları idi ki, ən əvvəldən yanlış təriq [yol] tutub erməni məsələsini Avropanın siyasət meydanına çıxartdılar. Onların bu cür kutahbin [dar görüşlü] siyasətləri Türkiyə erməniləri üçün qırğın səbəbi oldu. Türkiyə erməniləri düçar olmuş, hətta bütün Gürcüstan məmləkətini təhdid altına almış qırğınların səbəbi o vaxtların türk məmurları vəhşiliyindən artıq, erməni başçılarının siyasəti olmuşdur. Buna ümdə sübut budur ki, Türkiyədə ermənilərdən başqa xah xristian, xah qeyri-xristian tayfalar da yaşayırlar. Amma onların heç biri ermənilər kimi qətliama düçar olmamışlar. İndiyədək nə olub keçib, bundan sonra gələcək üçün keçmiş xətalardan istifadə edərək iki qonşu tayfa arasında mehribançılıq sazlamaq üçün çalışmaq lazımdır. Amma çifayda, erməni başçıları təzə-təzə xətalar törətməkdə davam edirlər. Halbuki həman xətalar necə ki siyasətcə, öylə də müstəqil yaşamaq cəhətincə nə qədər Ermənistana, bir o qədər də Azərbaycana və Gürcüstana müzirrdir [zərərlidir].*

*Denikin təərrüzatı [təcavüzü] bir tək bizi deyil, tamam Zaqafqaziya məmləkətlərini təhdid edən zaman Ermənistan qonşularından aralandı və indi də o halda qalır. Gürcüstan çox səylər etdi ki, Ermənistanla etilaf [razılaşma] hüsula gətirib ittifaq yapsın. Amma zəhəmatı [zəhmətləri] nəticəsiz qaldı. Hətta daşnakların qəzetələri iftiraguluq edib [iftira söyləyib] deyir ki, gürcü əsilzədəgan və irticaiyyun hökuməti erməni demokratiyasının ittifaq təmənnasına etina etməyib, irticaiyyun bəylər hökuməti ilə əlbir oldu. Yaxşı olardı ki, bu məsələyə diqqət nəzəri ilə baxıb qonşularla etilaf hüsula gə-*

*tirməyə çalışılaydı və bizimlə ittifaq əqd ediləydi. Bu iş nə qədər tez başa gəlsə, bir o qədər də gərək Ermənistan, gərək Gürcüstan və Azərbaycan üçün yaxşı olar. Daşnaksaqanların siyasi zehni zə'f etməyibsə [zəyifləməyibsə], həman etilafi-müsəlləsin [üçlü sazişin] düzəlməyinə var qüvvələri ilə çalışsınlar gərək."*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə qanunu**

Azərbaycan Parlamanının bugünkü növbəti iclasında şəhər idarələri seçkisi haqqında yeni qanun layihəsi də müzakirə olunacaqdır.

**Hövsan kəndində**

Hövsan kəndində baş verən partiyaçılıq və ədavəti rəf [aradan qaldırmaq] və səbəblərini aramaq üçün srağagün "Müsavat" firqəsi tərəfindən həmin kəndə xüsusi bir komisyon göndərilmişdi. Aldığımız məlumata görə, komisyon işini bitirib dünən qayıtmışdır.

**Piyan ingilislər**

Neçə gün bundan əvvəl bulvarda üç nəfər piyan [sərxoş] və müsəlləh [silahlı] ingilis əsgərləri əllərində konyak şüşəsi olaraq bulvarda camaata əziyyət verdiklərindən, polis məmuru tərəfindən saxlanmışlardır. Piyan ingilislər nəsihətə qulaq asmayıb tapançalarını çıxarıb polis məmurunu atmaq istəmişlər. Məmur isə cavab verməyib geri çəkilməyə başlamışdır. İngilislər əl çəkməyərək atmağa başlarlar. Polis məmuru isə cavab verməyib fitlə kömək çağırmışdır. Kömək gəlincə ingilislər hücumlarında davam etdiklərindən məmur kəndini mühafizə üçün bir güllə atmışdır. Dərhal ingilislər qaçıb gizlənmişlərdir. Sonra məlum olmuşdur ki, ingilis gülləsindən bir milis yüngül surətdə boynundan yaralanmışdır.

**Müsəlman arvadlarının şikayəti**

Müsəlman arvadları neçə gün əvvəl mühərrirlərimizdən birinə müraciətən demişlər ki, Sadovı küçədən və şəhər bağından dənizə və hamama gedərkən oralarda olan ingilis əsgərləri tərəfindən saxlanıb təhqir olunurlar. Mühərririmizin o dairə polis idarəsindən etdiyi təhqiqatdan anlaşılmışdır ki, böylə hadisələr, doğrudan da, bir neçə dəfə vaqe olmuşdur.

**"Müsavat" şöbəsi**

Mərkəzi "Müsavat" idarəsinə xəbər verilir ki, Saray kəndində Türk Ədəmi-Mərkəziyyət firqəsinin şöbəsi açılmış və idarə seçilmişdir.

**Səhiyyə nazirinə müavin**

Aldığımız məlumata görə, Səhiyyə naziri müavinliyinə doktor Məhəmməd ağa Qayıbov təyin edilmişdir.

**Avropaya ticarət heyəti**

Ticarət və Sənaət Nəzarəti Qərbi Avropa ilə ticarət münasibatı düzəltmək üçün və Azərbaycanda mövcud olan pambıq, yun və ipək kimi malları çıxartmaqdan ötrü xüsusi bir heyət göndərmək istəyir.

**Fransa ilə mal mübadiləsi**

Müttəfiqlərin Şərq ordusu komandanı general Buşe Azərbaycan Hökumətinə müraciətən Fransa ilə mal mübadiləsində bulunmağı təklif etmişdir. Müraciətində general soruşur ki:

1) Fransaya göndərmək üçün nə kimi mallar toplamaq olar?

2) Bu malların qiyməti?

3) Mal mübadiləsi üçün Azərbaycan hökuməti nə kimi təminat verər?

4) Mallar əvəzində Azərbaycan Fransadan nə kimi mallar almaq istər?

**Bakıda yeni fransız konsulu**

Fransanın başqa işə təyin edilmiş Bakı konsulu A. Qaje əvəzinə Bakıya An. Yemelyanov konsul təyin edilir.

**Tələbələrin əsgərlikdən buraxılmaları**

Dövləti Müdafiə Komitənin 23 iyulda vaqe olan qərarına görə, tələbələr sentyabrın 15-nə kimi əsgərlikdən azad edilirlər. Bütün əsgərliyə düşən tələbələr indidən Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsinə gəlməlidirlər. Məhəlli [yerli] ya kənar darülfünunlarda oxumayan tələbələr əsgərliyə aparılacaqlardır.

**"Bəsirət" idarəsindən**

Mətbəədən asılı olan bəzi səbəblərə görə dün həftəlik "Bəsirət" qəzetəsinin növbəti nömrəsi nəşr edilməmişdir.

**Yenə "Vstreça"**

İyunun 23-də "Kür farvateri" denilən nöqtədə "Liza Sokolova" nam vapor durduğu halda Lənkəran bolşeviklərinin "Vstreça" nam barkazı o məntəqəyə tərəf gəlməyə başlar. Kənarda quma oturmuş türkman lodkalarındakı gəmiçilər bunu görər-görməz kolazlara minib qaçmağa başlasalar da, "Vstreça"dakı 12 nəfər müsəlləh qırmızı əsgərlər bunları tüfəng və mitralyoz atəşinə tutarlar. Bunlar özlərini itirməyib vaporun arxasında daldalanarlar. Barkaz vapora yavuqlaşıb şlyupka salınmağı əmr edərsələr də, kapitan tərəfindən rədd cavab aldıqlarından sabah açılanadək o ətrafda qalıb səhər tezdən getmişdir. İşbu barkaz üçüncü dəfədir ki, yavuqlara gəlir.

**Növbətçi apteklər**

Bu gün iyunun 27-si, bazar günü bu aşağıdakı apteklər açıq olacaqdır:

Baryatinski küçədə 9 nömrəli evdə "Baryatinski" aptek, Quba meydanında "Vasilevski", Telefonnı və Bolşoy Morskoy küçədə "Bolşoy Morskoy" və Marinski ilə Tarqovı küçələrin küncündə "Ferdinand" apteki.

**Birjada**

Birjada təbəddülat [dəyişiklik] yoxdur. Minlik Kerenskilər 1450-1500 manata gedir. 250 manatlıqların mini 1250 manata. Nikolay pulları düşməkdədir. 500-lüklər 1700 manata, təzə yüzlüklər 340 manata, xırda pulları yoxdur. Zaqafqaziya bonları 2-4 %. Don pullarına rəğbət azalmışdır.

**Valyuta**

Valyuta halı ağlardır. İngilis pulları düşür. Türk lirələri də enməkdədir. İtaliya lirəsi 15 manata, frank kredit 18 manata, çek 15 rubləyə, alman və Finlandiya markı 6 rublədən yuxarı deyildir. Xırda rus gümüşü 15 rubləyə, manatlar 30-dan 32-yə kimi.

**Mal vürudu [daxil olması]**

Ticarət və Sənaət Nəzarətinin Statis-

tik şöbəsinin məlumatına görə, iyulun 23-nə kimi Bakıya 4107 pud taxıl, 2126 pud furaj [yem], 259 pud kartofel, 2015 pud qənd, 204 pud qoyun yunu.

## AZƏRBAYCANDA

**Qarabulaq (Qaryagin)**

Qarabağı səyahət edərkən parlaman üzvü Cavad bəy Məlik-Yeqanov neçə gün əvvəl buraya təşrif gətirdi, "Müsavat" firqəsinin şöbəsini güşad etdi [açdı]. Qonağımız məhəlli [yerli] əsgəri xəstəxananı ziyarət edən zaman xəstəxanalara gələn dəvacata möhtac xəstələrin yorğan-döşəkləri heç şeyə yaramaz olduğunu, onunla bərabər xəstələrə yaxşı müalicə və qulluq edildiyini görüb xəstəxana nəfinə [xeyrinə] 500 manat ianə etmişdir.

Eşitdiyimizə görə, Cavad bəy Zəngəzur pristavlarından birinin icra etdiyi vəhşiliyə təsadüf etmişdir. Deyilməyə görə, bir kənd katibi pristav təyin etdiyi kəndxudanı istəmədiyi və yerinə başqasını[n] camaat tərəfindən intixab edildiyi [seçildiyi] xüsusunda məsləhətnamə yazmağına görə pristav ağanın binagüzarlığına [əmrinə] görə falaqqaya salınıb o qədər döyülübdür ki, ayaq barmaqlarının dırnaqları qırmancın zərbindən tökülübdür. Məzluma belə cəza verdikdən sonra pristavın ürəyi genə soyumayıb onu həbsə saldırmışdır.

Uyezdimiz tərəfindən parlaman üzvü olan Bəhram bəy Vəzirov cənabları Parlamanda çəkdiyi ağır zəhmətlərdən bir qədər fariğ [asudə, azad] olub istirahət etmək üçün bir aylıq məzuniyyətə gəlib iki ay olar ki, burada gəzir. Eşitdiyimizə görə, müşarünileyh [adı çəkilən şəxs] guya tif naxoşluğuna mübtəla olmaq üzrü ilə bir aylıq da əlavə məzuniyyət almışdır. Bəhram bəy cənabları burada da istirahəti özünə haram edib uyezd qazısı sədarəti ilə "İttihad" firqəsinin şöbəsini güşad edib küsülüləri və qanlıları barışdırmağa mübaşir olmuşdur [girişmişdir]. Məsələn, bu günlərdə Şuşa qəza qaimməqamı ilə dustaq aparan strajnikləri tərksilah edən yağləvəndliləri böyük bir təntənə ilə barışdırdı. Uyezdimizdə bəzi varlılarımızın qaçqın siyahısına düşüb acların boğazlarına şərik olmaqlarından başqa bir pis iş yoxdur.

*Cəbrayıllı*

**Zəngəzurdan**

İyun ayının 4-də Qaybalıkənd hadisəsindən sonra Ermənistan Cümhuriyyəti Zəngəzur mahalında öz qoşun hissələrini artırmağa başladı. Ermənistan bu dairəyə özünün ən müntəzəm qoşunlarını götürmüş və bunlar top və pulemyotla təchiz edilmişdir.

Ermənilərin ştabı Deyç və Geruş nöqtələrindədir. Deyç ştabının naçalnikliyinə Svatikov təyin edilmişdir. Böyləliklə, erməni qitəatı [hərbi hissələri] Həsmdərə, Gegin, Berdik dağ silsiləsini işğal etmişdirlər. Burada olan erməni qoşunlarının miqdarı 5 min nəfərə varır.

28 iyunda ermənilərin milli piyada alayı Xoznavar kəndi yanında müsəlman qarovulxanasına hücum etmişlərdir. Əvvəlcə onların hücumu dayandırılıb, sonra ağır tələfatla geriyə püskürdülmüşdür. Müsəlmanların əlinə alay kançelyariyası, bir çox çadırlar, yapıncılar və külli ləvazimi-hərbiyyə keçmişdir.





Kançelyariyadan ələ keçən kağızlardan anlaşılır ki, erməni hissələri arasında fərarilik gündən-günə artır. Onların arasında cürbəcür xəstəliklər də vardır.

Zəngəzur qəzası əhalisinin dörddən üç hissəsi müsəlmanlardan ibarətdir. Müsəlmanlar Zəngəzur hissəsinin dağ tərəfini işğal edirlər. Ermənilər isə aşağı tərəfində düzgünlükdə yaşayırlar. Hal-hazırda isə ermənilər müsəlmanları aşağı tərəfə təzyiq etmişlərdir. Bunlar öz yaylaqlarından və yaşadıqları yerindən ayrılıb böyük müşkülata düçar olmuşlardır. Öz kəndlərinə qayıdan müsəlman kəndçilərini isə erməni hissələri qoymayırlar.

Zəngəzur qəzasında olan erməni hissələri müsəlmanlarla sülh və müsalimətlə [əmin-amanlıqla] yaşamağa mail və Azərbaycanı qəbul etmək istəyirlər. Lakin daşnaksutyunlar onlara mane olub hərəkati-hərbiyyəyə kömək etməyə onları dəvət edirlər.

Zəngəzur müsəlmanlarının halı çox fənadır. Zira onlar Azərbaycana itaət edərək müsəlləh iqdamatda [silahlı təşəbbüsdə] bulunmayıb, yalnız özlərini ancaq müdafiə edirlər. Zəngəzur qəzasında bir çox müsəlman kəndləri dağılmışdır. Məsələn, erməni hissələri tərəfindən Ağis, Yeməzli Bir, Yeməzli İki, Xəştab, Sararlı və Sofulu kəndləri dağıdılmışdır. Bu yerlərdə min nəfər müsəlman qətl edilib o yerlərin bütün taxılları yandırılmışdır.

**Gəncədən**

- Hər bir ərzaq işlərinə qubernator tərəfindən məzənnə qoyulmuşdur. Məzənnə vərəqələri bazar küçələrinə yapışdırılmış. Təbiidir ki, alış-verişçilər məzənnəyə qulaq asmaq istəməyirlər. Ona görə əhali yenə yaxşı ərzağı baha qiymətə almağa məcburdurlar.

- Quberniyanın daxili hissəsində bu il taxıl çox yaxşı gözlənir. Kəndçilərin sözünə görə, bu vaxta qədər böylə bərəkətli taxıl görünməmişdir. Bu il öz taxılları ilə dolanacaqlarını zənn edirlər. Meyvələrdə də alma, armud və sairləri də bu il firavandır.

## ERMƏNİSTANDA

**Xatisov ilə müsahibə**

Ermənistan Rəisi-vükəlası iyulun 22-də ingilis generalı Bricin təklifinə görə Tiflisə varid olmuşdur [gəlmişdir]. Tiflis qəzetələrindən birisinin müxbiri ilə müsahibə edərkən [Aleksandr] Xatisov böylə bəyanatda bulunmuşdur:

*"Mənim gəlməkdən məqsədim Versal Konfransının son qətnaməsi və bizim cümhuriyyətin sərhəd məsələsi barəsində general Bric ilə danışığa girişməkdir.*

*Ermənistan Parlamanı intixabatı [seçkisi] qurtardı. Avqust ayının 1-i ilə 5-i arasında yeni Parlaman dəvət ediləcəkdir. Türkiyə ermənilərinin Ermənistan Parlamanında iştirak etmələri məsələsi müsbət bir surətdə həll edilmişdir. Böylə ki, Parlamanda Türkiyə ermənilərindən bir Parlaman fraksiyonu intixab edilmişdir. Hökumətdə isə onlara 3 ya 4 portfel veriləcəkdir.*

*Böyük Vedi hadisəsi barəsində mənim rəyim böylədir: Hər şeydən artıq mənim əqidəm bunadır ki, Böyük Vedi məsələsinə bu qədər böyük əhəmiyyət vermək və bu məsələdən dolayı əsəbi-*

*ləşmək layiq olan dərəcəsindən artıqdır. Ermənistan həyatı məsələsində bu öylə adi məsələdir ki, hər gün ittifaq düşə [təsadüf oluna] bilər. Böylə bir ittifaq Naxçıvanda da olmuşdu. Orada üsyan əmələ gəlmişdi. Sonra general Korqanov tərəfindən üsyan yatırıldı. Bu məsələ barəsində bizimlə Azərbaycan arasında ixtilaf olmamışdır, zənn edirəm, olmayacaqdır da. Məsələ sülh və müsalimətlə [əmin-amanlıqla] keçəcəkdir."*

Yeni erməni kabinəsinə kimlərin daxil olacağı məsələsinə keçərək Xatisov cavab vermişdir ki:

*"Daşnaksutyun firqəsi və Parlaman fraksiyası nümayəndələrindən başqa Türkiyə erməniləri də daxil ediləcəkdirlər. Müştərək kabinə təşkili məsələsi hələlik müzakirə edilməmişdir. O ki qaldı Erməni Milli Firqəsinə, siyasi saziş barəsində heç bir iqdamat [təşəbbüs] göstərməmişdir. Onların ümuri-idarədə [idarə işlərində] iştirak məsələsi hələlik açıq qalmışdır."*

**Ermənistan Parlamanına seçilənlər**

Ermənistan Teleqraf Ajansının verdiyi məlumata görə, avqust ayının 1-də Ermənistan Parlamanı rəsmən açılacaqdır. Ermənistan Parlamanına daşnaklardan 73 nəfər, inqilabçılardan 4 nəfər, müsəlmanlardan isə Mirbağır Mirbabayev, Əsəd bəy Ağabababəyov intixab edilmişdir. Daşnaklar cümləsində Ermənistan Parlamanına seçilən məşhur müsəlman qatili və Quba "qəhrəmanı" Amazasp da vardır.

**Naxçıvanda iğtişaş**

- Erməni qəzetələrinin verdiyi məlumata görə, iyul ayının 20-də Naxçıvanda müsəlləh [silahlı] müsəlmanlar iğtişaş salmaq istəmişlərsə də, fəqət hökumət tərəfindən ittixaz edilən tədbirlər [görülən tədbirlər] sayəsində iğtişaş yatırılmışdır. Şimdi şəhərdə asudəlik hökmfərmadır [hökm sürməkdədir].

- Urmu müsəlman fərariləri vətənlərinə qayıtmaq üçün Tehrandan əmr gözləyirlər.

**İtibdir**

Qəribxan Gənc Əli oğlunun Binəqədi kəndindən aldığı pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5477*

**Kömür**

Bakı İstehlak Cəmiyyəti "Kooperasiya" mərkəzi skladında (Budaqovski və Naberejnı küçələrin küncündə, telefon nömrə: 45-58) pudu 30 rubləyə kömür satılır.

*5475*

**Həsən Dadanovun tənbəkisi**

Satılır Badikubədə Hacıbala Məhəmmədovun dükanında. Möhtərəm müştərilərimizdən rica olunur, sifariş üçün bu adresə müraciət etsinlər: Bazarnı küçə nömrə 3. Hacıbala Məhəmmədov.

*6801*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*





**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**İtibdir**

səh. 505. "işbu şəvval ayının 25-də": miladi təqvimlə 24 iyul 1919-cu ilə uyğundur.

**Teleqraf xəbərləri**

səh. 506. "Nauen": Almaniyanın şərqindəki Nauen şəhərinin adı qəzetdə təhrif edilmişdir.

səh. 507. "Dubrov kömür mədənləri" (yaxud Dombrov kömür mədənləri): Polşanın cənubunda kömür mədənləri; Yuxarı Sileziya kömür hövzəsinə daxildir.

"Kolberq" [Kolberg]: Polşanın şimal-qərbində, Baltik dənizinə yaxın Kolobjeq [Kołobrzeg] şəhərinə almanların verdiyi ad.

"Konstantinoqrad": Ukraynanın Xarkov vilayətində, indiki Krasnoqrad şəhəri.

"Zelyonı dəstə": "Ataman Zelyonı" adıyla tanınan Daniil Terpilonun dəstəsi nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 508. "Avamlar Kamerası": ikipalatalı Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

səh. 509. "Hadisat": İstanbulda 1918-ci ilin oktyabrından 1919-cu ilin iyununa qədər nəşr edilmiş qəzet. Vilayati-Şərqiyyə Müdafieyi-Hüquqi-Milliyyə Cəmiyyətinin orqanı idi.

"Matin" [Le Matin]: 1882-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

**Cümə günkü xəbərlər**

səh. 510. "Məzkur şair dərbar rütbəsindən imtina edir.": Hindistanın şimalında yerləşən Amritsarda 1919-cu ilin aprel ayında mülki əhalinin güllələnməsindən sonra Taqor, ona 1915-ci ildə verilən fəxri "cəngavər" [knight] titulundan imtina etmişdi.

"A.": Stokholmda nəşr edilən gündəlik "Aftonbladet" [Aftonbladet]: qəzeti nəzərdə tutulur.

"Spartaklar": Birinci Dünya müharibəsindən sonra Almaniyada fəaliyyət göstərmiş marksist Spartak İttifaqının üzvləri.

**Türkiyədə**
**Türkiyə haqqında Avropa mətbuatı**

səh. 512. "Aksion fransız": 1908-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik "L'Action française" qəzeti nəzərdə tutulur.

"1915 və 1916": qəzetdə "1915 və 1816" getmişdir.

səh. 513. "Gənc türklər" (yaxud "Jön türklər"): Osmanlı imperiyasında sultan II Əbdülhəmidə müxalif gənc ziyalılar nəslinin meydana gətirdiyi siyasi hərəkat.

səh. 514. "Exo de Pari" [L'Écho de Paris]: 1884-1944-cü illərdə Parisdə nəşr edilmiş gündəlik qəzet.

**İran işləri**

səh. 516. "Şirvan": İranın şimal-şərqində, Şimali Xorasan ostanında şəhər.

**Nəzarətlərdə**

səh. 517. "mədən dairəsində böylə polis": qəzetdə belə getmişdir: "mədən dairəsində böylə-böylə polis".

**Mətbuat**

səh. 519. "Təsviri-əfkar": Türkiyədə nəşrə başlayan ilk (xronoloji baxımdan dördüncü) türkcə qəzetlərdən biri; əsası 1862-ci ildə qoyulmuşdu. Qəzetin adı "Azərbaycan"da təhrif edilmişdir.

**Ərzurum Konqresi**

səh. 520. "Sədayi-millət": 1919-cu ilin martından 1920-ci ilin iyuluna qədər Batumda nəşr edilmiş qəzet.





"334 sənəsi 11 təmmuzunda": miladi təqvimlə 11 iyul 1918-ci ilə uyğundur.

"11 təmmuz 335": miladi təqvimlə 11 iyul 1919-cu ilə uyğundur.

səh. 522. "Əlviyeyi-səlasə" (üç sancaq): Batum, Qars və Ərdahan sancaqlarını birgə ifadə edən termin.

"istiqlaliyyəti-tamməyə məzhəriyyətimizin": qəzetdə "məzhəriyyətimizin" yerinə "nəzəriyyətimizin" getmişdir.

**"Vətən" şeiri (səh. 522)**
**üçün lüğət:**

virdi-zəban: dilin əzbəri
"Ey cəddü-əb əsrarının məkanı": "Ey ata-babalarımızın sirrinin məkanı; onların sirr olduğu (torpağa gizləndiyi) yer"
bad: hava
nəfər: rütbəsiz əsgər
əməl: arzu
məsərrət: sevinc
məlamət: töhmət, məzəmmət
yavuzluq: sərtlik; qəzəb; məharət

**Bakı xəbərləri**

səh. 525. "farvater": suyun, gəmilərin keçməsinə imkan verəcək qədər dərin olduğu yer.

"kolaz": dayaz dibli kiçik qayıq.

"şlyupka": ehtiyac halında istifadə etmək məqsədi ilə gəmilərdə saxlanan kürəkli qayıq.

**Ermənistanda**

səh. 528. "Mirbağır Mirbabayev": qəzetdə "Miribrahim Mirbabayev" getmişdir.



*"Azərbaycan" qəzetinin 236-cı nömrəsinin 1-ci səhifəsi*





**Bazar ertəsi, 28 iyul 1919-cu il, nömrə 236**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 29 şəvvalül-mükərrəm sənə 1337. 28 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## SİRK "MODERN"

Düşənbə günü iyul ayının 28-də, 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş fransız güləş mübarizəsinin 30-cu günü 1919-cu ilin məşhur "Cahan Pəhləvanı" namı və Azərbaycan fəxri şarfı və 30 min manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-ci: Apollon Staroşvili - Gənc Əli İbad;

2-ci: Qırmızı Maska - Krayevski;

3-cü: İbrahim Maxtilyayev - Naməlum.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda.

*5479*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Rəisi-Rükəla həzrətlərinin əmri**
Nömrə 33
23 iyul 1919-cu sənə

Vəzifəm ifasından dolayı Bakıdan əzimət etməklə [getməklə], Rəisi-vükəla [Baş nazir] vəzifəsini Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad bəy] Məlikaslanova həvalə edirəm.

*Rəisi-Vükəla:*
*Yusifbəyli*

**Azərbaycan Cümhuriyyəti Maarif Nəzarətindən**

- Maarif Nəzarəti idarəsinin kargüzarı müavini Vasili Vasilyeviç Kondratyevə həmin sənənin iyul ayının 27-dən etibarən iki həftəlik məzuniyyət verilir.

- Maarif Nəzarəti idarəsinin yazıçısı Lidiya İvanovna Bazeleviç həmin sənənin iyul ayının 22-dən etibarən xidmətindən kənar edilir.

- Bakı Darülmüəllimin [Seminariya] müdiri Rəşid bəy Əfəndiyevə həmin iyul ayının 28-dən etibarən bir aylıq məzuniyyət verilir və mümaileyhin övdətinə kimi [adı çəkilən şəxs qayıdana kimi] vəzifəsini ifa etmək məzkur [həmin] Darülmüəllimin müəllimlərindən Məhəmməd əfəndi Əlizadəyə mühəvvəl olunur [tapşırılır].

*Maarif naziri:*
*Qaplanov*

## TELEQRAF XƏBƏRLƏRİ

**Vətəndaş müharibəsi**

Cənubi Rusiya qüvayi-müsəlləhəsi [silahlı qüvvələri] iyulun 23-də müharibə hərəkatı haqqında böylə məlumat verir:

Hacı-Tərxan rayonunda sakitlikdir. Volqa nəhrinin sol kənarında müharibələr dayanmışdır. Sağ tərəfdə isə bolşeviklər şiddətli atəş açmaqdadırlar. Qrayvoronsk tərəfdə bolşeviklər böyük qüvvələrlə Xotmıjsk tərəfə hücum etmişlərsə də, dəf edilmişlərdir. Poltava səmtində bolşeviklərin təzyiqi altında Dabravol ordusu Skoroxod istasyonunu tərk etmişdir. Aleksandrovsk rayonunda bolşeviklər top atəşi altında Dnepr nəhrinin sağ sahilinə qayıqlarla keçmək istəmişlər. Ehtiyat əsgərləri yetişdiyindən, bolşeviklər nəhrə tökülmüşlərdir. Yelan və Balaşov tərəflərində dabravollar inadlı hücum edirlər. Boriseqlebsk rayonunda təsadüfi müharibələr davam edir.

**Türküstan cəbhəsində**

Krasnovodskdan dünən Bakıya varid olan [gələn] sərnişinlərin verdikləri mövsuq [etibarlı] məlumata görə, bolşeviklər Aşqabadı işğal etdikdən sonra Krasnovodsk tərəfə hücuma davam edib Bami istasyonunu işğal ilə Qızıl-Arvad istasyonunu mühasirəyə çalışırlar. Krasnovodsk şəhəri təxliyə edilməkdədir. Qaçqınlardan çoxu Petrovska göndərilirlər. Krasnovodskda ərzaq azlığı davam edir.

Berlin - Tətilə görə dəmiryol hərəkatı dayanmışdır. Əmələlər [fəhlələr] barəsində verilən əmrnamə əmələləri həyəcana salmışdır. Ona görə də əmələlər ərzaq qatarlarını dayandıracaqları ilə hədədə bulunmuşlardır. Hökumət min nəfər inqilabçıları həbs eyləmişdir. Nazir dəmiryol əmələlərinin nümayəndələrinə məlum eyləmişdir ki, Almaniyanın maliyyəsi əmələlərin tələbinə əməl etməyə müsaidə etməyir. Fəqət axırıncı üç ay müddətində birinci zəruri şeylərin qiyməti 100 mark əskiləcəkdir.

Kopenhagen - Hamburqdan xəbər verilir ki, hökumət qoşunları şəhəri işğal edərək orada asudəliyi bərpa etmişlərdir. Son müsadimələr [toqquşmalar] zamanında 42 nəfər qətl edilib 116 nəfər də yaralanmışdır. Berlindən xəbər verilir ki, Frankfurtda olan üsyanda 5 nəfər qətl, bir neçə nəfər də yaralanmışdır. Şəhər idareyi-örfiyyə [hərbi rejim] altında elan edildikdən sonra asudəlik bərpa edilmişdir. Berlinin şimal hissəsində təzədən iğtişaş başlanmışdır. Bu iğtişaşda 4 nəfər qətl edilmişdir. Hökumətlə əmələ nümayəndələrinin məşvərət etdikləri imarətə bomba atılmışdır. İmarət təxrib edilmişsə də, tələfat olmamışdır. Bu gün əmələlər öz vəkillərinə bəyan etmişlər ki, iş sahibləri ilə olan etilafa [razılığa] səs versinlər və sonra işə başlanılsın.

Helsinqfors [Helsinki] - Finlandada böhrani-vüzəra [hökumət böhranı] davam edir. Daxiliyyə naziri Unas istefa verdi. Yeni hökumət demokrat, zəhmətkeş millətçilərdən təşkil ediləcəkdir.

**Almanların tələfatı**

Almaniya özünün dəmir mədənlərinin dörddən üç hissəsini, kömür mədənlərinin üçdən bir hissəsini və bütün müstəmləkələrini qeyb eyləmişdir.

**Vyanada müharibə**

Kopenhaq - Vyanadan xəbər verilir ki, Budapeştədə vaqe olan son müsadimələrdə [toqquşmalarda] bir neçə yüz adam qətl edilib və yaralanmışdır. Şura qoşunları ilə əksinqilabçılar arasında müsadimə başlamışdır. Müharibələr davam edir.

**Hamburqda müharibə**

Hamburq - Qızğın müharibədən və məğlubiyyətdən sonra üsyançılar qalanı işğal etmişlərdir. Sonra könüllü dəstə ilə həbsxanaya gedib məhbusları azad etmişlərdir. On ikilər Komitəsi şəhəri idarə edir. General Lettov-Forbek şəhər üzərinə yürüş edir ki, şəhərdə sakitlik bərpa edilsin. Deyirlər ki, bütün məmləkətdə üsyan hazır edilirmiş, yalnız burada vaxtından əvvəl üsyan başlanmışdır. Brandenburq və Frankfurtda da üsyan başlanmışdır. Mağazalar, restoranlar talan edilmişdir. Frankfurtda asilər məhbusları azad etmişlərdir.

## SÜLH ƏTRAFINDA

İngiltərə bütün qərq edilən gəmilərinin və bəhriyyununun [matroslarının] xəsarətini [kompensasiyasını] aldı. Hava hücumundan törəmiş olan xəsarətləri də almışdır. Müharibə vaxtında verdiyi təqaüdi-hərbi maaşları ki, bu da böyük məbləğ edir, bu da İngiltərəyə qaytarılmalıdır. Hərgah Almaniya bu xəsarətləri verərsə, bizim halımız çox yaxşı olacaqdır. Müttəfiqlərin müharibə xərci 30.000 milyon ingilis lirəsidir. Bu pulları axırıncı quruşunadək almanlardan tələb edəcəklərdir.

**Londonda şadlıq**

London - Müharibə qələbəsi münasibətilə Londonda bu gün səhər böyük bir rəsmikeçid vaqe olmuşdur. Dəstələr bayraqlarla təzyin edilmiş [bəzədilmiş] olan küçələrdən keçirdilər. General Foş, Heyq, Perşinq və Bitti şiddətli surətdə alqışlanmışlardır. İngiltərə kralı ailəsi ilə bərabər Hayd-parka gəlmişlər. Avtomobildən düşərkən bir dəstə rəqs edən qızlar tərəfindən əhatə olunmuşlardır. Səhərə qədər şadyanalıq davam eyləmişdir.

London - İngilis əmələləri tələb edirlər ki, İngiltərədə icbari səfərbərlik ləğv edilsin.

London - Royter ajansına xəbər verilir, sülh müahidənaməsi [sazişi] imza edilən tərəflərin parlamanında təsdiq edildikdən sonra gücə minəcəkdir. Tədbirati-hərbiyyə [hərbi tədbirlər], abluka [blokada] davam edəcəkdir.

Kopenhaq - General [Maks] Hofman bəyan eyləmişdir ki, o, sülh müahidənaməsini qəbul etməyir və bir qarınc alman torpağından düşmənlərə yer verməyəcəkdir.

**İngiltərə-Belçika etilafı**

Paris - Düşmən müstəmləkələri təqsimi [bölüşdürülməsi] komisyonunun şurasında İngiltərə-Belçika etilafı [razılaş-

ması] müzakirə edilmişdir. Belçika Konqoda olan böyük Tanqanyika müstəmləkəsini İngiltərəyə güzəşt edir, əvəzində Almaniyanın Şərqi Afrikasının bir hissəsini alır. Bu etilaf hər iki tərəf üçün əlverişli hesab edilir.

London - Sülh müahidənaməsi 2-ci qiraətindən və bu xüsusda müzakirə edildikdən sonra Lloyd Corc demişdir, müzakirat zamanında İngiltərə, Amerika və Fransa arasında bağlanmış müahidədən də bəhs edildi. Böylə sual verildi ki, bu müahidəyə nə üçün zəruriyyət görülmüşdür. Biz bunu unutmamalıyıq ki, Fransanın Almaniyadan ehtiyat etməsi təbiidir. Fransa demişdir ki, o, Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] inanır. Fəqət Fransa arzu edir ki, arxasında İngiltərə və Almaniya kimi qüvvə olsun, tainki Cəmiyyəti-Əqvamın da əhəmiyyəti artıq olsun.

**Cəmiyyəti-Əqvam və Qafqaziya**

Parisdən alınan məlumatla təsdiq edilir ki, Qafqaziya vilayətləri Beşlər Şurası tərəfindən Rusiya ilə mübahisəli tərəf kimiədd [hesab] edilirlər. Müstəqil olmuş Şimali Qafqaziya ilə Zaqafqaziya millətlərinin Rusiya ilə sazişə girmədiyi məsələsi beynəlmiləl qanunca Cəmiyyəti-Əqvam tərəfindən həll ediləcəkdir. General Denikinin fəaliyyətini sollar, hətta ən mötədil siyasi dairələr bir ağılsız macəraculuq [avantürizm] hesab edirlər ki, Qafqaziya, xüsusən Rusiya müqəddəratına təsir edəmməz.

* Bolqariya sülh müahidənaməsi müzakirəsi təxirə salınmışdır. Zira Amerika mürəxxəsləri [nümayəndələri] Vaşinqtondan əmr gözləyirlər. Bolqariya mürəxxəsləri cümə günü Parisə varid olacaqdırlar [çatacaqlar]. Müahidənamə tərtibi qurtarmışdır. Yalnız Trakiya məsələsi istisna edilmişdir. Məlum olduğu üzrə, Trakiya müharibədən əvvəl bolqarların əlində idi. Yunanlılar etnoqrafik cəhətindən bu yeri tələb edirlər. Amerika mürəxxəsləri Trakiyanın Bolqariya əlində qalmasını arzu edirlər. Tainki bu yol ilə Bolqariya, Adalar [Egey] dənizinə çıxa bilsin.

* Əfkari-ümumiyyəyə [ictimaiyyətin fikrinə] görə Sülh Konfransına yaxın olan şəxslər bəyan edirlər ki, Yaponiya Şandun barəsində izahat vermək arzusunda olduğundan, mümkündür ki, Çin mürəxxəsləri sülh müahidənaməsini imza edələr.

* Aydının şərq tərəfində türklərlə yunanilər arasında müharibə davam edir. Bir neçə afiserlə 20 nəfər zabit tələfat vermişlərdir.

* Balkan yarımcəziresi [yarımadası] məsələsində Amerikanın iştirak edəcəyi məsələsi Sülh Konfransını çox maraqlandırır. Amerika mürəxxəsləri arzu edirlər ki, Qərbi Trakiya bolqarlara verilsin. İtaliya isə Amerika, İngiltərə, Fransa, Yaponiya tərəfindədir. Bunlar istəyirlər ki, Qərbi Trakiya Yunanıstana mülhəq olsun [birləşsin] və böyləliklə, Bolqariya Adalar dənizinə çıxmaqdan məhrum olsun. Düvəli-müəzzəmə [böyük dövlətlər] Şurasında bu barədə Amerika rəsmən öz rəy və mülahizəsini bildirməmişdir.





## SON XƏBƏRLƏR

**Lənkəran bolşeviklərinin təslimi**

Dünən səhər 22 nömrəli körpüyə [yaxınlaşan] "Dmitri Milyutin" adlı paroxodla Lənkəran şura hökumətinin bütün üzvləri əsir sifəti ilə Bakıya gətirilmişlərdir. Bunların içində məşhur Suxorukov, Qurkin və digərləri də vardır. Bunlardan əlavə, bir çox Qırmızı ordu nəfəratından da [əsgərlərindən də] gətirilmişdir. Bunların həpsi Azərbaycan hökumətinin ixtiyarına verilmişlərdir. Bunların əsir düşmələri ilə, təbiidir ki, Lənkəranda Azərbaycan hökuməti bərpa ediləcəkdir.

**"Lastoçka" barkazının tutulması**

Dün saat 2 radələrində dənizdə Xərə Zirə ilə Səngi Muğan arasında dolaşmaqda olan "Lastoçka" barkazı Salyandan gəlməkdə olan paroxod tərəfindən həbs edilib Bakıya gətirilmişdir. Barkazda 7-8 nəfər Lənkəran bolşeviklərindən dəxi vardır. Barkazdan heç bir şey tapılmamışdır. Zənn edildiyinə görə, bütün əsləhələrini [silahlarını] dənizə tökmüşlərdir. Ancaq bir çox atılmış top gülləri vardır. Barkazda olanlardan 11 min manat pul tutulmuşdur.

**Mürəxxəslərimiz Parisdə**

Parisə göndərilmiş olan Azərbaycan heyəti-mürəxxəsəsi əzasından [nümayəndə heyəti üzvlərindən] Ceyhun bəy Hacıbəyli əfəndidən alınmış xüsusi bir məktubda yazılır ki:

Azərbaycan heyəti-mürəxxəsəsi Bulon meşəsi yanında apartmanda rahat bir yerdə sakin edilmişlərdir. Hər cəhətdən onlar üçün rahat keçir. Ceyhun bəy Parisdə ali məktəbdə oxuyan zaman tanış olduğu adamlar və əski yoldaşları onu yenidən bir çox adamlarla tanış etmişlərdir. Əski və yeni tanışlar heyəti-mürəxxəsəmiz əzasına [üzvlərinə] çox kömək edir. Onlar üçün məktubda denildiyi üzrə "çox iş görürlər".

İyunun əvvəllərində mürəxxəslərimiz Amerika Rəisi-cümhuru Vilson tərəfindən hüzura qəbul edilmişlərdir. Bu görüş mürəxxəslərimizə hüsn-təsir bəxş etmişdir. İstiqbalımıza [gələcəyimizə] ümid artmaqdadır.

Paris mətbuatı ilə əlaqəyə girişmək təşəbbüsləri müvəffəqiyyətlə nəticələnmişdir. Azərbaycan heyəti ilə fransız mətbuatı miyanında [arasında] rabitə hüsula gətirilmişdir. Yaxın keçmişlərdə heyət əzasından Hacıbəyli Ceyhun bəy tərəfindən "Azi Franz" cəmiyyətində Azərbaycan haqqında bir məruzə oxunmuşdur. Ümumiyyətlə, vəziyyət getgedə möhkəmləşməkdədir.

## QƏZETƏLƏRDƏN

**Rusiya ilə İngiltərə ticarəti**

"Tan" qəzetəsinin məlumatına görə, İngiltərə ticarət dairələrində Rusiya ilə ticarət münasibatı başlanması planları hazırlanmaqdadır. Bu plan mövcibincə [bu plana əsasən], Rusiya torpağında hər cür, o cümlədən müharibə, hətta vətəndaş müharibəsi riski əleyhinə sığorta tətbiq edilir. İngiltərədən Rusiyaya mal gətiriləcəyi kimi, Rusiyadan da İngiltərəyə xammal aparılacağı təsəvvür edilir.

**Ali İqtisadi Şura**

"Nyu-York herald" qəzetəsi xəbər verir ki, Amerika hökuməti müharibə zamanında davam etdiyi kimi, gələcəkdə də sülh müahidənaməsi təsdiq edildikdən sonra Ali İqtisadi Şura saxlanması haqqında İngiltərə hökuməti tərəfindən təklif edilən layihəni qəbul etməkdən imtina etmişdir.

**Alanda cəzirələri məsələsi**

Alanda cəzirələri məsələsi haqqında Finlandiyanın axırıncı notasına cavab olaraq İsveç hökuməti müfəssəl yazdığı notasında məsələnin rəyi-amm [referendum] ilə həll edilməsini tələb edir. Hərgah Finlandiya hökuməti rəyi-amma razı olmasa, o zaman İsveç hökuməti məsələnin Sülh Konfransına verilməsini təklif edir. İsveç hökuməti ümidvardır ki, hər iki tərəfin əfkari-ümumiyyəsi [ictimaiyyəti] Sülh Konfransının nüfuzlu qərarına tabe olar.

**Amerika və Balkan işləri**

Amerikanın Balkan şibhi-cəzirəsi [yarımadası] işlərində iştirak edib-etməyəcəyi məsələsi Sülh Konfransından ötrü ciddi bir məsələdir. Amerika vəkilləri istəyirlər ki, Qərbi Frakiya Bolqariyaya qaytarılsın. İtaliya Amerika tərəfində durub, lakin İngiltərə, Fransa və Yaponiya bütün Frakiyanın Yunanıstana yapışdırılmasını istəyirlər. Bu qərar üzrə cəza tədbirləri lazım olduğunu nəzərdə tutub Bolqariyanı Adalar [Egey] dənizinə çıxmaqdan məhrum edirlər. Amerikalıların Müəzzəm Dövlətlər Şurasında bu məsələyə nə cür münasibətləri olduğu hələ müəyyən edilməmişdir. Lakin mövcud olan təsəvvürata görə, Venizelos öz rəyini izhar etməyi lazım bilmişdir ki, hərgah Amerika Bolqariya müahidənaməsini [sazişini] imza etmək niyyətində olmasa, o zaman onlar sülh müahidənaməsi şəraiti hazırlanmasında iştirak etməməlidirlər. Amerikalılar gələcəkdə Balkanda sülh və asayişi təmin etmək xatirinə Frakiyanın Bolqariyada qalmasına çalışırlar.

**Prins Səbahəddinin layihəsi**

Parisdə yaşamaqda olan Türkiyə prinsi Səbahəddin Fransa rəisi-cümhuru Puankareyə bir müxtirə [yazılı müraciətnamə] ilə müraciət edib, Türkiyə oblastlarından Şimali Amerika misalında Sultanın hökmranlığı altında geniş muxtariyyətlə cəmahiri-müttəfiqə [birləşmiş cümhuriyyətlər] vücuda gətirilməsini təklif edir. Lakin Türkiyə öz işlərini özü qaydaya salmaq iqtidarına malik olmadığından, prins, Amerika himayəsinin Türkiyə üzərində olması təsəvvüratındadır.

- Rostov ilə Xarkov arasında dəmiryol hərəkatı başlanmışdır.

- Krımda bolşeviklərin ən birinci səramədanından [başçılarından] olan [Pavel] Dıbenko tövqif [həbs] edilmişdir.

- Moskvada buğda ununun pudu 3 min rubldən satılır.

- İngiltərənin bəhri [dəniz] qanunlarına görə, Almaniya flotunu qərq edən Almaniya matrosları edam cəzasına məhkum edilməlidirlər.





- Admiral Kolçak ordusuna müavinət üçün 100 min Yaponiya saldatları Kolçak ordusuna qoşulmuşlardır.

## ALMANİYA XƏBƏRLƏRİ

**Kayzer məsuldur**

Mühərrir [Eduard] Bernşteyn "Forverts" qəzetəsində bərvəchi-ati bəyanimütaliə etməkdədir [fikirlərini aşağıdakı kimi bildirməkdədir]:

*"Artıq alman milləti hərbin mənşəyi haqqındakı həqiqəti anlamalıdır. Hər kəsin iddia etdiyi kimi bütün qəbahət və məsuliyyət sərmayədarlara ətf edilməməlidir. Günahkar İkinci Vilhelmdir. Hər halda, o, əf'al və hərəkatının nətayicini [işlərinin və hərəkətlərinin nəticələrini] təxmin və təqdir edə biləcək bir halda idi. O heç bir zaman Avstriya-Serbistan məsələsinə müdaxilə etməyəcəkdi. Madam ki müdaxilə etdi, heç bir zaman iddia edəmməz ki, Rusiya dolayısı ilə Almaniya hərbə iştirak etmişdir. İkinci Vilhelm ilə Frans İosifin 1914 sənəsində hərbi-ümumini ehzar [hazırladıqlarını] və zühuruna səbəb olduqlarını inkar etmək müvafiqi-məntiq və insaf olammaz."*

**Hindenburqun sualları**

Marşal fon Hindenburq Almaniya daxilində milyonlarca nüsxə sual vərəqəsi dağıtdırmışdır [paylatdırmışdır]. Suallar bərvəchi-atidir [aşağıdakı kimidir]:

1) Millət yenidən hərbə mübaşirətə müsaidmidir [müharibəyə başlamağa uyğundurmu]?

2) Millət Almaniya xaricində də müharibəyə mütəmayilmidir [meyl edirmi]?

3) Silah altına dəvətə icabət [müsbət cavab vermək] ehtimalı varmıdır?

4) Könüllülərə etimad edilə bilərmi?

5) Millət məhrumiyyətlərə qatlanmağa mütəmayilmidir?

6) Hərbə yenidən başlanacaq olarsa, qarışıqlıqlardan qorxulurmu?

*İmza: Çolixada 9-cu liva [polk] komandanı: Fridrix*
*"Monitor Oriental"*

**Almaniya müharibəyə hazırlaşır**

Amerikada müntəşir [nəşr olunan] "Çikaqo tribune" qəzetəsi yazır:

*"Almaniya Rəisi-vükəlası [Baş naziri] demiş: Almaniya unutmamalıdır ki, şimdiki Avropa müharibəsi dünyaya hakim olmaq üçün anqlo-sakların bir mübarizə dövrəsidir. Doğrudur, bizim ən dəhşətli düşmənimiz olan anqlo-saklar davadan güclü çıxdılar. Fəqət Fransasız İngiltərə gücsüzdür. Amma biz Fransanı bir günə qoymuşuq ki, heç bir vaxt Fransa özünü düzəldəmməyəcəkdir. Bizə Latviya və Ukrayna lazımdır. Bu yerlər Almaniyanın avanqardı olacaqdır."*

## DAĞISTANDA

Petrovsk şəhərinin qradonaçalniki böylə bir əmrnamə nəşr eyləmişdir:

*"General Erdelinin teleqramını bərayi-məlumat [məlumat üçün] elan edirəm.*

*Bilatəxir [dərhal] hökumət müəssisələrinə, qoşun hissələrinə və bütün əhaliyə elan ediniz ki, Azərbaycan Hökumətinin və Bakı Şəhər İdarəsinin kağız pulları Terski Dağıstanda, xüsusən Dağıstanda işləməyəcəkdir. Hökuməti müəssi-*

*sələr bu pulları qəbul etməyəcəkdirlər. Xüsusi şəxslər və müəssisələr öz mülahizələri ilə qəbul edə bilərlər. Bütün hökumət müəssisələrinə və qoşun hissələrinə təklif edilir ki, bu əmrnamə elanından bir həftə sonra əllərində olan Azərbaycan və Bakı bələdiyyəsi pullarını Petrovsk, Dərbənd və şura xəzinələrinə verib hesabicariyə qoysunlar. Yaxud başqa pul ilə dəyişsinlər. Yeddi gün keçdikdən sonra bu pullar qəbul edilməyəcəkdir."*

Könüllü ordu başçılarının bu əmrinə baxmayaraq, Azərbaycan pulunu Dağıstanın hər yerində camaat məəlməmnuniyyə [məmnuniyyətlə] qəbul edir və orada da Bakıdakı kimi asudə işlənir.

## İNGİLTƏRƏ MÜSƏLMANLARININ MƏKTUBU

London Müsəlman Cəmiyyəti Türkiyənin gələcəyi məsələsi haqqında bir müxtirə [yazılı müraciətnamə] hazırlamışdır. Bu məktub [Üçüncü] Ağa Xan, Mədrəs Təşriiyyə [Qanunvericilik] Şurası üzvü və bütün Hindustan Müsəlmanları Heyəti nümayəndəsi Yaqub Həsən [Səid], lord [Erik] Qeddes və bir çox başqaları tərəfindən imza edilmişdir. İngiltərədə olan müsəlman təbəələri namından Rəisi-vükəlaya müraciətən yazılmış olan bu məktubda deyilir ki:

*"Türkiyənin tamamiyyəti-mülkiyyəsinin [ərazi bütünlüyünün] baqi saxlanacağı barəsində 1918-ci sənəsi yanvarın 5-də söylədiyiniz nitqinizdəki bəyanat hərçənd müsəlman ictimalarının [cəmiyyətlərinin] arzularına tamamən müvafiq deyildisə də, lakin o bəyanat müsəlmanlar tərəfindən müqəddəs bir rəhn kimi qəbul edilməklə bərabər, müsəlmanlar ona İngiltərə namından bir təminat kimi ümidvar olurdular ki, Türkiyə öz paytaxtı İstanbul ilə bərabər müstəqil bir hökumət kimi azad və salamat qalar.*

*Sonra siz dediniz ki, biz ondan ötrü müharibə etməyirik ki, Türkiyəni paytaxtından, yaxud Asiyayi-suğrada [Kiçik Asiyada, Anadoluda] və Frakiyada əksəriəhalisi türklərdən ibarət olan gözəl və dövlətli vilayətlərdən məhrum edək.*

*Hal-hazırda isə hətta Türkiyənin o yerlərini də parçalamaq istəyirlər, hansılar ki, saxlanması barəsində bütün İngiltərə məmləkəti əhalisinin dörddən bir hissəsindən ibarət olan İngiltərənin müsəlman təbəələrinə vədə vermişdiniz. Türkiyədən hətta İstanbulu və Frakiyanı da almaq istəyirlər. Bu xəbər bütün yer üzündə yaşayan müsəlmanların dərin narazılığına bais olmuşdur.*

*Müttəfiqlərin qalibiyyəti üçün öz varının gözəl hissəsini qurban edən əhali və müharibədən qayıtmış saldatlar, öz dövlətlərini hakimiyyətləri yoluna vagüzar edən [tapşıran] padşahlar, onlar hamısı o təklifdən həyəcana gəlmişlər ki, hərgah bu təklif vücuda gətirilsə, verilən vədin xələldar olmasından ibarət olub, xeyli həyəcanlı bir əhval vücuda gətirər.*

*Bütün dünyanın müsəlman millətləri arasında Çindən tutmuş Bəhri-Mühiti-Atlasiyə [Atlantik okeanına] və Malay adalarından Cənubi Afrikaya qədər, Türkiyəni təhdid edən müqəddərat münasibətilə ümumi həyəcan və narazılıq hökmfərmadır [hökm sürür]. Bu əhvalın Almaniya və Türkiyə macəraculuğu [avantürası] olduğunu isbat etməyə çalışırlar. Biz inanırıq ki, bu ittiham tamamilə əsassızdır. Bu həyəcan bilavasitə və ümumi xasiyyəti haizdir [ümumi xarakter daşıyır].*

*Biz yenə təzədən cəsarətlə İngiltərənin gözəl namına və Asiyanın asayişlə nəşvü-nüma [inkişaf] etməsi naminə sizə müraciət edib Türkiyənin Trakiya ilə İstanbulun paytaxt sifəti ilə Sultanın haqqi-hakimiyyəti altında salamat qoyulmasını xahiş edirik. Sultanın ixtiyarı heç bir mandatlarla azalıb və ya məhdud edilməməlidir. Avropanın xristian millətləri haqqında tətbiq edilən istiqlaliyyət əsası müsəlman millətlərinə də tətbiq edilməlidir. Qərbi Asiyanın sülhlə nəşvünüma etməsi mənafeyi olaraq Sultanın haqqi-hakimiyyəti Osmanlı məmləkətinin türk vilayətləri olmayanları üzərində də saxlanmalıdır."*

## PARİS ƏHVALI

Bu günlərdə Parisdən Bakıya (12 günə) gəlmiş bir şəxs nəql edir ki:

Bu axır vaxta qədər Fransada hamını maraqlandıran ancaq bir məsələ idi ki, Almaniya sülhü imza edəcəkdirmi, ya yox? Qalan məsələlərin hamısı ikinci hesab olunurdu. İctimai dairələrin nəzəri-diqqəti hələliyə kifayət qədərində Şərq, yaxud Qafqaziya məsələlərinə ətf edilməmişdir [çevrilməmişdir]. Rusiya məsələsi fransızları ancaq bir tərəfdən maraqlandırır. O da Rusiyaya verilmiş olan milyardları nasıl geri almaqdan ibarətdir. Fransızlar Denikinlə Kolçakı bu məsələdə fransızların mənafeyini təminedici görürlər. Ona görə də hökumət və burjuaziya onların tərəfdarı olmuşdur. Qafqaziya işləri haqqında fransızlar lazımi qədər xəbərdar edilməmişlərdir. Ancaq erməni mənbələrindən xəbərdar edilmişlərdir ki, o da onları az maraqlandırır. İngilislərə gəldikdə, onlar bilaşübhə bolşevizmə mənfi münasibatda bulunub Denikinlə Kolçak tərəfində durmaqla bərabər eyni zamanda bütün Qafqaziya və Şərq işlərindən mükəmmələn xəbərdarlardır. İngilislər Qafqaziya millətlərinə olan hüsn-təvəccöhlərini heç yerdə gizləməyirlər.

Sülh Konfransında Qafqaziya işləri hələ müzakirə edilməmişdir. Lakin İngiltərə hökumət dairələri bərpa ediləcək Rusiya hökuməti ilə Asiyayi-Vüsta [Orta Asiya] hökumətləri arasında bir hail [çəpər, maneə] olmaq üzrə Azərbaycan istiqlaliyyətinin yaşaması lazım olduğunu aşkar surətdə söyləyirlər. Sonra italyanlar Azərbaycandan başqa hələ Dağıstan Cümhuriyyətinin də bərpa edilməsini lazım görürlər. Hal-hazırda Parisdə olan Azərbaycan sülh heyəti buna görə xeyli nikbinanə bir ruhdadır.

Hal-hazırda Sülh Konfransında ümdə iş, yəni Almaniya ilə sülh müahidənaməsi imza edilmək işi görüldüyündən hamı qalan məsələlərin tezliklə həll ediləcəyinə ümidvardır. Azərbaycan heyətinə İngiltərə tərəfindən, xüsusən italyan tərəfindən hər cür müavinət vəd edilmişdir. Amerikalılara gəldikdə, onları ancaq bir Ermənistan məsələsi maraqlandırır. Ermənilər Trabzon, Kilikiya, Naxçıvan və qeyriləri daxil edilmək, yəni eyni zamanda həm Bəhri-Səfidə [Ağ dənizə; Aralıq dənizinə], həm də Qara dənizə çıxan "Böyük Ermənistan" təşkil ediləcəyinə ümidvardırlar. Bu qərar üzrə man-

datlar qeyd edilməkdədir. Ermənistana Amerika, Azərbaycana və ola bilsin ki, hələ Dağıstana da İtaliya mandatı verilsin.

Məzkur [deyilən] şəxs Parisdən azim olduğu [yola düşdüyü], yəni iyulun 1-də Qafqaziyada olan İngiltərə əsgərlərinin İtaliya əsgərləri ilə əvəz ediləcəyi məsələsi qurtarmış kimi imiş. İngilislərin Qafqaziyada qalacaqları haqqında mətbuatda bir şey görülməyirmiş. Fransız mətbuatı ələlümum indiyə qədər Qafqaziya işlərindən az bəhs etmişdir. Fransa mətbuatını bir tək maraqlandıran bolşevizmlə mübarizədir. Türkiyəyə gəldikdə, Müttəfiqlərin əvvəlki qərarı bu imiş ki, Türkiyəni bilmərrə məhv etsinlər. Lakin Türkiyə nümayəndələrinin ciddi çıxışlarından və bir çox müsəlman cəmiyyətlərindən və dairələrindən alınan protestolardan sonra belə görünür ki, Müttəfiqlərin bu qərarı dəyişəcəkdir və Türkiyə nəinki öz istiqlaliyyətini, hətta Yevropa hissəsinin bir qismini də baqi saxlayacaqdır.

Müttəfiq dövlətlər nəzərində müharibədən sonra müstəmləkələr və müstəmləkə əsgərləri çox böyük əhəmiyyət qazanmışlardır. Hamıya məlumdur ki, ingilis cəbhələrində hind əsgərləri və Fransa cəbhələrində Əlcəzair, Mərakeş, Seneqal, Hindustan, Çin və qeyrə əsgərləri böyük rol oynamışlardır. Bundan əlavə, fəhlə az olduğu zaman kənd və fəllahət [əkinçilik] işlərinə cəlb edilən fəhlələr böyük təsir bağışlayıb, əhaliyə müavinət göstərmişdir. Ələlxüsus müstəmləkə əsgər və fəhlələri Rusiya müttəfiqlikdən çıxdıqdan sonra başlanan ağır ildə Fransaya böyük kömək etmişlərdir. Bunlar hamısı müstəmləkə əhalisi ruhunda bir dəyişikliyə bais olmuşdur. Onlar indi özlərini müti deyil, hüquqda müsavi [bərabər] hesab edirlər. Bu qərar üzrə də Müttəfiqlər müstəmləkə əhalisinə öz nəzərlərini dəyişmişlərdir. Hindustan və Əlcəzair müsəlmanlarının Türkiyə müqəddəratı məsələsində qaldırdıqları səslərin təsiri və Sülh Konfransının müstəqil olmuş bütün Şərq xalqının səsinə diqqət verməsi də bununla təfsir [izah] edilir.

Fransanın indiki həyatına gəldikdə, o da başqa məmləkətlər kimi hərbdən sülhə keçmək kimi ağır bir zaman keçirməkdədir. Böyük işsizlik, fəhlələr arasında üsyan və tez-tez tətillər olmaqdadır. Fransa hökuməti almanlar tərəfindən şimalda xarab edilən sənaət [sənaye] dairələrini təcdid [bərpa] etməklə məşğuldur. Parisdə bir neçə bolşevik qəzetəsi çıxırsa da, Fransada bolşevizm müvəffəqiyyət qazana bilməmişdir. Müharibədə şikəst olan əsgərlərin təmin edilməsi məsələsi də böyük işdir. Şikəst olan əsgərlərin miqdarı çox böyükdür. Bahalığa gəldikdə, Fransa manufaktura malı 300 faiz bahalanmışdır. İndiyə kimi hələ adambaşına kartoçka ilə ayda girvənkə yarım qənd verilir. Çörək çox ucuzdur. Girvənkəsi 50 santim olub, satış da azaddır. Bundan əlavə, Parisdə adam çoxaldığına görə otaq məsələsi müşkülləşmişdir. Fransada nəqliyyat işlərindən xeyli üsrət [əziyyət] çəkilir. Çünki dəmiryollar müharibədən sonra hələ nizama salına bilməmişdir. Paris ilə Fransanın başqa şəhərləri arasındakı münasibatı düz deyildir.

Fransanın təcdid [bərpa] edilib öz adi halına salınması işində amerikalılar çox





kömək edirlər. Amerikanın köməyi olmasa, fransızlar Fransanı düzəldə bilməzlər. Odur ki, Amerikanın köməyi ilə Fransa tezliklə bərpa edilməkdədir.

Fransanın siyasi həyatında olan hallardan biri də əvvəlki məşhur və məruf [tanınmış] siyasi xadimlərin nüfuzdan düşmələridir. Siyasi xadimlərdən çoxu əbədilik istefa verib, Delkasse, Viviani kimiləri də öz karyeralarını qurtarmaq üzrədirlər. Klemansonun özünün belə vəziyyəti möhkəm deyildir. Brian kimi az adamlar bir qədər öz nüfuzlarını və şöhrətlərini saxlaya bilmişlərdir. Ələlümum [ümumiyyətlə], bu yaxınlarda hökumət başında təzə adamlar olacağı gözlənir.

Cümhuriyyətin üsuli-idarəsinə gəldikdə, onun vəziyyəti heç vaxt hal-hazırdakı kimi möhkəm olmamışdır.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

Daxiliyyə nazirinin Bakı qradonaçalstvası cənbindəki [nəzdindəki] Həcz [Müsadirə] Komitəsi ehtiyacatı üçün 5 min manat təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

İstənilən məbləğ hökumət ixtiyarındakı 20 milyonluq fonddan buraxılsın.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Baş fabrika müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] məlum etmişdir ki, kazino qarsonlarının müdiriyyətlə olan ixtilafları haqqında təhqiq edildikdən sonra müdiriyyətə tapşırılmışdır ki, bu vaxtadək əqd edilmiş müştərək müqavilənamə [kollektiv müqavilə] üzrə qarsonlarla müamilədə [rəftarda] bulunsun. Ümumi müştərək müqavilənamə tərtibindən sonra fəqət həman müqavilənamə dəyişə bilər.

- Məsai Nəzarəti tərəfindən Gədəbəy zavodu fəhlələrinin əhvalını məhəllində [yerində] təhqiq üçün göndərilmiş Nəzarət [Nazirlik] katibi Kazımzadə cənabları öz məruzəsində müşahidatını böylə təsvir edir:

*"Gədəbəyə girəcək, yolumuzda bizim diqqətimizi buğda və başqa ərzaqla yüklü böyük-böyük karvanların Ermənistana doğru getməsi cəlb edirdi. Təbii ki, işbu məsələ bizi şad edəcəkdi. Zira Azərbaycan özündən artıq qalmış ərzağı başqa yerlərə də göndərə bilər. Təəssüflər olsun ki, böylə çıxmadı. Kəndçilər bu malların qaçaq tariq [yol] ilə möhtəkirlər tərəfindən Ermənistana göndərilməsini anlatdılar. Həqiqətən, başqa köylərdə aclıq vücudunu gördük. Möhtəkirlər isə kəndçilərin axırıncı ehtiyatlarını da alıb başqa yerlərə göndərmələri qəribə bir haldırsa da, polis və başqa məmurinin [məmurların] mal aparmaq məmnu [qadağan] olduğuna baxmayaraq, gözləri önündə böylə fəlakətin yapılması da şayani-təəccübdür [təəccüblüdür]."*

Kazımzadənin dediyinə görə, böylə davam edilsə, böyük məhsul toplansa da, yenə Azərbaycanda aclıq ehtimalı ola bilər. Hər halda, bunun önü alınmalıdır.

- Bakı Aptekçiləri Cəmiyyəti Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, zeyldəki şəraitdən naşi [aşağıdakı

şərtlərə görə] dərmanxana xidmətçilərinin məvacibləri artammaz:

1) Artırılacaq pullar dərmanxana taksasından xaricdir. Əlavə, bu vaxtadək hələ may əlavəsinə mütənasibən dərman fiyatları artmamışdır.

2) May məvaciblərinin əlavəsi o vaxtkı qiymətdən artıq olduğu üçün şimdiki vaxt üçün kifayət edəcək zənnindəyiz.

3) Məvaciblərin artması ilə dərman qiymətləri bahalanması təbiidir. Böylə olarsa, xalqın geniş təbəqəsi dərmansız qala biləcəkdir. Şimdi may əlavəsindən sonra belə dərmanxanalar zərərlə işləyirlər.

Dərmanxanaçılar rica etmişdir ki, bu barədə lazımi binagüzarlıqda bulunulsun. Zira onlar məvacibləri artırammazlar.

- Neftçilər İttifaqı Məsai Nəzarətinə məlum etmişdir ki, Elektrik Cəmiyyətinin xidmətçilərinin 15 % məvacibləri artırılması haqqında Nəzarətin verdiyi qərar ümumi müəssisədarlar ilə fəhlələr əlaqəsinə sui-təsir edəcəyini nəzəri-etibara almaqla qərardad ləğv edilsin. Zira bu gün həman fəhlələrin məvacibi artırılarsa, digərlərinin də məvacibləri artırılmalıdır. Əlavə, müəssisədarların məvacib məsələsində kəndiləri miyanlarında etilafları [öz aralarında razılaşmaları] olduğu kimi, fəhlə tərəfi ilə də etilaf əmələ gətirilməlidir.

## TÜRKÜSTANDA AZƏRBAYCAN KONSULXANASI

- Azərbaycan konsulxanasının məlumatına görə, Aşqabad və Tazəşəhərdə ay yarım müddətində Şuşa və Zəngəzur qəzaları erməniləri 20 yaşından 40 yaşınadək Azərbaycan konsulxanasından Azərbaycan təbəəliyi barəsində 416 şəhadətnamə almışlardır.

- Azərbaycan konsulu Mavərayi-Bəhri-Xəzər [Zakaspiysk] Hökuməti qarşısında təşəbbüsdə bulunmuşdur ki, Bakıda nəşr olunan qəzetələr bilamümaniət [maneəsiz] Türküstana buraxılsınlar. Bu axır vaxtlarda qəzetələr hərbi məmurlar tərəfindən müsadirə edilirdi.

- Tazəşəhərdə yeni səfərbərlik elan edildiyi, şəhərin məcburən təxliyə edilməsinə qərar verildiyi münasibatı ilə Tazəşəhərdə olan Azərbaycan təbəələrinə vəsiqə verilmişdir. Bu vəsiqələrlə azərbaycanlılar səfərbərlikdən azad edildikləri kimi, azad surətdə oradan çıxa bilərlər.

## MİLLİ VƏ MƏDƏNİ İŞLƏRİMİZ

**- 2 -**
**Nəşriyyat cəmiyyəti**

Xalq üçün asan dildə faydalı kitablar nəşr etmək üçün özgə millətlərdə nəşriyyat cəmiyyətləri var. Bu cəmiyyətlər ucuz qiymətlə millətə gözəl kitablar verirlər. Heyfa ki, bizdə böylə cəmiyyət yoxdur və olmayıbdır. Yalnız Kiyev tələbələrimizin "Nəşriyyat heyəti" türk dilində üç kitabça təb'ilə [çap etməklə] işlərinə xitam vermişdir.

Nəşriyyat cəmiyyətlərinə olan ehtiyac bizdə başqa millətlərdən çox-çox böyükdür. Çünki nəşriyyatımız yox mənzələsindədir [dərəcəsindədir]. Bir Orucov qardaşları var idi, şimdi onlar da nəşriyyat işlərindən əl çəkmişlərdir. Bizim millət üçün ticarət məqsədilə açılan müəssisə xeyir verməz. Bu yolda hökumətimiz və baxüsus [xüsusilə] cəmiyyətlərimiz çalışmalıdırlar. Yaxşı olardı ki, Maarif Nəzarəti nəzdində bir heyət təşkil olunaydı və bu heyətə kitab mühibbləri [kitabsevərlər] dəvət olunaydı.

Firidun bəy Köçərli həzrətləri məktəbdə müdirlik edirlər. Müdir üçün başqa adamlar da tapmaq olar. Amma Firidun bəyin ədəbi vəzifəsini kimsə görə bilməz. Firidun bəyi Maarif Nəzarəti nəzdində açılacaq olan Nəşriyyat şöbəsinin başına dəvət etməli və birinci olaraq ədiblərimizin əsərlərini basdırmalıdır. Nəşriyyat şöbəsinə əza [üzv] olmaq üçün Salman Mümtaz çox faydalı olar. Mümtaz cənabları kitab mühibbi olduğu üçün çox qiymətli əsərlər toplamışdır. Onun kütübxanasında bir çox ədiblərin əl yazıları məhfuzdur [qorunur]. Köçərli ilə Mümtaza nəşriyyat işlərimiz tapşırılsa və onlara pullar təxsis olunsa [ayrılsa], az bir zamanda gözəl nəticələr meydana çıxar zənnindəyəm.

Hankı yolda qənaət olunsa, nəşriyyat üçün gərək qənaət olmasın. Çünki bugünkü basılan kitablar kəsilən pullardan qiymətlidir. Bir çox pullar var ki, sərf olunur və əməli nəticələr də verməyir. Nəşriyyata xərclənənlər millət üçün böyük sərmayə vücuda gətirər. Bütün gələcəyimiz, mədəni binalarımız, tərəqqi məhsullarımız bu sərmayə üzərində binalanacaqdır. Pəs [elə isə], sərmayə üçün çalışmalıyıq və onu əhli əlinə verməliyik.

*Yusif Vəzirov*

## AZƏRBAYCANDA DARÜLFÜNUN

Darülfünunumuz [universitetimiz] olmazsa, nə olar? Ürfani və ictimai həyatımıza səktə [durğunluq; ziyan] gələr. Ümumi maarifə aid orta məktəblərimizdə şagirdlərimizə dərs verəcək müəllimlərimiz olmaz. Naxoşlarımıza müalicə edə biləcək təbiblər məfqud [yox] olar. Hüquqşünas hakimlər bulammayız ki, birbirləri ilə mal və mülk üçün münazię [mübahisə] edən vətəndaşlarımızı və ya cinayət iqa etmiş [törətmiş] canilərimizi mühakimə etsin. Darülfünunumuz olmazsa, mətbuatımız maarifcə Avropa və qonşu xristian millətlərinin mühərrirlərinə [yazıçılarına, publisistlərinə] küfvümisl [tay, bərabər] olacaq mühərrirləri nərədən ala bilər?

Darülfünunumuz olmazsa, ömrünün həpsini ülum və fünuna [fənnlərə] vəqf edərək mücəssəmi-elm və fənn olan o möhtərəm vücudlar, millətlərin mədəniyyət üzrə həyat sürmələri üçün labüd olan professorlar, həpsi millətimiz içində nərədən çıxar, nərədən yetişər?

Mədəni həyatın şəraitinə və amillərinə im'an nəzəri ilə [diqqətli nəzərlə] baxıldıqda o dəqiqə görünür ki, bu həyatın mənbəyi, sərçeşməsi [qaynağı], mabihülqivamı [onurğası, onu ayaq üstündə saxlayan şey] darülfünundur. Darülfünundan əl çəkmək mədəni həyatdan rugərdan olmaqdır [üz döndərməkdir].

İnşallah, millətimiz İran şairi ilə həmzəban olaraq "Mən lafe əql mizənəm in kare kəsi konəm" deyər də və "darülfünun istəmirəm" fikrini qəti surətdə və bir daha adını-sanını çəkməmək üzrə rədd eylər.

Bu rədd ki – bu saatda ondan ibarətdir ki, Məclisi-Məbusanımız hüzuruna təqdim olub Azərbaycanda dövləti darülfünun təsisinə aid olan hökumət layihəsini təsdiq buyursun – beynəlmiləl siyasətimiz üçün də, bizim üçün pək lazımdır.

Bugünlərdə qəzetələrdə Müttəfiqlərin Osmanlı deleqasiyasına verdikləri cavab basılmışdı. Avropalılar özlərində Osmanlı mülkünü, Osmanlı təbəiyyətini [vətəndaşlığını] yaşayan millətlərə paylamağa haqq görürlər. Buna da onu səbəb verirlər ki, osmanlılar siyasi və ictimai həyatlarında ümum mədəni millətlərin rəhbəri olan fənn və əqli-səlim [məntiq] ilə müamilə [rəftar] etməyib, ya öz ənənələri və ya öz keyifləri ilə müamilə edirlər. Ona görə onlar osmanlılarda o qabiliyyəti görməyirlər ki, nə özləri üçün tərəqqi ilə tövəm [tay, əkiz] bir həyat təsis edə və nə başqa millətləri öylə idarə edə bilsinlər ki, bu şiveyi-idarə [idarə tərzi] Avropa nəzəriyyatına təvafüq etsin [müvafiq olsun]. Yəni, bir sözlə, osmanlıları ictimai həyatlarında fənni rəhbər istəmədikləri üçün qanuni-mədəniyyətin xaricinə qoyur.

Gürcülərin bir ildən ziyadədir darülfünunları var, ermənilər isə bizdən sonra darülfünun təşəbbüsünə girdikləri halda, darülfünunlarını hökumət və Parlament qərarı üzrə təsis etmişlərdir.

Əhvala vüqufi-kamilləri olmayan [vəziyyətdən ətraflı xəbərdar olmayanlar] deyə bilərlər ki, avropalılar osmanlılardan nə istəyirlər? Osmanlıların da darülfünunları var. Darülfünunları var, fəqət "universitetləri" yoxdur. Maddiyyata aid şeylərdə Osmanlı professoru Avropa professoru kimi söz söyləyə bilər, fəqət fəlsəfə və ədəbiyyata aid məsələlərdə isə osmanlılarda hürriyyəti-əfkar [fikir azadlığı] yoxdur. Şeyxülislam nə əqidədə isə, bu işlərdə hər kəs o əqidədə bulunmalıdır. Buna təvafüq etməyən [uyğun gəlməyən] bir əməl yapmaq deyil, bir söz söyləmək belə cinayət ədd [hesab] olunub, mücazatı calib olur [cəzalandırılmağa səbəb olur].

Madam ki, biz Azərbaycan türkləri ictimaiyyatda hürriyyəti-əfkarı qəbul etmişiz və madam ki, bu hürriyyəti-əfkara meyil və cazibə bizim qövmi [milli] xasiyyətimizdir, – böylə olmasaydı, ismi Avropada dastanlara keçən gəncəli Mirzə Şəfi [Vazeh] və ya Mirzə Fətəli Axundov kimi mücəssəmi-hürriyyəti-əfkarlar [fikir azadlığı mücəssəmələri] bizim içimizdən nasıl nəşət edə [əmələ gələ] bilərdi? – neyçün biz hürr əfkar sahibi olduğumuzu təcəlli etdirməyəlim? Bəli, biz ictimaiyyatda hürriyyəti-əfkar sahibləriyiz və madam ki böyləyiz, Avropa masştabında mütləq və qeyri-məhdud olan hürriyyəti-əfkar üzərinə müəssəs [qurulmuş] bir darülfünun açmalıyız ki, bu darülfünunumuz hürriyyəti-əfkarçı olduğumuzun dəlili-feilisi [feili dəlili] olub, bizim istiqlali-siyasimizə toxunmaq üçün avropalıların əlindən "Siz hürriyyəti-əfkarçı deyilsiniz, biz sizə istiqlal verəmməyiz" bəhanəsini alsın.

Şimdilik darülfünun bizim içimizdə ancaq rus professorlarından təşəkkül edə bilər. Özümüzün professorlarımız yoxdur. Adi əhvalında yaşayan heç bir millətdə bu qədər öz məmləkətinə lazım olmayan professor bulunmaz ki, onlar xaric bir məmləkətdə bir darülfünun aça bilsinlər. Rus məmləkətinin məlum olduğu üzrə işləri bu halkı halda pəjmürdə olmuşdur. Ona görə rus professorları işsiz qalıb, başqa məmləkətlərdə darülfünun təsis etməyə talib olurlar. Bizim Azərbaycan studentləri isə hal-hazırda ancaq rus lisanı bilirlər və bu lisanda ali təhsil edə bilirlər. Ona görə ictimai və siyasi zərurət bizdən onu istəyir ki, bu rus fazillərindən istifadə edib rusca tədris edəcək bir darülfünun açalım. Fəqət daimi olmaq üzrə ali təhsilin əcnəbi lisanda kəsb olunacağı [əldə edilməsi] işimizə əl verməz. Fünunda olsun, idareyi-siyasətdə olsun, ticarətdə olsun, nədə olursa-olsun, kəndi işlərini öz dilində əmələ gətirəmməyən bir millət səqət [xarab, pozulmuş; əlil], xurda [işə yaramaz] bir millət olub, həqiqi istiqlaldan feilən saqit [həqiqi istiqlala feili surətdə gücü və qabiliyyəti çatmayan], həqiqi istiqlala naqabil bir millətdir. "Qonşu, mən öz sözümü deyəmməyirəm; bir az vaxt üçün dilini mənə ver, danışım" deyən nə qədər zəlil və həqarətə şayan [təhqirə layiq] isə, "Mən öz qərari-mədarımı [əsas qərarımı] öz dilimdə yazammayıram; qonşu, dilini mənə ver, sözümü öz vətəndaşlarıma anladayım" deyən bir nazir və ya vali ondan ziyadə şayani-təhqirdir [təhqirə layiqdir]. O adam isə ki, "mən filan fəndə mütəxəssisəm" iddiasında bulunur və türkdür və türkcə qonuşur, amma öz elmini öz dilində tədrisdən izhari-əcz edir [acizlik nümayiş etdirir], onun alim olduğuna inanmayınız. Yolunu bulub bir diplom alıb, alim deyə xalqı aldadır. Alim olmaz ki, mütəfəkkir olmasın və vaxta ki, elm ilə fikir öz dilini bilən bir adamda cəm oldu, o öz dilində elmini bəyanda heç bir güclük çəkməz. Ona görə əvvəlinci gündən belə təzə və rus dilində açacağımız darülfünunumuzu milliləşdirməli və türkləşdirməliyiz. Darülfünunumuzu deyil, idarələrimizin hamısının lisanını türkləşdirməliyiz.

Bir qaç sənə bundan əvvəl Avropa əlsinəşünasları [dilçiləri, linqvistləri] içində külli cahan üçün ümumi və yeganə bir lisandan bəhs olunduğu sırada, alman şərqşünaslarından bir alim o fikri verdi ki, ümum növi-bəşər üçün yeganə bir lisan olmaq üzrə türk lisanı qəbul olunsun. Çünki türk lisanının qəvaidi [qaydaları] hamı lisanlardan ziyadə müntəzəm və müttəriddir [sıralı və müntəzəmdir]. Heç insafdır ki, böylə cahanpəsənd [bütün dünyanın xoşuna gələn] lisanımız olduğu halda, əfkarımızı yabançı bir millətin qəvaidi hamıdan çətin olan dilində bəyan edək? Bir iranlı bu məqamda bildirdi ki, "Movzun nist və ila mə'ni nədarəd". Mən isə canım istəyir ki, bağırım ki, böylə bir müamiləmizdə nə hübbi-vətən [vətən məhəbbəti] var, nə əqli-səlim [sağlam düşüncə]. İnşallah, dilimizdən başqa dilləri içimizdən çıxarmaq xüsusunda bir özgə dəfə müsahibət [söhbət] edəriz.

*Şahtaxtlı Məhəmməd*

**NAXÇIVAN-ŞƏRUR MƏSƏLƏSİ**

**- 5 -**
**Ələt-Culfa dəmiryolu**

Naxçıvan-Şərur və qeyri tərəflərdə səfil halda günlər keçirməkdə olan Azərbaycan Zəngəzur qaçqınlarını fəlakətli haldan qurtarmağa, Azərbaycan höku-

məti üçün ən asan və mənfəətli bir təriq [yol] vardır, o da Azərbaycanın Ələt dəmiryol mövqifindən [stansiyasından] başlayıb Culfa mövqifində Təbriz-Naxçıvan dəmiryolu ilə birləşən dəmiryol xəttidir. Bu dəmiryolu ticarət və sövqülceyş [strateji] nöqteyi-nəzərindən Azərbaycan və Naxçıvanın "can damarı"dır. Nikolay zamanı bu dəmiryol xəttinin torpaq döşəməsi və körpü yerləri hazır olub qurtarmışdır.

Ələt-Culfa dəmiryol xətti Ələt mövqifindən başlayıb Azərbaycan daxili ilə gedir, Cəbrayıl uyezdində isə daxildən çıxıb İran ilə Azərbaycan sərhədi boyu Araz qırağı ilə gedir. Dəmiryolu burada Azərbaycanın Zəngəzur hissəsini bütün mənası ilə şəhbalı [qanadı] altına almış olur. Bu sərhəd boyunda hər 50-100 addımda qaraqolxanalar, posta nöqtələri mövcuddur. Bunlar Nikolay zamanından qalmadır. Sahibsizlikdən, vaqe olan hadisələrdən bunların bəziləri dağılmış, sökülmüş, bəziləri isə hali ilə boş qalmışdır. Bu postaxanaların Ələt-Culfa dəmiryolu üçün çox böyük əhəmiyyəti vardır. Yol üçün lazım olanları az hümmətlə düzəlib təmir olar və böyləcə də, Ələt-Culfa dəmiryolunun hazır mövqif və qaraqolxana məqamını tutar.

Ələt-Culfa dəmiryolunun şosesi boydan-boya dağlar yarılıb, çuxurlar düzəlib çəkilib qurtarmışdır. Şosenin ancaq əhəmiyyətsiz bəzi yerlərini sel yuyub aparmışdır ki, az təmirlə şosenin ağacları döşənib dəmiryol çubuqları düzülməlidir. Yarı hazırlanmış bu dəmiryolu Azərbaycan hökumətimizin səyi ilə gecikdirilməyib, tamamlanıb az müddətdə qurtararsa, bir çox cəhətlərdən, bizcə, ən böyük əhəmiyyətləri və mənfəətləri haiz olar.

1) Bu yolun düzəlməsində çalışmaq üçün Azərbaycan Zəngəzur qaçqınların[ı] İran, Naxçıvan, Şərur, Ordubad tərəflərində yüzlərcə, minlərcə qoyun sürüləri kimi səfil, pərişan halda gəzib məhv olmaqdan qurtararız. Onların salamat olanların[ı] gətirib bu yolda çalışdırarız. Zavallıların özləri də bu kimi çalışmalara və əsgər alınmalarına razıdırlar. Bu vasitə ilə onları dilənçilikdən, səfalətdən qurtararız. Öz əllərinin zəhməti ilə özlərinə məişət qazandırmış olarız. Daha ianə təriqi ilə dilənçi loğması yemək adətinə namuslu əhalimizi alışdırmamış olarız.

Zəngəzurdan qaçıb da İran, Ordubad, Naxçıvan, Şərur tərəflərində bütün səfalətli hal ilə gün keçirməyə məcbur olan yüz minlərcə kəndçi, əkinçi qaçqınlarımızın indiyə qədər öz kəndlərinə, əkinləri üstünə qayıtmamalarına mükəmməl silahlanmış üç erməni kəndi mane olmaqdadır. Bunlar isə Cəbrayıl uyezdinin Zəngilan nöqtəsi ilə Ordubad arasında (bəzi kənar erməni kəndlərindən başqa) Ələt-Culfa dəmiryolu üstündə, Araz qırağı boyunda, dağ ətəklərində və dərələrdə düzəlmiş olan Astazor, Meğri və Kərçivan denilən erməni kəndləridir ki, bunların kəndləri həmin yol üstünə hakim olmaqla dağ ətəklərində və ətrafı təpələr, dağlarla əhatə edilmiş dərələrdə bulunmaqla qayət möhkəm və mətindir. Kənd əhalisi də böyükdən-kiçiyinə qədər hamısı silahlı zənn edilməkdədirlər. Bunlar o tərəflərdə bulunan Zəngəzur qaçqınlarını öz kəndlərinə qayıtmağa qoymadıqları kimi, Ələt-Culfa yolunu da bütün-bütünə kəsmişlərdir. Bu erməni kəndliləri bununla da kifayətlənməyib, Arazın o tayından İran torpağı ilə keçənləri də atəşə tutmaqdadırlar. Buralarda erməni atəşinə tutulanlar mövqenin fənalığından dolayı özlərini güc müdafiə edə bilirlər. Binaənileyh [ona görə], məmləkət daxilində hər bir hərəkətləri mənafeyi-dövlət və millətə zərərli olan bu kimi kənd əhalisini tərk-silah etmək hər bir hökumətin vəzifeyi-siyasiyyə və milliyyəsidir.

2) Ələt-Culfa dəmiryolunun çəkilib qurtarması Azərbaycanın Zəngəzur hissəsini təhti-təminə [təminat altına, asayiş altına] almış olar. Bununla bərabər, o tərəf sərhədimiz bəzi quldur təcavüzlərindən məsun [toxunulmaz] qalar. Zəngəzur daxilində bəzi asi təbəələrimizin də iğtişaş və quldurluq ruhu sönər.

3) Ələt-Culfa dəmiryolumuz çəkilib qurtarsa, dinən, irqən, lisanən, tarixən vücudumuzun bir hissəsi olan və məmləkətimizin uzaq bir parçası sayılan Naxçıvan, Şərur, Sürməli tərəfləri ilə bilavasitə və sıxı olmaqla siyasi, iqtisadi, milli, əsgəri, dövləti əlaqəmiz hüsulpəzir olar [əmələ gələr]. Bununla da doğma qardaşlarımızın arizuyi-milliləri qasiblərin cəbri [qəsbkarların zorakılığı] ilə deyil, özlərinin rəyi ilə yerini bulmuş olar.

4) Azərbaycanın Ələt-Culfa dəmiryolu hazır olarsa, İrandan Qafqaziyaya və Rusiyaya gətirilməkdə olan hətta Avropaya aparılmaqda bulunan hər qisim malları ən ümdə Ələt-Culfa dəmiryolu ilə daşınmağa başlanar. Bu yol İran mallarının Qafqaz təriqi ilə xaricə daşınması üçün ən əhəmiyyətli yoldur. Zira şimdi hazırda İran Azərbaycanının qərbi hissəsindən çıxarılan malın daşınmasına yeganə vasiteyi-nəqliyyə Culfa-Uluxanlı təriqi ilə Erməni Cümhuriyyəti daxilindən keçən dəmiryoldur. Bu yolun keçməsi ilə Erməni Cümhuriyyətinin İran mallarına heç bir cəhətdən mənfəəti toxunammayır və toxunmayacaqdır da. Çünki:

a) Erməni Cümhuriyyəti və camaatı maddi cəhətdən olduqca fəqir və zügürtdürlər [yoxsuldurlar]. Mənfəət edilmək niyyəti ilə Erməni Cümhuriyyətinə aparılan mal zərərdən başqa bir nəticə verməməkdədir.

b) Erməni Cümhuriyyəti baş məmurlarından tutub aşağı məmurlarına varıncaya qədər istiqlaliyyətə çatandan bəri quldurluğu və qarətgərliyi özləri üçün bir şüar və bir sənət edinməkdə bulunmuşlardır. Bunun üçün Erməni Cümhuriyyətinə mal çıxarmaq xətalıdır.

c) Erməni Cümhuriyyəti hökuməti məmləkət idarəsini bacarmadığından dolayı Erməni Cümhuriyyəti məmləkətinin hər tərəfində soyğunçuluq, talan, öldürüşmələr, vuruşmalar, basqınlar, cibkəsiciliklər, hücumlar, zəbtlər, həczlər [müsadirələr] hökmfərmadır [hökm sürməkdədir]. Onun üçün Erməni Cümhuriyyəti daxilində yaşayan erməni, müsəlman tacirləri, alış-verişçiləri Erməni Cümhuriyyəti daxilində ya alış-verişlərini tərk edib boş-boşuna oturmağa məcbur olmuşlar, yaxud istər erməni, istər müsəlman tacirləri Erməni Cümhuriyyəti daxilindən başlarını götürüb ətraf məmləkətlərə qaçmışlar və asudə gördükləri Gürcüstan, Azərbaycan məmləkətlərin-

də ticarətlərinə başlamışlardır və başlamaqdadırlar.

d) İran malını daşımaq üçün ən yaxın və rahat yol Ələt-Culfa dəmiryolu olacaqdır. Həm də bu yol İran mallarını Qafqazın ən dövlətli və ticarət mərkəzi Azərbaycan Cümhuriyyətinin şərəfli paytaxtı bulunan Bakı şəhərinə isal edəcəkdir [çatdıracaqdır].

5) Ələt-Culfa dəmiryolu hazır olduqda İran ilə olan ticarətimizə çox mənfəəti toxunacağı kimi, yol boyunda şenliksiz qalmış [abad olmayan] səhralarımız, torpaqlarımız abadlaşacaq, şenliklənəcəkdir. Bu vasitə ilə bu yol həm dövlətimiz xəzinəsinə artıq varidat verə biləcək, həm məmləkətimizi şenləndirəcəkdir.

İştə, Azərbaycan Dəmiryol Nəzarəti sövqülceyş və iqtisad nöqteyi-nəzərindən ən çox əhəmiyyəti haiz bulunan [əhəmiyyət daşıyan] Ələt-Culfa dəmiryolunun bir an əvvəl hazırlanıb qurtarmasına mənafeyi-dövlət və məmləkət naminə ən ciddi təşəbbüs və hümmət etməlidir. Zamanı ilə Vittenin məşhur proyekti vasitəsilə tamamlanıb hazırlanmış olan Sibirya dəmiryolunun rus hökuməti üçün əhəmiyyəti nə idisə, Ələt-Culfa dəmiryolunun da Azərbaycan Cümhuriyyəti üçün əhəmiyyəti o qədərdir.

*M. B.*

Qeyd etməliyiz ki, həman yolun inşasını davam etdirmək hökumət və Məclisi-Məbusan tərəfindən təhti-qərara alınıb lazımi pullar dəxi buraxılmışdır.

*İdarə*

## KİMİN ƏMRİ İLƏ VƏ NƏ ÜÇÜN?

Paytaxtımızda nə üçün qadınlarımız təqib və təhqir edilirlər? Nə üçün hürriyyətdən məhrum edilirlər? Neyçün tatarı qamçı ilə qovulurlar? Məgər onlar yurdumuzun ən böyük bir kütləsi və ən müqəddəs vəzifə ilə müvəzzəf [vəzifə daşıyan] bir üzvü deyillərmi?

İstiqlal gününədək qadınlarımız artıq kəndilərini hürr saymağa başlamışlardı. Fəqət 28 Mayısda gördükləri əziyyət, çəkdikləri məşəqqət bütün oxuculara olmasa da, Bakı əhalisinə bəllidir. Qadınlar bulvardan qovulurdular. Qadınların tamaşaya çıxmasına mane olurdular. Qadınlar qamçı ilə təqib olunurdular.

Bir neçə gün sonra Şamaxı yolunda bir əsgər ilə bir polis məmuru tərəfindən çadralı, fəqət Avropa modası ilə geyinmiş bir qadın döyülmüşdür. Daha neçə gün sonra teatrodan gələn bir müsəlman xanımı öz qardaşı yanında təhqir edilmiş və cavab verərkən tüfənglə döyülmüşdür. Xülasə, qadınları təqib məsələsi ittifaqi [təsadüfi] bir məsələ deyil, bu gün hər yerdə, xüsusən əsgərlər və polis məmurları tərəfindən icra olunan ümumi bir hərəkətdir.

Hətta bu barədə xüsusi bir cəmiyyət təşkil edildiyi xəbərini eşitmişdik, fəqət görməmişdik. Onu da iyulun 25-də axşam paytaxtımızın bulvarında gördük. 5-6 müsəlman xanımı bulvarda gəzərkən 3-4 milis və bir neçə sivil libaslı şəxs onları saxlayıb bulvardan çıxmalarını təklif etdilər. Arvadlardan biri səbəbini sordu, o isə:

– Biz müsəlmanıq, razı ola bilmərik ki, müsəlman arvadları bulvarda gəzsinlər, – deyə cavab verdi. Arvadlar milisə dedilər ki, o vaxt biz bundan sonra çadramızı tullayıb gələrik, tanımazsınız.

Bir neçə yoldaşımız ilə biz bu mübahisədən maraqlanıb yaxlaşdıq və milisdən nə qanun ilə bunları çıxartdığını və kimin əmri ilə ancaq müsəlman arvadlarını qovmağa mükəlləf bulunduqlarını soruşduqda, milislər hiddətlənib:

– Biz heç qanun-zad bilməyirik. Biz onu bilirik ki, müsəlmanıq, onlar da müsəlmandırlar. Çünki çadraları var. Ona görə qoymarıq namusumuz ləkələnsin.

Biz cavabında:

– Əfəndim, siz nə qədər ki, silahla postda durmuşsunuz, asayişə baxıcı bir məmursunuz. Vəzifəniz asayişi pozanları alıb polis idarəsinə gətirməkdir. Madam ki, bu xanımların burada heç kəsə bir əziyyətləri yoxdur, o halda onları təqib etməyə haqqınız yoxdur.

Bu sözlərə qarşı milis nəfəratından biri susdusa da, digərləri, xüsusən bir uzunpapaq qızdı:

– Biz “Təəssüb” adlı firqənin əzaları [üzvləri] pək zorla da olsa, arvadları bulvara qoymayacağız. Hər kəs güclə istəsə, buyura bilər, – dedi.

Bu danışıqdan sonra fikrimə gəldi ki, böylə təəssübkeş oğlana Lənkəran, Zəngəzur və ya Dağıstan cəbhələrini göstərəyim, deyəyim ki, namusumuz azadə paytaxtımızda deyil, orada qanlı pəncələrdə təhqir olunur. Təəssüb yeri oradır, bura get, fəqət yenə olmadı.

Telefonla port uçastokuna xəbər verib adam istədik və postda durmuş milis ilə bu hərifi polis idarəsinə apardıq. (Çünki başqaları qaçmışlardı.)

Pristav gənc bir müsəlman idi. Danışığından anlaşıldı ki, doğrudan da, qadınları bulvara qoymamaq məsələsində o dəxi həmraydir. Bəlkə nə yerdənsə bir əmr dəxi verilmişdir. Çünki milis müdafiə ilə bir çox səbəblər göstərirdi. Guya arvadlarımızın başından ingilislər sərxoş olub çadraları alırmışlar. Hətta bir neçəsini tutmuşlar imiş və sonra bir sərxoş müsəlman müsəlman arvadının çadrasını almış imiş.

Bütün bunlara cavabən söylədik ki, bu səbəblər bütün arvadlarımızı təqib etməyə haqq verməz. İstər ingilisin hərəkəti, istər sərxoş müsəlmanın rəftarı cəzanı mövcib [cəzalandırılmalı olan] bir cinayətdir. Madam ki, qadınlarımızı təqib edib incidirlər, o vaxt sizin vəzifəniz böylə cinayətlərin qabağını almaq, qadınlarımızın hürriyyətini təmin etməkdir. Pristav əvvəl bir qədər hiddətlənib, bundan sonra müsəlman arvadını incidənləri tutdurmayacağını belə bəyan etdi. Fəqət sonra söz verdi ki, daha bir də mənim dairəmdə müsəlman arvadları təqib olunammazlar.

Fəqət bununla iktifa etmək [kifayətlənmək] olarmı? Qadınlarımızın hürriyyəti mühafizə olunacaqmı? Biz bütün uçastokların mərkəzindən tələb edərdik ki, milislərin hərəkətini saxlasınlar. Bu işin təsəttür [örtünmək] məsələsinə əsla dəxli yoxdur. Çünki təqib olunan xanımlar müsəlman adəti ilə geyinmiş, çadırşəbli [çarşablı] adamlardır ki, onlara açıq gəzmək, yainki üzünü örtməmək kimi töhmətlər atıla bilməz. Təkrar ediriz, onlara əziyyət verən varsa, cəzanı əziyyət verənlərə etməlidir, nəinki mütəzərrirlərə [zərərçəkənlərə].

Bu hərəkətlərin qabağı alınmazsa, bəlkə 1917-ci il fəqərəsi [hadisəsi] təzələnib sabah küçə ilə gedən xanımların çəkməsini çıxarmağa başlarlar ki, evdə əyləşsinlər.

*Məhəmmədzadə Mirzəbala*

**BAKI XƏBƏRLƏRİ**

**Nazirlərin səfəri**

Neçə gün əvvəl Rəisi-vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli və Hərbiyyə naziri Səməd bəy Mehmandarov həzrətləri Quba tərəfə ordunu nəzərdən keçirtməyə getmişlərdi. Qusarda böyük bir rəsmikeçiddən sonra nazirlər o tərəfdən qayıdıb, Bakıda dayanmadan birbaşa Gəncəyə getmişlərdir.

26 iyulda nazirləri Gəncə vağzalında Gəncə qubernatoru [Xudadad bəy] Rəfibəyov və şəhər qlavası [Ələsgər bəy] Xasməhəmmədov, general Şıxlinski istiqbal etmişlərdir [qarşılamışlar]. Vağzaldan nazirlər Topçu meydanına əzimət edib [yola düşüb] qoşunlara böyük rəsmikeçid icra edilmişdir.

Rəisi-vükəla ilə Hərbiyyə naziri həzrətləri Gəncədən Şuşaya səfər edəcəklərdir. Ehtimal ki, Azərbaycanın bir çox sair nöqtələrini də gəzəcəklərdir.

**Batum-Bakı arasında**

Batumdan mal çıxarmaq istəyən tacirlər Batum Şurasından bir kağız alıb buna 30 manat verməlidirlər. İkinci, Gürcüstan konsulundan nə qədər mal olursa-olsun, bir tranzit kağızı almaq lazımdır ki, ona da 50 manat veriləcəkdir. Yenə həman tranzit kağızı üçün Azərbaycan konsuluna da ayrıca 156 manat vermək lazımdır. Batum içərisindən vağzala qədər malın hər puduna 25-30 manat xərci vardır. Batumdan baqaj Bakıya iki günə gələ bildiyi halda, məətəəssüf [təəssüf ki], bu mallar Gürcüstan və Azərbaycan istasyonlarında aylarla saxlanır. Bu isə malın qiymətinə çox təfavüt edir. Hökumətin, xüsusən Ticarət və Ərzaq Nəzarətinin nəzəri-diqqətlərini bu xüsusa cəlb ediriz.

**Zabitlər haqqında**

Daxiliyyə naziri Bakı qubernatoruna xəbər vermişdir ki, mülki idarələrdə xidmət edən zabitlər Hərbiyyə Nəzarəti ixtiyarına keçir. Ona görə bütün zabitlərin siyahısını, silahını və indiki xidmətlərini Daxiliyyə Nəzarətinə bildirməlidir.

**İcazə**

Gürcüstan hökuməti, siyasi nümayəndəmizin 24 iyunda 2569 nömrə məktubuna cavabən xəbər verir ki, Bakıdan başqa Azərbaycanın hər yerindən Gürcüstana gələnlər gürcü nümayəndəsindən vəsiqə almasalar da olar. Fəqət Azərbaycan hökumətindən vəsiqə almalıdırlar. Gürcüstandan Azərbaycana qayıdanda isə müsafirlərin Gürcüstan hökumətindən geri qayıtmaq üçün icazənamələri olmalıdır.

**Bələdiyyə İdarəsində**

Vaxtilə Bələdiyyə İdarəsi Məsai Nəzarətindən şəhər kassasının fəna əhvalından naşi [ötrü] hökumət nəzdində Məsai borsası məxaricatını [Əmək birjası xərclərini] kəndi öhdəsinə götürmək haqqında





isticvabda [sorğuda] bulunmuşdur. Baş müfəttiş Bələdiyyə İdarəsinə məlum etmişdir ki, işbu məsələ şəhərin iqdamatı [təşəbbüsü] sayəsində hökumətə təqdim edilməklə, məxaricatın bir hissəsinin verilməsi haqqında təşəbbüsatda bulunmaq mümkündür. Binaənileyh [ona görə], məxacirat haqqında məlumat verilməsi mərcudur [xahiş olunur].

**Dağıstan günü**

Türk tələbələri tərəfindən Dağıstan günü yığılan pul 200 min manatdan çoxdur. Xərc 16 min manatdır. Bu məbləğ təftiş heyətinin təhqiqatından sonra yeni Tələbələr Komitəsinə tapşırılacaqdır.

**Tələbələrin ümumi iclası**

3-4 gün bundan qabaq Birinci Realnı məktəbin salonunda ümum tələbələrin (bilafərqi-millət [millət fərqi olmadan]) iclası vaqe olmuşdur. İclasda sədarət edirdi tələbə Həbib Babazadə, katib Xaldeyev.

İclas açılarkən Darülfünun Komisyonu üzvü professor [Nikolay] Dobrovski saat yarımlıq nitqində hazirunu [iştirakçıları] darülfünun məsələsi ilə tanış edib nəticədə demişdir ki:

– Çox müarizlər [zidd olanlar] olduğuna baxmayaraq, darülfünun açılacaqdır. Bunu həmi hökumət, həmi də türk gəncləri tələb edirlər. Darülfünun türk milləti üçün qurtuluş yeri, böyük milli ruh və anlaqlıq oyadıcı müəssisə olacaqdır.

Məruzəçi böyük alqışlara nail olmuşdur.

Məruzədən sonra müzakirəyə iki məsələ qoyulmuşdur:

1) Tələbələr üçün ümumi mənzil təşkili və 2) Ümumi Tələbələr Komitəsi.

Bir qədər müzakirədən sonra qərar qoyulmuşdur ki, bir komitə seçilsin və mənzil məsələsi ona həvalə olunsun. Komitə üzvlərinin miqdarı məsələsində Zaqafqaziya Darülfünunu tələbələrinin heyəti 7 nəfər öz tərəflərindən təklif etmişlərdir. Hazirun buna razı olmadıqda Zaqafqaziya Darülfünunu nümayəndələri seçkidən imtina etmişdir. Buna baxmayaraq seçkiyə şüru olunub [başlanıb] 5 nəfər müsəlman, 3 nəfər qeyri-müsəlman intixab edilmişdir [seçilmişdir]. İki nəfər də Zaqafqaziya tələbələrinə yer buraxılmışdır. Bu komitə darülfünun açılıncaya qədər davam edəcək. Ondan sonra böyük ixtiyarata malik geniş dairədə həmişəlik bir komitə intixab ediləcəkdir.

**Azərbaycan kooperativlərinin birinci qurultayı**

İyulun 5-i gündüz saat 2-də Hökumət Teatrosu binasında Azərbaycan kooperativ nümayəndələrinin birinci qurultayı açılmışdır. Qurultayı Bəhri-Xəzər İstehlak Kooperasiya Cəmiyyətinin sədri B. N. Yakobson təbrik edib, divani-rəyasət intixabına şüru edilmişdir [seçkisinə başlanmışdır].

Seçilənlər bunlardır: Yakobson sədr, Əfəndizadə və Şuljenko müavini-sədr, qurultayın fəxri sədrliyinə köhnə kooperativçilərdən indi Ticarət, Sənaət və Ərzaq naziri müavini Yusifəli Əliyev, V. F. Malaşevski intixab edilmişlər. Katibliyə Abbasov və Piçikyan seçilmişlərdir.

Qurultayda 50 nəfər nümayəndə iştirak edir ki, yarısı ətrafdan gələnlərdir. Müsəlmanlardan 20 nəfər nümayəndə var. Qurultay səhər və axşam işləmək şərti ilə 2-3 gün davam edəcəkdir.

**Birjada**

Xırda valyuta halı təbəddülatsızdır [dəyişməzdir]. Ruh düşkündür. Kerenski pullar, 100 manatlıqlar və qızıl lirələr getdikcə düşməkdə davam edirlər.

## "MÜSAVAT"DA

**"Səfa" məktəbi binası "İttihad"a verilir**

Azərbaycan Parlamanının ləvazim heyəti "Müsavat" firqəsinə müraciətən rica etmişdi ki, "Səfa" məktəbinin mülkü "İttihad" məktəbi üçün müvəqqətən verilsin. "Müsavat" firqəsi 26 iyul cavabı ilə bu təklifə razılıq vermişdir.

**Sayad Xızıda**

"Müsavat" firqəsinin Sayad Xızı şöbəsi Mərkəzi şöbəyə müraciətən malakan kəndlərindən silahlar daşındığını xəbər vermişdir. Mərkəzi idarə bu xəbəri Əksinqilabla Mübarizə Komitəsinə xəbər vermişdir.

**Xanqışlağında**

Salyan qəzasının Xanqışlaqda vaqe "Müsavat" şöbəsi Mərkəzi Komitəyə xəbər verir ki, Xanqışlaq rayonunda 14-dək müsəlman kəndləri var ki, məktəb yox, xəstəxana yox, təbib yox, dərman yox. Camaat müalicəsizlikdən tələf olur. Mərkəzi Komitə bu xəbəri Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] xəbər vermişdir.

**Balıqçılıq əşyası**

Salyan qəzasına tabe Xanqışlaq kəndi "Müsavat" şöbəsindən Mərkəzi Komitəyə xəbər verirlər ki, Qoltuq kəndində vaqe olan hökumətin balıqçılıq əşyalarını Xanqışlaq kəndi əhlindən Məşhədi Xanməhəmməd nam Məşhədi Baxış oğluna satıb pullarını da almışdır. Mərkəzi Komitə bu xəbəri lazımi yerinə bildirmişdir.

**Posta-teleqraf xərci**

İyulun 6-da Salyan qəzasına tabe Xanqışlaq kəndindəki "Müsavat" firqəsi şöbəsindən xəbər verirlər ki, Qoltuq kəndinin pristavı camaatdan ayda 2000 manat posta-teleqraf xərci yığılmasını əmr etmişdir. Camaat ictima [yığıncaq] edib Posta-Teleqraf Nəzarətindən binagüzarlıq [sərəncam] istəyir.

**Zirə kəndindən**

Zirə kəndində Hacı bəy, Rza bəy, Məhəmmədqulu bəy və Ağa bəy nam bəylər, kəndçilər tərəfindən bostan və taxıl əkilmiş yerlərə gəlib tələb etmişlər ki, bu yerlər bizim olduğundan gərək məhsulun yarısını bizə verəsiniz. Əks surətdə kəndçiləri zorla məcbur edəcəklərini bildirirlər. Kəndçilər onları əsla tanımadıqlarını söyləyib təkliflərinə əməl etməmişlərdir.

**Zəngəzur qaçqınları üçün nümayəndə**

Ümuri-Xeyriyyə Nəzarətinin müraciətinə binaən [əsasən], Mərkəzi Müsavat şöbəsi Zəngəzur qaçqınlarını yerləşdirməkdən ötrü Əliyusif Mirzə Cəlal oğlunu nümayəndə təyin edir.

**Səhhəti-Ümumiyyə Nəzarətinə**

Yenə qaçqınları idarə etmək və yerləşdirməkdən ötrü Səhhəti-Ümumiyyə Nəzarətinə "Müsavat" firqəsi tərəfindən Əbdürrəhim Əşrəfzadə və Əliheydər Babazadə nümayəndə intixab edilmişdir.

**İclas üçün icazə**

Rayonlarda firqələr və təşkilatlar iclas yapmaqdan ötrü əvvəlcə Balaxanıya, Sabunçu polismeysterinə müraciət etməlidirlər. O da telefon vasitəsilə qradonaçalnikdən izin alıb təşkilatlara bildirməlidir.

**Nardalanlıların şikayəti**

Türk Ədəmi-Mərkəziyyət firqəsinin Nardalan şöbəsi Mərkəzi Komitəyə xəbər verir ki, şəhərə qovun daşıyan nardalanlıları Ramana uçastoku 7-ci və 9-cu polis məmurları saxlayıb soymaq istəmişlər və qaçdıqda dallarınca güllə də atmışlardır. Bu xüsusu "Müsavat" firqəsi Balaxanı və Sabunçu polismeysterinə xəbər vermişdir.

## İDARƏDƏN CAVABLAR

**Cəlal əfəndiyə:** Seçki məsələsində rəyinizə əsla iştirak edəmməyiz. Hazırkı Məclisi-Məbusan əzası [üzvləri] qismən cənabınızın təsvib etdiyi [bəyədiyi] qayda ilə seçilmiş və qayət fəna nəticə vermiş olduğunu nəzərə alarsanız, görərsiniz ki, o üsul yaramaz. Bu vaxtadək Azərbaycanın müxtəlif şəhərlərində, qəsəbəçələrində buyurduğunuz üsul ilə seçki icra edilmiş də, mütəəssifanə [təəssüf ki], həmişə əksəriyyən öhdələrinə nə kimi vəzifə düşdüyünü belə bilməyən adamlar keçmişlərdir. Məhəlli-iqamətiniz [yaşadığınız yer] olan şəhərdəki milli komitə seçkilərinin üsul və nəticəsi gözünüz önündə deyilmi? Fəqət, bununla bərabər, məqalənizi öz vaxtında dərc edəcəyiz. Məsələni daha geniş surətdə tənvir edən [işıqlandıran] başqa məqalələr dəxi yazsanız, yenə dərc edəriz.

**İdris əfəndiyə:** "Gedirmişlər" sərlövhəli məqaləniz dərc edilməyəcəkdir.

**Tabaqçı Əsədullazadə əfəndiyə:** Hökumətimiz haqqında yazdıqlarınız doğru, əsgərlik haqqında gözəldir. Fəqət İran, Hindustan-filan məsələləri qarışdığından məqaləniz dərc edilməyəcəkdir. Bir də İranın xanları "əddövlə" və "əlməmalik"ləri haqqındamı, ya kimlər haqqında olur olsun, məqalələr həmişə nəzakət, ədəb dairəsində yazılmalıdırlar.

**Müsafir N. M. Ayn. əfəndiyə:** O xüsusda kərratla [dəfələrlə] yazılmış, fəqət bir nəticə hasil olmamışdır. Məmafih [bununla birgə], millətlərin, dövlətlərin, hökumətlərin nə kimi şərait altında yaşadıqlarını da nəzəri-etinaya almamış deyilsiniz, zənnindəyiz.

**Quba müxbirimizə:** Əfəndim, "Azərbaycan" qəzetəsi firqə qəzetəsi olmadığı üçün son müxabirənizi [xəbərinizi] mütəəssifanə [təəssüf ki], dərc edəmməyiz. Öylə xəbərləri "İstiqlal", "El" və sairə kimi firqə qəzetələri dərc edirlər. "Bir «İttihad»çının tövbəsi" sərlövhəli müxabirəniz çap olunmayacaqdır.

**Gəncədə Davud əfəndiyə:** Qarabağ haqqında yazmış olduğunuz məqalə idarəmizə ancaq bu gün vüsul olmuş, binaənileyh [ona görə] də vaxtını qeyb etmişdir. Ona görə mütəəssifanə, dərc edilməyəcəkdir.

**Salyanda Edadiyyə müəllimi əfəndiyə:** Məqaləniz pək gec vüsul olub, vaxtını və onunla bərabər dolayısı ilə əhəmiyyətini qeyb etmişdir.

**Həsən Dadanovun tənbəkisi**

Satılır Badikubədə Hacıbala Məhəmmədovun dükanında. Möhtərəm müştərilərimizdən rica olunur, sifariş üçün bu adresə müraciət etsinlər: Bazarnı küçə nömrə 3. Hacıbala Məhəmmədov.

*6801*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*





**Ticarət Komisyon Kontoru**
**"Gəncə" Şirkətində**

İstanbuldan böyük partiya amerikan ayaqqabıları, cürbəcür rənglər, sap və qeyri şeylər alınmışdır. Qiymətlər münasibdir.

Adres: Parapetdə İskəndərbəyovun 8 nömrəli mülkündə. Telefon: 65-7.

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 535. "General Lettov-Forbek": bu ad qəzetdə təhrif edilmişdir.

**Sülh ətrafında**

səh. 536. "Belçika Konqoda olan": qəzetdə "Konqoda" yerinə "Konqredə" getmişdir.

səh. 537. "Bulon meşəsi" (le bois de Boulogne): Parisdə şəhər parkı.

**Qəzetələrdən**

səh. 537. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" qəzeti nəzərdə tutulur.

səh. 538. "Nyu-York herald" [New York Herald]: 1835-1924-cü illərdə Nyu-Yorkda nəşr edilmiş qəzet.

"Alanda cəzirələri": Hal-hazırda Finlandiyanın tərkibində muxtariyyət statusuna malik olan, Baltik dənizindəki Aland arxipelaqı nəzərdə tutulur.

"Frakiya" (yaxud Trakya): Cənub-şərqi Avropada tarixi bölgə; müasir dövrdə Türkiyə, Bolqarıstan və Yunanıstanın sərhədləri daxilindədir.

**Almaniya xəbərləri**

səh. 539. "Forverts" [Vorwärts] ("İrəli"): Almaniya Sosial-Demokrat Partiyasının orqanı olan qəzet. Əsası 1876-cı ildə qoyulmuşdur. Təqiblərə görə müxtəlif dövrlərdə Leypsiq, Berlin, Praqa və Parisdə nəşr edilmişdir.

**İngiltərə müsəlmanlarının məktubu**

səh. 540. "Mədrəs Təşriiyyə Şurası": Hindistanın cənubunda yerləşən Tamiland əyalətinin ikipalatalı qanunvericilik orqanının yuxarı palatası olan Mədrəs Qanunvericilik Şurası nəzərdə tutulur.

"Hindistan Müsəlmanları Heyəti": Britaniya Hindistanının bölünməsi və onun tərkibindən müsəlman dövlətinin (Pakistanın) ayrılması uğrunda mübarizə aparmış, əsası 1906-cı ildə qoyulmuş və 1947-ci ildə buraxılmış Ümumhindistan Müsəlman Liqi nəzərdə tutulur.

**Paris əhvalı**

səh. 542. "santim" [centime]: Fransız pul vahidi; frankın 1/100-nə bərabər olmuşdur. 1797-2001-ci illər arasında (fasilələrlə) işlədilmişdir.

**Azərbaycanda Darülfünun**

səh. 545. "Mən lafe əql mizənəm in kare kəsi konəm": "Mən ağıldan dəm vururam, bununla kiminsə işini görürəm." (Farsca) Misra Hafiz Şirazinindir.

səh. 547. "Movzun nist və ila mə'ni nədarəd": "Ahəngdar deyil, üstəlik mənası da yoxdur." (Farsca)





**Çərşənbə axşamı, 29 iyul 1919-cu il, nömrə 237**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 1 ziqədətül-həram sənə 1337. 29 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**SİRK "MODERN"**

Səşənbə günü iyul ayının 29-da, 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş fransız güləş mübarizəsinin 31-ci günü 1919-cu ilin məşhur "Cahan Pəhləvanı" namı və Azərbaycan fəxri şarfı və 30 min manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-ci: Gənc Əli İbad - Djavani; 2-ci: Kalişeviç - Jan-di-Kalon; 3-cü: Arnold - Anderson.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda.

Pəncşənbə günü iyul ayının 31-də bu mövsümdə görünməmiş İdeal Qardaşlarının benefisi olacaqdır. Təzə nömrələr hazırlanır.

*5483*

**ELAN**

29 iyul 1919 seşənbə günü gündüz saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-190*

**ELAN**

Bununla ixtar olunur [xəbər verilir] ki, Azərbaycan dəmiryolunun yük podratçısı Qafar Əsgərovun vəkili Bakı şəhərində Qafar Rəfiyev cənablarıdır. Müşarünileyhin [adı çəkilən şəxsin] əlində 1225 nömrəli vəsiqəsi də vardır. Həman vəsiqə Yevlax və Ləki podratçısı Əsgərov tərəfindən verilib də məzkur [adı çəkilən] Qafar Rəfiyev cənablarına həman istasyonlardan gəlmə yük və baqajlar gəldiyi vaxt və onlar təhvil verildiyi zaman ixtiyar verilir ki, Rəfiyev də isbati-vücud [iştirak] edib meydana çıxacaq nöqsanlarda iştirak etməklə ittilaatı [xəbəri] olsun.

*5484*

**QİSMİ-RƏSMİ**
**[RƏSMİ HİSSƏ]**

Ticarət, Sənaət [Sənaye] və Ərzaq Nəzarəti Vükəla Şurası [Nazirlər Kabineti] təsvibiylə [razılığı ilə] əvvəlcə verilən bütün əmrlərin təbdil [dəyişdirilməsi], əlavə və təfsiri [şərhi] olaraq, bununla hamıya elan edir ki:

1. Azərbaycan torpağından bu malların əcnəbi məmləkətə çıxarılması qadağan edilir:

a) Taxıl;

b) Benzin və xüsusi şeylər aparılmasına icazə verilən bidonlardan başqa, hər bir şəkildə olursa-olsun polad və dəmir;

c) Çay, qənd, sabun, kibrit və manufaktura;

ç) Aptek malları;

d) Dəmiryol, poçta, teleqraf və telefon mayehtacı [avadanlıqları];

e) Silah, top gülləsi və partlayıcı şeylər;

ə) Saat, zəncir, qolbaq, üzük, düymə, sancaq və qeyri bu kimilərdən başqa qızıl, gümüş və platina hər şəkildə olursa-olsun aparmaq olmaz;

f) Kağız və karton.

Bu yuxarıda göstərilən şeylərin ən müstəsna ittifaqlarda [hallarda] çıxarılmasına icazə verilir ki, o da ancaq Ticarət, Sənaət və Ərzaq Nəzarətinin icazəsiylə olar.

2. Bundan əlavə, gələcəkdə xüsusi əmrlər verilənə qədər xammallardan pambıq, yun, ipək, barama, əyrilmiş sap, otçoski [tük], qoyun və keçi dəriləri çıxarılması haqqındakı məsələnin həlli, həmçinin bu cür malları çıxarmaq şəraitinin müəyyən edilməsi Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən təyin edilir.

3. Qalan şeylərin çıxarılmasına ya poşlin [rüsum] verməklə, yaxud mal mübadiləsi əsası ilə poşlin verməklə icazə verilir.

4. Mal mübadiləsi olmadan poşlin verməklə hər cür balıq, kürü (ikra), konyak, spirt, şərab və başqa spirtli içkilər, qoz, şahpalut [şabalıd], yaş meyvə və göyərti çıxarılmasına icazə verilir. Qalan şeylər isə gələcəkdə xüsusi əmrlər verilənə qədər mal mübadiləsi əsası ilə çıxarıla bilər. Mal mübadiləsi əsası ilə Cümhuriyyət daxilinə hər cür mal gətirmək mümkündür.

5. Mal mübadiləsi əsası ilə əcnəbi məmləkətə mal aparmaq istəyən şəxslər Ticarət, Sənaət və Ərzaq Nəzarətinə ərzihal verib nə cür mal, nə qiymətdə daha aparmaq istədiyini və çıxarılan malın valyuta məbləği ilə əcnəbi məmləkətdən nə cür mallar gətirməyə borclu olduqlarını məlum etməlidirlər.

Məzkur [deyilən] şəxslər öz vədləri ifasını təmin etmək üçün mal aparmaq istədiyi haqqında ərzi-hal verdiyi günün ruz-məzənnə [günlük məzənnə] hesabı ilə aparacağı malların ümum qiymətin[in] 20 faizini rəhn (zaloq) verməlidirlər. Rəhn pul, mal ya əmval [mallar], rəhn şəhadətnamələri və ya bankla verilə bilər. Aparılan malın valyuta qiyməti hamıdan ötrü Nəzarət tərəfindən bərabər əsasla hazırlanmış qərar üzrə Nəzarət tərəfindən təyin edilir.

Mal mübadiləsi istidası [xahişi] təmin edildiyi surətdə, mal aparan şəxs müəyyən rəhnin və təmr vergisinin padşahlıq xəzinəyə [dövlət xəzinəsinə] verilməsi haqqında qəbz təqdim etdiyi halda, başqa adama verilməmək şərti ilə bir ayın müddətinə qədər istənilən malın aparılmasına icazə verilir.

Şərt edilən malın valyuta qiyməti ilə əcnəbi məmləkətdən gətirilməsi müddəti, icazə verildiyi gündən 6 ayın müddətinə qədər təyin edilir. Təyin edilən





müddətdə mal gətirildiyi halda kontragent nə zaman, nə qədər və nə cür malın gətirilməsi haqqında məhəlli [yerli] gömrükxananın şəhadətnaməsini təqdim edir. Gətirilən malın mal mübadiləsi şəraitinə müvafiq olduğu təhqiq edildikdən sonra mal sahibinin verdiyi rəhni özünə qaytarılmaqla bərabər, gətirilən malın məhəlli bazarda satılmasına icazə verilir. Nəzarət və ya kontr-agent istədikləri zaman yuxarıda göstərilən şərait üzrə mal mübadiləsi müamiləsini [əməliyyatını] xüsusi müahidənamə [müqavilə] formasına da sala bilərlər.

İyunun 24-ə qədər Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən verilən icazənamələr verilən gündən yuxarıda göstərilən 6 ayın müddətinə qədər öz qüvvələrini saxlayırlar.

6. Azərbaycan torpağından tranzitlə keçən malların buraxılması icazənaməsi gömrükxanalar tərəfindən verilir.

Malın əcnəbi məmləkət malı olduğunu isbat edici sənəd dəmiryol bərnaməsi [reqlamenti], yaxud malın göndərildiyi yer göstərilməklə agentin imzası ilə paroxod şirkətinin qəbzi hesab edilməlidir. Agent olmadığı yerdə paroxod kapitanının imzası olmalıdır. Böylə imza atmağa ancaq yüz saf ton həcmindən az olmayan gəmilərin kapitanları haqlıdırlar.

Yelkən qayıqlarında və barkaslarda gətirilən mallar tranzit hesab olunmayır.

Bu tövr xırda gəmilərin dayanması üçün limanda xüsusi körpü ilə müəyyən uçastok təyin edilməlidir.

Yük gəmiləri və Azərbaycan dəmiryolu tranzit yüklərini anbarlara yığmaqdan ötrü dəmiryol körpüsündə boşaldırlar. Bu malları Azərbaycan Dəmiryolları İdarəsi dəmiryol dairəsində gömrükxanaya təqdim edir.

Sərnişin gəmilərində varid olan [gələn] mallar gəmilərin varid olduğu körpüdə gömrükxana mühafizəsi altında olan anbarlara boşaldıla bilər.

Gömrükxananın körpü və dəmiryol anbarlarında yığılan mallar hərgah bir ayın müddətinə qədər onların göndəriləcəyi haqqında məlumat verilsə, tranzit mal olduğu ləğv edilməz. Gömrükxana anbarlarından buraxılan mallar üçün məhəlli [yerli] yüklər kimi Ticarət, Sənaət və Ərzaq Nəzarətindən aparılmasına icazə alınmalıdır. Bu mallar mal mübadiləsinə gedib aparmaq poşlini verilməlidir.

Azərbaycan xaricindən gətirilib və gömrükxana anbarlarına yığılan mallar mövcud olan tranzit müqavilənamələrinə müvafiq gömrükxana tərəfindən göndərilən tranzit yüklərindən başqa, poşlinin bir yarımı verilmək şərti ilə, ümum gömrükxana qanunlarının əsası mövcibincə [prinsipinə müvafiq olaraq] gömrükxana anbarlarından buraxılan mallar gömrükxana təminatı altında (plomba və qıfıl ilə) göndərilməlidirlər.

Tranzit yükləri həcz [müsadirə] edilməz. Paroxod şirkəti daxilində saxlanmaqda olan başqa yüklərin həcz edilməsinə gəldikdə, Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən qoyulan həcz qanunları tətbiq edilir.

Azərbaycan daxilindən tranzitlə Gürcüstan və Ermənistan təriqi [yolu] ilə mal aparılması icazəsi məzkur [deyilən] cümhuriyyətlərlə əqd edilən müqavilənamə-

lərdə göstərilən əsas üzrə Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən verilir.

Azərbaycanın tranzit müqavilənaməsi olmayan məmləkətlərdən dəniz təriqi ilə və başqa təriqlərlə gətirilən malların göndərilməsi icazənaməsi Ticarət, Sənaət və Ərzaq Nəzarəti tərəfindən aşağıdakı əsas üzrə verilir:

Bu mallar Bakıda saxlandığı və burada – Bakıda boşaldığı təqdirdə onların göndərilməsi üçün Cümhuriyyət daxilindən göndərilən hamı yüklərdən ötrü qoyulmuş yuxarıdakı ümumi əsaslar üzərinə icazə verilir. Hərgah Bakıda qalan bu yüklər göndərilmək üçün ancaq başqa paroxoda yüklənsə (məsələn, Ənzəlidən Petrovska göndərmək üçün Bakıya gətirilən mallar) və birbaş göndərilməsi üçün lazımi şəhadətnaməsi olsa, o zaman həman yüklər ancaq pud vergisi verilməklə poşlinsiz azad buraxılırlar. İrana mal aparmaq isə mübadiləsiz poşlin alınmaqla ümumi əsas üzərinə aparılır. Türküstana, Petrovska və Xəzər dənizinin İran limanı olmayan yerlərinə, həmçinin Vladiqafqaz dəmiryoluna mübadilə ilə mal aparılır.

Azərbaycan təriqi ilə məhəlli dəyirmanlarda təmizləməklə tranzit düyü aparılmasına bu şərtlə icazə verilir ki, gətirilən təmizlənməmiş düyünün 50 faizi və çəltiyin 80 faizi ixrac edilsin. Düyü təmizləyən dəyirman sahibləri məhəlli əhalinin ehtiyacından ötrü həmişə lazımi qədər ehtiyatları olmağa borcludurlar. Düyü sahibləri isə təmizlənən düyünün 10 faizini Ticarət, Sənaət və Ərzaq Nəzarətinin tələbinə görə, təqdim etdiyi sənədlər üzərinə öz qiymətinə Nəzarətə verib, aparılan düyünün də hər puduna 15 rublə poşlin verməlidirlər.

Xüsusi işlərinə görə sərhədi keçən sərnişinlər icazəsiz adambaşına özləri ilə bərabər aşağıdakı miqdarda ərzaq şeyləri apara bilərlər: çörək 10 girvənkə, peynir 2 girvənkə, quru meyvə (cövüz) 10 girvənkə, yaş meyvə 15 girvənkə, çay 1 çetvert, qənd 1 girvənkə, ikra [kürü] 1 girvənkə, yumurta 10 ədəd, şərab və qeyr[i] içkilər 2 şüşə və yolda lazım olacaq qədər ev şeyləri. Göstərilən miqdardan artıq icazəsiz aparılan şeylər müsadirə ediləcəklərdir. İşlənməkdə olan başqa ev şeyləri isə paltar, zircar [alt paltarı], qab-qacaq, mebel və qeyri şeylər gömrükxana nizamnaməsinin ümumi əsası üzərinə buraxılırlar.

Cümhuriyyət daxilində sərhədə 30 verst yaxın olmayan yerlərdə hər cür yüklər azad hərəkət edilir və bundan ötrü də heç bir icazənamə lazım deyildir. Sərhədin 30 verstliyinə aparılan hər cür mal Ticarət, Sənaət və Ərzaq Nəzarətinin icazəsi olmadan qadağandır. Bu cür icazəsi olmayıb tutulan mallar kontrabanda malı kimi müsadirə edilirlər. Bu malların sərhədin 30 verstliyində saxlanması və aparılması məhəlli hökumət şəhadətnaməsi və xəbərdarlığı ilə olmalıdır.

Ticarət, Sənaət və Ərzaq Nəzarətindən icazəsiz Biləcəri mövqifindən [stansiyasından] Bakıya taxıl məhsulatı gətirilməsi də müvəqqətən qadağan edilir.

*Ticarət, Sənaət və Ərzaq Nəzarəti naziri: A[ğa] Əminov*
*Dəftərxana müdiri: [Abbasəli bəy] Makinski*
*Ümumi şöbə müdiri (imza)*





**Məşixətdən [Şeyxülislamlıq İdarəsindən]**

Şamaxı qəzasından Bico prixodu Molla Dadaş Hacı Molla Baqi oğlu təyin edilmişdir.

*Məşixət sədri müfti: M[ustafa] Əfəndizadə*

Həmin gün İdareyi-Məşixətdə tərtib tapan qərarnamə ilə Quba uyezdinin Talabı qəryəsinin [kəndinin] sakini Molla Dünyamalı Əbdürrəşid oğlu həman uyezdin Dədəli prixoduna molla təsdiq olunubdur.

*Məşixət sədri müfti: M[ustafa] Əfəndizadə*

## İKİ MÜHÜM MƏSƏLƏ

Azərbaycan Məclisi-Məbusanının son iclasında Bələdiyyə Məclisi seçkiləri haqqında qanun layihəsi müzakirə edilib, birinci qiraətdə qəbula keçdi.

Digər tərəfdən, neçə gün əvvəl Məclisi-Müəssisan seçkiləri qanun layihəsinin müzakirəsi qurtarıb, bu günlərdə Mərkəzi Seçki Komitəsi intixab edilərək [seçilərək] hazırlıqlara şüru ediləcəkdir [başlanacaq].

Məzkur [deyilən] seçkilər münasibətilə öz vaxtında məsələni hər tərəfdən işıqlandırıcı bir çox məqalələr dərc edəcəyiz. Fəqət iki məsələ var ki, seçki qanunu ilə çox sıxı surətdə mərbut [bağlı] olmaqla bərabər, yazılmasının vaxtıdır. Binaənileyh [ondan ötrü], bu iki məsələni indidən açmaq lazım gəlir.

Məclisi-Müəssisan seçkiləri haqqında qəbul edilmiş olan qanun layihəsinin 3-cü maddəsində denilir ki:

*"Cümhuriyyətin seçki gününədək 20 yaşına yetişmiş olan ümum vətəndaşları bilafərqi-cins [cinsiyyət ayrımı olmadan] Məclisi-Müəssisan intixabatında iştirak etmək haqqına malikdir."*

Bu surətlə, qanuna görə, Məclisi-Müəssisan seçkilərində iştirak etmək haqqına malik olmaq üçün Azərbaycan Cümhuriyyəti vətəndaşı, yəni məruf istilaha görə [məşhur terminə əsasən] – Azərbaycan təbəəsi olmaq lazımdır.

Digər tərəfdən, son iclasda müzakirə edilmiş olan bələdiyyə intixabatı layiheyi-qanuniyyəsində [bələdiyyə seçkiləri qanunu layihəsində] dəxi bir təbəəlik məsələsi vardır. Məzkur [deyilən] layihə Məclisi-Məbusanın Ləvayehi-Qanuniyyə əncümənində [Qanun Layihələri komissiyasında] müzakirə olarkən böylə bir məsələ qaldırılmışdır ki, bələdiyyə vəkilləri seçkisində Azərbaycan təbəəsi olmayan adamlar dəxi iştirak etsinlər, ancaq seçmək haqqına malik olsunlar, amma özləri seçilmək haqqından məhrum edilsinlər. Hətta bəziləri böylə də təklif etmişlər ki, Bələdiyyə seçkilərində təbəiyyət [vətəndaşlıq] məsələsi heç də nəzərə alınmasın.

Zahirdə Bələdiyyə məclisləri siyasət xaricində ancaq abadlıq, asayiş, ucuzluq, bolluq və sairə kimi məsələlərə xidmət etməli ikən, təcrübədən gördüyümüz üzrə, həqiqəti-halda məmləkətin siyasi həyatında böyük rollar oynayır, hətta birinci mövqe tuturlar. Fəqət bizcə, vəzifə və roluna baxmayaraq belə, bələdiyyə məclislərini ancaq hər məmləkətin öz vətəndaşları əlinə tapşırmaq olar. Zira

bir şəhəri abad etmək, asayiş və bolluğuna diqqət vermək, əhalinin şəraiti-həyatiyyəsini asanlaşdırmağa çalışmaq, ucuzluğa can yandırmaq, xəstələrinin dərdinə qalmaq üçün lazımdır ki, “şəhər ataları” adlandırılan bələdiyyə vəkilləri özlərini həqiqi ata, əhalini doğma övlad hesab edib də, ata övladının qeydinə qalan kimi qeydkeşlik etsinlər. Fəqət bir şəhərin, bir məmləkətin vətəndaşlıq şərəfini belə qəbul etməyən adamlar camaata həqiqi doğma atalıq edərlərmi?

Şübhəsiz ki, xayır!

Vətəndaşlığına “tənəzzül etmədiyi” bir məmləkətə, ya şəhərə böylə adamlar ancaq və ancaq ögey və yabançı kimi baxarlar. O halda da böylə heyətdən təşəkkül edən bələdiyyə məclisləri heç vaxt sakin olduqları şəhərin mənafeyini təqib və ehtiyacını təmin edəmməzlər, etməzlər də.

Böylə olan surətdə yəqin ki, şəhərin müqəddəratını da öylə əllərə tapşırmaq olmaz.

Bu vəchlə bələdiyyə vəkilləri seçkisində ancaq Azərbaycan vətəndaşlarına iştirak haqqı vermək lazımdır. Bilxassə ki, birillik müstəqil həyatımız Azərbaycan vətəndaşlığını qəbul etməyənlərin xidmətini bizə göstərmişdir.

Seçilməmək şərtilə seçkidə iştirak etmək məsələsinə gəlincə, bizcə seçmək ilə seçilmək arasında öylə bir fərq yoxdur. Biləks [əksinə], vətəndaşlıq vəzifəsindən boyun qaçıranlar ancaq vəzifə başındakılara əngəllər çıxararlar. Öylə adamlar özləri seçilməsələr də, şübhəsizdir ki, səslərini ancaq özləri ruhda olanlara verəcəklər, bununla də bələdiyyə məclislərində “abstruksiya” və “sabotaj”ın qüvvələnməsindən başqa bir şeyə xidmət etməyəcəklərdir.

Bunlar doğrudan da demokratiya mənafeyinə xidmət etmək istəyirsələr, özlərini şəhərimizdə, məmləkətimizdə özlərininki kimi hiss edir və etmək istəyirsələr, o halda nə üçün Azərbaycan vətəndaşlığını qəbul etməyirlər?

Madam ki, onlar özlərini yabançı edirlər, o halda biz azərbaycanlılar dəxi heç vaxt demokratiyamızın müqəddəratını yabançılar əlinə tapşıra bilməriz, tapşırmamalıyız da.

Bu surətlə, Azərbaycan vətəndaşlığını qəbul etməyənlərə nə seçmək haqqı verməlidir, nə də seçilmək.

Məclisi-Müəssisan intixabatında isə bu məsələ yuxarıda zikr olunduğu üzrə qanunun üçüncü maddəsində aydın, açıq qeyd edilmişdir.

Bələdiyyə məclisləri seçkisi haqqındakı qanun layihəsinə təshih olaraq hökumət dəxi Azərbaycan təbəəsi olmayanların seçki haqqından məhrum edilmələrini istəmişdir. Həm böylə də olmaya bilməz. Zira, yadımızdan çıxmayıb, bir bayram münasibətilə şəhərimizdə nümayişlər qurulduqda, paytaxtımızın bələdiyyə xidmətçiləri “Yaşasın Rusiya Şura Hökuməti” lövhəsi gəzdirirdilər. Sanki burası Azərbaycan paytaxtı deyil, bolşevik Rusiyanın adi bir şəhəri imiş?!

Məclisi-Məbusanımız dəxi, vaxtı gəldikdə hökumətin həman təshihini təsdiq etməlidir.

Qaldı ki, cavan cümhuriyyətimizdə bir çox məsələlər kimi təbəəlik haqqında da hələ bu vaxtadək bir qanun qoyulmamışdır, fəqət qanunsuz da deyiliz. Böylə ki, son günlər hökumətimiz təbəəlik haqqında bir qanun layihəsi tərtib vermişdir. Onu qəbul etdikdə, məsələyə xitam çəkilmiş olar.

Məclisi-Məbusanın son iclasında, söz arasında, bu qanundan da ötəri bir söz açıldı. [Arşak] Malxazov və [Stanislav] Vansoviç kimi bəzi natiqlər bu qanunun müzakirə və təsdiqini eylülədək (sentyabradək) təxirə salmağı təklif etdilər.

Fəqət bizcə bu qanun heç vaxt təxirə salınammaz. Nə qədər məzkur [deyilən] qanun geciksə, o qədər də seçkilər gecikəcəkdir. Çünki müdafiə etdiyimiz nöqteyi-nəzərdən təbəəlik aydınlaşmadıqca, seçkilərə kimlərin iştirak edəcəkləri də örtülü qalar. Bundan dolayı da seçki icra ediləmməz.

Digər tərəfdən, təbəəlik qanununun müəyyən bir maddəsinə görə üç ay müddətində hər kəs özünün Azərbaycan təbəəliyindən çıxması ya onu qəbul etməsi haqqında məlumat vermək haqqına malikdir. Böylə olan surətdə biz bu gün qanunun qəbul və təsdiqini təxir və təcil edərsək [təxirə salar və gecikdirərsək], qanunun qəbulu, tətbiqi və hər kəsin müəyyən hüquqdan istifadəsi şübhəsiz kanun aylarına [dekabr-yanvar aylarına] çəkər. Bu surətdə də bəlkə 1919-cu il Məclisi-Müəssisan və yeni bələdiyyə məclislərsiz keçər. Halbuki bələdiyyə vəkillərinin müddəti-vəkaləti yeddi ay əvvəl qurtarmışdır. Məclisi-Müəssisanın bir an əvvəl dəvətinə olan ehtiyacımızdan isə bəhs etməyə belə hacət yoxdur.

Bu surətlə, Məclisi-Müəssisan və bələdiyyə məclisləri seçkisində Azərbaycan təbəəliyini qəbul etməyənlər gərək seçmək və gərəksə seçilmək haqqından məhrum edilməli və təbəəlik haqqındakı qanun layihəsini bir an əvvəl Məclisi-Məbusandan keçirməlidir.

Bir də əsgəri xidmətdə bulunanların iştirakı məsələsi meydana gəlir. Fəqət bu xüsusda gələn nömrədə.

*Xəlil İbrahim*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

*27 təmmuz iclası*

İclas axşam saat 8-in yarısında açılır.

Rəis - **Həsən bəy Ağayev**, katib - **Əhməd Cövdət**.

Məsaili-yövmiyyə [gündəlik məsələlər]:

1) Şəhərlər nəfinə [xeyrinə] idxal və ixrac olunan yüklərdən alınan müvəqqəti vergi nizamnaməsi haqqında qanun layihəsi. Məruzəçi: [Rza bəy] Ağabəyov (3-cü qiraət).

2) Nazir müavinlərinə yeni maaş təyini haqqında qanun layihəsi. Məruzəçi: [Rza bəy] Ağabəyov (3-cü qiraət).

3) Sənaye şəhadətnamə qiymətlərinin artırılması haqqında layiheyi-qanuniyyə. Məruzəçi: [Şəfi bəy] Rüstəmbəyov (3-cü qiraət).

4) Hökumət indində [nəzdində] xüsusi Təftişat və Təhqiqat Komisyonunun təsisi haqqında layiheyi-qanuniyyə. Məruzəçi: [Şəfi bəy] Rüstəmbəyov (3-cü qiraət).

5) Sinif və məşğələsindən dolayı mükəlləfiyyəti-əsgəriyyədən azad edilənlər haqqında layiheyi-qanuniyyə. Məruzəçi: Mehdi bəy Hacınski.

6) Bələdiyyə idarələrinə qlasnılar intixabatı qaydasının qanun layihəsi.

7) Spirt məhsulatından alınan aksiz vergisi miqdarlarının artırılması haqqında layiheyi-qanuniyyə. Məruzəçi: [Rza bəy] Ağabəyov.

8) Azərbaycan Cümhuriyyəti sərhədində mühafizə bölüyü təsisi haqqında layiheyi-qanuniyyə. Məruzəçi: [Rza bəy] Ağabəyov.

9) Torpaq vergisinin artırılması ilə bərabər, torpaq və məxaric smetasının və torpaq vergisi miqdarlarının təcdidi [yenilənməsi] haqqında qanun layihəsi. Məruzəçi: [Rza bəy] Ağabəyov.

10) "İttihad" fraksiyonunun hökumətə sualı.

11) Nəşri-elan haqqında. Məruzəçi: [Şəfi bəy] Rüstəmbəyov.

12) Maliyyə Nəzarəti Şurası təsisi haqqında layiheyi-qanuniyyə. Məruzəçi: [Şəfi bəy] Rüstəmbəyov.

13) Fabrika inspeksiyasına dair qəvaidin [qaydaların] müvəqqət təğyir edilməsi [dəyişdirilməsi] haqqında layiheyi-qanuniyyə. Məruzəçi: [Şəfi bəy] Rüstəmbəyov.

14) Daxil olmuş kağızlar:Ləvazim Heyəti komisyonuna Abbasqulu Kazımzadə əvəzinə qeyri bir üzv intixab edilməsi.

**Rəis** - (Məsaili-yövmiyyəni oxuduqdan sonra) Bir də keçən səfər Məclisi-Məbusan təklif etmişdi ki, tezliklə Məclisi-Müəssisan Mərkəzi İntixab Komissiyası seçilsin. Onu da proqrama daxil edirəm.

Bundan əlavə, Zəngəzur qaçqınlarına yardım edici heyətə Parlaman tərəfindən bir üzv intixab edilməlidir. Hökumət tərəfindən Zəngəzur qaçqınları nəfinə [xeyrinə] 17 milyon 750 min manat buraxılması münasibətilə hökumət arzu etmişdi ki, hökumət tərəfindən seçilən heyətə Parlaman tərəfindən də bir üzv daxil olsun. Binaənileyh [ona görə], Nəzarət arzu edir ki, o üzv indicə seçilsin.

Əlavə, Ləvazim Komissiyasına Abbasqulu Kazımzadənin əvəzinə digər bir üzv seçilməlidir. Rica edirəm, tənəffüs zamanı namizəd göstərib məclisin axırında o üzvü seçəsiniz. Bu cür tərtibata etiraz yoxsa, qəbul olunur.

Növbədəki məsələ şəhərlər nəfinə idxal və ixrac olunan yüklərdən alınan müvəqqəti vergi nizamnaməsi haqqında qanun layihəsidir.

Məruzəçi Bayram Niyazi əfəndi Kiçikxanov olmaq üzrə məzkur layiheyi-qanuniyyə maddə-maddə oxunaraq hər maddəsi bilaetiraz [etirazsız] və ümum layihə tamamilə müttəhidülrəy [yekdilliklə] qəbul olunur.

Bədəhu [sonra] müavini-nazirlərə yeni maaş təyini haqqındakı layihənin müzakirəsinə keçilir və yenə müttəhidülrəy qəbul olunur. Yalnız üçüncü maddədə 1 nisan əvəzinə yeni maaşların 1 iyuldan tətbiqi haqqında təshih vaqe və qəbul olur.

Bundan sonra sənaye şəhadətnamə qiymətlərinin artırılması haqqındakı qanun layihəsinin müzakirəsi başlanır. Maddə-maddə və sonra tamamilə səsə qonularaq bilaetiraz, müttəhidülrəy qəbul və Ləvayehi-Qanuniyyə Komissiyasına mühəvvəl edilir [tapşırılır].

Növbədə hökumət indində Xüsusi Təftişat və Təhqiqat Komissiyası təsisi haqqındakı layiheyi-qanuniyyədir. İkinci katib Mehdi bəy Hacınski əfəndi qanunu maddə-maddə oxuyur. Bütün maddələr bilaetiraz qəbul olunur. Nəhayət, layihə tamamilə səsə qonulur və müttəhidülrəy qəbula keçir.





Bədəhu sinif və məşğələsindən dolayı mükəlləfiyyəti-əsgəriyyədən azad edilənlər haqqındakı layiheyi-qanuniyyə mövqeyi-müzakirəyə qonulur. Rəis əfəndi bu qanunun təcili surətdə keçirilməsini Divani-rəyasət tərəfindən təklif edir. Əksəriyyəti-ara [səs çoxluğu] ilə istecal [tələsmək] qəbul olunur.

Məruzəçi Hacınski Mehdi bəydir.

**M. b. Hacınski** - Mükəlləfiyyəti-əsgəriyyə elan edildikdən sonra böyük müəssisələrin bəzi mühüm xidmətçiləri bilatəfavüt [fərq qoyulmadan] əsgərliyə alınırlar. Bu cümlədən təftiş müdirləri, müstəntiqlər, müddəiyi-ümumilər [prokurorlar] və qeyri bu kimi məmurlar əsgərliyə dəvət edilirlər. Buna görə, Hərbiyyə naziri bir qanun layihəsi hazırlayaraq məzkur [deyilən] qanun mövcibincə [əsasında], lazım gələrsə, böylə mövqe tutan və əvəz ediləmməyən əşxasın [şəxslərin] müvəqqətən əsgərlik vəzifəsindən azad olunmalarını təklif edir. Bu barədə Ləvayehi-Qanuniyyə Komissiyası Hərbiyyə Komissiyasının da rəyini sordu. Hərbiyyə Komissiyası öz rəyini yazıb bildirməklə bərabər, məzkur layiheyi-qanuniyyəyə təcili surətdə baxılmasını rica etdi. Təsdiqinizə ərz olunan layiheyi-qanuniyyə budur. (Oxuyur, sonra layihənin maddə-maddə müzakirəsinə keçilir.)

**Rəsulzadə Məhəmməd Əmin** – ("Müsavat") - Mükəlləfiyyəti-əsgəriyyə məsələsindən ən ziyadə əhəmiyyəti olan bir məsələ varsa, o da müafiyət [mükəlləfiyyətdən azad olunmaq] məsələsidir. O da istisna xüsusundadır. Bir şeyə təəccüb edirəm ki, Nəzarətdən burada bir adam yoxdur. Əgər Nəzarətin nümayəndəsi olsaydı, bu istisna haqqında bizə səlahiyyətli cavab verərdi. Burası mühüm bir məsələdir. Ən əhəmiyyətli cəhətinə də xalq içində camaatla təmasda bulunan zaman təsadüf edilir. Buna çox əhəmiyyət vermək lazımdır. Burada layihənin təcili surətdə qəbulunu bizə təklif edirlər. Fəqət bəzi ailələr və məmuriyyətlər var ki, onlara da müafiyət xüsusu tətbiq edilməlidir. Lakin o barədə Qanun layihəsində bir şey yoxdur. Mən bilmək istərdim ki, bu müaflığı Hərbiyyə Nəzarəti hanki maddələr əsası ilə tətbiq edir. Zənnimcə, Nəzarətin nümayəndəsi hazır olsaydı, bu məsələ haqqında daha müfəssəl danışmaq olardı və bunun səbəblərini bilərdik. Lakin bu yoxdur. Amma məncə müəyyən sinif mənsubiyyəti və məmurluq verdiyi kimi, bəzi ailələr şəraiti də var ki, əsgərlikdən müaflıq haqqı verir. Bu xüsusda sabiq Rusiya qanununda bir qaç maddələr var ki, fənalığı camaat içində bulunarkən hiss edilir. Bəzi rus qanunları var ki, şimdi bizdə tətbiq olunur. Amma həyatımıza düz gəlməyir. Məsələn rus qanununa görə bir atanın, ya ailənin böyük oğlu olan – sair oğlu olmazsa – əfv edilir. Ola bilər ki, rus həyatında rusluq nöqteyi-nəzərindən bu mümkün olsun. Amma bizdə böylə olammaz. Ola bilər ki, bir atanın böyük oğlu əsgər aparıldıqda, o qədər müşkülat törənməsin. Amma həman qanun əsası ilə atası-anası olmayan, fəqət bir ailə başçısı mövqeyi tutan şəxsləri əsgər aparırlar ki, ata-anası yoxdur.

Halbuki böylə şeylərdən böyük müşkülat çıxır. Çünki ata-anası olan bir oğul aparıldıqda, bəlkə atası ailəni saxlaya bilər də, amma valideynsiz bir oğul aparıldıqda ailəsi tamamilə sahibsiz qalır. Rus həyatında bunun o qədər zərəri olmaz bəlkə. Lakin bizdə böylə ailələr böyük müşkülat içində qalırlar. Zira başçısız ailəni arvad idarə və təmin edəmməz. Ona görə mən dedim ki, bizim həyatımızca, bəzi şeylər dəxi əlavə edilib mükəlləfiyyəti-əsgəriyyə məsələsində bir çox xüsusiyyətlər nəzərə alınsın.

**Rəis** - Layiheyi-qanuniyyəyə böylə bir təshih təklif edilir: "Pərəstarı [baxanı, qulluq edəni] olmayan ailənin rəisi və tək olan övlad dəxi müafdır."

**[Ağa] Aşurov** - (Diki) Məhəmməd Əmin cənabları bu xüsusda müəyyən bir təklif etdilər. Zənnimcə, bəlkə o qanuna bələd deyildirlər. Burada qanun yoxdur, burada ona baxılmayır ki, hanki adamlar əsgərlikdən azad olsunlar. Bu, qanuna bir əlavədir. Əsil Qanun mənim zamanımda, yəni Birinci Hökumət dövründə qəbul edilmişdir. Biz o vaxt bu xüsusları həp mülahizə etmişik. Bir rus ailəsindən bir cavanın, əgər ata-anası olmaya, lakin arvadı ola, onu aparırlar. Çünki arvad özünü dolandıra bilər. Lakin biz o vaxt kəsdik ki, müini [kömək edəni] olmayanlar azad olsunlar. Praktikadan da görünür ki, əsgər tutanlar çox biqanunluqlar edirlər. O da bizim işlərimizin təzəliyindəndir. Amma tək ailə sahibi olanlar haqqında Qanun var ki, tək bir nəfər çörək qazananları gərək aparmasınlar.

**Muxtar Əfəndizadə** - (Əhrar) Məncə, bu məsələ hər halda yersiz deyildir. Öylə olur ki, bir ailə içindən iki-üç qardaş ayrılıb ayrı-ayrı ailələr təşkil edir. Məhəmməd Əmin əfəndi buyurdu ki, rus qanunlarını tamamilə bizim həyatımıza tətbiq etmək mümkün deyildir. Fəqət burada bir məsələ var ki, ruslarda qardaşlar biribirindən ayrılmayır, yaxud çox gec ayrılırlar. Bizdə isə çox tez ayrılırlar. Bir kişinin üç oğlu varsa, üç ailə təşkil olunur. Müşkülat da bunda olur ki, hər ailənin bir ailə başçısı olmaq lazım gəlir ki, onu idarə etsin. Ruslarda başqa cürdür. Qanun mövcibincə müinsizləri buraxırlar. Müinsiz isə ata-anası olub qardaşı olmayan adamlar hesab edilir. Yoxsa bir atanın üç oğlu olub 10 il əvvəldən ayrılır. Onu qəbul etməzlər. Bu xüsusda tədqiqatda bulunsaq görəriz ki, nəticə etibarı ilə hər evdən əsgərliyə düşən iki adam olsa, birini də ala bilməyəcəyiz. Çünki tez evləndirib ayrılacaqlardır. Böylə olan surətdə, diqqət verilməlidir ki, ata-anası və ailəsini saxlayan adamı olan cavanlar müinsiz sanılmasınlar. Yoxsa bir evdə neçə adam varsa, hərəsi bir ailəyə ayrılıb müinsizdir deyə buraxmaq olmaz. Binaənileyh, biz indilik bu layihənin qəbul edilməsi tərəfdarı deyiliz. Qalsın, Nəzarət tərəfindən məlumat verildikdən sonra baxarıq.

**Rəsulzadə M. Ə.** - Mən təklifimi müdafiə edərkən dedim ki, Nəzarətin nümayəndəsi burada yoxdur. Əgər nümayəndə burada bulunaraq bizə izahat versəydi, bəlkə də məsələ daha aydın olardı. Lakin şimdi nümayəndə burada yoxdur, yalnız nümayəndə əvəzinə sair adamlar bizə izahat verdilər. Fəqət bunların izahatı bizi yenə qane etməyir. Bu məsələ, bəlkə qanunda başqa cürdür, lakin həyatda, praktikada başqa surət alır. Vilayətlərdə camaatla təmasda bulunduğumuz zaman bu qanunun tətbiq olunduğunu görmədik. Muxtar əfəndi söylədi ki, bu qanun qəbul edilərsə, bir atanın uşaqları ayrı-ayrı ailələrə ayrılar və müxtəlif ailə başçısı olmaq üzrə əsgərliyə alınmazlar. Biz böylə demədik, mövcud qanun mövcibincə bir oğul varsa, atası olsa da alınmaz. Amma bir ailədə bir oğul var, atası da yoxdur. Bir özü, bir arvadıdır. Qanun hökmünə görə əsgər alınır.

**Sədr və kənardan səslər:** - Öylə şey yoxdur.

**Məhəmməd Əmin** (nitqində davamla) - Öylə şey bəlkə də qanunda yoxdur. Lakin məhəllində [yerində] alırlar. Rus qanununa görə bir ailənin başçısı əsgər alınar, amma bizdə böylə ola bilməz. Ailə sahibsiz buraxılammaz. Halbuki, məişətdə görürüz ki, alırlar. Bəlkə, böyləliklə qanunsuzluq cari olur. Amma bu xüsusda mən səlahiyyətdar bir ağızdan cavab və izahat eşitmək istərdim. Ayrı-ayrı ağızlardan eşidilən cavab bizcə kafi deyil və qane etməz. Nəzarət nümayəndəsi burada olub "bu məsələ qanunda yoxdur", yaxud "var, amma düzəldərik" deyərsə, o vaxt biz qane olarız. Yoxsa böylə cavablar bizi qane etməzlər.

Bu danışıqlardan sonra layihə rəyə vəz [səsə qoyularaq] və qəbul edilərək 5 dəqiqə tənəffüs elan edilir.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqraf istasyonu qəbul eyləmişdir)*

Nauen – Düsseldorfda və Reyn civarından ablukanın [blokadanın] qaldırılması barəsində zeyldəki [aşağıdakı] elan sadir olmuşdur: Almaniya üzərindən 12 iyulda abluka qaldırılmışdır. Hər halda xüsusi vəsiqə göstərmək lazımdır. Nəqliyyat ləğv edilir. Silah və ləvazimi-hərbiyyə nəqli qadağan edilir. Şimdiki qanuna müvafiq kömür və koks aparmaq mümkündür. Baden fabrikalarının hazırladığı cövhər, kimyəvi şeylər, qızıl və gümüş, əcnəbilərin qiymətli kağızları xüsusi icazə olmadan aparmaq olmaz. Sair malların aparılması məhdud edilməmişdir.

### İngiltərə tətilinə dair

Helsinqsfors [Helsinki] - İngilis qəzetələrinin məlumatına nəzərən, Avamlar Kamerasında Lloyd Corc bəyan eyləmişdir ki, Yorkşir mədənləri də tətildə iştirak etdikləri üçün hökumət məcbur olmuşdur mədənləri qərqdən [batmaqdan] xilas üçün oraya matroslar göndərsin. Hökumət tətil işlərinə müdaxilə etmək qəsdində deyildir. Matroslar bu yaxınlarda geri dəvət ediləcəkdirlər.

### Finlandada tətil

Helsinqfors - Tətil davam edir. Müsadimə [toqquşma] vaqe olmamışdır. Poçta işləməmişdir. Qəzetələr də çıxmamışdır. Elektrik mövqifi [stansiyası] dayandığından, lokantalar [yeməkxanalar] saat 8-dək açıq olmuşdur. Stavandrada əmələlər qatarları dayandırmışlardır.

### Fin ərkani-hərbinin bəyanatı

Fin ordusunun Baş ərkani-hərbi [Baş qərargahı] xəbər verir: Qırmızı hissələr Kamenets-Podolsk şəhərini işğal etmişlərdir.

**Amerika Versal Sülh Konfransı əleyhindədir**

Lion - Senator Rut və sabiq Amerika Rəisi-cümhuru Taft çalışırlar ki, sülh müahidənaməsində [sazişində] bəzi təbəddülat [dəyişiklik] əmələ gətirsinlər. Diplomasi dairədə bu zəndədirlər ki, İngiltərə və Fransa Senatın bu təbəddülatına razı olmalıdırlar.

**Amerika qoşunlarının tərxisi**

Lion - Vaşinqtondan xəbər verilir ki, Amerikanın bəhri [donanma] idarəsi hərbi qulluğa qəbul edilən 360 min saldatın 220 min nəfərini tərxis etmişdir.

* Parisdən verilən məlumata nəzərən, Petroqrad qarşısında əməliyyatda bulunan ordunun halını Müttəfiqlər Şurası müzakirə eyləyib Dabravol ordusu vəziyyətinin fəna olduğunu və fin ordusu ilə onların rabitəsi olmadığını kəşf etmişlərdir.

* Moskva - Şimal cəbhəsində, Arxangelsk dairəsində dəmiryol boyunda qızğın müharibə gedir. Müharibə ilə biz 500 nəfər düşmənlərdən əsir alıb, 10 dənə pulemyot qənimət almışıq.

Onej dairəsində biz Oselina kəndini işğal eylədik.

Qərb cəbhəsində Baltik dəmiryolunun cənub tərəfində Mşinski mövqifinin 30 verstliyinə çəkilmişik.

Pskov dairəsində düşmənlər Tuşino mövqifinə həmlə etmişlərdir.

Cənub cəbhədə bizim hissələr düşmənlərin təzyiqi ilə 5 verst geriyə çəkilmişlərdir. Çersk nəhri ilə Pskov-Proxov dəmiryolu arasında Vidzin qəsəbəsi tərəfimizdən işğal edilmişdir.

Vileys səmtində Naroç gölü yanında bir neçə kəndlər işğal eyləmişik.

Molovdeçno dairədə müharibə davam edir.

Kovel səmtində Kamenets-Podolskun 50 verstliyində bizim hissələr bir neçə kəndləri işğal etmişlərdir. İki topla bir pulemyot əlimizə keçmişdir.

Xarkov səmtində Xarkovun 85 verstliyində Skoroxodovo və Kolontayev mövqifləri yanında müharibədə davam ediriz.

Koreçan səmtində bizim hissələr Balaşovun 30 verstliyində müharibə edirlər.

Şərq cəbhəsində Verxneuralsk dairəsində müharibə davam edir. Çələbi dairəsində biz müharibə ilə dəmiryolunun hər iki tərəfinə iraliləyib 400 nəfər əsir almışıq.

İret dairəsində bizim hissələr cəbhəni yarıb üç parovoz qənimət almışlardır. Zirehli qatarımız İretə yaxınlaşıb oraları atəşə basmışlardır.

* Petroqradın müdafiə komitəsi elan edir ki, bizi tətilə təhrik edən əcnəbi agentləri, ələlxüsus ingilislər tutulan yerlərində qurşuna dizilməklə edam ediləcəkdirlər.

**Leninin Romaniya ilə danışığı**

Kişinyova Lenin tərəfindən bir heyətiməxsusə gəlmişdir. Leninin əmri üzərinə bunlar Romaniyaya təklif edirlər ki, Lenin Bessarabiyanın Romaniyaya verilməsinə razıdır. Yalnız Romaniya üçün şərt qoyur ki, Romaniya Kolçak tərəfdarlarının və ukraynalıların mühacirətinə mane olsun. Bundan dolayı Bessarabiya cəbhəsində 8 günlük mütarikə [atəşkəs] əmələ gəlmişdir. Bolşevik heyəti Romaniyanın Baş ərkani-hərbinə əzimət eyləmişdir [Baş qərargahına getmişdir].

**Serbiya və Rusiya**

Serbiyada hal-hazırda Rusiyaya müavinət etmək məsələsi qalxızılmışdır. Birinci fürsətdə Serbiya bolşeviklərlə mübarizə etmək üçün qoşun dəstələri göndərəcəkdir. Serblər deyirlər ki, Rusiyasız yaşaya bilmərik. Bizim mənfəətimiz böyük slavyan dövlətlərindən asılıdır. Serblər sabiq Moskva şəhər qlavasına və sair Rusiya fərarilərinə artıq dərəcə müavinət edirlər.

**Amiral Koy**

Royterin verdiyi məlumata nəzərən a[d]miral gəmisində a[d]miral Koy varid olmuşdur [gəlmişdir]. Bu general bolşeviklərlə mübarizə üçün müəyyən edilən 20 kruvazerə [kreyserə] baş komandan təyin edilmişdir.

## QƏZETƏLƏRDƏN

**Bu da bir hökumət**

Fransız mətbuatının yazdığına görə Helsinqforsda olan Rusiya Komitəsi yeni bir hökumət təşkil eyləmişdir. Bu hökumət bolşeviklərdən xilas olan yerləri idarə edəcəkmiş. Baş nazirliyə general Yudeniç, Xariciyyə nazirliyinə Kartaşyov təyin edilmişlərdir.

**Qırmızı ordu**

Cənubi cəbhəni xilas eyləmək üçün arvadlardan qırmızı dəstə təşkil edilir. Şimaldan sadiq bolşevik dəstələri gətirilib cəbhəyə getmək istəməyən qırmızı qoşunların əvəzinə göndərilir. Bolşeviklər içində fərarilik kəsbi-şiddət etməkdədir [şiddətlənməkdədir].

**Əcnəbi mallar**

Batuma gəlmiş olan "Frans Ferdinand" paroxodu zeyldəki [aşağıdakı] malları gətirmişdir: 7 min pud hər növ müalicə şeyləri, dərman və sairə. İstanbuldan isə manufaktura, qənd, papiros kağızı və bir çox digər şeylər gətirilmişdir ki, vəzni [çəkisi] 7500 puddur.

**Vilson Fransa haqqında**

Amerika Rəisi-cümhuru Vilson qəzetəçilərlə müsahibə edərkən demişdir ki, Almaniya tərəfindən Fransaya hücum etmək mümkün olan şeylərdəndir. Hərgah Amerika Senatı Amerikanın müavinəti barəsində olan müahidənaməni [sazişi] qəbul etməzsə, fransız milləti üçün böyük bir təhqir olacaqdır.

* Vilhelmin Almaniyaya qayıtması xüsusunda Almaniyada ciddi təbliğat davam edir. Vilhelmi müdafiə etmək üçün xüsusi bir cəmiyyət təşkil edilmişdir. Bu cəmiyyətin mərkəzi Frankfurtdadır. Cəmiyyət üzvləri bütün Almaniyanı dolaşıb bu barədə təbliğatda bulunurlar.

**Batumda vəba**

Batumda bu son vaxtlarda vəba xəstəliyi müşahidə edilmişdir. Belə ki, vəbadan bir neçə nəfər vəfat edənlər də olmuşdur.

**Ermənistanda səfərbərlik**

- Qars oblastında 19 yaşından 25 yaşınadək ermənilər səfərbərliyə dəvət edilmişlərdir.

* Türkiyə sülh mürəxxəslərindən [nümayəndələrindən] [Əhməd] Tofiq [Okday] paşa Paris qəzetələrinin yazdığına görə, İstanbula qayıtmayıb Londona əzimət edəcəkdir [gedəcəkdir] və orada İngiltərə Hökuməti ilə bəzi danışıqlarda bulunacaqdır.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] Ermənistandan Tiflisə gəlməkdə olan qaçqın müsəlmanlar üçün məbləğ buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan Ermənistandan Azərbaycana gəlməkdə olan Tiflisdəki müsəlman qaçqınlarına müavinət üçün 50 min manat buraxılsın.

* Daxiliyyə nazirinin bu vaxtadək buraxılmış 800 min manata əlavə olaraq Balaxanı, Sabunçu və Bakı süvari polis üçün at almaq məqsədinə, əlavə olaraq 1 milyon 200 min manat təxsis [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən para 20 milyonluq fonddan buarxılsın. Fəqət Məclisi Məbusan tərəfindən təsdiq edildikdən sonra para qaytarılmalıdır.

## MİLLİ VƏ MƏDƏNİ İŞLƏRİMİZ

### - 3 -
### Milli məcmuə

Bizdə heç vədə milli məcmuə təb [çap] olunmayıb desək, səhv etmərik. Nə "Füyuzat", nə "Şəlalə", nə sonra çıxan məcmuələr milli olmuşdur. "Füyuzat" yolu itirdiyi üçün müaqibləri [təqibçiləri] də onu təqlid etmişlər. Hanki məcmuə çıxmağa başlarsa, Hindustan və Misir camelərinin təsvirini qeyd edərək, ümumi islam aləminə aid şeylər yazar. Halbuki, birinci bizi həvəsləndirən məsələ Azərbaycanımız gərək olsun. Onun üçün milli məcmuəni başdan-başa Azərbaycanla doldurmalıdır.

Bərəkət versin ki, tariximiz, ədəbiyyatımız, teatro-musiqimiz və başqa mədəni məhsullarımız çox-çox var. Bunlara dair yazılsa, həm özümüz özümüzü, həm də əcnəbilər bizi tanırlar. Vətənimizdə bir çox tarixi binalar var. Hər nömrədə bunun birinin rəsmini qeyd edərək ətraflıca məlumat verməlidir. Ticarəti məsələlər məmləkətin canı nöqtəsidir. Buna dair statistika saxlamalı, ölkəyə nə qədər mal girir və ölkədən nə qədər çıxır, xaricdə bizim nə kimi mallarımız kimlər tərəfindən alınır, müştərilərimiz nə növ mal sevir, bazarın övzası [vəziyyəti] nə təhərdir?

Yazmalı min şey var.

Bizdə yeni-yeni qüvvəli və istedadlı cavanlar çıxır. Bunlara meydan verməli, vergilərinin [istedadlarının] yolunu təmizləməlidir. Yoxsa, bir çox təb və qabiliyyətlər məhv olub gedər.





Milli məcmuədə əksər səhifələr Azərbaycana həsr olunmalı və sonra bütün aləmi-islama və Avropa mədəniyyətinə. Millətimizin tibbi tərbiyə və başqa məsələlərə ehtiyacı var. Amma bu yolda heç bir şey yazılmır. Yazmalı, yazdırmalı, tərcümə etməli, yeni şeylər vücuda gətirməlidir.

Yeni şey də onda olar ki, əvvəlcə ərəb və fars aləmini təsvir etməkdən daşınıb, türk aləmini və bilxassə Azərbaycanı təsvir edək.

*Yusif Vəzirov*

## TÜRK MÜƏLLİMLƏRİ İTTİFAQININ NƏZƏRİ-DİQQƏTİNƏ

Sənələrdən bəri Bakıda davam edən Türk Müəllimləri İttifaqı kəndi üzvü hesab olunan müəllimlərin məişətcə təmini haqqında bu vaxta qədər heç bir iqdamatda [təşəbbüsdə] bulunmamışdır desək, zənnimcə bir xəta etməmiş olarız. İşbu işsizlik İttifaq üzvlərinin kəndi fikirsizliyindənmi və yaxud başqa səbəblərdən dolayı irəli gəlməsini buraxıb, şəhərimizdə şimdiki mövcud İttifaqın xüsusunda qaç kəlimə söyləməyi kəndimə vəzifə bilirəm.

Bu son ayların zərfində fövqəlzikr [yuxarıda adı çəkilən] İttifaq büsbütün başqalaşmış, yeni ruh və yeni imanla işə başlamışdır. Özünü məşhur və işlək cəmiyyətlər sırasına yetirib, bir rəsmiyyət almasına var qüvvəsi ilə çalışır. Həqiqətən, işbu qart, fəqət gənc ruhlu İttifaq kəndi məqsədlərinə nail olmaq üçün növbənöv vəsilələr [yollar] arayır ki, onlar da İttifaqın son fəaliyyətindən aydınca məlum olur. İttifaq müəllimlərin maaşı yolunda çalışması ilə bərabər, öylə məsələlərin də həllinə qalxmış ki, şayanitəhsindir [alqışa layiqdir]. Məsələn, 18 təmmuz tarixli iclasında qalxızılmış ümumi və icbari təlim barəsindəki məsələnin nə qədər mühüm olduğu məlumdur. Yalnız bir məsələ var ki, onun barəsində bir neçə kəlmə söz söyləməliyiz.

Məlum olduğu üzrə, hazırda mənzil məsələsi şəhərimizdə uca bir mövqe işğal etmiş və get-gedə daha gərginləşmək üzrədir. Mənzilsizlikdən törəyən fənalıqlar vaxtilə qəzetələrdə yazıldığından, bir daha təkrarına ehtiyac yoxdur. Cümləmizə dəxi gözəlcə məlumdur. Ancaq dediyimiz budur ki, Bakıda müdərrislik edən zəvatın [dərs verən şəxslərin] əksəri qeyri yerlərdən gəlmədir. Bunlar burada qulluq tapıb kəndi ailələrini dəxi şəhərə gətirəcəkləri təbiidir. Fəqət mənzil bulammadıqları halda, min dürlü məşəqqətlərə uğrayacağı həpsimizin gözü önündədir. İşbu məsələnin nə gunə [nə dərəcədə] mühüm olduğunu möhtərəm Müəllimlər İttifaqının nəzəri-diqqətinə yetirib, nəticədə olacaq müşkülatla mübarizə etmək üçün şimdidən çarələr aramasını cəsarətlə tövsiyə edir və kəndi tərəfimizdən zeyldəki təklifatı [aşağıdakı təklifləri] mümkünatdan hesab ediriz.

Bizcə, Müəllimlər İttifaqı rəsmi bir müəssisə olduğundan, təbii, onun hər dürlü təşəbbüsatı gərək hökumət və gərək başqa müəssisələr nəzdində eşidilsin. Buna görə, İttifaq hökumətdən, Bələdiyyə idarəsindən, xülasə nərədən lazımsa rücu [müraciət, xahiş] edib gələn

dərs sənəsindən şəhər evlərinin birini və yaxud daima zərər-ziyan verməkdən başqa heç bir zada yaramayan bir taqım adamlar tərəfindən açılmış ləhvü-ləəb [əyləncə] yerlərinin binasını təxliyə edib İttifaqın ixtiyarına verilməsi haqqında təşəbbüsatda bulunsun və kəndi mülahizəsi ilə odaları ehtiyacı olan müəllimlərin arasında təqsim etsin [bölüşdürsün]. Əgər əvvəlinci iş baş tutsa, yəni şəhər kəndi mülklərindən verərsə, o vaxt kirayə olmaq üçün müəllimlərin aylıq maaşlarından İttifaqın qərar qoyduğu miqdarda faizi çıxsın və yaxud ikincisi olarsa, ol vaxt həcz [müsadirə] edilmiş mülklər tamamilə İttifaqa icarəyə verilsin. İttifaq dəxi mülk sahibinə zülüm olmasın deyə hər sənə icarə pulu versin.

Zənnimcə, İttifaq məsələyə göstərdiyimiz tərzdə iqdam etsə [girişsə], işin müvəffəqiyyətlə qurtarmasına ümid etmək olar. İttifaq həmişə kəndi üzvlərinin maaş və hüquqlarının təmini yolunda mübarizəni özünə bir şüar qərar verdiyindən, bu dəfə işbu məsələni həll etməklə onları mənzilsizlik qorxusundan qurtaracağına inanırız. Dərslər vaxtı yaxınlaşdığından, işbu əhəmiyyətli məsələyə tez bir zamanda baxılıb icraya qonulmasını arzu ediriz.

*Hüseynzadə*

**ERMƏNİ FÜQƏRASININ YENİ MATƏMİ**

Dünyanın ən böyük imperatorluqları izmihlala [dağılmağa] o vaxtdan başladılar ki, məmləkətin ümuri-idarəsi [idarə işləri] imperatorların xanədanına mənsub şəxslərin keyfə-mayeşasına [kefinə, özbaşınalığına] buraxıldı. Həmçinin vaxtilə sair əsnafın [siniflərin, təbəqələrin] üstündə ağalıq ixtiyarı qazanmış ruhanilərin, bəylərin, burjuazların (sərvətdarların) da hökmranlığı qeyrilərin hüququnu basdırdı, paymal etdi [tapdaladı]. Xülasə, bunu tarix sübut edir ki, qarşılanan rəqabəti öldürə bilmiş fərdlər, siniflər, millətlər, hətta dinlər meydanda rəqabətsiz və tək qalaraq tüğyan etdilər, zülüm və şərarəti [yamanlığı] artırdılar.

Binaənileyh [ona görə], fərdin müqabilinə fərd, sinfin qarşısına sinif, millətin önünə millət və siyasi partiyaların da qabağına partiyalar çıxarılmazsa, meydan xali [boş] qalar. Rəqabət götürülər, "ağalıq", "mənəmlik", dərəbəylik hüsula gələr ki, bunun da axırı uçurumdur. Hankı bir fəqərədə [işdə, məsələdə] rəqabət yaradılmadı, yaxud rəqabətin hüsuluna vəsi [geniş] meydan verilmədi, şəksiz ki, bunun axırı millət üçün qorxulu macəralarla tamam olacaqdır.

Azərbaycanda "Müsavat" kimi nüfuzlu bir partiya olduğu kimi, sair partiyalarımız da az deyil. Bundan əlavə, Parlamanımızda türklərlə bərabər rus, erməni, yəhudi məbusları olduğu kimi, hökumətimiz də koalision, yəni müştərəkdir. Binaənileyh, "İttihad və Tərəqqi"nin Türkiyədə yapdığı işləri Azərbaycanda təkrar edilməz. Zira, rəqabət qapısı məmləkətimizdə bağlı deyil.

Qonşumuz erməni millətinə gəldikdə, elə bil ki, türklərin başına gələn bəlkə bir az da artıq bunların başına gələcəkdir, hərgah vaxtilə daşnakların cilovları çəkilməyə. Teleqrafın gətirdiyi məlumata etibarən, erməni Parlamanına həştad nəfər məbus intixab edilmişdir [millət vəkili seçilmişdir] ki, bunlardan 73 nəfəri daşnaklar və ancaq 4 nəfəri inqilabiyyunlar və bir nəfəri kəndli dəstəsindən və iki nəfəri də türkdür.

Diqqət olunsun ki, Ararat dairəsində yaşayan türklərin ədədi əhalinin yarısı olmasa da, yarısına yaxın bir miqdarda olduğu halda Parlamana ancaq iki nəfər məbus verə bilmişdir. Hələ kürdlər, assurilər, yezidilər, hətta ermənilərin ən yaxın dostları ruslar da belə heç olmasa bir nəfər məbus göndərməmişlərdir.

Tamam Yevropa nəzərində özlərini sosialist tanıtmış ermənilər, Gürcüstana [Arşak] Zurabovu, Azərbaycana da Şaumyan kimilərini "əta etmiş" [vermiş, bağışlamış] kirvələrimiz nə bolşeviklərə, nə menşeviklərə, hətta Milyukovun mürəvvici-əfkarı [fikirlərini yayan] [Xristofor] Vermişevə də yol verməmişlər. Hərgah 4 nəfər inqilabiyyuna yol vermişlərsə də, bu da məhz ölkələrində yaşayan ingilis və Amerika nümayəndələrinin gözlərinə pərdə çəkmək üçün qəbul edilmişdir ki, guya erməni Parlamanında sosialistlər də isbati-vücud [iştirak] edəcəklər. Halbuki, 73 daşnak müqabilində 4 inqilabçı heç bir şeyə müvəffəq olammaz.

Bəs [deməli], Ararat əhalisinin müqəddəratı bu gündən millətçi daşnak firqəsinə vagüzar edilmişdir [tapşırılmışdır] ki, həman firqənin ən böyük fəaliyyəti təcavüzlərdən və qırğınlardan ibarət olmuşdur.

1905-ci ildən indiyə qədər nə qədər müsəlman kəndləri talan edilmişdirsə də, hamısı daşnakların tədbir və planları olmuşdur. Bakının Mart hadisatı, Şamaxının qətliamı, Quba, Nuxa, Lənkəran, Zəngəzur, Naxçıvan, Şərur və indi də Böyük Vedi qırğınları və bunlardan savayı yüzlərcə sairləri, ələlümdə [başlıca olaraq] daşnakların təhriki ilə icra edilmişdir.

Əcəba, bir bu qədər davam edən kin və küdurətə bais nə olmuşdur? Buna bais daşnakların təqib etdikləri boş xəyallarıdır ki, yer üzündə "Böyük Ermənistan" imperiyasının təsisinə çalışırlar. Əvvəl 3 vilayətin muxtariyyətinə çalışaraq, daşnaklar sonra 6 və indi hətta 9 vilayətin birləşməsi, həm də daşnak bayrağı altında birləşməsini tələb edirlər. Harada 5 erməni nəfər yaşayırsa, burasını "Böyük Ermənistan"a mülhəq etmək [birləşdirmək] istəyirlər. Aralıqdakı türk kəndlərini də od və qan ilə təmzileyirlər ki, burası Ermənistandır deyə Avropa qarşısında iddialarını sübut etsinlər.

Odur ki, gündə bir bəhanə ilə bir müsəlman kəndi dağılır, atəşə tutulur, lakin atalar demişkən, özgəyə quyu qazan özü düşər. Daşnaklar əmin olsunlar ki, erməni millətinə qaş qayırarkən gözünü çıxaracaqlardır.

Yeni intixab edilmiş [seçilmiş] daşnakların kimdən ibarət olduqlarını bilmək üçün siyahılarının birinci xətlərinə diqqət edilsin. Burada Dro və Amazasp kimi qəddar şəxslərin adları çəkilir ki, müsəlman qırğınlarında adları məşhurdur. Kimini döymək, kimini aldatmaq və kimini də hədələməklə daşnaklar tamam Parlamanı və sonra da hökuməti əllərinə alacaqlar. Burası xəyali erməni imperatorluğuna səcdə edən və qonşu qanı içən şəxslərdən ibarət olacaqdır. Bu gediş erməni demokratiyası [xalqı] üçün

bir fəlakət, bir uçurum deyilmi? Erməni füqərasının qeydinə qalan ingilis və amerikalılar bu intixabın ləğvinə çalışmasalar, erməni millətinə gələcəkdə daşnaklar əli ilə böyük fəlakət hazırlanır.

*Şuşalı*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan Milli Yardımçı Ordusu**

İki aydan ziyadədir ki, paytaxtımızda könüllü olaraq təşkil olan Yardım Alayı gecəli-gündüzlü təlim almaqdadırlar. Təzəpir camesi həvalisində [ətrafında] və sair soqaqlarda daima Yardım Alayı bölüklərinə, manqalarına həman təsadüf olunur. Fəlakətdən mütəəssir olan anlaqlı millət ancaq böylə ola bilər, şayani-təqdirdir [təqdirəlayiqdir]. Ərkani-hərb [qərargah] tərəfindən təlimata qayət ciddiyyətlə çalışılır, diqqət edilir. Nəticə etibarı ilə hökumət tərəfindən etimad edilərək silah buraxılmışdır. Məzkur [deyilən] müddətin zərfində toplanan 1300 əfradın [nəfərin] tam 300 nəfəri silah qullanmaq təlimini də bitirmiş, hazır bir əsgər dərəcəsini ehraz [əldə] etmişdir. Suraxanski və Persidski küçələrdəki 9-cu məktəb Yardım Alayı üçün ərkani-hərb dairəsi qərar verilmişdir. Hər gün əhali gəlib kəndisini könüllü əsgər yazdırmaqdadırlar. Yaşasın namuslu Yardım Alayı!

**"Milyutin" vaporu haqqında**

İyulun 27-ci gecəsi "Milyutin" vaporu [gəmisi] içərisində 100-dən ziyadə adam, 20-dək kişi, mabaqisi [qalanı] qadın və çocuq olmaq üzrə 22 nömrəli körpüyə gələrsə də, polis nəfəratı tərəfindən buraxılmayaraq yenidən dənizə çəkilmək məcburiyyətində qalar.

Səhər 27 iyulda yenə körpüyə tərəf gəlmişdir. İttixaz edilmiş tədabir [görülmüş tədbirlər] sayəsində vapor güclü mühafizə dəstəsi tərəfindən əhatə edilmişdi. Əldə edilmiş məlumata görə, gecə vaporun yanına bir yelkən qayığı gəlmişdir ki, [V. D.] Suxorukov və başqa 16 nəfər bolşeviklər də o qayıqda qaçmışdırlar.

Su Nəqliyyatı müdiri kapitan Yankın savabdidi [icazəsi] ilə vaporda təftişat icra edilmişdir. Təftişat nəticəsində 2 milyon manatdan artıq Nikolay pulu tapılmışdır ki, bunlardan 1 milyon Orlova nam [adlı] bir qadından tutulmuşdur. Əlavə, un kisəsi içərisində 100 min manat tapılmışdır.

Vaporda bir çox müsəlman qadınlarına məxsus qızıl zinətlər, ipək müsəlman qadını çarşab və əlbisəsi, bir çox tüfəng, patron və qranatlar bulunmuşdur.

Burada Suxorukovun arvadı da tövqif [həbs] edilmişdir.

Həbs edilənlərin bir parası kontrrazvedka komisyonu tərəfindən istintaq üçün aparılıb, başqaları da məhəlli [yerli] həbsxanaya göndərilmişlərdir.

**"Lastoçka" barkazı**

İyulun 27-də "Salyanets" vaporu ilə Salyandan qəza qaimməqamı ilə 6 nəfər əsgər gedərkən, yolda iki qayıq görmüşdür. Qayıq saxlanaraq 10 nəfər Lənkəran saldatı tövqif [həbs] edilir. Bunlardan para tutulmuşdur. Bunlarla bərabər get-





diyi halda Svinova adası yanında "Lastoçka" barkazı görülmüşdür. Barkazı "Salyanets" vaporu alıb Bakıya gətirmişdir.

**Tələbələr haqqında**

Maarif Nəzarəti tərəfindən 100 nəfər tələbəni Avropaya göndərmək haqqında bir qanun layihəsi tərtib verilib Vükəla Şurasına [Nazirlər Kabinetinə] təqdim edilmişdir. Qanun layihəsində hər tələbə üçün sənədə 36 min manat, yol xərci 5000 manat olmaq üzrə 4 milyon 100 min manat pul istənilmişdir.

**Parlamanda**

İyulun 27-də vaqe olan Parlaman iclasının qərarı ilə avqustun 5-dən sentyabrın 1-nə kimi Parlaman buraxılır. Avqustun 5-nə kimi gündüz saat 10-dan 2-yə qədər günaşırı bir iclas vaqe olub, təbəiyyət [vətəndaşlıq], torpaq və qeyri bu kimi mühüm məsələlər həll olunacaqdır.

**Bələdiyyə qanunu**

Şəhər idarələrinə yeni intixab [seçki] qanun layihəsi Parlamanın 27 iyul iclasında müzakirə olunub birinci qiraətdə qəbul edilmişdir.

**Ləvayehi-Qanuniyyə Komisyonunda**

- Azərbaycan təbəəliyi haqqında qanun layihəsi Parlamanın Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] Komisyonunda müzakirə edilməkdədir.

- Daxiliyyə Nəzarətindən Parlamanın Ləvayehi-Qanuniyyə Komisyonuna mətbuat haqqında tənzim edilmiş qanun layihəsi gəlib müzakirə edilir.

**Büdcə-Maliyyə Komisyonunda**

Daxiliyyə Nəzarətindən Büdcə-Maliyyə Komisyonuna Quba Bələdiyyə idarəsinə 57 min 460 manat pul buraxılması haqqında qanun layihəsi idxal edilmişdir.

**Hərbiyyə Komisyonunda**

Əsgərlik müddətinin 2 sənəyə kimi azalması haqqındakı qanun layihəsi Hərbiyyə Komisyonu tərəfindən qəbul edilib Parlaman təsvibinə [təsdiqinə] təqdim edilmişdir.

* Azərbaycanda Dövləti Əmanət Sandıqçası təşkili haqqında qanun layihəsi və smetası Parlamanın Büdcə-Maliyyə Komisyonu müzakirəsinə təqdim edilmişdir.

**Yusif Vəzirovun məruzəsi**

Bu gün iyul ayının 29-da axşam saat 6-da Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsi bürosunda "Müsavat"ın Kiyev şöbəsi sədri Yusif Vəzirov cənabları aşağıdakı tərtibatla bir məruzə oxuyacaqdır:

1) Kiyev "Müsavat" komitəsinin fəaliyyəti, Ukrayna ilə əlaqə; 2) Kiyev "Müsavat"ı və Rusiya müsəlmanları; 3) Ukrayna hərəkəti; 4) Müsəlman qolordusu; 5) Krım tatar hərəkəti; 6) Bolşeviklər; 7) İstanbul və Türkiyə vəziyyəti, Anadoluda milli hərəkət, rumlar, yenə siyasi rəqabət, ticarət yolu; 8) Azərbaycan məsələsi xaricdə.

**Yeni qubernator**

Bakı qubernator idarəsində böyük təbəddülat [dəyişiklik] gözlənir. Qubernatorluğa Dövləti Müdafiə Komitəsinin ka-

tibi Narimbəyovun namizədliyi təklif olunmuşdur.

**Kabinəni müdafiə**

Parlamanın nüfuzlu fraksiyaları arasında indiki hökuməti müdafiə üçün blok bağlamaq məsələsi müzakirə edilir.

**Kooperativ qurultayı**

Kooperativ qurultayı Azərbaycan qurultayı adlanmağı əksəriyyətlə təhtiqərara almışdır.

**Doktor Cavadov**

Srağagün Lənkərandan Bakıya varid olan paroxodlarda doktor [Əliheydər] Cavadov da gəlmişdir. Doktor Lənkərandan Prişib və Salyan təriqi [yolu] ilə qaçmışdır və həbs olunduğu haqqındakı xəbərlər bütün yalandır.

**Dəmiryolunda**

İyulun 26-da Dəmiryolunda 120 kişidən ibarət Dəmiryol fəhlələrinin iclası açılmışdı. İclasda 1) Mənzil pulları haqqında; 2) Cümə barəsində; 3) Naçalnik haqqında və qeyri bu kimi məsələlərə baxılacaqdı. Sədarətə çıxan "Hümmət" firqəsi üzvlərindən Əzim Əzimzadə 1000 nəfərdən 120-i hazır olduğuna baxmayaraq "az ilə də olar" deyə iclası açdı. Birinci məsələ müzakirəyə qoyuldu, fəqət müzakirə vaxtı hümmətçilər öz firqə fikirlərini təbliğ etməyə başladılar. Ona görə fəhlələr acıqlanıb demişlər ki, biz öz dərdimizə yığılmışıq, nə sədri və nə də qıraqdan gələnləri istəməyirik. Hökumətdən rica edirik ki, biz fəhlələrin bitərəfliyini və heç firqəyə tərəfdar olmadığını nəzərə alıb tezliklə pullarımızı versin. İclas bununla bitmişdir.

## AZƏRBAYCANDA

**Lənkəranda**

Lənkərandan gələnlərin dediklərinə görə, məzkur [adı çəkilən] şəhərin süqutu böylə vaqe olmuşdur:

Təmmuzun 25-də Lənkəran bolşevikləri öz vəziyyətlərinin fənalığını, heç bir növlə kəndilərini müdafiə edəmməyəcəklərini hiss edərək kimsəyə sezdirmədən öz ailələrini şəhərdən çıxarmağa qərar vermişlər. Bolşevik başçılarından [V. D.] Suxorukov, [İ. P.] Orlov, Ryabov, Şevkunov, Sadovnikov və sair bir neçəsi öz külfətlərini "Milyutin" vaporuna həml etməklə [mindirməklə], Bakıya göndərmişlərdir.

Vapor srağagün gündüz saat 2-də Bakıya varid olmaqla [çatmaqla], məhəlli [yerli] hökumət tərəfindən Lənkəran müsafirləri təhqiqdən sonra qadınlar buraxılmış, kişilər həbs edilmişdir.

Verilən məlumata görə, Lənkəran bolşevik rüəsası [başçıları] Lənkəranda mövcud bir çox top və pulemyot və sair bu kimi əslihələri [silahları] bir yelkən gəmisinə həml etməklə [yükləməklə] İran tərəfə hərəkət etmişlər. Lənkəran bolşevik ordusunu kəndi müqəddəratlarına buraxmışlar. Onlar da, Mayakda mütəhəssin olmuşlar [mühasirədə qalmışlar] imiş. Öz rəislərinin fərarını görən əsgərlər artıq bir şey yapammayacaqlarını hiss edərək ağ bayraq qaldırmaqla şəhəri işğal edən müsəlman könüllü nəfəratına [əsgərlərinə] təslim olmaq fikrində olduqlarını bildirmiş və əlavə olaraq kəndilərinə toxunulmamağı ağlar lisanla rica etmişlərdir. Böyləliklə, tamamən könüllülərə təslim olmaqla Lənkəran bolşevikliyinə xitam verilmişdir.





Qeyd edilməlidir ki, Lənkəranın təslimi haqqında rəsmi və mövsuq [etibarlı] təfsilat hələ almamışıq.

**Denikin agentləri**

Üzərimizə yeni əsarət zəncirləri, yeni kabuslar hazırlayan istibdad generalları "çağırılacaq Ümumrusiya Məclisi-Müəssisanına" qədər Azərbaycan Hökumətini tanıyacaqlarını və Azərbaycana qarşı bir əks hərəkətdə bulunmayacaqlarını havi [ehtiva edən], dəfələrcə yazmış olduqları kağızlarla hökumətimizi itminana [inandırmağa] çalışırlarsa da, fəqət əlaltı işlərini işləməkdən bir an olsun qəflət etməyib Azərbaycanı "Vahid Rusiya"ya ilhaq etmək [birləşdirmək] yolunda var qüvvələrini sərf edirlər.

Böylə ki, qara generalın xüsusi siyasəti ilə Quba qəzasına qaytarılmış və dürlü təminat və "vədü-vəidlərlə" mücəhhəz olub [vədələr və təhdidlərlə silahlanıb] gəlmiş rus mühacirləri ötədən bəri türk köyləri arasına soxulub türkcəni öyrənmələrindən istifadə ilə avam və sadədil köylüləri Denikin "cəhənnəm"ləri ilə qorxudub Denikin "cənnətlərini" tərif və tövsif edərək durduqlarından maəda [əlavə], xüsusi surətdə Quba qəzasına göndərilmiş Denikin agent və casusları istədikləri kimi təbliğatda bulunub və lazımi məlumatı toplayaraq azadə və asudəcə Quba ilə Dabravol komandanlığı arasında seyrü-səyahət edirlər.

Bu axır günlər bir taqım şübhəli ruslar Quba və ətrafında görünüb həftələrcə "səfil-səfil" dolaşaraq napədid olduqları [gözə görünmədikləri] kimi, qubalılara yaxşı tanış olan və 30 sənə Qubada feldşerlik etmiş Laptinovun oğlu ki, özü də Dabravol ordusu xidmətindədir, bir qaç günün içində iki dəfə Qubaya gəlib təbliğat yapmış və dürlü şayiələr buraxmış və lazımi məlumatı əldə edərək qayıtmağa fürsət bulmuşdur.

Doğru bir yerdən öyrənə bildiyim məlumata görə, həman şübhəli rusların zahir olmaları və Laptinovun təbliğat yapması xüsusunda xəfiyyə polis müdiri vəzifəsini ifa edən Mürsəl bəy Nazirova xəbər verilmişsə də, müdir əfəndi nədənsə qulaq ardına vurub, nəzəri-əhəmiyyətə almamışdır.

Laptinovdan əlavə bir çox sənələr Qubada müstəntiq olmuş Matvey Manvelov nam yarım aydan ziyadə olar ki, Pyatiqorsk və Kislavodsk kimi gözəl kurortları tərk ilə Qubaya gəlmiş və işsiz, peşəsiz (?) olaraq ancaq Denikin nizam və intizamını təriflə Quba soqaqlarını dolaşmadadır.

Həman agent və casusların fəaliyyəti üçün Quba daxilində öylə geniş bir meydan vardır ki, arzu etdikləri istiqamətdə işləyib asanlıqca məramlarına nail olurlar. Agent və casusların müşkülata uğramamalarının başlıca səbəbləri də, əvvəla polisin süstlüyü olub, ikinci Azərbaycan Hökuməti xidmətində olub Azərbaycan əkməyi ilə bəslənərək Azərbaycan üçün quyu qazan xain məmurların, denikinçilərin varlığıdır.

İştə, Qubada da denikinçililkləri ilə məşhur olanların sırasında erməni qadını ilə izdivac etmiş meşəbəyi Reznikov vardır ki, hansı bir denikinçi Qubaya gəlsə onunla yanlaşıb əyləşəcəkdir. O da gizli qalmasın ki, qara generalın qara fikrinə xidmət edən yalnız qeyri-islamlar olmayıb, türk və islam nami-müqəddə-

sini [müqəddəs adını] ləkədar edən [ləkələyən] bir taqım alçaqlar da həman mübəlliğ [təbliğatçı] və casuslar sırasını "təzyin" etməkdədirlər ["bəzəməkdədirlər"].

Sırası gəlmişkən, onu da söyləməliyəm ki, Dabravol Komandanlığı nəzdində Quba qəzasında təbliğat-propaqanda yapmaq işləri başında duran sabiq Quba naçalniki Leontyevdir ki, məzkur [adı çəkilən], 10 ildən ziyadə Qubada keyfəmayeşa sürüb [özbaşınalıq edib], Quba övzasına [vəziyyətinə] və qubalıların əhvali-ruhiyyəsinə layiqincə aşina olduğu kimi, müxlis [xalis, səmimi] dostları da yox deyildir. İki gün iləri həman Leontyev namından bir amsarlı "müsəlman"ın cibində bir qaç Quba "müsəlmanlar"ı (yəqin ki, öz dostları) adına məktublar tutulmuşdur ki, xain hərif məktubları parçalayıb havaya buraxdığı üçün ancaq bircəsi məmurlarımız əlinə düşə bilmişdir. Bu əhvalların həpsi propaqanda yapmaq niyyəti ilə Quba qəzası üçün Dabravol Komandanlığı tərəfindən 40 milyon rublə buraxılmaq şayiələrini də təyid [təsdiq] etsə gərəkdir.

"Müsəlmanlar" yalnız casusluğa iktifa [kifayət] etməyib Denikini məkulat [ərzaq] və başqa mayehtac [avadanlıq] ilə də təchiz edirlər. Dağıstandan gələn və Qubada paranın sikkəsini tanıyan alış-verişçi vicdanfüruşlar [vicdanını satanlar] arabalar dolusu ərzaq, manufaktura və başqa ləvazimat[ı] quru yolu ilə Dərbəndə göndərərək Cümhuriyyətimiz daxilində də fiyatların yüksəlməsinə bais olurlar. Belə ki, bir-iki həftə irəli 70-80 rubləyə satılan buğdanın pudunu şimdi 120-130 rubləyə bulmaq olmayır. 30 rubləyə xahanı [istəyəni] olmayan qaxın putu 100 rubləyə qədər qalxmışdır. Əgərçi, qaimməqam tərəfindən bu xəyanətlərin qarşısını almaq Quba qəzası daxilindən məkulat və başqa mayehtac çıxarılmamaq üçün hökm vermişsə də, lakin "qeyrətli" polis vətəndaşlarımız kəndi sərfələrini gözəlcə anlayırlar.

Bunların həpsini qaralamaqla bərabər onu da etiraf etməliyiz ki, qaimməqam [Əmir xan] Xoyski əfəndi həman cansiparənə təriq ilə [canla-başla] fəaliyyətində davam edir. Fəqət məəttəəssüf [təəssüf ki], kəndisi əxzi-əsgər [hərbi çağırış] və başqa əsgəri işlərlə məşğul olub çox vaxtını sərhəd boyunda keçirməyə məcbur olduğu üçün vəzifələrini, vəzifeyi-milliyyələrini anlamayan məmurlar xidmətlərindən sui-istifadə ilə mumaileyh [adı çəkilən] əfəndinin bir çox binagüzarlıqlarını qövldən feilə çıxarmayırlar [sərəncamlarını icra etmirlər].

Ona görə lazım və vacibdir ki:

1) Denikin hiylələrinə qarşı şiddətli tədbirlər ittixaz etməkdə [tədbirlər görməkdə] soyuqqanlılıq göstərməyib, təcili surətdə Qubada "əks-inqilabla mübarizə dəstəsi" təşkili üçün lazımi binagüzarlıqlar edilsin;

2) Beşinci uçastok mühafizə naçalnikliyinə əhəmiyyəti-məxsusə ilə nəzər atıb etimad və etibarlı şəxslərin təyini yolunda səy edilsin.

Bir azacıq təxir faydasız peşmançılıqları mövcib ola [əmələ gətirə] biləcəyi kimi, qarşımızda öylə vəxim [qorxulu] uçurumlar vücuda çıxara bilər ki, heç xəbərimiz olmadan yuvarlanarız.

Minlərcə məsum igidlər qanı bahasına azadə nəfəs almağa başlayan demokrat (xalq) istiqlalımızı göz bəbəyi kimi qoruyacağına yəminlər edən hökumətimizdən kəskin və təcili çarələr bəkləyiriz.

*Türkoğlu*

**ERMƏNİSTANDA**

**Müsəlmanların yaşayışı**

Erməni cümhuriyyəti daxilində müsəlmanlar haqqında edilən məzalim və nagüvar hərəkətlər [zülümlər və qaba, nalayiq hərəkətlər], məəttəəssüf [təəssüf ki], o qədər çox və hədsiz vaqe olur ki, qəzetə səhifələri belə buna kifayət edəmməyir. Şimdiyə qədər yazmış olduğumuz minlərcə erməni məzalimindən başqa yeni-yeni məzalimi daha yazmağa məcbur oluruz. Erməni cümhuriyyətinin paytaxtı olan İrəvanda həmin iyul ayı müddətində müsəlmanlar haqqında ermənilər tərəfindən rəva görülməkdə olan yeni məzalim:

1) Dəmirbulaq məhəlləsində 4 evli qonşu olan Mirhaşım Mirməhəmmədov, Həsən Babayev, Mirələkbər Mirabbaszadə və Kərbəlayı Heydər Əlirzazadənin evlərinə gündüz günorta çağı bir dəstə erməni gəlmişlər: "Bacılar biz dustağız, qaçmışız, komendant bizi axtarır, gizlənmək istəyiriz. Buraxın bağçada bir az daldalanalım" deyərlər. Rəhmdil müsəlman arvadları bunların sözlərinə inanıb bağçaya buraxmışlar. Ermənilər isə içəri daxil olduqdan sonra mauzerləri çəkib arvadları bir dama qatıb, qapısını bağlamışlar. Birisi də əli mauzerli qaraqol dayanmış və arvadlara səslərini çıxararlarsa, öldürüləcəklərini tənbeh etmişlər. Ötəki mauzerli ermənilər isə 4 evin bütün lazım olan əşyasını rahatcasına bağlayıb arxalarına götürmüşlər və yollarına düzəlib getmişlər. Bu evlərin sahiblərindən bir cavanı gördüm. Dünən əhvalı xoş olduğu halda bu gün əyninə yırtıq-yamaqlı paltar geyinmişdi. Səbəbini sordum. Özlərinin və arvadlarının tamam paltarlarını, 4 evin lazım olan bütün şeylərini ermənilərin gəlib apardıqlarından dolayı böylə pərişan halda qaldıqlarını söylədi. Şikayətlərinə isə erməni hökuməti dairələrində əhəmiyyət və etina verilmədiyini bildirdi. Bunun üçün evləri ermənilər tərəfindən qarət edilmiş və erməni hökuməti tərəfindən şikayətlərinə əhəmiyyət verilməmiş məzkur müsəlmanlar İrəvanda neçə min manat məhsulatı mövcud olan bağçaları və evlərini tərk etmişlər. Əhli-əyallarını götürüb erməni cümhuriyyəti daxilindən çıxmışlar, Tiflisə, Gəncəyə, Bakıya gəlmişlərdir.

2) İrəvanda ermənilər qoca bir müsəlman arvadının evinə gəlmişlər. Evini axtaracaqlarını bildirmişlər. Qoca arvad bir tərəfə, cavanə qızı da buxarı daldasına qaçıb gizlənmişlərdir. Ermənilər qızı tapıb pulların (?!) yerini sormuşlar. Pul olmadığını bildikdə, ev əşyasından lazım olanları və qızı götürüb qaçmışlar. Qoca arvad şimdi bu haldan başına hava gəlmiş, dəli kimi olmuşdur.

3) İrəvanda üç müsəlman arvadı paltarları ermənilər tərəfindən oğurlanıb aparıldığına görə, polisəyə gedib şikayət edirmişlər. Komissar bunları danışdırmaqda olduğu halda müavinləri də arvadlara ədəbsizcəsinə göz eyləməkdə imişlər. Arvadlar hökumət dairəsində belə erməni məmurlarının bu kimi əxlaqsız

hərəkətlərindən inciyib şikayətlərin[i] də buraxıb getmişlərdir.

4) İrəvanda ermənilər özbaşlarına izinsiz gəlib müsəlmanların bağçalarına girirlər. Nə yapmaq istədiklərini sorduqda meyvə yeyiriz deyirlər və bu vasitə ilə də müsəlmanların evlərinə bələdlik yetirirlər.

5) İrəvan vağzalında bir ordubadlını vəsiqə axtarmaq bəhanəsi ilə ermənilər soyub pullarını aparmışlardır.

6) Zar kəndi mühacirlərindən bir müsəlman Dəmirbulaq məhəlləsində sakin olduğu evdə saxladığı 20-30 baş qoyunun səbəbinə ermənilər gündüzün gəlib evinə basqın etmişlər. Çobanı və qoyun sahibinin qardaşı oğlunu qoyunlarla bərabər götürüb aparmışlar. Sonra çobanı və uşağı çöldə öldürüb buraxmışlar, qoyunları isə götürüb getmişlərdir.

7) İrəvanda Dəmirbulaq məhəlləsində Kərbəlayı Heydərin evinə gündüzün ermənilər basqın edib 15 min manat pulunu, arvad paltarını və arvad zinəti olan qızıllarını alıb aparmışlardır.

8) İrəvanda şəhərdən çıxıb vağzala getməkdə olan Abuzər başmaqçını vağzal yolunda ermənilər tutub soymuşlar və yanında olan pullarını almışlardır.

9) İrəvanda Dəmirbulaq məhəlləsində Bezni kəndi qaçqınları olan müsəlmanların evlərini axtarmaq bəhanəsi ilə ermənilər evlərinə girib 47 min manat pullarını aparmışlardır.

**İtibdir**

Əlibala Mikayıl oğlunun Şuşadan aldığı pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*8487*

**Elan**

Məhəmmədhənifə Məşhədi Məhəmməd oğluna verdiyim vəkalətnamələri puç edirəm. Məşhədi Məhəmməd Hacı Məhəmməd oğlu.

*8486*

**Elan**

Məşhədi Salman Kərbəlayı Zeynalabdin oğluna verdiyim vəkalətnamələri puç edirəm. Məşhədi Məhəmməd Hacı Məhəmməd oğlu.

*8485*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.





*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***

## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 560. "1. Azərbaycan torpağından bu malların əcnəbi məmləkətə çıxarılması qadağan edilir...": bu maddənin bəndləri qəzetdə ərəb hərfli əlifbanın hərf sırasına müvafiq olaraq "əlif, bə, pə, tə..." kimi işarələnmişdir.

"otçoski": qəzetdə təhrif edilmiş formada "dotçoski" kimi getmişdir.

"təmr vergisi": gömrükdə deklarasiyalar qəbul edilərkən və qəbzlər verilərkən alınan rüsum.

səh. 562. "dəniz təriqi ilə və başqa təriqlərlə": "təriqlərlə" yerinə qəzetdə "tərəflərdə" getmişdir.

səh. 563. "prixod": camaatın ianələri hesabına saxlanan yerli dini icma.

**İki mühüm məsələ**

səh. 563. "yəni məruf istilaha görə": qəzetdə "yəni" yerinə "bəzi" getmişdir.

səh. 564. "abstruksiya": səs-küy və şuluqluq salaraq iclası pozmaq.

**Bakı xəbərləri**

səh. 577. "Svinova adası": Xəzər dənizində, Bakı arxipelaqında Səngi Muğan adası.



***“Azərbaycan” qəzetinin 238-ci nömrəsinin 1-ci səhifəsi***





**Çərşənbə, 30 iyul 1919-cu il, nömrə 238**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Çaharşənbə, 2 ziqədətül-həram sənə 1337. 30 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

**SİRK “MODERN”**

Çaharşənbə günü iyul ayının 30-da, 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə vücuda gətirilmiş fransız güləş mübarizəsinin 31-ci günü 1919-cu ilin məşhur “Cahan Pəhləvanı” namı və Azərbaycan fəxri şarfı və 30 min manat mükafat.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-ci: Qırmızı Maska - Gənc Əli İbad;

2-ci: Svaboda - Krayevski;

3-cü: Makarov - Naməlum.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında. Pəhləvanların çıxışı 11-in yarısında. Tamaşa qurtaracaq saat 12 tamamda.

Pəncşənbə günü iyul ayının 31-də bu mövsümdə görünməmiş İdeal Qardaşlarının benefisi olacaqdır. Təzə nömrələr hazırlanır.

*5488*

**BAKI APTEKÇİLƏRİ**
**CƏMİYYƏTİ KOOPERATİVİ**
**“FORMATSİYA”**

Birjevaya küçə, Musa Nağıyevin evi, nömrə 11, telefon 36-52.

Avqustun birindən fəaliyyətə başlayaraq, hal-hazırda skladda zeyldəki [aşağıdakı] şeylər mövcuddur:

Efir, Atenştedt dəmiri, diş paroşoku, bornı kislota, marqantsev-kislı kaliy, Esmark krujkaları, serno-kislı sink, təmizlənmiş dəmir kuporosu, efir və valerian, yod və tiryək nastoykaları.

Laboratoriya qalenovı preparat üçün sifarişlər qəbul edib vəhazırlayır.

*5491*

**Hökumət Teatrosunda**
**Axşam tamaşası**
**OPERA**

Zülfüqar bəy və Üzeyir bəy
qardaşlarının müdiriyyəti
Cümə günü, zilqədə ayının
4-də (ağustos ayının 1-də
1919-cu ildə)
mütəntən [təntənəli] bir surətdə
mövqeyi-tamaşaya qoyulacaqdır
**“Leyli və Məcnun”**
operası.
Məcnun - Sarabski;
Leyli - Hacıbababəyov.
Biletlər indidən teatrın
kassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam
saat 9-un yarısında.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Maarif nazirinin əmrnaməsi**

Nömrə 223

- Qazax Rüşdiyyə məktəbi müdiri Mustafayevə həmin iyul ayından səneyi-cariyyənin [cari ilin] sentyabr ayının 1-nə kimi məzuniyyət verilir. Mumaileyhin [adı çəkilən şəxsin] vəzifəsi isə müvəqqətən məzkur [deyilən] məktəbin müəllimlərindən Nağıbinova mühəvvəl olunur [tapşırılır].

- Qazax tacirlərindən Nəsib Eyyubov cənabları Qazax darülmüəllimin məktəbinin fəxri papeçitelliyinə [qəyyumluğuna] təyin olunur.

- Murad Teymurxanov həmin iyul ayının 15-dən Maarif Nəzarəti İdarəsində idarə məmurluğuna təyin olunur.

- Aleksandr Bliznov həmin iyul ayının 28-dən etibarən Maarif Nəzarəti İdarəsinin mühasibəçi müavinliyinə təyin edilir.

*Maarif naziri: Qaplanov*

## İKİ MÜHÜM MƏSƏLƏ

**- 2 -**

Dünkü nömrəmizdə Məclisi-Müəssisan və bələdiyyə məclisləri seçkiləri münasibətilə təbəəlik məsələsindən bəhs etmiş və demişdik ki, ancaq Azərbaycan vətəndaşları seçki hüququndan istifadə edə bilər və ancaq Azərbaycan vətəndaşlarına (təbəələrinə) seçki ixtiyarı verilməlidir. Fəqət bu hüquqdan ümum vətəndaşlarımızmı istifadə etməlidirlər?

Məlumdur ki, seçki məsələsi siyasi cərəyanlarla nəhayət dərəcə sıxı rabitədədir. Seçki vaxtı hər firqə, hər cərəyan intixabçıları [seçiciləri] öz tərəfinə çəkmək və bu surətlə çox səs alıb çox yer qazanmaq qəsdi ilə gərək mətbuat, gərək xüsusi mübəlliğlər [təbliğatçılar] və gərəksə sair min dürlü vəsilələr vasitəsilə intixabçılar arasına gedir, təbliğat, təşviqat icra edirlər. Bununla bərabər, mütəəssifanə [təəssüf ki], yaxın həyatımızdakı təcrübələr və uzaq tarixlərdən görüldüyü üzrə heç vaxt heç yerdə təzyiqsiz, təsirsiz seçki keçməmişdir. Tarixi-məşrutəyə baxıldıqda görülür ki, bir məmləkətdə bir millət arasında heç bir seçki təbii cərəyanı ilə getməyib, həmişə kənari nüfuz, təsir və hətta təzyiqlər altında cari olmuşdur.

Digər tərəfdən də məlumdur ki, hər bir məmləkətdə öylə bir qisim vətəndaşlar var ki, onlar nə qədər siyasi intriqadan uzaq olsalar, o qədər vətən və millət üçün xeyirli bir ünsür təşkil edərlər. Biləks [əksinə], nə qədər siyasətə, siyasi intriqaya, firqəbazlıq bəlasına yaxın dursalar vətən və milləti o dərəcə dərin uçuruma və böyük fəlakətə sövq edərlər. Bundan dolayıdır ki, seçki hüququndan məhrumluq nə qədər ağır zıya [itki] isə də, vətən və millət mənafeyi xatirinə bu qisim vətəndaşların seçki hüququ məhdud olmalıdır. Onlar vətənin ən şərəfli övladı, ən sadiq vətəndaşı, böyük sütunu olsalar da, seçki hüquqları təhdid edilməlidir [məhdudlaşdırılmalıdır].

Bu qisim vətəndaşlar zəbtiyyə [asayiş keşikçiləri] və əsgəri xidmətdə bulunanlardır.





Məclisi-Müəssisan qanununun 3-cü maddəsində bu qisim vətəndaşlar haqqında denilir ki:

*"Əsgəri xidmətdə bulunanlar ancaq seçmək haqqına malikdirlər."*

*"Zəbtiyyə xidmətində bulunan əşxas [şəxslər] ancaq seçilmək haqqına malikdirlər."*

Bunun da bir səbəbi var. Tarixi-məşrutə göstərir ki, seçki hüququ təzə tətbiq edilən zamanlarda təcrübəsizlikdən hərbiyyə xidmətində bulunan zəvata [şəxslərə] seçmək və seçilmək ixtiyarı verildikdə, çox vaxt ali məmurlar hüquqlarından sui-istifadə edərək əvvəl özlərini seçdirmiş, sonra da əsgəri qüvvəyə istinadla hökumət işlərini öz əllərinə almaq üçün əsgəri inqilab, cəbri təbəddülat [məcburi dəyişiklik] icra etmişlərdir.

Bu qəbil çıxışlar məşrutə tarixində çox vaqe və "pronunsimento" adı ilə məruf [bilinən] və məşhur Qərbi Avropa həyati-siyasiyyə və tarixi-məşrutəsində hər millətdə böylə çıxış görülmüşdür. Rusiyada bolşeviklərin xürucu [çıxışı] və hökuməti zəbt etmələri dəxi pronunsimentoya yaxın bir keyfiyyət idi. Bu surətlə, əsgəri məmurlar gərək seçilmək hüququndan məhrum olsunlar.

Hökumət məmurlarına gəlincə, bunların vəziyyəti bambaşqa, tam əksinədir. Bunlar seçildikdən sonra qanuni-məşrutəni poza bilmək dərəcəsində qüvvəyə malik olmadıqlarından, onların seçilmələrinin qorxusu yoxdur. Amma seçki zamanı tutduqları məmurluq mənsəbindən bilistifadə [istifadə edərək] onlar intixabatın [seçkilərin] düz getməsinə suitəsir yetirə bilərlər. Ona görədir ki, bunlar seçilmək haqqına malik və müstəhəqq [layiq] olduqları halda belə, intixabatda iştirak haqqından məhrum olmalıdırlar, tainki seçkilər sıxıntısız, təzyiqsiz icra edilə bilsinlər. Fəqət bu məsələdə Məclisi-Müəssisan seçkiləri ilə bələdiyyə məclisləri seçkilərini bir qədər ayırmaq lazım gəlir.

Yuxarıda zikr etdiyimiz əsaslar məhz Məclisi-Müəssisan intixablarına aiddir. Bələdiyyə məclisləri seçkisi məsələsində isə, zənnimizcə, fövqəlzikr [yuxarıda deyilən] qisim vətəndaşlar bilmərrə intixabata iştirak etməməlidirlər.

1917-ci sənə oktyabr ayı idi. Ayın 26, 29-da Bakıda bələdiyyə vəkilləri seçkiləri icra edilmişdi. O vaxt şəhərimizdə cəbhədən qayıtmış bir çox (səhv etməyirsəm 25 min) əsgər vardı. Bunlar qanunən seçki hüququndan məhrum idilər. Bilxassə gəldi-gedər bir ünsür idi. Fəqət qanuna baxılmayaraq, güclə Hürriyyət meydanında seçki sandığı qoyduraraq səslərini vermişlərdi. Lakin bu, qanunsuzluq idi. Binaənileyh [ona görə], Mərkəzi Seçki Komitəsi onların sandığını açmaq istəməyirdi. Vərəqələr sayılan və məzbətələrə [protokollara] baxılan iclasda nagəhan [gözlənilmədən] Şaumyan bir neçə əsgərlə iclasa soxuldu və qabaqca şirin dil, sonra isə silah təhdidi ilə sandıqların açılmasını tələb etdi.

Doğrudur, bu gün məmləkətimizdə gəldi-gedər yabançı əsgəri qüvvə yoxdur. Doğrudur, bu gün əsgərlərimiz seçkidə iştirak etməsələr, türk-islam vətəndaşlarımız 10 minlərlə səs qeyb edərlər, bir neçə namizədin yerini itirərlər. Bunlar doğru. Fəqət əsgəri nizamın saxlanması, qüvveyi-əsgəriyyəmizin [hərbi qüvvələrimizin] siyasi ehtirasat alovundan uzaq,

firqə intriqalarından məsun [pak] və sağlam qalması, digər tərəfdən də vətən demokratiyasının vicdanı zorlanmamaq, rəyi korlanmamaq xatirəsi üçün bu qisim vətəndaşlar seçki hüququnu, türk-islam vətəndaşlar isə bir, ya bir neçə namizəd yerini fəda etməli və bu surətlə də əsgəri və zəbtiyyə məmurları seçkidə iştirak etməməlidirlər.

*Xəlil İbrahim*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrədən mabəd)*

**Tənəffüsdən sonra**

İclas saat 9-da açılır. Rəis xəbər verir ki, üç təklif varid [daxil] olmuşdur. Birisi avqustun 5-dən sentyabrın əvvəlinədək Parlaman iclaslarının dayandırılması. İkincisi, köhnə qayda üzrə iclasların yenə gündüzlər saat 11-də təyin edilməsi. Üçüncüsü isə haqqındadır. Zənnimcə, ikinci təklifdə yeni bir şey yoxdur. Üçüncü təklifi isə güman edirəm təklif sahibləri geri götürərlər.

**Əhməd Cövdət** - Parlaman iclaslarının dayandırılması haqqında keçən məclisdə də bir məsələ qaldırılmış olduğunu, ümum fraksiya bu xüsusda fikirlərini deyib, əksəriyyəti-ara [səs çoxluğu] ilə təklifi rədd etdiklərini qeydlə bəyan edir ki:

Məncə bu məsələni yenidən müzakirə edib təzədən ona vaxt sərf etmək lazım deyildir. Məsələ təzə bir şey deyil. Keçən iclasda müzakirə edildi, qəbula da keçmədi. Mən zənn edirəm yenidən vaxt sərf etmək fəzlədir [artıqdır]. Bilxassə ki, bir neçə mühüm məsələlər var. Parlaman onları həll etmədən tətil elan olunammaz.

**Malxazov** (daşnak) təklifin lehinə olmaq üzrə rusca bir nitq söyləyərək deyir ki, Parlamanda öylə mühüm qanun layihəsi yoxdur. Şimdi də yaydır. İşləmək ağır olur. Binaənileyh [ona görə], istilər keçənədək, Parlamana bir az müddətlik tənəffüs vermək zərərsizdir.

Səsə qonularaq əksəriyyəti-ara ilə təklif barəsində müzakirat başlanması qəbul olunur. Təklifi birinci imza etmiş olan Malxazov söz alaraq dübarə təklifi müdafiəyə başlayır və deyir ki:

Hal-hazırda Parlamanda öylə mühüm bir qanun layihəsi yoxdur ki, təxir gözləməsin. Mühüm qanunlar həp qəbul edilib keçmişlərdir. Daha doğrusu, qanun layihəsinin mühümü və qeyri-mühümü olmaz. Hər qanun az-çox mühümdür. Ona binaən [ona görə] mühüm layihə var demək yersizdir. Bundan əlavə, tətil əleyhinə danışan əfəndilər özləri də ürəkdən arzu edirlər ki, tətil olsun. Ancaq nümayiş üçün onun əleyhinə danışırlar. Təxir gözləməyən ancaq bir Məclisi-Müəssisan seçkiləri haqqındakı qanun layihəsi idi ki, o da qəbul olunub qurtarmışdır. İndi ancaq Mərkəzi Seçki Komitəsi seçmək lazımdır. Bunu da seçəriz, fəaliyyətə başlar.

**Hacı Hüseyn Əfəndizadə** (Əhrar) bəyan edir ki, onlar qəti surətdə iclasların dayandırılması tərəfdarı deyildirlər. Fəqət əleyhində də deyildirlər. Ancaq təklif edirlər ki, bütün mühüm məsələlər həll olunub qurtardıqdan sonra tətil elan edilsin.

**Əhməd Cövdət** (sosialist) - Mən keçən dəfə burada təklifin əleyhinə danışdım. Fəqət, dübarə bir neçə söz söyləməyə məcburam. Malxazov burada köhnə səbəbləri təkrar etdi. Bir də dedilər ki, tətil məsələsi mühüm qanun layihələri qəbul edildikdən sonraya qalsın. Dübarə deyirlər ki, bəzi natiqlər ancaq nümayiş üçün çıxıb danışırlar. Halonki [halbuki], tətilə ürəkdən razıdırlar. Bu, doğrudur. Onlardan birisi də mən özüməm. İstərəm ki, bir ay nədir, ay yarım tətil elan edilsin, canım rahat olsun. Lakin dövlət üçün böyük əhəmiyyəti olan qanun layihələri vardır. O qanunlar mühüm olduqlarından, dövlət nöqteyinəzərindən bir an əvvəl qəbul edilməlidirlər. Mən dövlət mənafeyi nöqteyinəzərindən öz istirahətimi fəda edirəm ki, qoy o qanun layihələri qəbul edilsinlər. *(Soldan alqış)* Malxazov söyləyir ki, mühüm məsələlərdən Məclisi-Müəssisan intixabatı haqqındakı qanun layihəsi idi,o da qəbul edilmişdir. Buna görə, ancaq Mərkəzi Komissiya seçərik ki, işə başlasın. Lakin məlumdur ki, Məclisi-Müəssisan qanunundan daha mühüm olan bir təbəiyyət [vətəndaşlıq] qanunu da vardır. O da dünən hökumətdən bizə varid [daxil] olubdur. Hal-hazırdaLəvayehi-Qanuniyyə [Qanun Layihələri] Komissiyasında müzakirə edilməkdədir. Bilirsiniz ki, o qanun qəbul edilmədikcə, heç bir seçkiyə şüru edilə [başlanıla] bilməz. Bundan əlavə, bir də torpaq məsələsi var. Malxazov deyir ki, o məsələ əhəmiyyətli deyildir. Lakin onun üçün əhəmiyyətli olmasa da, bizim üçün çox böyük əhəmiyyəti var. Şimdi əkin işlərinin qızğın vaxtıdır. Xalq əkdiyini biçir. Yarın payızlıq əkin vaxtı gəlir. Əkinçilər bunu dördgözlə gözləyirlər. Görünür, Malxazov bunu bilməyir. Halbuki, torpaq məsələsi Məclisi-Müəssisan qədər əhəmiyyətlidir. Məclisi-Məbusan mütləqa bu məsələni tezliklə həll etməlidir. Bunlardan başqa, bir də kollektiv məsələsi vardır. Onun da həlli bizim üçün çox əhəmiyyətlidir. Zənn edirəm, bütün bu qanun layihələri çox mühümdürlər. Bu gün bizim heç bir ayrı qətnaməmiz ola bilməz. Tətil məsələsindən ancaq bunları qəbul edib qurtarandan sonra danışmaq olar. Bu olmadıqca, heç bir tətildən bəhs açmaq olmaz.

**Vansoviç** Əhməd Cövdət əfəndiyə etirazla rusca nitqində bəyan edir ki:

Əvvəla, təbəiyyət məsələsi və torpaq məsələsi mühüm olduqları üçün diqqətlə müzakirə edilməli və onlara çox məna və əhəmiyyət verilərək ziyadəsincə düşünməlidir. Halbuki, şimdi məbuslar öylə yorulmuşlar ki, lazım olan qədər diqqət verə bilməyirlər. Məsələn, bugünkü qanunlara nə bir etiraz edən oldu, nə bir təshih və ya əlavə təklif edən. Saniyən [ikincisi], təbəiyyət məsələsi o qədər də təxir gözləməyən şeylərdən deyildir. Ona görə, onu sentyabrda tətildən sonra da həll etmək olar. Torpaq məsələsinə gəlincə, bunu ancaq Məclisi-Müəssisan həll edə bilər. Şimdiki naqis heyəti ilə Parlaman bu kimi böyük qanunun qəbuluna səlahiyyətdar deyildir.

**Əhməd Cövdət** - Vansoviç cənablarının etirazları yersizdir. Əvvəla, buyurdular ki, bu gün burada qəbul olunan qanun layihəsinə məbuslar, ələlxüsus

bizim fraksiyamız əhəmiyyət vermədilər. Kimsə bu xüsusda danışmadı. Bu, bir etiraz deyildir. Çünki keçən dəfələr bu xüsuslarda çox danışılmışdır. Bir də, əgər Vansoviç cənabları diqqət versəydilər, görərlərdi ki, bu gün qəbul olunan layiheyi-qanuniyyələr, həp üçüncü qiraətdən keçirlərdi. Binaənileyh, buna yenidən əlavə, ya təshih təklif etmək olmaz, ayrı danışıq da ola bilməz. Binaənileyh, Vansoviçin etirazı yersizdir. İkinci etiraz da torpaq məsələsinədir. O deyir ki, torpaq məsələsini Məclisi-Müəssisan həll edə bilər. Parlaman isə bu qanunu keçirə bilməz. Mən bilmirəm Vansoviç cənablarına kim o haqqı verdi ki, Parlamanı naqis elan etsin. Bir də necə olur ki, sair qanunlar müzakirə və qəbul edildikdə Vansoviç Parlamanı səlahiyyətdar bilir, amma torpaq məsələsi haqqındakı qanundan bəhs açıldıqda Parlamanı səlahiyyətsiz elan edir. *(alqış)* Mən deyirəm ki, torpaq məsələsi gərək burada, Parlamanda həll edilsin. Vansoviçin bu etirazı da yersizdir. Üçüncü məsələ təbəəlik məsələsidir. Vansoviç deyir ki, bu qanun layihəsi də sentyabrda qəbul edilə bilər. Lakin qanun layihəsinin bir maddəsində denilir ki, hər bir vətəndaş üç ay zərfində öz təbəəliyi haqqında məlumat verməlidir. Bu qanunu siz sentyabrda qəbul edərsəniz, məcbur olacaqsınız dekabradək gözləyəsiniz ki, üç ay qurtarsın. O halda Məclisi-Müəssisanımız dəxi dekabradək təxirə düşər. Bəlkə Vansoviç cənablarının istədiyi odur ki, Məclisi-Müəssisan heç də yığılmasın. Lakin biz istərdik, Məclisi-Müsəssisan daha da tez yığılsın. Binaənileyh, təbəəlik məsələsini də təxirə salmaq olmaz.

Bu nitqdən sonra müzakirata xitam verilməsi haqqında bir təklif varid [daxil] olur və səsə qoyulduqda əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilir. Bədəhu [sonra] avqustun 25-dən sentyabrın əvvəlinədək Məclisi-Məbusan iclaslarının dayandırılması haqqındakı təklif səsə qoyularaq yenə əksəriyyəti-ara ilə qəbul edilir. Növbədə bələdiyyə məclisləri intixabatı haqqındakı qanun layihəsidir.

*(mabədi yarın)*

## TELEQRAF XƏBƏRLƏRİ

N-ski ordunun ştabı - İyul ayının 23-də Pskovun cənub tərəfində olan qitəatımız [hərbi hissələrimiz] həmləyə keçərək Pskovun 30 verstliyində bir çox kəndlər işğal etmişlərdir.

Voloqda - Bolşeviklər tərəfindən Oneq[a] işğal edilmişdir.

Dvinsk - Mitava şəhəri nemes və rus beloqvardeystlərinin əlindədir. Yerli əhalinin bunlarla əlaqəsi fənadır.

Dvinsk - Qəzetələrin verdiyi məlumata görə, mütarikə [atəşkəs] zamanında Fransa iki milyon yarım saldatını silah altından tərxis eyləmişdir. Avqustun 9-dək yenə 3 milyon 500 min nəfər saldat tərxis ediləcəkdir. Fransa ordusu bir milyon yarımdan ibarət olacaqdır.

Çerniqov - 1915-ci sənədən bəri Bolqariyada bulunan rus əsirlərinin vətənlərinə qayıtmalarına Müttəfiqlər müsaidə verməmişlərdir. Bunların getməsi üçün iki Bolqariya paroxodu hazır edilmiş imiş. Müttəfiqlərin bu kimi binagüzarlıqları [qərarları] ac, müflis və pərişan əsirlərə çox ağır təsir eyləmişdir.

* İstanbuldan Novorossiyskə əzimət edən [gedən] "Roma" paroxodu minaya toxunub qərq olmuşdur. Paroxodda bir çox sərnişinlər, o cümlədən Denikin afiserləri var imiş.

Odessa - Nyu-Yorkda 300 min nəfər yəhudi əmələlərinin iştirakı ilə tərtib edilən mitinqdə qərar qoyulmuşdur ki, Lehistan [Polşa], Qaliçya və Ukraynada olan yəhudi talanına qarşı ciddi tədbirlər ittixazı [tədbirlər görülməsi] hökumətdən tələb edilsin.

Odessa - Bu günlərdə Rostovda güşad edilmiş [açılmış] olan konqredə ümum Rusiya üçün bir hökumət təşkil edilməsi məsələsi müzakirə edilmişdir. Gələcək kabinənin başçısı [Vasili Alekseyeviç] Maklakov olacaqdır. Denikinə isə cənub və şərqi Rusiyanın müharibə işləri vagüzar ediləcəkdir [tapşırılacaqdır].

London - Müttəfiqlərin admiralları Almaniyanın qalan gəmiləri məsələləri barəsində müşavirədə bulunurlar. Fransadan başqa bütün böyük dövlətlər qalan gəmilərin məhv edilməsini arzu edirlər. Fransa isə bu gəmilərin dövlətlər arasında təqsim edilməsini [bölüşdürülməsini] tələb edir.

**Fin ərkani-hərbinin məlumatı**

Helsinqfors [Helsinki] - Fin ordusunun Baş ərkani-hərbi [Baş qərargahı] xəbər verir: Fin sərhədi yaxınlığında Saderzi kənarında vaqe Kamenopolon denilən yeri qırmızı hissələr işğal etmişlərdir.

Çikaqo - Yanmış olan böyük hava gəmisi, tresto bankının [banklar trestinin] damına düşüb, gəminin rezervuarında olan benzin dama tökülüb oradan otaqlara keçmiş. Bu zaman bank qulluqçuları otaqlarda işləyirlərmiş. İmarət tamamən yanıb məhv olmuş. Tələfatın miqdarı müəyyən edilir.

Brüksel [Brüssel] - Belçika kralı, kraliçası və Fransa Rəisi-cümhurunun hüzurlarında general Foş Müttəfiq qoşunlara nəzarət eyləmişdir.

**Almaniyada iğtişaş**

Berlin - Gilfilddə ərzaq olmadığından dolayı orada iğtişaş əmələ gəlmişdir. Camaat qalanı işğal ilə əllərinə bir çox silah keçirmişlərdir. Müsadimədə [toqquşmada] iki nəfər qətl olunub bir neçə nəfər də yaralanmışdır.

**Petroqradın halına dair**

Helsinqforsa çəkilmiş olan bir teleqramda denilir: Petroqraddan fərar etmiş olan bir afiser bəyan edir ki, bolşeviklər bu yaxınlarda Petropavlovsk qalasında 800 nəfəri edam edib Neva nəhrinə atmışlardır. Həbs edilənlərin miqdari-ümumisi 11 min nəfərdir. Bunların arasında əcnəbi təbəələri də vardır. Ac əhalinin halı son dərəcə fənadır.

Kopenhaq - Peştədən xəbər verilir ki, Müttəfiqlərin əmri üzərinə Macarıstan qoşunları Çex-Slovakiyadan çıxırlar.

**İngilis əmələləri və Rusiya**

London - Sautportda olan əmələ konfransı 1 milyon 893 min səslə böylə qərar çıxarmışlar: Konqre lazım gələn tədbirlər ittixaz edərək hökuməti vadar etməlidir ki, bundan sonra Rusiya bolşeviklərinə qarşı dabravollara hərbi müavinətdə bulunmaqdan vaz keçsin.

Belostok - Mitavaya rus dabravol dəstələri varid [daxil] oldular. Bunlar Almaniya əsarətindən qayıdarkən Polşa bunların gəlməsinə mane olmuşdu. Vilna, Varşava, Lodz, Belostok və Brest-Litovskda dabravol siyahısı açılıb dabravollar qəbul edilir.

Lion - Vaşinqtondan xəbər verilir ki, Arxangelsk və Murman cəbhələrində bulunan 518 nəfər Amerika saldatlarından 80 nəfəri üsyan zamanı qətl edilib, 20 nəfəri yaradan ölmüş, 69 nəfəri xəstəlikdən tələf olmuş, 30 nəfərini bolşeviklər əsir alıb, 28 nəfər qeyb olmuşdur.

Moskva - Baş Hərbi İnqilab Şurası əmri ilə digər hərbi inqilab şuralarına təklif edilir ki, düşmən tərəfindən qaçıb gələn, yaxud əsir düşənlərlə fəna müamilədə [pis rəftarda] bulunmasınlar və onları atmasınlar. Hərbi əsirlərə qarşı nəzakət göstərilsin. Zira dabravol cərgəsində olanların bir qismi aldadılmış, digər qismi dəyənək zərbəsi ilə orduya daxil edilmiş, müxtəsər qismi isə Şura Hökumətinin qəddar düşmənidir. Bundan sonra səbəbsiz olaraq yuxarıda zikr edilən şəxslər edam edilərsə, dəhşətli cəzaya düçar olacaqlardır.

**Almaniyanın büdcəsi**

Nauen - Almaniyanın büdcəsi 24 milyard markdır ki, sülh müahidənaməsinə [sazişinə] görə, Almaniyanın edəcəyi məsarifi buraya daxil edilməmişdir. Mükəmməl surətdə naloq gəlsə də, yenə bir neçə milyard xəsarət olacaqdır. Hərgah əmlak vergisi keçməsə, o zaman məcburi istiqraza təvəssül etmək icab edəcəkdir [müraciət etmək lazım gələcəkdir].

Lion - Fransız Palatasında hökumətin maliyyə siyasəti barəsində mübahisat olmuşdur. Ərzaq nazirinə məzəmmət izharı ilə Parlaman növbəti məsələlərə keçmişdir. Ərzaq naziri Bore istefa vermişdir.

**Riqada**

Libavadan latışların məlumati-rəsmiyyəsində denilir ki, [Rüdiger] fon der Qolts özünü axirüləmr [nəhayət ki] göstərdi. Adinyender hökuməti qaçmışdır. Almaniya imperiya qoşunları əleyhinə fon der Qolts hərb açmışdır. Riqanı idareyi-əsgəriyyə altında elan edərək, özünü general-qubernator elan eyləmişdir.

**Litvada**

Lion - Stokholmdan verilən məlumata nəzərən, almanlar Litvanı təxliyə edirlər.

**Polşa ilə müahidənamə**

Paris - Almaniya ilə bağlanan müahidənamənin [sazişin] 63-cü maddəsinə görə, Klemanso imza üçün sülh müahidənaməsini göndərərkən Paderevskiyə bir məktub dəxi göndərmişdir. Məktubda denilir ki, yeni təşkil edilən hökumətlər danışığında Polşa müahidənaməsi yeni bir şey deyildir. Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] əsaslarından dolayı müahidənamə bir dərəcə dəyişmişdir. Bu dəyişməyə əhvali-ümumiyyədə böyük təbəddülat [dəyişiklik] əmələ gəldiyi də səbəb olmuşdur. Polşa müahidənaməsinin şəraitinə görə, Polşaya verilmiş olan yerlərdəki ümum millətlərin haqq-hüququ təmin edilir və tədbirlər ittixaz edilmişdir ki, sair məzhəbdə olan millətlər ilə Polşa millətinə heç bir təfavüt qoyulmasın. Müahidənamənin bir maddəsi əqəliyyətdə [azlıqda] qalan nemeslərə, iki maddəsi Polşa torpağında yaşayan yəhudilərə aiddir. İqtisadi məsələ xüsusunda olan maddələr Polşanın sair dövlətlərlə ticarət etməsinə aiddir. Klemanso Polşanın müstəqil olması xüsusunda Müttəfiqlərin rizasını izhar ilə bəyan edir ki, Almaniya müahidənaməsi imza edildikdə, Polşa müahidənaməsi də imza ediləcəkdir.

**Cəmiyyəti-Əqvam**

Sülh əhdnaməsi imza edilib müharib [savaşan] tərəflərcə təsvib [təsdiq] edilməyincə və əhdnaməyə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] və onun birinci ictimasının [yığıncağının] Vaşinqtonda olması məsələsi daxil edilməsə, Avropa dövlətləri Cəmiyyəti-Əqvamın Vaşinqtonda olacaq birinci iclasına nümayəndə seçə bilməyəcəklərdir. Şübhə yoxdur ki, bütün hökumətlər Parisdə bu əhdnamə tərtibində iştirak edən eyni mürəxxəslərin [nümayəndələrin] özünü oraya göndərəcəklərdir. Sülh Konfransında iştirak edən [Robert] Sesil, [Yan Xristian] Smets, [Leon] Burjua, [Ferdinand] Larnod, [Nobuaki] Makino, [Sutemi] Çinda, [Epitasiu] Pesoa, [Elefterios] Venizelos, [Milenko] Vesniç, [Karel] Kramarj, [Roman] Dmovski və [Konstantin] Diamandi kimi hamı sülh tərəfdarları Cəmiyyəti-Əqvam iclasında cəm olacaqlar.

**SÜLH ƏTRAFINDA**

**İtaliyanın simsiz teleqraf xəbəri**

London - Avam Kamerasında sülh müahidənaməsi müzakirə edilməkdədir. Lloyd Corc əsaslı maddələri müdafiə edir. Lloyd Corc inandırır ki, millətlərin hüququ və mənfəətləri şübhəsiz Cəmiyyəti-Əqvam tərəfindən müdafiə ediləcəkdir. Almaniya ilə İngiltərə arasında yalnız poçta əlaqəsi başlanmışdır.

**Onlar Şurası**

Paris - Havas ajansı xəbər verir Dördlər Şurası öz fəaliyyətini tərk edib kəndisini buraxdığından, Versalda imza edilən müahidənamə maddələrinin icra edilməsinə Onlar Şurası nəzarət edəcəkdir.

* Zənn edilir ki, Avstriya sülh müahidənaməsi avqustun ortalarında, Bolqariya müahidənaməsi avqustun axırında, Türkiyə müahidənaməsi isə sentyabrda imza ediləcəkdir.

Nauen - Sülh müahidənaməsinin məzmunu nemes Avstriyasına son dərəcə ağır təsir eyləmişdir. Millət olmaq həsəbi ilə [bir millət kimi] Avstriya 5-dən 2 hissəsini, torpağının 9-dan 8 hissəsini qeyb eyləmişdir.

## SON XƏBƏRLƏR

**Lənkərandan yazırlar**

İyulun 25-də Prişibdə muğanlıların qurultayı vaqe olaraq qərar verilmişdi ki:

1) Mayın 15-də syezd tərəfindən seçilmiş Lənkəran Hökuməti qəbul edilməyib, təklif olunsun ki, həman hökumət iş başından çəkilərək, ümuri-ixtiyarı [idarə işlərini] hazırkı syezd tərəfindən seçilən hökumətə təslim etsin;

2) Əgər Lənkəran Hökuməti bu təklifi 24 saat zərfində qəbul etməsə, müsəlləh [silahlı] qüvvə tətbiq olunsun.

Lənkəran Hökuməti bu təklifi qəbul etmədi. Binaənileyh [ona görə], muğanlılarla bolşeviklər arasında müsadimə [toqquşma] başlandı.

Digər tərəfdən, Astara tərəfi müsəlmanları da bolşevik hökuməti çəkəmmədiklərindən, onlar dəxi xüruc etdilər [ayağa qalxdılar]. Sair dairələr müsəlmanları da astaralılara mülhəq olub [qoşulub] macəraçıları sıxışdırmağa başladılar.

Şəhər ətrafında şiddətli qanlı müharibələrdən sonra bolşeviklər camaata müqabilə edəmməyəcəklərini gördükdə, iyulun 24-25-də muğanlıları şəhərə çağırıb hökuməti onlara təslim etmiş və özləri Sara adasına çəkilmişlərdir.

Deyirlər [V. D.] Suxorukov və sair başçılar böyük sərvət götürərək bir barkazda dənizə çıxmışlardır. Hökuməti ələ aldıqdan sonra muğanlılar könüllü komandanı Yusif bəylə müzakirata başlayaraq böylə bir ultimatum vermişlərdir:

*"Şəhərdə bolşevik hökuməti olduğundan siz deyirdiniz biz bolşeviklərlə hərb ediriz, muğanlılarla yox. Şimdi bolşevik hökuməti yoxdur. Lənkəranda Muğanlılar Hökuməti və Muğan xalqı ixtiyarı öz əllərinə almışlardır. Şəhər muğanlılar qoşunu tərəfindən işğal edilmişdir. Biz artıq qan tökülməsi və dinc əhalinin mütəzərrir olmasını [zərər çəkməsini] istəməyiriz. Binaənileyh [ona görə] təklif ediriz ki, bu gün saat 12-dək öz adamlarınızı rus Astarası ötəsinə çəkəsiniz. Əks surətdə adamlarınız məzkur [deyilən] xətt ötəsinə çəkilməsələr, sizi quldur hesab edərək sərbəstiyi-hərəkətimizi [hərəkət azadlığımızı] saxlayacağız."*

Bu ultimatumu bolşeviklər tərəfindən həbsxanadan azad edilmiş polkovnik İlyaşeviç və yoldaşları imzalamışlardır.

Yusif bəy cavab vermişdir ki, Lənkəran qəzasında Azərbaycan Hökumətindən başqa heç bir hökumət tanımayır və qəsbkarlar müqabilinə Azərbaycan namından müharibə etmişdir.

Həman bu vaxt xəbər gəlir ki, Astaraya Azərbaycan Hökuməti tərəfindən Lənkəranı idarə etmək üçün göndərilmiş xüsusi müvəkkil gəlmişdir. Bu, əhvalatı dəyişdi və muğanlılar Yusif bəyə bir məktub göndərərək xəbər vermiş ki:

*"Muğanın Azərbaycana tabe olması qismən ingilislərdən və xüsusən Sülh Konfransından asılıdır. Ona görə də, bu məsələ syezddə həll edilməmişdir.*

*Azərbaycan qubernatoru təyini və onun qoşunla gəlməsi nagəhanidir [gözlənilməz olmuşdur]. Gərək qabaqca bu xüsusda muğanlılara xəbər veriləydi. Əgər Azərbaycan qubernatoru və qoşunu burada bolşevik olduğu üçün gəlmişsə, artıq onlar yoxdurlar. Mən binagüzarlıq etdim [sərəncam verdim] müharibə dayandırılsın.*





*Arzu edərdik yeni qubernator Lənkərana gələrək upravaya təqdim olunsun, vəkalətini göstərsin və Muğan haqqında məqsəd və məramını bildirsin. Bundan sonra ancaq güman edirəm ki, mənim və Muğan nahiyə upravasının bulunduğumuz vəziyyət dəxi həll oluna bilər. Bununla bərabər, mən və Muğan nahiyə idarəsi qubernatorun, məiyyət əsgərlərinin [onu müşayiət edən əsgərlərin] və deleqaların səlamətliyini təmin etmək üzrə zamin oluruz. Arzu edərdik sabah iyulun 27-də səhər tezdən gəlsinlər.*

*Muğan qoşunu komandanı*
*polkovnik İlyaşeviç*
*26 iyul 1919, Lənkəran"*

Cəbhəyə yetişdikdən sonra xüsusi müvəkkil İlyaşeviçə məktub yazaraq müzakiratda bulunmaq üçün heyət göndərdiyini xəbər vermişdir. Bundan sonra Yusif bəy əlavə bir məktub almışdır. Məktubda denilir ki, müsəlmanların İran Astarası ötəsinə çəkilmələri haqqındakı tələblərində Muğan Hökuməti israr edir. Əgər çəkilməsələr, dava başlayacaqlardır.

## QƏZETƏLƏRDƏN

**Türkiyənin müqəddəratı**

"Sabah" qəzetəsi Türkiyənin gələcəyi və sabiq vilayətləri haqqında bir çox teleqraflar dərc edir. Cenevrədə olan Türk Cəmiyyəti Hindustan naziri [Edvin] Monteqyoya böylə bir teleqraf göndərmişdir:

*"Cenevrədə olan Türk Cəmiyyəti Sülh Konfransında Türkiyənin müdafiəsi haqqında söylədiyiniz nitqin məzmunu ilə aşina oldu. Biz həmişə inanmışıq ki, İngiltərə Hökuməti gec-tez Türkiyəyə nisbət saxladığı mehriban siyasətə qayıdar. Bir çox illər müddətində İngiltərənin bütün məşhur siyasi xadimləri bu siyasəti təqib etmişlərdir. Biz inanmışıq ki, İngiltərə Hökuməti öz geniş məmləkətlərinin asayişini təmin edib Türkiyəyə nisbət heç bir düşmənanə niyyət bəsləməyəcəkdir. Şübhə yoxdur ki, İngiltərə Hökuməti Türkiyənin məhv edilməsinin islam aləminə nə cür ağır təsir bağışlaya biləcəyini hamıdan artıq dərk edir. Xüsusən, Türkiyəni, xəlifənin yaşadığı və bütün islam aləminin maarif və mədəniyyət mərkəzi olan İstanbuldan məhrum etmək nə dərəcədə təsirbəxş olar. Biz inanırıq ki, İngiltərə Hökuməti hüququmuzu müdafiə etməklə nəinki Türkiyə müsəlmanlarının, hətta bütün İngiltərə təbəəsi müsəlmanlarının hüsn-təvəccöhünü özünə cəlb edər."*

**Əmir Faysalın teleqrafı**

"Tan" qəzetəsinin xəbər verdiyinə görə, əmir Faysal Parisdə olan macar vəkillərinə böylə müraciətdə bulunmuşdur:

*"Sizdən rica edirəm Sülh Konfransına xəbər verəsiniz ki, Suriya vilayətinin hər yerindən gələn nümayəndələr məni vəkil etmişlər ki, Suriyada məskun millətlərin hüququnu və mənafeyini Sülh Konfransında müdafiə edim."*

* Cənubi Rusiya qüvayi-hərbiyyəsi [ordusu] baş komandanının Zaqafqaziya nümayəndəsi general [Nikolay] Baratov Batuma varid olmuşdur [çatmışdır]. Mumaileyh [adı çəkilən şəxs], qəzetə mühərririnə demiş:

*"Batuma gəlməkdən ümdə məqsədim odur ki, Gürcüstanla Dabravol ordusu arasında süni surətdə əmələ gəlmiş olan hali-hərbi [müharibə vəziyyətini] rəf edib [aradan qaldırıb] Gürcüstanla dabravollar arasında ən gözəl əlaqə hazırlayım. Ələlümum Zaqafqaziyada olan bütün millətlərlə dabravolların əlaqəsi xeyirxahanə və dostanədir. Zaqafqaziya cümhuriyyətlərinin gələcəyi tamamilə Sülh Konfransından və gələcəkdə Moskvada təşkil ediləcək Məclisi-Müəssisandan asılıdır."*

O ki qaldı Batumda yerli əhalidən korpus təşkilinə Baratov buna da cavab vermişdir ki:

*"General [Aleksandr] Natiyev öz ixtiyarından artıq iş görmüşdür. Bu əhval dabravol ərkani-hərbinə [qərargahına] məlum olduğundan sonra qoşun cəminin tərk edilməsinə əmr vermişdir."*

**Norveçdə ümumi tətil**

Bolşeviklərin məlumatına görə, Norveçdə ümumi tətil gözlənir. Norveç əsakiri [əsgərləri] arasında inqilab hərəkatı artır.

**Lehistanda tətil**

Varşavada tətil hərəkatı getdikcə artır. Bütün müəssisələr dayandırılmışdır. Tətil kəndlərə də sirayət eyləmişdir.

**Əfqanıstanda**

Simladan (Hindustandadır) verilən axırıncı xəbərlərə görə, əfqanların Thal yanında şiddətli top atəşi ilə hücumlarına baxmayaraq, dəf edilmişlərdir. Thalda istehkamatdan kənar olan bazar qarət edilmişdir. Hava kəşfiyyatı ilə məlum olmuşdur ki, 3500 nəfərə qədər düşmən dəstəsi Thalın yaxınlığındadır. Düşmənin olduğu yerə bombalar salınmışdır.

Bannunun 20 mil qərbində Hindustan qaraqolxanasına yerli əhali tərəfindən müvəffəqiyyətsiz hücum olmuşdur. İngilis əsgərləri Boldak istehkamatını ələ gətirmişlərdir. Ciddi bombardmandan sonra ingilislər Boldak fortlarına komanda edən bürcü işğal etmişlərdir. Qalanın ümdə qapıları partladılıb, əsgərlər daxil olmuşlardır.

Qarnizon inadlı bir surətdə özünü müdafiə etmişdir. 320 nəfər ölüb, 169 nəfər əfqan həbsə alınmışdır.

İngiltərə təyyarəçiləri Əfqanıstan paytaxtı Kabil şəhəri üzərində uçub cəbbəxananı bombardman etmişlərdir. Partlayışlar olduğu müşahidə edilmişdir.

Simladan alınan əlavə xəbərlərə görə, 1500 nəfər müsəlman ingilislərin qabaq dəstələrini narahat etməkdən ötrü Kabil nəhrini keçmişlərdir. Pişəvər tərəfdə hücum olduğu müşahidə edilmişdir. İngilis təyyarələri Belazəndi bombardman edəndən sonra həman yer məhəlli [yerli] əhali tərəfindən tərk edilmişdir. Bombaydan verilən xəbərlərə görə, Əfqanıstan Hökuməti əmirin deyil, Baş komandan Salar Məhəmməd ixtiyarındadır.

Kabil cəbbəxanasının partlayışından sonra general Barrettin ultimatumuna verdiyi cavabı sülh təklifi hesab edirlər.

**Acından ölən professorlar**

Bir ay bundan əvvəl Moskvadan çıxmış olan Lazarev Darülfününunun [Universitetinin] müəllimi Tumanyan deyir ki,





Moskvada yaşamaq imkan xaricindədir. Onun rəvayətinə görə, professor [Aleksey Nikolayeviç] Veselovski, onun oğlu [Yuri Alekseyeviç Veselovski] və professor Yohanson yeməməzlikdən ölmüşlərdir.

**Avropanın gələcəyi**

Nyu-Yorkdan xəbər verilir: Amerikanın sabiq Petroqrad səfiri Devid Frensis bu günlərdə Arxangelskdən övdət edərək [qayıdaraq], bəyan eyləmişdir ki, Almaniya heç şübhəsiz Rusiyadan istifadə edəcəkdir, tainki bütün Avropa millətlərinə möhlik [ağır] bir zərbə olsun. Təbii, Rusiyada asudəlik bərpa edilib qanun qoyulmazsa, Almaniya Rusiyadan istifadədə bulunacaqdır. Tam 50 sənə Almaniya Rusiyanın təbii sərvətinə aşina olmuşdur. Bu axır illərdə Almaniya Rusiya məmləkətlərinə bir çox nemeslər göndərmişdir. Mən bu əqidədəyəm ki, Rusiyada sakitlik bərpa edilib möhkəm hökumət təşkil edilməzsə, Avropada sülh və müsalimət [əmin-amanlıq] olmayacaqdır. Bundan təbiidir ki, Almaniya istifadə edib Rusiyanın təbii sərvətini əlinə alıb, bununla müharibədən gördüyü xəsarətləri iadə edəcəkdir [ödəyəcək]. Bir vaxt Lloyd Corc Sülh Konfransında demişdir ki, Rusiyasız burada əqd edilən [bağlanan] hər növ sülh boş bir şeydən ibarət olub qalacaqdır. Zira Rusiya bütün cahanın 7-dən 1 hissəsini, Avropa və Asiyanın nisfini [yarısını] işğal edir [tutur].

**"Zabit"**

Bolşeviklərin başçısı olan [Fyodor] Dıbenko iyun ayının 19-u üçün Yekaterinoslavın alınmasına əmr versə də, qırmızı qoşunların həmləsi müvəffəqiyyətsiz olduğundan Dıbenko özünü öldürmüşdür.

**Komissarların edamı**

Yekaterinoslavda bolşevik komissarlarından Volfoviç, Epişteyn, Kursin edam edilmişlərdir.

**Odessada**

Odessadan gəlmiş olan bir nəfər bəyan edir ki, bu yaxınlarda Odessa şəhərinə Fransanın bir müxrib gəmisi [destroyeri] gəlib bolşeviklərə bir ultimatum təqdimi ilə 250 nəfər fransız bolşeviklərini tələb eyləmişdir. Bunun üçün 24 saat vaxt qoyulmuşdur. Bolşeviklər ca-vab verməmişlərdir. Ona görə də, Odes-sa sahili abluka eyləmişdir. Odessada artıq dərəcədə bahalıq vardır. Çörək üç dəfə bahalanmışdır.

**Venizelos şikayət edir**

"Etnos" qəzetəsinin istixbaratına [xəbərlərinə] nəzərən, Venizelos Aydın vilayətində cərəyan etməkdə olan hadisatdan dolayı şikayəti möhtəvi [ehtiva edən] Sülh Konfransına bir müxtirə [yazılı müraciət] tövdi eyləmişdir [vermişdir]. Müxtirədə əsamisi də [adları da] zikr edilən bəzi türk zabitanının çətə müharibatını idarə etməkdə olduqları bəyan edilməkdədir. Məzkur zabitan miyanında [arasında] Yusif paşanın dəxi ismi təsrih edilir [açıqca qeyd edilir].

**Elani-şadmanidən sonra şikayətlər!**

İzmir, Ayasluq, Aydın və Sökə rum mitropolitləri islam çətələri haqqında bəyani-şikayət etmək üzrə mister Vilson,

Lloyd Corc, Klemanso və Venizelosa teleqrafnamələr keşidə eyləmişlərdir [çəkmişlər].

**Vladiqafqazda**

Bu günlərdə Vladiqafqazdan gələn adamlar Vladiqafqaz haqqında böylə məlumat verirlər:

Vətəndaş müharibəsi şəhərə böyük xəsarət vurmuşdur. Belə ki, Moskovski küçədən Qospitalnı küçəyə qədər şəhərin bütün hissəsi tamamilə məhv edilmişdir. Qospitalnı və başqa küçələrdə olan evlər yandırılmışdır. Bolşeviklər bununla zabitləri, Vladiqafqaz ziyalılarını və başqa inqilabçıları yandırmaq istəmişlərdir.

Vladiqafqazın bəzəyi olan Şatiflis qardaşları evi ki, orada Bələdiyyə idarəsi olurdu, patladılmışdır. Loris Məlikov namına olan sənət məktəbi də yanmışdır. Şəhərdə tif [yatalaq] xəstəliyi olan zaman bolşeviklərin səhiyyə hökmfərmalığında [hökmranlığında] Vladiqafqaz məktəblərinin yuxarı siniflərində oxuyan qızlar zorla xəstəxanalara aparılmışdır. Bolşeviklərin bu cür “tədbirləri” sayəsində bir çox adamlar xəstəliyə düçar olmuşlardır. Xəstəlikdən bir çox həkimlər də tələf olmuşdur. Şimdi şəhər təzədən dirilməyə başlayıb, Bələdiyyə İdarəsi də işə düşmüşdür. Ticarət başlanmaqdadır. Şəhərə bir çox mal gətirilmişdir.

## TÜRKİYƏDƏ

**Türkiyə mürəxxəslərinin övdəti**

Türkiyə mürəxxəslərinin [nümayəndələrinin] yaxında İstanbula müvasilət edəcəkləri [çatacaqları] xəbəri təəyyüd etmişdir [təsdiq edilmişdir]. Sədrəzəm [Damad] Fərid paşa Lozana vasil olmuşdur. Orada bir qaç gün qaldıqdan sonra, önümüzdəki çaharşənbə [çərşənbə] və ya pəncşənbə [cümə axşamı] günü İstanbula övdət edəcəkdir [qayıdacaqdır].

Paris “T. H. R.” - Osmanlı mürəxxəsləri cümə günü Lozana mütəvəccihən [üz tutaraq] Parisdən müfariqət etmişdir [ayrılmışdır].

*“Vakit”*

**İskəçədə bolqar-türk çətəsi**

Səlanikdəki [Salonikidəki] yunan mənabeyindən [mənbələrindən] gələn xəbərlərə nəzərən, İskəçə həvalisində [ətrafında] bir bolqar-türk çətəsi icrayi-fəaliyyətə başlamışdır.

**Divani-hərb qərarı**

“Antant” qəzetəsi Divani-hərbi-örfinin [Hərbi məhkəmənin] vükəlayi-İttihadiyyun haqqında lahiq olan qərarına mütəəlliq istixbaratına ətfən [İttihadçı nazirlər haqqında verilən qərarına dair xəbərlərə əsasən] Tələt, Ənvər və Camal paşaların qiyabən edamlarına və şeyxülislami-əsbaq [keçmiş şeyxülislam] Musa Kazım əfəndinin 15 sənə müddətlə kürəyə qonulmasına [katorqa cəzasına], Cavid və Haşim bəylərin də bəraətlərinə qərar verilmiş olduğunu bəyan edir. Bu babda [bu barədə] Divani-Hərb heyəti-hakiməsindən vüqu bulan istizahımıza cavabən [sorğumuzun cavabında], idareyi-səniyyədən [uca idarədən] çıxmadıqca, qərar haqqında məlumat verilməyəcəyi bəyan olunmuşdur.





**Müsəlman Qadın Birliyi**

Mərkəzi Divanyolunda olmaq üzrə “Müsəlman Qadın Birliyi” namı [adı] ilə bəzi xanımlar tərəfindən yeni bir cəmiyyət təsis edilmiş və müsaideyi-rəsmiyyəsi istehsal edilmək [rəsmi icazəsi əldə edilmək] üzrə daireyi-aidəsinə [aidiyyətli idarəyə] müraciət olunmuşdur. İşbu cəmiyyətin təəssüsdən məqsədi adati-qədimeyi-islamiyyə və müstəhsənəni ehya etmək [müsəlmanların qədim və xoşagələn adətlərini canlandırmaq] və müsəlman qadınların ictimai vəziyyətlərinin islahına çalışmaqdır.

**Yunanilər Akhisardan çəkildilər**

Akhisardan yunan qitəatının [hərbi hissələrinin] çəkildiyinə dair hökumətə rəsmən məlumat vürud etmişdir [gəlmişdir]. Ödəmiş və Aydın qəsəbələrinin də yunanilər tərəfindən təxliyə edildiyi haqqında bir şayiə dövran etməkdədir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Bakının küçələrində səfil çocuqların hesabı gündən-günə artmaqdadır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] bunu nəzərə alaraq küçə uşaqlarına məxsus darüleytam güşadı [yetimxana açılması] ehtimal etməkdədir. Bundan dolayı Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ətfala [Uşaqlara] Yardım Cəmiyyəti sədri doktor Gindesə müraciətən rica etmişdir ki, öz nəzəriyyatını təqdim etsin.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Bakı nahiyə müfəttişinə məlum etmişdir ki, müavinət fəqət [sadəcə] xüsusi vaxtlarda olmaqla zəhmətə yaramazlara edilməlidir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nairliyinə] xəbər vermişdir ki, Şimali Qafqaziyadan qayıdan 600 nəfər qaçqınlar Gürcüstan Hökuməti siyasi nümayəndəsindən vəsiqələri olduğuna baxmayaraq yolda saxladılmışdır. Qaçqınlar Qars nahiyəsinə gedəcəklərdir. Onların fəna əhvalını nəzərə alaraq Nəzarət [Nazirlik] rica etmişdir ki, onları öz yerlərinə buraxmaq üçün lazımi binagüzarlıqda olunsun [təşəbbüslər göstərsin].

- Qaçqınlara təcili surətdə müavinət icabından [lazım gəldiyindən] dolayı Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Qarabağ general-qubernatorundan rica etmişdir ki, Bərdə ərzaq anbarını Nəzarətə təhvil versin.

- Susay qışlağı və qeyri kəndlərin əhalisi Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən müavinət istəmişdirlər. Nəzarət əhvalı məhəllində [yerində] təhqiq üçün oraya məmur göndərmişdir.

- Azərbaycan Hökuməti-Cümhuriyyəsi İşləri İdarəsinin xüsusi şöbəsi bütün Nəzarətlərə birər təliqə [rəsmi məktub] göndərərək məlum etmişdir ki, “Azərbaycan hökuməti əxbarı [xəbərləri]” qəzetəsi dövləti lisan türk lisanında nəşr edildiyi və ancaq türkcədən ruscaya tərcümə edildiyi üçün qanun layihələri və əmrlər[in] fəqət [ancaq] türk lisanında göndərilməsini tələb etmişdir.

- Gəncə Bələdiyyə İdarəsi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] müraciətən

rica etmişdir ki, Bələdiyyə İdarəsi üçün qərz [borc] surəti ilə hökumətdən istənilən məbləğin verilməsinə Nəzarət kəndi nüfuzunu yetirsin. Zira, Bələdiyyə İdarəsinin maddi cəhəti fəna bir hal kəsb etmişdir [hal almışdır].

- Azərbaycan dəmiryolları və emalatxanaları xidmətçilərinin iqtisadi və hüquqi cəhətlərini havi [ehtiva edən] qanun layihəsi Məsai Nəzarəti tərəfindən tərtib verilib Vükəla Şurasına [Nazirlər Kabinetinə] idxal edilmişdir.

- Maarif Nəzarəti əcnəbi məmləkətlərə getmək istəyən tələbələrə elam edir [bildirir] ki, yaş haqqında, təhsili haqqında və ailəsi əhvalı haqqında və nərəyə gedəcəyi haqqında vəsiqələrlə bərabər Nəzarətə ərzi-hal verilsin.

## NAXÇIVAN-ŞƏRUR MƏSƏLƏSİ

**- 6 -**

Azərbaycandan Naxçıvana Paşa Bayramov və Yusif bəy Qazıyev vasitəsilə aparılmaqda olan pulun getməsinə Parlaman üzvü Qasım Camalbəyovun Tiflisdə naxçıvanlı Bəhram xan [Naxçıvanski] ilə bərabər mane olmaları Azərbaycan zabitlərinin və deleqatının Naxçıvanda pulsuzluq sıxıntısına düçar olmalarına səbəb oldu. Azərbaycan kimi dövlətli bir məmləkət tərəfindən pul ilə bərabər şərəfli halda göndərilmiş olan zabitlər və deleqat arxaları sıra gətirilməkdə olan pulun Tiflisdə məzkur [adları çəkilən] cənablar vasitəsilə əngələ düçar olaraq gəlib çatmadığından dolayı Naxçıvanda utanacaq bir halda qaldılar. Pulsuzluğun sıxıntısı ilə nəhayət deleqat vasitəsilə məhəlli [yerli] hökumət xəzinəsindən pul istəməyə məcbur oldular.

Binaənileyh [ona görə], deleqat [Mirabbas] Mirbağırzadə zabitlərin pulsuz qaldıqlarını məhəlli hökumətə izhar etdiyi vaxt hökumət rəisi Cəfərqulu xan [Naxçıvanski] xəzinədə pul olmadığını və pulsuzluqdan dolayı məhəlli əsgərlər, zabitlər, hətta hökumət məmurları belə pulsuz çalışdıqlarını, buna binaən [buna görə] pul mümkün olmayacağını bildirdi.

Zabitlərin və polkovnikin hər gün, hər saat pul təmənnası qarşısında qalan deleqat nəhayət yalvarıcı bir hal ilə hökumət rəisini pul verməyə razı eylədi. Deleqat pul məsələsinin müvəqqəti həll edildiyini xəbər verdikdə zavallı zabitlər sevindilər.

Təbiidir ki, böyük bir məmləkət tərəfindən göndərilməklə "Sizə hər cəhətdən köməyə gəlmişiz" deyən nümayəndələr birdən-birə vəziyyəti dəyişərək yerli camaata möhtaclıq əlini açıb onlardan pul istərsə, o zaman o nümayəndələrin şərəfi nərədə qalar, vüqarı nərədə qalar? Camaat və məhəlli nümayəndələr arasında sözlərinin təsiri nə olar? Hətta nümayəndələrini göndərmiş məmləkətin əhəmiyyəti nə hala düşər? İştə, bu kimi hallar nə vəziyyət çıxararsa, Azərbaycan pulunun Naxçıvana gedib çatmaması Azərbaycan deleqat və zabitlərini eyni hala saldı.

Hətta, nəticəyə baxıb söyləmək lazım gələrsə, Ordubad, Naxçıvan, Şərur, Vedi, Sürməli müsəlman mahallarının bugünkü gündə Azərbaycan əlindən çıxmasına ən birinci səbəb də iştə bu hal oldu. Bu halın ən birinci amilləri də, səbəbkarları da Tiflisdə məzbur [adı çəkilən] Camalbəyov və Bəhram xan oldular.

Və nə qədər acı olsa da, Azərbaycan tarixinin həqiqi sətirlərini doldurmaq üçün demək lazımdır ki, Naxçıvana fikir vermək, pul göndərmək, maddi-mənəvi müavinət yetirmək xüsusunda Azərbaycan hökumətimizin də az səhvi və qüsuru olmadı. Az hümmətlə ediləcək ufaq [kiçik] müavinətlər səhlənkarlıq üzündən təxirdən təxirlərə uğrayıb, nəhayət şimdiki dağlar qədər maneələrə düçar olundu.

Deleqat da daxil olmaqla 13 nəfər Azərbaycan nümayəndəsinin hər birinə birdəfəlik 2 min manat verilməsi üçün polkovnik qəbz yazıb imzaladı və bu qəbz vasitəsilə polkovnik Kukuşev Naxçıvan xəzinəsindən 26 min manat borc pul alıb zabitlərə, özünə və deleqata payladı. Və bunu da şərt qoydu ki, pulumuz gəlib çatdıqda Naxçıvan pulunu qaytarıb verəcəyiz. Naxçıvan Hökumətindən alınan puldan ancaq qabaqca Hacı Mehdidən alınmış 2 min manat borc qaytarıldı.

* * *

Naxçıvan məscidində Azərbaycan deleqat və zabitlərinin hüzuru [iştirakı] ilə vaqe olan yığıncaqda camaatın istədiyi yeni hökumət seçkisi Hökumət Divanxanasında, müstafe hökumət əzası [istefa etmiş hökumət üzvləri] xanların hüzuru ilə tərtib edilən bir neçə məclislərdə oynanılan bir çox intriqalar sayəsində baş tutmadı. Bu məsələ çox böyük gurultulara müncər oldu [yol açdı].

Nəhayət, nəticəni xeyirli görməyən deleqat son dəfəki məclisin şiddətli gurultularını mətin və təsirli sözlərlə sakit edə bildi və məclis əhlinə xitabən:

– Madam ki, camaat nümayəndələri camaatın istəyi olan yeni hökumət seçkisi bacarammadılar, o halda artıq gözləməyə vaxt qalmadığını və zabitlərin bilatəxir [dərhal] məhəlli hökumət əli ilə işə başlamalarının lazım gəldiyini nəzərə alaraq müstafe hökumət əzalarının iş başında qalmalarını və Milli Şura əzaları ilə birlikdə idareyi-ümur [işləri idarə] etmələrini lazım görürəm və bununla məsələni bitmiş elan edirəm, – dedi.

Hərc-mərclik və gurultunun qabağını almaq üçün deleqatın bu qərarı məclis əhlinin razılıq və alqışları ilə qarşılandı. Əski hökumət əzaları da bu vəchlə yerlərində qaldılar. Sakitlik bərpa olundu. Hər kəs vəzifəsinə başladı.

Hal bu vəziyyəti aldıqdan sonra deleqat Mirbağırzadənin təklifi ilə Azərbaycan Hökumətinə və Müttəfiqlər nümayəndələrinə verilmək üçün iclasın qərarını müşir [xəbər verən] 9 maddəni möhtəvi olaraq [ehtiva edən], Milli Şura və Hökumət əzalarının təsvibi [təsdiqi] ilə rəsmi bir bəratülqövl [protokol] qələmə alınıb hazırlandı. Azərbaycana ilhaq [birləşmək] məsələsini qəti surətdə qərarlaşdırmış olan işbu birinci bəratülqövl məhəlli hökumət əzaları, məhəlli tabor komandanları, Milli Şura üzvləri, digər camaat və mahallar tərəfindən gəlmiş nümayəndələr və şeyxülislam tərəfindən imzalanıb təsdiq edildi.

Məzbur [deyilən] rəsmi bəratülqövlü Azərbaycan Hökumətinə təqdim edərək cavabı və nəticəsini qayıdıb Naxçıvan Hökumət və camaatına bildirmələri

üçün hər birinə yol xərci olaraq camaat pulundan 5 min manat verilməklə Naxçıvan tərəfindən deleqat olaraq Hüseyn Cavid əfəndi [Rasizadə] və Bağır Rzayev cənabları seçilib göndərildilər.

Bəratülqövlün bir surəti və məclisin qərarı Naxçıvanda ingilis general-qubernatoru bulunan polkovnik Lautona verildi.

Azərbaycan deleqatı Mirbağırzadə məhəlli hökumətlə zabitlərin vəzifələrinə başlamalarını qərarlaşdırdıqdan sonra məhəlli qaçqınlara sərf olunmağa göndəriləcək pulun Naxçıvana tezliklə yetirilməsi üçün və digər o tərəfə dair lazım olan məlumatla Naxçıvandan çıxıb məhəlli deleqatlarla Bakıya yollandılar. Deleqatları gətirməkdə olan vaqon ingilis general-qubernatoru Lautonun tapşırması ilə ingilis qaraqolları tərəfindən hörmətlə mühafizə olunmaqda idi.

Azərbaycan deleqatının Naxçıvandan çıxdığını eşidən ətraf müsəlmanları dəmiryol boyu hər yerdə mövqiflərə [stansiyalara] toplanıb intizar edirdilər. Deleqat hər yerdə qatarın dayandığı müddətə görə camaata lazım olan izahatı verməkdə idi.

Həmin qatarla digər vaqonda Naxçıvana buğda və qeyri azuqə almağa getmiş olan erməni deleqatları da qayıdıb İrəvana getməkdə idilər. Bu ermənilər bitərəf məntəqə daxilində olan Dəvəliyə çatdıqda deleqatdan komendanta danos verdilər. İstintaq nəticəsində deleqatın fəna sözlər söyləmədiyi anlaşıldı. Deleqatlar bir çox ürək sıxıntıları ilə erməni cümhuriyyəti daxilindən çıxıb Gürcüstana və sonra Azərbaycan daxil oldular.

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan kooperativləri qurultayında**

Gürcüstan, Azərbaycan və Ermənistan kooperativ ittifaqlarının Tiflis şəhərində bir mərkəzi şurası müşavirəsi olacağı qərara alındığı üçün qurultay Azərbaycan nümayəndələrini intixab etmişdir [seçmişdir]:

Ələkbər Heydərov, Əsədulla Axundov, mühəndis Əfəndizadə Əbdülqədir, Neşeretov, Malinin və Yakobson işbu təşkilata seçilmişlər.

Məzkur [deyilən] heyət məhəlli Azərbaycan şurası olduğu kimi hər neçə vaxtdan bir Tiflisdə digər dövlətlər şuraları ilə müşavirələr yapacaqdır.

Qurultayın sonunda ittifaqın bağında qurultay əzası [üzvləri] şərəfinə ziyafət yapılmışdır. Ziyafətdə Azərbaycan xalqının Məclisi-Məbusanı və hökumətin şərəfinə qədəhlər qaldırılmışdır. Qurultayda qət edilmişdir Məclisi-Məbusana qurultay namından təbrik teleqrafı göndərilsin. Ziyafətdə hökumət əzasından bir neçəsi də dəvət edilmişdi.

**Müəllimlər İttifaqında**

- Şəhər xidmətində bulunan Türk Müəllimləri İttifaqı idarəsi Maarif Nəzarəti nəzdində şəhər məktəbləri müəllimlərinin məvaciblərinin dövlət müəllimləri kimi yanvar ayından artırılması haqqında təşəbbüsatda bulunmuşdu. Maarif Nəzarəti Bələdiyyə İdarəsindən işbu məsələ müzakirəsini rica etmişdi. Aldığımız məlumata görə, Bələdiyyə İdarəsi müəllimlərin təşəbbüsatını rədd etmişdir.

- Türk Müəllimləri İttifaqı idarəsinin təşəbbüsatı ilə Tağıyev fabrikasına müəllimlər ekskursiyası tərtib veriləcəkdir. İdarə məccani [pulsuz] barkaz almağa müvəffəq olmuşdur. İştirak etmək istəyən müəllim əfəndilərdən rica olunur ki, bu gün saat 9-dan 1-dək özlərini Birinci Realnı məktəbində qeyd etdirsinlər.

**Bələdiyyə İdarəsində**

Bir dəstə qaçqınlar gözləndiyi üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bələdiyyə İdarəsinə məlum etmişdir ki, "Slon" dəyirmanı qaçqınlara veriləcəyi üçün oranı qaydaya salmaqla su ilə təchiz edilsin.

**Korlar məktəbi**

Aldığımız məlumata görə, Vükəla Şurası [Nazirlər Kabineti] Bakıda Korlar məktəbi güşadı [açılması] haqqında verilən qanun layihəsini təsvib [təsdiq] etmişdir.

**Yeni xəstəxana**

Bakı quberniyasının Səhiyyə İdarəsi qubernatora müraciətən rica etmişdir ki, Bakı quberniyasında 13 xəstəxana və 16 feldşer dairəsi təsis etmək üçün yerlər göstərilsin.

**Təhqiqat və Təftişat Komisyonu**

Daxiliyyə Nəzarəti qubernatora xəbər vermişdir ki, hökumət idarələrində baş verən xəyanətləri təftiş üçün xüsusi heyət təşkil edilmiş olduğundan, onun idarəsindəki dairələrdə baş verən suiistemalları [sui-istifadələri, qanunsuzluqları] məhkəmədən başqa həmin heyətə də bildirməlidir.

**Bərdədən teleqram**

Bərdədən Parlaman rəisi namına böylə bir teleqram gəlmişdir:

*"Cavanşir uyezdi əhalisi İngiltərə Hökumətinin Azərbaycan istiqlalının qəbul edilməsi tərəfdarı olduğunu eşidib, iyulun 25-də vaqe olan mitinqdə qərar qoymuşlar ki, sizin vasitənizlə İngiltərə Komandanlığına təşəkkür izhar etsinlər.*

*Seyidəli Mirmahmudov,*
*Namaz Hacıyev"*

**Faytonlara taksa**

Faytonçular müəyyən taksa olmamaqdan istifadə edib istədikləri qədər qiyməti artırdıqlarından, Bakı qradonaçalniki şəhər upravasına müraciətən faytonlara bir taksa qoymasını rica etmişdir.

**Məsai birjası**

Şəhərin pulu olmadığından, Məsai [Əmək] birjasını qapamağa məcbur olmuşdu. İndi Məsai naziri şəhər upravasına xəbər verir ki, birjanın xərcini ödəmək üçün hökumətə müraciət etmişdir. Bələdiyyə İdarəsi avqustun 1-dən dekabrın 31-nə kimi Məsai birjasına nə qədər xərc lazım olduğunu xəbər verməlidir.

**Çörək**

Bazarda çörək bahalanmağa başladığından, Sentrodom [Mərkəzi Ev Komitəsi] çörək bişirməyi artırmağı təhtiqərara almışdır. Bu vaxta kimi gündə 1000 pud çörək buraxılır. Bundan sonra 1500 pud etmək istəyirlər. Bununla bərabər, dükanların da miqdarı artır. Əlan [hal-hazırda] şəhər dükanlarından başqa 20 sentrodom dükanı vardır.

**Kooperativlər qurultayı**

*(26 iyul, 2-ci gün)*

- Qurultayın ikinci günü vəkalətnamələrə baxıldıqdan sonra Piçikyan məruzəyə başlamışdır. Ondan sonra Parlaman tərəfindən Əhməd Pepinov qurultayı təbrikedici bir nitq söyləmiş. Qurultay ümumiyyətlə qərar qoymuşdur ki, Azərbaycanın birinci Parlamanını təbrik etsin.

- Ayın 27-də səhər iclasında məhəllərdən məruzə oxuyurlar. Nəticədə Divani-rəyasətin formulu qəbul edilmişdir. Sonra qurultay qərar qoymuşdur ki, Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Azərbaycan İstehlak Cəmiyyəti" adına döndərsin və Bakıda bir Kooperativlər Bankı açsın.

**Vaqonlarda axtarış**

Yollar naçalniki əmr etmişdir ki, yollarda mühafizə məmurları axtarış etməsinlər. Axtarış ancaq axırıncı mövqiflərdə [stansiyalarda] – Poylu və Yalamada icra oluna bilər.

**Əhalinin nəzəri-diqqətinə**

Dəmiryol naçalniki camaata elan edir ki, mühafizə məmurları birinci və ikinci klaslarda otura bilməzlər. Onlar üçün üçüncü klaslarda xüsusi mənzil hazırlanmışdır. Vaqonlarda şübhəli bir şey olsa yenə mühafizəçilər axtarış yapa bilməzlər. Bu barədə əvvəlcə qatar naçalnikinə və baş konduktora xəbər verməlidir.

**Birjada**

Laj və valyuta enməkdə davam edirlər. Minlik kerenskilər 1450-1500 manat. 250 manatlıq dördü 1250 manat. Xırdalar 23-24 faiz. Nikolay pullarından 500-lüklər 1600 manata kimi enmişdir. 100-lüklər 330-340 manata enmişdir. Zaqafqaziya və Don pulları təbəddülatsızdır [dəyişməmişdir].

**Valyuta**

İngilis pullarından funt, banknot bərk düşürlər. Birincilər gedir 300 manata, ikincilər 275 manata. İstəyən azdır. Qızıl Osmanlı lirəsi 360 manata, kağız lirə 65 manata, İtaliya lirəsi 15 manata, frank kredit 18 manata, çek 15 manata. Rus gümüş manatı 17 manata.

## "MÜSAVAT"DA

**Posta və teleqraf xərci**

- Xanqışlaq kəndində mövcud "Müsavat" firqəsi şöbəsindən Qoltuq pristavı tərəfindən camaatdan posta-teleqraf xərci yığılması xəbəri alınmaq münasibəti ilə Posta-Teleqraf naziri bilavasitə və "Müsavat" firqəsi vasitəsilə böylə hərəkətlərin qabağını almağı əmr etmişdir. Bu barədə "Müsavat" Mərkəzi Komitəsi də şöbəyə xəbər vermişdir. Bundan başqa Posta-Teleqraf Nəzarəti "Müsavat" firqəsinə xəbər verir ki, bu günlərdə dənizlə posta-teleqraf müxabiratına [rabitəsinə] şüru olunacaqdır [başlanacaqdır].

- "Müsavat" firqəsinin Sayad Xızı şöbəsi xəbər verir ki, 7-ci dairə pristavının müavini həmin gündə bildirmişdir ki, 3 illik posta xərci camaatın öhdəsində olmalıdır. Bu barədə Mərkəzi Müsavat Komitəsi Posta-Teleqraf Nəzarətinə xəbər verib tədbir ittixazını [tədbir görülməsini] rica etmişdir.





**Fəhlələrə ərzaq**

Ağ şəhər (Belı-qorod) fəhlə əhalisinə paylanacaq ərzağın Türk-Ədəmi Mərkəziyyət firqəsinin Ağ şəhər şöbəsi ilə fəhlələrdən ibarət komisyonun ixtiyarına buraxılması üçün Mərkəzi "Müsavat" firqəsi Kəndçilər İttifaqına müraciət etmişdir.

**Zəngəzur qaçqınları**

Zəngəzur qaçqınlarından bir neçə nəfər "Müsavat" firqəsinə müraciətən iş istədiklərindən, firqə bu barədə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] xəbər vermişdir.

## AZƏRBAYCANDA

**Lənkəranın süqutu ətrafında "Milyutin" haqqında təfsilat**

Lənkərandan qaçan bolşeviklər əllərində olan bütün nəqliyyat vasitələrinə yüklənib Lənkərandan kənara dənizə çıxmışlardır. 100 nəfərdən artıq arvad və uşaq Lənkəran bolşevikləri tərəfindən "Dmitri Milyutin" paroxoduna əyləşdirilib, sonradan Bakıya yola salınmışdır.

"Milyutin" paraxodu iyulun 27-ci gecəsi Bakı portuna daxil olub 22 nömrəli körpüyə yanaşmaq istəmişdir. Körpüyə gələn polisə gecə vaxtı bolşevik gəmisinin körpüyə yanaşmasına yol verməyindən, paroxod reydə qayıtmışdır.

Səhər iyulun 27-də paroxod yenə təzədən Bakıya tərəf gəlib 22 nömrəli körpüyə yanaşmışdır. Burada polisə məmurları, əks-kəşfiyyat nümayəndələri və İngiltərə Bəhriyyə İdarəsinin Nəqliyyat şöbəsinin müdiri Yank paroxodu gözləyirmişlər. Kapitan Yank Azərbaycan əks-kəşfiyyat nümayəndəsinə təklif etmişdir ki, paroxodu və bütün kapitanları diqqətli surətdə axtarsın. Həmçinin icazə verilmişdir ki, lazım olduğu təqdirdə paroxodun palubası [göyərtəsi] və fərşinin [döşəməsinin] şübhəli yerləri sökülüb, paroxodun altında olan ikiqat fərşin arasına belə baxılsın.

Paroxoddan çıxan sərnişinlərin şeyləri diqqətli surətdə axtarılmışdır. Bu şeylərin içində bir neçə milyon qiymətində bir çox qızıl, brilyant və qeyri bahalı şeylər tapılmışdır. Belə görünür ki, bu şeylər hamısı qarət edilmişdir. Çünki bunların çox hissəsi İran qiymətli şeyləri idi. Sərnişinlərdə olan bir çox cürbəcür İran ipək parçaları və çadraları da heyrətə mövcib [səbəb] olurdu. Axtarış zamanında tapılan pulların çox hissəsi Nikolay pullarıdır. Sərnişinlərdən 2 milyondan artıq pul tapılmışdır. Bir tək Orlova nam sərnişindən 1 milyona qədər pul çıxmışdır. 100 min manata yaxın un kisəsindən tapılmışdır.

Sərnişinləri danışdırdıqdan sonra məlum olmuşdur ki, "Dmitri Milyutin" paroxodu gecə Bakı reydində dayandıqda bir yelkən lodkası paroxoda yanaşmışdır. Paroxoddan 16 nəfər bolşevik, o cümlədən [V. D.] Suxorukov və başqa bolşevik komissarları enib yelkən lodkasına oturmuşlardır. Paroxoddan yelkən lodkasına oturub qaçanlar paroxoddan bir çox qızıl, bahalı şeylər və pul götürüb qaçmışlardır. Bu şeylər o vaxta qədər paroxodun qazanxanasında imiş. Lodka gecənin qaranlığından istifadə ilə paroxoddan uzaqlaşıb naməlum tərəfə qaçıb gizlənmişdir.

Kapitan Yank Azərbaycan əks-kəşfiyyat nümayəndəsinə təklif etmişdir ki, bolşeviklər paroxoddan qaçan vaxtı paroxodda komandadan hansı biri vaxtında olduğunu isticvab [sorğu-sual] vasitəsilə aşkar etsin. Bundan əlavə "Milyutin" paraxodu komandirinin bu işdə nə dərəcədə iştirak etdiyini aşkar edib müqəssirləri məsuliyyətə cəlb etməkdən ötrü İngiltərə Su Nəqliyyatı İdarəsinə xəbər versin.

Paroxod sərnişinləri arasında Lənkəran komissarı Suxorukovun arvadı da vardır. Onun Samorodov[a] familiyalı əvvəlki pasportu əlindən alınmışdır. Həmin arvad ərinin nə yerdə olduğu xəbər alınmaqdan ötrü əks-kəşfiyyat idarəsinə göndərilmişdir. Paroxodun başqa sərnişinləri də oraya göndərilmişlərdir. Onlardan bir para şübhəliləri Bayılov həbsxanasına göndərilmişlər.

Axtarış əsnasında paroxoddan az bir miqdarda fişəng, bir neçə əl bombası və beşaçılan tüfəng tapılmışdır.

* * *

İki yüklü barj ilə Kür nəhrindən qayıtmaqda olan "Salyanets" barkazı iyulun 27-də səhərə yaxın Bulla cəzirəsi [adası] yanında Lənkəran qaçqınlarından ibarət 10 nəfər sərnişini olan iki yelkən qayığına rast gəlmişdir. 6 nəfər əsgərlə barkazda olan Cavad uyezdni naçalnikinin binagüzarlığına [sərəncamına] görə, həman qayıqlar buksirə alınmışdır.

Qayıqda olan sərnişinlər axtarıldığı zaman onlardan 25 min rublə Nikolay pulu tapılmışdır.

Bir saatdan sonra "Salyanets" barkazı Bakıya gəlməyə başladıqda öz arxasında "Lastoçka" barkazını görmüşdür. Bu barkazı "Salyanets" barkazı buksirinə almışdır. "Lastoçka" barkazında sərnişin olmamışdır. "Lastoçka" barkazı tayfasının [matroslarının] dediyinə görə, "Lastoçka" barkazı iki yelkən qayığı qaçqınlarla Lənkərandan çıxıb Bakıya azim olmuşdur [yola düşmüşdür]. Svinova cəzirəsi [adası] yanında barkaz turbasını təmir etməkdən ötrü dayanmışdır. Yelkən qayıqları ikisi də yola rəvan olub "Salyanets" barkazı tərəfindən buksirə alınmışdır. "Lastoçka" barkazı heç bir bolşevik komissarları qayığını yanınca götürməyib, Svinova cəzirəsindən başqa qeyri bir yerdə sahilə yanaşmamışdır.

* * *

Lənkərandan qaçan bolşevikləri dənizdə təqib etməkdə olan Cavad uyezdni naçalniki Əliheydər Yusifov xidməti işlərinə görə Bakıya varid olmuşdur [getmişdir]. Yusifovun dediyinə görə, Lənkəran alınan zaman bolşeviklər Sara cəzirəsinə köçmüşlərdir. Hal-hazırda bolşeviklər Sara cəzirəsini boşaltmağa başlamışlardır. Lənkərana Muğan əsgərləri, Astara tərəfindən isə Ramazan dəstələri daxil olmuşlardır. Bu saat hökumət kimin əlində olduğunu bilməyir. Dənizdə bir neçə bolşeviklərə rast gəlmişdir ki, onlar da bütün silahlarını buraxıb təslim olmuşlardır. Dənizdə təslim olan bolşeviklər ona təklif etmişlər ki, Sara cəzirəsinə gedib orada olan hər bir şeyi təhvil alsın.

* * *





Başqa mənbələrdən verilən xəbərlərə görə, Lənkəran şəhərinin təslim olması təfsilatı bu qərar üzrədir:

Muğanlılarla əlbir işləyən üsyançılar tərəfindən hər tərəfdən mühasirəyə alınmış bolşevik başçıları [V. D.] Suxorukov, [D. N.] Kropotov, [İ. P.] Orlov, Tituşkin, Sadovnikov, Ryabov, Şevkunov və [Bəhram] Ağayev əvvəlcədən öz arvadlarını və hamı başqa arvadları "Dmitri Milytin" paroxoduna göndərib kapitana Bakıya getmək əmrini vermişlərdir. Özləri isə sabahı günü yelkən gəmisini qarət edilmiş şeylərlə, top, pulemyot və başqa mühimmati-hərbiyyə ilə yükləyib özləri ilə on milyondan artıq pul götürüb məhəlli [yerli] bolşevik saldatlarını başına buraxmaqla İrana tərəf azim olmuşlardır [yola düşmüşlər]. Saldatlar bu əhvalı görüb ağ bayraq qaldırıb təslim olmağa məcbur olmuşlardır. O zaman könüllü dəstələri saldatlar olan yerə daxil olduqda bolşevik əsgərləri nizamla silahlarını təslim etmişlərdir.

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Doktor**
**M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqa-

zinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Ticarət Komisyon Kontoru**
**“Gəncə” Şirkətində**

İstanbuldan böyük partiya amerikan ayaqqabıları, cürbəcür rənglər, sap və qeyri şeylər alınmışdır. Qiymətlər münasibdir.

Adres: Parapetdə İskəndərbəyovun 8 nömrəli mülkündə. Telefon: 65-7.

*5482*

**Bakı Tacirlər**
**Bankı İdarəsi**

Bununla elan edir ki, Bank səhmdarlarının 1917-ci ildə oktyabrın 29-da olan fövqəladə və 1919-cu ildə may ayının 25, 29-da olan növbəti ümumi iclaslarının qətnaməsinə binaən [əsasən], Bank, Maliyyə nazirinin icazəsi ilə üçüncü dəfə olaraq 20 min pay yeri, 250 manatdan cümlətanı 5 milyon manat miqdarında buraxaraq öz əsaslı sərmayəsini (kapitalını) 5 milyondan 10 milyona qədər artırır. Səhmlər zeyldəki [aşağıdakı] qərarla buraxılır:

1) Təzə buraxılacaq səhmlərə yazılmaq həmin avqust ayının 23-dən başlayıb avqust ayının 30-da saat 12-də qurtaracaqdır. Avqustun 23-dən qabaq dəxi yazılmaq olar. Fəqət, qabaqca verilən məbləğlərə verilən gündən etibarən avqustun 23-dək səhmdarlara ildə 5 faiz verilir.

2) Hər buraxılacaq paya 300 manat qiymət təyin edilmiş və səhmdarlar özlərini qeyd etdirdiyi vaxtda pay pullarını tamamilə peşin olaraq verməlidirlər.

3) Yuxarıdakı maddədə təyin olunan 300 manatın 250 manatı əsasi sərmayəyə, 15 manatı ehtiyat sərmayəsinə, 25 manatı əlahiddə ehtiyat sərmayəsinə və 10 manatı dəxi buraxılacaq payların məxaricini ödəmək üçün müqərrər edilmişdir [qərarlaşdırılmışdır].

4) Yeni buraxılacaq payları almağa indilikdə əllərində köhnə payları olmuş olan səhmdarlara ixtiyar verilir. Köhnədən əllərində olan hər köhnə payın əvəz və miqdarına nisbət təzə paylar ala bilərlər.

5) Təzə buraxılacaq səhmlər köhnə səhmlər qüvvəsində olub, sentyabrın 1-dən etibarən alınacaq mənfəətdə, yəni 1919-cu il üçün köhnə səhmlərə müqərrər olunacaq mənfəətin 3-dən 1 hissəsində iştirak edir. Sonraları 1 yanvar 1920 sənədən etibarən köhnə səhmlərə verilən qayda üzrə yeni səhmlərə dəxi mənfəət veriləcəkdir.

6) Səhmdarlar təzə paylara qeyd olunanda möhür vurmaqdan ötrü köhnə paylarını banka təqdim etməyə borcludurlar.

7) Təyin olunan vaxta qədər, yəni avqustun 30-dək hər bir şəxs köhnə paylarını ərzihal ilə bərabər Banka verməzsə, təzə pay almaqdan məhrum edilirlər.

8) Hərgah bütün qeyd olunan paylardan əlavə olaraq bir də götürülməmiş paylar qalmış olsa, bu paylar əllərində köhnə payları olmuş səhmdarlar arasında təqsim ediləcəkdir [bölüşdürüləcəkdir]. Pay almaq xahişində olan təqsimdə iştirak etmək istəyəcəklərini dəxi avqust ayının 30-da saat 12-dən gec olmamaq şərti ilə Banka bildirməlidirlər.

9) Pullar alınanda səhmdarlara Bank tərəfindən müvəqqəti şəhadətnamələr verilir və böylələri təzə şəhadətnamələr hazır olandan sonra əbədilik şəhadətnamələrlə əvəz olunacaqdır.

10) Üçüncü dəfə olaraq buraxılacaq paylara qeyd olmaq Bakı bankının idarəsində qəbul olunur.

*5489*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**İki mühüm məsələ**

səh. 587. “pronunsimento”: hərbçilərin; bitərəfliklərini pozaraq müstəqil siyasi aktorlar kimi çıxış etməsi nəticəsində meydana çıxan, xüsusən XIX əsrdə İspaniya, Portuqaliya və Latın Amerikası ölkələrində rastlanan dövlət çevrilişi (hərbi çevriliş) forması.

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 588. “Üçüncüsü isə haqqındadır.”: qəzetdə belə getmişdir. Üçüncü təklif Parlament iclaslarının gündüz saat 10-dan 2-yə qədər olan vaxtda təyin edilməsi haqqında idi.

“...qeydlə bəyan edir ki:”: qəzetdə belə getmişdir: “...qeydlə bəyan ediriz ki:”

**Sülh ətrafında**

səh. 593. “Avam Kamerası”: ikipalatalı Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Məclisi nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 595. “Biz həmişə inanmışıq ki”: qəzetdə “həmişə” yerinə səhvən “heyətə” getmişdir.

“Tan”: 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik “Le Temps” qəzeti nəzərdə tutulur.

səh. 596. “Thal”: Pakistanın Pəncab əyalətində əsasən çöllükdən ibarət ərazi. Qəzetdə hər yerdə “Tala” kimi getmişdir.

“Bannu”: Pakistanda şəhər; Əfqanıstan sərhədi yaxınlığında yerləşir.

“Boldak”: Əfqanıstanın Qəndahar əyalətində, Pakistanla sərhəddə şəhər. Qəzetdə “Baldak” kimi getmişdir.

“Lazarev Darülfünunu”: II Yekaterina dövrünün saray zərgəri İvan Lazarevin (Ovanes Lazaryanın) vəsiyyəti və pulu ilə Moskvada 1815-ci ildə açılan və 1921-ci ildə bağlanan Lazarev Şərq Dilləri İnstitutu nəzərdə tutulur.

**Türkiyədə**

səh. 598. “Vakit”: İstanbulda 1875-1934-cü illərdə nəşr edilmiş gündəlik qəzet.

“İskəçə”: Yunanıstanın şimalinda Ksanti şəhərinə türklərin verdiyi ad.

“Səlanik”: Yunanıstanın Saloniki şəhərinə türklərin verdiyi ad.

səh. 599. “Divanyolu”: İstanbulda küçə.

**Bakı xəbərləri**

səh. 603. “Slon”: Rusiyada açılmış düyü arıtlama dəyirmanı; Bakıdakı şöbəsi Balaxanı şosesində yerləşirdi.

Mərkəzi Ev Komitəsi: Bakının ehtiyaclarının təmin edilməsi məqsədi ilə şəhər əhalisini polis dairələrinin (sahələrinin) sərhədləri daxilində qurulan ev komitələrində təşkilatlandıran və bu komitələrin vahid rəhbər orqanı olan qurum. Quruluş yığıncağı 1917-ci ilin dekabr ayının axırlarında keçirilmişdi.

**Azərbaycanda**

səh. 606. “Bulla”: Xəzər dənizində, Bakı arxipelaqındakı Xərə Zirə adası.

“Svinova”: Xəzər dənizində, Bakı arxipelaqında Səngi Muğan adası.



***“Azərbaycan” qəzetinin 239-cu nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 31 iyul 1919-cu il, nömrə 239**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 3 ziqədətül-həram sənə 1337. 31 təmmuz 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 1 manat 50 qəpik.**

**Abunə şəraiti: Bakı üçün 1 aylığı 35 rublə, 2 aylığı 60 rublə, 3 aylığı 90 rublə. Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə, 2 aylığı 70 rublə, 3 aylığı 100 rublə. Elan fiatı: birinci səhifədə sətri 5 rublə, axırıncı səhifədə sətri 4 rublə, itən şeylər və yer axtaranlar üçün 3 rublə.**

## ELAN

31 iyul 1919, pəncşənbə günü gündüz saat 10-da Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-193*

## SİRK “MODERN”

Bu gün pəncşənbə günü 31 iyul 1919-cu ildə məşhur Avropa artistləri İdeal Qardaşlarının görünməmiş benefisi olacaqdır. Ancaq bu gün onlar camaatı öz təzə nömrələri ilə gülməyə məcbur edəcəklər.

Bu gün 33-cü gün 1919-cu ilin məşhur “Cahan Pəhləvanı” namı və Azərbaycan fəxri şarfı və 30 min manat mükafat.

Benefis namına olaraq yaxşı pəhləvanlar güləşəcək.

1-ci: Gənc Əli İbad - Naməlum;

2-ci: Pavel Zakoroyko - Rokinbaum;

3-cü: Djavani - Tələbə V. O.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

Pəhləvanların çıxışı 11-in yarısında.

Tamaşa qurtaracaq saat 12 tamamda.

*5492*

## Hökumət Teatrosunda Axşam tamaşası OPERA

Zülfüqar bəy və Üzeyir bəy qardaşlarının müdiriyyəti
Cümə günü, zilqədə ayının 4-də (ağustos ayının 1-də 1919-cu ildə)
mütəntən [təntənəli] bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır
**“Leyli və Məcnun”**
operası.
Məcnun - Sarabski;
Leyli - Hacıbababəyov.
Biletlər indidən teatrın kassasında satılmaqdadır.
Tamaşa başlanacaq axşam saat 9-un yarısında.

## TÜRKCƏ KİTABLAR LAZIMDIR

Elmi, fənni, siyasi, tarixi, coğrafi və ədəbiyyata dair Azərbaycan və Osmanlı şivələrində yazılmış kitablar yaxşı qiymətə alınır. Hər kəs əlindəki kitabı satmaq arzu eyləməzsə, heç olmazsa münasib qiymətlə həman kitabı yenidən çap eyləmək ixtiyarını bizə versin. Arzu edənlər Kamenisti və Bolşoy Morskoy küçələri küncündə Xəzər Müstəhliklər İttifaqı

"Kooperatsiya"nın Maarif şöbəsində Ələkbər Heydərova səhər saat 8-dən 10-a kimi, yaxud "Azərbaycan" qəzetəsi kontorunda Qədir Heydərova müraciət etsinlər.

*5493*

Hər yerdə Kislavodskdan təzə alınmış "Narzan" suyunu tələb edin. Külli və az miqdarda satılır. Skladda. Ünvan: Bolşoy Morskoy nömrə 37, Mirzəyevin uçastoku. Telefon nömrə 36-64.

*5490*

## TELEQRAF XƏBƏRLƏRİ

*İtaliya simsiz teleqrafı*

- Parisdən alınan məlumata görə, İngiltərə Hökuməti Fransa Hökumətinə xəbər vermişdir ki, Fransaya kömür gətirmək mümkün olmayacaqdır. Çünki kömür mövcudu qurtarmaqdadır və daha gətirilməyir.

- Məclisi-Əyan sülh müahidənaməsini [sazişini] və İngiltərə ilə Fransa arasında olan ittifaqı təsvib [təsdiq] etmişdir.

- Vaşinqtondan xəbər verirlər ki, Fransada müharibədə iştirak edən qara əsgərlər ağlarla hüquqda bərabər olmağı tələb edirlər. Ağlarla qaralar arasında vaqe olan müsadimədə [toqquşmada] hər iki tərəfdən yaralananlar vardır. İğtişaşı yatırmaqdan ötrü Hərbiyyə naziri qüvvə göndərilməsini xahiş etmişdir.

- Helsinqforsdan [Helsinkidən] teleqraf edirlər ki, Əqsayi-Şərqdən [Uzaq Şərqdən] verilən xəbərlərə görə, bolşeviklər Çin əhlindən qüvvə istəmişlərdir. Çinlilərlə yaponlar arasında müsadimələr [toqquşmalar] olmuşdur.

- Vaşinqtondan xəbər verirlər ki, Bolqariya və Türkiyə ilə olacaq sülh müahidənaməsini Amerika Hökuməti də imza edəcəkdir.

*Azərbaycan simsiz teleqraf mövqifi qəbul etmişdir*

Daşkənddən Moskvaya Maliyyə komissarına xəbər verilir ki, xüsusi şəraitə görə, Türküstanın maliyyə işləri qayət fəna haldadır. Mərkəzi Komitə qət eyləmişdir [qərara almışdır] ki, təzədən 1 milyard bon kəsilsin ki, bu da əvvəl kəsilənlərlə 4 milyard edir. Təvəqqe edirəm, bu nizamnaməni təsdiq edəsiniz.

**Cəbhələrdə**

Moskva şimal cəbhəsində, Oneqa dairəsində, Obozer səmtində tərəfimizdən Çudovskoye kəndi işğal edilmişdir. Sair yerlərdə kəşifçilərin kəşfiyyatı davam edir.

Qərb cəbhəsində Karel dönümündə [Karel bərzəxində] düşmənlər bir neçə yerdə bizi sıxışdırmışlardır. Pskov səmtində bizim hissələr düşmənlərin təzyiqi altında Struqa mövqifinə [stansiyasına] çəkilmişlərdir. Dabravollar Porxovun 25 verstliyinə yanaşırlar.

Pskovun cənub-şərqi tərəfində tərəfimizdən bir neçə kənd işğal edilmişdir.

Ostrov uçastokunda düşmənlərin təzyiqi altında bizim qoşunlarımız Porxov-Ostrov səmtinə çəkilirlər.

Novo-Sviyaj səmtində bizim qitəatımız [hərbi hissələrimiz] müvəffəqiyyətlə irəliləyirlər. Dukştas gölünün civarında olan Jurı kəndini tərk eylədik.

Neymarkanın şimali tərəfində bizim əsgərlərimiz düşmənlərin təzyiqi altında Stolbtsı xəttinə çəkilirlər.

Baranoviç səmtində Nesvijin 16 verstliyində vaqe Taruşevtsı kəndini düşmənlər işğal etmişlərdir.

Moqilyov-Podolsk səmtində bizim hissələrimiz bir neçə kəndləri işğal etmişlərdir. Sair uçastoklarda təbəddülat [dəyişiklik] yoxdur.

Cənubi cəbhədə biz Konstantinoqradı tərk eylədik. Xarkov səmtində düşmənlərin təzyiqi altında Tereçni kəndinə tərəf çəkildik.

Novı Oskol səmtində biz müharibə ilə bu yerin bir neçə verstliyində kəndlər işğal etdik.

Borisoqlebsk və Balaşov səmtində bizim hissələrimiz müvəffəqiyyətlərini vüsətləndirərək Borisoqlebskin 25 verstliyinə çıxmışlardır.

* * *

Lion - Oçakov denilən yerə Fransa paroxodu 2000 nəfər hərbi əsir gətirmişdir.

London - Arxangelskdən teleqrafla xəbər verilir ki, üsyan edən saldatlar 5 ingilis, 10 rus afiserini öldürmüşlərdir. Bu da təbii, bolşeviklərin fəaliyyəti nəticəsidir.

**Şura qoşunlarının yürüşü**

Budinsk gölünün yanında Kodino işğal edilmişdir. Bundan əlavə, Şura qoşunları tərəfindən bir çox kəndlər işğal edilmişdir.

Biryuçin səmtində bizim hissələrimiz Soldatka xəttinə çıxmışlardır.

Borisoqlebsk səmtində Tanimroy mövqifini işğal eylədik. Yuxarı Uralsk və Çelyabinsk qoşunlarımız tərəfindən işğal edildi. Yekaterinburq səmtində Şura qoşunları Zernisk-Çernousovo xəttinə çıxmışlardır. Alabayev səmtində Alabayevsk işğal edilmişdir.

**İngiltərədə əmələ hərəkatı**

Avam Kamerasında Kennedi Cons Rəisi-vükəladan [Baş nazirdən] Yorkşir mədənlərinin nə halda olduğunu sual eyləmişdir. Lloyd Corc cavabında demiş ki, son 24 saatda Yorkşirdə bu vaxta qədər görünməmiş xətrəli [təhlükəli] hadisələr vaqe olmuşdur. Kömür mədənlərində işləyənlər əmələləri işdən məhrum etmişlərdir. Böyləliklə, bir çox mədənlərin təxrib ediləcəyi gözlənir. Qayət fəna və müşkül vəziyyət əmələ gəlmişdir. Yorkşir mədənlərindən bəziləri su ilə təxrib ediləcəkdir.

Öz böyüklüyü ilə Yorkşir mədənləri İngilis Krallığında ikinci mövqe tutur. Hökumət məcbur olmuşdur ki, mədənlərdən suyu çıxarmaq üçün matroslar göndərsin. Hökumət xüsusi məmur təyin eyləmişdir ki, Yorkşir mədənlərindən suyu çıxartdırsın. Hökumət inandırır ki, hərgah bu mədənlər su içində qərq edilərlərsə, fransız mədənləri halına düşəcəkdir, yəni mədənlər tamamilə məhv olacaqdır.

**Bela Kun Vyanada**

Sürixdən xəbər verirlər ki, Bela Kun

bolşevik ərkani-hərbi [qərargahı] ilə Vyanaya varid olmuşlardır [getmişlər].

**Sazonovun fəaliyyəti**

Petroqrad - Paris qəzetələrinin məlumatına görə, admiral Kolçakın nümayəndəsi sabiq Xariciyyə naziri Sazonov sosialist firqələrinin Kolçakı irticapərəstlikdə töhmətlərini yüngülləşdirmək və Kolçakı günahsız göstərmək istəyir. Sazonov bəyan edir ki, guya Kolçak Rusiyada olan bir çox oblastlara məhəlli [yerli] muxtariyyət vermək istəyir, tainki Məclisi-Müəssisan dəvət edilsin. Rusiyada təzə təşkil edilmiş olan dövlətlərin Paris nümayəndələrinə Sazonov məsləhət görür ki, çarizmin onlara rəva gördükləri zülümləri yaddan çıxarsınlar. Nümayəndələr isə Sazonovun bu kimi bəyanatına inanmayırlar.

## SÜLH ƏTRAFINDA

**Yaponiya və Xita [Çin] Sülh Konfransında**

Sülh müahidənaməsi [sazişi] imzasından sonra Yaponiya yenə Şantunu Çinə verəcəyini vəd eyləmişdir. Yalnız Yaponiya Kiao-Çao dəmiryolu üzərində kontrolluq edəcəkdir. Zənn edirlər ki, Parisdə olan Çin mürəxxəsləri [nümayəndələri] sülh müahidənaməsini imza edəcəkdirlər.

Paris - Sülh Konfransı qət eyləmişdir [qərara almışdır] ki, qeyri-rəsmi surətdə bir komissiya intixab eyləsin [seçsin]. Bu komissiya Romaniya-Macarıstan sərhədinə, o yerlərdə icra edilən səfərbərlik işlərinə nəzarət edəcəkdir.

**Bolqariya ilə sülh**

Bolqariyaya təklif ediləcək sülh şəraiti hazırlanıb qurtarmışdır. Həmin şəraitə görə, Romaniya Mərkəzi və Şimali Dobrucanı alacaqdır. Trakyanın bir hissəsi Yunanıstana veriləcəkdir. Bolqariya bu qədər torpaqdan məhrum edilməklə bərabər, 7 milyard frank verməlidir ki, bu məbləğ də Romaniya, Serbiya və Yunanıstan arasında təqsim ediləcəkdir [bölüşdürüləcəkdir]. Bolqariya Hökuməti borclu olur ki, xırda millətlərin hüququnu gözləyib Yunanıstan pravoslavnı cəmiyyətlərindən müharibə zamanında müsadirə edilən şeyləri qaytarsın. Asayişi gözləmək və sərhədləri saxlamaq üçün lazım gələcək miqdarda ordu saxlanmalıdır. Bolqariyaya hərbi donanma saxlamaq qadağan ediləcəkdir. Maliyyə və gömrük kontrolu qoyulacaqdır. Böyük dövlətlərdən başqa Serbiya, Romaniya və Yunanıstan dəxi iştirak edəcəklərdir.

## QƏZETƏLƏRDƏN

**Frensis rus işləri haqqında**

Yekaterinodardan verilən məlumata görə, Nyu-Yorkdan xəbər verirlər ki, bu yaxınlarda Arxangelskdən gəlmiş olan Petroqraddakı sabiq Amerika səfiri Devid Frensis böylə demişdir ki, hərgah Rusiyada möhkəm qanun bərpa edilməsə, Almaniya təzədən Yevropa millətlərini təhdid etməkdən ötrü Rusiyadan və onun fəhlə əlindən istifadə edəcəkdir.





Frensis demişdir ki, 50 ildir Almaniya Rusiyada olan külli miqdardakı təbii sərvətləri öyrənmişdir. Bu axırıncı 10 ildə bu məqsəddən ötrü alman müəllimləri Rusiya məktəblərinə göndərilmişdir. Rusiyada hərc-mərclik və hətta bolşevik hökmfərmalığı [hökmranlığı] davam etdiyi qədər Yevropada möhkəm sülh bərpa edilməsi mümkün deyildir. Bundan da bilaşübhə [şübhəsiz] Almaniya istifadə edəcəkdir. Almaniya başqa məmləkətlərin təbii sərvətlərindən gözəl surətdə istifadə etməyi və millətləri iqtisadca zəif salmağı bacarır.

- Lloyd Corc Sülh Konfransında demişdir ki, Rusiyanın iştirakı olmadan hazırlanmış hər cür sülh boş bir səsdən ibarət olacaqdır. Çünki Rusiya Yevropanın, Asiyanın yarısını və dünyanın 7-dən 1 hissəsini tutmaqdadır.

**Almaniyada**

Fransız qəzetələrinin verdikləri məlumata görə, Almaniyada militarizm davam etməkdədir. Orada “Vətəndaş mühafizəsi” nam [adlı] təşkilat vücuda gəlmişdir. Bu təşkilatın planına görə, hər kənd və hər şəhər milli mühafizə dəstəsi təşkil edir. Kəndlərdə olan böyük dəstələr 3 min güllə [mərmi] ilə ağır və yüngül toplara malik olub, hər bir tüfəngə 500 güllə almaqdadırlar. Əsgəri idarə və komanda təlim zamanında olduğu kimi, müharibə əsnasında da sabiq zabitlərə həvalə edilmişdir.

Buradan görünür ki, Almaniya Hökuməti məmləkətdə siyasi asayiş mühafizəsi şəklində militarizm planları düzəldib ciddi surətdə müharibəyə hazırlanmaqdadır. Sülh Konfransının notasına baxmayaraq, Almaniya Polşaya və Çex-Slav cümhuriyyətlərinə hücuma hazırlanmaqda davam edir. Şərq cəbhəsində əməliyyatda bulunan ordu üçün Berlində aşkara surətdə könüllülər cəm edilməkdədir. Müsəlləh [silahlı] müdaxilədən ötrü Visla nəhrində donanma cəm edilmişdir. Baltik tərəfdə olan mütəəllimlər [tələbələr] silah götürməyə dəvət edilirlər.

**La-Manş altında tunel**

La-Manş altında tunel qayırmaqdan ötrü İngiltərə Avamlar Kamerasında təzə bir Parlaman komisyonu cəm edilir. Komisyon tezliklə tunel işlərinin başlanması üçün hökumətə müraciət edəcəkdir.

**900 eser həbs edilmişdir**

“Z. R.” nam [adlı] Moskva bolşevik qəzetəsi xəbər verir ki, Rusiyada eserlər həbs edilməkdədir. Həbs edilənlər Moskvaya gətirilirlər. İndiyə qədər Moskvaya 900 nəfər eser gətirilmişdir.

İyul ayının 25-də Moskvada izdihamlı mitinqlər vaqe olmuşdur. Katalyan nam bolşevik natiqi demişdir ki, Şura Hökuməti dəfəatla sülh əqd eyləmək [bağlamaq] istəmişsə də, mümkün olmamışdır.

Suprenski nam digər natiq demişdir ki, biz vətəndaş müharibəsi ilə dəmir, kömür və pambıq ələ keçirməyə çalışırız.

**Qaliçya qoşunları**

Ternopoldan gələnlər rəvayət edirlər ki, Qaliçyada 150 min nəfər səfərbərlik halında qoşun vardır. Qoşunlar müntə-

zəmsə də, lakin yaxşı təchiz edilməmişlərdir. Bunlarda bolşevizma ruhu vardır. Bunlar Ukrayna bolşevikləri ilə ittifaq bağlamaq istəyirlər.

- Bessarabiyada əkin çox yaxşıdır. Liks qəsəbəsində Franszılar 1 milyon kisə hazırlamışlardır və məqsədləri də öz məmləkətlərinə buğda aparmaqdır. Bu münasibətlə yunan saldatları ilə fransız saldatları arasında qanlı müsadimə [toqquşma] vaqe olmuşdur.

- Xarkovdan gəlmiş olanların rəvayətinə görə, Xarkovda olan sərvətdarlar Denikinə 12 min nəfər dabravol saldat vermişlərdir.

**Denikinin planları**

Denikin Xarkovda bəyan etmişdir ki, hələlik onun ümdə məqsədi Kiyevi deyil, Moskvanı işğal etməkdir. Ona görə də, Dabravol ordusu ibtida [əvvəla] Oryol, Kursk və Tula qarşısına da iş görəcəkdir. Üsyan edən kəndçiləri də dabravollar öz tərəflərinə çəkəcəklərinə ümidvardırlar.

**Odessada nə qədər mal var**

Odessada tutulmuş olan hesaba görə, Odessa skladlarında zeyldəki [aşağıdakı] mallar vardır: 100 milyon manatlıq parça mal, 1 milyon girvənkə çay, 83 min pud tənbəki, 85 milyon ədəd papiros, 17 min yeşik səbzə, 55 min pud günəbaxan (tum) yağı, 5 min pud konservə, 10 milyon qutu tomat. Bu malları bolşeviklər öz skladlarına daşıyırlar.

**Yunan zayiatı**

Parisdən bildirilir: Məbus Marenin tənzim etdiyi raporda Yunanıstan zayiatıhərbiyyəsi [müharibə itkiləri] 12800 məqtuldan [öldürülənlərdən] ibarət olduğu bəyan edilməkdədir.

**General Denikin**

Novoçerkasskdan gələn general Denikinlə Yekaterinodardan gələn İngiltərə generalı Holmson iyulun 22-də Rostovda görüşmüşlərdir. Görüşdən sonra general Denikin Qafqaziyaya tərəf, İngiltərə generalı isə Tsaritsin cəbhəsinə azim olmuşdur [yola düşmüşdür].

**Novorossiyskdə**

Batum təriqi [yolu] ilə axırıncı qatarla gələn sərnişinlər xəbər verirlər ki, halhazırda Novorossiysk şəhəri balaca çar Peterburqu şəklindədir. Axşam saat 6-7-də şəhərin ümdə küçəsi Rusiyanın hər bir tərəfindən bolşeviklər əlindən qaçıb gələn generallarla doludur. Kuban ilə Çernomorski quberniya arasında olan iqtisadi ixtilaf bərtərəf edilmişdir [aradan qaldırılmışdır]. Kuban bilamümaniət [maneəsiz] taxıl və ərzaq şeyləri verməkdədir. Əcnəbi məmləkətlərdən gələn paroxodların gətirdkləri mallardan Novorossiyskdən Kubana göndərilir. İstanbul ilə müstəqim [birbaşa] poçta-teleqraf münasibatı bərpa edilmişdir. Kağızlar və teleqraflar İstanbulda Dabravol ordusunun ticarət agenti namına göndərilir.

**Tsaritsın haqqında**

Məhəlli [yerli] bank vəkili K. Tsaritsından Bakıya varid olmuşdur [gəlmişdir]. Müşarünileyh [adı çəkilən şəxs], Tsaritsın şəhərinin işğalı haqqında böylə məlumat verir:





Şəhərin ətrafı gözəl surətdə möhkəmləndirilib, şəhəri bir qala halına salmışdır. Şəhərdə külli miqdarda zübdə [seçilmiş] bolşevik əsgərləri var idi. Lakin Dabravol ordusunun əks-kəşfiyyat xidmətində olub da istehkamat naçalniki olan adamın xəyanətinə görə, şəhər dabravol əsgərləri tərəfindən işğal edilmişdir. Hal-hazırda həman xəyanət edən adam polkovnik çinində şəhərdə gəzməkdədir. Tsaritsının alınmasına bir az qalmış bolşevik nəqliyyatı tamamilə Volqa boyu hərəkətə başlamışdır. Lakin Tsaritsından yuxarı getməyə fürsət tapmamışdır. Volqanın aşağı məntəqələri də dabravollar əlində olduğundan bu qərar üzrə bolşevik donanması mühasirədə qalmış kimidir. Məzə burasıdır ki, bolşevik donanması özü təslim olmur. Dabravollar da onu ala bilməyirlər.

## DAĞISTANDA

**Şeyxülislamın qalibiyyəti**

Petrovskdan Bakıya gələn sərnişinlərin dediyinə görə, Dağıstan şeyxülislamının əsgərləri Teymurxanşura yanında əhalini "sakit" eyləməkdən ötrü göndərilən 4 min kazak alayını məğlub etmişlərdir. Bu günlərdə Petrovskdan gəlmiş bir mötəbər zatın [şəxsin] dediyinə görə, dabravolların Dağıstan içərisinə hazırladıqları səfərləri müvəffəqiyyətsiz qurtarmışdırsa da, Teymurxanşura yaxınlığında olan aullar böyük xəsarətlərə düçar olmuşlardır. Şimdi Petrovsk şəhərinin dəniz kənarındakı taxta körpülərində yüzlərlə qaramal, qoyun, toyuq-cücə, palaz, qadın əlbisəsi və ev müxəlləfatı [əşyası] toplanmışdır ki, həp bədbəxt köylülərdən qarət edilmişdir. Kazakların vəhşiliyi və dabravol komandanlığının həyasızlığı həddən aşmışdır. Xalq arasında həyəcan gündən-günə artmaqdadır. Kazaklar camaata çox əziyyət verirlər.

## İRANDA

İrandan gəlmiş xüsusi bir məktubda oranın əhvali-hazirəsi [indiki vəziyyəti] haqqında zeyldəki [aşağıdakı] məlumat verilməkdədir:

Gilan, Rəşt və daha doğrusu bütün Farsistanda hərc-mərclikdir. Asayişiümumi gündən-günə zəifləşməkdədir. Məhəmmədəli şahın Qəzvinə gəlməsi münasibətilə hər yerdə böyük siyasi təbəddülat [çalxalanma, dalğalanma] nəzərə çarpmadadır. Hər yerdə mücahid və yaxud bəsirətli iranlılar varsa, hökumət tərəfindən həbsə alınmaqla böyük cəfa verilməkdədir. Məşhur mücahid Kiçik xan 4 süvarisi ilə Cəngələ, müstəbidlərlə müharibə və mübarizəyə hərəkət etmişsə də, hökumət və qeyri hökumətə müavinət edən əsgərlə qarşılanaraq müharibəyə girişmişdir. Əhməd şah 6 ay xəstəlik münasibətilə Firəngistana hərəkət edir. Onun vəliəhdi isə Şahı təviz [əvəz etmək] üçün Təbrizdən Tehrana dəvət edilmişdir.

Camaat arasında dövran edən şayiələrə görə Məhəmmədəli şah Müttəfiqlər tərəfindən Qəzvinə gətirilmişdir. Alınan qeyri-mövsuq [təsdiqlənməmiş] xəbərlərə görə, Tehranın paytaxtlığı fəsx [ləğv] edilib İsfahanı paytaxt qərar vermək istəyirlər və İsfahanda şahi-məxlu [taxt-

dan salınmış şah] Məhəmmədəli şah hökumətə başlayacaqmış. Demək ki, 14 sənəlik İran hürriyyəti bundan sonra yenə istibdad hökmranlığında yaşamaq məcburiyyətində qalacaqdır.

Azərbaycan tərəflərindən növbənöv xəbərlər gəlməkdədir. Rəvayətə görə, vəliəhdin Tehrana hərəkətindən sonra Təbrizdə mücahidlər tərəfindən böyük inqilab gözlənilməkdədir. Urmu və Xoy cəhətləri kürdlər tərəfindən əzilib yağma edilməkdədir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin droj (maya), papiros kağızı, giliz, spiçka, çay, qənd və onlardan qayırılacaq şirniyyatdan alınan aksizin artırılması haqqındakı qanun layihəsi istemasından [dinlənildikdən] sonra qət edilmişdir [qərara alınmışdır]:

Qanun layihəsini təsviblə [bəyənməklə], Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin Azərbaycan İstinaf Məhkəməsi [Məhkəmə Palatası] mülkünün təmirindən ötrü 26 min 144 manat 46 qəpik buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən para buraxılsın, fəqət ev sahibi Arzumov varisləri ilə 1919-cu sənə üçün bağlanmış icarə pulundan çıxılmalıdır.

- Maliyyə nazirinin rüsum vergisi haqqındakı 117-ci maddənin dəyişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın.

- Post və Teleqraf nazirinin 200 min manat çərx kağız hazırlamaq üçün para təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

20 milyonluq fonddan Posta və Teleqraf Nəzarətinə 200 min manat buraxılsın.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Şamaxı nahiyə müfəttişinə müraciətən xəbər vermişdir ki, təcili surətdə nahiyədə çəkməçi, corabçı və digər bu kimi emalatxanalar güşadı [açılması] ilə Göyçayda uşaq koloniyası və lüzumlu məhəllələrdə qaçqınlar üçün çayxanalar və hamamlar güşad edilsin.

- Baş fabrik müfəttişi Məsai Nəzarətinə [Əmək Nazirliyinə] xəbər vermişdir ki, iyulun 22-də Şibayev cəmiyyətinin fıçıçıları [çəlləkçiləri] tətil elan edərək məvaciblərinin 60 faiz artırılmasını tələb etmişlərdir. Bu xüsusda xüsusi bir komisyon müşavirəsi dəvət edilmişdir.

- Maliyyə nazirinin Bakı Gömrükxanasında bir müfəttişlik təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Qanun layihəsi təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin Yalama mövqifində [stansiyasında] ikinci dərəcə gömrükxana təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın. Təsdiqədək 20 milyonluq fonddan 54478 manat 75 qəpik buraxılsın.

- Ədliyyə nazirinin Azərbaycan təbəəliyi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Qanun layihəsi bərvəchi-ati [aşağıdakı] dəyişikliklərlə təsvibən, Məclisi-Məbusana idxalı tapşırılsın:

*Birinci fəsildə:* Birinci maddədə "Rus dövləti" sözlərini "Rus imperiyası" və "hankılar"ı sözündən sonra "kəndilər"i və yaxud "valideyn"i dəyişməli. İkinci maddədə "qərardad" sözünü "qanun" sözü ilə əvəz etməlidir.

*İkinci fəsildə:* On birinci maddəni çıxarmalı.

*Üçüncü fəsildə:* Birinci maddədən işbu sözlər çıxarılmalı: "və yaxud hökumətdən izinsiz əcnəbi xidmətinə daxil olarlar".

*Dördüncü maddədə:* İşbu sözlər çıxarılsın: "və yaxud əcnəbi xidmətinə daxil olarlar" və bu sözlərdən sonra "Azərbaycana Daxiliyyə nazirinin xüsusi icazəsi olmamaqsızın qayıtmaq ixtiyarından məhrumdurlar" əlavə etməli.

- Dövləti Müfəttişin 1 fevral 1919-cu sənə qərardadı üzrə 1500 manat buraxılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İstənilən para 20 milyonluq fonddan buraxılsın.

## NƏZARƏTLƏRDƏ

- Şamaxı qəzasında qalmış İrəvan quberniyası qaçqınları Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciətən rica etmişlər ki, tezliklə onları qəzada sakin etməklə torpaq da verilsin. Nəzarət onların ciddi əhvallarını nəzərə alaraq, Ərazi və Dövləti Əmlak Nəzarətindən rica etmişdir ki, qaçqınları təmin üçün təcili surətdə tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Ərəş qəzasının Əmirvan köyü icması Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə müraciətən məlum etmişdir ki, məzkur [deyilən] icmaya məxsus bağlar məhəlli, hökumət tərəfindən alınıb başqa-başqa adamlara icarəyə verilmişdir. Kəndçilər rica etmişdir ki, onların bağları geri alınıb sahiblərinə qaytarılsın. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti məsələni Daxiliyyə və Ərazi nəzarətlərinə elamla [bildirərək] öz tərəfindən tədabir ittixazını rica etmişdir.

- İşbu iyulun 24-də iniqad etmiş [toplanmış] Vükəla Şurası [Nazirlər Kabineti] Gəncə və Şəki şəhərlərinin füqəra sinfi üçün xalı, palaz və şal emalatxanaları təşkili üçün 3 milyon 670 min manat təxsisi haqqında Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin qanun layihəsini təsviblə, təsdiqədək məzkur [deyilən] məqsəd üçün 100 min manat buraxılması qət edilmişdir.

## İRƏVANLILARIN MÜXTİRƏSİ

Qafqaziyada olan İngiltərə Komandan-lığı nümayəndəsi general Koriyə bir müxtirə [yazılı müraciət; xəbərdarlıq] verilmiş olduğunu qabaqda yazmışdıq. Şimdi müxtirəni eyni ilə dərc ediriz:

İrəvan quberniyasının Naxçıvan, Şərur, Sürməli və İrəvan uyezdinin bir

hissəsi Azərbaycan türkləri ilə məskundur. 1917-ci ilin axırlarından başlayaraq həman rayonların müsəlmanları müsəlman əhalisini məhv etmək və İrəvan quberniyasını Türkiyə erməniləri ilə məskun etmək məqsədini təqib edən erməni əsgəri dəstələri tərəfindən tədriclə təcavüzata giriftar olmuşlardır. Yüzlərcə kəndlər top atəşi ilə məhv, əhalisinin bir hissəsi tələf edilmişdir. İnanılmaz vəhşətlərə yol verilib, əhalinin digər hissəsi dağlara, çöllərə qaçmışdır ki, soyuqdan və acından həlak olmuşdur. Ermənilərin vəhşətlərini 1918-ci il dekabrın 27-28-də olan hadisələr isbat edir ki, İrəvan uyezdinin Vedibasar rayonunda 6 kəndin müsəlman əhalisi tamamilə məhv edilmişdir. Keçən ilin yay fəslindən başlamış müsəlman əhalisi öz halını gözü ilə görüb təşkilat yapmaqla ermənilərə müsəlləh difa [silahlı müdafiə] göstərmişlərdir. Erməni hökuməti yuxarıda göstərilən rayonların müsəlman əhalisini özünə tabe etməkdən gücsüz olduğunu, ancaq İngiltərə komandanlığının istəyinə görə Sülh Konfransı həllinə qədər müsəlman əhalisi müvəqqətən erməni hökumətinə tabe olmağa məcbur olmuşdur. Lakin erməni hökuməti müsəlman əhalisinin nisbəti ədalətli bir surətdə özünə düzəltmək və müsəlmanlara vurulan ağır yaralara əlac eyləmək əvəzinə müsəlmanlar haqqında dəhşətlər və şiddətli cəzalar işlətməyə başlamışdır. İrəvan uyezdində Vedibasar rayonu əhalisi təngə gəldiyindən, öz hüququnu və insaniyyət heysiyyətini müdafiəyə qalxışmışdır. O vaxt erməni hökuməti müsəlmanlar əleyhinə əsgəri dəstələr göndərib dinc əhalinin kəndlərini yerlə yeksan etdirmişdir. Əvvəlcədən nisfindən artığı [yarısından çoxu] erməni hökuməti tərəfindən məhv edilmiş müsəlman əhalisinin əqəllən [heç olmasa] qalanını xilas etməkdən ötrü haqq və ədalət naminə tezliklə qanlı vuruşmaları dayandırmalıdır.

Yaxşı olardı ki, Sülh Konfransı qərarına qədər müsəlmanlar ilə məskun yuxarıda göstərilən rayonlar müvəqqətən İngiltərə nümayəndəsinə tabe ediləydi. Çünki ancaq daşnaksaqan firqəsindən ibarət olan erməni hökumət məmurları müsəlman əhalisini tədriclə qırıb məhv etməkdən imtina etməyəcəklərdir. Ermənistan paytaxtı olan İrəvan şəhərində yaşayan müsəlmanların halı bunu isbat edir. Burada müsəlmanları qarət edib təqsirsiz adamları, hətta gündüzləri hökumət məmurlarının gözləri qabağında öldürürlər. Burada müsəlmanlar o qədər tədhiş [dəhşət, terror] altına alınmışlardır ki, qaranlıq düşən kimi bir müsəlman küçəyə çıxmağa cəsarət edəmməyir.

Bakıda yaşayan İrəvan quberniyası müsəlmanlarının iyunun 18-də vaqe olan ümumi iclasının qərarına görə, həmin müxtirə Sülh Konfransına təqdim edilməkdən ötrü hüzuri-alilərinizə təqdim edilir.

*(İmzalar)*

## NAXÇIVAN MƏKTUBATI

**- 14 -**

Naxçıvanı keçənlərdə ərz etdiyim vəzdə [vəziyyətdə] qoyub Bakıya gəlməli olduğumdan, hazırlaşıb istasyona gəldim. Neçə aylarca boş qalmış istasyonda təzədən bir böyük şenlik [qələbəlik, canlılıq] görükürdü. Hər tərəfdə əhli-kəsəbə bir səbət şey qoyub satmaqla, bir çox yerdə qəhvəçilərin çay satması nəzərə çarpırdı. İstasyonda hələ ermənilər tərəfindən öylə bir nəzm-nizam yox idi. Öylə gün olurdu ki, üç-dörd qatar erməni mühacirləri ilə məmlu [dolu] İrəvandan Naxçıvan istasyonuna gəlirdi. Öylə də gün olurdu ki, heç bir vaqon da gəlməyirdi. Həftədə üç dəfə minik vaqonları gəlirdi. Biz bir çox adamdan ibarət olduğumuzdan, iki boş yük vaqonuna dolub yer tutduq. Bizə beş saat sonra gedəcəksiniz vədəsi verilməklə bərabər, orada üç sutka qalmaq məcburiyyətində qaldıq. İstasyonu insan gəzdikdə mədəniyyətə və insanların məhvünabud olmasına [məhv, yox olmasına], rus əsgərləri hürriyyətdən sonra zəbt etdikləri zamandan şimdiyə qədər nə böyüklükdə zərər vurulduğunu hər kəs hiss edə bilərdi. Çünki son modada yapılmış Naxçıvan vəsi [geniş] istasyonunun imarətlərinin heç birisində bir qapı-pəncərə görülməməklə bərabər, xarabazarlıq nişanları az deyildi. O biri tərəfdən neçə günlərcə gəlib istasyon qışlasında [kazarmasına] iskan edilmiş [yerləşdirilmiş] və eyni zamanda istasyonun hər tərəfində gəzib dolanan erməni mühacirlərini insan gördükdə və qorxudan hələ vətənlərinə övdət etmək [qayıtmaq] istəməyən müsəlman fələkzədələrini də dərnəzər etdikdə insan nə qədər mütəəssir və mütəəzzi olurdu [əzab çəkirdi].

Sabahlar, axşamlar mühacirlərinə ermənilər əkmək payladıqda nə müdhiş bir mənzərə görüldüyünü qələm yazmaqdan, dil söyləməkdən acizdir. İki yüzlərcə kəndisinə ağa və xanım olan, istirahət sahibi kəndçilər bu gün başa yarım girvənkə əkmək almaq üçün bir-birilərini yırtmağa, zorlamağa və hər kəs payını mənə qalmaz xəyalı ilə tez almaq üçün irəli yürüdüyündən böyük qalaq-qalaqlar əmələ gələcəyi mülahizə olunurdu. Mühacirlərin çoxusu xəstə, arıq və cırım-cında əlbisə içində idilər. Mühacir halını hər kəs bildiyindən, artıq bunların halını təsvir etməyə hacət yoxdur, zənn edirəm.

Əvət, otuz-qırxa qədər istasyona toplanmış müsəlman mühacirləri hər saat, hər dəqiqə tren [qatar] gözləməklə bərabər, böyük qorxunc fikirlər də keçirmədə idilər. Çoxdan bəri ədavətlə yaşadığı bir millətin treni ilə onun şəhərlərini dolaşaraq salamat gedib məhəlli-iqamətinə [yaşayış yerinə] çatması hər kəsi şübhələndirirdi. Bir çoxları "Bizi İrəvan istasyonunda mauzeristlər soyacaqlar", bir çoxları "Köydən salamat keçsəydik min yaşardıq" kimi cümlələr qullanmaqla bərabər, sələmətləri üçün kərratla [dəfələrlə] namaz qılıb dua edənlər də az deyildi.

Xülasə, üç gün tamam oldu. Biz Uluxanlıya qədər bilet alıb yola düşdük. Noraşen istasyonuna qədər hər yerdə əski həyat və asayiş bərpa idi. Hələ ermənilərin hökmranlıqlarından bir nişanə yox idi. Fəqət, Şahtaxtı istasyonunda 100-ə qədər erməni əsgəri gözləməklə bərabər, Bəyazidə gedən Maku treni yolunun Araz körpüləri ciddi surətdə erməni əsgərləri tərəfindən işğal və təhti-mühafizəyə [mühafizə altına] alınmışdı.

Noraşen istasyonuna yetişdikdə, böyük bir cəşn [qələbəlik] və hərəkət gözə çarpmağa başladı. Üç-dördə qədər yük

qatarları ilə iki qatar zirehli vaqonlar, bir çox əhali, mindən ziyadə Dərələyəzdən gəlmiş Osmanlı (qaxtaqan [qaçqın]) mühacir ermənilər, üç-dörd yüzə qədər İrəvan və Üçkilsə mahallarının müsəlman fərariləri və bundan maəda [başqa] 500-dən ziyadə erməni müsəlləh əsgərləri bir mənzəreyi-ələmnak və vəxim [qəmli və qorxunc bir mənzərə] əmələ gətirmişdi ki, insan baxdıqca heyrət və təəccübünü artırırdı.

Erməni və müsəlman mühacirlərinin əcələ ilə yer tutmağa çalışmaları, əsgərlərin baş komandan Dronun İrəvandan gəlməsi intizarında bulunub da manevrə yapmaları böyük bir qat-qarışıqlıq görsənilməklə bərabər, insan erməni mühacirlərinə baxdıqda, həpsinin qıp-qırmızı olub üzlərində bir şadlıq hissiyyatını görməklə nəzərinə gəlirdi ki, guya ki, neçə müddət qış əzabında yaşamış quş dəstələri bahar gəlməsi mülahizat və hissiyyatı ilə xülyalanaraq o eşqə fərəhnak olmuşlar [fərəhlənmişlər, sevinmişlər].

Erməni mühacirlərinin qıp-qızıl [qıp-qırmızı] olub və lazımınca ev əşyaları nəzdlərində bulunmaları erməni hökumətinin onlara yardım və mərhəmətindən olmayıb, təbii Dərələyəzdə 40-a qədər müsəlman köylülərinin ki, həpsi ələn [indi] Şərurda fəlakətlə yaşamaqdadırlar, əmlak və əmvalına [mallarına], hazır əkinlərinə bir sənədən ziyadə sahiblik edib müftə yediklərindən idi. Çünki erməni hökuməti yardımından öylə salamat qalmaq icab etsəydi, yuxarıda ərz etdiyim Naxçıvan erməni mühacirləri onlardan daha salamat və zəngin olmalı idilər.

Əvət, nəzərim istasyonda erməni mühacirlərindən ayrıca, məsumanə və mütəəssifanə [kədərli] bir halda durmuş müsəlman kəndçiləri, yəni mühacirlərinə sataşdı. Onların nə halda olduqlarını yazmaqla qarelərin [oxucuların] qəlblərini xarab etmək və mətləbi uzatmaq istəməyirəm. Çünki nəql edə biləcəyim mənzərəni hər kəs bilir. Qatarlar həp erməni mühacirləri ilə dolmuş ikən, müsəlman mühacirlərinin vaqonlara yerləşdirilməsi etinasız bir halda görünürdü. Üç-dörd nəfər müsəlman mühaciri gözümün önündə vaqondan-vaqona yer gəzib müraciətdə bulunur və hər tərəfdən döşlərindən itələnib də təərrüzatdan [hücumlardan, təcavüzlərdən] başqa erməni mühacirləri tərəfindən bir mərhəmət göstərilməyirdi.

İstasyon komandanı qayət mütəkəbbir bir halda erməni mühacirlərini cabəca [yerbəyer] edə-edə həman mühacirlərin bir əskiyinin belə dərdinə, şikayətinə qalaraq, onunla bir para erməni mühacirləri bizim vaqonlara yanaşdı və komendant üzünü bizə tutaraq "Siz nə üçün böylə istirahətlə əyləşmisiniz? Həpiniz bəhərhal [mütləq] bu iki vaqondan birisini təxliyə və birisində oturmaqla vaqonun o birisini mühacirlərə güzəşt etməli və yaxud içinizdə boş görünən yerlərə mühacirləri buraxmalısınız" - dedi. Biz hər nə qədər erməni qubernatorunun əmri ilə vaqonların bizə verilməsini və vaqonlara bilet alaraq minik olub mindiyimizi izhar etdiksə "Mən böylə əmrlər filanlar bilməm" - deyə zorla mühacirləri bizim içimizdə yerləşdirdi. Bu da iştə bizim halımız.

On beş dəqiqə keçmişdi ki, İrəvan tərəfindən bir qatar görsənməyə başladı. İstiqbala [qarşılamağa] çıxmış əsgərlər həp nizama durdular. Məlum oldu ki, Dro gəlir. Bir azdan sonra zirehli vaqonla Dro gəlib yetişdi. Silaha durmuş əsgərlərin əhvalını soruşdu və sonra rəsmi-keçid əmələ gəldi.

Dro vaqonlara, istasyona, bir çox zabitlərlə baxıb mütləq erməni mühacirləri ilə maraqlandığı halda, diqqət edirdim, əsla müsəlmanlara tərəf etinası yox idi. Yaxşı nəzərimdədir ki, üç günlərcə hərəkət və ailəsinin həmlinə [minməsinə] müvəffəq olammamış, gün qabağında, çöldə qalmış ailə sahibləri müsəlman mühacirlərindən bir neçəsi "Dro ağa gəlib deyə gedəlim ona şikayət edəlim, bəlkə bizi də yeritsinlər" dedikləri halda, hər nə qədər Droya yavuqlaşdılarsa, zabitlər və əsgərlər tərəfindən qovulub "İstasyon komandanı bilir, bu iş ona aiddir" - cavabını verdilər.

Bir saatdan sonra Dro əmrlərini verib İrəvana övdət [qayıtdı] və ondan üç saat sonra da axşam vaxtı biz də Uluxanlıya hərəkət etdik.

Saat 12-də müsəlman qatilliyi ilə şöhrət tapmış erməni köyü olan Qəmərliyə yetişdik. Yoldaşlar qorxub narahat olmağa başladılar. Yarım saat sonra gördük ki, eşikdən vaqonumuzu döyüb səslənirlər ki, qapını açınız. Biz qapını açmadıq və ona cavab verdik ki, şimdi gecə olduğundan qapı açılmaz. O halda bir təkanla qapının açılıb içəriyə bir kefli saldatın fırlamasını gördük. Əlində tüfəng və belində açıq mauzer vardı və kəndisi də sərxoş olduğu müşahidə olunurdu.

Onun dalınca birisi də, sonra birisi də gəlib onlara qışqırdı ki, bunları axtarınız.

İrəlidəki saldat "Siz Naxçıvandan gəlirsiniz" deyə birər-birər bizi axtarmaq istədikdə, "Xayır, biz İrəvan və Ordubaddan gəliriz" cavabını almaqla eşikdən işıq alıb bizim az-çox elmli, bacarıqlı, yaxud möhtərəm olduğumuzu mülahizədən sonra (çünki içimizdə eyi rusca bilənlərimiz vardı) "Artıq axtarışa ehtiyac yoxdur. Biz öylə zənn etdik ki, buradakılar həp Naxçıvan, müsəlman mauzeristləridirlər. O səbəbə sizi narahat etdilər. Mən kəndim zabit poruçik və buranın komendantıyam" - deyə-deyə getdilər.

Sonra məlum oldu ki, bizim o biri vaqondan axtarış zamanında bir gümüş qutu və bir-iki cib əşyası götürülmüşdür.

Bir saat sonra Uluxanlıya hərəkət etdik.

*Tamaşaçı*

### SOLMUŞ BİR ÇİÇƏYƏ

Məni, ey sevgilim, qoyub getdin,
Eylədin qəlbimin evin bərbad.
Suzişi-nari-hicrə tuş etdin,
Eybi yox, eybi yox, evin abad.

Dili-məcruhuma dəvayi-xilas,
Qəlbi-məhzunuma səfasanmış.
Bumu səndə məhəbbətü-ixlas?
Şimdi bildim ki, bivəfasanmış.

Gəzib hər gülşəni sorağında,
Zar-zar ağlaram fəraqında,
Ağlaram ta sənə yetincə səsim.

Sənsiz, ey sevgilim, mənə bu həyat
Qəmli tabutdur, fəqət heyhat,
Hələ varam kəsilməmiş nəfəsim.

*Seyidzadə Bədrəddin*

## TƏLİFAT HEYƏTİ

Təlifat Heyəti denildikdə, nəşriyyat və ülum və fünun təşnələrinə sirab olmaq [elm və fənnə susamışları suya doyurmaq] ümidi doğulur. Xəyala belə gəlməsi mümkün olmayan bir təşəbbüsün həqiqət meydanına çıxması tam mənası ilə bir röya kimi tələqqi [qəbul] olunur. Zira ufaq bir hekayəni kəndi xanəsində qorxa-qorxa yazan bir yazıçı kəndisini ali bir imarətdə, yazı masası başında görür. Həm də hakim bir millətin yazıçısı sifəti ilə görür. Qələmi, qarası qarşısında tam sərbəstliklə bildiyi məlumatı kağız üzərinə yazır. Bu vaxta qədər ölkəmizdə xakriz olub [yerə düşüb, toza-torpağa bulaşıb] qalmış bir çox bilik gövhərləri sərbəstcə bazara çıxarılır, ərbabına ərz etdirilir. Açıq-açığına qonuşulur, elmi məhfillərdə [dairələrdə] bulunur. Könüllər şənlənir, xatirlər fərəhlənir.

Bu məsələ isə bu gün Azərbaycanımızda fərd-fərd deyil, ümumi ictimai bir şəklə qonulmuşdur. Ülum, maarif nəşri yolunda hər kəs çalışır, çapalayır, ufaq bir əsər də olsa, nəşrinə qeyrət edir.

Təbii, hər millətin asari-mədəniyyəsi [mədəniyyət əsərləri], elmi və fənni əsərləri olduğu kimi, Azərbaycanımızın da səviyyeyi-ürfanını yüksəldəcək qüvvə bilik ocaqlarının vücuda gəlməsidir, heyəti-elmiyyənin bollaşmasıdır. Dürlü-dürlü müfid asarın təmim edilməsidir [faydalı əsərlərin yayılmasıdır]. Bununla bilikli çoxalar, elmi, fənni, ədəbi, tarixi və sair əsərlər bollaşar. Eyni zamanda bütün məhzurat [mənfi hallar; manеələr] dəf edilər. Açıqlar örtülər, ehtiyac ödənilər.

Əvət, şiddətli ehtiyaclardan biri də məmləkətimizdə zühur etmişdi. Məktəblərimiz get-gedə milliləşmək üzrədir. Bunları təmin edəcək kitablar yoxdur. Ufaq-təfək nə varsa, o da vaxtdan istifadə edilib yazılan kitablardır ki, dürlü inhisar [xas, məxsus] olmaq üzrə məktəblərdə təlim etdirilirdi. Şimdi onlar da satılıb bitmişdir. Gələcək sənə üçün təlim kitabları lazımdır. Kitablar olmazsa, məktəblər əski hala düşər, yaxud məktəblər qapanar. Şübhəsiz, bunların hər ikisi millətimizin bədbəxtliyidir. Ölkəmizin şöhrəti, hökumətimizin şanı deyildir. Bəlkə ümum azərbaycanlıları məhcub edəcək [utandıracaq] nöqsandır.

İştə, bugünkü Təlifat [əsərlər; əsər yazma; kitab tərtib etmə] Heyəti eyni məqsəd, eyni qayə ilə təşkil edilmişdir. Bu xüsusda Maarif naziri müavini Nurməhəmməd Şahsüvarov cənablarının hümməti, təşəbbüsü şayani-təqdirdir [təqdirəlayiqdir]. Çünki gənc Azərbaycanımızda yapılan islahatın mühümmü və ən birincisi budur.

Təlifat Heyəti əsasən 3 qisimdən ibarətdir: 1. Tarix, coğrafiya, tarixi-təbii. 2. Lisan, ədəbiyyat. 3. Riyaziyyat .

Birinci: Azərbaycan tarixi, tarixi-ümumi - Əliabbas Müznib; Türk tarixi - Haşim Şaiq; xüsusi və ümumi coğrafiya - Qafur Rəşad; tarixi-təbiidən insan və heyvanat qismi - Cəmo Cəbrayıl; elmi-əşya (qaz, su, hava və mədəniyyat [mədənlər]) - Xudaverdi Kələntərli; elmi-nəbatat isə Əli oğlu Məhəmməd tərəfindən qələmə alınmaqdadır.

İkinci: ədəbiyyatdan qəvaidi-ədəbiyyə [ədəbi qaydalar] - Hüseyn Cavid əfəndi ilə Abdulla Şaiq; tarixi-ədəbiyyat isə Mahmud bəy tərəfindən yazılır. Lisan haqqında isə Rəsul bəy Tahirzadə, Ağababa bəy İsrafilbəyzadə, Süleyman bəy Axundzadə cənabları çalışır. Əlverişli əsərlər vücuda gətirmək üçün müxtəlif asarın [əsərlərin] mütaliəsi, intixabı [seçilməsi], bəzən tərcüməsi ilə məşğuldurlar.

Üçüncü: riyaziyyatdan elmi-heyət [astronomiya] Səməd bəy Acalızadə və Əbdül Rüfət; hesab məsələləri - Ağaəli Qasımzadə; elmi-hesab - Ələkbər Heydərzadə; həndəsə – [Hənəfi] Zeynallı tərəfindən yazılmaqdadır.

Məzkur [deyilən] Təlifat Heyəti şöbələri ayrıca olaraq birər odada öhdələrinə aldıqları kitabları yazırlar. Hər gün saat 9-dan 1-ə qədər yazıda davam edirlər. 1-dən sonra üçə qədər yazdıqlarını şöbə iclasının nəzərindən keçirirlər. Şöbə iclasları cümə ertəsi, bazar və bazar ertəsi günlərində olur. Bu şöbələrdən keçən əsərlər ümumi iclasa təqdim edilir. Ümumi iclasın təsvib [bəyənməsi] və təsdiqindən sonra bir üslub, bir imlada yazılmaq üçün katib əfəndiyə verilir. Katib əfəndi isə Türkiyədə nəşr olunan məşhur "Çocuq dünyası" məcmuəsinin mühərriri Nurəddin Tofiq cənabları, müavinləri Əli Mişan və digər əfəndilərdir.

*Ayn. Ayn.*

## "ƏDALƏT" FİRQƏSİNİN BAKI ŞÖBƏSİ

Keçən ümumi tətildən bir qaç gün sonra fəhlə klubunda iranilər, daha doğrusu ədalətçilər tərəfindən bir "Müdafieyi-məzluman" namında ["Məzlumların müdafiəsi" adında] komitə təşkil olunmuşdu.

Həman o komitənin məramı və məqsədi Bakı küçələrində olan İran dilənçi balalarını yığışdırıb hər bir cəhətdən təmin etmək idi və həman komitə tərəfindən "Azərbaycan" türk qəzetəsi vasitəsilə bir neçə gündən sonra ümumi iclas dəvət edib əhalinin etibarını qazanan zəvatlardan [şəxslərdən] ibarət yeni heyət seçiləcəyini elam etmişdiniz [bildirmişdiniz]. Və kəndim də bu barədə "Azərbaycan" qəzetəsində ümum iranilərin həman təyin olunan iclasa gəlib fəal və çalışqan zəvatlar seçilmələrini yazıb tövsiyə etmişdim.

Çox təəssüf ki, həman təyin olunan iclası qurub və camaatı dəvət edib yeni heyət seçməyə yenə imkan vermədiniz. Bunda sözüm yox, keçəlim əsl mətləbə.

Həman qəzetəyə yazdığınız elandan bir qaç gün sonra bir müraciətnamə nəşr elətdirib əhaliyə paylamaqla həman füqəralara kömək edən Müdafieyi-Məzluman Komitəsinə ianə verməklərini tövsiyə etmişdiniz və ianə vermək xahişində bulunanları Fəhlə Klubunda həman komitənin idarəsinə verməklərini də bildirmişdiniz. Şimdi, həqiqət naminə Müdafieyi-Məzluman Komitəsini nə səbəblə qapamanızı və vüsul olan [çatan] ianələri nərəyə sərf etmənizi qəzetə vasitəsilə yazıb məlumat vermənizi rica edirəm.

*Məhəmmədəli Əsədullazadə*
*Tabaqçı*

## YUSİF VƏZİROVUN MƏRUZƏSİ

Səşənbə [çərşənbə] günü təmmuzun 29-da, axşam saat 7-də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Kiyev şöbəsi sədri və Azərbaycanın sabiq Ukrayna səfiri Yusif Vəzirov əfəndi Parlaman binasında "Müsavat" firqəsinə məxsus odada məruzədə bulundu.

İbtida Məhəmməd Əmin Rəsulzadə əfəndi məclisi açaraq məruzəçi Vəzirovu məclisə müərriflik etdilər [tanıtdı]. Vətənindən uzaq olmaqla bərabər, vətən mənafeyi uğrunda çalışmaqdan yorulmaq bilməyən Vəzirov axır zamanlarda İstanbula gedəcəkdir. İbtida ümumi bir konfrans surəti ilə məruzə oxumağı təsəvvür olunurdu. Lakin yay münasibətilə havalar sıcaq olduğundan, ümumi konfrans verməmk mümkün olmadı. Bakı Komitəsinin qərarına görə, rayon nümayəndələrindən ibarət kiçik bir məclisdə kəndisi ilə həsbi-hal [söhbət] etmək qərara alındı. Məruzəçi cənabları alqışlarla məqami-xitabətə gələrək bərvəchi-ati [aşağıdakı kimi] bəyanatda bulundular:

Acizləri Odessadan çıxarkən topladığım bir çox məlumat bolşeviklər tərəfindən dərdəst edilən övraqım miyanında [ələ keçirilən sənədlərim arasında] məhv və tələf edildiyindən, məəttəəssüf [təəssüf ki], sizə müfəssəl məlumat verəmməyəcəyəm. Kiyevdə 1909-cu sənədən başlayaraq müsəlman tələbələrinin bir təşkilatı olmuş, o zamandan türk tələbələri çalışmağa başlamışlar. İbtida bu təşkilat "Din və islamlıq" adı ilə fəaliyyətə başlayıb, Rusiya müsəlmanlarının hankı təbəqəsindən və hankı tərəfindən olursa-olsun Kiyevdəki müsəlman studentlərini [tələbələrini] öz tərəfinə toplamışdı. Sonra müharibənin ibtidasında studentlər arasında siyasi ruhda gizli bir təşkilat düzəldi. Bunun fəaliyyəti o qədər geniş olammayıb, yalnız Rusiya müsəlmanlarına xitabla bir-iki intibahnamə [vərəqə] nəşri ilə o vaxtkı Rusiya hökuməti əleyhinə çıxmış idi.

1917-ci ildə Ukraynanın bütün şiddət və həyəcanı ilə doğulan milli hərəkatı bütün Rusiya daxilində yaşayan qeyri-rus millətlərə bir örnək oldu. Ukraynanın milli hərəkatları hər yerə sirayət etməyə başladı. Krımda və sair Ukraynaya yaxın yerlərdə bu hərəkət təsir bağışlayıb onlarda da Ukraynadakı şiddəti ilə olmasa da, yenə milli hərəkətlər görülməyə başladı. Böylə bir halda, Ukraynada biz özümüzü yalnız gördük. Heç bir hazırlığımız olmadığı halda Rusiya inqilabını qarşılamağa məcbur olduq. Siyasi təşkilata böyük ehtiyac hiss edilirdi. Binaənileyh [ona görə], 1917-ci sənənin noyabrında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Kiyev şöbəsini güşad eylədik [açdıq].

O zamanlar hər şeyə ümumrusiya nəzəri ilə baxırdıq. Zatən o, zamanın icabı [ehtiyacı] idi. Çünki o zamanlar biz hələ rusiyalı hesab edilirdik. Son zamanlarda Azərbaycan Cümhuriyyəti və istiqlaliyyəti elan edildikdən sonra bizim qeyri-müəyyən xətti-hərəkətimiz müəyyən olaraq sərbəst surətdə hərəkət etməyimizə müsaidə [icazə] verdi. Bu sırada, Rusiya daxilində siyasi bir firqə sifəti ilə deyil, başqa bir yolda çalışmaq lazım gəlirdi. Budur ki, Kiyev "Müsavat" şöbəsi Ukraynada Azərbaycanın siyasi





bir nümayəndəliyi təsis etməyi təhtiqərara alaraq, bu gündən etibarən Kiyev şöbəsi bir konsulxana vəzifəsini görməyə başlamışdır.

Sizə məlumdur ki, milli hərəkətlər birinci olaraq Ukraynada başlayıb bütün xırda millətləri öz tərəflərinə çəkməyə başladılar. İbtida Kiyevdə bir "Millətlər Qurultayı" dəvət etdilər. Qurultay kəndi qərardadlarını icra etmək üçün bir İcraiyyə Komitəsi təşkil etdi. Həman İcra Komitəsinə biz də dörd nəfər nümayəndə verdik. O İcra Komitəsinin əsl məqsədi bu idi ki, Rusiyada ədəmi-mərkəziyyət fikrini nəşr etsin [yaysın]. Bu məqsədlə bir jurnal da nəşr edildi. Biz də şu jurnalda tamam ciddiyyətlə çalışmağa başladıq.

O vaxta qədər Rusiyada Azərbaycanı tanımazdılar. Azərbaycanı yalnız İranın bir hissəsi bilirdilər. Bizim vəzifəmiz və qayəmiz bu oldu ki, birinci olaraq əvvəl Rusiya əfkari-ümumiyyəsinə [ictimaiyyətinə] Azərbaycanı tanıdaq. Budur ki, Azərbaycan üçün ibtida bir Azərbaycan xəritəsi cızdıq. O zamandan Azərbaycan haqqında, onun tarixi, ədəbiyyatı, mədəniyyəti, ticarət və iqtisadiyyatı barəsində bir çox məqalələr yazdıq. Yavaş-yavaş Azərbaycan şöhrət tapmağa başladı. Hər kəsdən artıq Ukrayna Azərbaycana əhəmiyyət verirdi. Onlar deyirdilər, biz hər xüsusda Azərbaycana kömək edəriz. Onların bizdən bir çox ümidləri var idi. Onlar öz əsgərlərinə bir o qədər inanmayırdılar. Biz onlara müraciət etdikdə, Ukraynanın Hərbiyyə naziri [Aleksandr] Jukovski vəd etdi ki, hər bir barədə o, azərbaycanlılara müavinət etməyə hazırdır. O, bizim nə kimi bir xahişimiz olarsa, ona əməl edəcəyinə vəd etdi. Bizə iki vaqon verirdilər ki, onunla Ukraynadan istədiyimiz hər qisim şeyləri Azərbaycana gətirək. Budur ki, biz nümayəndə sifəti ilə o zaman Bakıya iki tələbə göndərdik. Onlar Bakıya gəldilər. Lakin özlərinin fəaliyyətsizliyindənmi və yaxud o vaxt Bakının bolşeviklər əlinə keçdiyindənmi və yaxud başqa səbəblərdənmi bilməyirəm, bir xəbər çıxmadı. Ən nəhayət, Gəncədən bir məktub aldıq ki, o zaman Ukrayna hökuməti dağılmış, bolşeviklər orada hökmran olmuşlardı. Təbii, böylə bir zamanda heç bir şey yapmaq olmazdı.

* * *

Ukraynanın Rusiya xırda millətlərinə böyük xidməti olmuşdu. Odur ki, biz daimi surətdə Ukraynanı tuturduq. Hətta, Məclisi-Müəssisan seçkilərində bir xitabnamə ilə ümum Ukrayna daxilində yaşayan müsəlmanlara tövsiyə etdik ki, səslərini ukraynalılara versinlər. Bunun üçün Ukrayna ilə aramızda səmimi bir məvəddət [məhəbbət] və dostluq zühur etdi. Bunun da Ukraynada yaşayan azərbaycanlılara böyük xidmətləri oldu. Evləri həcz [müsadirə] etdikdə azərbaycanlılara toxunmayırdılar, əsləhələrini [silahlarını] almayırdılar. Azərbaycanlılarla sair xarici təbəələri kimi müamilədə [rəftarda] bulunurdular.

"Müsavat" adı da Ukraynada böyük rollar oynayırdı. Ukrayna "Müsavat"ı tanıyırdı. Hətta əsgərlər tərəfindən tutulan bir müsəlmanı müsavatçı olduğunu bildikdən sonra buraxmışlardı.

Ukraynada "Müsavat" firqəsi bir syezd [qurultay] təşkil etdi. Syezd Ukray-

nanın Xariciyyə Sekretariatına, Ukraynada yaşayan 60-70 min müsəlman namından müraciət edib onların siyasi və ictimai ehtiyaclarını təmin üçün bir məmurluğun lazım olduğunu qandırdı. Məmurluq vəzifəsi "Müsavat" şöbəsinə həvalə edildi. Rəsmi surətdə tanınan "Müsavat" şöbəsinin Rusiya müsəlmanları hərəkətində bir çox xidmətləri oldu.

Krım məsələsi meydana gəldikdə, anlaşıldı ki, Ukrayna Krımı ilhaq etmək [özünə birləşdirmək] istəyir. Bu xüsusda etiraz etdik. Krım məsələsində biz laqeyd qala bilməzdik. Çünki bizim proqramımızda açıqdan-açığa Rusiya daxilində yaşayan türk və islamlar üçün məhəlli [yerli] və milli muxtariyyat tələb etmək var idi. Komitənin qərarı ilə Krıma getdim. Məqsədim orada Parlaman çağırıb hökumət təşkil etmək idi. Ayın 4-də Krıma varid olub [çatıb], 8-ində Parlaman güşad edildi [açıldı]. Krım ziyalıları Parlaman ətrafına toplanıb milli hərəkət orada böyük bir meydan aldı.

"Müsavat"ın fəaliyyəti burada tamam olur. Sizə indi Krım hərəkətindən bir qədər məlumat vermək istəyirəm.

*(mabədi sabah)*

## BAKI XƏBƏRLƏRİ

**Lənkərana qoşun göndərilməsi**

Dünən axşam saat 9 radələrində Bakı Qradonaçalstvası təhti-idarəsində [tabeçiliyində] olan bir əsgəri tabor Lənkərana azim olmuşdur [yola düşmüşdür]. Əsgərlər xalqın gurultulu alqışı altında Qradonaçalstvo İdarəsində nizam üzrə durduğu halda qradonaçalnik Qudiyev cənabları əsgərləri salamladıqdan sonra işbu məzmunda bir nitq irad etdi [nitq söylədi]:

*"Əsgərlər! Hələ bərkimədiyiniz bir halda sizi o yerə göndəririz ki, orada hökumətimiz möhkəmləşməmişdir. Sizi qadınlar, çocuqlar əleyhinə deyil, əldə silah olaraq bizi tanımaq istəməyənlər müqabilinə göndəririz. İnşəallahürrəhman ən yaxın zamanda yenə sizinlə sələmət görüşəriz. Daima sizə kömək gələcəkdir. Allah yarınız olsun. Xoş gəldiniz!"*

Bundan sonra əsgərlər marşla körpüyə tərəf rəvan oldular.

**Səfalət bucağı kəşfi**

"Farslar karvansarası" nam [adlı] şəhərimizdə bir səfalət bucağı varmış. Burası bu vaxtadək qumarbazlar, tiryək çəkənlər yatağı olmuşdur. Dördüncü dairə polis müfəttişinin tədabiri [tədbirləri] sayəsində dün burası kəşf edilib bir çox səfil və qumarbazlar dərdəst edilmişdir [tutulmuşdur]. Aldığımız məlumata görə, qumar və tiryəkxananı saxlayan bir hərif də tövqif [həbs] edilərək həbsxanaya göndərilmişdir.

**Yanğın**

Bir neçə gün bundan əqdəm [qabaq] Ləki mövqifi [stansiyası] yaxınlığında ot tayaları ataş aldığından, bir az zamanın ərzində bütün istasyonu ataş bürümüşdür. Mövqifdə ləvazimati-hərbiyyə ilə yüklü bir qatar da durmuş imiş. Ətraf kəndlərdən gələn kəndçilər və sərnişinlərin səy və qeyrətləri sayəsində yanğın söndürülmüşdür. İstasyona heç xəsarət yetişməmişdir.

**Dabravol dəstələri Lənkəranda**

Lənkəranı işğal edən Ramazan dəstələri ilə muğanlılar arasında şiddətli ixtilaf olduğunu dün xəbər vermişdik. Bunların arasında toqquşma olacağı şübhəsizdir. Eşitdiyimizə görə, dabravollar Petrovskdan Lənkərana muğanlıların köməyinə qüvvə göndərmişlərdir. Lənkəran həbsxanalarından azad edilən dabravollar muğanlıları müdafiə edirlər.

**Cəmiyyəti-Xeyriyyədə**

Azərbaycan Xüsusi Könüllü təşkilatı ştabı Bakı Cəmiyyəti-Xeyriyyəsinə iki türk üsərası [əsiri] çocuqları yollayıb vətənlərinə yollamağı rica etmişdir. Cəmiyyəti-Xeyriyyə müraciəti qəbul ilə çocuqları vətənlərinə yollamışdır.

**Türk əsirləri**

- Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] məmuru Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə dörd nəfər türk əsiri göndərib yeməklərini verməyi rica etmişdir.
- Cəmiyyəti-Xeyriyyənin İsmailiyyə binasının dükanlarını icarəyə götürmək üçün bir neçə müraciətlər olmuşdu. Cəmiyyəti-Xeyriyyə bu müraciətləri rədd etmişdir.

**Biçinçi lazımlığı**

İyulun başlarında Ümuri-Xeyriyyə Nəzarəti Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə müraciətən 500 nəfər biçinçi tələb etmişdir.

**İsmailiyyə binasında**

Musa Nağıyev varisləri və Bakı Bələdiyyə İdarəsi İsmailiyyə binasının dağıdılmasına icazə vermişlər. Cəmiyyəti-Xeyriyyə binanın ətrafını hasarlamağa başlamışdır.

**Dənizdə**

"Rus", "Samolyot" və "KAMVO" paroxod cəmiyyətləri ingilis ştabına müraciətən Lənkəranla paroxod münasibətinə girişmək mümkün olub-olmadığını sormuşlar.

**Birjada**

Pulların qiyməti azalmaqda davam edir. Minlik Kerenskilər güclə 1450, 1500 rubləyə gedirlər. 250 rublələliklərin 1000 rubləsi 1250 manata gedir. Xırdalar 25 faizlə, Zaqafqaziya bonları 3 faizə, Nikolay pulları düşməkdə davam edirlər. 500-lüklər 1800-1600 rublə, yüzlüklər 310 rublə.

**Valyuta**

Valyutanın halı zəifdir. Fon banknot 320 manata, çek 280 manata, Osmanlı qızıl lirəsi 400 manata kimi qalxmışdır. Kağızlar 65 rubləyə, İtaliya lirələri 17, Fransa krediti 20, çek 15 rubləyə gedir.

**Daxil olmuş mallar**

Ticarət, Sənaət və Ərzaq Nəzarətinin Statistika şöbəsinin məlumatına görə iyulun 28-də Bakıya 819 pud taxıl, 1116 pud furaj [yem], 332 pud kartofel, 482 pud gön, 593 pud manufaktura gəlmişdir.

**Müqəssirlər qaçırlar**

Bakı valisi Rəşid bəy Axundzadənin

saxta kağızla verdiyi üç milyon pulun alınmasında əlaqədar olduğunu rəvayət etdikləri milyonçu Həsən Mustafayev pənceyi-ədalətdən [ədalətin pəncəsindən] qorxub öz məsləkdaşı Leontyeviç (?) ilə bərabər Denikin ordusuna qaçmışdır.

**Lizqar məsuliyyətə cəlb edilir**

Parlaman üzvü M. N. Vinoqradov Slav-Rus Cəmiyyətinin sabiq sədri və sabiq Ərzaq naziri Lizqarı Cəmiyyət işlərində bir çox xəyanətlər etdiyindən məsuliyyətə cəlb edir. Məlum olduğu üzrə Lizqar xidməti xəyanətlərdə və Ərzaq naziri olan zamankı fəaliyyətində də müttəhim edilir.

## AZƏRBAYCANDA

**Qarabağdan**

Qarabağ general-qubernatoru Xosrov Paşa bəy Sultanovun Bakıya gedib bir neçə zaman orada təxirə düşməsi buranın əhalisinə həm maddi və həm də mənəvi olaraq bir çox zərərlər yetişdiribdir. Maddi ona görə ki, Xosrov bəy bir az zaman burada hakim olarkən, özünün həm adil, mərhəmətli, vicdanlı və həm də qəzəbli, yorulmaz və düzgün bir hakim olduğunu hamıya sübut etmişdir.

Rusiyada başlanan "hürriyyət" qarmaqarışıqlığın[ın] "nəsimləri" [yeli, havası] Qarabağı da bibəhrə qoymamışdı. Qarabağın qarmaqarışıqlığı bir dərəcəyə çatmışdı ki, hətta bir şəhərin və ya kəndin içində yerli əhali evindən çıxıb başqa bir yerə getmək istədikdə bir neçə nəfər müsəlləh adamlarla kənara çıxmaları vacib olmuşdu. Vəilla [yoxsa] heç kəs evindən çıxıb salamat qayıtmasına əmin deyildi (əlbəttə, Azərbaycan hökuməti təşkilindən qabaq). Bu səbəbdən də Qarabağın ticarəti, həyati-iqtisadiyyəsi, demək olar ki, bilmərrə fövt [məhv] olub getmişdi. Yolların, şoselərin quldurlarla məmlu [dolu] olması, tacirləri öz evlərində oturub "mayalarını" yeyib dolanmağa məcbur etmişdi.

Qarabağ general-qubernatorluğu təşkil edilmədən irəli Yevlax dəmiryol mövqifindən [stansiyasından] alınan məlumatla indilikdə Yevlaxdan alınan məlumatı biri-birinə tutdurduqda aşkara görünür ki, Qarabağın ticarəti birə yüz dəfə artıb tərəqqi edibdir. Bunlar hamısı o səbəbdəndir ki, general-qubernator gələndən sonra yolların quldurları, şəhərin qarətçiləri hərə öz işinə gedib, aralıq tamamilə sakitləşib və əhali də asudəliyə çıxmış idi. Və həmçinin tacirlər də öz işlərinə keçib Qarabağın həyati-iqtisadiyyəsi rəvac tapıb zindəganlıq öz dövrəsinə girmişdi.

Budur, bir ay olar ki, Sultanov cənabları Bakıda qalıb, Qarabağ sahibsiz kimi qalmışdı. Bu arada bəzi xuliqanlar, əclaflar aranı xəlvət görüb yenə öz murdar hərəkətlərinə şüru etmişdilər [başlamışdılar]. Yollarda soyğunçuluq, adam öldürmək, yol kəsmək başlanıb, Qarabağın asudə və səlamətliyi xələldar olmuşdur [pozulmuşdur]. Bunlardan əlavə, ehtikarçılar (spekulyatorlar) da baş qaldırıb zəruri şeylərin qiymətlərini o qədər artırmışlar ki, insan heyrətə düşür. Hər bir yerdə qiymətlər əskildiyi zaman Qarabağda ehtiyacati-zəruruiyyənin qiymətləri get-gedə artıbdır. Qış fəslində çörək, yağ, ət, yumurta, süd və göyərti qiymətləri Gəncəyə, Bakıya nisbətən çox ucuz olduqları halda, indi bu şeylərin qiymətləri Bakı qiymətlərinə bərabər olublar. Ət, yağ, süd, meyvəcat, hətta çörək də Bakıya Qarabağdan göndərildiyi halda, qiymətlər bərabər olduğu çox təəccüblü bir şeydir. Bunların hamısına səbəb alış-verişçilərin gözlərinin odunu alan general-qubernatorun Bakıda ləngə düşməsidir.

Şuşa polis müdiri bu qiymətləri görüb istədi ki, bir taksa qoyub bir az dükançıları qanun təhtinə [altına] alsın, sabahı günü bazar-dükandan hamı şeylər yox olub, camaat büsbütün aclığa düşdü. Axırda iş bir yerə çatdı ki, general-qubernator əvəzinə qalmış Bədəlbəyov müvəqqəti olaraq, yəni general-qubernator Sultanov gələnə kimi taksanı götürməyə məcbur oldu. Təkcə bu bir ufacıq misaldan anlamaq olar ki, general-qubernatorun vücudu Qarabağın maddi həyatına nə qədər vacibdir. Qaldı indi mənəvi və siyasi həyatına!

Şuluqluq və dərəbəyiliyi ilə aləmə məşhur olan Qarabağ öylə bir hala gəlmişdi ki, türk misalı müfadınca [türk məsəlinin mənasına uyğun olaraq] "qızıl tabağını başa qoyub gəzdirmək olardı". Amma indi Yevlax-Şuşa yolu Əsgərana kimi müsəlman quldur və qaçaqlarının və Əsgərandan da Şuşaya kimi erməni müsəlləh [silahlı] dəstələrinin hücum və qarətlərinin qorxusundan əhali üçün böyük bir qorxu meydanına dönmüşdür. Polis, milisiya, uyezd naçalnikləri idarələri genə qabaqkı kimi bərdavam olduqları halda, qabaqkı əmniyyət, qabaqkı salamatlıq yoxdur. Bundan anlaşılır ki, general-qubernatorun vücudu Qarabağa lazımdır. Odur ki, Xosrov bəy Sultanovun isbati-vücudu [varlığı, özünü göstərməsi] ilə Qarabağın başqa bir halət kəsb etməsini görüb anlayanlar, Xosrov bəyin qayıtmasının təxirinə dualar oxuyub, sədəqələr verməkdədir.

Bunu hər kəs bilir ki, Qarabağın general-qubernatorunun dövrəsindən irəliki hal və övzası [vəziyyəti] ilə indiki övzası arasında birə yüz dəfə təfavüt vardır. Aşkara deyirəm ki, bu təfavüt, bu dəyişiklik Qarabağa buraxılan 10-15 milyon manatların nəticəsi olmayıb, bəlkə Xosrov bəy Sultanovun gecə-gündüz çəkdiyi zəhmətlərinin nəticəsidir. Hökumət adamlarımız bunu yaxşı bilsinlər ki, Qarabağda çəkilmiş zəhmətlər və görülən işlər az bir zamanda puç və hədər olub gedər. Ona görə də, var qüvvə ilə Sultanovun öz yerinə qayıtmasına gərək çalışılsın.

Bu sözü tək müsəlmanlar deyil, hətta ermənilər də təsdiq edirlər. Şəhərin erməni hissəsi də getdikcə şuluqlaşır.

Daşkəndə köçmüş daşnakların Milli Komitəsi oradan genə də şəhər işlərinə müdaxilə etməyə başlayır. Əmniyyət istəyən əhali də qabaqda çəkdiyi ləzzətləri görüb indi dördgözlə gözləyirlər ki, qubernator gəlsin. Hər kəs də öz yerini tanısın.

*(İdarədən: Məlum olduğu üzrə general-qubernator bu yaxınlarda getmişdir. Bu məktubu da dərc etdiyimiz ondandır ki, Qarabağ əhvalına yaxşı bələd olduğumuzdan, Sultanov cənabları kimi bir zatın orada bulunmasının əhəmiyyətini göstərək.)*

**Qarabağın məhsulatı**

Bu il Qarabağda məhsulat çox yaxşıdır. Hərçənd əkin yerləri keçən illərə, yəni davadan qabaqkı illərə nisbətən çox azalmışdır. Lakin genə də ruzigardan xəsarət və zərər görməməsi çox şadlıq gətirən bir vəq'ədir.

Hamıdan çox əkin Cavanşir uyezdi ilə Cəbrayıl uyezdindədir. Bunlardan sonra Şuşa uyezdi gəlir. Bu uyezdlərin aran yerlərində biçin başlanıbdır. Yaylaqlarla Zəngəzurda hələ biçin yoxdur. Həmçinin yay əkini darının da çox gözəl məhsulatı vardır.

Biçilən yerlərdən xəbər verirlər bu il arpa, buğda bir az artıqdırlar. Arpa suluqları boşdur. Bu da ondandır ki, ruzigar [havalar] xoş keçdiyi üçün taxılın göyərtisi çox hündür qalxıb, sonra da dəyməmiş yıxılıb biri-birini basıb dənəsini doldura bilməyibdir. Bu bəlaya ancaq suvarılan yerlər mübtəladırlar. Susuz yerlər, dağ əkinləri, əksəriyyən Zəngəzurun taxılı çox yaxşıdır. Lakin əkilən yerləri azdır.

Hərgah bu il əkin və hasilə gələn qəlləcat [taxıl, dənli bitkilər] tamamən yığılıb hüsula gəlsə idi, demək olar ki, Qarabağ özündən başqa bir çoxlarına da çörək verərdi. Amma əfsus ki, əkinlərin hamısını yığıb döyə bilməyirlər. Erməni mahallarında əkilən müsəlman əkinləri və həmçinin müsəlman hissələrindəki erməni əkinləri tamamilə biçilib yığılmayırlar.

Bu bəladan başqa, bir də biçinçi yoxluğu bəlası vardır. Qarabağ əkinçiləri əkdiklərini biçdirə bilməyirlər. Cavanşir və Şuşa uyezdlərinin bir çox əkinləri biçilməmiş qalıb yerə tökülübdür. Əhali bu cəhətdən artıq həyəcandadır.

Qubernator burada olanda böylə bir fikir vardı ki, dağ ermənilərindən dəstələrlə gəlib hissə ilə əkinləri biçəcəkdilər. Lakin indi gələnlər çox azdır.

Qaçqınlardan lazımınca istifadə etmək mümkün olmayır. İntəhası görülməyən əkinlərin gözəl taxıllarının biçilməyib yerə yıxılıb çürüməsini görəndə insan ən dərin ah çəkib əfsus edir. Bu işdə genə ermənilərlə müsəlmanların arasında olan düşmənçilik ən böyük səbəbdir.

*Məhəmməd Sadıq [Aran]*

## GÜRCÜSTANDA

**Vilsonun Gürcüstana notası**

Tiflisdə nəşr olan "Novı den" qəzetəsi xəbər verir ki, şayiata görə Amerika heyəti Vilson tərəfindən imza edilən bir notanı Gürcüstan hökumətinə vermişdir. Bu notada rəisi-cümhur Vilson Gürcüstan hökumətinə təklif edir ki, Ermənistana gedən ərzaq yükləri Gürcüstan torpağında yubadılmayıb tezliklə yola salınsın.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi! Özümə borc bildiyim işbu bir qaç kəlmənin qəzetəniz sütununda dərci mərcudur [rica olunur].

"Azərbaycan" qəzetəsinin 22 təmmuz və 231 nömrəli nüsxəsində Dağıstan Milli Şurası ünvanı təhtində [altında], guya bəzi naməlum şəxslər şəhərdə Dağıstana yardım etməkdən ötrü pul yığmaqda olub, bu babda Şuranın məlumat və razılığı olmayıb, özbaşlarına hərəkət etməkdə olduqları bəyan edilmişdi. Həmin naməlumlar 15 təmmuzda Parlaman[ın] "Hümmət" firqəsi idarəsində ictima [yığıncaq] edib, Dağstana lazım olacaq hər bir müavinətdə xidmət etmək üzrə intixab edildikləri [seçildikləri] və məzkur [deyilən] saatda bilmüşavirə [müşavirə edərək], lazım olacaq bəzi xüsusat üçün məhəlli [yerli] hökumətdən 10 min manat pul tələb edib, irəli qəbul edilən şəxslər ki, isimləri məəttəəssüf Milli Şuraca naməlum təsmiyə edilənlərdir [adlandırılanlardır].

Gələlim mətləbə: Əvət, para topladıq və toplamaqdayız. Bu da ancaq vətən övladından olub, başqasından deyil. Zira, burada yan oturanların atidəki [gələcəkdəki] səadətini düşünüb fədayi-can etməkdə olan qardaşlarımızın məhrum olduqları ədəvati-sihhiyyənin [dava-dərmanın] tədarükü nəzərə alınıb, xaricilərin müavinətinə möhtac olmamaqdır. Fəqət şu halı dərk edənlər məcburdurlar ki, işbu vasitə ilə müavinət etsinlər. Netəkim, Amerika Səlibi-Əhməri [Qırmızı Xaç Cəmiyyəti] etdi. Əcəba, olmazmıydı Dağıstan Hilali-Əhməri [Qırmızı Aypara Cəmiyyəti]?! İnşallah, ümidvaram ki, olar. Fəqət, Milli Şura "naməlumlar"ın "na kəlməsini həzflə [silərək], "məlumlar"ın şu iqdamatını [təşəbbüsünü, addımını] bilmək istəsəydi, onlarla müşavirə edib həmfikir olammazmıydı ya?

Şimdilik insafdan soruşacağam. Ey insaf, haqqımız varmı, yoxmu, Milli Şura ismini daşıyanları tanımayalım? Əcəba müaxizə [məzəmmət] edilərmiyiz? Sədalar: Biləks [əksinə], biz məlum ediriz ki, yar və əğyara [dosta-düşmənə] qarşı bu feili-məzmumu [məzəmmət olunası işi] digərlərimiz kimi irtikab etməyiz [işləmərik, etmərik] və etməməkdən başqa, yədivahidlə [əl birliyi ilə, birgə] səy etməyi arzu ediriz.

Haydi, vətəndaş! Bu məsud günümüz o gün deyil ki, şəxsi mübarizə ilə fövt edəlim [itirəlim]. Zaman gəlir, bu gün müəzzəz [əziz] vətənin xidmət bəkləyir.

*N. C. Əmitayev*

**İdarədən:** Vətən düşmənlər tərəfindən çiynənən [tapdalanan] zaman "məlumluq" və "naməlumluq" davasının nə qədər xətrəli [təhlükəli] olduğunu ümum dağıstanlı qardaşlarımız bilsinlər gərək.

## İDARƏDƏN CAVABLAR

**Vətəndaş əfəndiyə:** Əvvəla, heç bir dəlil və sübut göstərmədən öylə məqalələri yazmazlar. Saniyən [ikicisi], o cür yazıları nami-müstəarla [gizli imzayla] gizləməzlər. Salisən [üçüncüsü], nə mövzunuz bir mövzudur, nə üsuli-təhriri [yazı üsulu] bir üsul. Öylə şeylər mətbuat səhifəsinə çıxa bilməzlər.

**Yusif Vəzirov əfəndiyə:** Hüruf [hərflər] haqqındakı məqaləniz barəsində zati-aliləri ilə bəşəxsən görüşməyə ehtiyac var. Ancaq görüşdükdən sonra dərc edə biləcəyiz.

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Bəhri-Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 25 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Doktor M. D. Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Qəbul edir: arvad, daxili və cərrahiyyə naxoşluqlarını Voronsovski-Qubernski küçələrin küncündə, ev nömrə 15, telefon nömrə 06-78.

Axşam isə öz evində, Balaxanski-Maqazinni küçələrin küncündə (Müsəlman məscidi qarşısında), telefon 20-67, saat 5-dən 8-ədək.

*5425*

**Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə arpa və buğda lazımdır**

Arpa və buğdası olan şəxslər şənbə günü avqust ayının ikisində saat 11-də nümunələri ilə bərabər yuxarıda zikr olunan Nəzarətin Təsərrüfat Komissiyasına (Sadovı küçə, nömrə 3, Lalayevin evi) gəlməlidirlər. Və bu arpa-buğdaya Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin skladında [anbarında] (Sadovı 3, Lalayevin evində) baxılacaqdır.

*T-192*

***Müvəqqəti müdir:***
***Xəlil İbrahim***





## QEYD VƏ ŞƏRHLƏR

**Türkcə kitablar lazımdır**

səh. 611. "Kamenisti və Bolşoy Morskoy küçələri": Bakıda, indiki Bəşir Səfəroğlu və Bülbül küçələri.

**Teleqraf xəbərləri**

səh. 612. "Məclisi-Əyan": ikipalatalı Böyük Britaniya Parlamentinin yuxarı palatası olan Lordlar Palatası nəzərdə tutulur.

"Dobrovollar Porxovun 25 verstliyinə yanaşırlar.": qəzetdə "Porxovun" yerinə "Proxorovun" getmişdir.

səh. 613. "Taruşevtsı": qəzetdə "Turov" kimi getmişdir.

**Qəzetələrdən**

səh. 615. "Avamlar Kamerası": ikipalatalı Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

səh. 616. "Maren": Fransanın siyasi xadimi; Parlamentin Büdcə komissiyasının üzvü olmuşdur.

**Nəzarətlərdə**

səh. 619. "Əmirvan köyü icması": qəzetdə "icması" yerinə "ictiması" getmişdir.

**"Solmuş bir çiçəyə" (s. 623) şeiri üçün lüğət:**

suzişi-nari-hicr: hicran alovunun yanğısı
dili-məcruh: yaralı qəlb
qəlbi-məhzun: kədərli qəlb
ixlas: səmimiyyət; sədaqət
fəraq: ayrılıq

"Suzişi-nari-hicrə tuş etdin": qəzetdə "suzişi-nari-hicr" [hicran alovunun yanğısı] yerinə "suzişi-bari-hicr" [hicran yükünün yanğısı] getmişdir.

**Təlifat Heyəti**

səh. 625. "Çocuq dünyası": 1913-1914-cü illərdə İstanbuldan Tofiq Nurəddin tərəfindən nəşr edilmiş jurnal. Daha sonrakı illərdə (1918-1919 və 1926-1927) başqa şəxslərin rəhbərliyi altında eyni adla uşaq jurnalı nəşr edilmişdir.

**Azərbaycanda**

səh. 631. "Xosrov bəyin qayıtmasının təxirinə dualar oxuyub": güman ki, "təxirinə" yerinə "təcilinə" [tezləşməsinə] olmalı idi.

# ADLAR GÖSTƏRİCİSİ


Abbas I (Şah Abbas; 1571-1629): Səfəvi şahı; 1587-1629-cu illərdə hakimiyyətdə olmuşdur. 83, 97

Abbas xan: İranın Azərbaycandakı konsulu Səidülvüzəranın naibi olmuşdur. 14

Abbasəli bəy: İrəvan sakini. 280

Abbasqulu İsmayıl oğlu (Məşhədi Abbasqulu): Türkan sakini. 132, 438

Abbasov: kooperativçi. 553

Abbaszadə, Abbas (Mirzə Abbas; yaxud A. Mollazadə; 1870-1920): Azərbaycanlı pedaqoq və folklorşünas. Azərbaycan məktəbləri üçün dərsliklər qələmə almışdır. Bəzi əsərlərində "A. Mollazadə" imzasından istifadə etmişdir. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin və Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 91, 92

Abbaszadə, Abbasqulu: Şamaxıda müəllim olmuşdur. 497

Abdulla Şaiq: bax. Talıbzadə, Abdulla Şaiq.

Abdullayev: Bakı quberniyasında polis sahə rəisi. 221

Abdullayev, Əliəkbər: Buzovna sakini; dəyirman sahibi. 169, 170

Abdullayev, İslam (1876-1964): Azərbaycanın məşhur xanəndəsi. "Segah" muğamını xüsusi məharətlə ifadə etdiyinə görə, "Segah İslam" kimi tanınmışdır. 126, 174

Abdullayev, Mustafa. 294

Abdullayev, Süleyman: "Amiz şirkəti"nin nümayəndəsi olmuşdur. 1

Abuzər: İrəvan sakini; başmaqçı. 582

Acalızadə, Səməd bəy: bax. Hacıəlizadə, Səməd bəy.

Aciz: "Azərbaycan" qəzetində imza. 356

Adamov: Neft sənayeçisi. 275

Ağa bəy: Zirə kəndi sakini. 554

Ağa Xan III (Sultan Məhəmməd şah; 1877-1957): Müsəlman ismaililərin 48-ci imamı. Hindistanın müstəqilliyi, eləcə də Pakistanın maraqları uğrunda mübarizə aparmışdır. 540

Ağa Məhəmmədhüseyn xan Dəbirülmülk (? - 1919): İranın Ticarət və Sənaye naziri olmuşdur. 435

Ağabababəyov, Əsəd bəy Hüseyn bəy oğlu (1891 - ?): Moskvada hüquq təhsili almışdır. Ermənistan Parlamentinin üzvü olmuşdur. 528

Ağabala Şükür oğlu: Çənbərəkənd məhəlləsi sakini. 68

Ağabalabəyli, Mahmud bəy: Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının üzvü olmuşdur. 171

Ağabalyan, N.: Zaqafqaziya Konfransında Ermənistanı təmsil etmək üçün seçilmişdir. 214

Ağabəyov, Həzrət bəy: Göyçay sakini. 451

Ağabəyov, Rza bəy (1894-1961): Göyçayda anadan olmuş, Moskvada hüquq təhsili almışdır. Göyçaydan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, "Müsavat" fraksiyasının üzvü olmuşdur. 224, 565, 566

Ağaəlizadə, Axund Ağa (1871-1954): Azərbaycanın dini xadimi. 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyətinin, 1944-1954-cü illərdə Qafqaz müsəlmanlarının şeyxülislamı olmuşdur. 100, 259, 482

Ağakərimov, Süleyman Cavadzadə: Bakı sakini. 477

Ağalar bəy: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 393

Ağamalıoğlu, Səməd ağa (yaxud Ağamalızadə; Ağamalıyev; Ağamalov 1867-1930): Azərbaycanın və Sovet İttifaqının dövlət xadimi. Zaqafqaziya Seyminin və Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Cümhuriyyəti Parlamentində Sosialistlər fraksiyasını təmsil etmişdir. Sovet dövründə

Azərbaycanın Kənd Təsərrüfatı xalq komissarı vəzifəsini tutmuş, Azərbaycan Sovet Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədri, Zaqafqaziya Sovet Federativ Sosialist Repsublikası Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olmuşdur. 303

Ağamirov: Bakı sakini; "F. Reddavey və kompaniyası" şirkətində işləmişdir. 425, 451, 453, 502

Ağamirzə Abbas xan: İranın Sabunçudakı nümayəndəsi olmuşdur. 446

Ağaoğlu, Əhməd bəy (1869-1939): Azərbaycanın və Türkiyənin gökəmli ictimai-siyasi xadimi; hüquqşünas, şərqşünas, yazıçı-publisist. Türkçülük hərəkatının ideoloqlarından biri olmuşdur. 468, 480

Ağayev: Lənkəranlı, "Ədalət" partiyasının üzvü. 173

Ağayev, Balaağa: Bakı Ticarət məktəbini bitirmişdir. 39

Ağayev, Bəhram (1884-1956): İranda anadan olmuşdur. Azərbaycanda iranlı mühacirlər tərəfindən yaradılan "Ədalət" partiyasının qurucularından idi. Muğan hökumətində Daxili İşlər naziri vəzifəsini tutmuşdur. 278, 279, 607

Ağayev, Həsən bəy (1875-1920): Azərbaycanın görkəmli dövlət xadimi. Moskva Universitetinin Tibb fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının 28 may 1918-ci il tarixli iclası (Azərbaycanın müstəqilliyinin elan edildiyi iclas) Həsən bəy Ağayevin sədrliyi ilə keçirilmişdir. Azərbaycan Parlamenti sədrinin birinci müavini olmuş və Parlamentin sədri Topçubaşov Bakıda olmadığından, Həsən bəy faktiki olaraq Parlamentə rəhbərlik etmişdir. Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilmişdir. 7, 8, 22, 91, 100, 565

Ağayev, Tofiq Nurəddin (? - 1921): jurnalist, pedaqoq. 250

Ağazadə, Baxış (Məşhədi Baxış): Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının üzvü olmuşdur. 171

Ağazadə, Balaağa: bax. Ağayev, Balaağa.

Ağazadə, Fərhad Məşhədi Rəhim oğlu (1880-1931): Azərbaycanın görkəmli pedaqoqu və publisisti. Şuşada anadan olmuş, Qori Seminariyasını bitirmiş, Azərbaycanın müxtəlif yerlərində müəllim işləmişdir. Məktəblilər üçün "İkinci il" dərsliyinin müəlliflərindəndir. Dövri mətbuatda çıxış etmiş, həmçinin "Azərbaycan" qəzetinin ən fəal müəlliflərindən olmuşdur. 106, 123, 135, 166, 194, 241, 296, 425

Ağazadə, Mirfəttah. 65

Ağazadə, Təzəxanım: Əhməd bəy Ağaoğlunun qızı. 468, 469

Ağdamlı, Əhməd (yaxud Əhməd Ağdamski; 1884-1954): Azərbaycanın opera müğənnisi, teatr və kino aktyoru. Teatr səhnəsində qadın rollarının mahir ifaçısı kimi tanınmışdır. 14

Ağdamski, Əhməd: bax. Ağdamlı, Əhməd.

Aharonyan, Avetis: bax. Aqaronyan, Avetis.

Axıcanlı, Müseyib: bax. Axıcanov, Müseyib.

Axıcanov, Müseyib bəy (1892-1920): Azərbaycanın dövlət xadimi. Kiyevdə Müqəddəs Vladimir Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı qubernatorunun müavini, Bakı qubernatoru, Azərbaycan Parlamentinin üzvü olmuşdur. Bolşeviklər tərəfindən güllələnmişdir. 144, 171, 404, 429

Axıskalı: "Azərbaycan" qəzetində imza; çox güman ki, Əhməd Cövdət Pepinova məxsusdur.

Axundov, Abdulla bəy: Quba Poçt və Teleqraf İdarəsinin müdiri olmuşdur. 2

Axundov, Əsədulla: kooperativçi. 602

Axundov, M. S.: Ərzaq Nazirliyinin nümayəndəsi olmuşdur. 142

Axundov, Mirzə Fətəli: Azərbaycanın ictimai xadimi. "Qafqaz Arxeologiya Komissiyası"nın sədri (1864-1878) olmuşdur. 546

Axundov, Rəşid bəy: bax. Axundzadə, Rəşid bəy.





Axundov, Şirin Məşhədi Hüseyn oğlu (1878-1927): Azərbaycanlı tarzən. 126

Axundov, Teymur: Zəngəzurda pristav müavini olmuşdur. 117

Axundzadə, Baxış (Hacı Baxış): Şamaxı Müəllimlər İttifaqı üzvü. 474

Axundzadə, Hacı Mirzə Səlim Mirzə İsmayıl Qasir oğlu (1872-1930): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Aprel işğalından sonra İrana mühacirətə getmişdir. 87, 88

Axundzadə, İdris: Gəncə Türk Müəllimləri İttifaqının sədri olmuşdur. 494

Axundzadə, Məhəmməd Sadıq: bax. Aran, Məhəmməd Sadıq.

Axundzadə, Mirzə Səlim (Hacı Mirzə Səlim). 416

Axundzadə, Rəşid bəy Hacı Əbdüssalam oğlu (1880-1940): Azərbaycanın ictimai-siyasi xadimi. 1895-1907-ci illərdə Qafqaz müsəlmanlarının Şeyxülislamı olan Axund Hacı Əbdüssalamın oğlu olmuşdur. Kiyevdə hüquq təhsili almışdır. Salyandan Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 1919-cu ilin fevralından avqustunadək Bakının valisi (qubernatoru) vəzifəsini tutmuşdur. Sovet hakimiyyəti dövründə Sibirə sürgün edilmiş və sürgündə ölmüşdür. 491, 630

Axundzadə, Süleyman: maarif xadimi. 625

Axundzadə, Vahab: Şamaxı Müəllimlər İttifaqının üzvü. 474

Akop: Şuşa sakini. 185

Akuşinski, Əli Hacı (1847-1930): XX əsrin əvvəllərində Dağıstanın ictimai-siyasi xadimi və dini lideri olmuşdur. 324, 325, 362, 386, 387

Aqaronyan, Avetis Arakeloviç (1866-1948): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun" partiyasının üzvü idi. Ermənistanın müstəqilliyini elan edən Erməni Milli Şurasının sədri, Ermənistan Parlamentinin rəhbəri olmuşdur. İstanbulda danışıqlar aparan erməni nümayəndə heyətinə rəhbərlik etmişdir. Paris Sülh Konfransında iştirak edən erməni nümayəndə heyətinin rəhbəri olmuşdur. 1920-ci ildən Fransada mühacirətdə yaşamışdır. 449, 450

Aleksandr I (1777-1825): Rusiya imperatoru; 1801-1825-ci illərdə hakimiyyətdə olmuşdur. 480

Allahverdiyev: "Müsavat" partiyasının Şamaxı şöbəsinin üzvü. 224

Allahyar Nurulla oğlu: jandarma. 275

Allahyarov: "Müsavat" partiyasının Şamaxı şöbəsinin sədrinin müavini. 224

Alşibaya, Qriqol: Gürcüstanın Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. 63

Altınay, Əhməd Rəfiq: bax. Əhməd Rəfiq.

Amazasp: bax. Srvandzyan, Hamazasp.

Anaplı, Əbülhəsən: bax. Anaplinski, Əbülhəsən.

Anaplinski (Anaplı), Əbülhəsən (1894-1921): Teatr aktyoru. Bir sıra teatr truppalarında, o cümlədən Hacıbəyov qardaşlarının teatr dəstəsində çıxış etmişdir. Əsasən komik rollar oynamışdır. Qarabağda qastrol səfərində olarkən ermənilər tərəfindən xaincəsinə qətl edilmişdir. 126, 339

Anderson: pəhləvan. 559

Andranik: bax. Ozanyan, Andranik.

Apaşev, Danyal Apaş-Mamayeviç (1870-1920): Dağıstanın ictimai-siyasi xadimi. Milliyyətcə kumık. 129

Apresov, Baqrat: Rusiyanın və Ermənistanın hərbi xadimi; polkovnik. 351

Apşteyn, Tovi Moiseyeviç (? - 1917): Sahibkar, tacir. Kiyevdə "Apşteyn və oğulları" ticarət evinin, dəri, metal və taxta zavodlarının, bir sıra mülklərin sahibi idi. 177

Aran, Məhəmməd Sadıq (Axundzadə; 1895-1976): Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, jurnalist. Cümhuriyyətin süqutundan sonra fəaliyyətini mühacirətdə davam etdirmişdir. 117, 201, 203, 632

Araratyan, S.: Zaqafqaziya Konfransında Ermənistanı təmsil etmək üçün seçilmişdir. 214

Arnold: pəhləvan. 559
Arzumanov: Qarabağdakı erməni zabiti. 183, 184, 341
Arzumov: Bakı sakini. 618
Aslanov, Teymur: Bakı Müsəlman Tələbələr İttifaqının sədri. 39
Aslanzadə, Teymur: bax. Aslanov, Teymur.
Astrov, Nikolay İvanoviç (1868-1934): Rusiyanın ictimai-siyasi xadimi. Konstitusion-Demokratik Partiyanın (Kadet partiyası) üzvü olmuşdur. 1917-ci ilin mart-iyun aylarında Moskva Bələdiyyə İdarəsinin sədri vəzifəsini tutmuşdur. Ümumrusiya Müvəqqəti Hökumətinin üzvü seçilmişdir. 343
Aşurbəyli, Bəşir bəy (yaxud Aşurbəyov; 1875-1930): Azərbaycanlı neft sənayeçisi; eyni zamanda "İttihad" partiyasının qurucularından biri olmuşdur. 446
Aşurbəyli, İsa bəy (1878-1938): Azərbaycanın ictimai-siyasi xadimi və xeyriyyəçisi. Bakı Şəhər Dumasının və "Nicat" cəmiyyətinin üzvü olmuşdur. Birinci Dünya müharibəsində əsir düşən türk əsgərlərinə yardım edən komitənin işində fəal iştirak etmişdir. Mətbuatda "Həqqi" təxəllüsü ilə çıxış etmişdir. 1938-ci ildə güllələnmişdir. 126, 174
Aşurbəyov, Bəşir bəy: bax. Aşurbəyli, Bəşir bəy.
Aşurov, Ağa (1880-1936): Azərbaycanın dövlət xadimi. Bakıda anadan olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə Ticarət və Sənaye naziri, Ərzaq naziri, Poçt və Teleqraf naziri kimi vəzifələrdə işləmişdir. Cümhuriyyətin süqutundan sonra Rostova köçmüş, orada vəfat etmişdir. 568
Atakişiyev, İsrafil: Gəncəli sosialistlərdən. 92
Ayn. Ayn.: "Azərbaycan" qəzetində imza. 90, 625
Ayn. Y.: "Azərbaycan" qəzetində imza. 138
Ayronsayd, Edmun [Edmund Oronside; 1880-1959]: Britaniyanın hərbi xadimi; feldmarşal. 1919-cu ildə Arxangelskdəki Antanta qoşunlarının Baş komandanı olmuşdur. 188
B. V. P.: İrəvanda olan İngiltərə əsgəri nümayəndəsi. 470
Babayev, Aslan: Azərbaycan dəmiryolunun Sumqayıt stansiyasında jandarma olmuşdur. 157
Babayev, Həsən: İrəvanın Dəmirbulaq məhəlləsi sakini. 581
Babayev, Qafar: Mərdəkan sakini. 379
Babayev, Mirkazım: Yalama stansiyasının mühafizəçisi. 206
Babazadə: Bakı Realnı məktəbini bitirmişdir. 39
Babazadə, Əliheydər (1890 - ?): mühəndis. Bakıda anadan olmuşdur. 555
Babazadə, Həbib (1892 - ?): Ukraynada təhsil alan azərbaycanlı tələbələrdən. Azərbaycan Cümhuriyyəti Parlamentinin kargüzarı olmuşdur. 553
Babazadə, Şirmirzə: "Müsavat" partiyasının Balaxanı şöbəsinin katibi. 175, 475
Baden-Pauel, Robert [Robert Baden-Powell; 1857-1941]: Britaniya generalı. Hindistanda və Afrikada xidmət etmişdir. Skaut (izçilik) hərəkatının əsasını qoymuşdur. 441
Bağırov, Kazım: Bakıda 4-cü sahədə mühafizə məmuru olmuşdur. 206
Bağırzadə: Bakı Realnı məktəbini bitirmişdir. 39
Bahadır əs-Sultan: İran sərkərdəsi. 516
Baxşəliyev. 334
Bakıxanov, Məhəmmədrza bəy (? - 1919): tacir, mülkədar. 47
Bakradze, Vladimir Aleksandroviç: Gürcü Milli Şurasından Azərbaycan Parlamentinin üzvü olmuşdur. 5
Bakunin, Mixail Aleksandroviç (1814-1876): Rus inqilabçısı; anarxizmin nəzəriyyəçilərindən biri. 388
Balahəsən İman oğlu: Zəngəzur qəzası sakini. 121
Balaməhəmməd (yaxud Balaməmməd): Lənkəran qaçaqlarından; bolşevik. 173





Balayan: Bakıda həkim olmuşdur. 17, 44, 69, 96, 122, 308
Balfur, Artur [Arthur Balfour; 1848-1930]: Britaniyanın dövlət xadimi. 1902-1905-ci illərdə Baş Nazir, 1916-1919-cu illərdə Xarici İşlər naziri olmuşdur. 49, 322, 488, 508
Bammatov, Heydər (yaxud Heydər Bammat; 1889-1965): Dağıstanın siyasi xadimi. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsində oxumuşdur. Dağlılar Respublikasının Xarici İşlər naziri olmuş, 1921-ci ildə mühacirətə getmişdir. 488, 512
Banvil, Jak [Jacques Pierre Bainville; 1879-1936]: Fransız tarixçisi və publisisti. 290
Baratov, Nikolay Nikolayeviç (1865-1932): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsi dövründə İranda xidmət edən Birinci Qafqaz süvari korpusunun komandiri olmuşdur. Oktyabr inqilabından sonra ağqvardiyaçılar hərəkatına qoşulmuş, Gürcüstan hökuməti yanında Denikinin nümayəndəsi olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 28, 421, 595, 596
Barol 175
Barrett, Artur [Arthur Barrett; 1857-1926]: Britaniyanın hərbi xadimi; feldmarşal. Hindistanda xidmət etmiş, Üçüncü ingilis-əfqan müharibəsində (1919) ingilis qoşunlarının komandanı idi. 1921-ci ildə feldmarşal rütbəsi almışdır. 596
Batlamyus: bax. Ptolomey.
Bauer, Qustav [Gustav Bauer; 1870-1944]: Almaniyanın siyasi xadimi. 1919-cu ilin iyunundan 1920-ci ilin martına qədər Almaniya Baş naziri olmuşdur. 10, 50, 188, 386
Bayrambəyov, Paşa bəy: Araz Türk Cümhuriyyəti hökumətinin və İrəvan Azərbaycanlılarının nümayəndəsi olmuşdur. 36, 330, 417, 418, 494, 600
Bayraməlibəyov, Teymur bəy (yaxud Bayraməlibəyli, Bayraməlibəyzadə, 1862-1937): Azərbaycanın ictimai-siyasi xadimi, maarifçisi və tarixçisi. Qori müəllimlər seminariyasını bitirmiş, Lənkəranda müəllim işləmişdir. "Müsavat" partiyasının Lənkəran şöbəsinin sədri olmuşdur. 88
Bayramov, Paşa: bax. Bayrambəyov, Paşa.
Bazeleviç, Lidiya İvanovna: Azərbaycan Cümhuriyyəti Maarif Nazirliyi idarəsində makinaçı. 533
Behbudov: Ağdamdan hökumətə teleqram göndərmişdir. 216
Behbudov: Sosial Müdafiə Nazirliyinin Qarabağ general-qubernatorluğu nəzdindəki nümayəndəsi olmuşdur. 32, 55
Bektaşi, Cabbar ağa (Mirzə Cabbar ağa). 268
Bektaşov, Mirzəəli bəy: Naxçıvan müsəlmanlarının ictimai xadimi. 189
Bekzadyan, Aleksandr (1879-1938): Ermənistanın və SSRİ-nin diplomatı. Ermənistan SSR-in Xarici İşlər komissarı, SSRİ-nin Norveç və Macarıstanda Səlahiyyətli nümayəndəsi olmuşdur. 1938-ci ildə güllələnmişdir. 147
Bekzadyan, Tiqran Arutyunoviç (yaxud Artyomoviç; 1877-1942): Şuşada anadan olmuş, 1917-ci il inqilabından əvvəl Bakıda neft sənayesi sahəsində işləmişdir. Cümhuriyyət dövründə Ermənistanın Azərbaycandakı siyasi nümayəndəsi olmuşdur. Fransaya mühacirətə getmişdir. 40, 167
Belikov 328
Bell, Yohannes [Johannes Bell; 1868-1949]: Almaniyanın siyasi xadimi. 1919-cu ilin fevral-mart aylarında Almaniyanın Müstəmləkə İşləri naziri olmuşdur. Versal sazişini Almaniya tərəfindən Herman Müllerlə birgə imzalamışdır. 26
Belov: Rusiyanın hərbi xadimi; general. 289
Belyayev, Pavel Qriqoryeviç: Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyi Dəftərxanasında Maliyyə şöbəsinin rəisi olmuşdur. 180

Bernatski, Vladimir Mixailoviç (1876-1943): Rusiyanın iqtisadçı alimi və siyasi xadimi. Müvəqqəti Hökumət dövründə Maliyyə naziri olmuşdur. 23

Bernstrof, İohan Henrix fon [Johann Heinrich von Bernstroff; 1862-1939]: Alman diplomatı. 1917-1918-ci illərdə Almaniyanın İstanbulda səfiri olmuşdur. 50

Bernşteyn, Eduard [Eduard Bernstein; 1850-1932]: Almaniyanın sosial-demokrat siyasi xadimi və publisisti. 539

Betman-Holveq, fon Teobald [Theobald von Bethmann Hollweg; 1856-1921]: Almaniyanın siyasi xadimi; 1909-1917-ci illərdə Baş nazir olmuşdur. 104

Beze, Lüdviq Karloviç: Bakı Xəzinə Palatasının şöbə müdiri olmuşdur. 85

Bezladnov, V. V.: Azərbaycan Cümhuriyyətinin Ticarət, Sənaye və Ərzaq Nazirliyində işləmişdir. 482

Bədəlbəyov, B: Qarabağ general-qubernatorluğunun məmuru. 224, 631

Bədəlzadə, A.: Bakı Birinci gimnaziyasını bitirmişdir. 39

Bədri: bax. Seyidzadə, Bədrəddin.

Bəlxi, Əbu Zeyd (850-934): həkim, coğrafiyaşünas və filosof. 243

Bərzənci, Mahmud (1881-1956): Kürd inqilabçı. 1919-cu ilin may ayında İraqdakı Britaniya nümayəndəsini həbs edərək, özünü "Kürdüstan kralı" elan etmişdi. 76, 97, 287

Bəttani (858-929): Orta əsrlər ərəb astronomu və riyaziyyatçısı. 134

Bəydəmirov: Bakı şəhər polisinin ehtiyat rəisi. 169, 170

Bəylərbəyli, Əli bəy: bax. Bəylərbəyov, Əli bəy.

Bəylərbəyov, Əli bəy (yaxud Bəylərbəyli): Bakıda yaşayan lənkəranlılardan. 88

Bıç, Luka Lavrentyeviç (1870-1945): Kuban kazaklarının siyasi və ictimai xadimi. Hüquq təhsili almışdır. Bakıda işləyərkən Bakı Şəhər Dumasına üzv seçilmiş, 1912-1917-ci illər arasında Bakı Şəhər İdarəsinin rəisi olmuşdur. 1917-ci ilin Fevral inqilabından sonra Kubana qayıtmış, Kuban Hökumətinin sədri seçilmişdir. Kuban heyətinin başçısı olaraq Paris Sülh Konfransında iştirak etmiş, Kuban Xalq Respublikası süqut etdikdən sonra mühacirətdə qalmışdır. 512

Bib Doda [Bibë Doda; 1860-1919]: Osmanlının və Albaniyanın dövlət xadimi. Albaniya Xarici İşlər naziri, Baş nazirin müavini kimi vəzifələr tutmuşdur. 11

Biç: Qafqazdakı ingilis generalı. 66, 103

Biçeraxov, Lazar Fyodoroviç (1882-1952): Rusiyanın hərbi xadimi. İrandakı Rusiya korpusunda xidmət edərkən, təxminən 1000 nəfərlik bir dəstə yaratmış, ingilislərlə əməkdaşlıq etmişdir. Bakı Komissarları da Qafqaz İslam Ordusuna qarşı Biçeraxovun yardımına müraciət etmişdilər, ancaq daha sonra bolşeviklərlə Biçeraxov arasında ixtilaf meydana gəldi və Biçeraxov öz dəstəsi ilə birgə Dağıstana çəkildi. Sentrokaspi Diktaturası Xəzər dənizindəki hərbi donanmanı Biçeraxovun əmrinə vermişdi. 450

Bismark, Otto fon [Otto von Bismarck; 1815-1898]: Almaniyanın dövlət xadimi. Almaniyanın birləşdirilməsini həyata keçirmiş, Alman imperiyasının birinci kansleri olmuşdur. 217, 437

Bitti, Devid [David Beatty; 1871-1936]: Britaniyalı dənizçi. Birinci Dünya müharibəsində Britaniya donanmasının komandirlərindən biri. 1916-cı ildə admiral rütbəsi almışdır. 535

Blajevski, V.F.: Azərbaycan Cümhuriyyəti Poçt və Teleqraf Nazirliyi dəftərxanasının müdiri olmuşdur. 2, 73

Bleq: Muğanda matrosların rəisi olmuşdur. 279

Bliznov, Aleksandr: Maarif Nazirliyi İdarəsində mühasibəçi müavini olmuşdur. 586

Bore, Viktor [Victor Boret; 1872-1952]: Fransanın siyasi xadimi; Kənd Təsərrüfatı və Ərzaq naziri olmuşdur. 592





Borquyev, Yusif. 275

Böyük xan: Naxçıvan xanlarının nəslindən. 65

Brian, Aristid [Aristide Briand; 1862-1932]: Fransanın siyasi xadimi. Dəfələrlə Baş Nazir, Xarici İşlər naziri, Daxili İşlər naziri, Hərbi nazir, Ədliyyə naziri vəzifələrini tutmuşdur. 26, 543

Bric: Tiflisdəki ingilis zabitlərindən; general. 527

Bric, Siprian [Cyprian Bridge; 1839-1924]: Britaniya admiralı. 409

Briqqs, Çarlz Ceyms [Sir Charles James Briggs; 1865-1941]: İngilis generalı. 1919-cu ilin fevral-iyun aylarında Cənubi Rusiyadakı ingilis qoşunlarının komandiri olmuşdur. 235

Brilinski, A. L.: Azərbaycan Cümhuriyyəti Ərzaq Nazirliyinin Gəncədəki vəkili olmuşdur. 180

Brokdorf-Rantsau, Ulrix fon [Ulrich von Brockdorff-Rantzau; 1869-1928]: Almaniyanın diplomatı. 1919-cu ildə Xarici İşlər naziri olmuşdur. 26

Bron: Bakıda fəaliyyət göstərmiş uşaq doktoru; eyni zamanda Mərkəzi Ev Komitəsində, Sosial Təminat Nazirliyində işləmişdir. 17, 44, 69, 96, 122, 308

Burjua, Leon [Léon Bourgeois; 1861-1925]: Fransanın dövlət xadimi. Baş Nazir, Senatın Sədri, Xarici İşlər naziri kimi vəzifələr tutmuşdur. 593

Burtsev, Vladimir Lvoviç (1862-1942): Rus publisisti. İnqilabi fəaliyyətinə görə həbs edildikdən sonra xaricə qaçmışdır. Avropa ölkələrində çox sayda qəzet və jurnalın nəşrində iştirak etmişdir. Parisdə ölmüşdür. 264

Buşe, Axill [Achill Bouchez; 1856-1940]: Fransız generalı. 524

Butayev, Nüsrətulla: Qusar Poçt və Teleqraf İdarəsinin müdiri olmuşdur. 2

Bünyadov, Bəşir: "Müsavat" partiyasının Suraxanı şöbəsinin üzvü olmuşdur. 115

Bünyadzadə, Cəfər: Bakıda müəllim olmuşdur. 497

Cabaqiyev, Vassan-Gəray (1882-1961): Şimali Qafqazın siyasi və dövlət xadimi; milliyyətcə inquşdur. Almaniyada təhsil almışdır. İnquş Milli Şurasının sədri olmuş, Şimali Qafqaz Dağlılar İttifaqının (Dağlılar Respublikasının) qurulmasında yaxından iştirak etmiş, İttifaqın Mərkəzi Komitəsinin üzvü və Maliyyə naziri olmuşdur. Dağlılar Respublikasının Müstəqillik Aktının müəllifi və Dağlılar Respublikası Konstitusiyasının müəlliflərindən biri idi. Şimali Qafqazın sovetləşməsindən sonra mühacirətə getmişdir. İstanbulda ölmüşdür. 420

Cabbar (Hacı Cabbar): İrəvan sakini; başmaqçı. 107

Cabbarzadə, A.: Bakı Birinci gimnaziyasını bitirmişdir. 39

Cabbarzadə, Bağır (1894-1951): Azərbaycan aktyoru. 178

Cabbarzadə, Cəfər (yaxud Cəfər Cabbarlı; 1899-1934): Azərbaycanın məşhur dramaturqu, şairi və teatr rejissoru. Cümhuriyyət dövründə Qafqaz Türk Tələbələri Mərkəzi Komitəsinin üzvü, Parlamentin türkcə stenoqrafı olmuşdur. 70

Cahangirov, Mətləb (Məşhədi Mətləb): Balaxanı mədən dairəsi fəhlələrinin camaat vəkili olmuşdur. 276

Camal paşa: bax. Keşmir, Camal.

Camalbəyov, Qasım bəy (1881-1938): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. "Hümmət" partiyasının üzvü idi. Azərbaycan Parlamentinin üzvü olmuşdur. 35, 417, 418, 601

Camo bəy: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 393

Canəli xan (1516-1535): Kazan xanı; 1532-1535-ci illərdə hakimiyyətdə olmuşdur. 462

Canpoladyan: Naxçıvanda duz mədənləri sahibi olmuşdur. 95

Cavadov, Əliheydər (1885 - ?): Azərbaycanlı həkim. Lənkəranda anadan olmuşdur.

Xarkov Universitetinin Tibb fakültəsini bitirmişdir. Lənkəranda həkim işləmişdir. 392, 578

Cavadzadə, Keyqubad: bax. Hacıcavadzadə, Keyqubad.

Cavanşir, Cavad: Zəngəzur müsəlmanları Milli Məclisi sədrinin müavini olmuşdur. 352

Cavid bəy: Osmanlı siyasətçisi. 502, 598

Cerard, Ceyms [James Watson Gerard; 1867-1951]: Amerika diplomatı. 1913-1917-ci illərdə Amerikanın Almaniyada səfiri olmuşdur. Ermənistanın Müstəqilliyi Uğrunda Amerika Komitəsinin [American Committee for the Independence of Armenia] icra heyətinin rəhbəri idi. 307

Cəbiyev, Bala: Bakı Ticarət məktəbini bitirmişdir. 39

Cəbizadə, Bala: bax. Cəbiyev, Bala.

Cəbrayılbəyov, Camo bəy: Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 624

Cəbrayıllı: "Azərbaycan" qəzetində imza. 526

Cəbrayılzadə, Cəbrayıl Haşım oğlu (Məşhədi Haşım oğlu): Göyçay sakini. 254

Cəfər: İrəvan sakini. 107

Cəfər bəy: Naxçıvan müsəlmanlarının ictimai xadimi. 280

Cəfərqulu: İranda üsyançıların başçılarından olmuşdur. 488, 516

Cəfərqulu Məhəmmədəli oğlu: Bakı sakini. 114

Cəfərov: Dağıstanda polkovnik. 387, 401

Cəfərov: Bakıda göz həkimi olmuşdur. 17, 44, 69, 96, 122, 308

Cəfərov, Məhəmməd (1884-1937): Rusiyanın və Dağıstanın hərbi xadimi, polkovnik. Birinci Dünya müharibəsində Birinci Dağıstan süvari alayında xidmət etmişdir. Dağlılar Respublikası Hökuməti tərəfindən Çeçenistanın qubernatoru və çeçen ordusunun komandanı təyin edilmişdir. 166

Cəfərov, Məmməd (yaxud Məhəmməd) Yusif (1885-1938): Azərbaycanın dövlət xadimi. Ali hüquq təhsili almışdır. Rusiya Dövlət Dumasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti dövründə müxtəlif tarixlərdə Sənaye və Ticarət naziri, Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi və Xarici İşlər naziri olmuşdur. 32, 63, 167

Cəfərzadə: Bakı İkinci gimnaziyasını bitirmişdir. 39

Cəlal əfəndi: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 555

Cəlil Əmrah oğlu: Zakaspisykdə yaşayan azərbaycanlılardan. 94

Cəmil Cahid bəy (Toydəmir; 1883-1956): Türk zabiti. Qafqaz İslam Ordusu sıralarında döyüşmüş, Şuşa'ya daxil olan ordunun komandanı olmuşdur. Azərbaycandan getdikdən sonra Türk Ordusunda müxtəlif vəzifələr tutmuş, 1942-ci ildə "orgeneral" (dörd ulduzlu general) rütbəsi almışdır. İstefaya çıxdıqdan sonra millət vəkili və Müdafiə naziri (1946-1947) olmuşdur. 238

Cəmo Cəbrayıl: bax. Cəbrayılbəyov, Camo bəy.

Cons, Kennedi [Kennedy Jones; 1865-1921]: ingilis jurnalisti; Britaniya Parlamentinin üzvü olmuşdur. 613

Conson: ABŞ Senatoru. 30

Çexovski, Nikolay Moiseyeviç (1884-1938): Ukraynanın hərbi xadimi. 1918-ci Kiyevin komendantı, 1919-1921-ci illərdə Ukraynanın Qafqazda (Tiflisdə) hərbi nümayəndəsi olmuşdur. 199

Çermoyev, Əbdülməcid Tapa (1882-1936): Şimali Qafqaz dağlılarının siyasi xadimi, azadlıq hərəkatı liderlərindən biri, milliyətcə çeçendir. Birinci Dünya müharibəsi illərində "Vəhşi diviziya"nın çeçen alayında xidmət etmişdir. Şimali Qafqaz Dağlı Xalqları İttifaqının qurucularından biri və Dağlılar Respublikasının başçısı olmuşdur. 166

Çesterfeld. 491, 492

Çəmənzəminli, Yusif Vəzir (Vəzirov; 1887-1943): Azərbaycan yazıçısı və diplomatı. 13, 34, 57, 80, 138, 163, 168, 192, 218, 267, 274, 328, 389, 451, 490, 493, 545, 573, 577, 626, 633







Çinda, Sutemi [Chinda, Sutemi; 1857-1929]: Yaponiyanın diplomatı. Birinci Dünya müharibəsi illərində Yaponiyanın Londondakı səfiri və Paris Sülh konfransında ölkəsinin səlahiyyətli nümayəndəsi olmuşdur. 322, 593

Çingiz xan (1162-1227): Monqol sərkərdəsi və Monqol imperiyasının banisi. Tarixin yetişdirdiyi ən böyük sərkərdələrdən biri olmuşdur. 465

Çörçill, Uinston [Winston Churchill; 1874-1965]: Britaniyanın görkəmli dövlət xadimi. 9, 187, 188

Çubaryan, Poqos: Daşnaksutyun partiyasının və Bakıdakı Erməni Milli Şurasının, həmçinin Azərbaycan Parlamentinin üzvü olmuşdur. 181, 259, 285, 286, 315, 316, 317, 319, 340, 368, 405

Çurayev, Andrey Yemelyanoviç [1881 - ?]: Fəhlə, menşevik. Bakıda inqilabi fəaliyyətlə məşğul olmuşdur. 1917-ci ildə Bakı Şəhər Dumasının üzvü, 1920-ci ildə qısa müddət Azərbaycan Fövqəladə Komissiyasının sədri olmuşdur. 59

Dadaş Baqi oğlu (Molla Dadaş Hacı Molla Baqi oğlu): Ağsunun Bico kəndinin prixod mollası olmuşdur. 563

Dadaşov. 294

Dadaşov, Əliəsgər (Ağa Əliəsgər): Bakı sakini; "Səadət" cəmiyyətinin vəkili olmuşdur. 84, 399

Dadaşov, Qədir: Petrovskda nümayəndə olmuşdur. 78

Dadaşzadə: Bakı Realnı məktəbini bitirmişdir. 39

Damad Fərid paşa (1853-1923): Türkiyənin siyasi xadimi. 4 mart – 30 sentyabr 1919-cu il və 5 aprel – 17 oktyabr 1920-ci il tarixlərində Baş nazir olmuşdur. 322, 345, 412, 513, 598

Dante Aligyeri [Dante Alighieri; 1265-1321]: italyan şairi və mütəfəkkiri. 465

Darablı, Rza (yaxud Rza Darablinski, Rza Hüseynov; 1883-1942): Azərbaycanın teatr aktyoru. "Nicat", "Səfa", "Hacıbəyov qardaşları müdiriyyəti" truppalarında çıxış etmişdir. Moskvada teatr texnikumunu bitirmişdir. 126, 339

David: Almaniyanın siyasi xadimi; sağ sosial-demokrat. 50

Davud: "Azərbaycan" qəzetində imza; Gəncədən yazmışdır. 555

Delkasse, Teofil [Théophile Delcassé; 1852-1923]: Fransanın siyasi xadimi və diplomatı; 1898-1905 və 1914-1915-ci illərdə Xarici İşlər naziri olmuşdur. 543

Denikin, Anton İvanoviç (1872-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Ağ qvardiyanın rəhbərlərindən olmuşdur. Birinci Dünya müharibəsində Qərb cəbhəsinin (may-iyul 1917) və Cənub-qərb cəbhəsinin (avqust 1917), Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun (aprel 1918 – yanvar 1919) və Cənubi Rusiya Silahlı Qüvvələrinin (yanvar 1919 – aprel 1920) komandiri olmuşdur. 1920-ci ildə mühacirətə getmişdir. 3, 4, 8, 23, 24, 31, 38, 40, 41, 42, 48, 50, 60, 62, 66, 67, 74, 102, 103, 106, 126, 127, 128, 129, 132, 133, 135, 145, 165, 166, 186, 188, 189, 190, 213, 233, 235, 263, 267, 277, 290, 321, 327, 328, 331, 341, 343, 383, 386, 387, 408, 410, 413, 414, 421, 430, 434, 439, 442, 443, 444, 482, 483, 484, 487, 488, 490, 496, 507, 508, 511, 512, 523, 536, 541, 579, 580, 591, 616, 630

Denisov, İ. V.: bankir. 447

Devasi: Amerika Qırmızı Xaç təşkilatının Qafqaza göndərdiyi nümayəndə; mayor. 434

Devi, K. M.: Britaniya ordusunun Qafqazdakı general-mayoru olmuşdur. 141, 247, 248, 353, 354

Devis, Herri [Harry L. Davis; 1878-1950]: Amerikanın siyasi xadimi; Klivlend şəhərinin Bələdiyyə sədri (1916-1919; 1934-1935), Ohayo ştatının qubernatoru (1921-1923) olmuşdur. 383, 401

Devleys: Amerikanın Riqadakı general-qubernatoru; polkovnik. 456

Dəbirülmülk: bax. Ağa Məhəmməd-hüseyn xan.
Dıbenko, Fyodor Yefimoviç (1891-1919): Anarxist-kommunist. Rus inqilabçı, Oktyabr inqilabının təşkilatçılarından Pavel Dıbenkonun qardaşı idi. 597
Dıbenko, Pavel Yefimoviç (1889-1938): Rus inqilabçı, Oktyabr inqilabının təşkilatçılarından. RSFSR-in Dənizçilik xalq komissarı olmuşdur. 307, 538
Diamandi, Konstantin [Constantin Diamandi; 1868-1932]: Rumıniyanın diplomatı. Sofiyada, Romada, Petroqradda işləmiş, Paris Sülh Konfransında Rumıniya heyətinin tərkibində olmuşdur. 1924-1930-cu illərdə Rumıniyanın Parisdəki səfiri vəzifəsini tutmuşdur. 593
Dillon, Con [John Dillon; 1851-1927]: İrlandiyanın milliyyətçi siyasi xadimi. 372
Diyarbəkri, Mehdiqulu xan. 268
Dizavani: pəhləvan. 455, 505
Djavani: pəhləvan. 559, 611
Dmovski, Roman [Roman Dmowski; 1864-1939]: Polşanın siyasi xadimi. Paris Sülh Konfransında Polşa heyətinin tərkibində olmuşdur. 593
Dobrovski: mühəndis; Bakı sakini. 132
Dobrovski, Nikolay: professor; Darülfünun Komissiyasının üzvü. 553
Dolqopolov, N. S.: doktor; Kubandan Paris Sülh Konfransına göndərilən heyətin tərkibində olmuşdur. 488
Dotsev, Georgi Georgiyeviç: Azərbaycan Dəmiryollarında mühafizə rəisinin müavini olmuşdur. 231
Dro: bax. Kanayan, Drastamat.
Dubrovski, Nikolay Aleksandroviç (1874-1943): tarixçi; Bakı Universitetində çalışmışdır. 498
Duran, Faiq Səbri (1882-1943): Türk yazıçısı və coğrafiyaşünası. 272, 283
Dünyamalı Əbdürrəşid oğlu (Molla Dünyamalı): Qubanın Talabı kəndinin sakini; Xaçmazın Dədəli kəndinin prixod mollası olmuşdur. 563
Ebert, Fridrix [Friedrich Ebert; 1871-1925]: Almaniyanın siyasi xadimi; sosial demokrat. 1918-ci ilin noyabrından 1919-cu ilin fevralına qədər Almaniyanın Baş naziri, 1919-cu ilin fevralından 1925-ci ilin fevralına qədər Almaniya Prezidenti olmuşdur. 233, 507
Ekimyan, Rafael İvanoviç: Bakı sakini. 170
Emeri, Leopold [Leopol Amery; 1873-1955]: Britaniyanın siyasi xadimi; İcmalar Palatasının üzvü. 1919-1921-ci illərdə Müstəmləkə İşləri nazirinin katibi; 1924-1929-cu illərdə Müstəmləkə İşləri naziri olmuşdur. 25
Epişteyn (? - 1919): bolşevik komissarı. 597
Erdeli, İvan Georgiyeviç (1870-1939): Rusiyanın hərbi xadimi, general. Könüllü ordunun qurucularından olmuşdur. 1919-cu ilin yanvarından Zaqafqaziya və Şimali Qafqazda fəaliyyət göstərmişdir. 32, 103, 105, 129, 189, 190, 539
Erzberqer, Mattias [Matthias Erzberger; 1875-1921]: Alman yazıçısı və siyasətçisi. Birinci Dünya müharibəsi sonunda atşkəs müqaviləsinin imzalanması üçün Almaniya tərəfindən yaradılan komissiyanın başçısı təyin olunmuşdu. Daha sonra Veymar Təsisçilər Məclisinin üzvü olmuş və Maliyyə naziri vəzifəsini tutmuşdur. Suiqəsd nəticəsində öldürülmüşdür. 188, 484
Eyvazbəyov, Uraz Sərdar: türkmən; Məvərayi-Bəhri-Xəzər (Zakaspiysk) hökumətinin üzvü olmuşdur. 161
Eyvazlı, Həsən (Məşhədi Həsən): Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının üzvü olmuşdur. 171
Eyyubov, Nəsib: Qazax tacirlərindən. 586
Əbdül Rüfət: müəllim. 625
Əbdüləhəd (Hacı Şeyx Əbdüləhəd): Azərbaycandakı iranlılardan. 14
Əbdülhaq Hamid: bax. Tarhan, Əbdülhaq Hamid.
Əbdülhəmid II [1842, 1918]: Osmanlı sultanı; 1876-1909-cu illərdə hakimiyyətdə





olmuşdur. 270, 310, 337, 401, 530
Əbdürrəhimzadə, Yusif: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin katibi olmuşdur. 360, 363
Əbilov, İbrahim (1881-1923): Azərbaycanın siyasi xadimi, inqilabçı və diplomat. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Azərbaycan Sovet Sosialist Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri vəzifəsini tutmuşdur. 3
Əbu Übeydə (728-824): ilahiyyat, ərəb dili və ədəbiyyatı sahəsində 200-dən çox əsər yazmış ərəb alimi. 242
Əbül-Abbas bin Süreyc (854-918): mənbələrdə 400-ə yaxın əsər yazdığı qeyd edilən alim. 242
Əbül-Fəda (1273-1331): tarixçi və coğrafiyaşünas; eyni zamanda Suriyanın qərbində yerləşən Həma şəhərinin əmiri olmuşdur. 244, 257
Əbülxanzadə, Hacı: Balaxanada "Qafqaz Masis" mədənində "İttihad" partiyası şöbəsi idarə heyətinin üzvü. 304
Əcmi Sadun paşa (yaxud Üceymi Sadun paşa; 1883-1960): İraq şeyxlərindən olmuşdur. 292
Əfəndiyev, Mahmud bəy: Azərbaycanın diplomatı, ali təhsilli həkim. Azərbaycan Cümhuriyyətinin Batum konsulu olmuşdur. 499
Əfəndiyev, Məhəmməd Əmin: bax. Əfəndizadə, Məhəmməd Əmin.
Əfəndiyev, Rəşid bəy: bax. Əfəndizadə, Rəşid bəy.
Əfəndizadə: kooperativçi. 553
Əfəndizadə, Abdulla: Göyçayda müəllim olmuşdur. 497
Əfəndizadə Əbdülqədir: mühəndis. 602
Əfəndizadə, Ələddin: Azərbaycan ziyalısı, müəllim və dərslik müəllifi. 497
Əfəndizadə, H. (Molla H.): kənd mollası; "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 110
Əfəndizadə, Hacı Hüseyn (yaxud Əfəndiyev; 1887-1920): Göyçay qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü seçilmişdir. 4, 303, 588
Əfəndizadə, Hüseyn: Şamaxıda müəllim olmuşdur. 497
Əfəndizadə, Qafur: Göyçayda müəllim olmuşdur. 497
Əfəndizadə, Qəni bəy: Bakıda müəllim olmuşdur. 497
Əfəndizadə, Məhəmməd: Göyçayda müəllim olmuşdur. 497
Əfəndizadə, Məhəmməd bəy: Bakıda müəllim olmuşdur. 497
Əfəndizadə, Məhəmməd Əmin Hacı Molla Əhməd oğlu (1895 - ?): Şamaxıda anadan olmuş, Moskva Kommersiya İnsitutuna daxil olmuş, Salyanda məktəb direktoru və Bakıda fəxri sülh hakimi olmuşdur. 333
Əfəndizadə, Muxtar (1880-1975): Azərbaycanın elm xadimi, şərqşünas. Maarif sahəsində böyük xidmətləri olmuşdur. Ərəş qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 568, 569
Əfəndizadə, Mustafa: Qafqazın müftüsü. 563
Əfəndizadə, Paşa: Göyçayda müəllim olmuşdur. 497
Əfəndizadə, R.: şair. 111
Əfəndizadə, Rəhim (Hacı Rəhim): Şamaxıda müəllim olmuşdur. 497
Əfəndizadə, Rəşid bəy (yaxud Əbdürrəşid bəy; 1863-1942): Azərbaycanın görkəmli maarifçisi. Qori Seminariyasını və Tiflisdə Aleksandr Müəllimlər İnstitutunu bitirmişdir. Zaqafqaziya Sünni Ruhani İdarəsində işləmiş, Azərbaycanın müxtəlif yerlərində müəllimlik etmişdir. "Uşaq bağçası", "Bəsirətül-ətfal" dərsliklərinin müəllifidir. Şeir və hekayə də yazmışdır. Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 533
Əfəndizadə, Seyyidə xanım: Bakıda müəllimə olmuşdur. 497
Əfəndizadə, Səftər: Göyçayda müəllim olmuşdur. 497

Əfəndizadə, Şəfiqə (1882-1959): Azərbaycan pedaqoqu və publisisti. 120

Əfəndizadə, Şükür bəy: Bakıda müəllim olmuşdur. 497

Əfəndizadə, Tofiq: Bakıda müəllim olmuşdur. 497

Əfi: bax. Seyid Hüseyn Sadiq.

Əhməd III (1673-1736): Osmanlı padşahı; 1703-1730-cu illərdə hakimiyyətdə olmuşdur. 245

Əhməd Cövdət: bax. Pepinov, Əhməd bəy.

Əhməd Rasim (1865-1932): Türk publisisti. Müxtəlif mövzularda çoxsaylı əsərlərin müəllifi. 250, 257

Əhməd Rəfiq (Altınay; 1881-1937): Türk tarixçisi, yazıçısı və şairi. Soyadı qanunundan sonra "Altınay" soyadını qəbul etmişdir. 167, 272

Əhməd Səlahəddin bəy (1878-1920): Türk hüquqşünası, siyasi xadim. İstanbul Universiteti Hüquq fakültəsinin müəllimi olmuş, 1919-cu ildə İstanbuldan millət vəkili seçilmişdir. 509

Əhməd şah Qacar: bax. Sultan Əhməd şah Qacar.

Əhməd Tofiq paşa (Okday; 1845-1936): Osmanlı dövlət xadimi. 1909-cu ildə, 1918-1919-cu illərdə və 1920-1922-ci illərdə Baş nazir olmuşdur. Eyni zamanda Osmanlı dövlətinin axırıncı Baş naziri idi. Paris Sülh Konfransında Osmanlı heyətinin rəhbəri olmuşdur. Soyadı qanunu çıxdıqdan sonra "Okday" soyadını qəbul etmişdir. 322, 337, 515, 572

Əhmədbəyov: Bakı quberniyasında mühafizə müfəttişi, daha sonra Azərbaycan Ordusu qərargahının zabiti olmuşdur. 356

Əhmədbəyzadə, Ağaəli bəy: Göyçayda müəllim olmuşdur. 497

Əhmədbəyzadə, Soltan bəy: Göyçay Müəllimlər İttifaqı üzvü. 474, 500

Əhmədxanov: Bakıda 4-cü sahə mühafizə rəisinin müavini. 206

Əhmədov, Əbil: Göyçay sakini. 227

Əhmədov Mustafa: pəhləvan. 505

Əhmədov, Yusif (yaxud Yusifəli Əhmədov; ? - 1938): Ticarət və Sənaye İttifaqının sədri olmuşdur. Azərbaycan Parlamentinin üzvü idi. 86

Əhmədzadə, Yusif: bax. Əhmədov, Yusif.

Əl-Büsti, Əbülfəth: X əsrin II yarısında və XI əsrin əvvəllərində yaşamış ərəb şairi və mütəfəkkiri. Əsərlərini ərəb və fars dillərində yazmışdır. 133

Ələkbər (Məşhədi Ələkbər): İrəvan sakini; könhə paltar satan. 107

Ələkbərov, Zülfəli Balakişi oğlu: Sabunçu sakini. 335

Ələkbərzadə, Zeynalabdin: Bakı sakini. 251

Ələsgər (Hacı Ələsgər): İrəvan sakini. 280

Ələsgər Həmzani (Məşhədi Ələsgər). 280

Ələsgər Məhəmməd İbrahim oğlu: Bakı sakini. 308

Əli (Məşhədi Əli): "Müsavat" partiyasının Suraxanı şöbəsinin katibi olmuşdur. 115

Əli Abbasəli oğlu (Əli bəy Abbasəli bəy oğlu): İrəvan sakini. 280

Əli Axund: naxçıvanlı. 297

Əli bəy: Xankəndində xidmət etmiş Azərbaycan ordusu zabiti. 207

Əli Əlirza oğlu (Əli əfəndi): Qusarın Dostavər kəndinin sakini. 86

Əli Hacı: Dağlılar Respublikasının ictimai-siyasi xadimi. 293, 346

Əli xan (Kərbəlayi Əli xan): naxçıvanlı. 354

Əli Məstan: şair. 522

Əli Mişan: müəllim. 625

Əli Səbri: "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 189, 380

Əli Səməd oğlu (Əli əfəndi Hacı Səməd oğlu): Bığır (Göyçay) kəndinin müəllimi. 145

Əli Şövqi: bax. Şeyxzamanlı, Əli Şövqi.

Əlibala: Şağan sakini; faytonçu. 379

Əlibala Mikayıl oğlu: Şuşa sakini. 582

Əlif. Əlif.zadə: "Azərbaycan" qəzetində imza; Kürdəmirdən, Şamaxıdan yazmışdır. 118, 424, 449

Əlihəsənov: Dağıstanda Xalq Təsərrüfatı İdarəsinin müdiri olmuşdur. 129

Əliisgəndərov, Səməd bəy: bax. Əliisgəndərzadə, Səməd bəy.

Əliisgəndərzadə, Səməd bəy: mühəndis; "Müsavat" üzvü. Balaxanı-Sabunçu polismeysteri olmuşdur. 378

Əlikişi Balakişi oğlu: Mərdəkan sakini. 379

Əlimuradzadə, Dadaş: Azərbaycanın hərbi xadimi; tabor komandanı. 171

Əlirzazadə, Heydər (Kərbəlayi Heydər): İrəvanın Dəmirbulaq məhəlləsi sakini. 581

Əlişan Xanmirzə oğlu (Kərbəlayi Əlişan): Zabrat sakini. 399

Əliverdibəyov, Qara bəy (1879-1929): Azərbaycanın ictimai-siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 146

Əliverdiyev. 175, 202

Əliyev, Ağaəli: Bakı sakini. 85, 302, 303, 311

Əliyev, Əliəkbər. 47

Əliyev, Həsənağa: Bakı sakini. 380

Əliyev, İsgəndər bəy: Ticarət, Sənaye və Ərzaq Nazirliyinin nəzarətçisi. 275

Əliyev, Mehdi: Ucar sakini. 114, 133

Əliyev, Məhəmmədbağır (Kərbəlayı Məhəmmədbağır): Gilandakı Azərbaycanlılardan. 15

Əliyev, Mirzəağa: bax. Əlizadə, Mirzəağa.

Əliyev, Nəriman. 132, 150, 438

Əliyev, Şıxəli: Buzovna sakini. 169, 170

Əliyev, Yusifəli: Ticarət və Sənaye nazirinin müavini olmuşdur. 553

Əliyusif Mirzə Cəlal oğlu: Zəngəzur qaçqınlarına kömək üçün "Müsavat" tərəfindən Sosial Təminat Nazirliyinə göndərilmişdir. 554

Əlizadə, Ağabala: "Müsavat" partiyasının Rəşt şöbəsinin nümayəndəsi olmuşdur. 15

Əlizadə, Əmin (Məşhədi Əmin): Bakı sakini. 381

Əlizadə, Firidun: Bakı Politexnik məktəbini bitirmişdir. 39

Əlizadə, Qurban: Xankəndindəki Azərbaycan diviziyasının imamı olmuşdur. 259

Əlizadə, Məhəmməd əfəndi: Bakı Darülmüəlliminin (Seminariyasının) müəllimi. 533

Əlizadə, Mirzəağa (1883-1954): Azərbaycanlı aktyor. "Həmiyyət", "Nicat" truppalarında çıxış etmişdir. 1924-cü ildən etibarən Azərbaycan Dövlət Dram Teatrında çalışmış, 1949-cu ildə Xalq artisti adına layiq görülmüşdür. 126, 254, 501, 502

Əlizadə, Mustafa. 359

Əlizadə, Rəhman. 65

Əlizadə, Səkinə xanım: Parlament İdarəsində makina yazıçısı olmuşdur. 22

Əmin Abid (Gültəkin; Mütəllib oğlu Abid Alp; 1898-1937): Azərbaycan şairi və ədəbiyyatşünası. 177

Əminov, Ağa Məşhədi Kərim oğlu (yaxud Əminzadə; 1888-1921): "Müsavat" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 1919-cu ildə Ticarət və Sənaye naziri vəzifəsini tutmuşdur. 180, 482, 506, 562

Əmir Mücahid (İran). 516

Əmircanov, Əbdüləli bəy (1870-1948): Azərbaycanın ictimai-siyasi xadimi. Tiflisdə Müəllimlər İnstitutunu bitirmiş, Azərbaycanın bir sıra yerlərində müəllim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə naziri, Dövlət Nəzarəti naziri vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra Türkiyəyə mühacirətə getmişdir. 100, 101

Əmirulla Abdulla oğlu: Bakı sakini. 220, 221

Əmirov: Naxçıvan sakini. 355, 495

Əmirov, A.: Bakıda diş həkimi olmuşdur. 149

Əmirov, Cəmil (1875-1928): Azərbaycan tarzəni, bəstəkarı. 126

Əmirzadə, Məhəmməd: Balaxanada "Qafqaz Masis" mədənində "İttihad" partiyası şöbəsi idarə heyətinin üzvü. 304

Əmitayev N. C.. 633
Ənvər paşa (1881-1922): Osmanlı dövlətinin hərbi və siyasi xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən idi. 1914-1918-ci illərdə Osmanlı dövlətinin Hərbi naziri, Baş Qərargah rəisi olmuşdur. Türk xalqlarını birləşdirmək uğrunda mübarizə aparmışdır. 213, 273, 301, 384, 509, 598
Əsad paşa: bax. Toptani, Əsad paşa.
Əsəd Hüseyn oğlu (Molla Hüseyn oğlu): Şamaxı sakini. 201
Əsədulla Qəni oğlu (Mirzə Qəni oğlu): Şamaxı sakini. 254
Əsədullayev, Əli: Bakıda yaşayan lənkəranlılardan. 88
Əsədullazadə, Məhəmmədəli (yaxud Məhəmmədəli Tabaqçı). 61, 81, 555, 625
Əsgərov, Qafar: Azərbaycan dəmiryollarında yük podratçısı olmuşdur. 559
Əsgərzadə, Cəfər (Mirzə Cəfər): Gəncə Türk Müəllimləri İttifaqının üzvü olmuşdur. 91, 92
Əsmayi, Əbu Səid (740-831): müxtəlif mövzularda çoxsaylı əsərlər yazmış bəsrəli alim. 243
Əşrəfzadə, Əbdürrəhim: Zəngəzur qaçqınlarına kömək üçün "Müsavat" tərəfindən Səhiyyə Nazirliyinə göndərilmişdir. 555
Əzimzadə, Əzim: "Hümmət" partiyasının üzvü. 578
F. A.: "Azərbaycan" qəzetində imza; bax. Ağazadə, Fərhad.
Faiq Səbri: bax. Duran, Faiq Səbri.
Fatma Ağa qızı (Kərbəlayi Fatma Kərbəlayi Ağa qızı): Hacı Səməd Heydərovun birinci arvadı. 302
Faysal I (1885-1933): Hicaz kralı Şərif Hüseynin oğlu idi. 1920-ci ildə Suriya kralı, 1921-1933-cü illərdə İraq kralı olmuşdur. 595
Feynberq, A. M.. 439
Fərabi, Əbunəsr (872-950): İslam filosofu və alimi. 134
Fərəczadə, Zülfüqar: "Müsavat" partiyası Mərkəzi Komitəsinin və Bakıdakı Zəngəzurlular Komitəsinin üzvü olmuşdur. 352
Fətəli şah Qacar (1771-1834): İran şahı; Qacarlar sülaləsinin ikinci şahı. 1797-1834-cü illərdə hakimiyyətdə olmuşdur. 462
Fətəlibəyov, Həsən bəy: Bakı polis idarəsində istintaq şöbəsinin rəisi olmuşdur. 357, 490, 491
Fəttahbəyov: "Müsavat" partiyasının Şamaxı şöbəsinin sədri. 224
Filimonov, Aleksandr Petroviç (1866-1948): Rusiyanın hərbi xadimi; general-leytenant. Kuban Xalq Respublikasının atamanı olmuşdur. 487
Finkelşteyn, Boris Konstantinoviç (1871-1931): Həkim. Xarkov Universitetinin Tibb Fakültəsini bitirmişdir. Sankt-Peterburq və Batumda fəaliyyət göstərmiş, həmçinin Bakıda Neft Sənayeçiləri Qurultayı Şurasının xəstəxanasında işləmişdir. Bakı Cərrahlar Cəmiyyətinin təsisçisi və sədri olmuşdur. 17, 44, 69, 96, 122, 308
Firidunbəyov, A.: İrəvan quberniyası müsəlmanları Şurasının katibi. 475
Florinski, Timofey Dmitriyeviç (1854-1919): Rus filoloqu və tarixçisi, İmperatorluq Elmlər Akademiyasının müxbir üzvü. Bolşeviklər tərəfindən güllələnmişdir. 31
Foş, Ferdinand [Ferdinand Foch, 1851-1929]: Fransanın hərbi xadimi, marşal. 26, 67, 288, 535, 591
Frans Ferdinand [Franz Ferdinand; 1863-1914]: Avstriya böyük hersoqu. Suiqəsd nəticəsində öldürülməsi Birinci Dünya müharibəsinin başlanmasına bəhanə olmuşdur. 75
Frans İosif I [Franz Joseph I; 1830-1916]: 1948-1916-cı illərdə Avstriya imperatoru olmuşdur. 539
Frensis, Devid Roulend [David Rowland Francis; 1850-1927]: ABŞ diplomatı və siyasi xadimi. 1896-1897-ci illərdə Daxili İşlər naziri, 1916-1918-ci illərdə ABŞ-ın Rusiyadakı səfiri olmuşdur. 597, 614, 615
Fridrix: Almaniyanın hərbi xadimi; 9-cu polk komandiri. 539





Fridrix Vilhelm III [Friedrich Wilhelm III; 1770-1840]: Prussiya kralı; 1797-1840-cı illərdə hakimiyyətdə olmuşdur. 464, 480
Frimantl, Sidney [Sydney Fremantle; 1867-1958]: ingilis admiralı. 457
Georq V [George V; 1865-1936]: Böyük Britaniya kralı; 1910-1936-cı illərdə hakimiyyətdə olmuşdur. 372
Gevorq V (1847-1930): 1912-1930-cu illərdə bütün ermənilərin katolikosu olmuşdur. 395, 401
Gənc Əli İbad: pəhləvan. 430, 455, 481, 533, 559, 585, 611
Gərayxanzadə, Jomat: Balaxanada "Qafqaz Masis" mədənində "İttihad" partiyası şöbəsinin sədrinin müavini. 304
Gindes, Yevsey Yakovleviç (1872-1954): həkim və ictimai xadim; Azərbaycan Cümhuriyyətinin Səhiyyə naziri. Kiyevdə anadan olmuş, Müqəddəs Vladimir Universitetini (Kiyev) bitirmiş və həkim kimi işləməyə başlamışdır. 1905-ci ildə Bakıya köçmüş, Qara şəhər xəstəxanasında, Ümumrusiya vərəm əleyhinə mübarizə cəmiyyətinin Bakı şöbəsində işləmiş, Bakı Pediatrlar Cəmiyyətini qurmuş və cəmiyyətə rəhbərlik etmişdir. 1918-ci ildə Bakıda uşaq xəstəxanasını təsis etmişdir. Cümhuriyyət dövründə (26 dekabr 1918 – 14 mart 1919) Səhiyyə naziri olmuşdur. Bakı Dövlət Universitetində dərs demişdir. Cümhuriyyətin süqutundan sonra da pediatr kimi fəaliyyətini davam etdirmiş, eyni zamanda valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün uşaq evləri və düşərgələr açmışdır. Bakıda vəfat etmişdir. 294, 599
Gökalp, Ziya (1876-1924): Türk sosioloqu, şairi və siyasətçisi. Türkiyədə milliyyətçiliyin ən böyük ideoloqu olaraq qəbul edilir. 219
Gön. 288
Gülməhəmməd. 131
Gültəkin, Əmin Abid: bax. Əmin Abid.
H. C. 138
H. R.: "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 278
H. S.: "Azərbaycan" qəzetində imza. 301
Hacatov: "Müsavat" partiyasının Şamaxı şöbəsinin üzvü. 224
Hacı bəy: Zirə kəndi sakini. 554
Hacı İmaməli oğlu: Pirşağı sakini. 254, 308
Hacı Murad (Türküstan hökumətindən). 161, 516
Hacı Murad: Dağıstanlı general-mayor. 129
Hacı Osman: Lənkəranda müsəlman camaatının rəhbərlərindən olmuşdur. 254, 395
Hacıbababəyov. 585, 611
Hacıbababəyov, Mehdi bəy (1871-1925): Azərbaycanın ictimai-siyasi xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 224, 298
Hacıbəyli, Ceyhun bəy (yaxud C. Dağıstani; 1891-1962): Azərbaycanlı filoloq, tarixçi, jurnalist və ictimai xadim. Peterburq və Sorbonna universitetlərində təhsil almışdır. "Azərbaycan" qəzetinin redaktorlarından olmuşdur. Qəzetdəki yazılarını "C. Dağıstani" imzası ilə nəşr etdirmişdir. Üzeyir Hacıbəylinin kiçik qardaşıdır. 537
Hacıbəyli, Üzeyir (1885-1948): Azərbaycanlı bəstəkar, musiqişünas, publisist, pedaqoq və ictimai xadim. Azərbaycanın müasir peşəkar musiqi sənətinin və milli operanın banisi. Dövrünün bir sıra qəzet və jurnallarında, o cümlədən "Azərbaycan" qəzetində məqalə, felyeton, hekayə və miniatürlərlə çıxış etmişdir. "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. Sovet dövründə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Azərbaycan SSR-in və Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. 18, 21, 42, 48, 62, 205, 231, 259, 285, 339, 365, 481

Hacıbəyli, Zülfüqar (1884-1950): Azərbaycanlı bəstəkar. Üzeyir Hacıbəylinin böyük qardaşıdır. 153, 171, 174, 177, 179, 257, 404, 429
Hacıcavadzadə, Keyqubad: Xuluq (Qusar) kənd sakini, Hacı Cavad Vəlibəyzadənin oğlu. 442
Hacıəlizadə, Səməd bəy (yaxud Hacıəliyev): Azərbaycanın maarif xadimi. Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqının üzvü olmuşdur. 625
Hacınski, Camo bəy (1888-1942): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuş, Poçt və Teleqraf naziri vəzifəsini tutmuşdur. Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 1938-ci ildə sürgün edilmiş, həbs düşərgəsində ölmüşdür. 2, 73
Hacınski, Mehdi bəy Süleyman bəy oğlu (yaxud Hacızadə; 1879-1941): Azərbaycanın ictimai-siyasi xadimi. Bakı Şəhər Dumasının, "Nicat" və "Səfa" cəmiyyətlərinin üzvü, Daxili İşlər nazirinin müavini, Azərbaycan Parlamentinin üzvü idi. Parlamentin katibi vəzifəsini tutmuşdur. 100, 471, 565, 567
Hacınski, Səmi bəy: Quba qəzası sakini. 222
Hacıyev: "Müsavat" partiyasının Şamaxı şöbəsinin üzvü. 224
Hacıyev: mühəndis; Dağıstanda Xalq Təsərrüfatı İdarəsinin vəkili olmuşdur. 129
Hacıyev, Ağasalah: Azərbaycan Dəmiryolu ikinci hissə mühafizə rəisinin müavini olmuşdur. 232, 357
Hacıyev, İsfəndiyar bəy: Dövlət Nəzarəti Nazirliyində işləmişdir. 313, 381, 426
Hacıyev, Namaz: Bərdə sakini. 603
Hacızadə, Ələkbər (Hacı Ələkbər): Gəncə Cəmiyyəti Xeyriyyəsinin üzvü olmuşdur. 92
Hacızadə, Hüseyn: Hacıbəyli Qardaşları Müdiriyyətinin Qarabağ şöbəsinin administratoru. 252
Hacızadə, M.: Bakı İkinci gimnaziyasını bitirmişdir. 39
Hacızadə, Yahya: Batumdan "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 119
Hadizadə, Əbdürrəhim: Bakı qazısı və Səadət Cəmiyyəti idarəsinin sədri olmuşdur. 303
Hafiz, Cəmaləddin: alim. 242
Hafiz Şirazi: XIV əsr İran şairi. 558
Hakim Atlıxan oğlu: Qusarın Dostavər kəndinin yüzbaşısı olmuşdur. 86
Hakopyan, Aleksandr: Ermənistan Sosial Təminat Nazirliyinin nümayəndəsi. 40
Haqverdiyev, Əbdürrəhim bəy (1870-1933): Azərbaycanın yazıçısı və dramaturqu, ədəbiyyatşünası və teatr xadimi. Azərbaycan Cümhuriyyətinin Dağıstandakı siyasi nümayəndəsi olmuşdur. 32, 105, 178, 190
Haller, Yozef [Józef Haller; 1873-1960]: Avstriya-Macarıstanın və Polşanın hərbi xadimi, general. 1919-cu ilin ortalarında general Hallerin qoşunları Rusiyada Qırmızı orduya qarşı döyüşürdü. 76, 287, 290
Hamburq, S. M.: Bakıda fəaliyyət göstərmiş diş həkimi olmuşdur. 17, 44, 70, 95, 148, 176, 201, 227, 254, 281, 309, 335, 361, 381, 400, 425, 451, 477, 503
Haniel, Edqar fon-Haymhauzen [Edgar Haniel von Haimhausen; 1870-1935]: Alman diplomatı; Xarici İşlər Nazirliyinin katibi olmuşdur. 9
Harmsvort, Sesil [Cecil Harmsworth; 1869-1948]: Britaniyanın siyasi xadimi. 1915-ci ildə Daxili İşlər nazirinin müavini, 1919-cu ilin əvvəlindən 1922-ci ilin axırlarına qədər Britaniya Parlamentində Xarici İşlər üzrə Dövlət Katibinin müavini olmuşdur. 187, 508, 509
Haşımov, Haşım: Bığır (Göyçay) kəndinin müəllimi. 145
Haşımov, Mirzağa (Məşhədi Mirzağa). 47
Haşımov, Seyfulla: Bakıda 7-ci sahə pristavının müavini olmuşdur. 144
Haşim bəy: Osmanlı siyasətçisi. 598
Haşim Şaiq: bax. Şaiq, Haşim.
"Hatif": "Azərbaycan" qəzetində imza. 276





Hauz, Edvard [Edward House, 1858-1938]: Amerika siyasi xadimi və diplomatı. Hərbçi olmasa da "polkovnik Hauz" kimi tanınmışdır. Amerika prezidenti Vilson, Hauzun təsiri altında qalmışdır. 307
Henderson, Artur [Arthur Henderson; 1863-1935]: Britaniyalı siyasətçi; Leyboristlər Partiyasının lideri olmuşdur. 55
Henrix Albert Vilhelm (Prussiya şahzadəsi) [Heinrich Albert Wilhelm Prinz von Preußen; 1862-1929]: Alman imperatorları III Fridrixin oğlu, II Vilhelmin qardaşı. 289, 310, 372
Herbert, Orbi [Aubrey Herbert; 1880-1923]: Britaniyanın hərbi xadimi və diplomatı; Britaniya Parlamentinin üzvü. 508
Heybətəli Mehdi oğlu (? - 1919). 275
Heybətzadə, Əbdülhüseyn: "Müsavat" partiyasının Əmirhacıyan şöbəsinin katibi olmuşdur.Heybətli: Cəbrayıl qəzasının kəndi. 115
Heydər (Kərbəlayi Heydər): İrəvanın Dəmirbulaq məhəlləsinin sakini. 582
Heydər Əbdüləli oğlu (Kərbəlayi Əbdüləli oğlu): Şamaxı sakini. 201
Heydərbəyov: Salyan şəhər pristavının müavini. 221, 444
Heydərov, Ələkbər: Xəzər Müstəhliklər İttifaqı "Kooperasiya"nın Maarif şöbəsində işləmişdir. 602, 612
Heydərov, Qədir: bax. Heydərzadə, Qədir.
Heydərov, Ömər bəy İsa bəy oğlu (1884-1973): Dərbənddə anadan olmuş, Cümhuriyyət dövründə Bakıda işləmişdir. 1920-ci ildə Türkiyəyə mühacirətə getmişdir. 512
Heydərov, Səməd Məhərrəm oğlu (Hacı Səməd): Bakı sakini. 84, 302
Heydərzadə: Gəncədə Sənətkarlar İttifaqının üzvü olmuşdur. 92
Heydərzadə, Ələkbər: müəllim. 625
Heydərzadə, Qədir: Azərbaycan jurnalisti. 612
Heyq, Duqlas [Douglas Haig; 1861-1928]: Britaniyanın hərbi xadimi; feldmarşal. 535
Həmdi əfəndi: "Müsavat" üzvü. 224
Həmdulla Həsən oğlu: Ərdəbil sakini. 281
Həmədani, Həsən bin Əhməd. 243
Həmədani, İbn əl-Fəqih: IX əsrin sonu – X əsrin əvvəllərində yaşamış coğrafiyaşünas; "Kitabül-buldan" əsərinin müəllifi. 244
Həmidzadə, Hüseyn: Bakıda müəllim olmuşdur. 497
Həmidzadə, Qulam: "İttihad" məktəbini bitirmiş, Bakıda türk dili müəllimi olmuşdur. 422
Həmzəyev, Ələsgər (Məşhədi Ələsgər): Şərurda yerli müdafiə qüvvələrinin rəhbərlərindən olmuşdur. 331
Həsən M. oğlu: "Azərbaycan" qəzetində imza. 167, 220, 273, 274, 283, 420, 425
Həsən Mustafa oğlu: Parlament İdarəsində mütərcim olmuşdur. 22
Həsən Təhsin əfəndi: Azərbaycanın hərbi xadimi; tabor komandanı. 171
Həsənəli ağa: Naxçıvan varlılarından. 268
Həsənov, Ağadadaş: Bakı sakini. 399
Həsənov, Əliağa (1871-1933): Azərbaycanın ictimai-siyasi xadimi; Cümhuriyyət dövründə Maliyyə naziri, Dövlət Müfəttişi, Azərbaycan Parlamentinin üzvü olmuşdur. "Nəşri-maarif" cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmiş, Bakı Şəhər Dumasının üzvü olduğu dövrdə Şollar su kəmərinin çəkilişi və şəhərdəki digər quruculuq-abadlıq işlərində xüsusilə böyük xidməti olmuşdur. 157, 456
Həsənov, M: Xırda alış-verişçilər Komitəsi sədri. 223
Həsənov, Müseyib (Hacı Müseyib): Bakıda yaşayan İran tacirlərindən. 425, 429
Həsənzadə, Əliağa: bax. Həsənov, Əliağa.
Həsənzadə, Xəlil: Azərbaycanın hərbi xadimi; Birinci alayın katibi və xəzinədarı. 171
Hindenburq, Paul fon (Paul von Hindenburg, 1847-1934): Almaniyanın hərbi və siyasi xadimi, Birinci Dünya müharibəsinin ən məşhur sərkərdələrindən biri. 1925-

1934-cü illərdə Almaniya prezidenti olmuşdur. 75, 233, 234, 256, 288, 507, 539
Hofman, Maks [Max Hoffmann; 1869-1927]: Almaniyanın hərbi xadimi; general-mayor. 535
Holmson: Rusiyadakı ingilis generallarından. 616
Hümmət Məhəmməd oğlu (Məşhədi Hümmət): İrəvan qaçqınlarının Şamaxının Mədrəsə kəndindəki Qaçqınlar Komitəsinin sədri olmuşdur. 78
Hüseyn bəy: Azərbaycanın hərbi xadimi; polkovnik. Azərbaycan Hökuməti tərəfindən Naxçıvana göndərilən hərbi heyətin başçısı olmuşdur. 467
Hüseyn Cavid: bax. Rasizadə, Hüseyn Cavid.
Hüseyn Hilmi paşa (1851-1923): Türkiyənin siyasi xadimi və diplomatı. 1909-cu ildə iki dəfə Baş nazir, 1912-1919-cu illərdə Osmanlı dövlətinin Vyanada səfiri olmuşdur. 486
Hüseyn Xəlil bəy: Lənkəranda müsəlman camaatının rəhbərlərindən olmuşdur. 254
Hüseyn Kamil oğlu: Suraxanı sakini. 121
Hüseyn Qasım oğlu: Lənkəran sakini. 201
Hüseynəli (Hacı Hüseynəli): Naxçıvan sakini. 355
Hüseynov, Abdulla: Yalama stansiyasının mühafizəçisi. 206
Hüseynov, Əlihüseyn (? - 1919): "Kooperasiya" istehlak cəmiyyəti idarə heyətinin üzvü. 505
Hüseynov, Xəlil: bax. Hüseynzadə, Xəlil.
Hüseynov, Miri: Azərbaycan süvari alayının zabiti. 144
Hüseynov, Seyidhüseyn: Azərbaycan süvari alayının zabiti. 222
Hüseynov, Şıxəli: Bakı quberniyası 3-cü sahə fabrik müfəttişi. 506
Hüseynzadə: müəllim. 574
Hüseynzadə: Bakı Realnı məktəbini bitirmişdir. 39
Hüseynzadə: Qazaxdan "Azərbaycan" qəzetinə məktub yazmışdır. 227
Hüseynzadə, A.: Bakı İkinci gimnaziyasını bitirmişdir. 39
Hüseynzadə, Abbas: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 226
Hüseynzadə, Ağa İsmayıl: Göyçay Müəllimlər İttifaqı üzvü. 474
Hüseynzadə, B. D.: Bakı Realnı məktəbini bitirmişdir. 39
Hüseynzadə, D.: Bakı İkinci gimnaziyasını bitirmişdir. 39
Hüseynzadə, Fərəc bəy: Balaxanıda azərbaycanlı fəhlələrin fəallarından; "Müsavat" üzvü. 359
Hüseynzadə, Xəlil: teatr aktyoru. 404, 429
Hüseynzadə, Məhərrəm (Məşhədi Məhərrəm). 359
Hüseynzadə, Mircəfər. 132
Hüsov: "Müsavat" partiyasının Şamaxı şöbəsinin üzvü. 224
X.: "Azərbaycan" qəzetində imza; bax. İbrahimov, Xəlil.
Xaldeyev: tələbə. 553
Xanməhəmməd (Məşhədi Xanməhəmməd): Salyan qəzasının Xanqışlaq kəndinin sakini olmuşdur. 554
Xasməmmədov, Ələsgər bəy (yaxud Xasməhəmmədov): Gəncə Şəhər Bələdiyyə İdarəsinin rəisi olmuşdur. 92, 552
Xasməmmədov, Xəlil bəy (yaxud Xasməhəmmədov; 1873-1947): Azərbaycanın dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya Dövlət Dumasının, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Ədliyyə naziri, Daxili İşlər naziri kimi vəzifələr tutmuşdur. Azərbaycanın Türkiyədə səfiri təyin edilmiş, Cümhuriyyətin süqutundan sonra Azərbaycana qayıtmamışdır. Siyasi fəaliyyətini mühacirətdə də davam etdirmişdir. 491
Xatisov, Aleksandr İvanoviç (1874-1945): Erməni ictimai-siyasi xadim, "Daşnaksutyun"





partiyasının üzvü idi. Müxtəlif dövrlərdə Ermənistanın Baş Naziri, Səhiyyə, Daxili İşlər və Xarici İşlər naziri olmuşdur. Ermənistanın sovetləşməsindən sonra Fransa və Portuqaliyada mühacirətdə yaşamışdır. 59, 80, 81, 106, 353, 354, 355, 527, 528
Xatisyan: bax. Xatisov, Aleksandr İvanoviç.
Xeyrullazadə, Xeyrəddin: "Müsavat" partiyasının Balaxanı şöbəsinin sədri. 475
Xələf: Mərdəkan sakini. 379
Xəlil: yüzbaşı; Bakıda Könüllü alayın Mərkəzi Ştabının baş katibi olmuşdur. 62
Xəlilbəyli, Balabəy: Bakıda, Vorontsovski (indiki İslam Səfərli) küçəsində yerləşən "Dardanel" yeməkxanasının müdiri olmuşdur. Tiflisdə "Kaspi" mehmanxanasını açmışdır. 403
Xəlilov, Xəlil: Muğan pristavı. 334
Xəlilov, Mikayıl Maqomedoviç (1869-1935): Rusiyanın hərbi xadimi; general-mayor. Lak əsillidir. 1918-ci ilin axırlarından Könüllü orduya qoşulmuşdur. 1918-1920-ci illərdə Dağıstanın hərbi komendantı olmuşdur. Kotsevdən sonra Dağıstan Hökumətinə rəhbərlik etmişdir. Daha sonra Türkiyəyə mühacirətə getmişdir. 128, 129, 190, 191, 292, 387, 488
Xəlilov, Rəhim xan: Gilandakı Azərbaycanlılardan. 15
Xəlilzadə, Xəlil: Azərbaycanın hərbi xadimi; tabor komandanı. 171
Xətib Bağdadi (? - 1071): tarixçi. 242
Xəyyam: bax. Ömər Xəyyam.
Xocahanzadə, Məhəmmədhəsən bəy: zəngəzurlu. 359
Xocayev, İsak Nikitiç: Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur; Erməni fraksiyasına daxil idi. 181, 285, 366
Xocazadə, Münirə Ləman: "Azərbaycan" qəzetində imza. 140
Xoşev: Muğanda müsəlman dəstəsinin komandiri olmuşdur. 253
Xoyski, Əmir xan (1888-1954): Azərbaycanın ictimai-siyasi xadimi, milli istiqlal hərəkatının iştirakçısı. Bakı qubernatorunun müavini, eləcə də bir sıra yerlərdə qəza rəisi olmuşdur. 580
Xoyski, Fətəli xan (1875-1920): Azərbaycan Cümhuriyyətinin qurucu-larından biri, görkəmli dövlət xadimi. Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının sədri (1917-1918), Zaqafqaziya Seyminin üzvü və Zaqafqaziya Federativ Respublikasının Xalq Maarifi naziri (1918) olmuşdur. Azərbaycan Cümhuriyyətinin ilk hökumətinin sədri seçilmiş, Cümhuriyyət dövründə bir neçə dəfə Baş Nazir, eləcə də Daxili İşlər naziri, Ədliyyə naziri, Xarici İşlər naziri vəzifələrini icra etmişdir. Bolşevik işğalından sonra Tiflisə mühacirət etmiş və orada erməni daşnakları tərəfindən şəhid edilmişdir. 301, 491
Xudaverdizadə, A.: Bakı Birinci gimnaziyasını bitirmişdir. 39
İbn Əbdürəbbih (860-940): Əndülüslü alim və şair. 242
İbn Ərəbşah, Şəhabəddin (1389-1450): şair və tarixçi. 257
İbn Əsakir, Əbül-Qasım (? - 1176): tarixçi. 242
İbn Hövqal: X əsrdə yaşamış müsəlman coğrafiyaşünası. 244
İbn Xürrəm: Əndülüslü alim. 242
İbn Rüşd (1126-1198): ərəb filosofu və alimi. 134
İbn Sina (980-1037): Orta əsrlər dövrünün böyük həkim və filosofu. 134, 242
İbnüləsir (1160-1233): ərəb tarixçisi. 242, 256
İbrahim Ədhəm əfəndi: Azərbaycanın hərbi xadimi; Birinci alay komandanının müavini. 171
İbrahim Mütəfərriqə (? - 1747): Halhazırda Rumıniya sərhədi daxilində yerləşən Kolojvar şəhərində doğulmuş, türklərə əsir düşdükədn sonra müsəlman olmuş və Osmanlı sarayında müxtəlif vəzifələr tutmuş-

dur. Türkiyədə ilk mətbəəni quran və ilk kitabları çap edən şəxs kimi məşhurlaşmışdır. 244, 245, 257

İbrahim paşa, Nevşehirli Damad (1660-1730): Nevşehirdə doğulmuşdur. Dövrün Osmanlı padşahı III Əhmədin qızı Fatma sultanla evlənmişdir. 1718-1730-cu illər arasında Osmanlı sədrəzəmi (baş vəziri) olmuşdur. 244

İbrahimbəyli: Azərbaycan Poçt və Teleqraf Nazirliyinin kargüzarı olmuşdur. 2

İbrahimov, Xəlil (Xəlil İbrahim; Xəlil İbrahimzadə; 1892-1938): Azərbaycanlı müəllim, publisist və tənqidçi. Şuşada anadan olmuşdur. Bakıda müəllim işləmiş, müxtəlif qəzet və jurnallarda, o cümlədən "Azərbaycan" qəzetində yazılar dərc etdirmiş, bir müddət "Azərbaycan" qəzetinin "müvəqqəti müdiri" olmuşdur. 1938-ci ildə həbs edilərək güllələnmişdir. 45, 62, 70, 97, 122, 149, 176, 203, 228, 256, 282, 309, 315, 336, 337, 362, 381, 400, 426, 452, 478, 503, 529, 557, 565, 583, 588, 608, 634

İbrahimov, Qurban: Ucar sakini. 114

İdris əfəndi: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 555

İqor: Rus knyazı. 398

İlyas Qədir oğlu: Azərbaycan ordusunun əsgəri olmuşdur; "Azərbaycan" qəzetinə Xankəndindən yazı göndərmişdir. 174

İlyaşeviç: Muğanda Azərbaycan Cümhuriyyətinin ordusuna qarşı döyüşən qüvvələrin komandirlərindən biri olmuşdur. 66, 594, 595

İmam Rza. 192

İmamverdiyev, Məhəmmədqulu. 132

İrəvanski, Cəfər bəy: Naxçıvan müsəlmanlarının ictimai xadimi. 189

İrəvanski, Kərim xan Abbasqulu xan oğlu (1885-1919): Rusiyanın və Azərbaycanın hərbi xadimi. 376, 467

İsfahani, Əbülfərəc (897-967): ərəb tarixçisi və ədibi. 256

İsgəndəri-Kəbir: bax. Makedoniyalı İsgəndər.

İsgəndərov, Hacıağa: Baryatinski küçəsi, Lalayevin pasajında xalça və manufaktura mağazasının sahibi. 1

İskəndərzadə, Rüstəm (? - 1919): Salyan sakini, "Müsavat"ın Salyan komitəsinin katibi; "Azərbaycan" qəzetinə yazı göndərmişdir. 65, 93, 424, 425, 446

İsmayıl Fani: bax. İsmayılzadə, Fani.

İsmayılov, Teymur: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 226

İsmayılzadə, Fani: Azərbaycanın hərbi xadimi; Birinci alayın ləvazim rəisi olmuşdur. 144, 171

İsrafilbəyzadə, Ağababa: bax. İsrafilzadə, Ağababa.

İsrafilbəyzadə, Məhəmməd bəy: Bakıda müəllim olmuşdur. 497

İsrafilzadə, Ağababa bəy (yaxud İsrafilbəyli): Azərbaycanın maarif xadimi; dərslik müəllifi; Bakı Müəllimlər İttifaqının üzvü. 305, 474, 500, 625

İstəxri, Əbu İshaq: X əsrdə yaşamış ərəb coğrafiyaşünası. 243

İtkin, S.M.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 17, 44, 69, 96, 122, 308

İvanov: Lənkəran şəhərinin tanınmış şəxslərindən olmuşdur. 66

İvanov, Pavel (? - 1919): Lənkəranda bolşeviklər tərəfindən öldürülmüşdür. 253

İyirmisəkkizçələbizadə, Məhməd Səid paşa (? - 1761): Osmanlı dövlətinin Parisdəki səfiri olan atası İyirmisəkkiz Çələbi Məhməd əfəndi ilə birgə Fransaya getmişdir. Daha sonra Osmanlı dövlətində bir çox rəsmi və diplomatik vəzifə tutmuşdur. Türkiyədə mətbəənin qurulmasında böyük rolu olmuşdur. 244, 257

İzçi M. R.: "Azərbaycan" qəzetində imza. 442

İzvolski, Aleksandr Petroviç (1856-1919): Rusiyanın dövlət xadimi və diplomatı. 1906-1910-cu illərdə Xarici İşlər Naziri, 1910-1917-ci illərdə Rusiyanın Parisdə səfiri olmuşdur. 415





İzzət paşa. 484

Jan-di-Kalon: pəhləvan. 559

Janna d'Ark [Jeanne d'Arc; 1412-1431]: Fransanın milli qəhrəmanı. Fransa ilə İngiltərə arasında gedən Yüzillik müharibədə fransız ordusunun komandirlərindən olmuşdur. 179

Joffr, Jozef [Joseph Joffre; 1852-1931]: Fransanın hərbi xadimi; marşal. 26

Jukovski, Aleksandr Timofeyeviç (1884 - ?): Ukraynanın siyasi və hərbi xadimi; polkovnik. 1918-ci ildə Ukrayna Xalq Respublikasının Hərbi naziri; 1919-cu ildə Çexoslovakiyada səfir və hərbi attaşe olmuşdur. 627

K.: Tsaritsın yerli bankının vəkili. 616

Kalantaraşvili: Bakıda oğru olmuşdur. 206

Kalantarov, Qriqori: Bələdiyyə sədri. 210, 212, 318, 319

Kaledin, Aleksey Maksimoviç [1861-1918]: Rusiyanın hərbi xadimi; general; Don kazaklarının atamanı. 327

Kalişeviç: pəhləvan. 481, 559

Kamenev, Lev Borisoviç [1883-1936]: Rusiyanın siyasi xadimi, bolşevik. 1918-1926-cı illərdə Moskva Şəhər Sovetinin sədri olmuşdur. 8

Kanayan, Drastamat (Dro; 1883-1956): Erməni terrorçu və hərbi cinayətkar; Daşnaksutyun üzvü. Şərqi Anadolu və Qafqazda dinc müsəlman-türk əhaliyə divan tutulmasında xüsusi rolu olmuşdur. 141, 440, 441, 575, 622, 623

Kappel, Vladimir Oskaroviç (1883-1920): Rusiyanın hərbi xadimi; general-leytenant. 289

Kapustixa: Bakıda silah zavodunda anbar müfəttişi olmuşdur. 170

Karaçson, İmrə [Imre Karácson; 1863-1911]: macar tarixçisi və şərqşünası. 244

Karapanov: Qaryagində telefon xətləri nəzarətçisi. 224

Kardaşyan, Vahan [Vahan Cardashian; 1883-1934]: Erməni əsilli Amerika hüquqşünası və siyasi xadimi. Türkiyədə anadan olmuşdur. 1918-ci ilin dekabrında Ermənistanın Müstəqilliyi Uğrunda Amerika Komitəsini [American Committee for the Independence of Armenia] yaratmışdı. 311

Karl V [Karl V; 1500-1558]: 1519-1556-cı illərdə Müqəddəs Roma İmperiyasının imperatoru olmuşdur. 464, 479

Karransa, Venustiano [Venustiano Karranza; 1859-1920]: Meksikanın siyasi xadimi; 1917-1920-ci illərdə Meksika prezidenti idi. 288, 310

Karşteynbaum, E. S.: diş həkimi. 17, 44, 69, 96, 121, 148, 175, 202, 228, 255, 308, 335, 360, 399

Kartaşyov, Anton Vladimiroviç (1875-1960): Rusiyanın dövlət xadimi; mühacirətə getmişdir. 571

Karteron, Emil [Emile Carteron]: Fransız publisisti. 415

Kartsivadze, Nikolay İotamoviç (1884-1937): Gürcüstanın ictimai xadimi və diplomatı. Ali hüquq təhsili almışdır. Menşeviklərin Gürcüstandakı rəhbərlərindən biri idi. Gürcüstanın Azərbaycan Cümhuriyyətindəki siyasi nümayəndəsi təyin edilmişdi. 1937-ci ildə Sovet rejimi tərəfindən həbs edilərək güllələnmişdir. 63

Katalyan: bolşevik. 615

Katib Çələbi (1609-1657): Türk alimi. 245

Kazım bəy: minbaşı. 221

Kazım Mustafa oğlu: Azərbaycan əsgəri. 399

Kazım Nəcəfqulu oğlu (Məşhədi Kazım Məşhədi Nəcəfqulu oğlu): Şirvan sakini. 502

Kazımi, Mirmahmud (yaxud Mirmahmud Kazımlı; Mirmahmud Kazımovski; 1882-1940): Azərbaycan aktyor, rejissor və dramaturqu. 92, 178

Kazımov: Gəncədəki İrəvan qaçqınlarından. 251

Kazımov, Teymur Həsən: Naxçıvan müsəlmanlarının ictimai xadimi. 189

Kazımovski, Mirmahmud: bax. Kazımi, Mirmahmud.

Kazımzadə: Əmək Nazirliyinin katibi olmuşdur. 189, 236, 543
Kazımzadə, Abbasqulu (1882-1947): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 175, 566
Kazımzadə, Xankişi: Balaxanada “Qafqaz Masis” mədənində “İttihad” partiyası şöbəsinin xəzinədarı. 304
Kerenski, Aleksandr Fyodoroviç (1881-1970): Rusiya Müvəqqəti Hökumətinin (iyul-noyabr 1917) başçısı. 35, 327, 488, 504
Keşmir, Camal (yaxud Artin Camal; 1862-1949): Türkiynin siyasi xadimi. Osmanlı dövlətinin son dövrlərində Daxili İşlər naziri, Ticarət və Əkinçilik naziri kimi vəzifələr tutmuşdur. 598
Kələntərli, Ağabəy. 279
Kələntərli, Xudaverdi: bax. Kələntərzadə, Xudaverdi.
Kələntərzadə, Xudaverdi: maarif xadimi; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 87, 88, 624
Kəngərli, İbrahim bəy. 247
Kərimli, Nəcəfəli: Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının üzvü olmuşdur. 171
Kərimov: Qarabağdakı Azərbaycan postları komandanının müavini olmuşdur. 184
Kərimov, Kərim: Bakıda yaşayan lənkəranlılardan. 88
Kərimov, M. M.: Bakıda göz həkimi olmuşdur. 149
Kərimov, Rəşid (Kərbəlayi Rəşid): Salyan xeyriyyəçilərindən. 93
Kərimzadə, A.: Bakı Üçüncü gimnaziyasını bitirmişdir. 39
Kərimzadə, Mirzəağa: “Müsavat” partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin idarə heyətinin sədri olmuşdur. 359, 360, 421
Kəsəmənski, Şirin bəy (1887-1920): Azərbaycanın hərbi xadimi; polkovnik. Praporşiklər məktəbinin rəisi, İkinci Bakı Piyada alayının komandiri olmuşdur. 78
Kəsmeyi Hacı Əhməd: İranda Cəngəlilər hərəkatının başçılarından biri olmuşdur. 516
Kiçik xan: bax. Mirzə Kiçik xan.
Kiçikxanov, Bayram Niyazi oğlu (yaxud Kiçikxanlı; 1889-1922): Azərbaycanın siyasi xadimi. Zaqatalada maarif müfəttişi işləmişdir. Zaqataladan Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, eyni zamanda Parlamentin katibi olmuşdur. “Əhrar” partiyasının üzvü idi. 566
Kindi, Əbu Əş’əs. 243
Kindi, Yaqub bin İshaq: IX əsrdə yaşamış ərəb filosofu. 242
Klark, Corc (Sidenhem lordu) [George Clarke, 1st Baron Sydenham of Combe; 1848-1933]: Britaniya ordusu zabiti; 1907-1913-cü illərdə Bombey qubernatoru olmuşdur. 409
Klemanso, Jorj [Georges Clemenceau; 1841-1929]: Fransanın dövlət xadimi. 1906-1909 və 1917-1920-ci illərdə Baş Nazir olmuşdur. 26, 49, 70, 104, 188, 264, 266, 322, 371, 430, 457, 485, 488, 506, 519, 543, 592, 598
Klementyev, Vladimir Fyodoroviç: Azərbaycan Cümhuriyyəti Hərbi Nazirliyinin İntendant İdarəsinin zabiti; polkovnik. 125
Klenevski, Viktor Viktoroviç (1883 - ?): Milliyyətcə polyak olan Klenevski Slavyan-Rus Cəmiyyətindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmiş, 1919-cu ilin mart-dekabr aylarında Sosial Təminat naziri olmuşdur. 190
Klyatenberq: Şuşadakı ingilis hərbi heyətinin nümayəndəsi; polkovnik. 366
Koçeryan: erməni artisti. 253
Kolçak, Aleksandr Vasilyeviç (1874-1920): Rusiyanın hərbi və siyasi xadimi; admiral. Ağqvardiyaçılar hərəkatının başçısı, Rusiyanın Ali rəhbəri (noyabr 1918 – fevral 1920) və Rus ordusunun Ali Baş komandanı (noyabr 1918 – yanvar 1920) olmuşdur. 8, 9, 30, 31, 38, 49, 51, 52, 53, 74, 126, 188, 212, 233, 235, 264, 265, 266, 290, 321, 343, 370, 372, 373, 384, 408, 410, 414, 430, 444, 484, 485, 539, 541, 614
Kondratyev: Maarif Nazirliyi Dəftərxanasında kargüzar müavini olmuşdur. 48
Kondratyev, Vasili Vasilyeviç: Azərbaycan Cümhuriyyəti Maarif Nazirliyi idarəsində kargüzar müavini. 533
Kopelioviç, Samuil İzrailoviç: Bakıda fəaliyyət göstərmiş həkim. 17, 44, 68, 96, 122, 149, 176, 201, 227, 255, 281, 309, 336, 361, 381, 400, 452, 478, 503, 528, 556, 582, 634
Kori, Corc Norton [George Norton Cory; 1874-1968]: Birinci Dünya müharibəsindən sonra Qafqazdakı ingilis ordusunun (27-ci diviziyanın) komandiri olmuşdur. 32, 103, 190, 379, 391, 395, 397, 469, 619
Korqanov: general; 1919-cu ilin yanvarında Gürcü-Erməni Konfransında Ermənistan heyətinin tərkibində olmuşdur. 528
Koşelyov, Nikolay: Azərbaycan Dəmiryollarında ikinci sahənin mühafizə rəisinin müavini olmuşdur. 231
Kotovski, İ. İ.: Azərbaycan Ticarət Nazirliyinin nümayəndəsi. 356
Kotsev, Pşemaxo Tamaşeviç (1884-1962): Şimali Qafqazın siyasi xadimi; Dağlılar Respublikasının Baş naziri olmuşdur. 141, 166
Kovalski: Dağıstanın Kizlyar şəhəri sakini; yəhudi taciri. 413
Koy: admiral. 571
“Köçəri”: “Azərbaycan” qəzetinə məktub yazmışdır. 425
Köçərli, Firidun bəy (1863-1920): Azərbaycanın görkəmli maarif xadimi, ədəbiyyatşünası və yazıçısı. Qori Müəllimlər Seminariyasını bitirmişdir. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək müstəqil bir seminariyaya çevirmiş və bu seminariyanın direktoru olmuşdur. Azərbaycan Milli Şurasının üzvü kimi İstiqlal Bəyannaməsini imzalayanlar arasında yer alan Firidun bəy Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinə dair əsərləri xüsusilə dəyərlidir. Bolşeviklər tərəfindən güllələnmişdir. 545
Köprülüzadə, Məhməd Fuad bəy (1890-1966): Türk ədəbiyyatşünası və türkoloqu. Türk ədəbiyyatı tarixinə dair bir sıra qiymətli əsərlərin müəllifidir. Eyni zamanda siyasətlə də məşğul olmuş, dəfələrlə millət vəkili seçilmiş, 1950-1956-cı illərdə Türkiyənin Xarici İşlər naziri olmuşdur. 272
Kramarj, Karel [Karel Kramář; 1860-1937]: Çexiyanın siyasi xadimi. 1918-1919-cu illərdə Baş nazir olmuşdur. Paris Sülh Konfransında Çexiya heyətinə rəhbərlik etmişdir. 593
Krayevski: pəhləvan. 430, 481, 533, 585
Kriçinski, Aslan bəy: bax. Kriçinski, Leon Konstantinoviç.
Kriçinski, Leon Konstantinoviç (Leon-Nayman Mirzə Kriçinski; Kriçinski Radvan; Aslan bəy Kriçinski; Arslan bəy Kriçinski; 1887-1939): Krım və Azərbaycanın ictimai xadimi, tarixçi. Polşa tatarlarından olan Kriçinski Vilnüsdə anadan olmuşdur. Sankt-Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Simferopol dairəsinin prokuroru olmuş, Krım Xalq Respublikası Hökumətində və Krım Regional Hökumətində müxtəlif vəzifələr tutmuşdur. 1919-cu ildə Azərbaycana gəlmiş, Azərbaycan Hökuməti İşlər İdarəsi Dəftərxanasının müdiri olmuşdur. 1920-ci ildə Vilnüsə getmişdir. 1939-cu ildə Polşanı işğal edən almanlar tərəfindən həbs edilmiş və güllələnmişdir. 393
Krivoşein, Aleksandr Vasilyeviç (1857-1921): Rusiyanın dövlət xadimi. Dövlət Şurasının üzvü (1906-1917); Cənubi Rusiya Hökumətinin sədri (iyun-oktyabr 1920) olmuşdur. 23
Kropotov, D. N.: Muğan hökumətinin üzvü; hərbçi. Sara adasında hərbi hidroaviasiya bazasının rəisi olmuşdur. Ağqvardiyaçılar tərəfindən güllələnmişdir. 253, 278, 607
Krusinski, Tadeuş [Tadeusz Krusiński;

1675-1751]: Polşa şərqşünas, səyyah, diplomat və həkimi. 257
Krutin, S.: Bakıda dərzi olmuşdur. 22
Kukuşev: Azərbaycandan Naxçıvana göndərilmiş zabit heyətinin başçısı. 140, 419, 601
Kukuşvili, Aleksandr: Bakıda qəhvəxana sahibi olmuşdur. 113
Kumerliz: Bakı sakini. 380
Kun, Bela [Béla Kun; 1886-1938]: Macarıstanın və SSRİ-nin siyasi xadimi; kommunist. 1919-cu ildə Macarıstan Sovet Respublikasının Xarici İşlər xalq komissarı olmuşdur. 386, 613
Kursin (? - 1919): bolşevik komissarı. 597
Qacar, Ağa Məhəmməd şah (1742-1797): Qacarlar dövlətinin qurucusu və ilk hökmdarı. 1789-1797-ci illərdə hakimiyyətdə olmuşdur. 83, 97
Qaçaq Məmməd: bax. Zuvandski, Məmməd.
Qaçaq Yunis: Cümhuriyyət dövründə Azərbaycanın cənub bölgələrində fəaliyyət göstərmiş qaçaq. 394
Qadaseviç: hüquqşünas; Mənzil komissiyasının üzvü. 378
Qafarov, Hüseyn (Məşhədi Hüseyn): Şəki sakini. 451
Qafarov, Xankişi bəy: Göyçay qəzasının rəisi, Bakı qubernatorunun ikinci müavini olmuşdur. 144
Qafarov, Qulu: Şəki sakini. 451
Qafur Rəşad: bax. Mirzəzadə, Qafur Rəşad.
Qaje, A.: Fransanın Bakıdakı konsulu olmuşdur. 525
Qalişeviç: pəhləvan. 430
Qambaşidze, David (? - 1946): Gürcüstanın siyasi xadimi və diplomatı. 1918-ci ilin noyabrından 1921-ci ilin fevralına qədər Gürcüstanın İngiltərədə diplomatik nümayəndəsi olmuşdur. 235, 458
Qaplanov, Rəşid xan (1883-1937): Azərbaycanın və Dağıstanın siyasi xadimi. Kumık əsillidir. Sorbon Universitetinin (Paris) Hüquq fakültəsini bitirmişdir. İstanbulda müxtəlif təhsil qurumlarında, o cümlədən İstanbul Universitetində dərs demişdir. 1918-ci ilin dekabrından 1919-cu ilin martına qədər Dağlılar Respublikasının Daxili İşlər naziri olmuşdur. Dağıstan Denikin qoşunları tərəfindən işğal edildikdən sonra Azərbaycana gəlmiş, əvvəlcə Maarif və Dini Etiqad (aprel-dekabr 1919), sonra Maliyyə (dekabr 1919 – aprel 1920) naziri olmuşdur. 1937-ci ildə güllələnmişdir. 2, 48, 404, 533, 586
"Qarabağlı": "Azərbaycan" qəzetində imza. 164, 240
Qarabəyli, Qara bəy (1873-1953): Azərbaycanın ictimai-siyasi xadimi, eyni zamanda həkim və jurnalist; Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü. "Difai" partiyasının rəhbərlərindən, "İttihad" partiyasının sədri olmuşdur. "Həyat", "İrşad", "Kaspi" kimi bir sıra nəşrlərlə əməkdaşlıq etmişdir. 6, 163, 181, 207, 260, 261, 285, 367, 368
Qarabəyov, Qara bəy: bax. Qarabəyli, Qara bəy.
Qaragözov, Musa bəy: Xaçmaz Poçt və Teleqraf İdarəsinin müdiri olmuşdur. 2
Qarayev, Əliheydər (1896-1938): Azərbaycanın siyasi xadimi. Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonar Bakı Sovetinin sədri, Azərbaycan Sovet Sosialist Respublikasının Hərbi Dəniz İşləri xalq komissarı, Əmək xalq komissarı və Ədliyyə xalq komissarı olmuş, bir sıra digər vəzifələrdə işləmişdir. 1937-ci ildə həbs edilmiş, 1938-ci ildə güllələnmişdir. 67, 120, 121, 143
Qartonq, Fyodor Fyodoroviç: Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyi dəftərxanasının kargüzarı olmuşdur. 482
Qasım (Çobankərəli Qasım): İrəvan sakini. 280
Qasım Əhməd oğlu: Azərbaycan əsgəri. 399





Qasım Qulu oğlu (Kərbəlayi Qasım): Şuşa sakini. 185
Qasımzadə, Ağaəli: Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 625
Qasımzadə, Feyzulla (1898-1976): Azərbaycan alimi, ədəbiyyatşünas və pedaqoq. Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. 64
Qasımzadə, Həsən: "İttihad" məktəbini bitirmiş, İkinci Realnı məktəbində türk dili müəllimi olmuşdur. 422
Qasımzadə, Mustafa. 64
Qatır Məmməd (1887-1919): Gəncə qəzasında qaçaq dəstəsi rəhbəri olmuşdur. 90
Qayıbov, Cahangir bəy Mirzə Hüseyn əfəndi oğlu (1882-1938): Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Dəftərxana müdiri olmuşdur. 32, 490
Qayıbov, Məhəmməd ağa Məhəmmədkərim ağa oğlu (1883-1957): Azərbaycan həkimi; Cümhuriyyət dövründə Səhiyyə nazirinin müavini olmuşdur. 524
Qayıtmaz İsmayıl oğlu: Qusarın Sudur kəndinin yüzbaşısı olmuşdur. 86
Qazıbəyov. 90
Qazıxanov, Yusif (Məşhədi Yusif): Gəncə Sənətkarlar İttifaqının sədri olmuşdur. 91
Qazıyev, Yusif bəy (yaxud Qazızadə): İrəvan Müəllimlər Gimnaziyasını bitirmişdir. 417, 418, 600
Qazızadə, Gövhər xanım. 17, 44, 68, 95, 121, 148, 175, 202, 228, 255, 282, 308, 336, 361, 381, 399, 426, 452, 477, 503, 529, 556, 583, 607, 634
Qeddes, Erik [Eric Geddes; 1875-1937]: Britaniyanın hərbi və siyasi xadimi. Birinci Dünya müharibəsi dövründə Hərbi Nazirlikdə Hərbi dəmiryollarının Baş Direktoru, Britaniyanın Baş Nəqliyyat müfəttişi, Hərbi dəniz qüvvələrinin Baş Müfəttişi kimi vəzifələr tutmuşdur. Müharibədən sonra, 1919-1921-ci illərdə Britaniyanın Nəqliyyat naziri olmuşdur. 540
Qeqamyan: Bakıda göz həkimi olmuşdur. 17, 44, 69, 96, 122, 308
Qədir Əsgər oğlu (Hacı Qədir): Qusarın Dostavər kəndinin sakini. 86
Qədirzadə, Abbasqulu: Şamaxıda müəllim olmuşdur. 497
Qəhrəmanzadə, Məhəmmədəli: Mərdəkan kəndinin camaat nümayəndəsi olmuşdur. 64, 65
Qəribxan Gənc Əli oğlu: Binəqədi sakini. 528
Qırmızı Maska: pəhləvan. 430, 505, 533, 585
Qocazadə, Həsən: Balaxanada "Qafqaz Masis" mədənində "İttihad" partiyası şöbəsi idarə heyətinin üzvü. 304
Qolts, Rüdiger fon der [Rüdiger von der Goltz; 1865-1946]: Alman generalı, qraf. Birinci Dünya müharibəsində Finlandiyada, 1919-cu ilin əvvəlindən etibarən də Pribaltikada fəaliyyət göstərmiş və Latviyada hərbi çevriliş etmişdir. 592
Qonçarov, Aleksey Kuzmiç: Bakıda, İkinci Edadi məktəbinin müdir əvəzi olmuşdur. 404
Qorki, Maksim (əsl adı: Aleksey Maksimoviç Peşkov; 1868-1936): Rus yazıçısı, sosialist realizmi ədəbiyyatının banisi. 388
Qorlin: Lənkəranda yaradılmış Şura hökumətinin hərbi naziri. 198, 253
Qranufin: Bakıdakı İtaliya hərbi heyətinin üzvü. 221
Qriqoryev, Nikifor Aleksandroviç (Ataman Qriqoryev, 1884-1919): Ukraynada Avstriya-Almaniya işğalçılarına, Antanta qoşunlarına və Qızıl orduya qarşı mübarizə aparmışdır. 74, 102, 213, 323, 383, 385, 507
Qudiyev, Quda (1880-1920): 1919-1920-ci illərdə Bakının komendantı (polis rəisi) olmuşdur. Milliyyətcə inquş idi. 628
Qulam bəy: Bakıda 2-ci sahə pristavının müavini olmuşdur. 14
Quliyev, Ağababa. 294
Quliyev, Ağabala (1862-ci ildə doğulmuşdur): Azərbaycanlı sahibkar və xeyriyyəçi. Bakıda və Rusiyanın bir sıra şəhərlərində un

dəyirmanlarına və düyü təmizləmə fabriklərinə sahib idi. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin qurucularından idi. Cümhuriyyətin süqutundan əvvəl İrana gedən Quliyev bir daha Azərbaycana qayıtmamışdır. 132, 144, 439

Quliyev, Cavad: "Azərbaycan" qəzeti mətbəəsinin kassiri olmuşdur. 2

Quliyev, Qüdrət: Balaxanı sakini. 68

Quliyev, Oruc: Bakı sakini. 399

Quluzadə: Bakı Realnı məktəbini bitirmişdir. 39

Quluzadə, Hüseyn (Mirzə Hüseyn): Parlament kvestorunun (təsərrüfat müdirinin) müavini olmuşdur. 22

Quluzadə, M.: Bakı Realnı məktəbini bitirmişdir. 39

Quluzadə, M. Q.: Bakı İkinci gimnaziyasını bitirmişdir. 39

Qurbanov, Həsən: Tiflisdə, İrəvan Həmtorpaqlıları Cəmiyyətinin xəzinədarı olmuşdur. 33

Qurbanzadə, Məhəmməd (Hacı Məhəmməd): Bakıda yaşayan lənkəranlılardan. 88

Qureviç: Cümhuriyyətdən əvvəl Bakıda notarius olmuşdur. 84

Qurkin: Lənkəran Şura hökumətinin üzvü. 537

Quşbaz oğlu Hacı Həsən. 91

Qutenberq, İohann [Johannes Gutenberg]: mətbəəni ixtira etmiş alman ixtiraçısı; XV əsrdə yaşamışdır. 244

Lansinq, Robert [Robert Lansing; 1864-1928]: ABŞ-ın dövlət xadimi; 1915-1920-ci illərdə Dövlət katibi vəzifəsini tutmuşdur. 322, 371, 382

Laptinov (ata): Qubada feldşerlik etmişdir. 579

Laptinov (oğul): Qubada Denikin təbliğatı aparmışdır. 579

Larionov, Pavel Averyanoviç: Bakıda işləmiş həkim. 473

Larnod, Ferdinand [Ferdinand Larnaude; 1853-1942]: Paris Universiteti Hüquq fakültəsinin dekanı olmuşdur. Millətlər Cəmiyyətinin yaradılması prosesində iştirak etmişdir. 593

Lauton [Lawton]: Müttəfiqlərin Şərur-Naxçıvan bölgəsindəki general-qubernatoru olmuşdur. 331, 375, 376, 419, 602

Lazarev: Könüllü ordunun Bakıdakı İngiltərə Komandanlığı nəzdində nümayəndəsi olmuşdur. 62, 129, 492

Lazarev, İvan Lazareviç (yaxud Ovanes Aqazaroviç Lazaryan; 1735-1801): II Yekaterina dövrünün saray zərgəri. 609

Lebedev, Aleksey Pavloviç: Azərbaycan Cümhuriyyəti Maliyyə Nazirliyinin Şura üzvü olmuşdur. 439

Lenin, Vladimir İliç (1870-1924): Rus inqilabçı və marksist. Əsl soyadı Ulyanov idi. Rusiyada 1917-ci il Oktyabr inqilabının təşkilatçısı və rəhbəri, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) qurucusu və SSRİ Nazirlər Sovetinin ilk sədri olmuşdur. 8, 48, 126, 288, 386, 444, 570

Leontyev: Çarlıq dövründə Qubada rəis olmuş, inqilabdan sonra Könüllü ordu tərəfindən Dərbəndə rəis təyin edilmişdir. 277, 580

Leontyeviç, Aleksandr Konstantinoviç (? - 1920): Cümhuriyyətdən əvvəl Bakı Şəhər Dumasının üzvü; Mərkəzi Ev Komitəsinin təsisçilərindən biri və rəhbəri olmuşdur. 1920-ci ildə bolşeviklər tərəfindən güllələnmişdir. 105, 106, 630

Lettov-Forbek, Paul Emil fon [Paul Emil von Lettow-Vorbeck; 1870-1964]: Alman ordusunun general-mayoru; Birinci Dünya müharibəsində Almaniyanın Afrikadakı ordularının komandanı olmuşdur. 535, 557

Levin, B. L.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 44, 69, 122, 201, 228, 255, 308, 361, 400, 452, 503, 556

Leyq, Jorj [Georges Leygues; 1857-1933]: Fransanın siyasi xadimi. Müxtəlif nazirliklərə rəhbərlik etmiş, o cümlədən 1917-ci ildən 1920-ci ilin yanvarına qədər Dənizçilik naziri,





1920-ci ilin sentyabrından 1921-ci ilin yanvarına qədər Baş nazir və Xarici İşlər naziri vəzifələrini tutmuşdur. 457

Lənkəranlı: "Azərbaycan" qəzetində imza. 173, 279

Lətifbəyov, Rza (Rza Zaki): Azərbaycanlı pedaqoq və yazıçı. Bakı, Gəncə, Şəki, Göyçay və Batumda müxtəlif təhsil ocaqlarında ana dili və şəriətdən dərs demişdir. Bədii yaradıcılıqla da məşğul olmuş, xüsusilə tarixi mövzularda əsərlər yazmışdır. 502

Lianozov, Stepan Georgiyeviç (1872-1949): Erməni əsilli neft sənayeçisi. 1907-ci ildə "G. M. Lianozov və oğulları" adlı neft şirkətini qurmuşdu. 143

Litvinenko. 485

Lizqar: Əmlak və Ərazi Nazirliyində işləmişdir. 630

Lloyd Corc, Devid [David Lloyd George; 1863-1945]: Britaniyalı siyasətçi. 1905-1908-ci illərdə Ticarət naziri, 1908-1915-ci illərdə Maliyyə naziri, 1915-1916-cı illərdə Hərbi nazir olmuşdur. 6 dekabr 1916 – 19 oktyabr 1922 tarixləri arasında Britaniyanın Baş Naziri vəzifəsini tutmuşdur. 49, 70, 127, 266, 320, 322, 371, 487, 536, 569, 593, 597, 598, 613, 615

Lobji, Y.: tələbə; Lahıcdan "Azərbaycan" qəzetinə məktub yazmışdır. 335

Lord: professor; Amerikan heyətinin üzvü. 488

Lord Sidenhem: bax. Klark, Corc.

Lord Sinc. 127

Lou, Bonar [Bonar Law; 1858-1923]: Britaniyanın siyasi xadimi. 1916-1921-ci illərdə Mühafizəkarlar Partiyasının lideri olmuş, 1922-1923-cü illərdə Britaniyanın Baş naziri vəzifəsini tutmuşdur. 49

Lvov, Georgi Yevgenyeviç (1861-1925): Rusiyanın siyasi xadimi; knyaz. 1917-ci ilin mart-iyul aylarında Müvəqqəti Hökumətin başçısı olmuşdur. Paris Sülh Konfransına göndərilən Rusiya heyətinin tərbində olmuşdur. 30, 488, 504

Lyaxov, Vladimir Platonoviç (1869-1920): Rusiyanın hərbi xadimi; general-leytenant. 324

Lyubaşevskaya: Bakıda həkim olmuşdur; bakterioloq. 17, 44, 69, 96, 122, 308

M. B.: "Azərbaycan" qəzetində imza; bax. Mirbağırzadə, Mirabbas.

M. R.: "Azərbaycan" qəzetində imza. 380

M. S. (yaxud Mim. Sad.): bax. Aran, Məhəmməd Sadıq.

Maarifçi: "Azərbaycan" qəzetində imza. 196

Mahmudbəyov, Mahmud bəy (1863-1923): Azərbaycanın görkəmli pedaqoqu. Qori Seminariyasını bitirmişdir. Azərbaycanın müxtəlif yerlərində müəllim və məktəb müdiri işləmişdir. "Rəhbər" jurnalının redaktoru olmuşdur. "Yeni əlifba kitabçası", "Birinci il: müsəvvər türk əlifbası və ilk qiraət" (1918-ci ilə qədər 14 çap); "Yeni məktəb" (Abbas Səhhətlə birgə; 1918-ci ilə qədər 8 çap); "Türk ədəbiyyatına ilk qədəm" (Abbas Səhhətlə birgə); "Müntəxəbat: türk ədiblərindən nümunələr" (Abdulla Şaiqlə birgə); "Üçüncü il" kimi dərsliklərin müəllifidir. 249, 500, 625

Mahmudbəyzadə, Mahmud bəy: bax. Mahmudbəyov, Mahmud bəy.

Mahmudov, Qədir: Gəncə tərəflərdə quldur dəstəsi başçısı olmuşdur. 335

Mahmudov, Mahmud. 92

Mahmudov, T.: Bakı qradonaçalnikinin müavini olmuşdur. 303

Maxno, Nestor İvanoviç (1888-1934): Ukraynalı anarxist-kommunist. 383

Maxtilyayev, İbrahim: pəhləvan. 430, 533

Makarov: pəhləvan. 481, 585

Makedoniyalı İskəndər (e. ə. 356 – e. ə. 323): Qədim Makedoniya kralı; sərkərdə. 463

Makino Nobuaki (1861-1949): Yaponiyanın siyasi xadimi. 1913-1914-cü illərdə Xarici İşlər naziri olmuşdur. Paris Sülh Konfransında ölkəsini təmsil etmişdir. 266, 322, 593

Makinski, Abbasəli bəy (1888-1938): Azərbaycanlı hüquqşünas. Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Cümhuriyyət dövründə müxtəlif dövlət qurumlarında hüquq məsləhətçisi və xüsusi tapşırıqlar üzrə məmur kimi fəaliyyət göstərmiş, həmçinin Ticarət, Sənaye və Ərzaq Nazirliyi Dəftərxanasının müdiri olmuşdur. 1938-ci ildə güllələnmişdir. 562

Makinski, Əli xan. 330, 470

Makinski, N.: İrəvan quberniyası müsəlmanları Şurasının sədri. 475

Makinski, Zülfüqar bəy Məhəmməqulu bəy oğlu (1885 - ?): İrəvanda anadan olmuşdur. Azərbaycan Ümuri-Xeyriyyə və Nafiə (Sosial Təminat) Nazirliyinin İrəvandakı müvəkkili olmuşdur. 461, 490

Maklakov, Vasili Alekseyeviç (1869-1957): Rusiyanın siyasi xadimi. Dövlət Dumasının üzvü olmuşdur. Müvəqqəti Hökumət tərəfindən Parisə səfir təyin edilmiş, fəqət vəzifəsini ifa etməyə başlaya bilməmişdir. Mühacirətə getmişdir. 30, 591

Maklin, Donald [Donald Maclean; 1864-1932]: Britaniyanın siyasi xadimi. Liberal partiyanın üzvü idi. 1918-1920-ci illərdə Britaniyada müxalifətin lideri olmuşdur. 187

Maksimoviç, Aleksey Pavloviç: Qarabağda xidmət etmiş rus hərbçisi; Azərbaycan postlarının komandiri. 184, 341

Malaşevski, V. F.: kooperativçi. 553

Malaviya, Madan Mohan (1861-1946): Hindistanın ictimai xadimi; Hindistan Milli Konqresinin prezidenti olmuşdur. 127

Malxazov: bax. Malxazyan.

Malxazyan, Arşak İoanesoviç (yaxud Malxazov, İvanoviç): "Daşnaksutyun" partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 91, 565, 588, 589

Malışko, Adolf. 169, 170

Malinin: kooperativçi. 602

Mamatsuyev, Artyomoviç: Bakı sakini. 170

Mamikonyan, Stepan Qriqoryeviç (1859-1921): Ermənistanın ictimai-siyasi xadimi; publisist. Ermənistan Parlamentinin üzvü olmuş, Zaqafqaziya Konfransında iştirak etmişdir. 214, 332

Manço, Aleksandr İvanoviç (1868 - ?): mühəndis-mexanik. Bakıda neft şirkətlərində, Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyində işləmişdir. Birja Komitəsinin, Bakı Dumasının üzvü olmuş, həmçinin bir sıra başqa sahələrdə də ictimai fəaliyyətlə məşğul olmuşdur. 180, 233

Mandenştam. 371

Manvelov, Matvey: Qubada müstəntiq olmuşdur. 579

Markeviç, Konstansa [Constance Markievicz; 1868-1927]: İrlandiya inqilabçısı; İrlandiyanın müstəqilliyi uğrunda mübarizə aparan Sinn Feyn [Sinn Féin] təşkilatının üzvü. Britaniya Parlamentinin, İralndiya Respublikası Parlamentinin üzvü, İrlandiya Respublikasının Əmək naziri olmuşdur. 372

Markiz İmperiali. 322

Masarik, Tomaş Qarriq [Tomáš Garrigue Masaryk; 1850-1937]: Çexoslovakiyanın dövlət xadimi; 1918-1935-ci illərdə Çexoslovakiya Respublikasının prezidenti olmuşdur. 432

Maren: Fransanın siyasi xadimi; Parlamentin Büdcə komissiyasının üzvü olmuşdur. 616

Martin: İran ermənilərindən; diş həkimi. 489

Martin, Vilyam [William Martin]. 322

Martini, Ferdinando [Ferdinando Martini; 1841-1928]: İtaliyanın siyasi xadimi və yazıçısı. Deputat, Müstəmləkələr naziri, Maarif naziri olmuşdur. 483

Mdivani, Mixail Dmirtiyeviç: Bakıda fəaliyyət göstərmiş həkim olmuşdur. 202, 228, 256, 282, 309, 336, 362, 381, 400, 426, 452, 477, 503, 529, 556, 583, 607, 634

Mehdi (Hacı Mehdi): Cümhuriyyət dövründə Naxçıvandakı qoşun başçılarından olmuşdur. 601





Mehdiqulu xan. 296

Mehdizadə, İmran: Göyçayda müəllim olmuşdur. 497

Mehdizadə, İsmayıl: Dərbənd ziyalılarından. 512

Mehmandarov, Səməd bəy (1856-1931): Azərbaycanın hərbi xadimi. Peterburqda hərbi məktəb bitirmiş, Çar Rusiyası ordusunda xidmət etmiş, Rusiya-Yaponiya müharibəsində göstərdiyi şücaətlərə görə mükafatlandırılmış, Birinci Dünya müharibəsində iştirak etmişdir. 1917-ci ilin fevral inqilabından sonra Rusiya ordusundan istefa vermişdir. Cümhuriyyət dövründə Azərbaycanın Hərbi naziri olmuş, ordu quruculuğu sahəsində böyük işlər görmüşdür. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən həbs edilmiş, azadlığa çıxdıqdan sonra müxtəlif vəzifələrdə işləmişdir. 63, 174, 552

Mejebovski: Bakıda həkim olmuşdur. 44, 69, 96, 122, 308

Metternix, Klemens fon [Klemens von Metternich; 1773-1859]: Avstriyanın dövlət xadimi və diplomat. 1809-1848-ci illərdə Xarici İşlər naziri, 1821-1848-ci illərdə eyni zamanda Dövlət kansleri olmuşdur. Vyana Konqresinin əsas təşkilatçılarından biri idi. 463

Məcdüssəltənə, Cəmşid xan (1857 - ?): Cənubi Azərbaycanın siyasi xadimi, publisist və maarifçi. Qəzetlər nəşr etdirmiş, zəngin kitabxana və tarixi əsər kolleksiyası düzəltmiş, siyasi partiya qurmuşdur. 348, 349, 455

Məcid əfəndi: Qazaxdan "Azərbaycan" qəzetinə məktub yazmışdır. 476

Mədəni bəy: doktor. 486

Məhəmməd Cahan Pəhləvan (1136-1186): 1175-1186-cı illərdə Azərbaycan atabəyi olmuşdur. 13

Məhəmməd Cəmil bəy: Azərbaycanın hərbi xadimi; Birinci alay komandanı. 39, 171

Məhəmməd Əli oğlu: müəllim; Təlifat Heyətinin üzvü. 624

Məhəmməd Məhəmməd oğlu (Məşhədi Məhəmməd Hacı Məhəmməd oğlu). 582

Məhəmməd Peyğəmbər. 257

Məhəmməd Şərif: Xuluq (Qusar) kəndi rüşdiyyə məktəbinin müdiri olmuşdur. 443

Məhəmmədəli Ələkbər oğlu (Məhəmmədəli bəy Ələkbər bəy oğlu): Qaziyan kəndinin yüzbaşısı olmuşdur. 14

Məhəmmədəli xan: Naxçıvan xanlarının nəslindən. 65

Məhəmmədəli şah Qacar (1872-1925): Qacarlar sülaləsindən İran şahı; 1907-1909-cu illərdə hakimiyyətdə olmuşdur. 214, 433, 617, 618

Məhəmmədəliyev, Əli: Göyçay sakini. 451

Məhəmmədəlizadə, Həsən (Məşhədi Həsən): Mərdəkan sakini. 379

Məhəmmədəlizadə, Möhsün (Hacı Möhsün): Mərdəkan sakini. 379

Məhəmmədhənifə Məhəmməd oğlu (Məşhədi Məhəmməd oğlu). 582

Məhəmmədismayıl Ağaəbdülxalıq oğlu: Şamaxı sakini. 175

Məhəmmədqulu bəy: Zirə kəndi sakini. 554

Məhəmmədov, Ağaməhəmməd (Kərbəlayi Ağaməhəmməd; yaxud Məşhədi Ağaməhəmməd): Göyçay sakini. 222, 450, 451

Məhəmmədov, Əli: Müsüslü (Ucar) kəndinin müəllimi. 145

Məhəmmədov, Hacıbala: Bakıda, Bazarnı küçədə (indiki Azərbaycan prospektində) dükanı olmuşdur. 502, 528, 556

Məhəmmədov, İsrafil: Göyçay sakini. 451

Məhəmmədov, Məhəmməd: Bakıda 4-cü sahə polis idarəsinin protokol katibi olmuşdur. 206

Məhəmmədov, Zeynal: Tiflisdə, İrəvan Həmtorpaqlıları Cəmiyyətinin katibi olmuşdur. 33

Məhəmmədyarov, S.: Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq Nazirliyində kargüzar müavini olmuşdur. 482, 506

Məhəmmədzadə, Heydər: Ağdaşdakı qaçqınlardan olmuşdur. 64
Məhəmmədzadə, Həmid: Birinci Oğlanlar gimnaziyasının tələbəsi, Müsəlman Tələbələri İttifaqı Mərkəzi Komitəsinin sədri olmuşdur. 39
Məhəmmədzadə, İbrahim: Balaxanada “Qafqaz Masis” mədənində “İttihad” partiyası şöbəsinin katibi. 304
Məhəmmədzadə, Qulam: Azərbaycan Cümhuriyyəti Şeyxülislamlıq İdarəsində sənəd və məktub paylayan vəzifəsində işləmişdir. 482
Məhəmmədzadə, Mirzəbala (1898-1959): Azərbaycanın ictimai-siyasi xadimi, publisist və dramaturq. 1924-cü ildən mühacirətdə yaşamışdır. 136, 251, 552
Məhərrəmov, Əsəd: Hacıbəyli Qardaşları Müdiriyyətinin Qarabağ şöbəsinin katibi. 252
Məhərrəmzadə: polismeystr; Qarabağda Azərbaycan Hökuməti əsgərlərinin komandanlarından olmuşdur. 184
Məhməd VI (1861-1926): Osmanlı İmperiyasının sonuncu sultanı Məhməd Vəhidəddin. Sultan Əbdülməcidin oğlu idi. 3 iyul 1918-ci ildə Osmanlı sultanı olmuş, Türkiyə Böyük Millət Məclisinin monarxiyanı ləğv etdiyi 1 noyabr 1922-ci il tarixinə qədər hakimiyyətdə qalmışdır. Mühacirətdə ölmüşdür. 97
Məhməd Əmin (Soyadı qanunundan sonra “Yurdaqul” soyadını qəbul etmişdir; 1869-1944): Osmanlı Məclisi-Məbusanının və Türkiyə Böyük Millət Məclisinin üzvü olmuşdur. 502
Məhməd Süudi əfəndi [? - 1591]: Türk şairi və coğrafiyaşünası. 257
Məhməd Şərif paşa (1865-1951): Osmanlı dövlətinin siyasi xadimi və diplomatı. 374
Məlik-Movsesyans, Aşot: Ordubaddakı erməni quldur dəstələrinin başçılarından olmuşdur. 82
Məlik-Şahnazarov: Bələdiyyə sədri. 238
Məlik-Yeqanov, Cavad bəy (1878-1937): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Azərbaycan Milli Şurasının və Parlamentin üzvü olmuşdur. 1919-cu ilin avqustundan 1920-ci ilin aprel ayına qədər Lənkəranın general-qubernatoru olmuşdur. 1930-cu ildə Sovet rejimi tərəfindən həbs edilmiş, 1937-ci ildə güllələnmişdir. 351, 526
Məlikabbasov, Bəhram bəy: Cavanşir və Gəncə qəzalarında qəza rəisi olmuşdur. 335
Məlikaslanov, Xudadad bəy (1879-1935): Azərbaycanın dövlət xadimi. Peterburqda mühəndislik təhsili almışdır. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti hökumətində Nəqliyyat və Rabitə naziri, Poçt və Teleqraf naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra da bir sıra vəzifələrdə işləmişdir. Repressiyaya məruz qalmış və həbs düşərgəsində vəfat etmişdir. 85, 113, 533
Məlikaslanov, Teymur bəy: Azərbaycan Dəmiryolu İdarəsinin rəisi idi. 157, 206, 231, 232
Məlikyeganzadə, Əsgər bəy: “Müsavat” partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin mühasibi olmuşdur. 359
Mərdan paşa. 484
Mərdanlı, Səttar: Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının üzvü olmuşdur. 171
Məstanzadə, Mirsahib: “Müsavat” partiyasının Göyçay şöbəsinin üzvü olmuşdur. 225
Məsudi, Əli ibn Hüseyn (896-956): Ərəb tarixçi, coğrafiyaşünas və səyyahı. 244
Məsum Ustar oğlu: Qusarın Dostavər kəndinin sakini. 86
Məşhədi Baxış oğlu: Salyan qəzası sakini. 554
Məşhədi Göyüş: Gəncə qəzasında qaçaq dəstəsi rəhbəri olmuşdur. 90
Məşhədi Kərim uşağı: Gəncə qəzasında qaçaq dəstəsi rəhbəri olmuşdur. 90
Mixaylov, Nikolay Mixayloviç (1867-1920): hüquqşünas. Xarkov Universitetinin Hüquq fakültəsini qurtarmış, Zaqafqaziyanın, o cümlədən Azərbaycanın müxtəlif yerlərində məhkəmə sistemində işləmişdir. Fövqəladə Təhqiqat Komissiyasının üzvü təyin edilmişdir. 446
Mikeladze: Gürcüstanın Bakıdakı konsulu təyin edilmişdir. 490
Miln, Corc [George Milne; 1866-1948]: Britaniyanın hərbi xadimi; feldmarşal. Birinci Dünya müharibəsindən dərhal sonra Balkanlarda və Qara dəniz regionunda Britaniya ordularının baş komandanı olmuşdur. 235
Milner, Alfred [Alfred Milner; 1854-1925]: Britaniyanın dövlət xadimi. Britaniyanın xarici və daxili siyasətinin formalaşmasında böyük rola malik olmuşdur. 49
Milyeran, Aleksandr [Alexandre Millerand; 1859-1943]: Fransanın siyasi xadimi. 1919-cu ildə Elzas-Lotaringiyanın Fransaya birləşdirilməsinə rəhbərlik etmişdir. 1920-ci ilin yanvar-sentyabr aylarında Baş nazir və Xarici İşlər naziri; 1920-1924-cü illərdə Prezident olmuşdur. 26
Milyukov, Pavel Nikolayeviç (1859-1943): Rusiya siyasi xadimi, eyni zamanda tarixçi və publisist. Konstitusion-Demokratik Partiyanın (Kadetlər partiyası) liderlərindən biri idi. Müvəqqəti Hökumətdə (Rusiya) Xarici İşlər naziri olmuşdur. 575
Minasbekov: Qarabağ ermənilərindən. 183, 342
Mirabbas Mirəziz oğlu: Salyan sakini. 114
Mirabbaszadə, Mirələkbər: İrəvanın Dəmirbulaq məhəlləsi sakini. 581
Mirbabayev, Mirbağır: Ermənistan Parlamentinin üzvü olmuşdur. 528, 531
Mirbağırzadə, Mirabbas: Azərbaycanın publisisti və ictimai xadimi; eyni zamanda İrəvanda və Bakıda kitab ticarəti ilə məşğul olmuşdur. Dövrünün mətbuatında çoxsaylı yazılarla çıxış etmişdir. Əsasən tarix mövzusunda olmaqla bir neçə kitabın müəllifidir. Başçılıq etdiyi heyət Azərbaycan Cümhuriyyəti Hökumətinin Naxçıvanın problemləri ilə tanış olması və bu problemləri aradan qaldırmaq istiqamətində adımlar atılması baxımından çox önəmli rol oynamışdır. 331, 377, 418, 419, 466, 467, 550, 468, 600, 601, 602
Mirhaşımzadə, Mirkazım: “Müsavat” partiyasının Göyçay şöbəsinin üzvü. 224
Mirhəsən: İrəvan sakini; qəssab. 280
Mirhüseyn Seyid Salman oğlu: Maştağa sakini. 144, 151
Mirhüseyn Seyid Süleyman oğlu: Maştağa sakini. 151
Mirmahmudov, Seyidəli: Bərdə sakini. 603
Mirməhəmmədov, Mirhaşım: İrəvanın Dəmirbulaq məhəlləsi sakini. 581
Mirvahab Seyidkamil oğlu (Hacı Mirvahab): Pirşağı sakini. 254, 308
Miryusif Mirməhəmməd oğlu: Maştağa sakini. 144
Mirzə Kiçik xan (1880-1921): İranlı inqilabçı və hərbi xadim; Cəngəlilər hərəkatının lideri olmuşdur. 435, 516, 617
Mirzəbağırbəyov, Əbuş bəy: İrəvanlı. 330
Mirzəbəyov: Qaryagində poçtalyon. 224
Mirzəbəyov, Osman: Azərbaycan Dəmiryolları idarəsində mühafizə rəisinin 2-ci müavini olmuşdur. 157, 158, 206, 223, 231
Mirzəcamalov, Hüseyn bəy Məhəmmədrəfi bəy oğlu (1890-1974): Azərbaycan Cümhuriyyəti Ziraət nazirinin katibi, Parlamentdə Qanun Layihələri şöbəsinin müdiri olmuşdur. Cümhuriyyətin süqutundan sonra maarif sahəsində çalışmış, 1921-1922-ci illərdə Türkiyəyə mühacirətə getmişdir. Türkiyədə “Yanar” soyadını qəbul etmişdir. 114
Mirzəməhəmmədzadə, Məhəmməd. 64
Mirzəyev: Bakının polismeysteri olmuşdur. 378
Mirzəzadə, Qafur Rəşad (1884-1943): Azərbaycanın görkəmli pedaqoqu, publisisti və coğrafiyaşünası. Azərbaycanın müxtəlif

yerlərində müəllimlik etmişdir. Uşaqlar üçün "Məktəb" jurnalını nəşr etdirmiş, coğrafiya, qrammatika, hesab dərslikləri yazmışdır. 624

Misirxanov, Ağabəy: Bakıda, 6-cı sahənin pristavı olmuşdur. 333, 337

Monro, Ceyms [James Monroe; 1758-1825]: Amerikanın dövlət xadimi; 1817-1825-ci illərdə 5-ci ABŞ prezidenti olmuşdur. 30, 45

Monteqyo, Edvin Semuel [Edwin Samuel Montagu, 1879-1924]: Britaniyalı siyasətçi. 1917-1922-ci illərdə Hindistan İşləri naziri olmuşdur. 127, 595

Montenels: jurnalist. 55

Mopassan, Gi de [Guy de Maupassant; 1850-1893]: Fransız şair və yazıçısı; naturalizmin nümayəndəsi. 178

Morqentau, Henri [Henry Morgenthau; 1856-1946]: ABŞ diplomatı. 1913-1916-cı illərdə ABŞ-ın Osmanlı imperiyasında səfiri olmuşdur. 53

Morris: Müttəfiqlərin Sibirdəki nümayəndəsi olmuş ABŞ diplomatı. 52

Mortara, Lodoviko [Lodovico Mortara; 1853-1921]: İtaliyanın siyasi xadimi. 1919-1920-ci illərdə Ədliyyə naziri olmuşdur. 432

Muxtar Əhəd oğlu: Tovuzdakı İrəvan qaçqınlarından. 251

Muxtarov, Əli Cəbrayıl oğlu. 477

Muradov, Sultan bəy Əlipaşa bəy oğlu (1871-1955): Zəngəzurda milli milis dəstəsinin rəisi olmuşdur. 200, 201

Murtuzaqulu xan (İqbalüssəltənə; 1863-1923): Maku xanı; sərdar. 376

Musa Kazım əfəndi (1858-1920): İttihad və Tərəqqi Cəmiyyətinin üzvü; 1910-1911 və 1916-1918-ci illərdə Osmanlı şeyxülislamı olmuşdur. 598

Musalayev, Cəmalüddin (1880 - ?): Rusiyanın və Dağıstanın hərbi xadimi; polkovnik. 1918-ci ilin axırlarında Dağlılar hökuməti tərəfindən Dağıstanın qubernatoru, 1919-cu ilin may ayında Denikin hökuməti tərəfindən Dağıstan hakiminin müavini təyin edilmişdi. Sovetləşmədən sonra mühacirətə getmişdir. 129, 150

Musazadə, İsabala (Hacı İsabala). 65

Mustafa: "Müsavat" partiyasının Suraxanı şöbəsinin üzvü. 115

Mustafa əfəndi: Qafqazın müftüsü. Bax. Əfəndizadə, Mustafa.

Mustafa Məhəmməd oğlu (Mustafa əfəndi Məhəmməd əfəndi oğlu): Şəkinin Orta Zəyzid kəndinin mollası olmuşdur. 100

Mustafa paşa. 484

Mustafabəyov, Balabəy: əcnəbi dövlətlərlə mal mübadiləsi işlərinə baxan Komitənin müdiri; daha sonra Ticarət, Sənaye və Ərzaq Nazirliyinin Dəftərxanasında Ticarət şöbəsinin rəisi olmuşdur. 180

Mustafayev: Qazax Rüşdiyyə məktəbinin müdiri olmuşdur. 586

Mustafayev, Həsən: milyonçu. 630

Mustafazadə, Mirvat. 16

Mustafazadə, Mürvət. 43, 46

"Müəllim": "Azərbaycan" qəzetində imza; Lənkərandan yazmışdır. 88

Müqəddəsi, Şəmsəddin (yaxud Məqdisi): X əsrdə yaşamış ərəb coğrafiyaşünası və səyyahı. 244

Müller, Herman [Hermann Müller; 1876-1931]: Almaniyanın siyasi xadimi; sosial-demokrat. 1919-cu il iyunun axırlarından 1920-ci il martın axırlarına qədər Almaniyanın Xarici İşlər naziri olmuşdur. Versal sazişini Almaniya tərəfindən Yohannes Bell ilə birgə imzalamışdır. 26

Mürsəl: Zəngəzurun Zarıslı kəndinin sakini; xeyriyyəçi. 117

Mürsəl Tağı bəy oğlu: Qaziyan kəndində quldur dəstəsinin başçısı olmuşdur. 14

Mürsəlzadə: Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 500

Mürsəlzadə, Piri: "Müsavat" üzvü. 224, 225

Müslümzadə, Məhəmmədrza: "İttihad" məktəbini bitirmiş, Balaxanı Realnı məktəbində türk dili müəllimi olmuşdur. 422





Müsafir N. M. Ayn.: "Azərbaycan" qəzetinə məktub yazmışdır. 555

Müstəan: tarixçi. 349

Müznib, Əliabbas (Mütəllibzadə; 1883-1938): Azərbaycan yazıçısı və jurnalisti. Eyni zamanda ədəbiyyatşünas və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. 171, 247, 466, 500, 624

Nağıbinov: Qazax Rüşdiyyə məktəbinin müəllimi olmuşdur. 586

Nağıyev, Ağatağı. 68

Nağıyev, Musa (1842-1919): Azərbaycanın neft sənayeçisi və xeyriyyəçi. 393, 585, 629

Nağızadə, Fəramiz: Balaxanada "Qafqaz Masis" mədənində "İttihad" partiyası şöbəsi idarə heyətinin üzvü. 304

Naxçıvanlı, Ağa Mirzəəli: Xankəndində alay mollası olmuşdur. 173

Naxçıvanski, Bəhram xan (1872 - ?): Araz Türk Cümhuriyyətinin siyasi xadimi. 35, 417, 418, 494, 495, 600, 601

Naxçıvanski, Cəfərqulu xan Kəlbəli xan oğlu (1859-1929): Azərbaycanın ictimai-siyasi xadimi. 65, 268, 331, 376, 467, 495, 600

Naxçıvanski, İsgəndər xan Rəhim xan oğlu (1889 - ?): Azərbaycanın Ermənistandakı siyasi nümayəndəliyininin attaşesi olmuşdur. İrana mühacirətə getmişdir. 439, 440

Naxçıvanski, Kəlbəli xan Cəfərqulu xan oğlu (1891-1931): Rusiyanın və Azərbaycanın hərbi xadimi. Araz Türk Cümhuriyyəti ordusunun komandanı olmuşdur. 65, 247, 268, 298, 331, 353, 376, 467

Naxçıvanski, Rəhim xan Kəlbəli xan oğlu (1860 - ?). 439

Naima (1655-1716): Osmanlı tarixçisi. 257

Naməlum: pəhləvan. 430, 455, 533, 585, 611

Namiq Kamal (1840-1888): Türk şair, dramaturq və ictimai xadimi. "Hürriyyət şairi" kimi tanınmışdır. Türk ədəbiyyatı və siyasi mühiti üzərində böyük təsirə malik olmuşdur. 403, 427, 429, 501

Napoleon I (1769-1821): 18 may 1804 – 6 aprel 1814 və 20 mart – 22 iyun 1815 tarixlərində Fransa imperatoru. 464, 465, 479, 480

Narimbəyov. 578

Nasiyev, İsaq: Petrovsk (Mahaçqala) sakini. 206

Natiyev, Aleksandr (1873-1919): Rusiya və Ukraynanın hərbi xadimi. Cənubi Rusiya Silahlı Qüvvələrində xidmət edərkən, Batumidə öldürülmüşdür. 8, 50, 307, 596

Nazirov, Mürsəl bəy: Qubada xəfiyyə polisi müdiri olmuşdur. 579

Nelidov (? - 1919): Rusiyanın hərbi xadimi; polkovnik. 289

Nemanzadə, Ömər Faiq (1872-1937): Azərbaycanın publisist və pedaqoqu; ictimai-siyasi xadimi. Milliyyətcə Axıska türküdür. 34, 35, 36, 133, 150, 350, 362, 445, 453

Neşeretov: kooperativçi. 602

Nəcəfbəyov, Mehdi bəy: Bakı quberniyasının xüsusi işlər məmuru. 222, 356, 451

Nəcəfzadə, Zahid: "Müsavat" partiyasının Göyçay şöbəsinin üzvü. 224

Nərimanbəyov, Əmir bəy Nəriman bəy oğlu (1871 - ?): Araz Türk Hökumətinin rəisi, Azərbaycan Cümhuriyyəti Dövlət Müdafiə Komitəsi İşlər İdarəsinin başçısı, Bakı valisi (qubernatoru) olmuşdur. Sovet dönemində repressiyaya qurban getmişdir. 35

Nərimanov, Müzəffər Əliəkbər oğlu (1897-1938): Parlament İdarəsində kvestorun (təsərrüfat müdirinin) müavini işləmişdir. Sovet dövründə Azərbaycanda, eləcə də Azərbaycandan kənarda bir sıra rəhbər vəzifələrdə işləmişdir. Repressiyaya qurban getmişdir. 22

Nərimanov, Nəriman (1870-1925): Azərbaycanın ictimai-siyasi xadimi və dövlət adamı; eyni zamanda yazıçı, publisist və həkim. 378

Nərmi, M: Türk müəllifi; qiraət və inşad kitabları qələmə almışdır. 272

Nəsib Heydər oğlu: Tiflis quberniyası sakini. 254

Nəsibbəyzadə, Soltan bəy: müəllim. 500

Nəsir bəy: müəllim. 500

Nəsirbəyov, Nurulla bəy. 253

Nəsirov, D.: Bakıda dərzi olmuşdur. 22

Nəsrəddin Əbubəkr bin Cahan Pəhləvan: bax. Məhəmməd Cahan Pəhləvan.

Nəsrulla Bəşir oğlu (Nəsrulla bəy): Böyük Vedi kəndinin sakini. 216, 306, 470

Nəzmizadə, Mürtəza əfəndi: XVII əsrin axırları – XVIII əsrin əvvəllərində yaşamış Osmanlı tarixçisi. 257

Nikolay I (1796-1855): Rusiya imperatoru; 1825-1855-ci illərdə hakimiyyətdə olmuşdur. 453

Nikolay II (1868-1918): Rusiya imperatoru; 1894-1917-ci illərdə hakimiyyətdə olmuşdur. 35, 38, 276, 277, 314, 396, 422, 511, 548

Nitti, Françesko [Francesco Nitti; 1868-1953]: İtaliyanın siyasi xadimi. Kənd Təsərrüfatı, Ticarət və Sənaye naziri (1911-1914), Maliyyə naziri (1917-1919), Baş nazir və Daxili İşlər naziri (1919-1920) olmuşdur. 432

Novatski, Andrey-Klimentiy Fomiç (1866-?): hüquqşünas. Varşava Universitetində təhsil almış, Azərbaycanın müxtəlif yerlərində məhkəmə sistemində işləmişdir. Fövqəladə Təhqiqat Komissiyasının üzvü təyin edilmişdir. 446

Novruzov, Hüseynağa: Naxçıvan müsəlmanlarının ictimai xadimi. 189, 280

Novruzzadə, Bayram: mədən ustası; Balaxanada “Qafqaz Masis” mədənində “İttihad” partiyası şöbəsinin sədri. 304

Nurəddin Tofiq: pedaqoq və jurnalist. 625, 635

Nurizadə, Hacıağa (yaxud Hacıağa Nuri; 1894-1930): Almaniyada təhsil almışdır. Parlament İdarəsində kvestorun (təsərrüfat müdirinin) müavini işləmişdir. Cümhuriyyətin süqutundan sonra Türkiyədə yaşamışdır. 22

Nurməhəmmədzadə, Nadir. 65

Nurulla Bədəl oğlu: Lianozov mədənində prikazçik olmuşdur. 143

Nurulla Təhməz oğlu: Lianozov mədənində yağlayıcı fəhlə olmuşdur. 143

Odişelidze, İlya Zuraboviç (1865-1925): Gürcüstanın hərbi xadimi; general-leytenant. Gürcüstan ordularının Baş komandanı olmuşdur. 63

Ogüst: bax. Oktavian Avqust.

Oktavian Avqust [Octavianus Augustus; e. ə. 63 - 14]: I Roma imperatoru. E. ə. 27 - 14-cü illərdə hakimiyyətdə olmuşdur. 463, 479

Olenskaya, Yeva Nikitiçna (1900-1959): Azərbaycan aktrisası. Qubada doğulmuş, kiçik yaşda ailəsiylə birgə Bakıya köçmüşdür. “Nicat” və “Səfa” truppalarının, “Hacıbəyov qardaşları müdiriyyəti” truppasının üzvü olmuşdur. Uzun müddət Milli Dram Teatrının səhnəsində çıxış etmişdir. 1949-cu ildə Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür. 502

Orlando, Vittorio Emanuele [Vittorio Emanuele Orlando; 1860-1952]: İtaliyanın siyasi xadimi; 1917-1919-cu illərdə Baş nazir olmuşdur. 70, 266, 371, 372

Orlov, İ. P. (? - 1959): Çar ordusunun polkovniki olmuş, sonra bolşeviklərə qoşulmuşdur. Muğan hökumətində Hərbi nazir olmuşdur. 278, 578, 607

Orlova: “Milyutin” gəmisi sərnişinlərindən. 576, 605

Ormsbi-Qor, Vilyam [William Ormsby-Gore; 1885-1964]: Britaniyanın siyasi xadimi. Britaniya Parlamentinin üzvü idi. Paris Sülh Konfransındakı Britaniya heyətinin üzvü olmuşdur. 509

Ozanyan, Andranik (1865-1927): Erməni hərbçi. Daşnaksutyun partiya-sının üzvü idi. Başçılıq etdiyi silahlı dəstələr Qarabağda, Zəngəzurdə və Türkiyənin şərqində dinc əhaliyə qarşı törədilən qırğınlarda xüsusilə fəal iştirak etmişdir. 67, 200, 329

Ömər Fazil bəy. 502

Ömər Həsən oğlu: Azərbaycan əsgəri. 399

Ömər Xəyyam (1048-1131): fars şair, riyazıyyatçı və astronomu. 134

Ömər Şıxkərim oğlu: Quba sakini. 114

Ömərov: “Müsavat” partiyasının Şamaxı şöbəsinin üzvü. 224

Paderevski, İqnatsi Yan [Ignacy Jan Paderewski; 1860-1941]: Polşanın ictimai-siyasi xadimi və diplomatı; bəstəkar və pianoçu. 1919-cu ilin yanvar-noyabr aylarında Baş nazir olmuşdur. 592

Pakrat: İrandakı Amerika missioneri. 214

Palşeviç, S. P.: Ləğvetmə Komissiyasının Təsərrüfat şöbəsinin müdiri olmuşdur. 482

Palten: Riqa qubernatoru təyin edilmiş ingilis. 431

Papazyan, Vrtanes. 39

Paronyan, Arşak Arutyunoviç: Erməni Milli Şurasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdir. 223

Paşabəyov, Hüseyn bəy Əbdürrəhman bəy oğlu (1892-1972): Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. “Müsavat” partiyasının Göyçay şöbəsinin sədri olmuşdur. Göyçayda vergi müfəttişi, hakim, Bakıda prokuror köməkçisi işləmişdir. 224

Paşazadə, Camal: Parlament İdarəsində dəftərdar (qeydiyyat məmuru) olmuşdur. 22

Paşazadə, Həmid (Məşhədi Həmid): Bakıda yaşayan İranlılardan, “Müsavat” üzvü. 359

Paşe, M. V.: Bakı Neftçilər İttifaqının üzvü. 223

Paşkovski: Rus ordusunda xidmət etmiş rotmistr. 158

Pavel Zakoroyko: pəhləvan. 481, 611

Pekarski: Bakıda işləmiş polyak əsilli mühəndis. 13

Penleve, Pol [Paul Painlevé; 1863-1933]: Fransanın siyasi xadimi. 1917 və 1925-ci illərdə 2 dəfə Baş nazir olmuşdur. 26

Pepinov, Əhməd bəy (yaxud Əhməd Cövdət Pepinov; 1893-1937): Azərbaycanın ictimai-siyasi xadimi; Azərbaycan Parlamentinin üzvü olmuş, Əmək və Əkinçilik naziri vəzifəsini tutmuşdur. Sovet rejimi tərəfindən güllələnmişdir (ayrıca bax: Axıskalı). 63, 565, 588, 589, 604

Permeti, Turhan paşa [Turhan pashë Përmeti; 1839-1927]: Osmanlı dövlətinin və Albaniyanın siyasi xadimi, diplomat. 1914-cü ildə və 1918-1920-ci illərdə Albaniyanın Baş naziri olmuşdur. 11

Pernik: Bakıda həkim olmuşdur. 17, 44, 69, 96, 122, 308

Perşinq, Con [John Pershing; 1860-1948]: Amerikanın hərbi xadimi; general. 535

Pesoa, Epitasiu [Epitácio Pessoa; 1865-1942]: Braziliyanın siyasi xadimi. Paris Sülh Konfransında Braziliya heyətinin rəhbəri olmuşdur. 1919-1922-ci illərdə Braziliya prezidenti postunu tutmuşdur. 593

Peten, Henri Filipp [Henri Philippe Pétain; 1856-1951]: Fransanın hərbi xadimi. 1918-ci ildə marşal rütbəsi almış, 1934-cü ildə Hərbi nazir, 1940-cı ildə Baş nazir olmuş və Fransanın süqutundan sonra kukla Vişi rejiminin başçısı kimi avtoritar hakimiyyətini 1944-cü ilə qədər davam etdirmişdir. 26

Peyc, Tomas Nelson [Thomas Nelson Page; 1853-1922]: ABŞ yazıçısı, siyasi xadimi və diplomatı. 1913-1919-cu illərdə Amerikanın İtaliyada səfiri olmuşdur. 458

Piçikyan: kooperativçi. 553, 604

Pines: Bakıda qadın həkimi olmuşdur. 17, 44, 69, 96, 122, 308

Pirumov: Ağdamda casusluqda təqsirləndirilən erməni qadını. 182

Pişnamazzadə, Axund Məhəmməd (1853-1937): din xadimi. Təhsilini Gəncə və Təbrizdə almış, Rusiya əleyhində təbliğatda günahlandırılaraq çar rejimi tərəfindən Türküstana sürgün edilmişdir. 1909-cu ildə

Qafqaz müsəlmanlarının şeyxülislamı olmuş (bu vəzifəyə rəsmi olaraq 1915-ci ildə təsdiq edilmişdir) və 10 dekabr 1918-ci ildə səhhətinə görə öz xahişi ilə azad edilənə qədər vəzifədə qalmışdır. Maarifçilik və xeyriyyəçilik sahəsində də xidmətləri olan Pişnamazzadə 1937-ci ildə Gəncədə vəfat etmişdir. 91

Pişon, Stefan [Stéphen Pichon; 1857-1933]: Fransanın siyasi xadimi. 1906-1911-ci illərdə Xarici İşlər naziri olmuşdur. Birinci Dünya müharibəsinin sonlarında və Paris Sülh Konfransı dövründə aktiv fəaliyyəti ilə diqqəti cəlb etmişdir. 67, 291, 322

Planket, Horas [Horace Plunkett; 1854-1932]: İrlandiyanın siyasi xadimi və yazıçısı. İrlandiya Dominionu Liqinin sədri idi. 126

Plauton: İngiltərənin Ermənistandakı hərbi nümayəndəsi; polkovnik. 469

Podşibyakin, Mixail Floroviç (1883-1963): Litvada anadan olmuş, Peterburq Universitetinin Tarix-Filoloji və Hüquq fakültələrini bitirmişdir. Bakı məktəblərində işləmiş, mətbuatda çıxış etmişdir. Kadetlər partiyasının üzvü olmuşdur. Cümhuriyyətin süqutundan sonra Azərbaycanı tərk etmişdir. 105

Pokrovski, Nikolay: Azərbaycan dəmiryolunun Sumqayıt stansiyasında telefonçu işləmişdir. 157

Pokrovski, Viktor Leonidoviç (1889-1922): Rusiyanın hərbi xadimi, general-leytenant. Birinci Dünya müharibəsinin və Rusiyada Vətəndaş müharibəsinin iştirakçısı olmuşdur. 160

Poqos Nubar paşa (1851-1930): Osmanlı dövlətində yaşayan ermənilərin siyasi təşkilatı olan Erməni Millət Məclisinin və Ümumi Erməni Xeyriyyə İttifaqının sədri olmuşdur. 67, 214, 449, 450

Poladxan Lütfulla oğlu: Biləsuvar nahiyəsinin Bəylərbəyi kəndinin sakini. 14

Popov: Rusiyanın hərbi xadimi; general. 129

Popov, Nikolay Petroviç: Bakıda, İkinci Edadi məktəbinin müdiri olmuşdur. 404

Prins Səbahəddin (Məhməd Səbahəddin; 1879-1948): Türkiyənin siyasi xadimi. Anası Osmanlı sultanı Əbdülməcidin qızı idi. 538

Ptolomey: II əsrdə yaşamış astronomiya, riyaziyat və mexanika alimi. 243

Puankare, Raymon [Raymond Poincaré; 1860-1934]: Fransanın dövlət xadimi. 1912-1913-cü illərdə Baş nazir və Xarici İşlər naziri, 1913-1920-ci illərdə Prezident, 1922-1924-cü illərdə yenidən Baş nazir və Xarici İşlər naziri olmuşdur. 53, 67, 538

Puers: Pittsburq şəhəri Təmsilcilər Məclisinin üzvü. 383

Püstəxanım Hacı qızı: Bakı sakini. 221

R.: Yekaterinoslavdan gəlmiş mühəndis. 485

Rabinoviç: Bakıda fəaliyyət göstərmiş uşaq doktoru. 17, 44, 69, 96, 122, 308

Rakotin, Kiril: Azərbaycan Dəmiryollarında maşinist. 231

Rakovski, Xristian Georgiyeviç (1873-1941): Ukrayna Xalq Komissarları Sovetinin sədri (1919, 1920-1923), SSRİ-nin Britaniyada (1923-1925) və Fransada (1925-1927) səlahiyyətli nümayəndəsi olmuşdur. 126, 321, 323, 370, 409, 485

Ramazan: öz dəstəsi ilə Lənkəran və ətrafında fəaliyyət göstərmişdir. 13, 471, 606, 629

Ramazanov, Hüseyn: Astarada silahlı dəstə başçısı olmuşdur. 172, 394, 395

Ramişvili, Noy Vissarionoviç (1881-1930): Gürcüstanın dövlət xadimi. Menşevik. Ruhani seminariyasını bitirmiş, yarımçıq hüquq təhsili almışdır. Zaqafqaziya Demokratik Federativ Respublikasının Daxili İşlər naziri, Gürcüstan Demokratik Respublikasının Baş naziri, eyni zamanda Daxili İşlər naziri, daha sonra Xarici İşlər naziri olmuşdur. 59, 63

Rasizadə, Hüseyn Cavid (1882-1941): Azərbaycanın görkəmli dramaturqu, yazıçısı və şairi. 602, 624

Raşid Məhməd əfəndi (1670-1735): Osmanlı şairi və tarixçisi. 257





Razi, Əbubəkr (865-925): həkim və filosof; 200-ə yaxın əsər qələmə aldığı mənbələrdə qeyd edilir. 242

Repixa, Timofey: Buzovnalı Əliəkbər Abdullayevin dəyirmanında işləmiş rus. 169

Reytman (? - 1919): Lənkəranda bolşeviklər tərəfindən öldürülmüşdür. 253

Reznikov: Qubada meşəbəyi olmuşdur. 579

Rezul 507

Rəcəbov, Cəfər: komisyonçu; tacir. 132, 438

Rəfibəyli, Xudadad bəy (1877-1920): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətində Xalq Səhiyyə naziri vəzifəsini tutmuşdur. Gəncə qubernatoru olduğu dövrdə erməni quldurlarının dinc əhaliyə qarşı törətdikləri soyqırımın qarşısının alınmasında böyük rol oynamışdır. Cümhuriyyətin süqutundan sonra bolşeviklər tərəfindən güllələnmişdir. 91, 552

Rəfibəyov, Xudadad bəy: bax. Rəfibəyli, Xudadad bəy.

Rəfiq bəy: Türkiyənin Vyadakı səfirliyində hərbi attaşe olmuşdur. 486

Rəfiyev, Qafar: Bakı sakini. 559

Rəfiyev, Musa bəy (1888-1938): Azərbaycanın dövlət xadimi. Xarkov Universitetinin Tibb fakültəsini bitirmiş, həkim işləmişdir. Azərbaycan Milli Şurasının üzvü olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində portfelsiz nazir, Səhiyyə və Sosial Təminat naziri kimi vəzifələr tutmuşdur. Cümhuriyyətin süqutundan sonra mühacirətə getmişdir. 421

Rəhimli, İsmayıl: Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının üzvü olmuşdur. 171

Rəhimzadə, Soltan bəy: müəllim. 500

Rəhmanov, Hüseyn: Azərbaycan Dəmiryollarının dördüncü sahəsində mühafizəçi olmuşdur. 231

Rəsulov, Abutalıb: bax. Rəsulzadə, Abutalıb.

Rəsulzadə, Abutalıb: Ramana kəndinin yüzbaşısı; Kəndçilər İttifaqı Ramana şöbəsinin üzvü. 43

Rəsulzadə, Məhəmməd Əmin (1884-1955): Azərbaycanın görkəmli dövlət xadimi, Cümhuriyyətin qurucularından biri. Azərbaycan Milli Şurasının və "Müsavat" partiyasının sədri; eyni zamanda jurnalist və publisist. 3, 6, 62, 101, 392, 567, 568, 569, 626

Rəsulzadə, Səttar: Ləki sakini. 114, 133

Rəşid Rəşid oğlu: Qusarın Dostavər kəndinin sakini. 86

Ribo, Aleksandr [Alexandre Ribot; 1842-1923]: Fransanın siyasi xadimi. 1892-1917-ci illər arasında 4 dəfə Baş nazir olmuşdur. 26

Risqind R. Q.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 308, 335, 360, 400

Rits, Lyudmila Aleksandrovna: Parlament İdarəsində makina yazıçısı olmuşdur. 22

Roxlin, Abram Veniaminoviç (1881-1941): Menşeviklərin Bakı komitəsinin üzvü, Sentrokaspi Diktaturasının Ərzaq komissarı, Bakı Şəhər Bələdiyyə Şurasının üzvü. Sovet dövründə Bakıda kommunal təsərrüfatı sahəsində işləmişdir. Casusluqda təqsirləndiriləndirilərək 1939-cu ildə həbs edilmiş, 1941-ci ildə güllələnmişdir. 59

Rokinbaum: pəhləvan. 611

Romanko-Romanovski, Boris Stefanoviç (1870-1941): Rusiyanın hərbi xadimi; general-mayor. 1909-1916-cı illərdə Batum vilayətinin hərbi qubernatoru olmuşdur. Mühacirətə getmişdir. 388

Rossi, Luici [Luigi Rossi; 1867-1941]: İtaliyanın siyasi xadimi. Müstəmləkələr naziri (1919-1920), Ədliyyə naziri (1922) olmuşdur. 432

Rostovski: Bakıda, Balaxanı-Sabunçu dairəsinə 7-ci sahənin pristavı olmuşdur. 113

Roulatt, Sidney [Sidney Rowlatt; 1862-1945]: Britaniyalı hüquqşünas (vəkil və hakim); Hindistanda Birtaniya ağalığına qarşı

mübarizə hərəkatını boğmaq məqsədi daşıyan Roulatt qanununun müəllifi kimi tanınır. 150

Royter, Lüdviq fon [Ludwig von Reuter; 1869-1943]: Almaniyanın hərbi xadimi; vitse-admiral. 9, 431, 432, 457, 458

Rozenfeld: bax. Kamenev, Lev Borisoviç.

Ruben Aleksandroviç: Mirzəyev qardaşları mədənində işləmişdir. 174

Rut, Elihu [Elihu Root; 1845-1937]: ABŞ-ın siyasi xadimi. Xarici İşlər naziri, Hərbi nazir kimi vəzifələr tutmuşdur. 570

Rüfət İsmayıl oğlu: Bakıdakı türk zabitlərindən. 473

Rüstəm: Gəncə qəzasında qaçaq dəstəsi rəhbəri olmuşdur. 90

Rüstəm Nəriman oğlu. 68

Rüstəmbəyli, Şəfi bəy (1893-1960): Azərbaycanın ictimai-siyasi xadimi. Kiyev Universitetinin Hüquq fakültəsini bitirmişdir. Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, "Azərbaycan" qəzetinin redaktorlarından biri olmuşdur. 13, 55, 62, 100, 163, 181, 285, 315, 340, 342, 406, 565, 566

Rüstəmbəyov, Baxış bəy Əsəd bəy oğlu (1870-1942): Petroqrad Texnologiya İnstitutunu bitirmişdir. Abşeronda neft mədənlərində müdir və mühəndis kimi işləmiş, Azərbaycan Balıq Vətəgələri İdarəsinin müdiri olmuşdur. Cavad qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. Sovet dövründə xalq təsərrüfatının müxtəlif sahələrində çalışmışdır. 88

Rüstəmbəyov, Şəfi bəy: bax. Rüstəmbəyli, Şəfi bəy.

Rüstəmbəyzadə, Şəfi bəy: bax. Rüstəmbəyli, Şəfi bəy.

Ryabov: Muğan hökumətinin üzvü. 578, 607

Ryabovol, Nikolay Stepanoviç (1883-1919): Kazakların ictimai-siyasi xadimi; Kuban Radasının sədri olmuşdur. 76, 488

Rza bəy: Zirə kəndi sakini. 554

Rza Cövzani: İranda üsyançıların başçılarından olmuşdur. 488

Rza Tofiq (Bölükbaşı; 1869-1949): Türk şairi, filosofu və dövlət xadimi. "Filosof Rza" adıyla tanınmışdır. Osmanlı Məclisi-Məbusanının üzvü olmuşdur. 11 noyabr 1918-ci ildə iş başına gələn Əhməd Tofiq paşa hökumətində Maarif naziri olmuşdur. Paris Sülh Konfransında Osmanlı dövlətini təmsil etmişdir. Soyadı qanunundan sonra Bölükbaşı soyadını qəbul etmişdir. 272, 322

Rza Zaki: bax. Lətifbəyov, Rza.

Rzayev, Bağır (1891-1927): Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuşdur. Araz Türk Hökuməti sədrinin müavini idi. 35, 602

Sadıq: Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 393

Sadıq Həsən oğlu (Məşhədi Sadıq Hacı Həsən oğlu): Şamaxı sakini. 399

Sadıqov, Əkbər ağa Hacı Xəlil oğlu (1892-1928): Azərbaycan Cümhuriyyətinin Zakaspi Hökuməti nəzdindəki konsulu olmuşdur. 93, 98, 144

Sadıqov, Mirzə: Gədəbəy zavodunda fəhlə olmuşdur. 237

Sadıqov, Seyid Hüseyn: "Azərbaycan" qəzeti mətbəəsinin kassiri olmuşdur. 1

Sadıqzadə, M. M.: "Azərbaycan" qəzetinə Göyçaydan yazmışdır. 225

Sadovnikov: Muğan hökumətinin üzvü. 578, 607

Salar Məhəmməd: Əfqanıstan qoşunlarının Baş komandanı. 596

Salman Mümtaz Məhəmmədəmin oğlu (1884-1941): Azərbaycanın şair və ədəbiyyatşünası. Klassik poeziya və şifahi xalq ədəbiyyatı irsinin toplanması və tədqiqi sahəsində misilsiz xidmətləri olmuşdur. Sovet hakimiyyəti tərəfindən repressiyaya məruz qalmışdır. 545

Salman Zeynalabdin oğlu (Məşhədi Salman Kərbəlayi Zeynalabdin oğlu). 582





Salmanov, Qəzənfər: Şamaxılı; Parlamentin Maliyyə və Büdcə komissiyasının kargüzarı olmuşdur. 22

Saltinski, Uzun Hacı (1848-1920): Şimali Qafqazın dini, hərbi və siyasi xadimi. Dağlılar Respublikası Parlamentinin üzvü, Dağıstan və Çeçenistanın imamı olmuşdur. 325

Samorodova: Muğandakı Beşlər diktaturasının başçısı V. D. Suxorukovun arvadı. 606

Sander: Bakıda həkim olmuşdur. 17, 44, 69, 96, 122, 308

Sanders: Britaniya ordusunun zabiti; polkovnik. 66

Sanders paşa: bax. Sanders, Otto Liman fon.

Sanders, Otto Liman fon [Otto Liman von Sanders; 1855-1929]: Almaniyanın hərbi xadimi; general-leytenant. Birinci Dünya müharibəsi dövründə Osmanlı imperiyasında hərbi məsləhətçi olmuşdur. 54

Sarablı, Hüseynqulu (yaxud Hüseynqulu Rzayev; 1879-1945): Azərbaycan aktyoru. Azərbaycan Cümhuriyyətinin mədəni həyatında fəal iştirak edən Sarablının, Azərbaycan teatrının, eləcə də musiqisinin inkişafında misilsiz xidmətləri olmuşdur. 126, 171, 174, 259, 285, 585, 611

Sarabski: bax. Sarablı, Hüseynqulu.

Sardanapal: Assuriyanın mifoloji kralı. 462, 479

Sarı Hüseyn: Gəncə qəzasında qaçaq dəstəsi rəhbəri olmuşdur. 90

Sarım əs-Sultan: İran sərkərdəsi. 516

Savitski, İppolit Viktoroviç (1863-1941): Rusiyanın hərbi xadimi; general-leytenant. Rusiyada Vətəndaş müharibəsi illərində Cənubi Rusiya Silahlı Qüvvələri tərkibində Türküstan ordusunun komandiri olmuşdur. 347

Sazonov, Sergey Dmitriyeviç (1860-1927): Rusiyanın diplomatı. Bir sıra ölkələrdə səfir kimi işləmiş, 1910-1916-cı illərdə Xarici İşlər naziri olmuşdur. Rusiyanın cənubunda Xüsusi Şura Hökumətinin tərkibində yer almışdır. Mühacirətdə ölmüşdür. 386, 415, 463, 614

Senkeviç, Henrik [Henryk Sienkiewicz; 1846-1916]: əsasən tarixi romanları ilə məşhur olan Polşa yazıçısı; Nobel mükafatı laureatı. 271

Sereteli, İrakli Georgiyeviç (1881-1959): Rusiya və Gürcüstanın siyasi xadimi. Rusiya imperiyası II Dövlət Dumasının üzvü olmuşdur. Gürcüstanın müstəqillik atkını imzalayanlardan biri idi. Gürcüstan Demokratik Respublikasının və Gürcüstan Sosial-Demokrat Partiyasının liderləri arasında yer almışdır. Gürcüstan tərəfindən Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətində olmuşdur. 1921-ci ildən mühacirətdə yaşamışdır. 59

Sesil, Robert [Robert Cecil; 1864-1958]: Britaniyanın ictimai-siyasi xadimi. Millətlər İttifaqının ideoloqlarından biri olmuşdur. Millətlər İttifaqının həyata keçirilməsindəki xidmətlərinə görə 1937-ci ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. 593

Seyid Hüseyn Sadiq (1887-1938): Azərbaycan yazıçısı, müəllimi, jurnalisti və naşiri. Sovet rejimi tərəfindən güllələnmişdir. 445, 453

Seyidəlizadə, M.: Bakı İkinci gimnaziyasını bitirmişdir. 39

Seyidov: "Müsavat" partiyasının Şamaxı şöbəsinin xəzinədarı. 224

Seyidov, A.: Bakıda həkim olmuşdur. 17, 44, 69, 96, 122, 308

Seyidov, İdris: Nuxa sakini. 399

Seyidova, S.: Bakıda qadın həkimi olmuşdur. 17, 44, 69, 96, 122, 308

Seyidsəmədzadə, Mirbağır (Hacı Mirbağır). 268

Seyidzadə, Bədrəddin (yaxud Mir Bədrəddin Seyidzadə; 1882-1945): Azərbaycan şairi. 108, 363, 451, 623

Seyidzadə, Əli bəy: bax. Seyidzadə, Seyidəli bəy.

Seyidzadə, Seyidəli bəy (yaxud Əli bəy

Seyidzadə): həkim. Azərbaycan Parlamenti Qorucu bölüyünün həkimi; Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının üzvü olmuşdur. 393

Seyranyan. 147

Sədrəddin: Göyçayda kəndxuda olmuşdur. 224

Sədrəddinbəyov, Xanbaba bəy: Azərbaycan Dəmiryolu İdarəsində mühafizə müdiri olmuşdur. 157, 207, 231, 232, 334

Səfər Əli oğlu: Azərbaycan əsgəri. 399

Səfərəlibəyov, Şirin bəy Hüseyn bəy oğlu (1888-1938). 305, 306

Səfərəlibəyzadə, Baba bəy: Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 500

Səfərəlibəyzadə, Şirin bəy: bax. Səfərəlibəyov, Şirin bəy.

Səfərəliyev, Əsədulla: Ləki sakini. 133

Səfərov, Əsədulla: Ağdaş sakini. 114

Səfərov, Məmmədəli Sidqi (1888-1956): Azərbaycan publisisti, yazıçısı. 82, 97

Səfikürdlü, Ağalar bəy: bax. Səfikürdski, Ağalar bəy.

Səfikürdlü, Aslan bəy: bax. Səfikürdski, Aslan bəy.

Səfikürdski, Ağalar bəy (1890-1966): Gəncə həbsxanasının həkimi; "İttihad" partiyasının Gəncə şöbəsinin qurucularından olmuşdur. 92

Səfikürdski, Aslan bəy (yaxud Səfikürdlü, 1881-1937): Azərbaycanın dövlət xadimi. Zaqafqaziya Seyminin, Azərbaycan Milli Şurasının və Azərbaycan Parlamentinin üzvü olmuş, 3-cü hökumət kabinəsində Poçt-Teleqraf və Əmək naziri, 4-cü kabinədə Ədliyyə və Əmək naziri vəzifələrini tutmuşdur. 89

Səidov, Bədəvi (1877-1927): Dağıstan Hərbi qubernatorunun dəftərxanasının müdiri; "Dağıstan" qəzetinin redaktoru. 129

Səlimbəyli, Süleyman bəy: Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının üzvü olmuşdur. 171

Səlimbəyli, Zeynal bəy: Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının üzvü olmuşdur. 171

Səlimov, Həbib bəy (1881-1920): Azərbaycanın hərbi xadimi; general-mayor. 174, 182

Səməd bəy. 393

Səmədov: "Müsavat" partiyasının Şamaxı şöbəsinin katibi. 224

Səmədov, Rəşid bəy: Hacıqabul poçt və teleqraf şöbəsinin müdiri olmuşdur. 73

Sərdar Cədd: İranda Bəxtiyarilərin liderlərindən olmuşdur. 488

Sərdar Əsəd: İranda Bəxtiyarilərin liderlərindən olmuşdur. 488, 516

Sərdar Zəfər: İsfahan Bəxtiyarilərinin liderlərindən olmuşdur. 516

Sibt bin Cövzi (1186-1256): tarixçi alim. 242

Sidqi Ruhulla, Molla oğlu (1886-1959): Azərbaycan aktyoru və teatr xadimi. 501

Sidney: bax. Frimantl, Sidney.

Silikov, Movses Mixayloviç (yaxud Silikyan; 1862-1937): Rus ordusunun general-mayoru, Qafqaz cəbhəsində xidmət etmişdir. Daha sonra Ermənistan ordusunda xidmət etmiş, 1937-ci ildə güllələnmişdir. 80

Simko (yaxud Simko Şikaki, İsmayıl ağa Şikaki; 1887-1930): İrandakı kürdlərin liderlərindən, tayfa başçısı. 433

Sipəhdar, Fətulla xan Əkbər: 1919-1920-ci illərdə İranın Hərbi naziri, 1920-1921-ci illərdə Baş naziri olmuşdur. 28, 435

Skott, Persi [Percy Scott; 1853-1924]: Britaniya admiralı. 409

Smets, Yan Xristian [Jan Christiaan Smuts; 1870-1950]: Cənubi Afrikanın dövlət xadimi. Millətlər Cəmiyyətinin nizamnaməsinin hazırlanması prosesində iştirak etmişdir. 593

Sona xanım: Bakıda yetimxana müdirəsi olmuşdur. 377

Sonnino, Sidney [Sidney Sonnino; 1847-1922]: İtaliyanın siyasi xadimi. 1906-cı ildə və 1909-1910-cu illərdə Baş nazir olmuşdur. 1914-1919-cu illərdə Xarici İşlər naziri idi. 11, 322





Sosnin: Bakı Quberniya İdarəsi Maliyyə şöbəsinin müdiri olmuşdur. 491

Srvandzyan, Hamazasp (1873-1921): "Daşnaksutyun" partiyasının liderlərindən, erməni qatil və terrorist. Türkiyənin Van şəhərində anadan olmuşdur. Gəncə, Şuşa, Quba, Bakı və başqa yerlərdə dinc Azərbaycanlı əhaliyə divan tutmuş, minlərlə dinc sakini qətl etmişdir. Bolşeviklər tərəfindən İrəvanda həbs edilmiş, həbsxanada öldürülmüşdür. 528, 575

Staroşvili Apollon: pəhləvan. 505, 533

Suxorukov, V. D.: Eser; Muğanda yaradılan diktatura hökumətinin (Beşlər diktaturasının) başçısı olmuşdur. Ağqvardiyaçılar tərəfindən güllələnmişdir. 253, 278, 537, 576, 578, 594, 605, 606, 607

Suklyarev, Vasili İvanoviç. 170

Sulkeviç, Məryəm xanım: Bakıda müəllimə olmuşdur. 497

Sultan Əhməd şah Qacar (1898-1930): Qacar nəslindən İran şahı; 1909-1925-ci illərdə hakimiyyətdə olmuşdur. 517, 617

Sultanov, Əliqulu bəy (yaxud Əmiş bəy): Naxçıvanda Milli Şura (daha sonra Milli Komitə) sədri olmuşdur. 353

Sultanov, Əmiş bəy: bax. Sultanov, Əliqulu bəy.

Sultanov, Xosrov bəy (1879-1943): Azərbaycan Cümhuriyyətinin siyasi və hərbi xadimi. Azərbaycanın İstiqlal Bəyannaməsini imzalayanlardan biri olan Xosrov bəy Sultanov Cümhuriyyət dövründə Hərbiyyə naziri, Kənd Təsərrüfatı naziri, Qarabağ general-qubernatoru kimi vəzifələr daşımışdır. Sovet işğalından sonra mühacirət etmişdir. 41, 42, 46, 221, 273, 301, 405, 406, 630, 631, 635

Sultanzadə, Məşhədi: "Müsavat" partiyasının Sabunçu-Balaxanı mədənlər dairəsi şöbəsinin üzvü olmuşdur. 64

Suprenski: bolşevik. 615

Suşon-Sivkina: Bakıda diş həkimi olmuşdur. 17, 44, 69, 96, 122, 308

Süheyli, Əhməd: XVI əsrin axırları – XVII əsrin əvvəllərində yaşamış Osmanlı tarixçisi. 257

Sükuni, Əbu Übeyd: alim. 243

Süleyman I (Qanuni; 1494-1566): Osmanlı sultanı; 1520-1566-cı illərdə hakimiyyətdə olmuşdur. 464, 479

Süləmi, Əbdülməlik bin Həbib (790-853): müxtəlif sahələrdə çoxsaylı əsərlərin müəllifi olan alim. 242

Süyuti, Əbülfəzl (1445-1505): ilahiyyat, ərəb dili və ədəbiyyatı sahələrində çoxsaylı əsərlərin müəllfi olan alim. 242

Svaboda Ferdinand: pəhləvan. 455, 481, 585

Svatikov: Ermənilərin Zəngəzurdakı Deyç ştabının rəisi. 526

Şabanov, Rza: Bakıda yaşayan lənkəranlılardan. 88

Şah Abbas: bax. Abbas I.

Şahin Giray (1745-1787): Krım xanlığının son hökmdarı; 1777-1782-ci illərdə hakimiyyətdə olmuşdur. 462

Şahnazarov, Ruben: Şuşada müəllim olmuşdur. 210, 212, 318, 319, 340

Şahnazaryan, R.: Qarabağ ermənilərinin nümayəndəsi. 62

Şahnazaryan, Ruben Nikolayeviç: Qarabağ ermənilərindən. 183

Şahsüvarov: Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun müavini olmuşdur. 352

Şahsüvarov, Nurməmməd (yaxud Nurməhəmməd) bəy Adilxan bəy oğlu (1883-1958): Azərbaycanın və Dağıstanın maarif və dövlət xadimi. Azərbaycanın Zəngəzur qəzasında anadan olmuş, Kiyev Universitetinin Hüquq fakültəsində təhsil almışdır. Azərbaycan və Dağıstanda maarif sahəsində işləmişdir. 1918-ci ilin mayından 1919-cu ilin mayına qədər Dağlılar Respublikasının Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyətinin Maarif və Dini Etiqad nazirinin müavini, həmçinin nazir

(qısa müddət) olmuşdur. Sovet dövründə yenə maarif sahəsində fəaliyyət göstərmiş, repressiyaya məruz qalmış, 1943-cü ildə sürgündən qayıtmışdır. 624

Şahtaxtlı, Məhəmməd (1846-1931): Azərbaycan alimi və publisisti; Bakı Dövlət Universitetinin professoru. 547

Şahverən: Muğanda azərbaycanlıların silahlı dəstə başçılarından. 394, 395

Şaiq, Haşim (1882-1954): İslamı qəbul etmiş Buxara yəhudisi; Buxara kommunistlərindən və Özbəkistanda Sovet hakimiyyətini quranlardan olmuşdur. İstanbulda müəllimlər yetişdirən məktəbdə oxumuşdur. İstanbuldan Buxaraya 1918-ci ildə, Bakıdan keçərək qayıtmışdır. Buxara Xalq Sovet Respublikasında Maliyyə naziri, Xarici İşlər naziri kimi vəzifələr tutmuşdur. 1922-ci ildə Buxara Xalq Sovet Respublikasının Əfqanıstanda səfiri təyin edilmiş, mühacirətdə qalmışdır. Fars ədəbiyyatının bilicisi olan Haşim Şaiq Əfqanıstanda Maarif Nazirliyində məsləhətçi kimi işləmiş, eyni zamanda universitetdə dərs demişdir. Kabildə vəfat etmişdir. Bəzi mənbələrdə vəfat tarixi kimi 1961-ci il göstərilir. 624

Şalçı, Mirzə Rəfi. 505

Şambon, Anri de [Henru de Chambon; 1871-1955]: fransız jurnalisti. 414

Şamil Qurban oğlu: Zəngəzur sakini. 361

Şamkoryan, O.: Bakıda həkim olmuşdur. 17, 44, 69, 96, 122, 308

Şapiro-Rotman: Bakıda qadın həkimi olmuşdur. 17, 44, 69, 96, 122, 308

Şarlken: bax. Karl V (Müqəddəs Roma imperatoru).

Şattlvort, Diqbi [Digby Shuttleworth; 1876-1948]: Britaniya Hindistanı Ordusu’nun zabiti; general. 1917-1919-cu illərdə Britaniyanın Qafqazdakı 39-cu piyada briqadasının və Qara dənizdəki 83-cü piyada briqadasının komandiri olmuşdur. 129

Şaumyan, Stepan (1878-1918): Erməni əsilli bolşevik, Bakı Kommunasının lideri. Bolşeviklərin və daşnakların 1918-ci ilin mart ayında Bakıda dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımına rəhbərlik etmişdir. 575, 587

Şexter, Z. A.: Bakıda fəaliyyət göstərmiş diş həkimi. 17, 44, 69, 96, 121, 149, 176, 201, 255, 281, 309, 336, 361, 381, 399, 426, 452, 477, 503, 529, 556, 583, 607, 634

Şelkovnikov: Naxçıvandakı erməni hərbi general-qubernator. 389, 390

Şevkunov: Muğan hökumətinin üzvü; Lənkəranın komendantı; Muğanda silahlı dəstə komandiri olmuşdur. Ağqvardiyaçılar tərəfindən güllələnmişdir. 278, 394, 578, 607

Şeyx Mahmud: bax. Bərzənci, Mahmud.

Şeyxov, Nəsrulla: Tiflisdə, İrəvan Həmtorpaqlıları Cəmiyyətinin sədri olmuşdur. 33

Şeyxzamanlı, Əli Şövqi (1879-1925): Azərbaycanlı şair. Gəncədə anadan olmuş, bir müddət Bakıda işləmişdir. Gəncədə dəfn edilmişdir. 394

Şeyxzamanov, Məhəmmədbağır: bax. Şeyxzamanzadə, Məhəmmədbağır.

Şeyxzamanzadə, Məhəmmədbağır bəy Saleh bəy oğlu (1880-1920): “Müsavat” partiyasının, Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü olmuşdur. 378

Şəmsəddin Eldəniz (? - 1175): 1135-1175-ci illərdə Azərbaycan atabəyi olmuşdur. 13

Şərəfəddin bəy. 502

Şərifov, Abbas: bax. Şərifzadə, Abbas Mirzə.

Şərifov, Ağakərim: Azərbaycan süvari alayının zabiti. 222

Şərifov, Ağasəlim: Azərbaycan süvari alayının zabiti. 144, 222

Şərifzadə, Abbas Mirzə (1893-1938): Azərbaycan aktyoru. “Səfa” və “Nicat” cəmiyyətlərinin truppalarında çıxış etmiş, “Hacıbəyli qardaşları müdiriyyəti”nə rejissor kimi dəvət edilmişdir. Azərbaycan teatr sənətinin inkişafında böyük xidmətləri olmuşdur. Sovet rejimi tərəfindən repres-





siyaya məruz qalmış, güllələnmişdir. 126, 339, 404, 429, 502

Şıxəlibəyov, Asəf bəy: Azərbaycan Parlamentinin üzvü olmuşdur. Şamaxıdan seçilmişdir. “Müsavat” faksiyasına daxil idi. 392

Şıxlinski, Əliağa (1863-1943): Azərbaycanın hərbi xadimi. Rusiya imperiyası ordusunda general-leytenant rütbəsinə yüksəlmişdi. Azərbaycan Cümhuriyyəti ordusunun qurulmasında böyük xidmətləri olmuşdur. Azərbaycan Hərbi nazirinin müavini vəzifəsini tutmuşdur. 31, 78, 174, 552

Şirinbəyli, Şamil bəy: Azərbaycan Könüllü Yardım alayı Baş komandanlığının xəzinədarı olmuşdur. 171

Şirman: Dağıstanın Kizlyar şəhəri sakini; yəhudi taciri. 413

Şişəli Seyyid. 126

Şkuro, Andrey Qriqoryeviç (1887-1947): Rusiyanın hərbi xadimi, general-leytenant. Kuban kazaklarındandır. Birinci Dünya müharibəsində və Rusiyada Vətəndaş müharibəsində iştirak etmişdir. 1920-ci ildə mühacirətə getmişdir. İkinci Dünya müharibəsində Hitler Almaniyası ilə əməkdaşlıq etmişdir. İngilislər tərəfindən tutularaq SSRİ-yə təhvil verilmiş və Moskvada edam edilmişdir. 289, 485, 486, 504

Şmirqeld: Bakıda həkim olmuşdur. 17, 44, 69, 96, 122, 308

Ştal: rotmistr. 315

Ştall: Antantanın Qafqazdakı zabitlərindən. 185

Şuljenko, Nikolay Nikolayeviç: Azərbaycan Cümhuriyyəti Ərzaq nazirinin vəkili olmuşdur. 553

Şuşalı: “Azərbaycan” qəzetində imza. 576

Şuşalı Seyid: bax. Şuşinski, Seyid.

Şuşinski, Seyid (1889-1965): Azərbaycanın məşhur xanəndəsi. 174

Tabaqçı, Məhəmmədəli: bax. Əsədullazadə, Məhəmmədəli.

Taft, Vilyam Hovard [William Howard Taft; 1857-1930]: Amerikanın dövlət xadimi; 1909-1913-cü illərdə ABŞ prezidenti; 1921-1930-cu illərdə ABŞ Ali Məhkəməsinin sədri olmuşdur. 570

Tağı Şahbazi (Simurq; 1892-1938): Azərbaycan yazıçısı və pedaqoqu. İnqilabi fəaliyyətə aktiv qoşulmuş, 1926-1929-cu illərdə Universitetin rektoru olmuşdur. 511

Tağıyev, Ağazeynal: bax. Tağıyev, Zeynal.

Tağıyev, Nəsir bəy Hacı Məhəmməd oğlu (1879-1953): Şamaxıda anadan olmuşdur. Dövlət Əmanət Kassaları və Kiçik Kredit İdarəsi müdiri. Sovet dövründə Azərbaycanın Maliyyə komissarı olmuşdur. Bakıda və Moskvada bir sıra yüksək vəzifələrdə işləmişdir. Moskvada vəfat etmişdir. 456

Tağıyev, Zeynal Sadıq oğlu (Ağa Zeynal Ağa Məhəmmədsadıq oğlu; 1893-1940): Azərbaycanın siyasi xadimi; Hacı Zeynalabdin Tağıyevin nəvəsi. Petroqrad Politexnik İnstitutunu və Petroqrad Universitetinin Hüquq fakültəsini bitirmişdir. Bakı Şəhər Dumasının, “İttihad” partiyasının və Parlamentin üzvü olmuşdur. 1940-cı ildə güllələnmişdir. 198

Tağızadə: Bakı Realnı məktəbini bitirmişdir. 39

Tağızadə, İbrahim: Bakı Realnı məktəbini bitirmişdir. 39

Tahirzadə, Əziz İbrahim: Hacıbəyli Qardaşları Müdiriyyətinin Qarabağ şöbəsinin idarəçisi. 252

Tahirzadə, Rəsul bəy: Bakıda müəllim olmuşdur. 625

Taqor, Rabindranat (1861-1941): Hind yazıçısı, Nobel mükafatı laureatı. 510, 530

Talıbzadə, Abdulla Şaiq (1881-1959): Azərbaycan şairi, yazıçısı və pedaqoqu. 249, 500, 624

Talıbzadə, Müslim. 227

Talıbzadə, Yusif Ziya (1877-1923): Azərbaycanın hərbi və siyasi xadimi, pedaqoq. 62

Talışxanlı, Ağa xan: bax. Talışinski, Mirəbülfət xan Mirzaqulu xan oğlu.

Talışxanov: Hərbi Xidmətə Çağırış İdarəsinin müdiri olmuşdur. 3, 23
Talışxanov, Xanoğlan: Cümhuriyyət dövründə Bakının komendantı olmuşdur. 88
Talışxanov, İsgəndər xan Mirbağır xan oğlu (yaxud Mirisgəndər xan; 1891 - ?): Lənkəranda anadan olmuş, Kiyevdə təhsil almış, Lənkəran Türk ibtidai məktəbində işləmişdir. 88
Talışinski. 237
Talışinski, Xanoğlan: bax. Talışxanov, Xanoğlan.
Talışinski, Mirbağır xan. 395
Talışinski, Mirəbülfət xan Mirrzaqulu xan oğlu (yaxud Ağa xan; 1885-1949): Azərbaycanlı həkim. Lənkəranda anadan olmuş, Kiyevdə təhsil almışdır. Bakıda və Lənkəranda həkim işləmişdir. 87
Talışinski, Mirmehdi xan (? - 1919). 253
Tamaşaçı: "Azərbaycan" qəzetindəki imzalardan biri. 141, 248, 269, 298, 355, 391, 440, 495, 623
Tanrıverdiyev, Hidayət: "Azərbaycan" qəzetinə məktub göndərmişdir. 281
Taranov, Viktor. 232
Tarhan, Əbdülhaq Hamiq (1852-1937): Türk şair və yazıçısı. 486
Taşköprüzadə, Əhməd əfəndi (1495-1561): əsasən ilahiyyat, dil, ədəbiyyat sahəsində çoxsaylı əsərlərin müəllifi olan Osmanlı alimi. 242
Tat oğlu Həsən: Gəncə qəzasında qaçaq dəstəsi rəhbəri olmuşdur. 90, 91
"Tazə": "Azərbaycan" qəzetində imza. 60
Tedesko, Françesko [Francesco Tedesco; 1853-1921]: İtaliyanın siyasi xadimi. İctimai İşlər naziri (1903-1905, 1905-1906), Poçt və Teleqraf naziri (1905, 1913), Maliyyə naziri (1910-1911, 1911-1914, 1919-1920, 1920) olmuşdur. 432
Ter-Danielyan: Qarabağ ermənilərinin nümayəndəsi. 62, 71
Terletski: Salyanda Hərbi çağırış şöbəsinin həkimi olmuşdur. 65
Terpilo, Daniil İliç (Ataman Zelyonı; 1886-1919): Ukrayna inqilabçısı. Təşkil etdiyi silahlı dəstə ilə birgə əvvəlcə getmanlıq tərəfdarlarına və alman işğalçılarına qarşı döyüşmüş, Ukrayna Direktoriyasının hakimiyyətini qəbul etmiş, sonra Direktoriyaya qarşı çıxaraq Ukrayna bolşevikləri ilə əməkdaşlıq etmiş, nəhayət, bolşeviklərə də qarşı çıxmış və Qırmızı ordu dəstələri tərəfindən məhv edilmişdir. 507, 530
Teymurxanov, Murad: Maarif Nazirliyində idarə məmuru olmuşdur. 586
Tezicer, Frederik [Frederic Thesiger; 1868-1933]: Britaniyanın dövlət xadimi. 1916-1921-ci illərdə Hindistanın vitse-kralı və general-qubernatoru olmuşdur. 382
Təkin əfəndi: İstanbulda 1914-cü ildə nəşr edilmiş "Turan" kitabının müəllifi. 463, 479
Təkinalp, Munis (əsl adı Moiz Kohen; 1883-1961): Türkiyədə yaşamış yəhudi əsilli yazıçı və filosof. Türkçülük ideologiyasının yayılmasında rolu olmuşdur. 479
Təkinski, Məhəmməd xan (1880-1938): Azərbaycanın siyasi xadimi və diplomatı. Azərbaycan Cümhuriyyətinin Ermənistandakı siyasi nümayəndəsi (səfiri), həmçinin Azərbaycan Xarici İşlər nazirinin müavini olmuşdur. 42, 326, 330, 439, 440, 469, 494, 495
Tələbə V. O.: pəhləvan. 455, 505, 611
Tələt paşa (1874-1921): Osmanlı dövlət xadimi. İttihad və Tərəqqi cəmiyyətinin liderlərindən biri idi. Daxili İşlər naziri, Poçt və Teleqraf naziri, Baş Nazir vəzifələrini tutmuşdur. Berlində erməni terrorçusu Teyliryan tərəfindən odlu silahla vurularaq öldürülmüşdür. 301, 384, 509, 598
Tiqranyan, Sirakan Tatesoviç (1875-1947): Ermənistanın siyasi xadimi. Daşnaksutyun partiyasının üzvü. Rusiya imperiyası II Dövlət Dumasının deputatı olmuşdur. 1918-ci ilin noyabrından 1919-cu ilin aprelinə qədər Ermənistan Respublikasının Xarici İşlər naziri vəzifəsini tutmuşdur. Sonrakı dövrdə Maarif naziri, Maarif və Mədəniyyət naziri olmuşdur. 1938-ci ildə həbs edilmiş, sürgündə ölmüşdür. 15, 33, 332
Tirpitz, Alfred fon [Alfred von Tirpitz; 1849-1930]: Almaniyanın hərbi xadimi; Almaniya və Avstriya-Macarıstanın hərbi donanmalarında ən ali rütbə olan qrossadmiral rütbəsini daşımışdır. 1897-1916-cı illərdə Almaniyanın Hərbi Donanma naziri olmuşdur. 1917-ci ildə Alman Ana Vətən Partiyasının [Deutsche Vaterlandspartei] rəhbəri olmuş, daha sonra Alman Milli Xalq Partiyasına [DNVP: Deutschnationale Volkspartei] qoşulmuşdur. 233
Tittoni, Tommazo [Tommaso Tittoni; 1855-1931]: İtaliyanın siyasi xadimi və diplomatı. İngiltərə və Fransada səfir, Xarici İşlər naziri (1903-1905, 1906-1909, 1919), Daxili İşlər naziri (1905), Baş nazir (1905), Senatın Sədri (1919-1929) olmuşdur. 432, 509
Lənkəranda bolşeviklərin icra komitəsinin başçısı. 607
Trayan [Traianus; 53-117]: Roma imperatoru. 98-117-ci illərdə hakimiyyətdə olmuşdur. 463
Treskinski, A. İ.: yol mühəndisi. 413
Trotski, Lev Davidoviç (1879-1930): Rus inqilabçı, dövlət xadimi. Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti icraiyyə komitəsinin sədri, Sovet Rusiyasının Xarici İşlər naziri, Rusiya və SSRİ-nin Hərbi İnqilab Sovetinin sədri və Hərbi Komissarı olmuşdur. 288, 408
Tsentner: Bakıda qadın həkimi olmuşdur. 17, 44, 68, 95, 121, 148, 175, 202, 228, 255, 282, 308, 336, 361, 381, 399, 426, 452, 477, 503, 529, 556, 583, 607, 634
Tsimmerman, Lev Ernestoviç: Bakıda notarius olmuşdur. 302
Tomas: Amerikanın "Standart Oyl Kompani" neft şirkətinin nümayəndəsi. 85
Topçubaşov, Əlimərdan bəy (1863-1934): Azərbaycanın siyasi xadimi; Azərbaycan Cümhuriyyətinin banilərindən biri. Tiflisdə anadan olmuş, Peterburq Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rusiya müsəlmanlarının təşkilatlanmasında və siyasi həyatında müstəsna xidmətləri olmuşdur. Rusyia Dövlət Dumasının üzvü, Dumada Müsəlman fraksiyasının sədri, "Kaspi" qəzetinin redaktoru olmuşdur. Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Hökumətində portfelsiz nazir və Xarici İşlər naziri vəzifələrini tutmuş, Azərbaycan Cümhuriyyətinin Fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula ezam edilmişdir. Paris Sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinin sədri idi. Cümhuriyyətin süqutundan sonra mühacirətdə qalmış, siyasi fəaliyyətini davam etdirmişdir. Parisdə vəfat etmişdir. 13
Topçubaşov, Rza bəy (Məşhədi Rza). 330
Tolstoy, Lev Nikolayeviç (1828-1910): Rus yazıçısı və mütəfəkkiri. Rus ədəbiyyatının ən görkəmli nümayəndələrindən hesab olunur. 388
Tomson: ABŞ-ın Pittsburq şəhərində sülh məhkəməsi hakimi olmuşdur. 383
Tomson, Vilyam Montqomeri [William Montgomerie Thomson; 1877-1963]: Britaniya generalı. Bakının general-qubernatoru olmuşdur. 248, 269
Toptani, Əsad paşa (1863-1920): Osmanlı zabiti; Albaniyanın siyasi və hərbi xadimi. 1914-1916-cı illərdə Albaniyanın Baş naziri olmuşdur. 11
Tornikov, Konstantin Qriqoryeviç. 87
Trotski, Lev Davidoviç (1879-1930): Rus inqilabçı, dövlət xadimi. Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti icraiyyə komitəsinin sədri, Sovet Rusiyasının Xarici İşlər naziri, Rusiya və SSRİ-nin Hərbi İnqilab Sovetinin sədri və Hərbi Komissarı olmuşdur. 8
Tuqan-Baranovski: bax. Tuqan-Mirza-Baranovski, David İvanoviç.
Tuqan-Mirza-Baranovski, David İvanoviç (1881-1941): Rusiyanın hərbi xadimi; ge-

neral-mayor. Ağqvardiyaçılar hərəkatının iştirakçısı olmuşdur. 327
Tumanyan: Lazarev Şərq Dilləri İnstitutunun müəllimi olmuşdur. 596
Turabov, Əliabbas Nəsrulla oğlu: Bakı sakini. 121
Turhan paşa: bax. Permeti, Turhan paşa.
Türkoğlu: "Azərbaycan" qəzetində imza. 581
Turyan, Levon (1879-1933): Erməni arxiyepiskopu. İstanbulda anadan olmuş, Yunanıstan, İngiltərə, Bolqarıstan, ABŞ kimi bir sıra ölkələrdə işləmişdir. ABŞ-da daşnaklar tərəfindən öldürülmüşdür. 147
Tusi, Nəsirəddin (1201-1274): fars riyaziyyatçısı və astronomu. 134
Ulaqay, Sergey Georgiyeviç (1876-1944): Rusiyanın hərbi xadimi; general-leytenant. 485
Ulmanis, Karlis [Kārlis Ulmanis; 1887-1942]: Latviyanın siyasi xadimi. 1918-1921, 1925-1926, 1931 və 1934-1940-cı illərdə dörd dəfə Baş nazir, 1936-1940-cı illərdə həmçinin Prezident olmuşdur. 102, 123
Unas: Finlandiyanın Daxili İşlər naziri olmuşdur. 534
Usmiyev. 146
Uspenski: Bakı nahiyə məhkəməsinin üzvü olmuşdur. 350
Utvinski, S. B.: Bakıda silah zavodunun müdiri olmuşdur. 169, 180
Uzun Hacı: bax. Saltinski, Uzun Hacı.
Ümidvar: "Azərbaycan" qəzetində Ömər Faiq Nemanzadəyə məxsus imza; bax. Nemanzadə, Ömər Faiq.
Vağan (Şuşalı yepiskop). 184, 210, 212
Vani Məhəmmə bin Mustafa (Vanqulu; ? - 1592): Osmanlı alimi. 245
Vansoviç: bax. Vonsoviç, Stanislav.
Varşamyan, Gevorq: Erməni siyasətçisi. Ermənistan Parlamentinin üzvü. Erməni hökuməti tərəfindən Naxçıvana mülki general-qubernator kimi göndərilmişdir. 389, 390, 401
Vasserman: Bakıda mama-feldşer olmuşdur. 17, 44, 68, 95, 121, 148, 175, 202, 228, 255, 282, 308, 336, 361, 381, 399, 426, 452, 477, 503, 529, 556, 583, 607, 634
Vaytman: Almaniya Hərbi Qərargahının üzvü, podpolkovnik. 39
Vazeh, Mirzə Şəfi (1794-1852): Azərbaycan şairi. Eyni zamanda müəllimlik də etmişdir. Azərbaycan və fars dillərində yazmışdır. "Vazeh" təxəllüsünü işlətmişdir. 546
Vebb, Riçard [1870-1950]: Britaniya donanmasının admiralı. 1918-ci ilin sentyabr ayında Britaniyanın İstanbuldakı Ali Komissarının müavini vəzifəsinə təyin edilmişdi. 77
Venizelos, Elefterios (1864-1936): Yunanıstanın siyasi xadimi. 1910-cu ildən 1933-cü ilə qədər dəfələrlə (o cümlədən 1917-1920-ci illərdə) Baş nazir vəzifəsini tutmuşdur. 509, 538, 593, 597, 598
Vermişev, Xristofor Avvakumoviç (yaxud Vermişyants; 1863-1933): erməni ictimai xadimi. Tiflis Bələdiyyə İdarəsində bir sıra vəzifələr tutmuşdur. Bakıda rus dilində nəşr olunan "Baku" qəzetinin redaktoru olmuşdur. Ermənistanın Ərzaq naziri olmuşdur. 575
Veselovski, Aleksey Nikolayeviç (1843-1918): Rus ədəbiyyatşünası. Moskva Universitetinin və Lazarev Şərq Dilləri İnstitutunun professoru olmuşdur. 25 noyabr 1918-ci ildə vəfat etmişdir. 597
Veselovski, Yuri Alekseyeviç (1872-1919): Rus şairi və tərcüməçisi. Ədəbiyyatşünas Aleksey Nikolayeviç Veselovskinin oğlu idi. Lazarev Şərq Dilləri İnstitutunda və Moskva Universitetində təhsil almışdır. Rusiyada erməni mədəniyyətini aktiv şəkildə təbliğ etmişdir. 11 aprel 1919-cu ildə vəfat etmişdir. 597
Vesniç, Milenko [Milenko Radomar Vesnić; 1863-1921]: Serbiyanın siyasi xadimi və diplomatı. Paris Sülh Konfransında Serbiyanı təmsil etmişdir. 1920-1921-ci illərdə Xarici İşlər naziri və Baş nazir olmuşdur. 593





Vəkilov 91
Vəkilov: mühəndis; Azərbaycan Dəmiryolu idarəsində rəis işləmişdir. 157, 232
Vəkilov, Faris bəy İbrahim ağa oğlu (1886-1978): mühəndis, diplomat. Azərbaycan Cümhuriyyətinin Gürcüstanda siyasi nümayəndəsi olmuşdur. 379
Vəkilov, Mustafa bəy Nadir ağa oğlu (1896-1965): Azərbaycan Cümhuriyyətinin siyasi xadimi. Parlamentin üzvü olmuş, 1920-ci ildə Daxili İşlər naziri vəzifəsini tutmuşdur. 62, 392
Vəli Hüseyn: izmirli. 514
Vəlibəyzadə, Cavad (Hacı Cavad): Xuluq (Qusar) kənd sakini və kənd icmasının nümayəndəsi. 252, 442
Vəlixanlı, Abbasqulu: Müsəlman Zəhmətkeş Ziyalılar İttifaqının; Müsəlman Müəllimlər İttifaqının üzvü olmuşdur. 305, 474, 500
Vəlixanzadə, Abbasqulu: bax. Vəlixanlı, Abbasqulu.
Vəliyev: Dəvəçidə pristav olmuşdur. 444
Vəliyulla: "Müsavat" partiyasının Suraxanı şöbəsinin üzvü. 115
Vəlizadə, Mirzəağa: "İttihad" məktəbində türk dili müəllimi olmuşdur. 422
Vəsiləxanım Əmin qızı (Məşhədi Əmin): Bakı sakini. 380
Vətəndaş: "Azərbaycan" qəzetində imza. 420
Vəzirov, Bəhram bəy (1857-1921): Azərbaycan Cümhuriyyətinin ictimai-siyasi xadimi; hüquqşünas. Cəbrayıl qəzasından Azərbaycan Parlamentinə üzv seçilmişdir. Eyni zamanda şair olan Bəhram bəy, "Fədai" təxəllüsü ilə şeir yazmışdır. Sovet dövründə həbs edilmiş, həbsxanada ölmüşdür. 526
Vəzirov, Mirməhəmməd. 68
Vəzirov, Yusif: bax. Çəmənzəminli, Yusif Vəzir.
Vilhelm II (Wilhelm II, 1859-1941): Almaniya imperatoru, 1888-1918-ci illərdə hakimiyyətdə olmuşdur. 26, 53, 54, 104, 287, 289, 320, 344, 372, 539, 571
Villa, Fransisko [Francisco Villa; 1878-1923]: Meksika inqilabının rəhbərlərindən biri olmuşdur. 288
Vilson, Vudro (Woodrow Wilson; 1856-1924): ABŞ-ın 28-ci prezidenti (1913-1921). I Dünya müharibəsinə son qoymaq üçün sülh müqaviləsi layihəsini (Vilson prinsiplərini) işləyib hazırlamışdır. 11, 26, 28, 30, 49, 51, 53, 54, 70, 147, 266, 269, 297, 322, 343, 344, 371, 410, 415, 434, 437, 458, 487, 488, 508, 514, 537, 571, 597, 632
Vinoqradov, Mixail Nikolayeviç (1868-1960): Rusiyanın hərbi xadimi; general-mayor. Birinci Dünya müharibəsində iştirak etmiş, Oktyabr inqilabından sonra Könüllü ordu sıralarına daxil olmuşdur. 1919-cu ildə Krım-Azov qoşunlarında və Cənubi Rusiya Silahlı Qüvvələrində xidmət etmişdir. 1920-ci ildə mühacirətə getmişdir. 160, 630
Vitlak, Brend [Brand Whitlock; 1869-1934]: Amerika diplomatı. 1919-1921-ci illərdə Belçikada səfir olmuşdur. 458
Vitte, Sergey Yulyeviç (1849-1915): Rusiyanın dövlət xadimi. Nəqliyyat naziri (1892), Maliyyə naziri (1892-1903), Nazirlər Kabinetinin sədri (1903-1906) olmuşdur. 550
Viviani, Rene [René Viviani; 1863-1925]: Fransanın siyasi xadimi. 1914-1915-ci illərdə iki dəfə Baş nazir olmuşdur. 26, 543
Voksber, Qaydon: Pittsburq Şəhər Dumasının üzvü. 383
Volf, Teodor [Theodor Wolff] (1868-1943): alman yazıçısı, jurnalisti və siyasi xadimi. Birinci Dünya müharibəsindən sonra Almaniya Demokratik Partiyasının qurucuları və liderləri arasında yer almışdır. 287
Volfoviç (? - 1919): bolşevik komissarı. 597
Volodya: Bakıda oğru olmuşdur. 205, 206
Vonsoviç, Stanislav Aleksandroviç (1888-1937): Polyak Milli Komitəsindən Azərbaycan Cümhuriyyəti Parlamentinə seçilmişdir. Sovet dövründə repressiyaya məruz qalmışdır. 565, 589, 590

Vorontsov-Daşkov, İllarion İvanoviç (1837-1916): Rusiyanın dövlət xadimi. 1905-1915-ci illərdə Qafqaz canişini olmuşdur. Ermənilərə xüsusi rəğbəti ilə seçilmişdir. 314

Voyeykov, Nikolay Aleksandroviç: Cümhuriyyətdən əvvəl Bakı Xəzinə Palatasında şöbə rəisi olmuş, Cümhuriyyət dövründə Maliyyə Nazirliyi dəftərxanasının müdiri olmuşdur. 86

Vüsuqüddövlə, Mirzə Həsən xan Mirzə İbrahim xan oğlu (1868-1951): İran dövlət xadimi. 1916-1917 və 1918-1920-ci illərdə Baş nazir olmuşdur. 517

Yakobson, B. N.: Bəhri-Xəzər İstehlak Kooperasiya Cəmiyyətinin sədri. 553, 602

Yaqub Həsən Səid (1875-1940): Hindistanın siyasi xadimi. Mədrəs Qanunvericilik Şurasının, Ümumhindistan Müsəlman Liqinin, Hindistan Milli Konqresinin üzvü, Britaniya Hindistanın inzibati ərazi vahidi olan Mədrəs Prezidentliyinin İctimai İşlər naziri olmuşdur. 540

Yaqubov, Yunis: Azərbaycan Dəmiryollarının ikinci sahəsində mühafizəçi. 232

Yaqut əl-Həməvi (? - 1229): Müsəlman tarixçi və coğrafiyaşünas alimi, səyyah. 242, 244

Yank: Bakıdakı ingilis zabitlərindən; kapitan. Su nəqliyyatı şöbəsinin müdiri olmuşdur. 576, 605, 606

Yanov, Trifon (1888-1919): Ukraynanın hərbi xadimi; Ukrayna Xalq Respublikası ordusunun generalı. 288

Yarəli Sultan oğlu: Qusarın Dostavər kəndinin sakini. 86

Yasin Abdulla oğlu: Azərbaycan əsgəri. 399

Yedokov: Xersonda əksinqilabi fəaliyyətlə məşğul olmuşdur. 383

Yeganzadə, Bəhram bəy. 359

Yeganzadə, Əsgər bəy: bax. Məlikyeganzadə, Əsgər bəy.

Yekaterina II (1729-1796): Rusiya imperatriçası; 1762-1796-cı illərdə hakimiyyətdə olmuşdur. 609

Yelizarov, Pyotr Nikolayeviç: idmançı. 430, 455, 481, 505, 533, 559, 585, 611

Yemelyanov, An.: Fransanın Bakıdakı Konsulluğunun agenti olmuşdur. 525

Yenişəhərli Abdulla əfəndi (? - 1743): 1718-1730-cu illərdə Osmanlı şeyxülislamı olmuşdur. 257

Yermolayev: Muğandakı Könüllü ordu zabitlərindən; polkovnik. 395

Yermolov, Vasili Vasilyeviç (1882-1920): Rusiyada Müvəqqəti Şimal Hökumətində Olonets quberniyasının və Murmansk diyarının rəisi olmuşdur. 430

Yohanson: moskvalı professor. 597

Yolçuzadə, Bədəl: Şamaxıda müəllim olmuşdur. 497

Yudeniç, Nikolay Nikolayev (1862-1933): Rusiyanın hərbi xadimi; general. Birinci Dünya müharibəsində Qafqaz ordusunun qərargah rəisi, Rusiyada Vətəndaş müharibəsində Şimal-Qərb ordusunun komandiri olmuşdur. 30, 49, 386, 408, 571

Yurdaqul, Məhməd Əmin: bax. Məhməd Əmin.

Yurkovski, Poliyan İosifoviç: Azərbaycan Cümhuriyyətinin Ticarət, Sənaye və Ərzaq Nazirliyində işləmişdir. 481

Yusif: Suraxanının pristavı olmuşdur. 379

Yusif Ağakişi oğlu: Çənbərəkənd sakini. 68

Yusif Azadəli oğlu. 68

Yusif bəy: Lənkərandakı könüllülərin komandanı olmuşdur. 594, 595

Yusif əfəndi (Axund Yusif əfəndi): Bakıda yaşayan lənkəranlılardan. 88

Yusif Hacıbaba oğlu (Hacı Yusif): Qubanın Rustov kəndində "Müsavat" şöbəsinin sədri. 303

Yusif paşa: Osmanlı zabiti. 597

Yusif Ziya. 393

Yusifbəyli, Nəsib bəy (1881-1920): Azərbaycanın dövlət xadimi, Azərbaycan Cümhuriyyətinin qurucularından biri. Odessa Universitetinin Hüquq fakültəsində təhsil almışdır. 1917-ci ildə Gəncədə Türk Ədəmi-Mərkəziyyət Partiyasını qurmuşdur. Zaqafqaziya Seyminin yaradılmasında yaxından iştirak etmiş, Zaqafqaziya Demokratik Federativ Respublikası Hökumətində Maarif naziri olmuşdur. Azərbaycan Cümhuriyyəti Hökumətində Maliyyə və Xalq Maarifi naziri, Xalq Maarifi və Dini Etiqad naziri, Daxili İşlər naziri və Baş Nazir vəzifələrini tutmuşdur. Cümhuriyyətin süqutundan sonra qətlə yetirilmişdir. 31, 63, 113, 167, 180, 247, 260, 294, 378, 391, 404, 406, 533, 552

Yusifov, Əliheydər: Cavad qəzasının rəisi olmuşdur. 65, 446, 606

Yusifzadə, Əbdürrəhim: "Müsavat" partiyasının Balaxanı mədənləri ərazisindəki şöbəsinin katibi olmuşdur. 64, 363

Yusifzadə, Əli (1900-1937): Azərbaycanlı şair, publisist və mütəfəkkir. Şuşada doğulmuşdur. Cümhuriyyət Hökuməti tərəfindən xaricə təhsilə göndərilmişdir. 1937-ci ildə Sovet rejimi tərəfindən güllələnmişdir. 90

Yusifzadə, Əliheydər: bax. Yusifov, Əliheydər.

Yusifzadə, Rəşid: Hacıbəyli Qardaşları Müdiriyyətinin Qarabağ şöbəsinin müdiri. 252

Zadə: "Azərbaycan" qəzetində imza; bax. Səfərov, Məmmədəli Sidqi.

Zakoroyko: pəhləvan. 455

Zakoroyko Pavel: pəhləvan. 505

Zaks, S. İ.: Bakıda həkim olmuşdur. 17, 44, 97, 122, 149, 176, 201, 227, 255, 281, 308, 335, 361, 381, 400, 426

Zalov, Hacı: Hacıbəyli Qardaşları Müdiriyyətinin Qarabağ şöbəsinin mühasibəçisi. 252

Zamanov: Bakıda axtarış polis müdiri müavini olmuşdur. 334

Zamanov, Abbasqulu: Ordubadlı. 477

Zarluqin. 169

Zeydan, Corci (1861-1914): ərəb yazıçısı və publisisti. 242

Zeynalabdin Şıxəli oğlu: Böyük Vedi kəndinin kəndxudası. 216, 306, 470

Zeynallı, Hənəfi (1896-1937): Azərbaycanlı müəllim, yazıçı, tənqidçi və ədəbiyyatşünas. Bakıda anadan olmuşdur. İlk qələm təcrübələri Cümhuriyyətdən əvvəl çap edilmişdir. "Azərbaycan" qəzetində "M. Hənəfi", "M. H." imzaları Hənəfi Zeynallıya məxsusdur. Bolşevik işğalından sonra ədəbiyyatşünas kimi fəaliyyətini davam etdirmiş, xüsusilə Azərbaycan şifahi xalq ədəbiyyatını tədqiq etmişdir. Eyni zamanda ictimai həyatda yaxından iştirak edən Zeynallı, represiya qurbanı olmuş, 1937-ci ildə Bakıda güllələnmişdir. 1957-ci ildə bəraət almışdır. 90, 625

Zeynalov, Ağazeynal 1, 21

Zeynalov, Əliağa: Salyanda müəllim olmuşdur. 92

Zeynalov, Kərim: Bakı Ticarət məktəbini bitirmişdir. 39

Zeynalov, Qurban Qənbər oğlu. 476

Zeynalzadə, Kərim: bax. Zeynalov, Kərim.

Zərbəli Şeyxəli oğlu: Buzovna sakini. 17, 44, 69, 96, 121, 148, 176, 202, 228, 255, 308, 335, 360, 400

Zərgəryans: Bakıda, Remeslenni (indiki Mirəli Qaşqay) küçəsində yaşamışdır. 425

Zimin: Türküstan Hökumətinin Xarici İşlər naziri olmuşdur. 304, 346

Zinovyev, Qriqori Yevseyeviç (1883-1936): Rus inqilabçı, SSRİ-nin dövlət xadimi. Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olmuşdur. 1934-cü ildə həbs edilmiş və 1936-cı ildə güllələnmişdir. 212

Zire, Yevgeni Fyodoroviç (1866-1930): Pribaltika almanlarının nəslindən olan Zire, tibb təhsilini yarımçıq qoyaraq Peterburq Universitetinin Şərqşünaslıq fakültəsini qurtarmışdır. Daha sonra bu sahədəki karyerasına son vermiş və maliyyə sahəsində işləməyə başlamışdır. Bakı Xəzinə Palatasının müdiri olmuşdur. 85

Ziyadxanov, Adil xan (yaxud Ədil xan; 1877-1957): Azərbaycanın dövlət xadimi.

Moskva Universitetinin Hüquq fakültəsini bitirmişdir. Cümhuriyyət dövründə Xarici İşlər nazirliyində işləmiş, Azərbaycanın İranda diplomatik nümayəndəsi təyin edilmişdir. Cümhuriyyətin süqutundan sonra bir müddət İranda, daha sonra Türkiyədə yaşamışdır. 274, 490

Zlobin: Qırmızı Ordunun Hacı-Tərxandakı komandiri olmuşdur. 113

Zurabov, Arşak Gerasimoviç (1873-1920): erməni inqilabçısı, menşevik. Tiflisdə anadan olmuşdur. 575

Zuvandski, Məmməd (? - 1920): Zuvand mahalının komissarı; Muğanda quldur dəstəsi başçısı olmuşdur. 278

Zülqədərli, Lütfəli bəy: Şamaxı və Göyçayda qəza rəisi olmuşdur. 144

Zülqədərov, Lütfəli bəy: bax. Zülqədərli, Lütfəli bəy.

Korrektor: Azad Ağaoğlu
Kitab üzlüyü və tərtib: Fikrət Məlikov

**Nəşriyyat direktoru:** Rəhilə Soltanqızı
**Mətbəənin direktoru:** Zöhrab Vəlibəyli
**Texniki redaktor:** Ruslan Mahmudov

Çapa imzalanmışdır: 06.13.2024
Formatı 70x100 $^1/_{16}$. F.ç.v 30.5
Ofset kağızı, Ofset çapı. Səhifə sayı: 576
Tiraj: 300, Bakı-2024

**Hazır materiallar əsasında**
**GALAXY PRINTING MMC**
**mətbəəsində çap edilmişdir.**

ISBN 978-9952-8426-5-4